İRADƏ NURİYEVA

AZƏRBAYCAN TARİXİ

(ən qədim dövrlərdən zəmanəmizədək)

Texniki Ali məktəblər üçün dərslik
(Əlavələr olunmuş və yenidən işlənmiş beşinci nəşr)

Azərbaycan Respublikası
Təhsil Nazirinin 16.05.2019 tarixli
F-288 saylı əmri ilə təsdiq edilmişdir.

«Elm və təhsil»
Bakı – 2026

Elmi redaktor: **Anar İsgəndərov**
Milli Məclisin Elm və təhsil komitəsinin sədri,
tarix elmləri doktoru, professor

Rəyçilər: **İ.M.Hüseynova**
BDU "Qafqaz xalqları tarixi" kafedrasının müdiri,
tarix elmləri doktoru, professor
Azərbaycan Respublikasının əməkdar müəllimi

S.A.Əliyeva
DİA, "Dövlət qulluğu və kadr siyasəti" kafedrası,
siyasi elmlər doktoru, professor

T.R.Cəfiyev
ADNSU "Humanitar fənlər" kafedrası, t.e.ü.f.d., dosent

Redaktor: **N.V.Qasımova**
ADNSU "Humanitar fənlər" kafedrası,
f.e.ü.f.d., baş müəllim

Nuriyeva İradə Tofiq qızı. AZƏRBAYCAN TARİXİ (ən qədim dövrlərdən zəmanəmizədək). *Texniki Ali məktəblər üçün dərslik.*
– Bakı: Elm və təhsil, 2026, 836 səh.

Texniki Ali məktəblər üçün nəzərdə tutulan dərslik "Azərbaycan tarixi" fənni üzrə bakalavr pilləsi üçün hazırlanmış proqram əsasında tərtib edilmişdir. Dərslikdə ən qədim dövrlərdən zəmanəmizədək (2027-ci ilədək) Azərbaycan torpaqlarında cərəyan edən tarixi və siyasi proseslər tədris planında mühazirə və məşğələ üçün müəyyən olunmuş mövzular üzrə ardıcıl olaraq şərh edilmişdir.

"Azərbaycan tarixi" adlı dərslik texniki ali məktəb müəllimləri, bakalavr və magistr pillələrində bütün ixtisaslar üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

0504000000
qrifli nəşr
N-98-2026
İ.T.Nuriyeva, 2026
İSBN 978-9952-615-37-1

MÜNDƏRİCAT

GİRİŞ.....9

I fəsil. AZƏRBAYCAN QƏDİM DÖVRDƏ 13
1.Azərbaycanda ibtidai icma cəmiyyəti və onun mərhələləri.....13
2.Azərbaycan ərazisində erkən dövlət qurumları.
Manna dövləti.....22
3.Azərbaycan torpaqları Midiya və fars Əhəmənilər
dövlətlərinin tərkibində 29
4.Atropatena dövləti 31
5. Alban çarlığı antik dövrdə 34
6. Xronoloji cədvəl 39

II fəsil. AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ
(III-IX əsrlər). 44
1.III-IX əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət.
Feodal istehsal üsulunun meydana çıxması və təşəkkülü.....44
2.Atropatena və Albaniya Sasanilər dövlətinin tərkibində.....48
3.Sasani-Bizans müharibələri və Azərbaycan 50
4.Azərbaycan torpaqları Ərəb Xilafətinin tərkibində.
İslam dininin yayılması 57
5.Xürrəmilər hərəkatı. 65
6. Azərbaycan xalqının və dilinin təşəkkülü 72
7. Xronoloji cədvəl 74

III fəsil. AZƏRBAYCAN İNTİBAH DÖVRÜNDƏ
(IX-XIII ƏSRİN ƏVVƏLLƏRİ).. 80
1.Azərbaycan torpaqlarında IX-XI əsr feodal dövlətləri 80
2. Slavyanların Azərbaycana yürüşləri 86
3.Azərbaycan torpaqlarında Səlcuq türklərinin hökmranlığı.....88
4.Şirvanşahlar və Atabəylər dövlətləri 91
5.Azərbaycan intibah mədəniyyəti 97
6. Xronoloji cədvəl 103

IV fəsil. AZƏRBAYCAN XIII-XV ƏSRLƏRDƏ 108
1.Monqolların Azərbaycan torpaqlarına yürüşləri.
Hülakülər dövləti 108
2.Qızıl Orda xanı Toxtamış və Əmir Teymurun Azərbaycana
yürüşləri. Şirvanşah I İbrahim 114
3.Azərbaycan XV əsr dövlətləri 120
4.XIII-XV əsrlərdə Azərbaycan ərazisində
sosial-iqtisadi vəziyyət 133
5. Xronoloji cədvəl 141

V fəsil. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ..... 148
1.Səfəvilər dövlətinin yaranması və Azərbaycanın tarixində onun
yeri 148
2.XVI-XVII əsr Səfəvi-Osmanlı müharibələri və Azərbaycan 154
3.XVI-XVII əsrlərdə Azərbaycan torpaqlarında
sosial-iqtisadi və mədəni həyat 169
4. Xronoloji cədvəl 185

VI fəsil. XVIII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN TORPAQLARINDA İCTİMAİ VƏ SİYASİ VƏZİYYƏT 191
1.Azərbaycan Səfəvilər dövlətinin tənəzzülü və süqutu 191
2.Azərbaycan torpaqları uğrunda Rusiya, İran və Osmanlı
çəkişmələri 194
3.Azərbaycan torpaqları Nadir şahın hakimiyyəti dövründə 200
4.XVIII əsrin 30-40-cı illərində Azərbaycan ərazisində xalq
hərəkatları 203
5. Xronoloji cədvəl 206

VII fəsil. AZƏRBAYCAN ƏRAZİSİ XANLIQLAR DÖVRÜNDƏ 209
1.Azərbaycan xanlıqlarının yaranması və onların
ictimai-iqtisadi vəziyyəti 209
2.Azərbaycan xanlıqlarının qarşılıqlı münasibətləri 215
3.Azərbaycan xanlıqlarının xarici siyasi əlaqələri.
Rusiya və İranın işğalçılıq siyasətinə qarşı mübarizə 225
4. XVIII əsr Azərbaycan mədəniyyəti 232

5. Xronoloji cədvəl 239

VIII fəsil. AZƏRBAYCAN XIX ƏSRDƏ 242
1.Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi 242
2.XIX əsrin 30-40-cı illərində Azərbaycan ərazisində sosial-iqtisadi münasibətlər. Rus müstəmləkə zülmünə qarşı üsyanlar.....266
3.XIX əsrin ikinci yarısında Azərbaycan ərazisində aqrar və burjua islahatları. Kapitalist münasibətlərinin təşəkkülü.....276
4. XIX əsrdə çarizmın köçürmə siyasəti.....290
5. XIX əsr Azərbaycan mədəniyyəti.....293
6. Cənubi Azərbaycan XIX əsrin ikinci yarısında.....304
7. Xronoloji cədvəl 306

IX fəsil. AZƏRBAYCAN XX ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ (1901-1918).. 318
1.XX əsrin əvvəllərində Şimali Azərbaycanda iqtisadi və siyasi vəziyyət. Siyasi partiya və təşkilatların yaranması.....318
2.Azərbaycan I Dünya müharibəsi illərində 338
3.1917-1918-ci ilin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı 343
4.XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti. Maarif və elm 348
5.XX əsrin əvvəllərində Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatları. 1905-1911-ci illər Məşrutə inqilabı. Ş.M.Xiyabaninin başçılığı ilə demokratik və milli azadlıq hərəkatı (1917-1920-ci illər.....351
6. Urmiya faciəsi (1917-1918) - Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımıdır 358
7. Xronoloji cədvəl 364

X fəsil. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər). 374
1.Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun hakimiyyətinin bütün Şimali Azərbaycan ərazisinə bərqərar edilməsi 374

2. Milli dövlət quruculuğu. Azərbaycan parlamenti. 383
3.Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti 387
4.Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə onun yeri....396
5. Xronoloji cədvəl 399

XI fəsil. AZƏRBAYCAN XX ƏSRİN 20-30-CU ILLƏRİNDƏ. .406
1.Azərbaycanda sovet rejiminin bərqərar olması və ona qarşı üsyanlar 406
2.Azərbaycanda sovet milli siyasəti. DQMV-nin və Naxçıvan MSSR-nin təşkili 412
3.Azərbaycanda sosialist yenidənqurmaları, onların sosial-iqtisadi və siyasi nəticələri. Kütləvi repressiyalar....422
4. Azərbaycan SSR-də mədəni quruculuq....431
5. Xronoloji cədvəl 433

XII fəsil. AZƏRBAYCAN II DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ (1939-1945-ci illər).....444
1.II Dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycana dair planları....444
2.Azərbaycan döyüşçüləri döyüş cəbhələrində, antifaşist müqavimət və partizan hərəkatlarında....446
3.Faşizm üzərində qələbədə Bakı neftinin rolu 456
4.Cənubi Azərbaycan II Dünya müharibəsi dövründə 462
5. Xronoloji cədvəl 468

XIII fəsil. MÜHARİBƏDƏN SONRA AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ İNKİŞAFI (1945-1991-ci illər). 476
1.XX əsrin 40-60-cı illərində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti....476
2.Azərbaycanlıların Ermənistandan-tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası 483
3.Azərbaycan SSR XX əsrin 70-80-ci illərində. "Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi..489
4. Güney Azərbaycanı müharibədən sonrakı dövrdə....498
5.. Xronoloji cədvəl 501

XIV fəsil. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI....513

I BƏND: Dövlət müstəqilliyinin bərpa olunması və onun möhkəmləndirilməsi uğrunda mübarizə. (1991-1995-ci illər)..513

1.Qondarma "Dağlıq Qarabağ" məsələsi və onun Azərbaycanın ictimai-siyasi durumuna təsiri 513
2.Dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycan müstəqilliyin ilk illərində 517
3.Milli qurtuluş. Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gətirilməsi.....525
4.Azərbaycan Respublikasının yeni neft strategiyası. "Əsrin müqaviləsinin" imzalanması və enerji layihələri (neft, qaz, yaşıl enerji).....532

II BƏND: Azərbaycan Respublikası XX əsrin 90-cı illərinin ikinci yarısı-XXI əsrin ilk onilliklərində.....546
1.Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi 546
2.Azərbaycanda sosial-iqtisadi və mədəni dirçəliş.....555
3.Azərbaycan intibahının yeni mərhələsi 574
4.Müstəqil Azərbaycan Respublikası dünya birliyində.....597

III BƏND: Ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə II Qarabağ (Vətən) müharibəsi və onun nəticələri..

1. II Qarabağ müharibəsi – Azərbaycanın hərb tarixinin şərəfli Zəfər salnaməsidir 659
2. 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri 679
3.Ermənistanın Azərbaycanda törətdiyi humanitar fəlakət 688
4. II Qarabağ müharibəsi və beynəlxalq reaksiyası.....701
5.Prezident İlham Əliyevin Azərbaycan dövlətinin milli maraqlarına əsaslanan müstəqil siyasəti.....708
6. Şəhid ailələri və qazilərə dövlət və ümumxalq qayğısı. 719

7.Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri və “Böyük Qayıdış” proqramı.WUF13. 724
8. Xronoloji cədvəl 739

NƏTİCƏ 785
BİBLİOQRAFİYA 788

GİRİŞ

Azərbaycan Bəşər tarixinin ən qədim tarixi və maddi-mədəni irsə malik olan məskənlərindən biridir. Vətən tarixi aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən müxtəlif maddi-mədəni nümunələrin, yazılı qaynaqların, müxtəlif dövrlərdə dünya tarixçilərinin tədqiqat işlərində Azərbaycan haqqında deyilənlərin müqayisəli şəkildə öyrənilməsinin nəticəsidir.

Sovet hakimiyyəti dövründə Azərbaycan tarixi, xüsusilə Azərbaycanın qədim dövlətləri olan Manna, Atropatena və Albaniyanın tarixi, torpaqlarımızın qədim sakinlərinin etnik tərkibi, etnogenezi, sosial-iqtisadi, siyasi, mədəni tarixinin öyrənilməsi və tədqiqinin qarşısı alınırdı. Lakin bütün maneələrə baxmayaraq, Azərbaycanın tarixi qədimliyi, xalqının etnogenezi müəyyən şəkildə oyrənilirdi və ümumiləşdirilərək eimi-tarixi əsərlərdə əks olunurdu.

Müəllif tərəfindən dərslikdə Sasani və Ərəb dövlətlərinin Azərbaycan ərazisində apardıqları müharibələr və onların nəticələri, Ərəb Xilafətinin zəiflədiyi dövrdə Azərbaycan feodal dövlətlərinin yaranma tarixi, Böyük Səlcuq imperiyasının, Atabəylər dövlətinin hakimiyyətləri dövründə Azərbaycan ərazisində baş verən siyasi, iqtisadi və mədəni inkişaf, Azərbaycan xalqının və dilinin formalaşma prosesinin başa catması geniş təhlil edilmişdir.

XIII əsrdə monqolların, XIV əsrdə Əmir Teymur və Qızıl Orda xanı Toxtamışın Azərbaycan torpaqlarına işğalçı yürüşləri, XV əsrdə Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin yaranması və süqutu tarixi, Şah İsmayıl Xətainin əsasını qoyduğu Azərbaycan Səfəvilər dövlətinin Vətən tarixində müstəsna yeri, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılaraq beynəlxalq və diplomatik danışıqlarda istifadə edilməsi və başqa mühüm amillər dərslikdə öz əksini tapmışdır.

XVIII əsrin ortaları tarixdə müstəqil xanlıqların və digər feodal hökmdarlıqlarının meydana gəlməsi, İran və Rusiyanın Cənubi Qafqaza, xüsusilə Azərbaycana qarşı yeritdikləri işğalçı siyasətləri, xalqımızın yadellilərə qarşı apardıqları azadlıq mübarizəsi, mövcud dövrün siyasi, iqtisadi və mədəni həyatının inkişafı ilə yadda qalmışdır.

Dərslikdə XIX əsrin əvvəllərindən Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən ilhaq edilməsi, xalqın bu işğala qarşı mübarizəsi, dövrün sosial-iqtisadi, siyasi və mədəni tarixi araşdırılır. Bu dövrdə kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar sənayedə və kənd təsərrüfatında baş verən yeniliklər, ictimai-siyasi hadisələr, bir millət kimi xalqımızın təşəkkül tapması, milli şüurun yüksəlişi müəllif tərəfindən araşdırılaraq geniş şərh olunmuşdur.

XX əsrdə Azərbaycan türklərinə qarşı törədilən genosid, etnik təmizləmə (1918-ci il 31 mart soyqırımı, 1918-ci il Urmiya faciəsi), xalqımızın çarizmin müstəmləkəçiik siyasətinə qarşı apardığı milli-azadlıq mübarizəsi, siyasi patiya və təşkilatların yaranması, onların rəhbərliyi ilə milli dövlətçilik ideyası ətrafında xalqın bütün təbəqələrinin birləşməsi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, dövlət quruculuğu, xarici siyasəti, süqutu və Sovet hakimiyyətinin qurulması, kollektivləşdirmə, hakimiyyətdə inzibati-amirlik sisteminin fəaliyyəti nəticəsində xalqımıza qarşı həyata keçirilən repressiya siyasəti, kommunist partiyasının rəhbər mövqe tutması təqdim olunan dərslikdə elmi və siyasi nöqteyi nəzərdən təhlil edilmişdir.

XX əsr Azərbaycan xalqının müstəqillik, milli dövlətçilik uğrunda qətiyyətli mübarizəsi ilə yadda qalmışdır. Ümummilli Lider Heydər Əliyev və onun davamçısı Prezident İlham Əliyevin xidmətləri sayəsində Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpası, azadlıq mübarizəsi və respublikada baş verən digər siyasi, iqtisadi və mədəni proseslər, Müstəqil Azərbaycan Respublikasının suveren dövlət kimi beynəlxalq hüquq və normaları, qanunnamələri əsas tutaraq ərazi bütövlüyünü bərpa et-

mək üçün dünya birliyinə dəfələrlə müraciət etməsi kimi tarixi həqiqətlər dərslikdə xüsusilə vurğulanmışdır. Eyni zamanda, kitabda 2020-ci il 27 sentyabrdan 10 noyabradək (10 noyabrda Ermənistan məğlubiyyətini etiraf edib üçtərəfli kapitulyasiya aktına imza atdı) davam edən 44 günlük İkinci Qarabağ müharibəsi, Müzəffər Ali Baş Komandan, Respublika Prezidenti İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrini darmadağın edərək xalq-Ali Baş Komandan, xalq-ordu birliyi üzərində qurulan zəfər yürüşü ilə dünya hərb tarixinə yeni səhifə yazan Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi, böyük tarixi Zəfərə aparan və İkinci Qarabağ müharibəsinin taleyini həll edən, Qarabağın, daha geniş mənada, Azərbaycanın simvolu olan Şuşa şəhərinin 8 noyabrda erməni işğalından azad edilməsi, müharibə dövründə dünya dövlətlərinin və beynəlxalq təşkilatların Azərbaycanın haqlı və ədalətli mövqeyinə reaksiyası, postmüharibə dövründə yenidənqurma tədbirləri, şəhid ailələri və qazilərə dövlət və ümumxalq qayğısı, 2023-cü il 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən həyata keçirilən və 23 saat 43 dəqiqə çəkən uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suveren hüquqlarının tam bərpa olunması, regional təhlükəsizliyin təminatında Türkiyə-Azərbaycan müttəfiqliyinin rolu, Azərbaycan dövlətinin dünya birliyinin üzvü kimi tanınması, 2024-cü il noyabrın 11-dən 23-dək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına (COP29) və 2026-cı il mayın 17-dən 22-dək BMT-nin Ümumdünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi etməsi beynəlxalq səviyyədə liderliyinin nümayişi baxımından regionda söz sahibi olması öz əksini tapmışdır. Azərbaycan-Ermənistan sülh prosesində əldə olunan irəliləyiş 2026-cı il 8 avqustda Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Birgə Bəyannamənin

imzalanması və hər iki dövlətin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması ilə yeni mərhələyə keçdi. Bu, regional sülhün təşviqi, ABŞ ilə strateji əməkdaşlığın genişləndirilməsi və Cənubi Qafqazda yeni geosiyasi reallıqların möhkəmləndirilməsi baxımından Azərbaycanın xarici siyasətində mühüm hadisə hesab olunur.

Dərslikdə Azərbaycan tarixi əsasən ən qədim dövrlərdən zəmanəmizədək baş verən bütün tarixi, siyasi və iqtisadi prosesləri ümumiləşdirərək daha sadə, hər bir oxucu üçün elmi və lokanik olan, anlaşılan dildə şərh edilmişdir. Texniki ali məktərlər üçün nəzərdə tutulan "Azərbaycan tarixi" adlı dərslik ali məktəb müəllimləri, bakalavr və magistr pillələrində bütün ixtisaslar üzrə təhsil alan tələbələr üçün tövsiyə edilir.

I FƏSİL
AZƏRBAYCAN QƏDİM DÖVRDƏ

Plan:

1. Azərbaycanda ibtidai icma cəmiyyəti və onun mərhələləri.
2.Azərbaycan ərazisində erkən dövlət qurumları. Manna dövləti.
3.Azərbaycan torpaqları Midiya və fars Əhəmənilər dövlətlərinin tərkibində.
4.Atropatena dövləti.
5.Alban çarlığı antik dövrdə.

1.Azərbaycanda ibtidai icma cəmiyyəti və onun mərhələləri

Əlverişli təbii-coğrafi şəraitə, zəngin fauna və flora aləminə, mülayim iqlimə malik olan Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biri olub Yer kürəsində ibtidai insanın məskən saldığı ərazilərdən biri hesab edilir. Dünyada ilk insan qalıqları Şərqi Afrikanın Keniya və Tanzaniya ərazilərində aşkar edilmişdir və *2-3 mln il bundan əvvələ* aiddir. Azərbaycan ərazisində isə ibtidai insanların məskunlaşması *1,5 – 1,2 milyon il bundan əvvələ* aid edilir. Belə insan məskənlərinin qalıqları arxeoloji qazıntılar zamanı Qarabağda (Azıx, Tağlar mağaraları), Kəlbəcərdə (Zar mağarası), Naxçıvanda (Qazma mağarası), Qazaxda (Daşsalahlı, Damcılı mağaraları), Lerikdə (Buzeyir mağarası) aşkar edilmişdir.

Bəşər tarixinin inkişafının ilkin mərhələsi olan ibtidai-icma cəmiyyəti şərti olaraq: *Daş dövrü, Tunc dövrü və Dəmir dövrünü* əhatə edir. Daş dövrü üç dövrdən ibarətdir:

- Qədim Daş dövrü (Paleolit);
- Orta Daş dövrü (Mezolit);
- Yeni Daş dövrü (Neolit).

İbtidai icma cəmiyyətinin formalaşmasında ilk pillə olan *Qədim Daş dövrü – Paleolit* 3 mərhələyə bölünür: *Alt Paleolit, Orta Paleolit* və *Üst Paleolit.*

Alt Paleolit ilk insan tipinin yaranmasından başlayaraq *100 min il bundan əvvələ qədər* olan dövrü əhatə edir. Qarabağın Quruçay vadisində, Füzuli şəhəri yaxınlığında *Azıx* mağarasında tapılmış maddi nümunələr bu dövrə aid edilmişdir. Azıx mağarasında insan həyatı *1 milyon 200 min-1 milyon il b.ə.* başlanmışdır. İbtidai insanlar mənimsəmə təsərrüfatı ilə – yığıcılıq və ovçuluqla məşğul olurdular. Onlar kiçik qrup, dəstə halında insan "sürüsü" və ya ulu icmada birləşirdilər. Ulu icma kortəbii olaraq, təbiət hadisələri qarşısında aciz qalmamaq məcburiyyətindən yaranmışdır. Oddan istifadə və əmək alətlərinin düzəldilməsi insanların heyvanlar aləmindən ayrılmasını sürətləndirmişdir. Azıx mağarasında *700 min il b.ə.* aid olan ocaq izləri tapılmışdır – bu qədim insanların oddan istifadə etmələrini bir daha təsdiq edir. 1968-ci ildə bu mağarada ibtidai insanın *alt çənə sümüyünün* fraqmenti aşkar edilmişdir ki, bu da dünyada *4-cü tapıntı* hesab edilir. Antropoloqlar bu qədim insan tipini *"Azıxantrop"* və yaxud *"Azıx adamı"* adlandırmışlar. "Azıx adamı"nın 350-400 min il yaşı var. Azıx mağarasında tikili qalığı, müəyyən işarələr cızılmış ayı kəllələri tapılmışdır. Ayı kəllələrinin üzərindəki işarələr sadə dini ayinlərin və totemlərin (heyvanlara inam) yaranması ilə bağlıdır. Alt Paleolit dövrünün sonunda əmək alətləri: çaxmaqdaşı, bazalt və obsidiandan (vulkanik şüşədəvəgözü) hazırlanmışdır [8, s. 22].

Orta Paleolit *100 min il b.ə. - e. ə. 40-cı minilliyi* əhatə etmişdir. Bu dövr *Mustye* mədəniyyəti dövrü adlanır. Fransada yer adıdır – Orta Paleolitə aid edilən əmək alətləri ilkin burada tapılmışdır. Bu insanlar Kiçik Qafqazın cənub-şərq yamacında, Naxçıvan (Qazma), Qarabağ (Tağlar), Qazax (Damcılı) bölgələrində məskən salmışlar [9, s.12]. Orta Paleolitdə yeni insan tipi – *Neandertal adam* (Almaniyada yer adı) yaranmışdır. Onlar ovçuluqla, yem toplamaqla məşğul olurdular. Bu dövrdə ilk dəfə ola-

raq *axirət dünyasına inam* yaranmış, ovsun, heyvanlara (totemlərə), təbiət qüvvələrinə inamla bağlı dini təsəvvür formaları meydana gəlmişdir. Orta Paleolitin sonuna doğru ulu icmanı tədricən qəbilə icması əvəz etməyə başlamışdır.

Üst Paleolit *40 min il b. ə.- dən e. ə. 12 - ci minilliyə qədər* olan dövrü əhatə edir. Bu dövrün maddi mədəniyyət nümunələrinə Qarabağ və Qazax bölgələrində daha çox rast gəlinmişdir. Üst Paleolitdə Azərbaycan ərazisində ağıllı insan tipi – *"Homo Sapiyens"in* yaranması başa çatmışdır. Əmək fəaliyyətinin artması nəticəsində şüurun, düşüncənin inkişafı tədricən səsli nitqin yaranmasına səbəb olmuşdur. Bu dövrdə artıq ulu icma qan qohumluğuna əsaslanan qəbilə icması – nəsli qəbilə ilə əvəz olunmuşdur. Təsərrüfatda qadının rolu daha böyük olduğu üçün qan qohumluğu ana xətti ilə götürülürdü və buna görə də mövcud quruluş *ana xaqanlığı – matriarxat* adlanırdı [8, s. 24].

Mezolit *və ya* ***Orta Daş*** *dövrü e.ə. 12-ci minilikdən e.ə. 8-ci minilliyə qədər* olan dövrü əhatə etmişdir. Bu dövrdə ox və kaman ixtira olunmuş, insanlar qida ehtiyatlarını artırmağa və heyvanları əhliləşdirməyə nail olmuşdular. Beləliklə, *ibtidai əkinçiliyin* və *ibtidai maldarlığın* əsası qoyulmuşdur. Toplanmış yabanı bitki toxumlarının bir hissəsini ehtiyat üçün saxlayırdılar. Bu, ibtidai əkinçiliyin meydana gəlməsinə şərait yaradırdı. Beləliklə, Mezolit dövründə mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsası qoyulmuşdur [1, s. 83]. Bu dövr Qobustan abidəsinin nümunələri əsasında öyrənilmişdir. Burada insanlar təxminən e.ə. 12-ci minillikdən başlayaraq yaşamışlar, ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olmuşlar. Əmək alətləri kiçik ölçülü-mikrolit, həndəsi formalı, gəzli, üçkünc, kəsici və s. formalarda olurdular. Sümükdən biz, ox ucu, balıqçılıqda istifadə olunan alətlər düzəldilirdi. Qazaxda Damcılı mağarasında Mezolit dövrünə aid kiçik ölçülü ox ucları, müxtəlif tipli alətlər, cilalanmış dişli lövhələr tapılmışdır. Qobustan qayalarında bu dövr insanlarının ovsun-totem inamları, dini ayinləri, ov səhnələrini əks etdirən rəsmlər, qadın və müxtəlif heyvan rəsmləri təs-

vir edilmişdir. Mezolit dövründə insanlar axirət dünyasına inanırmış, dəfn zamanı ölülərin yanına məişət əşyaları qoyurmuşlar.

İstehsal təsərrüfatının təşəkkülü. ***Neolit dövrü*** e.ə. VII minilliyi əhatə etmişdir. İstehsal təsərrüfatı bu dövrdə yaranmışdır. İnsanlar maldarlıq və əkinçiliklə məşğul olmuş, saxsı qablar hazırlamış, daş alətləri cilalamağı və deşməyi öyrənmiş, toxuculuqla məşğul olmuşlar [9, s.14]. Təsərrüfatda olan bu yeniliklərə *"Neolit inqilabı"* deyilir. Əhali oturaq həyat tərzinə keçmiş, ovçuluqla, balıqçılıqla məşğul olmuşdur. Əmək alətləri çaxmaqdaşından, obsidiandan (vulkanik şüşə-dəvəgözü) hazırlanırdı. Naxçıvanda, Gəncə ətrafında, Təbriz yaxınlığında, Qobustanda, Qazax bölgəsində Neolit dövrü abidələrindən daş toxalar, oraq dişləri, çəkic, balta və lövhələrdən ibarət əmək alətləri tapılmışdır.

Eneolit dövrü *e.ə. VI-IV minillikləri* əhatə etmişdir. Bu dövrdə insanlar ilk dəfə *metalla* tanış olmuş və *misdən* alətlər hazırlamışlar. Azərbaycanda dövrün yaşayış məskənləri Gəncə-Qazax, Mil-Qarabağ, Muğan, Naxçıvan bölgələrində, Urmiya gölü ətrafında və Təbriz yaxınlığında tədqiq edilmişdir [8, s. 27-28]. Əkinçi-maldar tayfalar kiçik kəndlərlə, qəbilə icmaları halında çay kənarında, əkinçilik və maldarlıq üçün əlverişli yerlərdə yaşayırdılar. Yaşayış binaları kiçik, dairəvi formada, çiy kərpic və möhrədən tikilirdi. Evin ortasında və ya divarın yanında ocaq qurulurdu. Əhali əkinçilik, maldarlıq, balıqçılıq, dulusçuluq, daşişləmə, sümükişləmə, toxuculuq və s. məşğul olurdu. Sənətkarlar saxsı qablar, daş və sümükdən əmək alətləri, məişət və bəzək əşyaları hazırlayırdılar. Əkinçilər torpağı toxa ilə şumlayırdılar. Həmin dövr *"toxa əkinçiliyi"* dövrü adlanır. Taxıl daş oraqla biçilirdi, taxıl ehtiyatı saxsı küplərdə və quyu anbarlarda saxlanırdı. Bir neçə buğda və arpa növü əkilib becərilirdi. Heyvanların əhliləşdirilməsi nəticəsində maldarlıq inkişaf edirdi. *E.ə. V minilliyin axırlarında* Azərbaycanda ilk dəfə atın əhliləşdirilməsinə başlanmışdır. Cəlilabadda Əlikömək təpədə əhliləşdirilmiş atın sümükləri tapılmışdır. Tapılmış iy ucluqları isə toxuculuqla məşğuliyyəti sübut edir. Misdən müxtəlif əmək alətləri və bəzək əşyaları hazırlanır-

dı. Qadın müqəddəs varlıq hesab edilirdi. Tapılmış qadın heykəlləri bunu sübut edən maddi mədəniyyət qalıqları idi. Eneolit dövründə anaxaqanlığı nəslinin mövqeyi sona çatmış, icma ağsaqqalları şurası mühüm rol oynamışdır. Ölüləri yaşayış məskənində binaların arasında və evlərin içərisində basdırırdılar. İbtidai insanlar ölülərin üzərinə qan rəmzi olaraq qırmızı boya çəkir və yaxud orxa səpirdilər. Eneolitin son mərhələsində *e.ə. IV minilliyinin I yarısında* metalişləmənin inkişafı başlanmışdır.

Tunc dövrü *e.ə. IV minilliyin sonundan (Azərbaycanda e.ə. II minilliyin sonlarına qədər* davam edir**)** başlayır. Tuncun meydana gəlməsi ibtidai cəmiyyətin tələbatından doğmuşdur. Təmiz misdən hazırlanan əmək alətləri davamsız olduğu üçün misə müxtəlif qatışıqlar qatmaqla tunc əldə edildi. *Tunc* dövrü *erkən, orta* və *son* tunc dövrü mərhələlərinə bölünür. ***Erkən Tunc*** *dövrü e.ə. IV minilliyin ikinci yarısından III minilliyin sonuna qədər* davam etmişdir. Bu dövr Azərbaycanda *Kür-Araz mədəniyyəti* dövrü kimi səciyyəvidir – Qarabağ, Naxçıvan, Xaçmaz, Qazax, Şəmkir, Qobustan, Urmiya ərazisi və b. bölgələrdə tapılmış zəngin materiallar əsasında tədqiq edilmişdir [8, s. 33-34]. Yaşayış məskənləri bəzən 3-5 ha çatırdı, çay kənarında, düşməndən müdafiə olunmaq üçün əlverişli yerlərdə salınırdı, ətrafına müdafiə divarı çəkilirdi. Füzuli rayonu, Təbriz və Urmiya gölü ətrafında aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Erkən Tunc dövrünə aid olan evlər dairəvi formada, bünovrəsi çay daşından, divarları çiy kərpicdən, bəzi bölgələrdə çubuqdan hörülüb suvanmış daxmalar və yarımqazma evlər formasında tikilirdi. Dini ayinlər üçün ibadətgahlar var idi. İbadət evləri Xaçmaz rayonunda Sərkərtəpə yaşayış məskənində, Qazax rayonunda Babadərviş və Naxçıvan yaxınlığında Kültəpə yaşayış yerlərində aşkar edilmişdir. *Erkən Tunc dövründə birinci böyük ictimai əmək bölgüsü meydana gəlmiş - əkinçilik maldarlıqdan ayrılmışdır* [8, s. 35]. *Toxa* əkinçiliyi *xış* əkinçiliyi ilə əvəz olunmuşdur. Artıq süni suvarmadan istfadə edilirdi. Torpaq qoşqu heyvanları vasitəsilə şumlanırdı. Taxılın biçilməsində daş

lövhələrdən hazırlanmış oraqlarla yanaşı, tunc oraqlardan da istifadə edilirdi. Taxıl xüsusi quyularda və böyük təsərrüfat küplərində saxlanılır, həvəngdəstələr, dən daşları (kirkirə) və sürtkəclərin köməyi ilə üyüdülürdü. Maldarlığın inkişafında mühüm irəliləyişlər var idi. Maldarlığın yeni sahəsi-köçmə (yaylaq) maldarlığı meydana gəlmişdir. Artıq məhsulun alış-verişin genişlənməsinə imkan verməsi sayəsində maldar tayfalar əkinçilərə nisbətən daha tez varlanmışdılar**.** *Əmlak bərabərsizliyi* meydana gəlmişdir [1, s. 114]. Əhali sənətkarlığın dulusçuluq, metalişləmə, toxuculuq və s. sahələr ilə məşğul olmuşdur. Tuncdan əmək alətləri, silahlar, bəzək əşyaları (muncuq, qolbaq və s.) və məişət əşyaları (biz, iynə, bıçaq və s.) hazırlanmışdır. Qoyunçuluğun inkişafı toxuculuğu genişləndirmişdir. Tunc dövründə *ölülər yaşayış məskənlərindən kənarda* dəfn edilirdi. Bəzi qəbirlərin üzərində *kurqanlar* (torpaq təpələr) qurulurdu. *Ölüyandırma* və *kollektiv dəfnetmə* adəti meydana gəlmişdir. Ailədə, təsərrüfatda və ictimai həyatda kişilərin rolu artmağa başladı. Ailəyə və tayfaya artıq kişilər başçılıq edirdilər. Bundan başqa, xış əkinçiliyi və köçmə maldarlığın yaranması kişinin təsərrüfatda da rolunu artırmış və *anaxaqanlığı (matriarxat) ataxaqanlığı (patriarxat)* ilə əvəz edilmişdir [9, s. 21].

***Orta Tunc* dövrü** *e.ə. III minilliyin axırı başlamış, II minilliyin ortalarına qədər* davam etmişdir. Orta Tunc dövründə sosial və əmlak bərabərsizliyi artmış, tayfalar arasında əlaqələr genişlənmiş, iri yaşayış məskənləri yaranmışdır. Bu dövrdə ilkin şəhər mərkəzləri meydana gəlmişdir və onlar müdafiə divarları ilə əhatə olunmuşdur. Bu abidələrindən Naxçıvandakı İkinci Kültəpə, Oğlanqala, Urmiya sahilindəki Göytəpə, Qarabağdakı Üzərliktəpəni göstərmək olar. Qədim Naxçıvan şəhəri Orta Tunc dövründə – 3500 il b.ə. salınmışdır. Orta Tunc dövründə bağçılıq və bostançılıq kimi yeni təsərrüfat sahələri yaranmışdır, süni suvarmadan geniş istifadə edilirdi, taxılın döyülməsində öküz və ya at qoşulmuş daş vəllərdən istifadə edilirdi. Taxıl və un ehtiyatı saxsı küplərdə, quyularda saxlanılırdı. Üzümçülük və şərabçı-

lıq meydana gəlmişdir. Atdan minik vasitəsi və qoşqu qüvvəsi kimi istifadə edilirdi. Maldarlığın inkişafı əhalinin ət və süd məhsullarına olan tələbatını ödəməklə yanaşı, tayfalararası ticarətin artmasına şərait yaratmışdır. *Sənətkarlığın müstəqil sahəyə çevrilməsi nəticəsində ikinci böyük ictimai əmək bölgüsü-sənətkarlığın başqa istehsal sahələrindən ayrılması baş vermişdir* [8, s. 41]. Naxçıvan yaxınlığında II Kültəpədə dulusçuluq məhəlləsi və dulus sobaları tapılmışdır. Qablar naxışlarla bəzədilərkən rəngli boyalardan istifadə edilirdi. Filizçıxarma işi geniş inkişaf etmişdir. Əridilmiş metalı xüsusi qəliblərə tökərək müxtəlif əmək alətləri, silah, bəzək əşyaları hazırlayırdılar. Döymə və lehimləmə üsullarından istifadə olunurdu. Toxuculuq, sümükişləmə, gön-dəri işləmə və daşişləmə kimi sənət sahələri də inkişaf etmişdir. Ovçuluq və balıqçılıq köməkçi məşğuliyyət sahələri idi. Qəbilə və tayfalar iri tayfa ittifaqlarında birləşirdilər. İri tayfa ittifaqlarının vahid mərkəzləri var idi. Onlara nüfuzlu, varlı adamlar başçılıq edirdi. Orta Tunc dövründə *ictimai və əmlak bərabərsizliyi* daha da dərinləşmişdir. Əhalinin dini inamları, mərasim və ayinləri qəbir abidələrinin quruluşunda (daş qutular, kurqanlar, torpaq qəbirlər), dəfn adətlərində (ölülərin yandırılması, onların üzərinə qırmızı boya çəkilməsi və s.) əks olunmuşdur [1, s. 122]. Qaya təsvirlərinin bir çoxu ibtidai ovsunla bağlı idi. Saxsı qabların, metal və bəzək əşyalarının üzəri həndəsi naxışlar, heyvan və bitki rəsmləri ilə bəzədilmişdir.

Son Tunc dövrü - Erkən Dəmir dövrü. Bu dövrdə ibtidai icma quruluşu dağılmağa başlayır. ***Son Tunc dövrü e.ə. XIV-XII əsrləri, Erkən (ilk) Dəmir dövrü e.ə. XI-VIII əsrləri*** əhatə edir. Möhkəm keyfiyyətli dəmirin kəşfi, ondan hazırlanan əmək alətləri və silahlar yeni yüksəlişə səbəb oldu. Tayfa ittifaqları daha da güclənmişdir. Bu dövrə aid olan yaşayış məskənləri, qəbir abidələri (kurqanlar, daş qutular, torpaq qəbirlər), müdafiə tikililəri və siklopik (siklopik-böyük ölçülü tava daşlarından hörülmüş qalaçalar deməkdir) qalaların tədqiqi nəticəsində müəyyən edilmişdir ki, yaşayış və təsərrüfat binalarının bünövrəsi çay

daşları və ya qaya parçalarından qoyulmuş, divarları çiy kərpicdən hörülmüş, ətrafına isə müdafiə divarları çəkilmişdir. Son Tunc dövründə sənətkarlıq daha məhsuldar inkişaf etmiş, qonşu ölkələrlə mübadilə və ticarət əlaqələri genişlənmişdir. Tədricən ***ibtidai icma quruluşu dağılmış, sinifli cəmiyyət yaranmışdır*** [1, s. 166]. Təsərrüfatda yarımköçəri yaylaq maldarlığı ön plana keçmişdir. ***Maldar tayfalar*** davar və qaramal bəsləyir, ***öz ehtiyaclarından artıq qalan məhsulu əkinçilər və sənətkarlarla taxıla, əmək alətlərinə, silah və zinət əşyalarına dəyişirdilər***. Son Tunc dövründə atdan minik və qoşqu vasitəsi kimi geniş istifadə edilmişdir. Ata sitayiş ayini meydana gəlmişdir. Kurqanlarda dəvə skeletləri də tapılmışdır. Əmək alətləri təkmilləşmiş, iri suvarma kanalları çəkilmişdir. Əkinçilikdə buğda, arpa, darı və s. bitkilər becərilir, taxıl tuncdan və dəmirdən hazırlanmış oraqlarla biçilir, vəllərlə döyülür, dən daşları ilə üyüdülürdü. Üzümçülük və şərabçılıq inkişaf etmişdir. Dulusçuluq əmək fəaliyyətində xüsusi yer tuturdu. Saxsı qabların istehsalında ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə olunurdu. Ərzaq ehtiyatlarını saxlamaq üçün müxtəlif çeşidli saxsı qablar hazırlanırdı. Metalişləmədə ustalar zərbetmə, oyma, lehimləmə, həkketmə (qravüra) üsulları ilə qızıl və gümüşdən zinət əşyaları hazırlamışlar. Toxuculuq, sümükişləmə, daşişləmə, ağacişləmə, gön-dəri emalı və başqa sənət sahələri də əhəmiyyət kəsb edirdi. *E.ə II minilliyin axırı-I minilliyin əvvəllərində* ***dəmirdən*** müxtəlif əşyalar hazırlanmışdır. Sənətkarlar içərisindən ***sənətkar-tacirlər qrupu*** ayrılmışdır [1, s. 163-164]. Onlar hazır məhsulun satışı ilə məşğul olmuş, sonralar peşəkar tacirlərə çevrilmişlər. ***Tayfa başçısının*** hakimiyyətinin qüvvətlənməsi, dini və hərbi rəhbərliyin onların əlində toplanması bu şəxslərin ***ilahiləşdirilməsinə*** gətirib çıxarırdı. Belə tayfa başçıları öləndən sonra ona sitayiş olunur, onların xatirəsini əbədiləşdirmək üçün kurqanlar ucaldılırdı. Bəzən tayfa başçısının arvadını, kənizlərini və qulluqçularını öldürüb onunla birlikdə dəfn edir, sahibi ilə birlikdə atlarını da basdırıdılar. Atları yüyənli-cilovlu, müxtəlif əşyalarla bəzədilmiş halda

qəbirə qoyurdular. Bu, axirət dünyasına inam idi. Səma cisimlərinə (Aya, ulduza, Günəşə) inam dərin kök salmışdır. Azərbaycan ərazisinin zəngin filiz yataqları, cins at növləri, saysız-hesabsız heyvan sürüləri, yüksək keyfiyyətli sənətkarlıq nümunələri ticarətdə, alış-verişdə böyük rol oynamışdır. Azərbaycan tayfaları Ön Asiya şəhər dövlətlərilə geniş ticarət əlaqələri saxlayırdılar. Azərbaycanda Assuriyada istehsal olunmuş şirli gil qablar, silindrik möhürlər, silahlar, bəzək əşyaları tapılmışdır. Xocalıda üzərində Assuriya padşahının (Adadnirari) adı həkk olunmuş mixi yazılı muncuq tapılmışdır. Su yolları ilə ticarət əlaqələri çay (Kür-Araz) və dəniz (Xəzər) vasitəsilə yaradılırdı. Qobustan qayalarında həkk olunmuş müxtəlif gəmi təsvirləri buna sübutdur.

İbtidai icma quruluşunun dağılması. E.ə. II minilliyin axırı-I minilliyin əvvəllərində ***ibtidai icma quruluşunun dağılması*** *sürətlənmişdir.* Azərbaycanın cənub ərazisində ***dövlət qurumları,*** şimal hissəsində ***iri tayfa ittifaqları*** mövcud idi. ***İri tayfa ittifaqlarına*** *(Xocalı-Gədəbəy, Talış-Muğan, Naxşıvan, Qobustan-Abşeron, Quba-Xaçmaz, Şəki-Balakən bölgələrinin iri etnik birləşmələri*) ***nüfuzlu tayfa başçıları*** rəhbərlik edirdi. Tayfalar daxilində də güclü təbəqələşmə gedirdi. Əhalinin təbəqələşməsi yoxsul və varlı adamlara məxsus qəbirlərdə (kurqanlar, daş qutular, torpaq qəbirlər) daha aydın izlənilirdi. Kurqanlar ölçüsü, quruluşu və içərisinə qoyulmuş əşyaların zənginliyi ilə fərqlənirdilər. Tunc dövründə əhalinin məişətində və dünyagörüşündə əsaslı dəyişikliklər baş vermişdir. Tikinti işində məişət avadanlıqlarının çoxnövlü və yüksək bədii zövqlə hazırlanması, sitayişlə bağlı bütlərin yaranması, səma cisimlərinə, suya, ağaca, ayrı-ayrı heyvanlara və s. sitayiş izlənilirdi. Məişət əşyaları, bəzək əşyaları həndəsi naxışlarla, insan, heyvan və quş təsvirləri ilə bəzədilirdi. Qəbirlərdən çoxlu silah-nizə, ox ucluqları, xəncər, qılınc, döyüş baltası, paltar zirehləri, toppuz və s. tapılması həmin dövrdə cəmiyyətin həyatında hərb işinin mühüm yer tutduğunu göstərirdi. İri tayfa ittifaqlarının yaranması, hakimiyyə-

tin ayrı-ayrı nüfuzlu şəxslərin əlində cəmlənməsi, cəmiyyətin yoxsullara və varlılara parçalanması və s. amillər e.ə. II minilliyin axırı-I minilliyin əvvəllərində Azərbaycan ərazilərində ibtidai icma quruluşunun dağılmasını sürətləndirdi [8, s. 56-57].

2. Azərbaycan ərazisində erkən dövlət qurumları. Manna dövləti

E.ə. III minillikdə Azərbaycanın cənubunda erkən dövlət qurumları meydana gəlmişdir. Həmin dövlət qurumlarının Mesopotamiyanın şəhər dövlətləri ilə siyasi, iqtisadi və mədəni əlaqələri var idi. *E.ə. III-II minillikdə* Urmiya gölü ətrafında *lullubi, kuti, su, turukki,* Arazdan şimalda Naxçıvan və Mil-Qarabağ ərazilərində *naxç, gərgər* tayfaları və s. yaşamışlar. *Su (sub)* və *turukki (turukk)* tayfaları lullubi tayfa birliyinə daxil olmuşlar.

E.ə. III minillikdə Mesopotamiyada əvvəl Şumer şəhər-dövlətləri, sonra Akkad dövləti mövcud olmuşdur. Azərbaycan ərazisində yaranmış dövlət qurumları ən çox Mesopotamiya dövlətləri ilə hərbi münaqişələrə girməli olurdular. Azərbaycanın e.ə. III minilliyin I yarısında siyasi tarixində Aratta dövləti mühüm rol oynamışdır. Aratta hökmdarları müdrik siyasət yürüdür, öz ölkələrini müdafiə edir, Şumeri tabe etmək tədbirləri görürdülər [8, s. 61].

Lullubi dövlət qurumu. ***E.ə. III minilliyin II yarısında*** Azərbaycanın cənubunda-Urmiya gölündən cənubda yaşayan Lullubi tayfa birliyi ***e.ə. XXIII əsrdə*** dövlət qurumuna çevrilmişdir. Lullubilərin döyüş məharəti ətraf tayfalarda qorxu yaradırdı. Buna görə də Assuriyanı Nuzi şəhərində yaşayan xet və hurritlər lullubi etnik adını "düşmən", "yad" (nullu, nullax) mənasında işlədirdilər. Onlar əkinçilik və maldarlıqla məşğul olmuşlar. Lullubilər igid, cəsur tayfa kimi tanınırdılar, Mesopotamiya ilə ticarət əlaqələri saxlayır, mal mübadiləsi edirdilər. Onlar Səma, Günəş, Ay allahlarına, məhəbbət, məhsuldarlıq ilahələrinə sitayiş edirdilər. Lullubilər Mesopotamiyada olan Akkad

dövlətinin hücumlarına məruz qalırdılar. Bu hücumlar Lullubi hökmdarı Anubaninin hakimiyyəti dövründə daha da güclənmişdir. Anubaninin Akkadla mübarizədə əldə etdiyi uğurlarını onun şərəfinə ucaldılmış qələbə abidəsi – daş kitabəsi (e.ə. XXIII əsr) əks etdirirdi.

Kuti (Quti) dövlət qurumu. Kutilər Urmiya gölündən qərbdə və cənub-qərbdə yaşamışlar, *e.ə. III minilliyin II yarısında* ***Kuti (Kutium)*** dövlət qurumunu yaratmışlar. Kutilər Akkad ilə hərbi münaqişələrə girir, Şumer şəhərləri ilə müttəfiqlik edir, bəzən onların köməyinə gəlirdilər. *E.ə. XXII əsrin əvvəllərində* kutilərin hökmdarı Yarlaças Mesopotamiyaya hücum edərək Akkad dövlətini süquta uğratdı. Mesopotamiya 100 ilə yaxın kutilərin hakimiyyəti altında qaldı. Kuti dövlətinin sərhədləri şimalda Urmiya gölünün qərbindən cənubda İran körfəzinə qədər uzanırdı. Kutilərdə Şumerdə və Akkadda olan idarə sistemi mövcud idi, ölkə canişinlər tərəfindən idarə olunurdu. Şumer və Akkad gəncləri kuti qoşunlarına xidmətə cəlb olunurdular. Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazıları ilə tərtib olunurdu. Ay allahına, məhəbbət, bərəkət və məhsuldarlıq ilahələrinə sitayiş edirdilər. Onlar Şumerdə ənənəvi məbəd tikintisini davam etdirirdilər. Kutilər və hökmdarları türk mənşəli idilər [8, s. 82]. *E.ə. III minilliyin sonunda (e.ə. XXII əsrin axırlarında)* Kuti və Lullubi dövlətləri süquta uğrayaraq xırda vilayətlərə parçalandılar.

Turukki tayfa ittifaqı. ***Turukkilər*** Urmiya gölünün cənubunda yaşamışlar, Kuti və Lullubi dövlətlərinin tərkibinə daxil idilər. Bunlar süquta uğradıqdan sonra turukki tayfaları müstəqil siyasət yürüdürdülər. Onlar Mesopotamiyaya daxil olaraq, Aşağı Zab çayının (Dəclə çayının qolu) yuxarı axarında yerləşən ərazilərdə yaşayan tayfalarla ünsiyyətə girərək, həmin torpaqlarda məskunlaşmışlar. Şimalda yaranmış Assuriya dövləti bu ərazini işğal etmək üçün yürüşə başladı. Turukkilər məskunlaşdıqları torpaqları nəinki vermədilər, hətta assuriyalıların nəzarətində olan inzibati - hərbi mərkəzi Şuşarra vilayətini ələ keçirdilər.

Onların ardı-arası kəsilməyən hərbi təzyiqi Assuriyanı zəiflətmişdir. Babilistan hökmdarı Hammurapi (e.ə.1792-1750) bu hadisələrə qarışmalı oldu və həmin tayfalara qalib gəldi.

E.ə. XIV əsrin sonunda Assuriyanın qüdrəti artdı. Hökmdar I Adadnirari Azərbaycan ərazisinə bir neçə yürüş etmiş, lakin ölkənin içərilərinə girə bilməmişdir. I Salmanasarın dövründə kutilər Assuriyaya qarşı üsyan qaldırmışdılar, lakin üsyan yatırılmışdır. *E.ə. II minillikdə* qədim Azərbaycan tayfaları olan turukkilər, lullubilər, kutilər və şubarların Assuriyanın işğalçılıq siyasətinə qarşı mübarizə aparmalarına baxmayaraq, xarici düşmənlərin yürüşlərinin qarşısını almaq üçün Azərbaycan tayfalarının vahid dövlət halında birləşməsi zəruri idi.

Manna çarlığı. *E.ə. I minilliyin əvvəllərində (e.ə. IX əsrdə)* Azərbaycanın cənubunda-Urmiya gölü ətrafında Manna dövləti yaranmışdır. Manna adına ilk dəfə ***e.ə. 843-cü ildə*** *Assuriya hökmdarı III Salmanasarın mixi yazılı kitabəsində* rast gəlinir.

Manna dağlıq ölkə idi. Burada çoxlu çaylar var idi. Urmiya gölü duzlu olduğu üçün suvarmaya yaramırdı. Suvarma üçün bu çaylardan istifadə olunurdu. Əhali əkinçiliklə məşğul olurdu. Torpağı dəmir toxa və xış ilə şumlayır, taxılı dəmir oraqla biçirdilər. Bağçılıq və üzümçülük də inkişaf etmişdir. Atçılıq geniş yayılmışdır. Subi vilayəti öz atları ilə fərqlənirdi. Əhali oturaq həyat tərzi sürürdü. Təsərrüfatda dəvədən də istifadə olunurdu.

E.ə. IX əsrdə Manna ərazisində *Zamua, Gilzan, Alateye, Surikaş, Gizilbunda, Uişdiş, Zikirtu, Andia* və s. vilayətlər meydana gəlmişdir. Urmiya gölündən cənubda yerləşən Zamua əvvələr lullubilərin ölkəsi olmuşdur. *E.ə. IX əsrin I yarısında* Zamuanı ayrı-ayrı hakimlər idarə etdiklərinə görə, xarici hücumların qarşısını almaq mümkün olmurdu. Manna hökmdarları ölkəni vahid mərkəzdə birləşdirib, xarici hücumların qarşısını almağa çalışırdılar, lakin buna nail ola bilmirdilər. Mannaya qarşı Assuriyanın, həmçinin Urartu dövlətinin hücumları ara vermirdi. *E.ə. IX-VIII əsrlərdə* Manna artıq güclü bir dövlətə çevrilmişdir. Assuriya hökmdarı III Tiqlatpalasar *VIII əsrin II yarısında* Urar-

tu ilə vuruşurdu. O, Mannanın Mazamua (Zamua) vilayətini Assuriyaya birləşdirdi, Urmiya gölü hövzəsində yaşayan bir sıra tayfaları oradan köçürtdü. Assuriya, əsasən, Urartu və Midiya ilə müharibələr aparırdı. Bu dövrdə Manna Assuriyaya müttəfiq kimi baxırdı.

Mannanın hökmdarı ***İranzu (e.ə.740-719)*** Urartunun işğal etdiyi Manna torpaqlarını geri qaytardı, Manna vilayətlərini mərkəzi hakimiyyətə tabe etdirdi, ölkədə canişinlik sistemi yaratdı. Mannanın ərazisi şimalda Araz çayına çatırdı, cənubda və cənub-şərqdə Kaspi ölkəsi, Parsua və Midiya ilə həmsərhəd idi. İranzunun hakimiyyəti dövründə Manna Urmiya gölü hövzəsində qüdrətli dövlətə çevrildi [8, s. 95]. Paytaxtı İzirtu şəhəri idi. Bu dövrdə Mannanın xarici siyasətində 2 meyil var idi: İranzu özü başda olmaqla bir qrup Assuriyaya müttəfiq kimi baxır, bununla da Manna torpaqlarının bütövlyünü qoruyub saxlamağa çalışırdılar; başqa bir qrup isə Urartu ilə ittifaqa üstünlük verirdi. Onlarin siyasəti Manna hökmdarının mərkəzləşmə siyasətinə mane olurdu. Assuriyaya olan meyil Manna dövlətini Urartu işğallarından xilas etmiş və ölkənin birləşməsi üçün şərait yaratmışdır. Lakin İranzunun mərkəzləşdirmə siyasəti bəzi hakimlərin və canişinlərin xoşuna gəlmirdi. Bundan istifadə edən Urartu hökmdarı I Rusa Zikirtu vilayətinin canişini və bir sıra şəhərlərin hökmdarları ilə sazişə girdi. Onların təsiri ilə ***e.ə. 719-cu ildə*** Mannanın Şuandahul və Durdukka şəhər əhalisi İranzuya qarşı üsyan etdi. Assuriya hökmdarı II Sarqon Manna ilə ittifaqa sadiq qalaraq üsyanı yatırdı.

İranzunun vəfatından sonra onun oğlu ***Aza (e.ə.718-716)*** hakimiyyətə gəldi. ***E.ə. 716-cı ildə*** Aza sui-qəsd nəticəsində öldürüldü. Azanın ölümündən sonra onun qardaşı ***Ullusunu (e.ə.716-680)*** Manna hökmdarı oldu. Mixi yazılarına görə onun hakimiyyətə gəlməsinə Urartu hökmdarı *I Rusa* kömək etmiş və əvəzində 22 Manna qalasını almışdır. Ullusunu Assuriyadan azad olmaq üçün Urartu ilə ittifaqa girdi. Bu, Assuriya hökmdarı ***II Sarqonu*** qəzəbləndirdi və ***e.ə. 716-cı ildə*** o, Mannaya qoşun

yeritdi. Ullusunu dağlara qaçdı. II Sarqon Mannanın paytaxtını və bir neçə şəhəri yandırdı, Azanın qatillərindən birini tutub dərisini soydurdu və qorxutmaq üçün mannalılara göstərtdi. Ullusunu gəlib mərhəmət dilədi. *II Sarqon* Ullusununu hakimiyyətdə saxladı və o, Assuriyanın siyasi ağalığını tanıdı. Urartu hökmdarı I Rusa isə Mannaya qarşı təcavüzdən əl çəkmirdi. II Sarqon Ullusunu ilə ittifaqa sadiq qalaraq ***e.ə. 715-ci ildə*** Urartuya yürüş etdi və qalib gəldi. Urartu hökmdarı döyüş meydanını tərk edib qaçdı. ***E.ə. 714-cü ildə*** II Sarqon Manna, Midiya və b. ölkələrə yürüşə başladı. Ullusunu II Sarqonu təmtəraqla qarşıladı və xərac ödədi, ordunu ərzaqla təmin etdi. Ullusunu Sarqondan Urartu hökmdarı I Rusanı məğlub etməyi və əsir alınmış mannalıların geri qaytarılmasını istədi. II Sarqon bunu yerinə yetirəcəyinə söz verdi. O, mannalılarla ittifaqa böyük əhəmiyyət verirdi. II Sarqon Mannanın Uişdiş vilayətinə yürüş etdi. I Rusa məğlub olaraq Urartuya qaçdı. Bundan sonra Urartu bir daha Mannanın daxili işlərinə qarışa bilmədi. Manna qüdrətli dövlətə çevrildi.

Manna quldarlıq istehsal formasına əsaslanan dövlət olmuşdur. Dövləti hökmdar idarə edirdi. *E.ə. VIII əsrin II yarısında* hakimiyyət *irsi* olaraq atadan oğula keçirdi. Dövlətə qədim Azərbaycan türk sülaləsi başçılıq edirdi. Manna mərkəzləşdirilmiş dövlət idi, vilayətləri canişinlər idarə edirdi. Mannada ağsaqqallar şurası da fəaliyyət göstərirdi. Çox zaman Manna hökmdarları Assuriyaya meyilli siyasətə üstünlük vermiş və bununla da ölkənin ərazi bütövlüyünü qoruyub saxlamışlar. *E.ə. VII əsrin I rübündə* Qara dəniz sahillərindən hərəkət edərək Qafqaz ərazisindən keçən kimmer, skif və sak tayfaları Mannada da məskən salmışdılar. Onların gəlişi Assuriyanın sərhədlərində təhlükə yaratdı. Belə şəraitdə Manna Assuriyanın tabeliyindən çıxdı və tam müstəqil oldu. Manna hökmdarı Ahşeri müstəqil xarici siyasət yürütməyə başladı və Assuriya hökmdarı Aşşurbanipal Mannaya qoşun yeritdi. ***E.ə. 650-ci ildə*** baş verən döyüşdə ***Ahşeri*** məğlub oldu. Ahşeriyə qarşı üsyan baş verdi və o öldürüldü. Hakimiyyətə Ahşerinin oğlu Ualli gəldi və Assuriya ilə ittifaqı

bərpa etdi. ***E.ə. 593-cü ildə*** *Manna* müstəqil dövlət kimi öz varlığını qoruyub saxlayırdı. Təxminən ***e.ə. 590-cı ildə*** Manna İranın mərkəzində yaranmış Midiya dövlətinin tərkibinə daxil edildi.

Mannanın ərazisində zəngin dəmir filizi, qiymətli daş yataqları var idi. İndiki Cənubi Azərbaycan ərazisində-Həsənli qədim yaşayış məskənində daş qəliblər tapılmışdır. Əridilmiş metalı həmin qəliblərə tökərək oraq, toxa, balta, xəncər, ox ucları, dəbilqə, bəzək əşyaları və s. hazırlayırdılar. *E.ə. VIII-VII əsrlərə* aid Ziviyədə qızıl və gümüş döşlük, qılınc qınının və dəstəyinin hissələri, at qoşqu ləvazimatı, gümüş sini, buynuzvari qədəhlər, kəmər, dəmir qılınclar və s. tapılmışdır. Həsənli qazıntılarından tapılan müxtəlif parça qalıqları toxuculuqda qoyun yunundan və keçi gəzilindən istifadə edildiyini göstərir. Mannada boyaqçılıq sənəti də mövcud olmuşdur. Mannalıların geyimi: üst paltar uzun, lakin qısaqol idi, döyüşçülər isə uzun və dizə çatan libas geyirdilər.

Mannada memarlıq da inkişaf etmişdir. Mannada müdafiə qalaları və qala-şəhərlər tikilmişdir. Paytaxt olan İzirtu və b. şəhərlər qala divarları ilə əhatə olunmuşdur. Həsənli qala-şəhərində 2-3 mərtəbəli binalar, məbədlər tikilmişdir. Təsviri sənətə aid Həsənli qızıl camının üzərində maraqlı əfsanəvi səhnə təsvir olunmuşdur, Ziviyənin qızıl və gümüş qədəhləri (ritonlar) dağkeçisi, yaxud ceyran başı formasında hazırlanmışdır, bəzilərində şiri yaralayan hökmdar, dizi bükülmüş maral, dağqoçu, həyat ağacı ərafında keçi və qanadlı öküz təsvir edilmişdir [8, s. 111].

İbadət üçün tikilən binalarda-məbədlərdə allahların heykəli qoyulurdu. Manna əsatirlərində müxtəlif motivli varlıqlar (qrifon-şir bədənli, qartal qanadlı, şir və ya qartal başlı əfsanəvi heyvan, buynuzvari yay kimi əyilmiş qanadlı qoç, insan sifətli öküz, qanadlı sfinks-şir bədənli, insan başlı əfsanəvi varlıq) mühüm yer tuturdu. Həsənlidə tapılmış qızıl camın yuxarı hissəsində döyüş arabası üstündə Günəş, Ay, Külək-Yağış allahları təsvir edilmişdir [1, s. 226-227].

E.ə. III minillikdə Azərbaycanın cənubunda əhali ***mixi yazısı*** ilə tanış idi. Ziviyədə tapılmış gümüş sini üzərində bir çox işarələr (heroqlif yazı növü) həkk olunmuşdur. Mannada türk, hürri, İran dilləri və s. işlənirdi. Hökmdarların adları da türk sözləri ilə izah olunur. Aza-"böyük qardaş", Ullusunu-ullu-ulu-"böyük, ulu, əzəmətli", "sun"-sifət şəkilçisi, yəni "ən böyük", "ən ulu", "ulu adam". Beləliklə, Mannada əhalinin əsas dili ***ən qədim türk dili*** olmuşdur.

Skif çarlığı. *E.ə. VII əsrin əvvəllərindən başlayaraq* ***kimmer, skif*** və ***sak tayfaları*** qədim Azərbaycan ərazisinə, Ön Asiyaya yürüşlər etmişlər. Şimali Qafqazın qərb hissəsi kimmerlərin ilkin məskəni sayılır. Skiflər *e.ə. VIII əsrdə* Qara dənizin şimalında və Krım yarımadasında da yaşamışlar. E.ə. VII əsrin əvvəllərində Skiflər (iskitlər) Ön Asiyaya yürüş edərkən Azərbaycanın şimal ərazilərində, Urmiya gölünün qərbində və şimalında məskən salmışlar.

Kimmerlər də Mannanın hüdudlarına gəlmişlər, mannalılar kimmerlər və skiflərlə ittifaqa girmişlər. Azərbaycanda kimmerlərlə bağlı Qımır və Qımırlı (Zaqatala), Kəmərli (Qazax), Qəmərli yer adları qalmışdır.

Saklar Urmiya gölünün şimalına qədər olan ərazidə məskunlaşmışlar. Arazla Kürün qovuşduğu ərazidə də saklar yaşamışlar. Bura Balasakan (türkcə bala "çöl", "düz"), yəni "Sak düzü" adlanırdı. İndiki Bərdədən Qafqaz dağlarına qədər ərazidə sakasinlər-"saka bənzərlər" yaşamışlar. Saklara massaqetlər də deyirdilər [8, s. 104].

Azərbaycan ərazisində-Urmiyadan şimalda və qərbdə kimmer, skif və sak tayfaları məskunlaşdığı ərazidə-Manna ilə Urartu arasında Skif padşahlığı yaranmışdır. *E.ə. VII əsrin ortalarında* bu padşahlığın hökmdarı Tuqdamme Sak və Kuti ölkələrinin (Azərbaycanın cənubu) hökmdarı rütbəsini də daşıyırdı. *E.ə. VI əsrin əvvəllərində* Midiya ilə rəqabət apara bilməyən Skif padşahlığı tənəzzülə uğradı. Azərbaycanda qazıntılar zamanı skiflərin mədəniyyəti üçün səciyyəvi olan silahlar (ox və nizə ucluqları, qılınclar),

tunc güzgülər və s. tapılmışdır. Skif silahları daha mükəmməl olduğundan onlardan bir çox tayfalar, o cümlədən qədim Azərbaycan tayfaları da istifadə edirdilər.

3. Azərbaycan torpaqları Midiya və fars Əhəmənilər dövlətlərinin tərkibində

Midiya dövləti İranın mərkəzində meydana gəlmişdir. Mannadan cənub-şərqdə yerləşirdi. Adı mixi yazılarda Maday, Matay, Amaday şəklində verilmişdir. Yunan mənbələri Midiya şəklində yazmışlar. Midiya ərazisi *e.ə. IX-VIII əsrlərdə* xırda vilayət hakimləri tərəfindən idarə edilirdi**.** *E.ə. IX əsrin 2-ci yarısında* Assuriya hökmdarları Midiyaya yürüşlər edərək, onu məğlub etdilər. *E.ə. VIII əsrin 2-ci yarısında* belə yürüşlər çoxalmışdır: III Tiqlatpalasar Midiyadan xərac alırdı, II Sarqon isə Midiya ərazisini işğal edib Mannaya tabe etdirdi.

E.ə. VIII əsrin sonunda Midiyada vahid dövlət yaradılmışdır. Rəvayətə görə, Deyok Ekbatan (indiki Həmədan) şəhərini saldırmış və onu Midiya dövlətinin paytaxtı elan etmişdir. ***E.ə. 672-ci ildə Fraorta Kaştaritinin (e.ə.672-653)*** başçılığı ilə Midiya Assuriyanın tabeliyindən çıxmış və müstəqil dövlətə çevrilmişdir. ***E.ə. VII əsrin 50-ci illərində*** *Kaştariti* Assuriyaya yürüş etmiş, lakin skiflərin köməyi ilə assuriyalılar tərəfindən məğlub edilərək həlak olmuşdur. ***E.ə. 653-625-ci illər*** *Midiya* skiflərin hakimiyyəti altına düşdü. ***Kiaksar (e.ə. 625-585)*** skif ağalığına son qoyub, daxili qüvvələri birləşdirdi və Assuriyaya qarşı müharibəyə hazırlaşdı. O, Midiya ordusunu yenidən təşkil etdi, yeni Babilistan dövləti ilə ittifaqa girdi. Babilistan hökmdarı Nabupalasar cənubdan, Kiaksar isə şərqdən Assuriyaya hücum etdi**.** ***E.ə. 616-612-ci illərdə*** birləşmiş qüvvələr Assuriyanın Aşşur, Arbela, Kalat şəhərlərini, paytaxt Nineviyanı tutdular və dağıtdılar. ***E.ə. 605-ci ildə*** *Assuriya* süqut etdi, torpaqları Midiya və Babilistan arasında bölüşdürüldü.

Kiaksar bu qələbədən sonra Egey dənizinin sahilinə çıxmaq məqsədilə Lidiya dövlətinə qarşı müharibəyə hazırlaşdı. O, ilk növbədə Urartunun müstəqilliyinə son qoydu, Mannanı Midiyanın tərkibinə qatdı. Manna Midiyadan bir neçə yüz il əvvəl yarandığından, o, Midiyanın ən çox inkişaf etmiş vilayəti idi. Kiaksarın hakimiyyəti dövründə Midiya Ön Asiyanın qüdrətli dövlətinə çevrildi. Kiaksarın vəfatından sonra hakimiyyətə gələn oğlu ***Astiaqın (e.ə. 585-550)*** hakimiyyətinin son illərində Midiyanın daxili və xarici vəziyyəti mürəkkəbləşdi. Hökmdar ilə zadəganlar arasında ziddiyyətlər artdı. Bir qrup əyan fars vilayətinin hakimi II Kir ilə gizli sazişə girdi. II Kirin ordusu Astiaq ilə müharibəyə başladı və 3 ildən sonra qələbə çaldı. ***E.ə.550-ci ildə*** *Midiya dövləti* süqut etdi [1, s. 257].

Fars Əhəməni dovləti. ***II Kir (e.ə.559-530)*** Midiyanı işğal etdikdən sonra ***Əhəməni fars dövlətinin*** əsasını qoydu. Əhəmənilər sülaləsindən olan II Kir özünü Midiya şahı elan etdi. Əhəməni dövlətinin paytaxtı Ekbatan şəhəri oldu. II Kir bir neçə il ərzində Midiyanın bütün ərazisini, Babilistanı, Anadoluda Lidiya dövlətini işğal etdi. Misirə qədər Qərb ölkələri Əhəmənilərə tabe idi. II Kir ***e.ə. 530-cu ildə*** Araz çayı yaxınlığında köçəri massaqet tayfaları ilə döyüşdə məğlub edilərək öldürüldü. Sakmassaqet tayfaları Orta Asiyada və Şimali Azərbaycanda yaşayırdılar. II Kirin oğlu ***II Kambiz (e.ə.530-522)*** Misiri işğal etdi. Kambiz Misirdə olarkən, ***e.ə. 522-ci ildə*** İranda dövlət çevrilişi olmuşdur, Qaumata adlı bir maq özünü Kirin oğlu Bardi kimi qələmə vermiş və Əhəməni taxt-tacını ələ keçirmişdir. Əhəmənilər nəslinin nümayəndəsi tərəfindən Qaumatanın yalançı Bardi olduğu bildirilmiş və ona qarşı sui-qəsd təşkil edərək öldürmüşlər. Beləliklə, ***I Dara (e.ə.522-486)*** hakimiyyətə gəlir. ***E.ə. 522-521-ci illərdə*** Əhəməni dövlətinin tərkibində üsyanlar baş vermiş, lakin yatırılmışdır. I Dara Əhəməni imperiyasını 20 satraplığa (canişinliyə) bölmüşdür. Azərbaycan əhalisi Əhəməni dövlətinə vergi verirdi və onun ordusunu müharibə zamanı hərbi dəstələrlə təmin edirdi. ***Makedoniyalı İsgəndər (e.ə.336-323)***

yürüşü zamanı Əhəməni imperiyasına dağıdıcı həmlələr etmişdir. ***E.ə. 331-ci ildə*** Şimali Mesopotamiyada ***Qavqamel*** adlı yerdə ***III Dara*** məğlub olaraq [1, s. 268] imperiyanın Şərq hissəsinə qaçır və ***e.ə. 330-cu ildə*** yolda öz adamı *Bes* tərəfindən öldürülür. Beləliklə, Əhəmənilər imperiyasına son qoyulur. Makedoniyalı İsgəndər Balkan yarımadasından Hindistana qədər əraziləri (Azərbaycanın cənubu da) əhatə edən böyük imperiya yaradır.

4. Atropatena dövləti

E.ə. 328-ci ildə Makedoniyalı İsgəndər ***Atropatı*** Midiyanın satrapı (canişini) təyin etdi. İsgəndər Hindistanda olarkən Bariaks adlı biri üsyan qaldırmış, özünü İranın və Midiyanın padşahı elan etmişdir. Atropat üsyanı yatırmış, Bariaksı əsir götürərək İsgəndərə təhvil vermiş və İsgəndər onu edam etdirmişdir. Bununla Atropat İsgəndərin hörmətini qazanmışdır. O, qızını İsgəndərin ən nüfuzlu sərkərdəsi olan Perdikkiyə ərə verdikdən sonra isə mövqeyini daha da möhkəmləndirmişdir. Makedoniyalı İsgəndərin ölümündən sonra dövləti müvəqqəti olaraq Perdikki idarə edirdi. Perdikki ilə qohumluq Atropatın Midiyanın satrapı vəzifəsində qalmasına köməklik etdi. Perdikkinin ölümündən sonra ***e.ə. 321-ci ildə Atropat*** özünü müstəqil hökmdar elan edərək ***Atropatena*** dövlətinin əsasını qoyur [1, s. 277].

E.ə. IV əsrin 20-ci illərindən Atropat yeni dövlətin Atropatenanın və ya Atropat Midiyasının hökmdarı oldu. Azərbaycanın coğrafi adının yaranmasını Atropatena ilə bağlayırlar. Azərbaycan adı *eramızın VII əsrindən*, ərəblərin istilasından sonra çəkilir. Atropatena (Adərbayqan) dövləti əsasən indiki Cənubi Azərbaycanı və Azərbaycan Respublikasının bəzi cənub rayonlarını əhatə edirdi. Ölkənin qərbində Zaqros dağ silsiləsi uzanırdı, ən böyük düzənlik ərazisi Urmiya gölündən cənubda idi. Şimal hissədə Qaradağ dağ silsiləsi yerləşirdi. Dağların çoxu sıx meşələrlə örtülmüşdür. Atropatenanın mərkəzi şəhəri Qazaka idi. Atropatenada yaşayan tayfalardan biri kaduslar idi. Midiya tayfaları

arasında maqlar-atəşpərəstlik dini ayinlərinin əsas icraçısı kimi xüsusi yer tuturdular. Atəşpərəstlik dininin kahini maq adlanırdı. Ərəbdilli qaynaqlarda əhalinin bir hissəsinin azərilərdən ibarət olduğu göstərilir [1, s. 288]. *E.ə. IV əsrdə* ***Atropatena*** və *e.ə. IV əsrin axırı-III əsrin əvvəllərində* ***Albaniya*** dövlətlərinin meydana gəlməsindən sonra bütün Azərbaycanda vahid xalqın yaranması prosesi başlamışdır.

Çay vadilərində, Urmiya gölü ətrafındakı torpaqlarda əkinçilik, bağçılıq və üzümçülük inkişaf etmişdir. Dağlıq ərazilərdə yaylaq maldarlığı inkişaf etmişdir. Ölkənin zəngin faydalı qazıntı yataqlarından dəmir, mis, gümüş, qızıl və s. çıxarılırdı. Atropatenada neft-"Midiya yağı" yataqları da var idi. Sənətkarlar yüksək keyfiyyətli metal və gil qablar, müxtəlif silahlar, toxuculuq məhsulları, bəzək əşyaları və s. istehsal edirdilər. Ən qədim pullar Makedoniyalı İsgəndərin adından kəsilmişdir.

E.ə. 223-cü ildə Selevkilər dövlətində hakimiyyətə gələn ***III Antiox*** Atropatenaya hücum etdi və qalib gəldi. Atropatena hökmdarı ***Artabazan*** III Antioxun hakimiyyətini tanıdı. ***E.ə. 190-cı ildə Maqneziya döyüşündə*** romalılar III Antioxu məğlub etdilər və Atropatena yenidən müstəqil oldu [1, s. 300-301]. ***E.ə. I əsrin I yarısında*** Romanın işğalçılıq siyasəti güclənmişdir. Atropatena o dövrdə Romadan tam asılı olmamışdır və öz müstəqilliyini əsasən qoruyub saxlamışdır. Atropatena Roma ilə döyüşə 10 min suvari, 40 min piyada qoşun çıxarmışdır. Parfiya ***e.ə. 53-cü ildə*** Atropatenanın köməyi ilə romalıları məğlub etdi. Lakin az sonra ***e.ə. 38-ci ildə*** romalılar parfiyalıları ağır məğlubiyyətə uğratdılar. ***E.ə. 36-cı ildə*** Roma sərkərdəsi Antoni Atropatenanın mərkəzi şəhərlərindən biri Fraaspaya hücum etdi, uzun sürən mühasirə bir nəticə verməsə və romalılar geri çəkilərkən 35 min nəfərə yaxın əsgər itirdilər. Bu hadisələrdən sonra Parfiya Atropatenanı bütünlüklə özünə tabe etməyə çalışırdı. Belə bir şəraitdə Atropatena Roma ilə dostluq münasibətləri yaratmağa çalışırdı. ***E.ə. 20-ci ildə*** Atropatenada hakimiyyətə gələn II Ariobarzan 10 ilə qədər Romada yaşamışdır. O, romalıların köməyi ilə ***Er-***

mənistanı da Atropatenadan asılı vəziyyətə salmışdır. Eramızın 20-ci ilində axırıncı hökmdarı II Ariobarzanın ölümündən sonra Atropatena Parfiyanın Arşakilər sülaləsinin hakimiyyəti altına düşdü. Parfiyanın süqutuna qədər Atropatena bu dövlətin tərkibində qalmışdır.

Atropatena dövlətində şəhərlər karvan yolları üzərində və böyük məbədlərin ətrafında yaranmış, müdafiə divarları ilə əhatə olunmuşdur. Tikinti materialları kimi daşdan, çiy və bişmiş kərpicdən, ağacdan istifadə etmişlər. Bəzi ictimai binaların üstü saxsı kirəmitlə örtülmüşdür. Makedoniyalı İsgəndərin yürüşü nəticəsində yunan (ellin) mədəniyyəti Atropatena mədəniyyətinə təsir etmişdir. Atropatena əhalisi Zərdüştlük dininə sitayiş edirdi. Zərdüştlükdə oda sitayişə görə bu dinə atəşpərəstlik də deyilirdi və Peyğəmbər Zərdüştün adı ilə bağlı idi. Onun **e.*ə. VII əsrin II yarısı-VI əsrin əvvəllərində*** yaşadığı güman edilir. Bu dinə Orta Asiyada və İranda sitayiş edilirdi, müqəddəs kitabı ***"Avesta"*** idi. Rəvayətə görə "Avesta"nın ilkin variantı ***e.ə. 330-cu ildə*** Makedoniyalı İsgəndər Persopolda Əhəmənilərin sarayını yandırarkən məhv olmuşdur. Dövrümüzə gəlib çatan hissəsi İranda Sasanilər sülaləsi dövründə *(III-VII əsr)* yenidən toplanmışdır. Zərdüştlüyə görə, dünyada 2 qüvvə-Xeyir (Hörmüz-Ahuraməzda) və Şər (Əhriman) bir-biri ilə mübarizə aparır və Xeyir axırda qalib gəlir. Bu dinin ehkamlarına görə od, torpaq, su müqəddəs sayılmışdır [1, s. 339-356], ölünü yandırmaq, torpağa basdırmaq və suya atmaq olmazdı, meyitləri xüsusi daxmalarda qoyurdular, onların ətini quşlar və heyvanlar yedikdən sonra, sümüklər qablara yığılıb basdırılırdı. Zərdüştlüyün ən başlıca məbədləri Atropatenanın mərkəzi şəhəri olan Qazakada yerləşirdi. Zərdüştlük təkallahlı dinlər, xüsusilə, İslam dini tərəfindən sıxışdırılmışdır. Hazırda ona inananlar 130 min nəfərdir. Onların ən böyük icmaları Hindistanda (parslar) və İranda (gəbrlər) məskunlaşmışdılar.

5. Alban çarlığı antik dövrdə

Yunan tarixçisi Herodot Azərbaycanın şimalında yaşayan kaspilərdən bəhs edirdi. Kaspilər adı altında alban tayfaları da nəzərdə tutulurdu. Kaspilər *e.ə. V əsrin əvvəllərində* İran şahları *I Daranın* və *Kserksin* Yunanıstana hərbi yürüşlərində iştirak etmişdilər. Əhəmənilərin dövründə alban tayfaları vahid bir ad altında birləşmişdilər. *Albanla*r 26 dildə danışan tayfalardan ibarət idi. Xəzərin qədim adlarından biri də Alban dənizidir. Bir qrup tarixçi alban tayfalarını Qafqazdilli hesab edir. Onlardan müasir dövrdə yaşayan Qəbələ rayonunun Nic kəndində udiləri, Quba rayonundakı Xınalıq kəndində xınalıqları, Buduq kəndindəki buduqluları və b. göstərmək olar. Albanlar ucaboylu, ağbəniz və yaraşıqlı olmuşlar. O zaman Albaniyada *türkdilli* və *irandilli* tayfalar da yaşayırdılar.

Makedoniyalı İsgəndərin Şərqə yürüşü zamanı – ***e.ə. 330-cu ildə*** *Əhəmənilər imperiyası* dağıldı. *E.ə. IV əsrin axırı-III əsrin əvvəllərində* müstəqil ***Albaniya dövləti*** yarandı. Albanlar İberiya (Gürcüstan) ilə Xəzər dənizi arasındakı ərazidə yaşayırdılar. Albaniya dövləti şimalda Qafqaz dağları, cənubda Atropatena, cənub-qərbdə isə Ön Asiya ilə həmsərhəd idi. Albaniyadakı yaşayış məntəqələrinin sayı İberiya və Atropatenadakından çox idi. Albaniya dövlətinin ərazisinə indiki Azərbaycan Respublikasının ərazisi, Dağıstanın cənub rayonları və Gürcüstanın Alazan (Qanıx) vadisi daxil olmuşdur.

Albaniya əhalisi arasında əmlak bərabərsizliyi (binaların fərqləri, qəbir abidələri) var idi. Xristianlıq və islam dini qəbul edilənədək dəfn zamanı qəbirlərə geyim, qab-qacaq, əmək alətləri, silah, ərzaq, bəzək əşyaları qoyurdular. Varlı və yoxsul qəbirlərini bir-birindən asan fərqləndirmək olurdu. Albaniyada padşahdan sonra ən hörmətli adam Ay allahının kahini idi. O, müqəddəs əyalətə başçılıq edirdi, məbəd qulları da onun ixtiyarında idi. Əhali 4 təbəqəyə bölünürdü: padşah, ordu başçısı və hakim 1-ci təbəqəyə, din xadimləri (kahinlər) 2-ci təbəqəyə, hər-

biçilər və əkinçilər 3-cü təbəqəyə, təsərrüfatda işləyən adi adamlar isə 4-cü təbəqəyə daxil idi. Qul əməyindən məbədlərin və çarların torpaqlarında istifadə olunurdu.

Albanlar əkinçilik, bağçılıq, üzümçülük, maldarlıqla məşğul olur, buğda, arpa, darı əkirdilər. Şamaxıda və Qəbələdə şərab istehsal olunan emalatxanaların qalıqları aşkar edilmiş və şərab saxlamaq üçün istifadə edilən iri küplər tapılmışdır.Taxıl iri xüsusi quyularda və saxsı küplərdə saxlanırdı. Taxılı qayıqvari dən daşları ilə, əl dəyirmanları ilə, eramızın ilk əsrlərindən isə su dəyirmanları ilə üyüdürdülər. Albaniyada bağçılıq, bostançılıq, üzümçülük və şərabçılıq, maldarlıq, xüsusilə, atçılıq inkişaf etmişdir. Metalişləmə geniş yayılmışdır. Sənətkarlar müxtəlif növ silahlar (zireh, qılınc, xəncər, ox, nizə ucluqları), əmək alətləri (balta, bıçaq, oraq, qayçı və s.), bəzək əşyaları (üzük, sırğa, bilərzik, muncuq və s.) hazırlayırdılar. Dulusçuluq sənəti də inkişaf etmişdir. Gildən tikinti materialları (kirəmit, kərpic), müxtəlif qablar, insan və heyvan fiqurları hazırlayır, bunları dulus kürələrində bişirirdilər. Mingəçevirdə çoxlu dulus kürələri aşkar edilmişdir. Eramızın ilk əsrlərində şüşə qablar hazırlanırdı. Dövlətin yaranması ilə Albaniyada üzük formasında düzəldilmiş, qaş hissəsində dini məzmunlu rəsmlər həkk olunmuş möhürlər meydana gəlmişdir. Toxuculuqda qoyun və dəvə yunundan istifadə olunurdu. Boyaçılıq, dülgərlik, dərzilik, çəkməçilik və b. sənət sahələri də inkişaf etmişdir. Daxili və xarici ticarət genişlənmişdir. Ölkə ərazisindən mühüm karvan yolları keçirdi. Albaniyadan keçən beynəlxalq su yolu da çox əhəmiyyətli idi. Oks çayı (Amudərya), Hirkan (Xəzər) dənizi və Kür çayı vasitəsilə, bir qədər də quru yolla Hindistanın məhsulları Qara dənizə çıxarılırdı. Ticarətdə puldan geniş istifadə edilmişdir. ***1958-ci ildə*** Şamaxıda, ***1966-cı ildə*** Qəbələdə tapılmış gümüş pul dəfinələri albanların ticarətdə puldan istifadə etdiyini və özlərinin də pul kəsdiyini sübut edir. Ən qədim pullar Makedoniyalı İsgəndərin adından kəsilən pullar idi. Qədim şəhərlər dini mərkəzlərin (məbədlərin) ətrafında ayrı-ayrı hökmdarlar tərəfindən salınırdı. Şəhərlərin ətra-

fında möhkəm qala divarları tikilir, dərin xəndəklər qazılırdı. Eramızın I əsrində yaşamış Roma müəllifi Böyük Plini yazır ki, Albaniyanın başlıca şəhəri *Kabalaka (Qəbələ)* paytaxt şəhəri idi.

E.ə. II əsrdə Aralıq dənizi hövzəsində güclü dövlətə çevrilmiş Roma sərkərdəsi ***Pompey*** buradan keçən ticarət yollarını ələ keçirmək məqsədi ilə Albaniya və İberiyaya hərbi yürüş etdi. Soyuqlar düşdüyündən, Pompey Kür vadisində qışlamağı qərara aldı. O, ordunu 3 məntəqədə yerləşdirdi. Alban padşahı ***Oroys*** Kür çayını keçərək hər 3 düşərgəyə eyni vaxtda hücum etməyi qərara aldı. Oroys fikirləşirdi ki, belə halda Roma ordusunun hissələri bir-birinə kömək edə bilməzlər***. E.ə. 66-cı ilin dekabrında*** Kürün sahilində qanlı döyüşdə Roma ordusu qalib gəldi. Pompey albanlarla sülh bağlayıb İberiyaya doğru hərəkət etdi. Albanlar romalıları izləyərək onlar üçün təhlükə yaratdılar. ***E.ə. 65-ci ildə*** albanlarla romalılar arasında *Qanıx çayı* yaxınlığında döyüş baş verdi. 60 min piyada və 12 min atlıdan ibarət qoşuna Alban çarı Oroysun qardaşı ***Kozis*** başçılıq edirdi. Pompey hiylə işlədərək kiçik atlı dəstələrini irəli çıxartdı, piyadaları isə onlardan arxada gizlətdi. Albanlar dərhal hücuma keçdilər, romalılar geri çəkilərək onları öz arxalarınca apardılar, sonra piyadalar albanları dövrəyə alaraq qırmağa başladılar. Kozis Pompeyə nizə ilə zərbə endirdi, lakin Pompeyin zirehli geyimi onu ölümdən qurtardı. Pompey isə cavab zərbəsi ilə Kozisi ölümcül yaraladı. Sağ qalanlar meşədə gizləndilər, Pompey meşəni yandırdaraq onları qırdırdı. Appian yazır ki, romalılara qarşı qadınlar da vuruşurdular. Döyüşdən sonra albanların əsas qüvvələri Oroysun başçılığı ilə dağlara çəkildilər. Pompey Oroysa romalıların düşərgəsinə gəlməyi tələb etdi. Oroys getmədi, lakin hədiyyələr və məktub göndərərək barışıq təklif etdi. Pompey barışığı qəbul etdi. Az sonra Pampey ölkənin içərilərinə doğru hərəkət etdi, albanlar ona qarşı güclü müqavimət göstərdilər. Pompey yürüşün təhlükəli olduğunu görərək Xəzərin sahilinədək getmək niyyətindən əl çəkdi və albanlarla sülh sazişi bağladı. ***E.ə. 36-cı ildə*** romalılar yenidən Şərqə yürüş təşkil etdilər. Bu yürüşə *Antoni*

başçılıq edirdi. Yürüşdə 100 min nəfər olan 13 legion iştirak edirdi. Antoni Parfiyanın təzyiqi altında geri çəkilib Misirə getdi. Bu zaman o, öz sərkərdəsi *Kanidini* Azərbaycanın cənub torpaqlarında saxladı. Bu yürüşdən sonra İberiya və Albaniya romalılardan asılı olduqlarını qəbul etdilər. ***68-ci ildə*** Roma imperatoru *Neron* Albaniyaya böyük yürüş hazırladı. Lakin Roma üsyanı zamanı Neron öldürüldü. Bir müddət sonra Roma hərbi dəstəsi Xəzər sahillərinə, indiki Abşeron yarımadasına gəlib çıxdı. Qobustanda, Böyükdaş dağının ətəyində, üzərində latın dilində yazı olan kitabə: "İmperator Domisian Sezar Avqust Germanik. L(yusi) Yuli Maksim, ildırımsaçan XII legionun senturionu" tapılmışdır. ***Domisian (81-96)*** Roma imperatoru olmuş, Germanik titulunu ***83-cü ildə*** almışdır. Qobustan kitabəsi isə ***84-96-cı illərə*** aiddir. Həmin dövrdə Roma ordusunun Albaniyaya yürüşü və Xəzər sahilinə gəlib çıxması barədə məlumat yoxdur, deməli, Qobustan kitabəsi kiçik hərbi dəstənin Roma nümayəndəliyini müşayiət etdiyini göstərir. Roma imperatoru *Adrian (117-138)* alban hökmdarları ilə dostluq əlaqələri saxlamış və onlara hədiyyələr göndərmişdir. Albaniyanın Roma ilə əlaqələri *III əsrin ortalarına qədər* davam etmişdir. Albaniya Roma ilə sıx iqtisadi-siyasi və mədəni əlaqələr saxlamışdır. Lakin Roma Albaniyanı heç vaxt tam işğal edə bilməmişdir.

Böyük Qafqaz dağlarından şimalda yaşayan tayfalar qənimət əldə etmək məqsədilə Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaza və Ön Asiya ölkələrinə dəfələrlə yürüşlər etmişdilər. ***Alan tayfalarının*** ən böyük yürüşlərindən biri ***72-74-cü illərdə*** olmuşdur. Cənuba doğru talançı yürüşləri zamanı onlara yol boyu heç kəs müqavimət göstərə bilməmişdir. Atropatena padşahı ***Pakor*** əvvəl öz ölkəsini başsız qoyub qaçmış, ailəsi isə əsir düşmüşdür, sonradan çoxlu pul verib ailəsini əsirlikdən qurtarmışdır. Belə yürüşlər sonralar da davam edirdi. Albaniya ərazisindəki katakomba qəbirləri (yeraltı sərdabələr) ***alan tayfaları*** ilə əlaqəlidir. Qəbirlər Mingəçevir və Qəbələdə tapılmış-*eramızın I-III əsrlərinə* aiddirlər. Katakomba qəbirlərində ölüləri iri küplərdə

və ya taxta qutularda dəfn edirmişlər. Qəbirlərə məişət qabları, əmək alətləri, alanlara məxsus silahlar (qılınc, xəncər, ox ucları) və bəzək əşyaları qoyulmuşdur. Albanlar mədəni inkişaf səviyyəsinə görə alanlardan üstün olmuşdular.

Albaniyanın mədəniyyəti əsasən Qəbələ, Şamaxı, Mingəçevir, Mollaisaqlı (İsmayıllı) və s. abidələr əsasında öyrənilmişdir***. E.ə. I minilliyin ortalarından*** Albaniyanın özünəməxsus mədəniyyəti yaranmağa başladı. Ölkənin paytaxtı olan Qəbələ şəhərinin ətrafına torpaq sədd çəkilmiş və dərin xəndək qazılmışdır. Belə müdafiə qurğuları Mil düzündəki Təzəkənd və Torpaqqala (Dağıstanın cənubu) şəhər yerləri ətrafında da vardı. Bəzi şəhər ətrafında daşdan müdafiə divarları tikilmişdir. Qəbələ şəhərində binaların bünövrəsi çay daşlarından qoyulmuş, divarları isə çiy kərpicdən hörülmüşdür. Binanın üstü yüksək keyfiyyətli kirəmitlə örtülmüşdür. Alban memarlığında *e.ə. III əsrdən* başlayaraq kirəmitdən istifadə edilmişdir. Kirəmit istehsalı yunan mədəniyyətinin təsiri altında meydana gəlmişdir. Alban sənətkarları rəngarəng naxışlarla bəzədilmiş zərif gil və metal qablar istehsal etmişdirlər. Quş və heyvan füqurları formasında düzəldilmiş gil qablar gözəl sənət nümunələridir. Albaniya sənətkarları qızıl, gümüş, mis, rəngli daşlar və şüşədən müxtəlif bəzək əşyaları-bilərzik, sırğa, üzük və s. hazırlamışdılar. Albaniya əhalisi hələ *e.ə. I minillyin ortalarında* ***yazı*** ilə tanış idi. Bəzi saxsı nümunələrinin üzərində yazı işarələri vardır. ***1902-ci ildə*** *Şəki* rayonunun *Böyük Dəhnə kəndində* üzərində yunan dilində yazı olan daş tapılmışdır. Albanlar antik dövrdə yunan, latın və yaxın Şərqdə istifadə edilən başqa yazılarla tanış idilər. Qədim albanlar çoxallahlı bütpərəstlik dininə inanırdılar. Göy cisimlərinə sitayiş geniş yayılmışdır. Strabon yazırdı ki, albanlar Zevs-Göy, Helios-Günəş allahlarına, daha çox isə Selena-Ay allahına sitayiş edirmişlər. Burada əcdadlara inam var idi. Tapılmış insan formalı böyük daş heykəllər də yerli əhalinin dini görüşləri ilə bağlı idi. Albanlar bir çox yaxın və uzaq ölkələrlə əlaqələr saxlayırdılar. Arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri albanların mənəvi səviyyəsinin yüksək olduğunu göstərir.

XRONOLOJİ CƏDVƏL

E.ə. 2-3 mln il – Dünyada - Şərqi Afrikanın Keniya və Tanzaniya ərazisində ilk insan qalıqları.
E.ə. 1 milyon 500 min-1 milyon 200 min il – Azərbaycan ərazisində insanın ilk izləri.
E.ə. 1 milyon 200 min-1 milyon il – Azıx mağarasında insan həyatının başlanması.
E.ə. 700 min il – Azıx mağarasında ocaq izləri.
E.ə. 400-350 minilliklər – Azıx mağarasında azıxantropun alt çənə sümüyünün yaşı.
İlk insan tipinin yaranmasından 100 min il bundan əvvələ qədər– Alt paleolit.
E.ə. 100-40 minilliklər – Orta paleolit. Neandertal adamın meydana gəlməsi.
E.ə. 40-12 minilliklər – Üst paleolit. "Homo Sapiyens"in meydana gəlməsi.
E.ə. 12-8-ci minilliklər – Mezolit və ya Orta Daş dövrü. İbtidai əkinçilik və ibtidai maldarlıq. İstehsal təsərrüfatının təşəkkülü.
E.ə. VII - VI minilliklər – Neolit dövrü. "Neolit inqilabı".
E.ə. VI-IV minilliklər – Eneolit dövrü.
E. ə. IV-III minilliyin sonu – Erkən Tunc dövrü. Kür-Araz mədəniyyəti. I böyük ictimai əmək bölgüsünün meydana gəlməsi - əkinçiliyin maldarlıqdan ayrılması.
E. ə. III - II minilliklər – Azərbaycan ərazisində Urmiya gölü ətrafında ilk tayfa ittifaqlarının: kutilər, lullubilər, turukkilər, sular, və hürrilər, Arazdan şimalda Naxçıvan və Mil-Qarabağ ərazilərində naxç, gərgər və s. yaranması.
E. ə. III minilliyin sonu-II minilliyin I yarısı – Orta Tunc dövrü. II böyük ictimai əmək bölgüsü-sənətkarlığın başqa istehsal sahələrindən ayrılması. Əmlak bərabərsizliyinin meydana gəlməsi. Ölüyandırma və kollektiv dəfnetmə adəti. Anaxaqanlığının (matriarxat) ataxaqanlığı (patriarxat) ilə əvəz edilməsi.

E.ə. XIV-XII əsrlər – Son Tunc dövrü. Sosial və əmlak bərabərsizliyinin dərinləşməsi.
E.ə. XI-VIII əsrlər – Erkən (ilk) Dəmir dövrü. Xarici əlaqələrin güclənməsi. Xocalı-Gədəbəy, Talış-Muğan Naxşıvan, Qobustan-Abşeron, Quba-Xaçmaz, Şəki-Balakən iri etnik birləşmələrinin yaranması.
E. ə. II minilliyin sonu - I minilliyin əvvəlləri – Azərbaycanda ibtidai icma quruluşunun dağılması. Tayfa başçısının ilahiləşdirilməsi.
E.ə II minilliyin sonu – I minilliyin əvvəlləri – Dəmirdən müxtəlif əşyaların hazırlanması. Sənətkar-tacirlər qrupunun ayrılması.
E.ə. IX əsr – Manna ərazisində Zamua, Gilzan, Alateye, Surikaş, Gizilbunda, Uişdiş, Zikirtu, Andia və s. vilayətlərin meydana gəlməsi.
E. ə. IX əsrin birinci yarısı – Azərbaycan ərazilərinə Assuriya dövlətinin müdaxiləsi.
E. ə. 843 – Manna adına ilk dəfə Assuriya hökmdarı III Salmanasarın mixi yazılı kitabəsində rast gəlinir.
E. ə. IX əsrin ikinci yarısı – Urmiya sahilində Manna çarlığının yaranması.
E. ə. IX əsrin əvvəlləri – Midiyalıların ilk dəfə mixi yazılarda xatırladılması (Maday, Amaday, Matay).
E. ə. VIII əsr – Manna dövlətinin güclənməsi və genişlənməsi. Assuriya və Urartu dövlətləri ilə münasibətləri.
E. ə. 740-719 – İranzunun hakimiyyəti dövrü. Canişinlik sistemi, mərkəzi hakimiyyətin gücləndirilməsi. Assuriyaya meyilli xarici siyasət.
E. ə. 715 – II Sarqonun Urartuya yürüşü.
E. ə. 714 – II Sarqonun Manna, Midiya və b. ölkələrə yürüşü.
E. ə. VIII-VII əsrlərin sonu – Kimmerlərin, skiflərin və sakların Qafqaza və Ön Asiyaya yürüşləri.
E. ə.VII əsrin ortaları - VI əsrin əvvəlləri – Skif padşahlığı dövrü.

E.ə. 672 – Fraorta Kaştaritinin (e.ə.672-653) başçılığı ilə Midiyanın müstəqil dövlətə çevrilməsi.
E. ə. 650 – Assuriya hökmdarı Assurbanipalın Mannaya yürüşü və qələbə çalması. Mannada çar Ahşeriyə qarşı üsyanlar. Ahşerinin öldürülməsi.
E. ə. VII əsrin 50-ci illəri – Midiya istilalarının başlanması.
E. ə. 625-585 – Kiaksarın hökmranlığı.
E. ə. 616-612 – Midiya - Assuriya müharibəsinin başlanması.
E. ə. 612 – Paytaxt Nineviyanın Midiya və Babilistan tərəfindən işğal edilməsi.
E. ə. 612-605 – Assuriya dövlətinin süqutu, onun Midiya və Babilistan arasında bölünməsi.
E. ə. 590 – Mannanın süqutu və Midiya dövlətinin tərkibinə daxil edilməsi.
E. ə. 550 – Midiya dövlətinin süqutu. Fars Əhəmənilər dövlətinin meydana gəlməsi.
E. ə. 530 – II Kirin köçəri massaqet tayfaları ilə döyüşdə öldürülməsi.
E. ə. 522 – II Kambizin dövründə Qaumatanın dövlət çevrilişi.
E. ə. 522-521 – Əhəməni dövlətinə qarşı üsyanlar.
E. ə. I minillyin ortaları – Albaniya əhalisinin yazı ilə tanış olması.
E. ə. 334-331 – Makedoniyalı İsgəndərin istilaları və Əhəmənilər dövlətinin süqutu.
E. ə. 331– Qavqamel döyüşündə III Daranın məğlub olması.
E. ə. 330 – III Daranın öldürülməsi.
E. ə. 328 – Makedoniyalı İsgəndərin Atropatı Midiyanın satrapı (canişini) təyin etməsi.
E. ə. 321 – Atropatın başçılığı ilə Atropatena dövlətinin meydana gəlməsi.
E. ə. IV əsrin axırı-III əsrin əvvəlləri – Albaniya dövlətinin meydana gəlməsi.

E. ə. III əsrin son rübü – Atropatenanın güclənməsi. Çar Artabazan.
E.ə. 223 – III Antioxun Selevkilər dövlətində hakimiyyətə gəlməsi.
E. ə. III əsrin 20-ci illərinin sonu – Atropatena hökmdarı Artabazanın III Antioxun hakimiyyətini tanıması.
E.ə. 190 – Maqneziya döyüşündə romalıların III Antioxu məğlub etməsi və Atropatenanın yenidən müstəqil olması.
E. ə. II əsrin 60-cı ili – Atropatenanın yenidən müstəqillik əldə etməsi.
E.ə. I əsr – Atropatenada parfiyalıların və Zərdüştiliyin mövqelərinin möhkəmlənməsi.
E.ə. I əsr – Romanın işğalçılıq siyasətinin güclənməsi.
E.ə. 60 – Yazılı mənbələrdə alban padşahı Oroysun və onun qardaşı Kozisin xatırladılması.
E.ə. 66, dekabr – Kür sahilində döyüşdə Roma sərkərdəsi Pampeyin alban padşahı Oroysa qalib gəlməsi.
E.ə. 65 – Pampeyin albanlara qarşı yürüşü. Oroysun qardaşı Kozisin ölümcül yaralanması.
E.ə. 53 – Parfiyanın Atropatenanın köməyi ilə romalıları məğlub etməsi.
E.ə. 38 – Romalıların parfiyalıları məğlub etməsi.
E.ə. 36 – Romalıların Atropatenaya hücumu. Fraaspanın müdafiəsi. Atropatena və Parfiya döyüşçüləri tərəfindən Roma sərkərdəsi Antoninin qoşunlarının darmadağın edilməsi.
E.ə. 36 – Albanların romalılarla mübarizəsi. Antoni və onun sərkərdəsi Kanidi. Albaniyanın Romadan asılılığı.
E.ə. I əsrin sonu – Atropatenanın Roma ilə dostluq münasibətləri.
E.ə. I əsrin sonu-eramızın I əsrin 20-ci illəri – Atropatena hökmdarı II Ariobarzan.
Eramızın I əsrin əvvəlləri – Atropatena Parfiyanın Arşakilər sülaləsinin hakimiyyəti altında.

Eramızın I əsrin ikinci yarısı – Albaniyada Arşakilər sülaləsinin hökmranlığı.
68 – Roma imperatoru Neronun Albaniyaya yürüşü.
72-74 – Alanların Azərbaycan ərazilərinə və qonşu ölkələrə yürüşləri.
80-90-cı illər – Romalıların Qafqaz Albaniyasının ərazisinə keçməsi.
III əsrin ortalarına qədər – Albaniyanın Roma ilə dostluq əlaqələri.

II FƏSİL
AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ (III-IX ƏSRLƏR)

Plan:

1.III-IX əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət. Feodal istehsal üsulunun meydana çıxması və təşəkkülü.
2. Atropatena və Albaniya Sasanilər dövlətinin tərkibində.
3. Sasani-Bizans müharibələri və Azərbaycan.
4. Azərbaycan torpaqları Ərəb Xilafətinin tərkibində. İslam dininin yayılması.
5. Xürrəmilər hərəkatı.
6. Azərbaycan xalqının və dilinin təşəkkülü.

1. III-IX əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət. Feodal istehsal üsulunun meydana çıxması və təşəkkülü

III-V əsrlərdə Azərbaycanda tədricən feodalizmə xas olan ictimai-iqtisadi münasibətlər yaranmağa başlamışdır. Torpaq sahibkarlığının yeni səciyyəvi cəhətləri meydana gəldi. Dövlət torpaqları göstərdiyi yaxşı xidmət müqabilində hərbiçilərə, dövlət işçilərinə paylanır və bəzən ayrı-ayrı xüsusi xildməti olan şəxslərə hədiyyə verilirdi. Belə torpaqlar ***mülk (feod)****, torpaq sahibi* ***mülkədar****, yəni* ***feodal*** adlanırdı. ***Feodalizm cəmiyyətinin*** adı buradan yaranmışdır. Kəndli feodaldan asılı olub, onun torpağını becərməli, məhsulun müəyyən hissəsini ona verməli idi. Erkən orta əsrlərdə Azərbaycanda təsərrüfatın ***natural*** forması (malikanə daxilində istehsal) üstün mövqe tuturdu. Feodalizmin ilk mərhələsində kəndlilərin istismar edilməsinin əsas forması ***vergilər*** və ***dövlət mükəlləfiyyətlərinin*** icrası idi. Vergi məhsul və pul formasında

ödənilirdi. Azərbaycanda məhsuldar qüvvələrin inkişafı nəticəsində feodal münasibətləri yaranmağa başlamışdır. Erkən orta əsrlərdə Azərbaycanda gedən ictimai-siyasi və iqtisadi proseslər ***Sasani dövləti*** ilə əlaqəli idi. Sasanilərdə tədbiq edilən feodal torpaq mülkiyyəti formaları və vergilər Azərbaycan ərazisində də tədbiq edilirdi. Feodal torpaq sahibliyinin iki forması var idi: ***dastakert*** - *irsi,* ***xostak*** - *şərti* torpaq sahibliyi.

Sasani dövlətində əhali ***4 təbəqəyə*** bölünürdü: ***kahinlər, döyüşçülər, mirzələr, vergi verənlər***. Vergi verənlər ***can (gezit) və torpaq (xaraq)*** vergisi ödəyirdilər. Avropadan fərqli olaraq Azərbaycanda ***feodalların şəxsi təsərrüfatı*** yox idi. Çünki süni suvarma üçün böyük xərc tələb olunurdu. Ölkədə kəndlilər asılı olsalar da, təhkimli deyildilər. Feodal, əsasən, öz xüsusi təsərrüfatında məşğul olan kəndlidən ***məhsul*** və ya ***pul*** ödənişi almaqla kifayətlənirdi. Onu kəndlidən ödəniş almaq daha çox maraqlandırırdı. Avropada feodal münasibətləri gec yaranıb ***(V əsr)***, tez süqut etdiyi ***(XVII əsrin ortaları)*** halda, Azərbaycanda bu cəmiyyət ***III-XIX əsrlərdə*** mövcud idi.

Atropatenada əhalinin çox hissəsi əkinçilərdən ibarət idi. Feodalların əksəriyyəti torpaqlarını onlara icarəyə verirdi. Atropatenada əsas vergi ***xaraq*** *və* ***gezit*** adlanırdı. ***Xaraq torpaq vergisi*** idi, hər bir mahalın əkin sahələrinin şəhərə yaxın və ya uzaqlığından asılı olaraq məhsulun ***1/3-dən 1/6-nə*** qədər təşkil edirdi. ***Gezit can vergisi*** idi, sənətkarlardan ***ildə 1 dəfə*** yığılırdı. Sasani şahı ***I Xosrov*** vergi yığan məmurların özbaşınalığının qarşısını almaq və vəsaitin xəzinəyə daxil olmasını təmin etmək üçün ***vergi islahatı*** keçirdi: Bütün torpaqlar ölçüldü, zeytun və xurma ağacları hesaba alındı. *Vergilər* ***ildə 3 dəfəyə*** verilməli idi. İslahata görə ***xaraq*** məhsulun miqdarına görə deyil, *torpağın sahəsinə görə* alınırdı.

Albaniyada feodallar 2 qrupa bölünürdü: iri feodallar ***patriklər,*** 2-ci qrupa isə xırda və orta feodallardan ibarət ***azadlar*** (farsca nəcib) daxil idilər. Onlar patriklərin vassalı hesab olunur-

dular, ruhanilər kimi can vergisindən azad idilər, alban və Sasani hökmdarlarına xidmətə görə torpaq payı alırdılar. ***V-VII əsrlərdə*** Albaniyada feodal münasibətləri hakim mövqe qazandı. Əhalinin əsas hissəsini istehsalçılar-***kəndlilər*** təşkil edirdi. ***Adsız-sansız adamlar*** sırasına isə sənətkarlar, dəmirçilər, daşyonanlar, dülgərlər, xarratlar, zərgərlər daxil idilər. V əsrdə əsirlərlə yanaşı caniləri də ***qula*** çevirirdilər. Albaniyada da ***xaraq və gezit*** vergiləri toplanırdı. Sasani dövlətində ***mərzbanlıq sistemi*** mövcud idi.

Xilafətin Azərbaycan ərazisində idarəçilik, köçürmə, torpaq və vergi siyasəti. Ərəblər əsarətə aldıqları əraziləri idarə etmək üçün ***əmirlik sistemi*** yaratdılar. ***Əmirlik*** daha kiçik inzibati vahidlərə-***mahal və məntəqələrə (hər mahal 12 məntəqəyə, hər məntəqə isə 12 kəndə)*** bölünürdü. Əmirliyi xəlifənin təyin etdiyi ***əmir*** idarə edirdi. Azərbaycanın şimal sərhədi Dərbənd, cənub sərhədi Həmədan şəhəri idi. Əhalini ərəbləşdirmək üçün Bəsirədən, Kufədən, Suriyadan və Ərəbistandan 10 minlərlə ərəb ailəsi köçürüldü. Onlara imtiyazlar verilir və torpaqla təmin edilirdi. Əməvilər sülaləsinədək ilk xəlifələrin dövrlərində vergilər xeyli yüngül idi, həm də Sasanilərdən fərqli olaraq ***vergi*** təktək adamdan deyil, ***bütün ölkədən*** alınırdı. Azərbaycanda ***xristianlar*** 2 vergi-***xərac (torpaq vergisi)*** və ***cizyə (can vergisi)*** verirdi, ***müsəlmanlar*** isə ***cizyədən azad*** idilər. Xilafətə kömək etdiyinə görə ***kilsə vergidən azad*** idi və dövlət tərəfindən himayə olunurdu. ***Xəlifə Əli vergi*** sahəsində ***islahat*** keçirdi. Əsas diqqət xərac yığmağa deyil, torpağı səmərəli əkib-becərməyə yönəldilirdi. Əməvilərin dövründə isə vergi sistemində dəyişikliklər edildi. ***725-ci ildə*** Azərbaycanda əhali, mal-qara siyahıya alındı, torpaqlar ölçüldü, əvvəl ləğv edilmiş vergilər bərpa olundu. Ruhanilərdən də cizyə alınmağa başlandı, vergilərin ümumi məbləği isə artırıldı. Ağır vergilər təkcə yoxsulları deyil, hətta orta və iri feodalları da müflisləşdirdi. *VIII əsrin ortalarında* Əməvilər sülaləsini ***Abbasilər*** əvəz etdi. Kəndlilərin vəziyyəti daha da ağırlaşdı. Vergi torpağın əkilib-əkilməməsindən asılı olmayaraq

yığılırdı. Hətta meyvə ağaclarına da vergi qoyuldu. Acgözlüyünə görə ***xəlifə əl-Mənsur*** "pul atası" ləqəbini almışdır. Qəddarlığı ilə seçilən ***xəlifə Harun ər-Rəşidin*** dövründə (786-809) vergilər daha da artırıldı. Hətta 15 yaşa çatan kişilər də vergi verirdilər. Azərbaycanın ***cənub hissəsindən ildə 4 milyon, Muğandan isə 300 min dirhəm*** yığılırdı. Daşına bilən əmlakdan ***"xüms",*** mal-qara, becərilən məhsullardan və meyvədən, qızıl və gümüş sənətkarlıq məmulatlarından ***"zəkat"*** (sədəqə) vergisi alınırdı. *"Zəkat"* ruhanilərin, yetimlərin, şikəstlərin və əlacsızların ehtiyaclarına sərf olunurdu. Xilafətin ***Azərbaycandan*** *aldığı* ***vergi təxminən 8 milyon dirhəmə*** yaxın idi.

Feodal torpaq mülkiyyətinin əsas forması dövlət torpaqları-***divan*** *və ya* ***sultan (xəlifə)*** torpaqları idi. ***"İqta"*** divan torpağından orduda göstədiyi hərbi hünərə və sədaqətli xidmətə görə verilirdi. ***İqtanın*** 2 forması vardı: ***Bağışlanan "iqta"*** sahibinin şəxsi mülkiyyətinə çevrilir və nəsildən-nəslə keçirdi; İkincisi isə ***icarə edilən*** və ya ***şərti "iqta"***-irsən keçə bilməz, hətta geri alına bilərdi. ***Mülkiyyət formalarından*** biri feodal mülkiyyətində olan torpaq idi-***mülk,*** sahibi isə ***malik*** adlanırdı, istədikləri kimi istifadə edə bilərdilər. Daha sonra ***vəqf*** torpaqları var idi-müsəlman aləmində müqəddəs şəhərlər, pirlər, din uğrunda mübarizlər və şəhidlər üçün verilirdi. Vəqf torpaqları müsəlman dini idarələrinin ixtiyarında idi, almaq, satmaq və bağışlamaq olmazdı. ***İcma*** torpaqları-kəndlərdə əkin yerləri, biçənəklər, otlaqlar, meşələr, qəbiristanlıqlar və sairədən ibarət idi. Vergi və mükəlləfiyyətlərin bütün ağırlığı bu torpaqların üzərinə düşürdü.

2. Sasanilərin Azərbaycan ərazilərini işğal etməsi və ona qarşı üsyanlar

Sasanilər sülaləsinin nümayəndəsi ***Ərdəşir Babəkan (224-241)*** Parfiya dövlətini süquta uğratdı və ***226-cı ildə Sasanilər dövlətinin*** əsasını qoydu [9, s. 102]. Parfiya dövlətindən asılı olan ***Atropatena*** yenidən öz müstəqilliyini itirərək, ***227-ci ildə*** Sasanilər dövlətinin tərkibinə qatıldı. Atropatena iqtisadi səviyyəsinə görə irəlidə gedirdi, həm də əlverişli strateji mövqeyə malik idi. IV əsərdən Atropatena iqtisadi yüksəliş keçirirdi. İran, Çin və Hindistana gedən ticarət yolları buradan keçirdi. Sasanilər Atropatenadan öz orduları üçün əsgər də toplayırdılar. ***Zərdüştlük*** onların hakimiyyəti dövründə hakim dinə çevrilmişdir. Şahənşah ***I Şapur (241-271)*** itaət altına alınmış ölkələrdə Zərdüştlüyü zorla yaymaq haqqında əmr vermişdir. Ən mühüm Zərdüştlük məbədləri Atropatenada, baş məbəd isə ***Qazakada*** yerləşirdi. Şahənşahlar taxta çıxdıqdan sonra dövlətin paytaxtından bu məbədə piyada ziyarətə getməli idi. Ona görə də Atropatena Zərdüştlüyün ideoloji və təlim mərkəzi idi. Zərdüşt ruhaniləri Qazakada dini təlim keçdikdən sonra imperiyanın başqa dini mərkəzlərinə göndərilirdi. Zərdüşt kahinlərinin ixtiyarında çoxlu torpaq sahələri var idi.

IV əsrdə Albaniya dövlətinin ərazisi şimalda Qafqaz dağlarından Araz çayınadək, qərbdə İberiyadan Xəzər dənizinədək uzanırdı. Ölkənin vilayətləri: ***Çola, Lpina, Şəki, Kambisena, Həcəri, Uti, Arsax, Paytakaran*** və ***Syünik*** idi. İndiki Dərbənd şəhərinin yerləşdiyi ərazidən təxminən Beşbarmaq dağına qədər Xəzər dənizi böyunca ***Çola vilayəti*** uzanırdı. Üzüm, meyvə və taxılla zəngin idi. "Dəmir qapı" və ya alban qapıları keçidi burada yerləşirdi. Albaniyanın şimal-şərqində dağlıq ***Şəki vilayəti*** yerləşirdi, toxuculuq, ipək parça istehsalı mərkəzi hesab olunurdu. Çola ilə Şəki arasında yerləşən ***Lpina vilayəti*** başdan-başa qoz-fındıq ağaclarından ibarət olan meşələrlə əhatə edilmişdir. Albaniyanın paytaxtı ***Qəbələ*** şəhəri burada yerləşirdi. Tarixi vilayət sayılan ***Uti*** Kürün sağ sahilində şəqrdən Paytakaranla, cə-

nubdan isə Arsaxla, şimaldan Kür çayı ilə, qərbdən isə İberiya ilə həmsərhəd idi. Uti vilayətində dənli bitki becərilir, qaramal saxlanılır, yun və pambıq parçalar hazırlanırdı. Burada çoxlu zeytun ağacı bitirdi. ***Paytakaran vilayəti*** indiki Azərbaycan Resplikasının cənub-şərqində yerləşib, Xəzər dənizinin sahillərinə qədər uzanırdı, Mil və Muğan düzlərinin bir hissəsini əhatə edirdi. Burada çoxlu qoyun sürüləri saxlanılır, əhali Kür və Araz çaylarından balıq tutur, duzlayır, qurudurdu. Tarixi ***Arsax vilayəti*** sağsahil Albaniyanın (***indiki Qarabağın dağlıq hissəsi*** və ***Mil düzü***) vilayətlərindən ibarət idi. Əhalisi ***türksoylu albanlar, qarqarlar, hunlar*** və ***xəzərlərdən*** ibarət idi. Məhsuldar düzənliklərində və çay vadilərində dənli və texniki, bostan-tərəvəz bitkiləri becərilir, üzümçülük inkişaf etdirilirdi. Albaniyada azad sənətkarlar meydana gəlirdi. Toxuculuq üçün başlıca xammal yun, kətan, ipək və pambıq sayılırdı. Albaniya sənətkarları metaldan müxtəlif silahlar, bəzək əşyaları, məişət avadanlığı hazırlayırdılar. Ağac və dəri emalı, daşyonma sənəti də inkişaf etmişdir.

Tarixi rəvayətə görə, təxminən *e.ə. II əsrdə* Albaniyanın hökmdarı ***Aran*** (türkcə "ərən, cəsur, qoçaq, mərd") olmuşdur. Aran Araz çayından tutmuş İberiyanın sərhədlərinə kimi, Albaniyanın düzən və dağlıq ərazisini idarə edirdi. Ölkə hökmdar Aranın mülayim xasiyyətinə və ona verilən ağu -"yaxşı, xoş"- adına görə ***Ağuan (Albaniya)*** adlanırdı. *Eramızın I əsrində* Albaniyanı yerli hökmdarlar idarə edirdilər. *Eramızın I əsrində* alban Arşaki (Parfiya Arşaki sülaləsindən fərqli olaraq Albaniya Arşakilər sülaləsi mənşəcə türk idi) nümayəndəsi ***I Cəsur Vaçaqan*** Albaniyanın bütün vilayətlərini birləşdirərək, vahid-mərkəzləşdirilmiş dövlət yaratdı. Arşakilər sülaləsi *VI əsrin əvvələrinədək* Albaniyanın müstəqilliyini qoruyub saxlamışlar.

3. Sasani-Bizans müharibələri və Azərbaycan

260-cı ildə Sasani şahı ***I Şapur (241-271)*** Roma ordusunu məğlubiyyətə uğratdı. Roma imperatoru ***Valerian*** əsir düşdü. Albaniya hökmdarı ***I Vaçe (255-262)*** Roma ilə ittifaqı Sasanilərə tabe olmaqdan üstün tuturdu. ***262-ci ildə*** Albaniya Sasani imperiyasının tərkibinə daxil edildi. I Şapurun ölümündən sonra ***272-ci ildə*** Albaniya yenə də müstəqillik əldə etdi [8, s. 178]. Roma imperatoru ***Avrelianın (270-275)*** hakimiyyəti dövründə Albaniyada yenə də Romaya meyilli siyasət aparılırdı. İranda ***II Şapurun (309-379)*** hakimiyyəti dövründə Albaniyada daxili vəziyyət mürəkkəbləşdi. Bu dövrdə Albaniyanın ***Paytakaran vilayətində*** hökmdar ***Sanatürk (290-338)*** müstəqilliyi qoruyub saxlamaq, Erməni çarlığı və ona arxa olan Romanın işğalçılıq niyyətinin və xristianlığın Albaniyada yayılmasının qarşısını almaq siyasəti aparırdı. Sanatürk ***337-ci ildə*** albanlardan ibarət 30 minlik ordu toplayıb Erməni çarlığına hücum etdi. Paytaxt Valarşapatı tutdu. Erməni hökmdarı Xosrov qaçıb gizləndi. ***338-ci ildə*** yunan, iber və erməni qoşun birləşmələri Sanatürkün dəstələrini Paytakarana sıxışdırdılar. II Sapur Sanatürkə kömək etmədi. Sanatürkün bu döyüşdə həlak olduğu göstərilir, lakin Sanatürk həlak olsa da, onun ermənilərə vurduğu zərbə onların xristianlığı yaymaq yolu ilə Azərbaycan torpaqlarını işğal etmək planlarını birdəfəlik iflasa uğratdı. Sanatürklə bağlanmış sazişə görə şimal tayfalarından biri olan ***hunlar*** Albaniyanı 4 il erməni müdaxiləsindən qorudular. Sasani hökmdarı II Şapur öz qohumu Arşaki nümayəndəsi ***Urnayrı (313-371)*** Albaniyada hakimiyyətə gətirdi. O, Albaniya daxilində qismən müstəqillik siyasəti, xarici siyasətdə isə Sasani şahı II Şapurla müttəfiqlik münasibətləri saxlayırdı. ***313-cü ildə*** Urnayr ***xristianlığı*** dövlət dini elan etdi [2, s. 80].

II Şapur Erməni çarlığının havadarı olan Romaya qarşı yürüş təşkil etdi. ***359-cu ildə Amid*** yaxınlığında başlanan döyüş II Şapurun qələbəsi ilə başa çatdı [8, s. 181]. Bu döyüşdə Alban

çarı Urnayr öz ölkəsinin müstəqilliyini qoruyub saxlamaq və Erməni çarlığı tərəfindən tutulmuş Alban ərazilərini qaytarmaq məqsədi ilə Sasanilər tərəfindən vuruşurdu. Albaniyanın Arsax (Qarabağ), Marlar ölkəsi (Naxçıvan), Kaspiana və s. vilayətləri geri qaytarıldı. Sasani şahı II Şapur xristian dininə qarşı təqibi gücləndirdi. Roma imperatoru ***Valent (364-378)*** Erməni çarlığında Roma təsirini bərpa etmək üçün ***371-ci ildə Dzirav*** yaxınlığında döyüşə başladı [2, s. 69]. Döyüşdə romalıların köməyi ilə ermənilər qalib gəldi, Urnayr ağır yaralandı. Albaniya Uti, Şakasen, Girdiman vadisi və Kolt (Albaniyanın qərb vilayəti) vilayətlərindən məhrum oldu. İtirilmiş vilayətlər ***387-ci ildə*** Roma ilə Sasanilər arasında bağlanmış müqaviləyə əsasən geri qaytarıldı. Erməni çarlığı hər iki dövlət arasında bölüşdürüldü [2, s. 17, 22], ***428-ci ildə*** isə Sasani hakimiyyəti Erməni çarlığında dövlətçiliyi ləğv edib, onu ***əyalətə*** çevirdi [2, s. 70].

IV əsrin əvvəllərində Albaniyada ***xristianlıq*** yayılmağa başladı. Lakin bu dini yalnız Qarabağın dağlıq hissəsində yaşayan feodal əyanları qəbul etdilər. Sasani şahı ***I Yezdəgerd*** xristianlığa imkan verirdi, ***II Yezdəgerd (438-457)*** isə xristianlığa qarşı mübarizəni gücləndirirdi. Şah Albaniyanın və başqa ölkələrin hakimlərini Ktesifona çağırtdıraraq onları atəşpərəstliyi qəbul etməyə məcbur etdi. Yezdəgerdin bacısı oğlu alban hökmdarı ***II Vaçe (440-463)*** dayısının təzyiqi ilə xristianlıqdan imtina edib, atəşpərəstliyi qəbul etdi. Sünik hökmdarı Vasak Albaniyada atəşpərəstlik dini uğrunda mübarizə aparırdı.

Azərbaycan torpaqlarında bütün inzibati və məhkəmə hakimiyyəti ***Sasani mərzbanlarının*** əlində toplanmışdır. Onların hətta ölüm hökmü çıxarmaq hüququ var idi. Sasani şahları etnik dayaq yaratmaq və torpaqsız İran kəndlilərini münbit torpaq sahələri ilə təmin etmək məqsədilə köçürmə siyasəti aparırdılar. Fars ləhcələrində danışan əhali – ***tatlar (“yad, özgə”)*** strateji əhəmiyyəti olan ərazilərdə məskunlaşdırılırdı. ***“Tat”*** anlayışı

həm İrandan gəlmiş ***farsları***, həm də ***türk mənşəli etnosları (uyğur, tabqacları)*** bildirirdi.

Dini zəmində Sasani hakimiyyətinə qarşı narazılıqlardan biri Cənubi Qafqazın xristian əhalisinin üsyanı idi. ***450-ci ildə Xalxal*** (Qazax bölgəsində) yaxınlığında döyüşdə Sasani hərbi dəstələri üsyançılar tərəfindən məğlub edildilər [8, s. 185-186]. ***II Yezdəgerd*** Ön Qafqaza Mihr-Nerseyin başçılığı altında ordu göndərdi, üsyançıların xeyli hissəsini hədiyyələr və vədlərlə üsyandan yayındırmağa müvəffəq oldu, xristianlığa qarşı təqibi dayandırdı. Albaniyanın Aran hissəsində köhnə dinlərə, atəşpərəstliyə ibadət bərpa edildi. ***451-ci ilin iyun ayının 3-də Maku*** yaxınlığındakı ***Avarayr*** çölündə üsyançılarla baş verən döyüş Sasanilərin qələbəsi ilə qurtardı [2, s. 72].

Sasani hakimiyyətinə qarşı dini zəmində ən böyük üsyan ***457-463-cü illər*** II Vaçenin başçılığı altında ***albanların*** üsyanı idi [2, s. 72]. ***457-ci ildə*** II Yezdəgerdin vəfatından sonra Alban çarı ***II Vaçe*** atəşpərəstlik dinindən imtina edib, xristianlığı qəbul etdi. O, Albaniyada xristianlığı yaymaqla Sasani hakimiyyətinin tabeliyindən çıxmaq istədi. II Vaçe Çora dərəsini tutdu, maskutları öz tərəfinə çəkdi, Qafqazın 11 hökmdarı ilə ittifaqa girdi. İlk dövrdə ***Sasani şahı Firuz (459-484)*** qohumu ***II Vaçeni*** xoşluqla yola gətirmək istəyirdi, lakin ***459-cu ildə*** Vaçenin "tabe olmaqdan qəti imtina etməsindən" sonra Firuz ***Haylandur (Onoqur) hunlarını*** alban hökmdarına qarşı müharibəyə qaldırdı. Onlar ***462-ci ildə*** Albaniyaya hücum etdilər və ***463-cü ildə II Vaçe*** hakimiyyətdən əl çəkməyə məcbur oldu. Vaçenin xahişi ilə atasının miras qoyduğu mülk, min evdən ibarət təsərrüfat şah Firuz tərəfindən onun sərəncamına verildi. O, adi zahid həyatı sürməyə başladı. II Vaçedən III Mömin Vaçaqana kimi Albaniya ***30 il*** hökmdarsız qaldı. Sasani şahı ***Valarş (484-488) III Mömin Vaçaqanın (487-510)*** Albaniyada hökmdar olmasına razılıq verdi [2, s. 74]. İranda hakimiyyətə I Qubad gəldi. III Vaçaqan hakimiyyətə müvəqqəti olsa da Arsax ərazisində, ***493-cü ildə*** isə Al-

baniyada tam sahib oldu. O, xristian dininin təbliğinə başladı. III Mömin Vaçaqan ***488-ci ildə*** *Aquen kilsə məclisini* çağırdı və xristian dininə aid qanunlar qəbul etdi. O, vergilərin miqdarını müəyyənləşdirdi [2, s. 86].

510-cu ildə Sasanilər dövləti Ön Qafqazda müstəqil dövlət qurumlarını ləğv etdilər. ***Albaniyada Sasani məzrbanlığının (510-629)*** uzunmüddətli hökmranlığı dövrü başlandı [8, s. 189].

III əsrdə Maninin başçılığı ilə Sasani dövlətində azadlıq hərəkatı yayıldı. Mani tərəfindən yaradılan yeni din yüksək zümrələrin ağalığına, dünyəvi və dini başçıların istismarına qarşı xalq kütlələrinin etirazını əks etdirirdi. ***Maniçilər*** Xeyirin Şər üzərində qələbəsinin mümkünlüyünü inkar edirdilər. ***Maniçilər*** məzdəkilər hərəkatına güclü təsir göstərmişdilər.

481-529-cu illərdə başlanan ***Məzdəkilər hərəkatının*** əsas təlimi ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq idi. Bu təlimə görə Xeyirin Şər üzərində qələbəsini ***Allahın və işıqlı qüvvələrin*** köməyi ilə təmin etmək olar. ***I Qubadın (488-531)*** hakimiyyəti dövründə məzdəkilər hərəkatı geniş vüsət aldı. I Qubad məzdəkiləri himayə etməyə başladı. Belə ki, o, iri feodalların gündən-günə artan təsirinə qarşı mübarizədə bu hərəkatdan istifadə etdi, lakin məzdəkilər hərəkatı hakimiyyət üçün təhlükəyə çevrildiyindən ***I Qubad*** və oğlu ***Xosrov (531-579)*** usyançılara qanlı divan tutdular. ***Məzdək 529-cu ildə*** edam edildi, *80 mindən artıq adamı* öldürüldü. Digər tərəfdən, Sasani dövlətinin mürəkkəb daxili vəziyyətindən istifadə edən ermənilər Bizansa arxalanaraq, xristian dini pərdəsi altında Sasani hakimiyyətinə qarşı çıxır, Azərbaycan torpaqlarını işğal etmək siyasəti yeridirdilər. Bizans və İrandakı siyasi hərc-mərclik Azərbaycan ərazisində, xüsusilə Albaniyada xristianlığın mövqeyini zəiflədir, türk etnosların siyasi üstünlüyü şəraitində birləşməsini təmin edirdi.

Mehranilər sülaləsi. Girdiman dövləti. *VII əsrin əvvəllərində* Albaniyanın ***Girdiman vilayətində*** (Şəmkir-Qazax bölgə-

si) ***Mehranilər sülaləsinin*** hökmranlığı yaranmışdır. Dövlətin mərkəzi Partav (Bərdə) idi. Mehranilər sülaləsinin banisi Sasani şahı II Xosrovun qohumu ***Mehran (570-590)*** idi. II Xosrovun atasının ölümündə təqsirləndirilən Mehran Albaniyaya Uti vilayətinə qaçaraq xəzərlərlə birləşmək istəyirdi. Bundan ehtiyatlanan II Xosrov Mehrana Albaniyada istədiyi yerə sahib olmaq icazəsini verdi. Mehran Girdiman vilayətində Mehrəvan şəhərini saldırdı. Girdiman vilayətində *VI əsrin 70-ci illərində* türk mənşəli *Sabir tayfaları* məskunlaşmışdılar. Mehran sabir türklərinin nəslindən idi. ***591-ci ildə*** Bizansla İran arasında bağlanmış müqaviləyə əsasən Girdiman vilayəti Sasanilərin hakimiyyəti altında qalmışdır [8, s. 197]. Alban-Sabir mənşəli Mehranilər sülaləsi Albaniyada öz hakimiyyətlərini möhkəmləndirdi. Mehran yerli əyanlardan 12 nəfəri öldürüb bütün Girdiman vilayətinə sahib oldu. Onun nəticəsi ***Vardan (600-615)*** Girdiman qalasını tikdirdi. Vardanın nəvəsi ***Varaz Qriqor (630-642)*** Bizans imperatoru İraklinin siyasi təsiri altına düşdü. Bu zaman xəzər türkləri Bizansla ittifaqa girib Sasanilərə qarşı mübarizə aparırdılar. VII əsrin 30-cu illərinin əvvəllərində Xəzər xaqanının öldürülməsi ilə hakimiyyət uğrunda gedən mübarizə nəticəsində xəzərlərin Albaniyadakı ağalığına müvəqqəti olaraq son qoyulması, Bizans və Sasani dövlətlərinin bir-biri ilə apardıqları aramsız müharibələrdən əhalinin yorulması kimi tarixi vəziyyət Albaniyanın müstəqil olmasına şərait yaratdı. Beləliklə, ***Varaz Qriqor (630-642)***, sonra oğlu ***Cavanşir (642-681)*** bütün Albaniyanın hakiminə çevrildilər. ***Cavanşir*** Bərdəni paytaxt seçdi. İlk dövrdə o, Sasani şahı ***III Yezdəgerdə*** tabe idi və ərəblərə qarşı vuruşurdu. ***651-ci ildə*** Sasani dövləti Ərəb xilafəti tərəfindən süquta uğradı. Cavanşir Bizans imperatorunun tərəfinə keçdi. ***II Konstatinin (641-668)*** himayəsi sayəsində Cavanşir İberiya sərhədlərindən Araz çayına və "Hun darvazalarına" (Dərbəndə) kimi ərazini əhatə edən Alban ölkəsinin hakiminə çevrildi [8, s. 197-198]. Bu dövrdə Xəzər türklərinin Albaniyaya təkrar hücumlarından ölkə-

ni xilas etmək üçün Cavanşir Xəzər xaqanının qızı ilə evləndi. Cavanşir cənubdan gələn təhlükəni Albaniyadan sovuşdurmaq və Albaniyanın ərazi bütövlüyünü qoruyub saxlamaq məqsədi ilə bu dövrdə güclü bir imperiyaya çevrilən Ərəb xilafətinin tabeçiliyinə keçdi.

Erkən Orta əsrlərdə (III-VII əsr) Azərbaycan torpaqlarının vahid dövlətin - Sasanilərin tərkibində olması mədəniyyətin inkişafında böyük rol oynamışdır. Güman edilir ki, Atropatenada Sasani dövlətində tətbiq olunan pəhləvi yazı sistemindən, V əsrin əvvəllərində albanlar isə ***52 işarədən ibarət fışıltılı və boğaz səsi*** ilə zəngin olan öz əlifbasından istifadə edirdilər. 1948-ci ildə Mingəçevirdə aşkar edilmiş qısamətnli epiqrafik abidələr bu yazının bir növüdür. Yazı 21 işarədən ibarətdir, 4 sətirlidir. Üzərində alban yazısı olan dördkünclü ştamp da tapılmışdır. *V əsrdə* ***alban dilində Fərman*** tərtib edilmişdir. *VII əsrdə İslam dinini* qəbul etmiş Azərbaycan əhalisi *ərəb əlifbasından* istifadə etməyə başlamışdır.

Bu dövrdə mövcud olan şəhərlərdən Dərbənd, Bərdə (Partav), Çola (Çora), Hunarakert (Hun), Paytakaran, Təbriz, Şiz, Ərdəbil, Naxçıvan, Gəncə, Şəki, Şəmkir, Qəbələ, Şabran, Xalxal, Beyləqan və s. adlarını çəkmək olar. Şimala gedən yollar üzərində sədlər tikilmişdir. Beşbarmaq dağından dənizədək qoşa divar uzanırdı. Şirvan səddi (Gilgilçay boyu) Beşbarmaq divarından 23 km şimalda çəkilmişdir. Çıraqqala bu səddin başlanğıcında dağ zirvəsində yerləşirdi. Digər sədd Samur çayından şimalda inşa edilmişdir. Ən əzəmətli Dərbənd səddi yüksəklikdən dənizin içinədək uzanırdı. Orta hissəsində qala var idi. Azərbaycan ərazisində Torpaqqala (Alazan çayı sahili), Govuqqala (Ağdam), Cavanşir (İsmayıllı), Çarabkert (Ağdam) qalaları inşa olunmuşdur. Alban məbədlərinin qalıqlarına Qəbələ, Qax, Yuxarı Qarabağ, Şəki, Zaqatala, Mingəçevir, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı və s. yerlərdə rast gəlinir.

Azərbaycanda təkallahlığa (monoteizmə) keçid tam müstəqil dövlət olmaması şəraitində baş verirdi. Zərdüştlüyün təkallahlığa çağırışı Azərbaycan torpaqlarında (eləcə də İranda) atəşpərəstlik dini ehkamına qarışdı. Sasani hakimiyyəti illərində Mani, sonra məzdəkilərin təlimlərində Xeyirlə Şərin mübarizəsi ideyası Zərdüştlük dininin təsiri altında meydana gəlmişdir. Atəşpərəstlik, oda sitayiş Sasani imperiyasında dövlət dini səviyyəsinə qaldırılmışdır. Günəşə, Aya, suya, göyə və s. ibadət edilirdi. Sehr, cadu və rəmmallığa inam o qədər dərin imiş ki, Azərbaycan ərazisində xristianlığı yayanlar ilk növbədə bu işlərlə məşğul olanları cəzalandırırdılar. Xristianlıq zorla qəbul edilirdi, lakin Albaniyada çoxları qədim dinlərini qoruyub saxlaya bildilər. *Erkən Orta əsrlərdə* Azərbaycanda ***alban, kaspi, müğ, qarqar, udin, girdiman*** adlarını daşıyan əhali yaşayırdı. Azərbaycanda yaşayan etnosların çoxu (*alban, qarqar, uti, sovde, sakasen, hun, girdiman* və s.) ***türk mənşəli*** idi. Qədim və Erkən Orta əsrlərdə Azərbaycana ***2 böyük etnik axın*** olmuşdur: *I axında türk mənşəli kimmer, skit, sak tayfaları, II axında isə türk mənşəli hun tayfaları (kəngər, peçənək, onoqur, sabir, hun, herlat, oğuz və b.)*. İlk oğuzlar ümumtürk məkanının tərkib hissəsi olan Cənubi Qafqaza, o cümlədən, Azərbaycan ərazisinə Dərbənd keçidi və Böyük Qafqazın başqa dağ aşırımlarından keçərək yayılmışdılar.

Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda Sasani imperiyasının tərkibində olması mütərəqqi hadisə idi. Çünki ölkənin bütün bölgələri arasında daxili əlaqələr, ilk növbədə ticarət əlaqələri genişləndi. Ölkəmizin etnik-siyasi və mədəni birliyinin yaranması yolunda mühüm irəliləyiş baş verdi. Sasani əsarətinə qarşı uzunsürən azadlıq mübarizəsi ölkənin türk və qeyri-türk əhalisini daha sıx birləşdirdi, onların qaynayıb-qarışmasına müsbət təsir göstərdi. Beləliklə, vahid xalqın yaranması prosesi sürətləndi.

4. Azərbaycan torpaqları Ərəb Xilafətinin tərkibində. İslam dininin yayılması

Ön Qafqaz uğrunda ***III əsrdən*** başlamış və fasilələrlə davam edən Bizans və Sasani imperiyaları arasındakı müharibələr hər iki dövləti xeyli zəiflətmişdir. ***VII əsrin əvvəllərində*** müharibənin yeni, eyni zamanda son mərhələsi ***603-cü ildə*** Sasani hökmdarı ***Xosrov Pərvizin (591-628)*** hücumu ilə başladı və ***25 il*** davam etdi. Müharibənin əvvəllərində İran qoşunu üstünlüyü ələ alaraq, Misiri tutdu, Bizansın paytaxtı Konstantinopolu təhlükə qarşısında qoydu. Lakin ***623-cü ildə*** 120 min qoşunla Bizans imperatoru II İrakli Dəbili və Naxçıvanı qarət etdi. Azərbaycanın paytaxtı Qazaka şəhərini işğal etdi. Bərdə yaxınlığında Tərtər çayı sahilində düşərgə saldı. Lakin Sasanilər Bizans ordusunu mühasirəyə aldılar. Bizans hökmdarı xəzərlərə xərac və hədiyyələr verərək, onları köməyə çağırdı. ***626-627-ci illərdə*** xəzərlər Sasani ordularına güclü zərbələr endirdilər, imperiyanın paytaxtı Mədain (Ktesifon) şəhərində şahənşahın sarayını yandırdılar. Xosrov Pərviz hakimiyyətdən salındı və edam edildi. ***629-cu ildə*** bağlanan müqavilənin şərtinə görə Albaniya yenə də Sasanilərin hakimiyyəti altında qaldı [8, s. 236-237]. Beləliklə, ərəblərin hücumu ərəfəsində Azərbaycan torpaqları Sasanilərin hakimiyyəti altında olub şimal canişinliyinin tərkibində idi və İrandan tam asılı idi. Albaniya İrandan rəsmən asılı olsa da, daxili müstəqilliyini qoruyub saxlamışdır.

630-cu ildə Ərəbistan yarımadasında yeni dövlətin – ***Ərəb Xilafətinin*** əsası qoyuldu. Dövlətin banisi İslam dininin əsasını qoyan Məhəmməd peyğəmbər idi. Bu hərbi – feodal dövlət yarandığı dövrdən istilalara başladı və ilk zərbə uzun müddət Bizansla müharibələrdə zəifləmiş Sasani İranına vuruldu.

Ərəb ordusu ***633-cü ildə*** İraq tərəfdən Sasani imperiyasının sərhədini keçdi. Albaniya-Girdiman hakimi ***Varaz Qriqor 634-cü ildə*** oğlu ***Cavanşirin*** rəhbərliyi ilə Sasani hökmdarı ***III***

Yezdəgerdin köməyinə qoşun göndərdi. ***636-cı ildə Kadisiyyə*** döyüşündə [2, s. 169-170] Cavanşir igidliyi ilə fərqləndiyinə görə Sasani hökmdarı ona qiymətli hədiyyələr bağışladı. ***638-ci ildə*** ərəblər Sasanilərin paytaxtı Ktesifonu mühasirəyə aldılar. Cavanşir 3 minlik alban qoşunu ilə 6 ay şəhəri müdafiə etdi. İran ordusu darmadağın edildi. Ərəblərə qarşı 7 il vuruşduqdan sonra müharibənin mənasız olduğunu görən Cavanşir ***640-cı ildə*** Albaniyaya qayıtdı və mübarizəni vətənində davam etdirdi. Ərəblər bilirdilər ki, Cavanşirin vətənində onunla vuruşmaq asan olmayacaq. ***Cavanşir (642-681)*** 21 yaşında ikən Albaniyanı idarə etməyə başladı. O, əvvəlcə Albaniyanı İran feodallarından təmizlədi, sonra isə Bərdədə əsir götürülmüş anasını və qardaşlarını xilas etdi**.** ***651-ci ildə*** Sasani imperiyası süqut etdikdən sonra da Cavanşir ərəblərə qarşı mübarizəni vətənində davam etdirməli oldu. Düşmənin gücünü obyektiv qiymətləndirən ***Varaz Qriqor*** oğluna ərəblərlə mübarizə aparmağı məsləhət görmədi, lakin Cavanşir ərəblər Albaniyaya soxulduqda onları qılıncla qarşıladı. O, Bizans imperatoru ilə ittifaqa girdi. ***654-cü*** və ***660-cı illərdə*** Bizans imperatoru ***II Konstantin*** və ***Cavanşir*** görüşdülər [8, s. 244]. Bu dövrdə Albaniyanın üzərini yeni bir təhlükə aldı, bu ***Bələncər*** yaxınlığındakı döyüşdə ərəbləri darmadağın edən ***xəzərlər*** idi. ***VII əsrin 60-cı illərinin əvvəllərində*** onlar şimaldan Albaniyaya soxuldular. Cavanşir Kür çayı yaxınlığında onları məğlub etdi. 3 il sonra xəzərlər böyük qüvvə ilə yenə hücuma keçdilər, Araz çayının sahillərinə qədər gələrək xeyli əsir götürdülər. Cavanşir "nigah diplomatiyası" (Xəzər xaqanının qızı ilə evləndi) vasitəsi ilə sülh bağlayıb xəzərlərin talançı yürüşlərinin qarşısını aldı. Hər il onlara xərac verməyi vəd etdi. Bütün əsirlər və mal-qara geri qaytarıldı. Lakin müəyyən fasilədən sonra xəzərlərin hücumları davam etdi. ***60-cı illərin əvvəllərində*** xilafətdə hakimiyyət ***Əməvilər sülaləsinin*** əlinə keçdi. Albaniyanın Bizansla əlaqəsi ***Ərməniyyə*** ərazisi ilə mümkün idi. ***Ərməniyyə*** ərəblər tərəfindən tutulduqdan sonra bu mümkün olmadı.

Həm də bu dövrdə Bizans Xilafətlə müqayisədə zəifləmişdir. Albaniya təklikdə özünü qorumaq iqtidarında deyildi. Şimaldan xəzərlərin, cənubdan İran feodallarının hücumlarını nəzərə alaraq Alban çarı Cavanşir ***Xilafətlə*** münasibətləri diplomatik yolla nizama saldı. ***667-ci*** və ***670-ci illərdə*** 2 dəfə ***Dəməşq*** şəhərinə gedərək ***xəlifə Müaviyə*** ilə görüşdü. Danışıqlar uğurlu oldu. Xəlifə Albaniyanın ***daxili müstəqilliyinə*** toxunmadı, ***vergiləri 1/3-ə qədər*** azaltdı. Xəlifənin güzəştə getməsinin səbəbi ***Albaniyanın strateji-coğrafi mövqeyi, zəngin sərvətləri və Albaniya hökmdarı Cavanşirin şəxsi nüfuzu*** idi. İlk ərəb işğallarından sonra Azərbaycanın cənub hissəsi-*Adərbayqan* müstəqilliyini tamamilə itirərək, Xəlifənin canişinləri tərəfindən idarə olunurdu. Albaniya isə Cavanşirin uğurlu siyasəti nəticəsində daxili müstəqilliyini qoruyub saxlaya bilmişdir, yalnız Xilafətin vassalı kimi vergi ödəmək şərti ilə ondan asılı idi. Ölkənin daxili müstəqilliyinə nail olan ***Cavanşir*** bir sıra xarici dövlətlərlə diplomatik münasibətlər saxlamağa çalışırdı. O, ölkənin daxilində mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü, müstəqilliyə can atan iri feodallara qarşı ciddi mübarizə apardı. ***Cavanşir 681-ci ildə*** ölkə daxilində mərkəzi hakimiyyətə tabe olmaq istəməyən bizanspərəst feodalların ***sui-qəsdi*** nəticəsində qətlə yetirildi [8, s. 245-246]. Hakimiyyət ***Varaz Tiridata*** keçdi. Xilafət Albaniyanın tədricən daxili müstəqilliyini ləğv etdi, həmin il Cavanşirin intiqamını almaq bəhanəsi ilə xəzərlər hücuma keçdilər, Qəbələni və Bərdəyə qədər olan şəhər və kəndləri soyub taladılar. Varaz Tiridat çətinliklə sülh bağlayıb onları geri qaytardı. *VIII əsrin əvvəllərində* Xilafət yeni işğallara başladiği zaman ərəblər ***705-ci ildə*** Albaniyaya çatdılar. ***Cavanşirin sonuncu varisini ailəsi və yaxın adamları ilə birlikdə Dəməşq şəhərinə*** aparıb edam etdilər. Bununla da Albaniyada ***Mehranilər (629-705) sülaləsinin*** hakimiyyəti sona çatdı və Albaniyanın daxili müstəqilliyi ləğv edildi. Onun idarə olunması ***xəlifənin canişininə*** tapşırıldı.

Ərəblərin Azərbaycan ərazisinə hücumu ***642-ci ildə Nəhavənd*** və ***Həmədan*** döyüşlərindən sonra baş verdi [2, s. 173]. Ərəb ordusu Qum və Kaşanı tutdular, Sasani imperiyası tamamilə dağıdıldı və bunun ardınca onlar Azərbaycan torpaqlarına soxuldular. Azərbaycanın mərzbanı ***İsfəndiyar İbn Fərruxzadın*** başçılığı ilə döyüş ərəblərin qələbəsi ilə başa çatdı. İsfəndiyar əsir götürüldü. Sonra qardaşı Bəhram ərəb sərkədəsi Ukba İbn Farkadla döyüşü davam etdirdi, lakin bu da uğursuz oldu. Ərəblər Gilana və Muğana doğru hərəkət etdilər, Xəzərin qərb sahili ilə şimala doğru irəliləyərək Dərbəndə yetişdilər. Xəlifənin tapşırığı ilə birləşmiş qoşun hissələri ***643-cü ildə*** Dərbənddən şimalda ***I Bələncər*** yaxınlığında xəzərlərlə döyüşə başladılar, lakin məğlub oldular. Ərəb sərkərdəsi ***Əbdürrəhman*** öldürüldü. ***644-cü ildə*** ərəb sərkərdəsi ***Bukayr ibn Abdullahın*** əsirlikdə olan Azərbaycanın mərzbanı ***İsfəndiyar İbn Fərruxzadla*** bağlanmış müqaviləyə görə əhali ***can vergisi-cizyə*** verməli idi. Qadınlar, uşaqlar, xəstələr, imkansızlar can vergisindən azad idilər. Əhali ərəblərə tabe olmalı idi, ərəblər isə onların dininə, adət-ənənələrinə və məişət işlərinə qarışmamağı öhdələrinə götürdülər, onlara tabe olmayıb ölkəni tərk etmək istəyənlərə imkan yaradırdılar. Ərəb ordusunda qulluq etmək istəyənləri vergi və mükəlləfiyyətdən azad edirdilər.

Əhali müqavilənin şərtlərinə əməl etməyərək ərəblərə qarşı üsyan etdi. ***646-cı ildə*** buraya yeni ərəb qoşunu gəldi və yeni müqavilə imzalandı. Vergilərin miqdarı əvvəlkindən xeyli artırıldı. Albaniyada ərəblər ciddi müqavimətə rast gəldilər. Ərəblər etiraf edirdilər ki, bu vaxta qədər vuruşduqları ölkələrin heç birində Azərbaycanda olduğu qədər güclü müqavimətə rast gəlməmişdilər. Sərkərdə ***Salmanın*** (Əbrürrəhmanın qardaşı) başçılığı ilə Azərbaycana daha güclü ordu göndərildi. Naxçıvan, Şəki, Gorus, Beyləqan və Bərdəni işğal etdikdən sonra müqavilə bağlandı. Onlar Qəbələ, Şəmkir, Şəki, Şirvan və Şabranı çapıb taladılar. Lakin bu uğurlar asanlıqla başa gəlmədi. ***653-cü ildə*** Dər-

bənddən şimalda ***II Bələncər*** yaxınlığında ***xəzərlərlə*** döyüşdə ərəblər məğlub oldular, sərkərdə ***Salman*** öldürüldü. Ərəblər türk döyüşçülərinin igidliyinə heyran idilər. Böyük itkilər olsa da ərəblər Azərbaycan uğrunda mübarizəni davam etdirirdilər. VII əsrdə təsadüfü hallarda baş verən müharibələr VIII əsrdə kiçik fasilələrlə əsrin sonuna qədər davam etdi. ***730-731-ci*** *illərdə* ***300 minlik ordu ilə xəzərlər*** ərəbləri Ərdəbilə sıxışdırdılar. ***Savalan dağı*** yaxınlığında xəzərlər ***qələbə*** çaldı. Diyarbəkrə və Mosula çatan xəzərlərin hücumunu Van gölü yaxınlığında Hilat şəhəri ətrafında çətinliklə dayandırdılar. Ərəblər böyük ordu ilə hücuma keçdilər və xəzərləri Azərbaycandan çıxardılar. Sülh bağlayan xəzərlərin bir hissəsi İslam dinini qəbul etdi. ***Xəlifə Harun ər-Rəşidin*** dövründə-***VIII əsrin 90-cı illərində*** xəzərlər 100 minlik qoşunla Azərbaycanın şimal hissəsini talan etdilər. Xəzər-ərəb müharibələri Azərbaycana dağıntı və fəlakət gətirdi. 100 illik mübarizədən sonra ərəb orduları Azərbaycanın istilasını başa çatdırdılar. Ərəblər əhali ilə mülayim rəftar etməyə və lazım gəldikdə onlara güzəştə getməyə məcbur oldular. Xəlifə Əbubəkr sərkərdələrinə göstəriş vermişdir ki, adamları şikəst etməsinlər, qocaları, uşaqları və qadınları öldürməsinlər. Əhalinin adət-ənənələrinə toxunmasınlar. Bununla da əhalidə ərəblərə qarşı münasibət mülayimləşdi. Xilafətin topladığı vergi və töycülər Sasani imperiyasındakından qat-qat az idi. Xalq yadellilərin dağıdıcı basqınlarından, Sasani - Bizans müharibələrindən hədsiz dərəcədə əziyyət çəkirdi.

Azərbaycan torpaqlarında ***İslam dininin yayılması*** siyasi sabitlik və milli birlik üçün təminat verirdi, belə ki, yeni din humanist, ümidverici, obyektiv və ədalətli idi. İslam qanunları və ehkamları adamları pis əməllərdən çəkindirir, qəlbləri paklaşdırır, onlarda yüksək hisslər və vərdişlər yaradırdı. Başqasının əməyinə və sərvətinə göz dikməməyə, kimsəsizlərə, şikəstlərə, əlacsızlara yardım əli uzatmağa, paxıllıqdan, xudpəsəndlikdən, lovğalıqdan uzaq olmağa çağırırdı.

"İslam" adı, s-l-m (سلم) kökündən törənmişdir. Bu kökün ümumi olaraq qəbul edilən iki anlamı vardır:

1.Sülh (salam da bu kökdəndir);

2.Boyun əymək, itaət etmək (Allaha təslim olmaq).

İslam yeganə ***Allaha*** (ərəb. الله) itaət etmək deməkdir.

"İslamın əsas ehkamı tək həqiqi ilahini – ***Allahı*** tanımaqdır. Çoxallahlılıq ən ağır günah hesab olunur. Allah göylərin və Yerin, onların üzərində nə varsa hamısının xaliqidir və insanlar üzərində hökm sürür. Axirətdə səbrli möminləri zövq-ləzzət, günahlıları isə cəhənnəm atəşi gözləyir" [103, s. 131].

İslamın əsas ehkamı ***tövhid, nübuvvət*** və ***məaddır*** [103, s. 131].

Tövhid – Allahı ibadətə layiq olan yeganə haqq məbud bilməkdir və özündə Allahın adil (ədalətli) olmasını ehtiva edir, yəni O, hər bir şeyi hikmət üzündən yaradır.

Nübuvvət sonuncusu ***Məhəmməd peyğəmbər*** olmaqla *124 000 peyğəmbərin* Allah tərəfindən insanları haqqa dəvət etmək üçün seçdiyinə, eləcə də mələklərə və onların peyğəmbərlərə gətirdiyi vəhyə və bu kitablara iman gətirməkdir. İslamın şiə məzhəbində hər bir peyğəmbər kimi, Məhəmməd peyğəmbər üçün də Allah tərəfindən təyin olunan canişinlərin – ***12 imamın*** haqq olduğuna iman gətirilməlidir.

Məad – hər bir insanın dünyasını dəyişməsinə və Qiyamət günü dirildilərək Allah qarşısında hesab verməsinə iman gətirməkdir.

İslam dininin ilk yüzilliyində parçalanma getdi – müsəlmanlar sünni və şiələrə bölündülər [103, s. 132].

Quran – İslam dininin müqəddəs və ən əsas kitabıdır. ***610-632-ci illər*** arasında ***Məhəmməd (s)*** tərəfindən əsasən Məkkə və Mədinədə ***Allahdan*** nazil olan, "peyğəmbər vəhyləri"nin sonradan kitab halında yaranmış şəklidir. Quran Allahın buyurduğu sözlərdir, Allah tərəfindən birbaşa deyil, ***Cəbrayıl (ə)*** adlı mələyi vasitəsi ilə ***Hz. Məhəmmədə*** vəhy edilmişdir [103, s. 157]. Qu-

ranın özünəməxsus adı olan *114 surəsi* və *6236 ayəsi* var. Quranın *ən uzun surəsi* ***Bəqərə*** *surəsi, ən qısa surəsi isə* ***Kövsər*** *surəsidir.* Quranın *ən uzun ayəsi* ***Bəqərə*** *surəsinin* ***282-ci*** *ayəsidir*. Quranı digər səmavi kitablardan fərqləndirən əsas cəhət onun uzun zaman müddətində – ***23 ilə*** hissə-hissə nazil olunmasıdır [103, s. 155]. Bəzilərinə görə Bəqərə surəsinin sonuncu 2 ayəsi Allah tərəfindən birbaşa Məhəmməd peyğəmbərə (s) vəhy edilmişdir.

Quran *kəliməsinin* mənası ***oxumaq, qiraət etmək*** deməkdir. Quran ləfzi və mənaları ***vəhyə*** istinad edən, ***Cəbrayıl (ə)*** vasitəsiylə son nəbi ***Məhəmmədə (s)*** endirilən, qiraətiylə ibadət edilən, özünə xas xüsusiyyətləri olan ***Fatihə surəsi*** ilə başlayıb ***Nas surəsi*** ilə bitən səmavi kitabdır [103, s. 154]. Quranın kitab kimi tərtibinə Yəmamədə baş verən müharibələr zamanı Quranı əzbər bilən 70-ə qədər əshabənin kütləvi şəkildə şəhid olmasından sonra ***Xəlifə Ömərin*** təşəbbüsü ilə ***Xəlifə Əbu Bəkrin*** dövründə başlanmış, ***Xəlifə Osmanın*** dövründə davam etdirilmişdir. Əbu Bəkr bu işi Peyğəmbər əleyhissəlamın vəhy katiblərindən biri ***Zeyd ibn Sabit*** başda olmaqla Allahın kəlamlarını əzbər bilən *İmam Əli (ə), Osman, Übeyy ibn Kab, Abdullah ibn Məsud, Miqdad və Əbu əş-Əşəri* kimi bir neçə əshabəyə tapşırmışdır [103, s. 153].

İslam dini Azərbaycanın cənub hissəsində, Muğan, Mil və Xəzər sahillərində, Kür və Araz çayları boyunda, xüsusilə, şəhərlərdə nisbətən sürətlə yayıldı. İslam dininin Azərbaycan ərazisində yayılması xalqın mənəvi inkişafı üçün əsas oldu, İslama qədərki mədəniyyət məzmununu dəyişərək yeni keyfiyyət kəsb etdi və mədəni yüksəlişə təkan verdi. Yalnız xristianların məskunlaşdığı dağlıq və dağətəyi ərazilərdə yeni dinə müqavimət güclü idi. Digər tərəfdən ***xristianlar*** da *vahid allaha* inandıqlarına və *"əhli-kitab"* olduqlarına görə ərəblər onları təqib etmirdilər.

Xristianlıq (yun. Χριστός — məsh olunmuş) ***İsa Məsihin*** *Əhdi-Cədid dini kitabında* əksini tapmış həyatının təsvirinə və baxışlarına əsaslanan ***monoteist*** dünya dinidir. Digər adları: *məsihçilik, məsihilik, nəsraniyyət, tərsa.* Üç əsas dünya dinlərindən (yəhudilik və islamla bərabər) biri, İbrahimi dini kimi də sayılır.

Xristianlar inanırlar ki, *Nazaretli* olan ***İsa*** "məsh olunmuş ilahi varlıqdır (*Məsihdir*)", *Tanrının Kəlamıdır*, *bəşər olmuş Kəlamdır*, *Allahdır* və *bəşəriyyəti xilas edəcək Məsihdir*.

İsa – İslamda 5 ulul-əzm peyğəmbərdən biridir, xristianlıqda *Allahın bədənli mücəssəməsidir*. ***Bibliya*** – Xristianlığın Müqəddəs Kitablar toplusudur – ***Əhdi-Ətiq*** və ***Əhdi-Cədid*** adlı toplulara bölünür. Əhdi-Ətiq xristian kilsəsi tərəfindən qəbul edilən qədim yəhudi dininin Müqəddəs Kitablarıdır. *Bibliya* ***66 kitabdan*** ibarətdir.

863-cü ildən sonra Qərb və Şərq Kilsələri arasında Xristian kilsəsinin parçalanmasına gətirən ilk ixtilaf baş verdi. Xristianlar Tanrının üç sifətdən (***Ata, Oğul və Müqəddəs Ruh***) ibarət olduğunu iddia edirlər: 3-cü sifət olan həyatverici Müqəddəs Ruhun Atadan və ya Oğuldan çıxması haqqında gərgin mübahisələr, Kilsənin əqidə nöqteyi-nəzərindən parçalanmasına gətirib çıxardı. *Şərq Kilsəsi* Müqəddəs Ruhun Oğuldan deyil, yalnız Atadan çıxmasını, *Qərb Kilsəsi* isə Müqəddəs Ruhun təkcə Atadan deyil, həm də Oğuldan çıxmasını (latınca filioque) iddia edirdilər. *1054-cü ildə* Xristian kilsəsi parçalanaraq *Şərq (yunan) kilsəsi* ***ortodoks (pravoslav),*** *Qərb (latın) kilsəsi* isə ***katolik*** adlandırıldı [33, s. 134.].

Ortodoksiya (yunanca "orthodoxos") - hər hansı bir təlimin, dünyagörüşünün, təməl xəttini əks etdirən təlimdir və nüfuzlu dini qurumlar tərəfindən dəstəklənirdi.

Heres (yunanca "hairesis") sözünün iki mənası vardır: 1) Rəsmi (ortodoks) dinin ehkam və təşkilat formalarından fərqlənən dini təlim; 2) qəbul olunmuş dünyagörüşündən və qaydalardan yayınma. Hərfi mənada isə *"hairesis"* sözü yunan dilində

"özəl dini təlim" deməkdir və ortodoksiya tərəfindən qəbul edilmir, bu sözlə dinə yenilik gətirənləri (*bidətçiləri)* də adlandırırlar [33, s. 14.].

Xristianlıq Azərbaycan ərazisinə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir. ***451-ci ildə*** *Xalkidon kilsə* toplantısında Albaniya ***monofizitliyi,*** *VI əsrin sonu - VII əsrin əvvəllərində* isə Alban kilsəsi ***diofizitliyi*** qəbul etdi. İslam fütuhatlarından, xüsusilə Alban çarlığının süqutundan sonra ölkədə xristianlığın rolu zəiflədi, kilsələrdə ibadət erməni dilində aparılmağa başlandı, Alban dili demək olar ki, sıxışdırılıb çıxarıldı. ***VIII-IX əsrlərdə***, Azərbaycan ərazisində müstəqil dövlətlərin yarandığı dövrdə *Alban kilsəsi avtokefal kilsə statusunu* yenidən bərpa etdi. ***X-XI əsrlərdə*** bölgədə *şərq xristianlığı* nüfuzunu müəyyən dərəcədə qoruyub saxlaya bildi. ***1836-cı ildə*** çar hökuməti Sinodun təqdimatı ilə *Alban kilsəsini ləğv etdi* və kilsənin bütün əmlakını *Eçmiədzin katolikosluğuna verdi*. ***XX əsrin 80-90-cı illərində*** Alban kilsəsi bir daha bərpa olundu. Azərbaycanda xristianlıq özünün *pravoslavlıq, katoliklik* və *protestantlıq* qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunurdu [613].

5.Xürrəmilər hərəkatı

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı Xilafətin mərkəzində və asılı ölkələrdə mübarizə kəskinləşdi. Mərkəzdəki üsyanın əsas iştirakçıları ***xaricilər*** deyilən dini təriqətin tərəfdarları idi. Onlar xəlifənin xalq tərəfindən seçilməsini tələb edirdi. Azərbaycanda ərəblərə qarşı çıxışlar ***748-752-ci illərdə*** geniş vüsət aldı. ***748-ci ildə Beyləqanda*** başlanan üsyan digər əyalət və şəhərlərə, ***Bərdə*** və ***Ərdəbilə*** yayıldı [8, s. 256]. Üsyana ***Müsafir*** adlı qəssab başçılıq edirdi. Ərəb əmirləri qorxaraq üsyanın rəhbərlərindən bir neçəsini həbs etdilər. Bundan qəzəblənən üsyançılar şəhər əhalisinin köməyi ilə qalaya girib, ərəbləri qılıncdan keçirdilər, əmiri əsir aldılar, məhbusları azad etdilər, sonra Bərdə üsyançılarına köməyə getdilər, orada

da əmiri əsir alıb öldürdülər. Üsyanı yatırmaq üçün gələn yeni ordu da məğlubiyyətə uğradı. Xalq hərəkatı bütün Azərbaycan torpaqlarını bürüdü. Hakimiyyəti ələ keçirən Abbasilər bütün üsyanları amansızlıqla yatıra bildilər. Lakin ***VIII əsrin 2-ci yarısında*** Azərbaycanda Xilafətə qarşı çıxışlar yenidən gücləndi. ***Xəlifə Harun ər-Rəşidin*** hakimiyyəti dövründə ***15-dən artıq üsyan*** baş vermişdir. Üsyanların əsas mərkəzi Beyləqan və Bərdə idi. Üsyan Şirvanı, Dağıstanı və Azərbaycanın bütün əyalətlərini bürüdü. Dərbəndlilər üsyanda xüsusilə fərqlənirdilər.

Azərbaycan ərazilərində azadlıq mübarizələrindən biri olan ***xürrəmilər hərəkatı*** (qədim pəhləvi dilində əbədi od, günəş) müəyyən fasilələrlə ***60 ildən artıq*** davam etmişdir. Onların şüarı torpağı və istehsal vasitələrini hakim təbəqənin asılılığından xilas etmək idi. Xürrəmilər sosial bərabərlik uğrunda mübarizə aparır, bütün təbəqələrdən olan gənclər üçün istisnasız kəbin hüququ azadlığı, maddi nemətlərin insanlar arasında bərabər bölüşdürülməsi kimi tələblər irəli sürürdülər**.** Feodal istismarına və hakim təbəqənin firavan həyat tərzinə qarşı mübarizə aparan ***məzdəkilərdən*** fərqli olaraq ***xürrəmilər*** Azərbaycanın istiqlaliyyətini bərpa etmək istəyirdilər, Vətəni yadellilərdən qurtarmağa çalışırdılar. Xürrəmilər islamın bəzi ehkamlarına qarşı çıxır, qədim dini ayinləri ona qarşı qoyurdular. Onların fikrincə, dünya əbədi mövcud olduğu kimi, insanın ruhu da əbədidir.

Orta əsrlərdə bütün çıxışlar milli zəmində başlasa da, sonradan siyasi mahiyyət kəsb edərək, azadlıq müharibəsi səviyyəsinə yüksəlmişdir. Bu, Erkən Orta əsrlərdə Şərqdə İslamın bəzi ayinlərinə, feodal zülmünə və ən başlıcası-ərəb əsarətinə qarşı çevrilmiş xalq hərəkatı idi. ***Xürrəmilər*** tarixdə ilk dəfə işğalçılara qarşı mübarizədə azadlıq rəmzi kimi *qırmızı bayraq* qaldırmışlar və mənbələrdə *"əl-müxəmmirə" – "qırmızı geymişlər"* adı ilə məşhur olmuşlar [2, s. 265].

Xürrəmilərə başçılıq edən ***Cavidan*** və ***Əbu İmran*** arasında kəskin mübarizə gedirdi. Cavidan Bəzz qalasının sahibi və xürrəmilərin başçısı idi. O, hər il qış vaxtı Zəncan bazarlarında

qoyun satardı, ***816-cı ildə*** Babəklə də ilk dəfə bazarda rastlaşmışdır və özü ilə Bəzz qalasına gətirmişdir. ***Babək 798-ci ildə*** Ərdəbil yaxınlığındakı Bilalabad kəndində kasıb bir ailədə doğulmuşdur, bir yaşında ikən atasını öldürmüşlər, anası Sərab şəhərinə köçərək oğlunu çətinliklə böyütmüşdür. Babək əvvəlcə çoban, sonra dəvə karvanlarında sarban, Təbrizdə usta yanında şagird işləmişdir. Babəkdən əvvəl ***778-ci ildə*** baş verən üsyan amansızlıqla yatırıldı, ***2-ci üsyan*** isə bundan 30 il sonra xəlifə Harun ər-Rəşidin dövründə Cavidanın başçılığı ilə ***808-ci ildə*** baş verdi [8, s. 261]. Üsyançıların 100 min nəfərdən artıq sayı var idi. Üsyan çətinliklə yatırıldı, 10 minlərlə adam əsir götürüldü, kişilər öldürüldü, qadınlar və uşaqlar qul bazarlarında satıldı. ***816-cı ildə*** növbəti döyüşlərin birində ***Cavidan və Əbu İmran*** bir-birini öldürdülər.

Babəkin başçılığı altında ərəblərin işğalçılıq siyasətinə qarşı azadlıq müharibəsi. Cavidanın ölümündən sonra onun dul qadınının təşəbüsü ilə xürrəmilər icmasının başına 18 yaşlı ***Babək*** keçdi. Babək ondan əvvəl olan üsyanları təhlil etdi, uğursuzluğun səbəblərini araşdırdı və belə qənaətə gəldi ki, xalqı hamılıqla birdən ayağa qaldırıb silahlandırmaqla ölkəni əsarətdən xilas etmək olar. O, öz adamlarını Azərbaycanın hər yerinə göndərərək camaatı ərəblərə qarşı müharibəyə çağırdı. Əsgərlərin sayı o qədər artmışdır ki, piyada hesaba alınmadan, təkcə ***atlılar 20 min nəfər*** idi. Babək orduda ciddi hərbi intizam yaratdı. Xürrəmilərə ***Müaviyyə, Abdulla*** (hər ikisi Babəkin qardaşları), ***Tarxan, Adin, Rüstəm*** və b. başçılıq edirdi. Xürrəmilərin mərkəzi Azərbaycan idi. Təkcə Azərbaycanın cənubunda və Deyləmdə Babəkin tərəfdarları ***300 min nəfərə*** çatırdı. ***819-cu ildə*** xəlifə xürrəmilərə qarşı ilk nizami ordu göndərdi. Xürrəmilər qələbədən sonra 10 ilə yaxın müddətdə Xilafətin bir neçə ordusunu darmadağın etdilər. Babəkilər ***IX əsr 20-ci illərin əvvəllərində*** düşməni məğlub edərək, Syünik, Arsax, Bərdə, Beyləqan və Arranın bir sıra əyalət və şəhərlərini azad etdilər. Babəkin əsas tərəfdarları ***Z.Bünyadovun*** qənaətinə görə, ermənilərdən fərqli

olaraq, alban knyazları idi. ***IX əsrin 20-ci illərinin sonuna*** doğru azadlıq müharibəsi genişlənərək Xilafəti sarsıtdı. Göndərilən güclü ərəb ordusu 2 il hazırlıqdan sonra ***829-cu il iyunun 3-də Həşdadsər*** dağında xürrəmilərlə həlledici savaşa başladı [2, s. 269]. Məqsəd Bəzz qalasını ələ keçirmək idi. 150 minlik ərəb ordusundan 30 min nəfəri məhv edildi. Xəlifənin sevimli sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü. ***830-cu ildə*** xürrəmilər ***Həmədan*** şəhərini tutdular. Bu, ərəb orduları üzərində ***5-ci qələbə*** idi. ***IX əsrin 30-cu illərinin əvvəlləri*** azadlıq müharibəsinin uğurlu dövrü idi. Ərəblər Babəkdən qorxmağa başladılar. ***833-cü ilin sonunda Həmədan*** şəhəri yaxınlığında şiddətli döyüş başladı [8, s. 264]. ***Xürrəmilər ilk dəfə ağır məğlubiyyətə uğradılar*** və böyük itki verdilər**.** Xəlifə Bizansla müharibəni dayandırdı, dövlətin fəaliyyətini, bütün ordunu, maddi və hərbi sursatı Babəkilərə qarşı yönəltdi. Yollar sahmana salındı, yollarda keşikçi məntəqələri yaradıldı. Orduya göndərilən ərzağın, silahın və pulun çatdırılması üçün tədbirlər görüldü. Orduda nizam-intizam möhkəmləndirildi. ***835-ci ildə Afşin*** adlı ***türk mənşəli*** məşhur sərkərdə xürrəmilərə qarşı vuruşan orduya ***baş komandan*** təyin edildi. O, qərargahını xürrəmilərin istehkamına yaxın olan ***Bərzəndə*** köçürdü və əks kəşfiyyatı gücləndirdi. Kəşfiyyat məlumatı toplamaq, xürrəmilər arasında təfriqə salmaq, onların ən yaxşı sərkərdələrini aradan götürməkdən ibarət idi. ***İsma əl-Kürdi, Tarxan*** və b. aradan götürülməsi Babəkə ağır zərbə oldu. Xürrəmilər də tədbirli fəaliyyət göstərirdilər. Lakin azadlıq müharibəsinin illərlə uzanması və geniş əraziləri əhatə etməsi ona rəhbərliyi çətinləşdirirdi. İtkilər az deyildi, adamlar uzun sürən müharibədən yorulmuşdular. Bu düşmənin diqqətini cəlb edirdi. Düşmənə isə müntəzəm olaraq yeni qüvvələr gəlirdi. Afşinin tədbirlərindən qorxuya düşən yerli iri feodallar, Babəkin sadiq tərəfdarları və müttəfiqləri Səhl İbn Sumbat, İbn Bəis, Əbu Musa və b. tədricən ondan uzaqlaşdılar. Afşin hərbi təcrübəyə malik sərkərdə, İranın və Azərbaycanın hakimi, səbrli və tədbirli bir adam idi. Hətta Babəkin casuslarını da öz tərəfinə çəkmişdir. 2

il özünə lazım olan məlumatı topladıqdan sonra həlledici döyüşə hazırlaşdı. Müharibə uzandıqca qüvvələr nisbətindəki fərq ərəblərin xeyrinə dəyişirdi. Buna baxmayaraq, ***xürrəmilər 836-cı ildə Həşdadsər*** *dağı* yaxınlığında döyüşdə ***qələbə*** çaldılar [2, s. 273]. Ərəb sərkərdəsi Buğa döyüş meydanından qaçdı. ***837-ci ildə*** xəlifə Afşinin köməyinə 2 böyük ordu və 30 milyon dirhəm pul göndərdi. Həmin ilin yayında Afşinin qoşunu Bəzz qalasını mühasirəyə aldı. Afşin qan tökülməsin deyə əvvəl Babəkə sülh təklif etdi, bağışlanması haqqda xəlifədən fərman alacağını bildirdi. Bu hər 2 tərəf üçün sərfəli idi. Xəlifənin məqsədi Babək kimi sərkərdəni öz tərəfinə çəkib Bizansa qarşı müharibədə istifadə etmək idi. Lakin Babək əqidəsindən dönməyərək, bu təklifləri xəyanət kimi qiymətləndirdi. Son döyüş ***837-ci il avqustun 26-da*** başlandı. Babəkin müttəfiqi olan Bizans imperatorunun 100 minlik ordusunun arxadan ərəblərə zərbə endirmək cəhdi Bəzz qalasını xilas edə bilmədi. Afşin özü Babəkin sarayına baxan dağın üstündə qurduğu çadırda savaşı izləyirdi. Bəzz qalasının müdafiəsinə ***Babəkin*** etibarlı sərkərdəsi ***Adin (Aydın)*** başçılıq edirdi. Xürrəmilərin qeyri-adi igidliyi ərəbləri heyrətə gətirmişdir. Bu döyüşdə ərəblərdən ***100 min nəfər***, xürrəmilərdən ***80 min nəfər*** həlak oldu [8, s. 266-267]. Ərəblər Afşinin göstərişi ilə ***Bəzz*** *qalasını* ***3 gün*** yandırdılar, ***8 minə*** *yaxın* ***əsir*** götürdülər. Onların içərisində Babəkin ailə üzvləri və yaxın qohumları da var idi. Babək Arazdan keçib Arrana gəldi. Onun məqsədi Bizans imperatorunun yanına getmək, yeni ordu toprayıb müharibəni davam etdirmək idi. Afşin Babəkin bağışlanması haqda xəlifədən məktub aldı, lakin Babək yenə də öz fikrindən dönmədi. Belə olduqda xəlifə onu diri tutub təhvil verənə ***2 milyon dirhəm mükafat*** verəcəyini bəyan etdi. Babək Bazarçayın sol sahilində Şəki qalasında keçmiş müttəfiqi ***Səhl İbn Sumbatla*** qarşılaşdı. Sumbat Babəki aldadıb öz mülkünə gətirərək, onun təhlükəsizliyinə təminat verdi, sonra da xəyanət yolu ilə onu ərəblərə təhvil verdi. Babəki Afşinin Bərzənddəki düşərgəsinə gətirdilər. ***Sentyabrın 15****-də* onu Samirəyə apardılar. ***838-ci il yanvarın 4-***

də onlar ***Samirəyə*** yetişdilər. ***Xəlifə Mötəsimin*** əmri ilə Babək ***martın 14-də*** edam edildi [9, s. 132]. Cəllad əvvəlcə onun dirsəkdən qollarını, qıçlarını, sonra isə başını kəsdi. Heç kəs onun iniltisini eşitmədi. Cəllad onun sağ əlini kəsdikdən sonra Babək sol əli ilə bütün üzünü qana boyadı ki, *bənizinin solğunluğunu ölümdən qorxmaq kimi* hesab etməsinlər. Üsyançıları qorxutmaq üçün başını Xorasana göndərib, bədənini isə hündür bir ağacdan asdılar. Bu qayda ilə Babəkin qardaşı ***Abdullanı*** da Bağdad şəhərində edam etdilər. Xürrəmilər hərəkatı hər şeydən əvvəl istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. ***Babəkin*** *başçılığı ilə* ***20 ildən artıq*** davam edən müharibənin *məğlubiyyətinin səbəbləri* çox idi: ***qüvvələr nisbətindəki böyük fərq****,* azadlıq mücadiləsində ***imtiyazlı təbəqələrin dönüklüyü***, ən başlıcası ***xristian dininə mənsub əyanların xəyanəti*** və ərəblərə kömək etməsi, xilafət tərəfindən ***türk mənşəli sərkərdələrin (Afşin)*** və ***döyüşçülərin*** xürrəmilərə qarşı müharibəyə cəlb edilməsi. Ərəblər yarımmilyon əsgər və zabit itirmişdilər, onlarla ərəb sərkərdəsi öldürüldü və ya əsir götürüldü. Uğursuzluqla nəticələnməsinə baxmayaraq, Xürrəmilər hərəkatı Xilafəti kökündən sarsıtdı, əsarətdə olan digər xalqların azadlıq mübarizəsinə təkan verdi. Azərbaycanda Xilafət əsarətinə qarşı üsyanın yeni dalğası başlandı.

IX əsr 30-cu illərin sonu-40-cı illərin əvvəllərində Varsanda, Bərdədə, Mərənddə, Kür-Araz vadisində güclü çıxışlar oldu. ***Əbu Musanın*** başçılığı ilə Kür-Araz vadisindəki üsyançılar Qarabağda dağlar üzərində ucalan ***Ktiç*** *qalasında* mübarizə aparırdılar. Qala 200 minlik ərəb ordusu ilə mühasirəyə alınmışdır. Bir il ərzində qalaya ***28 dəfə*** hücum oldu. Sərkərdə Buğa hiylə işlədərək Əbu Musa başda olmaqla digər rəhbərləri danışıq aparmaq üçün öz qərargahına dəvət etdi və girov götürərək Xilafətin paytaxtına göndərdi. Üsyan çətinliklə yatırıldı. Orta əsrlərdə istiqlaliyyət uğrunda mübarizələr Xilafəti sarsıtdı və o, əvvəlki mövqeyini bərpa edə bilmədi. ***IX əsrin 2-ci yarısından*** etibarən asılı ölkələrdə, o cümlədən Azərbaycan torpaqlarında bir sıra

müstəqil dövlətlər meydana gəldi. Xilafətə tabe olan iri dövlətlərdə milli-azadlıq hərəkatları başlandı.

Erkən Orta əsrlərdə (VII-IX) Xilafətdə və ona tabe olan ölkələrdə sosial-iqtisadi, siyasi və mədəni sahələrdə baş verən dəyişikliklər öz əksini mədəniyyətdə də tapmışdır. Ümumi *İslam mədəniyyətinin* zənginləşməsində Xilafətə tabe olan bütün xalqların az və ya çox dərəcədə payı var idi. Kargüzarlıq işlərinin ərəb dilində aparılması sayəsində Xilafətin inzibati və dövlət idarələrində çalışan azərbaycanlı məmurlar ərəb dilini mükəmməl öyrənməyə məcbur idilər. Ona görə də tədricən milli-etnik sərhədlər zəifləyirdi. Dini mənsubiyyət əsas amilə çevrilirdi. Azərbaycandan onlarla istedadlı gənc Ərəb Şərqinin mədəniyyət mərkəzlərinə təhsil almağa gedirdi. Azərbaycanın Ərdəbil, Marağa, Təbriz, Şamaxı və s. iri şəhərlərində təhsil ocaqları, kitabxanalar, məscidlər, əzəmətli abidələr yaranmaqda və inkişaf etməkdə idi. ***VII-IX əsrlərdə*** Azərbaycanda ədəbiyyat, hüquqşünaslıq, təbiətşünaslıq, riyaziyyat, astronomiya, maddi mədəniyyət, elm və fəlsəfi fikir, tarix, memarlıq və şəhərsalma və s. inkişaf etməkdə idi. ***"Albanların tarixi"*** əsərinin müəllifi ***Musa Kalankatlı*** Alban hakimi ***Cavanşirin*** müasiri idi. Əsər 3 hissədən ibarət idi: *I kitab* ***Bibliya*** tarixindən başlayır və IV fəsildən başlayaraq Albaniyanın real tarixinin şərhini verir. *II kitab* ***VI əsrin ortalarından VIII əsrin əvvəllərinə qədər*** baş verən hadisələrlə tamamlanır. *III kitabda* ərəblərin tarix səhnəsinə çıxması, Cənubi Qafqaza hücumları və bu ərazilərə sahib olmalarından bəhs edilir. Kitab ***X əsr*** hadisələrinin şərhi ilə başa çatır. ***"Kitabi-Dədə Qorqud"*** *dastanı* Xilafətin hakimiyyəti dövründə formalaşıb başa çatmışdır. Bu qəhrəmanlıq epopeyası ***VIII əsrin sonu - IX əsrin əvvəllərində*** ərəb dilinə tərcümə edilmişdir və İslam mədəniyyətinin dəyərli incisinə çevrilmişdir. Azərbaycanın ilk ərəbdilli şair və yazıçılarının yaradıcılığı ***VII-VIII əsrlərə*** təsadüf edilir: Dəvdək, Musa Şəhavət, İsmayıl ibn Yaşar, onun oğlu Məhəmməd və b. Bu dövrdə şəhərlərin hamısı qala divarları ilə əhatə edilmişdir. Şəhərlərdə saxsı borular vasitəsilə su şəbəkəsi və

kanalizasiya qurğuları yaradılmışdır. İnşaat sənətinin yeni xüsusiyyəti bişmiş kərpicdən hörgü texnikasının təkmilləşdirilməsi idi. Azərbaycan memarlığında günbəzli tikililər ***VIII əsrə qədər*** geniş yayılmışdır. ***Bərdə*** şəhəri yaxınlığında ***Tərtər çayı*** üzərində çaylaq daşından hörülmüş ***körpü və Qazaxda Əskipara kəndi*** yaxınlığındakı dağda ***monastr kompleksi*** Xilafət dövrü memarlığının ən səciyyəvi nümunələridir.

6.Azərbaycan xalqının və dilinin təşəkkülü

Hər bir xalqın formalaşması üçün zəruri olan şərtlər bunlardır: ***dil birliyi, ərazi bütövlüyü, mədəniyyət vahidliyi, məhəlli iqtisadi əlaqələr ümumiliyi.*** Bu şərtlərin təşəkkül tapması üçün uzun tarixi bir dövr tələb edilir. Xalqın və onun dilinin təşəkkülündə mühüm amillərdən biri ***ərazi birliyidir***. Azərbaycanın sərhədləri cənubda Zəncan-Qəzvin bölgələri daxil olmaqla Qızılüzən çayından başlayıb şimalda əzəmətli Qafqaz dağlarına qədər uzanıb Dərbəndi də əhatə edirdi, şərqdə Xəzər dənizinə, qərbdə Gürcüstan Respublikasına qədər olan ərazilər, cənub-qərbdə isə Oğuz yurdu İrəvan şəhəri daxil olmaqla indiki Ermənistanın xeyli hissəsini əhatə edirdi. Qədim etnosların etnik mənsubiyyətini sübut edən əsas amillərdən biri ***dil*** sayılır. Azərbaycan xalqı əsasən bu ərazinin yerli etnik qrupları olan ***türk*** *etnoslarından*, həmçinin qonşu ölkələrdən gəlib burada məskunlaşan ***türkdilli*** digər etnosların qaynayıb-qarışmasından əmələ gəlmişdir. Türk etnoslarının yaşadığı ərazinin sərhədləri qərbdə Anadoludan, Egey dənizindən başlamış şərqdə Çin sərhədlərinə qədər uzanırdı. Azərbaycanda yaşayan ***türkdilli etnoslar: kimmerlər, skitlər, massaqetlər, saklar, xəzərlər, qıpçaklar*** **və s.** idi. Bunları birləşdirən ***ümumi cəhətlər: eyni ideologiyanın təsiri altında olması*** (müxtəlif dövrlərdə onlar bütpərəstliyin, atəşpərəstliyin, xristianlığın və İslamın ayələrini icra etməli idilər), ***tabe olduqları imperiyanın milli əsarətinə qarşı birgə mübarizə aparmaları, yadelli işğalçılara qarşı birlikdə müqavimət*** göstərmələri idi. Bir-

birini əvəz edən Sasani və Ərəb imperiyaları dövründə qonşu ölkələrin etnosları ilə ***iqtisadi və mədəni*** əlaqələr yaranırdı. Türkdilli etnoslan eyni imperiyanın tabeliyində olduğundan həmin imperiyanın qanunları ilə idarə olunur, vergi verir, mükəlləfiyyətləri yerinə yetirirdilər. Bu dövrdə türklərin güclü axını olmuşdur. Yeni gələnlər yerli türklərlə birləşirdi. Farslar və ərəblər isə öz dillərini itirir və yerli əhaliyə qaynayıb-qarışırdılar.

Eramızın III-VI əsrlərində Cənubi Qafqaz və bütünlükdə Azərbaycanın Sasani, Bizans, Türk Xaqanlığı və Xilafət arasında gedən müharibələr nəticəsində inkişafı ləngidilirdi. Xristianlığın təbliği xalqımızın formalaşmasına mənfi təsir edən amillərdən biri idi. Təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq kimi *İslamın* prinsiplərinə zidd olan ərəb işğalları dövründə Albaniyanın xristian əhalisi İslam dininin təsir dairəsindən kənarda qaldı. Elə o vaxtdan erməni və gürcü kilsələri Albaniyanın qərbində yaşayan əhalini öz dini-siyasi təsir dairələrinə salmaq uğrunda mübarizə aparırdılar. Azərbaycan İslamla xristianlıq arasında ən kəskin qarşıdurma məntəqəsinə çevrildi. ***VII-VIII əsrlərdə*** İslam dini hakim ideologiyaya çevrildi. Azərbaycan işğal olunandan sonra Arran əhalisinin bir hissəsi İslamı qəbul etməyə başladı. Lakin bütpərəstlik və xristianlıq İslamın qəbul olunması ilə dərhal aradan qalxmadı. Albaniya əhalisinin xeyli hissəsi dövlət dini olan xristianlığa etiqad edirdi. Qonşu xristian ölkələrində olduğu kimi, Albaniyada da fəaliyyət göstərən yunan *diofizit* dini etiqadından kənara çıxan müxtəlif *bidətçi* cərəyanların *qriqorian* təriqətinə düşmən olan üzvləri təqibə məruz qalırdılar. Alban kilsəsinin təqib olunmasında erməni qriqorian kilsəsi xüsusi rol oynayırdı [2, s. 207-209]. Alban (diofizit) kilsəsinin Bizansa arxalanması ərəblərin xoşuna gəlmirdi. Xilafət ermənilər və albanlar arasındakı dini qarşıdurmadan istifadə edərək, alban kilsəsinin erməni katolikosuna tabe olunmasına şərait yaratdı. Əlçatmaz dağ yerlərində yaşayan alban əhalisinin kəskin müqavimətinə baxmayaraq qriqorianlaşdırılması – ermənileşdirilməsi prosesi başlandı [33, s. 279].

Ərəb xilafəti dövründə Azərbaycana edilən yadelli hücumların qarşısı ərəb ordusu tərəfindən alınırdı. Ölkədə iqtisadi və siyasi sabitlik yarandı. Bu sabitlik təsərrüfatın canlanmasına və Azərbaycan mədəniyyətinin inkişafına təkan verdi. Ərəbləşdirmə siyasətinə baxmayaraq, vahid məkan daxilində türk tayfalarının birliyi möhkəmləndi, türk dilinin təşəkkülü başa çatdı. Dini mübarizə sona yetdi. İslam ideologiyası zəminində Azərbaycanın Xilafətə tabe olan ölkələrin xalqları ilə ***iqtisadi*** və ***mədəni*** əlaqələri genişləndi. Dini birliyin yaranması Azərbaycan ərazisində ***vahid adət-ənənələrin təşəkkülünə, qohumluq əlaqələrinin genişlənməsinə, qaynayıb-qarışma prosesinin*** daha da dərinləşməsinə səbəb oldu.

XRONOLOJİ CƏDVƏL

E.ə. II əsr – Albaniyanın hökmdarı Aran.
226 – Sasanilər dövlətinin yaranması.
227 – Atropatenanın Sasanilər dövlətinin tərkibinə qatılması.
Eramızın I əsri – Albaniyanın hökmdarı Arşaki nümayəndəsi I Cəsur Vaçaqan.
241-271 – I Şapur.
Erkən Orta əsrlər (III-VII əsr) – Azərbaycan torpaqlarının Sasanilərin tərkibində olması.
Qədim və Erkən Orta əsrlər – Azərbaycana 2 böyük türk mənşəli etnik axının olması: I axın - kimmer, skit, sak tayfaları, II axın - hun tayfaları (kəngər, peçənək, onoqur, sabir, hun, herlat, oğuz və b.).
III-XIX əsrlər – Azərbaycanda feodalizm cəmiyyəti.
V- XVII əsrlər – Avropada feodalizm cəmiyyəti.
260 – Sasani şahı I Şapurun Roma ordusunu məğlub etməsi.
290-338 – Albaniyanın Paytakaran vilayətinin hökmdarı Sanatürk.
241-272 – I Şapur. Zərdüştlüyün zorla yayılması.
255-262 – Albaniya hökmdarı I Vaçe.

262 – Albaniya Sasani imperiyasının tərkibində.
272 – Albaniyanın müstəqillik qazanması.
III əsr – Maniçilər hərəkatı.
309-379 – İranda II Şapurun hakimiyyəti dövrü.
313-371 – Albaniya hökmdarı Urnayr.
313 – Urnayrın xristianlığı dövlət dini elan etməsi.
337 – Sanatürkün Erməni çarlığına hücumu.
338 – Yunan, iber və erməni qoşun birləşmələrinin Sanatürkün dəstələrini Paytakarana sıxışdırması.
359 – Amid döyüşündə II Şapurun qələbəsi. Albaniyanın Arsax (Qarabağ), Marlar ölkəsi (Naxçıvan), Kaspiana və s. vilayətlərinin geri qaytarılması.
371 – Dzirav döyüşü. Romalıların köməyi ilə ermənilərin qalib gəlməsi. Albaniyanın Uti, Şakasen, Girdiman vadisi və Kolt (Albaniyanın qərb vilayəti) vilayətlərindən məhrum olması.
387 – Roma ilə Sasanilər arasında bağlanmış müqaviləyə əsasən itirilmiş torpaqların geri qaytarılması. Erməni çarlığının bölüşdürülməsi.
399 – 420 – Sasani şahı I Yezdəgerd. Xristianlığa imkan verməsi.
V əsr – Alban dilində fərman tərtib edilməsi.
428 – Sasanilərin Erməni çarlığında dövlətçiliyi ləğv edib əyalətə çevirməsi.
438-457 – Sasani şahı II Yezdəgerd. Xristianlığa qarşı mübarizənin gücləndirilməsi.
440-463 – Alban hökmdarı II Vaçe.
450 – Xalxal (Qazax bölgəsində) döyüşü. Sasanilərin üsyançılara məğlub olması.
451, 3 iyun – Maku yaxınlığındakı Avarayr döyüşündə Sasanilərin qələbəsi.
451 – Xalkidon kilsə toplantısında Albaniyanın monofizitliyi qəbul etməsi.

VI əsrin sonu - VII əsrin əvvəlləri – Alban kilsəsinin diofizitliyi qəbul etməsi.
457 – II Vaçenin xristianlığı qəbul etməsi.
462 – Haylandur (Onoqur) hunlarının Albaniyaya yürüşü.
463 – II Vaçenin hakimiyyətdən imtinası.
484-488 – Sasani şahı Valarş.
488 – Aquen kilsə məclisinin çağırılması.
481-529 –Məzdəkilər hərəkatı.
488-531 – I Qubad.
487-510 – III Mömin Vaçaqan.
510-629 – Albaniyada Sasani məzrbanlığı dövrü.
531-579 – I Xosrov Ənuşirəvan.
570-590 – Mehranın hakimiyyəti dövrü.
591 – Bizansla - İran müqaviləsi. Girdiman vilayətinin Sasanilərin hakimiyyətinə keçməsi.
591-628 – Xosrov Pərviz.
600-615 – Vardan. Girdiman qalası.
603-629 – Son Sasani-Bizans müharibəsi.
610-632 – Quran. Məhəmməd (s) tərəfindən əsasən Məkkə və Mədinədə Allahdan nazil olan, "peyğəmbər vəhyləri"nin sonradan kitab halında yaranmış şəkli.
VIII əsrə qədər – Azərbaycan memarlığında günbəzli tikililərin geniş yayılması.
VII-VIII əsrlər – İslam dininin hakim ideologiyaya çevrilməsi.
Erkən Orta əsrlər (VII-IX) – İslam mədəniyyətinin zənginləşməsi.
623 – Bizans imperatoru II İraklinin Dəbili və Naxçıvanı qarət etməsi.
626-627 – Xəzərlərin Sasaniləri məğlub etməsi. Paytaxt Mədainin (Ktesifon) işğalı. Xosrov Pərvizin edam edilməsi.
629 – Albaniya Sasanilərin hakimiyyətində.
630-642 – Varaz Qriqor. Bizans imperatoru İraklinin siyasi təsiri.
630 – Ərəb Xilafətinin əsasının qoyulması.

633 – Ərəblərin Sasani imperiyasına yürüşü.
634 – Cavanşirin ərəblərə qarşı III Yezdəgerdin köməyinə getməsi.
636 – Kadisiyyə döyüşü.
638 – Ktesifon döyüşü.
640 – Cavanşirin Albaniyaya qayıtması.
642-681 – Cavanşir.
642 – Nəhavənd və Həmədan döyüşləri. Ərəblərin Qum və Kaşanı işğal etməsi, Azərbaycana hücumu.
643 – I Bələncər döyüşü. Ərəb sərkərdəsi Əbdürrəhmanın öldürülməsi. Xəzərlərin ərəbləri məğlub etməsi.
643 – Ərəblərin Gilan, Muğan, Dərbəndə hücumları.
644 – Muğanın tutulması. Ərəblərin Azərbaycanın mərzbanı İsfəndiyar İbn Fərruxzadla bağlanmış sülh müqaviləsi.
646 – Ərəblərin Ərdəbilə ikinci yürüşü. Yeni müqavilənin imzalanması.
651 – Sasani dövlətinin süqutu. Cavanşirin Bizans imperatorunun tərəfinə keçməsi.
653 – II Bələncər döyüşü. Xəzərlərin ərəbləri məğlub etməsi, sərkərdə Salmanın öldürülməsi.
654, 660 – Cavanşirin Bizans imperatoru II Konstantinlə görüşləri.
60-cı illərin əvvəlləri – Əməvilər sülaləsinin hakimiyyəti.
667, 670 – Cavanşirin xəlifə Müaviyə ilə görüşləri.
VII-IX əsrlər – Azərbaycanda ədəbiyyat, hüquqşünaslıq, təbiətşünaslıq, riyaziyyat, astronomiya, maddi mədəniyyət, elm və fəlsəfi fikir, tarix, memarlıq, şəhərsalma və s. inkişafı.
705 – Albaniyada Mehranilər (629-705) sülaləsinin süqutu.
725 – Azərbaycanda əhali, mal-qara və torpağın siyahıya alınması.
730-731 – Xəzərlərin ərəbləri Ərdəbilə sıxışdırması. Savalan dağı yaxınlığında xəzərlərin qələbəsi.

VIII əsrin ortaları – Əməvilər sülaləsinin siyasətinə qarşı xaricilərin usyanı.
748-752 – Azərbaycanda ərəblərə qarşı çıxışlar. Müsafir ibn Küseyrin usyanı.
748 – Beyləqan, Bərdə və Ərdəbil üsyanları.
VIII əsrin ortaları – Abbasilər sülaləsi.
VIII əsrin 2-ci yarısı – Xəlifə Harun ər-Rəşidin hakimiyyətinə qarşı 15-dən artıq üsyanın baş verməsi.
VIII əsrin sonu - IX əsrin əvvəlləri – "Kitabi-Dədə Qorqud" dastanının ərəb dilinə tərcümə edilməsi.
778 – Cavidan və Əbu İmranın başçılığı ilə üsyan.
808 – Xəlifə Harun ər-Rəşidin dövründə Cavidanın başçılığı ilə baş verən üsyan.
816 – Növbəti üsyan. Cavidan və Əbu İmran bir-birini öldürmələri. Babəkin xürrəmilər hərəkatına başçı keçməsi.
819 – Xəlifənin xürrəmilərə qarşı ilk nizami ordu göndərməsi.
IX əsrin 20-ci illərin sonu – Azadlıq mübarizəsinin genişlənərək Xilafəti sarsıtması.
829, 3 iyun – Həşdadsər döyüşü. Xürrəmilərin qələbəsi.
830 – Həmədan döyüşü. Xürrəmilərin 5-ci qələbəsi.
833, sonu – Həmədan döyüşü. Xürrəmilərin ilk məğlubiyyəti.
835 – Afşinin xilafətin ordusuna baş komandan təyin edilməsi.
836 – Həşdadsər döyüşü. Xürrəmilərin qələbəsi.
837, 26 avqust – Son döyüş. Xürrəmilərin məğlubiyyəti. Bəzz qalasının süqutu.
837, 15 sentyabr – Babəkin əsir düşərək Bərzəndə gətirilməsi. Oradan Samirəyə aparılması.
838, 4 yanvar – Babəkin Samirə şəhərinə gətirilməsi.
838, 14 mart – Xəlifə Mötəsimin əmri ilə Babəkin edam edilməsi.
IX əsr 30-cu illərin sonu-40-cı illərin əvvəlləri – Varsanda, Bərdədə, Mərənddə, Kür-Araz vadisində Xilafatə qarşı çıxışlar.

Əbu Musanın başçılığı ilə Kür-Araz vadisindəki üsyan. Qarabağda Ktiç qalası uğrunda mübarizə.

863-cü ildən sonra – Qərb və Şərq Kilsələri arasında Xristian kilsəsinin parçalanmasına gətirən ilk ixtilaf.

1054 – Xristian kilsəsi parçalanaraq Şərq (yunan) kilsəsinin ortodoks (pravoslav), Qərb (latın) kilsəsinin isə katolik adlanması.

1836 – Çar hökumətinin Sinodun təqdimatı ilə Alban kilsəsini ləğv etməsi, kilsənin bütün əmlakını Eçmiədzin katolikosluğuna verməsi.

III FƏSİL
AZƏRBAYCAN İNTİBAH DÖVRÜNDƏ (IX-XIII ƏSRİN ƏVVƏLLƏRİ)

Plan:

1. Azərbaycan torpaqlarında IX-XI əsr feodal dövlətləri.
2. Slavyanların Azərbaycana yürüşləri.
3. Azərbaycan torpaqlarında Səlcuq türklərinin hökmranlığı.
4. Şirvanşahlar və Atabəylər dövlətləri.
5. Azərbaycan intibah mədəniyyəti.

1.Azərbaycan torpaqlarında IX-XI əsr feodal dövlətləri

IX əsrin ortalarında Xilafət zəifləməyə başladı, feodal münasibətlərinin möhkəmlənməsi nəticəsində iri feodalların mövqeyi qüvvətləndi, əyalət hakimlərinin müstəqilliyi artdı, feodal zülmünə qarşı mübarizə və işğal olunmuş torpaqlarda azadlıq hərəkatları geniş vüsət aldı. İmperiyanın ucqarlarında xırda feodal dövlətləri-***əmirliklər*** yaranırdı. Bunları ***sərkərdələr***-keçmiş ərəb canişinləri idarə edirdilər. Onlar zaman keçdikcə özlərinin ərəb mənşəyini itirir, yerli əhali ilə qaynayıb-qarışırdılar. Abbasilər xilafətinin dağılması şəraitində Azərbaycanın ayrı-ayrı vilayətlərini idarə edən müxtəlif feodal sülalələri tərəfindən bir sıra yerli dövlətlər yaradıldı. 600 ilə qədər davam edən Sasani və Ərəb əsarətindən sonra yaranan yerli dövlətlər – ***Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər*** dövlətçilik ənənələrinin bərpası demək idi. İslam dini bütün Azərbaycan əhalisinin, türk və qeyri-türk etnik qrupların vahid qüvvə ilə birləşməsində mütərəqqi rol oynadı. Bununla belə, ölkədə uzunmüddət mövcud olan qeyri-sabitlik feodal dağınıqlığı və ara müharibələri ilə

nəticələnirdi. Bir-biri ilə düşmənçilik edən Azərbaycan hakimləri çox vaxt xarici qüvvələri köməyə çağırırdılar. Bundan istifadə edən yadellilər Azərbaycanda möhkəmlənməyə və onun sərvətlərini çapıb-talamağa çalışırdılar. Belə bir şəraitdə ***vahid Azərbaycan dövlətinin yaradılmasının*** nə qədər zəruri olduğu aydın idi.

Şirvanşahlar dövləti (861-1538). Şirvan əvvəllər Azərbaycanın şimal-şərqində kiçik bir vilayət idi. Dərbənddən Kür çayına doğru Xəzər dənizi sahillərindəki Azərbaycan torpaqlarını əhatə edirdi. Mərkəzi Şirvan şəhəri idi. Şirvanşahlar dövlətini ***Məzyədilər***-bəzən ***Şeybanilər*** və ya ***Yezidilər*** sülaləsi idarə edirdi. Məzyədilərin görkəmli nümayəndəsi olan Yezid ibn Məzyəd xəlifə Harun ər-Rəşidin (786-809) hakimiyyəti zamanı ***Cənubi Qafqaz vilayətinin***, o cümlədən ***Şirvanın hakimi*** idi. O, xilafətə dayaq məqsədilə Azərbaycana köçürülən ***Rəbiə tayfasından*** idi. Misir və Suriyadan köçürülən ərəblər, əsasən, Aran, Şirvan və Dərbənddə yurd salmışdılar. Yezidin özü burada çoxlu torpaq ələ keçirmişdir. Məzyədilər ilk dəfə Aranda paytaxtı ***Bərdə*** olan yarımmüstəqil feodal dövləti-***əmirlik*** yaratmışdılar. ***Yezid ibn Məzyəd*** Şirvan valisi kimi Aran, Şirvan, Dərbənd və Erməni çarlığını idarə edirdi. O, ***801-ci ildə*** Bərdədə ölmüş və burada dəfn olunmuşdur. Sonra növbə ilə onun oğulları ***Əsəd, Xalid və Məhəmməd*** Cənubi Qafqaz valisi təyin olundular. ***859-cu ildə Məhəmməd ibn Yezid*** qədim Gəncəni bərpa etdirib öz iqamətgahını bura köçürdü. Zaman keçdikcə ərəb Məzyədilər nəsli yerli əhali ilə qaynayıb qarışdılar [10, s. 205]. IX əsrin sonlarında Aran, Bərdə Sacilərin əlinə keçdiyindən məzyədilərin nümayəndələri ***Şirvana*** köçdülər, türkləşməkdə olan ərəb nəsilləri Şirvanda cəmləşdilər. Məzyədilər sülaləsi də özünün ərəb mənşəyini itirdi. ***861-ci ildə*** Məzyədilər sülaləsindən ***Heysam ibn Xalid Şirvanı müstəqil*** elan etdi və ***Şirvanşah titulunu*** qəbul etdi [2, s. 326]. ***917-ci ildə*** qonşu Lahicanşahlıq Şirvanşahlar dövlətinə birləşdirildi. Bununla əlaqədar ***918-ci ildə*** *Şirvanşah* ***Əbu Tahir*** (917-948) hərbi-strateji baxımdan ***Şamaxını*** bərpa edib paytaxtı

bura köçürdü və ***Yezidiyyə*** adlandırdı. Şirvanşahın qoşunları ***Qəbələ (981-982), Bərdə (982)*** və ***Şirvanı (983)*** ələ keçirdilər. Strateji əhəmiyyətə malik olan ***Dərbənd əmirliyi*** *də* ***988-ci ildə*** Şirvanşahlar dövlətinə birləşdirildi. Türklərin yaşadığı "Dəmir qapı" adlandırılan Dərbənd Azərbaycanın ən qədim vilayətlərindən biri idi. Şirvanşahlar Dərbənd səddini və şəhərin qala divarlarını təmir etdirib möhkəmləndirdilər. Dərbənddən sonra ***Xursan*** və ***Tabasaran, Şəki*** və ***Sənariyə*** Şirvanşahlar dövlətinə qatıldı.

Sacilər dövləti (879-941). Sacilər dövlətini ***türk*** sülaləsi olan ***Sacilər*** yaratmışlar. Sacilər mənşəcə Mərkəzi Asiyanın Əsruşən (Usruşana) vilayətinin qədim türk nəsillərindən idilər [9, s. 137]. Ərəb ordusunun məşhur sərkərdələrindən olan Afşin Heydər ibn Kavus da bu nəsildən idi. Xilafət-Bizans sərhədlərini möhkəmləndirmək üçün Mərkəzi Asiyadan Azərbaycana və Şərqi Anadoluya çoxlu türk tayfaları köçürüldü. Türklər Xilafət ordusunda mühüm qüvvə idilər. Sacilər sülaləsinin banisi ***Əbu Sac Divdad*** da Xilafət ordusunun sərkərdəsi idi. Dövlətə xidmətlərinə görə Azərbaycan mülk olaraq Sacilərə verilmişdir. Sacilər xilafətin xəzinəsinə ildə ***120 min dinar xərac*** göndərirdi. Onun oğulları ***Məhəmməd*** və ***Yusif ibn Əbu Sac*** da xilafətin sərkərdələrindən idilər. Azərbaycanın cənub bölgələri Sacilərin hakimiyyəti dövründə *(879-941)* müstəqil dövlətə çevrilmişdir. Hələ ***IX əsrin sonlarında (898-900) Məhəmməd ibn Əbu Sacın*** adına pul kəsilirdi. O, ***898-ci ildə*** xəlifə tərəfindən həm Azərbaycanın, həm də *Ərmənіyənin* canişini təyin edildi [2, s. 315]. ***Yusif ibn Əbu Sacın*** dövründə Sacilər dövləti daha da qüvvətləndi [8, s. 277]. ***912-ci ildən*** etibarən Xilafətin xəzinəsinə xərac göndərilməsi dayandırıldı, hətta bir qədər sonra ***Yusif ibn Əbu Sac*** Xilafətə qarşı çıxış etdi. Belə ki, *908 - ci ildə* hakimiyyətə gələn *xəlifə əl-Müqtədir* Yusif ibn Əbu Sacı Xilafətin *Azərbaycan* və *Ərmənіyədəki* canişini təyin etdi [2, s. 316-318]. Buna etitaz edən Erməni çarlığının hökmdarı I Smbat ***914-cü ildə*** dar ağacından

asılır və ***Erməni çarlığının*** ərazisi tamamilə Sacilərin hakimiyyəti altına keçir. Yusif ibn Əbu Sac ***Tiflis*** və ***Kaxetiyanı*** da ələ keçirir, ***Şirvanşahlar dövlətini*** də öz hakimiyyətinə tabe edir. Beləliklə, Azərbaycan Sacilər dövləti X əsrin əvvəlləri üçün Zəncandan Dərbəndə qədər bütün Azərbaycan torpaqlarını əhatə edirdi, şərq sərhədləri Xəzər dənizi sahillərindən başlanır, qərb sərhədləri İrəvan yanındakı Ani və Dəbil (Dvin) şəhərinə qədər uzanıb gedirdi. ***Yusif ibn Əbu Sac*** Dərbənd səddini təmir etdirir. Onun adına Bərdə, Marağa və Ərdəbildə pullar kəsilməsi Sacilərin müstəqil bir dövlət olduğunu sübut edirdi. Dövlətin ***paytaxtı*** əvvəllər ***Marağa,*** sonra isə ***Ərdəbil*** şəhəri oldu. IX əsrin 80-ci illərindən-X əsrin 40-cı illərinədək, yəni yarım əsrdən çox bir tarixi dövr ərzində bütün Azərbaycan torpaqlarının vahid Azərbaycan türk dövlətinin-***Sacilər dövlətinin*** tərkibində olması bütün ölkə miqyasında ***iqtisadi*** və ***mədəni*** əlaqələrin daha da dərinləşməsinə, ***etnik fərqlərin aradan qalxmasına, vahid Azərbaycan türk xalqının formalaşması*** *prosesinin* sürətlənməsinə müsbət təsir göstərmişdir.

Salarilər dövləti (941/942-981*).* Feodal qruplar arasındakı çəkişmədən istifadə edən Deyləm (Gilan) hakimi ***Mərzban ibn Məhəmməd 941/942-ci ildə*** axırıncı Saci hökmdarı Deysəmə qalib gəlib, ölkənin paytaxtı Ərdəbili ələ keçirdi və ***Salarilər dövlətinin (941/942-981)*** əsasını qoydu. Salarilər dövləti şimalda Dərbənd keçidindən başlayaraq, cənubda Dəclə və Fərat çaylarının yaxınlarına qədər, şərqdə Gilan da daxil olmaqla Xəzər sahillərini, qərbdə Erməni çarlığının və Şərqi Gürcüstan da daxil olmaqla geniş əraziləri əhatə edən bir dövlətə çevrildi. Dövlətin paytaxtı ***Ərdəbil*** şəhəri idi. Salarilərin hakimiyyəti dövründə Xəzər dənizində Azərbaycanın ticarət gəmiləri üzməyə başladı. Azərbaycanın Yaxın və Orta Şərqdə iqtisadi və hərbi-siyasi rolu daha da artdı. Müxtəlif etnik qrupların Azərbaycan xalqı ilə qaynayıb-qarışması sürətləndi. Lakin, Mərzban ibn Məhəmmədin ölümündən sonra onun oğulları ilə qardaşı ***Vəhsudan*** arasında

hakimiyyət uğrunda gedən ara müharibələri, feodal hərc-mərcliyi, Xəzəryanı vilayətlərin tez-tez slavyanların basqınlarına məruz qalması, xüsusilə ***943/944-cü ildə*** Bərdənin qarət olunması [2, s. 364], şəhər əhalisinə dəhşətli divan tutulması ***981-ci ildə*** Salarilər dövlətinin süqutunu daha da sürətləndirdi.

Rəvvadilər dövləti (981-1116/1117-1227). İri Azərbaycan feodallarından biri-Təbriz, Marağa və Əhər hakimi ***Əbülhica 981-ci ildə*** axırıncı Salari hökmdarı ***İbrahim ibn Mərzbanı (962-981)*** taxtdan salıb yeni Azərbaycan dövlətinin-***Rəvvadilər dövlətinin*** əsasını qoydu [8, s. 284]. Bu feodal sülaləsinin soykökü qədim ***ərəb-Əzdilər nəslinə*** bağlanırdı. Bu nəslin banisi əslən ***yəmənli*** olan ***ər-Rəvvad əl-Əzdi*** idi. Rəvvadi əmirliyi zaman-zaman müstəqilləşib, Azərbaycanın bütün cənub torpaqlarını öz nəzarəti altında saxlayırdı. Bundan başqa, Rəvvadilər dövləti Muğan hakimiyyətini də asılı vəziyyətə saldı. ***1028-ci ildə*** Mahmud Qəznəvinin ona qarşı qiyam qaldıran ***Xorasan oğuzlarına*** vurduğu ağır zərbədən sonra təqribən ***2000 oğuz ailəsi*** Azərbaycana qaçdı və Rəvvadi hökmdarı ***Vəhsudanın (1020-1059)*** icazəsi ilə burada məskunlaşdı [10, s. 209]. Rəvvadilər dövlətinin paytaxtı Ərdəbildən ***Təbrizə*** köçürüldü. Çünki Təbriz bütün Azərbaycan torpaqlarının iqtisadi, siyasi və mədəni baxımdan birləşdirilməsi üçün çox əlverişli coğrafi mövqedə yerləşmişdir. Şərq ölkələrini Aralıq dənizi və Qara dəniz sahillərilə, həmçinin Dərbənd keçidi vasitəsilə Volqa boyu və Şərqi Avropa ilə birləşdirən beynəlxalq karvan yollarının qovşağında yerləşən ***Təbriz*** Rəvvadilərin hakimiyyəti illərində daha da böyüdü və abadlaşdı. ***1054/55-ci ildə*** Səlcuq sultanı ***Toğrul bəyin*** qoşunları Təbrizə yaxınlaşdı və Rəvvadi hökmdarı *Vəhsudan* onun hakimiyyətini tanımalı oldu [2, s. 375]. Uzun illər öz siyasi hakimiyyətini əldən vermiş Rəvvadilərin sonuncu nümayəndəsi Marağa hakimi ***Əhmədilli ibn İbrahim ibn Vəhsudan ər-Rəvvadinin 1116/1117-ci ildə*** Bağdadda xəlifə sarayında qətlə yetirilməsi ilə Rəvvadilər sülaləsinə son qoyuldu. Bundan sonra Marağada Əh-

mədilinin qulamı olan Ağsunqur hakimiyyətə Rəvvadilərin davamçıları kimi sahib çıxdı [2, s. 377]. ***Ağsunqurilər sülaləsinə 1227-ci ildə*** Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşü zamanı son qoyuldu.

Şəddadilər dövləti (971-1075). Şəddadilər əvvəl ***Dəbil (Dvin)*** ətrafında yaşayırdılar. ***951-ci ildə*** mənşəcə ***müsəlman kürdlərindən*** olan ***Məhəmməd ibn Şəddad*** Dəbil əmirliyini yaratdı. Şəddadilər ***971-ci ildə*** Gəncəni ələ keçirərək ***Şəddadilər dövlətinin*** əsasını qoydular [2, s. 377-378], Bərdə, Şəmkir və s. Azərbaycan torpaqlarında möhkəmləndilər. ***Fəzl ibn Məhəmməd (985-1030)*** Gəncə ətrafındakı bütün xırda feodal mülklərini ləğv etdi, mərkəzi hakimiyyəti gücləndirdi. Ata-baba mülkləri olan Dəbili də öz dövlətinə birləşdirdi, erməni hakimi isə Şəddadilər dövlətinə bac verməyə məcbur oldu. Onun hakimiyyəti dövründə hərbi məqsədlə Araz çayı üzərində salınan ***Xudafərin körpüsü (1027)*** Azərbaycanın şimal və cənub əraziləri arasında iqtisadi və mədəni rol oynayırdı [10, s. 209]. Şəddadilərlə Şirvanşahlar arasında sıx əlaqə yaranmışdır, onların qohumluq münasibətləri var idi. Şəddadilər Azərbaycanın cənubunda hökmranlıq edən Rəvvadilərlə və Tiflis əmiri Əbül-fəzl Cəfər ibn Əli ilə də dostluq münasibətləri saxlayırdılar. ***1037-ci ildə*** Dəbili ələ keçirməyə çalışan Bizans-erməni qoşunlarına ***oğuz tayfalarının*** köməyi ilə Şəddadilər ağır zərbə vurdular**.** ***1038-ci ildə*** Bizans və gürcü feodallarının birləşmiş qüvvələrinin Tiflis müsəlman əmirliyini aradan qaldırmaq cəhdi də oğuzların fəal iştirakı ilə baş tutmadı. Şəddadilər dövləti ***Əbüləsvar Şavurun (1049-1067)*** dövründə daha da gücləndi. Gürcüstanla və onun müttəfiqi olan Şirvanşahlar dövləti ilə müharibələr aparılırdı. Gürcü çarı IV Baqrat Şəddadilər dövlətinin qüvvətlənməsindən qorxaraq alanlarla ittifaqa girib**,** ***1062-ci ildə*** onların Dəryal keçidindən Gürcüstan vasitəsilə Azərbaycana hücum etməsinə şərait yaratdı. Şavur ***Gəncənin*** möhkəmləndirilməsi üçün onun ətrafında hasar və xəndəklər çəkdirdi. ***1063-cü ildə*** *şəhərə* ***qala qapılarını*** də-

mirçi İbrahim Osman oğluna hazırlatdı. Şəddadilər bu zaman erməni feodallarına və Bizans imperiyasına qarşı uğurla mübarizə aparırdı. Şəddadilərin zərbə qüvvəsi oğuz türkləri, qüvvətli müttəfiqi sonralar Səlcuq türkləri idi [10, s. 210]. ***1075-ci ildə*** Səlcuq hökmdarı ***Məlikşah (1072-1092)*** Şəddadilər dövlətinə son qoydu. Əmirliyin ərazisi *atabəyliyə* çevrildi [2, s. 393].

2. Slavyanların Azərbaycana yürüşləri

IX əsrin sonlarından başlayaraq ***slavyanlar-"ruslar"*** Xəzəryanı vilayətlərə soyğunçu yürüşlər etməyə başladılar. O vaxt Kiyev knyazlarının hərbi drujinalarının üzvləri "rus" adlanırdı. ***909-cu ildə*** onlar 16 gəmi ilə Xəzərə daxil oldular, dənizin cənubundakı Abaskun adasını ələ keçirdilər. Məğlubiyyətə uğrayan slavyanlar ***910-cu ildə*** yenidən Azərbaycan torpaqlarına basqın etdilər, Sarı adasında və sahil məntəqələrində yanğınlar, talanlar törətdilər. Sonra onlar İran sahillərinə hücum etdilər, lakin Gilan şahının hərbi qüvvələri onları məğlub etdi. Slavyanlar geri çəkilərkən Şirvanşahların qoşunları tərəfindən darmadağın edildilər. ***914-cü ildə*** slavyanlar hər birində ***100 döyüşçü*** *olan* ***500 gəmi*** ilə Xəzərə daxil oldular. Xəzər xaqanlığının ərazisindən keçdikləri üçün onlara ələ keçirdikləri qənimətin yarısını verməyi vəd etdilər. Əhali hücum gözləmədiyindən qəflətən ***50000 nəfərlik*** hərbi qüvvələrin dəhşətli basqınlarına və talanlarına məruz qaldı. Ruslar Bakı sahillərinə gələrək, sahilə yaxın adalarda düşərgə saldılar və buradan basqınlar edirdilər. Slavyanlar uşaqları və qadınları əsir götürdülər, geri qayıdarkən vəd etdikləri qənimətin bir hissəsini Xəzər xaqanına verdilər. Lakin 15000 nəfərlik müsəlman-türk qoşunları ilə slavyanlar arasında şiddətli döyüş baş verdi. 3 gün davam edən bu döyüşdə ruslar darmadağın edildilər, onlardan ancaq 5 minə qədəri qaça bildi. Mənbələrə görə, ruslara qarşı xarəzm, xəzər, burtas (mordva) və bulqar türkləri fəal iştirak edirdilər. 30 il sonra – ***944-cü ildə*** slavyan

drujinaları yenidən Xəzər sahillərində göründülər. Bu dəfə onlar ***Bərdəni*** ələ keçirmək və Azərbaycanda möhkəmlənmək üçün yürüş etmişdilər. Kiyev knyazı ***İqorun (912-945)*** gəmiləri Kürün mənsəbinə yetişib, ***Bərdə*** yaxınlığında sahildə ***Mübarəki adlı*** yerdə düşərgə saldılar və buradan Bərdəyə hücum etdilər. Salarilər 5600 nəfərlik hərbi qüvvə ilə onlara müqavimət göstərə bilmədi və ***Bərdə*** slavyanların əlinə keçdi. Əhali qılıncdan keçirildi və şəhər talan olundu. Lakin bərdəlilər müqavimət göstərməkdə davam edirdilər. Bərdəni itaətdə saxlamağın mümkün olmayacağını görən ruslar əhalidən gün ərzində şəhərdən çıxıb getməyi tələb etdilər. Çıxmayan əhali yenidən qılıncdan keçirildi, sağ qalanları, şəhər varlılarını məscidə toplayıb adambaşına 20 dirhəm pul tələb etdilər. Pulu olan canını qurtardı, pulu olmayana isə divan tutuldu. Mənbələrə görə, bu zaman Bərdədə ***20000 nəfərə*** qədər adam öldürülmüşdür. Salari hökmdarı ***Mərzban ibn Məhəmməd*** 30000 nəfərlik qoşunla şəhəri mühasirəyə aldı. O, düşmənə ağır zərbə vursa da, şəhəri ala bilmədi. Mosul hakimi ***Əbu Məhəmməd Nəsirəddövlənin*** Azərbaycanın cənub sərhədlərini pozaraq Xoy və Salması ələ keçirməsi xəbərini alan Mərzban ibn Məhəmməd özünün əsas hərbi qüvvəsilə cənuba getdi. Salarilərin 4000 nəfərlik kiçik bir dəstəsi Bərdənin mühasirəsini davam etdirdi. Əhalinin mübarizə əzmini qıra bilməyən, gündüz döyüşlərində şəhərin mühasirəsini yara bilməyən slavyanlar gecə ikən qalanı yandırıb, qənimətlə birlikdə şəhəri tərk etdilər və ölkələrinə qayıtdılar. ***944-cü il*** basqınlarından sonra ***Bərdə*** bir daha özünə gələ bilmədi. Yarım ildən çox slavyanların əlində qalan şəhər dağılmışdır, pul kəsilməsi dayandırılmışdır, məşhur Bərdə bazarı öz əhəmiyyətini itirmişdir. Bundan sonra şəhərin bərpasına fikir verilmədi. ***944-cü il faciəsindən*** sonra Azərbaycanın şimal torpaqlarında müstəqil dövlət yaradan ***Şəddadilərin Gəncəni*** paytaxt seçməsi ***Bərdənin*** süqutunu daha da sürətləndirdi. Azərbaycan hakimləri ümumi düşmənə qarşı birləşmək əvəzinə öz aralarındakı ixtilafları həll etmək

üçün rus dəstələrini köməyə çağırırdılar. ***987-ci ildə Dərbənd hakimi əmir Maymun ibn Əhməd*** yerli əyanlara qarşı ***18 gəmi*** ilə Dərbəndə hücuma hazırlaşan slavyanlardan kömək istədi. ***1030-cu ildə*** 38 gəmidə yenidən Xəzər sahillərinə hücum edən slavyan drujinaları *Bakı yaxınlığında* və *Kürlə Arazın qovuşduğu yerdə* Şirvanşahların qoşunlarını məğlub etdilər. Şəddadi hökmdarı ***Fəzl ibn Məhəmmədin oğlu Musa*** Beyləqanda qiyam qaldırmış qardaşı ***Əskuyəni*** məğlub etmək üçün slavyanları köməyə çağırdı. Qardaşına qalib gəlib, Beyləqan əhalisinə divan tutduqdan sonra o, slavyanlara çoxlu hədiyyə verdi. ***1031-1033-cü illərdə alanlar, sərirlər*** (Dağıstanda Sərir adlanan bölgədə yaşayan xalq) və ruslar Şirvanşahların paytaxtı ***Yezidiyyə (Şamaxı)*** şəhərini ələ keçirib, 10 gün ərzində qarət etdilər. *10000 nəfərə* qədər adam qılıncdan keçirildi. Lakin xalq düşmənləri Azərbaycan torpaqlarından qova bildi. Geri qayıdan yadelliləri Dərbənd hakimi əmir ***Mansur ibn Maymun*** məğlubiyyətə uğratdı. Əmirdən qisas almaq üçün ***1033-cü ildə*** hücum edən alanlar və slavyanlar yenidən məğlubiyyətə uğradılar.

3. Azərbaycan torpaqlarında Səlcuq türklərinin hökmranlığı

XI əsrin ortalarında Mərkəzi Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər əraziləri əhatə edən ***Böyük Səlcuq imperatorluğu*** yarandı. Öğuz türkləri olan Səlcuq türklərinin adı məşhur ***türk sərkərdəsi Səlcüğün*** (qınıq tayfasından) adı ilə bağlı idi. Səlcuq türkləri İran və Azərbaycan torpaqlarından hücuma keçərək, Bizans qoşunlarını məğlub etdilər. Van gölü hövzəsi, Naxçıvan və onun ətrafındakı Azərbaycan torpaqları Səlcuqların nəzarəti altına alındı. Onlar əvvəlcə, Xorasanda məskən saldılar. ***1038-ci ildə*** paytaxtı ***Nişapur*** şəhəri olan ilk ***Səlcuq dövləti*** meydana gəldi. Səlcuğun nəvəsi ***Sultan Toğrulun (1040-1063)*** hakimiyyəti illərində Səlcuq

türkləri daha da qüvvətləndi. ***1040-cı il may ayının 24-də Dəndənəkan*** döyüşündə Qəznəvilər dövlətinin hərbi qüvvələri darmadağın edildi [2, s. 388]. ***1043-cü ildə*** dövlətin paytaxtı ***Nişapurdan Rey*** şəhərinə köçürüldü. Səlcuq qoşunları üç istiqamətdə – ***Həmədan, İsfahan, Gilan*** istiqamətlərində Azərbaycana doğru yürüşə başladılar. Həmədan və İsfahan da daxil olmaqla bütün Qərbi İranı ələ keçirərək Səlcuq qoşun hissələri Dəclə çayının sahillərinə çıxdı. Gilan istiqamətində hərəkət edən hərbi hissələr Xəzərin cənubundakı torpaqları ələ keçirdilər, sonra isə Arazı keçib Arrana daxil oldular. Səlcuq türkləri Şəddadilərin hərbi qüvvələri ilə birləşərək, Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrinə ağır zərbələr vurdular. Azərbaycanın cənub əyalətləri ***Səlcuq sərkərdəsi Həsənin*** nəzarəti altına keçdi. Səlcuq - Azərbaycan türk qoşun hissələri ***1048-ci il sentyabrın 18-də*** Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrini darmadağın etdilər. Bizans Səlcuqlarla sülh bağlamağa məcbur oldu. ***Sultan Toğrulun*** hakimiyyətinin ilk dövründə bütün ***Xorasan və Xarəzm (1038-1044), Qərbi İran (1042-1051)*** Səlcuq türklərinin hakimiyyətinə keçdi. ***1055-ci ildə Bağdad*** da daxil olmaqla ***İraq*** Səlcuqlara tabe edildi. ***Abbasilər*** asılı vəziyyətə düşdü. Azərbaycan türkləri, o cümlədən oğuz türkləri Səlcuq türklərinin soydaşları idilər. ***1054-cü ildə Sultan Toğrulun*** hərbi qüvvələri Təbrizə yaxınlaşdı [8, s. 285], ***Rəvvadi*** hökmdarı ***Vəhsudan*** Səlcuq sultanına tabe olduğunu bildirdi. ***Şəddadi*** hökmdarı ***Əbüləsvar Şavur*** da ***1075-ci ildə*** Səlcuqlara tabe oldu. Səlcuq sultanı ilə Şəddadi hökmdarı arasında Bizans imperatoru və erməni-gürcü feodallarına qarşı əlbir hərəkət etmələri haqqında saziş bağlandı. ***1066-cı ildə*** müqavimət göstərməsinə baxmayaraq, ***Şirvanşah I Fəribürz*** səlcuqlara tabe oldu [2, s.391]. Beləliklə, bütün Azərbaycan torpaqları ***Böyük Səlcuq imperatorluğuna*** qatılmış oldu. Sasanilər və Ərəb xilafətinin hökmranlıq etdiyi təqribən 600 illik bir tarixi dövrdə bütün türk, habelə qeyri-

türk tayfalarının ***vahid xalq*** halında qaynayıb-qarışması prosesi gedirdi.

Sasanilərə və Ərəb xilafətinə qarşı birgə mübarizə bu prosesə müsbət təsir göstərmişdir. Nəticədə ***islam-türk etnik-siyasi amili*** daha da qüvvətlənmişdir. Azərbaycan isə İslam dünyasında həlledici ***hərbi-siyasi amilə*** çevrilən ***türklüyün*** başlıca istinadgahı olmuşdur. Səlcuq axınları ərəfəsində ***vahid Azərbaycan türk xalqının*** yaranması prosesi, demək olar ki, başa çatmaqda idi. Eyni kökdən və dildən olan, İslamı qəbul etmiş Oğuz-Səlcuq türkləri ilə qədim Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar. ***Azərbaycan türk xalqının təşəkkülü prosesi*** başa çatdı.

Böyük Səlcuq imperatorluğunun yaranması ilə torpaq mülkiyyəti və vergi sistemində də ciddi dəyişikliklər baş verdi. Hərbi-siyasi dayaq yaratmaq məqsədi ilə imperatorluq ərazisinə daxil olan bütün torpaqlar hərbi xidmət əvəzində ***iqta*** şəklində Səlcuq əmirləri arasında bölüşdürüldü. Təkcə ***Sultan Məlik şah*** *46 min Səlcuq süvarisinə* iqta paylamışdır. İqtadarlar əvvəllər onlara verilmiş torpaqlardan ***vergi (renta)*** almaqla kifayətlənir, daxili idarəçiliyə və kəndlilərin həyatı ilə əlaqədar məsələlərə qarışmırdılar, zaman keçdikcə iqta irsən keçməyə başlayır, mülk torpaqlarından fərqlənmirdi. ***Uc torpaqları***-sərhədləri qoruyan Səlcuq sərkərdələrinə paylanmış torpaqlar idi. Əhalidən əlavə olaraq, Səlcuq döyüşçülərinə silah və şərab tədarükü, onların atlarını nallamaq üçün ***silah bahası, şərab bahası, nal bahası*** kimi vergilər, şəhər sənətkarlarından isə onların hazırladıqları *sənət məhsullarından* ***pay*** alınmağa başlandı. XI-XIII əsrlərdə əhali ***xərac, üşr (üşür), cizyə*** və bir çox başqa vergi və mükəlləfiyyətlər ödəyirdi.

Səlcuq dövləti XI əsrin sonlarında-işğallar ara verdikdə tənəzzülə başladı. İqtadarlar daha mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Əsarət altına alınmış ölkələrin, xalqların azadlıq mübarizəsi genişlənməkdə idi. Bundan başqa ***I Səlib yürüşü (1096-1099)*** dövründə səlibçilərə qarşı mübarizə, Aralıq dənizi-

nin Kiçik Asiya, Suriya və Fələstin sahillərində çox mühüm ərazilərin itirilməsi də Böyük Səlcuq imperatorluğunun tənəzzülünə müəyyən təsir göstərdi. Sonuncu Səlcuq hökmdarı ***Sultan Səncərin (1118-1157)*** hakimiyyəti illərində imperatorluq faktiki olaraq, ayrı-ayrı müstəqil dövlətlərə parçalanmışdır. Bu dövlətləri Səlcuq sultanlarının vəliəhdlərinin tərbiyəçiləri – ***atabəylər*** idarə edirdilər.

4.Şirvanşahlar və Atabəylər dövlətləri

Şirvanşahlar dövləti (861-1538). Böyük Səlcuq hökmdarı ***I Məlik şahın*** hakimiyyətinin sonuna yaxın Şirvanşahlar yenidən qüvvətlənməyə başladı. Bu zaman ***Fəribürz,*** sonra oğulları ***II Mənuçöhr və I Afridun*** ölkəni müstəqil idarə edirdilər. Səlcuq türklərinə qarşı mübarizədə gürcü çarları Şirvanşahlara yaxınlaşmağa çalışırdılar. Geniş xarici siyasət planları olan gürcü çarı ***IV David*** Bizans imperatoru ***Aleksey Komnin*** və ***qıpçaq türklərinin hökmdarı Atrak*** ilə ittifaqa girdi. O, Qafqazın şimalından Gürcüstana ***45000 nəfərdən çox qıpçaq türk döyüşçüsü*** köçürtmüşdür. Gürcü və erməni feodalları, Bizans imperiyasının vasitəçiliyi ilə, Səlcuq türklərinə qarşı Qərbi Avropa səlibçiləri ilə də ittifaq yaratmışdılar. Bu tədbirlərlə onlar ***türk-müsəlman amilini*** Qafqazdan sıxışdırıb çıxarmağa, Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməyə çalışırdılar. ***1117-ci ildə Demetrenin*** başçılığı ilə ***gürcülər*** Şirvana hücum etdilər. ***1120-ci ildə*** isə ***IV David*** qüvvətli ordu ilə Şirvana basqın etdi. Şirvanşahlar ordusu məğlubiyyətə uğradı [2, s. 332]. IV David ***Qəbələni*** talan etdi. ***1121-ci ildə Didqori döyüşündə*** gürcü, qıpçaq türkləri, osetin və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələri Səlcuq qoşunlarına qalib gəldi. ***1122-ci ildə*** Tiflis müsəlman əmirliyi ləğv edildi. Şirvanşah ***III Mənuçöhrün (1120-1160)*** hakimiyyəti illərində Şirvan-Gürcüstan münasibətlərinin yaxşılaşmasında Böyük Səlcuq imperatorluğunun zəifləməsi ilə yanaşı, III Mənu-

çöhrün arvadı çariça ***Tamar*** və onun ***gürcü əhatəsi*** də mühüm rol oynamışdır. Gürcü çarı ilə ittifaqa arxalanan III Mənuçöhr Səlcuq türklərindən üz döndərdi. Nəticədə Şirvanşahlar dövləti Böyük Səlcuq imperatorluğu ilə ittifaqdan çıxdı və ***40000 dinar*** məbləğində illik ***bac*** verməkdən imtina etdi. ***1123-cü ildə*** Səlcuq hökmdarı ***Sultan Mahmud*** Şirvana hücum etdi. Lakin birləşmiş qüvvələrə qalib gələ bilməyən Sultan Mahmud çox keçmədən Şirvanı tərk etməli oldu. IV David Şirvan torpaqlarını Gürcüstana qatmaq qərarına gəldi və ***1123-1124-cü illərdə*** dəfələrlə Azərbaycana yürüş etdi. Gülüstan və Buğurd qalalarını, Şamaxını ələ keçirdi, şəhər və qalalarda gürcü qarnizonlarını yerləşdirib geri qayıtdı. Lakin ***1125-ci ildə*** 5 ay sonra IV David öldükdə onlar Şirvanı tərk etməyə məcbur oldular. XII əsrin 30-60-cı illərində Azərbaycan Şirvanşahlar dövləti Cənubi Qafqazda ən qüdrətli siyasi amilə çevrilmişdir. ***1160-cı ildə*** III Mənuçöhrün ölümündən sonra onun oğulları arasında taxt-tac uğrunda mübarizə başlandı. Sarayda yaranmış qarışıqlıqdan istifadə edən çariça ***Tamar*** kiçik oğlu və bir qrup əyanla birlikdə qıpçaq türklərinə arxalanaraq, ***Şirvanı Gürcüstana birləşdirməyə*** cəhd göstərdi. Lakin Eldənizlər dövlətinin hakimi ***Atabəy Şəmsəddin Eldənizin*** hərbi qüvvələrinin köməyi ilə III Mənuçöhrün böyük oğlu ***I Axsitan (1160-1196)*** hakimiyyəti ələ keçirdi. O, Səlcuq türkləri ilə dostluq münasibətlərini bərpa etdi, ömrünün sonunadək Eldənizlər dövlətinə arxalandı, Gürcü çarlığı ilə isə dostluq münasibətlərini davam etdirirdi. ***1173-cü ildə*** Şirvanşahın hərbi qüvvələri mərkəzi hakimiyyətə qarşı qiyamı yatırmaqda gürcü çarı ***III Georgiyə*** kömək etdi. I Axsitanın hakimiyyəti dövründə Dərbənd hakimliyi Şirvanşahlardan asılı vəziyyətə salındı. I Axsitan ölkənin ərazisində çoxlu müdafiə qurğuları-qalalar, qüllələr, sədlər inşa və bərpa etdi. ***1175-ci ildə*** Şirvanşahlar dövləti yenidən xarici təcavüzə məruz qaldı: ***73 gəmidən*** *ibarət* ***slavyan donanması*** Azərbaycana hücum edərək, Lənbərana qədər hərəkət etdi. Şimaldan isə ***qıpçaq türkləri*** Dərbəndi və Şabranı ələ

keçirdilər. Şirvanşahın hərbi qüvvələri hər iki hücumu dəf etdi. Bu zaman ***III Georginin*** gürcü qoşunları Şirvanşaha kömək etdi. Bizans şahzadəsi Andronik Komnin də gürcü qoşunlarının ordugahında idi. ***1192-ci ildə*** baş vermiş güclü zəlzələ nəticəsində ***Şamaxı*** dağıldı. Şəhər əhalisinin xeyli hissəsi (I Axsitanın ailəsi də) tələf oldu. Paytaxt ***Bakıya*** köçürüldü [8, s. 297].

Azərbaycan Atabəylər (Eldənizlər) dövləti (1136-1225). Azərbaycan atabəylərinin idarə etdiyi ***Eldənizlər dövləti*** Azərbaycan tarixində ***İldənizlər*** və ya ***Eldəgəzlər*** *dövləti* kimi də tanınırdı. Bu ərazi əvvəllər İraq Səlcuq sultanlığının tərkibinə daxil idi. Böyük Səlcuq imperatorluğunun parçalanması dövründə meydana gələn ***İraq Səlcuq sultanlığı (1118-1194)*** İraqı, İranı və Kür çayından cənubdakı Azərbaycan torpaqları da daxil olmaqla Cənubi Qafqazın bir hissəsini əhatə edirdi. Eldənizlər dövlətinin adı sülalənin banisi ***Atabəy Şəmsəddin Eldənizin*** adı ilə bağlı idi. Sultan ***II Toğrul (1132-1134)*** ona ***"əmir"*** titulu verdi və öz oğlu Arslan şahın ***atabəyi*** təyin etdi. ***1136-cı ildə*** o, Sultan Məsud tərəfindən Arran hakimi təyin olundu və Bərdəyə göndərildi. Bununla müstəqil ***Azərbaycan Eldənizlər dövlətinin*** və bu dövləti idarə edən ***Eldənizlər sülaləsinin*** əsası qoyuldu. Şəmsəddin Eldəniz bir çox xırda feodal mülklərini aradan qaldıraraq bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirdi. O, sultan sarayından iqta aldığı Arranla yanaşı, Azərbaycanın bəzi cənub bölgələrini, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başladı. Paytaxt əvvəllər ***Naxçıvan*** şəhəri idi. Şəmsəddin Eldəniz ***1160-cı ildə "Böyük Atabəy"*** titulunu aldı və oğulluğu ***Arslan şahın (1161-1176)*** İraqda sultan elan olunmasına nail oldu. Bundan sonra ***Şəmsəddin Eldəniz*** bütün İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı. Böyük oğlu ***Məhəmməd Cahan Pəhləvan*** sultanın ***hacibi*** (hacib hökmdarın şəxsi xadimidir, dövlət başçısına aid olan mühüm işlər haqqında ona məlumat verir, onun tələbatlarının qayğısına qalır, saray mərasimlərini müəyyənləşdirir, qoşuna və

hərbi əməliyyatlara da rəhbərlik edir) oldu [2, s. 411], kiçik oğlu ***Qızıl Arslan*** isə ***ordunun ali baş komandanı*** təyin edildi. Beləliklə, İraq Səlcuq sultanlığı Azərbaycan sultanlığına çevrildi. Kürdən cənubdakı bütün Azərbaycan torpaqları Eldənizlər dövlətinin tərkibində yenidən birləşdirildi. Şirvanşahlar dövləti də Eldənizlərdən asılı oldu. Atabəylər dövləti Azərbaycan torpaqları üçün daim təhlükə yaradan Gürcü çarlığının torpaqlarını da Eldənizlər dövlətinin tərkibinə daxil etdi. ***1161-ci ildə*** gürcü qoşunları o zaman Eldənizlər dövlətinin tabeçiliyində olan Dəbil şəhərinə hücum edib ***10 minə*** qədər adamı qılıncdan keçirdilər, əsir aldıqları qadınları və uşaqları çılpaq vəziyyətdə Gürcüstana apardılar. Gürcü qadınlarının etirazından sonra onların paltarları özlərinə qaytarıldı. Şəmsəddin Eldənizin gürcü qoşun hissələri üzərində bir sıra qələbələr qazandıqdan sonra gürcü çarları bir daha Azərbaycan sərhədini pozmağa cəsarət etmədilər. Şəmsəddin Eldənizin hakimiyyətinin sonuna yaxın ***Eldənizlər dövləti*** Dərbənd keçidindən İran körfəzinə qədər çox geniş əraziləri- ***Azərbaycanı***, o cümlədən ***Arran*** və ***Şirvan, əl-Cibal ölkəsi, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan*** və ***Reyi*** əhatə edirdi. Hilat, Fars, Xuzistan, Mosul, Kirman və Təbəristan Eldənizlər dövlətindən asılı idi. Mərkəzi hakimiyyətdən iqta almış əmirlərin hərbi qüvvələrindən başqa, hökmdarın özünün 50 min nəfərlik nizami süvari qoşunu vardı. Səlcuq Sultanı ***III Toğrulun (1176-1194)*** atabəyi olan ***Məhəmməd Cahan Pəhləvan*** **(*1175-1186*)** hakimiyyətə gəldikdən sonra ***1175-ci ildə*** paytaxtı Naxçıvandan ***Həmədana*** köçürdü, Təbrizi Ağsunqurilərin əlindən aldı, müstəqilliyə can atan iri Səlcuq əmirlərinin müqavimətini qırdı və mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi. Azərbaycanı onun kiçik qardaşı ***Qızıl Arslan*** idarə edirdi. O, həm də qardaşı oğulları ***Əbu Bəkrin*** və ***Özbəyin*** atabəyi idi. İqamətgahı *Təbrizdə* yerləşirdi. Məhəmməd Cahan Pəhləvan dövlət vəzifələrinə öz yaxın adamlarını təyin etdi, mərkəzi hakimiyyəti xeyli qüvvətləndirdi, onun 50 min nəfərlik nizami süvari ordusu var

idi. Gürcü feodallarını dəfələrlə məğlub etmişdir. Hətta Abbasi xəlifələri belə Eldənizlər dövlətinin daxili işlərinə qarışa bilmirdilər. Ömrünün sonuna yaxın imperatorluğu oğulları arasında bölüşdürmüşdür. Hakimiyyətə keçən qardaşı ***Qızıl Arslan (1186-1191)*** uzun müddət taxt-tacı ələ keçirməyə cəhd edən saray müxalifətinə və iri feodallara qarşı mübarizə apardı. Formal olaraq sultan titulu daşıyan ***III Toğrul***, narazı Səlcuq əmirləri, Məhəmməd Cahan Pəhləvanın arvadı İnanc Xatın, oğlu Qutluq İnanc və b. Qızıl Arslana qarşı qüvvələrini birləşdirdilər. III Toğrulla Qızıl Arslan arasında dəfələrlə qanlı döyüşlər olmuşdur. Qızıl Arslan bu münasibətləri sahmana salmaq üçün İnanc Xatınla evləndi, qardaşı oğulları Qutluq İnanc və Əmir Əmiran Ömərlə barışdı**.** ***1191-ci ildə Həmədan*** vuruşmasında qələbə qazandı, III Toğrulu oğlu Məlikşahla birlikdə əsir aldı. ***1191-ci ildə*** Qızıl Arslan ***xəlifə ən-Nasirin*** razılığı ilə özünü ***İraq sultanı*** elan etdi. Beləliklə, ***Azərbaycan atabəyləri*** İraq Sultanlığında formal hakimiyyəti, yəni ***sultan titulunu*** da ələ keçirdilər. Mərkəzi hakimiyyətin qüvvətlənməsindən narazı qalan iri feodallar və İnanc Xatın ***sentyabr ayında*** Qızıl Arslanı sui-qəsdlə öldürdülər. Azərbaycanda hakimiyyəti ***Məhəmməd Cahan Pəhləvanın*** oğlu ***Əbu Bəkr (1191-1210)*** ələ keçirdi, digər oğulları ***Qutluq İnanc*** və ***Əmir Əmiran Ömərin*** idarə etdikləri İsfahan, Rey vilayətləri və İraqın bir hissəsi Eldənizlər dövlətindən ayrıldı. Bunlar dövlətin tənəzzülünü sürətləndirdi. Vəziyyətdən istifadə edən Xarəzmşahlar, Əyyubilər, Abbasilər, Şirvanşahlar, gürcü çarları fəallaşdılar. ***1192-ci ildə*** Sultan III Toğrul həbsdən qaçdı, Rey, İsfahan və Həmədanı ələ keçirdi [8, s. 304]. III Toğrul tərəfindən məğlub edilən *Qutluq İnanc* kömək üçün ***Xarəzmşah Təkəşə*** **(*1172-1200*)** sığındı. Təkəş Xorasan, Rey və Həmədanı ələ keçirdi. ***1194-cü ildə*** III Toğrul Təkəş və Qutluq İnancın birləşmiş qüvvələrinə qarşı vuruşmada öldürüldü. ***1196-cı ildə*** Təkəş Qutluq İnancı aradan qaldırdı. Eldəniz ***Əbu Bəkr*** Xarəzmşahların hərbi qüvvələri üzərində bir sıra qələbə çalsa da, dövlətdə

baş verən feodal hərc-mərcliyinin qarşısını almaq mümkün olmadı. ***Şirvanşah I Axsitan*** Əmir Əmiran Ömərə onun qardaşı Əbu Bəkrə qarşı hərbi qüvvə ilə yardım göstərdi. Gürcü çariçası Tamar və Şirvanşahların birləşmiş qoşunları ***1194-cü ildə*** *Şəmkir* və *Beyləqan vuruşmalarında* ***Əbu Bəkri*** ağır məğlubiyyətə uğratdılar. Əmir Əmiran Ömər və gürcülərin hərbi qüvvələri Gəncəyə hücum etdilər. Gəncə əhalisi vətənə xəyanət edən Eldəniz şahzadəsinə şəhərə kafirlərlə gəldiyinə görə təslim olmayacaqlarını bildirdilər. Əmir Əmiran Ömər Gəncəni hiylə ilə ələ keçirdi. Gürcü qoşunları Gəncəni tərk etdikdən sonra gəncəlilər Əmir Əmiran Öməri öldürdülər. Şəhər yenidən Əbu Bəkrin hakimiyyəti altına keçdi. Gürcü qoşunları ***1203-cü ildə Dəbili*** qarət etdilər, Qərbi Azərbaycan torpaqlarının tutulması təhlükəsi yarandı. Xalq və Şirvanşahlar dövləti Azərbaycanın qərb sərhədlərinin müdafiəsinə qalxdı. Gürcü qoşunları ***1210-1211-ci illərdə*** Azərbaycan torpaqlarına yenə dağıdıcı basqınlar etdilər. Onlar Naxçıvanı mühasirəyə aldılar, lakin ələ keçirə bilmədilər, sonra Mərəndi talan etdilər, Təbrizi mühasirəyə aldılar. Şəhər hakimi ***Zahidə Xatın*** (Məhəmməd Cahan Pəhləvanın arvadı) çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtardı. ***Atabəy Özbəyin (1210-1225)*** hakimiyyəti illərində Eldənizlər dövlətinin süqutu daha da sürətləndi. Beləliklə, monqolların hücumu ərəfəsində Azərbaycan dövlətlərindən heç biri-nə Eldənizlər, nə də Şirvanşahlar ölkəni xarici təhlükədən qorumaq iqtidarında deyildilər. Monqollara qədərki Azərbaycanın ***iqtisadi*** vəziyyəti məhsuldar qüvvələrin artması, ticarətin və əmtəə-pul münasibətlərinin genişlənməsi ilə səciyyələnirdi. XI-XII əsrlərin vergi sistemi əvvəlki dövrlərin qayda-qanunlarının çoxunu mühafizə etmişdir. XII-XIII əsrlərdə Azərbaycanda 70-dək iri, orta və kiçik şəhərlər vardı. Bu dövrün iri ticarət-sənətkarlıq mərkəzləri Gəncə, Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Dərbənd, Bakı, Şamaxı və Beyləqan idi. XII əsrin I yarısında ***Gəncənin*** tərəqqi və inkişafı burada baş verən dağıdıcı ***zəlzələlər (1122, 1139)*** və

gürcülərin "daha dağıdıcı" basqın və qarətləri ilə ləngidildi. Lakin gəncəlilərin səyi və köməyə gəlmiş sultan canişini ***Qara Sunqurun*** öz qoşunu ilə etdiyi yardım nəticəsində XII əsrin sonu XIII əsrin əvvəlləri Gəncə yenidən öz əvvəlki görkəmini qaytara bildi. ***Təbrizdə*** də ***1042-ci ildə*** baş vermiş zəlzələdə 40-50 min sakinini və gözəl binalarını itirsə də yenidən bərpa edildi.

5.Azərbaycan intibah mədəniyyəti

IX-XII əsrlərdə Azərbaycan torpaqlarında sosial-iqtisadi həyat. Azərbaycanda müstəqil dövlətlərin meydana gəlməsi iqtisadi inkişafın sürətlənməsinə səbəb oldu. Mənbələr Azərbaycanda dənli bitkilərin bütün növlərinin (buğda, arpa, çəltik, darı və s.), müxtəlif texniki bitkilərin (pambıq, boyaqotu, kətan və s.), həmçinin cürbəcür bostan bitkilərinin becərilməsi barədə olduqca əhəmiyyətli məlumatlar verirlər. Şirvanda və Dərbənd ətrafında ***zəfəran***, ***kətan*** becərilirdi. Lənkəran və Şəki bölgələrində müxtəlif ***çəltik*** növləri əkilirdi. Aran, xüsusilə, Bərdə vilayəti ***qırmızı boya*** almaq üçün istifadə olunan qızıl boya - ***qırmız*** ilə zəngin idi. Kür çayının hər 2 sahili başdan-başa ***taxıl*** zəmiləri və ***pambıq*** tarlalarından ibarət idi. Əhalinin təsərrüfat həyatında ***bostan*** və ***tərəvəz*** bitkilərinin əkini də mühüm yer tuturdu. Bağçılıq da inkişaf etmişdir. O zaman Təbriz bağlarını salmaq üçün ***900-dən çox kəhriz*** qazılmışdır. İbn Havqəlin yazdığına görə, Dərbəndlə Səməndər arasındakı üzümlüklərdə 40000-ə qədər tənək vardı. IX-XI əsrlərdə Azərbaycanda ***ipəkçilik*** yüksək inkişaf etmişdir. Kənd təsərrüfatının ən yüksək inkişaf etmiş sahəsi ***maldarlıq*** idi. Heyvandarlığın əsas forması yaylaq-qışlaq maldarlığı idi. Xəzər ***balıqla*** zəngin idi. Kür və Araz çayları boyunca yaşayan əhali balıqçılıqla da məşğul olurdu. ***Arıçılıq***, ***bal*** *və* ***mum*** ixracı da Azərbaycanın iqtisadi həyatında mühüm rol oynayırdı. Cəmiyyətin əsas istehsalçısı olan kəndlilər 2 qismə- ***uluclara*** *və* ***azad kəndlilərə*** bölünürdülər. ***Uluclar asılı kəndli-***

lər idilər. Ərəb işğalları dövründə yaranmışlar. Öz torpaqlarını itirmək təhlükəsi qarşısında qalan kəndlilərin mühüm bir hissəsi ayrı-ayrı ərəb feodallarının himayəsinə sığınmağa məcbur olurdu. Nəticədə, həmin kəndlilərin torpaqları ərəb feodallarının əlinə keçir və ***ilcə*** (yaxud ***hami***) torpaqlar adlanırdı. *Uluclar*, əsasən, əkinçiliyi yüksək inkişaf etmiş düzən rayonlarda yaşayırdılar, dövlətə vergi verirdilər. ***Azad kəndlilər*** isə dağ rayonlarında yaşayırdılar. Azərbaycan kəndliləri oturaq həyat tərzi sürürdülər. Torpaq üzərində xüsusi mülkiyyət mövcud idi. Süni suvarmaya əsaslanan əkinçiliyin inkişaf etdiyi yerlərdə su üzərində də xüsusi mülkiyyət hökm sürürdü. Feodal torpaq mülkiyyətinin bir neçə növü var idi. ***Mülk*** (***əmlak***) torpaqlar – ***irsi*** idi, mülk sahibləri (***malik, məlik*** və ya ***mülkədar***) torpağı ***sata*** və ***bağışlaya*** bilərdilər. ***Camaat (icma)*** torpaqları – otlaqlar, örüşlər, meşələr, bataqlıqlar və s., bəzən əkin yerləri hesab edilirdi. Camaat torpaqları dövlətin mülkiyyətində idi, dövlətə torpaq vergisi – ***xərac*** verilirdi. ***Xassə*** – ayrı-ayrı hökmdarların (xəlifələr, sultanlar və b.) və sülalələrin mülkiyyətində olan geniş torpaq sahələridir. Dövlətə məxsus olan, yəni gəliri birbaşa xəzinəyə gələn torpaqlara ***divani*** və ya ***divan torpaqları*** deyilirdi. Şərti torpaq mülkləri – ***iqta*** sistemi də inkişaf etməkdə idi. ***İqta dövlətə xidmət müqabilində v***erilirdi. İqta sahibləri – ***iqtadarlar*** bilavasitə təsərrüfatla və ya təsərrüfatçılıqla məşğul olmur, bir qayda olaraq, öz iqta torpaq sahələrini icarəyə verirdilər. Zaman keçdikcə onlar iqtadarların xüsusi mülkiyyətinə çevrilirdi. Səlcuqların dövründə sərhədləri qoruyan sərkərdələrə ***"uc"*** torpaqları da verilirdi. ***Vəqf*** torpaqları ayrı-ayrı ruhanilərə, dini və xeyriyyə müəssisələrinə, məscidlərə, mədrəsələrə və s. verilirdi. Kəndlilər vergini vəqf sahibinə və ya dini müəssisəyə verirdilər. Torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi ***üşr*** və ya ***üşur (1/10),*** sonralar isə ***xərac*** adlanırdı. Xərac toplayan vergi məmurları ***mütəqəbbil*** və ya ***amil***, maliyyə müfəttişləri isə ***mütəsərrif*** adlanırdı. X-XI əsrlərdə xəracın müəyyən bir hissəsini ***pulla*** ödəyir-

dilər. O zaman ərəblər ***Azərbaycandan 4-4,5 milyon dirhəm***, Sacilərin hakimiyyəti dövründə ***2 milyon***, Salari hökmdarı İbrahimin dövründə də bu qədər xərac alırdılar. Xəracdan başqa, müsəlman əhalisi öz əmlakına görə nəzir verirdi ki, buna da ***zəkat*** və ***sədəqə*** deyilirdi. Müsəlman olmayan əhalidən ***can vergisi – cizyə*** alınırdı. Ərəb işğalı dövründə mərkəzi hakimiyyət tərəfindən müəyyən olunmuş illik xəracı ödədikdən sonra bu feodallar öz torpaqlarında təkbaşına hakimlik edirdilər.

IX-X əsrlərdə Azərbaycan dünyanın çoxlu şəhərləri olan ölkələrdən birinə çevrildi. Siyasi müstəqillik iqtisadi tərəqqiyə, o cümlədən sənətkarlıq və ticarətin inkişafına, şəhərlərin meydana gəlməsinə müsbət təsir göstərirdi.

Azərbaycanda mədəni həyatın yüksəlişi ilə səciyyələnən ***XII əsr Azərbaycan intibah dövrü*** hesab edilir. Bu dövrdə paytaxt şəhərlər olan Təbriz, Şamaxı, Naxçıvan, Gəncə və başqa şəhərlərdə elmi mərkəzlər yaradılmışdır. Şivanşahlar və Eldənizlərin saraylarında dövrün ən yaxşı alimləri toplanmışdır. Onların riyaziyyat, təbiətşünaslıq, tibb, kimya, fəlsəfə, məntiq, hüquq, astronomiya, ərəb və fars ədəbiyyatı və b. sahələrdə böyük müvəffəqiyyət və uğurları olmuş, bir çoxları müsəlman mədəniyyəti və elminin xadimləri kimi tanınmışdılar. Bunlardan görkəmli alim *Fəridəddin Şirvani* 30 il ***astronomiya*** ilə məşğul olmuş və bir neçə ulduz cədvəli tərtib etmişdir. XI-XII əsrlərdə təbabət sahəsində yüksək biliyə malik olan həkimlərdən *Kafiəddin Ömər ibn Osman, Mahmud xoca, Rəşidəddin,* atabəy Özbəyin şəxsi həkimi olan *Cəlaləddin Təbib, Mühzəbəddin Təbrizi, Əkmələddin Naxçivani* və b. göstərmək olar. Bunlar öz əsərlərində bir çox xəstəliklərin müalicə yollarını nəzərdən keçirərək, əczaçılıq və müxtəlif xəstəliklərin müalicə prinsipləri haqqında bütün məlumatları ümumiləşdirmişdilər.

Nəzərdən keçirilən dövrdə tarixi, filoloji, fəlsəfi məzmunlu xeyli əsər yaradılmışdır. Hərtərəfli biliyə malik olan *Fəxrəddin Əbülfəzi İsmayıl ibn əl-Musanna ət-Təbrizinin* qələmə aldığı

"Tarixi-Azərbaycan" əsəri dövrümüzə gəlib çatmayan əsərlərdən biridir. "Şərqdə təşkil edilən ilk mükəmməl universitetlərdən birincisi" hesab edilən ***"Nizamiyyə"*** mədrəsəsində dərs deyən bir çox alimlər içərisində *İsmayıl ibn əl-Musanna ət-Təbrizidən başqa, Xətib Təbrizi,* gəncəli *Əbu Hafs Ömər ibn Osman ibn Şueyb əl-Cənzini, Tacəddin Əbu-İ-Fədail Məhəmməd ibn əl-Hüseyn ibn Abdullah əl-Urməvini, Əbul-Fadl Mahmud ibn Əhməd ibn Məhəmməd əl-Ərdəbilini, İbn Sinanın şagirdi Bəhmənyarı,* görkəmli mütəfəkkir və sufi olan *Şibahəddin Suhrəvərdini* və b. göstərmək olar.

XI-XIII əsrin əvvəllərində Azərbaycan poetik məktəbi özünün ***Nizami Gəncəvi, Əbül Üla Gəncəvi, Əfzələddin Xaqani, Fələki Şirvani, Mücirəddin Beyləqani, Məhsəti Gəncəvi*** və b. Görkəmli xadimləri ilə məşhur idi. Bu məktəbdə ədəbi sənətlə real həyat arasında bağlılığı, uzlaşmanı təmsil edən ***Rudəkidən***, ***Firdovsi*** və b. şairlər, o cümlədən ***Qətran Təbrizi*** tərəfindən inkişaf etdirilən farsdilli şerin Xorasan-Türküstan səpkisindən-üslubundan fərqli olaraq yeni poetik ***"səpki təmtəraqi"*** adlı Azərbaycan üslubu yaradıldı. O dövrün görkəmli alimlərindən olan ***Əfzələddin Xaqaninin*** şerinin əhəmiyyətli cəhətlərindən biri də fars dilinin hökmranlıq etdiyi ***şeir dilinə*** şairin doğma ***Azərbaycan-türk sözlərini*** gətirməsidir. Bunlardan şairin "Məra dər parsi fohşi ke quyənd, be torki çərxeşan quyəd ke sənsən" ("farsca mənə söyüş desələr, çərxi fələk onlara türkcə deyər ki, sənsən") misralı məşhur beytində işlədilmiş "sənsən" sözünü, eləcə də özünün şeir "Divan"-ında işlətdiyi su, Tanrı, vuşaq (uşaq), çuxa, gunduz, xatun, sürmə, qara qız, dağ, xan və s. bu kimi sözləri qeyd etmək olar.

XII əsrin ortalarına yaxın yaranan Azərbaycan Atabəylər dövlətinin hakimiyyəti dövründə Gəncə və Şirvan poetik məktəbləri artıq ən yüksək inkişaf mərhələsinə yetişmişdir. Atabəylər sarayında fəaliyyət göstərən şairlər Xaqani tərəfindən təməli qoyulan yeni üslublu farsdilli Azərbaycan şerini yüksək sənət-

karlıq səviyyəsinə çatdırmağa çalışırdılar. Lakin Xaqani zirvəsini fəth etmək, Azərbaycan poeziyasını daha yüksək zirvələrə çatdırmaq səadəti Nizami Gəncəviyə nəsib olmuşdur.

Bu dövrdə mənşəcə türk olan Səlcuq hökmdarlarının, Atabəylərin, Şirvanşahların üstünlük verdikləri ***fars dili*** özünün inkişafı və təkmilləşməsində məhz Azərbaycan poetik məktəbinin nümayəndələrinə, xüsusilə dahi ***Nizami Gəncəviyə*** borcludur. Onun ***"Xəmsəsi"*** dünya ədəbiyyatının ən dəyərli nümunəsidir. Şair bu əsəri ilə şeir sənətini saraylardan və məddahlıqdan uzaqlaşdırıb, bu gün başa düşdüyümüz mənada bədii ədəbiyyat yaratdı. O, insanı özünün qəhrəmanı edib, onun hiss və həyəcanlarını, duyğu və düşüncələrini, arzu və istəklərini tərənnüm edirdi. Şəxsiyyət, onun həyatı, mahiyyəti, təfəkkür tərzi və fəlsəfəsi Nizamini düşündürən, onun poemalarının ana xəttini təşkil edən mövzular idi. Nizami əsərlərində sənətkarlıq, forma və məzmun vəhdətdə olub bir-birini tamamlayırdı. Görkəmli söz ustaları *Əmir Xosrov Dəhləvini, Hacı Kirmanini, İmadəddin Kirmanini, Əbdürrəhman Camini, Əlişir Nəvaini, Hatifini, Füzulini* və b. Nizami məktəbinin davamçiları hesab etmək olar.

Bütün yuxarıda göstərilənlər, XI-XII əsrlərdə şimali və cənubi Azərbaycan ərazilərində elmin sürətli inkişafını, onun müxtəlif sahələrinə dair onlarla əsərlərin yazıldığını, bu əsərlərin əsasən dövrün elm dili olan ***ərəb dilində*** qələmə alındığını, Azərbaycan alimlərinin Yaxın və Orta Şərq müsəlman mədəniyyətinin inkişafında tutduqları əvəzedilməz və əhəmiyyətli mövqelərini açıqlayır. Elmin, mədəniyyətin bu inkişafı ölkənin sosial-iqtisadi vəziyyətinin və şəhər mədəniyyətinin ümumi yüksəlişi ilə bilavasitə bağlıdır.

XI-XII əsrlərdə Azərbaycanın ən böyük iqtisadi, siyasi və mədəni mərkəzləri olan Şamaxı, Bakı, Gəncə, Naxçıvan, Beyləqan, Təbriz, Marağa, Urmiya və b. şəhərlərdə müxtəlif səciyyəli abidələr inşa edilirdi. Orta əsr Azərbaycan ***memarlığının*** inkişafını müəyyənləşdirən ***3 əsas üslub*** istiqamətini əks etdirən ***Şir-***

van, Naxçıvan və Arran memarlıq məktəbləri də elə bu illərdə təşəkkül tapmışdır. Bu ocaqların üslub istiqamətində lokal cəhətlər, o cümlədən regionun etnik və sosial quruluşu həlledici rol oynayırdı.

Əsas tikinti materialı yerli əhəngdaşı olan ***Şirvan-Abşeron memarlıq məktəbi*** üçün daha dayanaqlı, sadə və çox vaxt asimmetrik kompozisiyalar, saya memarlıq dekoru səciyyəvi olmuşdur. Daşla kərpicin birgə yanaşı işlədilməsi ilə tikilən ***Arran memarlıq*** abidələri qamətli kompozisiyası, daha zərif ayrıntıları və incə görkəmi ilə Şirvan məktəbi nümunələrindən seçilirdi.

İntibah dövrünün ən yüksək inkişaf mərhələsi Azərbaycan Atabəylər dövləti dövrünə düşən, əsasən, bişmiş kərpicdən tikilən ***Naxçıvan-Marağa məktəbi*** abidələrinə bir sıra xüsusiyyətlər – binanın əsas tikinti kütləsi və üzlük örtüyünə ayrılması, üzləmə bloklarının işlədilməsi, gövdənin karkas sxemi, hər yandan fasadlı olmaq, dekorda həndəsi ornamentin üstünlüyü, şirli kərpiclərin işlədilməsi, epiqrafikanın rolunun artması və s. xasdır.

Bu dövrün abidələrindən Bakının – Qız qalası, Mərdəkan qalası (1204), Şamaxının – Gülüstan qalası, Beyləqanın, Gəncənin, Təbrizin, Marağanın müdafiə divarları, Abşeronun (Bakı, Mərdəkan, Nardaran, Ramana və s.) qalaları, məscid, mədrəsə və xanəgahlar (İçəri şəhərdə Sınıqqala minarəsi, Pir Hüseyn xanəgahı və s.), məqbərələr (Əcəminin yaratdığı memarlıq abidələri – Möminə xatın (1186), Yusif ibn Küseyr məqbərəsi (1162), Qoşaminarə (1187), Cümə məscidi, Məhəmməd ibn Nəsr tərəfindən tikilmiş şeyx Əbu Bəkr məqbərəsi (1197-1198) və s.), körpülər (Xudafərin (1027), Cuqa və s.), Gəncə qala qapıları (1063), Şamaxının Sündü kəndində tikilmiş günbəzli məscid (920), Əlincə qalası, Lerikdə Oğlanqala, X əsrdə Ağoğlan çayı sahilində tikilmiş Amaras monastrı özlərinə məxsus üslubları ilə fərqlənirdi. XII əsrdə Naxçıvan memarlıq üslubunda Marağada Göy Günbəz (1194), Urmiyada Üç Günbəz (1184) məscidləri, Culfada sərdabələr ucaldılmışdır. XI-XII əsrlərdə tətbiqi incəsə-

nətin bir sıra sahələrinin (saxsı qablara bəzək vurulması, parçaların rənglənməsi və naxışlanması, ağac, şüşə və s. emalı, metala naxış basılması, xalçaçılıq və s.) inkişaf səviyyəsi xeyli yüksəlmişdir.

Ümumiyyətlə, XI-XIII əsrin əvvəllərini Azərbaycan memarlığı tarixində dönüş mərhələsi hesab etmək olar. Bu dövrün geniş tikinti işləri Azərbaycan memarlığını yeni bina tipləri (qüllələvari türbə, mədrəsə), konstruktiv fəndlər (ikiqatlı günbəzlər, mərkəzi dayaqlı tağ örtüyü), memarlıq elementləri (dairəvi minarə, ikiminarəli baştağ), memarlıq bəzəyi vasitələri (həndəsi ornament, şirli kərpic, bloklarla üzləmə) və s. ilə zənginləşdirirdi.

XRONOLOJİ CƏDVƏL

859 – Məhəmməd ibn Yezidin iqamətgahını Gəncəyə köçürməsi.
IX əsr, sonları - Sacilərin Aran və Bərdəni işğalı. Məzyədilərin Şirvanda cəmləşməsi.
861-1538 – Şirvanşahlar dövləti.
861 – Məzyədilər sülaləsindən Heysam ibn Xalid Şirvanı müstəqil elan etməsi və Şirvanşah titulunu qəbul etməsi.
879-941 – Sacilər dövləti.
898 – Məhəmməd ibn Əbu Sacın Azərbaycan və Ərməniyənin canişini təyin edilməsi.
909 – Slavyanların Abaskun adasını ələ keçirməsi.
910 – Slavyanların Azərbaycan torpaqlarına basqınları. Sara adası.
912 – Xilafətin xəzinəsinə xərac göndərilməsinin dayandırılması.
914 – Yusif ibn Əbu Sacın erməni hökmdarı I Smbatı məğlub etməsi. Erməni çarlığının ərazisi, Tiflis və Kaxetiyanı, Şirvanşahları öz hakimiyyətinə tabe etməsi.
914, 944 – Slavyanların Xəzər dənizində görünməsi. Bərdənin süqutu. Şəddadilərin Gəncəni paytaxt seçməsi.
917 – Lahicanşahlığın Şirvanşahlara birləşdirilməsi.

918 – Şirvanşah Əbu Tahirin paytaxtı Şamaxıya köçürməsi və Yezidiyyə adlandırması.
920 – Şamaxının Sündü kəndində tikilmiş günbəzli məscid.
941/942-981- Salarilər dövləti.
943/944 – Slavyanların Bərdəni qarət etməsi.
951 – Məhəmməd ibn Şəddadın Dəbil əmirliyini yaratması.
971-1075 – Şəddadilər dövləti.
981-1116/1117 – Rəvvadilər dövləti.
981-982 – Şirvanşahın qoşunlarının Qəbələni işğal etməsi.
982 – Şirvanşahın qoşunlarının Bərdəni işğal etməsi.
983 – Şirvanşahın qoşunlarının Şirvanı işğal etməsi.
988 – Şirvanşahın qoşunlarının Dərbənd əmirliyini, sonra Xursan və Tabasaran, Şəki və Sənariyəni işğal etməsi.
985-1030 – Fəzl ibn Məhəmməd.
X əsr – Amaras monastrı.
XI-XIII əsr, əvvəlləri – Azərbaycan poetik məktəbinin çiçəklənmə dövrü.
1020-1059 – Rəvvadi hökmdarı Vəhsudan.
1027 – Xudafərin körpüsünün tikilməsi.
1028 – 2000 oğuz ailəsinin Rəvvadi hökmdarı Vəhsudanın icazəsi ilə burada məskunlaşması.
1030 – Slavyanların Bakı yaxınlığında və Kürlə Arazın qovuşduğu yerdə Şirvanşahları məğlub etməsi.
1031-1033 – Alanlar, sərirlər və rusların Yezidiyyə (Şamaxı) şəhərini ələ keçirməsi.
1037 – Şəddadilərin Bizans-erməni qoşunlarını oğuz tayfalarının köməyi ilə məğlub etməsi.
XI əsr, ortaları – Böyük Səlcuq imperatorluğunun yaranması.
1038 – Şəddadilərin Bizans-gürcü qoşunlarını oğuz tayfalarının köməyi ilə məğlub etməsi.
1038 – Paytaxtı Nişapur şəhəri olan ilk Səlcuq dövlətinin yaranması.
1038-1044 – Sultan Toğrulun Xorasan və Xarəzm işğal etməsi.

1040-1063 –Sultan Toğrul.
1040, 24 may – Dəndənəkan döyüşü. Qəznəvilərin məğlub edilməsi.
1042 – Təbrizdə zəlzələ.
1042-1051 – Səlcuq türklərinin Qərbi İranı işğal etməsi.
1043 – Paytaxtın Nişapurdan Rey şəhərinə köçürülməsi.
1048, 18 sentyabr – Səlcuq - Azərbaycan türk qoşunlarının Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrini darmadağın etməsi.
1049-1067 – Əbüləsvar Şavur.
1054/55 – Rəvvadi hökmdarı Vəhsudanın Səlcuq sultanı Toğrulun hakimiyyətini tanıması.
1055 – Səlcuq türklərinin Bağdad da daxil olmaqla İraqı işğal etməsi. Abbasilərin asılı vəziyyətə düşməsi.
1062 – Alanların Gürcüstan vasitəsilə Azərbaycana hücumu.
1063 – Gəncə qala qapılarının dəmirçi İbrahim Osman oğlu tərəfindən hazırlanması.
1066 – Şirvanşah I Fəribürzun səlcuqlara tabe olması.
1075 – Şəddadi hökmdarı Əbüləsvar Şavurun səlcuqlara tabe olması.
1096-1099 – I Səlib yürüşü.
1116/1117 – Əhmədilli ibn İbrahim ibn Vəhsudan ər-Rəvvadinin qətlə yetirilməsi. Rəvvadilər sülaləsinə son qoyulması.
1117 – Demetrenin başçılığı ilə gürcülərin Şirvana hücumu.
1118-1157 – Sultan Səncər.
1118-1194 – İraq Səlcuq sultanlığı.
1120-1160 – Şirvanşah III Mənuçöhr.
1120 – IV Davidin ordusunun Şirvana hücumu. Şirvanşahların məğlubiyyəti. Qəbələnin talanı.
1121 – Didqori döyüşü. Gürcü, qıpçaq türkləri, osetin və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələrinin Səlcuqlara qalib gəlməsi.
1122 – Tiflis müsəlman əmirliyinin ləğvi.

1122, 1139 – Gəncədə zəlzələlər. Gürcülərin "dağıdıcı" basqın və qarətləri.
1123 – Səlcuq hökmdarı Sultan Mahmudun Şirvana hücumu.
1123-1124 – IV Davidin Azərbaycana yürüşləri. Gülüstan və Buğurd qalalarının, Şamaxının işğalı.
1125 – Gürcülərin Şirvanı tərk etməsi.
1132-1134 – II Toğrul.
1136 – Atabəy Şəmsəddin Eldənizə Sultan Məsud tərəfindən Arranın iqta kimi verilməsi və Bərdəyə göndərilməsi.
1136-1225 – Azərbaycan Atabəylər (Eldənizlər) dövləti.
1160-1196 – I Axsitan.
1160 – Şəmsəddin Eldənizə "Böyük Atabəy" titulunun verilməsi.
1161 – Gürcü qoşunlarının Dəbil şəhərinə hücumu.
1162 – Yusif ibn Küseyr məqbərəsi.
1172-1200 – Xarəzmşah Təkəş.
1175-1186 – Məhəmməd Cahan Pəhləvan.
1175 – Paytaxtın Naxçıvandan Həmədana köçürülməsi. Eldənizlərin Təbrizi işğal etməsi.
1175 – 73 gəmidən ibarət slavyan donanmasının Şirvanşahlara hücumu. Qıpçaq türklərinin Dərbənd və Şabranı işğal etməsi.
1176-1194 – Sultan III Toğrul.
1184 – Urmiyada Üç Günbəz məscidi.
1186 – Mömünə xatun türbəsi.
1186-1191 – Qızıl Arslan.
1187 – Qoşaminarə.
1191 – Qızıl Arslanın Həmədan vuruşmasında qələbəsi, III Toğrulu oğlu Məlikşahla əsir alması. Xəlifə ən-Nasir tərəfindən İraq sultanı elan edilməsi. Sentyabr ayında qətlə yetirilməsi.
1191-1210 – Atabəy Əbu Bəkr.
1192 – Şamaxıda dağıdıcı zəlzələ, paytaxtın Bakıya köçürülməsi.
1192 – Sultan III Toğrulun həbsdən qaçması. Rey, İsfahan və Həmədanı ələ keçirməsi.

1194 – III Toğrulun Xarəzmşah Təkəş və Qutluq İnancla mübarizədə öldürülməsi.
1194 – Gürcü çariçası Tamar və Şirvanşahların birləşmiş qoşunlarının Şəmkir və Beyləqan döyüşlərində Əbu Bəkri məğlub etməsi.
1194 – Marağada Göy Günbəz məscidi.
1196 – Təkəşin Qutluq İnancı öldürməsi.
1197-1198 – Şeyx Əbu Bəkr məqbərəsi.
1203 – Gürcü qoşunlarının Dəbili qarət etməsi.
1210-1211 – Gürcülərin Azərbaycan torpaqlarına basqınları.
1210-1225 – Atabəy Özbəy.
1227 – Xarəzmşah Cəlaləddinin Ağsunqurilər sülaləsinə son qoyması.
XII əsr – Azərbaycanda intibah dövrü.

IV FƏSİL
AZƏRBAYCAN XIII-XV ƏSRLƏRDƏ

Plan:

1.Monqolların Azərbaycan torpaqlarına yürüşləri. Hülakülər dövləti.
2.Qızıl Orda xanı Toxtamış və Əmir Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim.
3.Azərbaycan XV əsr dövlətləri.
4.XIII-XV əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət.

1.Monqolların Azərbaycan torpaqlarına yürüşləri. Hülakülər dövləti

XIII əsrin əvvəllərində ***Çingiz xanın (1206-1227)*** yaratdığı Monqol feodal dövləti qonşu vilayətləri işğal etməyə başladı. Bu dövrdə Azərbaycanın şərq sərhədlərində mövcud olan Xarəzmşahlar dövləti iqtisadi və hərbi qüdrətini itirmişdir və monqollarla mübarizə aparmaq iqtidarında deyildi. Azərbaycanda vahid mərkəzi dövlət olmadığından feodal çəkişmələri hökm sürürdü. Eldənizlərin *Atabəylər dövləti (1136-1225), Şirvanşahlar dövləti (861-1538),* Marağada Rəvvadilər nəslindən olan *Ağsunqurilər sülaləsi (1116/17-1227)* əvvəlki qüdrətini itirmişdir. Monqolların Azərbaycana ilk dəfə yürüşləri ***1220-ci ildə*** oldu [8, s. 322]. Monqol sərkərdələri Cəbə və Subutay ***Zəncan, Ərdəbil, Sərab*** və b. şəhər və kəndləri dağıda-dağıda ***Təbrizə*** yaxınlaşdılar. Şəhər möhkəm qala divarları ilə əhatə edildiyindən monqollar danışıqlar aparmağı qərara aldılar. Monqollar Tərbizdən böyük xərac aldıqdan sonra qışlamaq üçün ***Muğana*** yollandılar. Lakin gürcü çarı IV Georgi ilə Atabəy Özbəy arasında hərbi itti-

faq bağlandığı barədə məlumat alan monqollar Muğandan ***Gürcüstana*** basqın etdilər və gürcü çarını məğlubiyyətə uğratdılar. ***1221-ci ilin əvvəllərində*** Cəbə və Subutayın dəstələri Gürcüstandan yenidən Azərbaycana qayıtdılar və ***Təbrizə*** tərəf hərəkət etdilər. Təbriz hakimi Şəmsəddin Tuğrayi xərac verməklə şəhəri qarətdən xilas etdi. Monqollar ***Marağa*** üzərinə yürüş etdilər. Əhali ciddi müqavimət göstərirdi. Düşmən divardağıdan maşından istifadə edərək şəhərə daxil oldu. Əhaliyə qanlı divan tutuldu. Monqollar Marağadan sonra ***Ərdəbili*** tutdular. Ərdəbildən sonra ***3-cü dəfə Təbrizə*** hücum etdilər. Atabəy Özbəy Naxçıvana qaçdı. Əhali Şəmsəddin Tuğrayinin başçılığı ilə şəhərin müdafiəsinə qalxdı. Cəbə və Subutay Təbrizin ciddi mübarizəyə hazır olduğunu görüb açıq döyüşə girməkdən çəkindilər və yenə xərac almaqla kifayətləndilər. Təbriz yenə qarətdən xilas oldu. Monqollar ***Sərab, Beyləqan*** şəhərlərini işğal edib, ***Gəncəyə*** doğru hərəkət etdilər. Gəncəlilərin əvvəlcədən hazırlaşdığından xəbər tutan monqollar xərac almaqla kifayətləndilər və ***Gürcüstana,*** oradan da Şirvana yürüş etdilər. ***Şirvanşah Güştasp (1203-1225)*** qalaların birinə çəkilməli oldu. ***Şamaxı*** əhalisi ***3 gün*** mübarizə apardı, lakin monqollar şəhəri tuta bildilər və ***1222-ci ildə*** Şamaxıdan ***Dərbəndə*** üz tutdular [8, s. 323]. Dərbənd keçidindən keçməyin çətinliyini görən Cəbə və Subutay hiylə işlətdilər. Onlar Şirvanşaha danışıq üçün xəbər göndərdilər. Şirvanşah təklifi qəbul etdi və danışıq aparmaq üçün 10 nəfərlik elçi heyəti göndərdi. Monqollar elçilərin birini öldürüb digərlərini məcbur etdilər ki, onları gizli yollarla Dərbənddən şimala keçirsinlər. Onlar Azərbaycan ərazilərini tərk etdikdən sonra ***1223-cü ildə Kalka çayı*** sahilində ***rus-qıpçaq*** qoşunlarına qalib gəldilər, lakin ***İdilboyunda bulqarlarla*** döyüşdə məğlub olub Monqolustana qayıtdılar.

Azərbaycan torpaqları ***1223, 1225-ci illərdə qipçaqların və gürcü*** feodallarının, ***1225-ci ildə*** həm də ***Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin*** hücumlarına məruz qaldı [9, s. 150].

Xarəzmşah Cəlaləddin İraq, Əcəm, Kirman və ***Fars*** vilayətlərini ələ keçirdi, sonra ***Marağanı*** tutdu, oradan da Təbrizə yönəldi. Atabəy Özbəy, ailəsini qoyub Gəncəyə qaçdı, oradan Əlincə qalasına getdi və burada öldü. Bununla da ***Eldənizlər sülaləsi*** süqut etdi. Təbrizlilər şəhər rəisi Şəmsəddin Tuğrayinin qardaşı oğlu ***Nizaməddinin*** başçılığı ilə ***7 gün*** mərdliklə vuruşdular, lakin birlik olmadığından ***Cəlaləddin 1225-ci ilin iyulun 25-də*** şəhəri tutdu. Nizaməddin Tuğrayi şəhər rəisi təyin edildi. Atabəylərin Gəncədəki canişini Cəmaləddin də şəhəri Cəlaləddinin sərkərdəsi Urxana təslim etdi. Urxan Arranın ***Beyləqan, Şəmkir*** və başqa şəhərlərini tutdu. Beləliklə, ***1225-ci ildə Atabəylər dövləti, 1227-ci ildə*** isə ***Ağsunqurilər dövləti*** süqut etdi. Şirvanşahlar dövləti isə ildə 100 min dinar xərac verməklə Cəlaləddinin hakimiyyətini qəbul etdi. Cəlaləddin Gürcüstanın şərq hissəsini qarət etdi. Azərbaycanın idarəsi Cəlaləddinin vəziri Şərəf əl-Mülkə tapşırıldı. Gəncə Cəlaləddinin iqamətgahına çevrilmişdir. Təbrizdə işğalçılara qarşı çıxışlar başlandı. Buna səbəb vəzirin əhalidən yığdığı qanunsuz vergilər idi. Bu üsyan barədə məktub alan kimi Cəlaləddin Təbrizə qayıtdı. Şəmsəddin Tuğrayi zindana salındı, qardaşı oğlu Nizaməddin isə qətlə yetirildi. Çox keçmədən Şəmsəddin həbsdən azad edildi. Cəlaləddinin canişinləri yerli əhalini soyub talayırdılar. O, İraqda ikən yerli feodallar Təbrizdə hakimiyyəti ələ alaraq, Eldənizlər dövlətini bərpa etməyə çalışdılar. Onlar Özbəyin həbsdə olan nəvəsini azad edib hakimiyyətə gətirmək istədilər. Lakin üsyançılar məğlub oldular. Cana gələn xalq ***Təbrizdə*** yenə üsyan etdi. Lakin Təbriz əyanları, xüsusilə Şəmsəddin Tuğrayi xarəzmlərə qarşı açıq mübarizədən çəkindilər. Xalq hərəkatı bütün Azərbaycanı bürümüşdür. ***1231-ci il Gəncə üsyanı*** xalq hərəkatının ən yüksək zirvəsi idi [3, s. 20]. ***Sənətkar Bəndərin*** başçılığı ilə üsyançılar şəhər hakiminin sarayını dağıtdılar, məmurlar və qulluqçular öldürüldü, Xarəzm qornizonu məhv edildi. Cəlaləddinin üsyançılarla danışıqları bir nəticə vermədi, az sonra Cəlaləddin özü qoşun

hissələri ilə Gəncə ətrafında məskən saldı və üsyançılara əmin-amanlıq vəd etdi. Lakin gəncəlilər şəhərdən çıxaraq sultan ordusuna hücum etdilər. Qanlı döyüş baş verdi və üsyançılar şəhərə çəkilməli oldular. Cəlaləddin üsyanı yatırdı, başçılardan 30 nəfəri edam etdirdi, Bəndər isə tikə-tikə doğrandı. ***Xoy, Mərənd və Naxçıvanda*** azadlıq hərəkatı geniş vüsət aldı. Demək olar ki, monqolların Azərbaycanı və ətraf əraziləri zəbt etməsi üçün əlverişli şərait yaranmışdır.

1231-ci ildə Cormoğon noyonun başçılığı ilə monqollar ***2-ci dəfə*** Azərbaycana yürüş etdilər. Monqolların birinci yürüşündən fərqli olaraq bu yürüş kəşfiyyatçı yox, işğalçı xarakter daşıyırdı [8, s. 324]. Monqollar ***Marağanı*** çətinliklə tutdular, əhali üzərinə ağır vergi qoyuldu. Sonra ***Təbriz*** şəhəri mühasirəyə alındı. Təbriz əyanları yenə də hədiyyələr hesabına şəhəri qırğından xilas etdilər. Bir çox tanınmış sənətkarlar Qaraqoruma göndərildi. Monqollar ***Gəncəni*** də mühasirəyə aldılar. Gəncəlilərin müqaviməti o qədər güclü idi ki, monqollar qala divarlarını dağıtdıqdan sonra bir həftə şəhərə girməyə cürət etmədilər. Düşmən əlinə keçməsin deyə gəncəlilər evlərini yandırır, var-dövlətini məhv edirdilər. Uzun mübarizədən sonra ***1235-ci ildə Gəncə*** işğal olundu. Monqollar ***Şəmkirdə*** ciddi müqavimətə rast gəldilər. Şəmkirlilər şəhər hakimi ***Bəhramdan*** düşmənlə mübarizə aparmağı tələb etdilər, lakin o, razı olmadı. Monqollar Şəmkirin ətrafındakı xəndəklərə odun və saman doldurараq qalaya qalxmağa cəhd etdilər. Əhali gecə vaxtı samana od vurdu, lakin, monqollar xəndəkləri qumla doldurараq atəşi söndürüb şəhərə girə bildilər. Şəmkir yandırıldı, sakinləri qılıncdan keçirildi. ***Tovuz*** və ***Bakı*** işğal olundu. ***1239-cu ildə Dərbənd*** şəhərinin işğalı ilə bütün Azərbaycan monqollar tərəfindən tutuldu [9, s. 151]. Monqollar Monqolustana geri qayıtmadılar və tutduqları ərazilərdə məskunlaşdılar. Azərbaycan və Cənubi Qafqaz əraziləri ***1239-1256-cı illərdə Böyük Monqol imperatorluğunun*** canişinləri tərəfindən idarə olunurdu [3, s. 22]. Torpaq sahələri və otlaq-

lar monqol canişininin ixtiyarında idi. Yerli feodallar torpaq malikanələrindən məhrum oldular, monqolların vassalına çevrildilər. Hər dəfə Böyük Monqol imperatorluğunda yeni xaqan seçildikdə yerli feodallara öz malikanələrini idarə etmək üçün icazə sənədi-***yarlıq*** verilirdi. Bu isə əlavə xərc tələb edirdi. Ölkədə monqol zülmünə qarşı xalq hərəkatı və üsyanlar başladı. ***Böyük Monqol xaqanı Münke*** istilaları davam etdirmək məqsədi ilə ***1253-cü ildə*** Ön Asiyaya qoşun göndərdi. Monqolların ***3-cü yürüşü*** zamanı, ***1256-cı ildə*** Azərbaycan bütünlüklə tabe edildi. ***1258-ci ilin fevralında*** Hülakü xan ***Bağdadı*** tutdu və ***500 ildən*** artıq hökm sürən ***Abbasilər xilafəti*** süqut etdi. Yeni işğal edilmiş ərazilərdə beşinci monqol ulusu – ***Hülakü dövləti*** yaradıldı [8, s. 325].

Hülakü dövləti (1258-1357) bir əsr mövcud oldu [3, s. 23]. Hülakü dövlətinin təsisi və uzun müddət mövcud olması Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni həyatına – onun hüdudlarının sabitliyinə, dilinə və s. təsir göstərdi. Tarixən əlverişli coğrafi şəraiti, gözəl iqlimi və zəngin təbii sərvətləri olan Azərbaycan Hülakü dövlətində mühüm yer tuturdu. Onlar Azərbaycanı Hülakü dövlətinin mərkəzi vilayətinə, ***Marağa, Təbriz, Sultaniyyə*** *və* yenidən ***Təbrizi*** paytaxt şəhərinə çevirdilər. Hülakü dövlətinin bütün əraziləri Azərbaycandan-Təbrizdən idarə olunurdu. Qarabağ Elxanilərin yay iqamətgahı, Muğan isə qışlağı idi. Azərbaycana ***Arran, Şirvan, Şəki, Muğan, Qarabağ, Qaradağ, Naxçıvan, Güştasfi, Arasbar*** əraziləri daxil idi. Təxmini hesablamalar bu dövrdə ***Azərbaycan ərazisinin 250 min kv km*** olduğunu göstərir. Hülakü xan geniş əraziyə malik dövlət təşkil etdikdən sonra köçmə zadəganlara arxalanaraq ali hakimiyyət orqanlarını, hərbi və siyasi işləri, vilayətlərin idarəsini şahzadələrin və məşhur əmirlərin arasında böldü. Şahzadə ***Yuşmut Arranın hakimi*** təyin olundu. Hülakü dövləti nə qədər qüvvətli olsa da, köçmə feodalların qüvvətlənməsi mərkəzi hakimiyyətə qarşı mübarizəni gücləndirdi. Elxanilərlə *Cuci* nəslindən olan ***Qızıl Orda*** xanları arasında Azərbaycan ərazisi uğrunda müharі-

bə gedirdi. Qızıl Ordu xanları Çingiz xanın vəsiyyətinə görə Azərbaycanın Batı xanın payına düşdüyünü iddia edirdilər. Qızıl Orda xanı Bərkə ***1263-cü ildə*** sərkərdə ***Noqayın*** başçılığı ilə 30 minlik qoşunu Şirvana yeritdi. Dərbənd şəhəri tutuldu. Lakin, onların ikinci yürüşü ərəfəsində - ***1265-ci ildə*** Elxanilər Qızıl Ordalıları ölkədən qova bildi. Qızıl Orda xanlarının ***1288*** və ***1290-cı illərdə*** uğursuz yürüşləri oldu. Bu dövrdə hakimiyyət uğrunda gedən mübarizə ***Qazan xanın (1295-1304)*** Qarabağda Hülakü dövlətinin padşahı elan olunması ilə nəticələndi. O, yerli feodallarla əlaqəni möhkəmləndirmək naminə *İslam dinini* qəbul etdi, adını dəyişdirərək *Mahmud* adını götürdü. Arranda ***Arslanoğlunun*** başçılığı ilə Qazan xana sui-qəsd təşkil edildi. Sui-qəsdin üstü açıldı və onun təşkilatçıları edam olundu. ***1297-1298-ci illərdə*** Azərbaycanın şimalında ***Taycuoğlunun*** qiyamını Qazan xan yatıra bildi və mərkəzi hakimiyyəti qüvvətləndirdi. Qazan xandan sonra Hülakü dövlətinin taxt-tacına sahib olmuş qardaşı ***Məhəmməd Olcaytu*** onun siyasətini davam etdirdi. Onu əvəz edən oğlu, 12 yaşlı ***Əbu Səid (1316-1335),*** dövlət idarəsindən kənarda qalmışdır [3, s. 24]. Olcaytunun vəsiyyətinə görə dövlət işlərinin idarəsi ***Sulduz qəbiləsindən*** olan ***baş əmir Çobana*** həvalə olundu. Əmir Çoban faktiki hökmrana çevrildi. Bundan feodal qruplar narazı idilər. Qonşu dövlətlər də Elxanilərə qarşı mübarizəyə qalxdılar. ***1318-ci ildə Xorasanda*** iğtişaş baş verdi. Qızıl Orda Hülakü dövlətinə hücuma keçdi, Kür çayının sahillərinə kimi gəldi. Hülakülər əsas qüvvələrini Azərbaycana topladılar və rəqiblərini geri çəkilməyə məcbur etdilər, şimal sərhədlərini möhkəmləndirdilər. Əmir Çoban bu qələbədə mühüm rol oynadı. Buna baxmayaraq, ölkədə feodal çəkişmələri güclənir, Əmir Çobana qarşı açıq mübarizə gedirdi. ***1319-cu ildə Gürcüstanda*** başlanan qiyam Azərbaycanda davam etdi. ***Naxçıvan*** qiyamçıların iqamətgahına çevrildi. Onlar ***Təbrizə,*** oradan da ***Sultaniyyəyə*** hərəkət etdilər. ***Əbu Səid*** qiyamçıları darmadağın etdi, bu igidliyinə görə ona ***Bahadır*** ləqəbi verildi. Elxanilə-

rin hakimiyyətinə qarşı qiyamlar davam edirdi. ***1320-cü ildə*** Gürcüstanda, ***1322-ci ildə*** Rum vilayətində baş verən qiyamları Əbu Səid Əmir Çobanın köməyi ilə yatıra bildi [3, s. 28]. Əmir Çobanın rəhbərliyi ilə ***1319-cu, 1325-ci illərdə*** Qızıl Orda dövlətinə yürüşlər təşkil olundu və müvəffəqiyyət əldə edildi. Çoban Elxanilər dövlətinin idarəsini bütövlüklə öz əlinə almışdır. Oğlanlarını isə bir sıra vilayətlərə hakim təyin etmişdir. ***Əbu Səid*** nəinki ***siyasi***, həm də ***iqtisadi*** cəhətdən çobanilərdən asılı idi. 20 yaşına çatanda Əbu Səid Əmir Çobana qarşı mübarizəyə başladı. O, ***1328-ci ildə*** Çobanı və onun oğullarından ikisini edam etdirdi. ***1334-cü ildə Sultaniyyədə*** baş verən üsyan çətinliklə yatırıldı. ***1335-ci ildə*** ölkə Qızıl ordalıların hücumlarına məruz qaldı [8, s. 327]. Əbu Səid 60 minlik qoşunla Arrana gəldi. Qızıl Orda xanı geri çəkilməyə məcbur oldu. Bu zaman Əbu Səid arvadı tərəfindən zəhərlənərək öldürüldü. Qızıl Orda xanı Özbək xan Kür çayına kimi irəlilədi. Hülakü dövlətində hakimiyyətə gəlmiş ***Arpa xan (1335-1336)*** rəqibi böyük çətinliklə ölkədən qova bildi. *Sultan Əbu Səidin* ölümü ilə Hülakü dövləti getdikcə tənəzzülə uğradı. Bu zaman "Hülakülər səltənətinin mühafizəsi" adı altında Çobanilər, Cəlairilər, Xorasan əmirləri və Şirvanşahların mübarizəsi başladı.

2.Qızıl Orda xanı Toxtamış və Əmir Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim

Qızıl Orda xanı Canı bəy ***1357-ci ildə*** Azərbaycana yürüş edərək Hülakülər dövlətinə son qoydu. Sonra o, oğlu Bərdi bəyi Təbrizdə səltənətə qoyub, Qızıl Ordaya qayıtdı. Bərdi bəy atasının ölüm xəbərini aldıqda Təbrizdən getməli oldu. Daxili və xarici vəziyyətin gərginliliyindən istifadə edən ***Cəlairi Şeyx Üveys (1354-1374) 1358-ci*** və ***1359-cu illərdə*** Azərbaycana yürüşlər etdi və Təbrizə daxil oldu. Azərbaycan Cəlairilər dövlətinin tərkibinə qatıldı, paytaxt Təbriz oldu. Cəlairilər monqol qəbiləsi

idi. ***Şeyx Həsən Cəlairi (Böyük Həsən) 1340-cı ildə*** Bağdadda Cəlairilər dövlətini təsis etmişdir. Şeyx Üveys ***1367-ci ildə Şirvan*** ərazisini tutdu. Şeyx Üveysdən sonra oğlu ***Sultan Hüseynin (1374-1382)*** dövründə ölkədə mərkəzi hakimiyyətə qarşı çıxışlar artdı. Şahzadə ***Sultan Əhməd*** Muğanda və Arranda güclü qoşun hissələri ilə ***1382-ci ildə*** qardaşı ***Sultan Hüseyni*** öldürərək taxt-taca sahib oldu və ***1410-cu ilədək*** hakimiyyətdə qaldı. ***Teymur 1385-ci ildə*** Azərbaycana daxil oldu, lakin Mərkəzi Asiyada baş vermiş hadisələrlə əlaqədar geri qayıtdı. Sultan Əhməd həmin dövrdə Bağdada çəkilmişdir. Bu zaman Qızıl Orda xanı ***Toxtamış 1385-ci ilin sonunda*** 90 minlik qoşunla Dərbənddən ***Şirvana*** daxil oldu və oradan ***Təbrizə*** hərəkət etdi [3, s. 41]. Təbrizlilər şəhəri müdafiəyə qalxdılar, şəhər ətrafında xəndəklər qazıldı, küçə səngərləri yaradıldı. Düşmən 8 gün Təbrizin ətrafında dövrə vurdu, amma şəhərə girə bilmədi. Toxtamış danışıqlara məcbur oldu, tərəflər arasında razılıq əldə olundu. Təbriz hakimi Əmir Vəli və şəhər əyanları xərac toplayarkən, əhali sülhə inanıb silahı yerə qoydu. ***Toxtamış*** bundan istifadə edib ***1385-ci ildə*** hiylə ilə şəhərə daxil oldu. Əhali ciddi müqavimət göstərə bilmədi. Toxtamış sonra ***Marağanı*** tutdu, yenidən ***Təbrizə*** qayıtdı. Qızıl Orda qoşununun bir dəstəsi ***Mərənd və Naxçıvana*** tərəf yollandı, digəri isə Əhər yolu ilə irəliləyərək ***Qarabağa*** gəldi. Ölkədən çoxlu qənimət və 200 min əsir aparıldı. Azərbaycan ***1386-cı ilin baharında isə Teymurun*** hücumlarına məruz qaldı. ***"Üçillik yürüş"*** kimi tanınan səfərdə ***Təbriz*** tutuldu [8, s. 330]. Cəlairi əmirlərinin əsas hissəsi ***Bağdada,*** bir qismi isə ***Əlincə qalasına*** getdi. Teymur payızda ***Naxçıvana*** gəldi. Xalq Şeyx Həsənin başçılığı ilə mübarizəyə qalxdı. Teymur Əlincə qalasını mühasirəyə aldı. ***1387-ci ilin əvvəllərində Toxtamışın*** dəstələri Dərbənddən Azərbaycana soxuldu, lakin Miranşahın Kürün şimalına göndərilmiş qoşununa müqavimət göstərə bilməyib geri çəkildi. Həmin ildə Teymur Toxtamışın Buxara və Səmərqəndə hücumu ilə əlaqədar Azərbaycanın idarəsini

oğlu ***Miranşaha*** tapşıraraq (qəddarlığına görə "Maranşah"- ilanlar şahı kimi tanınırdı) ölkəni tərk etdi. Təbriz uğrunda ***Sultan Əhməd*** və onun ***Əlincə*** *qalasındakı* əmirləri, Qara Yusifin başçılıq etdiyi qaraqoyunlular, Təbrizin yerli əmirləri və Teymuri əmirləri mübarizə aparırdılar. ***1387-1392-ci illərdə Təbrizə 17 dəfə*** hücum edildi [8, s. 346] və şəhər bir feodal qrupundan digərinə keçirdi. ***1392-ci ildə Teymur 2-ci dəfə*** Azərbaycana yürüş etdi və ***Təbrizə*** daxil oldu. Cəlairi əmirləri ***Əlincə qalasında*** idilər, onlar Teymura təslim olmamışdılar. Qala ***Sultan Tahirin*** başçılığı ilə *Xacə Cövhər* və sonra *Əmir Altun* tərəfindən müdafiə olunurdu. Qalada 300-dən artıq döyüşçü var idi. Teymur qalanı tuta bilmədi, sonra ***Gürcüstana*** yürüş edərək onu zəbt etdi, ***1393-cü ildə*** isə ***Şəki*** hakimini itaətə gətirdi. ***1394-cü ildə Toxtamış*** Azərbaycana hücum etdi. Cavab olaraq, ***Teymur 1395-ci ildə*** Dərbənddən Qızıl Ordaya yürüş edərək rəqibinə qalib gəldi və oradan ***Səmərqəndə*** qayıtdı. Əlincə qalası hələ mühasirədə qalırdı. ***Teymur 1387, 1393, 1397-ci illərdə Əlincə qalasına*** yürüş etmişdir və heç birində qələbə qazanmamışdır. İlk yürüş dövründə qalada su qıtlığı baş verir və qalanı təslim etmək qərarına gəlirlər. Teymur qoşunu qalanın ətəklərinə endirir, lakin bu vaxt güclü yağış yağır və bol su ehtiyatı yaranır. Əlincə Teymura tabe edilmir. ***1393-cü ildə*** Teymur qalaya hücum edir, bu zaman qala müdafiəçilərindən bir dəstəsi ***Əmir Altunun*** başçılığı ilə qaladan kənara çıxmışdır, geri qayıdarkən qalanın mühasirə olunduğunu görüb onlara hücum edirlər. Düşmən böyük tələfat verir, Altun isə öz dəstəsi ilə qalaya daxil ola bilir. Demək olar ki, ***Əlincə qalası istisna olmaqla, bütün Azərbaycan torpaqlarını Teymurilər zəbt etmişdilər.*** Qalanın müdafiəçiləri ilə birləşən Şəki və gürcü feodalları Teymurilərə qarşı vuruşur, hətta qalib gəlirdilər. Bu hadisələrdən narahat olan ***Teymur 1399-cu ildə 3-cü dəfə*** Azərbaycana yürüş etdi və ***Qarabağa*** gəldi. Bir sıra feodal hakimlərinin, Şəki hakimi Seydi Əhmədin Şirvanşah İbrahimin himayədarlığı ilə Teymurla ittifaq bağlaması və daxili çə-

kişmələr nəticəsində ***14 ildən sonra Əlincə qalası*** Teymura tabe oldu [8, s. 352]. Tarixçi İbn Ərəb şahın yazdığına görə, Teymur Azərbaycanda olmadığı dövrdə Əlincə qalasında Sultan Tahir ilə Əmir Altun arasında ciddi münaqişə baş verir. Tahir ərzaq gətirmək üçün getmiş Altunu qalaya buraxmır və əlincəlilər Tahirdən üz döndərirlər. Tahir öz acizliyini hiss edib, xəzinəni götürərək Bağdada qaçır. Əlincə müdafiəsiz qalır. *Teymur* ***1400-cü ildə*** demək olar ki, başsız qalmış qalaya daxil olur. Teymur bir müddətdən sonra Səmərqəndə qayıdır və 1405-ci ildə vəfat edir. Azərbaycanın Şirvana qədər olan əraziləri demək olar ki, Miranşahın oğlu ***Mirzə Ömər*** tərəfindən idarə olunmağa başlanır.

Şirvanşahlar dövləti. Xəzərin qərb sahilində yerləşən ***Şirvan vilayəti*** Kür çayından Dərbənd mahalının şimal hüdudlarına kimi olan ərazini əhatə edirdi. XIII əsrin əvvəllərində Şirvanşahlar dövləti ***Güştasb (1203-1225)*** tərəfindən idarə olunurdu. ***1225-ci ildə III Fəribürz (1225-1243)*** ölkənin idarəsi ilə ciddi məşğul olmayan atası Güştasbı hakimiyyətdən qovur və XIII əsrin ortalarına kimi Şirvanı özü idarə edir. Fəribürz Cəlaləddinə xərac versə də Şirvanın daxili müstəqilliyini qoruyub saxlaya bildi. ***1231-1239-cu illərdə*** monqolların ikinci yürüşü zamanı ***Şirvan*** və ***Dərbənd*** ələ keçirildi. XIII əsrin ortalarında Şirvanı idarə edən ***II Axsitan (1243-1260)*** Hülakülərin hakimiyyətini qəbul etməli oldu. Onun dövründə Şirvanşahlar dövləti tədricən öz müstəqilliyini itirdi. Şirvan hakimləri Hülakülər tərəfindən təyin edilirdi və bu, XIV əsrin 2-ci rübünə qədər davam etdi. Şirvanşah ***Kavusun (1345-1372)*** dövründə Şirvanşahlar əvvəl Çobanilərdən, sonra isə Cəlairilərdən asılı vəziyyətə düşdülər. ***1364-cü ildə Şirvanda*** Cəlairilərə qarşı *üsyan* qalxdı. ***1367-ci ildə Şeyx Üveys Şirvana*** yürüş etdi. Cəlairilər 3 aya yaxın Şirvanda qalıb əhalini qarət etdilər. Kavus tutularaq Üveysin hüzuruna gətirildi. O 3 aydan sonra azad edildi və yenidən Şirvana hakim təyin olundu. Kavus öldükdən sonra Şirvanı onun oğlu ***Huşəng (1372-1382)*** idarə edirdi. 1382-ci ildə Huşəng öldürüldü və ha-

kimiyyətə ***Şeyx İbrahim Dərbəndi (I İbrahim (1382-1417))*** gəldi [10, s. 304]. O, Huşəngin doğma əmisi idi. Bir zamanlar babaları Dərbənd hakimi olmuşdur, xırda torpaq sahibi idi.

Şirvanşahlar dövlətinin xarici siyasəti. Şeyx İbrahimin hakimiyyəti dövründə Şirvan ərazisi 2 təhlükə qarşısında qalmışdır: ***cənubdan Teymurun, şimaldan isə Qızıl Orda xanı Toxtamışın*** həmlələri. Hər ikisinin hücumları Şirvanın xarici və daxili vəziyyətini gərginləşdirmişdir. Şeyx İbrahim mahir siyasətçi idi və rəqibin birindən digərinə qarşı istifadə etmək qərarına gəldi. ***I İbrahim 1386-cı ildə*** Teymur Qarabağda olan vaxt yanına gələrək onunla Toxtamışa qarşı müqavilə bağladı. Bu ittifaq ***Şirvanı*** yersiz qarətdən xilas etdi, həm də I İbrahim Toxtamışa qarşı ***güclü müttəfiq*** qazandı. O, hətta Teymurun Qızıl Ordaya qarşı yürüşündə iştirak etdi. I İbrahim bu ittifaqdan istifadə edib Şirvanı iqtisadi-siyasi və hərbi cəhətdən qüvvətləndirdi, Azərbaycan feodallarının Teymurla danışıqlar aparmasında vasitəçi oldu. Belə ki, ***Teymur 1399-cu ildə 3-cü dəfə*** Azərbaycana yürüş etdikdə, Şeyx İbrahim Cənubi Qafqazın Miranşaha qarşı üsyan etmiş feodallarının, o cümlədən Şəki hakimi Seydi Əhmədin Teymur ilə ittifaq bağlamasına nail oldu və beləliklə, bu ərazini işğaldan xilas etdi. Teymurun ölümündən sonra siyasi vəziyyət dəyişdiyindən I İbrahim Teymurilərə qarşı yeni siyasi xətt tutdu. ***Şirvanşah İbrahimin siyasəti Azərbaycanı birləşdirmək idi*** [8, s. 354]. Teymurilərə qarşı qalxan xalq hərəkatından istifadə edən I İbrahim ***Gəncəni*** və ***Qarabağın*** xeyli hissəsini ələ keçirdi. O, Gürcü çarı, Şəki və Ərdəbil hakimləri və Qaramanlı tayfasının müttəfiq qoşunları ilə birlikdə ***1405-ci ilin yayında*** Kür sahilində Teymuri Ömərin qoşununu məğlub etdi. Bu zaman ***Təbrizdəki*** üsyançılar şəhəri tutdular və yardım üçün I İbrahimə müraciət etdilər. Şeyx I İbrahim ***1406-cı ilin mayında*** Təbrizə daxil oldu. Xalq onu hörmətlə qarşıladı. I İbrahim qısa müddət olsa da, ***Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi.*** Lakin çox keçmədən Cəlairi ***Sultan Əhməd*** və onun müttəfiqi Qa-

raqoyunlu ***Qara Yusif*** Təbrizə yaxınlaşdılar və ***I İbrahim*** şəhəri tərk edib Şirvana çəkilməli oldu.

Şəki hakimliyi. Şəki XIII əsrin 20-ci illərin əvvəllərində də Şirvanın tərkibində idi. Şəhəri 2 nəfər-***vəzir Səfiəddin*** və ***vali Qaşqara*** idarə edirdi. XIII əsrin sonu XIV əsrin əvvəllərində Qarabağ, Muğan, Aran ilə birlikdə Şəkini Qazan xanın baş vəziri Fəzlullah Rəşidəddinin oğlu ***Cəlal*** idarə edirdi. XIV əsrin 30-cu illərində Hülakü dövlətinin tənəzzülü dövründə Şəki feodalları daxili müstəqillik əldə etdilər. Hülakülərdə hakimiyyətə ***Oyrat sülaləsi*** gəldi. Həmin vaxtdan Şəki hakimlərinin müstəqillik uğrunda apardıqları mübarizə XIV əsrin son rübündə daha da gücləndi. ***Teymur ilk yürüşü (1386-1387)*** zamanı ***Şəki*** vilayətinə qoşun yeritdi və əhalini qarət etdi. Şəki hakimi ***Seydi Əli*** Oyrat Teymurun Azərbaycanda olmadığı dövrdə ***(1387-1392)*** itaətdən boyun qaçırdı. ***Teymur 2-ci yürüşü*** (***1392-1395)*** zamanı yenə ***Şəkiyə*** daxil oldu. Seydi Əli mülkünü və əmlakını atıb qaçdı. Bir müddətdən sonra ***Teymur*** qoşun hissələrini Şəkidən Qızıl Orda üzərinə göndərib, ***Mahmudabada*** gəldi və oradan **Səmərqəndə** qayıtdı. Teymurun Azərbaycana hakim təyin etdiyi oğlu ***Miranşah 1395-ci ildə*** Seydi Əlinin müxalif olduğunu güman edib, yoxlamadan ***Şəkini*** talan etdi [8, s. 331]. Seydi Əli gürcü feodalları ilə ittifaqa girib ***Əlincə qalasını*** mühasirədə saxlayan Teymuri qoşununa arxadan hücum etdi və mühasirədə olan ***Sultan Tahiri*** azad etdi. Teymurun Əlincə ətrafındakı qoşunu məğlub oldu. Qoşun başçısı Səncər Təbrizə vəziyyəti Miranşaha bildirmək üçün getdi. Miranşah, oğlu ***Əbu Bəkri*** qoşunla ***Şəki*** üzərinə göndərdi. Döyüşdə Seydi Əli həlak olsa da, Əbu Bəkrin qüvvələri məğlub oldu. Seydi Əlinin oğlu ***Seydi Əhməd*** Şəki hakimi təyin edildi və Teymurun Azərbaycana yürüşü zamanı Şirvanşah İbrahimin vasitəçiliyi ilə Şəki hakimi kimi Əmir Teymur tərəfindən tanındı.

3.Azərbaycanın XV əsr dövlətləri

Qaraqoyunlu dövləti (1410-1467). Oğuz tayfalarından olan Qaraqoyunlulara (*Qaraca qoyunlu*) ***Baharlılar*** başçılıq edirdilər. VII əsrdən Van gölünün cənubunda məskən salmış ***Qaraqoyunlular*** XIV əsrin 70-ci illərindən *Ərzincanda, Sivasda,* ümumən *Şərqi Anadolunun şimal-şərq torpaqlarında* möhkəmlənib, Ağqoyunlulara, Cəlairilərə və Teymurilərə qarşı mübarizə aparmışlar. Qaraqoyunlu sülaləsinin banisi ***Bayram Xoca*** idi. Onun oğlu ***Qara Məhəmməd (1380-1389)*** Cəlairilərlə ziddiyyəti aradan qaldırmaq üçün Cəlairi ***Sultan Əhmədlə*** qohum oldu. Vəziyyətin yaxşılasmasından istifadə edən ***Qara Məhəmməd*** mərkəzi Van olmaqla ***Qaraqoyunlu tayfa ittifaqı hakimiyyətinin*** əsasını qoydu. ***1387-ci ilin baharında*** Teymur Naxçıvandan Qaraqoyunlular üzərinə hücuma keçdi. Qara Məhəmməd ***Çapaqçura*** yürüş etdi və Teymuri qüvvələrini darmadağın etdi. Qara Məhəmmədi ələ keçirə bilməyən Teymur ***Muş düzənliyindəki oymaqları, Hilatı, Vanı*** ələ keçirib İrana döndü. ***1388-ci ilin mayında*** Qaraqoyunlular Cəlairilərin müqavimətini qıraraq ***Təbrizə*** daxil oldular. Qara Məhəmməd və oğlu Bayram ***1389-cu ilin aprelində Qara Pir Həsən*** adlı digər Qaraqoyunlu əmiri tərəfindən qətlə yetirildilər. Qara Məhəmmədin oğlu ***Qara Yusif (1390-1420)*** atasının intiqamını almaq üçün ***1392-ci ildə*** Qara Pir Həsənlə döyüşə girdi və qələbə çalaraq ***Təbrizi*** tutdu, lakin bir gün sonra şəhərdən çıxmalı oldu. ***1392-ci ildə*** Teymurilər ***Van*** şəhərini tutdular. Qara Yusif məğlubiyyətdən sonra Cəlairilərə yaxınlaşdı. ***1394-cü ildə Bağdad*** yaxınlığında Qaraqoyunlu və Cəlairilərin birləşmiş qüvvələri ilə döyüşdə Teymurilər qələbə çaldılar. XIV əsrin II yarısında Qaraqoyunlu tayfa ittifaqı daxili quruluşuna görə möhkəm deyildi. Nəticədə ***1395-ci ildə*** bu ittifaq dağıldı. Lakin ***Qara Yusif*** tezliklə onu bərpa etdi və Teymurilərə qarşı mübarizəni davam etdirməkdən ötrü yardım almaq üçün Cəlairi ***Sultan Əhmədlə*** birlikdə ***Misirə*** getdi. Teymur Misir hakimindən onların həbs edilməsini tələb etdi, lakin

Teymurun təklifi rədd edildi. Sonra Misirdə hakimiyyətə gələn ***Sultan Fərəc (1399-1412)*** müttəfiqləri Dəməşqdə həbs etdi, lakin Teymurun ölümünü eşidən kimi onları azad etdi. Bir ilin dustaqlığı Qara Yusiflə Sultan Əhmədi yenidən barışığa gətirdi. Onlar əbədi dostluğa and içərək şərtləşdilər ki, ***Sultan Əhməd Bağdada, Qara Yusif isə Təbrizə*** yiyələnsin. Teymurun ölümündən sonra onlar Azərbaycana qayıtdılar. ***1406-cı ilin iyununda*** Sultan Əhməd və Qara Yusif ***Bağdadı*** ələ keçirdilər. ***1406-cı ilin sonunda Təbrizə*** yaxınlaşdılar. Şirvanşah I İbrahim Sultan Əhmədin İraqdan Azərbaycana yürüşünü qanuni hökmdarın dönüşü kimi qəbul etdi. I İbrahimə müvəqqəti sığınan cənub əmirləri Sultan Əhmədin və Qara Yusifin tərəfinə keçdilər. Sultan Əhməd ilk növbədə Əlincə qalasının bərpa edilməsi haqda fərman verdi. Lakin, Sultan Əhməd vergilər barədə verdiyi vədə əməl etmədi, əksinə daha da ciddi tədbirlər gördü. Az sonra Teymuri Əbubəkr Mirzənin qoşunu Təbrizə yaxınlaşanda əhali Sultan Əhmədə kömək etmədi və o, Bağdada qaçdı. ***1406-cı ilin payızında*** Təbriz yaxınlığındakı ***Şənbi-Qazanda Teymurilərlə*** Qaraqoyunlu ***Qara Yusif*** arasında olan ***I döyüşdə*** Teymurilər məğlub oldular. ***1408-ci il aprelin 21-də Sərdrud*** adlı yerdə Qara Yusifin qüvvələri ilə Teymuri qoşunu arasında ***II döyüşdə*** Miranşah öldürüldü və Teymurilər təslim oldular [3, s. 87]. Beləliklə, Teymurilərin Azərbaycandan qovulmasında Qaraqoyunluların həlledici rolu oldu. Qara Yusifin siyasətdə uğurları Sultan Əhmədi qorxuya saldı. O, Qara Yusiflə olan şərtini pozdu. ***1410-cu ilin yayında Sultan Əhməd Təbrizə*** hücuma keçdi. Şirvanşah I İbrahimin oğlu ***Kəyümərs*** ona kömək edirdi, çünki bununla o, Azərbaycanın cənub vilayətlərində möhkəmlənə bilərdi. Bundan xəbər tutan Qara Yusif onlardan əvvəl Təbrizə çatdı. ***1410-cu il avqustun 30-da*** Təbriz yaxınlığında ***Şənbi-Qazan*** adlı yerdə Qara Yusiflə Sultan Əhməd arasında döyüş başladı [8, s. 363-364]. ***II Şənbi-Qazan*** döyüşündə Cəlairilər darmadığın edildi. Sultan Əhməd Qara Yusifin əlinə keçdi, ondan Azərbaycan və İraq hakimiyyətindən əl çəkmək haqqında yazılı iltizam

alındı və ertəsi gün öldürüldü. Bununla da, Cəlairilər hakimiyyətinə son qoyuldu. Qara Yusif oğlu ***Qiyasəddin şah Məhəmmədi*** Bağdada canişin göndərdi. Beləliklə, ***1410-cu ildə*** yaranan ***Qaraqoyunlu dövlətinin*** tərkibinə şimalda Şirvanşahlar dovləti istisna olmaqla bütün Azərbaycan torpaqları, Şərqi Anadolu, Gürcüstanın bir hissəsi, Qərbi İran və İraq daxil edildi. Paytaxtı Təbriz oldu. ***1411-ci ildə*** Qara Yusif oğlu ***Pirbudağı*** sultan elan etdi [3, s. 88]. Ancaq yuksək idarəçilik hüququ Qara Yusifdə qalırdı. Qara Yusif dövrünün böyük şəxsiyyəti idi. O, güclü mərkəzi apparat yarada bilməsə də, feodal ara müharibələrini bir qədər zəiflətdi, əyanları hakimiyyətlə hesablaşmağa məcbur etdi.

Şirvanşah ***I İbrahimin Kəyumərsi*** qoşunu ilə Sultan Əhmədə köməyə göndərməsi ikitərəfli qarşıdurma üçün başlanğıc oldu. Qara Yusif Kəyumərsi əsir tutdu, onu öldürmədi, lakin atasının Qaraqoyunlu ali hakimiyyətini tanıması haqqında ona məktub verib azad etdi. Kəyumərsin asanlıqla əsir düşməsi və zəmanətsiz buraxılması I İbrahimdə şübhə doğurdu. O, elə zənn etdi ki, Qara Yusif Kəyumərslə gizli sazişə girib, Kəyumərs də atasının taxtında oturmaq üçün ona söz veribdir. Buna görə də I İbrahim guya Şirvan taxtına xain çıxmış Kəyumərsi edam etdirdi. ***Qara Yusif*** Qarabağa gəldi, Şirvana qasid göndərib I İbrahimin ona tabe olmasını tələb etdi. Lakin I İbrahim rədd cavabı verdi və Şirvanın müstəqilliyi uğrunda mübarizəyə hazırlaşdı. O, Şəki hakimi ***Sultan Əhməd*** və Kaxetiya çarı ***II Konstantinin*** köməyinə arxalanırdı. Əhali I İbrahimi müdafiə etsə də, Qara Yusif *irsi soyurqal torpaqları, pul və hədiyyə* paylamaqla Azərbaycanın cənub ərazilərindəki əyanları öz tərəfinə çəkdi. ***1412-ci ilin sonunda Kür sahilində*** döyüş baş verdi. Qarabağın, Muğanın, Naxçıvanın silahlı dəstələri də Qara Yusifin tərəfində vuruşurdu, buna görə də I İbrahim və onun müttəfiqləri məğlub oldular. Şirvanşah I İbrahim, onun yeddi oğlu, qardaşı, məsləhətçiləri və Kaxetiya çarı II Konstantin əsir alındı. Qara Yusif I İbrahimdən 1200 İraq tüməni bac tələb etdi. Şirvanşahın Təbrizdəki tərəfdarları bu məbləği toplayıb ödədilər. I İbrahim Qara Yusif

onu azad etdikdən sonra ***1413-cü ilin aprelində*** Şirvana qayıtdı. Qara Yusifin qoşunu Şirvanı tərk etdi. ***1417-ci ildə*** Şirvanşah ***I İbrahim*** vəfat etdi, onun Azərbaycanı birləşdirmək cəhdi yarımçıq qaldı. Şirvanşah ***I Xəlilullah (1417-1465)*** Qara Yusifin hakimiyyətini tanımadı və Teymurun oğlu ***Sultan Şahruxla (1405-1447)*** Qaraqoyunlular əleyhinə ittifaqa girdi. Sultan Şahrux qardaşı Miranşahın qisasını almaq üçün ***1420-ci ildə*** Azərbaycana uğursuz yürüş etdi. Qəzvindən Ərzincana, Bağdaddan Şirvana qədər olan geniş əraziyə yiyələnmiş ***Qara Yusif*** döyüşlərin birində – ***1420-ci il noyabrın 17-də*** yaralandı və Təbriz yaxınlığında Uçan adlı yerdə vəfat etdi. Qaraqoyunlu əmirləri arasında mübarizə başlandı. Bundan istifadə edən ***Sultan Şahrux 1420-ci ilin dekabrında Qarabağa*** daxil oldu. I Xəlilullah Şahruxun nəvəsi ilə evlənməklə bu ittifaqı daha da möhkəmləndirdi. ***1421-ci il avqustun 1-də*** Qara Yusifin oğulları ***İsgəndər və İsfəndiyar*** Şahruxla ***Alaşkerd vadisində*** həlledici döyüşdə məğlub oldular [8, s. 366]. Şahrux atasının siyasətindən fərqli olaraq, bu ölkələri idarə etdiyi ərazilərə daxil etmək fikrində deyildi. O, yalnız Azərbaycan feodallarına özünün ali hakimiyyətini tanıtması ilə kifayətləndi. Şahrux ***1421-ci ilin payızında Herata*** getdi. Şahrux Azərbaycanı tərk etdikdən sonra ***İsgəndər (1420-1435)*** dağınıq Qaraqoyunlu qüvvələrini yenidən birləşdirdi. Kürün cənubundakı əmirlər ona tabe oldular. Şirvan və Şəki öz müstəqilliyini saxlayırdı. İsgəndər ***1427-ci ildə Şirvana*** hücum etdi. Lakin Şahruxun Azərbaycana yeni basqını onu geri çəkilməyə məcbur etdi və ***1429-cu il sentyabrın 17-18-də*** baş verən ***Salmas*** döyüşlərində Qaraqoyunlular məğlub oldular. ***1429-cu ildə*** Teymuri Şahrux Qara Yusifin oğlu ***Əbu Səidi (1429-1431)*** Qaraqoyunlu taxtına oturtdu. Əbu Səid Şahruxun vassalı kimi hökmranlıq etməyə başladı. ***1430-cu ilin mayında*** Şahrux Azərbaycanı tərk etdi. ***İsgəndər*** qardaşı ***Əbu Səidi*** öldürüb, ***1431-ci ildə*** yenidən hakimiyyətə gəldi [8, s. 367]. Əbu Səidin və İsgəndərin hakimiyyəti illəri Azərbaycanın iqtisadi və siyasi həyatında olduqca ağır dövr idi. ***1434-cü ildə*** İsgəndər ***Şirvana*** yeni hücuma başladı. I

Xəlilullahın kömək istəyi ilə Şahrux böyük qoşunla Heratdan yürüşə keçdi, lakin Reydə dayandı. I Xəlilullah onun yanına getdi və İsgəndərin törətdiyi müsibətlər barədə məlumat verdi. ***1435-ci ilin yayında*** birləşmiş qüvvələr ***Təbriz yaxınlığındakı*** döyüşdə Qaraqoyunluları məğlub etdilər, İsgəndər Kiçik Asiyaya qaçdı. ***1435-ci ilin payızında*** Sultan Şahrux ***Təbrizə*** gəldi. Qara Yusifin kiçik oğlu ***Cahanşah (1435-1467)*** onu təntənə ilə qarşıladı. Şahrux ölkənin idarəsini Cahanşaha tapşırdı. ***1436-cı ilin yazında Cahanşah*** Teymurilərin vassalı kimi Qaraqoyunlu dövlətinin hökmdarı elan edildi. ***1447-ci ildə*** Şahruxun ölümündən sonra müstəqil siyasət yeridən Cahanşah hakimiyyətə tabe olmaq istəməyən yarımköçəri əmirlərə qarşı mübarizə aparırdı və Şirvanla dostluq münasibətləri yaratmağa çalışırdı. Cahanşah dövrünün məlumatlı şəxsiyyəti, bacarıqlı dövlət xadimi idi. O, qanunlara əməl etməyənləri ciddi cəzalandırırdı, gələcəkdə işğalçılıq planlarını həyata keçirmək üçün hərbi islahat keçirdi, orduda möhkəm intizam yaratdı. Ölkənin qərb sərhədlərində Ağqoyunlularla tez-tez hərbi toqquşmalar nəticəsində XV əsrin 50-ci illərində Cahanşah Şərqi Anadolunun çox hissəsini itirdi, bir sıra uğurları nəticəsində isə ***1453-cü ildə Əcəm İraqını, bütün Qərbi İranı, sonra Şərqi İranın bir hissəsini*** ələ keçirdi, ***1457-ci ildə*** Sultan taxtının iddiaçılarından olan Şahruxun oğlu İbrahim Mirzəni məğlub edib ***Cürcanı*** *və* ***Xorasanı*** tutdu, ***1458-ci ilin iyununda Herata*** daxil oldu [3, s. 91]. Lakin yeni Teymuri sultanı ***Əbu Səid*** öz rəqiblərini əzdi və Cahanşahdan irsi torpaqlarını tərk etməyi tələb etdi. Cahanşah hərbi səfərdə olduğu zaman yarımköçəri feodallar Azərbaycanda Cahanşahın oğlu ***Həsənəlinin****,* Bağdadda isə digər oğlu ***Pirbudağın*** ətrafında birləşərək qiyam qaldırdılar. Bunu eşidən Cahanşah ***1459-cu ilin yanvarında*** Əbu Səidlə ***Heratda*** barışıq müqaviləsi imzaladı və təzminat alıb Azərbaycana gəldi [8, s. 369]. O, qiyamları yatırdı və ***1465-ci ildə*** Pirbudağın üzərinə irəlilədi. Pirbudaq təslim oldu və öldürüldü. Beləliklə, Cahanşahın fəal daxili və xarici siyasəti ara müharibələrə son qoydu. Xalq kütlələrinin son dərəcə ağır

vəziyyəti, feodal çəkişmələri, mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri Qaraqoyunlu dövlətinin getdikcə zəifləməsinə səbəb oldu və ***Ağqoyunlu Uzun Həsənin*** Qaraqoyunlular üzərində qələbə çalması üçün əlverişli şərait yaratdı.

Ağqoyunlu dövləti (1468-1501/1503). XIV əsrdə Kiçik Asiyanın şərqində məskunlaşmış Qaraqoyunlulardan qərbdə Ağqoyunlular yaşayırdılar. Onlar hələ erkən orta əsrlərdə *Cənubi Qafqazda, Qafqaz dağları ilə Araz çayı arasındakı ərazidə, həmçinin Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında, həmçinin Azərbaycanın cənub bölgələri, Şərqi Anadolu, Qərbi İran, Dəclə və Fərat vadiləri* də daxil olmaqla, çox geniş ərazidə yayılmışdılar [3, s. 95]. Ağqoyunluların başçısı ***Bayandur tayfasından olan Pəhləvan bəy (1370-1388)*** idi. Pəhləvan bəyin Ağqoyunlu tayfalarını birləşdirmək uğrunda apardığı mübarizə nəticəsində XIV əsrin 80-ci illərində ***Ağqoyunlu tayfa ittifaqı*** *Şərqi Anadolunun cənub torpaqlarında* böyük qüvvəyə çevrildi. Pəhləvan bəyin ölümündən sonra ara müharibələri getdikcə qızışdı. Hakimiyyətə gəlmiş ***Əlaəddin Turəlinin (1388-1394)*** Ağqoyunlu tayfa ittifaqını möhkəmləndirmək cəhdi nəticəsiz oldu. XIV əsrin sonu-XV əsrin əvvəllərində Ağqoyunlu ***Qara Yuluq Osman bəy*** Sivas uğrunda döyüşlərdə Qaraqoyunlulara qalib gəldi və ***Diyarbəkirdə*** möhkəmləndi. Bununla da, Ağqoyunlu bəyliyinin əsası qoyuldu. Ərzincan və Mardin torpaqları da Ağqoyunlulardan asılı vəziyyətə salındı. ***Qara Yuluq Osman bəy (1394-1434)*** Diyarbəkiri Ağqoyunlu tayfa ittifaqının mərkəzi seçdi, öz adına pul kəsdirdi, feodal çıxışlarını yatırdı. ***1434-cü ildə*** Qaraqoyunlularla döyüşdə Osman öldürüldü, Ağqoyunlu tayfa ittifaqında daxili mübarizə şiddətləndi. Ağqoyunlu tayfa ittifaqının başçısı ***Əli bəy (1434-1444)*** bu münaqişələrdə müəyyən uğurlar qazandı. Az sonra Əli bəy də öldü. Onun oğlu ***Cahangir Mirzə (1444-1453)*** qısa vaxtda Ağqoyunlu tayfalarını birləşdirdi və ***Diyarbəkirdə*** möhkəmləndi. Cahangir Mirzənin qardaşı ***Uzun Həsən (1453-1478) 1453-cü il yanvarın 16-da Diyarbəkirə*** daxil oldu,

qardaşı Cahangir Mirzənin qüvvələrini darmadağın etdi. XV əsrin 50-ci illərində Uzun Həsən ***Gürcüstanın*** Qaraqoyunlulara tabe olan şərq hissəsini tutdu. ***1467-ci il noyabrın 10-da Muş döyüşündə*** Qaraqoyunlular məğlub edildi və Qaraqoyunlu ***Cahanşah*** öldürüldü. Bağdada qədər olan geniş ərazilər Ağqoyunluların əlinə keçdi. ***1467-ci ildə Təbrizdə*** Qaraqoyunlulara qarşı yeni üsyan başlandı. Üsyana ***Siyavuş (Sarvanqulu)*** başçılıq edirdi. Üsyanı Qara İsgəndərin qızları ***Arayiş bəyim*** və ***Şahsaray bəyim*** yatırdılar. Qaraqoyunlu əmirləri ***Maku qalasında*** həbsdə saxlanan Cahanşahın oğlu ***Həsənəlini (1467-1468)*** azad edib hökmdar seçdilər. Cahanşahın varisləri Həsənəli və Hüseynəli arasında hakimiyyət uğrunda gedən mübarizədə Hüseynəli öldürüldü. Həsənəli isə qüvvələrini Ağqoyunlulara qarşı mübarizəyə yönəltdi. Təbriz yoxsullarına böyük məbləğdə pul payladı, lakin onlar Həsənəlini müdafiə etmədilər. ***1468-ci ildə Uzun Həsən Azərbaycanın cənubunu və Qarabağı*** müqavimətsiz tutdu və Həsənəlini geri sıxışdırmağa başladı. Qaraqoyunluların xeyli hissəsi Ağqoyunlulara birləşdi, Qaraqoyunlu dövləti süquta uğradı. ***1468-ci ildə*** Ağqoyunlu dövləti yarandı, paytaxtı Təbriz oldu. Cahanşahın ölümünü eşidən ***Teymuri*** hökmdarı ***Əbu Səid*** Ağqoyunlulara qarşı müharibəyə hazırlaşdı. Uzun Həsən müharibədən ehtiyat edərək Əbu Səidin yanına anası ***Sara Xatunun*** başçılığı ilə zəngin hədiyyələrlə nümayəndə heyəti göndərdi, lakin, Əbu Səid öz məqsədindən dönmədi. ***1468-ci ilin payızında*** Əbu Səid Azərbaycanın cənub torpaqlarına daxil oldu. ***Uzun Həsən*** Şirvanşah ***Fərrux Yasar (1465-1501)*** və Səfəvi sülaləsindən olan Ərdəbil hakimi ***Şeyx Heydərlə (1460-1488)*** ittifaqa girdi. Müttəfiqlər Əbu Səidi iqtisadi mühasirəyə aldılar. I Xəlilullahın vaxtında Şirvan Teymuri qoşununu ərzaqla təmin edirdi. Fərrux Yasar isə bundan imtina etdi və aclıq çəkən Teymuri qoşunu dağılmağa başladı. Əbu Səid ***1468-1469-cu ilin qışında*** sülh təklif etdi, lakin Uzun Həsən bu təklifi rədd etdi və Teymurilərin düşərgəsinə hücum edərək onları darmadağın etdi. ***Ağqo-***

yunlu dövləti *Kürdən cənubda olan Azərbaycan vilayətlərini, Şərqi Anadolunu, Qərbi İranı, İraqı, Şərqi Gürcüstanı* və digər əraziləri əhatə edirdi. Ağqoyunlu dövlətində başlıca təsərrüfat sahələri əkinçilik, ipəkçilik, üzümçülük, bağçılıq və maldarlıq idi. Şəhərlərdə sənətkarlıq və ticarət inkişaf etmişdir. Mərkəzi Asiya, Çin və Hindistanı Aralıq dənizi və Qara dəniz sahillərindəki ticarət mərkəzləri ilə birləşdirən karvan yolları Ağqoyunlu dövlətinin ərazisindən keçirdi. Əhalidən toplanan vergi və xarici ölkələrlə ticarətdən əldə edilən gəlir Ağqoyunlu dövlətinin iqtisadi qüdrətinin əsas mənbəyi idi. Dövlətin daxili siyasətində, xüsusilə iqtisadi həyatında oturaq feodallar, ali müsəlman ruhanilər və köçəri hərbi əyanlar mühüm rol oynayırdılar. Yenə də, Ağqoyunlu dövlətində daxili vəziyyət ağır idi. Ağır vergi və mükəlləfiyyətlərdən bezmiş əhali arasındakı hərəkatlar dövlətin siyasi əsasını sarsıdırdı. ***Uzun Həsən*** xalqın rəğbətini qazanmaq üçün bir sıra tədbirlər həyata keçirdi, vergi işlərini nizama salmaq üçün ***"Qanunnamə"*** verdi. Bu, əhalinin vəziyyətini bir qədər yüngülləşdirdi. Uzun Həsən nizami ordu yaratdı, odlu silah istehsal etməyə təşəbbüs etdi, feodalların müqavimətini qırdı. Bəzi güzəştlərə getməyə də məcbur oldu. Lakin o, möhkəm mərkəzləşdirilmiş dövlət yarada bilmədi.

Ağqoyunlu dövlətinin xarici siyasəti. ***Ağqoyunlu dövləti*** Azərbaycanın bu vaxta qədərki tarixində ***Avropa ölkələri*** ilə ən geniş ***əlaqə*** yaratmış ***ilk dövləti*** idi. Uzun Həsən Qərb ölkələri ilə ticarət əlaqələri, xüsusilə ***ipək ticarəti*** yaratmışdır. Digər tərəfdən, o öz ordusuna müasir ***silahlar*** almaq, Azərbaycanda ***topçuluq sənətini*** inkişaf etdirmək üçün Avropa ölkələrindən artilleriya mütəxəssisləri də dəvət etmək istəyirdi. Onun ***xarici siyasətində*** əsas istiqaməti ***Osmanlı imperatorluğu ilə münasibətlər*** təşkil edirdi. XV əsrin 60-70-ci illərində xarici ticarətlə əlaqədar olaraq, Ağqoyunlu dövlətinin Osmanlı imperatorluğu ilə münasibəti kəskinləşdi. Sultan ***II Mehmet*** Osmanlı imperatorluğunu Azərbaycan ipəyinin böyük rol oynadığı Avropa-Şərq ticarətin-

də vasitəçilik edən dövlətə çevirmək istəyirdi. Osmanlı sultanı Qafqazı, xüsusilə Azərbaycanı tutmaq üçün səy göstərirdi. Ağqoyunlu-Osmanlı münasibətlərinin kəskinləşməsində ***Trabzon məsələsi*** də az rol oynamamışdı. Ağqoyunlular hakimiyyətə gəlməmişdən əvvəl Trabzon Yunan imperiyası (1204-1461) ilə dostluq əlaqəsi yaratmışdılar. ***Uzun Həsən*** Tabzon imperatorunun qızı ***Feodora-Dəspinə Xatunla*** evlənmişdi. ***Trabzonun*** Ağqoyunlular üçün böyük ***ticarət əhəmiyyəti*** vardı. Ağqoyunlu tacirləri bu şəhər vasitəsilə Krımdakı mərkəzləri ilə də əlaqə saxlayırdılar. Buna görə II Mehmet ***1461-ci ildə*** Ağqoyunlu dövləti ilə müharibəyə ***Trabzon*** üzərinə hücumla başladı. Uzun Həsən Trabzonu müdafiə etməli oldu. İlk döyüş ***Qoyluhisar*** adlanan yerdə baş verdi. Ağqoyunlular Osmanlı qoşununa ciddi zərbə vursalar da, Uzun Həsən hələlik osmanlılarla sülh bağlamaq qərarına gəldi, öz ağıllı və güclü məntiqi ilə tanınan anası ***Sara Xatunu*** Sultanın düşərgəsinə-***Bolqar dağına*** göndərdi. Uzun Həsən onun qarşısına ***2 vəzifə*** qoydu**: I,** o, *Osmanlı Sultanını* ***Ağqoyunlular üzərinə hücum etmək fikrindən*** daşındırmalı, çünki Ağqoyunlu dövləti güclü deyildi və onlara arxadan Qaraqoyunluların və Teymurilərin hücumu da gözlənirdi. **II**, Sara Xatun sultanı ***Trabzonu fəth etməkdən döndərməli*** idi. Sultan 1-yə razı oldu, 2-ci məsələdə isə fikrindən dönmədi. II Mehmet Trabzon üzərinə yeridi və Uzun Həsənin arxadan hücum etməyəcəyinə əmin olmadığı üçün Sara Xatunu elçilərlə birlikdə özü ilə apardı. Sara Xatun yol boyu yenə də sultanı Trabzonu fəth etməkdən çəkindirməyə çalışdı. 30 gün mühasirədən sonra, ***1461-ci il oktyabrın 26-da Trabzon*** osmanlılar tərəfindən zəbt edildi [34, s. 442]. Ticarət mərkəzi olan Trabzonun əldən çıxdığını görən ***Sara Xatun*** öz gəlininin – ***Feodora-Dəspinə Xatunun*** Trabzon taxtına ***varislik hüququnu*** irəli sürdü. O, Trabzon xəzinəsini sultanla bölüşdürdükdən sonra Ağqoyunlu elçilərinin başında geri qayıtdı. Trabzonun fəthi ilə ***Ağqoyunlu dövləti*** təkcə öz ***müttəfiqini*** deyil, həm də ***Qara dənizə yeganə çıxış yolunu*** da

itirdi. Uzun Həsən eyni zamanda bir neçə yerdən Osmanlı dövlətinə zərbə endirmək üçün Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmağa başladı. Avropa dövlətləri 2 türk dövləti arasında ziddiyyət yaratmağa çalışırdılar. Uzun Həsən isə bunu lazımi cəhətdən qiymətləndirə bilmədiyindən Avropa ölkələri ilə ticarət əlaqələrini Osmanlılarsız möhkəmləndirməyə çalışırdı. Azərbaycanın cənub torpaqlarında hasil olunan ipək Şərqlə Qərb arasındakı ticarətdə vasitəçilik edən Venesiyanın toxuculuq manufakturalarını təmin edirdi. ***1463-cü ildə Venesiya-Osmanlı müharibəsinin*** başlanması bu əlaqələri daha müntəzəm etdi [8, s. 375]. ***1464, 1472-ci ildə*** isə Katerino Zeno da daxil olmaqla bir neçə Venesiya diplomatı Təbrizə Ağqoyunlu sarayına gəldi. Öz növbəsində, Uzun Həsənin elçiləri də Avropa ölkələrinə gedir, danışıqlar aparırdılar. ***1475-ci ildə*** III İvan danışıqlar üçün Marko Rossonu Uzun Həsənin yanına göndərdi. Lakin Qızıl Orda xanı onu qabaqlayıb qiymətli hədiyyələrlə 200 nəfərlik nümayəndə heyəti göndərərək, Qızıl Ordanın cənub sərhədlərinin pozulmaması haqda Uzun Həsəndən təminat aldı. Venesiya hökuməti ilə danışıqlar nəticəsində ***1472-ci ilin yazında Təbrizdə*** Osmanlı dövləti əleyhinə bağlanan ***hərbi ittifaqın*** planına uyğun olaraq həmin vaxtda Uzun Həsən Osmanlılar üzərinə hücuma keçdi. Mirzə Yusif xanın başçılığı ilə ağqoyunlular qələbə çalaraq Aralıq dənizi sahillərinə çıxdılar, lakin burada Uzun Həsənin ordusu üçün silah və artilleriya mütəxəssisi gətirən Venesiya gəmiləri yox idi. Venesiya dövləti 2 türk dövlətini qarşı-qarşıya qoyub aradan çıxdı. Müharibənin ağırlığı Ağqoyunlu dövlətinin üzərinə düşdü. II Mehmet öz rəqiblərini bir-birindən ayırdı və müharibədə qələbə qazandı. Şahzadə Mustafanın başçılığı ilə Ağqoyunlulara qarşı 60 min nəfərlik qoşun göndərildi. ***Ağqoyunlular Beyşehir*** yaxınlığında məğlub oldular. Qışda hər iki tərəf müharibəni müvəqqəti dayandırdı. Sultan II Mehmet öz elçisi ilə Uzun Həsənə məktub göndərərək, ***1473-cü ilin baharında*** Ağqoyunlulara qarşı hücuma keçəcəyini bildirdi. II Mehmet Uzun Həsə-

nin Venesiyadan göndərilmiş odlu silahları almaq üçün Qaraman istiqamətində hücuma keçəcəyini bildiyinə görə, onları Aralıq dənizi sahilində birləşməyə qoymamaq üçün Uzun Həsəni Anadolunun şərqində qarşılamaq qərarına gəlmişdi. Fəratın sol sahilində Ağqoyunlular, sağ sahilində isə Osmanlı qoşunu duşərgə saldı. ***1473-cü il avqustun 1-də Malatyada*** Ağqoyunlularla Osmanlılar arasında döyüş baş verdi [9, s. 158]. Uzun Həsənin seçdiyi taktika nəticəsində Ağqoyunlu süvariləri Osmanlı qoşunlarının zərbə qüvvəsini aldadıb Fəratın sol sahilinə çəkildilər və ***II Mehmet*** məğlub oldu. Osmanlı sultanı zabitlərindən birini sülh bağlamaq üçün Ağqoyunlu hökmdarının yanına göndərdi. Lakin Uzun Həsən bu təklifi rədd etdi. ***1473-cü il avqustun 11-də*** Ağqoyunlu süvariləri II Mehmetin qoşunlarını Ərzincanla Ərzurum arasındakı ***Otluqbeli*** adlanan yerdə qabaqladılar, 8 saat davam edən ***Otluqbeli,*** bəzən ***Tərzincan*** adlanan bu döyüşdə Osmanlı piyadasının, xüsusilə yenicəri alaylarının inadlı əks-hücumlarına ağqoyunlular davam gətirə bilmədilər və məğlub oldular [8, s. 378]. ***1474-cü ilin aprelində*** kürdlər Venesiya diplomatı İosafat Barbaronu və onunla Ağqoyunlu elçilərini qarət etdilər. Hacı Məhəmməd başda olmaqla Ağqoyunlu elçiləri öldürüldü. Həmin ilin mayında Şirazda Uzun Həsənin böyük oğlu, Şirazın varisi ***Uğurlu Məhəmmədin*** başçılığı ilə iri ***feodalların qiyamı*** başladı. Belə feodallardan biri 3000 nəfərlik süvari ilə Təbrizə hücum etdi. Hökmdarın oğlu Maqsud bəy öz süvari dəstəsi ilə köməyə gəldi və Təbrizin təhlükəsizliyi təmin olundu. Uzun Həsən isə Şirazda oğlunu məğlub etdi, ağır yaralanan Uğurlu Məhəmməd Osmanlı dövlətinə qaçdı. Sultan ***Uğurlu Məhəmmədi*** təntənə ilə qarşıladı, qızı ***Gövhərxan Sultanı*** ona ərə verdi. Onların bir oğlu oldu-***Gödək Əhməd.*** II Mehmet Uğurlu Məhəmmədə hərbi qüvvə verib onu ***Sivasa-Azərbaycanla Osmanlı sərhədinə*** hakim təyin etdi. Uzun Həsən isə oğlunu tutub Təbrizdə edam etdirdi. Osmanlı sultanı Sivasda olan qızını və nəvəsini İstanbula gətirdi.

İqtisadi tənəzzül, iri feodalların mərkəzi hakimiyyətə açıq müqaviməti, ümumxalq narazılıq-bütün bunlar Ağqoyunlu dövlətinin süqutunu yaxınlaşdırdı. Uzun Həsən ***1474-1477-ci illərdə Gürcüstana*** yürüş etdi. ***1477-ci ildə*** Uzün Həsənin gürcü hakimi ***VI Baqratla*** bağladığı sülhə görə, Tiflis də daxil olmaqla Şərqi Gürcüstan Ağqoyunlu dövlətinin hakimiyyəti altına düşdü. Uzun Həsəndən sonra onun oğlu ***Yaqub Mirzə (1478-1490)*** taxta çıxdı. O, Şirvanşah Fərrux Yasarın qızı ilə evlənərək dostluq əlaqələrini daha da möhkəmləndirdi. Lakin Ərdəbil hakimliyinin möhkəmlənməsi onun üçün təhlükə yaratdığına görə hər iki tərəf arasında ziddiyyət yarandı. Yaqub Mirzənin qəfil ölümündən sonra oğlu 9 yaşlı ***Baysunqur (1490-1492)*** taxta çıxdı. İlk vaxtlar Ağqoyunlu dövlətini Baysunqurun adından idarə edən ***Sufi Xəlil*** bütün rəqiblərinə qalib gəldi. Az sonra Diyarbəkirdə hökmranlıq edən ***Süleyman bəy Bicanoğlu*** Sufi Xəlilin hakimiyyətinə qarşı mübarizəyə başladı. ***1491-ci ilin yayında Van yaxınlığındakı*** döyüşdə Sufi Xəlil məğlub oldu. Bicanoğlu hakimiyyəti ələ aldı, lakin Baysunqura toxunmayıb, Ağqoyunlu dövlətini onun adından idarə etməyə başladı**.** ***1492-ci ildə*** Bayandur tayfasından olan ***Eybə Sultan*** (Dana Xəliloğlu İbrahim) Sufi Xəlil tərəfindən dustaq edilən *Uzun Həsənin nəvəsi* ***Rüstəm Mirzəni (1492-1497)*** Əlincə qalasından azad etdi və onun namizədliyini irəli sürdü. ***1492-ci il mayın əvvəllərində*** Bərdə yaxınlığında Baysunqurun qoşunu Rüstəm Mirzənin qoşunu ilə döyüşə girdi. Rüstəm Mirzə qalib gəldi. Bicanoğlu Diyarbəkirə çəkildi və orada öldürüldü. Baysunqur Şirvana, Fərrux Yasarın yanına qaçdı. ***1492-ci il mayın sonunda Rüstəm Mirzə*** Təbrizdə Ağqoyunlu taxtına çıxdı. Ağqoyunlu dövlətini Eybə Sultan idarə edirdi. XVI əsr tarixçisi Həsən bəy Rumlu yazır ki, 100 il ərzində Qaraqoyunlu və Ağqoyunlu padşahlarından heç biri Rüstəm padşah qədər soyurqal paylamamışdı. Lakin o, 5 il Ağqoyunlu dövlətini idarə etsə də, iri köçmə feodallar qüvvətləndilər və mərkəzi hakimiyyətə tabe olmaq istəmədilər. ***1492-ci ilin so-***

nunda hakimiyyətdən devrilmiş Baysunqur, babası Fərrux Yasarın köməyi ilə ***Bərdə-Gəncə*** arasında Rüstəm Mirzəyə qarşı döyüşə girdi, lakin məğlub oldu. Baysunqur və onun müttəfiqləri ***1493-cü ildə Əhər yaxınlığında*** da məğlubiyyətə uğradılar, özü isə öldürüldü. Rüstəm padşah soyurqal torpaq paylamaqla köçmə əhalini özünə qarşı qaldırdı. Bundan istifadə edən ***Gödək Əhməd Ərzincana*** gəldi və Eybə Sultanın başçılığı ilə köçmələrin bir hissəsi onunla birləşdi. ***1496-cı ilin yayında*** Gödək Əhməd Azərbaycana hücum etdi. ***Sultaniyyə yaxınlığında*** Ağqoyunlular məğlub oldu. Gödək Əhməd ***1496-cı ilin sonunda Naxçıvan yaxınlığında*** Rüstəm Mirzənin əsas hərbi qüvvələrini məğlub etdi, özünü də əsir aldı. O, ***1497-ci ildə Təbrizə*** daxil oldu və Ağqoyunlu taxtına çıxdı [8, s. 384]. Gödək Əhməd Eybə Sultandan ehtiyat etdiyi üçün Kirman mahalını ona bağışladı. O, bir sıra vergi islahatları keçirdi, şəriətdə göstərilməyən *20-yə qədər vergi və mükəlləfiyyəti ləğv etdi.* Gödək Əhmədin daxili siyasətinə qarşı Eybə Sultan başda olmaqla bəzi əyanlar İran İraqında və Farsda qiyamlar qaldırdılar. ***1497-ci il dekabrın 13-də İsfahan*** yaxınlığında ***Gödək Əhməd*** məğlub oldu və öldürüldü. Təqribən 7 ay hakimiyyətdə olan Gödək Əhməd öz məqsədinə nail ola bilmədi. Gödək Əhmədin ölümündən sonra Eybə Sultan ***1497-ci ilin dekabrında Muradı*** Qum şəhərində Ağqoyunlu hökmdarı elan edərək, onun adından pul kəsdirdi. ***Sultan Murad*** Eybə Sultandan asılı olmaqla ***Ağqoyunlu dövlətini,*** qardaşı ***Məhəmməd Mirzə (1498-1499)*** isə Sultan Muradın vassal asılılığını qəbul etməklə *Yəzdi* idarə etməyə başladılar. ***1499-cu ilin sonunda*** Muradın əmisi oğlu ***Əlvənd*** *Təbrizi* ələ keçirdi. Ağqoyunlu taxtı uğrunda 2 güclü varis – ***Murad (1497-1503)*** və ***Əlvənd (1498-1500)*** arasında mübarizə kəskinləşdi. ***1500-cü ilin əvvəllərində*** dərviş Baba Xeyrullahın köməyi ilə Təbriz yaxınlığında ***Əbhər*** adlanan yerdə onların arasında sülh sazişi imzalandı. Bu müqaviləyə görə, *Qızılüzən çayı sərhəd olmaqla Diyarbəkir, Azərbaycanın Kürdən cənubdakı hissəsi və Qarabağ* ***Əlvən-***

***də**, bütün Ərəb İraqı, Əcəm İraqı, Fars və Kirman isə **Murada** çatdı.* Bu parçalanma Ağqoyunlu dövlətinin süqutuna gətirib çıxardı [8, s. 385-386].

4.XIII-XV əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyatı və mədəniyyəti

Azərbaycanın sosial-iqtisiadi həyatı. Monqol yürüşləri Azərbaycanın ictimai-siyasi və mədəni həyatına ağır zərbə vurdu. Monqolların keçdikləri ərazilərdə mədəniyyət abidələri, ticarət yolları dağıdıldı, əkin sahələri tapdalandı, xırmanlar yandırıldı. Muğanda çağırılmış qurultayda Cənubi Qafqaz ərazisi ***110 monqol noyonu*** arasında bölündü. Düşmən əhalini qırır, sağ qalanları isə qula çevirirdi. Sənətkarlar Qaraqoruma və digər yerlərə göndərilirdi. Cavan əsirlərdən ehtiyat hərbi hissələr təşkil olunur və ön cəbhəyə göndərilirdi. Bütün bunlar məhsuldar qüvvələrə ağır zərbə vururdu. XIII əsrin ortalarında Hülakü dövlətinin yaradılması, mərkəzi hakimiyyətin qüvvətlənməsi təsərrüfatda müəyyən canlanmaya səbəb oldu. *Hülakü* və *Abaqa xanlarının* zamanında torpaq və vergi siyasəti müəyyənləşdi və mərkəzi idarə sistemi yaradıldı. *1254-cü ildə* Azərbaycanda 10 yaşından 60 yaşınadək bütün kişi qismi *siyahıya* alındı. Elxanilərin iqtisadi siyasətinin əsasını yerli feodalları torpaq sahibliyindən məhrum etmək və bütün gəlirləri mənimsəmək təşkil edirdi. İşğal olunmuş torpaqlar ***incu*** (hökmdar və xan nəslinə məxsus) və ***divan*** (dövlət) torpaqlarına çevrildi və köçmə feodalların ixtiyarına verildi. Yeni vergilər də (***qopçur***-otlaq vergisi-tədricən can vergisi, ***tamğa***-sənətkar və tacirlərdən alınan vergi, ***kalan*** və s.) toplanırdı. Vergilərin toplanması ***icarəyə (müqatiəyə)*** verilirdi. İcarədarlar qanunsuzluqlara və sui-istifadəyə əl atırdılar. XIII əsrin son rübündə Elxanilər dövlətində iqtisadi və siyasi böhran baş verdi. ***1294-cü ildə Keyxatu xan pul islahatı*** keçirdi, ölkədə *kağız pullar-**çao*** tədavülə buraxıldı, lakin bu, xəzinənin boşal-

masının qarşısını ala bilmədi. Monqol yürüşləri şəhər həyatına da ziyan vurdu. Qazan xanın islahatları, xüsusilə vergi və ticarət sahəsindəki tədbirlər şəhər həyatında canlanmaya səbəb oldu, lakin XIV əsrin 2-ci yarısında siyasi vəziyyət şəhər həyatını daha acınacaqlı vəziyyətə saldı. Şəhər əhalisinin sosial tərkibində sənətkarlar və tacirlər üstünlük təşkil edirdi. Toxuculuq, xalçaçılıq, metalişləmə, dulusçuluq, dəri istehsalı, ağac emalı, bədii sənətkarlıq növləri daha da inkişaf etmişdir. Şirvan ipəyi dünyada məşhur idi. Beyləqan öz qənnadı məmulatı ilə, Kağızkonan şəhəri kağız istehsalı ilə tanınırdı. Metalişləmə sahəsində soyuq silah istehsalına xüsusi diqqət yetirilirdi. Hülakü dövlətinin Asiya, Avropa və Afrikanın bir çox ölkələri ilə ikitərəfli intensiv ticarət əlaqələri var idi. Azərbaycan karvan yollarının kəsişdiyi məkana çevrilmişdir. Azərbaycan ərazilərindən keçən karvan yollarının uzunluğu təxminən 2000 km-dən artıq idi. Ticarət yolları üzərində karvansaraylar tikildi, karvanların təhlükəsizliyi təmin edildi. Bakı nefti, Şirvan ipəyi, Təbriz və Şirvan xalçaları, Şəmkirin yun parçaları, Şəkinin dəri məmulatı, Naxçıvanın duzu və s. mallar xarici ölkə bazarlarında yüksək qiymətləndirilirdi. Zərbxanalarda *tümən, qızıl və gümüş balış, dinar, danq, fils, dirhəm və s. pul vahidi* tədavülə buraxılırdı.

Qazan xanın islahatları. Hülakü dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək üçün Qazan xan bir sıra islahatlar – ***torpaq, vergi, məhkəmə, rabitə və ticarət*** sahələrində islahatlar keçirdi. Torpaq islahatının əsasını monqol qoşun hissələrində qulluq edənlərə torpaq sahələrinin verilməsi - ***iqta*** təşkil edirdi. İqta ***incu*** və ***divan*** torpaqları, həmçinin ***bayrat*** adlanan istifadəsiz torpaqlardan verilirdi. Torpaqla birlikdə suvarma şəbəkələri və s. iqta sahiblərinə verilirdi. ***Qazan xanın 1303-cü ildə*** verdiyi Fərmanla *kəndlilərin yerini dəyişməsi qadağan edilirdi* [3, s. 68]. İqta torpaqları satıla, bağışlana bilməzdi və iqta sahiblərinin ölümündən sonra onun hərbi işini davam etdirən şəxsə verilirdi. Qazan xan bayrat torpaqların becərilməsi üçün tədbirlər gördü:

sahələr qeydə alındı, sahibləri müəyyənləşdirildi, sahibsiz torpaqlar divanın sərəncamına verildi, becərilməyən torpaqlar dövlət torpaqlarına qatıldı. Həmin torpaqlar yeni sahibkarlara paylandı, bunların hüquqları ***divan sənədləri*** ilə qanuniləşdirildi. Qazan xanın ***vergi islahatı*** vergilərin növləri, həcmi, toplama üsulu, vaxtı və s. kimi məsələlərdə dəqiq qayda-qanun yaratdı. Vergi verənlərin siyahısı tutuldu, vergi məbləği lövhələrə həkk olunub görsənən yerlərdə nümayiş etdirildi. Qeyri-qanuni vergilərin toplanması qadağan olundu. Vergi toplanması divana həvalə olundu. ***Məhkəmə*** sahəsində də islahat keçirildi – qazi vəzifəsinə layiqli din xadimləri təyin olundu. 30 illik tarixi keçmiş iddia sənədləri öz qanuni qüvvəsini itirmiş elan olundu. Qazi vəzifəsinə təyin olunanlardan qanuna ciddi əməl edəcəkləri barədə iltizam alınması tətbiq edildi. Qazan xanın ***rabitə*** sahəsində tədbirləri vahid rabitə sisteminin yaranmasına səbəb oldu. Əsas yollarda hər 3 fərsəxdən (20 km.) bir rabitə dayanacaqları – ***yamlar*** yaradıldı. Yamlara əmirlər təyin olundu. Yollarda karvansaraylar tikildi. Qazan xan ticarətin inkişafını təmin etmək üçün ***vahid pul sistemi*** yaratdı, *çəki* və *ölçü vahidlərini* sabitləşdirdi, ticarət yollarında və bazarlarda *gömrük toplanması*, *karvanların, ticarət mərkəzlərinin qorunması* üçün əsaslı tədbirlər gördü. Qazan xanın islahatları ilk vaxtlar təsirli nəticələr verdi, lakin XIV əsrin 30-cu illərində ölkənin iqtisadi vəziyyəti yenidən pisləşməyə başladı. Əbu Səidin dövründə mərkəzi hakimiyyətin zəifləməsi, Xorasanda, Gürcüstanda və başqa vilayətlərdə baş vermiş iğtişaşlar, Çobanilərin və başqa feodal qruplaşmalarının arasında gedən mübarizə, Qızıl Ordu xanlarının Azərbaycana yürüşləri ölkənin təsərrüfatına, iqtisadiyyatına güclü zərbə vurdu. Çobani əmiri Məlik Əşrəfin zülm və çapqınlıqla topladığı vəsait və maldövlət 17 xəzinədə saxlanılırdı. Sonralar, Məlik Əşrəf Təbrizdən qaçmağa cəhd göstərərkən, onun əmlakını daşımaq üçün 10.000 dəvə və 4000 qatır lazım olmuşdur. Azərbaycan əhalisi Çobani feodallarının zülmündən təngə gəlib vətəni tərk edirdi. XIV əs-

rin 80-cı illərində ölkədə başlanan feodal çəkişmələri yenidən iqtisadi böhrana gətirib çıxardı. Qızıl Orda xanı Toxtamışın və Əmir Teymurun ara verməyən hücumları, daxili ara müharibələri şəhərlərin, kəndlərin dağılmasına, təsərrüfatın daha da gerilməsinə səbəb oldu.

Maarif. Monqol-türk qəbilələrinin Azərbaycana gəlişi ölkədə elm və mədəniyyətin inkişafına təsir etdi. Təhsil sisteminin əsasını ***məktəb*** və ***mədrəsələr*** təşkil edirdi. ***Məktəb*** əsasən ***ibtidai təhsil*** verən elm ocağı idi. Əsas dərslər ***şəriət*** dərsləri, ***dini ehkamların təlimi***, ***Quranın*** oxunması idi. Yetim uşaqların təhsil alması üçün ***"Dar ül-itam"*** (Yetimlər evi), ***"Beyt ül-təlim"*** (Təlim evi) adlanan məktəblər fəaliyyət göstərirdi. Burada hər ***10 uşağa*** bir tərbiyəçi – ***atabəy*** təhkim olunurdu. Təhsilin Məzhər formasında şagirdlər elmin müxtəlif sahələri ilə müstəqil məşğul olur, vaxtaşırı öz ustadının yanına gedib məsləhət alır və onun mühazirələrini dinləyirdilər. ***Mədrəsələr*** əsasən ***orta təhsil*** verirdi. ***Dini*** təlimlə yanaşı, ***dünyəvi*** elmlər, ***ictimai*** və ***texniki*** fənlər keçilirdi. Tədrislə 2 müdərris məşğul olurdu-biri şəriət dərslərini, digəri dünyəvi fənləri tədris edirdi. Mədrəsə xərcləri şəxsi hesabdan və ya vəqf əmlakının gəlirlərindən ödənilirdi. Təbrizdə xüsusi elm ocağı – ***ali mədrəsə Rəbi Rəşidi*** məhəlləsində yerləşirdi və Şərqdə ilk ali təhsil ocağı idi. Onun təsisçisi alim, həkim və dövlət xadimi Fəzlüllah Rəşidəddin olmuşdur. Təbriz ali mədrəsəsində ***500****-ə qədər* ***alim*** dərs deyirdi, ***7000 tələbə*** təhsil alırdı. Onlardan 6000 nəfəri başqa ölkələrdən və şəhərlərdən gəlirdilər. Müdavimlər təqaüd alır, yataqxana ilə təmin olunurdular. Ali mədrəsə müasir dövrün tanınmış universitetlərinin göstəriciləri səviyyəsində idi. Bu faktlar hələ 700 il bundan əvvəl Təbrizdə Universitetin (Darülfünun) mövcud olduğunu bildirir. ***Rəbi Rəşidi*** məhəlləsində *60000 nüsxə kitaba* malik kitabxana var idi. Şam-Qazanda fəaliyyət göstərən 2 kitabxana qiymətli kitablar xəzinəsi hesab olunurdu. ***1259-cu ildə*** Marağada ***Nəsrəddin Tusinin*** rəhbərliyi ilə tikilmiş ***rəsədxana***, həmçi-

nin, XIV əsrin əvvəllərində Şam-Qazanda (Təbriz) tikilmiş rəsədxana Şərqdə nücum elminin (astronomiya) mərkəzinə çevrilmişdir. Marağa rəsədxanasında 100-dən artıq alim, 400 min əlyazmaya malik kitabxana var idi. Marağa rəsədxanasının banisi ***Nəsrəddin Tusi (1201-1274)*** təhsil aldığı Tus şəhərinin adı ilə Tusi ləqəbini qəbul etmişdir. Bir müddət Ələmut qalasında həbsdə qalan Tusi Hülakü xanın əmri ilə azad edildi, əvvəl onun məsləhətçisi, sonra isə Abaqa xanın vəziri oldu. ***Tibb*** sahəsində ***Fəzlullah Rəşiddədinin*** böyük rolu olmuşdur. Ölkədə əhalinin xəstəliklərdən mühafizə və müalicəsi məqsədi ilə xüsusi müəssisələr – ***darüşşəfalar*** (şəfa evləri) fəaliyyət göstərirdilər. Təbrizin Rəbi Rəşidi məhəlləsində fəaliyyət göstərən şəfa evində Hindistan, Çin, Misir, Şam və s. vilayətlərdən gəlmiş 50 tanınmış həkim çalışırdı. Ölkədə ***darüxanalar*** (aptek) mövcud idi.

Gəncəli Kirakos Qafqaz Albaniyasında XIII əsrdə baş vermiş hadisələri, albanların başına gələn müsibətləri qələmə almışdır. Coğrafiya sahəsində ***Zəkəriyyə Qəzvininin, Həmdullah Qəzvininin,*** Azərbaycan alimi ***Əbdürrəşid Bakuvinin*** əsərləri meydana gəldi. Dilçilik sahəsində Azərbaycan alimləri ***Hinduşah Naxçivani*** və oğlu ***Məhəmməd Naxçivani*** daha çox tanınırdılar. Bu dövrdə ikidilli, üçdilli lüğətlər meydana gəldi. ***"Azərbaycan dili"*** ifadəsi işlənməyə başlandı. Azərbaycanda fəlsəfə, hüquq və s. elmlər də inkişaf etdi. Azərbaycan mütəfəkkiri ***Mahmud Şəbustəri*** *(1287-1320)* ərəb və fars dillərinin kamil bilicisi, fəlsəfə, məntiq, etika, psixologiya, anatomiya, mineralogiya elmləri sahəsində tanınmış şəxsiyyət idi. Azərbaycan dilində klassik poeziyanın ilk məlum nümayəndəsi ***Həsənoğlu Şeyx İzzəddin*** (XIII əsr) "Pur Həsən" təxəllüsü ilə Azərbaycan və fars dillərində divanlar yaratdı. ***Nizami*** ədəbi mühitinə mənsub ***Əssar Təbrizi*** *(1325-1390)* dövrünün tanınmış şairi, alimi olmuşdur. XIV əsr ədəbiyyatında ***hürufilik*** xüsusi yer tuturdu. ***Hürufilik "hərf"*** sözündən olub, ərəb hərflərinin ilahiliyini, Allahın 2 təzahür yolundan birinin məhz səsdə, nitqdə, hərflərdə olduğunu

bəyan edirdi. Hürufilərə görə ***Allah*** söz, kəlam şəklində görünür. Odur ki, ərəb əlifbasındakı ***28 hərf*** müqəddəs sayılırdı, məhəbbət və gözəlliyin əsasını təşkil edir. Hürufiliyin əsasını ***Nəimi Fəzlullah*** *(1340-1402)* qoymuş, digər nümayəndəsi olan ***İmadəddin Nəsimi*** *(1369-1417)* Şamaxıda anadan olmuşdur. İlk şeirlərini ***"Hüseyni"*** təxəllüsü ilə yazan müəllif hürufilərə qoşulduqdan sonra Nəiminin şərəfinə ***"Nəsimi"*** təxəllüsünü qəbul etdi. XIII-XIV əsrlərdə Azərbaycanda memarlıq daha da inkişaf etdi. *Təbriz memarlıq məktəbi* Beyləqandan Həmədana, Qəzvindən Şərqi Anadoluya kimi olan böyük bir ərazidə şəhərsalma işinin geniş inkişaf etməsində mühüm rol oynadı. Monqolların 2-ci yürüşü ərəfəsində dağıdılan Gəncə 1239-cu ildən bərpa olunmağa başlandı. XIII əsrin sonu-XIV əsrin əvvəllərində Sultaniyyə şəhəri tikildi. Qazan xan Xəzər dənizi yaxınlığında *Mahmudabad* şəhərini inşa etdirdi. *Mərdəkandakı dairəvi qala və dördkünc qala, Nardaran, Ramana və Ərk qalaları XIII-XIV əsrlərdə* inşa olundu. XIII-XIV əsrlərdə Azərbaycanın müxtəlif yerlərində Şərq memarlığına məxsus *kubşəkilli, səkkizbucaqlı, qülləvari türbələr* meydana gəldi. Naxçıvanın *Cuğa kəndi* yaxınlığında tikilmiş *Gülüstan türbəsi* Möminə xatın türbəsi üslubunda inşa olundu. *1305-1313-cü illərdə Sultaniyyədə* Şərq türbələrinin qiymətli incilərindən sayılan *Olcaytu Xudabəndə türbəsi, 1322-ci ildə* tikilmiş *Bərdə türbəsi, Qarabağlar kəndində* memarlıq kompleksindəki *türbə (Baştağ)* özünəməxsus yer tuturdu. Qoşaminarəni birləşdirən *Baştağ* XIV əsrin əvvəllərində Hülakü xanın arvadı ***Qutuy xatının*** şərəfinə inşa olunmuşdur. Azərbaycan xalçaçılıq sənətində öz dəsti-xətti ilə seçilən *Təbriz, Qarabağ, Quba-Şirvan və Gəncə-Qazax* xalçaçılıq məktəbləri orta əsrlərdə dünyəvi sənət inciləri yaratmışdılar. Azərbaycanda dulusçuluq, misgərlik, ipəkçilik, toxuculuq və s. sənət növləri inkişaf etmişdir. Təbriz ustalarından ***Yusif ibn Əhmədin*** *1319-cu ildə* hazırladığı və indi Londonda "Viktoriya və Albert" muzeyində saxlanılan ***bədii kasa*** və usta ***Əbdüləziz ibn Şərafəddinin*** *1399-cu il-*

də düzəltdiyi ***tiyan*** nadir sənət nümunələri idi. Ağırlığı 2 ton, diametri 2,5 m. olan tiyan hazırda Sankt-Peterburqun Ermitaj Muzeyindədir. Tiyan Teymurun sifarişi ilə Təbrizdə hazılanmışdır. Təbriz kitab sənəti miniatür boyakarlığın qüdrətli mərkəzinə çevrilmişdir. Azərbaycanda xəttatlıq da inkişaf etmişdir. Bu dövrün görkəmli *musiqişünasları* ***Səfiəddin Urməvi*** və ***Əbdülqadir Marağai*** olmuşlar. Onlar musiqiyə dair bir sıra qiymətli əsərlər yazmışlar.

XV əsrdə Azərbaycanda sosial – iqtisadi həyat və mədəniyyət. XV əsrdə Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri müsəlman Şərqinin ən güclü dövlətləri idi. Qaraqoyunlu və Ağqoyunlu dövlət aparatında Azərbaycan tayfalarının hərbi feodal əyanları – ***Baharlı*** və ***Bayandur*** tayfaları rəhbər rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları *padşah* titulu daşıyırdı. Uzun Həsən özünün Osmanlı və Teymuri sultanları səviyyəsində olduğunu bildirmək üçün *sultan* titulunu qəbul etdi. Şirvanşahlar dövlətinin başçıları özlərini *şah* adlandırırdılar. Ordunun baş komandanı *əmir-əl-üməra (əmirlər əmiri)* titulunu daşıyır, padşahdan sonra 2-ci şəxs sayılırdı Sonrakı yerdə *sədr-əzəm* dayanır və *mövlana (ağa)* ləqəbini daşıyırdı. O, ruhanilərə başçılıq edir, vəqf mülklərinə, onlardan vergilərin toplanmasına, mədrəsələrə və dini müəssisələrə başçılıq edir, məhkəmə işlərini nizamlayırdı. Mərkəzi dövlət aparatında sonrakı yeri *baş vəzir* tuturdu. O, daxili inzibati və xarici işlərə, dövlət gəlirinin hesablanmasına və maliyyə işlərinə baxırdı, şahın möhürdarı, *sahibidivan* idi. Ağqoyunlu və Qaraqoyunlu dövlətində hərbi-təşkilati işlər *köçmə adəti (qoşun hissəsi ailə üzvləri ilə birgə* olurdu) ilə bağlı idi. Qadınları çox səliqəli geyinir, at minir və onu məharətlə sürürdülər. Bu dövlətlərin imtiyazlı qvardiya dəstələrindən əlavə, 100 min, Şirvanşahlar dövlətinin isə 60 minə qədər qoşunu vardı. *Dövlət (divan), sülalə (xass), xüsusi irs (mülk)* və müsəlman ruhanilərin isə *vəqf* torpaqları var idi. *Hərbi-köçmə əyanlara* iqta əvəzinə irsən keçən *soyurqal torpaq* paylanırdı. *Soyur-*

qal sahiblərinin iqtaya nisbətən hüquqları daha geniş idi, onlar *vergi toxunulmazlığı hüququna* malik idilər. Kəndlilər *40-dan çox vergi* verir və mükəlləfiyyət icra edirdilər. *Malcəhət (məhsul vergisi)* Uzun Həsənin "Qanunnamə"sinə əsasən məhsulun *1/5-ni* təşkil edirdi. Sudan istifadə müqabilində *bəhrə* vergisi, maldarlardan *çobanbəyi,* sənətkar və tacirlərdən *tamğa, bac vergisi,* əhalidən *can vergisi* alınırdı. XV əsrin 30-80-ci illərində Cahanşahın, Uzun Həsənin, Sultan Yaqubun hakimiyyəti dövründə şəhər həyatı xeyli canlandı. Uzun Həsənin islahatı şəhərlərin yüksəlişi üçün rəsmi tədbir idi. Başlıca limana çevrilən Bakı şəhəri Moskva knyazlığı və Mərkəzi Asiya ilə ticarət əlaqələrində əsas rol oynayırdı. Burada neft hasil olunurdu, sikkəxana da var idi. Venesiya diplomatı A.Kontarini deyirdi ki, Şamaxı məhsulların çoxluğuna görə Təbrizdən üstün idi. Təbriz, Gəncə, Ərdəbil və Şamaxı mühüm toxuculuq mərkəzləri idi. Gəncədə ipəkqurdu yetişdirilirdi və ipək hazırlanırdı. Şirvanın ipək parçaları dünyada tanınırdı. Təbriz və Şirvan xalçaları, Təbrizin dulusçuluq əşyaları, ustaların yaratdıqları göy, mavi, ağ və firuzəvi rəngli tikinti materialları bir çox ölkələrdə istifadə olunurdu. Misgərlik və dəmirçilik peşələri inkişaf etmişdir. Mis qablar əhalinin məişətində əsas yer tuturdu. Hətta, Uzun Həsənin sarayında qab-qacaq misdən idi. Azərbaycan-Rusiya ticarət əlaqələrində *Həştərxan* mühüm rol oynayırdı. Avropa ilə Asiyanı əlaqələndirən mühüm beynəlxalq karvan yolları Azərbaycandan keçirdi.

Mədəniyyət. XV əsrdən etibarən ana dilində şerə daha çox maraq göstərilirdi. *Həbibi, Kişvəri, Cahanşah Həqiqi, Qasimi* ("İşıq şüaları saçan") təxəllüsü ilə məşhur olan *Şah Qasım Ənvar* tanınmış şairlərdən idilər. *Kişvəri Təbrizinin* lirik şeirləri, *Xətai Təbrizinin* "Yusif və Züleyxa" poeması, *Həqirinin* "Leyli və Məcnun"u, Nizami motivi üzrə *Əşrəf Marağainin* fars dilində yazdığı "Xəmsə"si daha çox tanınırdı. *Əbdülqadir Marağai* muğamlar, mahnı və rəqs melodiyaları yaratmışdır. Rəssamlardan *Əmir Dövlətyar,* onun şagirdləri *Əbdül Müsavar* və b. məşhur

idilər. XV əsrdə ***Bakıda*** ucaldılan ***Şirvanşahlar saray kompleksinin*** binalarından biri *divanxana* idi. Şirvanşahlar sarayı kompleksində qabarıq təsvirlərdən, yazılardan ibarət olan ***"Bayıl daşları"***nın tərtibatı, ***Mərdəkan qalasının kitabəsi*** və s. diqqəti xüsusilə cəlb edir. Qaraqoyunlu Cahanşahın əmri ilə ***1465-ci ildə Təbrizdə "Göy məscid"*** tikilmiş, onun divarları və üstü mərmərdən və mavi kaşidan hörülmüşdür. Ağqoyunlu hökmdarı Yaqub padşah ***1483-cü ildə Təbrizdə "Həşt-behişt"*** adlanan böyük bir saray kompleksi tikdirmişdir. Bu sarayın kitabxanası, məscidi, min çarpayılıq şəfa evi, cıdır meydanı və xiyabanı var idi.

Göründüyü kimi, bu dövrdə şəhərsalma işi memarlıq fəaliyyətinin mühüm sahəsi olaraq qalırdı.

Xalq hərəkatı. ***1484-cü ilin yazında, Maku*** şəhərinin cənub-şərqindəki ***Sofi kəndində*** Qaraqoyunlu ***Topal Əhmədin*** başçılıq etdiyi kəndli çıxışları oldu. Ağqoyunlu Yaqub padşah ***1484-cü ilin aprelində Qarabulaq kəndi*** yaxınlığında üsyançıları məğlub etdi, *Topal Əhməd* öldürüldü.

XRONOLOJİ CƏDVƏL

VII - XIV əsrin 70-ci illəri – Qaraqoyunluların Van gölünün cənubunda məskunlaşması. Qaraqoyunlu tayfa ittifaqının möhkəmlənməsi. Bayram Xoca.
XIII əsr – Həsənoğlu Şeyx İzzəddin.
1201-1274 – Xacə Nəsrəddin Məhəmməd Tusi.
1203-1225 – Şirvanşah Güştasp.
1206-1227 – Çingiz xan.
1220-1222 – Monqolların Azərbaycana ilk yürüşü.
1221 – Atabəy Özbəylə gürcü çarı IV Georgi arasında monqollara qarşı hərbi ittifaqın bağlanması. Monqolların Muğandan Gürcüstana, Təbrizə hücumu.
1222 – Monqolların Şamaxıdan Dərbəndə yürüşü.

1223 – Monqolların Kalka çayı sahilində rus-qıpçaq qoşunlarına qalib gəlməsi. İdilboyunda bulqarlara məğlub olub Monqolustana qayıtması.
1223, 1225 – Qipçaqların və gürcü feodallarının Azərbaycan ərazilərinə hücumları.
1225-1231 – Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin hücumları.
1225, 25 iyul – Xarəzmşah Cəlaləddinin Təbrizi tutması.
1225-1243 – Şirvanşah III Fəribürz.
1231 – Sənətkar Bəndərin başçılığı ilə Gəncə üsyanı.
1231-1239 – Cormoğon noyonun başçılığı ilə monqolların Azərbaycana 2-ci yürüşü.
1235 – Gəncənin işğalı.
1239 – Dərbəndin işğalı ilə bütün Azərbaycanın monqollar tərəfindən tutulması.
1239-1256 – Azərbaycan və Cənubi Qafqazda Böyük Monqol imperatorluğunun canişinlərinin hakimiyyəti.
1243-1260 – Şirvanşah II Axsitan.
1253 – Böyük Monqol xaqanı Münkenin Ön Asiyaya qoşun göndərməsi.
1256 – Monqolların 3-cü yürüşü zamanı Azərbaycanın tabe edilməsi.
1258, fevral – Bağdadın tutulması ilə Abbasilər xilafətinin süqutu.
1258-1357 – Azərbaycanda V monqol ulusu-Hülakülar (Elxanilər) dövləti.
1259 – Marağada Nəsrəddin Tusinin rəhbərliyi ilə tikilmiş rəsədxana.
1263, 1265, 1288, 1290, 1318 – Qızıl Orda xanlarının Azərbaycana yürüşləri.
1287-1320 – Mahmud Şəbustəri.
1294 – Keyxatu xanın pul islahatı, kağız pul-çaonun buraxılması.
1295-1304 – Hülaku hökmdarı Qazan xan.

1297-1298 – Qazan xana qarşı Taycuoğlunun qiyamı.
1303 – Qazan xanın kəndlilərin yerini dəyişməsinin qadağan edən Fərmanı.
1305-1313 – Sultaniyyədə Olcaytu Xudabəndə türbəsi.
1316-1335 – Hülaku hökmdarı Sultan Əbu Səid.
1318, 1319, 1320, 1322, 1334 - Elxanilərə qarşı iğtişaşlar.
1319, 1325 – Əmir Çobanın Qızıl Ordaya uğurlu yürüşləri.
1319 – Yusif ibn Əhmədin hazırladığı və Londonda "Viktoriya və Albert" muzeyində saxlanılan bədii kasa.
1322 – Bərdə türbəsi.
1325-1390 – Əssar Təbrizi.
1335-1336 – Hülaku hökmdarı Arpa xan.
1335, 1357 – Azərbaycana Qızıl Ordalıların hücumları.
1340-1402 – Fəzlullah Nəimi.
1340 – Şeyx Həsən Cəlairi (Böyük Həsən). Bağdadda Cəlairilər dövlətinin təsisi.
1345-1372 – Şirvanşah Kavus.
1354-1374 – Cəlairi Şeyx Üveys.
1358, 1359, 1367 – Şeyx Üveysin Azərbaycana yürüşləri. Azərbaycanın Cəlairilər dövlətinin tərkibinə qatılması.
1364 – Şirvanda Cəlairilərə qarşı üsyan.
1367 – Şeyx Üveysin Şirvana yürüşü.
1369-1417 – İmadəddin Nəsimi.
1370-1388 – Ağqoyunluların başçısı Bayandur tayfasından Pəhləvan bəy.
1372-1382 – Şirvanşah Huşəng.
1374-1382 – Sultan Hüseyn.
1380-1389 – Qara Məhəmməd. Qaraqoyunlu tayfa ittifaqı hakimiyyətinin əsasının qoyulması.
1382-1410 – Sultan Əhməd.
1382-1417 – Şeyx İbrahim Dərbəndi (I İbrahim).
1385-86, 1392, 1399 – Əmir Teymurun Azərbaycana yürüşləri.

1385, 1387, 1394 – Qızıl Orda xanı Toxtamışın Azərbaycana yürüşləri.
1386 – I İbrahim və Teymurun Toxtamışa qarşı ittifaqı.
1386-1387 – Teymurun Şəkiyə yürüşü.
1387-1392 – Şəki hakimi Seydi Əlinin Oyrat Teymura itaət etmədiyi dövr.
1387-1392 –Təbrizin 17 dəfə hücuma məruz qalması.
1387, 1393, 1397, 1400 – Teymurun Əlincə qalasına yürüşləri.
1387, bahar – Teymurun Qaraqoyunlulara hücumu.
1388, may – Qaraqoyunluların Təbrizə daxil olması.
1388-1394 – Əlaəddin Turəli.
1389, aprel – Qara Məhəmməd və oğlu Bayramın Qara Pir Həsən tərəfindən qətlə yetirilməsi.
1390-1420 – Qara Yusif.
1392-1395 – Teymurun Şəkiyə yürüşü. Seydi Əlinin qaçması.
1392 – Qara Yusifin Pir Həsənə qalib gələrək Təbrizi tutması.
1392 – Teymurilərin Van şəhərini tutması.
1394 – Bağdad yaxınlığında Qaraqoyunlu və Cəlairilərin birləşmiş qüvvələri ilə döyüşdə Teymurilərin qələbəsi.
1394-1434 – Qara Yuluq Osman bəy.
1395 – Qaraqoyunlu tayfa ittifaqının dağılması.
1395 – Teymuri Miranşahın Şəkini talan etməsi.
1399-1412 – Misir hakimi Sultan Fərəc.
1399 – Əbdüləziz ibn Şərafəddinin düzəltdiyi və Sankt-Peterburqun Ermitaj Muzeyində saxlanılan tiyan.
XIII-XIV əsr – Sultaniyyə, Mahmudabad şəhərlərinin inşa edilməsi. Mərdəkan, Nardaran, Ramana, Ərk qalalarının inşası.
XIII-XIV əsr – Naxçıvanın Cuğa kəndi yaxınlığında tikilmiş Gülüstan türbəsi.
XIV əsrin əvvəlləri – Hülakü xanın arvadı Qutuy xatının şərəfinə türbənin inşası.
XIV əsr – Hürufilik.

XV əsr – Bakıda Şirvanşahlar saray kompleksi. "Bayıl daşları"nın tərtibatı, Mərdəkan qalasının kitabəsi və s.
1405-1447 – Teymuri Sultan Şahrux.
1405, yay – Gürcü çarı, Şəki və Ərdəbil hakimləri və Qaramanlı tayfasının müttəfiq qoşunlarının Teymuri Ömərin qoşununu məğlub etməsi.
1406, may – Şeyx I İbrahimin Təbrizə daxil olması.
1406 – Sultan Əhməd və Qara Yusifin Bağdadı, Təbrizi ələ keçirməsi.
1406, payız – I Şənbi-Qazanda Teymurilərlə Qara Yusif arasında döyüş. Qara Yusifin qalibiyyəti.
1408, 21 aprel – Sərdrud döyüşündə Qara Yusifin Miranşahı öldürməsi və Teymurilərin təslim olması.
1410, 30 avqust – II Şənbi-Qazan döyüşündə Qara Yusifin Cəlairi Sultan Əhmədi məğlub edib öldürməsi.
1410-1467 – Qaraqoyunlu dövləti.
1411 – Qara Yusifin oğlu Pirbudağı sultan elan etməsi.
1412, sonu – **1413, aprel** – Kür sahili döyüş. I İbrahim, 7 oğlu, qardaşı, məsləhətçiləri və Kaxetiya çarı II Konstantinin Qara Yusifə əsir düşməsi.
1417 – Şirvanşah I İbrahimin vəfat etməsi.
1417-1465 – Şirvanşah I Xəlilullah.
1420, 1429, 1435 – Teymuri Sultan Şahruxun Azərbaycana yürüşləri.
1420, 1422-1429, 1431-1435 – Qara Yusifin oğlu İsgəndərin hakimiyyət dövrləri.
1421, 1 avqust – Qara Yusifin oğulları İsgəndər və İsfəndiyarın Şahruxla Alaşkerd döyüşündə məğlub olmaları.
1427, 1434 – İsgəndərin Şirvana hücumları.
1429, 17-18 sentyabr – Teymuri Şahruxun Qaraqoyunlu İsgəndərlə Salmas döyüşləri.
1429-1431 – Qara Yusifin oğlu Əbu Səid.
1434-1444 – Əli bəy.

1435-1467 – Qara Yusifin kiçik oğlu Cahanşah.
1436, yaz – Cahanşahın Teymurilərin vassalı kimi Qaraqoyunlu dövlətinin hökmdarı elan edilməsi.
1444-1453 – Cahangir Mirzə.
1447 – Cahanşahın müstəqil siyasət yeritməsi.
1453-1457 – Cahanşahın İranı işğal etməsi.
1453-1478 – Uzun Həsən.
1458, iyun – Cahanşahın Heratı tutması.
1459, yanvar – Cahanşahın Əbu Səidlə Heratda müqavilə imzalaması.
1461 – II Mehmetin Trabzona hücumu. Qoyluhisar döyüşü.
1461, 26 oktyabr – Trabzonun Osmanlılar tərəfindən zəbt edilməsi.
1464, 1472 – Venesiya elçisi Katerino Zeno. Təbrizdə Osmanlılara qarşı hərbi ittifaqın bağlanması.
1465 – Qaraqoyunlu Cahanşahın əmri ilə Təbrizdə "Göy məscid"in inşası.
1465-1501 – Şirvanşah Fərrux Yasar.
1465 – Pirbudağın Cahanşah tərəfindən məğlub edilməsi və öldürülməsi.
1467, 10 noyabr – Muş döyüşü. Cahanşahın öldürülməsi.
1467 – Qaraqoyunlulara qarşı Siyavuşun (Sarvanqulu) başçılığı ilə Təbriz üsyanı. Üsyanın Qara İsgəndərin qızları Arayiş bəyim və Şahsaray bəyim tərəfindən yatırılması.
1467-1468 – Cahanşahın oğlu Həsənəli.
1468 – Uzun Həsənin Azərbaycanın cənubunu və Qarabağı tutması.
1468-1501/1503 – Ağqoyunlu dövləti.
1472-1473 – Ağqoyunlu - Osmanlı müharibəsi.
1473, 1 avqust – Malatya döyüşü. II Mehmetin məğlub olması.
1473, 11 avqust – Otluqbeli (Tərzincan) döyüşü. Ağqoyunluların məğlub olması.
1474-1477 – Uzun Həsənin Gürcüstana yürüşü.

1478-1490 – Yaqub Mirzə.
1483 – Ağqoyunlu Yaqub padşahın əmri ilə Təbrizdə "Həşt-behişt" saray kompleksinin inşası.
1484, yaz – Maku şəhərinin cənub-şərqindəki Sofi kəndində Qaraqoyunlu Topal Əhmədin başçılıq etdiyi kəndli çıxışları.
1496, yay – Gödək Əhmədin Azərbaycana hücumu. Sultaniyyə yaxınlığında Ağqoyunluları məğlub etməsi.
1496, sonu – Gödək Əhmədin Rüstəm Mirzəni əsir alması.
1497 – Ağqoyunlu Gödək Əhmədin hakimiyyəti.
1497-1503 – Sultan Murad.
1498-1500 – Sultan Əlvənd.
1499, sonu – Sultan Əlvəndin Təbrizi tutması.
1500, əvvəlləri – Təbriz yaxınlığında Əbhər sülh sazişi. Ağqoyunlu dövlətinin Murad və Əlvənd arasında bölünməsi.

V FƏSİL
AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ

Plan:

1. Səfəvilər dövlətinin yaranması və Azərbaycanın tarixində onun yeri.
2. XVI-XVII əsr Səfəvi-Osmanlı müharibələri və Azərbaycan.
3. XVI-XVII əsrlərdə Azərbaycan torpaqlarında sosial-iqtisadi və mədəni həyat.

1.Səfəvilər dövlətinin yaranması və Azərbaycanın tarixində onun yeri

Ağqoyunluların zəiflədiyi bir şəraitdə ölkədəki pərakəndəliyi aradan qaldırmaq və Azərbaycan torpaqlarını siyasi cəhətdən birləşdirmək zərurəti yaranmışdır. Səfəvilər xalqı öz tərəflərinə çəkmək üçün ədalətli qaydalar vəd edirdilər. Xalq şiəlik hərəkatina öz xilaskarı kimi baxır və Səfəvilərin hakimiyyət uğrunda mübərizəsinə yardımçı olurdu.

Görkəmli şərqşünas İ.P.Petruşevski Səfəvilərin tarixini dörd dövrə bölür:

I dövr – XIII əsrin sonlarından 1447-ci ilə qədər. Bu dövrdə Səfəvilər şiəliyi yayır, xalq kütlələrinin antifeodal hərəkatına başçılıq etməyə çalışırlar. Lakin bu dövrdə Səfəvilərin hakimiyyəti Ərdəbil mahalından kənara çıxmır.

II dövr – 1447-1501-ci illər. Bu dövrdə Səfəvilər özlərini müstəqil ruhani feodalları kimi təqdim edir və Azərbaycanın siyasi həyatında mühüm rol oynayırlar.

III dövr – 1501-1587-ci illər. Həmin illərdə Səfəvilərin hakimiyyəti yaranır, möhkəmlənir və onlar Azərbaycanın iqtisadi-siyasi və mədəni həyatında mühüm rol oynayırlar.

IV dövr – 1587-1736-cı illər. Bu dövrdə Səfəvi dövlətinin mərkəzi Təbrizdən İsfahana köçürülür. Dövlətin mahiyyəti dəyişilir.

Bu bölgü əsasında belə nəticəyə gəlmək olar ki, Səfəvilərin ***Ərdəbil hakimliyi dövrü 1501-ci ilə qədər, bütün Azərbaycanda hakimiyyət dövrü isə 1736-cı ilə qədər*** götürülməlidir. Göründüyü kimi, Səfəvilərin hakimiyyəti ***Ərdəbil*** dövründən başlanır. Həmin dövr ona görə maraq doğurur ki, bu kiçik ruhani feodallığı ***80 ildən artıq bir dövrdə Azərbaycan feodal dövlətlərinin istinadgahı olmaqla, onların birləşdirilməsində mühüm rol oynamışdır.*** Məhz Səfəvilərin ***Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılmasında rüşeym olmuşdur*** [8, s. 393-394].

Ərdəbil hakimliyi. ***XIII əsrdə*** monqolların işğal etdikləri ərazidə kortəbii ***sufi dərviş təriqəti (orden*** və ya ***məktəbi)*** yarandı. Onlardan biri ***Ərdəbil şəhərində*** yaranmışdır. Ordenin və şeyxlər sülaləsinin adı müqəddəs sayılan ***Şeyx Səfiəddin İshaq əl-Musəvi-əl-Ərdəbilinin (1252-1334)*** adı ilə bağlı idi. Səfəvilər Azərbaycanda və Şərq ölkələrində yaranmış ağır vəziyyətin səbəbini XIV-XV əsrlərdə bu yerlərdə hökm sürən sünnilik təriqətində görürdülər. Məhz buna görə də sünnilik əleyhinə ümumxalq mübarizəsi aparır və şiə tərəfdarlarının hakimiyyətə gəlməsi üçün şərait yaradırdılar. Səfəvilər müxtəlif vədlərlə xalq kütlələrini öz tərəflərinə çəkərək, hakimiyyət uğrunda mübarizəni genişləndirirdilər. Bu mübarizə Şeyx Səfiəddin İshaqdan sonra Səfəvilərin görkəmli başçıları ***Şeyx Cüneydin, Şeyx Heydərin, Şeyx Sultanəlinin, Şah İsmayılın (1487-1524)*** dövründə daha kəskin xarakter aldı və Səfəvi dövlətinin yaranması üçün lazımi şərait yarandı.

XV əsrin II yarısında ***Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları*** Səfəvilərin təsiri altına düşdü. Azərbaycanın cənubunda Qaraqoyunluda hökmranlıq edən Cahanşah ***Şeyx Cüneydin (1447-1460)*** Ərdəbildən çıxmasını tələb etdi. Cahanşahın köməyi ilə Ərdəbildə Səfəvi

təriqətinə Cüneydin əmisi ***Şeyx Cəfər (1449-1470)*** başçı oldu. ***1449-cu ildə*** Cüneyd Ərdəbili tərk etdi. O, Misir, Suriya və Mesopotamiyanı gəzib 7 ildən sonra ***1456-cı ildə*** 20 min müridlə Kiçik Asiyaya-Diyarbəkirə qayıtdı, Uzun Həsənlə bacısı ***Xədicə bəyimlə*** evlənərək qohum oldu. 4 ilə yaxın Diyarbəkirdə qaldı. ***1459-cu ildə*** Cüneyd Ərdəbilə qayıtmaq istədi, lakin Şeyx Cəfər onu Ərdəbilə buraxmadı. ***1460-cı ilin martında*** Cüneyd oradan Şirvana və Dağıstana yürüş etdi. Şirvanşah I Xəlilullah Cahanşahla ittifaqa girdi və Dərbənd yaxınlığında Səfəvi qoşununun qabağını kəsdi. ***Samur çayı*** sahilində döyüşdə Səfəvilər məğlub oldular, Şeyx Cüneyd öldürüldü. Müridlərin bir hissəsi Ərdəbilə qayıtdı. Cüneydin oğlu Şeyx Heydər dayısı Uzun Həsənin qızı Aləmşah xatınla evləndi. ***1470-ci ilin əvvəllərində*** Uzun Həsən ***Ərdəbilə*** gəldi və Şeyx Cəfəri qəyyum saxlamaqla ***Şeyx Heydəri (1460-1488)*** təntənəli surətdə irsi taxta oturtdu. ***Şeyx Heydərin*** vaxtında qızılbaşlar əvvəlki türkmən başlıqları əvəzinə 12 imamın şərəfinə başlarına ***12 qırmızı zolaqlı çalma*** qoyduqlarına görə onlara ***qızılbaşlar*** deyirdilər. Bu tədbirlər Şeyx Heydəri məşhurlaşdırdı. ***Şeyx Heydər*** Yaqub padşahın razılığı ilə ***1483-cü ildə Şirvana*** və ***Dağıstana*** yürüş etdi. Onun ***2-ci uğurlu yürüşü 1487-ci ildə*** oldu, bu Sultan Yaqubu qorxuya saldı. Ona görə də Sultan Yaqub Heydərin ***Şirvana 3-cü yürüşü (1488)*** zamanı Şarvanşah Fərrux Yasara kömək etdi, sərkərdəsi Süleyman bəy Bicanoğlunun komandanlığı ilə qızılbaşlarla döyüşə qoşun göndərdi. Şeyx Heydər cənuba-Tabasarana döndü. ***1488-ci il iyunun 9-da Şahdağın ətəyində*** baş verən qanlı döyüşdə hər iki tərəf xeyli itki verdi, Şeyx Heydər öldürüldü [8, s. 395]. Yaqub padşah Ərdəbili və Səfəvilərin başqa torpaqlarını işğal etdi. O, ***Şeyx Heydərin*** oğulları – ***Sultanəli, İbrahim*** və hələ 2 yaşlı ***İsmayılı*** anaları ilə birlikdə əsir aldı. Onlar 5 il *(1489-1493)* Şiraz yaxınlığındakı *İstərx* həbsxanasında qaldılar. Uzun Həsənin nəvəsi Rüstəm Mirzə şahzadələri həbsdən azad edib müstəqil hakim kimi Sultanəlini Ərdəbilə qaytardı. ***Əhər*** yaxınlığındakı dö-

yüşdə Rüstəm Mirzə və Sultanəlinin qoşunları Baysunquru məğlubiyyətə uğratdılar və özünü öldürdülər. Sultanəli qələbə ilə Təbrizə qayıtdı. Səfəvi tərəfdarlarının güclənməsindən qorxan Rüstəm Mirzə onlara qəsd təşkil etdi. Bundan xəbər tutan Sultanəli qardaşları və yaxın adamları ilə birlikdə Təbrizdən Ərdəbilə getdi. Rüstəm Mirzə onların ardınca 5 min süvari qoşünü göndərdi. ***1494-cü ildə*** döyüş başlanana qədər Sultanəli sufi əmirlərinin yığıncağında ***İsmayılı "Səfəviyyə"*** *ordeninin* başçısı kimi xəlifi təyin etdi. Qardaşlarını Ərdəbilə yola saldıqdan sonra düşmənə tərəf dönən Sultanəli ***Şəməsi*** adlanan yerdə məğlub olaraq öldürüldü. ***1494-1495-ci illərdə*** Rüstəm Mirzə yenidən ***Ərdəbili*** və Səfəvilərin digər mülklərini zəbt etdi. Eybə Sultan Ərdəbildə Səfəvilərin xeyli hissəsini qılıncdan keçirdi. Qızılbaş tərəfdarları şahzadələri xilas edib, İsmayılı ***Lahicana-Gilanın Biyəpiş*** vilayətinin hakimi, Kərkiyə sülaləsindən olan ***Mirzə Əlinin*** sarayına apardılar. Rüstəm Mirzə Kərkiyə Mirzə Əliyə hədələyici məktub göndərib İsmayılı tələb etdi. O, isə İsmayılı zənbildə sıx yarpaqlı ağacda gizlətdi və Qurana and içib onun Gilan torpağında olmamasını 300 süvari ilə gəlmiş Qasım bəyə bildirdi. ***İsmayıl*** *6 il (1494-1499)* Lahicanda qaldı. Rumdan, Qaracadağdan, Ərdəbildən İsmayılın yanına çoxlu tərəfdar gəlirdi.

1499-cu ilin avqustunda 13 yaşlı İsmayıl Lahicandan Ərdə-bilə yola düşdü. Onu Səfəvi sərkərdələri müşayiət edirdi. İsmayıl ilk növbədə ***Şirvanşahlar*** dövlətinə zərbə vurmaq istəyirdi, çünki Təbrizə hücum etsə ***3 düşmənlə – Ağqoyunlu Əlvənd Mirzə*** və ***Muradla,*** onları müdafiə edən ***Fərrux Yasarla*** toqquşmalı olardı. Bu halda qələbə şübhəli idi. ***1500-cü ilin payızında*** qızılbaş qoşunu Kürü keçib, ***Şirvan*** ərazisinə daxil oldu. Fərrux Yasar Şirvanı müdafiə etməkdə acizlik göstərərək Qəbələyə qaçdı. ***1500-cü ilin sonunda,*** Gülüstan qalasından bir qədər aralı, ***Cabani adlı yerdə*** döyüşdə Şirvanşahlar məğlub oldu, Fərrux Yasar öldürüldü. Döyüşdən sağ çıxan oğlu ***İbrahim Şeyx Şah*** isə Gilana qaçdı. Şirvanşahların xəzinəsi və möhtəşəm Şirvan-

şahlar sarayı Bakıda yerləşirdi. Qala (İçərişəhər) 4 tərəfdən qala divarları ilə əhatə edilmişdir: 3-ü dənizə, 1-i isə quruya çıxırdı. Qalanı dərin xəndəklər müdafiə edirdi. ***1501-ci ilin yazında*** İsmayıl Bakı qalasını ələ keçirmək üçün sərkərdələri ***Məhəmməd bəy Ustaclı*** və ***İlyas bəy Xunuslunu*** ora göndərdi. Onlar qalanın təslim olmasını tələb etdilər. Fərrux Yasarın oğlu ***Qazı bəy*** Şirvanın dağlıq yerlərində müqavimət göstərdiyi üçün qalanı onun arvadı müdafiə edirdi. O verilən təklifi rədd etdi, hətta, gələn elçiləri və şəhəri təslim etməyi məsləhət görən Bakı darğası Əbdül Fəttahı edam etdirdi. Müqaviməti görən İsmayıl ***1501-ci ilin yazında*** ən güclü sərkərdəsi ***Hadim bəyi*** Bakıya göndərdi. Sonda özü gəldi və onun əmri ilə qızılbaşlar qala divarlarının altından lağım atıb bürclərdən birini uçurtduqdan sonra şəhərə daxil oldular. Bakı tutulduqdan sonra ***İsmayıl Gülüstan qalasına*** hücumu davam etdirdi. Qala güclü müdafiə olunurdu. İsmayıl qoşunu geri çəkdi, çünki, o, Ağqoyunlu Əlvəndin Təbrizdən böyük qüvvə ilə yürüşə başlaması xəbərini almışdır. İsmayıl və əyanlar Təbriz taxtını Ağqoyunlulardan geri alıb Azərbaycanda öz hakimiyyətini qurmağı başlıca vəzifə hesab edirdilər. ***1501-ci ilin ortalarında Şərur düzündə*** Ağqoyunlularla Səfəvilər arasında həlledici döyüş oldu. Əlvənd həm sayca üstün olan qoşununun qaçmaması üçün, həm də dəvələri bir-birinə zəncirləyərək bir dairə yaradaraq qızılbaşları ora salıb əzmək istəyirdi, lakin bu tədbir özünə qarşı çevrildi. Ağqoyunlular məğlub oldular və Əlvənd Ərzincana qaçdı. Bundan sonra ***1501-ci ilin payızında İsmayıl (1501-1524)*** təntənə ilə ***Təbrizə*** daxil oldu və özünü ***şah*** elan etdi, adına xütbə oxutdurdu, sikkə zərb etdirdi və Azərbaycan taxt-tacına yiyələndi. Beləliklə, paytaxtı ***Təbriz*** olmaqla ***Azərbaycan Səfəvi dövlətinin (1501-1736)*** əsası qoyuldu. Əhalinin etnik çoxluğunu ***Azərbaycan türkləri*** təşkil edirdi. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. ***Ordu*** əsasən ***Azərbaycan tayfalarından*** təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmada ***Azər-***

baycan dili işlədilirdi [8, s. 403]. *1503-cü ilin yazında* Şah İsmayıl öz müridi Qənbər ağanı Muradın yanına göndərib Səfəvilərlə Ağqoyunluların qohum olduğunu xatırlatdı və tabe olmasını tələb etdi, əvəzində ona Əcəm İraqını vəd etdi, lakin rədd cavabı aldı. İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq Qızılüzən çayını keçdi və Həmədan yaxınlığında ***Almaqulağı*** adlı yerə çatdı. ***1503-cü il iyunun 21-də*** baş vermiş döyüşdə 70 minlik qoşunu olan Ağqoyunlular məğlub oldular. Şiraza qaçan Muradı Şah İsmayıl təqib edərək İranın içərilərinə doğru irəlilədi və ***Şirazı*** müqavimətsiz ələ keçirdi. Ağqoyunlu dövlətinin *2-ci qolu*na son qoyuldu. İsmayıl İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi. Həmin ildə Şah İsmayıl ***Qumu, Kaşanı*** və ***İsfahanı*** tutdu, ***1504-cü ildə Yəzdə*** və ***Kirmana*** yiyələndi, ***1508-1510-cu illərdə Xorasan istisna olmaqla,*** bütün ***İran*** və ***Ərəb İraqını*** tabe edərək öz hakimiyyəti altında birləşdirdi [3, s. 208]. ***Səfəvi dövləti şərqdə Şeybanilər dövləti, qərbdə isə Osmanlı imperiyası ilə həmsərhəd*** oldu. ***Xorasan 1507-1508-ci illərdə Şeybani xan*** tərəfindən ələ keçirilmişdir. O, İsmayıla məktub göndərdərərək tabe olmasını, hakimiyyətdən əl çəkməsini tələb etdi. ***Şah İsmayıl*** cavab olaraq ***Xorasana*** doğru hərəkət etdi. Şeybani xan Heratdan ***Mərvə*** çəkildi və Mərv qalasını möhkəmləndirib müdafiəyə hazırlaşdı. Şah İsmayıl 1 həftə uğursuz həmlədən sonra hiylə işlətdi-Şeybani xanın qoşununu qaladan çıxarıb döyüşü səhrada keçirmək üçün ağıllı taktika işlətdi. Hiyləni başa düşən özbək sərkərdələri Şeybani xanın Mərv qalasından çıxmasını məsləhət görmədilər, lakin Şeybani xan məsləhətə qulaq asmadı, qızılbaşları təqib edərək çayı keçdi və Şah İsmayılın əsas qüvvələri ilə üz-üzə gəldi. ***1510-cu il dekabrın 1-də*** baş vermiş bu döyüşdə 10 min nəfər özbək qoşunu qırıldı. Şeybani xan özü də öldürüldü. ***Amudəryadan Fərat çayına qədər*** geniş ərazi ***Şah İsmayılın hakimiyyəti*** altına keçdi.

2.XVI-XVII əsr Səfəvi-Osmanlı müharibələri və Azərbaycan

Səfəvi-Osmanlı münasibətləri. Osmanlı sultanı ***II Bayazid (1481-1512)*** Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etmədi, ***1504-cü ildə*** Səfəvi dövlətini tanımalı oldu. ***1512-ci ildə Şah I İsmayıl*** Kiçik Asiyada ***Qarahisar*** və ***Malatya*** şəhərlərinə yiyələndi. Sərkərdə Məhəmməd xan Ustaclı ***Diyarbəkir*** şəhərini tutdu və buradan Şah İsmayılın göstərişi ilə ***I Sultan Səlimə*** təhqiramiz məktub yazdı. ***I Sultan Səlim*** hərbi əməliyyata başlamazdan əvvəl bir sıra tədbirlər gördü – ***Böyük Moskva knyazlığı, Macarıstan, Venesiya, Moldaviya*** və ***Valaxiya*** ilə sülh müqavilələri bağladı. Qərbdə hərbi əməliyyatlar müvəqqəti olaraq dayandırıldı. Səfəvilərin uğurlarından xəbərdar olan Avropa diplomatiyası Şah İsmayılla hələ hakimiyyət başına keçməzdən əvvəl əlaqə yaratmışdır. Roma papası Almaniya, Fransa, İspaniya, Portuqaliya, Skandinaviya dövlətlərinin başçılarına məktublar yazaraq, Şah İsmayılın hərbi uğurlarını ***"Allahın xristian dünyası üçün yaratdığı bir fürsət"*** (Osmanlı imperatorluğuna qarşı) kimi qiymətləndirmiş və bundan dərhal istifadə etməyə çağırmışdı. Avropa diplomatları ***Səfəvi-Osmanlı*** münasibətlərini daim müharibə həddində saxlamaq üçün bu silahdan istifadə etməyi məsləhət görürdülər. Səfəvilərlə Avropa dövlətləri arasında əlaqələr qarşılıqlı idi. *1507-1508-ci illərdə Roma Papası* və *Venesiya* ilə qarşılıqlı əlaqə yaradıldı. *1510-cu ildə* Səfəvi diplomatı Əli bəy *İtaliyaya* getdi. Aralıq dənizi vasitəsilə qərbdən silah gətirtdirəcəyinə əmin olmayan şah ***Portuqaliya*** ilə əlaqəyə girib ***İran körfəzi*** və ***Hind okeanı*** vasitəsilə qərbdən ***silah*** və ***artilleriya mütəxəssisləri*** gətirməyə çalışdı. Məqsədinə çatmaq üçün Portuqaliyanın İran körfəzində möhkəmlənməsinə mane olmadı. Bundan istifadə edən ***Portuqaliya*** donanması ***Hörmüzü*** ələ keçirib Səfəvilərin Hind okeanına çıxış yolunu bağladı (gənc şahın bu səhvini düzəltmək üçün onun varisləri

100 ildən çox vaxt sərf etməli oldular). I Sultan Səlim ***1514-cü ilin yazında Ədirnədə*** fövqəladə divan çağırdı və məclisdə ***"qızılbaşlarla müharibə bütün müsəlmanların müqəddəs vəzifəsi"*** elan olundu. I Sultan Səlim 100 min nəfərlik avropasayağı təşkil olunmuş qoşuna baxış keçirdi. Onun topxanası da var idi. Qızılbaşların isə 40 min nəfər döyüşçüsü var idi. ***1514-cü ilin yazında*** I Sultan Səlim ***Çaysu*** çayını keçib ***Ərzincana*** daxil oldu. İsmayılın göstərişi ilə qızılbaşlar Azərbaycana geri çəkildilər. I Sultan Səlim Şah İsmayıla məktub göndərib döyüşə girmək niyyətində olduğunu bildirdi. Şah İsmayıl onu sultan və padşah kimi tanımadığını bildirdi. Sultan başa düşdü ki, I Şah İsmayılın geri çəkilməsi düşünülmüş taktikadır. İsmayıl qışa qədər döyüşü yubatmaq, qışda sultan qoşununun xeyli hissəsini aclıqdan ölümə düçar etmək fikrində idi. Sultan Səlim Şah İsmayılın döyüşə girməmək fikrini biləndən sonra ***Maku yaxınlığındakı Çaldıran düzünə*** doğru hərəkət etdi. Sərkədələrdən Məhəmməd xan Ustaclı və Nurəli Xəlifə Rumlu Osmanlılar üzərinə hücuma gecə keçməyi təklif edəndə Şah İsmayıl "Mən karvanbasan quldur deyiləm, qoy Allah bilən kimi olsun" - dedi [8, s. 407]. ***1514-cü il avqustun 23-də Çaldıran düzündə*** qanlı döyüş oldu [3, s. 212]. Üz-üzə gələn ordu ən ifrat din düşmənçiliyi ruhunda tərbiyə edilib bir-birinə qarşı qoyulan və şəhid olmağa hazır olan silahlı fanatiklər idilər. Çaldıran döyüşü tarixin ən qanlı qardaş qırğını, türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə qələbəsi oldu. Səfəvilər 3 min itki verdilər, yaralanmış Şah İsmayıl ordunun salamat qalan hissəsi ilə mühasirə həlqəsini yarıb, Təbrizə döğru çəkildi. ***I Sultan Səlim*** onu təqib etdi və ***sentyabrın 6-da Təbrizi*** tutdu, lakin Şah İsmayılın hiyləsindən ehtiyat edərək geri çəkildi. Çaldıran döyüşü nəticəsində ***Osmanlı dövləti Ərzurum şəhəri*** ilə birlikdə ***Şərqi Anadoluya*** və ***Şimali İraqa*** yiyələndi. ***Bağdad*** daxil olmaqla ***Ərəb İraqı Səfəvilərdə*** qaldı. *1514-1515-ci illərin qışını* Amasiyada keçirən I Sultan Səlim İstanbula doğru irəlilədi. Osmanlılar Ərzincanı işğal etdilər. Diya-

bəkir Səlimə təslim oldu. Şah İsmayıl şəhəri geri almaq üçün Qara xanı yürüşə göndərdi. Mühasirə bir ildən artıq davam etdi. ***1516-cı ilin əvvəllərində*** Mardinin cənubunda ***Qoçhisarda*** həlledici döyüş Osmanlıların qələbəsi ilə qurtardı. ***Şimalda Xarput və Bitlisdən Rakkiyə qədər, cənubda isə Mosul*** Osmanlıların əlinə keçdi. Təbriz alındıqdan sonra Osmanlılar burada 6 gün qala bildilər. Geri çəkilərkən bir neçə min sənətkar ailəsi İstanbula köçürüldü. I Sultan Səlimin Azərbaycanı zəbt etmək cəhdi baş tutmadı. Şah İsmayılın ölümündən sonra oğlu ***I Təhmasib (1524-1576)*** taxta çıxdı. Qızılbaş əmirləri artıq mərkəzi hakimiyyətə itaətdən boyun qaçırırdılar. Osmanlılar da bu vəziyyətdən istifadə etdilər***. I Sultan Süleyman Qanuninin (1520-1566)*** hakimiyyəti dövründə Azərbaycana ***4 yürüş*** edildi. ***1534-cü ilin*** yayında I Sultan Süleyman I dəfə 100 min nəfərlik qoşunla Azərbaycana yürüş etdi. Təbriz işğal olundu. Sərt qış, ərzaq çatışmamazlığı Osmanlıları şəhəri tərk etməyə vadar etdi. ***I Sultan Süleyman 1535-ci ilin yazında II dəfə Təbrizə*** yürüş etdi. Şah I Təhmasib şəhər əhalisini ölkənin içərilərinə köçürtdürdü, düşmən əlinə keçməmək üçün ot-ələfə od vurdurdu, mal-qara məhv edildi, şah özü isə ***Sultaniyyəyə*** çəkildi. Osmanlılar Təbrizə daxil oldular, lakin orada möhkəmlənə bilmədilər, aclıq və səfalət onları geri çəkilməyə məcbur etdi. Mövqeyini getdikcə möhkəmləndirən ***Şah I Təhmasib*** ölkənin vahid dövlətdə birləşdirilməsi prosesini davam etdirdi. 1501-ci ilin yazında Bakı qizilbaşlar tərəfindən tutulduqdan sonra Şirvanşahlar Səfəvilərdən asılı vəziyyətə düşmüşdür. Şirvanşah ***II Xəlilullahın (1524-1535)*** dövründə Şirvan hələ də Səfəvilərdən asılı idi. ***1535-ci ildə*** II Xəlilullahın ölümündən sonra Şirvan əyanları onun yaxın qohumu Şeyxşahın oğlu ***Şahruxu (1535-1538)*** taxta çıxardılar. Şahruxun gəncliyindən istifadə edən əyanlar Hüseyn bəy başda olmaqla hakimiyyəti əllərində cəmləşdirdilər. *1537-ci ilin sonlarında* Şirvanda özünü Şivanşahın qardaşı Məhəmməd Amin kimi tanıdan ***Kələntərin*** başçılığı ilə ***üsyan*** qalxdı. Üsyançılar Sal-

yan və Şamaxını ələ keçirdilər. Şahrux saray əyanları ilə birlikdə Buğurd qalasına qaçdı, lakin Salyan yaxınlığında Şirvan qoşunu üsyançıları darmadağın etdi. ***I Təhmasib*** *1538-ci ilin yayında* başda qardaşı ***Əlqas Mirzə*** olmaqla 20 minlik qoşunu, habelə Qarabağ və Muğandan yığılmış dəstələri ***Şirvana*** göndərdi. *4 aylıq* mühasirədən sonra ***Buğurd qalası*** tabe edildi. Şahrux Təbrizdə gizli edam edildi. Şirvan ərazisi bəylərbəyiliyə çevrilərək Səfəvi dövlətinin tərkibinə qatıldı. I Təhmasib Şirvanı idarə etmək üçün ***Əlqas Mirzəni bəylərbəyi*** təyin etdi. Əlqas Mirzə özünü müstəqil hakim elan etməyi qərara aldı və *1547-ci ilin əvvəllərində* Səfəvi hakimiyyətinə qarşı qiyam qaldırdı [10, s. 386]. Krım xanı ***Sahib Gərayın*** köməyinə baxmayaraq, Əlqas Mirzə məğlub olub ***İstanbula*** qaçdı. Şirvan ***2-ci dəfə*** *I Təhmasibin* ***yürüşünə*** məruz qaldı. Onun oğlu ***İsmayıl Mirzə*** Şirvana bəylərbəyi təyin edildi. O, *1547-1554-cü illərdə* Şirvanda ***3 feodal qiyamını*** qətiyyətlə yatırdı. ***1548-ci ildə I Sultan Süleyman 3-cü dəfə Azərbaycana*** yürüş etdi və ***Təbrizi*** tutdu. Sonralar I Təhmasib öz paytaxtını Qəzvin şəhərinə köçürdü. Sultan qoşunlarının hərəkətini Azərbaycanda çətinləşdirmək üçün I Təhmasibin əmri ilə Təbrizə qədər bütün yerlər xarabazarlığa çevrilmişdir. Ələ keçəcək bir çəngə ot belə qalmamışdır. Əhali kəhrizləri doldurur, ərzağı gizlədirdi. Osmanlılar böyük tələfatdan sonra Vana çəkildilər. Qızılbaşlar hər dəfə "yandırılmış torpaq" taktikasından istifadə edərək Osmanlı ordusunu işğal etdiyi əraziləri tərk etməyə vadar edirdilər. Osmanlılar tərəfindən vuruşan ***Əlqas Mirzənin*** qoşunu Həmədan tərəfdə darmadağın edildi, özü isə ömürlük ***Qəhqəhə qalasında*** zindana salındı və *1549-cu ildə* öldürüldü. Abdulla xan Ustaclı Şirvan bəylərbəyi təyin edildi. 1547-ci ildə Şirvanda ***Bürhan Əli Mirzənin*** başçılığı altında baş vermiş qiyam ***1549-cu ildə Əlişaban*** adlı yerdə döyüşdə Abdulla xan tərəfindən darmadağın edildi. Müstəqil olan Şəki hakimiyyətinin tənəzzülü Səfəvilər dövrünə təsadüf edirdi. Şah I Təhmasib ***1538-ci ildə Şirvana*** yürüş edəndə Şəki hakimi Dər-

viş Məhəmməd xan Buğurd qalasına sığınan Şahruxa köməyə gəldi. ***1551-ci ildə I Təhmasib*** Şəkinin müstəqilliyinə son qoydu. Azərbaycan ərazilərinin birləşdirilməsini başa çatdırdıqdan sonra ***1552-ci ilin yayında*** I Təhmasib Osmanlılara qarşı ***4 istiqamətdə*** yürüşə başladı. ***Hilat qalası, Van ərazisi, Bitlis, Vostan, Ərçis*** yerlə yeksan edildi. ***1554-cü ilin yazında I Sultan Süleyman 4-cü dəfə Azərbaycana*** hücum etdi, lakin ərzaq qıtlığından Naxçıvanı tərk edib Ərzuruma çəkildi. Onları təqib edən qızılbaşlar Osmanlı ərazisinə daxil oldular. I Sultan Süleyman Osmanlıların tərəfinə keçmiş ***Qasım Mirzəyə*** kömək üçün Krım türklərindən ibarət süvari dəstə göndərdi. Osmanlılar Şirvana yenidən hücum etdilər, lakin məğlub oldular. Şirvan bəylərbəyi ***Abdulla xan*** Qasım Mirzənin tərəfdarlarını əzdi. Qasım Mirzə Dağıstana qaçdı. Sultan Süleyman Səfəvilərlə danışıqlara başlamağı lazım bildi. ***1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibələrinin 1-ci mərhələsini*** başa çatdıran sülh müqaviləsi imzalandı-***Qərbi Gürcüstan Osmanlıların, Gürcüstanın şərq vilayətləri Səfəvilərin ixtiyarına*** keçdi. Lakin XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı [3, s. 225].

Səfəvi dövləti XVI əsrin 2-ci yarısı – XVII əsrin 1-ci yarısında. ***1576-cı ilin mayında I Təhmasibin*** vəfatından sonra hərbi feodallar arasında çəkişmələr yenidən başlandı. Şahın oğulları ***Məhəmməd Mirzə, İsmayıl Mirzə*** və ***Heydər Mirzə*** arasında taxt-tac üstündə mübarizə qızışdı. İsmayıl Mirzə bu mübarizədə qalib gələrək, ***II İsmayıl (1576-1577)*** adı ilə özünü şah elan etdi. Lakin saray çevrilişi nəticəsində ***İsmayıl Mirzə 1577-ci ildə*** öldürüldü. Ölkədə ikihakimiyyətlilik yarandı. Qəzvində I Təhmasibin qızı ***Pərixan xanım*** hakimiyyəti ələ aldı. Qızılbaş əmirləri Pərixan xanımı tərk edib, Məhəmməd Mirzənin tərəfinə keçdilər. ***1578-ci il fevralın 13-də*** Məhəmməd Mirzə (Xudabəndə) Qəzvində müqavimətsiz taxta sahib oldu. ***Məhəmməd Xudabəndə (1578-1587) Pərixan xanımı*** edam etdirdi, arvadı ***Məhdi***

Ulya isə ***"dövlət işlərini"*** öz əlinə aldı. O, ali divanın ***vəkili*** vəzifəsinə qədər yüksəldi. Əslində ölkə qızılbaş tayfaları arasında bölünmüşdür. ***Məhəmməd Xudabəndinin*** yalnız şahlıq adı qalmışdır. ***1577-ci ildə*** Van hakimi Xosrov paşa Səfəvilərə qarşı *kürd tayfalarının qiyamını* təşkil etdi. O, ***1555-ci il sülhünü*** pozaraq, kürdlərlə birlikdə Xoy üzərinə hücum etdi. Xoy və Salmas hakimi Mahmud Sultan Rumlu üsyançılara qarşı inadla müqavimət göstərdi, lakin həlak oldu. ***Xoy, Salmas, Urmiya*** üsyançı kürdlərin əlinə keçdi. Sultan ***III Murad (1575-1595)*** yaranmış vəziyyətdən istifadə etdi. Osmanlı ordusunun baş komandanı ***Mustafa Lələ paşa*** Ərzuruma 100 min nəfərlik qoşun topladı. Sultan vassalı Krım xanı ***II Məhəmməd Gəraydan (1577-1584)*** bu yürüşdə iştirak etməyi tələb etdi. Mustafa Lələ paşa Qars qalasını bərpa etdirib, oraya qoşun yeritdi. ***1578-ci il avqustun 9-da Çıldır döyüşündə*** qızılbaşlar məğlub oldular [3, s. 228]. Mustafa Lələ paşanın göndərdiyi 20-30 min nəfərlik qoşun hissələri ***Ahalsıxı*** ələ keçirib ***Kaxetiyaya*** daxil oldular. Səfəvi ordusunun rəhbərliyində birliyin olmaması, qızılbaş əmirlərinin həddindən artıq özlərinə arxayın olmaları, Osmanlılarla döyüşə o qədər də əhəmiyyət verməmələri, qüvvələr fərqi – bütün bunlar nəticədə ***Çıldır döyüşündə*** məğlubiyyətə gətirib çıxartdı. Çıldır döyüşündən sonra Mustafa Lələ Paşa ***Şirvanı, 1578-ci ilin avqustunda Tiflisi,*** az sonra ***Qorini*** tutdu. ***1578-ci il sentyabrında Qanıx (Alazan) çayı*** sahilindəki döyüşdə Osmanlı ordusu böyük itki verdi. Səfəvi ordusu ***Qarabağa***, oradan da ***Təbrizə*** qayıtdı. Mustafa Lələ paşa ***sentyabrın ortasında Ərəşə*** daxil oldu. Osmanlı ordusu ***Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad*** və ***Salyanı*** müqavimətsiz tutdu. ***1578-ci ilin sentyabrında*** Məhəmməd Xudabəndənin oğlu ***Həmzə Mirzə*** 30 minlik qoşunla Qarabağa gəldi, əmirlərin və vəzir Mirzə Salmanın qoşunları ilə birləşərək Şamaxı qalasında ***Osman paşanı*** mühasirəyə aldılar. ***1578-ci il noyabrın 28-də*** Krım xanı Adil Gərayın 12 minlik qoşunu məğlub oldu və Adil Gəray əsir alındı. Mirzə Salman

qoşunla təcili Şamaxıya yürüş etdi. Osman paşa Dərbəndə qaçdı. Şirvan Osmanlılardan azad olsa da, Dərbənd tutulmadı. Səfəvilər Şirvanı Osmanlılara güzəştə vermək istəmirdilər. ***1580-ci ilin əvvəllərində*** qızılbaş qoşunu Təbrizdən Şirvana hərəkət etdi. Osmanlı ordusunun komandanı ***Sinan paşa*** Ərzurumdan Səfəvi sarayına hədələyici məktubla elçi göndərdi. Şahrux xan möhrdar Sinan paşanın iddialarına sərt cavab verdi. Sinan paşanın təklifi ilə həmin qış hərə öz yerində qaldı, lakin Şirvan Krım türklərinin ***3-cü basqınına*** məruz qaldı. ***Osman paşa*** Krım türklərinin köməyi ilə ***Bakıya*** daxil oldu. Məhəmməd Xudabəndə təcili əmirləri qoşunla Mollahəsənli qəsəbəsinə göndərdi. Osmanlılar geri çəkildilər və Dərbənddə möhkəmləndilər. ***1581-ci ilin yazında*** Qazı Gəray və Səfi Gərayın rəhbərliyi ilə ***Krım türkləri 4-cü dəfə*** Şirvana hücum etdilər. *İmamqulu xan Qacar* qızılbaş dəstəsini Şirvan hakimi Peykər xanın köməyinə göndərdi. Şamaxı ilə Şabran arasında baş vermiş döyüşdə Qazı Gəray əsir alındı, Krım türklərinin və Osmanlıların birləşmiş qoşunları məğlub oldular. ***1582-ci ilin əvvəllərində Sinan paşa*** sülh bağlamaq məqsədi ilə Səfəvi səfiri ***İbrahim xan Tərxanla*** birlikdə Ərzurumdan İstanbula gəldi. Lakin Qızılbaş əmirləri bildirdilər ki, Şirvanı heç bir vəchlə güzəştə getməyəcəklər. Əgər sultan ***1555-ci il sülhünün*** şərtlərinə razı deyilsə, onda müharibəni davam etdirəcəklər. ***Sultan III Murad 1582-ci ildə*** sülh danışıqlarına başlamış Sinan paşanı vəzifəsindən azad edib, Fərhad paşanı Şərqə yürüşə ordu komandanı təyin etdi. Qarabağdan Xorasana yürüş etdikdən sonra qızılbaş əmirlərinin Şirvana qayıda bilməməsindən istifadə edən Osman paşa yenidən Dərbənddən Şamaxıya hücum etdi. Şirvanda Osmanlı hakimiyyəti bərpa edildi. ***1583-cü ilin yazında*** Qarabağ hakimi İmamqulu xan Qacar yeni qüvvə ilə Kürü keçib Şirvana daxil oldu. O, Rüstəm xanı öz dəstəsi ilə Osmanlılara qarşı döyüşə göndərdi. Bu döyüşdə Osmanlılar darmadağın edildilər. *Samur çayı sahilində* ***1583-cü ildə*** tarixdə ***"Məşəl savaşı"*** adlanan döyüş isə Osmanlı qüvvələrinin

üstünlüyü ilə qurtardı, qızılbaşlar meydanı tərk etdilər [8, s. 432]. ***1585-ci il avqustun 12-də*** Osmanlı qoşunu ***Pasinabad-Çaldıran-Xoy-Mərənd-Sufiyan-Təbriz istiqamətində*** yürüşə başladı. Məhəmməd Xudabəndə oğlu *Həmzə Mirzənin* başçılığı altında onlara qarşı 20 min nəfərlik qoşun göndərdi. ***1585-ci ilin sentyabrında*** Məhəmməd xan Toxmağın başçılığı ilə qızılbaşların əsas dəstələri ***Sufiyan*** ərazisində döyüşdə Osmanlılara ağır zərbə vursalar da, onların sayca üstünlüyü qızılbaşları geri çəkilməyə məcbur etdi. Bir gün sonra Osman paşa Təbriz üzərinə hücuma başladı. Müdafiəsiz qalan ***Təbriz*** təslim oldu. Osman paşa bir aydan artıq Təbrizdə qaldı. ***1586-1589-cu illərdə*** tədricən bütün Azərbaycan ***Sultan III Muradın*** ordusu tərəfindən işğal olundu. Səfəvilər dövləti ərazinin qalan hissəsini itirməmək üçün ***1590-cı ildə*** ağır şərtlərlə nəticələnən ***İstanbul sülh müqaviləsini*** imzaladı. Azərbaycan (Qaradağ, Ərdəbil və Talış vilayətlər istisna olmaqla), Cənubi Qafqaz əraziləri və İranın bəzi qərb vilayətləri Osmanlı imperiyasının tərkibinə daxil edildi [3, s. 232].

I Şah Abbasın (1587-1629) islahatları. ***I Şah Abbas*** hələ *1581-ci ildə* qiyam qaldıran *Şamlı əmirləri* tərəfindən Heratda şah elan edilmişdir. Bu zaman Qəzvində hakimiyyət faktiki *olaraq Həmzə Mirzənin* əlində idi. Həmzə Mirzənin mərkəzi idarəçiliyi öz əlində cəmləşdirməsindən qızılbaş əmirləri narazı idilər və onlar şahzadəni anası *Məhdi Ulya* kimi sui-qəsd nəticəsində öldürdülər. Sarayda özbaşınalıq hökm sürürdü. ***1587-ci ildə*** Mürşüdqulu xan, xüsusilə Ustaclı və Şamlı tayfalarından qızılbaşların Xorasan qrupu ***Qəzvində 16 yaşlı Abbası*** rəsmi olaraq ***şah*** elan etdilər. Bu vaxta qədər Qarabağ, Ərdəbil, Lənkəran istisna olmaqla, Azərbaycanın bütün vilayətləri Osmanlılar tərəfindən tutulmuşdur. XVI əsrdə feodal zümrəsinin daxilində 2 qrup - ***Azərbaycan (türk)*** və ***fars (İran)*** etnik ünsürlərini təmsil edən qruplar bir-biri ilə mübarizə aparırdılar. Ümumən, fars etnik ünsürü 2-ci dərəcəli hesab olunurdu. Kəndlilərdən, sənətkar-

lardan həddindən artıq toplanan vergi və mükəlləfiyyətlər əhalinin narazılığına səbəb olurdu və dövlətin bünövrəsini laxladırdı. *1578-1590-cı illərdə Səfəvi-Osmanlı müharibələrində* ağır məğlubiyyətə uğramış Səfəvi dövlətinin keçmiş qüdrətini bərpa etməkdən ötrü ***I Şah Abbas*** hakimiyyətə gələndən sonra hərbi-köçmə qızılbaş əyanlarının müqavimətini qırdı və ***hərbi-inzibati islahatlar*** keçirdi. O, 44 min nəfərlik güclü nizami ordu yaratdı. Azərbaycan türklərindən ibarət qızılbaş süvari dəstələri yenidən təşkil olundu. Qızılbaşların təkbaşına silah gəzdirmək hüquqları ləğv edildi. Başqa tayfalara da qoşuna daxil olmaq hüququ verildi. Şah Abbas qoşunu demək olar ki, tayfa müxtəlifliyi prinsipi əsasında yenidən təşkil etdi. Müxtəlif dərəcəli qoşun növləri yaratdı:

1. ***Qızılbaşlar***-süvarilərdir, sayı 200 min nəfər, yalnız 60 min nəfəri döyüşə gedirdi.

2. ***Qulamlar***-xüsusi qvardiyadır-gürcü, çərkəz, osetin və b. xristian ailələrinin zorla islamlaşdırılıb sarayda xüsusi rejimlə tərbiyə olunan uşaqlarından təşkil olunurdu. Onlardan görkəmli sərkərdələr çıxırdı.

3.***Tüfəngçilər***-yoxsul təbəqədən seçilirdi, sayı 12 min nəfərə çatırdı.

4.***Artilleriya***-topçulardan ibarət idi. I Şah Abbasın 500 səhra topu vardı [8, s. 462-463].

1598-ci ildə paytaxtın Qəzvindən ***İsfahana*** köçürülməsi nəticəsində bura Qarabağdan, Qəzvindən çoxlu Azərbaycan türkləri köçürüldü. Burada onlar üçün və Şah Abbasın şərəfinə ***"Abbasabad"*** adlı xüsusi məhəllə salındı. Qızılbaşlar Səfəvi imperiyasının idarə olunmasında xüsusi yer tuturdular. ***Azərbaycan dili*** orduda və şah sarayında üstünlük təşkil edirdi. Səfəvi şahları və saray xidmətçiləri Azərbaycan dilində danışırdılar. Ölkə daxilində siyasi sabitlik bərpa edildi. Məhsuldar qüvvələr canlandı. Dövlət iqtisadi və hərbi-siyasi baxımdan möhkəmləndi. Beləliklə, Şah Abbasın islahatları nəticəsində mərkəzi hakimiyyət xeyli

qüvvətləndi və dövlətin keçmiş qüdrəti bərpa edildi. O, Azərbaycan dövlətinin müstəqillik ənənlərini qoruyub saxlamaqla mərkəzi aparatı möhkəmləndirdi, İngiltərə, Fransa, İspaniya, Roma papası, Rusiya ilə diplomatik əlaqələr yaratmaq məqsədi ilə danışıqlara başladı.

Səfəvi-Osmanlı müharibəsinin II mərhələsi 1590-cı il İstanbul sülh müqaviləsi ilə qurtardı. Sülh müqaviləsi Azərbaycan torpaqlarını Səfəvi və Osmanlı dövlətləri arasında böldü: ***Şirvan, Qarabağ, Təbriz, Sərab, Marağa və onların qərbində yerləşən digər torpaqlar Osmanlıların hakimiyyəti*** altına düşdü, ***Xalxal, Ərdəbil, Qaracadağ və Lənkəran Səfəvilərin*** əlində qaldı. Azərbaycan torpaqları ilə yanaşı, Səfəvi imperiyasına daxil olan ***Şərqi Gürcüstan***, habelə ***İranın qərb vilayətləri*** də ***Osmanlı imperatorluğunun tərkibinə*** qatıldı. Azərbaycanın cənub-şərq vilayətləri Qəzvinə tabe idi. Ərdəbil xüsusi idarəetmə hüququ daşıyırdı. 1593-cü ildən qızılbaşlara tabe edilən Azərbaycanın ***Zəncan, Xalxal, Ərdəbil, Qaracadağ, Qızılağac, Lənkəran vilayətləri, Qızılüzən və Kür çayları arasında yerləşən geniş ərazilər vahid Azərbaycan bəylərbəyiliyində*** birləşdirildi. *1595-ci ilə qədər* bəylərbəyiliyin qoşunu *10 min* idi və *Azərbaycan qoşunu* adlanırdı. XVI əsrin sonuna yaxın Səfəvi dövlətinin qarşısında ***3 vacib məsələ*** dururdu: 1*) şimal-şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün Şeybanilər dövlətini əzmək və Xorasanı geri almaq; 2) 1578-1590-cı illərin müharibələrində Osmanlılar tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarını geri qaytarmaq; 3) İran körfəzində Portuqaliyanın hegemonluğuna son qoymaq və Hind okeanına çıxış əldə etmək.*

I Şah Abbas ***1599-cu ildə*** Şeybaniləri məğlub etdi və Xorasanı yenidən Səfəvi dövlətinin tərkibinə qaytardı, öz təsirini Mavəraənnəhrə yaydı. Avropa dövlətləri Səfəvilərin Osmanlı imperatoluğu ilə toqquşmasına maraq göstərirdilər. Osmanlıların Azərbaycandan çıxarılmasında Rusiya da maraqlı idi, çünki Osmanlılar Azərbaycanın Xəzəryanı bölgələrini əldə saxlayır, bu

da Volqa-Xəzər yolu ilə ticarətdə müəyyən əngəl törədirdi. ***1603-cü il sentyabrın 14-də I Şah Abbas*** Azərbaycana yürüşə başladı. ***1603-cü il oktyabrın 21-də Təbriz*** tutuldu. Səfəvi ordusu Azərbaycanın şimalına doğru hərəkət etdi. Ordubad əhalisi Osmanlılara qarşı üsyan qaldırmışdır. Ordubadlı ***Hacı Qəssab*** şahın göstərişinə əsasən əhalinin köməyi ilə ***Ordubad qalasını*** tutdu. ***I Şah Abbas*** tərəfindən ***Culfa*** və ***Naxçıvan*** tutulduqdan sonra *1603-cü ilin 16 noyabrında* ***İrəvan qalası*** mühasirəyə alındı və ***1604-cü ilin 8 iyununda*** tutuldu [3, s. 279-280]. İrəvanın idarə edilməsi *Əmirgünə xan Qacara*, Naxçıvan isə *Maqsud Sultan Kəngərliyə* tapşırıldı. I Şah Abbas Osmanlı qoşununa qarşı ənənəvi ***"yandırılmış torpaq"*** taktikasını tətbiq etdi: Arazın sol sahili – yaşayış məntəqələri dağıdıldı, daşınması mümkün olmayan hər şey məhv edildi. Əhali zorla İsfahana, Mazandarana və b. vilayətlərə köçürüldü. Bu ***köçürmə*** tədbiri tarixşünaslıqda ***"böyük sürgün"*** adını aldı [3, s. 279-280]. Culfa tranzit ticarət yolundan Avropaya gedən karvan yolu Osmanlı imperatorluğundan keçirdi. Ona görə də ***I Şah Abbas*** Avropa-Asiya ipək ticarəti yolunu cənuba, İran körfəzi limanlarına köçürmək və qızılbaş ipəyini Afrika ətrafından dənizlə Avropaya daşımağı qərara aldı. Məhz İran-ingilis tacirlərinin mənafeyi üçün *Culfa əhalsi İsfahana, Naxçıvan əhalisi isə Dizağa (Qarabağa)* köçürüldü. Naxçıvan və İrəvan talan edildiyindən, Osmanlı qoşunu qışlamaq üçün Vana qayıtmağa məcbur oldu. ***1605-ci ilin yazında*** Şirvanın xeyli hissəsini Səfəvi və gürcü birləşmiş qüvvələri tutdular. I Şah Abbas Vanda olan türk qüvvələrini dəf etmək üçün Təbrizdə yeni qala tikdirdi. ***1605-ci ildə*** Allahverdi xanın başçılığı ilə ***Vana*** 30 minlik qoşun göndərdi. Osmanlılar darmadağın edildilər. I Şah Abbas Osmanlıların yeni hücumlarını dəf etmək üçün onların yolu üzərindəki bütün yaşayış məntəqələrinin dağıdılmasını, sakinlərinin uzağa köçürülməsini, ərzağın, alafın, yanacağın yandırılmasını əmr etdi. Osmanlı paşası ***Ciğaloğlu 1605-ci ilin mayında II dəfə Azərbaycana*** daxil oldu. ***1605-ci ilin 16 noyab-***

rındakı döyüşdə sayca üstün olan Osmanlılar məğlub oldular [3, s. 281]. ***I Şah Abbas*** *1605-1606-cı ilin* sərt qışında Gəncəni 4 ay mühasirədə saxladıqdan sonra ***1606-cı ilin 5 iyulunda Gəncə*** tutuldu [3, s. 282]. Müharibələr nəticəsində əkib-becərmək mümkün deyildi və I Şah Abbas qoşunu ərzaqla təmin etmək üçün Qarabağa başqa yerlərdən 20 min xalvar (7 min ton) taxıl gətirilməsi barədə Fərman verdi. I Şah Abbas Şirvanın və Dağıstanın tutulması ilə Qafqaz əməliyyatını mümkün qədər tez başa çatdırmağa çalışırdı, ona görə də sülh yolu ilə Şamaxını təhvil verməyi təklif etdi, lakin bu təslim təklifi Şirvan bəylərbəyi Əhməd paşa tərəfindən rədd edildi. ***1607-ci ilin iyununda Şirvan*** Osmanlılardan azad edildi, Zülfüqar xan Şirvana, Çıraq Sultan Ustaclı isə Dərbənd və Şabrana hakim təyin edildilər.

Səfəvi-Osmanlı müharibələrinin nəticələri. 1607-ci ilin yanvarında Bakıda Osmanlılar əleyhinə üsyan baş verdi. Şah bu münasibətlə Osmanlılardan ələ keçirdiyi qənimətləri üsyançılara verdi. ***1607-ci il martın əvvəllərində*** Osmanlıların əlində olan ***Dərbənd qalası*** əhali tərəfindən tutuldu və I Şah Abbas onları bütün vergilərdən azad etdi. Beləliklə, *1603-1612-ci illərin Səfəvi-Osmanlı müharibələrinin I mərhələsi Səfəvilərin tam qələbəsi ilə başa çatdı. Bütün Azərbaycan, Şərqi Gürcüstan, qismən də Dağıstan yenidən Səfəvi dövlətinin tərkibinə* qatıldı. ***1612-ci il oktyabrın 17-də İstanbul şəhərində*** Osmanlı dövləti ilə müqavilə bağlandı – ***1555-ci ilin sülhü*** bərpa edildi. Lakin Osmanlılar bir sıra şərtlər irəli sürdülər **–** ***Səfəvilər rusların tikdiyi Terek (Tərki) qalasının dağıdılması barədə sultanın əmrinə mane olmamalı idilər.*** Bu, Səfəvi və Rusiya ittifaqına mane olmaq üçün irəli sürülürdü. ***Osmanlı dövləti Azərbaycanın, Şərqi Gürcüstanın, habelə Şərqi Anadolunun Səfəvi dövlətinə mənsub olmasını rəsmən tanıdı.*** Lakin tezliklə, 1612-ci il sülhü pozuldu. I Şah Abbas ***1613-cü ilin oktyabrında*** Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüşə başladı. Sultan I Əhməd də ***1616-cı ilin yazında*** yenidən Səfəvilərlə müharibəyə başladı [3,

s. 285]. Osmanlı Ordusu Təbrizə hücum etdi, İrəvanı mühasirəyə aldı, lakin sərt qış, xəstəlik və ərzaq qıtlığı onları geri çəkilməyə məcbur etdi. ***1618-ci ilin mayında*** Osmanlılar Diyarbəkirdən Azərbaycana yürüş etdilər. Osmanlılarla birlikdə Krım xanı Gəray xanın başçılığı altında 15 minlik Krım türk qoşunu da hərəkət etdi. ***1618-ci ilin sentyabrın 10-da*** Sərab vilayətində ***Sınıq körpü*** adlı yerdə döyüş baş verdi. Osmanlılar ağır zərbə aldılar və sülh danışığına başladılar. ***1618-ci ilin 26 sentyabrında Mərənddə I Şah Abbasla Osmanlı Xəlil paşa*** arasında sülh müqaviləsi imzalandı. Mərənd sülhü tezliklə Səfəvilər tərəfindən pozuldu. I Şah Abbas ***1622-1623-cü illərdə*** Bağdadla birlikdə İraqı ələ keçirdi.

I Şah Abbasın ölümündən sonra hakimiyyətə gələn nəvəsi ***I Şah Səfi (1629-1642)*** Səfəvi Rüstəm xanı Azərbaycan bəylərbəyi və Təbrizin hakimi təyin etdi. ***1634-cü il avqustun 20-də Sultan IV Murad*** böyük qoşunla hücum edərək ***İrəvanı*** və ***sentyabrın 11-də Təbrizi*** ələ keçirdi. Lakin ərzağın və yemin çatışmaması, qışın yaxınlaşması, Səfəvi qoşununun hücum təhlükəsi Osmanlıları Təbrizdən çıxmağa məcbur etdi. Şah Səfi *1635-ci ilin 2 aprelində* İrəvan qalasını azad etdi. *1637-1638-ci illərdə* Səfəvi-Osmanlı müharibəsi İraqda davam etdi. ***1638-ci ilin 25 dekabrında Bağdad*** tutuldu. ***1639-cu il mayın 17-də Qəsri-Şirində*** Səfəvi elçisi Sarı xan Osmanlı nümayəndəsi Qara Mustafa paşa ilə ***1555-ci il Amasiya sülhünün*** şərtlərini təsdiq edən sülh müqaviləsini imzaladı [3, s. 288]. Sazişə görə *Ərəb İraqı Osmanlılara, Zəncir qalasından şərqdəki torpaqlar isə Səfəvilərə verildi. Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsıxa hücum etməyəcəklərinə dair təminat verdilər.* Beləliklə, Səfəvi-Osmanlı sülhü XVIII əsrin II rübünə kimi 2 dövlət arasındakı münasibətləri nizama saldı [3, s. 289].

XVII əsrin II yarısı-Səfəvi dövlətinin süqutu dövründə Azərbaycanın siyasi vəziyyəti. XVII əsrin II yarısında Osmanlı Türkiyəsinin Səfəvi dövlətinin ərazilərinə müdaxilə təhlükəsi

aradan qalxmışdır. Çünki Osmanlı imperiyası tənəzzül mərhələsini yaşadığı dövrdə Cənubi Azərbaycan vilayətlərinin, Təbrizin idarəsi mülki məmurların əlinə keçdi. Maliyyə işlərində də ixtisaslaşmış məmurlar idarə işlərini öz əllərinə almışdılar.

XVI əsrin sonları XVII əsrin əvvəllərindən etibarən Rusiya dövlətinin Azərbaycana iqtisadi - ticarət müdaxiləsi gücləndi. Səfəvi dövləti ilə Rusiya arasında olan münasibətlər siyasi marağa və qarşılıqlı iqtisadi əlaqələrə əsaslanırdı. Rusiya dövləti Azərbaycana əlverişli satış bazarı kimi yanaşırdı və digər dövlətlərin Azərbaycana ticarət müdaxiləsinə mane olmağa çalışırdı [3, s. 292].

Volqa - Xəzər yolu XVI əsrin ortalarından etibarən Rusiya dövlətinin Avropa və Asiya ölkələri ilə münasibətlərində əsas ticarət arteriyası rolunu oynamağa başladı. *1562-ci ildə* İngiltərənin *"Moskva şirkəti"* kəşfiyyatçı və tacir Antoni Cenkinsonu Səfəvi dövlətinin ərazisinə göndərdi. O, Şirvan bəylərbəyi Abdulla xan Ustaclıdan gömrüksüz və maneəsiz ticarət etmək imtiyazı ala bildi. İngilis tacirlərinin Azərbaycan bazarlarında möhkəmlənmək cəhdləri iflasa uğradı. Çünki rus tacirləri Rusiya çarından ingilislərin ***Volqa-Xəzər*** yolundan istifadə etmələrinə son qoyulmasını və onların *ticarət imtiyazlarının ləğv edilməsini* tələb edirdilər. Bu arzu həyata keçirildi.

XVII əsrin ortalarında ruslar Şimali Qafqazda bir sıra qalalar tikməyə başladılar. Bu ***II Şah Abbasın (1642-1667)*** sarayında etirazla qarşılandı. Şah imperiyanın şimalında rusların həyata keçirdikləri tədbirlərə mane olmaq məqsədilə xüsusi Fərman verdi. Nəticədə, *1653-cü ildə* Şirvan hakimi Xosrov xanın başçlığı ilə Səfəvi hərbi hissələri və ruslar arasında toqquşma baş verdi. Ruslar Şirvan bəylərbəyi Xosrov xanın vəzifədən kənarlaşdırılması və edam edilməsi tələbini irəli sürdülər. Münaqişə 1662-ci ilədək davam etdi. Lakin Rusiya çarı ***Aleksey Mixayloviç Ramanov (1645-1676)*** münaqişənin daha da genişlənməsinə imkan vermədi. Rusiya qızılbaş ipəyini Həştərxan vasitəsilə

Moskvaya və Qərbi Avropaya daşımaq hüququnu inhisara almaq üçün Səfəvi dövləti ilə ***1667-ci ildə müqavilə*** imzaladı. Bu müqavilə ruslara *gömrüksüz ticarət* etmək hüququ, *qonaq evlərində* və *ticarət məntəqələrində imtiyazlar* verirdi. ***Şah Süleymanın (1667-1694)*** fərmanında yerli hakimlərə rus tacirlərinə xüsusi ehtiram göstərmək tapşırılmışdır.

XVII əsrin II yarısında Xəzəryanı bölgələrə soxulmuş Don kazaklarına qarşı mübarizə Azərbaycanın siyasi həyatında əhəmiyyətli yer tuturdu. Rusiya dövləti də nəyin bahasına olursa-olsun Volqa-Xəzər su yolunu kazakların basqınlarından qorumağa çalışırdı. Donda üsyançı kazaklara başçılıq edən ***Stepan Razin 1667-ci ilin mayında*** Volqaya çataraq, həmin il ***iyulun əvvəllərində*** Xəzər dənizinə çıxdı. 1668-ci ilin yayında S.Razin kazakların digər atamanı S.Krivoyun dəstəsi ilə birləşərək, 40 qayıqda 2 min nəfərlə ***Dərbənd*** sahilinə çıxdı, ***Niyazabad və Şabranı*** qarət etdi, lakin Bakıya yürüş etsələr də, güclü müqavimətdən ehtiyat edərək şəhəri tərk edib ***Maştağaya*** döndülər [3, s. 293]. Onlar 150 nəfər əsir götürdülər, sonra ***Xəzərin cənub sahillərinə, Gilana, Rəştə*** hücum etdilər. Bütün bunlara baxmayaraq, XVII əsrin 2-ci yarısında Volqa-Xəzər su yolu, həmçinin Azərbaycandan keçən quru ticarət yolları ölkələrarası əhəmiyyətlərini saxlayırdılar. Bu dövrdə Azərbaycanla Rusiya arasında yaranmış qonşuluq münasibətləri, Azərbaycan mallarının Rusiya və Avropa ölkələrinə daşınması, ticarət əlaqələrinin güclənməsi hər 2 tərəfə böyük iqtisadi səmərə verirdi. Moskva hökmdarları İngiltərənin Səfəvilər dövləti hüdudlarında nüfuz qazanmasına qısqanclıqla yanaşır, Osmanlı imperiyası ilə Səfəvilər dövləti arasında gərginliyin daim qalmasına can atırdılar. Rusiya çarları Xəzər dənizinə Şərq ölkələrinə müdaxilə etmək üçün əsas vasitə kimi baxırdılar. Ruslar necə olursa-olsun Xəzərin hövzəsində möhkəmlənməyə can atırdılar.

3.XVI-XVII əsrlərdə Azərbaycan torpaqlarında sosial-iqtisadi və mədəni həyat

İctimai-iqtisadi həyat. Kənd təsərrüfatı. Şəhərlər. Səfəvi dövlət tarixinin ilk mərhələsində - I Şah İsmayılın dövründə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ənənələrini davam etdirən *sadə mərkəzi bürokratik idarə aparatı* mövcud idi. Dövlətin başında ***Şah***-eyni zamanda şiələrin başçısı dururdu. Şahın yanında ***Ali məclis*** (12 nəfərdən ibarət Şura) fəaliyyət göstərirdi. Şahın dünyəvi və dini müavini *vəkil* ilk Səfəvilər dövründə dövlətdə *2-ci şəxs* idi. Bu məsul vəzifə ilk dəfə olaraq I Şah İsmayılın tərbiyəçisi ***Hüseyn bəy Şamlıya*** həvalə olunmuşdur. Səfəvi dövlətində baş komandan *əmir-ül-üməra* (xanlar xanı) adlanırdı. Dövlətin hərbi qüvvələrinin əsasını Azərbaycan tayfalarından ibarət *çərik* adlandırılan xüsusi hərbi dəstələr təşkil edirdi. Onlara *qorçibaşı* rəhbərlik edirdi. Mülki idarəçiliyə *vəzir,* dini idarələrə *sədr* başçılıq edirdi.

Bu dövrdə Azərbaycanda ***5 feodal zümrəsi*** var idi: *1. Şah və hakim sülalənin üzvləri; 2. Yarımköçmə qızılbaş hərbi əyanları; 3. Ali şiə ruhaniləri; 4. Mülki bürokratiyanın yuxarı təbəqəsi; 5. qədim oturaq əyanlar. Şah* Səfəvi dövlətinin ən *iri torpaq sahibi* idi. O, dövləti idarə edirdi. *Qızılbaş tayfa əyanları* həm mərkəzdə, həm də ucqarlarda yüksək yer tuturdular. *Siyasi* və *hərbi işləri* onlar idarə edirdilər. Xalq *50-yə qədər vergi* verməli və mükəlləfiyyət daşımalı idi.

XVI əsrdə Səfəvi dövlətinin ərazisi inzibati cəhətdən *bəylərbəyiliklərə,* onlar da *mahallara* bölünürdü. Bəylərbəyilər şah tərəfindən yalnız Azərbaycan hərbi əyanlarından təyin edilirdi. XVI əsrin birinci yarısında ***Azərbaycan 3 bəylərbəyilikdən*** ibarət idi: mərkəzi Şamaxı şəhəri olan ***Şirvan,*** mərkəzi Gəncə olan ***Qarabağ,*** mərkəzi ***Təbriz*** olan ***cənub torpaqları****. Mahalları* bəylərbəyilər tərəfindən təyin edilmiş *naiblər* idarə edirdilər. Kəndlərə

kətxudalar, şəhərlərə *kələntərlər* başçılıq edirdilər. Şəhərdə asayişin qorunmasına başçılıq edən *darğa* kələntərə tabe idi.

XVII əsrin II yarısında ***Azərbaycan* ərazisi *inzibati cəhətdən Təbriz, Çuxursəd*** (mərkəzi İrəvan şəh. idi, Naxçıvan vilayəti də bura daxil edilmişdir), ***Qarabağ*** və ***Şirvan*** bəylərbəyiliklərinə bölünmüşdür. *Bəylərbəyilər* yerlərdə ali hakimiyyət nümayəndələri idilər, mahalların hakimləri *qolbəyi* adlanırdılar. *Sultanlar* (kiçik inzibati bölgə başçısı) qolbəyilərə, bəzən birbaşa bəylərbəyinə tabe idilər. *Xan* rütbəsi ali hərbi inzibati mövqe tutan şəxsə verilirdi, bəylər və sultanlar ondan aşağı mövqe tuturdular. Bəylərbəyilik iri inzibati vahid kimi Səfəvi dövlətinin sərhəd zolağında fəaliyyət göstərirdi. Daxili vilayətlər şah sarayının hakimiyyətində idi. Yığılan gəlir birbaşa şah sarayına çatdırılırdı. Bəylərbəyilər və onlara tabe olan hakimlər müəyyən miqdarda silahlı hərbi qulluqçular saxlayırdılar. Qoşun bəylərbəyinin gəliri hesabına saxlanırdı. Toplanan vergilər onların başlıca gəlir mənbəyi idi. Bəylərbəyiliklərin maliyyə işlərini *vəzirlər* yerinə yetirirdilər. Maliyyə məmurları, vergi yığanlar vəzirlərin etibarlı adamları idilər. Məhkəmə orqanları *şeyxülislamın, qazilərin* və *müftilərin* başçılığı altında şəriət normalarına əsasən fəaliyyət göstərirdilər. İri torpaq sahibləri və ailə üzvlərinin vəzifə ələ keçirmək meyli çox güclü idi. İdarəçilikdə *irsilik prinsipi* gerçəkləşdirilmişdir. İrsi idarəçilik sistemi hakimlərin ölkənin abadlaşdırılmasına, təsərrüfatın inkişaf etdirilməsinə marağını təmin edirdi. Mahal hakimi vəfat etdikdə, yaxud inzibati qaydada vəzifədən kənar edildikdə yeni hakim mərkəzi hökumətin-*şahın xüsusi fərmanı* ilə vəzifəsinin icrasına başlaya bilərdi. Yerli hakimiyyət orqanları isə irsilik qaydasına əməl olunmasına can atırdılar. Beləliklə, ölkənin vilayətləri illər boyu bəylərbəyilərin yaxın adamları tərəfindən idarə olunurdu. Bu, Azərbaycanın iqtisadi və siyasi həyatına mənfi təsir göstərirdi.

Kənd təsərrüfatı. XVI əsrin əvvəllərində I Şah İsmayılın mərkəzi hakimiyyəti gücləndirməsi, feodal ara müharibələrinin

və çəkişmələrinin aradan qaldırılması, əhalinin vəziyyətini yüngülləşdirən bir sıra tədbirlərin həyata keçirilməsi və s. amillər kənd təsərrüfatının, iqtisadiyyatın inkişafına təkan verdi. XVI-XVII əsrlərdə əhalinin əsas məşğuliyyəti əkinçilik idi. Pambıqçiliq Şirvan, Xoy, Gəncə, Marağa, Bakı və Naxçıvanda geniş yayılmışdır. Azərbaycanda 7 növ pambıq yetişdirilirdi. Taxıl bitkiləri (buğda və arpa) Şirvan, Muğan, Aran, Ərdəbil, Xalxal və başqa bölgələrdə əkilirdi. İpəkçilik Şirvanda və Şəkidə yayılmışdır. Tut ağaclarının becərilməsi barama qurdunun bəslənməsi və ipəkçiliklə bağlı idi. Ərəş ipək istehsalının əsas bölgələrindən biri idi. Avropada Azərbaycandan ixrac olunmuş xam ipəyin müxtəlif növləri: "Mahmudabad ipəyi", "Şəki ipəyi", "Gəncə ipəyi", "Qəbələ ipəyi" və s. tanınırdı. Əhalinin həyatında oturaq maldarlıq, bağçılıq və bostançılıq da mühüm yer tuturdu. Azərbaycan əhalisinin bir hissəsi yarımköçəri həyat keçirir və heyvandarlıqla məşğul olurdu. Heyvandarlığın inkişafı əsasən Mil və Muğan düzənliklərindəki qışlaqlarda, Qarabağın, Cənubi Azərbaycanın dağlıq bölgələrindəki yaylaqlarında təmin edilmişdir. XVI əsrə qədərki dövrdə Azərbaycanda məskunlaşmış türk köçəri tayfaları olan Cəlairi, Qaraqoyunlu, Ağqoyunlu və b. tədricən yarımoturaq və oturaq həyat tərzinə keçmişdilər [3, s. 243].

XVII əsrin II yarısında Bakı ətrafında az miqdarda kətan yetişdirilirdi. Azərbaycan boyaqotu (qızılboya) becərilməsi ilə məşhur idi. Boyaqotu Şirvanda, Arazın cənub sahillərində geniş yayılmışdı. Abşeron ərazisində xeyli zəfəran əkilib becərilirdi. Yeni bitki növlərindən biri olan tütün Azərbaycanın əsasən cənub və cənub-qərb torpaqlarında, xüsusilə Marağada becərilirdi. Əkinçilikdə süni suvarma mühüm rol oynayırdı. Süni suvarmada çay və bulaq sularından, eləcə də kəhriz sularından istifadə edilirdi. Təbriz 900 kəhrizin və arxın, 6 dağ çayının suyu ilə təchiz olunurdu. Əhalinin xeyli hissəsi köçmə maldarlıqla məşğul olurdu. Səfəvi şahlarının Qarabağ, Mərənd və Marağada xüsusi ilxıları vardı. Dəvədən əsas yük heyvanı kimi istifadə edilirdi. Təb-

riz-İstanbul-Hindistan ticarət əlaqələrində at və qatır əsas nəqliyyat vasitəsi idi. Arıçılıq da inkişaf etdirilmişdir. Gəncə və Ərdəbil balı xüsusilə məşhur idi.

XVI-XVII əsrlərdə Azərbaycanda cəmiyyətin əsas istehsalçısı və istismar olunan təbəqəsi *kəndlilər* idi. *Vergi verən əhali* ümumi adla *rəiyyət* adlanırdı və ayrı-ayrı qruplara bölünürdü. İş heyvanı, istehsal alətləri, toxumu olan, feodaldan aldığı torpağı özü becərən kəndli *hampa* adlanırdı. Bu kəndlilər cütlərin sayına görə ayrı-ayrı bölgələrdə daha kiçik dərəcələrə bölünürdülər. *İstehsal alətləri olmayan* kəndlilər *II qrupa* aid idilər. Təsərrüfatsız və yardımçı kənd təsərrüfatı işlərində çalışanlar (gözətçi, çoban, bağban və s.) və məşğuliyyəti olmayan yoxsul kəndlilər *əkər* adlanırdı və daha çox istismar olunurdu. Azərbaycanda *oturaq təsərrüfatla* yanaşı, yaylaq və qışlaqla bağlı olan *köçmə təsərrüfatlar* da vardı. Bunlar əsasən maldarlıqla məşğul olan *elatlara* aid idilər. Köçmə təsərrüfatla məşğul olan əhali patriarxat formada istismar olunurdu. Elatlar orduda qulluq etməli və hərbi yürüş elan ediləndə hər tayfa məlum sayda ümumi süvari qoşun verməli idi. Hər tayfanın mövqeyi onun verdiyi döyüşçülərin sayına görə müəyyən edilirdi. Köçmə təsərrüfatlar oturaq təsərrüfatlara nisbətən az miqdarda vergi verirdi. XVII əsrin ortalarından başlayan məhsuldar qüvvələrin inkişafı əsrin sonunda geriləmə ilə əvəz olundu. Azərbaycan kəndlisindən alınan *vergilərin sayı 35-ə* çatırdı. Onlardan alınan torpaq və gəlir vergisi-*malcəhət, bəhrə, xərac* verginin əsas hisəsi sayılır, natura ilə ümumi məhsulun 1/5, 1/3 hissəsini təşkil edirdi. Bu vergidən 1/10-i torpaq sahibkarlarına, 2/10 dövlətə çatırdı. *Bağbaşı* – məhsulun 1/10-nə bərabər idi. *Çobanbəyi, çöl pulu* – örüşdə heyvanların otarılmasına görə alınırdı. *Dəhyek* (1/10) – götürülən gəlirin 10%-i miqdarında alınırdı. *Cütbaşı (cütpulu)* – əkib-becərmək üçün 1 cüt qoşqu vasitəsi olanlardan alınırdı. *Dəzgahbaşı* – hər toxucu dəzgahın istehsal etdiyi məhsuldan alınan vergi idi. *İxracat* – ümumi və müxtəlif vergi və mükəlləfiyyətlərin məcmusu

mənasında işlənirdi. İxracat dövlət canişinlərinin, hərbi xidmətdə olanların və əyanların tələbatını ödəmək üçün alınırdı. *Ot-alafa* – yük heyvanları, atlar üçün alınırdı. *Ulafa* bir nəfərin (hərbiçi, canişin və b.) dolanışığı üçün alınırdı. Bu 2 vergi bəzən pul ilə ödənilirdi. Sonralar alafa *"at arpası"* adlandırıldı. *Künəlgə* – əyanların kəndlinin evində qalmaq hüququ idi. *Əvrəz* – daimi olmayan vergi idi, natura, yaxud mükəlləfiyyət icra etməklə ödənilirdi. *Rüsum* dövlət canişinləri və ruhanilər üçün natura ilə alınan vergiyə deyilirdi. *Səvari* – əhalinin hakim sülalənin üzvlərinə, sərkərdələrə, yeni fəth edilmiş yerlərə (ya Novruz bayramı münasibətilə) təyin edilmiş adamlara göndərilən hədiyyə idi – *növruzi* adlanırdı. *Tərh*-dövlətə və ya feodala lazım olan malın bazar qiymətindən aşağı qiymətə alınması idi. *Dəstəndaz* – hakimiyyətin nisbətən aşağı pilləsində xidmət edən şəxslər üçün verilən vergi idi. *Cizyə*-xristianlardan alınırdı. Kəndlinin feodal və ya dövlətin nəfinə zorla, havayı işləməsi *biyar* adlanırdı. Biyardan suvarma şəbəkəsində və dövlətin digər işlərində geniş istifadə olunurdu. Bütün ailə üzvləri növbə ilə ildə 2 gündən 6 günə qədər biyara getməli idi. *Tüstü pulu* və s. vergilər də ödənilirdi. Bütün bunlar əhali içərisində narazılığa səbəb olmuşdur.

XVI - XVII əsrlərdə aşağıdakı ***torpaq mülkiyyət formaları*** var idi: *1. Dövlət torpaqları (**divan**); 2. Şah və onun ailəsinin xüsusi torpaq mülkləri (**xassə**); 3. Hərbi və mülki məmurlara məxsus şərti torpaq sahələri (**soyurqal, tiyul**); 4. Məscidlərə məxsus torpaqlar (**vəqf**); 5. Xüsusi mülkiyyətdə olan torpaqlar (**mülk**); 6. İcma torpaqları (**camaat**).* Divan və xassə aparıcı mülkiyyət formaları idi. Divandan əldə edilmiş bütün gəlirlər dövlət xərclərinin ödənilməsinə sərf olunurdu. Xassədən əldə edilmiş gəlirlər isə şaha mənsub olsa da xəzinəyə əlavə edilirdi, yaxud şahın razılığı ilə xərclənirdi. Şah üzvlərinə mənsub olan torpaqların gəliri isə həmin torpaq sahiblərinin özlərinə xərclənirdi. Hərbi və mülki şəxslərə xidmət müqabilində *soyurqal və tiyul* torpaqları verilirdi. Tiyul *şərti mülk* sayılır və yalnız şahın

icazəsi ilə irsi keçə bilərdi. Dini idarələrə-məscidlərə məxsus torpaqdan *(vəqf)* götürülən gəlir məscidlərə və xeyriyyə işlərinə xərclənirdi. Xüsusi torpaq mülkiyyəti olan *mülk* azad alış və satış obyekti idi. *Camaat torpaqları* xəzinənin və feodalların ixtiyarında idi. Kənd icmasının başçısı *ağsaqqal* hesab olunurdu. Vergilərin ağırlığı bu torpaqların üzərinə düşürdü.

XVII əsrdə *feodal zümrəsi 4 qrupa bölünürdü: 1. Qızılbaş əyanları və digər tayfaların hərbi zadəganları, şah qvardiyasından çıxmış qulamlar; 2. İri torpaq sahibləri olan şiə təriqətli ali ruhanilər; 3. Mülki əyanlar; 4. Yerli əhəmiyyətli əyanlar.*

Qızılbaş hərbi-feodal əyanları I qrupda mühüm yer tuturdular. *Hərbi-feodal əyanların II təbəqəsi* qızılbaş tayfasından olmayan yerli türklərdən ibarət idi. *III təbəqəsini* şah qulamları içərisindən çıxmış *hərbi sərkərdələr* təşkil edirdilər. *II qrupa ali ruhani təbəqəsinin nümayəndələri* daxil idilər və vəqf torpaqlarını idarə edirdilər. Bundan əlavə, ali şiə ruhani nümayəndələri mülki hüquqla xeyli əraziyə malik idilər. Ruhanilərə sədr başçılıq edirdi. O, ölkənin baş ruhanisi hesab edilir, şahın nəvvabı-müavini sayılırdı. Sədrlər vəqf sistemində böyük torpaq sahələrini cəmləşdirib, dövlət miqyasında şiəliyi daha da geniş yaymaqla ölkədə öz təsirini gücləndirir və ictimai-siyasi həyatın inkişafına kömək edirdilər. Mülki işlərə baxılması tamamilə ruhanilərin əlində idi. Onlardan şəriət məhkəmələrini aparan *şeyxülislam, qazi* təyin olunurdu. *III qrupa mülki əyanlar* daxil idilər. Onların içərisində yerli türklərin xüsusi yeri vardı. Çoxu sonralar Səfəvi dövlətinin mərkəzi bürokratiyasının sıralarına daxil olmuşdur. *IV qrupa yerli torpaq sahibkarları* daxil idilər. Qarabağda və Şirvanda əyanların güclü mövqeyi vardı. Onların ali nümayəndələri *məlik* titulu daşıyırdı.

Şəhərlər ticarət və sənətkarlıq mərkəzləri idi. XVI əsrdə Azərbaycanda 50-dən çox şəhər vardı. Bu dövrdə Təbriz, Gəncə, Ərəş, Ərdəbil, Culfa, Bərdə, Naxçıvan, Marağa, Dəpbənd şəhərləri iqtisadi və siyasi-inzibati mərkəz idilər. *Təbrizdə* 300 min

nəfər əhali var idi. Təbriz ustalarının toxuduqları gözəl xalçalar və bəzəkli parçalar indi də dünya muzeylərində saxlanılır. 1565-ci ildə I Təhmasib vilayətlərin hər birindən alınan təqribən ***80 min tümənlik tamğa*** vergisini ləğv etdikdən sonra Təbriz öz inkişafının yüksək səviyyəsinə çatmışdır. Səfəvi dövlətinin paytaxtının Təbrizdən Qəzvinə köçürülməsi şəhərin iqtisadiyyatını zəiflətsə də Təbriz iqtisadi və mədəni inkişaf cəhətdən mühüm şəhər olaraq qalırdı. Şamaxı Şirvanın iqtisadi və siyasi mərkəzi idi. XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı və ticarətinin hamısı *Şamaxı* və *Ərəşdə* mərkəzləşmişdir. Şamaxının 25 min nəfər əhalisi var idi. XVI əsrin II yarısında və XVII əsrin I yarısında *Gulfa* beynəlxalq ipək ticarəti yolunun üstündə yerləşirdi. Culfa tacirləri demək olar ki, ipəyi Şamaxı, Ərəş və Gilandan alır, Venesiya, Amsterdam, Marsel, Suriya, Türkiyə və Hindistanda satırdılar. 1581-ci ildə Culfada 3000 ev vardı, 15-20 min nəfər əhali yaşayırdı. *Ordubad, Naxçıvan, Əylis* kimi şəhərlərin mühüm ticarət əhəmiyyəti var idi. Gəncə Qarabağ bəylərbəyiliyinin mərkəzi idi. ***Don Juan*** adı ilə Avropada yaşayan tarixi-coğrafi əsərlər müəllifi Oruc bəy Bayat burada 50 min ailənin (225 min nəfər) yaşadığını qeyd edirdi. *Bakıdan* bir sıra ölkələrə dəniz yolu ilə müxtəlif mallar və neft göndərilirdi, ətrafında 500-ə qədər neft quyusu var idi. *Ərdəbil* yun parçaların hazırlandığı ən iri mərkəzlərdən biri idi. Ərdəbildə tikilmiş ***Şeyx Səfi məqbərəsinə*** ölkənin hər yerindən ibadətə gəlirdilər. XVI əsrdə Azərbaycan xalçaçılığı öz inkişafının ən yüksək mərhələsini keçirirdi. I Şah Təhmasibin 1536-cı ildə toxutdurduğu ***"Şeyx Səfi xalçası"*** hazırda Londonun ***"Viktoriya və Albert"*** muzeyində saxlanılır. Azərbaycan şəhərlərinin iqtisadi həyatında dəri, metal, keramika məmulatlarının istehsalı mühüm sahələrdən hesab olunurdu. XVI əsrin əvvəllərindən etibarən *tüfəng* və *topların* istehsalı və tətbiqinin genişlənməsi metalişləmə sənətinin inkişafını sübut edir.

XVII əsrin ortalarından başlayaraq *şəhərlər* yenidən keçmişdə olduğu kimi sənətkarlıq, ticarət, mədəniyyət mərkəzlərinə

çevrilməkdə idi. XVII əsrin 60-70-ci illərində ***Təbriz*** öz ərazisinə, zənginliyinə, ticarətinə və əhalisinin sayına görə 2-ci şəhər idi, əhalisinin sayı 500 minə çatırdı. Təbrizdə 47 mədrəsə, 600-ə qədər ibtidai məktəb, 320 məscid, ***Əlişah məscidi kompleksi*** *(qacarlar dövründə* qalaya çevrildiyindən ***Ərk*** adlandırılırdı), 200-ə yaxın karvansaray, 7 min dükan var idi. ***Gəncə*** ən iri şəhərlərdən biri sayılırdı. 1668-ci il yanvarın 4-də ***Şamaxıda*** baş vermiş zəlzələdə əhalinin 6-7 mindən çoxu həlak oldu [3, s. 304]. Lakin şəhər bərpa edildi. Şamaxıda ipək toxuyan emalatxanalar fəaliyyətə başladı. Şəhərin yaxınlığında Mücü kəndində ipəksarıyan və ipəktoxuyan dəzgahlar hazırlanırdı. Bakı 3 yerdən darvazası olan şəhər-qala idi, kvadrat formada olub, iç-içə qaladan ibarət idi. Şəhərin qərbində minarəsiz məscid vardı. Bakı liman şəhəri kimi məşhur idi, tranzit ticarətində mühüm rol oynayırdı. ***Ərdəbil*** şəhəri ticarət yolu üzərində yerləşir, küllü miqdarda xam ipək istehsal edir, beynəlxalq ticarətdə mühüm yer tuturdu. ***Dərbənd*** coğrafi mövqeyinə görə hərbi şəhər idi. ***Marağa*** öz meyvələri, üzüm bağları ilə məşhur idi. Müqəddəm tayfası Marağada yerləşəndən sonra əhali vergilərdən azad edilmişdir. Əsrin ortalarında Marağada 7 min ev var idi. ***Əhər*** öz təbii zənginliyi və inkişaf etmiş əkinçiliyi ilə tanınırdı. ***Naxçıvanda*** 5 karvansaray, bir neçə hamam, ticarət mərkəzi, qəhvəxana, 2 min ev vardı. Əsrin sonunda Naxçıvanın iqtisadi, ticarət və mədəni həyatı zəifləmişdir. ***Ordubadın*** başqa şəhərlərlə, həmçinin xariclə geniş ticarət və digər əlaqələri vardı. ***Culfanın*** həyatı XVII əsrdə müharibələr nəticəsində faciəli olmuşdur. Əsrin 60-cı illərində əhali şəhərin yalnız şimal-qərb hissəsində məskunlaşmışdı. 70-ci illərdə Culfada cəmi 30 ev qalmışdır.

XVII əsrin II yarısında Azərbaycanda ***şəhər əhalisinin sosial tərkibi*** aşağıdakı qruplara bölünürdü: *1. Feodal zümrəsi, hərbi feodallar, mülki bürokratiya, ali ruhani, iri, orta və kiçik torpaq sahibləri. 2. Ticarətlə məşğul olan iri, orta və kiçik tacirlər. 3. Sənətkar-*

lar. 4. Şəhərətrafı torpaqların becərilməsi ilə və maldarlıqla məşğul olan əkinçilər.

Şəhərlərdə bütün hakimiyyət iri torpaq sahibi olan bəylərbəyinin əlində idi. Hər bir şəhərdə mərkəzi hakimiyyətin, yerli torpaq sahibliyinin səlahiyyətini öz əlində cəmləşdirən *mülki bürokratiya* fəaliyyət göstərirdi. Bu 2 təbəqə *kübarlar* adlanırdı. *Ali din xadimlərinin* sərəncamında vəqf qəyyumluğu kimi bütöv kəndlər, su mənbələri və s. vardı. Feodal zümrəsi içərisində say hesabı ilə *yerli əyanlar* üstünlük təşkil edirdilər. Bu təbəqə ölkənin idarə olunmasında həlledici rol oynayırdı. Şəhərdə *sənətkarlar və tacirlər* də mühüm yer tuturdular. Tacirlər həmişə həm mərkəzi, həm də yerli hakimiyyətin möhkəmlənməsini istəyirdilər. Sənətkarlar şəhər əhalisinin təbəqələri içərisində çoxluq təşkil edirdilər. Şəhərlərin əkinçi əhalisi maldarlıqla məşğul olurdu. Şəhərin başında *bəylərbəyi, xan* və *sultan* rütbəsi olan hakim, həmçinin *məlik* dururdu. Maliyyə işlərinin qaydaya salınması, dövlət xəzinəsinin doldurulması *vəzirin* səlahiyyətinə daxil idi. Vəzir dərəcə etibarılə bəylərbəyidən aşağı olsa da müstəqil fəaliyyət göstərirdi. O, mərkəzi hakimiyyət tərəfindən təyin edilirdi və birbaşa ona tabe idi. *Darğa* şəhərdə asayişi qoruyur, şəriət normalarına riayət olunmasına nəzarət edir, hakim təbəqələrin göstərişlərinə əməl edirdi. Məhkəmə işlərinə *qazi* baxırdı. Bəzi şəhərlərdə qazinin vəzifəsini rütbəcə ondan yuxarı olan *şeyxülislam* yerinə yetirirdi. Böyük şəhərlərdə məhkəmə işlərinə hər ikisi baxırdı. Sənətkar və tacir təbəqəsinə vergi qoyulması, daxili problemlərin qaydaya salınması ilə *kələntər* məşğul olurdu. Sənətkarlıq və ticarətin hər bir sahəsində ona *naib* kömək edirdi. Azərbaycanda ayrı-ayrı sənətkarlıq məmulatlarının hazırlanması üzrə ixtisaslaşma gedirdi. Demək olar ki, bu dövrdə 44-dən çox sənət və peşə növü vardı. Yeni istehsal sahələri – çini qablar və pəncərə şüşəsi istehsalı yaranır, odlu silah istehsalı genişlənirdi. Onlarla müxtəlif növ parçalar toxunurdu. Şirvan xam ipək istehsalında Yaxın və Orta Şərqdə Gilandan sonra II yeri tuturdu.

Xam ipək Təbriz, Naxçıvan, Marağa və Gəncədə də hasil edilirdi. Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan, Marağa, Ərəş, Mərənd, Xoy, Ordubad da əhəmiyyətli toxuculuq mərkəzləri idilər. *Təbriz* əsasən qızılı və gümüşü saplarla işlənmiş məxmər, atlaz, nazik ipək parçalar, qumaş, çalma, *Ərdəbil* tafta, darayı, kələğayı, adi və zərbaft çadralar, *Bakı* qumaş parçalar hazırlanmasında ixtisaslaşmışdır. Xarici bazarlarda *Quba* xalçalarına tələbat vardı. *Abşeron, Qarabağ, Naxçıvan* da bu sahədə geri qalmırdı. Polad, mis, qızıl, gümüş məmulatları istehsalında Azərbaycan ustaları dünya şöhrəti qazanmışdılar. *Şamaxı* və *Lahıcda* mis məmulatı, silah və zirehli geyimlər hazırlanırdı. Ağacişləmədə daha çox nəzərə çarpan nəccarlıq (ərəb. dülgər, xarrat) idi. *Ərdəbildə, Şəkidə* ipək parçalar, ipək tikmələr, ipək və yun qurşaqlar, mis qablar, ağacdan şəbəkə, əmək alətləri, məişət əşyaları və s. hazırlanırdı. *Gəncə* yaxınlığında hasil edilən misdən yerli ustalar naxışlı qab-qacaq düzəldirdilər. Sənətkarlar *3 qrupa* bölünürdü: *1. Fərdi fəaliyyət göstərənlər; 2. Xüsusi təşkilatlarda (əsnaflarda) birləşənlər; 3. İri feodal emalatxanalarında (kitabxanalarda)* işləyənlər. Hər bir sənətkar sənət vergisi ilə yanaşı, şəhər əhalisinin aşağı təbəqəsi kimi vergi verməli, mükəlləfiyyətlər daşımalı idi. Təbrizdə 15 min dükan vardı. Buradakı bazar bütün Asiyada ən böyük bazar idi – ***"Qeysəriyyə"*** bazarı. Naxçıvan, Ərdəbil, Bakı, Ordubad şəhərlərində ticarət müstəsna rol oynayırdı. Alver həftədə bir dəfə *həftəbazarlarda* gedirdi. Böyük hərbi əməliyyatlar aparılan vaxtlarda *ordubazarlar* təşkil olunurdu. Ordubazarlarda asayişə *ordubəyi* nəzarət edirdi. Burada malların qiyməti sülh vaxtı başqa bazarlardan yüksək olurdu. Qələbə qazanılanda tacirlər qarət hesabına varlanır, məğlub olanda isə mallarını itirirdilər. *Karvansaraylar* xarici ticarətin mərkəzləri hesab olunurdu. Burada topdansatış ticarət əməliyyatları aparılırdı. Bu əməliyyatlar *karvansaraydarın* icazəsilə aparılır və xüsusi dəftərlərdə qeyd olunurdu. Karvansaraydar ticarətin qaydaqanunla aparılmasına, əmtəənin keyfiyyətinin, onun çəkisinin və

miqdarının dürüstlüyünə, razılaşdırılmış qiymətlərə nəzarət edirdi. Hər ticarət əməliyyatının ümumi məbləğinin 2%-i onun zəhmət haqqını təşkil edirdi. Böyük karvansarayda hər bir tacir *hücrə* adlanan yer və *anbar* icarəyə götürürdü. Burada *qonaq evləri* də mövcud idi. İri şəhərlərdə karvansaray və qonaq evləri birləşdirilirdi. Xarici tacir öz hücrəsi və anbarıyla yanaşı yaşaya bilərdi. Osmanlılar Azərbaycandan cins atlar və dəvələr almağa çox maraq göstərirdilər: Marağa, Mərənd, Qarabağ və Muğanda yetişdirilən minik və yük atları. Osmanlılar Azərbaycan ipəyini, boyaq maddələrini, toxuculuq məmulatlarını avropalılara satmaqla xeyli gəlir götürürdülər. Azərbaycan tacirləri İtaliya və başqa Avropa ölkələri ilə iqtisadi əlaqələr yaratmaq üçün Osmanlı tranzit ticarət yolundan istifadə edirdilər. Məhsullar İstanbul, İzmir, Hələb şəhərlərinə daşınır, oradan isə dəniz yolu ilə Avropaya çatdırılırdı. Həmin şəhərlər Avropanın Şərq ölkələri ilə tranzit ticarətində *"göndərmə məntəqələri"* idi. Azərbaycanla Hindistan arasında ticarət əlaqələri yaratdığına görə *multanı-hind tacirləri* ticarət həyatında xüsusi mövqe tuturdular. Abşeronun ***Suraxanı*** kəndində hindlilərin xüsusi ***atəşpərəstlik məbədi*** vardı. Hind malları Volqa-Xəzər su yolu ilə Rusiya və Avropaya aparılırdı. Bakı, Şamaxı, Təbriz, Ərdəbil şəhərləri ticarət daşımalarında mühüm rol oynayırdılar. Həştərxan vasitəsilə Azərbaycanla Şərqi Avropa şəhərləri arasında daim ticarət əlaqələri yaranmışdır. Tacirlər Şərqi Avropa ölkələrindən dəniz yolu ilə Dərbəndə, duz və neft satışında liman şəhəri olan Bakıya, sonra İrandan keçib cənuba, oradan da Hindistana gedirdilər. Səfəvi dövlətində 15-20 min hind taciri fəaliyyət göstərirdi. 80-ci illərdə Şamaxıda 200-ə yaxın hind taciri yaşayırdı. Şamaxıdan Hindistana çoxlu xam ipək, ipək parça, Bakıdan qara və ağ neft, Abşeronda yetişdirilən zəfəran aparılırdı.

XVII əsrin 2-ci yarısında nominal pul vahidi *dinar (tərkibi~2,4 q qızıl*) idi. I Şah Abbas dövründə buraxılan və *"abbasi"* adlandırılan pul vahidi (*çəkisi 2 misqal-4,64 q təmiz qızıl, dəyəri*

200 dinar-2 misqal təmiz gümüş) dövriyyədə qalmaqda idi. XVII əsrin 2-ci yarısında Azərbaycanda aşağıdakı sikkələr işlənmişdir:1. *Abbasi-200 dinar; 2.Mahmudi-100 dinar; 3.Şahı-50 dinar;* 4.*Bisti-20 dinar (fars. "20", gümüş sikkə); 5.Qazibəyi-5 dinar (Şirvanşah Sultan Məhəmməd Qazinin şərəfinə-mis pul).* Birinci 4 sikkə pul qızıl və gümüşdən, qazibəyi isə misdən hazırlanırdı. Gümüş pulların üzündə ortada "Allahdan başqa Allah yoxdur. Məhəmməd onun elçisi, Əli isə nümayəndəsidir" sözləri yazılırdı. Bu sözlərin ətrafında 12 imamın adları həkk edilirdi. Pulun arxa üzündə hakimiyyətdə olan şahın adı, sikkənin kəsildiyi yer və tarix göstərilirdi. Xırda mis sikkələrin üzündə doğan günəş əks olunurdu, arxa üzündə isə sikkənin kəsildiyi yer, tarix göstərilirdi.

XVII əsrin son onilliyində ölkəyə gətirilən xarici ticarət tənəzzülə uğrayırdı. *Pul böhranı* Səfəvi dövlətini sarsıdan səbəblərdən biri idi. Dövriyyəyə çoxlu *qəlp pul* daxil olmuşdur, ölkədə əmtəə mübadiləsi acınacaqlı vəziyyətə düşmüşdür. XVII əsrin sonunda Azərbaycan iqtisadiyyatının bütün sahələri dərin tənəzzül dövrü keçirirdi. Fırıldaqçılıq və dövlət aparatındakı vəzifəli şəxslərin pul hərisliyi, satqınlığı kütləvi hal almışdır. Bu durğunluq və tənəzzül çox uzun çəkmiş və ictimai həyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. Azərbaycanın cənub torpaqlarında suvarma sisteminin əsas mənbəyi olan yeraltı kanallar şəbəkəsi-kəhrizlər 400 dəfə azalmışdır. Suvarma sisteminin tənəzzülü kənd təsərrüfatı məhsulları istehsalının azalmasına səbəb olmuşdur. Ticarət və sənətkarlıqla məşğul olan əhalinin şəhərlərdən kütləvi surətdə axını iqtisadiyyatın həcminin azalmasına gətirib çıxarmışdır. *Sikkələrin xarab olması, qızıl və gümüş pulların dövriyyədən çıxması* Səfəvilər dövləti hüdudlarında ticarətin, əmtəə mübadiləsinin inkişafı üçün əngələ çevrilmişdir. Şəhər iqtisadiyyatındakı tənəzzül Azərbaycanın ictimai, siyasi həyatında dərin böhrana səbəb olmuş, xəzinənin, ayrı-ayrı feodal əyanlarının gəliri azalmışdır. Hökumət əhalidən yığılan vergiləri

3 qat artırmışdır. XVII əsrdən etibarən Avropanı Asiya ilə birləşdirən və Afrika ətrafından keçən dəniz yolunun kəşfi ilə əlaqədar qədim İpək yolu öz əhəmiyyətini tədricən itirirdi.

Xalq hərəkatı. 1571-1573-cü illər Təbriz üsyanı. I Təhmasibin və feodalların zülmündən narazılıq 1571-1573-cü illərdə Təbrizdə üsyanla nəticələndi. Təbrizin yeni hakimi Yusif bəy Ustaclı şəhər kübarları ilə danışığa başladı, razılıq andla rəsmiləşdirildi, lakin yoxsul sakinlər bu sazişdən narazı qaldılar və üsyan yenidən qalxdı. Qarabağın irsi hakiminin oğlu Söhrab bəy şahın əmrinə əsasən, hərbi hissə ilə Təbrizə daxil oldu. Təbriz üsyanı 1573-cü ildə yatırıldı. Şah təbrizlilərə bəzi güzəştlər etdi, sənətkarlardan alınan vergi məğləbini bağışladı. Təbrizi bütün divan vergilərindən azad etdi. ***Şəhər vergi toxunulmazlığı hüququ*** qazandı.

Cəlalilər hərəkatı. Koroğlu. 1590-cı ilin Osmanlılarla Səfəvilər arasında bağlanan İstanbul sülh müqaviləsinin şərtlərinə əsasən Osmanlı imperiyasının tərkibinə qatılmış Azərbaycan torpaqlarında işğalçılara qarşı yeni mübarizə dalğası – ***Cəlalilər hərəkatı*** XVI əsrin 90-cı illərində Şərqi Anadoluda başlandı. İştirakçılar Qərbi Azərbaycan kəndlilərindən, Osmanlı, Şərqi Anadolu və İraq qaçqınlarından təşkil olunmuşdur. ***Cəlalilər hərəkatı*** "İstanbuldan İrəvana, Bağdaddan Dəmirqapıyadək olan torpaqları" əhatə etmişdir [3, s. 270-271]. Bu hərəkat Osmanlı imperiyasının şərq vilayətlərinin Səfəvi dövlətinə birləşdirilməsi üçün əlverişli şərait yaratdı. Lakin həm hərbi, həm də canlı qüvvəsi üstün olan hökumət qoşunları cəlaliləri ağır məğlubiyyətə uğratdı. Məğlub edilən cəlalilərin bir hissəsi Şah Abbasın himayəsi altına keçdi. I Şah Abbas onların gücündən həm tabe olmaq istəməyən kürd feodallarına, həm Osmanlı dövlətinə qarşı istifadə etmək istəyirdi, həm də cəlalilərdən ehtiyat edirdi. Cəlalilər və onların başçıları şahdan gözlədikləri imtiyazları əldə edə bilmədilər. Ona görə də onların bir hissəsi, ***1610-cu ilin ortalarında*** isə Anadolu cəlalilərinin hamısı ***Hacı Məhəmmədin*** və ***Qara Səidin*** başçılığı ilə Səfəvilər dövlətini tərk etdilər. Qalan 500 nəfərlik

dəstə I Şah Abbasa sadiq qaldı və Ali Divanın şəxsi xidmətçi korpusu ilə birləşdi. Cəlalilərin dəstə başçılarından ən məşhuru Azərbaycan türkü ***Koroğlu*** idi. Salmas yaxınlığındakı Xarabaqala Koroğlu tərəfindən tikdirilmişdir. Naxçıvan ərazisi, Salmas və Xoy Koroğlunun ən çox fəaliyyət göstərdiyi yerlər kimi təsvir olunur. Koroğlunun məskəni olan ***Çənlibel qalasının*** Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. Cəlalilərin ayrı-ayrı dəstə başçıları-*Dəli Həsən, Gizir oğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz və Abaza paşa* xüsusilə fərqlənirdilər. 25 rəhbərin arasında *Gizir oğlu Mustafa bəyin* adı şərəfli yer tuturdu. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanda geniş vüsət almış ***Cəlalilər hərəkatı antifeodal*** xalq hərəkatı idi.

Cəlalilər hərəkatının ardınca Təbrizdə, Ordubadda, Təsucda, Bakıda və Dərbənddə *1603-1607-ci illərdə* baş vermiş xalq çıxışları, *1615-ci ildə* Şah Abbasın Qarabağdan və Şirvandan əhalini köçürmə siyasətinə qarşı Əhmədli qiyamı şah qoşunları tərəfindən amansızlıqla yatırıldı.

1615-1616-cı illərdə ***Dəli Məlik*** təxəllüslü Məlik Pirinin başçılığı ilə *Şirvanda* böyük üsyan oldu. Az sonra Gəncə yaxınlığındakı *Dəngi vilayətinin* əhalisi də mübarizəyə qoşuldu. Dəli Məlik müvəffəqiyyətsizliyini görərək ***1616-cı ildə*** Qərbi Gürcüstana sığındı. Səfəvi dövləti ikinci dəfə üsyançılara qarşı qoşun göndərdi və usyan yatırıldı, Dəli Məlik isə Dağıstanda gizlənə bildi.

1631-ci ildə Qafurabadda *dərviş* ***Rza Əfşarın****, 1632-ci ildə* Qarabağ hakimi ***Davud xanın*** rəhbərlikləri altında Şah Səfiyə qarşı usyanlar oldu, lakin hər ikisi şah tərəfindən dəf edildi.

1667-ci ildə Çuxursəd vilayətində (Naxçıvan, Culfa, İrəvan) iki il ərzində maaşları ödənilməyən Qacar və Bayat tayfalarından olan *döyüşçülərin üsyanları* amansızcasına yatırıldı [3, s. 322].

XVII əsrin 2-ci yarısında istismar olunan xalqın hakim təbəqənin zülmünə qarşı mübarizəsi müxtəlif formalarda özünü

göstərirdi. Bəzən mübarizə üsulu *dini xarakter* daşıyır, bəzən *xalq azadlıq hərəkatı* şəklində cərəyan edirdi, ya da *qiyama* çevrilirdi. Əhali kəskin ərzaq qıtlığı ilə üzləşmişdir. "Oğurluq" və qarət artmış, varlıların taxıl anbarlarına hücumlar çoxalmışdır [3, s. 319-322]. Məğlubiyyətlə nəticələnən bu üsyanlar antifeodal səciyyə daşıyırdı.

Mədəniyyət. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanın bir sıra şəhərlərində geniş *məktəb* və *mədrəsə* şəbəkəsi var idi. *1647-ci ildə* Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə var idi. Mədrəsələrdə şagirdlərin sayı 50 nəfərdən artıq olmurdur. XVII əsrin ortalarında Şamaxıda 40 məktəb və 7 mədrəsə var idi. Mədrəsələrdə dərs deyən müdərrislərdən *Mirzə Məhəmməd Məczub Təbrizini, Molla Mömini, Mövlana Əbdülsəmədi* və b. göstərmək olar. XVI əsrdə Azərbaycanda *kitabxanaçılıq* işi də inkişaf etmişdir. Təbrizdə böyük bir kitabxana var idi. Şah İsmayıl *1522-ci ildə* görkəmli rəssam *Kəmaləddin Behzadı* Təbrizdəki saray kitabxanasına rəis təyin etmişdir. Bura ***"Çiçəklənən kitab evi"*** adlandırılırdı. Təbrizin, Ərdəbilin, Şamaxının, Bakının, Gəncənin, Marağanın kitabxanalarında min nüsxələrlə kitab mövcud idi [3, s. 327-328]. I Şah İsmayıl *Marağa rəsədxanasını* bərpa etmək üçün məşhur riyaziyyatçı və astronom *Qiyasəddin Mənsur ibn Əmir Sədrəddin Məhəmmədini* Marağaya göndərib bərpa işlərinə başlamaq üçün əmr verdi. Məşhur münəccim *Mövlana Məhəmməd Ərdəbili,* riyaziyyatçı, astronom *Mahmud bəy Füsuni,* təbabətdə tanınan və I Şah Təhmasibin şəxsi həkimləri olan məşhur *Əbülfəth Təbrizi, İmaməddin Mahmud Nişapuri, Mövlana Kəmaləddin Hüseyn, Qiyasəddin Əli Kaşi, Məhəmməd Füzuli,* filosoflardan *Yusif Məhəmmədcan oğlu Qarabağı, Həqiri Rəhməti,* tarixçilərdən *Həsən bəy Rumlu, İsgəndər bəy Münşi* və b. XVI-XVII əsrlərin görkəmli elm xadimləri idilər. I Şah İsmayılın sarayında "şairlər şahı" *Həbibi* başda olmaqla *Süruri, Şahi, Matəmi, Tüfeyli, Qasimidən* ibarət ədəbi məclis var idi. ***Şah İsmayıl Xətai*** özü Azərbaycan

dilində yazan görkəmli şair idi. Şairin ədəbi irsi Azərbaycan dilində yazılmış *"Divan"*dan, ibrətamiz mənzumələrdən, lirik qoşmalardan, *"Nəsihətnamə"* adlı məsnəvidən və *"Dəhnamə"* poemasından ibarət idi [3, s. 331].

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan ***Məhəmməd Füzulinin (1498-1556)*** ulu babaları Teymurun yürüşləri zamanı Azərbaycandan İraqa köçürülənlərdən olmuşlar. Füzuli irsinin nümunələrindən "Leyli və Məcnun", "Söhbətül-əsmar", "Rindü zahid", "Həft cam", Səhhət və Mərəz" və s. göstərmək olar. XVI əsrdə Təbriz *miniatür məktəbində* və digər təsviri sənət mərkəzlərində çalışan Azərbaycan rəssamları arasında *Sadıx bəy Əfşar, Seyid Əli Təbrizi, Müzəffər Əli, Mir Müsəvvir, Heydər Əli, Sultan Məhəmməd, Yəhya Şirvani* və b. xüsusilə məşhur olmuşdular [3, s. 347]. *Sadıx bəy Əfşar (1533-1612)* naturalist rəssam və təzkiraçi idi. *Sultan Məhəmmədin* miniatürləri Sankt-Peterburq, London, Leypsiq, Venesiya muzeylərində mühafizə olunur.

XVI-XVII əsrlər *aşıq* sənətinin yüksəliş dövrü idi. Aşıqlar epik və lirik əsərlər yaradırdılar. Xalq şairlərinin ən görkəmli nümayəndəsi *Aşıq Qurbani* şifahi xalq yaradıcılığının yeni forması olan dastanların yaradıcısı idi. *Aşıq Qurbanidən* sonra XVII əsrdə *Abbas Tufarqanlı, Sarı Aşıq Abdulla* daha çox tanınırdılar. Gəncə, Şamaxı, Bakı, Ərdəbil, Təbriz, Marağa və s. şəhərlərdə *musiqiçilər dəstəsi* fəaliyyət göstərirdi. Musiqiçilərdən *Hüseyn Şüştəri Bəyani, Ustad Əsəd, Hafiz Sadıq Bərtaq, Mövlana Qasım, Hafiz Laleyi Təbrizinin* adlarını çəkmək olar. *Hafiz Laleyi Təbrizi* bu dövrün ən məşhur xanəndəsi idi.

XVI əsrin əvvəllərində Azərbaycan memarlığının aparıcı istiqamətlərindən biri ***Şirvan-Abşeron məktəbi*** olmuşdur. Səfəvi dövlətinin ilk tarixi dövrlərində həm yeni *xatirə kompleksləri* inşa olunur, həm də mövcud olan memorial abidələrin *dini-xatirə obyektlərinə* çevrilməsi sahəsində tədbirlər görülürdü: memorial abidələrə yeni tikilmiş *məscidlər,* ziyarətçilər üçün nəzərdə tutulmuş *türbələr* və s. əlavə edilirdi. Bu dövrdə ***"İmamzadə"*** ad-

lanan memarlıq tipi təşəkkül tapmışdır [3, s. 367-368]. XVI-XVII əsrlərdə Təbrizdə *birminarəli məscidlər* inşa olunmağa başlanmışdır. Səfəvilər dövründə *körpü, kəhriz, buxana, ovdan, hamam və karvansaray* kimi ictimai təyinatlı tikililər geniş miqyasda aparılırdı. *1544-cü ildə* Qusar rayonunun Həzrə kəndində tikilən *Şeyx Cüneyd türbəsi, Naxçıvanda Əlincə çayı* üzərində tikilmiş *körpü, Bakının Şərq darvazaları, Ərdəbil və Təbriz* şəhərlərindəki bir sıra abidələr XVI-XVII əsrlərdə memarlığın inkişafının bariz nümunələri idi.

XRONOLOJİ CƏDVƏL

XIII əsrin sonları - 1447 – Səfəvilərin şiəliyi yayması, xalq kütlələrinin antifeodal hərəkatına başçılıq etməsi.
1252-1334 – Şeyx Səfiəddin İshaq əl-Musəvi-əl-Ərdəbili.
1447-1501– Səfəvilərin müstəqil ruhani feodalları kimi fəaliyyət göstərməsi.
1447-1460 – Şeyx Cüneyd.
1449-1470 – Cüneydin əmisi Şeyx Cəfər.
1460-1488 – Ərdəbil hakimi Şeyx Heydər.
1481-1512 – Osmanlı sultanı II Bayazid.
1483, 1487, 1488 – Şeyx Heydərin Şirvan və Dağıstana yürüşləri.
1488, 9 iyun – Şahdağın ətəyində döyüşdə Şeyx Heydərin öldürülməsi.
1489-1493 – Heydərin oğulları-Sultanəli, İbrahim və 2 yaşlı İsmayılın anaları ilə birlikdə Şiraz yaxınlığındakı İstərx qalasında əsir olması.
1490-1492 – Baysunqur (Uzun Həsənin nəvəsi).
1491, yay – Van yaxınlığındakı döyüşdə Süleyman bəy Bicanoğlunun Sufi Xəlili məğlub etməsi.
1492-1497 – Rüstəm Mirzə (Uzun Həsənin nəvəsi).
1492, 1493 – Rüstəm Mirzənin Baysunqura qalib gəlməsi.

1494 – Sultanəlinin İsmayılı "Səfəviyyə" ordeninin başçısı kimi xələfi təyin etməsi.
1494-1495 – Rüstəm Mirzənin Ərdəbili və Səfəvilərin digər mülklərini işğal etməsi.
1494-1499 – İsmayılın Gilanda (Lahicanda) gizlədilməsi.
1498-1556 – Məhəmməd Füzuli.
1499, avqust – İsmayılın Lahicandan Ərdəbilə yola düşməsi.
1501-1524 – Şah İsmayıl (1487-1524).
1501-1587 – Səfəvilər hakimiyyətinin yaranması, möhkəmlənməsi və Azərbaycanın iqtisadi-siyasi və mədəni həyatında mühüm rol oynaması.
1500, payız – Qızılbaş qoşununun Kürü keçib, Şirvana daxil olması. Cabani döyüşündə Şirvanşahların məğlub olması, Fərrux Yasarın öldürülməsi.
1501, yaz – İsmayılın Bakını tutması.
1501, ortaları – Şərur düzündə İsmayılın Ağqoyunlu Əlvəndi məğlub etməsi.
1501, payız – İsmayilin Təbrizdə şah elan edilməsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması.
1501-1736 – Azərbaycan Səfəvilər dövləti.
1503, 21 iyun – Həmədan yaxınlığında Almaqulağı döyüşündə Şah İsmayılın Ağqoyunlu Muradı məğlub etməsi. Ağqoyunlu dövlətinin süqutu.
1504 – II Bayazidin Səfəvi dövlətini tanıması.
1504 – Şah İsmayılın Yəzdə və Kirmana yiyələnməsi.
1507-1508 – Səfəvilər, Roma Papası və Venesiya arasında diplomatik əlaqələrin yaradılması.
1507-1508 – Xorasanın Şeybani xan tərəfindən ələ keçirilməsi.
1508-1510 – Şah İsmayılın Xorasan istisna olmaqla, bütün İran və Ərəb İraqını öz hakimiyyəti altında birləşdirməsi.
1510, 1 dekabr – Mərv döyüşündə Şah İsmayılın Özbək Şeybani xanı məğlub etməsi və öldürməsi.
1510 – Səfəvi diplomatı Əli bəyin İtaliyaya getməsi.

1512 – I İsmayılın Qarahisar və Malatya şəhərlərinə yiyələnməsi.
1514, yaz – I Sultan Səlimin Ədirnədə fövqəladə divanda "qızılbaşlarla müharibənin bütün müsəlmanların müqəddəs vəzifəsi" elan etməsi.
1514, 23 avqust – Çaldıran döyüşü.
1514, 6 sentyabr – I Sultan Səlimin Təbrizi tutması.
1516, əvvəlləri – Qoçhisar döyüşü. Osmanlıların qələbəsi.
1520-1566 – I Sultan Süleyman Qanuni.
1522 – Görkəmli rəssam Kəmaləddin Behzadinin Təbriz saray kitabxanasına-"Çiçəklənən kitab evi"nə rəis təyin edilməsi.
1524-1576 – I Təhmasib.
1524-1535 – Şirvanşah II Xəlilullah.
1534, 1535, 1548, 1554 – I Sultan Süleymanın Azərbaycana yürüşləri.
1535-1538 – Şeyxşahın oğlu Şahrux.
1536 – I Şah Təhmasibin toxutdurduğu "Şeyx Səfi xalçası". Londonun "Viktoriya və Albert" muzeyində saxlanılması.
1538 – Şah I Təhmasibin Şirvana yürüşü.
1538 – Şirvan ərazisinin bəylərbəyiliyə çevrilməsi.
1544 – Qusar rayonunun Həzrə kəndində tikilən Şeyx Cüneyd türbəsi.
1547, əvvəlləri – Əlqas Mirzənin Səfəvi hakimiyyətinə qarşı qiyam qaldırması. Əlqas Mirzənin məğlub olub İstanbula qaçması. I Təhmasibin oğlu İsmayıl Mirzəni Şirvana bəylərbəyi təyin etməsi.
1547-1554 – Şirvanda 3 feodal qiyamının baş verməsi.
1551 – I Təhmasibin Şəkinin müstəqilliyinə son qoyması.
1552, yay – I Təhmasibin Osmanlılara qarşı yürüşü.
1555, 29 may – Amasiya sülh müqaviləsi – Qərbi Gürcüstanın Osmanlıların, Şərq Gürcüstanın Səfəvilərin ixtiyarına keçməsi.
1565 – I Təhmasibin vilayətlərin hər birindən alınan təqribən 80 min tümənlik tamğa vergisini ləğv etməsi.
1571-1573 – Təbriz üsyanı.
1575-1595 – Sultan III Murad

1576, may – I Təhmasibin vəfatı. Oğulları Məhəmməd Mirzə, İsmayıl Mirzə və Heydər Mirzənin taxt-tac üstündə mübarizəsi.
1576-1577 – II İsmayıl (İsmayıl Mirzə).
1577-1578 – I Təhmasibin qızı Pərixan xanım.
1577 – Van hakimi Xosrov paşanın başçılığı ilə Səfəvilərə qarşı kürd tayfalarının qiyamı.
1577-1584 – Krım xanı II Məhəmməd Gəray.
1578-1587 – Məhəmməd Xudabəndə. Məhdi Ulya Ali divanın vəkili vəzifəsində.
1578, 9 avqust – Çıldır döyüşü. Qızılbaşların məğlub olması.
1578, avqust – Mustafa Lələ Paşanın Tiflisi, Qorini tutması.
1578, sentyabr – Qanıx (Alazan) çayı sahilində döyüş. Osmanlı ordusunun Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyanı müqavimətsiz tutması.
1578, 28 noyabr – Krım xanı Adil Gərayın Səfəvilər tərəfindən məğlub edilməsi.
1578-1581 – Krım türklərinin Şirvan və Qarabağa hücumları.
1578, yaz – Osmanlıların məğlub olması.
1581 – Qiyamçı Şamlı əmirlərinin I Abbası şah elan etməsi.
1583 – Samur çayı sahilində "Məşəl savaşı". Osmanlıların qələbəsi.
1585, 12 avqust – Osmanlıların Pasinabad-Çaldıran-Xoy-Mərənd-Sufiyan-Təbriz istiqamətində yürüşü.
1585, sentyabr – Sufiyan döyüşü. Bir gün sonra Osman paşanın Təbrizi işğal etməsi.
1586-1589 – Sultan III Muradın bütün Azərbaycanı işğal etməsi.
1587, sentyabr-1629 – I Şah Abbas.
1587-1736 – Səfəvi dövlətinin mahiyyətinin dəyişməsi.
1590 – İstanbul sülhü. Azərbaycan (Qaradağ, Ərdəbil və Talış vilayətlər istisna olmaqla), Cənubi Qafqaz əraziləri və İranın bəzi qərb vilayətlərinin Osmanlı imperiyasının tərkibinə daxil edilməsi.
XVI əsr, 90-cı illər – Cəlalilər hərəkatı.

1598 – Paytaxtın Qəzvindən İsfahana köçürülməsi. Şah Abbasın şərəfinə "Abbasabad" adlı xüsusi məhəllənin salınması.
1599 – I Şah Abbasın Şeybaniləri məğlub etməsi. Xorasanın Səfəvi dövlətinin tərkibinə qatılması.
1603, 14 sentyabr – I Şah Abbasın Azərbaycana yürüşü.
1603, 21 oktyabr – Təbrizin tutulması. Ordubad, Culfa və Naxçıvanın ələ keçirilməsi.
1603, 16 noyabr – 1604, 8 iyun – I Şah Abbas tərəfindən İrəvan qalasının tutulması.
1603-1607 – Təbriz, Ordubad, Təsuc, Bakı və Dərbənddə baş vermiş xalq çıxışları.
1605, yaz – Şirvanın xeyli hissəsinin Səfəvi və gürcü birləşmiş qüvvələri tərəfindən tutulması.
1605 – Van döyüşündə Osmanlıların darmadağın edilməsi.
1605, may – Osmanlı paşası Ciğaloğlunun II dəfə Azərbaycana yürüşü.
1605, 7 noyabr – Osmanlıların məğlub olması.
1605-1606, 5 iyul – I Şah Abbasın Gəncəni tutması.
1607, iyun – Şirvanın Osmanlılardan azad edilməsi.
1607, martın əvvəlləri – Dərbənd qalasının Osmanlılardan azad edilməsi.
1610, ortaları – Cəlalilərinin Hacı Məhəmmədin və Qara Səidin başçılığı ilə Səfəvilər dövlətini tərk etmələri. Koroğlu.
1612, 17 oktyabr – Osmanlı dövləti ilə Səfəvilərin İstanbul sülh müqaviləsi -1555-ci il Amasiya sülhünün bərpa edilməsi.
1613, oktyabr – I Şah Abbasın Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüşü.
1615 – Şah Abbasın Qarabağdan və Şirvandan əhalini köçürmə siyasətinə qarşı Əhmədli qiyamı.
1615-1616 – Dəli Məlik təxəllüslü Məlik Pirinin başçılığı ilə Şirvan üsyanı.
1616, yaz – Sultan I Əhmədin Səfəvilərlə müharibəyə başlaması.
1618, may – Osmanlıların Diyarbəkirdən Azərbaycana yürüşü.

1618, 10 sentyabr – Sərab vilayətində, Sınıq körpü adlı yerdə döyüş. Osmanlıların məğlubiyyəti.
1618, 26 sentyabr – Mərənddə I Şah Abbasla Osmanlı Xəlil paşa arasında sülh müqaviləsinin imzalanması.
1622-1623 – I Şah Abbasın Bağdadla birlikdə İraqı ələ keçirməsi.
1629-1642 – I Şah Abbasın nəvəsi I Şah Səfi.
1631 – Qafurabadda dərviş Rza Əfşarın üsyanı.
1632 – Qarabağ hakimi Davud xanın usyanı.
1634 – Sultan IV Muradının 20 avqustda İrəvanı və 11 sentyabrda Təbrizi tutması.
1634, 15 sentyabr – Şah Səfinin Təbrizi azad etməsi.
1635, 2 aprel – Şah Səfinin İrəvan qalasını azad etməsi.
1637-1638 – Səfəvi-Osmanlı müharibəsinin İraqda davam etməsi.
1638, 25 dekabr – Osmanlıların Bağdadı tutması.
1639, 17 may – Qəsri-Şirində Səfəvi - Osmanlı sülh müqaviləsinin imzalanması.
1642-1666 – II Şah Abbas.
1647 – Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsənin olması.
1653-1662 – Səfəvi hərbi hissələri ilə ruslar arasında münaqişə.
1667 – Qızılbaş ipəyini Moskva və Qərbi Avropaya daşımaq üçün Rusiyanın Səfəvi dövləti ilə müqavilə imzalaması.
1667-1694 – Şah Süleyman.
1667 – Çuxursəd vilayətində (Naxçıvan, Culfa, İrəvan) iki il maaşları ödənilməyən Qacar və Bayat tayfalarından olan döyüşçülərin üsyanları.
1667 – Stepan Razinin mayda Volqaya, iyulun əvvəllərində Xəzər dənizinə çıxması.
1668, 4 yanvar – Şamaxıda zəlzələ.
1668, yay – S.Razin və S.Krivoyun birləşmiş qüvvələrinin Dərbənd sahilinə çıxması, Niyazabad, Şabran və Bakının qarət edilməsi.

VI FƏSİL
XVIII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN TORPAQLARINDA İCTİMAİ - SİYASİ VƏZİYYƏT

Plan:

1. Azərbaycan Səfəvilər dövlətinin tənəzzülü və süqutu şəraitində.
2.Azərbaycan torpaqları uğrunda Rusiya, İran və Osmanlı çəkişmələri.
3.Azərbaycan torpaqları Nadir şahın hakimiyyəti dövründə.
4.XVIII əsrin 30-40-cı illərində Azərbaycan ərazisində xalq hərəkatları.

1.Azərbaycan Səfəvilər dövlətinin tənəzzülü və süqutu şəraitində

XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Səfəvi dövləti dərin iqtisadi və siyasi böhran keçirirdi. Azərbaycan xalq kütlələrinin vəziyyəti xüsusilə ağır idi. Əhalinin və onun əmlakının siyahıya alınması ***(1699-1702)*** nəticəsində ölkədə toplanan vergi və mükəlləfiyyətlərin sayı üç dəfə artırılmış, bu da xalqın daha da acınacaqlı vəziyyətə düşməsinə səbəb olmuşdur. İmkanı olan şəxslər ailəsi və əmlakı ilə birlikdə şah məmurlarının təqibindən qaçaraq əlçatmaz yerlərdə gizlənirdilər. Belə halların qarşısını almaq üçün şah yeni Fərman verdi: "Gizlənən şəxsi kim tapsa və şaha bu barədə xəbər versə, onun başı şaha, əmlakı isə xəbər verən adama çatacaqdır" [3, s. 380]. XVIII əsrin əvvəllərində, təqribən 1700-1703-cü illərdə Azərbaycanda, xüsusilə Şirvanda dəhşətli aclığa səbəb olan quraqlıq baş verdi. Bu isə bahalığa, bazarlarda qiymətlərin qat-qat artırılmasına səbəb olmuşdur. Şah

sarayı yerli hakimlərə etibar etmədiyindən vergiləri toplamağı öz məmurlarına və nökərlərinə tapşırırdı. Bəzi bəylərbəyilər və b. iri feodallar müstəqilliyə can ataraq, şaha tabe olmaqdan imtina edirdilər. Azərbaycan – Şirvan, Qarabağ, Cənubi Azərbaycan və Çuxursəd bəylərbəyiləri vilayətlərdə toplanan vergilərin çox hissəsini mənimsəyirdilər, bəzi hallarda özbaşına olaraq vergilərin miqdarını və həcmini artırırdılar. Feodal istismarının güclənməsi geniş xalq kütlələrinin müqavimətinə səbəb olurdu. Azərbaycanda ilk kütləvi xalq çıxışı ***1707-ci ildə Car-Balakən*** bölgəsində, daha sonra ***Təbrizdə*** və ***Muganda*** baş verdi. Bu kəndli çıxışları *kortəbii xarakter* daşıyırdı. Dövlətin hakim dairələrinin üsyanı yatırmaq üçün göndərdikləri cəza dəstələri Car kəndini talan edib yandırdılar. ***1711-ci ildə Car camaatı*** yenidən silaha əl ataraq ***Şamaxı*** şəhərinə hücum etdilər və Səfəvilər dövlətinin Azərbaycandakı inzibati mərkəzinə od vurmaq qərarına gəldilər. Belə ki, carlılar sərhədləri qoruduqlarına görə vergilərdən azad olunmuşdular, hətta bunun müqabilində şah onlara xəzinədən pul verirdi. Şirvan bəylərbəyinin özbaşına carlılara ödənişi dayandırması onların qəzəbinə səbəb olmuşdur. Ərəş hakimi *Əli Sultanın* başçılığı ilə carlılar üsyan etdilər [3, s. 382]. Şirvanlılar da silaha əl ataraq carlılarla birləşdilər. ***Muğan*** əhalisi birinci olaraq mərkəzi hakimiyyətdən üz döndərdi. Azərbaycanın cənubunda və şimal-şərqində, habelə Cənubi Dağıstanda Səfəvi hakimiyyətinə qarşı ciddi çıxışlar oldu. ***1709, 1711-ci illərdə Təbrizdə, 1709-1715-ci illərdə Soucbulaq və Muğanda*** da xalq şah zülmünə qarşı çıxış etdi [8, s. 501]. Şirvan mübarizənin mərkəzinə çevrildi. Üsyanları yatırmaq məqsədilə şah hökuməti yerli hakimlərə bütün qüvvələri səfərbərliyə almağı əmr etdi. Lakin üsyanların öhdəsindən gəlmək olmurdu. Digər tərəfdən də, ***1709-cu ildə*** Qəndəhar şəhərini işğal edib İsfahanı da ələ keçirməyə çalışan əfqan qəbilələri şah sarayına Azərbaycanda baş verən üsyanları yatırmağa imkan vermirdi. Səfəvi dövlətinə daxil olan bütün ölkələri XVIII əsrin I yarısında xarici işğalçılara

qarşı mübarizə bürümüşdür. Bu mübarizə yerli feodalların zülmünə qarşı genişlənən xalq hərəkatı ilə birləşərək mərkəzi hökumətin əleyhinə ümumi cəbhəyə çevrilmişdir. Artıq XVIII əsrin əvvəllərində Azərbaycanda faktiki olaraq İran hakimiyyətinə itaət olunmurdu [3, s. 387]. Xalq azadlıq hərəkatına başçılıq edən və Müşkür mahalının Dəbəli kəndindən olan Hacı Davud belə bir şaiyə yaymışdır ki, guya o, sünniləri şiələrin, yəni Səfəvi şahlarının zülmündən azad etmək üçün Allah tərəfindən göndərilmişdir. ***Hacı Davudun*** başçılıq etdiyi üsyançılar ***Dərbənd, Şirvan və Xudata*** hücum etdilər, lakin *1719-cu ildə* xalq hərəkatı yatırıldı və Hacı Davud həbs edildi. *1720-1721-ci illərdə* Azərbaycanda Səfəvi zülmünə qarşı mübarizə yenidən qızışdı [8, s. 501]. Həbsdən qaçan Hacı Davudun Şirvanda və Dağıstanda hakimiyyəti ələ almaq üçün bir neçə dəfə Rusiyaya etdiyi müraciəti cavabsız qaldı. ***Hacı Davud*** Dağıstan feodalı-Qazıqumuxlu Surxay xanın köməyi ilə *1720-ci ildə Şabran* və *Xudat qalasını, 1721-ci il avqustun 10-da isə Şamaxını* ələ keçirdi. Qeyd etmək lazımdır ki, XVIII əsrin I yarısında Azərbaycanda geniş vüsət alan ***xalq hərəkatı*** feodalizm dövründə baş verən ictimai hərəkatlarda olduğu kimi ***kortəbii səciyyə*** daşıyırdı. Kortəbii olaraq silaha əl atan xalq kütləsi çox zaman feodal malikanələri və yaşayış məntəqələrini talan edir, yandırır, qarət edirdi. Belə ki, üsyançılar Şamaxı şəhərini ələ keçirəndə buradakı bazarı, karvansaraları, xarici ölkədən gələn tacirlərin, o cümlədən rus tacirlərinin bir neçə milyonluq malını qarət etmişdilər. Üsyançıların şəhərə hücumu ərəfəsində rus tacirləri İran tacirlərinin əmlakını gizlətmişdilər. Üsyançılar tacirlərin əmlakını tələb etdikdə, rus tacirləri isə bu tələbi yerinə yetirməmiş və onlara toplardan atəş açmışdılar. Adətən, xarici tacirlərə toxunmayan üsyançılar xarici tacirlərlə yanaşı rus tacirlərinə də zərər vurdular, bəzilərini isə öldürdülər. Şamaxıda qazanılmış qələbədən ruhlanan Hacı Davudun başçılığı ilə üsyançılar Dərbənd və Bakı qalalarına uğursuz yürüşlər etdilər. Lakin, Şirvanda geniş vüsət alan

xalq hərəkatlarını yatırmaq üçün şahın göstərişi ilə hücum edən İrəvan xanının qoşunu Hacı Davudun başçılığı ilə üsyançılar tərəfindən məğlub edildi. ***1721-ci ildə*** Hacı Davudun dəstələri Gəncəyə uğursuz həmlə etdi. ***1722-ci il martın 8-də əfqanlar İsfahan*** yaxınlığında şah qoşununu darmadağın edərək şəhəri ələ keçirdilər. ***Sultan Hüseyn*** başda olmaqla bütün Səfəvi xanədanı həbsə alındı, şahın böyük oğlu Təhmasib Astrabada qaçmağa imkan tapıb özünü ***II Təhmasib*** adı ilə şah elan etdi. Bu vaxt Rusiya və Osmanlı dövlətləri Qafqazda hakimiyyət uğrunda qarşı-qarşıya durmuşdular.

2.Azərbaycan torpaqları uğrunda Rusiya, İran və Osmanlı çəkişmələri

I Pyotrun Xəzəryanı bölgələrə yürüşü. XVIII əsrin əvvəllərinə qədər Rusiya hərbi təcavüz üçün qüvvəsi olmadığından Azərbaycana qarşı yalnız *iqtisadi siyasət* yeridirdi. Lakin bu siyasətin az əhəmiyyətli olduğunu başa düşən ***I Pyotr (1689-1725)*** Xəzəryanı bölgələri ələ keçirməyi qərara aldı. O, ***Xəzər-Volqa yolu ilə Şərq-Qərb ticarətində Rusiyanın vasitəçiliyinə*** nail olmağa çalışırdı. I Pyotrun ***əsas məqsədi Xəzərin qərb hissəsini işğal etmək, Cənubi Qafqazda möhkəmlənmək*** idi. Ona görə də *1722-1723-cü illər* hərbi kampaniyada hətta Təbrizə və Azərbaycanın digər bölgələrinə də yürüş etmək nəzərdə tutulurdu. *1721-ci il avqust ayında* Şirvan üsyanı zamanı Şamaxını ələ keçirən Hacı Davud və Qazıqumuxlu Surxay xanın adamlarının rus tacirlərini öldürməsi I Pyotrun qərarını qətiləşdirdi [9, s. 173]. I Pyotr onları həm Rusiyanın, həm də Səfəvilərin ümumi düşməni elan etdi. Hacı Davud kömək üçün Osmanlı sultanı III Əhmədə müraciət etdi, sonra isə İstanbula gəlib özünün Şirvan hakimi təsdiq olunmasına nail oldu. Rusiya hökuməti İstanbulda Hacı Davudla Sultan Əhməd arasında gedən danışıqlardan narahat oldu. Belə ki, Osmanlı qoşununun Şirvana yeridilməsi təkcə

Rusiyanın Cənub sərhədlərini təhlükə qarşısında qoymurdu, həm də onun Şərq ticarətinə də ağır zərbə vura bilərdi. I Pyotr bu səbəblərdən Xəzər dənizi sahillərinə tələsik hücuma keçdi. Belə ki, Rusiyanın işğalçılıq niyyətinin əsas səbəbləri var idi: əvvəla, Rusiya iqtisadiyyatının Azərbaycan xammalına böyük ehtiyacı vardı. 2, Rusiya Osmanlıların Cənubi Qafqazda, Xəzəryanı bölgələrdə möhkəmlənmək cəhdinin qarşısını almağa çalışırdı. ***1722-ci ilin mart ayında*** əfqanlar İsfahanı ələ keçirdikdən, şah Sultan Hüseyni taxtdan saldıqdan sonra Rusiya fəallaşdı və ***iyunun 18-də*** Həştərxandan quru və dəniz yolu ilə Azərbaycana yürüşə başladı. I Pyotr Cənubi Qafqazın xristian əhalisinə elan etdi ki, bu yürüşdə məqsəd onları ***müsəlman zülmündən xilas etməkdir***. ***1722-ci il iyunun 15-də*** Azərbaycan dilində ***"Bəyannamə"*** nəşr etdirib Şirvana göndərdi: 1) Səfəvilərə qarşı qiyam edənləri, rus tacirlərini öldürənləri cəzalandıracaq; 2) Osmanlıların bu bölgəni tutmalarının qarşısını alıb, Səfəvi hakimiyyətini bərpa edəcək [8, s. 503; 10, s. 473].

I Pyotrun bu Bəyannaməsi əhalinin bir qisminin Rusiyaya meyl etməsinə səbəb oldu. ***1722-ci il avqustun 23-də Dərbənd*** şəhərinin naibi İmamqulu bəy qala açarlarını I Pyotra təqdim etdi. Bu vaxt: 1) Avropada İsveç tərəfindən Rusiyaya qarşı yeni müharibə təhlükəsinin yaranması; 2) Osmanlı dövlətinin rus qoşunlarının Xəzəryanı bölgələrə soxulmasına kəskin etiraz etməsi; 3) Dağlarda qoşun toplayan Hacı Davudun rusların irəliləməsinin qarşısını almağa hazırlaşması I Pyotru, Bakının işğalını M.Matyuşkinə tapşıraraq Peterburqa qayıtmağa məcbur etdi [3, s. 394-395]. Rus qoşunları *1722-ci ildə* Bakı və Şamaxını ala bilməsələr də, Rus imperatorunu "İran ərazisində heç olmazsa bir fut torpaq" əldə etmək də qane edirdi [3, s. 394]. I Pyotr Rusiyaya qayıtdıqdan sonra hərbi ekspedisiyalar göndərməklə Xəzərsahili əyalətləri işğal edib Rusiyayanın hakimiyyəti altına salmaq qərarına gəldi. Buna görə də ilk öncə böyük hərbi-strateji və iqtisadi əhəmiyyət kəsb edən Bakı qalasını işğal etmək əsas

vəzifə idi. ***1722-ci ilin dekabrında*** başda polkovnik Şipov olmaqla rus eskadrası heç bir müqavimətə rast gəlmədən ***Rəşt şəhərini*** zəbt etdi. Şah Sultan Hüseyn hələ əfqanlar İsfahanı mühasirədə saxladıqları zaman Xəzərsahili vilayətləri Rusiyaya güzəştə getmək müqabilində rus hökumətinin Səfəvilərə hərbi yardım göstərməsi haqqında müqavilə bağlamaq üçün İsmayıl bəyi Peterburqa göndərdi. İsmayıl bəy hələ İranı tərk etməmiş əfqanların İsfahanı tutduqlarını və II Təhmasibin özünü şah elan etməsi xəbərini eşidərək, səlahiyyətlərinin yeni şah tərəfindən təsdiqlənməsi üçün geri qayıtdı. II Təhmasib rus qoşunlarının Xəzərsahili vilayətlərin işğalından xəbərsiz olduğuna görə, İsmayıl bəyin öz missiyasını yerinə yetirməsinə razılıq vermişdir, lakin rusların Rəşt şəhərini tutmaları xəbərini eşidən şah, İsmayıl bəyi geri çağırmaq üçün çapar göndərdi. Polkovnik Şipov Rəştə çatan çapara yalandan İsmayıl bəyin gəmi ilə artıq Rusiyaya yola düşdüyünü bildirdi. Rus qoşunları ***1722-ci ilin dekabrında Rəşt*** şəhərini işğal etdikdən sonra ***1723-cü ilin iyulun 21-də Bakını, sonra Salyanı*** ilhaq etdilər. ***1723-cü il sentyabrın 12-də*** II Təhmasibin onu səlahiyyətlərindən məhrum etməsindən xəbəri olmayan İsmayıl bəy şahdan **icazəsiz *Dərbənddən Gilana qədər olan Xəzəryanı bölgələrin Rusiyaya verilməsi haqqında Peterburq müqaviləsini*** imzaladı. ***Rusiya*** bunun əvəzində ***əfqanlarla müharibədə Səfəvi şahına yardım edəcəyini*** vəd etdi. Lakin II Təhmasib əvvəlcədən hüquqi əsasdan məhrum olan bu müqaviləni təsdiqləməkdən qəti boyun qaçırdı. İsmayıl bəy vətən xaini elan olundu və geri qayıtmağa cəsarət etməyib ömrünün sonunadək Rusiyada qaldı [3, s. 397]. Beləliklə, *1722-1723-cü illər Xəzəryanı bölgələrin Rusiya tərəfindən işğal olunmasının I mərhələsi başa çatdı* [8, s. 504].

İstanbul müqaviləsi. Cənubi Qafqaz ***Rusiya, Səfəvi, Osmanlı*** dövlətləri arasında ziddiyyətlərin düyün nöqtəsinə çevrildi. ***İngiltərə və Fransa*** da Rusiyanın Cənubi Qafqazda güclənməsindən narazı idilər. Osmanlı dövləti Rusiyanın Cənubi Qaf-

qaz, xüsusilə də Bakıda möhkəmlənməsinin qarşısını almaq məqsədilə hərəkətə keçdi. *1723-cü ilin oktyabrında* Osmanlı qoşunu Gəncəyə həmlə etdi, *1724-cü ilin iyun ayında* İrəvana daxil oldu. İsveçlə müharibəni təzəcə qurtarmış Rusiya yeni müharibəyə başlaya bilmədiyindən, Osmanlılarla sülh müqaviləsi bağlamağa məcbur oldu. ***1724-cü il iyunun 12-də İstanbulda*** Rusiya-Osmanlı müqaviləsi imzalandı [10, s. 483]. Rusiya Peterburq müqaviləsinin şərtlərinin (***Dərbənd, Bakı, Lənkəran, Rəşt və Ənzəlinin Rusiyaya keçməsini***) Osmanlı tərəfindən təsdiq edilməsinə nail oldu. Rusiya tərəfi isə öz növbəsində Osmanlı dövləti tərəfindən Qərbi Qafqazın və Cənubi Azərbaycanın işğalına etiraz etməyəcəyini bildirdi. ***Xəzəryanı bölgələr istisna olmaqla bütün Azərbaycan isə Osmanlılara*** keçdi [8, s. 505]. Müqaviləyə görə, Osmanlı imperiyasının Şirvanda qoşun saxlamağa ixtiyarı yox idi. Münaqişələr baş verdikdə sultan buraya yalnız Rusiyanın razılığı ilə qoşun yeridə bilərdi. Müqaviləyə əsasən ***Şirvan*** Osmanlı dövlətinin himayəsi altında *yarımmüstəqil xanlıq* elan olundu və Hacı Davud Osmanlı dövləti tərəfindən Şirvan xanlığının hakimi kimi təsdiq edildi [3, s. 398].

İstanbul müqaviləsinin həm Rusiya, həm də Osmanlı Türkiyəsi üçün ***əhəmiyyəti*** ondan ibarət idi ki, müqavilə sayəsində Osmanlı və Rusiya qoşunlarının Azərbaycan ərazisində toqquşmalarının qarşısı alındı, Rusiya öz mövqeyini Xəzərboyu əyalətlərdə möhkəmləndirdi və Osmanlı qoşunlarının bu ərazilərə yürüşünün qarşısı alındı. Osmanlı əsgərlərinin Səfəvi dövlətinin ucqarlarındakı ölkələri, o cümlədən, Xəzərboyu əyalətlərdən başqa digər Azərbaycan ərazilərini işğal etməsi üçün şərait yarandı.

Azərbaycanda Osmanlı idarə üsulu. İstanbul müqaviləsini reallaşdırmağa başlayan Osmanlılar *1725-ci ilin may-iyul* aylarında Təbrizi, *avqustda* Gəncəni, *1725-ci ilin dekabrında* işğal zonasına daxil olmayan Ərdəbili tutdular. *1728-ci ildə* Sultan III Əhməd Hacı Davudun yerinə *Qazıqumuxlu Surxay xanı* Şir-

vana hakim təyin etdi. Bu "yaxşılığın" əvəzində Surxay xan Osmanlı dövlətinin xəzinəsinə əhalidən külli miqdarda vergi toplayıb göndərməli idi. Surxay xan Osmanlı Türkiyəsinin itaətdə olan bir ələtinə çevrildi. Osmanlılar Azərbaycanı *vilayət-sancaqlıq-mahal-nahiyələr* şəklində hərbi-inzibati vahidlərə böldülər. *Nahiyələr* bir neçə kənddən ibarət *qəriyələrə* bölünürdü. Vilayətlərdə ali hərbi-inzibati, həmçinin siyasi hakimiyyət *hərbi dövrdə sərəsgər, dinc vaxtlarda isə mühafiz* adlandırılan Osmanlı sərkərdələrinə məxsus idi. *Sancaqbəyilər, naiblər və kəndxudalar* yerli feodallardan təyin olunurdular [3, s. 406].

Kürdən şimaldakı torpaqların xüsusi statusu vardı. İstanbul müqaviləsinə görə, Osmanlılar bu ərazilərdə hərbi qüvvə saxlaya bilməzdi. Bu yerlər (***Şəki, Ərəş, Qax***) yerli hakimlər tərəfindən idarə olunurdu. Osmanlılara müqavimət göstərmiş feodalların mülkləri alınır, dövlət torpaqlarına çevrilirdi. Onlara xidmət edən yerli feodallara isə dövlət torpaqlarından ***"bəylik"*** və ***"ağalıq"*** adlanan şərti torpaq verilirdi. Osmanlı hakimiyyəti altında olan ərazilərdə əhali siyahıya alınaraq hər sancaqlıq, hər vilayət üçün vergi qanunnaməsi tərtib edildi. Vergi dəftərlərində kişi əhalisinin siyahısı və vergilərin miqdarı öz əksini tapmışdır. *1727-ci il* "Gəncə vilayəti Qanunnaməsi"ndə qeyd olunduğu kimi, əhali üşr, bəhrə, bağpulu, bostanpulu, dəyirmana görə, can vergisi və s. vergilər ödəyirdi. "Naxçıvan dəftəri"ndəki qeydlərdən məlum olur ki, Osmanlılar qadınları, uşaqları, qocaları, şikəstləri, xəstələri, həmçinin zehni əməklə məşğul olan şəxsləri vergilərdən azad ediblərmiş. Bəzən vergilərin toplanmasında *müqatiə* (dövlətə müəyyən miqdarda pul ödəmək müqabilində ayrı-ayrı şəxslərə verilən *vergi toplama hüququ*) tətbiq olunurdu. Vilayət hakimləri yığılan vergilərin bir hissəsini özlərinə məvacib üçün saxlayırdılar. Yerli xəzinənin xeyli hissəsi Osmanlı qoşunlarını saxlamağa, habelə istehkamlar tikməyə sərf olunurdu. Osmanlılar Təbriz, Ərdəbil və Gəncə şəhərlərinin bərpasına xüsusi diqqət yetirirdilər. Hərbi əməliyyatlar nəticəsində

tənəzzülə uğramış ticarəti canlandırmaq üçün bəzi tədbirlər görülürdü. Araz çayı, Arpaçayın yataqları təmizlənərək gəmiçilik üçün yararlı hala gətirilirmişdir [3, s. 408].

Azərbaycanda Rusiya idarə üsulu. Rusiya üçün Xəzəryanı əyalətlər həm iqtisadi, həm də strateji əhəmiyyətə malik idi. Rus hökumət dairələri Xəzəryanı əyalətlərdən bu məqsədlə istifadə etmək üçün xüsusi tədbirlər planı hazırlamışdılar. Rusiya dövlətini, ilk növbədə, Abşeronun neft quyuları, xüsusilə, ağ neft maraqlandırırdı. I Pyotr general-mayor M.Matyuşkinə "Rusiyaya ya bir neçə pud ağ neft göndər, yaxud da özünlə gətir", "Ağ neftdən min pud və ya nə qədər mümkünsə göndər" əmrini vermişdir [3, s. 401]. İnkişaf etməkdə olan Rusiya sənayesinin neftdən əlavə, Xəzəryanı əyalətlərin, eləcə də Şirvanın təbii sərvətinə və burada istehsal olunan xammala, xüsusilə xam ipək, pambıq, yun, təbii boyalar, tikinti materialları, metal və s. də böyük ehtiyacı var idi. I Pyotr bu yerlərin təbii sərvətlərini istismar etmək məqsədilə Xəzəzryanı bölgələrin təbii sərvətlərinin öyrənilməsi haqqında Fərman verdi. Azərbaycandan Rusiyaya neft, xam ipək, Rusiyadan Azərbaycana kətan, mahud daşınırdı. Ruslar Kürün mənsəbində Peterburq kimi şəhər, yəni Rusiyanın Xəzər dənizi vasitəsilə Şərq ölkələri ilə əlaqələr yaradan ticarət mərkəzi salmaq istəyirdilər. Ruslar ilk əvvəllər *kamendant idarə üsulu* yaratdılar, sonra *mahal-nahiyə* bölgüsü tətbiq etdilər. Mahalları *darğalar,* nahiyələri *yüzbaşılar*, kəndləri *kəndxuda* və *kovxalar* idarə edirdi. ***1724-cü ildə*** verilən Fərmanla ***I Pyotr ermənilərі Xəzəryanı əyalətlərdə tutulan istənilən ərazidə, lazım gələrsə, yerli əhalini qovub, ermənilərі həmin yerlərdə yerləşdirmək*** göstərişi vermişdir: "Xoşagəlməz, yaxud şübhəli müsəlmanları qovmaq və onları xristianlarla əvəz etmək" [3, s. 403]. ***I Pyotrun*** bu məkrli siyasəti *1725-ci il fevralın 11-də* Xarici işlər kollegiyasının qərarında və ***I Yekaterinanın*** ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında *1726-cı il fevralın 22-də* verdiyi Fərmanında da öz əksini tapmışdır [180,

s. 43]. Çar hökuməti bu əyalətlərdə ermənilər yerləşdirməklə iki məqsəd güdürdü: həm cənubdan qismən ərazi əmin-amanlığı təmin edilsin, həm də ticarətdə olan ermənilərin xidmətindən faydalansın. Ermənilərin Şirvan bölgəsində məskunlaşması məhz bu dövrə təsadüf edir [3, s. 402].

3.Azərbaycan torpaqları Nadir şahın hakimiyyəti dövründə

Kirmanşah və Rəşt müqavilələri. ***1724-cü ildə*** *Salyanda, Bakıda* və b. yerlərdə rus hakimiyyətinə qarşı, ***1726-cı ildə*** *Zəngəzur, Qafan və Cənubi Qafqazda, xüsusilə Şirvanda,* ***1727-1730-cu illərdə*** *Qarabağ, Şamaxı, Muğan, Astara, Təbriz, Xaçqala, Marağa, Ərdəbil və Xalxal* bölgələrində də Osmanlılara qarşı üsyanlar baş vermişdir. Xalq kütlələri yadelli işğalçılara qarşı kəskin müqavimət göstərir və onların əsarətindən azad olmaq istəyirdilər. Bu üsyanlar yalnız ***1730-cu ildə*** amansızcasına yatırıldı.

Şah II Təhmasib və yerli feodallar dövlətin taleyi haqqında düşünməli oldular. *Yadellilərə qarşı mübarizədə daxili qüvvələri birləşdirmək vacib idi.* Bu məsul vəzifəni Əfşar tayfasından olan Nadir xan öz üzərinə götürdü. Əfqan tayfalarını İsfahandan qovan Nadir xan Əfşar ***1730-cu ildə*** Osmanlılara qarşı hərbi əməliyyata başlayaraq ***Marağa, Ərdəbil və Təbrizi*** azad etdi. Nadirin Xorasanda İran hakimiyyətinə qarşı qalxmış üsyanı yatırmaqla məşğul olmasından istifadə edən Səfəvi şahı ***II Təhmasib*** sarsılmış nüfuzunu bərpa etmək məqsədilə Osmanlılara qarşı hərbi əməliyyatlara başladı və ***Eçmiədzin*** yaxınlığında qələbə qazandı. Lakin ***İrəvan*** yaxınlığında onu məğlub edən *Osmanlılar Urmiya, Təbriz* və *Ərdəbili* ələ keçirdilər. Nadir xan Əfşar II Təhmasibə məktub yollayaraq Osmanlı Türkiyəsi ilə sülh bağlamamağı və torpaq güzəştə getməməsini tələb etdi. Lakin, ***1732-ci il 16 yanvarda*** II Təhmasib ***Kirmanşahda*** Osmanlılarla sülh

bağladı: *İrəvan, Gəncə, Şamaxı, Şirvan bölgələri Osmanlıda qaldı. Həmədan, Kirmanşah, Ərdəbil və Təbriz isə Səfəvilərə qaytarıldı. Araz çayı 2 dövlət arasında sərhəd olmalı idi* [3, s. 413]. *1730-cu ildə* Nadirin Osmanlı üzərində qələbəsindən sonra Rusiya ehtiyatlı siyasət yeridərək Səfəvilərlə münasibətləri gərginləşdirməmək üçün ***1732-ci ilin yanvarın 21-də Rəşt*** şəhərində Səfəvilərlə ***8 maddədən*** ibarət müqavilə imzaladı: I maddəyə əsasən *Rusiya Kürdən cənubdakı Xəzəryanı bölgələri Səfəvi dövlətinə qaytardı, Səfəvilər isə Osmanlıları bu yerlərə buraxmamağı öhdələrinə götürdülər* [8, s. 511], II maddəyə əsasən isə *Kürdən şimaldakı torpaqlardan rus qoşunları o vaxt geri çəkiləcək ki, Səfəvilər 20-ci illərdə Osmanlı imperiyası tərəfindən işğal olunan əraziləri geri qaytaracaqdır.* Müqavilədə göstərildiyi kimi Səfəvi dövləti *rus tacirlərinə* müəyyən güzəştlər etdi: onlara İran dövlətinin hər yerində özləri üçün ev, karvansaray və dükan tikməyə icazə verilirdi. VII maddədə isə vaxtilə ***Rusiya təbəəliyinə keçən*** ərazilrə heç bir təzyiq göstərilməyəcəyi bildirilirdi [3, s. 405-406].

Xorasandan qayıdan Nadir xan ***1732-ci ilin avqustunda*** II Təhmasibi taxtdan salaraq onun 8 aylıq oğlu Abbas Mirzəni ***III Abbas*** adı ilə şah elan etdi. Faktiki olaraq III Abbasın qəyyumu olan Nadir xan ilk növbədə Kirmanşah müqaviləsini ləğv etdi və *1723-cü ildən sonra* Osmanlıların tutduğu əraziləri boşaltmağı tələb etdi. Onların rədd cavabı müharibəyə səbəb oldu. *1733-cü ilin yanvarında* Osmanlıları ağır məğlubiyyətə uğradan Nadir xanın bağladığı ***Bağdad müqaviləsinə*** görə, *Osmanlılar son 10 ildə tutduqları Səfəvi ərazilərini tərk etməli idilər.* Bütün Cənubi Azərbaycanı Osmanlılardan təmizləyən Nadir xan *1734-cu ildə* ***Şirvanı*** azad etdi. *1735-ci ilin əvvəllərində* Nadir xan ***Gəncəni*** də *Osmanlılardan* geri aldı və *ruslardan Xəzəryanı bölgələrdən çıxmalarını* tələb etdi. ***1735-ci ilin martın 21-də*** imzalanan ***Gəncə müqaviləsinə*** əsasən, *ruslar* ***Xəzəryanı vilayətləri*** *tamamilə tərk etməli idilər.* ***1735-ci ilin iyun ayında Eçmiədzinin*** şimal-

şərqində Osmanlı qoşununu tam məğlub edən Nadir xan onları ilin sonuna kimi bütün Cənubi Qafqazdan çıxardı [3, s. 415]. ***1736-cı ilin martında Suqovuşanda*** toplanan qurultayda ***Nadir xan*** özünü ***şah*** elan etdi. Bununla da ***Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu***. Nadirin şah elan olunmasına qarşı çıxan ***Ziyadoğlular*** adı ilə məşhur olan ***Gəncə xanları*** cəzalandırıldı, hüquqları məhdudlaşdırıldı, ***Qarabağın Otuzikilər, Kəbirli və Cavanşir tayfaları*** Xorasana sürgün edildilər. Qarabağ məlikləri Gəncə bəylərbəyiliyinə, ***Qazax və Borçalı mahalları*** Kartli hakimliyinə tabe edildi [8, s. 514]. Əvvəlki inzibati-ərazi bölgüsü ləğv edildi. Nadir şah ***Şirvan, Qarabağ, Çuxursəd və Təbriz bəylərbəyiliklərini*** birləşdirərək ***Azərbaycan*** adı altında ***vahid inzibati bölgə*** yaratdı. Azərbaycanın mərkəzi ***Təbriz***, hakimi isə Nadir şahın qardaşı ***İbrahim xan*** oldu. Nadir şah hakimiyyətinin ilk dövründə vergi toplanması işini qaydaya salmaq üçün yeni vəzifə bölgüsü apardı. Dövlətin idarə olunmasında əsasən əfşar-türk tayfalarından olanlar üstünlük təşkil edirdi. Şahın əmri ilə rəiyyətin ***hərbi xidmətə*** çağırılması əhalinin vəziyyətini daha da ağırlaşdırdı. ***1737-ci ildə*** Astrabadda 6 min kəndli zorla hərbi səfərbərliyə çağırıldı.

Ümumiyyətlə, Nadir şahın ölkədə həyata keçirdiyi siyasət XVIII əsrin 30-40-cı illərində Azərbaycana fəlakət gətirmiş, təsərrüfat həyatı tənəzzülə uğramışdır. Dözülməz həyat şəraiti, səfalət xalqı cana doydurmuşdur, ona görə də mövcud hakimiyyətə qarşı hiddət və nifrət gündən-günə artmaqda idi.

4.XVIII əsrin 30-40-cı illərində Azərbaycan ərazisində xalq hərəkatları

Ağır vergi siyasəti, yerli feodalların zülmü əhalinin həyat tərzinin daha da acınacaqlı vəziyyətə düşməsinə və onların kəndlərdən qaçmasına səbəb oldu. ***1734-cü ildə Astrabadın*** acyalavac kəndliləri ayağa qalxdılar. Az sonra Şəkinin ***Biləcik,*** sonra isə qonşu ***Cənik, Tala*** və ***Car kəndləri*** üsyan etdi. Üsyanı yatırmaq üçün ***1735-ci ilin fevralında*** cəza dəstələri göndərildi. Yerli əhalinin qismən tabe olması ilə kifayətlənən Nadir şah ***1737-ci ildə*** Hindistan və Mərkəzi Asiyaya yürüş etdi. Onun ölkədə olmamasından istifadə edən əhali ***1737-ci ildə*** Azərbaycanın şimal-şərq bölgəsində yenidən üsyan etdi. Ən böyük üsyan Dağıstandan kömək alan ***Carda*** oldu. Üsyanı yatırmağa gələn Nadir şahın qardaşı ***İbrahim xan*** öldürüldü. ***1739-cu ildə*** Azərbaycanın şimal və şimal-şərq bölgələrində Nadir şaha qarşı çıxışlar ən yüksək mərhələyə çatdı, lakin qüvvələr nisbəti bərabər olmadığından yatırıldı. XVIII əsrin 40-cı illərində üsyanların genişlənməsi nəticəsində Cənubi Qafqazı itirməkdən qorxan Nadir şah 100 minlik qoşunla Car vilayətinə və Azərbaycanın şimal-şərq bölgələrinə özü yürüş etdi. ***1743-cü ildə*** üsyanların genişləndiyi bir şəraitdə özlərini Səfəvi şahzadələri kimi qələmə verən yalançı şahzadələr-Sam Mirzələr meydana çıxdı. ***I Sam Mirzə*** Avarda peyda olmuş, sonra Şirvana gələrək 20 min tərəfdarları və Qazıqumuxlu Surxay xanın dəstəsi ilə birlikdə Yeni Şamaxıya-Ağsuya hücum etdi. ***1743-cü ildə*** Nadir şah oğlu ***Nəsrullah Mirzəni*** qoşunla I Sam Mirzəyə qarşı Şamaxıya yolladı. Bundan əlavə, Nadir şah Gəncə, Qarabağ, Çuxursəd, Əhər, Qaradağ və Muğana üsyanları yatırmaq üçün 10-20 min nəfər əsgər göndərdi. Şirvan düzənliyində baş vermiş döyüşdə I Sam Mirzənin qoşunu darmadağın edildi, özü isə edam edildi.

1743-cü ilin son rübündən etibarən xalq hərəkatına Ərdəbildən Şirvana gəlmiş ***II Sam Mirzə*** başçılıq edirdi. Hakim dai-

rələr onu təhlükəli düşmən hesab etmədiklərindən yalnız burnunu kəsib buraxdılar, o isə tezliklə Şirvanda Surxay xanın oğlu Məhəmməd xanın yardımı ilə Nadir şahın hakimiyyətini sarsıdan xalq hərəka-tının başçısına çevrildi. Şirvan üsyanı geniş vüsət alaraq Xəzər dənizi sahillərindən Gəncəyədək olan böyük bir ərazini əhatə edirdi. ***1743-cü il noyabrın 9-da*** Nadir şah oğlu ***Nəsrullah Mirzəni*** böyük qoşunla Şirvana göndərdi, lakin o, məğlub oldu. Buna görə Nadir şah təcili olaraq Osmanlı dövləti ilə sülh müqaviləsi imzalayıb, əsas qüvvələri Azərbaycandakı üsyanları yatırmaq üçün göndərməyə qərar verdi. Nəsrullah Mirzənin qoşunu Ağsu yaxınlığındakı Şahdağ adlı yerdə üsyançıların birləşmiş dəstələri ilə üz-üzə gəldi. Ağsu qalası alındı. II Sam Mirzə Gürcüstana qaçdı. Lakin Kaxetiya çarı Teymuraz onu əsir alaraq Nəsrullah Mirzənin düşərgəsinə göndərdi. ***1743-cü il dekabrın 29-da*** Nəsrullah Mirzə onun bir gözünü çıxartdırıb, bir neçə Osmanlı əsiri ilə Qarsa "qardaşı" Səfi Mirzə ilə görüşməyə göndərdi. Lakin yolda II Sam Mirzə öldü. Nadir şah xidmətlərinə görə ***Araqvi vilayətini*** Teymuraza hədiyyə etdi.

Şəki üsyanı. ***1743-1744-cü illərdə Şirvan, Şəki, Təbriz, Xoy*** və ***Salmasda*** yeni üsyanlar başladı. ***Şəkidə*** mübarizə daha kəskin şəkil almışdır. Hələ *1741-ci ildə* əhali Şəki hakimi Məlik Nəcəfdən Nadir şaha şikayət etmişdir. Odur ki, Nadir şah ***Hacı Çələbi Qurban*** oğlunun Şəkidə ***vəkil*** seçilməsinə razı olmuşdur. Lakin Məlik Nəcəfin şikayətindən sonra Hacı Çələbi Nadir şahın hüzuruna çağırıldı. Şah Hacı Çələbinin asılmasını əmr etdikdə, o, Məlik Nəcəfin özbaşına vergiləri artırdığını, çox hissəsini özü mənimsədiyini bildirdi. Şah Hacı Çələbini cəsarətinə görə bağışladı. Şahın hüzurundan qayıdandan sonra Hacı Çələbi Məlik Nəcəfi daha çox sıxışdırdı və o, şaha şikayət etdi. Şah Hacı Çələbinin üzərinə 100 tümən cərimə qoydu. Cəriməni ödəməkdən boyun qaçıran Hacı Çələbi çağırılmasına baxmayaraq şahın hüzuruna getmədi. Hacı Çələbi geri qayıdanda Məlik Nəcəfi öldürüb hakimiyyəti ələ aldı və ***1743-cü ildə Şəkini müstəqil xanlıq*** elan etdi. Bununla da Azərbaycanda müstəqil xanlıqların ya-

ranmasının əsası qoyuldu. Nadir şah ona qarşı ordu yeritdikdə Hacı Çələbi ***"Gələrsən-görərsən"*** qalasına sığındı. Lakin uzun müddət mühasirə nəticəsində ərzaq ehtiyatı tükənən Hacı Çələbi *1746-cı ildə* Nadir şahın hakimiyyətini tanımağa məcbur oldu. ***1747-ci ildə*** yeni üsyanlar qalxanda ***Hacı Çələbi*** özünü yenidən xan elan etdi.

1747-ci ildə Nadir şah əleyhinə ***Ərdəbil*** və ***Təbrizdə*** yeni üsyanlar baş verdi. Üsyana ***III Sam Mirzə*** başçılıq edirdi. O, üsyan üçün Novruz bayramının birinci gününü seçərək, güclü silahlı dəstə ilə inzibati idarə nümayəndələrini qılıncdan keçirdi və ***Təbrizdə*** hakimiyyəti ələ aldı. ***1747-ci il iyunun 19-da*** sui-qəsd nəticəsində ***Nadir şah*** öldürüldü, onun silah gücünə yaratdığı dövlət süqut etdi. Ölkəni feodal ara müharibələri bürüdü. Bu dövrdə Azərbaycanda müstəqil xanlıqların yaranması prosesi gedirdi. ***III Sam Mirzə*** Lənkəran və Bakı xanlarını öz tərəfinə çəkərək Rəştə yürüş etdi. Nadir şahın qardaşı oğlu ***Adil şah*** ordusunu Rəştə yeritdi. III Sam Mirzə Təbrizə gələrək hakimiyyəti ələ aldı və şəhər əhalisinin köməyi ilə Nadir şah idarə sistemini ləğv etdi, Təbriz hakimi oldu. O, Azərbaycan xanlarına özünün ali hakimiyyəti haqqında Fərmanını göndərdi. Azərbaycan xanları Sam Mirzənin fərmanını rədd etdilər və o, xanlardan kömək almaq ümidindən məhrum oldu. Sonra Sam Mirzə İrəvana hücum etdi, lakin burada üsyanı yatıran Əmiraslan xanın müqavimətinə rast gəldiyindən Təbrizə qayıtdı. Əmiraslan xanın ordusu Təbrizə doğru irəliləyərək ***III Sam Mirzənin*** dəstəsini məğlub etdi, özünü isə qətlə yetirdi [3, s. 425].

Bu dövrün üsyanlarının ***səciyyəvi cəhəti*** onların çoxunun eyni vaxtda başlanması idi. Bu isə şah qüvvələrinin parçalanmasına və maddi ehtiyatların tükənməsinə səbəb olurdu. Lakin üsyanların əksəriyyətinin kortəbiiliyi, aydın məqsədin olmaması və daxili ziddiyyətlər onların taleyini əvvəlcədən həll edirdi. Bununla belə, həmin üsyanların böyük tarixi əhəmiyyəti var idi. Azərbaycan və əsarətə alınmış digər ölkələrdə azadlıq hərəkatının genişlənməsi üçün əlverişli şərait yaranmışdır. Aramsız mü-

haribələr, iqtisadi vəziyyətin ağırlığı, sosial qruplar arasındakı ziddiyyətlər Nadir şah dövlətini süquta doğru aparırdı. Hələ ***1748-ci ildə*** Azərbaycan feodallarının İrana qarşı yaranmış ittifaqı Azərbaycanda İran hökmranlığının tam ləğv olunduğunu göstərirdi.

XRONOLOJİ CƏDVƏL

1689-1725 – I Pyotr.
1699-1702 – Əhalinin və onun əmlakının siyahıya alınması**.**
1700-1703 – Azərbaycanda, xüsusilə Şirvanda dəhşətli aclığa səbəb olan quraqlıq.
1707 – Car-Balakən bölgəsində, Təbriz və Muganda xalq çıxışlarınn baş verməsi.
1709, 1711 – Təbrizdə xalq çıxışları.
1709-1715 – Soucbulaq və Muğanda xalq çıxışları.
1709 – Qəndəhar şəhərini əfqan qəbilələrinin işğal etməsi.
1711 – Car camaatının Şamaxıda üsyanı.
1718-1719 – Hacı Davudun başçılığı ilə Şirvan üsyanının I mərhələsi. Hacı Davudun həbs edilməsi.
1720-1721 – Şirvan üsyanının II mərhələsi.
1720 – Şabran və Xudat qalasının alınması.
1721, 10 avqust – Hacı Davudun Qazıqumuxlu Surxay xanın köməyi ilə başçılıq etdiyi Şirvan üsyançılarının Şamaxını tutması. Rus tacirlərinin öldürülməsi.
1722 – Əfqanların martın 8-i İsfahanı tutması. Sultan Hüseynin həbsi, şahın oğlu Təhmasibin Astrabadda özünü II Təhmasib adı ilə şah elan etməsi.
1722, 15 iyun – I Pyotrun Azərbaycan dilində nəşr etdirdiyi "Bəyannamə".
1722, 18 iyun – I Pyotrun Həştərxandan Azərbaycana yürüşü.
1722, 23 avqust – Dərbənd şəhərinin I Pyotra təslim olması.

1722, dekabr – Polkovnik Şipovun başçılığı ilə rus eskadrasının Rəşt şəhərini işğal etməsi.
1723, 21 iyul – Rus eskadrasının Bakını, sonra Salyanı ilhaq etməsi.
1723, 12 sentyabr – Peterburq müqaviləsi.
1723, oktyabr – Osmanlıların Gəncəyə hücumu.
1724, iyun – Osmanlıların İrəvanı tutması.
1724, 12 iyun – İstanbulda Rusiya-Osmanlı müqaviləsi.
1724 – Salyan, Bakı və b. yerlərdə rus hakimiyyətinə qarşı üsyanlar.
1724 – I Pyotrun Fərmanı.
1725, 11 fevral – Xarici işlər kollegiyasının Qərarı.
1725 – Osmanlıların may-iyul aylarında Təbrizi, avqustda Gəncəni, dekabrda Ərdəbili tutması.
1726, 26 fevral – I Yekaterinanın ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında Fərmanı.
1726 – Zəngəzur, Qafan, Şirvanda Osmanlılara qarşı üsyanlar.
1727-1730 – Qarabağ, Şamaxı, Muğan, Astara, Təbriz, Xaçqala, Marağa, Ərdəbil və Xalxal bölgələrində Osmanlılara qarşı üsyanlar.
1728 – Sultan III Əhmədin Qazıqumuxlu Surxay xanı Şirvana hakim təyin etməsi.
1730 – Nadir xan Əfşarın Osmanlılardan Marağa, Ərdəbil və Təbrizi azad etməsi.
1730 – Nadirin Osmanlı üzərində qələbəsi.
1732, 16 yanvar – Səfəvilərlə Osmanlılar arasında Kirmanşah müqaviləsi.
1732, 21 yanvar – Səfəvilərlə Rusiya arasında Rəşt müqaviləsi.
1732, avqust-1736, mart – III Abbas.
1734 –Nadir xanın Şirvanı Osmanlılardan azad etməsi.
1734 – Astrabad, Şəkinin Biləcik, Cənik, Tala və Car kəndlərinin üsyanları.

1735, əvvəlləri – Nadir xanın Gəncəni Osmanlılardan azad etməsi.
1735, 21 mart – Gəncə müqaviləsi.
1735, iyun – Eçmiədzinin şimal-şərqində Nadir xanın Osmanlı qoşununu məğlub etməsi.
1736, mart – Suqovuşanda toplanan qurultayda Nadir xanın özünü şah elan etməsi.
1737 – Astrabadda 6 min kəndlinin zorla hərbi səfərbərliyə çağırılması.
1737 - 1739 – Azərbaycanın şimal-şərq bölgəsində – Carda üsyan. Nadir şahın qardaşı İbrahim xanın öldürülməsi.
1743 – Avardan Şirvana gəlmiş I Sam Mirzənin üsyanı.
1743, son rübü – Ərdəbildən Şirvana gəlmiş II Sam Mirzənin başçılığı ilə xalq hərəkatı.
1743-1744 – Şirvan, Şəki, Təbriz, Xoy və Salmas üsyanları.
1743 – Şəkinin müstəqil xanlıq elan edilməsi.
1747 – III Sam Mirzənin başçılığı ilə Ərdəbil və Təbriz üsyanları.
1747, 19 iyun – Nadir şahın sui-qəsd nəticəsində öldürülməsi.
1748 – Azərbaycan feodallarının İrana qarşı ittifaq bağlaması.

VII FƏSİL
AZƏRBAYCAN ƏRAZİSİ XANLIQLAR DÖVRÜNDƏ

Plan:

1.Azərbaycan xanlıqlarının yaranması və onların ictimai-iqtisadi vəziyyəti.
2.Azərbaycan xanlıqlarının qarşılıqlı münasibətləri.
3. Azərbaycan xanlıqlarının xarici siyasi əlaqələri. Rusiya və İranın işğalçılıq siyasətinə qarşı mübarizə.
5. XVIII əsr Azərbaycan mədəniyyəti.

1.Azərbaycan xanlıqlarının yaranması və onların ictimai-iqtisadi vəziyyəti

1747-ci ildə Nadir şahın ölümündən sonra silah gücünə İran tərkibinə ilhaq edilmiş ölkələr tədricən özlərinin keçmiş müstəqilliklərini bərpa etməyə başladılar. Azərbaycanda İran əsarəti sona çatdı. Bu dövrdə ölkəmizdə müstəqil xanlıqların yaranması prosesi gedirdi. Qeyd etmək lazımdır ki, xanlıqların bəzisi Nadir şah dövlətinin süqutundan sonra meydana gəlmişdisə, digərləri hələ Nadir şahın hökmranlığı dövründə İran əleyninə mübarizə nəticəsində formalaşmağa başlamışdır: Qarabağ, Şəki, Şamaxı, Gəncə, Naxçıvan, Dərbənd, Təbriz, Urmiya, Ərdəbil, Maku, Marağa, Xoy, Quba, Bakı, Lənkəran, İrəvan və s. xanlıqlar. Bunlardan əlavə, Azərbaycanda daha kiçik feodal qurumları - İlisu, Ərəş, Qəbələ, Qazax və Şəmşəddil sultanlıqları, Qarabağda isə Vərəndə, Crabert, Gülüstan, Dizaq və Xaçın məlikləri var idi. Sultanlıqlar və məliklər xanlıqlardan asılı idilər. Məsələn, Qəbələ, Ərəş və İlisu sultanlıqları Şəki xanlığından, məliklər isə Qarabağ xanlığından asılı idilər. Azərbaycanda belə çox xanlıq və digər feodal

hökmdarlıqlarının meydana gəlməsi ölkənin ayrı-ayrı vilayətləri arasında sabit iqtisadi əlaqələrin olmaması, natural təsərrüfatın hökm sürməsi, habelə iri feodalların bu və ya digər ərazi üzərində öz hakimiyyətini qurmaq cəhdləri ilə bağlı idi.

Xanlıqlar və digər feodal mülkləri İranda hakimiyyət uğrunda mübarizə aparan feodal qrupları ilə mübarizədə yarandı. Bu dövrdə Azərbaycanın şimal vilayətlərinin xanları – Qarabağ, Bakı, Dərbənd, Quba, Şamaxı, Şəki hakimləri Adil şahın yanına nümayəndələrini göndərərək öz müstəqilliklərini tanımaq tələbini irəli sürdülər. "Əks halda özlərini Nadir şahın vaxtındakı kimi aparmağa məcbur olacaqlarını" elan etdilər. Adil şah xanların şərtləri ilə razılaşdı və hətta onlara xələt bağışladı [3, s. 427]. Adil şahı hakimiyyətdən devirən qardaşı İbrahim Mirzə də xanlara hədiyyələr göndərərək onlardan hərbi kömək istədi. Lakin Şamaxılı Hacı Məhəmmədəli xandan başqa Azərbaycan xanları İbrahim şahın hakimiyyətini tanımaqdan imtina etdilər. Şaha qulluq göstərdiyinə görə Şamaxı xanını cəzalandırmaq üçün hər kəs öz dəstəsi ilə Yeni Şamaxıya yürüş etdi. Bir tərəfdən İbrahim şah, digər tərəfdən isə Dərbənd xanı ordu göndərərək Şamaxı xanının köməyinə yetişdilər. Azərbaycan xanları cənubdan İran, şimaldan Dərbənd qoşunlarının gözlənilməz həmlələrini dəf etmək üçün 3 hissəyə və 3 cəbhədə bölünməyə məcbur oldular. Onlar bu gözlənilməz hadisədən qəzəbləndilər və ittifaqa girərək heç vaxt İbrahim şaha tabe olmayacaqlarına and içdilər. Sonra nisbətən böyük qüvvə ilə Yeni Şamaxıya hücum edərək Hacı Məhəmmədəli xanı hakimiyyətdən devirdilər. XVIII əsrin I yarısında İran hökmranlığına qarşı çıxış edən Azərbaycanın feodal hakimləri yerli əhaliyə arxalanırdılar. Məhz bu birgə mübarizə Azərbaycan ərazisində yadellilərin hökmranlığının ləğv edilməsinə gətirən əsas amillərdən biri idi [3, s. 429]. Beləliklə, Azərbaycan ərazisində xanlıqlar əsasən İran hökmranlığı ilə mübarizədə yarandığından onların meydana gəlməsi ilə sosial-iqtisadi və siyasi şərtləri ümumi xarakter daşıyırdı [3, s. 442].

Nisbətən kiçik əraziləri əhatə etmələrinə baxmayaraq, Azərbaycan xanlıqlarının əksəriyyəti dövlətə məxsus bütün əlamətlərə malik olub müstəqil daxili və xarici siyasət yeridirdilər. Xanlıqlarda hakimiyyət, əsas etibarı ilə yerli feodalların əlində idi. Məsələn, *Gəncə xanlığını* Gəncənin irsi hakimi olan *Şahverdi xan Ziyadoğlu, Bakı xanlığını* sabiq Bakı hakimi Dərgahqulu bəyin oğlu *Mirzə Məhəmməd xan, Dərbənd xanlığını* Dərbəndin sabiq naibi İmamqulu bəyin oğlu *Məhəmmədhüseyn xan* idarə edirdi.

Xanlıqlarda dövlət idarə orqanları İran əsarəti dövrünə nisbətən xeyli sadələşdirilmişdir. Geniş məmurlar aparatını indi sabiq şah məmurlarının vəzifələrini yerinə yetirən *bəylər* və *digər yerli feodallar* əvəz edirdi. Xanlıqlarda *ali hakimiyyət xanların* əlində cəmləşmişdi. Onlar qeyri-məhdud hakimiyyətə malik olub xanlığın *bütün daxili* və *xarici siyasət* məsələlərinə tam nəzarət edirdilər. Hər bir xanlığın *özünə məxsus dövlət idarə quruluşu* və *məhkəmə orqanları* var idi. Bəzi xanlıqlarda *dövlət idarə quruluşu dövlət şurası, inzibati, vergi* və *hərbi idarələrdən* ibarət idi. Məsələn, Qarabağ xanlığında bu idarələrin başında İbrahimxəlil xanın qohumları və yaxın adamları dururdular. *Xanlıqlar* inzibati cəhətdən *mahallara* bölünürdü. *Mahalları naiblər* idarə edirdilər. Hər bir *naibin ixtiyarında darğalar, yüzbaşılar* və *kəndxudalar* olurdu. *Məhkəmə işlərinə şəriət* və *xan* tərəfindən çıxarılan ayrı-ayrı *qanunlar* və *yerli adətlər* əsasında baxılırdı. *Ən mühüm işlərə xanın özü, digər mülki* və *cinayət işlərinə* isə ruhani hakimlər – *qazilər* baxırdılar.

Azərbaycan xanlıqlarında əhalinin sosial tərkibi əvvəlki dövrlərdən fərqlənmirdi. Ən yüksək mövqeyi *xanlar,* onlardan sonra isə *sultanlar, bəylər, ağalar* və *məliklər* tuturdular. Qazax və qonşu yerlərdə bəylərlə bərabər hüquqa malik olan feodal torpaq sahibləri ağalar adlanırdı. Ölkə əhalisinin əsas kütləsini bir neçə qrupa bölünən *kəndlilər* təşkil edirdi. Onların əksəriyyəti divan, sahibkar və vəqf torpaqlarında sakin olan *rəiyyətlərdən*

ibarət idi. Onların *öz təsərrüfatı* və *torpaq payı* var idi. Kəndlilərin sayca az olan digər qrupu *rəncbərlər* adlanırdı. Onların isə *öz torpaq payı, alətləri* və *təsərrüfatı* yox idi. Maldarlıq təsərrüfatı ilə məşğul olan *yarımköçəri elatlar* da kəndli ailəsinə aid idi. *Şəhər əhalisi* daha çox *tacir* və *sənətkarlardan,* habelə *imtiyazlı təbəqələrin* nümayəndələrindən ibarət idi. Ayrı-ayrı şəhərlərdə əhalinin xeyli hissəsini kəndlilər təşkil edirdilər. Torpaq mülkiyyət formalarında da elə bir dəyişiklik baş verməmişdir. *Divan, mülk, tiyul, vəqf* və *camaat torpaqları* yenə də qalmaqda davam edirdi. Lakin divan torpaqları getdikcə daha çox xan hakimiyyətinin əlində cəmləşir, tiyul torpaqları mülk xarakteri alırdı. XVIII əsrin ikinci yarısında Azərbaycanda yenə də *məhsul rentası* üstün yer tuturdu. Lakin rentanın *işlə* və *pulla* ödənilən formaları da var idi. Rəiyyətdən alınan əsas vergi *malcəhət* adlanırdı. Müxtəlif xanlıqlarda onun həcmi məhsulun *1/10 hissəsi* ilə *1/3 hissəsi* arasında tərəddüd edirdi. Otlaqlardan istifadə əvəzində rəiyyətlərdən əlavə vergi-*çöpbaşı* alırdılar. Kəndlilər bunlardan əlavə *bağbaşı, bayramlıq, toy pulu, at arpası, mirzəyanə, darğalıq* və s. vergilər ödəyirdilər. XVIII əsrin ikinci yarısında Azərbaycanın iqtisadi həyatında ümumi durğunluq hökm sürürdü. Bununla belə, yadellilərin zülmündən xilas olmuş kənd təsərrüfatı, sənətkarlıq və ticarətdə bir qədər canlanma nəzərə çarpırdı.

Quba, Qarabağ, Şamaxı, Şəki və Gəncə xanlıqlarında əkinçilik nisbətən yaxşı vəziyyətdə idi. Bütün xanlıqlarda əhali bağçılıq, bostançılıq və arıçılıqla məşğul olurdu. *Pambıqçılıq* daha çox *Şirvan, Gəncə, Qarabağ* və *Naxçıvan* xanlıqlarında yayılmışdır**.** *Dərbənd, Quba* və *Bakı* xanlıqlarında *qızılboya* və *zəfəran* becərilirdi. Azərbaycan xanlıqlarının iqtisadi həyatında ipəkçilik xüsusi yer tuturdu. *İpəkçiliyin* əsas mərkəzləri *Şamaxı* və *Şəki* xanlıqları idi. Avropa səyyahlarından biri yazırdı ki, hər il "Şirvandan 400 tona qədər ipək ixrac olunurdu". Bu dövrdə sənətkarlıqda da müəyyən yüksəliş hiss olunurdu. Toxuculuq sənəti xüsusilə geniş yayılmışdır. İstehsal edilən *mov, darayi, taf-*

ta, zərbaft kimi parçalar xarici ölkələrə də ixrac edilirdi. *Quba, Qarabağ* və *Təbriz öz xalçaları* ilə şöhrət qazanmışdılar. Xalq içərisindən çıxmış ustalar bir sıra gözəl *məişət avadanlıqları, zərgərlik məmulatları* və müxtəlif növ *silahlar* istehsal edirdilər. *Lahıcda mis qablar, tüfəng və xəncər* hazırlanırdı. *Şəkidə* və *Gəncədə* milli üslubda gözəl *şəbəkələr* istehsal edilirdi. Bu dövrdə Azərbaycanda təşəkkül tapmış sosial-iqtisadi münasibətlər sənət istehsalına və ticarətin əsas mərkəzləri olan şəhərlərə də ciddi təsir göstərirdi. Əldə olan məlumatların təhlili göstərir ki, bəhs edilən dövrdə Azərbaycan şəhərlərinin əksəriyyəti dərin *iqtisadi tənəzzül* keçirirdi. Bu tənəzzülün daha doğrusu, *əsas səbəbi avropalıların Hindistana gedən dəniz yollarından daha intensiv istifadə etmələri* ilə bağlı idi. Qərblə Şərq ölkələrini birləşdirən, tranzit ticarət yolları üzərində yerləşən, iqtisadiyyatı daha çox mal ixracatına köklənən və bunun sayəsində böyük gəlir əldə edən Azərbaycan şəhərləri bütün XVIII əsr ərzində bu üstünlüklərdən məhrum olurdular. Şərq ölkələrində feodal istehsal üsulunun hökmran olaraq qalması fonunda Qərbi Avropada kapitalist istehsalının getdikcə geniş miqyas alması da bu böhranın dərinləşməsində az rol oynamırdı. Şərqin sənətkar emalatxanalarında bəsit üsulla hazırlanan bir sıra sənətkarlıq məhsulları *Qərbdə manufaktura* və *fabriklərdə istehsal edilən daha ucuz* və *keyfiyyətli* eyni məhsullarla rəqabət apara bilmir və nəticədə özlərinin ənənəvi satış bazarlarından məhrum olurdular. Vaxtilə ancaq Şərqin sənətkarlıq mərkəzlərində istehsal olunan və böyük partiyalarla Avropaya ixrac edilən malların bir çoxu artıq bu ölkələrin özlərində istehsal edilərək bu malların ənənəvi istehlakçıları olan ölkələrə, o cümlədən Azərbaycana göndərilirdi. ***1789-1791-ci illərdə*** Avropa ölkələrindən Azərbaycana çoxlu miqdarda *atlas, məxmər, mahud* və *pambıq parçalar, bəzək* və *məişət əşyaları* gətirilirdi. Şübhəsiz ki, bu faktlar Azərbaycan şəhərlərinin iqtisadi həyatının əsasını təşkil edən sənət istehsalına mənfi təsir göstərirdi. Xanlıqlar dövründə Azərbaycan şəhərlərinin tə-

nəzzülə uğramasında təbii fəlakətlər, yadelli işğalçıların hücumları və feodal ara müharibələri də az rol oynamamışdır.

Bütün bunlara baxmayaraq, müstəqil xanlıqların meydana gəlməsinin Azərbaycan şəhərlərinin sosial-iqtisadi həyatına müəyyən müsbət təsirini də göstərmək lazımdır. Belə ki, ayrı-ayrı xanların iqamətgahlarına çevrilən şəhərlərin hərbi cəhətdən müdafiəsinə daha çox diqqət verilirdi, nəticədə belə şəhərlərdə həyat nisbətən təhlükəsiz olurdu. Mövcud siyasi şəraitin mənfi təsirinə baxmayaraq, sənətkarların əsas kütləsi yenə də şəhərlərdə cəmləşmişdir.

Əvvəllər olduğu kimi, xanlıqlar dövründə də Azərbaycan şəhərlərinin iqtisadi həyatının əsasını *sənətkarlıq, ticarət* və *kənd təsərrüfatı* təşkil edirdi. Şəhərlərin iqtisadi həyatının əsas mərkəzi *bazarlar* idi. Sənətkar emalatxanalarının və ticarət dükanlarının əksəriyyəti ya bazarlarda, ya da bazarlara bitişik küçələrdə yerləşirdi. Adətən, böyük şəhərlərdə eyni sənət növü ilə məşğul olan sənətkarlar ayrıca küçələr yaradır, orta və kiçik şəhərlərdə isə qarışıq şəkildə işləyirdilər. XVIII əsrin sonlarında Azərbaycanda olmuş səyyah M.Biberşteyn yazırdı ki, sənətkar dükanları "hər bir şəhərdə onu bir başdan o biri başa qədər kəsən əsas küçələri yaradırlar". Xanlıqlar dövründə Azərbaycan şəhərlərində yaşayan əhalinin sosial tərkibinin tam və dəqiq mənzərəsini yaratmaq mümkün olmasa da, ayrı-ayrı şəhərlərə aid olan məlumatlar əsasında bu məsələ haqqında müəyyən fikir söyləmək olar. Mənbələrdən birində göstərildiyi kimi, şəhər əhalisi hüquq və vəzifələrinə görə *imtiyazlı silkə* və *vergi ödəyənlərə* bölünürdü. *Birinci silkə xanlar, bəylər, məliklər, ağalar, axundlar, mollalar, seyidlər, mirzələr* və *xan nökərləri, ikinci silkə isə tacirlər, sənətkarlar, əkinçilər, şəhər yoxsulları* və başqaları daxil idilər. Şəhər əhalisinin ümumi sayına nisbətdə *imtiyazlı əhalinin* sayı *8-15%* təşkil etdiyi müxtəlif şəhərlərdə *tacir* və *sənətkarlar* təxminən *35-50%-ə* bərabər olurdu.

2.Azərbaycan xanlıqlarının qarşılıqlı münasibətləri

XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində mövcud olmuş Azərbaycan xanlıqlarında daxili siyasi həyat olduqca mürəkkəb və gərgin idi. Bu və ya digər bölgədə hakimiyyəti ələ keçirən xanlar öz torpaqlarını daha da genişləndirmək uğrunda mübarizə aparırdılar. Bu xanlıqlardan yalnız bəzilərinin hakimləri bütün ***Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirməyi*** qarşılarına məqsəd qoymuşdular.

Azərbaycanın cənub xanlıqlarında daxili siyasi mübarizə İranda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda mübarizə ilə çulğalanmışdır. Burada gedən mübarizədə əfqan tayfasından olan ***Azad xan,*** Nadir şahın qohumu ***Fətəli xan Əfşar***, Astrabad və Mazandaranda yaşayan Qacarların başçısı ***Məhəmmədhəsən xan Qacar*** və zəndlər tayfasının başçısı ***Kərim xan Zənd*** fəal iştirak edirdi. İlk dövrlərdə ***Fətəli xan Əfşar (1747-1763)*** xeyli uğur qazanmışdır. O, Azad xanın köməyilə ***Urmiya, Təbriz, Xoy, Qaradağ*** və ***Mərənd xanlıqlarını*** özündən asılı vəziyyətə salmışdır. Lakin Fətəli xan Əfşar bununla kifayətlənməyib öz hakimiyyətini bütün İranda yaymaq niyyətində idi. Onun bu cəhdi ***Məhəmmədhəsən xanın*** və ***Kərim xan Zəndin*** ciddi müqaviməti ilə rastlaşdı.

Bu dövrdə İranda başlıca qüvvəyə çevrilən ***Kərim xan Zənd Fətəli xana*** qarşı mübarizəyə başladı. ***1752-ci ildə Miyanə*** və ***Qəmşə*** döyüşlərində, ***1761-ci ildə Qaraçəmən*** kəndi yaxınlığında baş verən döyüşdə zəndlər məğlub olsalar da sonralar bunun əvəzini çıxdılar. ***Kərim xan Zənd 1763-cü il fevralın 20-də*** 9 aylıq mühasirədən sonra Fətəli xan Əfşarın sonuncu iqamətgahı ***Urmiya qalasını*** ələ keçirdi, özünü isə əsir götürüb qətlə yetirdi. Fətəli xan Əfşarı aradan qaldırmağa nail olan Kərim xan Zənd öz müttəfiqlərini qələbəni bayram etmək bəhanəsi ilə Şiraza qonaq aparır və "qonaqlıq" adı ilə onları girov götürür. ***"Şiraz qonaqlığı"*** nəticəsində Qarabağ, Qaradağ və digər cənub xanlıq-

ları bir müddət Kərim xan Zənddən asılı vəziyyətə düşürlər. Lakin bu asılılıq, əksər hallarda, formal xarakter daşıyırdı.

Nadir şahın ölümündən sonra Azərbaycanın şimal xanlıqları arasında ***Şəki*** xanlığı xüsusilə fərqlənirdi. Xanlığın banisi ***Hacı Çələbi*** öz hakimiyyətini bütün Azərbaycan torpaqlarına yaymağa çalışırdı. Lakin onun ***1748-ci ildə Təbrizə*** və ***Qarabağa*** yürüşü uğursuzluqla nəticələndi. O bu uğursuzluqların əvəzini ***Ərəş*** və ***Qəbələ*** sultanlıqlarını xanlığa birləşdirməklə çıxdı. Hacı Çələbinin güclənməsi həm qonşu Azərbaycan xanlıqlarını, həm də ***Kartli-Kaxetiya çarlığını*** ciddi narahat edirdi. Gürcü çarı ***Teymuraz*** və onun oğlu ***II İrakli*** Azərbaycan xanlıqları arasında ziddiyyətləri daha da dərinləşdimək və bu yolla ***Gəncə, Qarabağ xanlıqlarını*** və ***Car-Balakən camaatlığını*** ələ keçirmək istəyirdilər. ***1751-ci ildə*** gürcü qoşunları ***Car*** torpağına hücum etdilər, lakin ağır məğlubiyyətə uğrayıb geri çəkilməyə məcbur oldular. Gürcü çarları Gəncəni tutmaqla bunun əvəzini çıxmağa çalışırdılar. Onlar bu dəfə Azərbaycan xanları arasında ziddiyyətlərdən faydalanmaq qərarına gəldilər. ***II İrakli Hacı Çələbiyə qarşı Gəncə, Qaradağ, İrəvan, Qarabağ*** və ***Naxçıvan*** xanlıqlarından ibarət *ittifaq* yaratmağa nail oldu. ***1752-ci il martın 21-də*** danışıqlar bəhanəsiylə müttəfiqləri Gəncə yaxınlığına toplayan II İrakli qəflətən onların hamısını əsir götürdü [8, s. 524]. Bu hadisə tarixə ***"Qızılqaya xəyanəti"*** kimi düşdü. Bu xəbəri eşidən ***Hacı Çələbi*** öz ordusu ilə düşmən üzərinə hərəkət etdi və onu ağır məğlubiyyətə uğratdı. Əsir götürülmüş Azərbaycan xanları azad edildi. Düşmən ordusunu təqib edən Hacı Çələbi ***Qazax*** və ***Borçalı sultanlıqlarını*** ələ keçirdi. Gürcü çarlarının bunun əvəzini Car-Balakəni ələ keçirməklə çıxmaq cəhdləri isə nəticəsiz oldu. ***1755-ci ildə*** Hacı Çələbi böyük qüvvə ilə ***Şirvana*** yürüş etdi, lakin Şamaxı və Quba xanlıqlarının birləşmiş qüvvələri ilə toqquşmada məğlub olub geri çəkildi. Elə həmin il ***Hacı Çələbi*** vəfat etdi. Onun ölümündən sonra Şəki xanlığında başlamış hakimiyyət uğrunda mübarizə vəziyyəti xeyli mürək-

kəbləşdirdi. ***Hüseyn xanın*** və ***Məhəmmədhəsən xanın*** hakimiyyətləri dövründə Şəki xanlığı özünün əvvəlki qüdrətini itirdi. Bundan istifadə edən ***Qubalı Fətəli xan 1785-ci ildə Şəki xanlığını*** özündən asılı vəziyyətə saldı.

Qarabağ xanlığı Kür və Araz çayları arasındakı geniş torpaqları əhatə edirdi. Xanlığın banisi ***Pənahəli xan (1748-1763)*** Qarabağda yaşayan ***Cavanşirlər tayfasından*** idi. Vaxtilə Nadir şahın ordusunda xidmət etmiş Pənahəli xan onun ölümündən sonra özünü müstəqil hökmdar elan etdi. O, ilk növbədə xanlığın hərbi qüdrətinin güclənməsinə diqqət yetirdi. Qarabağ xanlığını İran və qonşu xanlıqların hücumlarından qorumaq məqsədilə ***1748-ci ildə Bayat qalasının*** əsasını qoydu [77, s. 80]. Qısa vaxt ərzində qalaya hasar çəkildi, ətrafında xəndəklər qazıldı, yaşayış evləri, məscid, bazar və hamamlar tikildi. Qarabağ xanlığının güclənməsi bu yerləri ələ keçirmək istəyən ***Hacı Çələbini*** və müstəqilliyə can atan ***Qarabağ məliklərini*** ciddi narahat edirdi. Elə buna görə də onlar ***1748-ci ildə*** Pənahəli xanın üzərinə hücum edib ***Bayat qalasını*** mühasirəyə aldılar. Lakin bir aydan artıq davam etmiş mühasirə heç bir nəticə vermədi. Bununla belə, düşmənlərin hücum təhlükəsi hələ də qalmaqda davam edirdi. Bu, Pənahəli xanı daha etibarlı qala tikdirməyə vadar etdi. ***1752-ci ildə*** Qarabağ xanı yeni bir qalanın - ***Şahbulaq qalasının*** əsasını qoydu. Qarabağ tarixçisi Mirzə Camal yazırdı ki, Pənahəli xan 4 il bu qalada yaşadı, lakin Şahbulaq qalası da kifayət qədər möhkəm deyildi. Pənahəli xan ***1756-cı ildə*** üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş hündür dağ yaylasında yeni bir qalanın əsasını qoydu. Qala əvvəllər öz banisinin adı ilə ***Pənahabad,*** sonralar isə ***Şuşa*** adlandırıldı. Çox əlverişli strateji mövqeyə malik olan Şuşa qalası düşmən hücumu üçün əlçatmaz idi. Qala tezliklə bütün Azərbaycanın mühüm ticarət, sənətkarlıq və mədəni mərkəzlərindən birinə çevrildi. Pənahəli xanın fəaliyyətinin mühüm istiqamətlərindən birini onun hakimiyyətini qəbul etmək istəməyən xristian məliklərinə qarşı mübarizə təşkil edirdi. Onu

da göstərmək lazımdır ki, XVII əsrdə və XVIII əsrin əvvəllərində formalaşmış bu məliklər Nadir şahın hakimiyyəti dövründə xeyli imtiyazlara malik idilər. Qarabağ xanlığının yaranmasından sonra da onlar özlərini müstəqil aparmağa çalışırdılar. Pənahəli xan müxtəlif yollarla məlikləri özünə tabe etməyə çalışırdı. Onun hakimiyyətini birinci olaraq müsəlman olan ***Vərəndə məliyi Şahnəzər*** qəbul etdi. Şahnəzər öz qızını İbrahimxəlil xana ərə verdi. Pənahəli xan yerdə qalan məliklər arasındakı ziddiyyətlərdən istifadə edərək onların hamısını özündən asılı vəziyyətə sala bildi, lakin bu asılılıq əksər hallarda formal xarakter daşıyırdı. Qarabağ məlikləri ilə mərkəzi xan hakimiyyəti arasında mübarizə *dini əsasda deyil, torpaq* və *hakimiyyət uğrunda* gedirdi [3, s. 445]. Rusiyanın yardımından istifadə edən məliklər imkan düşən kimi müstəqil olmağa çalışır və hətta, Qarabağ ərazisində erməni dövləti yaratmağı planlaşdırırdılar.

İranda hakimiyyət uğrunda gedən mübarizədən istifadə edən Pənahəli xan Qarabağ xanlığının ərazisini xeyli genişləndirməyə nail oldu. Əvvəllər *Qaradağ, Naxçıvan* və *İrəvan xanlıqlarına* tabe olan *Tatev, Sisian, Qafan, Mehri, Güney* və *Göyçə mahalları* ***Qarabağ xanlığına*** birləşdirildi. ***Təbriz, Naxçıvan, Gəncə*** və ***Qaradağ xanlıqları*** müəyyən vaxtlar Qarabağ xanlığından asılı vəziyyətdə olurdular. Pənahəli xan öz xanlığının müstəqilliyini uğurla qoruyub saxlayırdı. ***1757-ci ildə*** Qarabağ xanlığı ***Məhəmmədhəsən xan Qacarın*** hücumuna məruz qaldı. Lakin bir aya qədər Qarabağda qalmasına baxmayaraq düşmən ordusu heç Şuşaya yaxınlaşa bilmədi və geri çəkilməyə məcbur oldu. ***1759-cu ildə*** Urmiya hakimi ***Fətəli xan Əfşar*** Qarabağa hücum etdi. Şuşanı 6 ay mühasirədə saxlamasına baxmayaraq, düşmən onu ələ keçirə bilmədi. Lakin uzun sürən mühasirənin şəhərdə vəziyyəti pisləşdirdiyini görən Pənahəli xan oğlu ***İbrahimxəlil xanı*** girov verməklə mühasirənin dayandırılmasına nail oldu. ***İbrahimxəlil xanın (1763-1806)*** hakimiyyəti dövründə Qarabağ xanlığı daha da gücləndi və nəinki Azərbaycanın, hətta

bütün Cənubi Qafqazın ən güclü dövlət qurumlarından birinə çevrildi. Yalnız Azərbaycan xanlıqları deyil, həm də Rusiya, İran və Osmanlı kimi dövlətlər də Qarabağ xanlığı ilə hesablaşırdılar [78, s. 85].

Quba xanlığının əsasını ***Hüseynəli xan (1726-1758)*** qoymuşdur. Xanlığın mərkəzi əvvəlcə ***Xudat***, sonra isə ***Quba*** şəhəri olmuşdur. Hüseynəli xanın dövründə ***1756-cı ildə Salyan xanlığı*** Quba xanlığının tərkibinə qatıldı. ***Fətəli xanın (1758-1789)*** hakimiyyəti dövründə Quba xanlığı daha da gücləndi. A.Bakıxanov Fətəli xanı öz dövrünün "tədbirli, mərhəmətli, əzmində sabitqədəm, məmləkəti idarə etmək işlərində mahir bir adam" kimi xarakterizə edirdi. Güclü dövlət yaratmağa çalışan Fətəli xan özbaşınalıq edən mahal naiblərinin hakimiyyətini məhdudlaşdırmış, vergilərin toplanmasını nizama salmış, ordunun sayını xeyli artırmışdır. Onun fəaliyyətində pərakəndə ***Azərbaycan torpaqlarını birləşdirmək*** cəhdi özünü aydın şəkildə göstərirdi. Fətəli xan mühüm strateji əhəmiyyəti olan Dərbənd xanlığını ilhaq etməyə can atırdı. Bu dövrdə ***Dərbənd xanı Məhəmmədhüseyn xanın*** yeritdiyi siyasət şəhər əhalisinin ciddi narazılığına səbəb olmuşdur. Bundan məharətlə istifadə edən Fətəli xan şəhər əhalisinin xeyli hissəsini öz tərəfinə çəkə bildi. Lakin Dərbəndin möhkəm qala divarları ilə əhatə olunduğunu nəzərə alan Fətəli xan planlaşdırılan hücumun uğurla nəticələnməsini təmin etmək üçün bir sıra ***Cənubi Dağıstan feodalları***, o cümlədən, ***Qaraqaytaq usmisi*** (hakimi) ***Əmir Həmzə*** ilə ittifaqa girdi. Görülən bu tədbirlər nəticəsində ***1759-cu ildə Dərbənd xanlığı*** Quba xanlığına birləşdirildi [8, s. 544].

Dərbənd xanının xəzinəsi və bütün mülkləri Fətəli xanın əlinə keçdi. Fətəli xan öz müttəfiqlərini də mükafatlandırdı. Dərbəndin ələ keçirilməsində xüsusi xidməti olan Əmir Həmzəyə Dərbəndin ətrafında yerləşən üç kənd, habelə şəhərin Qırxlar və Carçı qapılarından gömrük haqqı toplamaq hüququ verildi. Lakin az sonra Dərbənddə möhkəmlənən və Əmir Həmzənin

mövqeyindən xəbər tutan Qubalı Fətəli xan onu bu hüquqdan məhrum etdi. Bu isə Fətəli xanla Əmir Həmzə arasında uzun müddət davam edən və Quba xanlığı üçün dəfələrlə ciddi problemlər yaradan düşmənçiliyin başlanğıcı oldu [78, s. 100-101].

Dərbənd xanlığından sonra Fətəli xan öz diqqətini ***Bakı xanlığını*** Quba xanlığına birləşdirməyə yönəltdi. Bu dövrdə Bakı Xəzər dənizində ən əlverişli liman şəhəri idi. Bakı xanları ***duz*** və ***neft*** çıxarılmasından, habelə ***zəfəran*** yetişdirilməsindən böyük gəlir götürürdülər. Bütün bu gəlirlərin Quba xanlığının xəzinəsinə daxil olması Fətəli xana öz planlarını daha uğurla həyata keçirmək imkanı verərdi. Bu dövrdə Bakı xanlığı hərbi cəhətdən xeyli zəif idi. Bakı xanları onları qonşu xanlıqların hücumlarından qoruya biləcək güclü bir müdafiəçiyə ehtiyac hiss edirdilər. Yaranmış vəziyyəti düzgün qiymətləndirən Fətəli xan ***"nigah diplomatiyası"*** vasitəsi ilə öz məqsədinə çatdı. O, ***1766-cı ildə*** çox ötkəm xarakterli bacısı ***Xədicə Bikəni*** *Bakı xanı* ***Mirzə Məhəmməd xanın oğlu Məlik Məhəmməd xana*** ərə verdi. ***1768-ci ildə*** Mirzə Məhəmməd xanın vəfatından sonra Bakı xanı olan zəif iradəli oğlu ***Məlik Məhəmməd xan*** tamamilə Qubalı ***Fətəli xanın*** təsiri altına düşdü. Fətəli xanın Bakı xanlığının sərhədlərinin təhlükəsizliyini qorumaq öhdəliyi müqabilində Məlik Məhəmməd xan hər il Quba xanlığına xərac ödəməyi, hərbi əməliyyatlar zamanı ordu göndərməyi və Fətəli xanın istənilən digər tapşırıqlarını yerinə yetirməyi öhdəsinə götürürdü [78, s. 102].

Fətəli xanın Azərbaycan torpaqlarını ***vahid dövlətdə*** birləşdirmək siyasətində ***Şamaxı xanlığı*** da mühüm yer tuturdu. Bəzi məlumatlara görə Fətəli xan bu xanlığı ələ keçirməklə keçmiş Şirvanşahlar dövlətini bərpa etmək, Şamaxı şəhərini isə özünün paytaxtına çevirmək istəyirdi. Şamaxı xanlığının güclü maddi və insan ehtiyyatlarına malik olduğunu nəzərə alan Fətəli xan buraya hücumdan əvvəl ciddi hazırlıq tədbirləri gördü. O, birinci növbədə Şamaxı xanlığı ilə hərbi xarakterli müqavilə bağlamağa nail oldu. Bu müqaviləyə görə Şamaxı xanları ***Mə-***

həmmədsəid xan və ***Ağası xan*** qardaşları xanlığın Cənubi Dağıstan feodallarının hücumlarından qorunması müqabilində Quba xanlığına ***xərac*** ödəməyi öhdələrinə götürdülər. Eyni zamanda Şamaxı xanlarının siyasətindən narazı olan əhali Quba xanlığı tərəfindən himayə edilməyə başlanıldı. Şamaxı xanları 4 il xərac ödədikdən sonra şəkili Hüseyn xanla bağlanan ittifaqa arxalanaraq bu tələbi yerinə yetirməkdən imtina etdilər [78, s. 104]. Şamaxı xanlarının xərac ödəməkdən imtina etmələri hərbi əməliyyata başlamaq üçün Fətəli xanın əlində bəhanə oldu. Fətəli xan Şamaxı xanlarının ***Şəkili Hüseyn xanla*** ittifaqını pozdu və öz tərəfinə çəkdi. ***1768-ci ildə Fətəli xanın*** ordusu Köhnə Şamaxıya daxil oldu [8, s. 547]. Bu yürüşdə ***Şəkili Hüseyn xan*** da iştirak edirdi. Qəfil yaxalanan ***Şamaxı xanları*** təslim oldular. Xanlıq Quba xanlığının tərkibinə qatıldı. Fətəli xanın əmri ilə hərbi əməliyyatlar zamanı şəkili Hüseyn xana əsir düşmüş ***Ağası xanın*** gözləri çıxarıldı, ***Məhəmmədsəid xan*** isə həbs edildi və az sonra yaşlı olduğuna görə azadlığa buraxıldı [74, s. 104]. Elə həmin il kiçik ***Cavad xanlığı*** da Quba xanlığına birləşdirildi. Beləliklə, ***Fətəli xan bütün Şimal-şərqi Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirməyə nail oldu.***

Quba xanlığının qüdrətinin artması bir sıra qonşu xanlıqları ciddi narahat edirdi. ***1773-cü ilin payızında*** Quba xanına qarşı Şəki, Şamaxı, Qarabağ və Avar xanlıqlarından ibarət güclü bir ittifaq təşkil olundu. Kartli-Kaxetiya çarı II İrakli də onlara canlı qüvvə ilə yardım göstərdi. Müttəfiqlərin birləşmiş qüvvələri ***1773-cü ilin dekabr ayında*** Şamaxıya hücum etdi. Qəfil hücumla qarşılaşan Fətəli xan və Şamaxı hakimi Eldar bəy müqavimət göstərə bilməyib Şamaxı xanlığını tərk etdilər. ***1773-cü ilin sonu - 1774-cü ilin əvvəlində*** Fətəli xan düşmənləri üzərində uzun sürən qanlı döyüşlərdən sonra qələbə çaldı [78, s. 109]. ***1774-cü ildə*** Qaraqaytaq usmisi Əmir Həmzə və bəzi Azərbaycan xanlarının birləşmiş qüvvələri qəflətən Quba xanlığına hücum etdi. Xudat yaxınlığında ***Gavduşan*** deyilən yerdə baş verən döyüşdə

yaralanan ***Fətəli xan*** məğlub oldu və Dərbəndə qayıda bilməyib Salyana çəkildi. Müttəfiqlər Şamaxı və Qubanı ələ keçirdilər. Dərbəndin müdafiəsinə Fətəli xanın arvadı, həm də Əmir Həmzənin bacısı olan Tuti Bikə başçılıq edirdi. Əmir Həmzə Fətəli xanın guya həlak olması haqqında şaiyə buraxdı və döyüşdə həqiqətən həlak olmuş Dişsiz Məhəmmədin cənazəsini onun cənazəsi kimi Dərbəndə gətirilməsi haqqında bacısı Tuti Bikəyə xəbər göndərdi. Qardaşının yalanını başa düşən Tuti Bikə düşmənə qala divarlarından atəş açmağı əmr etdi. Dərbəndin mühasirəsi 9 ay davam etdi [78, s. 110]. Fətəli xan Qafqazdakı rus qoşunlarının komandanı general de-Medeme hərbi yardım üçün müraciət etdi. II Yekaterina hökumətinin göstərişi ilə Cənubi Qafqazı və Cənubi Dağıstanı öyrənmək üçün *1771-ci ildən* etibarən bu ərazilərdə ekspedisiya işləri aparan Rusiya Elmlər Akademiyasının həqiqi üzvü S.Qmelinin ölümünə səbəb olmuş Əmir Həmzəni cəzalandırmaq üçün fürsət axtaran general de-Medem Fətəli xana hərbi yardım göstərdi. Beləliklə, dəniz vasitəsilə Dərbəndə qayıdan Fətəli xan ***1775-ci ildə*** rusların köməyi ilə öz düşmənini məğlub etdi.

Qubalı Fətəli xan Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasətini davam etdirirdi. O, ***1780-1781-ci illərdə*** Qarabağı ələ keçirməyə çalışsa da buna nail olmadı. ***1783-cü ildə Qarabağa*** nəzərdə tutulan yürüşə ***Fətəli xan*** Lənkəran, Şəki, Xoy, Təbriz və Urmiya xanlarını, habelə öz müttəfiqi olan bir çox Cənubi Dağıstan feodallarını da cəlb edə bilmişdir. Yalnız muzdlu döyüşçülərinin sayı 13 min olan böyük ordu ilə Qarabağa hücum edən Fətəli xan Şuşa qalasını tuta bilmədi. II İraklinin güclü ordu ilə Qarabağ xanına köməyə gəlməsi və Rusiya hökumətinin göstərdiyi təzyiq Fətəli xanı Qarabağı tərk etməyə məcbur etdi [78, s. 113]. ***1784-cü ildə*** Quba xanı Cənubi Azərbaycana hücum edib ***Ərdəbil*** və ***Meşkini*** ələ keçirdi. Lakin bir tərəfdən Azərbaycan və Dağıstan feodallarının arxadan onu hədələmələri, digər tərəfdən isə Rusiyanın narazılığı Fətəli xanı geri

çəkilməyə məcbur etdi. ***1785-ci ildə Şəki*** və ***Lənkəran*** xanlıqları Quba xanlığından asılı vəziyyətə salındı. ***Fətəli xan*** Cənubi Azərbaycana yeni yürüşə hazırlaşmağa başladı, lakin ***1789-cu ilin martında*** qəflətən vəfat etdi. Fətəli xanın oğlu ***Əhməd xan (1789-1791)*** atasının birləşdirdiyi əraziləri əlində saxlaya bilmədi. Onun ölümündən sonra Quba xanı olmuş ***Şeyxəli xan*** da xanlığın qüdrətini qoruyub saxlaya bilmədi. Beləliklə, *Şəki, Bakı, Şamaxı xanlıqları* ***Quba xanlığının*** asılılığından çıxdılar.

İrəvan xanlığı (1747-1828). İrəvan xanlığı ***Çuxursəd bəylərbəyi*** ərazisində yaradılmışdır. Xanlıq şimalda Şörəyel, Pəmbək, Şəmşəddil və Qazax sultanlıqları, şimal-şərqdə Gəncə, şərqdə Qarabağ, cənub-şərqdə Naxçıvan, cənubda Maku xanlığı və cənub-qərbdə Osmanlı İmperiyası ilə həmsərhəd idi [92, s. 84]. Xanlıq inzibati cəhətdən *15 mahala* bölünmüşdür: *Qırxbulaq, Gərnibasar, Vedibasar, Zəngibasar, Şərur, Sürməli, Dərəkənd* [64, s. 157], Səədli, *Talın, Seyidli-Ağsaqlı, Sərdarabad, Körpübasar, Abazan, Dərəçiçək, Göyçə* [118, s. 571]. Xanlığın əhalisi əsasən *türk-müsəlmanlardan* ibarət idi. ***1828-ci il Türkmənçay*** və ***1829-cu il Ədirnə*** sülh müqavilələrinin şərtlərinə əsasən Cənubi Azərbaycandan *40.000-dən çox*, Osmanlı İmperiyasından isə *85.000-dən çox ermənin* Cənubi Qafqaza köçürülməsi nəticəsində ***İrəvan xanlığının ərazisində*** təxminən *50 min Azərbaycan türkü, 324 kürd və 20.073 erməni* yaşamışdır [195, s. 635-642]. Xanlığın əsasını ***Mir Mehdi xan Əfşar (1747-1748)*** qoymuş, sonra Məhəmmədhüseyn xan Gəraylı (1748-1751), Xəlil xan Özbək (1751-1755), Həsənəli xan Qacar (1755-1762), qardaşı Hüseynəli xan Qacar (1762-1783) idarə etmişdir. Hüseynəli xan Kartli-Kaxetiya çarı *II İraklinin 1765-1769-cu illərdə* İrəvan xanlığına dəfələrlə etdiyi yürüşlərin qarşısını 30 min tümən bac verməklə almış, lakin fürsət tapan kimi bac ödəməkdən imtina etmişdir [92, s. 87]. Hüseynəli xandan sonra Xoy hakimi Əhməd xan tərəfindən Qulamalə xan (1783-1784) İrəvan xanlığının idarəçiliyinə gətirilmişdir. Məhəmməd xan Qacarın

dövründə (1784-1805) 1795-ci ildə *Ağa Məhəmməd xan Qacar* tərəfindən sərkədəsi Əliqulu xanın komandanlığı ilə göndərilən 20 minlik ordu 35 günlük mühasirədən sonra İrəvan xanlığını təslim olmağa məcbur etdi [49, s. 79-81]. Məhəmməd xan hər il 8 funt qızıl və 80.000 tümən pul ödəyəcəyini və lazım gələrsə, Ağa Məhəmməd xan Qacarın ordusuna hərbi yardım göstərəcəyini öhdəsinə götürdü. Məhəmməd xan Fətəli şahın (1797-1834) hakimiyyətini də tanımalı oldu.

1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanla birlikdə İrəvan xanlığının *Pəmbək və Şurəyal ərazilərini* işğal etməsi və Məhəmməd xanın Rusiyanın adamı Danili patriarx kimi tanımaqdan imtina etməsi Rusiya ilə münasibətləri pisləşdirdi və xan çar hökumətinin himayəsindən qəti şəkildə imtina etdi. ***İyulun 2-də general P.Sisianov*** İrəvan xanlığını mühasirəyə aldı. İki ay davam edən mühasirə 2000 rus əsgərinin ölümü ilə nəticələndi. General P.Sisianov sentyabrın 3-də mühasirəni dayandıraraq rüsvayçılıqla geri qayıtdı [64, s. 298-300]. Hüseynqulu xan Qacarın dövründə (1806-1827) ***1808-ci il oktyabrın 3-dən noyabrın 30-dək*** davam edən döyüşlərdə rus ordusu yenidən rüsvayçılıqla məğlub olaraq geri qayıtdı. Qalanın müdafiəsinə xanın qardaşı Həsən xan Qacar başçılıq edirdi. Beləliklə, *Birinci Rusiya–İran-Qacar müharibəsi dövründə (1804-1813)* İrəvan xanlığının işğalı baş tutmadı [64, s. 308-312]. ***1827-ci il aprelin 27-də*** rus ordusu yenidən İrəvan qalasını mühasirəyə aldı və ciddi müqavimətlə üzləşərək ***iyunun 27-də*** mühasirəni dayandırdı. ***1827-ci il sentyabrın 27-də*** rus ordusu dördüncü dəfə İrəvan xanlığını mühasirəyə aldı. *General Paşkeviçin* əmri ilə qala üç gün fasiləsiz artilleriya atəşinə tutuldu, müdafiə bürcləri dağıdıldı, daxildən isə ermənilər Həsən xanın xəbəri olmadan şəhər darvazalarından birini açaraq ruslara kömək etdilər və ***oktyabrın 1-də*** *İrəvan qalası alındı* [92, s. 91-92]. *1828-ci il Türkmənçay müqaviləsinin 3-cü bəndinə* əsasən İran-Qacar dövləti *İrəvan və Naxçıvan xanlıqlarının Rusiyanın tərkibinə* daxil olmasını təsdiqlədi. Çar I

Nikolayın ***21 mart 1828-ci il fərmanı*** ilə ləğv edilmiş *İrəvan və Naxçıvan xanlıqlarının* yerində *"Erməni vilayəti"* yaradıldı və ermənilərin İrəvan xanlığına kütləvi şəkildə köçürülməsinə başlanıldı [64, s. 351].

3.Azərbaycan xanlıqlarının xarici siyasi əlaqələri. Rusiya və İranın işğalçılıq siyasətinə qarşı mübarizə

Azərbaycan xanlıqlarının xarici siyasət əlaqələri bir tərəfdən ölkə daxilində gedən siyasi proseslərlə, digər tərəfdən isə ***İran, Osmanlı Türkiyəsi*** və ***Rusiya*** kimi böyük qonşu dövlətlərin bölgədə yeritdikləri siyasətlə sıx bağlı idi. Uzun müddət Azərbaycan xanlıqlarının xarici siyasi əlaqələrində hakimiyyəti qoruyub saxlamaq və qonşu xanlıqlar hesabına öz torpaqlarını genişləndirmək üçün yardım almaq istəyi üstünlük təşkil edirdi. ***Rusiya*** və ***Osmanlı Türkiyəsi*** kimi dövlətlər ayrı-ayrı Azərbaycan xanlarının bu istəyindən bölgənin ***daxili işlərinə müdaxilə etmək*** və burada ***öz mövqelərini möhkəmləndirmək*** üçün istifadə edirdilər. Lakin bu zaman göstərilən dövlətlərdən hər biri özlərinin hərbi və iqtisadi potensialından çıxış edirdi. Feodal pərakəndəliyi dövrü keçirən İran uzun müddət Azərbaycana təsir göstərmək imkanlarını itirmişdir. ***Kərim xan Zəndin*** diplomatik yolla Azərbaycan xanlıqlarını, ilk növbədə Quba xanlığını öz təsiri altına almaq cəhdləri uğursuzluqla nəticələnmişdir. XVIII əsrin ikinci yarısında Rusiya ilə aparılan iki müharibədə ***(1768-1774*** və ***1781-1791)*** ağır məğlubiyyətə uğrayan ***Osmanlı imperiyası*** Azərbaycanda fəal xarici siyasət yeridə bilmirdi. Elə bunun nəticəsi idi ki, sultan hökuməti ayrı-ayrı Azərbaycan xanlarının gürcü-rus blokunun təcavüzünə qarşı kömək xahişlərini ya cavabsız qoyur, ya da boş vədlər verməklə kifayətlənirdi.

İran və Osmanlı Türkiyəsindən fərqli olaraq ***Rusiya*** Cənubi Qafqazda daha fəal siyasət yeridirdi. XVIII əsrin 70-ci illərində Krımı ilhaq etməyə hazırlaşan Rusiya Cənubi Qafqaza dair

geniş ***işğalçılıq planı*** hazırlamışdır. Bu planın əsas mahiyyətini ***Gürcüstanı*** Cənubi Qafqazda hegemon dövlətə çevirmək və Azərbaycanın ***Qarabağ, Qaradağ, İrəvan*** və ***Naxçıvan xanlıqları*** hesabına ***erməni çarlığı*** yaratmaq təşkil edirdi. Lakin bu planlar olduqca gizli saxlanılırdı. Rusiyanın bu məkrli siyasətindən xəbərsiz olan bir çox Azərbaycan xanları, ilk növbədə ***Qubalı Fətəli xan*** onunla sıx diplomatik əlaqə yaratmağa çalışırdı. Hələ ***1775-ci ildə*** Quba xanı öz elçisi *Mirzə bəy Fərhadbəylini* Peterburqa göndərmişdir. Quba xanı Əmir Həmzəyə qarşı mübarizədə göstərdiyi köməyə görə rus çarı ***II Yekaterinaya*** minnətdarlıq əlaməti olaraq ***Dərbəndin açarlarını*** ona göndərdi. Fətəli xan həm də Quba xanlığının Rusiyanın himayəsinə qəbul edilməsini xahiş edirdi. Lakin Osmanlı Türkiyəsini qıcıqlandırmaqdan ehtiyat edən ***II Yekaterina*** onun bu xahişini yerinə yetirməkdən imtina etdi və Dərbəndin açarlarını geri qaytardı.

XVIII əsrin 80-ci illərində Rusiya Krımı birləşdirmək üçün hazırlıq işlərini gücləndirdi. Bu məqsədlə o, Cənubi Qafqaza da ordu göndərməyi planlaşdırırdı. Lakin ***1783-cü ildə*** Krımın dinc yolla birləşdirilməsi nəticəsində Cənubi Qafqaza ordu göndərmək zərurəti aradan qalxdı. Bununla belə, Rusiya Azərbaycan ərazisində erməni çarlığı yaratmaq planından imtina etməmişdir. Bu məqsədlə Qarabağın erməni məliklərinə hər cür yardım göstərilir, ***İbrahimxəlil xanı*** devirmək üçün planlar işlənilib hazırlanırdı. Rusiya özünün işğallarına hüquqi əsas qazandırmaq üçün ***İrəvan, Qarabağ*** və ***Qaradağ xanlıqlarının*** ona güzəştə gedilməsi barədə İran hakimi ***Əlimurad xanla*** danışıqlar aparırdı. Öz hakimiyyəti üçün real təhlükə yarandığını görən ***Qarabağlı İbrahimxəlil xan*** bunun qarşısını *diplomatik yolla* almaq qərarına gəldi. O, ***1784-cü ildə*** öz nümayəndəsi Musa sultanı Peterburqa göndərdi və Rusiyanın himayəsi altına keçməyə hazır olduğunu bildirdi. ***II Yekaterina*** onun bu təklifini qəbul etməsə də Qarabağda hakimiyyət dəyişikliyi etmək planını təxirə saldı.

1783-cü ildə Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi bir çox Azərbaycan xanlarını da belə addım atmağa həvəsləndirdi. ***Qubalı Fətəli xan*** bu yolla öz hakimiyyətini bütün Azərbaycana yaymağı planlaşdırırdı. O, Rusiya höküməti ilə apardığı diplomatik yazışmalarda özünün bütün Azərbaycanın hökmdarı kimi tanınmasına çalışırdı. Lakin erməni və gürcüləri özünün Cənubi Qafqazda əsas dayağı hesab edən Rusiya Fətəli xanın güclənməsinin qarşısını hər vəchlə alırdı. Elə bunun nəticəsi idi ki, Fətəli xanın *1787-ci ildə Mirzə Sadıq Məhəmmədvəliyevin* başçılığı ilə Rusiyaya göndərdiyi nümayəndə heyəti uğursuzluğa düçar oldu. Rusiya bu dəfə də Quba xanlığını öz himayəsinə götürməkdən imtina etdi.

XVIII əsrin 80-ci illərində İranda daxili siyasi vəziyyət müəyyən dərəcə sabitləşməyə başladı. Burada uzun müddət davam edən daxili siyasi mübarizədə ***Ağa Məhəmməd xan Qacar*** üstünlük qazandı. O, ***1785-ci ildə*** Tehranı özünün iqamətgahı seçdi və keçmiş *Səfəvilər dövlətinin sərhədlərini bərpa etməyi* öz qarşısına məqsəd qoydu. Ağa Məhəmməd xan Qacar 90-cı illərin əvvəllərində özünün əsas rəqibi olan Zəndləri tamamilə sıradan çıxardı və Cənubi Azərbaycan xanlıqlarının əksəriyyətini özündən asılı vəziyyətə saldı. Bundan sonra o, Cənubi Qafqazı tabe etmək uğrunda mübarizəyə başladı. Ağa Məhəmməd xanın güclənməsi Azərbaycanın şimal torpaqlarının müstəqilliyini ciddi təhlükə qarşısında qoyurdu. Azərbaycan xanlarının əksəriyyəti, o cümlədən, ***Qarabağ, İrəvan, Naxçıvan*** və ***Xoy xanları*** kömək üçün Osmanlılara müraciət etdilər. *Qubalı Şeyxəli xan* isə bu məqsədlə həm Osmanlılara, həm də Rusiyaya müraciət etdi. *Qarabağlı İbrahimxəlil xan* isə Osmanlı imperiyasından kömək istəməklə yanaşı özü də müəyyən müdafiə tədbirləri gördü. Onun təşəbbüsü ilə *Qarabağ, Lənkəran, İrəvan xanlıqlarından, Kartli-Kaxetiya çarlığından* və *Avar hakimi Ümmə xandan ibarət ittifaq* yaradıldı. Lakin bu tədbirlər Qacarın Cənubi Qafqaza hücumunun qarşısını ala bilmədi. Osmanlı imperiyası Azərbaycan

xanlarına heç bir əməli kömək göstərmədi. Başı Fransa burjua inqilabına qarşı mübarizəyə qarışmış Rusiya da Qacarın Cənubi Qafqaza hücumunun qarşısını almaq üçün heç bir tədbir görmədi.

1795-ci ilin iyununda 85 min nəfərlik İran ordusu Qarabağa hücum etdi və ***Şuşanı*** mühasirəyə aldı. Lakin ***33 gün*** davam edən mühasirəyə baxmayaraq Ağa Məhəmməd xan Şuşanı ələ keçirə bilmədi [3, s. 468]. Qacar ordusu ***İrəvan*** qalasını da ***35 gün*** mühasirədə saxlasa da, ələ keçirə bilmədi. Lakin İrəvan xanı Məhəmməd xan mühasirənin uzanmasının sonda ağır itkilərlə nəticələnəcəyindən ehtiyat edərək, Ağa Məhəmməd xanın hakimiyyətini tanımağa məcbur oldu [78, s. 176].

1795-ci il sentyabr ayının əvvəllərində Qacar ordusu Gəncədən çıxaraq Gürcüstana hücum etdi. Bu dövrdə Gürcüstan birbiri ilə daim çəkişən bir neçə çarlığa bölünmüşdür. Həddindən artıq qocalmış II İrakli 5 min nəfərlik cüzi bir qüvvə ilə döyüşə girməyin mənasız olduğunu görüb geri çəkildi. ***Ağa Məhəmməd xan Qacarın*** ordusu *sentyabrın 12-də* Tiflisə girdi və onu darmadağın edərək yandırdı. O, gürcü çarının xəzinəsini, hakimiyyət rəmzi olan tacını və əsasını, habelə II Yekaterinanın bağışladığı 12 topunu da ələ keçirdi [56, s. 178]. Ağa Məhəmməd xan Qacarın Şimali Azərbaycana hücumu və Tiflisi yandırması Rusiyanın bu bölgədəki mövqelərinə ağır zərbə oldu. Cənubi Qafqazın İran tərəfindən işğal edilməsinə yol vermək istəməyən Rusiya hökuməti ordu göndərmək qərarına gəldi. ***V.Zubov*** bu orduya komandan təyin edildi. Bu xəbəri eşidən ***Ağa Məhəmməd xan*** tələsik Arazın o tayına çəkildi və tezliklə *şah* titulunu qəbul etdi. Ölkədə vahid dövlətin olmaması istər İran, istərsə də rus ordusuna güclü müqavimət təşkil etməyə imkan vermirdi. Ayrı-ayrı xanların təkbaşına müqavimət cəhdləri isə uğursuzluqla nəticələnirdi.

1796 - cı il aprelin 18-də V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşü başlandı. Həmin il ***mayın 2-də*** ümumi sayı 26 min olan və güclü artilleriya ilə təchiz olunan rus

ordusu Dərbənd yaxınlığında düşərgə saldı və eyni vaxtda 60 topdan açılan atəş nəticəsində qala divarları dağılmağa başladı. ***Qubalı Şeyxəli xan*** rus qoşunlarını Dərbəndə buraxmaqdan imtina etsə də, son nəticədə ***1796-cı il mayın 10-da*** təslim oldu. Rus ordusunun düşərgəsinə gələn ***Şeyxəli xan*** həbs edildi. ***V.Zubov*** Dərbənd xanlığının idarəsini Şeyxəli xanın Rusiyaya meylli bacısı ***Pəricahan xanıma*** tapşıraraq, Quba və Bakı istiqamətində hərəkət etdi. Qüvvələr nisbəti arasında olan çox böyük fərq Azərbaycan xanlarını rus ordusuna qarşı müqavimət göstərməkdən çəkindirdi. ***1796-cı il iyunun 6-da Quba*** qalasına yaxınlaşan rus ordusu heç bir müqavimətə rast gəlmədən onu ələ keçirdi. ***1796-cı il iyunun 13-də*** Bakılı Hüseynqulu xan V.Zubovun düşərgəsinə yollandı və Bakının açarlarını ona təqdim etdi. Rus ordusu ***Dərbənd, Quba*** və ***Bakını*** işğal etdikdən sonra ***1796-cı ilin iyulunda Şamaxı*** xanlığının ərazisinə daxil oldu. ***1796-cı il iyulun 7-də Şəkili Səlim xan*** V.Zubovun Şamaxı xanlığındakı düşərgəsinə gələrək Rusiyanın himayəsinə keçmək haqqında sənədi imzaladı [78, s. 185-186, 189].

Beləliklə, ***1796-cı ildə*** rus ordusu ***Dərbənd, Quba, Bakı, Şamaxı, Şəki, Salyan*** və ***Gəncə xanlıqlarını*** işğal etdi. Növbəti ildə yürüşü İranın içərilərinə doğru davam etdirmək planlaşdırılırdı, lakin ***1796-cı ilin noyabrın 6-da II Yekaterinanın*** vəfat etməsi buna imkan vermədi. Yeni rus çarı ***I Pavel*** rus qoşunlarını Cənubi Qafqazdan geri çağırılması barədə Əmr verdi. Rus ordusunun Azərbaycanı tərk etməsindən istifadə edən ***Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında*** ona müqavimət göstərənləri cəzalandırmaq üçün yenidən böyük ordu ilə Cənubi Qafqaza yürüş etməyi qərara aldı. Lakin Ağa Məhəmməd şah Cənubi Azərbaycan xanlıqlarını tamamilə özünə tabe etməmiş şimala hücum etməkdən çəkindi. O, qardaşı Əliqulu xan başda olmaqla böyük qoşun dəstəsini Təbrizə göndərdi, özü isə Ərdəbilə gəldi. Azərbaycanın bütün xanlarına və Kartli-Kaxeti çarlığına fərmanlar göndərərək ona tabe olmalarını tələb etdi, əks halda amansız

şəkildə cəzalandırılacaqlarını bildirdi. Xanlıqların ərazisini darmadağın etmək, əhalisini də İranın ucqarlıqlarına köçürmək əmri alan qacar ordusu Naxçıvan və İrəvan xanlıqlarına daxil oldu. Bu xanlıqların hakimləri Kəlbəli xan və Məhəmməd xan V.Zubovla əlaqə saxlamaqda günahlandırılaraq cəzalandırıldılar. Şahın əmri ilə naxçıvanlı Kəlbəli xan gözləri çıxardılaraq həbs edildi və Tehrana göndərildi. İrəvanlı Məhəmməd xan isə ailəsi ilə birlikdə həbs edilərək Qəzvinə göndərildi.

Ağa Məhəmməd şah Qacarın Qarabağa ikinci dəfə hücuma hazırlaşdığından xəbər tutan ***İbrahimxəlil xan*** İran ordusunun Şuşaya yaxınlaşmasının qarşısını almaq üçün bir sıra tədbirlər gördü. Onun əmri ilə Xudafərin körpüsü dağıdıldı. ***Ağa Məhəmməd şah Qacar*** sahildə düşərgə salıb İran qoşunlarının Araz çayını keçməsi üçün ölkənin içərilərindən qayıqların gətirilməsini bir neçə gün gözləməli oldu. Yaranmış vəziyyətdən istifadə edən ***İbrahimxəlil xan*** döyüşçülərinə çayın yuxarı başına daşıdıqları qayıqları ağır daşlarla doldurub gecə ikən Araz çayına buraxmağı əmr etdi. Daşla dolu qayıqlar bir-birinin ardınca suda bataraq, Arazın məcrasını dəyişdilər [78, s. 200]. Dəhşətli qüvvə ilə gələn sel düşərgənin yerləşdiyi ərazidən keçərək qarşısına gələn hər şeyi – azuqəni, sərbazların geyimlərini, silahları apardı. Səhər nə baş verdiyini başa düşən Ağa Məhəmməd şahın əmri ilə toplardan atəş açmaqla batırılmış qayıqlardan düzəldilmiş süni sədd dağıdıldı və cay əvvəlki məcrasına qayıtdı. Qacar ordusu Araz çayını çox böyük çətinliklə keçdi və çoxlu itki verdi. ***Ağa Məhəmməd şah*** ordusu ilə Qarabağ istiqamətində irəliləyərək ***Şuşaya*** yaxınlaşdı. ***İbrahimxəlil xan*** ciddi müqavimət göstərdi, üç süvari dəstəsi ilə qaladan çıxıb düşmənin topxanasını sıradan çıxarsa da, müvəffəqiyyət qazana bilmədi. Qalaya qayıda bilməyən İbrahimxəlil xan azsaylı dəstəsi ilə mühasirəni yarıb Dağıstan tərəfə hərəkət etdi. Ağa Məhəmməd şah Şuşanın müdafiəçilərinə məktubla müraciət edərək ***İbrahimxəlil xanın*** qorxaq olduğunu, şuşalıları başsız qoyduğunu bildirir, müqavi-

mət göstərməsələr şuşalıların toxunulmazlığı vəd edilirdi. Uzun sürən mübahisələrdən sonra ruhanilərin başçısı Hacı Babək ***Ağa Məhəmməd şahın*** hüzuruna gedərək çatdırdı ki, Tiflis şəhərinin və gürcülərin başına gələnlərdən xəbərdar olan şuşalılar onu qalaya buraxmaqdan ehtiyat edirlər. Şah Quranı götürüb ona öz möhürünü basdı və and içdi ki, müqavimətə rast gəlməsə, Şuşada bir nəfərə də toxunmayacaqdır. Qacar eyni zamanda şuşalılardan təzminat istədi [3, s. 477]. ***Ağa Məhəmməd şah Qacar*** tələb etdiyi təzminatı aldıqdan sonra, Qurana and içdiyinə baxmayaraq, sərbazları şəhəri qarət etdilər. Şuşa şəhəri düşmən ordusu tərəfindən işğal edildi. Şahın əmri ilə sərbazlar qətlə yetirdikləri qurbanların başlarını bədənlərindən ayırıb topladılar. Məqsəd - ***Şuşanın*** ən yüksək yerində kəllələrdən piramida hördürmək idi. Lakin bu vəziyyət uzun sürmədi. ***1797-ci il iyulun 4-də Ağa Məhəmməd şah Qacar*** sui-qəsdçilər: İbrahimxəlil xanın qardaşı Mehrəli xanın oğlu Məhəmməd bəy tərəfindən öldürüldü. Başsız qalan İran ordusu tələsik Qarabağı tərk etdi. Hakimiyyət müvəqqəti olaraq Məhəmməd bəyin əlinə keçdi. Tezliklə İbrahimxəlil xan Şuşaya qayıtdı. Xanlığın vəziri şair Molla Pənah Vaqifin öldürülməsində və bir sıra digər əməllərdə günahlandırılan Məhəmməd bəy Şuşanı tərk etməli oldu və Şəki xanlığına üz tutdu. Lakin Səlim xan onu həbs edib qan düşməni olan şamaxılı Mustafa xana təhvil verdi və Mustafa xan Məhəmməd bəyi edam etdirdi [3, s. 478-479].

Beləliklə, XVIII əsrin 90-cı illərində ***Rusiya*** və ***İranın Azərbaycan torpaqlarını işğal etmək cəhdləri iflasa uğradı***. Lakin bu heç də təhlükənin tamamilə sovuşması demək deyildi. Rusiya və İran Azərbaycan torpaqlarını işğal etmək planlarından imtina etməmişdilər. Azərbaycanda hökm sürən siyasi pərakəndəlik bu planların reallaşması üçün əlverişli şərait yaradırdı.

4.XVIII əsr Azərbaycan mədəniyyəti

XVIII əsrin birinci yarısında yadellilərin basqınları, Azərbaycan ərazisində gedən Osmanlı-İran müharibələri ölkənin sosial-iqtisadi və mədəni həyatına mənfi təsir göstərmişdir. Lakin Azərbaycan xalqı azadlıq uğrunda gərgin mübarizə aparmaqla yanaşı öz mədəniyyətini də inkişaf etdirirdi. Bu dövrdə ölkədə fəaliyyət göstərən ***məktəb*** və ***mədrəsələrdə*** dərslər, əsasən, ***ərəb*** və ***fars*** dillərində keçirilirdi. Məktəblərdə şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın "Cüzəmmə" adlı kiçik bir hissəsini, sonra isə Quranı oxuyub başa çatdırır, habelə Sədinin "Gülüstan"ını və s. kitabları oxuyurdular. Tələbə mədrəsədə əlifbanı, Quranı öyrənməklə yanaşı, islam fəlsəfəsini, fıqhi (islam qanunları), ərəb-fars dillərini də öyrənirdi. Mədrəsələrdə müəyyən dərəcədə ədəbiyyat, riyaziyyat, nücum (astronomiya) elmləri də tədris olunurdu. Məktəb və mədrəsələrdən başqa fərdi tədris növü də mövcud idi.

Bu dövrdə elm sahəsində ciddi irəliləyiş olmasa da ***tarix*** və ***coğrafiyaya*** dair bir sıra qiymətli əsərlər yazılmışdır. Görkəmli coğrafıyaşünas *Hacı Zeynalabdin Şirvani* Qafqaz, İran, Osmanlı Türkiyəsini və Hindistanı gəzmiş və bu ölkələr haqqında qiymətli məlumatlar toplamışdır. H.Z.Şirvani səyahətlər zamanı müşahidə etdiklərini qələmə alaraq "Riyaz üs-səyahə" ("Səyahət bağçaları"), "Bustan üs-səyahə" ("Səyahət bostanı"), "Kəşf ül-maarif" ("Mərifətlərin kəşfı") və bir sıra başqa əsərləri yazmışdır. *Tarixçi Əbdürrəzzaq bəy Dünbüli* "Məaseri Sultaniyyə" ("Sultan abidələri"), "Tarixi-Dənabilə" ("Dünbulilərin tarixi"), "Təcrübat əl-əhrr və tesəliyyət əl-əbrar" ("Azadələrin təcrübəsi və müqəddəslərin təsəllisi"), "Nigaristani-Dara" ("Dara gülüstanı") və s. əsərləri yazmışdır. Azərbaycan tarixini öyrənmək üçün onun "Məaseri Sultaniyyə" və "Tarixi-Dənabilə" əsərləri xüsusilə böyük əhəmiyyət kəsb edirdi. O, *"Məasiri-Sulta-*

niyyə" əsərində İran hökmdarı *Fətəli şahın* hakimiyyət dövründə baş vermiş hadisələrdən bəhs edirdi.

Azərbaycan ədəbiyyatında ***realist janr*** getdikcə üstünlük təşkil edirdi. XVIII əsr poeziyası əsasən müxəmməs formasında yazılmış, dövrün gerçək hadisə və şəxslərinə həsr olunmuş irihəcmli şeirləri ilə fərqlənirdi. Poeziyada vətənpərvərlik ideyaları və xalqın düşdüyü ağır vəziyyətə etiraz səsi xeyli güclənmişdir. *Nişat Şirvani, Şikəstə Şirin* və *Nəbi* kimi tarixi mövzuda yazan şairlərin əsərlərində ağır həyatdan narazılıq və şikayət üstünlük təşkil edirdi. *Şakir Şirvanininn* "Əhvali-Şirvan" ("Şirvan haqqında dastan") adlı müxəmməsində *1743-cü ildə* Nadir şahın əleyhinə yönəlmiş Şamaxı üsyanından bəhs edilir. *Şair Nəbi* şeirlərində Hacı Çələbi xanı, onun Nadir şaha qarşı cürətli çıxışını və digər hərbi şücaətlərini əks etdirən çoxlu faktiki material vermişdir. *Aşıq Şikəstə Şirinin* poeması Ağa Məhəmməd Şah Qacarın *1795-ci ildə* Tiflisə soxulması ilə əlaqədar baş vermiş faciəli hadisələrə həsr olunmuşdur.

XVIII əsrdə də ədəbiyyatın başlıca növü ***nəzm*** olaraq qalırdı. Bu dövrdə ***lirik forma - Şərq lirikasının klassik ənənələrinə əsaslanan nəzm*** üstünlük təşkil edirdi. *Nişat Şirvani* öz incə məhəbbət qəzəlləri ilə geniş şöhrət tapmışdır. *Arif Şirvani, Arif Təbrizi, Ağa Məsih Şirvani, Məhcur Şirvani, Şakir Şirvani* və başqaları əruzun müxtəlif forma və növlərində bir çox lirik əsərlər yaratmışlar. XVIII yüzillik ***aşıq poeziyasının*** yüksəlişi dövrüdür. Bu dövrdə *Xəstə Qasım, Saimi, Saleh, Ürfani, Məlali* və b. aşıqlar, habelə üslubca onlara yaxın şairlər yazıb-yaratmışlar. Onlarm poeziyasını xalqın ümid və arzularına olan yaxınlıq fərqləndirir. Mövzu baxımından bu şeirlərdə real fəaliyyətdə olan insanla bağlı məhəbbət motivləri və dünyəvi qadının gözəlliyinin tərənnümü üstünlük təşkil edir. Lakin bu şairlər ictimai bərabərsizlikdən, sadə insanların ağır güzəranından bəhs edən didaktik-əxlaqi şeirlərə də az yer verməmişlər.

XVIII əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələri ***Molla Vəli Vidadi (1709-1809)*** və ***Molla Pənah Vaqif (1717-1797)*** olmuşdur. Məhz Vaqif və Vidadi yaradıcılığında klassik və xalq ənənələri birləşdirilmişdir. ***Vidadi*** *1709-cu ildə* Şəmkirdə anadan olmuş, Qarabağda, sonra isə gürcü çarı II İraklinin sarayında yaşamışdır. Vidadinin yüksək sənətkarlıqla yazdığı şerləri lirik Azərbaycan poeziyasını zənginləşdirmişdir. Onun lirikasında qüssə-kədər əhvali-ruhiyyəsi üstünlük təşkil edirdi. Vidadi ədəbiyyata ***qoşma*** və ***gəraylılar*** müəllifi kimi daxil olmuşdur. ***Vaqif*** *1717-ci ildə* Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Zəngin bilikli şair Qarabağ xanının sarayında baş vəzir olmuş və xanlığın idarə edilməsində xüsusi rol oynamışdır. Vaqifin yaradıcılığında ***məhəbbət mövzusu*** əsas yer tuturdu. Vaqif şerlərində dünyəvi, cismani məhəbbəti tərənnüm edirdi. Onun sevgilisi büt deyil, real qadın idi. Vaqifin qəhrəmanı canlıdır, ehtiraslı bir insandır. Şairin şerləri xalq dilinin zəngiliyini əks etdirir və xalqçılığı, obrazlar zənginliyini, cilalanmış bədii sənətkarlığı, canlı və ifadəli dili, realizmi, milli təravəti, orijinallığı, nikbinliyi ilə səciyyələnirdi. Vaqifin ***realist*** yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynamış və Azərbaycan şairlərinin sonrakı nəsillərinə öz təsirini göstərmişdir.

XVIII əsr Azərbaycan ədəbiyyatı milli mədəniyyətin təkamülündə mühüm mərhələ olmuşdur. Folklor ünsürlərinin, poeziyanın xalq üslubu və növlərinin, xalq dili xüsusiyyətlərinin yazılı ədəbiyyata keçməsi, canlı insan hisslərinin, konkret şəxs və hadisələrin, gerçəkliyin realist inikasının təsvirinə meyil XVIII əsrin ədəbi prosesi üçün səciyyəvi olan mühüm məqamlardır.

XVIII əsr epiqrafik abidələrinə əvvəlki dövrlərdə olduğu kimi, memarlıq abidələri, məzar daşları, saxsı, metal, taxta və s. bərk materialdan düzəldilmiş məişət əşyaları üzərində rast gəlmək olur. Həmin ***kitabələr*** ölkəmizin ərazisində qalmış müxtəlif formalı sənduqə, başdaşı, sinədaşı, qoç və at heykəlli məzar daşları, məscid, karvansara, hamam, ovdan, mədrəsə, qala hasarları

və s. istehkam və ictimai binalar üzərində qoyulmuş lövhələrə həkk olunmuşdur. XVIII əsr kitabələri Azərbaycanda elmi, maarifi, tədrisi inkişaf etdirən, bədii daşyonma sənətinin, memarlıq məktəblərinin fəaliyyət göstərməsini sübut edən bir sıra alim, müdərris, memar, inşaatçı usta, nəqqaş və xəttatların adlarını elm aləminə bəxş etmişdir. Bunlardan ***əhəngdaşı*** üzərində işləmiş bakılı usta *Seyid Taha, xəttat Nəziri* və *Şirvan* Abşeron məktəbinin bir sıra davamçılarının əsərləri zəmanəmizədək gəlib çatmışdır. Əhəngdaşına yazılmış kitabələr *Bakı, Şamaxı, Dərbənd, Qarabağ, Qəbələ, Quba xanlıqlarının* ərazisində qalmışdır. Şimal-qərb rayonları ərazisində yaşayıb-yaratmış xəttat-həkkaklar ***çaylaq daşları*** üzərində əsasən ərəb dilində işləmişlər. Şimal-qərb bölgəsində fəaliyyət göstərmiş *xəttat-nəqqaş Əli, Molla Şahmərz, Molla Səfallah, Şeyx Məhəmməd, Molla Qurban, Abdulla, Molla Xəlil, Əyyub b. Molla Mahmud (Şeyx Məhəmməd nəslindən), heykəltəraş Abid (Ordubadın)* və başqalarının işləri qeydə alınmışdır. ***Divar naxışlarının*** ən gözəl və tipik nümunələri Şəki Xan sarayında və Şəkixanovların evində, Lahıc, Şuşa, Ordubadın və digər şəhərlərdəki yaşayış evlərinin, ictimai tikililərin interyerində qorunub saxlanılmışdır.

XVIII əsrdə Azərbaycanda inşa edilmiş memarlıq abidələri dövrün ictimai-siyasi həyatı ilə sıx bağlı idi. Yadellilərin hücumlarının və ara müharibələrinin mütəmadi olaraq davam etdiyi xanlıqlar dövründə Azərbaycan xanları düşmən hücumlarına tab gətirə biləcək dərəcədə möhkəmləndirilmiş ***qalaların, bürc*** və ***istehkamların*** tikintisinə daha çox diqqət yetirirdilər. Ərazisində ***hərbi-müdafiə xarakterli*** obyektlərin tikildiyi xanlıqlardan biri Qarabağ xanlığı idi. Buna misal olaraq ***Bayat, Şahbulaq*** və ***Şuşa qalalarının*** qala divarlarını, ***Əsgəranın qoşa qalalarını*** göstərmək olar. Müdafiə xarakterli qalalar ***Bakı, Dərbənd, Quba, Ordubad, Şəki, Şamaxı, Təbriz, Naxçıvan*** və ***Ərdəbil*** xanlıqlarında da inşa edilmişdir. Azərbaycan memarlığında ***karvansaray*** tikintisi sahəsində qazanılmış zəngin ənənələr bu dövrdə

də davam edirdi. XVIII əsrin ikinci yarısında ***Şəkidə*** tikilmiş ***"Yuxarı"*** və ***"Aşağı" karvansaraylar*** müasir dövrümüzədək gəlib çatmışlar. Azərbaycan ərazisində ən böyük karvansaray hesab edilən ***"Yuxarı"*** karvansarayda ***300 otaq*** və ***zirzəmi*** vardı.

Şuşada, Şəkidə, Qubada, İrəvanda ayrı-ayrı xanlar tərəfindən dəbdəbəli saraylar tikdirilmişdir. Bu dövrdə Azərbaycanda ***saray tikintisinin*** ən gözəl nümunəsi şərq memarlığının incilərindən sayılan *Şəki xanlarının sarayıdır.* Saray ***1763-cü ildə Şəki hakimi Məhəmmədhəsən xan*** tərəfindən tikdirilmişdir. Sarayın fasadı başdan-başa *şəbəkə üslubu* ilə bəzədilmişdir [3, s. 528].

XVIII əsrdən bugünədək külli miqdarda *dekorativ-tətbiqi incəsənət nümunələri*, o cümlədən daş və ağac üzərində bədii oyma, döymə metal məmulatı, xalçalar, saxsı qablar, parçalar və naxışlı tikmələr qorunub saxlanılmışdır. Müxtəlif dekorativ incəsənət növləri arasında aparıcı yer xalçaçılığa məxsus idi. Əvvəllər olduğu kimi, XVIII əsrdə də Quba, Bakı, Şamaxı, Qarabağ, Gəncə, Qazax, Təbriz, Ərdəbil xalçaları ilə məşhur idi. Xalçalar *xovlu* (xalça, xalı, gəbə və s.) və *xovsuz* (palaz, kilim, sumağı, zili və s.) toxunurdu. *Xovlu xalçalar* naxışlarının incəliyi və rənglərin zənginliyi ilə fərqlənirdi. Ötən əsrlərin xalçaçılıq ənənələrini davam etdirən bu xalçalar iki böyük qrupa bölünürdü: *ornamentli* xalçalar və *süjetli-tematik* xalçalar. Bu dövr Azərbaycan xalçalarının ən gözəl nümunələri sırasında öz dekoruna görə seçilən iki xovlu xalçanı (1800-cü ildə biri Bakının Suraxanı, digəri isə Xilə kəndində toxunmuşdur), habelə XVIII əsrdə Qazaxda (Almaniya, şəxsi kolleksiya) və Qarabağda toxunmuş süjetli kompozisiyalı xovsuz xalçaları (Kiyev, Qərb və Şərq İncəsənəti Muzeyi) misal göstərmək olar. XVIII əsrdə xalçaçılıqla yanaşı, Azərbaycanda *ipək, pambıq* və *yun parça* istehsalı da mühüm əhəmiyyət kəsb etmişdir. Xalq yaradıcılığının geniş yayılmış növlərindən biri də *bədii tikmədir. Təkəlduz* və *gülabətin* kimi ənənəvi üslubla yanaşı, XVIII əsrdə məişət əşyalarına, paltara bəzək vurulduqda müxtəlif metallardan - gümüş, tune

və s. hazırlanmış dairə, borucuq, romblardan geniş istifadə olunurdu. Bu tikmələrdə əsas üstünlük rəngbərəng yastı, parıltılı, ortası deşik metal dairələrə - pilələrə verilirdi.

XVIII əsrdə *bədii metalişləmə* sənətinin mərkəzi Təbriz, Şamaxı, Şəki, Gəncə, Naxçıvan olmuşdur. Bakı, Moskva, Peterburq və bir sıra xarici ölkələrin muzeylərində (Bern Tarix Muzeyi) XVIII əsrə aid külli miqdarda bədii metalişləmə nümunəsi saxlanılır. Gözəl əşyalar arasında şamaxılı usta Seyidzadə tərəfindən hazırlanmış gümüş bant qabı (Bern Tarix Muzeyi), Gəncədə hazırlanmış dəstəmaz üçün mis dolça, Təbrizdə hazırlanmış, üzərində Nizami poeziyası mövzusunda təsvirlər olan üçayaqlı masa (Azərbaycan Dövlət İncəsənət Muzeyi), eləcə də forma və dekoruna görə orijinal, üzərində ***1717-ci il*** tarixi və Usta Nəcəfqulunun adını göstərilən Lahıc pirindən gətirilmiş samovar xüsusilə fərqlənir. Azərbaycanda *bədii ağac üzərində* işləmələrdən, əvvəlki dövrlərdə olduğu kimi, əsasən oyma, inkrustasiya və şəbəkə daha geniş yayılmışdır. Dekorativ-tətbiqi incəsənətin daha geniş yayılmış bir növü də *daş* və *gəc üzərində* bədii oyma olmuşdur. *Daş* üzərində oyma Abşeron, Şamaxı, Quba, Şəki, Qazax və digər yerlərdəki başdaşılarında təzahür edir. Bunlar əsasən sərdabəsiz daş plitələr olub, nəbati və həndəsi elementlərlə bəzədilirdi. XVIII əsrə aid gəc üzərində oymanın ən gözəl nümunələri Şəki və Gəncədə qalmaqdadır. Bunlar arasında Şəki Xan sarayı və Şəkixanovlar evindəki gözəl dekorlu buxarılar və Gəncədə daxili səthi oyma naxışlarla bəzədilmi günbəzli yaşayış evləri diqqəti cəlb edir. XVIII əsr memarlığı Azərbaycanın inkişafının milli ənənələri irsiliyindən irəli gələn əsas tarixi meyilləri, onun üslub və tipoloji xüsusiyyətlərini əks etdirir.

XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Azərbaycan siyasi pərakəndəlik dövrü yaşayırdı. Nadir şahın ölümündən sonra yaranmış müstəqil və yarımasılı xanlıqlar orta əsr dövlətlərinə məxsus bütün atributlara malik idilər. Bu dövrün sosial-iqtisadi münasibətləri orta əsrlərin əvvəlki dövrlərinə məxsus so-

sial-iqtisadi münasibətlərdən elə də fərqlənmirdi. Torpaq mülkiyyət formalarının və vergilərin mahiyyətində elə bir ciddi dəyişiklik baş verməmişdi. Bununla belə, bütün xanlıqlar dovrü üçün xarakterik olan ara müharibələrinin təsiri altında əkinçilikdə, ticarət və sənətkarlıqda dərin tənəzzül müşahidə edilirdi. Azərbaycan şəhərlərinin böyük əksəriyyəti ciddi dağıntılara məruz qalmışdır.

XVIII əsrin ikinci yarısında ayrı-ayrı Azərbaycan xanlıqları hakimiyyət və torpaq uğrunda bir-birilə kəskin müharibə aparırdılar. Ölkəni vahid dövlətdə birləşdirməyə çalışan qüvvələr də çox deyildi. ***Urmiyalı Fətəli xan, Şəkili Hacı Çələbi, Xoylu Əhməd xan, Qarabağlı Pənahəli xan*** və ***İbrahimxəlil xan, Qubalı Fətəli xan vahid Azərbaycan*** uğrunda xeyli qüvvə sərf etmişdilər. Qubalı Fətəli xan daha böyük uğurlar qazanmış və bütün şimal-şərqi Azərbaycanı öz hakimiyyəti altında birləşdirməyə nail olmuşdur. Bununla belə, ***ayrı-ayrı bölgələr arasında iqtisadi əlaqələrin zəifliyi və qonşu dövlətlərin müdaxiləsi son nəticədə vahid Azərbaycan dövlətinin yaranmasına imkan vermədi.*** Azərbaycanın zəngin təbii ehtiyatları və əlverişli coğrafi mövqeyi qonşu dövlətlərin, ilk növbədə İran və Rusiyanın diqqətini cəlb edirdi. Heç də təsadüfi deyil ki, XVIII əsrin sonuncu onilliyində bu dövlətlər Azərbaycanı işğal etmək üçün hərbi yürüşlər təşkil etmişdilər. Azərbaycan ***1795*** və ***1797-ci illərdə*** İran hakimi ***Ağa Məhəmməd şah Qacarın, 1796-cı ildə isə V.Zubovun*** başçılığı ilə rus ordusunun işğalçı yürüşünə məruz qalmışdır. Doğrudur, bu yürüşlərin hər üçü iflasla nəticələndi, lakin bu heç də həmin dövlətlərin Azərbaycana dair işğalçılıq planlarından imtina etmələri demək deyildi.

XRONOLOJİ CƏDVƏL

1709-1809 – Molla Vəli Vidadi.
1717-1797 – Molla Pənah Vaqif.
1726-1758 – Quba xanı Hüseynəli xan.
1747-1763 – Urmiya xanı Fətəli xan Əfşar.
1747-1828 – İrəvan xanlığı
1748 – Hacı Çələbinin Təbriz və Qarabağa uğursuz yürüşləri. Ərəş və Qəbələ sultanlıqlarını ələ keçirməsi.
1748 – Bayat qalasının əsasının qoyulması. Hacı Çələbinin Bayat qalasını mühasirəyə alması.
1748-1763 – Cavanşirlər tayfasından Pənahəli xan.
1751 – Gürcü qoşunlarının Cara uğursuz hücumu.
1752, 21 mart – "Qızılqaya xəyanəti". II İraklinin Gəncə yaxınlığında müttəfiqləri əsir götürməsi.
1752 – Kərim xan Zəndin Fətəli xan Əfşara qarşı Miyanə və Qəmşə döyüşləri.
1752 – Şahbulaq qalasının əsasının qoyulması.
1755 – Hacı Çələbinin Şirvana yürüşü. Hacı Çələbinin vəfatı.
1756 – Şuşa (Pənahabad) qalasının əsasının qoyulması.
1756 – Salyan xanlığının Quba xanlığından asılı olması.
1757 – Məhəmmədhəsən xan Qacarın Qarabağ xanlığına hücumu.
1758-1789 – Qubalı Fətəli xan.
1759 – Dərbənd xanlığının Quba xanlığından asılı olması.
1759 – Fətəli xan Əfşarın Qarabağa hücumu.
1761 – Qaraçəmən döyüşü. Zəndlərin məğlub olması.
1763 – Kərim xan Zəndin Urmiya qalasını ələ keçirməsi. Fətəli xan Əfşarın qətli. "Şiraz qonaqlığı".
1763-1806 – İbrahimxəlil xan.
1763 – Şəki Xan sarayının Məhəmmədhəsən xan tərəfindən tikdirilməsi.
1765-1769 – Kartli-Kaxetiya çarı II İraklinin İrəvan xanlığına yürüşləri

1766 – Qubalı Fətəli xan bacısı Xədicə Bikəni Bakı xanı Mirzə Məhəmməd xanın oğlu Məlik Məhəmməd xana ərə verməsi.
1768 – Mirzə Məhəmməd xanın vəfatı.
1768-1774 və 1781-1791 – Osmanlı - Rusiya müharibələri. Osmanlının məğlubiyyəti.
1768 – Fətəli xanın Köhnə Şamaxıya hücumu.
1773, payız – Quba xanına qarşı Şəki, Şamaxı, Qarabağ və Avar xanlıqlarından ibarət ittifaqın təşkili.
1773, dekabr – 1774, əvvəli – Müttəfiqlərin birləşmiş qüvvələrinin Şamaxıya hücumu. Fətəli xanın qələbəsi.
1774 – Qaraqaytaq usmisi Əmir Həmzə və bəzi Azərbaycan xanlarının birləşmiş qüvvələrinin Quba xanlığına hücumu. Gavduşan döyüşü. Fətəli xanın məğlub olub Salyana çəkilməsi.
1775 – Dərbəndə qayıdan Fətəli xanın rusların köməyilə düşməni məğlub etməsi.
1775 – Quba xanının köməyə görə II Yekaterinaya minnətdarlıq edərək Dərbəndin açarlarını Mirzə bəy Fərhadbəyli ilə Peterburqa göndərməsi.
1780-1781 – Fətəli xanın Qarabağa uğursuz yürüşü.
1783 – Fətəli xanın Qarabağa qarşı Lənkəran, Şəki, Xoy, Təbriz və Urmiya xanları və bir çox Cənubi Dağıstan feodalları ilə ittifaqı.
1783 – Krımın dinc yolla Rusiyaya birləşdirilməsi.
1783 – Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi.
1784 – Qubalı Fətəli xanın Ərdəbil və Meşkini ələ keçirməsi.
1784 – Qubalı Fətəli xanın elçisi Musa sultanı Peterburqa göndərib Rusiyanın təbəəliyinə keçmək təklifini irəli sürməsi.
1785 – Şəki və Lənkəran xanlıqlarının Quba xanlığından asılı olması.
1785 – Qubalı Fətəli xanın Şəki xanlığını özündən asılı vəziyyətə salması.
1787 – Mirzə Sadıq Məhəmmədvəliyevin başçılığı ilə nümayəndə heyətinin Rusiyaya uğursuz səfəri.
1789, mart – Qubalı Fətəli xanın qəflətən vəfat etməsi.
1789-1791 – Qubalı Fətəli xanın oğlu Əhməd xan.
1795, iyun – Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza I yürüşü. Şuşanın 33 gün, İrəvan qalasının isə 35 gün mühasirəsi. Qacar ordusunun məğlubiyyəti.

1795, 12 sentyabr – Ağa Məhəmməd xan Qacarın Tiflisi darmadağın edərək yandırması.
1796, 18 aprel – V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşü.
1796, 10 may – Qubalı Şeyxəli xanın rus qoşunlarına məğlub olması. Dərbəndin təslim olması.
1796, 6 iyun – Quba qalasının rus ordusu tərəfindən ələ keçirilməsi.
1796, 13 iyun – Bakılı Hüseynqulu xanın Bakının açarlarını V.Zubova təqdim etməsi.
1796, iyul – Rus ordusunun Şamaxı xanlığının ərazisinə daxil olması.
1796, 7 iyul – Şəkili Səlim xanın Rusiyanın himayəsinə keçmək haqqında sənədi imzalaması.
1796 – Rus ordusunun Dərbənd, Quba, Bakı, Şamaxı, Şəki, Salyan və Gəncə xanlıqlarını işğal etməsi.
1796, 6 noyabr – II Yekaterinanın vəfatı.
1797, yaz – Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza II yürüşü.
1797, 4 iyul – Ağa Məhəmməd şah Qacarın Şuşada sui-qəsd nəticəsində qətlə yetirilməsi.
1801 – Rusiyanın İrəvan xanlığının Pəmbək və Şörəyel ərazilərini işğal etməsi
1801, 2 iyul-3 sentyabr – İrəvan xanlığının general P.Sisianov tərəfindən uğursuz mühasirəsi
1808, 3 oktyabr - 30 noyabr – İrəvan xanlığının rus ordusu tərəfindən uğursuz mühasirəsi
1827, 27 aprel – 27 iyun – İrəvan qalasının rus ordusu tərəfindən uğursuz mühasirəsi
1827, 27 sentyabr – Rus ordusu tərəfindən İrəvan xanlığının 4-cü mühasirəsi
1827, 1 oktyabr – İrəvan xanlığının rus ordusu tərəfindən işğalı
1828, 21 mart – Çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ləğv edilməsi və "Erməni vilayəti"nin yaradılması

VIII FƏSİL
AZƏRBAYCAN XIX ƏSRDƏ

Plan:

1.Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi.
2.XIX əsrin 30-40-cı illərində Azərbaycan ərazisində sosial-iqtisadi münasibətlər. Rus müstəmləkə zülmünə qarşı üsyanlar.
3.XIX əsrin ikinci yarısında Azərbaycan ərazisində aqrar və burjua islahatları. Kapitalist münasibətlərinin təşəkkülü.
4.XIX əsrdə çarizmın köçürmə siyasəti.
5.XIX əsr Azərbaycan mədəniyyəti.
6.Cənubi Azərbaycan XIX əsrin ikinci yarısında.

1.Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi

XVIII-XIX əsrin hüdudlarında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərinə parçalanmışdır. Xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla kəndlilər arasında sinfi ziddiyyətlərin güclənməsi, iqtisadi tənəzzül Azərbaycanın daxili vəziyyəti üçün səciyyəvi hal idi.

Bu dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri ***Cənubi Qafqazın istilasından*** ibarət idi. Çar Rusiyası ***Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiyanın ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə*** can atırdı. Cənubi Qafqazın siyasi və hərbi-strateji əhəmiyyəti böyük idi. Bu diyarın işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyri-

nə həll edə bilərdi. Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın Şərqdə təsirinə, Ost-Hind kompaniyasının inhisarına ağır zərbə endirə bilərdi.

Qərbi Avropa dövlətlərinin, xüsusilə ***İngiltərə*** və ***Fransanın*** da Cənubi Qafqaz barədə işğalçı planları var idi. ***1801-ci ilin əvvəllərində*** İngiltərə ilə İran arasında siyasi və ticarət müqavilələri bağlandı. İngiltərə hər hansı dövlətin İran üzərinə hücum edəcəyi təqdirdə ona lazımi qədər xidmət heyəti ilə birlikdə tələb olunan miqdarda ***hərbi xərc*** verməyi öz öhdəsinə götürürdü. Ticarət müqaviləsinə əsasən tərəflərin tacirlərinə hər iki dövlətin ərazisində azad satış imkanı verilirdi, ingilis tacirlərinin isə malları hər cür vergilərdən azad olunurdu [4, s. 14]. İngiltərə bu müqavilələrlə İranı öz müstəmləkə mülklərini genişləndirmək uğrunda apardığı mübarizədə antirus siyasəti alətinə, müstəmləkəsi olan Hindistanı kənar təcavüzlərdən qorumaq, Cənubi Qafqaza dair özünün uzağa gedən planlarını həyata keçirmək üçün mübarizə meydanına çevirmək niyyətində idi.

Rusiya Cənubi Qafqaz barədə planını həyata keçirmək üçün hər şeydən əvvəl Həştərxan – Dərbənd – Bakı vasitəsilə rus qoşunlarının *1799-cu ildə* daxil olduğu Gürcüstanla əlaqə yaratmağa çalışırdı [189, s. 49].

1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında *çar manifesti* elan olundu. Ruslar tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycan ərazisinin də bir hissəsi-Kartli-Kaxetiya çarlığının asılılığında olan və onunla birlikdə Rusiyaya birləşdirilmiş ***Qazax, Borçalı, Şəmşəddil sultanlıqları*** bu quberniyanın tərkibinə daxil edildi. Beləliklə, Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının Rusiya tərəfindən istilasının başlanğıcı qoyuldu [4, s. 15].

Rusiya ilk növbədə Azərbaycanın Xəzəryanı vilayətlərini ələ keçirməyə çalışırdı. Bu məqsədlə general Knorrinq ***1802-ci ilin sentyabr-dekabr aylarında*** Şimali Qafqazda, ***Georgiyevski***

şəhərində siyasi və ***ticarət məsələləri üzrə danışıqlar*** üçün çar komandanlığının Şimali Azərbaycan xanları və Qafqazın digər hakimlərinin nümayəndələri ilə görüşünü keçirdi [429, s. 485]. Georgiyevskidə ***1802-ci il dekabrın 26-da müqavilə*** imzalandı. Müqaviləyə görə, onu imzalayanlar ***İrana hücum edəcəyi təqdirdə ona qarşı çıxmağı öz öhdələrinə götürürdülər, "onların öz xahişlərinə görə...Rusiya...himayəsinə" qəbul olunurdular*** [4, s. 16].

Azərbaycan xanları Rusiyanın verdiyi yalan vədlərə uyaraq öz xanlıqlarının istiqlaliyyətini, İran və Osmanlı qoşunları hücum edəcəyi təqdirdə öz torpaqlarını qarətdən və talandan bu yolla qoruyacaqlarına ümid edirdilər.

Azərbaycanın ayrı-ayrı feodal hakimlərinin Rusiya istilasına müqavimət göstərə biləcəklərindən ehtiyat edən çar hökuməti əlavə tədbirlər həyata keçirməyə başladı. ***1802-ci ilin sentyabrında*** Qafqazın baş komandanı təyin edilən general ***P.D.Sisianov*** Cənubi Qafqazda Rusiyanın müstəmləkə siyasətinin icraçısı oldu. General P.D.Sisianov Car-Balakən camaatlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çünki bu ərazi rus qoşunlarının Gürcüstandan Azərbaycanın içərilərinə doğru gedən yolun üstündə idi. ***1803-cü ilin mart ayında*** ruslar 5000 gürcü qoşunu ilə birlikdə Car-Balakənə hücum etdilər. ***Qanıq (Alazan) çayı*** sahilində baş verən döyüşdə carlıların müqavimətini qırdıqdan sonra general V.S.Qulyakov Balakəni yandırdı. ***Martın 29-da Car*** ruslar tərəfindən fəth olundu. ***1803-cü il aprelin 12-də*** Car-Balakənin 9 nəfərdən ibarət səlahiyyətli nümayəndə heyyəti Tiflisə general ***P.D.Sisianovun*** yanına gedərək Car-Balakən camaatlığının Rusiyanın hakimiyyəti altına alınması barədə saziş - ***"Andlı öhdəlik"*** bağlandı. Sazişin şərtlərinə görə, ***carlılar Rusiya xəzinəsinə ipəklə xərac ödəməli, sədaqət əlaməti olaraq əmanətlər (girovlar) verməli, öz ərazilərində rus qoşunlarını yerləşdirməli idilər.*** Lakin camaatın daxili idarəsinin dəyişməz olaraq qaldığını və əhalinin itaət şərtlərini yerinə yetirmədiyini

görən general ***V.S.Qulyakov 1804-cü ilin yanvar ayında*** yenidən ***Cara*** hücum etdi. Car yenidən fəth olundu və yandırıldı. Sonra rus qoşunları ***Zaqatalaya*** doğru hərəkət etdilər və Zaqatala yaxınlığındakı dərədə carlılar tərəfindən məğlub edildilər. Rus qoşunlarının sağ qalan hissəsi ***Muxax kəndinə*** geri çəkildi, general V.S.Qulyakov isə öldürüldü. Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqavimət göstərməyin qeyri-mümkünlüyünü və faydasızlığını görərək təslim oldular [4, s. 17-18].

Car-Balakən camaatlığının fəthindən sonra qonşu ***İlisu sultanlığı*** da Rusiyanın təbəəliyini qəbul etməli oldu. General P.D.Sisianov Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. "Gəncə qalasının yerli mövqeyi bütün Azərbaycan üzərində hökmrandır. Bax, buna görə də bu istila Rusiya üçün birinci dərəcəli əhəmiyyətə malikdir" [462].

Gəncə xanlığı XVIII əsrin 90-cı illərindən rus dövləti ilə səmimi diplomatik münasibətlər saxlayırdı. Cavad xan P.D.Sisianovun Rusiya himayəsini qəbul etmək təklifinə rədd cavabı verməmişdir. Lakin general P.D.Sisianovun məktublarındakı yekəxanalıq və etinasızlıq, Gəncə xanından Şəki, Şirvan və Qarabağ xanlıqlarından 3 dəfə artıq ödənc (ildə 20000 çervon) tələb etməsi qanlı döyüşlərə gətirib çıxardı. Gəncə şəhərinin 2 verstliyindəki ***Quluqobu adlı yerdə*** rus qoşunları ilə gəncəlilər arasında ilk vuruşma baş verdi. Cavad xan bir qədər müqavimət göstərdikdən sonra qalaya çəkildi. Rus qoşunları Gəncəni mühasirəyə aldılar. Mühasirədən bir ay sonra ***1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə*** rus qoşunları qalaya hücuma başladılar. Onların 2 cəhdi dəf olundu. ***Cavad xan*** və onun oğlu ***Hüseynqulu ağa*** qəhrəmancasına həlak oldular. Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi, şəhər isə öz qədim adını itirdi və ***I Aleksandrın*** arvadının şərəfinə ***Yelizavetpol*** adlandırıldı. ***"Gəncə"*** adını çəkmək qadağan olundu. Bu qaydanı pozanlar cərimə edilirdilər [8, s. 572].

Gəncənin alınması rus qoşunlarının Azərbaycanın içərilərinə doğru irəliləməsi üçün böyük əhəmiyyət kəsb etdi: 1) digər

Azərbaycan xanlıqlarının da taleyi həll olundu; 2) Azərbaycanın cənub bölgələrinə yol açıldı; 3) Gürcüstanın Şərq sərhədlərinin təhlükəsizliyi təmin olundu; 4) rus qoşunlarının Xəzər sahillərinə çıxıb, Həştərxanla əlaqə yaratmasına imkan yarandı. Gəncə xanının vassal asılılığında olan Samux hakimi Şirin bəy də Rusiyanın təbəəliyini qəbul etməyə məcbur oldu.

Gürcüstanın, Şimali Azərbaycanın bir hissəsinin Rusiya tərəfindən işğalı İran və Osmanlı imperiyasının, habelə onların arxasında duran İngiltərə və Fransanın narahatlığına səbəb oldu. Azərbaycan tarixçisi A.Bakıxanovun yazdığına görə, "İran şahı 70 minlik qoşununu Cənubi Qafqazın sərhədlərində cəmləşdirdi" [35, s. 158]. Şah sarayı Rusiya ilə müharibəyə hələ ***1801-ci ilin yazından –İngiltərə ilə müqavilə*** bağladıqdan sonra hazırlaşırdı.

İngiltərə I Pavelin ölümündən və xüsusən Fransa qoşunlarının Suriya və Misirdən çıxarılmasından belə qənaətə gəldi ki, Hindistana yürüş planı Napoleonun Şərq siyasətinin gündəliyindən çıxarılmışdır, ona görə də İngiltərə vəd etməkdən uzağa getmirdi, lakin o, İranı Rusiya ilə müharibəyə qızışdırırdı [4, s. 20].

1804-cü ilin mayında Fətəli şah başda olmaqla İranın yuxarı feodal təbəqələri rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. Tələb rədd olundu və ***1804-cü il iyulun 10-da*** *Rusiya ilə İran* arasında diplomatik əlaqələr kəsildi. 10 il davam edən Rus-İran müharibəsi başlandı.

İlk döyüş ***1804-cü il iyulun 2-də*** *İrəvan xanlığının ərazisində,* ***Eçmiədzin*** yaxınlığında baş verdi. Rus qoşunları gürcü süvari dəstələrinin köməyi ilə üstünlük əldə etdilər [4, s. 20-21].

İkinci döyüş İrəvan yaxınlığında, Qəmərli kəndinin yanında baş verdi. *1804-cü il iyulun 29-dan 30-na keçən gecə* rus qoşunları ilə İran qoşunları arasında qanlı döyüş baş verdi. Azuqənin çatışmazlığı, qoşunların azlığı, habelə İran qoşunlarının kiçik rus dəstəsi yerləşmiş Gəncəyə tərəf irəliləməsi üzündən sentyabrın 4-də rus qoşunları İrəvandan geri çəkildi.

General P.D.Sisianov hələ 1804-cü ilin əvvəlində mayor D.Lisaneviçi Qarabağa İbrahimxəlil xanın yanına göndərərək ondan ***"Rusiyanın təbəəliyinə"*** keçməyi tələb etdi. ***1805-ci il mayın 14-də*** Gəncə yaxınlığında ***Kürəkçayın sahilindəki*** görüşdə ***İbrahimxəlil xanla P.D.Sisianov*** arasında imzalanan müqaviləyə [8, s. 572] əsasən xan, onun varisləri və xanlığın bütün əhalisi ***Rusiyanın təbəəliyinə*** qəbul olunur*, çar* isə, öz növbəsində, *bu xan sülaləsinin hüquqlarını* ***"bütün zamanlar üçün"*** təsdiq edirdi, lakin hər dəfə xan varisləri çar tərəfindən təsdiq olunmalı idi. Xan nəvəsini girov verməyi boynuna götürdü. ***Xanlığın daxili idarəsi*** xanın ixtiyarında saxlanıldı. Xan ***rus qarnizonunu Şuşaya buraxmağı*** və ***zəruri ehtiyaclarını*** təmin etməyi öz üzərinə götürdü. Xan ***hər il*** öz gəlirlərindən Rusiya xəzinəsinə ***8 min çervon*** ayırmağı öhdəsinə götürdü [10, s. 590]**.** ***1805-ci il mayın 21-də*** eyni şərtlərlə ***Şəki xanlığı*** da Rusiyanın himayəsi altına keçdi [52, s. 129-130].

1805-ci il yay kompaniyasının gedişində İran qoşunları ***iyun ayının ortalarında Qarabağa*** daxil oldular. Pirqulu xan ***Əsgəranı*** tutdu. ***1805-ci il iyunun 26-da*** şah qoşunları rus qarnizonunun yerləşdiyi ***Şahbulaq*** qalasını mühasirəyə aldılar. Abbas Mirzə qalanın təslim olmasını tələb etdi. Polkovnik P.M.Koryagin vəziyyətin çıxılmazlığını görüb, qalanı iyulun 8-də təslim etməyə razılaşdı, özü isə *iyulun 7-nə keçən gecə* dəstəsi ilə gizlicə qalanı tərk etdi.

İyulda İran qoşunları Qazağa soxuldular. Polkovnik P.M.Koryagin 570 nəfərlik dəstəsi ilə ***iyulun 27-də Zəyəm yaxınlığındakı*** İran düşərgəsinə hücum etdi. İran qoşunlarının 1805-ci ilin yay hərbi kompaniyasındakı məğlubiyyəti və bunun ardınca başlamış fasilə Rusiya hökumətinə Azərbaycanda öz mövqeyini daha da möhkəmləndirmək, Şirvan, Bakı və Quba xanlarını tabe etmək imkanı verdi [4, s. 23].

General P.D.Sisianovun Şirvana doğru hərəkət etdiyini eşidən Mustafa xan onun tələbini qəbul etməyə qərar verdi, xan-

lığın xarici əlaqələr hüququnun Rusiyaya verilməsinə, ildə 10 min çervon bac ödəməyə, xanlığın hüdudları daxilində ticarətin təhlükəsizliyini təmin etməyə və s. məsələlərə razılaşdı. Əvvəl danışıqlardan boyun qaçıran ***Mustafa xan*** və ***P.D.Sisianov 1805-ci il dekabrın 27-də müqavilə*** imzaladılar.

Azərbaycanın ən iri xanlığı olan Şamaxı xanlığının Rusiyaya tabe olunmasından sonra Bakıya yol açıldı. Hələ 1805-ci ilin əvvəllərində Qafqazdakı rus qoşunlarının baş komandanı general Q.İ.Qlazenap Gilanı tutmaq, geri qayıdarkən isə Bakını ələ keçirmək üçün rus donanmasını Xəzərə göndərməyi qərara almışdır. ***İyunun 23-də*** donanma ***Ənzəli limanına*** çatdı. Desant çıxarmaq və ***Rəşti*** tutmaq üçün göstərilən uğursuz cəhddən sonra rus eskadrası ***avqustun 12-də Bakı xanlığına*** yaxınlaşdı. Qalanın təslim edilməsi barədə danışıqlar başlandı. General İ.İ.Zavalişin rədd cavabı alaraq, *avqustun 15-də* qalanı atəşə tutmağa, *avqustun 22-də* isə şəhəri mühasirəyə almağa başladı. ***Avqustun 29-dək*** xanlığın mühüm strateji məntəqələri tutuldu.

İranla əlaqə saxlayan ***Bakı hakimi Hüseynqulu xan*** kömək üçün şah sarayına müraciət etdi. Abbas Mirzə Urmiyalı Əsgər xana Bakı xanına kömək etmək üçün qoşunlarla birlikdə dərhal yola düşməyi əmr etdi. Qubalı Şeyxəli xan da Hüseynqulu xana kömək etməyə hazırlaşırdı [186, s. 232]. General İ.İ.Zavalişin Bakıya Urmiya və Qubadan köməyin yaxınlaşmasından qorxaraq, qalanı ələ keçirmədən Lənkəran yaxınlığındakı ***Sara adasına*** çəkildi. *1806-cı il fevralın əvvəllərində* general ***P.D.Sisianovun*** artilleriyası Bakının 2 km-də general ***İ.İ.Zavalişinin*** desant dəstəsi ilə birləşdi və *Naxır bulaqda* düşərgə saldı. General P.D.Sisianov qalanın təslim edilməsini tələb etdi.

General P.D.Sisianovun təklif etdiyi şərtlərə görə, Bakı xanlığı Rusiya təbəəliyinə keçməli, xanlığın ərazisi Rusiyaya birləşdirilməli, xanlığın bütün gəlirləri çar xəzinəsinə göndərilməli, xan isə ildə 10000 manat məbləğində məvacib almalı idi. Qalada toplarla birlikdə 600000 əsgərdən ibarət rus qarnizonu

yerləşdirilməli idi. Xarici siyasət və hərbi məsələlərdə xan Qafqazdakı rus qoşunları baş komandanlığının sərəncamına tabe olmalı idi [4, s. 25].

Bakılı Hüseyqulu xan bu şərtlərlə razılaşdı. ***Fevralın 8-də*** general ***P.D.Sisianov*** polkovnik Eristovun müşaiyəti ilə mühafizəsiz xanla görüşmək üçün yola düşdü. Görüşdə o, ***Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy*** tərəfindən öldürüldü. İbrahim bəy Təbrizə qaçaraq P.D.Sisianovun başını Abbas Mirzəyə təhvil verdi. Bakıda P.D.Sisianovun öldürülməsindən sonra rus qoşunlarında gərginlik yarandı. Xanların çoxu Rusiyanın təbəəliyinə keçmək məsələsində tərəddüd etməyə başladı [4, s. 25-26].

1806-cı ilin yazında İran qoşunları Arazı keçərək Qarabağa doğru hərəkət etdi. ***İyunun 8-də*** rus və İran qoşunları arasında 1806-cı ilin ilk silahlı toqquşması baş verdi. ***Şahbulaq*** və ***Əsgəran*** arasında, ***Ağdamda*** rus dəstəsi 4000 İran sərbazı ilə qarşılaşdı. Rus hərbi dəstəsi İran qoşununu sıxışdırdı, Əsgəranı tutdu, ***Şuşaya*** doğru irəlilədi. Abbas Mirzə İdrahimxəlil xanı öz tərəfinə çəkmək üçün elçilərini onun yanına göndərdi. İbrahimxəlil xan xanlığın talan edilməsinə yol verməmək üçün əvvəlcədən mayor D.Lisaneviçlə razılaşaraq, rus qoşunları gəlib çıxanadək iranlılarla mülayim rəftar etməyi qərara aldı. Rus qoşunlarının gecikməsi İran qoşunlarının lap qalaya yaxınlaşmasına səbəb oldu. İbrahimxəlil xan öz ailəsinin təhlükəsizliyini təmin etmək üçün onu Şuşa qalası yaxınlığındakı Xankəndinə köçürdü. Bədniyyətlilərin xanı mayora şərləmələrinə görə, ***D.Lisaneviç*** "gecə ikən bir dəstə döyüşçü ilə xanın məskəninə yollandı və ***İbrahimxəlil xan*** bəzi ailə üzvləri və yaxın adamları ilə birlikdə öldürüldü". Bu hadisələrdən dərhal sonra ***Şəkili Səlim xan*** Rusiya ilə əlaqələri kəsdi, "əhalini üsyana qaldırdı və rus qoşunlarını xanlıqdan getməyə məcbur etdi" [80, s. 96].

1806-cı ilin yayında Abbas Mirzənin qoşunları ***Qarabağ*** və ***Şirvanda*** idi. Atasının xaincəsinə öldürülməsinə baxmayaraq, Mehdiqulu xan general P.Nebolsinin komandanlığı altında rus

qoşunları yaxınlaşarkən öz süvari dəstəsi ilə qaladan çıxmağa, onun qoşunları ilə birləşməyə məcbur oldu və Əsgəran qalasının yaxınlığında düşərgə saldı. Tezliklə, ruslar ***Xanaşır aşırımında*** İran sərbazlarını darmadağım etdilər və qoşunların qalıqları Arazın o tayına çəkildi. *1806-cı ilin qışında* P.D.Sisianovun yerinə baş komandan təyin olunmuş general ***İ.V.Qudoviç*** Qarabağın idarə olunması haqqındakı Fərmanı Mehdiqulu xana təqdim etdi.

Rus komandanlığı ***Bakı*** və ***Dərbənd qalalarının*** ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. İran hökuməti Rusiya üçün Bakının əhəmiyyətini başa düşürdü və Qarabağdakı uğursuzluqlardan sonra rus qoşunlarının irəliləməsinin qarşısını almaq üçün hərbi əməliyyatları ***Şamaxı xanlığı*** istiqamətinə keçirdi [471]. Rus qoşunlarının yaxınlaşmasını eşidən Abbas Mirzə düşərgə saldığı Ağsudan Kür çayına doğru geri çəkildi. Rus qoşunlarının Bakı və Dərbəndə doğru irəliləməsi üçün əlverişli şərait yarandı. Qubalı Şeyxəli xan Rusiya hakimiyyətini qəbul etmək istəmirdi. *1806-cı ilin iyununda* rus qoşunları Quba xanına tabe olan Dərbəndə yaxınlaşdılar və *iyunun 22-də* onu tutdular. Sonra onlar general S.Bulqakovun komandanlığı altında ***Bakıya*** doğru yönəldilər. General şəhər sakinlərinə müraciət göndərdi. Hüseynqulu xan öz nümayəndə heyətini şəhərin bayrağı, qalanın açarı və duz-çörəklə S.Bulqakovun yanına göndərdi. Lakin ***Hüseynqulu xan*** qisasdan qorxaraq, ailəsi ilə birlikdə Qubaya, oradan da İrana qaçdı [186, s. 258]. Beləliklə, ***1806-cı il sentyabrın 3-də*** *Bakı xanlığı* Rusiyaya tabe edildi. Tezliklə, Quba xanı da qaçdı, onun xanlığı da Rusiyaya tabe olundu. Beləliklə, ***1806-cı ilin sonunda Talış, İrəvan*** və ***Naxçıvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan ərazisi Rusiyanın hakimiyyəti*** altına keçdi.

1806-cı il oktyabrın 22-də Nuxa yaxınlığında həlledici döyüş baş verdi və Şəkili Səlim xanın dəstələri məğlubiyyətə uğradı. Rus qoşunları Nuxa şəhərini mühasirəyə aldılar. Nuxalıların müqavimət göstərməsinə baxmayaraq, rus qoşunları Nuxa-

nı ələ keçirdilər. Səlim xan İrana qaçdı. Sonra rus qoşunları Car-Balakənə üz tutdu, Car üsyançılarını və Avar xanının, habelə Dağıstan feodallarının burada olan süvarilərini mühasirəyə aldılar. Tezliklə üsyan yatırıldı.

Çar hökuməti ***Quba*** və ***Bakı xanlıqlarını*** ələ keçirdikdən sonra İranla sülh bağlamağa can atırdı, belə ki, rus komandanlığı Osmanlı imperiyası ilə müharibənin yaxınlaşdığını qabaqcadan görür və buna görə də əl-qolunu azad etmək, mümkün olarsa, hətta İranı Osmanlılara qarşı müharibəyə sövq etmək istəyirdi. İran hökuməti də güzəştlərə ümid bəsləyərək, sülh bağlamaq istəyirdi. *1806-cı il sentyabrın ortalarında* şah sarayı öz nümayəndəsini sülh bağlamaq təklifi ilə rus qoşunlarının baş komandanı ***İ.V.Qudoviçin*** yanına göndərdi. Çar hökuməti güzəştə getmək fikrində deyildi, əksinə, o, İrandan Naxçıvan və İrəvan xanlıqlarını tələb etdi. Lakin danışıqlar uzandı. İngiltərə və Fransa bu işdə az rol oynamırdı. İngiltərə açıq-aşkar, Fransa isə gizlicə İranı müdafiə edir və Osmanlı imperiyasını Rusiya ilə müharibəyə təhrik edirdilər. Austerlitsdən sonra İran və Osmanlı imperiyasında Napoleon diplomatiyası daha da fəallaşdı. Napoleon 1806-cı ildə öz nümayəndəsi general Romyeni İrana göndərdi. İranın Fransa ilə danışıqları İngiltərəni təşvişə saldı. Bağdaddakı ingilis səfiri ***Xarford Cons*** şah nazirinə müraciət edib ona təminat verdi ki, İngiltərə *1801-ci il* müqaviləsinin şərtlərinə sadiq qalacaqdır [4, s. 29**]**.

Napoleonun *1806-cı ildə* İstanbula gəlmiş səfiri general Sebastian Osmanlı Türkiyəsini təhrik edərək bir sıra Rusiya-Osmanlı sazişlərini pozmağa nail oldu.

1806-cı ilin sonunda Osmanlı imperiyası Rusiyaya qarşı müharibəyə başladı. Osmanlıların müharibəyə başlaması rus qoşunlarının Qafqazdakı vəziyyətini ağırlaşdırdı. İndi İranla yanaşı, Osmanlı imperiyası ilə də müharibə aparmaq lazım idi. Rusiya buna görə də İranla sülh bağlamağa cəhd göstərirdi. Lakin İranla danışıqlar müvəffəqiyyətlə nəticələnmədi.

Rus-Osmanlı müharibəsinin başlanmasından sonra Qafqazdakı rus qoşunlarının komandanlığı Tərtər çayı sahilində istehkam qurdular. Baş komandan general İ.V.Qudoviç rus ordusunun başında Gümrüyə gəldi. Burada ***1807-ci il iyunun 18-də*** rus və Osmanlı qoşunları arasında qanlı döyüş baş verdi. "Qaş qaralana yaxın Osmanlılar məğlub edildilər. Ruslar Osmanlılardan qənimətlər və çoxlu top ələ keçirdilər" [81, s. 103-110].

Napoleon *1807-ci ilin əvvəllərində* İran şahını Rusiya ilə mübaribəni gücləndirməyə çağırır, *Fransa, İran* və *Osmanlı imperiyasından ibarət antirusiya blokunu* yaratmağı təklif edirdi. Şah hökuməti bu təklifi qəbul etdi. ***1807-ci il mayın 4-də Finkenşteyndə Fransa-İran müqaviləsi*** imzalandı. Müqaviləyə görə ***İrana hərbi kömək göstərilməsi*** nəzərdə tutulurdu. İrana general Qardanın başçılıq etdiyi fransız diplomatik nümayəndə heyətinin gəlişi ilə ***Finkenşteyn müqaviləsi*** tələm-tələsik təsdiq olundu. *1808-ci il yanvarın 21-də müqavilə bağlandı.* Müqaviləyə görə, İran fransız cəbbəxanasından ***20 min tüfəng*** satın ala bilərdi. Fransızlar İran ordusunu yenidən qurmağa başladılar.

1808-ci ilin mayında İran qoşunu ***İrəvana*** doğru çəkildi. Rus qoşunları ***sentyabrın 4-də*** Soğanlıq düşərgəsindən ***Pəmbəkə*** döğru hərəkət etdilər, oradan isə İran qoşunlarına hücum etməli idilər. General İ.V.Qudoviç Naxçıvanı ələ keçirməyi general P.Nebolsinə əmr etdi. ***Sentyabrın 26-da*** İ.V.Qudoviç İrəvanlı Hüseyn xan başda olmaqla 4000 nəfərlik İran qoşununu məğlub etdi. Rus qoşunları Hüseyn xanı təqib edərək yolüstü ***Eçmiədzini*** ələ keçirdi. General P.Nebolsin Naxçıvana doğru irəliləyərək, ***oktyabrın sonunda Qarababa kəndi*** yanında İran qoşunlarını dağıtdı və ***Naxçıvanı*** tutdu. Rus qoşunları İrəvanı mühasirəyə aldı və mayın ortalarında qalaya uğursuz hücum etdi, geri çəkilərkən Naxçıvanı da tərk etməli oldu. ***Abbas Mirzə Naxçıvanı*** tutaraq, rus qoşunlarını təqib etməyə başladı. ***Qarababa kəndində*** döyüşdə İ.V.Qudoviç yenidən məğlubiyyətə uğradı. ***1808-ci il kampaniyası*** uğursuz başa çatdı və ***İ.V.Qudoviç*** istefaya getdi.

1809-cu ilin əvvəllərindən Rusiyanın Cənubi Qafqazdakı vəziyyəti daha da ağırlaşdı. ***Sarıqamışda*** 14 min İran sərbazı cəmləşdirilmişdir. Qafqazda rus qoşunlarının sayı isə 43,5 min nəfərə çatdığı halda İran hücuma 150 min nəfərlik ordu çıxarmaq niyyətində idi [4, s. 33]. Yeni Baş Komandan ***A.P.Tormosov*** İranla münasibətləri danışıqlarla nizama salmağa ümid edirdi, lakin *1809-cu ilin iyununda* şahın özü Qarabağ və İrəvanla kifayətlənməyərək qüvvələrini Osmanlı Türkiyəsi ilə birləşdirmək üçün Qərbdə hərbi əməliyyatları genişləndirmək niyyəti ilə Cənubi Azərbaycana gəldi. ***1809-cu ilin*** hərbi əməliyyatları ***iyulda*** *2* İran qoşununun ***Qarabağ*** və ***Pəmbəkə*** yürüşləri ilə eyni zamanda başladı. 3-cü qoşun hissəsi ***Göyçə (Sevan) gölünün*** yanında dayandı. Onun əməliyyat meydanı Gəncə, Qazax və Şəmşəddil olmalı idi. Lakin İran qoşunları öz planlarını həyata keçirə bilmədilər. ***Avqustda*** bir tərəfdən Abbas Mirzə, digər tərəfdən rus qoşunları Gəncəyə hücum etdi. Abbas Mirzə yenidən döyüşə girmədən, bir neçə yaşayış məntəqəsini talan edərək, Arazın o tayına çəkildi.

1809-cu ilin sentyabrında 11000 İran süvari qoşunu Talış xanlığına soxuldu və ***Lənkəranı*** talan etdi. Mir Mustafa xan öz qoşunlarının qalıqları və ailəsi ilə birlikdə yarımadada gizlənməyə məcbur oldu. Həmin günlərdə Əsgəranda İran və Rusiya arasında danışıqlar yenidən başlandı. General A.P.Tormosov İran nümayəndəsi Mirzə Bezürkdən Talış xanlığının müstəqilliyini tanımağı tələb etdi. İrandakı ingilis səfiri sülh müqaviləsinin bağlanmasına hər vasitə ilə mane olurdu. O, şahı inandırırdı ki, İranın qarşısında qoyulan şərtlər çar sarayı tərəfindən deyil, A.P.Tormosov tərəfindən irəli sürülür. Eyni zamanda İngiltərə İran qoşunlarını silahla təchiz edirdi.

1810-cu ilin iyununda İran qoşunları Qarabağ, Gəncə və Pəmbəkə doğru irəlilədi, Mehridə möhkəmləndi. Təbriz istiqamətində Cənubi Azərbaycana yol açan Mehrinin mühüm strareji əhəmiyyətini nəzərə alan P.S.Kotlyarevski *iyunun 15-də* Mehri-

ni ələ keçirdi [482]. *İyulun 8-nə* keçən gecə P.S.Kotlyarevski İran qoşunlarını Mehri yaxınlığında darmadağın etdi.

1810-cu ilin avqustunda İranla Osmanlı imperiyası arasında Rusiya əleyhinə hərbi ittifaq bağlandı. Buna baxmayaraq, İran qoşunları Ahalkələki yaxınlığında məğlub oldular. Abbas Mirzə barışıq haqqında danışıqlara başlamaq qərarına gəldi [4, s. 34].

1812-ci il martın 14-də İngiltərənin yeni səfiri ***Qor Ouzli Abbas Mirzəylə*** *1809-cu il müqaviləsini* təsdiq edən müqavilə imzaladı. Müqaviləyə görə, İngiltərə İrana lazımi miqdarda qoşun göndərməyi və yaxud Britaniya səfirinin bilavasitə nəzarəti altında bütün müharibə ərzində ordunun saxlanması üçün hər il 200 000 tümən pul göndərməyi boynuna götürdü. İran İngiltərədən belə əhəmiyyətli yardım alaraq, barışıqdan imtina etdi. İngilislərin məsləhəti ilə ***Fətəli şah*** ruhanilərin başçısını çağırdı və ***ruslara qarşı cihad-müqəddəs müharibə*** barəsində fitva verməyi tapşırdı [4, s. 35].

1812-ci ilin əvvəllərində 20 minlik İran ordusu ***Qarabağa*** soxuldu. O, ***Şahbulaq*** və ***Sultanbud*** tərəfə irəlilədi. Şah qoşunları ingilis zabitlərinin komandanlığı altında azsaylı rus qoşunlarını mühasirəyə aldılar və qələbə çaldılar. *1812-ci il martın 18-də* P.S.Kotlyarevski iranlıların geriyə çəkilərkən yolunu kəsmək və onları darmadağın etmək üçün öz dəstəsi ilə Araza doğru hərəkət etdi. Lakin Abbas Mirzəyə hələ P.S.Kotlyarevski yaxınlaşanadək mühasirədən yaxa qurtarmaq və Arazın o tayına keçmək müyəssər oldu. M.İ.Kutuzovun komandanlığı altında Balkanlardakı qələbə Osmanlı imperiyasını sülh istəməyə məcbur etdi. ***1812-ci il mayın 16-da Buxarestdə Rusiya*** və ***Osmanlı Türkiyəsi arasında*** sülh müqaviləsi bağlandı. Müqaviləyə görə, ***Osmanlı Türkiyəsi Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən işğal olunmasını*** təsdiq etdi [8, s. 576]. İndi isə İran Rusiyanı müəyyən güzəştlərlə belə bir müqavilə bağlamağa sövq etməyə can atırdı. Rusiya da İranla sülh bağlanılmasında maraqlı idi, çünki Qərbdə Fransa ilə münasibətlər kəskinləşirdi.

General N.F.Rtişşev 1812-ci il aprelin 20-də İranla sülh bağlamaq göstərişi aldı. İndi Rusiya demarkasiya xəttinin Kür, Araz və Arpaçay çayları boyunca keçməsi barədə əvvəllər irəli sürülən təkliflərdən imtina edir və sərhədi işğaldan sonra necə varsa elə qurmağa razılaşırdı. Lakin Abbas Mirzə ərazi güzəştləri tələb etdiyinə görə danışıqlar uzandı [4, s. 36].

1812-ci ilin yayında Napoleon Fransası ilə Rusiya arasında müharibə başlandı. ***1812-ci il iyulun 8-də İngiltərə ilə Rusiya arasında Fransa əleyhinə müqavilə*** imzalanmasına baxmayaraq, Rusiyanın başının Napoleonla müharibəyə qarışmasından istifadə edən İngiltərə İranda fəallaşdı. ***Abbas Mirzə*** rus ordusunun əsas qüvvəsinin Napoleona qarşı müharibəyə yönəlməsindən istifadə edərək, öz ordusunu Cənubi Qafqaza yeni hücuma hazırlamağa başladı.

İran ilk növbədə Rusiyanı Qarabağdan sıxışdırıb çıxarmaq istəyirdi. Bunun üçün o, ***Mehrini*** tutmaq istəyirdi. ***İyulun 12-də*** İran qoşunları Qarabağa soxuldular, lakin darmadağın edilib Arazın o tayına atıldılar. ***Avqustda*** 20 minlik İran qoşunu ***Lənkəran*** da daxil olmaqla ***Talış xanlığının*** ərazisini ələ keçirdi. İran qoşununun digər hissəsi ***Ərçivanı*** tutub, Azərbaycanın içərilərinə doğru yol açdı. Rus komandanlığı Abbas Mirzənin sülh bağlamaq üçün 40 günlük barışıq barəsində təklifindən istifadə etməyi qərara aldı. Danışıqlar ***sentyabrın 20-də Aslandüzdə*** başlandı və ***oktyabrın 10-dək*** davam etdi. Tərəflər özlərinin əvvəlki mövqelərindən əl çəkmək istəmədiyinə görə danışıqlar heç bir nəticə vermədi. Abbas Mirzənin komandanlığı altında 30 minlik ordu Aslandüz yaxınlığında Araz sahilində cəmləşdi. O, rus dəstələrinə zərbə endirərək Qarabağa və Yelizavetpola (Gəncəyə), daha sonra isə Gürcüstana irəliləmək niyyətində idi. Abbas Mirzə ***Pəmbək*** və ***Şuragəldəki*** rus sərhəd məntəqələrinə hücum üçün İrəvan xanının qüvvələrindən də istifadə etməyi qərara almışdır. Lakin ***Abbas Mirzə*** ilk zərbəni ***Ağoğlan*** adlanan yerin yaxınlığında, Araz sahilində aldı. İrəvanlı Hüseynqulu xanın qo-

şunları isə Pəmbək və Şuragələ soxuldular. Rus qoşunları ***Dilican dərəsində*** erməni əhalisinin köməyi ilə qələbə çaldı. Pirqulu xan da Şəkidə darmadağın edildi. Abbas Mirzə Şəkidə Pirqulu xanın qüvvələri ilə birləşmək üçün qoşunlarını Arazdakı ***Aslandüz*** keçidi qarşısında cəmləşdirdi. P.S.Kotlyarevski Abbas Mirzənin niyyətini başa düşdü və o, düşmənin arxasına keçmək və gözlənilmədən arxadan zərbə vurmaq məqsədilə dağlarla 70 kmlik gecə yürüşü etdi. Abbas Mirzə əzilmiş hissələrinin qalıqlarını toplayaraq, səhərisi gün məğlubiyyətinin əvəzini çıxmağı qərara aldı. Lakin P.S.Kotlyarevski ***Aslandüz*** istehkamlarına hücum edib onun qoşunlarını darmadağın etdi. Tezliklə, P.S.Kotlyarevski ***1812-ci il dekabrın 17-də*** təxminən 2000 nəfərlik dəstə ilə Ağoğlandan yola düşərək Arazı keçdi və ***dekabrın 21-də Lənkəran xanlığına*** daxil oldu. Xəzər donanması da buraya göndərilmişdir. İranlılar Lənkəran qarnizonunu möhkəmləndirdilər, onlara 2500 nəfər piyadadan ibarət kömək də gəldi [473].

Dekabrın 21-də İran qoşunlarının ön hissəsi Muğanda darmadağın edildi. Rus qoşunlarının yaxınlaşdığından xəbər tutan iranlılar Ərçivandan geri çəkildilər. ***P.S.Kotlyarevski*** Ərçivanda kiçik bir qarnizon qoyaraq, ***Lənkərana*** tərəf irəlilədi. Rus qoşunları qalanı ***dekabrın 30-dək*** davam edən fasiləsiz artilleriya atəşinə tutdu. ***Dekabrın 31-də*** *P.S.Kotlyarevski* qoşunu 3 hissəyə bölərək axşam qala divarlarına yaxınlaşdı və ***1813-cü il yanvarın 1-də*** səhərə yaxın hücuma başladı. Amansız və qanlı çarpışma 3 saatdan çox çəkmədi və qala alındı [8, s. 576]. Lənkəranın alınması rus-İran müharibəsinin taleyini həll etdi. ***Aslandüz*** və ***Lənkəran*** qələbələrindən aydın oldu ki, heç bir şey rus qoşunlarının İranın içərilərinə doğru irəliləməsinə mane ola bilməz. İrandakı ingilis səfiri Qor Ouzli Rusiya və İran arasındakı müharibənin dayandırılması haqqında Londondan göstəriş aldı. *1813-cü ilin əvvəllərində* N.F.Rtişşev və şah sarayı arasında yazışma başlandı. N.F.Rtişşev qeyd edirdi ki, tutulmuş bütün torpaqları Rusiya tərkibində saxlamaq şərtilə sülh bağlamağa hazır-

dır, bu isə şah sarayını razı salmırdı. Buna baxmayaraq, danışıqlar ***sentyabrın 27-də Qarabağda Gülüstan kəndində başladı*** və ***1813-cü il oktyabrın 12-də sülh müqaviləsinin*** imzalanması ilə başa çatdı.

Gülüstan müqaviləsinə görə, ***İran Rusiyanın qələbəsini, Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqlarının ərazisinin, habelə Şərqi Gürcüstan və Dağıstanın Rusiyanın*** *ixtiyarına keçməsini tanıdı.* ***İrəvan və Naxçıvan xanlıqları İranın hakimiyyəti altında*** *qaldı. İran yalnız* ***Rusiyanın Xəzər dənizində hərbi gəmilər*** *saxlamaq barədə hüququnu tanıdı.* Aşağı, *5%-lik kömrük tarifi* qoyuldu ki, bu da o demək idi ki, rus tacirləri üçün İrana yol açılırdı. İranın daxilində isə rus tacirləri daxili gömrük rusumlarını ödəməkdən azad olunurdular. Bu, Rus-İran ticarətinin inkişafı üçün əlverişli şərait yaradırdı. ***Gülüstan müqaviləsinin*** bağlanılması ilə Şimali Azərbaycanın ***Rusiya*** tərəfindən ***istilasının birinci mərhələsi*** başa çatdı [4, s. 38-39].

İkinci Rus-İran müharibəsi və istilanın başa çatması. Gülüstan müqaviləsini özü üçün rüsvayçılıq hesab edən və Cənubi Qafqazı ələ keçirmək üçün yeni planlar hazırlayan İran Rusiyanın Cənubi Qafqazı zəbt etməsi ilə barışmaq istəmirdi. İranın bu planları İngiltərənin Cənubi Qafqazdakı planlarına tam uyğun idi. ***1814-cü il noyabrın 25-də Tehranda İngiltərə ilə İran*** arasında müqavilə bağlandı. *İran şahı İran sərhədləri tərəfindən Hindistanın təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürürdü. Böyük Britaniya isə İrana hər il, 1809-cu il müqaviləsi üzrə müəyyən olunmuş məbləğdə maliyyə yardımı göstərmək, ordu və hərbi gəmilər ayırmaq haqqında öz öhdəliyini bir daha təsdiq etdi.* İngiltərə ilə yeni müqavilə bağlamaq və ordunu müharibəyə hazırlamaqla yanaşı, şah sarayı eyni zamanda hesab edirdi ki, Rusiyadan müəyyən güzəştlərə nail olmaq üçün əlverişli şərait yaranmışdır. *1815-ci ildə* Gülüstan müqaviləsinə yenidən baxmağa Rusiyanın razılığını almaq üçün İran tərəfi Peterburqa nümayəndə heyəti göndərdi. Çar hökuməti sərhədlərin

müəyyənləşdirilməsində bəzi xırda güzəştlərə getməyi qərara aldı və bu məqsədlə ***1817-ci ildə A.P.Yermolovun*** başçılığı ilə İrana göndərdiyi nümayəndə heyətinə Rusiya ilə İran arasında möhkəm dostluq və qardaşlıq əlaqələri üçün əsas ola biləcək xüsusi müqavilə bağlamaq səlahiyyəti verilmişdir [472]. Tərəflərin elə ilk görüşündə İrandakı ingilis səfirinin iştirakı ilə şah diplomatiyası Gülüstan müqaviləsinin şərtlərinə görə Rusiyaya keçmiş torpaqların İrana verilməsini tələb etdi. Rusiyaya qayıtdıqdan sonra A.P.Yermolov yazırdı: "Vəliəhdin sarayında ingilislərsiz heç bir iş görülmür". Şah sarayı ingilislərin köməyi ilə öz ordusunun gücünü artırır, gələcək müharibədə Osmanlı imperiyasından kömək almağa səy göstərirdi. ***1823-cü ildə İran*** və ***Osmanlı imperiyası arasında müqavilə*** bağlandı. *1825-ci ilin payızında* Abbas Mirzənin qoşunu üçün İsfahana 200 tay ingilis silahı gətirildi. *1826-cı ildə* İngiltərə Hindistandan daha 15 min tüfəng göndərdi. Bu zaman ingilislər şaha bildirdilər ki, kömək yalnız o zaman göstəriləcəkdir ki, İran Rusiyaya qarşı müharibəyə başlasın. Elə həmin il İngiltərə artıq Rusiyaya qarşı müharibəyə başlamağı inadla israr edirdi [147, s. 99]. *1826-cı ildə* general A.S.Menşikovun başçılıq etdiyi rus nümayəndə heyəti İrana gəldi. Çarın sərəncamı ilə A.S.Menşikov Qarabağın və Talış xanlığının bir hissəsini güzəşt etməyə hazır idi [147, s. 42]. Rusiyanın İranla hərbi münaqişəyə girməmək üçün göstərdiyi bu cəhd müvəffəqiyyətsizliyə uğradı.

1826-cı il mayın 26-da İran qoşunu sərhəd dəstələrinə hücum etdi, 2 aydan sonra ***iyulun 16-da Abbas Mirzənin*** 60 minlik ordusu Şimali Azərbaycana soxuldu [8, s. 578]. Abbas Mirzənin planı qəflətən Qarabağa hücum etmək, ***Şuşanı*** ələ keçirmək və sonra isə ***Gəncəni*** tutmaqla ***Tiflisə*** yürüş etmək idi. Tiflis üzərinə hücum 3 tərəfdən: cənubdan, şərqdən və şimal-şərqdən planlaşdırılmışdır. İrəvan sərdarı Hüseyn xan cənubdan Şuragəl və Pəmbəyə soxulmalı və burada Abbas Mirzənin əsas qüvvələrinin yaxınlaşmasını gözləməli idi. Abbas Mirzənin yanında olan gür-

cü şahzadəsi Aleksandr isə İran ordusu ilə Kaxetiyaya girməli və burada Car-Balakən dəstələri ilə birləşib şimal-şərqdən Tiflis üzərinə hərəkət etməli idi. Bu dəstələr Tiflis yaxınlığında birləşməli və eyni vaxtda vurulan zərbə ilə onu ələ keçirməli idilər. Sayı 30 min nəfər olan İran ordusuna qarşı 9 rota, 6 yüngül top və çox zəif bir kazak alayı dayanırdı. Əhali Rusiya əleyhinə üsyan qaldırdı. *İyulun 27-də* üsyançılar Gəncədə həbsxananı ələ keçirdilər, *iyulun 28-ə keçən gecə* isə yerli qarnizonu darmadağın etdilər. Şəhər Abbas Mirzə tərəfindən tutuldu [129, s. 655]. Elə bu vaxt İran ordusu bütün ***Qarabağ*** mahallarını ələ keçirərək, ***Şuşa qalasını*** mühasirəyə aldı. Şuşa qarnizonu 6 rotadan-4 topu olan 1500 adamdan ibarət idi. Qalanın mühasirəsi *48 gün* davam etdi. Partlayışlardan sonra gecə vaxtı hücuma keçən İran ordusu heç nəyə nail ola bilmədi və rus qoşunları tərəfindən geri oturduldu [187, s. 117]. *Şuşa qalasını uzun müddət mühasirədə saxlamaq İran hərbi komandanlığının səhvi idi.* İran ordusunun böyük bir hissəsinin diqqətini özünə cəlb edən rus qarnizonu və qalanın erməni əhalisi general A.P.Yermolova strateji təşəbbüsü ələ almağa, pərakəndə halda olan qüvvələri zərbə qruplarında cəmləşdirməyə və düşmən üzərinə hücum etməyə şərait yaratdı və bununla da gələcək hərbi əməliyyatları rus ordusunun xeyrinə həll etdi. A.P.Yermolov bütün qüvvələri Cənubi Qafqazın hərbi-siyasi mərkəzi olan Tiflisin müdafiəsində cəmləşdirməklə düzgün qərar qəbul etdi.

Hüseynqulu xan İran sərbazlarından ibarət bir dəstə ilə Bakı qalasını dənizdən və qurudan mühasirəyə aldı. Bakı körfəzi də dənizdən İranın avarlı donanması tərəfindən mühasirədəydi. Hüseynqulu xanın bütün hücumları dəf edildi. Bakı limanı Həştərxanla daimi əlaqə saxlanılmasında, rus ordusunun döyüş sursatı və ərzaqla təmin edilməsində mühüm rol oynayırdı. Buna görə də Abbas Mirzə tələsik Hüseynqulu xana köməyə yeni qüvvələr göndərdi. Lakin bütün cəhdlər müvəffəqiyyətsizliyə uğradı. Mustafa xan Yeni Şamaxını ələ keçirə bildi, Köhnə Şamaxını

isə ələ keçirə bilmədi. Bu vaxt Səlim xanın oğlu Hüseyn xan İran sərbazlarından ibarət dəstə ilə Şəki xanlığına daxil oldu [480].

General ***A.P.Yermolov*** Dağıstanda yerləşən qoşunu Qubaya göndərdi, oradan *iyunun 23-də* Köhnə Şamaxıya gəldi. Lakin Qubanın sonuncu hakiminin oğlu ***Sultan Əhmədin*** Quba ətrafında peyda olması və ərzağın tükənməsi rus qoşunlarını geri çəkilməyə və Qubaya daxil olmağa məcbur etdi. Şəhər mühasirəyə alındı [481]. İran ordusunun digər dəstələri Gəncəni ələ keçirdikdən sonra Tiflisə tərəf hərəkət etdilər. Gəncəyə gedən yolun üstündə, Şamxorda İranın böyük hərbi qüvvələri yerləşmişdir. *1826-cı il sentyabrın 3-də* səhər tezdən İran ordusu rus qoşunlarının düşərgəsinə doğru hərəkət etdi. Bütün rus qoşunu hücuma keçdi və düşmən geri çəkilməyə məcbur oldu. İran ordusu Şamxorçay yanında möhkəmlənməyi, sonra isə rus qoşunu üzərinə hücum etməyi qərara aldı. Lakin şah qvardiyası qılıncdan keçirildi, sağ qalanlar isə qaçmağa başladılar. Rus süvari qoşunu "İran ordularına xeyli zərbə vurdu və çoxlu qənimət ələ keçirdi" [474]. Şamxor məğlubiyyətindən sonra İran ordusu tələsik Gəncədən geri çəkildi. Mənşəcə Qarabağ xristianı olan General V.H.Mədətovun başçılığı ilə rus qoşunu şəhərə daxil oldu [4, s. 46].

Şamxor məğlubiyyətini eşidən Abbas Mirzə Şuşanın mühasirəsindən əl çəkdi və köməyə getməyə məcbur oldu. Şuşa qalasının rəisi özünün azsaylı qarnizon qüvvələri ilə düşmənə hücum etdi və "qələbə çaldı, iranlılar qaçıb dağıldılar və bütün düşərgə qaliblərin əlinə keçdi" [483]. ***Sentyabrın 10-da İ.F.Paskeviç*** də əlavə qoşunla Gəncəyə gəldi. ***1826-cı il sentyabrın 13-də*** İran qoşunları hücuma başladı. Seçmə şah qoşunu darmadağın edildi. Abbas Mirzənin qoşununun qalıqları tələsik Qarabağdan keçərək cənuba, Xudafərin körpüsünə tərəf qaçdı. *Sentyabrın 18-də* Abbas Mirzə Şuşa altındakı dəstəsini götürərək, Arazın sağ sahilinə keçdi. Gəncə döyüşünün Rus-İran müharibəsinin sonrakı gedişində çar Rusiyası üçün çox mühüm əhəmiyyəti oldu və faktiki olaraq, onun müqəddəratını təyin etdi. *1826-cı ilin*

dekabrında Abbas Mirzə və şahzadə Aleksandr Azərbaycan və Dağıstan hərbi hissələrinin köməyi ilə Dağıstan əhalisinin üsyanını təşkil etdilər və Nuxaya böyük dəstə yeritdilər. ***Dekabrın 9-da A.P.Yermolovun*** başçılığı ilə rus dəstələri Nuxaya gəldi. Müqavimət göstərməyə və müdafiə olunmağa imkanı olmayan Hüseyn xan Araz çayını keçərək İrana qaçdı [81, s. 122]. ***Sentyabrın 24-də Sultan Əhməd*** özünün 6 minlik dəstəsi ilə Qubadan geri çəkildi. Rus qoşun dəstəsi Qubadan geri çəkilən İran qoşununu təqib etdi. Şirvanlı Mustafa xan və başqa xanlar ailəsi və yaxın adamları ilə İrana qaçdılar. Yalnız Talışda hələlik Mirhəsən xan qalırdı. *1827-ci ilin əvvəllərinədək* İran sərbazları bütün Şimali Azərbaycan ərazisini tərk etdilər. İran qoşunları Arazın o tayına keçdikdən sonra da Azərbaycan torpaqlarına basqınlar edirdilər, lakin itki verərək geri çəkilirdilər [484]. Belə hücumların qarşısını almaq məqsədilə *1826-cı il dekabrın 26-da* rus qoşunu Araz çayını keçərək ***Cənubi Azərbaycan*** ərazisinə, *1827-ci ilin yanvarında* isə ***Meşkin*** dairəsinə daxil oldu. Lakin rus komandanlığı qarşısına Cənubi Azərbaycanın içərilərinə doğru irəliləmək vəzifəsini qoymamışdır.

Hərbi əməliyyatlar *1827-ci ilin yazında* yenidən başlandı. *Apreldə* rus qoşunu 2 istiqamətdə: dəstələrin biri general ***V.H.Mədətovun*** komandanlığı altında ***1827-ci il aprelin 20-də Xudafərin körpüsünü*** ələ keçirdi. Lakin rus komandanlığı ilk növbədə ***İrəvan xanlığını*** ələ keçirməyi qərara aldı. Əlahiddə Qafqaz korpusunun əsas qüvvələri İran qoşunları tərəfindən viran edilmiş ***Eçmiədzinə*** daxil oldu və ***aprelin 23-də İrəvan*** üzərinə hərəkət etdi və səhərisi gün qalanı mühasirəyə aldı. Mühasirə 2 ay davam etdi. Bu müddətdə düşmən bir neçə dəfə həmlə etdi və dəf edilərək geri çəkildi. Ən böyük həmlə ***mayın 8-də*** baş verdi və qanlı döyüşlə qurtardı. Düşmən geri çəkilməyə məcbur oldu. Lakin sayca az olan rus qoşunu qalanın mühasirəsinə vaxt itirməməyi qərara alaraq Naxçıvan üzərinə yeridi. ***1827-ci il mayın 26-da*** rus qoşunu ***Naxçıvanı*** döyüşsüz əldə etdi

və ***Abbasabad qalasına*** yaxınlaşdı. Qala strateji əhəmiyyətə malik idi. Belə ki, o, şah hakimiyyətinin Naxçıvan xanlığında dayağı idi və Araz çayı üzərində keçidi təmin edirdi. Abbas Mirzə 16 minlik qoşunla Abbasabad üzərinə hərəkət etdi. ***1827-ci il iyunun 5-də Cavanbulaq*** deyilən yerdə döyüşdə İran qoşununun məğlubiyyəti ***iyulun 7-də*** təslim olan ***Abbasabad qalasının*** taleyini həll etmiş oldu [475]. ***Avqustun 13-də Alagöz dağının ətəklərində, avqustun 17-də Uşağanda*** və b. yerlərdə döyüşlər baş verdi. Rus qoşunu ***avqustun sonlarında İrəvana*** yaxınlaşdı. ***Sentyabrın 20-də Sərdarabad qalası*** süqut etdi. ***Sentyabrın 26-da İrəvan qalasının*** mühasirəsi başlandı. İ.F.Paskeviçin yazdığı kimi, *"İrəvan vilayətində* ***10 min müsəlman*** və ancaq ***3 min erməni ailəsi*** var idi" [488]. Ermənilər qalanın şimal darvazalarını açdılar və ***oktyabrın 1-də*** rus qoşununu qalaya buraxdılar.

Cənubi Azərbaycanın içərilərinə doğru irəliləyən rus qoşunu ***oktyabrın 2-də Mərəndi*** ələ keçirdi. ***1827-ci il oktyabrın 13-də*** rus qoşunu ***Təbrizə*** daxil oldu. Təbrizin ələ keçirilməsi ilə Tehrana yol açıldı. Şah sülh xahiş etdi. Cənubi Azərbaycanın feodal hakimləri İ.F.Paskeviçə cənuba hərəkət etmək, Tehranı tutmaq xahişi ilə müraciət etdilər. Lakin daxili və beynəlxalq vəziyyət Rusiyanı İranla müharibəni başa çatdırmağa sövq edirdi, çünki dağlıların azadlıq hərəkatı geniş vüsət almışdır və Rusiya Osmanlı Türkiyəsi ilə müharibənin yaxınlaşdığını hiss edirdi. ***1827-ci il noyabrın 7-də*** danışıqlar başlandı. Rusiya İrəvan və Naxçıvan xanlıqlarının ona güzəştə gedilməsini, İran qoşununun Talış xanlığını tərk etməsini və gümüş pulla 30 milyon manat təzminat verilməsini təklif edirdi. Şah sarayı isə rus qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını tələb edirdi. Lakin ingilis diplomatiyasının təhriki və Osmanlının təzyiqi ilə danışıqlar kəsildi. ***1828-ci il yanvarın 24-də*** İ.F.Paskeviç rus qoşununa ***Ərdəbil*** və ***Tehran*** istiqamətində hərəkət etməyi əmr etdi. Rus qoşunları ***yanvarın 28-də Urmiyanı, fevralın 8-də isə Ərdəbili*** tutdular. İranın tamamilə darmadağın ediləcəyindən ehtiyat edən Bri-

taniya səfiri C.Makdonald döyüşən tərəflər arasında vasitəçi kimi çıxış etdi. ***1828-ci il fevralın 6-da (18-də)*** Təbriz yaxınlığındakı ***Türkmənçay kəndində Abbas Mirzə*** *ilə* ***İ.F.Paskeviç*** arasında sülh danışıqları yenidən başlandı. Osmanlı Türkiyəsi ilə müharibə təhlükəsi olan şəraitində çar hökuməti İranla sülh müqaviləsi bağlamağa tələsdi. Müqavilə ***1828-ci il fevralın 10-da (22-də)*** imzalandı. ***Türkmənçay sülh müqaviləsinə*** görə, ***İran Şimali Azərbaycana olan öz iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyırdı*** [4, s. 50-51]**.** ***Cənubi Azərbaycan isə İranın himayəsində*** qaldı. ***Azərbaycan 2 yerə bölündü.*** Türkmənçay müqaviləsi ***16 maddədən*** ibarət idi. İran və Rusiya arasında sərhəd xəttini ***4-cü****,* İranın Qafqaz dağlarına qədər bütün Cənubi Qafqaz ərazisini, o cümlədən Gülüstan müqaviləsinə əsasən, Rusiyaya keçmiş ərazilərini və "Araz çayının bu və o biri tərəfindəki İrəvan xanlığını və Naxçıvan xanlığını"…Rusiyaya "güzəştə" getdiyini ***5-ci maddələr*** müəyyən edirdi. ***8-ci maddəyə*** görə, İran Xəzər dənizinin Rusiyanın daxili dənizi olduğunu tanıyırdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ ancaq Rusiyaya verilirdi. Bu maddə Xəzər dənizində hərbi donanma yaratmağa can atan İngiltərənin mənafeyinə güclü zərbə vurdu. ***10-cu maddə*** ilə Rusiyaya İranın istədiyi şəhərində özünün diplomatik nümayəndəliyini açmaq və ticarət etmək hüququ verilirdi. Müqaviləyə əsasən, İran Rusiyaya ***20 milyon manat*** məbləğində ***hərbi təzminat*** ödəməli idi. Müqavilədə Cənubi Azərbaycandan Cənubi Qafqaz ərazisinə köçənlərin hüquqlarını müdafiə edən maddə də var idi. Türkmənçay müqaviləsinin ***15-ci maddəsinə*** əsasən, ***əhalinin Cənubi Azərbaycandan Cənubi Qafqaza və əksinə sərbəst hərəkət etməsinə*** **i**cazə verilirdi. Bunun nəticəsində bir çox erməni ailələri Cənubi Qafqaz, Qarabağ və İrəvan xanlıqlarına köçürüldü.

Həm ***1804-1813-cü*** və ***1826-1828-ci illər*** Rusiya-İran müharibələrinin gedişində, həm də sonralar ermənilərin böyük kütlələrinin İran, Osmanlı imperiyası və Cənubi Azərbaycandan

Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artdı. Təkcə *1826-1828-ci illər* Rus-İran müharibəsinin gedişində İrandan və Azərbaycanın cənub ərazilərindən Cənubi Qafqaza, o cümlədən ***Qarabağa 18 min erməni ailəsi*** köçürüldü. Məlumdur ki, *1826-1828-ci illər* Rus-İran müharibəsinin Rusiya üçün qalibiyyətlə başa çatmasından sonra 2 vuruşan dövlət arasında bağlanmış Türkmənçay müqaviləsinə görə, ermənilərin maneəsiz olaraq İran ərazisindən Rusiya ərazisinə köçməsinə icazə verilmişdir. İki il ərzində, ***1828-1830-cu ilədək***, Cənubi Qafqaza ***40 mindən çox İran*** və ***84 min Osmanlı ermənisi*** köçürüldü və onlar erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200000 desyatindən çox xəzinə torpağı ayrıldı [4, s. 52].

1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilər təşkil edirdilər. ***1832-ci il*** kameral təsvirlərinin materiallarına görə, Qarabağ əyalətinin ərazisindəki ***20546 ailədən 13965-i azərbaycanlı, 6491-i isə erməni*** idi. Beləliklə, köçürmə siyasəti nəticəsində ***azərbaycanlıların faizi 64,5-ə endi, ermənilərin faizi isə 34,8-ə qalxdı*** [4, s. 52].

I Nikolayın da xarici siyasəti Osmanlılarla müharibəyə başlamaq yolu ilə "Şərq məsələsi"nin həll edilməsinə yönəldilmişdir. Sultan II Mahmud hələ *1826-cı ildə* hərbi islahat keçirmiş, yeniçəri qoşunu ləğv edilmiş, ingilis və fransız təlimatçılarının yardımı ilə nizami ordu yaradılmışdır. *1828-ci ilin aprelində* Rusiya Osmanlı imperiyasına müharibə elan etdi. Rus komandanlığı ***Soğanlıq sıra dağları*** və ***Ermənistan yaylasından*** sürətli yürüşlə ***Anadolu içərilərinə*** daxil olmağı, ***Ahalkələki, Ahalsıx, Qars, Qanlı çay və Mil düzü hüdudlarında*** Osmanlı qoşununun əsas qüvvələrini darmadağın etməyi, ***Anadolunun paytaxtı Ərzurumu*** ələ keçirməyi, daha sonra Trapezund üzərinə hücum etməyi və Osmanlı imperiyasının paytaxtı İstanbul üçün təhlükə yaratmağı öz qarşısına başlıca vəzifə kimi qoymuş-

dur. *1828-ci il iyunun 19-da* rus qoşunu ***Qars qalasına*** yaxınlaşdı və *iyunun 22-də* qalanı hücumla ələ keçirdi. *Avqustun 9-da* rus qoşunu ***Ahalsıxı****,* əvvəl isə ***Ahalkələkini*** və ***Xertsisi,*** *avqustun sonuna* ***Bəyazid qalası, Torpaqqala*** və ***Diadil*** sədləri ilə birlikdə ***Bəyazid paşalığını*** tutmuşdur. *1828-ci il* rus qoşunu Ərzurumun 90 km-də yerləşirdi. Qara dəniz sahillərində Osmanlı qoşunu Anapa və Potidən sıxışdırılıb çıxarıldı. Yazda *1829-cu ilin* hərbi əməliyyatlarına hazırlıq başlandı. *1829-cu il mayın 1-də Ahalsıx altında Sursqab adlı kəndin yaxınlığında* döyüşdə 5 minlik Osmanlı hərbi dəstəsi məğlub edildi. Bir aydan sonra *Diqur ərazisində Posxovçay üzərində, 1829-cu il iyununda isə Soğanlıq ərazisində* döyüş baş verdi [183, s. 239-240]. *1829-cu il* rus qoşunu Ərzurumu ələ keçirdi və Trapezund üzərinə hücuma hazırlaşmağa başladı. Balkan hərbi əməliyyat meydanında isə rus qoşunu Ədirnəni ələ keçirdi və İstanbula yaxınlaşdı. Sultan sülh xahiş etməyə məcbur oldu. ***1829-cu il sentyabrın 2-də (14-də) Ədirnədə*** bağlanan sülh müqaviləsinə görə, ***Osmanlı imperiyası*** *şimalda Anapadan başlayaraq, cənubda Müqəddəs Nikolay limanına qədər* ***Qara dənizin bütün Şərq sahillərini*** *və* ***Ahalsıx paşalığının*** *(Axısqa türklərinin yaşadığı ərazi, indiki Gürcüstanın Samtsxe Cavaxeti bölgəsi) ərazisinin* ***bir hissəsini Rusiyaya güzəştə*** *getdi və həmin əraziyə* ***cənub-şərqi Anadoludan erməni əhalisinin köçürülməsinə*** razılıq verildi [194, s. 102-117]. Köçürülən ***ermənilər*** sonradan ***Ahalsıx bölgəsi*** ilə yanaşı, ***Tiflis, İrəvan*** və ***Naxçıvan bölgələrində*** də yerləşdirildi. ***Bosfor və Dardanel boğazları*** rus və Qərbi Avropa ticarət gəmiləri üçün açıq saxlanılırdı. Moldaviya və Valaxiya rus qoşunu tərəfindən müvəqqəti olaraq işğal edildi və s. [189, s. 230]. Ədirnə sülhü Şimali Azərbaycanın *((1826-1828*) yekunları - ***Naxçıvan*** və ***İrəvan xanlıqlarının***), bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt olunmasını təsbit etdi, bu da Rusiyanın Orta Şərqdə və Balkanlarda mövqelərini möhkəmləndirdi. Qara dənizdə ticarətin genişlənməsi üçün şərait yarandı. Azərbaycanın

şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail ola bilmədi. Azərbaycan xalqını müharibə nəticəsində zorla 2 hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi.

2.XIX əsrin 30-40-cı illərində Azərbaycan ərazisində sosial-iqtisadi münasibətlər. Rus müstəmləkə zülmünə qarşı üsyanlar

Şimali Azərbaycan çar Rusiyasının ucqar müstəmləkəsinə, bununla da Rusiya zadəganlarının və sənaye sahiblərinin xammal bazasına, tacirlərinin isə satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı. O, yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli idi. Azərbaycanın çar Rusiyası tərəfindən zəbt edilməsi onun Rusiyanın tərkibində kapitalizmin inkişaf yoluna düşməsini sürətləndirdi. Bakı kimi neft mərkəzinin olması XIX əsrdə Azərbaycanda kapitalist münasibətlərinin inkişaf etməsinin əsas amillərindən biri idi. Rusiyanın tərkibində Azərbaycan xalqının dünya mədəniyyəti ilə qovuşması prosesi də sürətləndi. Azərbaycan xanlıqlarında mövcud olan müxtəlif pul sistemləri vahid rus pul sistemi ilə əvəz edildi. Bu tədbir XIX əsrin birinci yarısında ölkənin ayrı-ayrı əraziləri arasında ticarətin və əmtəə-pul münasibətlərinin inkişafında mühüm rol oynadı. Azərbaycan Rusiyanın iqtisadi inkişaf axınına qoşuldu və onun bazarı vasitəsilə dünya əmtəə dövriyyəsində yaxından iştirak etməyə başladı. Çarizm Rusiya hərbi feodal dövlətinin zəif inkişaf etmiş ölkələri işğal etmək və bu ölkələrin xalqlarını əsarət altına almaq üçün yürütdüyü siyasət vasitəsi ilə ucqarlarda, o cümlədən, Azərbaycanda feodal münasibətlərini, geriliyi qoruyub saxlamağa, ölkənin qarət olunmasına, kapitalist münasibətlərinin inkişafına mane olmağa çalışırdı. Ucqar ölkələrin xalq kütlələri ikiqat zülmə-çarizmin və yerli istismarçıların zülmünə məruz qalırdılar. Yerli mülkədarların və burjuazi-

yanın bəzilərində özünə müttəfiq tapan və onlara arxalanan çarizm Azərbaycanda müstəmləkəçilik siyasəti yeridirdi.

XIX əsrin 30-cu illərində çar Rusiyası tərəfindən Azərbaycanda aparılan feodal istismari, müstəmləkə zülmü və ağır vergilər xalqın narazılığına səbəb olmuşdur. Ilk çıxışlar ***1826-cı ildə Gəncədə, 1830-cu ildə Car-Balakəndə*** baş verdi, lakin bu üsyanlar çar qoşunları tərəfindən yatırıldı. *1830-cu il sentyabrın əvvəlində* Car üsyançıları Qafqaz dağlılarının başçılarından biri olan *Həmzət bəyin* 2 min nəfərlik dəstəsinə qoşuldular. *Oktyabrın 15-də* üsyançılar çar qoşununu məğlub etdilər, lakin kömək alan çar qoşunu üç böyük kəndi – Car, Köhnə Zaqatala və Göyəm kəndlərini hücum edərək dağıtdılar. *1830-cu ilin dekabrında* üsyan məğlubiyyətlə bitdi.

Azərbaycanın Talış əyalətində çarizmin sosial və müstəmləkə zülmünə qarşı yeni üsyan baş verdi. *1824-cü ildən* xanlığı faktik olaraq idarə edən mayor İlyinskinin əmrinə əsasən 14 nəfər istintaqsız və məhkəməsiz İran ordusuna yardım göstərməkdə günahlandırılaraq Xəzər dənizində batırıldı [486]. *1826-1828-ci illər* Rusiya-İran müharibəsi dövründə Lənkəran xanlığının keçmiş hakimi Mir Həsən xan bir çox bəylərlə birlikdə İran şahının tərəfinə keçərək İrana qaçdı və hakimiyyəti bərpa etmək üçün əlverişli şərait gözləməyə başladı. Xan *1831-ci il martın 5-də* 30 silahlı atlı ilə Astara çayını keçərək Lənkərana tərəf hərəkət etdi. Onun dəstəsi *martın 9-da* artıq 1000 atlıya çatırdı [476]. Sonralar üsyançıların sayı rəsmi məlumatlara görə 2 min nəfəri ötmüşdür [394]. *1831-ci il martın 10-da* üsyançılar Lənkərana yaxınlaşdılar və şəhəri qurudan qismən mühasirəyə aldılar. *Martın 20-də* çarın hərbi dəstəsi Lənkərandan çıxaraq xanın oğlu Abdulla bəyə hücum etdi. Mir Həsən xan *martın 27-də* Lənkəranın lap yaxınlığına çatdı və gecə şəhərin ucqar hissəsinə daxil ola bildi, lakin artıq *martın 30-da* rus hərbi dəstələri Lənkərana çatdı və üsyançılar yaxınlıqdakı meşədə gizləndilər. *Martın 31-də* isə 2 topa malik olan 500 nəfərlik rus nizami qo-

şun dəstələri üsyançıları məğlub etdi [4, s. 110]. *Aprelin 6-da* çar qoşunu üsyançılara hücum edib toplardan və tüfənglərindən açılan atəşlə onları geri oturtdular. *Aprelin 14-də* üsyanı yatırtmaq üçün gətirilmiş qoşun Salyanda yerləşdirilmişdir. *Aprelin 20-dən sonra* Mir Həsən xanın dəstəsində cəmi 300 adam qalmışdır. *Aprelin 29-da* rus qoşunu Lənkəran mahalının Əmburan kəndindən xanın sonuncu dayaq məntəqəsi olan Drıq mahalına hücum etdi. *Mayın 7-də* xanın cəmisi 20 nəfərdən ibarət olan dəstəsi sərhəd boyu Astaradan cənuba keçdi. ***Lənkəran üsyanı*** iki ayadək davam etsə də amansızcasına yatırıldı.

1837-ci ildə Quba əyalətində kəndli çıxışları alovlandı. Belə ki, çarizmin kəndlilərə amansız müstəmləkə zülmü, əhalini açıq şəkildə soyub talaması, onların azğınlığı və sahibkarların özbaşınalığı üçün əlverişli şərait yaradan komendant üsul – idarəsi üsyanının əsas səbəbləri idi. ***12 mindən çox*** üsyançının iştirak etdiyi xalq hərəkatına Quba kəndlərinin kəndxudası ***Hacı Məhəmməd*** və camaatın nüfuzunu qazanmış ***Yarəli*** başçılıq edirdi. *Avqustun 20-dən* sonra Hacı Məhəmmədin başçılığı ilə üsyan başladı, *avqustun 30-da* isə onlar Qubanı mühasirəyə aldılar. *Sentyabrın 4-dən 5-nə keçən gecə* üsyançılar hər biri 4 min nəfərdən ibarət olan iki dəstə ilə qərbdən və şərqdən qala divarlarına həmlə etdilər, digər tərəfdən isə kəndli Yarəlinin başçılığı ilə 4 min nəfərlik üçüncü dəstə gizlicə şəhərə daxil olmağa çalışdı. Güclü tüfəng və top atəşləri nəticəsində üsyançılar qala divarlarını aşa bilmədilər. Yarəlinin dəstəsinin xeyli hissəsi sakinlərin köməyi ilə gizlicə Qubaya daxil oldu, şəhərin məhkəmə binasını ələ keçirdi, şəhər mərkəzinə çatdı, lakin dəstənin böyük hissəsi şəhərə daxil ola bilmədi. Rus qoşun hissələri sürətlə üsyançıların üzərinə hücum etdi. Üsyançıların digər 2 dəstəsi hələ də şəhər divarlarına həmlə edirdi, lakin onlar da müvəffəqiyyət qazana bilmədilər. Şəhəri susuzluğa düçar etmək vasitəsi ilə qalanı ələ keçirməyi qərara alan üsyançılar Qubanı su ilə təmin edən arxın qarşısını kəsdilər. Çar zabitləri sentyabrın 10-da şə-

hərdən üsyançılar üzərinə basqın etdilər [4, s. 114-115]. Kəndli düşərgəsinin dağılması elə sürətlə gedirdi ki, səhərisi gün Hacı Məhəmmədin ətrafında üsyanda iştirak etmiş 9 mahaldan yalnız 3 dağ mahalının kəndliləri qalmışdır. Belə cüzi qüvvə ilə mübarizəni davam etdirmək mənasız olduğunu başa düşən Hacı Məhəmməd kəndliləri evlərinə buraxdı, özü isə ailəsini götürərək Kürə xanlığına yola düşdü. O, burada Mirzə Məhəmməd xan tərəfindən ələ keçirilib hökumətə təslim edildi. Hacı Məhəmmədi edam etdilər, üsyanın 44 fəal iştirakçısı hərbi məhkəməyə verildi. Yarəli isə dağlarda gizlənə bildi [8, s. 587].

1838-ci ildə Şəki əyalətində çar müstəmləkə zülmünə qarşı qalxmış üsyana İrana qaçmış Şəki xanı Səlim xanın oğlunun göndərdiyi ***Məşədi Məhəmməd*** başçılıq edirdi. O, dağıstanlıların köməyi ilə Şəki əyalətinə gələrək əhalini ayağa qaldırdı. Bir neçə gün ərzində Şəki yaxınlığında üsyançılarla rus ordusu arasında qarşıdurmalar baş verdi, lakin tərəflərdən heç biri qələbə qazanmadı. Sentyabrın 3-də rus Şəki qarnizonuna kömək gəldi və üsyançılar şəhəri tərk etdilər. Qoşun üsyançıları təqib edərək, onları bir neçə dəfə məğlubiyyət uğratdı. Məşədi Məhəmməd İrana qaçdı. Beləliklə, Şəki üsyanı da çar qoşunları tərəfindən amansızlıqla yatırıldı [4, s. 117-118].

XIX yüzilliyin 30-cu illərində Azərbaycanda müstəmləkə zülmünə və feodal istismarına qarşı üsyanlar olsa da, rus qoşunları tərəfindən amansızcasına yatırılmışdır. Dövrün bütün kəndli çıxışları pərakəndə və qeyri-mütəşəkkil xarakter daşıyırdı, çünki üsyanlar vahid mərkəzdən iradə olunmurdu, ən mühüm məsələlər kəndxudaların, bəylərin, üsyanda iştirak edən kəndlilərin və şəhərlilərin iştirak etdiyi ümumi şurada həll edilirdi. Şuranın tərkibi qeyri-müəyyən idi və yalnız bir neçə dəfə təsadüfdən-təsadüfə toplanırdı. Üsyançıların əksəriyyətinin odlu silahı yox idi və onlar toplarla silahlanmış nizami rus ordusu ilə döyüşməli olurdular. Bu da çarizmə üsyanı tez yatırmaq imkanı verirdi [4. s. 118].

3.XIX əsrin ikinci yarısında Azərbaycan ərazisində aqrar və burjua islahatları. Kapitalist münasibətlərinin təşəkkülü

XIX əsrin ikinci yarısında Rusiya imperiyasının tərkibində olan Şimali Azərbaycan Ümumrusiya bazarına qoşuldu. Rus kapitalizmi "öz fabrikləri üçün bazar yaradırdı", digər tərəfdən isə elə həmin fabriklərin xammala olan ehtiyaclarını ödəmək üçün ucqarlarda, xüsusilə Azərbaycanda ticarət əkinçiliyinin, balıq, dağ-mədən, neft və s. sənaye sahələrinin inkişafını hər vasitə ilə stimullaşdırırdı. Beləliklə, XIX əsrin 60-cı illərində Azərbaycanda kapitalist münasibətləri inkişaf etməyə başladı. Ölkədə neft sənayesinin əvvəlki dövrlərə nisbətən sürətlə inkişaf etməsi nəticəsində *1862-ci ildən* etibarən neft hasilatında müəyyən artım baş vermişdir. Bu dövrdə neft istehsalına mənfi təsir göstərən amillər-iltizam sistemi, kəndlilərin icbari əməyindən istifadə, neft və neft məhsullarına tələbatın azlığı və s. idi. Bakı, Şəki, Şamaxı şəhərlərində manufaktura tipli müəssisələrdə, Naxçıvan duz mədənlərində, Salyan balıq vətəgələrində, Zəylik zəy zavodunda bu və ya digər formada icbari əmək tətbiq olunurdu. Hökumət *1864-cü ildə Balaxanı* neft mədənlərində quyulara, sonralar Naxçıvan duz mədənlərinə, Zəylik zəy zavoduna və s. təhkim edilmiş ***kəndlilərin icbari əməyini*** ləğv etdi. Bununla da, dağ-mədən sənayesində ***azad muzdlu əməkdən*** istifadə olunması başlandı. *1860-cı illərdən* başlayaraq Rusiyadakı müəssisələrdə neftdən sənaye miqyasında istifadə edilməsi Azərbaycanın neft və neft məhsullarına tələbatı artırdı. Bu isə yeni neft yataqlarının istismar edilməsinə və neftçıxarmada texniki təkmilləşdirmələr aparılmasına səbəb oldu. Belə ki, 60-cı illərdə Bakı ətrafında 232 neft quyusu var idi: Balaxanıda 125, Suraxanıda 21, Binəqədidə 61, Bibiheybətdə isə 25 quyu var idi. Halbuki 40-cı illərdə cəmisi 133 neft quyusu mövcud idi [4, s. 175]. *1859-cu*

ildə Suraxanıda rus kapitalistləri ***Kokorev*** və ***Quboninin*** *"Zakaspi Ticarət Cəmiyyəti"* neftayırma zavodu tikdi və ağ neft istehsalına başlandı. *1861-ci ildə* Tiflisdən olan əczaçı ***Vitte*** tərəfindən ***Pirallahı*** adasında *parafin zavodu* işə salındı. *1863-cü ildə* ***C.Məlikov*** Bakıda *ikinci ağ neft zavodunu* inşa etdirdi. *1867-ci ildə* Bakı ərazisində ümumən 200-ə yaxın fəhləsi olan 15 neftayırma zavodu fəaliyyət göstərirdi, bütün məhsul demək olar ki, Rusiyaya daşınırdı [462]. *1869-cu ildə* zavodların sayı 24-ə [490], *1872-ci ildə* isə 47-yə çatdı. Bu zavodlarda 497.941 pud neft istehsal edilmişdir [393; 4, s. 175-176]. *1865-ci ildə* Gədəbəydə ***"Simens qardaşları və Kº"*** *səhmdar cəmiyyətinin misəritmə zavodu* istifadəyə verildi. Bu zavod Rusiyada ən iri misəritmə müəssisəsi idi. Gədəbəy zavodu *1865-1866-cı illərdə* müvafiq olaraq 4025 və 8416 pud mis vermişdir. Onun məhsuldarlığı ilbəil artaraq, *1871-ci ildə* 24059, *1877-ci ildə* isə 53 min puda çatmışdır. Bu da bütün Rusiya imperiyası misəritmə sənayesi məhsulunun dörddə birini təşkil edirdi [173, s. 257-258]. Çar hökuməti Gədəbəydə 10 min desyatindən çox meşə sahəsini possessiya (müəyyən şəxslərə şərti mülkiyyət hüququnun verilməsi) əsasında "Simens qardaşları və Kº" şirkətinə istifadəyə verdi. *1866-ci ildə Daşkəsəndəki kobalt yataqları* ***"Simens qardaşları və Kº"*** şirkətinin əlinə keçdi. *1860-ci ildə* ***Nuxada Aleksey və Voronin qardaşları*** *ipək fabrikinin* əsasını qoydular. *1862-ci ildə* Londonda keçirilən ümumdünya sərgisində bu fabrikin məhsulları keyfiyyətinə görə medala layiq görülmüşdür. Lakin, *1864-cü ildə* xarici şirkətlərin ipəkqurdu toxumunun satışı ilə məşğul olan agentləri Azərbaycana ipəkqurdu xəstəliyini gətirdilər. Belə ki, əgər Nuxa şəhərində *1861-ci ildə* 50, *1862-ci ildə* 56 ipəksarıma müəssisəsi fəaliyyət göstərirdisə, sonrakı illərdə bunlardan cəmi 1-3 müəssisə qalmışdır. Balıq vətəgələri də ölkənin iqtisadi həyatında mühüm yer tuturdu. *1881-ci ildən* balıq sənayesində balıq vətəgələrini növbə ilə 7-8 illiyə iltizama götürən 6 nəfər yerli sahibkar var idi. Azərbaycan sənayesində şərab-

çılıq da az rol oynamırdı. Bakı quberniyasının Şamaxı və Göyçay, Yelizavetpol quberniyasının Şuşa və qəzalarında şərabçılıq yüksək inkişaf etmişdir. Göstərilən sənaye sahələrindən əlavə, Azərbaycanda tütün məmulatları, tikinti materialları və s. istehsal edən müəssisələr də fəaliyyət göstərirdi.

Beləliklə, XIX yüzilliyin 50-60-cı illərində Azərbaycanda sənətkarlıq və xırda əmtəə istehsalı xarakterli müəssisələrlə yanaşı, neftçıxarma və neftayırma, misəritmə kimi sənaye sahələri demək olar ki, fabrik-zavodların (maşın) inkişaf mərhələsində idi. Şərabçılıq, araqçəkmə, ipəkçilik və balıqçılıq kimi istehsal sahələri isə qarışıq xarakter daşıyırdı.

XIX əsrin 60-cı illərində kəndin getdikcə daha çox əmtəə-pul münasibətlərinə cəlb olunması satlıq məhsulların istehsalını çoxaltdı və keyfiyyətinin yüksəlişinə səbəb oldu. ***1865-ci ildə*** verilən ***"Kənd cəmiyyətləri haqqında"*** *Qanuna* əsasən *vahid kənd idarəsi* yaradıldı. Kənd cəmiyyətini kəndxuda və onun köməkçiləri idarə etməli idi. *Kənd idarəsinə* 25 yaşından yuxarı olan kəndlilər 3 il müddətinə seçilirdi və onları qubernator təsdiq edirdi. Kənd cəmiyyətinin *ali orqanı kəndlilərin yığıncağı* idi. Kənd yığıncağının kənd məmurlarını seçmək, onları kənd cəmiyyəti üzvlüyündən çıxarmaq, ictimai torpaqlar haqqında sərəncam vermək, dövlət vergilərini qaydaya salmaq hüquqları var idi. Mühüm məsələni həll etmək üçün bütün əhalinin üçdəiki səs çoxluğu tələb olunurdu. Kənd idarələri qəza və quberniya idarələrinə tabe olub, heç bir müstəqilliyə malik deyildi. Qanuna görə bəylər kənddə inzibati-məhkəmə işlərindən uzaqlaşdırıldı.

Burjua islahatları. ***1870-ci il 14 may islahatı.*** Rusiya hökuməti Şimali Azərbaycan iqtisadiyyatını müstəmləkə sisteminə uyğunlaşdırmaq üçün Cənubi Qafqazda kəndli islahatı keçirməyə məcbur oldu. *1861-ci ildə* ***Cənubi Qafqaz Mərkəzi İslahat Komitəsi*** yaradıldı. *1861-ci ilin iyunun 29-da* təsdiq edilmiş ***"Cənubi Qafqaz diyarının mərkəzləşdirilməsi haqqında Əsasnamə"***yə əsasən dövlət, sahibkar torpaqlarının sərhədlərinin də-

qiqləşdirilməsi islahatın hazırlanması yolunda ilk addım idi. *1866-cı il 29 mayda* Tiflis, Bakı, İrəvan və Şuşa şəhərlərində "bəy komissiyaları"nın yaradılması islahatın hazırlanmasında ikinci addım idi. "Ali müsəlman silkinin şəxsi heyətini müəyyənləşdirmək" bu komissiyalara tapşırıldı [163, s. 3]. *"Bəy komissiyaları"* hakim sinfin torpaq hüququnu müəyyənləşdirməli idi. Tiflis bəy komissiyası Ahalsıx, Gəncə, Borçalı, Qazax və Şəmşəddil sahələrinin torpaq sahiblərindən 184 nəsli, İrəvan komissiyası 586 nəsildən 282-i nəsli, Bakı bəy komissiyası isə Bakı quberniyasından 198 nəsli bəy "şərəfinə" layiq gördü [164, s. 3-4.]. Nəticədə, ***1870-ci il mayın 14-də*** II Aleksandr ***"Cənubi Qafqaz quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları "ali müsəlman silki"ndən olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan kəndlilərin torpaq quruluşu haqqında Əsasnamə"ni*** imzaladı [468]. "Əsasnamə"də kəndlilərin feodal asılılığının ləğv edilməsi, torpaq və vergi məsələlərinə toxunulurdu. Onun əsas müddəaları bunlar idi: 1) Şimali Azərbaycanda sahibkar kəndliləri feodal asılılığından azad edilirdilər. 2) *1847-ci il* "Əsasnaməsi"ndə olduğu kimi 15 yaşına çatmış oğlanlara 5 desyatin əkinəyararlı torpaq verilirdi. 3) *1847-ci il* "Əsasnamə"sindən fərqli olaraq kəndlinin 5 desyatindən artıq torpaq sahəsi mülkədarın xeyrinə kəsilib götürülür, torpağı 5 desyatindən az olan kəndliyə əlavə torpaq sahəsi verilmirdi. 4) Torpaq sahiblərinə bütün torpağın üçdəbir hissəsini öz əlində saxlamaq hüququ verilirdi [9, s. 211-212]. "Əsasnamə"də kəndliyə pay torpağını satın alıb, mülkiyyətinə çevirmək hüququ verilsə də, Rusiyadan fərqli olaraq kəndliyə torpağı almaq üçün vəsait verilmir, həm də o, pay torpağını satın almağa məcbur edilmirdi. Torpağın satış qiyməti də Rusiyadakından qat-qat baha idi. Belə ki, Bakı quberniyasının sahibkar kəndliləri üçün bir desyatin torpağın satınalma qiyməti Minsk quberniyasının kəndlilərinin ödədikləri məbləğdən 25 dəfə, Həştərxan quberniyası kəndlilərinin ödədikləri məbləğdən 20 dəfə, Orenburq, Mogil-

yov və Perm quberniyaları kəndlilərinin ödədikləri məbləğdən 10 dəfə, Rusiyanın daxili quberniyalarından isə 7.7 dəfə çox idi. Eyni zamanda Yelizavetpol quberniyası kəndliləri torpaq almaq üçün Həştərxan quberniyası kəndlilərindən 40 dəfə, Minsk quberniyasından 30 dəfə və Rusiyanın daxili quberniyalarındakı kəndlilərdən 17 dəfə artıq məbləğdə pul ödəməli idilər. Ucqar ölkələrin kənlilərinə bu cür münasibət Rusiyanın milli müstəmləkə siyasətinin təzahürü idi. *1870-ci il 14 may* islahatının məhdud cəhətlərindən biri də onun yalnız sahibkar kəndlilərinə aid edilməsi idi. Kəndlilərin əksəriyyətini təşkil edən dövlət kəndliləri həmin islahatdan kənarda qalmışdır. Məhdudiyyətlərə baxmayaraq kəndlilərə torpaq əldə etmək hüququnun verilməsi burjua xüsusiyyətli səciyyə daşıyırdı [4, s. 197-199]. "Əsasnamə"yə görə, kəndli hüquqi cəhətdən şəxsən azad olub, sərbəst şəkildə istədiyi yerə köçə bilərdi [99]. O, sahibkardan yalnız iqtisadi cəhətdən asılı idi [130, s. 129]. Kəndlilər əvvəlki kimi yenə də öz məhsulunun ***1/10 hissəsini malcəhət*** kimi torpaq sahibinə verirdi. Əvvəllər meşələrdən pulsuz istifadə edildiyi halda, indi kəndlilər pul ödəməli idilər. "Əsasnamə"yə görə ***biyar*** ləğv olundu. Bu islahat Quba qəzasında *1877-ci ildə*, Zaqatala dairəsində isə çox gec-*1913-cü ildə* həyata keçirildi. *1870-ci il 14 may* islahatı Şimali Azərbaycanda feodal-asılı münasibətlərinə güclü zərbə endirərək kapitalist münasibətlərinin inkişafına şərait yaratdı [9, s. 212].

Məhkəmə islahatı. 1865-ci ildə Cənubi Qafqaz canişini tərəfindən yaradılmış xüsusi komissiyaların ***1864-cü il 20 noyabr*** məhkəmə nizamnamələrinin Cənubi Qafqaz və Azərbaycanda tətbiqi haqqında hazırladıqları təkliflər nəhayət ***1866-cı il noyabrın 22-də*** çar tərəfindən təsdiq olundu. Şimali Azərbaycanda məhkəmə islahatı ***1868-1869-cu illərdə*** həyata keçirildi [4, s. 202-203]. İslahata əsasən:

1.Silki məhkəmələr ləğv edildi və vahid məhkəmələr yaradıldı.

2.Qəzalarda dairə məhkəmələri və barışıq şöbələri təşkil olundu. Dairə məhkəmələrini çarın təsdiqinə canişin təqdim edirdi. Bu məhkəmələr barışıq məhkəmələrinin qərarlarına nəzarət edir, onların səlahiyyətində olmayan bütün mülki və cinayət işlərini həll edirdi. Cənubi Qafqaz məhkəmə idarələri canişinin nəzarəti altında idi.

3.Məhkəmə iclasları açıq keçirilirdi və s.

Məhkəmə islahatının müsbət cəhətləri ilə yanaşı, məhdud cəhətləri də var idi. Belə ki, 1864-cü il nizamnamələri Rusiyada hakimlərin seçilməsini təmin etsə də Azərbaycanda barışıq hakimləri canişin tərəfindən təyin edilirdi, məhkəmə iclasları isə rus dilində aparılırdı. Mülki işlərin baxılmasında yerli adətlər qətiyyən nəzərə alınmır, iddialar üzrə şahid ifadələri rədd edilir və ancaq yazılı, sənədli sübutlar qəbul olunurdu, bu isə əhalinin kütləvi savadsızlığı şəraitində mümkün olmurdu. Bakı quberniyasının təkcə barışıq məhkəmələrində hər il 14 min iş baxılmamış qalırdı [463]. Məhkəmə hakimləri özbaşınaqlıq edir və rüşvətxorluqla məşğul olurdular [4, s. 201-204].

Şəhər islahatı. Şimali Azərbaycanda ***1870-ci il iyun ayının 16-da*** təsdiq edilmiş ***"Əsasnamə"***yə əsasən *şəhər islahatı* yalnız *1878-ci ildə* təkcə Bakıda həyata keçirildi [4, s. 205]. "Əsasnamə"yə görə, şəhər idarələri və dumalara seçkilərdə silki mədəniyyət ləğv olunsa da, ***əmlak senzi*** tətbiq olunurdu. Şəhərdə yaşayıb vergi verən əhalinin hər biri - ev sahibləri, tacirlər, fabrik və zavod sahibləri, vergiləri ödəyən idarələr, müəssisələr, cəmiyyətlər, şirkətlər, monastırlar və kilsələr seçkilərdə iştirak edə bilərdi. Qadınlar və 25 yaşına çatmayan gənclər bələdiyyə seçkilərində iştirak edə bilməzdilər. *1870-ci il* şəhər əsasnaməsi seçicilərin milli qeyri-bərabərliyini də təsdiq edirdi. Xristian olmayan seçicilərdən seçilən nümayəndələr özgə dindən olanlar kimi qlasnıların 50 faizindən çoxunu təşkil etməməli idilər. Şəhər dumasının icraedici orqanı olan bələdiyyə idarəsinin tərkibi qubernator tərəfindən təsdiq olunmalı idi. Şəhər dumalarının ki-

çik təsərrüfat işləri ilə məşğul olmaq hüququ var idi. *Dumanın* fəaliyyətinə ***qubernator*** nəzarət edirdi. Belə ki, şəhər dumasının, hətta şəhər idarəsinin icra orqanları üçün göstərişləri, şəhər əmlakının idarə olunması qaydaları və s. sənədlər ancaq qubernator tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minə bilərdi. Qafqazda *ali hakimiyyət* ***çar canişininə*** məxsus idi. Quberniyalarda bütün *mülki* və *hərbi* hakimiyyət ***qubernatora*** məxsus idi. Qəzalar *qəza rəisləri* tərəfindən idarə olunurdu. Şəhər "Əsasnamələri"nin bütün çatışmazlıqlarına baxmayaraq, bu islahata müvafiq olaraq yaradılmış şəhər özünüidarə orqanları abadlaşdırılma, təhsil, səhiyyə, mədəniyyət və s. sahələrin inkişafında müəyyən müsbət rol oynamışdır. Cənubi Qafqazın ***inzibati*** quruluşunda Rusiyanın müstəmləkə siyasətinə uyğun *islahatlar* keçirildi:

1. *1859-cu ildə* Şamaxıda olan zəlzələ nəticəsində şəhər tamamilə dağıldığından quberniyanın mərkəzi *Bakıya* köçürüldü və ***Bakı quberniyası*** adlandı.

2. *1860-cı il martın 5-də* ***"Dağıstan vilayətinin idarə olunması haqqında Əsasnamə"yə*** görə, ***Dərbənd quberniyası*** ləğv edildi. ***Quba qəzası*** *Bakı quberniyasının* tərkibinə qatıldı. Sonralar *Cavad* və *Göyçay qəzaları* da bu quberniyanın tərkibində yaradıldı. *Car-Balakən* hərbi dairəsi ***Zaqatala hərbi dairəsinə*** çevrildi [465].

3. *1868-ci ildə Bakı (Şuşa* və *Nuxa qəzaları), Tiflis (Qazax* və *Yelizavetpol qəzaları)* və *İrəvan (ləğv edilmiş Ordubad qəzasının bir hissəsi) quberniyalarından* alınmış ərazilər hesabına ***Yelizavetpol quberniyası*** yaradıldı. *Ərəş (1874), Cəbrayıl, Cavanşir qəzaları (1883)* bu quberniyanın tərkibinə daxil edildi.

4. *Şərur-Dərələyəz (1870)* və *Naxçıvan qəzaları* ***İrəvan quberniyasının*** tərkibində qaldı.

1883-cü ildə ***Qafqaz canişinliyi*** ləğv edildi. Qafqazın idarə edilməsi *Baş hərbi rəisə* tapşırıldı [9, s. 212-213**]**. Şimali Azərbaycanda Bakı və Yelizavetpol quberniyalarının, eləcə də digər yeni inzibati-ərazi vahidlərinin yaradılması inkişafa doğru

addım olsa da, onlar Azərbaycan torpaqlarının siyasi-inzibati baxımdan bütövlüyünə gətirib çıxarmadı. Sahələrin ləğv edilməsi ilə bütün yerli inzibati-polis hakimiyyəti qəza rəislərinin əlində toplandı. Bütün qəza mərkəzlərində qəza idarələrinə şəhər pristavı, onun köməkçisi və s. polis vəzifələri daxil edildi.

Şimali Azərbaycanda kapitalist münasibətlərinin təşəkkülü. Keçirilən kəndli islahatları nəticəsində kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı üçün şərait yarandı. Kənd təsərrüfatında təkmil alətlər tətbiq edilməyə başlandı, texniki bitkilərin əkinləri genişləndirildi, bəzi sahələrdə məhsul istehsalının ixtisaslaşması və s. başlandı. Əkinə yararlı torpaqların üçdəiki hissəsinin çoxunda dənli bitkilər əkilirdi. Qızılboya, barama, pambıqçılıq, tütünçülük, biyan kökü istehsalına da xüsusi diqqət verilirdi. ***1850-ci ildə*** Tiflisdə yaradılmış ***"Qafqaz kənd təsərrüfatı cəmiyyəti"***nin sayəsində kənd təsərrüfatında yeni texnika tətbiq olunmağa başlandı. Cənubi Qafqaza kənd təsərrüfatı alətləri və maşınları Batum, Poti və Bakı limanları vasitəsilə gətirilirdi. Bunlar əsasən varlı kəndlilər və Rusiyadan köçüb gəlmiş kəndlilərin istifadəsində olurdular. 70-90-cı illərdə kənd təsərrüfatının bütün sahələrində ***muzdlu əmək*** tətbiq olunurdu. Kənd təsərrüfatında çalışan muzdlu fəhlə qüvvəsi əsasən çox kasıb və ya cüzi pay torpağı olan kəndlilərdən, bundan başqa Cənubi Azərbaycandan və Dağıstandan gəlmiş kəndlilərdən ibarət idi. Kapitalizmin inkişafı nəticəsində torpaq alqı-satqı obyektinə çevrilirdi. Kəndlilər öz torpaqlarını satmaqdan başqa, icarəyə də verirdilər. İcarəyə götürülmüş torpaqlarda muzdlu əməyin tətbiqi artırdı. Dövlət kəndlilərindən pulla ***"həyət vergisi"*** adlanan ***torpaq töycüsü*** alınırdı. Sahibkar kəndlilər əvvəlki kimi ***malcəhət*** (torpaqdan istifadəyə görə məhsulun 1/10 hissəsi) və ***bəhrə*** (suvarma suyundan istifadə edildiyi üçün) vergisi verirdilər. *1887-ci ildən* başlayaraq Azərbaycan kəndliləri ***hərbi vergi*** adlanan mükəlləfiyyət də daşımağa başladılar. Xristian olmadıqlarına görə orduya çağırılmayan azərbaycanlılar *3 illik orta qazancı*

nəzərə alınmaqla müəyyən olunmuş həcmdə ***hərbi vergi*** verməli idilər. Azərbaycan kəndlilərinə hərbi verginin qoyulması çar Rusiyasının Azərbaycanda yürütdüyü böyük dövlətçi - şovinist müstəmləkə siyasətinin təzahürü idi.

Neft sənayesinin inkişafı. Neft hasilatı və neftayırmanın müəyyən artımına baxmayaraq, *1860-1870-ci illərdə* ***iltizam sistemi*** neft sənayesinin inkişafına bir növ buxov olmuşdur. Duru yanacağa tələbatın artması hökuməti iltizam sistemini ləğv etməyə məcbur etdi. ***1872-ci ilin fevralın 17-də iltizam sistemi*** ləğv olundu. İltizam sisteminin ləğvi bütün nüft hasilatında qəti dönüş yaratdı, neft sənayesi kapitalist istehsalı sahəsinə çevrildi. İltizam sistemi ləğv edildikdən sonra Bakı neft sənayesi sürətlə inkişaf etməyə başladı. Neft çıxarılması 2,5 dəfə artdı: 1872-ci ildə 1,4 mln pud, 1873-cü ildə isə 3,9 mln pud neft çıxarıldı. 1876-cı ildə Bakıda 10,6 mln pud, 1882-ci ildə isə 50 mln pud neft çıxarıldı [466]. Qanuna əsasən neft yataqları ayrı-ayrı şəxslərə birdəfəlik satıla bilərdi. *"Neft istehsalı və fotogen istehsalından aksiz haqqında Qaydalar"* çar tərəfindən ***1872-ci ildə fevralın 1-də****, "Qafqaz və Cənubi Qafqazın iltizamda olan xəzinə neft mənbələrinin müzayiqə yolu ilə xüsusi şəxslərə verilməsi haqqında Qaydalar"* isə ***1872-ci il fevralın 17-də*** təsdiq olundu. Bu qaydalara görə, xəzinənin iltizamda olan neft mənbələri müzayiqələr (torq) yolu ilə xüsusi şəxslərə satıldı [4, s. 176-177]. İlk növbədə neft sənayesi böyük kapital qoyuluşu tələb edirdi. Ona görə də neft mədənləri və neft zəngin torpaqlar əsasən rus və xarici kapitalın əlində cəmləşmişdir. ***1879-cu ildə*** İsveç təbəəsi Nobel qardaşları ***"Nobel qardaşları"*** şirkətinin əsasını qoydular. XIX əsrin 80-cı illərinin ortalarında ***Rotşildlərin "Xəzər-Qara Dəniz Neft və Sənayesi Cəmiyyəti"***, 90-cı illərdə ***Vişaunun*** timsalında fransız və ingilis kapitalı Bakıya nüfuz etdi. *1895-1898-ci illərdə* Bakıda hazır müəssisələrin əsasında təşkil olunmuş 6 ingilis neft sənayesi kompaniyası fəaliyyət göstərirdi. XIX əsrin 70-80-cı illərində neftlə zəngin torpaq sahibkarları - neft sənaye-

çiləri arasında ***Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov*** kimi azərbaycanlılar da var idi. İltizam sisteminin ləğvi, xarici kapital axını neft hasilatının və emalı texnikasının yaxşılaşmasına, neft məhsullarının daşınma vasitələrinin təkmilləşdirilməsinə şərait yaratdı. Bütün bunların neft sənayenin inkişafı üçün müəyyən rolu olsa da, rus kapitalistləri kimi, Qərb kapitalistləri də istehsalı yenidən qurmaqdan imtina edir, bununla da neft sənayesini texniki geriliyə məhkum edir, Bakı fəhlələrini amansız istismar etmək və neft məhsullarının qiymətini qaldırmaqla külli miqdarda kapital əldə edirdilər. Hələ ***1871-ci ildə Balaxanıda*** buruqla ***ilk neft quyusu*** qazılıb istifadəyə verilmişdir. ***1873-cü ildə*** *Balaxanıda* ***ilk neft fontanı*** vurdu. ***1873-cü ildə*** quyuların qazılmasında ilk dəfə ***buxar mühərrikindən*** istifadə olundu [4, s. 219]. ***1878-ci ildə*** mədənləri neftayırma müəssisələri ilə birləşdirən buxar mühərrikli nasoslarla təchiz olunmuş ***ilk neft kəməri*** işə salındı [146, s. 274-275]. ***1879-cu ildə "Nobel qardaşları"*** *şirkəti* tərəfindən mədənlər arasında neft və sərnişin daşımaq üçün ***ilk darxətli dəmir yolu*** çəkildi [4, s. 220]. ***1878-ci ildə*** onların sifarişi ilə İsveçdə hazırlanmış dünyada ***ilk neft tankeri "Zoroastr"*** Bakı ilə Həştərxan arasında hərəkətə başladı. Bir ildən sonra onlar yeni, daha böyük ***"Moisey" tankerini*** sifariş etdilər [192, s. 21]. XIX əsrin sonunda və XX əsrin əvvəllərində neft hasilatı və neft çıxarılmasına görə Bakı dünyada birinci yerə çıxdı. Bu dövrdə neft sənayesində inhisarların tam hökmranlığı bərqərar oldu, xarici kapitalın mövqeyi genişləndi, ilk ixracat sindikatı - İri İnhisarçı Birlik meydana gəldi. ***1873-cü ildə "Qara şəhər"*** adlanan zavodlar şəhəri yarandı. Bakı şəhəri həm neftçıxarma, həm də neft emalı mərkəzinə çevrilmişdir. ***1884-cü ildə*** Bakıda kapitalistlərin xüsusi təşkilatı-***Neft sənayeçilərinin qurultayı*** təşkil edildi. Təşkilatın başında Qurultay Şurası dururdu. ***1894-cü ildə*** neft sənayeçilərinin Peterburqda keçirilən müşavirəsində ***"Bakı ağ neft zavodçuları ittifaqı"*** adlı inhisar birliyi yaradıldı. İstehsal

olunan neft məhsullarının 98 %-i bu inhisar birliyi nəzarəti altında idi. Lakin bu birlik daxili çəkişmələr nəticəsində ***1897-ci ildə*** dağıldı [4, s. 271]. Neft emalı və neft hasilatı mexaniki istehsal, kükürd, kolçedan, kükürd turşusu, soda, gəmiçilik və neftlə bağlı olan bu kimi istehsal sahələrinin inkişafına müsbət təsir göstərdi. ***1890-cı ildə*** H.Z.Tağıyev ***"Kaspi"*** gəmiçilik şirkətini yaratdı. ***1894-cü ildə*** Gəncə qəzasında ***"Naftalan"*** neft sənayesi və ticarət şirkəti təsis edildi. ***1897-ci ildə*** H.Z.Tağıyev başqa sənaye sahələrinə kapital qoymaq üçün ***"H.Z.Tağıyev"*** adlı şirkətini – neft mədənləri, ağ neft, yağ və kükürd turşusu zavodlarını, neft kəmərini, neftdaşıyan gəmilər, firmanın dəmir yolu sisternləri parkını və həmçinin Rusiyanın bir çox şəhərlərində ağ neft və mazut saxlamaq üçün anbarları ingilis kapitalistlərinə: Q.Qladstona, Ç.Mura və b. *5 milyon manata* satdı və iqtisadiyyatın yeni sahələrinə-*toxuculuq sənayesinə, gəmiçiliyə* və *balıqçılığa* xeyli kapital qoydu. O, eyni zamanda ingilislərə satdığı müəssisələr əsasında yaradılmış ***"Oleum"*** səhmdar cəmiyyətinin *1,6 mln. manatlıq* səhmini (əsas kapitalın 13,7%-ni) öz əlində saxlayaraq [172, s. 68] bu cəmiyyətin *icraçı direktorlarından birinə* çevrildi. H.Z.Tağıyev *1898-ci ildə* fəaliyyətə başlayan *"Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti"* adlandırılan səhmdar müəssisəsini yaratdı. *1900-cü ildə* ***H.Z.Tağıyevin toxuculuq fabrikinin*** işə salınması Azərbaycan müstəmləkə iqtisadiyyatına xas olan birtərəfli inkişaf meylini aradan qaldırmaq yolunda ilk addım idi. H.Z.Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə ağır zərbə vuran və onu sındıran ilk sənayeçi kapitalist olmuşdur.

Sənayenin başqa sahələri. Bakıda çuqun, buxar qazanları, dəmir boruları, neft saxlamaq üçün çənlər, qazma dəzgahları və s. istehsal edən mexaniki zavodlar, *"Qafqaz və Merkuri"* gəmiçilik səhmdar cəmiyyətinə məxsus təmir-mexaniki emalatxana, *1887-ci ildən "Bakı doku"* şirkətinin gəmi təmiri emalatxanası, buxar mühərrikləri ilə hərəkətə gətirilən dəyirmanlar, tütün

fabrikləri, yeyinti, tikinti materialları istehsal edən müəssisələr fəaliyyət göstərirdi. Azərbaycanda əlvan metallurgiya sənayesi inkişaf etməyə başlamışdır. Bu sənaye sahəsi rus və alman kapitalı əsasında meydana gəlmişdir. *1883-cü ildə* ***Qalakənd*** *missaflaşdırma zavodu* inşa edilmişdir. Gəncə, Gədəbəy və Cavanşirdəki mədənlərdən *mis filizi;* Daşkəsəndən *dəmir, kobalt filizi;* Cavanşir və Naxçıvandan *gümüş, qurğuşun filizi* çıxarılırdı. 60-cı illərdə Zəylik kəndi yaxınlığında az miqdarda *zəy* əldə edilirdi. *1878-ci ildən* yeni ***Zəy zavodu*** fəaliyyətə başladı, lakin sonrakı illər zavodun məhsuldarlığı azaldığına görə *1883-cü ildə* fəaliyyətini dayandırdı. 80-ci illərdə Nuxa qəzasında 500-dən çox iri və kiçik müəssisə işləyirdi. *1873-cü ildə* Azərbaycanda ipək istehsal edən müəssisələrin sayı 800-dən çox idisə, *1900-cü ildə* onlar 463-ə enmiş, yəni 2 dəfə azalmışdır. Həmin müəssisələrin 60-da buxar mühərrikləri tətbiq edilirdi. Bu fabriklərdə 2300-dək barama açılan tiyan və 2000-ə yaxın dəzgah vardı [153, s. 42]. *İpək emalı* Nuxa, Zaqatala, Qarabağ və Naxçıvanda da geniş yayılmışdır. Nuxa şəhəri "Qafqaz Lionu" adlandırılırdı. ***İlk pambıqtəmizləmə zavodu*** *1882-ci ildə* Naxçıvanda inşa olunmuşdur. *1880-ci ildə* balıq sənayesində ***iltizam sistemi ləğv edildikdən*** sonra balıq vətəgələri *açıq müzayiqə* yolu ilə icarəyə verildi. Bu tədbir balıq ovunun artmasına səbəb oldu. *1880-1882-ci illərdə* 736,1 min pud balıq tutulmuşdusa, *1898-1900-cü illərdə* artım 3 dəfədən çox olmuş, yəni 2418,7 min puda çatmışdır [4, s. 241]. Xəzər dənizi *nərə balığı* növlərinin zənginliyinə görə dünyada birinci yeri tuturdu. Azərbaycanın balıq və balıq məhsulları Rusiya, Almaniya, Avstriya, Fransa, Polşa və Amerikaya ixrac olunurdu. Rusiyada *biyan kökü* emalının mərkəzi Azərbaycan idi. Ləki, Ucar, Gəncə və Kürdəmirdə *biyan emalı* zavodları, Bakı və Nuxada *tütün fabrikləri* inşa edilmişdir**.** Naxçıvanda *daş duz,* Bakı və Cavad qəzalarında *şor-narın duz* istehsal olunurdu. Xəzər dənizində dünyada *ilk dəfə neftdaşıyan gəmilər* üzürdü. ***1883-cü ildə*** Cənubi Qafqazda ***Bakı-Tiflis dəmir yolu*** işə salındı

[4, s. 249]. *1900-cü ildə* Biləcəri stansiyasını Petrovsk (Mahaçqala) ilə birləşdirən dəmir yolu xətti istifadəyə verildi [485]. Bununla da, Bakı Ümumrusiya bazarına çıxmaq imkanı əldə etdi. XIX əsrin sonunda dəmir yolu stansiyalarına yaxın olan (Ağstafa, Yevlax, Ləki, Ucar, Kürdəmir, Hacıqabul) sənaye və ticarət mərkəzlərinin rolu artır, dəmir yolundan uzaqda olan (Nuxa, Şamaxı, Şuşa) ticarət mərkəzlərinin əhəmiyyəti isə azalırdı. XIX əsrin 80-90-cı illərində (Ucar-Göyçay, Yevlax-Nuxa-Zaqatala, Gəncə-Hacıkənd, Ləki-Ağdaş) dəmir yolu stansiyalarından qəza mərkəzlərinə *şose yolları* çəkildi. 60-cı illərdən etibarən Azərbaycanda şəhərlər arası *teleqraf* və *telefon xətlərinin* çəkilişi sürətləndi. ***1864-cü ildə*** *Tiflis-İrəvan-Naxçıvan-Culfa,* ***1868-ci ildə*** *Bakı-Tiflis teleqraf xətləri* çəkildi [467]. Bakı şəhərini əhatə edən *ilk mərkəzləşdirilmiş telefon stansiyası* ***1886-cı ildə*** işə salındı [374, s. 259, 267; 488].

XIX əsrin ikinci yarısında iqtisadiyyatın inkişafı nəticəsində Azərbaycanda şəhərlərin sayı və əhalinin artması baş verdi. Şimali Azərbaycanda 10 şəhər və 5 qəza mərkəzi var idi. *Bakı, Şamaxı, Quba, Lənkəran* şəhərləri ***Bakı quberniyasına,*** *Gəncə, Nuxa, Şuşa* şəhərləri ***Yelizavetpol quberniyasına****, Naxçıvan* və *Ordubad* şəhərləri ***İrəvan quberniyasına*****,** *Zaqatala* şəhəri isə ***Tiflis quberniyasına*** daxil edilmişdir. Şəhər əhalisinin artım sürətinə görə *Bakı (112 mindən şox)* Rusiya imperiyası və Avropa ölkələrini ötüb keçirdi. Əsrin sonunda *Bakı* əhalisinin cəmi ***40 %-ni azərbaycanlılar*** təşkil edirdi. Şəhərdə iş qabiliyyətli əhalinin ***60 %-ni fəhlələr*** təşkil edirdi [4, s. 279]. Bakıdan sonra əhalinin sayına görə *Gəncə* şəhəri gəlirdi, ticarət və sənayenin inkişafına görə isə ikinci yeri *Nuxa* şəhəri tuturdu. *1897-ci il* əhali sayına görə *Bakı şəhərinin əhalisinin* ümumi sayı *270 min nəfərə* çatmışdır ki, bu da öz növbəsində Azərbaycanın bütün əhalisinin 14%-dən şoxunu təşkil edirdi [167], şəhər əhalisinin mili tərkibinin ***53%-ni azərbaycanlılar*** təşkil edirdi. XIX əsrin sonunda hakim təbəqəyə daxil olanların ümumi sayı 15 min nəfəri

keçmişdir. ***1870-ci ilin*** şəhər ***"Əsasnaməsi"*** yalnız *1878-ci ildə* Bakıda, ***1892-ci ildə*** təsdiq olunan yeni şəhər ***"Əsasnaməsi"*** isə Gəncə şəhərində də tətbiq olunmağa başlandı. Şəhərlər inkişaf etdikcə onların xarici görünüşləri də dəyişirdi. İki və üçmərtəbəli evlər tikilir, bağlar salınırdı. ***1859-cu ildə*** Bakıda ***"Qubernator bağı", 1882-1883-cü illərdə "Nobel bağı"*** salındı. ***İlk elektrik stansiyası "Qafqaz və Merkuri"*** cəmiyyətinə məxsus idi. ***1899-cu ildə*** "Simens-Qalske" səhmdar cəmiyyəti və neft sənayeçiləri birlikdə təsis etdikləri ***"Elektriçeskaya sila"*** səhmdar cəmiyyəti sonralar Bayılda və Ağ şəhərdə ***2*** *güclü* ***elektrik stansiyası*** tikdirmişdir. ***1889-cu ildə*** Bakıda ***konka*** (atlardan qoşqu vasitəsi kimi istifadə olunan dəmir yolu) fəaliyyətə başladı [4, s. 280].

1876-cı ilin mart ayından Azərbaycanda da ***gildiya ticarət qaydasının*** tətbiq olunmasına başlandı [282]. Bundan sonra tacirlərin hər biri malik olduğu kapitalın həcmindən və fəaliyyət dairəsindən asılı olaraq gildiyanın hər hansı dairəsinə yazılmalı və öz müəssisələri üçün müəyyən bilet almalı idi. ***Birinci gildiya*** tacirləri bütün dövlətlərin mallarını "Rusiyanın hər yerində yük ilə, həm də tay, yaxud top" [37, s. 64-65**]** ilə satmaq üçün lazım olan qədər kontor, anbar, dükan açmaq hüququna malik idi. ***İkinci gildiya*** tacirləri isə şəhadətnamə aldıqları quberniya, qəza və kəndlərdə istənilən qədər dükan açıb, Rusiya və digər dövlətlərin mallarını sata bilərdilər. *1890-cı ildə* təkcə Bakıda ticarət müəssisələrinin sayı 3484-ə qalxmışdır. Onların illik dövriyyəsi isə 137,7 mln manat idi [79, s. 179]. *1887-ci ildə* Bakıda böyük ticarət yarmarkası təşkil edilmişdir [4, s. 269].

Beləliklə, çar Rusiyasının ucqarlarda, xüsusilə Azərbaycanda milli - müstəmləkə və müstəmləkəçi iqtisadi siyasəti aparmasına baxmayaraq, ölkə sənayesində kapitalist münasibətləri inkişaf edirdi.

Millətin təşəkkülü. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda *kapitalizmin inkişafı, ümumi bazarın, iqtisadi və mədəni mərkəzlərin yüksəlişi, milli burjuaziyanın və fəhlə sinfi-*

nin formalaşması Azərbaycan millətinin təşəkkülünün zəruri şərtləri idi. Başqa millətlər kimi, Azərbaycan milləti də ***dil, ərazi, iqtisadi həyat birliyi, mədəniyyət, şüur*** və ***psixoloji birliyi*** zəminində sabit tarixi birlik kimi formalaşdı. İqtisadi əlaqələrin möhkəmlənməsinin vacib şərti Azərbaycan millətinin ərazi birliyi idi. Yadelli işğalçılara qarşı uzunmüddətli tarixi mübarizədə Azərbaycan xalqı öz dövlətçiliyini və ərazi birliyini yaratmışdır. Kapitalizmin inkişafı nəticəsində Şimali Azərbaycan iqtisadiyyatının dünya bazarına cəlb edilməsi onun iqtisadi birliyinin yaranmasında mühüm rol oynadı. Formalaşmaqda olan Azərbaycan millətinin aparıcı qüvvəsini əsasən Azərbaycanın Bakı və digər şəhərlərində olan iri sənaye müəssisələri və gəmi sahibləri, iri ev sahibləri, tacirlər, ziyalılar, fəhlə sinfi və kənd burjuaziyasının nümayəndələri və b. təşkil edirdi. Kənd təsərrüfatında kapitalizmin inkişafı ilə kəndlilər arasında təbəqələşmə prosesi gedirdi: qolçomaqlar, xırda burjuaziya, sələmçi-möhtəkirlər, kənddə dükan sahibləri, bəylərdən ibarət olan kənd burjuaziyası, istehsal vasitələrindən məhrum olaraq qazanc dalınca gedən və yaxud muzdla işləyən muzdurlar və kənd fəhlələri. Yadelli işğalçılara qarşı çoxəsrlik mübarizə və assimilyasiya siyasətinə baxmayaraq, Azərbaycan xalqı öz dilini qoruyub saxlaya bilmişdir. Feodal qapalı həyatının tədricən aradan qalxması, iqtisadi və elmi-mədəni mərkəzlərin yaranması, əhalinin sosial-iqtisadi fəaliyyəti, ölkənin ayrı-ayrı bölgələri arasında iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsi Azərbaycan milli dilinin inkişafı üçün münbit şərait yaratmışdır. Hər bir millətin mühüm əlaməti milli mədəniyyət, şüur və psixologiyanın spesifik, özünəməxsus ümummilliliyidir. Azərbaycan milli mədəniyyətinin özünəməxsusluğu xalqın vərdişlərində, ənənələrində və məişətində öz əksini tapmışdır. Xalqın ümummilli xarakter daşıyan xüsusiyyətləri: əməksevərlik, azadlıqsevərlik, mərdlik, qonaqpərvərlik, böyüklərə hörmət, xeyirxahlıq, yoldaşlıq və dostluğa sədaqət kimi amallardır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan

M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Vəzirov, H.Zərdabi, N.Nərimanov və başqalarının ədəbi və elmi publisistik fəaliyyəti, Azərbaycan teatrının və mədəni-maarif müəssisələrinin yaranması, maarifdə, incəsənətdə, musiqidə, xalq yaradıcılığında yeni meyillərin meydana gəlməsi, digər xalqların mədəniyyətləri ilə qarşılıqlı əlaqə Azərbaycan xalqının milli şüurunun oyanmasında əhəmiyyətli olan xüsusiyyətlərdir. XIX əsrin ikinci yarısında ilk dəfə *M.F.Axundov* ***"millət"*** anlayışını ədəbiyyatda və mətbuatda işlətmişdir. ***"Azərbaycan milləti"*** sözü isə ilk dəfə ***"Kəşkül"*** qəzetində yazıldı. Millətin ideoloji təfəkkürünün formalaşmasında milli ziyalılarımızın qabaqcıl nümayəndələri olan ***Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Firudin bəy Köçərli, Məmməd Əmin Rəsulzadə*** və başqalarının böyük rolu olmuşdur. Onlar *türkçülük, milliyyətçilik, dövlətçilik, demokratizm* və ***azərbaycanlılıq*** ideyalarını təbliğ edirdilər. Azərbaycanda milli burjuaziyanın təşəkkül tapması milli təfəkkürün inkişafına, ***milli şüurun*** oyanmasına əhəmiyyətli təsir göstərmişdir. Milli burjuaziyanın görkəmli nümayəndəsi ***H.Z.Tağıyevin*** istetadlı gəncləri Rusiya və Avropanın təhsil ocaqlarına göndərilməsində, məktəb, teatr və məscidlərin açılmasında böyük rolu olmuşdur. Milli ziyalılarımız - Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və b. Azərbaycanın ictimai-siyasi həyatındakı yeni meyilləri öz əsərlərində əks etdirirdilər. Görkəmli ədəbiyyatşünas və tarixçi *M.F.Axundzadə* Azərbaycanda burjua münasibətlərinin inkişafını ***"Əkinçi"*** qəzetində nəşr olunan əsərlərində əks etdirirdi. Beləliklə, XIX əsrin ikinci yarısında intensiv şəkildə azərbaycanlıların millət kimi formalaşması prosesi gedirdi və bir millət kimi bütün sinifləri, sosial qruplar və zümrələri özündə birləşdirirdi.

XIX əsrin ikinci yarısında kəndli və fəhlə hərəkatı. Zaqatala üsyanı. *1863-cü ildə* Gürcüstanda ***aqrar islahatının*** həyata keçirilməsi *1860-cı ildə* inzibati-ərazi vahidi kimi yaradıl-

mış ***Zaqatala dairəsində*** narazılığa səbəb oldu. Bundan başqa çarizmin amansız müstəmləkə zülmü, Zaqatala dairə rəisinin, o cümlədən məmurlarının özbaşınalığı və baş alıb gedən rüşvətxorluq, qanunsuzluq, zorla xristianlaşdırma siyasəti bölgədə ziddiyyətlərin daha da dərinləşməsinə səbəb oldu. XIX əsrin 50-ci illərində Qax, Əlibəyli, Qarağan, Kötüklü, Meşəbaşı, Tasmalı, Zəyəm, Lələpaşa, Marsan, Yengiyan kəndlərinin, Şotavar və İlisu sahəsinin əhalisi içərisində xristianlığı zorla yayırdılar. Zaqatalada hökumətin hazırladığı islahat layihəsinə görə, ***yengiloylar*** və ***muğallar*** keşkəl sahiblərinin asılılığından azad olmaq üçün qazandıqları gəlirin on qatı həcmində birdəfəlik vəsait kimi ödəməli idilər. İslahatın keçirilməsi nəticəsində ***Keşkəl*** sahibləri əsas gəlir mənbəyini itirmək təhlükəsi qarşısında qaldıqlarına görə islahata qarşı idilər. *1862-ci ildə* Balakən kəndində kilsənin tikilməsi üsyanın başlanması üçün bəhanə oldu. *1863-cü ilin iyunun* əvvəllərində rus ordusunun keçmiş zabiti *Hacı Murtuzun* rəhbərliyi ilə *balakənlilər* və *qavaxçöllülər Zaqatala şəhərini* ələ keçirdilər. Hacı Murtuzun ən yaxın köməkçiləri *balakənli Bürcəli* və *carlı Molla Zəngi* idi. Üsyan ümummilli xarakter daşıyırdı, hərəkətverici qüvvəsi *keşkəl sahibləri, müsəlman ruhaniləri* və *xalq* idi. *İyunun 5-də* əhalinin dindar təbəqəsinə təsir edərək ətrafında daha çox tərəfdar toplamaq məqsədilə Hacı Murtuz imam elan olundu. Lakin Dağıstan camaatı köməyə gəlmədiyi üçün üsyançılar arasında bir ümidsizlik yarandı. *İyunun 5-dən 6-na keçən gecə* üsyançılar *Zaqatala qalasına* hücum etdilər, lakin top atəşi onları geri çəkilməyə məcbur etdi. Rusiya hakim dairələri üsyanı amansızlıqla yatırdılar. Üsyanın 18 nəfər ən fəal üzvü dar ağacından asıldı, mindən çox üsyançı isə ailə üzvləri ilə birlikdə katorqaya (sürgünə) göndərildi. *Hacı Murtuz 1864-cü il fevralın 8-də* təslim oldu, Yenisey quberniyasına sürgün edildi və elə orada da öldü. Şəhərə vurulan ziyan üsyançıların hesabına ödənildi, dairədə polis nəzarəti gücləndirildi. Mülki idarəçilik ləğv olunaraq hərbi-inzibati sistemlə əvəz edildi. *Zaqatala üsya-*

nın məğlubolma səbəbləri aşağıdakılardır: 1) üsyan mütəşşəkil xarakter daşımırdı, yalnız Zaqatala dairəsinin əhalisi ilə məhdudlaşırdı; 2) qüvvələr nisbəti qeyri-bərabər idi; 3) üsyançılara gözlənilən kömək gəlmədi; 4) onlar qətiyyətsizlik göstərdilər və üsyançılar arasında birlik yox idi.

Kəndli hərəkatı. XIX əsrin sonunda Azərbaycan kəndlərində ictimai təbəqələşmə prosesi sürətlənmişdir. Sahibkar və dövlət kəndlilərinin vəziyyəti ağır idi. Dövlət kəndlilərinin əksəriyyətinin 1-2 desyatindən artıq torpaq payı yox idi. Azərbaycana rus kəndlilərinin köçürülməsi kəndlilərin torpaqdan məhrum olması və ya az torpaqlı olmasına səbəb olurdu. Ağır vergi və mükəlləfiyyətlər kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı. XIX əsrin son rübündə çarizmin müstəmləkə zülmünə qarşı mübarizə daha da gücləndi. Kəndlilər vergi verməkdən və mükəlləfiyyətlər daşımaqdan boyun qaçırır, sahibkarlara məxsus torpaqları ələ keçirir, hökumət məmurlarının, bəylərin malikanələrinə talançı basqınlar edir, onları yandırır, sahibkarları isə öldürürdülər. Bu mübarizəyə səbəb torpaq məsələsi idi. XIX əsrin son rübündə *Qazax, Cavanşir, Yelizavetpol, Şuşa, Naxçıvan* və b. qəzalarda fəal *kəndli çıxışları* baş verdi. 70-ci illərin sonunda Qazax qəzasının Quşçu kənd sakinləri *Mehbalı Məmmədhəsən oğlu, Məşədi Usub Mürşüd oğlu, Kərbəlayı Kərimşah Qulu oğlu* və b. başçılığı ilə mülkədar İsgəndərbəyovların zülmünə qarşı üsyan etdilər. Bəylər kazak dəstəsinin köməyi ilə üsyanı yatırdılar, üsyan rəhbərlərini isə həbs etdilər [4, s. 308]. *XIX əsrin son rübündə* Azərbaycanda kəndli çıxışlarının ən geniş yayılmış forması həm dövlət, həm də sahibkar kəndlilərinin iştirak etdiyi ***qaçaqçılıq hərəkatı*** idi. Qaçaqları ***xalq intiqamçıları*** adlandırırdılar. 80-ci illərdə və sonralar Gəncə ətrafında *Qaçaq Dəli Əli*, Quba qəzasında *Məşədi Məcid, Şeyxzadə Bədəl* şöhrət qazanmışdılar. Quba qəzasında 17-dək qaçaq dəstəsi fəaliyyət göstərirdi [508]. Qaçaq dəstələri bəylərin malikanələrinə hücumlar edir, onların əmlakını, mal-qarasını və pullarını əllərindən alırdılar və

ələ keçirdikləri qənimətin xeyli hissəsini kəndlilərə paylayırdılar. Qaçaq hərəkatının sosial xarakter daşıyırdı, çarizm və yerli mülkədarlar tərəfindən kəndlilərin əsarət və istismar edilməsinə qarşı çıxışlara başçılıq edən qaçaqlar xalqın yardımına arxalanırdılar. XIX əsrin son illərində qaçaqlardan Gəncə rayonunda *Qənbər*, Qarabağda *Süleyman* və *Murtuza*, Zaqatala dairəsində *Yusif, Nuxa qəzasında Kərim Əfəndi oğlu*, Qutqaşendə, xüsusən də Şimali Azərbaycanın qərb rayonlarında *Qaçaq Kərəm* və b. məşhur idilər. Müxtəlif dövrlərdə *Qubadlıda Qaçaq Nəbi,* onun arvadı *Həcər xanım, Qazax qəzasında Qaçaq Kərəm, Dəli Alı, Qaçaq Nağı* kimi qəhrəmanlar xalq hərəkatlarına rəhbərlik edirdilər. *Qaçaq Nəbi* 20 il əldə silah kəndlilərin mənafeyini qoruyaraq, yerli istismarçıları və çar müstəmləkəçilərini qorxuya salmışdır. Çar hakimiyyət orqanları Qaçaq Nəbini öldürən şəxsə çoxlu pul və başqa qiymətli hədiyyələr vəd etmişdir. *1896-cı il martın 12-də* qaçaqlardan Şahhüseyn və Kərbəlayı İmam İranın Larni kəndində *Qaçaq Nəbiyə* hücum edərək onu öldürdülər [370, s. 805-808]. Qaçaq dəstələrinin qəhrəmancasıına mübarizə aparmalarına baxmayaraq, onlar məğlubiyyətə uğrayırdılar. Bu hərəkatların məğlubiyyətinin əsas səbəbləri hərəkatda kəndlilərin az bir hissəsinin iştirak etməsi, qeyri-mütəşəkkil, yerli və kortəbii xarakter daşıması, üsyançıların aydın məqsəd və vəzifələrinin olmaması idi.

Fəhlə tətilləri. XIX əsrin ikinci yarısında sənaye kapitalizminin inkişafı, milli burjuaziyanın meydana gəlməsi ilə fəhlə sinfinin də formalaşma prosesi gedirdi. Bakıda neft sənayesinin inkişafı nəticəsində fəhlələrin sayı artırdı, onların vəziyyəti son dərəcədə acınacaqlı idi. Uzunmüddətli iş günü (12-14 saatdan çox), cüzi əmək haqqı, bahalıq, ev kirayəsinin yüksək olması, ağır əmək şəraiti fəhlələrin vəziyyətini daha da dözülməz edirdi. Neftayırma və kimya müəssisələrinin iş şəraiti fəhlələrin sağlamlığı üçün xüsusilə zərərli idi. Texniki təhlükəsizlik aşağı səviyyədə olduğu üçün fəhlələrin çoxu bədbəxt hadisələr nəticə-

sində həlak olurdu. Hədsiz dərəcədə ağır əmək və həyat şəraiti, tibbi-sanitariya yardımının kifayət qədər olmaması və yaxud tam yoxluğu fəhlələr arasında peşə xəstəliklərinin (yatalaq, vərəm və s.) yayılmasına səbəb olurdu. Azərbaycanlı fəhlələrin əmək haqları çox vaxt milli mənsubiyyətə görə verilirdi. Onlar (xüsusilə Cənubi Azərbaycandan olanlar), eyni işə görə başqa millətlərə nisbətən az əmək haqqı alırdılar. Qadın və uşaq əməyindən də geniş istifadə olunurdu. Onlar kişilərlə eyni dərəcədə işləmələrinə baxmayaraq, 20-50 % az əmək haqqı alırdılar. İpəksarıma fabriklərində işləyən uşaqlar isə 7-9 qəpik əmək haqqı alırdılar. Kapitalistlər fəhlələrin əmək haqqını hər vasitə ilə kəsmək üçün cərimə sistemindən daha çox istifadə edirdilər [4, s. 337-339]. Əksər hallarda kapitalistlər nəinki cəriməni, hətta, vurulmuş ziyanı fəhlələri ödəməyə də məcbur edirdilər [395]. Dözülməz mənzil şəraiti, darısqallıq və natəmizliyin nəticəsində yayılan kütləvi xəstəliklər minlərlə fəhlənin həyatına son qoyurdu. Beləliklə, ağır həyat tərzi və əmək şəraiti, siyasi hüquqsuzluq fəhlələri ədalətsizliyə, dözülməz istismara qarşı mübarizəyə sövq edirdi. XIX əsrin 70-ci illərindən başlayaraq Gədəbəy, Bakı və Nuxa bölgələrində tətillər baş verirdi. *1878-ci ildə* Nuxa ipəksarıma fabriki fəhlələrinin [165, s. 28], Abşeronda nefti mədənlərdən neftayırma zavodlarına və anbarlara daşıyan arabaçı fəhlələrin tətilləri ilkin çıxışlar idi [177, s. 127]. Bakıda digər sənaye müəssisələri və dəmiryolu tikintisində çalışan fəhlələrin tətilləri və kortəbii çıxışları baş verirdi. *1881 -ci il fevralın sonlarında* Cənubi Qafqaz dəmir yolu tikintisinin 8-ci sahəsində ("Qurd qapıları" yaxınlığında) işləyən fəhlələrin [371], *1882-ci il sentyabrın 16-da* "Nobel qardaşları" şirkətinin Qara şəhərdəki neftayırma zavodunun fəhlələrinin, *1883-cü ilin fevralında* Bakıda Cənubi Qafqaz dəmir yolunun Bakı sahəsinin tikintisindən, mədən və zavodlardan qovulan fəhlələrin kortəbii çıxışları baş verdi. Fəhlələrə qarşı qoşun yeridildi, tətilçilərdən 70 nəfəri həbs edildi [177, s. 131-132]. *1891-ci ilin* başlanğıcında Bakıda yeni kütləvi

çıxışlar baş verdi. Bu çıxışlarda neft mədənlərində və zavodlarda ixtisara düşmüş fəhlələr, işdən azad edilmiş gəmi təmirçiləri, həmçinin aclıq bürümüş Volqaboyu quberniyalarından Bakıya gələn fəhlələrin böyük əksəriyyəti iştirak edirdi. 80-90-cı illərdə baş verən çıxışlar kortəbii və qeyrimütəşəkkil idi, fəhlələr hələ öz sinfi mənafeyini dərk etmirdilər. *1892-1894-cü illərdə* neft mədənlərində, emal sənayesində, ticarət donanmasında bir sıra fəhlə tətilləri baş verdi. *1881-1895-ci illərdə Bakıda, 1896-cı ildə Ramana mədənlərində, 1898-ci ildə Gədəbəy misəritmə zavodlarında* və digər sənaye müəsisələrində baş verən tətillərdə fəhlələr maaşların artırılması, ailəli fəhlələrə mənzillər verilməsi və bu kimi sosial və iqtisadi tələblər irəli sürürdülər. Beləliklə, XIX yüzilliyin sonunda Azərbaycanın sənaye müəssisələrində çalışan fəhlələr özunu mütəşəkkil qüvvə kimi göstərməyə başladılar. Beləliklə, baş verən ilk tətillərin kortəbiiliyi və qeyri-mütəşəkkiliyinə baxmayaraq, onlar Azərbaycan fəhlələrinin sinfi mənlik şüurunun oyanmasına böyük təsir göstərmişdir.

4.XIX əsrdə çarizmın köçürmə siyasəti

Çarizmin köçürmə siyasəti onun Şimali Azərbaycanda həyata keçirdiyi aqrar siyasətinin bir istiqaməti idi. Bu siyasətin nəticəsində yerli əhali öz əzəli torpaqlarından qovulur, aztorpaqlılıqdan əziyyət çəkirdi. Çar Rusiyası Azərbaycanda özünə etnik dayaq yaratmaq, müxtəlif xristian kütlələrini Azərbaycan torpaqlarında yerləşdirmək siyasəti yeridirdi. XIX əsrdə Şimali Azərbaycana ilk xristian köçkünlər almanlar olmuşdular. Onlar *1818-ci ildə* Qafqaz Baş Komandanlığının təhriki və köməyi ilə Yelenendorf və Annefeld koloniyalarının əsasını qoymuş və rus təbəəliyini qəbul etmişlər [155, s. 92]. Çar hökuməti alman kolonistlərinə ən yaxşı yerlərdə 13 min desyatin pay torpaqları ayırdı və yeni torpaqlarda təsərrüfatla məşğul olmaq üçün maddi yardım göstərdi. Köçkünlərin iqtisadi vəziyyətlərinin yaxşılaş-

ması Azərbaycan kəndlilərinin öz torpaqlarından sıxışdırılıb çıxarılması hesabına baş verirdi.

1804-1813-cü və ***1826-1828-ci illər*** Rusiya-İran müharibələri ərəfəsində və sonralar ermənilərin kütləvi surətdə İran, Osmanlı Türkiyəsi və Cənubi Azərbaycandan Cənubi Qafqaza, o cümlədən Qarabağ ərazisinə köçürülməsi baş verdi. Təkcə ***1826-1828-ci illər*** Rus-İran müharibəsinin gedişində İrandan və Azərbaycanın cənub ərazilərindən Cənubi Qafqaza, o cümlədən ***Qarabağa 18 min erməni ailəsi*** köçürüldü [143, s. 6]. Məlumdur ki, *1826-1828-ci illər* Rusiya-İran müharibəsinin Rusiya üçün qələbə ilə başa çatmasından sonra iki dövlət arasında bağlanmış ***Türkmənçay müqaviləsinə*** görə, ermənilərin maneəsiz olaraq İran ərazisindən Rusiya ərazisinə köçməsinə icazə verilmişdi. Bu akt ermənilərin İrandan Cənubi Qafqaza, o cümlədən Qarabağa kütləvi halda köçməsinə imkan verirdi. İki il ərzində, ***1828-ci ildən 1830-cu ilədək***, Cənubi Qafqaza ***40 mindən*** çox İran və ***84 min*** Osmanlı ermənisi köçürüldü və onlar erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara *200000 desyatindən* çox xəzinə torpağı ayrıldı [193, s. 59-60]. Yararlı torpaqların köçkünlərə verilməsi nəticəsində yerli azərbaycanlı kəndliləri torpaqlarının bir hissəsindən məhrum olurdular. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən əhalinin Cənubi Azərbaycandan Cənubi Qafqaz və əksinə sərbəst hərəkət etməsinə icazə verilməsi nəticəsində 8249 erməni ailəsi, təxminən 40000 nəfər erməni Araz çayını keçərək şimala üz tutdu [126, s. 58-59].

Şimali Azərbaycan ərazisində rusların məskunlaşması əsasən *1830-cu illərə* təsadüf edir. Belə ki, xidmət müddətləri başa çatan və Rusiyaya qayıtmaq istəməyən əsgərlər ailələri ilə birlikdə Azərbaycanda ilk rus yaşayış məntəqələrini saldılar. Məsələn, Şirvan alayının tərxis olunmus əsgərlərinin ailələri Bakı quberniyası Quba qəzasının Qusar kəndində yerləşdilər [477, s. 295]. Sonralar tərxis olunmuş əsgərlərin digər yaşayış məntəqələri isə

Şamaxı qəzasının Dmitrovka və Altıağac, Şuşa qəzasının Xankəndi, Lənkəran qəzasının Pravoslavnoye ərazisində meydana çıxmışdır [359, s. 2]. Lakin bütün Cənubi Qafqazda olduğu kimi, Şimali Azərbaycan ərazisində də rus yaşayış məskənlərinin əsas hissəsini *1830-cu illərin əvvəllərində* verilmiş xüsusi sərəncama əsasən Rusiyanın daxili quberniyalarından köçürülənlər təşkil edirdi. 30 - 40-cı illər ərzində rus təriqətçilərinin köçürülməsi baş verdi. Rusların məskunlaşdığı əsas ərazilər Şamaxı, Lənkəran, Yelizavetpol və Qazax qəzaları idi. Köçürmənin başlanmasından sonrakı ilk onillik ərzində Şamaxı qəzasında 8 - Cabanı, İvanovka, Qaraməryəm, Gülüllü, Mərəzə, Maryevka, Hilmilli, Çuxuryurd; Lənkəran qəzasında 6 - Andreyevka, Astraxanka, Nikolayevka, Novoqolovka, Prişib, Privolnoye; Qazax qəzasında 3 - Qolovino, Yeni Dilican, Mixaylovka və Yelizavetpol qəzasında 2 - Borisı və Slavyanka kimi rus kəndləri yarandı. Köçkünlər əsasən Tavriya, Stavropol, Tambov, Voronej, Saratov, Orenburq, Bessarabiya və hətta Yenisey quberniyalarından gələnlər idilər. Təxminən, XIX əsrin 50-70-ci illərində Rusiyanın daxili quberniyalarından Şimali Azərbaycana köçürmə dayandırıldı. Bu 30 il ərzində yeni rus məskənləri Şuşa qəzasında Ballıqaya kəndində, Yelizavetpol qəzasında Mixaylovka kəndində və Quba qəzasında Mixaylovka kəndində meydana gəlmişdir.

XIX yüzilliyin son 20 ilində Muğanda rus köçkünlərinin daha üç yaşayış məntəqəsi yarandı. *1887-ci ildə* gələcəkdə Cavad şəhəri yaratmaq üçün nəzərdə tutulan yerdə Petropavlovskoye, *1898-ci ildə* isə Yeni Araz bölgəsində Novo-Nikolayevka (Para-Nuru), Novo-Aleksandrovka (Bayramqulu) və Kaqerman kəndlərinin əsası qoyuldu [155, s. 92]. 50-70-ci illərdə daxili yerdəyişmə hesabına Şimali Azərbaycanda yeni rus yaşayış məntəqələri - Yelizavetpol qəzasında Novo-Saratovka, Cavad qəzasında Novo - İvanovka, Lənkəran qəzasında Veb, Naxçıvan qəzasında Kormalinovka (Biçənək) yarandı.

Hələ *1846-cı ildə* yeni yaşayış məntəqələrini təşkil etmək üçün komissiya yaradılmışdır. Bu komissiya həm artıq məskunlaşmış, həm də yeni gələn köçkünlərin daha yaxşı torpaqlarda yerləşdirilməsi sistemini işləyib hazırlamalı idi. XIX əsrin 80-cı illərinə qədər rus yaşayış məntəqələrinin sakinləri ilə yerli icmalar və yaxud sahibkarlar arasında torpaq sahələri üstündə mübahisələr baş verirdi. *1900-cü ilə* yaxın Azərbaycan ərazisində 41 rus kəndi: 25-i Bakı quberniyasında, 15-i Yelizavetpol quberniyasında, 1-i isə Naxçıvan qəzasında yaranmışdır. Şamaxı, Lənkəran və Yelizavetpol qəzalarının hər birində 8 kənd, Cavad qəzasında 4 kənd, Göyçay və Qazax qəzalarının hərəsində 3, Quba qəzasında 2, Cəbrayıl, Cavanşir, Zəngəzur, Şuşa və Naxçıvan qəzalarının hər birində isə 1 rus kəndi var idi. *1885-ci ildə* Azərbaycandakı 38 rus kəndində 4633 ailə: 3232-si Bakı quberniyasında, 1380-i Yelizavetpol quberniyasında və 21-i Naxçıvan qəzasında yaşayırdı. *1885-ci ildə* Şimali Azərbaycanın rus əhalisinin ümumi sayı 26285 nəfərə çatırdı. Rus köçkünlərinin torpaqla ən yaxşı təmin edilmiş kənd icmalarında hər ailəyə orta hesabla 52 desyatin düşürdü, bu torpaqla ən yaxşı təmin olunmuş yerli varlı kəndlinin torpaq payından xeyli çox idi [176, s. 115-203]. Rus köçkünlərinin Şimali Azərbaycanda torpaqla bu cür təmin olunması çarizmin müstəmləkəçilik siyasətinin təzahürü idi.

Torpağın əkilib-becərilməsi üçün rus köçkünləri yerli əhaliyə nisbətən daha təkmil alətlərlə - Rusiyadan gətirilmiş və yaxud özlərinin hazırladıqları kotanlarla şumlayırdılar.

5.XIX əsr Azərbaycan mədəniyyəti

XIX əsrin birinci yarısında müstəmləkə rejiminə baxmayaraq, mədəniyyətin ayrı-ayrı sahələrində müəyyən dəyişikliklər baş verirdi. Çarizmin maarif sahəsində siyasəti Azərbaycanda ruslaşdırma yolu ilə çarizmə sədaqətli məmurlar hazırlanmasına yönəlmişdir. ***1849-cu ildə*** Şimali Azərbaycanı da əhatə edən ***Qafqaz***

Tədris dairəsi yaradıldı. Rusiyanın təhsil sisteminin ilk pilləsi birillik *"**kənd məktəbləri**"*, sonrakı pilləsi ***qəza məktəbləri, gimnaziya, universitet*** və ***texniki ali məktəblər*** idi. Cənubi Qafqaz məktəbləri haqqında ***1829-cu il nizamnaməsinə*** görə Yelizavetpol, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan, Ordubad şəhərlərində və Qazax distansiyasında ***qəza məktəbləri*** açılmalı idi. *1830-cu ildə* ***ilk qəza məktəbi*** Şuşada, Bakıda *(1832)*, Nuxada *(1833)*, Yelizavetpolda *(1837)*, Naxçıvanda *(1838)* və Şamaxıda *(1838)* açılmışdır [4, s.139]. *1853-cü il* yeni məktəb nizamnaməsinə görə Quba və Ordubadda *(1854)*, Lənkəranda *(1856)* ***birsinifli ibtidai məktəblər*** açıldı. *1854-cü ildə* Şamaxıda ***ali dördsinifli məktəb*** təsis olundu. Bu məktəb *1859-cu il* Şamaxı zəlzələsindən sonra Bakıya köçürüldü. İlk dərsliklər 30-cu illərin sonlarında yazılmağa başlandı. Onlardan ən mükəmməli ***Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası"*** idi və məşhur Demidov mükafatına layiq görülmüşdür. *1832-ci ildə* ilk olaraq, A.Bakıxanov *dünyəvi müsəlman məktəbinin* təsis edilməsi haqqında layihə hazırlamışdır, lakin Qafqazın baş hakimi baron Rozen bu layihəyə əhəmiyyət vermədi. İbtidai təhsil yenə də mollaxanalarda keçirilirdi. ***1801-ci ildə Şuşada İbrahim xan məscidi*** nəzdində təşkil edilmiş ***məktəb*** əsrin ikinci yarısında da fəaliyyət göstərirdi. 30-cu illərdə Bakıda ***qız məktəbləri,*** orta ruhani məktəblərimədrəsələrlə yanaşı xüsusi fərdi məktəblər də fəaliyyət göstərirdi. ***Müsəlman məktəbləri*** canişinliyin baş rəisinə tabe idi. ***1847-1849-cu*** illərdə Tiflis və Şamaxıda ***şiə*** və ***sünni müsəlman məktəbləri*** açılmışdır. Məqsəd əhali arasında dini qarşıdurma yaratmaq idi. Lakin bu məktəblərin fəaliyyəti tədricən dayandırıldı. Yalnız Tiflis müsəlman məktəbi fəaliyyətini davam etdirdi. XIX əsrin birinci yarısında Azərbaycan elminin inkişafında müəyyən nailiyyətlər əldə edilmişdir. Tarixçilərdən *Kərim ağa Şəkixanovu* ("Şəki xanlarının tarixi"), *Mirzə Adıgözəl bəyi* ("Qarabağnamə"), *Mirzə Camalı* ("Qarabağ tarixi"), *İsgəndər bəy Hacınskini* ("Qubalı Fətəli xanın həyatı"), *Abbasqulu ağa Bakıxanovu*

("Gülüstani İrəm") göstərmək olar. A.Bakıxanovun "Gülüstani İrəm" əsərində *(1841)* Azərbaycan tarixi ilk dəfə bir tam halında nəzərdən keçirilir və tarix dövrləşdirilirdi. Bu əsər ilk dəfə *1923-cü ildə* türkcə, *1926-cı ildə* isə rus dilində nəşr edilmişdir. *A.Bakıxanov* və *M.Ş.Vazeh* Azərbaycanın *fəlsəfi fikir* tarixində böyük rol oynamışlar. Bu dövrdə Azərbaycan şərqşünaslarından *Mirzə Cəfər Topçubaşov* və *Mirzə Kazımbəy* daha çox şöhrət qazanmışlar. Peterburq Universitetinin İran ədəbiyyatı kafedrasının müdiri olmuş M.C.Topçubaşov həm də Asiya departamenti nəzdindəki Şərq Dilləri institutunun professoru idi. O, 15 il *(1852-1867)* Rusiya Arxeologiya Cəmiyyətinin Şərq Sikkəşünaslıq şöbəsinə rəhbərlik etmiş, Şərq tarixi və ədəbiyyatına dair elmi əsərlər yazmışdır. "Krım sonataları" poemasını fars dilinə tərcümə etmiş M.C.Topçubaşovun adına ölümündən sonra təsis edilmiş mükafat hər il müsabiqə əsasında yaxşı əsər yazmış universitet məzunlarına və tələbələrə verilirdi. O, Böyük Britaniya Kral Cəmiyyətinin həqiqi üzvü seçilmişdir. Mirzə Kazımbəy də Kazan Universitetinin professoru, kafedra müdiri, dekanı olmuş, 3 Avropa dilini bilirdi, *1849-cu ildən* Peterburq Universitetində şərqşunaslıq fakültəsinin açılmasına *(1853)* nail olmuş, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Böyük Britaniya Kral Cəmiyyətinin həqiqi üzvü seçilmişdir. Azərbaycan-türk dilində ilk qəzet: *1832-ci ildə* ***"Tiflisskiye vedomosti"*** qəzetinin ***"Tatar xəbərləri"*** adlı əlavəsi, *1841-1846-cı illərdə* ***"Zaqafqazskiy vestnik"in*** Azərbaycan türkcəsində ***"Qafqazın bu tərəfinin əxbarı"*** nəşr olunmağa başlamışdır. Bu dövrdə *A.Bakıxanov, M.Ş.Vazeh, Q.B.Zakir* və *İ.B.Qutqaşınlının* Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olmuşdur. Azərbaycanda təsviri, dekorativ və tətbiqi incəsənət də inkişaf etmişdir. *Mirzə Qədim İrəvani (1825-1879)* təsviri incəsənətin, *Məhəmməd Rza İrəvani* miniatür rəssamlığının, *Qarabağlı Qənbər* dekorativ incəsənətin görkəmli nümayəndələri idilər.

XIX əsrin ikinci yarısında Azərbaycan mədəniyyəti. Şimali Azərbaycanın işğalından sonra Şimali və Cənubi Azərbaycanın mədəni inkişafında fərqlər nəzərə çarpmağa başladı. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda mədəniyyətin xarakterik xüsusiyyətləri bunlar idi: 1) yeni tipli məktəblərin və mədəni-maarif müəssisələrinin, milli mətbuatın və milli teatrın yaranması; 2) qabaqcıl ziyalıların xalqın milli şüurunun oyanmasına ideya təsirinin güclənməsi. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda: 1.Yüzlərcə milli məktəb və mədrəsələr fəaliyyət göstərirdi. 2. Bakı, Şamaxı, Şuşa, Nuxa və d. şəhərlərdə ədəbi dərnəklər, məclislər təşkil edilirdi. 3. Məktəblərlə yanaşı, ruhani məktəbləri-mədrəsələr də fəaliyyət göstərirdi. İbtidai və ali dərəcələrə bölünən mədrəsələrdə təhsil pulsuz idi. 4. Avropa təhsili görmüş milli ziyalılar nəsli yetişməyə başlamışdır. Belə ziyalılardan Rusiyada ali təhsil almış ilk azərbaycanlı *Ağa bəy Yadigarov*, Almaniyada təhsil almış *Məmmədağa Şahtaxtinski* idi; 5. "Üsuli-cədid" (yeni üsul) adlı ictimai-pedaqoji hərəkat geniş yayılmışdır. Bu məktəblərdə ilk dəfə olaraq təlim ana dilində aparılırdı, təhsil planına ümumtəhsil xarakterli fənlər daxil edilirdi. Bu tədris üsulunun əsas prinsiplərindən biri hərf-heca üsulundan daha səmərəli səs üsuluna keçid idi. *1869-cu ildə* görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvani Şamaxıda yeni tipli məktəb açmışdır. Görkəmli pedaqoqlar Həsənəli Qaradağı, Mir Möhsün Nəvvab və C.Fətəlibəyovun Şuşadakı, Mirzə İsmayıl Xasirin Lənkərandakı məktəbləri dünyəvi xarakter daşıyırdı. Yeni tipli məktəblərin yayılmasında *1882-ci ildə* Ordubadda "Əxtar" ("Ulduzlar"), Naxçıvanda *1894-cü ildə* "Tərbiyə", *1896-cı ildə* isə ilk dünyəvi qadın məktəblərini açmış Məmmədtağı Sidqinin də (Səfərovun) böyük xidmətləri olmuşdur [4, s. 351]. 6. Ana dilində ilk dərsliklər və dərs vəsaitləri hazırlanmışdır. *1882-ci ildə* rus-tatar məktəblərində A.O.Çernyayevski tərəfindən "Vətən dili" dərsliyi, *1887-ci ildə* Yelizavetpol quberniyasının Qaryagin qəzasındakı Qarğabazar məktəbinin müəllimi A.Tahi-

rov tərəfindən "Tatar dili rəhbərliyi", *1890-cı ildə* isə Şükrulla Məhərrəmzadə Qarabağı tərəfindən "Hərflər və xətlər kitabı" tərtib olunmuşdur. *1890-1894-cü illərdə* S.M.Qənizadənin "İslahi-Azərbaycan" ana dili dərsliyi, *1898-ci ildə* R. Əfəndiyevin "Uşaq bağçası" müntəxəbatı, *1899-cu ildə* N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" çap olunmuşdur. 7. *1872-ci il 13 may* Əsasnaməsinə görə qəza məktəbləri altı illik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrilmişdir. 8. İbtidai məktəblər haqqında *1874-cü il 24 may* Əsasnaməsi iki məktəb tipini təsdiq etmişdir: üçillik təhsil kurslu birsinifli və beşillik təhsil kurslu ikisinifli məktəblər ilk dəfə olaraq kənd əhalisi üçün xalq məktəbləri adı ilə meydana gələn ibtidai kənd məktəbləri yaranmışdır. 9. XIX əsrin 80-ci illərindən başlayaraq rus-tatar (Azərbaycan) məktəbləri yaranmağa başlandı. Məqsəd şagirdləri orta məktəbə hazırlamaq idi. *İlk* ***rus-Azərbaycan məktəbinin*** əsası ***1887-ci ildə*** Bakıda ***H.Mahmudbəyov*** və ***S.M.Qənizadə*** tərəfindən qoyulmuşdur. Bu məktəblərdə tədris rus dilində olsa da, *1881-ci il* Əsasnaməsinə müvafiq olaraq birinci tədris ilində Azərbaycan dili məcburi fənn kimi keçilirdi. 10. XIX yüzilliyin 80-90-cı illərində bir sıra *sənət məktəbləri* Bakıda, Gəncədə, Zaqatalada və digər bölgələrdə açılmışdır. *1881-ci ildə* ilk peşə təhsili müəssisəsi olan Bakı dənizçilik sinfi açıldı. Azərbaycanda ilk sənət məktəbi kənd təsərrüfatı işinin, o cümlədən ipəkçiliyin, həmçinin bostançılıq, bağçılıq və s. öyrədilməsi məqsədilə Zaqatala *(1882-ci ildə)* və Yelizavetpolda *(1884-ci ildə)* açılmışdır. Bakıda sənət məktəbi *1888-ci ildə* açılmışdır, lakin təhsil səviyyəsinin zəif olması *1896-cı ildə* onun mexanika və kimya şöbələri olan aşağı texniki məktəbə (BATM) çevrilməsinə səbəb oldu. *1896-cı ildə* Mərdəkan kəndində məşhur mesenat sahibkar H.Z.Tağıyev tərəfindən bağbanlar hazırlayan birinci xüsusi məktəb açıldı. İkinci bağçılıq məktəbi xəzinənin xərci hesabına *1899-cu ildə* Qubada açıldı. *1896-cı ildə* Bakıda A. E. Yermolayeva tərəfindən ilk musiqi məktəbi, *1897-ci ildə*

Y.P.Şiltsova tərəfindən rəssamlıq məktəbi açıldı. *1893-cü ildə* fəhlələrin maariflənməsi üçün Bakı bazargünü məktəbi, *1897-ci ildə* qadınlar üçün Bakı bazargünü məktəbi açıldı. *1899-cu ilin sonunda* burada 138 qadın təhsil alırdı [4, s. 356-359]. 11. *1865-ci ildə* Bakıda *ilk dörd sinifli ali məktəb* yarandı və Azərbaycanda ilk gimnaziyanın təşkil olunması üçün əsas oldu. *1871 - 1872-ci illərdə* təsdiq olunan yeni nizamnamələrə görə, bütün gimnaziyalar klassik istiqamət aldı, real gimnaziyalar isə realnı məktəblərlə əvəz olundu. Real təhsil alanlara ancaq xüsusi ali ixtisas məktəblərinə daxil olmaq imkanı yaradılırdı. 12. *İlk qadın* və *kişi gimnaziyaları* açıldı. *1874-cü ildə* Bakıda açılan ilk qadın gimnaziyası *1883-cü ildən* Mariya adı altında fəaliyyət göstərirdi. Bakıda Müqəddəs Nina qadın təhsil müəssisəsi isə *1897-ci ildə* orta məktəbə çevrildi. Eyni adlı cəmiyyətin qadın progimnaziyası *1899-cu ildə* Yelizavetpolda (Gəncədə) yaradıldı. *1896-cı ildə* Bakıda A.Pobedonostsevin xüsusi progimnaziyası əsasında birinci kişi gimnaziyası açıldı [4, s. 355]. 13. *1876-cı ildə* ***Qori Müəllimlər Seminariyası*** təşkil olundu. 14. *1879-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi* açıldı. Azərbaycan şöbəsinin məzunları (Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə və b.) kənd məktəblərində yerli uşaqlara təhsil verirdilər. 15. *İlk kitabxana-qiraətxanalar* məktəblərin nəzdində yaradıldı. *1896-cı ildə* Yelizavetpol quberniyasının 29 yaşayış məntəqəsindəki məktəb kitabxanalarından hamının istifadə etməsinə icazə verildi. Məktəblərdən kənarda yerləşən ilk kütləvi kitabxanalardan biri *1859-cu ildə* Şamaxı və Şuşada, *1868-ci ildə* Gəncədə, sonralar - 80-ci illərdən - Bakı, Quba, Salyan və Lənkəranda təşkil edilmişdir. *1897-ci il* ərəfəsində Bakıda onların sayı 8-ə çatırdı. *1894-cü ildə* Bakıda ***S.Vəlibəyov, H.Mahmudbəyov, S.Qənizadə, Ə.Axundov*** və ***Ə.Cəfərzadənin*** yaxından iştirakı ilə ***N.Nərimanov*** tərəfindən ***ilk Azərbaycan qiraətxanası***, *1897-ci ildə* isə qiraətxananın nəzdində kitabxana təşkil edildi. Xalq arasında "Nərimanovun qiraətxanası" adını al-

mış bu kitabxananın kitab fondunda müxtəlif dillərdə ədəbiyyat var idi. *1896-cı ildə* Rus texniki Cəmiyyətinin Bakı şöbəsi fəhlələr üçün Qaraşəhərdə (Azərbaycanda ilk pulsuz kitabxana-qiraətxana), sonra isə Balaxanı *(1897-ci ildə),* Ağşəhər və Bibiheybətdə də *(1900-cü ildə)* pulsuz kitabxana-qiraətxanalar açdı. *1898-ci ildə* Neft sənayeçiləri Qurultayının Sabunçudakı xəstəxanası nəzdində kiçik kitabxana açıldı. *1895-ci ildə* təkcə Bakıda 14 kitab mağazası və dükanı vardı [4, s. 359-361] Bu məktəblər və kitabxanalar əhalinin aşağı təbəqələrini müsəlman-türk mədəniyyətinə cəlb edir, onlarda milli özünüdərketmə hissinin oyanmasına zəmin yaradırdı.

Milli mətbuatın təşəkkülü. XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanın mədəni həyatında ən mühüm hadisə dövri Azərbaycandilli ***mətbuatın*** meydana gəlməsi idi. Azərbaycanda ***milli mətbuatın*** əsası görkəmli ziyalı ***Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də*** nəşrinə başladığı ***"Əkinçi"*** qəzeti ilə qoyulmuşdur. ***1877-ci ilədək*** qəzetin ***56 nömrəsi*** çapdan çıxmışdır. H.Zərdabi tədricən "Əkinçi"nin ətrafında S.Ə.Şirvani, N.Vəzirov, A.Adıgözəlov, Moskvada Petrovski Kənd Təsərrüfatı Akademiyasında ali təhsil almış Əsgər ağa Gorani, Hacı Məmədsadıq (Əbülhəsən Həvail), Mirzə Həsən Əl-qədəri, Ələkbər Heydəri, Məhbus (Əli Mədəd) Dərbəndi, M.F.Axundov və başqalarını birləşdirdi. "Əkinçi" mütərəqqi maarifçi qəzet olaraq, demokratik ideyaları təbliğ edir, mövhumata, cəhalətə və avamlığa qarşı çıxır, Azərbaycan gerçəkliyinin bir çox zəruri problemlərini qaldırırdı. Bu qəzetin əsas məqsədi xalqı maarifləndirmək idi. "Əkinçi" qadın təhsilinin, qadınların ictimai həyata cəlb olunmasının zəruriliyini müdafiə edən ilk Azərbaycan qəzeti idi. Azərbaycan milli publistika dilinin yaradılmasında bu qəzetin böyük xidməti olmuşdur [4, s. 362-363]. *1879-cu il yanvarın 16-da* Tiflisdə Azərbaycan dilində ***"Ziya"*** qəzeti çıxmağa başladı. Qəzetin *1880-ci ilə qədər* 76 nömrəsi buraxılmışdı. *1880-cı il dekabrın 6-dan 1884-cü il iyunun 1-dək* bu qəzet ***"Ziyayi Qafqa-***

ziyyə" adı altında nəşr olundu. Bu müddət ərzində qəzetin 104 nömrəsi çıxdı. *1880-ci ildə* Tiflisdə Cəlal Ünsüzadə tərəfindən ***"Kəşkül"*** adlı yeni qəzet işıq üzü gördü. Qəzet öz ideya istiqamətinə görə ***"Əkinçi"***yə yaxın idi, lakin daha çox jurnala oxşayırdı. O, siyasət, ticarət, sənaye, sənətkarlıq və mədəniyyət məsələlərinə toxunurdu. Azərbaycan dilində nəşri ilə yanaşı, bir müddət bu qəzetin ərəb və fars dillərində variantları da çap edilmişdir. *1884-cü il yanvarın 1-dən 1891-ci ilədək* "Kəşkül" həftəlik qəzet kimi nəşr edildi. S.Ə.Şirvani, F.Köçərli, M.Şahtaxtlı, A.Qayıbov və başqaları qəzetlə fəal surətdə əməkdaşlıq edirdilər [4, s. 364-365]. *1880-1890-cı illərdə* Bakıda rus dilində *"Kaspi", "Baku"* və b. qəzetlər nəşr olunurdu. Beləliklə, XIX yüzilliyin sonunda Azərbaycanda mətbuat ilk addımlarını atmasına baxmayaraq, 25 il ərzində sürətlə inkişaf etmişdir. Bu illərdə 10 yaxşı həm azərbaycandilli, həm rusdilli mətbu orqanları işıq üzü görmüş, Azərbaycan publisistikasında isə yaradıcı bir nəsil öz fəaliyyətini başlamışdır.

İncəsənətin inkişafı: teatr, musiqi, memarlıq. XIX yüzilliyin ikinci yarısında Azərbaycanın mənəvi həyatında mühüm hadisə kimi ***milli teatrın*** əsasının qoyulması oldu. *1873-cü il martın 10-da (23-də)* Bakı realnı məktəbinin müəllimi H.Məlikov-Zərdabi və onun şagirdi Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə həvəskar teatr truppası tərəfindən görkəmli dramaturqumuz ***Mirzə Fətəli Axundovun*** *"Sərgüzəşti vəziri-xani Lənkəran"* komediyasının tamaşaya qoyulması ilə *milli teatrımız* yarandı. Həmin il aprelin 17-də isə ikinci tamaşa - M.F.Axundovun *"Hacı Qara"* komediyası oynanıldı. Xalqımızın böyük oğlu, xeyriyyəçi, görkəmli mesenat ***H.Z.Tağıyev*** *1883-cü ildə* Bakıda *teatr binası* tikdirdi. Qısa müddət ərzində Bakıda bir sıra istedadlı teatr xadimləri yetişdi: Cahangir Zeynalov, Həbib bəy Mahmudov, Nəcəfqulu Vəliyev və b. Qubada *(1875),* Nuxada *(1879)*, Şuşada *(1882)*, Naxçıvanda *(1883)*, İrəvanda *(1886)*, Gəncədə *(1899)* və digər şəhərlərdə teatr tamaşalarının qoyulması təşkil edildi. Qa-

dınları truppaya cəlb etmək mümkün deyildi, ona görə də qadın rollarını kişilər oynamalı olurdu. *1895-ci il yanvarın 15-də* H.Z.Tağıyev teatrının səhnəsində qoyulan tamaşalar Azərbaycan dilində səslənirdi. *1895-ci ildə* Azərbaycanın teatr xadimləri *"Bakı artistlər cəmiyyəti"ni* yaratdılar. XIX əsrin ikinci yarısında musiqidə də böyük canlanma baş verdi.

XIX yüzilliyin ikinci yarısı Azərbaycan ***musiqi*** sənəti iki istiqamətdə: 1) aşıq, xanəndə və sazəndə ansambllarının yaradıcılığı ilə təmsil olunan çoxəsrlik şifahi xalq ədəbiyyatı ənənələri hesabına; 2) Avropa və rus mədəniyyətinin təsiri altında inkişaf edirdi. Azərbaycan musiqi folklorunun aparıcı janrları xalq mahnıları və rəqsləri idi. Bizim dövrümüzə qədər gəlib çatmış mahnılardan "Qalanın dibində", "Bu gələn yara bənzər", "Ay bəri bax, bəri bax", "Ay Laçın" və s., rəqslərdən "Turacı", "Uzundərə", "Tərəkəmə", "Mirzəyi", "Qaytağı", "Əsgərani", "Yallı", "Cəngi" kimi rəqsləri göstərmək olar. Xalqın həyatı ilə sıx bağlı olan musiqili-poetik aşıq yaradıcılığı şifahi ənənəvi peşəkar xalq sənətinin digər qolu idi. Peşəkar yaradıcı aşıq özündə eyni zamanda şairi, hekayəçini və musiqiçini təcəssüm etdirirdi. İki, bəzən isə hətta üç aşığın yaratdığı və birgə ifa etdiyi mahnı-dialoqlar-deyişmələr aşıq yaradıcılığının maraqlı səhifələrindən birini təşkil edirdi. Peşəkar aşıqlardan ***Aşıq Alı, Aşıq Ələsgər, Molla Cuma, Abbasqulu, Nəcəfqulu*** və bir çoxları böyük şöhrət qazanmışdılar. ***Tarzən Sadıq (Sadıqcan) Əsəd oğlu*** tarı təkmilləşdirmişdir. Xanəndələrdən ***Xarrat Qulu, Hacı Hüsü, Məşədi İsi, Keçəçi Məhəmməd, Ələsgər Abdullayev, Cabbar Qaryağdıoğlu, Əli Palaz oğlu, Məcid Behbudov*** və b. muğam sənətinin inkişafında misilsiz xidmətlər göstərmişdilər. Bakı musiqiçiləri öz qüvvələrini birləşdirmək üçün *1895-ci ildə* teatr və musiqi şöbələri, həvəskar orkestr yaratdılar. Bu orkestr F.Parizekin başçılığı altında *1897-ci ildə* Bakıda *ilk simfonik konsert* verdi. *1896-cı ildə* "Nobel qardaşları" şirkətinin işçiləri orkestri olan *musiqi dər-*

nəyinin əsasını qoydular. Eyni zamanda *A.A.Lampenin* rəhbərlik etdiyi 50 nəfərlik *xalq xoru* təşkil olunmuşdur.

XIX yüzilliyin ikinci yarısında Azərbaycan ***memarlığının*** inkişafı bir sıra şəhərlərdə "nizami" planlaşdırmaya və onların abadlığının yaxşılaşdırılmasına səy edilməsi ilə müşahidə olunurdu. Azərbaycanda şəhərsalma və memarlığın inkişafının başlıca xüsusiyyətlərindən biri tikintidə plan-*kompozisiya* və *bədii memarlıq* elementlərindən istifadə olunması idi. Bu, binaların fasadlarının xüsusi bəzəyində, eyvanlar, parad kirişləri, ikiqat pilləkənlər və s. quruluşunda da nəzərə çarpır. XIX əsrin sonunda Abşeronda kurort zonasına çevrilmiş Mərdəkan kəndində qısa müddət ərzində çoxlu villalar və yaylaq evləri inşa edilməyə başladı. *1897-1901-ci illərdə* sənayeçi Muxtarovun villası (indiki Azərbaycan MEA Dendroloji parkı) ilə yanaşı, Əsədullayevin villası da tikildi. Dövrün ən görkəmli memarı olan ***Qasım bəy Hacıbababəyov*** Bakıda Parapet adlı mərkəzi meydanın tikintisini həyata keçirdi, böyük *karvansaray* (indiki "Araz" kinoteatrı) inşa etdi. *1898-ci ildə* görkəmli memar İ.V.Toslavskinin layihəsi üzrə ***H.Z.Tağıyevin*** xüsusi müsəlman ***qız məktəbinin*** inşasına başlandı. H.Z.Tağıyevin vəsaiti ilə hələ *1883-cü ildə* tikilmiş *teatra 1898-ci ildə* onun adını daşımasını bildirən lövhə əlavə olundu. Əsas fasadı küçəyə doğru yönələn yaşayış binalarının daxili planlaşdırılması da dəyişmişdir. Fasadlarda böyük pəncərələr, geniş küçə eyvanları və ifadəli bəzək ünsürləri geniş tətbiq olunurdu. *1865-ci ildə dənizkənarı bulvar* salınmağa başlandı. *1896-cı ildə* isə Bakının *ikinci qala darvazası* tikilmişdir. Onun inşaatçısı Kərbəlayı Məmmədhəsən Hacı Mahmud oğlu olmuşdur. O zaman Azərbaycanın başqa yerlərində əsasən inzibati və dini məqsədli binalar tikilirdi. Məsələn, keçmiş Qarabağ xanının nəslinin nümayəndələrindən biri olan Gövhər ağanın sifarişi ilə *1883-cü ildə Şuşada* Azərbaycan memarı Kərbəlayı Seyfxan tərəfindən *məscid* tikilmişdir. *1888-ci ildə* isə Məşədi İbrahim oğlu *Xızıda yeni məscid* inşa etmişdir [4, s. 406-410].

XIX əsrin ikinci yarısında milli mədəniyyət yeni formalarda inkişaf edir, öz tətbiqini divar nəqşlərində, kitab illüstrasiyalarında, təsviri sənət əsərlərində, xalçaçılıqda, daş üzərində oymalarda, insan, heyvan və məişət əşyalarının təsviri olan qəbir daşlarında tapırdı. Yeni realist meyillər yaranmaqda olan *portret janrında* təzahür edirdi. Dövrün görkəmli rəssamlarından xəttat, nəqqaşçı-rəssam olan ***Mir Mövsüm Nəvvab*** "Quş", "Güllər" miniatürlərini və "Teymurun portreti"ni çəkmişdir. ***Mirzə Qədim İrəvani*** "Cavan adam", "Oturmuş qadın", "Abbas Mirzə", "Şah Tələt" və s. portret rəsmləri ilə təsviri rəssamlıq sənətini zənginləşdirmişdir. Məşhur Azərbaycan şairəsi ***Xurşid-banu Natəvan*** çox gözəl bədii tikmə ustası, xəttat və rəssam idi. Onun şeirlərinin əlyazmalarından ibarət albomunda 80-ə yaxın rəsm əsəri: "Bülbül və qızıl gül", "Şam və pərvanə", "Şəhərin görünüşü", "Dəniz peyzajı" öz üslubuna görə qeyri-adi və orijinal olan kiçik rəsmləri saxlanılmışdır. Azərbaycanın xalq ustaları və rəssamları XVIII yüzilliyin divarüstü rəsm sənətinin ənənələrini davam etdirərək, Şəki, Şuşa, Quba, Lahıc və Ordubadda, habelə digər şəhərlərdə formaca maraqlı və məzmunca orijinal saray tikililərinin, evlərin interyerini bəzəyən bir sıra naxışlı və süjetli kompozisiyalar yaratmışdılar. XIX əsrin ikinci yarısında Azərbaycanın divarüstü naxış sənətinin inkişafında şamaxılı ustalar Mirzə Cəfər, Əliqulu və Qurbanəli, Usta Qəmbərin şagirdləri - Şəki Xan sarayının, habelə Azərbaycanın bir sıra şəhərlərində yaşayış evləri və ictimai tikililərin interyerini bəzəmiş Səfər və Şükür müəyyən rol oynamışdılar. Adları çəkilən rəssam və xalq ustalarının yaradıcılığı mənəvi mədəniyyətin digər sahələrində olduğu kimi, Azərbaycan incəsənətində də özünəməxsus realist meyillərin aşkara çıxdığına dəlalət edir [4, s. 394-397].

XIX əsr bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafında çox mühüm mərhələ olmuşdur. Çarizmin bütün müstəmləkəçilik siyasətində milli şüurun inkişafının qabağını almaq cəhdlərinə baxmayaraq, Şimali Azərbaycanda dünyəvi məktəb sistemi

formalaşmış, Azərbaycan milləti Rusiya və Avropa mədəniyyətinin töhfələrindən bəhrələnməyə başlamış, dünya elm və mədəniyyətinə Mirzə Cəfər Topçubaşov və Mirzə Kazım bəy, Seyid Əzim Şirvani və Mirzə Ələkbər Sabir kimi dühalar bəxş etmişdir.

6.Cənubi Azərbaycan XIX əsrin ikinci yarısında

Cənubi Azərbaycanda XIX əsrin ikinci yarısında təbii-coğrafi şərait əkinçiliyin, maldarlığın inkişafına əlverişli şərait yaradırdı. Cənubi Azərbaycanda torpaqların əsas hissəsini *xalisə* adlanan *dövlət torpaqları* təşkil edirdi. *1886-cı ildə* şah dövlət torpaqlarının satılması haqqında Fərman verdi. İri feodallar, xüsusən ruhanilər taxıl möhtəkirliyi ilə məşğul olurdular. Kəndlilər dövlətə vergi verirdilər. Dövlət vergisi bir qayda olaraq *paydar kəndlilərin* ümumi məhsulundan alınırdı. Kəndlilər dövlətə a) torpaq vergisi; b) baş pulu; c) "sərkəllə" (yarımköçəri həyat sürən maldarlar heyvanların sayına görə); d) "qapı pulu" (otlaqlara görə) və s. vergilər verirdilər. Kəndlilər əsas vergilərlə yanaşı, hərbi mükəlləfiyyətlər də daşıyırdılar. XIX əsrin 70-80-ci illərində Cənubi Azərbaycanda tacirlərin sayı artır, fəaliyyət dairəsi genişlənirdi. Onlar həm də sələmçiliklə məşğul olurdular. Xarici malların ölkəyə axını komprador burjuaziyanın (daxili bazarla xarici şirkətlər arasında vasitəçilik edən) inkişafı üçün şərait yaradırdı. Cənubi Azərbaycan kəndinə *xarici kapital,* xüsusilə də rus kapitalı nüfuz edirdi. *1891-ci ildə* şah hökuməti tütün və tənbəki istehsalını ingilis kapitalisti Talbotun inhisarına vermişdir. Cənubi Azərbaycandan kəndlilərin kəsbkarlığa getməsi kütləvi şəkil almışdır. Xaricə iş dalınca gedənlərin əksəriyyəti Türkiyəyə, Cənubi Qafqaza (başlıca olaraq Şimali Azərbaycana), Volqaboyuna, Mərkəzi Asiyaya və s. yerlərə gedirdi. Onlar getdikləri yerlərdə *"qara fəhlə"* kimi çalışır və yerli fəhlələrdən xeyli az maaş alırdılar. XIX əsrin 70-90-cı illərində Cənubi Azərbaycanda tez-tez çıxış və üsyanlar baş verirdi. *1872-ci ildə* Təbrizdə vi-

layətin valisinə qarşı baş vermiş üsyan *1881-ci ildə* onun Cənubi Azərbaycandan qovulması ilə nəticələndi. 1898-ci ilin avqust-sentyabr aylarında ***Zeynəb paşa*** adlı qadının rəhbərliyi ilə ***Təbrizdə üsyan*** baş verdi. Üsyan taxıl möhtəkirliyinə qarşı yönəlmişdir. *1892-ci ildə* İranın bir çox yerlərində, o cümlədən Təbrizdə baş verən üsyan nəticəsində şah hökuməti tütün və tənbəki istehsalı üzərində ingilis Talbotun inhisar hüququnu geri alaraq onunla imzalanmış müqaviləni ləğv etdi.

XIX əsrdə Cənubi Azərbaycan mədəniyyəti. Türkmənçay müqaviləsi bağlandıqdan sonra Azərbaycanın şimalı və cənubu müxtəlif sosial-iqtisadi və mədəni inkişaf yoluna qədəm qoydu. XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanda dövlət elm və maarifin inkişafına az diqqət yetirirdi. Ölkədə orta və ali təhsil ocaqları olan *mədrəsələr* fəaliyyət göstərirdi. Şagirdlər təhsil aldıqları müddətdə *(10-12 il)* mədrəsələrdə yaşayırdılar. Bir neçə yeni tipli məktəbin açılması vətənpərvər ziyalıların səyləri nəticəsində mümkün olmuşdur. Cənubi Azərbaycanda tarixşunaslıq elmi sahəsində bir sıra əsərlər yazılmışdır. ***Məhəmməd Rəzi*** "Zinət üt-təvarix", ***Məhəmməd Sadıq*** "Cahan", ***Əbdürrəzzaq Dünbuli*** "Hökmdarın şanlı işləri" adlı əsərlərlə tarix elmini inkişaf etdirmişlər. XIX əsrin ikinci yarısında Şimali Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycanda milli mədəniyyətin zəif cəhəti onun hələ də fars dili ənənəsi çərçivəsindən çıxa bilməməsində idi. Şimaldan fərqli olaraq Cənubi Azərbaycan ziyalıları doğma dilin ədəbiyyat, mətbuat və publisistikada hakim dilə çevrilməsi uğrunda mübarizə aparmırdılar. Buna baxmayaraq maarif və mətbuat sahələrində böyük irəliləyişlər nəzərə çarpırdı. *1869-cu ildə* Təbrizdə *"Mədrəseyi-Nasiri", 1877-ci ildə Təbriz Dövlət Mədrəsəsi, 1878-ci ildə* Urmiyada *Ali Tibb Məktəbi* açılmışdır. "İran maarifinin atası" adlandırılan Mirzə Həsən Rüşdiyyə *1888-ci ildə* Təbrizdə *"Debestan" adlı ilk üsuli-cədid məktəbini* təsis etmişdir. Cənubi Azərbaycanda mətbuatın əsası *1858-ci ildə* nəşrə başlayan *"Azərbaycan"* qəzeti ilə qoyuldu.

1880-cı ildə "Təbriz", 1884-cü ildə "Mədəniyyət" adlı qəzetlərin nəşrinə başlandı. Mühacirətdə olan azərbaycanlı ziyalıların İstanbulda nəşr etdirdikləri *"Əxtər" (1875)* və *"Şahsevən"* qəzetləri də geniş şöhrət qazanmışdır.

XRONOLOJİ CƏDVƏL

1801; 1809; 1812, 14 mart; 1814, 25 noyabr – İngiltərə ilə İran arasında siyasi və ticarət müqavilələrinin bağlanması.
1801, 12 sentyabr – Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında Manifest.
1802, sentyabr – General P.D.Sisianovun Qafqazın baş komandanı təyin edilməsi.
1802, 26 dekabr – Georgiyevski müqaviləsi.
1803, 29 mart – Qanıq (Alazan) çayı sahilində döyüş. Carın fəth olunması.
1803, 12 aprel – Car-Balakən camaatının Rusiyanın hakimiyyəti altına keçməsi barədə saziş - "Andlı öhdəlik".
1804, 2-3 yanvar – Rus qoşunlarının Gəncəni fəth etməsi. Cavad xan və oğlu Hüseynqulu ağanın həlak olması. Gəncənin Yelizavetpol adlandırılması.
1804, 2 iyul – İrəvan xanlığı Eçmiədzin yaxınlığında döyüşdə rus qoşunlarının qələbəsi.
1804, 10 iyul – Rusiya ilə İran arasında diplomatik əlaqələrin kəsilməsi. Rus-İran müharibəsinin başlanması.
1804, 29-30 iyul - 4 sentyabr – İrəvan xanlığı Qəmərli kəndi yanında döyüşdə rus qoşunlarının məğlubiyyəti.
1804-1813, 1826-1828 – Rus-İran müharibələrinin gedişində ermənilərin İran, Osmanlı imperiyası və Cənubi Azərbaycandan Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi.
1805, 14 may – Qarabağ xanı İbrahimxəlil xanla P.D.Sisianov arasında imzalanan Kürəkçay müqaviləsi.

1805, 21 may – Şəki xanlığının Rusiyanın himayəsinə keçməsi haqqında müqavilə.
1805, yay kompaniyası – İran qoşunlarının məğlubiyyəti.
1805, 23 iyun – Rus donanmasının Rəştə uğursuz yürüşü, avqustun 22-dən - 29-dək Bakı xanlığının mühüm strateji məntəqələrinin tutulması.
1805, 27 dekabr – Samaxı xanı Mustafa xanla P.D.Sisianov arasında müqavilə.
1806, 8 fevral – General P.D.Sisianovun Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürülməsi.
1806, yaz – yay kompaniyası – Abbas Mirzənin qoşunlarının Qarabağ və Şirvanı işğal etməsi.
1806, 22 iyun – Rus qoşunlarının Dərbəndi tutması.
1806, sentyabr – Bakı və Quba xanlıqlarının Rusiyaya tabe edilməsi.
1806, 22 oktyabr – Şəkili Səlim xanın məğlubiyyəti.
1806, qış – Baş komandan general İ.V.Qudoviçin Qarabağın idarə olunması haqqındakı Fərmanı.
1806-cı ilin sonu – Talış, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan ərazisinin Rusiyanın hakimiyyəti altına keçməsi.
1806-cı ilin sonu – Osmanlı - Rusiya müharibəsinin başlanması.
1807, 4 may – Finkenşteyndə Fransa-İran müqaviləsi.
1807, 18 iyun – Rus və Osmanlı qoşunları arasındakı döyüş.
1808 – Rus qoşunlarının sentyabrın 4-də Pəmbəkə yürüşü, sentyabrın 26-da Eçmiədzini ələ keçirməsi. General P.Nebolsinin oktyabrın sonunda Qarababa döyüşündə qələbəsi. Naxçıvanın tutulması.
1808 – Abbas Mirzənin Naxçıvanı tutaraq, rus qoşunlarını Qarababa döyüşündə məğlub etməsi. V.Qudoviçin istefası.
1809, iyul – İran qoşununun Qarabağ və Pəmbəkə, Göyçə (Sevan) gölünə yürüşləri.

1809, sentyabr – İran qoşununun Talış xanlığına hücumu. Lənkəranın talan edilməsi.
1810, iyun – İran qoşunlarının Qarabağ, Gəncə və Pəmbəkə, Mehriyə yürüşü.
1810, 15 iyun – P.S.Kotlyarevskinin Mehrini ələ keçirməsi.
1810, avqust – İranla Osmanlı imperiyası arasında Rusiya əleyhinə hərbi ittifaqın bağlanması.
1812-ci ilin əvvəlləri – İran ordusunun Qarabağa hücumu.
1812, 18 mart – P.S.Kotlyarevskinin əks hücumu.
1812, 16 may – Rusiya ilə Osmanlı dövləti arasında Buxarest sülhü.
1812, yayı – Fransa-Rusiya müharibəsi.
1812, 8 iyul – Fransa əleyhinə İngiltərə - Rusiya müqaviləsi.
1812, 12 iyul– İran qoşunlarının Qarabağda məğlubiyyəti.
1812, avqust – İran qoşununun Lənkəran daxil olmaqla Talış xanlığı, Ərçivanı ələ keçirməsi.
1812, 20 sentyabr - 10 oktyabr – Aslandüz danışıqları.
1812, 21 dekabr - 1813, 1 yanvar – P.S.Kotlyarevskinin Lənkəran qalasını alması. İran qoşunlarının 21 dekabrda Muğanda darmadağın edilməsi.
1813, 27 sentyabr – Qarabağda Gülüstan kəndində danışıqların başlanması.
1813, 12 oktyabr – Gülüstan sülh müqaviləsi.
1815 – Gülüstan müqaviləsinə yenidən baxmaq üçün İran tərəfinin Peterburqa nümayəndə heyətini göndərməsi.
1817 – A.P.Yermolovun başçılığı ilə nümayəndə heyətinin İrana göndərilməsi.
1818 – Xristian alman köçkünlərinin Qafqaz Baş Komandanlığının təhriki və köməyi ilə Yelenendorf və Annefeld koloniyalarının salınması.
1823 – İran - Osmanlı müqaviləsi.
1825, payız - 1826 – Abbas Mirzənin qoşunu üçün ingilis silahının gətirilməsi.

1826, 26 may, 16 iyul – İran qoşununun Şimali Azərbaycana hücumu**,** iyulun 28-ə keçən gecə Gəncənin tutulması. Şuşanın 48 gün mühasirəsi.
1826, 3 sentyabr – Şamxor döyüşü.
1826, 3 sentyabr – Gəncənin yenidən rus qoşunu tərəfindən işğalı.
1826, 13 sentyabr – İran qoşunlarının Gəncəyə hücumu və məğlub olması.
1826, 18 sentyabr – Abbas Mirzənin Arazın sağ sahilinə qaçması. **1826, 9 dekabr** – A.P.Yermolovun başçılığı ilə rus dəstələrinin Nuxanı tutması.
1826, 26 dekabr – Rus qoşunlarının Cənubi Azərbaycana hücumu.
1826-1828 – İrandan və Azərbaycanın cənub ərazilərindən Cənubi Qafqaza, o cümlədən Qarabağa 18 min erməni ailəsinin köçürülməsi.
1826 – Gəncə üsyanı.
1827, əvvəlləri – İran qoşunlarının Şimali Azərbaycanı tərk etməsi.
1827, yanvar – Rus qoşunlarının Meşkin dairəsinə daxil olması.
1827, 20 aprel – General V.H.Mədətovun komandanlığı ilə Xudafərin körpüsünün ələ keçirilməsi. Eçmiədzinə daxil olması.
1827, 23 aprel-8 may – İrəvanın mühasirəsi.
1827, 26 may – Rus qoşununun Naxçıvanı tutması.
1827, 5 iyun – Cavanbulaq döyüşündə İran qoşununun məğlubiyyəti.
1827, 7 iyul – Rus qoşununun Abbasabad qalasını tutması.
1827 – Rus qoşununun avqustun 13-də Alagöz dağının ətəklərində, avqustun 17-də Uşağanda və b. yerlərdə döyüşləri. Sentyabrın 20-də Sərdarabad qalasının süqutu.
1827, 26 sentyabr - 1 oktyabr – İrəvan qalasının rus qoşunu tərəfindən süqutu.
1827, 2 oktyabr – Mərəndin ələ keçirilməsi.

1827, 13 oktyabr – Rus qoşununun Təbrizə daxil olması.
1827, 7 noyabr – Rusiya - İran danışıqlarının başlanması.
1828, 28 yanvar – Rus qoşunlarının Urmiyanı tutması.
1828, 8 fevral – Rus qoşunlarının Ərdəbili tutması.
1828, 6 (18) fevral – Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə ilə İ.F.Paskeviç arasında sülh danışıqlarının başlanması.
1828, 10 (22) fevral – Türkmənçay sülh müqaviləsi.
1828-1830 – Cənubi Qafqaza 40 mindən çox İran və 84 min Osmanlı ermənisinin köçürülməsi.
1828, aprel – Rusiya - Osmanlı müharibəsi.
1828, 22 iyun – Rus qoşununun Qars qalasını ələ keçirməsi.
1828, 9 avqust – Ahalsıx, bundan əvvəl Ahalkələki və Xertsis, avqustun sonu Bəyazid qalası, Torpaqqala və Diadil sədləri ilə birlikdə Bəyazid paşalığının tutulması.
1829, 1 may – Ahalsıx altında Sursqab döyüşündə Osmanlıların məğlub edilməsi.
1829, iyun – Soğanlıq döyüşü.
1829 – Rus qoşununun Ərzurumu ələ keçirməsi.
1829, 2 (14) sentyabr – Ədirnə sülh müqaviləsi.
1829 – Cənubi Qafqaz məktəbləri haqqında Nizamnamə.
1830 – Şuşada ilk qəza məktəbi.
1830 – Şimali Azərbaycana rusların məskunlaşması.
1830 – Car-Balakən üsyanı.
1830, sentyabr, 15 oktyabr - dekabr - Car – Balakən üsyanı.
1831, 5 mart - 7 may – Lənkəran üsyanı.
1832 – Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilərin təşkil etməsi.
1832 – "Tiflisskiye vedomosti" qəzetinin "Tatar xəbərləri" adlı əlavəsinin çıxması.
1841-1846 – "Zaqafqazskiy vestnik"in Azərbaycan türkcəsində "Qafqazın bu tərəfinin əxbarı"nin nəşri.

1849 – Şimali Azərbaycanı əhatə edən Qafqaz Tədris dairəsinin yaradılması.
1850 – Tiflisdə yaradılmış "Qafqaz kənd təsərrüfatı cəmiyyəti".
1858 – Cənubi Azərbaycanda mətbuatın əsasının qoyulması. "Azərbaycan" qəzetinin nəşri.
1859 – Suraxanıda rus kapitalistləri Kokorev və Quboninin "Zakaspi Ticarət Cəmiyyəti" neftayırma zavodunun tikilməsi, ağ neftin istehsalı.
1859 – Şamaxıda olan zəlzələdən sonra quberniya mərkəzinin Bakıya köçürülməsi və Bakı quberniyası adlanması.
1859 – Bakıda "Qubernator bağı".
1860, 5 mart – "Dağıstan vilayətinin idarə olunması haqqında Əsasnamə".
1860 – Nuxada Aleksey və Voronin qardaşlarının ipək fabriki.
1861 – Vitte tərəfindən Pirallahı parafin zavodunun işə salınması.
1861 – Cənubi Qafqaz Mərkəzi İslahat Komitəsinin yaradılması.
1861, 29 iyun – "Cənubi Qafqaz diyarının mərkəzləşdirilməsi haqqında Əsasnamə".
1863 – C.Məlikovun Bakıda ikinci ağ neft zavodunu inşa etdirməsi.
1863, iyun – Hacı Murtuzun rəhbərliyi ilə Zaqatala üsyanı.
1864, 20 noyabr – Məhkəmə islahatı.
1864 – Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xətlərinin çəkilişi.
1864 – Balaxanı neft mədənləri, Naxçıvan duz mədənləri, Zəylik zəy zavodu və s. təhkimli kəndlilərin icbari əməyinin ləğvi.
1865 – "Kənd cəmiyyətləri haqqında" Qanun.
1865 – Gədəbəydə "Simens qardaşları və Kº" səhmdar cəmiyyəti misəritmə zavodunun istifadəyə verilməsi.
1865 – Bakıda ilk dörd sinifli ali məktəb.
1865 – Dənizkənarı bulvarın salınması.
1866 – Daşkəsəndəki kobalt yataqlarının "Simens qardaşları və Kº" şirkətinin əlinə keçməsi.
1866, 29 may – Tiflis, Bakı, İrəvan və Şuşa şəhərlərində "bəy komissiyaları"nın yaradılması.

1868 – Mərkəzi Gəncə (Yelizavetpol) olmaqla Yelizavetpol quberniyasının yaradılması.
1868-1869 – Şimali Azərbaycanda məhkəmə islahatının keçirilməsi.
1868 – Bakı-Tiflis teleqraf xətlərinin çəkilişi.
1869 – Təbrizdə "Mədrəseyi-Nasiri".
1870 – Şərur-Dərələyəz qəzasının yaradılması.
1870, 14 may – II Aleksandrın "Cənubi Qafqaz quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları "ali müsəlman silki"ndən olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan kəndlilərin torpaq quruluşu haqqında Əsasnamə"ni imzalaması.
1870, 16 iyun – Şəhər "Əsasnamə"sinin təsdiqi.
1871 – Balaxanıda buruqla ilk neft quyusunun qazılması.
1871 – 1872 – Yeni nizamnamələrə görə bütün gimnaziyaların klassik istiqamət alması, real gimnaziyaların isə realnı məktəblərlə əvəz olunması.
1872, 1 fevral – "Neft istehsalı və fotogen istehsalından aksiz haqqında Qaydalar".
1872, 17 fevral – "Qafqaz və Cənubi Qafqazın iltizamda olan xəzinə neft mənbələrinin müzayiqə yolu ilə xüsusi şəxslərə verilməsi haqqında Qaydalar".
1872, 13 may – Əsasnaməyə görə qəza məktəblərinin altı illik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrilməsi.
1872 – Təbriz valisinə qarşı üsyan.
1873 – Balaxanıda ilk neft fontanının vurması. İlk dəfə buxar mühərrikindən istifadə olunması.
1873 – "Qara şəhər" adlanan zavodlar rayonunun yaranması.
1873, 10 (23) mart – Milli teatrın yaranması. Bakı Mirzə Fətəli Axundovun "Sərgüzəşti vəziri-xani Lənkəran" komediyasının tamaşaya qoyulması.
1873, 17 aprel – M.F.Axundovun "Hacı Qara" komediyasının oynanılması.
1874 – Ərəş qəzasının təşkili.

1874, 24 may – İbtidai məktəblər haqqında Əsasnamə.
1874 – Bakıda ilk qadın gimnaziyası. **1883-cü ildən** Mariya adlanması.
1875, 22 iyul – Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti.
1875 – Mühacirətdə olan azərbaycanlı ziyalıların İstanbulda nəşr etdirdikləri "Əxtər" və "Şahsevən" qəzetləri.
1876, mart – Azərbaycanda Gildiya ticarət qaydasının tətbiqi.
1876 – Qori Müəllimlər Seminariyası.
1877 – Təbriz Dövlət Mədrəsəsi.
1878 – Urmiyada Ali Tibb Məktəbi.
1878 – Şəhər islahatının Bakıda həyata keçirilməsi.
1878 – İlk neft kəmərinin işə salınması.
1878 – Nobel qardaşlarının sifarişi ilə İsveçdə hazırlanmış dünyada ilk neft tankeri "Zoroastr"ın Bakı ilə Həştərxan arasında hərəkətə başlaması.
1878-1883 – Yeni Zəy zavodunun fəaliyyətə başlaması.
1878 – Nuxa ipəksarıma fabriki fəhlələrinin, Abşeronda arabaçı fəhlələrin tətilləri.
1879 – Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi.
1879 – İsveç təbəəsi Nobel qardaşlarının "Nobel qardaşları" şirkətinin əsasının qoyulması.
1879 – "Nobel qardaşları" şirkəti tərəfindən ilk darxətli dəmir yolunun çəkilməsi.
1879 – "Moisey" tankerinin sifarişi.
1879, 16 yanvar – Tiflisdə Azərbaycan dilində "Ziya" qəzeti
1880 – Tiflisdə Cəlal Ünsüzadə tərəfindən "Kəşkül" qəzetinin çapı.
1880-1890 – Bakıda rus dilində "Kaspi", "Baku" və b. qəzetlərin çapı.
1880 – Balıq sənayesində iltizam sisteminin ləğvi.
1880 – "Təbriz" qəzeti.
1881, fevral – Cənubi Qafqaz dəmir yolu tikintisi fəhlələrinin tətili.

1881-1895 – Bakıda, 1896-cı ildə Ramana mədənlərində, 1898-ci ildə Gədəbəy misəritmə zavodlarında və digər sənaye müəsisələrində baş verən tətillər.
1881 – Azərbaycan dilinin birinci tədris ilində məcburi fənn kimi keçilirməsi.
1881 – İlk peşə təhsili müəssisə - Bakı dənizçilik sinfi.
1882, 16 sentyabr – "Nobel qardaşları" şirkətinin fəhlələrinin tətili.
1882-1883 – "Nobel bağı".
1882 – A.O.Çernyayevski tərəfindən "Vətən dili" dərsliyinin hazırlanması.
1883, fevral – Bakıda Cənubi Qafqaz dəmir yolunun Bakı sahəsinin tikintisindən, həmçinin mədən və zavodlardan qovulan fəhlələrin çıxışları.
1883 – Cənubi Qafqazda Bakı-Tiflis dəmir yolunun işə salınması.
1883 – Cəbrayıl və Cavanşir qəzalarının yaradılması.
1883 – Qafqaz canişinliyinin ləğvi. Qafqazın idarə edilməsinin Baş hərbi rəisə tapşırılması.
1883 – Qalakənd missaflaşdırma zavodunun inşa edilməsi.
1883 – H.Z.Tağıyevin Bakıda teatr binasını tikdirməsi. 1898-ci ildə adını bildirən lövhənin əlavə olunması.
1883 – Şuşada Azərbaycan memarı Kərbəlayı Seyfxan tərəfindən məscidin tikilməsi.
1884 – "Mədəniyyət" qəzeti.
1884 – Bakıda kapitalistlərin xüsusi təşkilatı-Neft sənayeçilərinin qurultayının təşkili.
1886 – Bakı şəhərini əhatə edən ilk mərkəzləşdirilmiş telefon stansiyasının işə salınması.
1886 – Şahın dövlət torpaqlarının satılması haqqında Fərman verməsi.
1887 – Azərbaycan kəndlilərinin hərbi vergi verməsi.
1887 – Cavad şəhərinin yerində Petropavlovskoye kəndlərinin əsasının qoyulması.

1887 – A.Tahirov tərəfindən "Tatar dili rəhbərliyi" kitabı.
1887 – İlk rus-Azərbaycan məktəbinin əsası (Bakı).
XIX əsrin 80-cı illərinin ortaları – Rotşildlərin "Xəzər-Qara Dəniz Neft və Sənayesi Cəmiyyəti".
1888 – Məşədi İbrahim oğlunun Xızıda yeni məscid inşa etməsi.
1888 – Təbrizdə "Debestan" adlı ilk üsuli-cədid məktəbi.
1889 – Bakıda konkanın (atlardan qoşqu vasitəsi kimi istifadə olunan dəmir yolu) fəaliyyətə başlaması.
1890 – H.Z.Tağıyevin "Kaspi" gəmiçilik şirkəti.
1890 – Şükrulla Məhərrəmzadə Qarabağı tərəfindən "Hərflər və xətlər kitabı".
1890-1894 – S.M.Qənizadənin "İslahi-Azərbaycan" ana dili dərsliyi.
1891 – Bakıda yeni kütləvi çıxışlar.
1892-1894 – Neft mədənlərində, emal sənayesində, ticarət donanmasındakı tətillər.
1892 – İranın bir çox yerlərində, o cümlədən Təbrizdə üsyanların baş verməsi. Şah hökuməti tütün və tənbəki istehsalı üzərində ingilis Talbotun inhisar hüququnu geri alaraq onunla imzalanmış müqaviləni ləğv etməsi.
1893 – Bakı bazargünü məktəbi.
1894 – "Nərimanovun qiraətxanası" adını almış kitabxananın yaradılması.
1894-1897 – "Bakı ağ neft zavodçuları ittifaqı" adlı inhisar birliyinin yaradılması.
1894 – Gəncə qəzasında "Naftalan" neft sənayesi və ticarət şirkətinin təsis edilməsi.
1895, 15 yanvar – Tağıyev teatrının səhnəsində qoyulan tamaşaların Azərbaycan dilində səslənməsi.
1895 – "Bakı artistlər cəmiyyəti"nin, teatr və musiqi şöbələrinin, həvəskar orkestrlərin yaranması.
1896 – Bakıda birinci kişi gimnaziyası.
1896 – Bakının ikinci qala darvazasının tikilməsi.

1896, 12 mart – Qaçaq Nəbinin İranın Larni kəndində qaçaqlardan Şahhüseyn və Kərbəlayı İmam tərəfindən öldürülməsi.
1896 – Mərdəkanda H.Z.Tağıyev tərəfindən bağbanlar hazırlayan ilk xüsusi məktəbin açılması.
1896 – Bakıda A. E. Yermolayeva tərəfindən ilk musiqi məktəbinin açılması.
1896 – Rus texniki Cəmiyyətinin Bakı şöbəsi fəhlələri üçün Qaraşəhərdə ilk pulsuz kitabxana-qiraətxana.
1896 – "Nobel qardaşları" şirkəti tərəfindən işçilərin orkestri olan musiqi dərnəyinin əsasının qoyulması.
1897 – F.Parizekin başçılığı altında Bakıda ilk simfonik konsertin verilməsi.
1897-1901 – Murtuza Muxtarovun villası (indiki Azərbaycan MEA Dendroloji parkı), Şəmsi Əsədullayevin villası.
1897 – Bakıda Müqəddəs Nina qadın təhsil müəssisəsinin orta məktəbə çevrilməsi.
1897 – Bakıda Y.P.Şiltsova rəssamlıq məktəbinin açılması.
1897 – H.Z.Tağıyevin "H.Z.Tağıyev" adlı şirkətini ingilis kapitalistlərinə 5 milyon manata satması.
1897 – Qadınlar üçün Bakı bazargünü məktəbi.
1898, avqust-sentyabr – Zeynəb paşa adlı qadının rəhbərliyi ilə Təbrizdə üsyan.
1898 – H.Z.Tağıyevin xüsusi müsəlman qız məktəbinin inşası.
1898 – H.Z.Tağıyevin "Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" səhmdar müəssisəsinin fəaliyyətə başlaması.
1898 – Yeni Araz bölgəsində Novo-Nikolayevka (Para-Nuru), Novo-Aleksandrovka (Bayramqulu) və Kaqerman kəndlərinin əsasının qoyulması.
1898 – R. Əfəndiyevin "Uşaq bağçası" müntəxəbatı.
1899 – Yelizavetpol (Gəncədə) qadın progimnaziyası.
1899 – Qubada ikinci bağçılıq məktəbinin açılması.
1899 – N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi".

1899 – "Simens-Qalske" səhmdar cəmiyyəti və neft sənayeçilərinin birlikdə təsis etdikləri "Elektriçeskaya sila" səhmdar cəmiyyəti.
1900 – H.Z.Tağıyevin toxuculuq fabrikinin işə salınması.
XIX əsrin son rübü – Qazax, Cavanşir, Yelizavetpol, Şuşa, Naxçıvan və b. qəzalarda kəndli çıxışları. Qaçaqçılıq hərəkatı. Qaçaq Nəbi.
1900 – Şimali Azərbaycanda 41 rus kəndinin salınması.
XIX əsr – İlk məktəblərin açılması: ilk qəza məktəbləri – Bakı (1832), Nuxa (1833), Yelizavetpol (1837), Naxçıvan (1838) və Şamaxı (1838), birsinifli ibtidai məktəb – Quba və Ordubad (1854), Lənkəran (1856), ali dördsinifli məktəb – Şamaxı (1854), Bakı (1859), Şuşada İbrahim xan məscidi (1801). Bakıda 30-cu illərdə qız məktəbləri, şiə və sünni müsəlman məktəbləri – Tiflis və Şamaxı (1847-1849), yeni tipli məktəblər – Şamaxı (1869), Ordubad (1882) -"Əxtar" ("Ulduzlar"), Naxçıvan (1894) - "Tərbiyə", Naxçıvan (1896) - ilk dünyəvi qadın məktəbi.
XIX əsrin 80-90-cı illəri – Bir sıra sənət məktəblərinin Bakıda (1888), Gəncədə (Yelizavetpolda (1884)), Zaqatalada (1882) və s. açılması.
XIX əsr – İlk kitabxana-qiraətxanaların: Yelizavetpol quberniyası (1896), Şamaxı və Şuşa (1859), Gəncə (1868), 80-ci illərdən - Bakı, Quba, Salyan və Lənkəran, Balaxanı (1897), Ağşəhər və Bibiheybətdə (1900) təşkil edilməsi.

IX FƏSİL
AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ. İCTİMAİ-SİYASİ VƏ DEMOKRATİK HƏRƏKATLAR

Plan:

1. XX əsrin əvvəllərində Şimali Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət. Siyasi partiya və təşkilatların yaranması.
2.Azərbaycan I Dünya müharibəsi dövründə.
3.1917-1918-ci ilin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı.
4.XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti. Maarif və elm.
5.XX əsrin əvvəllərində Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatları.
6.Urmiya faciəsı (1917-1918) - Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımıdır.

1. XX əsrin əvvəllərində Şimali Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət. Siyasi partiya və təşkilatların yaranması

XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesi məhsul istehsalına görə dünyada birinci yerə çıxırdı. Belə ki, Azərbaycan *1901-ci ildə* dünyada istehsal olunan neftin yarıdan çoxunu (672 mln pud) və Rusiyada istehsal olunan neftin 95 faizini verirdi. *1900-1903-cü illər* dünya iqtisadi böhranı Rusiya iqtisadiyyatına təsirsiz ötüşmədi. Belə ki, Rusiya iqtisadiyyatına təsir edən səbəblərdən biri neft sənayesinin təkcə xarici kapital axını ilə deyil, həm də Avropa və Şərq bazarlarına neft ixracı ilə dün-

ya iqtisadiyyatına sıx bağlı olması idi. *1901-ci ilin əvvəllərində* neft və neft məhsullarına tələb azaldığına görə böhran ***neft sənayesinin*** bütün sahələrinə-neft çıxarılmasına, onun emalına, yeni quyuların qazılmasına, neftin və neft məhsullarının ixracına, kəşfiyyat işlərinin aparılmasına ağır zərbə endirdi. Böhran illərində xırda və orta müəssisələrin iflasa uğraması nəticəsində istehsalın təmərküzləşməsi xeyli güclənmişdir. Təkcə *1899-1900-cü ildə* Bakıda olan 208 şirkətdən 90-nı iflasa uğrayaraq iri inhisarların ixtiyarına keçmişdir. İnhisarlar neftin istehsalı, emalı, daşınması və satışını öz əllərində cəmləşdirmişdir. Neft ixracı xarici kapitalistlər olan Nobel qardaşları, Rotşild və başqa inhisarçıların əllərində cəmləşmişdir. Belə ki, öz mədənlərində neft çıxarılmasını təmin edən, geniş neft anbarları olan "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti", "Kaspi şirkəti" və s. kimi qüdrətli firmalar artıq məhsulu saxlamağa imkanı olmayan sənayeçilərin neftini ucuz qiymətə alırdı [5, s. 26]. Neft emalı sənayesi sahəsində *1906-cı ildə* fəaliyyət göstərən 77 zavoddan 20-si milli kapital nümayəndələrinə ***Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev, Şəmsi Əsədullayev*** və b. məxsus idi. H.Z.Tağıyevin *1873-cü ildə* yaratdığı kiçik neft firması əsrin sonunda özündə neft istehsalı, buruq qazıma, neft emalı və onu daşımaq vasitələrini birləşdirən iri kapitalist müəssisəsinə çevrildi. Şəmsi Əsədullayevin yaratdığı səhmdar cəmiyyəti *1913-cü ildə* Bakıda neft hasilatının 60 faizinə qədərini öz əlində cəmləmiş 12 şirkətdən biri idi. *1913-cü ildə* "Ş.Əsədullayev" cəmiyyəti Ramanada, Sabunçuda, Suraxanıda şəxsi mülkiyyət və icarə əsasında 37 qazıma buruğuna, Bakıda bir sıra zavod və mexaniki emalatxanalara, Xəzər dənizində gəmi və barjlara, neft çənləri və kəmərlərinə, neft-mədən rayonunda torpaq sahələrinə, şəhərdə bir çox binalara malik idi. M.Muxtarov "Qazıma istehsal alətlərinin sahibkarları sindikatı"nın və "Bakı neft quyuları qazan istehsalçılar cəmiyyəti"nin ən əsas üzvlərindən biri idi. M.Muxtarovun zavodlarının illik istehsal həcmi 2 mln.

rubla çatırdı. *1908-1910-cu illərdə* Bakı neft istehsalı rayonunda *60 azərbaycanlı sahibkar* fəaliyyət göstərirdi və onların sərəncamında *80 firma* var idi [5, s. 82]. *1903-cü ilədək* ingilis kompaniyaları Bakının neft müəssisələrinə 60 mln. manat kapital qoymuşdular. İngiltərə, Fransa və ABŞ ağ neftə olan tələbatlarının xeyli hissəsini Bakı neftinin hesabına ödəyirdi. İnhisarçılar texniki geriliyin qarşısını almaq üçün heç bir tədbir görmür, süni surətdə inkişafın qarşısını alır, neftin qiymətini qaldırırdılar. *1912-ci ildə* yaradılmış ***"Oyl"*** inhisarının tərkibində *1913-cü ildə* ***"Tovuz"*** portland sementi və digər tikinti materialları istehsalı səhmdar cəmiyyəti təsis edildi. I Dünya müharibəsi ərəfəsində İngiltərə, Fransa, Almaniya inhisarları arasında mübarizə daha da gücləndi. Onlardan ən iriləri "Royal datç Şell ənd K°", "Şell", "Nobel" və "Oyl" qrupları idi. Birinci Dünya müharibəsi ərəfəsində "Nobel qrupu" özünün maliyyə fəaliyyəti nəticəsində 9 neft sənayesi və nəqliyyat firmasını öz nəzarəti altında birləşdirirdi [478, s. 656]. *1914-cü ildə* üç birliyin ***("Şell", "Nobel" və "Oyl")*** səhmdar kapitalı, Rusiyanın bütün səhmdar kapitalının *86 faizini* təşkil edirdi (1911-1914-cü illərdə neft istehsalı həcmi 1.127,8 mln.pud idi) [478, s. 646]. Bu korporasiyaların neft istehsalının həcmi ölkədə: "Oyl" - 28 faiz, "Şell" - 20 faiz və "Nobel" - 14 faiz idi [489]. XX əsrin əvvəllərində kapitalist münasibətləri təkcə Bakıda deyil, Azərbaycanın qəzalarında da inkişaf edirdi. Ölkə sənayesi təkcə neft hasilatından ibarət deyildi, sənayenin digər sahələrini – dağ-mədən, mexaniki istehsal, energetika, toxuculuq, pambıqtəmizləmə, ipək emalı, yeyinti sənayesi, nəqliyyat, rabitə, bank-kredit sistemi və ticarəti də əhatə edirdi. Azərbaycanda neft sənayesi ilə yanaşı *əlvan metallurgiya* sənayesi də inkişaf edirdi. *Gəncə* quberniyasındakı *8 mis zavodu* içərisində ***Gədəbəydəki "Simens qardaşları"*** *səhmdar cəmiyyətinə* məxsus olan zavodlar xüsusilə fərqlənirdilər. Gədəbəy misi dünyada ən təmiz və qiymətli mis hesab edilirdi. XX əsrin əvvəllərində Azərbaycanda yeni mis filizi ehtiyatları aşkar edildikdən

sonra ***Qalakənd*** *çayı* üzərində ikiturbinli elektrik stansiyası – *ilk su-elektrik stansiyası* tikildi. Moskvada yeni zavodlar tikildiyi üçün *1906-cı ildə* Qalakənd missaflaşdırma zavodu istehsalı dayandırmışdır. Mis sənayesində *1900-cü ildə* başlanan inhisarlaşma prosesi *1913-cü ildə* başa çatdı. ***"Simens qardaşları və K`"*** *1914-cü ildə* Almaniyanın 6 nəhəng metallurgiya zavodunu xammalla təmin edən ***"Ştuden Gezelşaft"*** *inhisarı* ilə 30 il müddətinə müqavilə bağlamışdır.

İpək sənayesi ölkəmizin şimal-qərb və cənub-qərb hissəsində yayılmışdır. Cənubi Qafqazda *ipək emalı* sənayesinin mərkəzi *Nuxa* şəhəri idi. *1900-cü ildə* xırda müəssisələr nəzərə alınmasa, *Nuxa-Zaqatalada 46 fabrik*, *Qarabağ və Naxçıvanda* da xeyli ipək fabriki işləyirdi. Nuxada istehsal edilən xam ipək beynəlxalq sərgilərdə qızıl və gümüş medallara layiq görülmüşdür. *XX əsrin əvvəllərində* pambıqçılığın genişlənməsi ilə əlaqədar pambıqtəmizləmə sənayesi də inkişaf edirdi. Bu dövrdə *100-dən çox pambıqtəmizləmə zavodu* vardı. Bu sahədə *Gəncə qubernivası* birinci yerdə idi. Pambıqtəmizləmə sənayesinə qoyulan sərmayənin *80 %-i* milli kapitala – ***H.Z.Tağıyev, Mahmudbəyov qardaşları*** və ***Məstanzadəyə*** məxsus idi. Azərbaycanda maldarlığın geniş yayılması gön-dəri istehsalı üçün əlverişli şərait yaratmışdır. Azərbaycanın yeyinti sənayesinin mühüm sahələrini şərabçılıq, spirt, konyak istehsalı təşkil edirdi.

Tütünçülük Zaqatala dairəsində, Nuxa, Cavanşir, Şamaxı qəzalarında geniş yayılmışdır. Azərbaycanda ilk tənbəki fabriki XIX əsrin ikinci yarısında Nuxada fəaliyyətə başlamışdır. XX əsrin əvvəllərində Azərbaycanın 7 qəzasında *balıqçılıqla* məşğul olurdular. Xəzər dənizində siyənək ovlanırdı. Kür çayı boyunca yerləşmiş iri vətəgələrdə ovlanmış balıqlar duzlanır, konservləşdirilirdi. Balıq sənayesində də milli kapital – ***H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov*** və b. üstünlük təşkil edirdi. Şimali Azərbaycanda istehsal olunan məhsulların ümumi dəyəri və fəhlələrin sayına görə balıq sənayesi neft sənayesindən sonra 2-ci

yerdə dururdu. XX əsrin əvvəllərində Azərbaycanda *biyan köku* istehsalının inkişafı ingilis kapitalı ilə bağlı idi. Belə ki, Gəncə, Kürdəmir, Ucar və Ləkidə biyan emalı zavodları var idi. Emal prosesində alınan maye-cövhər əsasən yeyinti sənayesində istifadə olunurdu. *1902-ci ildə* Şəkidə *çiyid yağı zavodu* tikildi. *1906-cı ildə* bu müəssisənin əsasında *"Qafqaz yağ zavodu"* səhmdar cəmiyyəti təsis edilmişdir. *Daşduz* Naxçıvan qəzasında, *şor duz* Abşeronda və Cavad qəzasında çıxarılırdı. ***"Kəlbalıxanov qardaşları və K`"*** şirkətinin Sust mədənlərində daş duz əldə edilirdi. XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin inkişafı şəhər təsərrüfatının, ticarətin, nəqliyyatın, rabitənin inkişafına güclü təsir göstərdi. Nuxa ölkədə 2-ci sənaye və ticarət mərkəzi, Bakı isə yük dövriyyəsinə görə Rusiyada 1-ci liman şəhəri idi. Bakıdakı iri ticarət səhmdar banklarının sahibləri arasında ***H.Z.Tağıyev, M.Nağıyev*** kimi milli burjuaziyanın nümayəndələri var idi. ***H.Z.Tağıyev*** və ***Ş.Əsədullayevin*** şəxsi bank kontorları əsasında, ***M.Nağıyev, M.Muxtarov, F.Rüstəmbəyov*** və başqalarının iştirakı ilə *1914-cü ildə Bakı Tacir bankı* yaradıldı. Bankın kapitalı 1914-cü ildə 3 mln. rubl, 1915-ci ildə isə 5 mln. rubl idi. Bu bankın məqsədi neft, pambıq, balıq, dənüyütmə, mexaniki və s. istehsal sahələrində ilk növbədə milli kapital nümayəndələrinə kömək etmək idi [5, s. 83].

Kənd təsərrüfatı. XX əsrin əvvəllərində kənd təsərrüfatında kapitalizmin inkişafı əkinçilikdə təkmil alətlərin tətbiqini xeyli genişləndirmişdir. Kapitalistcəsinə təşkil edilmiş qolçomaq və mülkədar təsərrüfatlarında taxılın müəyyən bir hissəsi bazar üçün istehsal edilirdi. Kəndlilərin bir hissəsinin torpağı yox idi, əksəriyyəti isə az torpaqlı idi. Kənd təsərrüfatında texnika ləng tətbiq edilirdi. Belə ki: 1) Azərbaycanda kənd təsərrüfatı alətləri və maşınları istehsal edən zavodlar yox idi; 2) ixtisaslı mütəxəssislər az idi. Taxıl və texniki bitkilərə tələbatın artması suvarılan torpaq sahələrinin genişləndirilməsini tələb edirdi. Buna görə də, əsrin əvvəllərində Kür və Araz çayları sahilində *150-yə qədər*

suvuran qurğu qurulmuşdur. Taxılçılıq sahəsində ***Lənkəran, Gəncə, Nuxa, Ərəş, Şuşa qəzaları*** daha çox seçilirdi. Azərbaycanda texniki bitkilər əkini xeyli genişlənmişdir. Onların içərisində *sənaye pambıqçılığı* xüsusilə fərqlənirdi. Pambıq əkinində kotanla bərabər traktordan da istifadə olunurdu. *1913-cü ildə* Rusiyada əkinçilikdə istifadə edilən *152 traktordan 6-sı* Azərbaycanda idi. Cənubi Qafqazdakı *pambıq* əkin sahələrinin *70%-dən çoxu* Azərbaycanın payına düşürdü. Pambıqçılıq təsərrüfatlarında cərgəli əkin üsulu üstünlük təşkil edirdi. *1909-cu ildən* etibarən Azərbaycanda *borc-kredit şirkətlərinin* təşkili bu sahədə möhtəkirliyə mane olurdu. *1913-cü ildə* burada 129-dan artıq kredit şirkəti və borc-əmanət kassaları fəaliyyət göstərirdi. Bunlar kəndlilərə əlverişli şərtlərlə kredit verirdilər. XX yüzilliyin əvvəllərində Azərbaycanda ipəkçiliklə-kümdarlıqla məşğul olan kəndlilərin sayı sürətlə artır, çəkil plantasiyalarının ümumi sahələri isə genişlənirdi. İpəkçilik kapitalist əmtəə istehsalının inkişaf etdiyi kənd təsərrüfatı sahələrindən birinə çevrilmişdir. *1914-cü ildə* Cənubi Qafqazda əldə edilən *baramanın 81%-i* Azərbaycanın payına düşürdü. Azərbaycanda becərilən baramanın hamısı yerli ipək fabriklərində emaldan keçirilirdi. Lakin, ipək fabriklərindəki mövcud olan texniki avadanlıq aşağı növ baramanı emal etməyə imkan vermədiyinə görə onu İtaliya və Fransanın Milan, Marsel, Lion şəhərlərinə ixrac edirdilər. *Sənaye tütünçülüyü XX əsrin əvvəllərində* geniş vüsət almışdı. Tütünçülük ən çox ***Zaqatala dairəsində, Nuxa, Cavanşir, Şuşa, Quba*** və ***Şamaxı qəzalarında*** intişar tapmışdır. Zaqatalada sarı Trabzon və Samsun tütün növləri yetişdirilirdi. Cənubi Qafqazda ən böyük tütün plantasiyası (40 desyatin) Zaqatalada yerləşirdi. Azərbaycanda yığılan tütün yarpağı əsasən yerli fabriklərdə emal edilir, az bir qismi İrana ixrac olunurdu. *1902-ci ildə* ixraca göndərilən tütünə yüksək gömrük haqqının tətbiq edilməsi və istehsal üzərinə yüksək aksiz vergisi qoyulması tütünçülüyün inkişafına əngəl törətmişdir. Azərbaycanda üzümçülük də geniş yayılmışdır.

Onun böyük hissəsi mülkədarların, qolçomaqların və ayrı-ayrı şirkətlərin əlində cəmlənmişdir. İri şirkətlər üzüm və şərab istehsalında həlledici rol oynayırdılar. Məhsulun bir hissəsi yeyinti məhsulu kimi satışa çıxarılır, digər hissəsi isə ölkədəki çoxsaylı şərab zavodlarına satılırdı. Azərbaycan ərazilərində maldarlıq da inkişaf etmişdir. Maldarlıqla müntəzəm məşğul olanlar üçün *əmtəə maldarlığı* xüsusi əhəmiyyətə malik idi. İri maldarlıq təsərrüfatında əmtəə südçülüyü və əmtəə mal-qara bəslənməsi geniş miqyas almışdır. Yenə də köçmə maldarlığı maldarların əsas məşğuliyyəti olaraq qalırdı. Yundan toxunan Azərbaycan xalçaları, gəbələri dünya bazarlarında məşhur idi. Azərbaycanda meyvəçilik də inkişaf etmişdi. Rusiyanın daxili bazarlarında quru meyvəyə olan tələbat bu sahənin inkişafına şərait yaradırdı.

Azərbaycanda kəndlilərin aztorpaqlı olmasına baxmayaraq Rusiyadan buraya köçürülənlərin sayı getdikcə artırdı. ***1905-ci ildən*** etibarən ***ruslar*** Muğanda məskunlaşmağa başladılar. Hesablamalara görə, XX əsrin əvvəllərində təkcə *Bakı quberniyasına* köçürülənlər üçün ***44*** **min desyatin** əkinəyararlı torpaq sahəsi ayrılmışdır. *1908-1910-cu illərdə* çarizmin *köçürmə siyasəti* nəticəsində Azərbaycana ***3 mindən çox kəndli ailəsi*** köçürülmüşdür. *1912-ci ildə* ***Bakı quberniyasında 60, Gəncə quberniyasında 29 rus kəndi*** salınmışdır.

Şimali Azərbaycanda aqrar qanunlar. ***1870-ci il kəndli islahatı*** Azərbaycanda aqrar məsələni yarımçıq həll etdi, belə ki, kəndlilərə pay torpağı verilməsi məsələsi həll edilmədi. *1882-ci ildə kəndli torpaq bankı* təşkil edildikdən sonra kəndlilərin azçox bir qismi müəyyən qədər torpaq payı almağa müvəffəq oldu. Kəndlilərin öz pay torpaqlarını satın almasını çətinləşdirən amillərdən biri də Azərbaycanda pay torpaqlarının satınalma qiymətinin Rusiyadakından dəfələrlə yüksək olması idi. İslahatdan sonra kəndlilər istifadə etdikləri pay torpağı əvəzində islahataqədərki vergiləri verməyə və mükəlləfiyyətləri daşımağa məcbur idilər. Başqa sözlə, Azərbaycanda ***"müvəqqəti mükəlləfiyyətli"***

münasibətlər 40 ildən çox davam etdi. Kənd təsərrüfatında kapitalist əmtəə istehsalı artdıqca torpağın qiyməti də sürətlə yüksəlirdi. Torpağın çox hissəsi dövlətin əlində idi. Kəndlilərin *68%-ni dövlət kəndlisi* təşkil edirdi. ***1900-cü il mayın 1-də*** imperator II Nikolay dövlət kəndlilərinin torpaq münasibətlərini qaydaya salmaq üçün ***"Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"****nı* təsdiq edən *Qanun* verdi. ***"Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu"*** haqqında olan bu Qanun [322, s. 18-23] dövlət kəndlilərinə dövlətə töycü ödəmək şərti ilə kənd icması yığıncaqlarının razılığı ilə icma torpaqlarından *nəsli istifadə hüququ* verirdi [464]. Qanunun bu maddəsi icma torpaq mülkiyyətinə çox ağır zərbə vurdu. ***"Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında"*** *Əsasnamə 1903-cü il aprelin 21-də* qüvvəyə mindi. Qanuna görə, pay torpaqlarının planı hazırlanarkən istifadə edilən mövcud sərhədlər əsas götürülməli idi. Əsasnamədəki yenilik kəndlilərə əlavə pay torpağının verilməsi, çəmən, otlaq və meşələrdən pay ayrılması qaydalarından ibarət idi. Lakin nə qanun, nə də əsasnamə dövlət kəndlilərinin torpaq quruluşu məsələsini tam həll etmədi. Kəndlilərin istifadəsində olan pay torpaqları əsasən yenə də dövlət mülkiyyətində idi.

Yalnız dövlət kəndlilərinə aid edilmiş *1900-cü ilin 1 may* və *1903-cü ilin 21 aprel Əsasnamələrindən* sonra heç bir dəyişiklik və tədbir nəzərə çarpmadı, verilən qanun və qaydalar isə vergi və mükəlləfiyyət sistemini ağırlaşdıraraq əsarəti daha da gücləndirdi.

1912-ci il dekabrın 20-də ***"Cənubi Qafqaz quberniyasında torpaqların məcburi surətdə satın alınması haqqında"*** *Qanun* verildi. Qanunla birlikdə onun həyata keçirilməsi üçün ***"Qaydalar"*** təsdiq edildi. "Qaydalara" görə, Azərbaycandakı sahibkar kəndliləri *1913-cü il yanvarın 1-dən mükəlləfiyyət daşımaqdan azad olunurdular.* Kəndlilər pay torpaqlarını məcburi

şəkildə satın almalı idilər. Onlar yalnız torpaq nizamnaməsində göstərilən torpağı öz mülkiyyətinə keçirə bilərdilər. İcarəyə verilən torpaqlar mülkədarın mülkiyyətində qalırdı. Kəndli çəmən, otlaq və meşə sahələrini satın ala bilməzdi. O, həmin yerlərdən yalnız torpaq sahibinin razılığı ilə istifadə edə bilərdi. Su arxları mülkədarların xüsusi mülkiyyəti olaraq qalırdı. Dövlət xəzinəsi torpağın haqqını 20 il ərzində kəndlilərdən toplamalı idi, mülkədar isə torpaq üçün əvəz haqqını dövlət xəzinəsindən alırdı. *1912-ci il aqrar qanunu* Zaqatala dairəsi kəndlilərinə şamil edilmədi. ***1913-cü il iyulun 7-də*** hökumət ***"Dağıstan və Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılıq münasibətlərinin ləğv edilməsi haqqında"*** *Qanun* qəbul etdi. *1912-1913-cü illər* aqrar qanunları pay torpaqlarının sahibkar kəndlilərinin xüsusi mülkiyyətinə çevrilməsinə, onların "müvəqqəti mülkiyyətli" münasibətlərdən azad edilməsinə imkan verdi. Azərbaycan kəndində kapitalist münasibətlərinin inkişafı və ictimai təbəqələşmə getdikcə sürətlənirdi [5, s. 66-67].

XX əsrin əvvəllərində çarizmin milli müstəmləkə zülmü və kapitalist münasibətlərinin inkişafı Şimali Azərbaycanda əhalinin sosial tərkibinə ciddi təsir göstərmişdir. Sənaye və ticarət burjuaziyasının xüsusi çəkisi artırdı. XX əsrin əvvəllərində Bakı və Yelizavetpol quberniyalarında 22 mindən çox tacir var idi: Bakı quberniyasında 15,2 min, Yelizavetpol quberniyasında 7,1 min. tacir. Onlardan 16 min (72,7%-i) nəfəri şəhərlərdə, 61 min nəfəri isə (27,3%-i) qəzalarda fəaliyyət göstərirdi. Azərbaycan milli burjuaziyasının ən nüfuzlu nümayəndələri olan H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, A.Quliyev və b. kapitalları 10 mln. rubl idi. 1914-cü ildə Bakıda H.Z.Tağıyevin başçılığı altında M.Nağıyevin əsas kapitalı 3 mln. rubl olan səhmdar tacir bankı yarandı [174, s. 154-157]. Azərbaycan burjuaziyası nümayəndələri arasında gəmi sahibləri Ş.Əsədullayev, Dadaşov, Useynov, ipək müəssisələri sahibləri Mehdi Hacı Abdul oğlu, Hacı Süleyman Hüseyn oğlu, un və düyü dəyirmanları sahibləri

Ağabala Quliyev, M.İbrahimov, M.S.Kərimov, tütün fabriki sahibi Şirinbəyov, mexaniki istehsal sahibləri M.Muxtarov, S.Abdullayev və başqaları fərqlənirdilər [5, s. 104]. *1904-cü ildə* gəmi sahiblərinin əldə etdikləri gəlirin 75 %-i milli burjuaziya nümayəndələrinə məxsus idi [123, s. 94]. Əsrin əvvəllərində Azərbaycan tədricən aqrar-sənaye ölkəsinə çevrildi. Kənddə sosial təbəqələşmə kəndlilərin içərisindən kənd varlılarının və qolçomaqlarının ayrılmasına gətirib çıxardı. Mülkədarların bir hissəsi çarizmin müstəmləkə əsarətinə nifrət edir, xalqın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün yollar axtarırdılar. Mülkədarlardan Allahyar bəy Zülqədərov, Fərrux bəy Vəzirov və b. yoxsullara kömək edirdilər. Lakin ümumilikdə Şimali Azərbaycan kəndlərində sosial münasibətlər kəskin idi. Azərbaycan şəhərlərində isə fəhlələrlə sahibkarlar arasında ziddiyyətlər getdikcə kəskinləşirdi. Milli burjuaziyanın ***H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Səlimxanov, M.C.Əliyev*** kimi nümayəndələri müsəlman fəhlələrinin qayğısına qalırdılar.

XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Fətəli xan Xoyski, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov və b. yüzlərcə ziyalı *milli şüurun, milli özünüdərkin* formalaşmasında mühüm rol oynayırdı.

Böhran illərində sənayenin, xüsusən neft sənayesinin geriləməsi böyük işsizlər ordusunun yaranmasına səbəb oldu. Azərbaycan neft sənayesində fəhlələrin sayı 10 minə qədər azalıb, 27 min nəfərə endi. Azərbaycan kəndliləri mülkədarların ağır istismarına məruz qalırdılar. Böhran illərində fəhlələrin vəziyyətinin son dərəcədə ağırlaşması, fəhlələr arasında siyasi təşviqatın genişlənməsinə şərait yaratdı. Məhz bu dövrün başlanğıcında, *1900-cü ilin* sonlarında Bakıda sosial-demokratik hərəkat genişlənməyə başladı. *1901-ci ildə* Bakıda RSDFP-nin təşkilatı artıq formalaşmaqda idi, Bakı və onun rayonlarında RSDFP-nin 15 dərnəyi fəaliyyət göstərirdi. *1901-ci ilin yazında* RSDFP-nin Ba-

kı Komitəsi yaradıldı. *1901-ci ilin martında* Bakıda Sabunçudakı "Təmir" mexaniki və b. emalatxanaların fəhlələri tətil etdilər. *1901-ci ilin* ən böyük tətilləri *sentyabr - noyabr aylarında* Xatisovun zavodunda 200 nəfərdən artıq fəhlənin iştirakı ilə baş verdi. *1901-ci ilin avqustunda* Gəncədə dəmir yol deposunun, elə həmin ilin dekabrında isə Tovuzda dəmir yol stansiyasının fəhlələri tətil etdilər. *1902-ci ilin 1 may* tarixində Bakıda 5 min fəhlənin iştirakı ilə ilk dəfə ***açıq nümayiş***, *1903-cü il martın 2-də* Bakıda 2 min fəhlənin ***açıq küçə nümayişi***, *1903-cü il aprelin 27-də* Bakıda 1 May şərəfinə 10 min nəfərədək adamın iştirak etdiyi böyük ***siyasi nümayiş***, *1903-cü il iyulun 1-dən 22-nə qədər* isə Bakıda *iyulun 1-də (14-də)* Xatisovun zavodu*, iyulun 4-də* Qara və Ağ şəhərləri, habelə Bibiheybət, növbəti gün isə Balaxanı-Sabunçu neft sənayesinin ***40 min*** nəfər fəhlədən ibarət [304] ***ilk ümumi siyasi tətil*** keçirildi. Tətilçilər əsasən iqtisadi tələblər: əmək haqqının artırılması, iş gününün 8 saatadək qısaldılması, 2 mart və 27 aprel küçə nümayişləri zamanı həbs olunmuş fəhlələrin azad edilməsi, tətil, mətbuat və yığıncaq azadlığı kimi tələblər [184, s. 138] irəli sürürdülər.

Azərbaycan kəndində sinfi mübarizənin kəskinləşməsi kəndli çıxışlarının artması ilə müşaiyət olunurdu. Kəndlilər vergi verməkdən imtina edir, mülkədar və xəzinə torpaqlarını ələ keçirir, bəy malikanələrinə hücum edirdilər. *1900-1903-cü illərdə* Şamaxı qəzasının Navahi kəndində, Bakı qəzasının Buzovna, Zığ, Əhmədli və Maştağa kəndlərində, Naxçıvan və Yelizavetpol qəzalarında belə çıxışlar baş vermişdir. *1903-cü ilin yayında* Lənkəran qəzasının Cangəmirən kənd sakinlərinin çıxışı kazaklar və bəylərin silahlı dəstələri tərəfindən yatırılmışdır. Bu çıxışlar qaçaqçılıq hərəkatı idi. Azərbaycanın qəzalarında baş verən kəndli çıxışları pərakəndə və qeyri-mütəşşəkkil və məqsədsiz xarakter daşıyırdı. Milli-azadlıq hərəkatına tələbələr və ziyalılar da qoşulurdular: *N.Nərimanov, M.Ə.Rəsulzadə, S.M.Əfəndiyev, Ə.Ağayev, M.Əzizbəyov, C.Məmmədquluzadə, M.Ə.Sabir* və b.

1904-cü ilin yanvarında başlanmış rus-yapon müharibəsi fəhlə və kəndlilərin vəziyyətini daha da ağırlaşdırdı. Bu isə zəhmətkeş kütlələri müharibə əleyhinə çıxışlara qaldırırdı. *Dekabrın 12-də* "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" çörəkçilər və şəhərin su təchizatı fəhlələrindən başqa bütün sənaye fəhlələrini ümumi tətilə çağırdılar. Xəzər-Qara dəniz cəmiyyətinin, Nobel, Rotşild, Mantaşev və Mirzoyevin mədənlərinin, günortaya qədər Bibiheybət, habelə Qara və Ağ şəhərlərin 40-a yaxın firmasının fəhlə və qulluqçuları işi dayandırdılar, axşama yaxın "Kaspi", "Baku", "Bakinskiye izvestiya" qəzetləri mətbəələrinin fəhlələri tətil etdilər. *Dekabrın 16-17-də* "Şərq cəmiyyəti", "Qafqaz və Merkuri" şirkətlərinin emalatxanaları, habelə "Nadejda" kompaniyası, tənbəki fabriki və Dadaşovun tərsanəsinin fəhlələri, sonra isə Xəzər ticarət donanmasının dənizçiləri, şəhər konkasının, mağazaların, emalatxanaların işçiləri – 50 minədək adam tətil etdilər [122, s. 42-43]. Əvvəllər dərnək tipli olan sosial-demokratların azərbaycanlı fəhlələr arasında iş aparan özəyi ***1904-cü ildə "Hümmət"*** adlı *qəzet* buraxmağa başladı. Qəzet zəhmətkeşləri mütləqiyyətə, sosial ədalətsizliyə qarşı mübarizəyə çağırırdı. Tezliklə, ***"Hümmət"*** adlı *sosial-demokrat təşkilatının* əsası qoyuldu. Bu təşkilat azərbaycanlı fəhlələr arasında geniş inqilabi iş görür, vərəqələr nəşr edir, "Hümmət" qəzetinin nəşrini davam etdirirdi. Şəhərdə hərbi vəziyyət elan olundu. Tətilçilərin hazırladıqları bir sıra iqtisadi tələblər ətrafında danışıqlara RSDFP BK-nın nəzarəti altında olan Tətil komitəsi rəhbərlik edirdi. Tətil komitəsi ilə aparılan ilk danışıqlar nəticəsiz oldu. Nəhayət, *dekabrın 21-də* tətilin *dekabrın 23-də* dayandırılacağı barədə razılıq əldə edildi. Sahibkarlar *dekabrın 27-ni* işə qayıdış günü elan etdilər [5, s. 129] və ***dekabrın 30-da*** fəhlələrin ***"Mazut Konstitusiyası"*** adlandırdığı ***müştərək müqavilə*** imzalandı. Müqavilənin əsas müddəaları bunlar idi: 9 saatlıq iş günü, ayda 4 dəfə istirahət günü və ildə bir dəfə məzuniyyət verilməsi, orta əmək haqqının 20-25 % artırılması, xəstəlik üzündən işləyə bil-

məyən fəhlələrə əmək haqqının verilməsi şərti ilə 2 aylıq məzuniyyət verilməsi, 3 növbəli işin tətbiqi, İran təbəələri və digər millətlərdən olan fəhlələr arasında qeyri-bərabərliyin aradan qaldırılması [280], tətil günləri üçün fəhlələrə əmək haqqı ödənilməsi, fəhlələrə mənzil, kerosin, neft və su verilməsi; əmək qabiliyyətini itirənlər üçün 3 ay müddətində əmək haqqının yarısının saxlanması, tətilçilərin cəzalandırılmayacağına təminat verilməsi və s. Göstərilən bu güzəştlər ancaq neft sənayesində çalışan fəhlələrə aid idi [171; 119, s. 71, 79]. ***Dekabrın 31-də*** tətil qalibiyyətlə başa çatdı. Bu, Bakı fəhlələrinin *neft sənayeçiləri* və *çarizm üzərində ilk qələbəsi* idi.

1905-ci il yanvarın 3-də Peterburqda Putilov zavodu fəhlələri, *yanvarın 8-də* isə bütün Peterburq tətil etdi. *Yanvarın 9-da* öz tələbləri ilə Qış Sarayına doğru gedən tətilçilər çarın əmri ilə güllələbaran edildilər. Bu qanlı hadisə Bakıda fəhlələri ayağa qaldırdı, müəssisələrin çoxu, nəqliyyat öz işini dayandırdı. Elə həmin ay Tiflis, Gəncə, Batum, Kutaisi və Cənubi Qafqaz dəmir yolunun fəhlələri tətilə başlamış, Gədəbəyin mis mədənlərində, Ləki stansiyasındakı yağ zavodunda çalışanlar işi dayandırmışdılar. Bakıda zəhmətkeşlərin çıxışlarının böyük vüsət aldığını görən çar hökuməti dairələri burada azərbaycanlılarla ermənilər arasında milli nifaq salmağı qət etdi və buna nail oldu. Hökumətin milli qırğın siyasətinin həyata keçirilməsində Daşnaksütyun Partiyası və erməni quldurları həlledici rol oynadılar. Ermənilər rus məmurlarının dəstəyi ilə Bakıda, Gəncədə, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Tiflisdə, Qarabağda qırğınlar təşkil etdilər. Müsəlmanlara qarşı ***500-ə qədər terror*** hadisəsi törədilmiş, milli qırğın nəticəsində ***158 müsəlman kəndi*** dağıdılmışdır [12, s. 32]. *"Böyük Ermənistan"* xülyasına düşən ermənilər Rusiyanın dəstəyi ilə Cənubi Qafqazda muxtariyyət almağa ümid edirdilər. Ermənilərin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri cinayətlərdən aşağıdakıları göstərmək olar: 1. *Fevralın 6-dan 10-dək* davam edən qırğında *Bakıda 2 mindən* çox, *Cəbrayıl*

qəzasının Qacar kəndində *400 nəfər azərbaycanlı* öldürüldü [12, s. 32]. 2. *Mayın 24-də İrəvanda 11 nəfər* qətlə yetirildi. 3. *Yayda Məngüş, Güllücə, Şeyxəli, Xırmancıq kəndlərində* erməni quldur dəstələrinin hücumlarının qarşısı alındı, əhali onları geri çəkilməyə məcbur etdi. *Avqust ayında* Şuşada törədilən milli qırğının qarşısı da alındı və döyüş azərbaycanlıların qələbəsi ilə başa çatdı.

Bakıda fevralın 6-dan 9-na kimi davam etmiş *erməni-azərbaycanlı qırğınının* qarşısını almaqda "Hümmət" təşkilatı xüsusi fəaliyyət göstərdi. Milli qırğının qarşısını almaqda H.Z.Tağıyevin rolunu xüsusi qeyd etmək olar. Çarirzm qırğınla bərabər, inzibati tədbirlərə də əl atdı. *Fevralın 15-də Bakıda general-qubernator* vəzifəsi təsis edildi. *Fevralın 18-də* isə Bakı quberniyasında *hərbi vəziyyət* elan edildi. *1905-ci il fevralın 26-da Qafqazın baş rəisi vəzifəsi* ləğv edildi, hələ *1883-cü ildə* ləğv edilmiş *Qafqaz canişinliyi* bərpa olundu və qraf Vorontsov-Daşkov fövqəladə səlahiyyətlə canişin təyin edildi. Onun ən başlıca vəzifəsi "Qafqazda təxirə salınmadan dinclik yaratmaq" idi [5, s. 105]. Vorontsov-Daşkov zorla inqilabi hərəkatı boğmağın mümkünsüzlüyünü nəzərə alaraq yerli burjuaziya ilə itttifaq bağlamağı qət etdi. Bunun üçün bir sıra liberal vədlər verdi. Azərbaycan burjuaziyası nümayəndələri bundan istifadə edərək bir sıra tələblər, o cümlədən Zemstvo idarələrinin yaradılmasını, məhkəmə iclasçıları hüququnun Azərbaycana tətbiq edilməsini, azərbaycanlıların bütün qulluq işlərinə qəbul edilmələrini, uşaqlara məktəblərdə ana dilində təhsil almalarına icazə verilməsi, kəndlilərin torpaqla təmin olunması və s. tələblər irəli sürdülər. ***Oktyabrın 17-də*** II Nikolay rejimi iflasdan xilas etmək məqsədilə, eləcə də Rusiya xalqlarına mülki və siyasi azadlıqlar vermək niyyəti ilə *çar manifest* verdi. Manifestdə əhalinin bütün təbəqələrinin iştirakı ilə seçiləcək ***Dövlət Dumasını*** çağırmaq vəd olunurdu.

İnqilabi çıxışların gedişində Moskva, Peterburq şəhərlərində fəhlə deputatları Sovetləri yarandı. Sovetlər silahlı inqilabi çı-

xışların təşkili qərargahı rolunu oynayırdı. ***Bakı Soveti*** *noyabrın 25-də* fəaliyyətə başladı. *1906-cı il mayın 31-də* Azərbaycanda ***I Dövlət Dumasına*** keçirilən seçkilərdə Əlimərdan bəy Topçubaşov, Abdulla bəy Muradxanov, Məmmədtağı Əliyev, İsmayıl xan Ziyadxanov, yazıçı Əbdürrəhim bəy Haqverdiyev və həkim X.İ.Bahadurov seçildilər. ***1906-cı ilin aprelində*** işə başlayan və cəmi 72 gün fəaliyyət göstərən ***I Duma*** *iyulun 7-də* buraxıldı. ***1907-ci il yanvarın 14-də II Dumaya*** keçirilmiş seçkilərdə Bakı fəhlələri özlərinin 116 sosial-demokrat vəkillərini seçdilər. Dumaya Bakı quberniyasından hümmətçi Z.Zeynalov, Yelizavetpol quberniyasından Dumaya Xəlil bəy Xasməmmədov və Fətəli xan Xoyski, Naxçıvandan "Şərqi-Rus" qəzetinin redaktoru Məmmədağa Şaxtaxtinski seçildilər.

Mütləqiyyət hakimiyyəti ***1907-ci il iyunun 3-də II Dövlət Dumasını*** qovaraq, demokratik qüvvələrə qarşı qəti hücuma keçdi. Rusiyada irtica dövrü başlandı. Yeni qanunla Rusiyanın bir çox şəhərləri, o cümlədən Bakı Dumaya müstəqil nümayəndə seçmək hüququndan məhrum edildi. Əgər Bakı şəhərinin, Bakı və Yelizavetpol quberniyalarının 3 deputat seçmək hüququ var idisə, yeni qanuna görə hər iki quberniyanın İrəvan quberniyası ilə birləşdirilib bir seçki dairəsi yaradılmalı idi və bu dairədən biri azərbaycanlı, digəri isə başqa millətlərin nümayəndəsi olan 2 deputat seçilə bilərdi. Cənubi Qafqazda yaşayan rus əhalisinin özünə ayrıca deputat seçmək hüququ verilmişdir. *Okyabrın 14-də* keçirilmiş seçkilərdə müsəlman əhalisindən ***Xəlil bəy Xasməmmədov III Dumaya*** deputat seçildi. İrtica bütün cəbhə boyu hücuma keçdi. *1912-ci il iyunun 9-da* çarın verdiyi fərmanla Dumanın fəaliyyəti dayandırıldı. IV Dövlət Dumasına seçkilər *1912-ci ilin sentyabr* və *oktyabrında* keçirildi. *1912-ci il oktyabrın 20-də* M.Cəfərov və M.İ.Papacanov IV Dövlət dumasının deputatı seçildilər. M.Cəfərov seçicilərinin və öz diyarının mənafeyini müdafiə etməklə yanaşı, ***IV Dövlət Dumasında*** təmsilçi olmayan ucqarların müsəlman əhalisinin də mövqeyini müdafiə

etməyi öz üzərinə götürmüşdü. *1917-ci il martın 1-də* senata veriləcək çar fərmanlarına görə, Dumanın iclasları *fevralın 26-da* dayandırıldı [5, s. 171-175].

XX əsrin əvvəllərində çarizmin müstəmləkəçilik siyasəti, milli zülm, azsaylı xalqların hüquqlarının tapdalanması bütün ictimai təbəqələri milli məsələnin tezliklə həll olunması tələbi ətrafında birləşdirdi. İmperiyanın və dünyanın müxtəlif elm ocaqlarında təhsillərini başa vurub qayıdan gənclər milli-demokratik hərəkatın yaranmasında və inkişafında böyük rol oynayırdılar. Milli hərəkatda "millət və hürriyyət" və s. ideyalar geniş vüsət almışdı. Milli ziyalıların qabaqcıl nümayəndələri Həsənbəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Firudin bəy Köçərli, Məmməd Əmin Rəsulzadə, Rəşid bəy Şirvanski, Əlimərdan bəy Topçubaşov, Ədil bəy Ziyadxanov, Şəmsi Əsədullayev, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyov, Məmməd Səid Ordubadi və b. obyektiv olaraq Azərbaycanın milli müstəqilliyini ***ümumtürk azadlığının*** tərkib hissəsi kimi qarşıya qoyurdular. Milli hərəkatın əsas aparıcı qüvvəsi *milli burjuaziya* və *demokratik ziyalılar* idi. *1905-ci ilin yaz-yay aylarında* Əlimərdan bəy Topçubaşovun bilavasitə rəhbərliyi ilə hazırlanmış və Nazirlər Kabinetinə verilmiş ərz-hallar Azərbaycanın çar hökumətinə təqdim etdiyi ilk program sənədi idi. Bu ərz-hallarda Qafqazda, o cümlədən Azərbaycanda islahatların keçirilməsi tələb edilirdi. *1905-ci il avqustun 15-də* Nijni-Novqorodda keçirilən Ümumrusiya Müsəlmanlarının I Qurultayı *"İttifaqi-müslimin"* ***("Müsəlman ittifaqı")*** adlı təşkilat yaratmağı qərara aldı. Çarizmin *1905-ci il 17 Oktyabr manifestindən* sonra ***Ə.Topçubaşov*** və ***Ə.Ağayev*** Peterburqda yaşayan tatar ***Əbdürrəşid İbrahimovla*** birlikdə ***"Müsəlman ittifaqı"****nın* nizamnaməsini və proqramını hazırladılar [5, s. 154]. *1906-cı il yanvarın 15-25-də* Peterburqda keçirilən Ümumrusiya müsəlmanlarının II Qurultayında bu ni-

zamnamə və proqram bəyənildi. Proqramda Ümumrusiya türklərini birləşdirmək və çarizmə qarşı cəbhədə mübarizə aparmaq vəzifəsi qoyulmuşdur. *1906-cı il avqustun 16-23-də* Nijni-Novqorodda keçirilən Ümumrusiya müsəlmanlarının III Qurultayında "Müsəlman ittifaqı"na rəhbərlik etmək üçün daimi yeri Bakı olan Mərkəzi Komitə yaratmaq qərara alındı. Qurultayda siyasi problemlərlə yanaşı, türklər yaşayan bölgələrdə yeni tipli məktəblərin yaradılması, ibtidai icbari təhsilə keçirilməsi, təhsilin ana dilində aparılması, milli kadrların hazırlanması üçün Bakıda, Kazanda, Baxçasarayda pedaqoji institutların açılması qərara alındı. Məhz bu qurultayın təsiri ilə sonralar türklərin yaşadığı bölgələrdə məktəblər şəbəkəsi genişləndirildi. Milli mətbuat çoxaldı. Milli burjuaziyanın H.Z.Tağıyev kimi nümayəndələri öz xərcləri hesabına istedadlı gəncləri Rusiya və Avropanın ali məktəblərinə oxumağa göndərirdilər. *1905-ci ilin payızında* "Müsəlman cəmiyyəti xeyriyyəsi", "Müdafiə və müsəlman kadrları və ziyalılarının ittifaqı cəmiyyəti" [375, s. 116], *1906-cı ildə* "Nəşri maarif" və "Nicat" cəmiyyətləri (H.Z.Tağıyevin və M.Muxtarovun xeyriyyəçiliyi ilə) təşkil edildi. *1906-cı ilin avqustunda* keçirilən Azərbaycan müəllimlərinin I Qurultayının əsas qayəsini milli dilin azad inkişafı və təhsilin ana dilində olması təşkil edirdi.

Şimali Azərbaycanda milli partiyaların yaradılması. XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif təşkilat və partiyalar yaradılmışdır:

1. ***1902-ci ildə*** M.Ə.Rəsulzadənin rəhbərliyi ilə ilk gizli təşkilat olan ***"Müsəlman gənclik təşkilatı"*** yaradıldı.

2. ***1904-cü ilin payızında*** M.A.Mirqasımov, M.Hacıyev, M.Ə.Rəsulzadə, M.Hacınski və b. təşəbbüsü ilə ***"Hümmət"*** təşkilatı yaradıldı. *1904-1905-ci illərdə* Azərbaycan dilində "Hümmət" adlı qəzet nəşrə başladı. *1905-ci ildən* N.Nətimanov və

M.Əzizbəyov "Hümmət" təşkilatına daxil oldular. Tədricən bolşeviklərin təsiri altına keçən bu təşkilat əvvəlki qayəsini itirdi. M.Ə.Rəsulzadə və onun ideya dostları tədricən bu təşkilatdan uzaqlaşdılar. ***M.Ə.Rəsulzadə*** Rusiyanın müstəmləkə idarə üsuluna qarşı Azərbaycan istiqlal hərəkatının təməlini qoydu.

3. ***1906-ci il avqust-sentyabr*** aylarında Bakı və Yelizavetpol quberniyalarında Əhməd bəy Ağayev vahid milli təşkilat-***"Difai"*** ("Müdafiə") Partiyasını yaratdı [323]. Partiyanın yaradılmasında əsas məqsəd *azərbaycanlılara qarşı törədilən milli qırğınların qarşısını almaq, maarifçilik işini genişləndirmək, siyasi ədəbiyyat yaymaq* və s. idi. "Difai"nin Qarabağ şöbəsinin 400 nəfərlik hərbi dəstəsi var idi [392].

4. ***1907-ci ildə*** Gəncədə İsmayıl xan Ziyadxanlının rəhbərliyi ilə yaradılan ***"Müdafiə"*** təşkilatının [491] qarşısında duran əsas məqsəd əhali içərisində *maarifi yaymaq, onların hüquq* və *mənafelərini qorumaq, kəndli məişətini yaxşılaşdırmaq* və s. idi [5, s. 157].

5. ***1906-cı ildə*** Bakıda R.Məlikov, R.Şərifzadə və M.Cuvarlinskinin rəhbərliyi ilə yaradılan ***"İttifaq"*** təşkilatının qarşıya qoyduğu əsas məqsəd geridə qalmış kütlələri *maarifləndirmək* və *xalqın azadlığını, müsəlman əhalini erməni-rus silahlı birləşmələrinin soyqırımından* qorumaq idi.

6. ***1911-ci ildə Müsəlman Demokratik "Müsavat"*** ("Bərabərlik") Partiyası yaradıldı. Onun *1912-ci ildə* çap edilmiş proqramında ***müsəlman xalqlarının birliyinə, müstəqilliyinə*** və ***dövlətçiliyinin bərpasına nail olmaq*** əsas vəzifə kimi irəli sürülürdü. Partiyanın əsas şüarı ***"türkləşmək, islamlaşmaq və müasirləşmək"*** idi [12, s. 39]. *1913-cü ildə* fəaliyyətini dayandıran bu siyasi təşkilat *1917-ci ildə* fəaliyyətini bərpa etdi. "Müsavat" Partiyası Azərbaycan Cümhuriyyətinin yaranmasında mühüm rol oynadı.

Fəhlələrin ağır vəziyyəti *1910-1911-ci illərdə* Bakıda bir sıra pərakəndə çıxışların baş verməsinə səbəb oldu. *1912-ci il*

aprelin 4-də Sibirdə Lena qızıl mədənlərində 3 min nəfərlik fəhlənin dinc nümayişinin güllələran edilməsi Azərbaycanda tətil hərəkatına təkan verdi. *Mayın 7-də Nuxada* başlayan tətil a*yın 12-də 6 min nəfərin* iştirak etdiyi *ümumi* tətilə çevrildi. Bu tətil *mayın 15-də* sahibkarlarla fəhlələr arasında ***Müştərək müqavilənin*** bağlanması ilə nəticələndi. Müqaviləyə görə *iş günü qısaldıldı, əmək haqqı qismən artırıldı.*

1910-1912-ci illərdə Azərbaycan qəzalarında da çıxışlar genişləndi, silahlı qaçaq dəstələri təşkil etmiş kəndlilər mülkədar, qolçomaq malikanələrinə basqınlar edirdilər. Kəndli həyəcanları Yelizavetpol, Nuxa, Şuşa, Qazax, Cavanşir, Şamaxı, Cavad, Lənkəran, Bakı, Naxçıvan qəzalarında və Zaqatala dairəsində baş verirdi. Yelizavetpol qəzasında Qatır Məmməd, Kərbəlayı Ələsgər, Məşədi Yolçu, Qandal Nağının başçılıq etdikləri qaçaq hərəkatı geniş miqyas almışdır. Qatır Məmməd *1909-cu ildə* Goranboy-Əhmədli kəndlilərinin çıxışına başçılıq edirdi. Bu çıxış tezliklə silah gücünə yatırıldı. *1914-cü ildə* Qatır Məmməd həbs olundu və İrkutsk quberniyasına sürgün edildi. *1910-cu ildə* Yelizavetpol quberniyasında kəndli çıxışlarından birinə başçılıq edən *Kərbəlayi Əsgərin* silahlı dəstəsi çar hakimiyyət orqanlarına və mülkədarlara qarşı amansız idi. Digər qaçaq dəstəsinə *Məşədi Yolçu* başçılıq edirdi.

1913-1914-cü illərdə tətil və nümayişlərin sayı çoxaldı. 1913-cü ilin iyulunda Bakıda tətil hərəkatı xeyli genişlənərək ***iyulun 25-də ümumi tətilə*** çevrildi. *1914-cü il iyunun 1-də* artıq 40 min fəhlə tətilə qoşulmuşdur. Yeni inqilabi yüksəliş illərində Azərbaycanda milli azadlıq hərəkatı da xeyli genişlənmişdir. Azərbaycanda milli burjuaziyanın təşəkkülü, milli mədəni müəssisələrin meydana çıxması, doğma dildə qəzet və jurnalların nəşri və s. xalqın milli şüurunun artmasına və siyasi fəaliyyətinin güclənməsinə, milli azadlıq hərəkatının genişlənməsinə səbəb olurdu. Azərbaycan burjuaziyası Rusiyanın *hakim sinifləri ilə bərabər hüquqlara malik olmasını, müxtəlif məhdudiyyətlərin*

ləğv olunmasını, ana dilində ibtidai təhsilin hər yerdə həyata keçirilməsini, Zemstvo sisteminin yaradılmasını və şəhər özünüidarəsində islahat keçirilməsi qanununun verilməsini və s. tələb edirdi. İri torpaq sahibləri-bəylər də öz sinfi hüquqları və silki üstünlüklərini müdafiəyə qalxırdılar. Azərbaycan burjuaziyasının milli azadlıq ideyaları *"Yeni füyuzat", "Şəlalə" jurnallarında, "İqbal", "Günəş", "Yeni Həyat"* və b. qəzetlərdə geniş təbliğ olunurdu. M.Ə.Rəsulzadənin, Q.R.Şərifzadənin, A.K.Kazımzadənin və b. 1911-ci ilin sonunda təsis etdikləri müsəlman demokrat partiyası "Müsavat" burjuaziyanı öz ətrafında cəmləşdirərək başçılıq etdiyi milli azadlıq hərəkatını istiqamətləndirməyə səy göstərirdi. Bu istiqamətdə "Molla Nəsrəddin" jurnalı və onun naşirləri C.Məmmədquluzadə, M.S.Ordubadi, N.B.Vəzirov, Ə.Haqverdiyev, Ə.Rəhimzadə, F.Köçərli, həmçinin M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağayev, Ü.Hacıbəyov, Ə.Qəmküsar və b. mühüm rol oynayırdılar, demokrat ziyalı nümayəndələrdən Q.Minasazovu, Ə.Sultanovu, R.Məlikovu və b. qeyd etmək olar. Q.Minasazov yazırdı ki, "Rus bürokratiyası həmişə müsəlman kütlələrinin əsarətdə olmasını rus dövlətinin məqsədləri üçün sərfəli hesab etmişdir".

"Molla Nəsrəddin" jurnalı çarizmin müstəmləkə siyasətini ifşa edir, Azərbaycan xalqı üçün siyasi azadlıqlar və milli hüquq bərabərliyi tələb edirdi. Ziyalılarımız orta əsr qalıqlarını, fanatizmi, xurafatı və avamlığı məhvedici tənqid atəşinə tutmaqla xalq kütlələrinin milli və siyasi özünüdərkinin oyanışına və yüksəlişinə təkan verir, Azərbaycan xalqının milli-azadlıq mübarizəsinə kömək edirdilər.

2. Azərbaycan I Dünya müharibəsi dövründə

Dünyanı yenidən bölüşdürmək istəyən ***"Üçlər ittifaqı"*** ((1879-1882) İtaliya, Almaniya, Avstriya)) və ***"Antanta"*** ((1907) İngiltərə, Rusiya)) hərbi-siyasi blokları arasında qarşıdurma ***I Dünya müharibəsinə*** *(1914, 19 iyun (1 avqust) – 1918, 11 noyabr)* gətirib çıxardı. Müharibənin başlanmasının səbəbkarları onun iştirakçısı olan bütün aparıcı dövlətlər - Almaniya, İngiltərə, Fransa, Avstriya, Macarıstan və Rusiya idi. Müharibə Avstriya-Macarıstan ordusunun Serbiyaya qarşı yürüşü ilə başladı. Serbiya ilə müqaviləsi olan Rusiya *iyunun 19-da (avqustun 1-də)* ümumi səfərbərlik keçirdi. Buna cavab olaraq Almaniya Rusiyaya müharibə elan etdi. Rusiyanın Antanta üzrə müttəfiqləri - Fransa və İngiltərə Almaniyaya qarşı çıxdı. ***1914-cü il iyunun 19-da (avqustun 1-də) I Dünya müharibəsi*** başlandı. Rusiya və Almaniya Konstantinopol və boğazlar üstündə, Türkiyə və Rusiya Qərbi Ermənistan və Konstantinopola görə, Rusiya və Avstriya Balkanlarda hökmranlıq uğrunda mübarizədə bir-biri ilə rəqabət aparırdı [5, s. 176]. Müharibəyə qoşulmuş ölkələrin Azərbaycana münasibətdə də öz planları var idi. Alman imperializmi Qafqaza can atır, Bakı neftini ələ keçirmək istəyirdi. Rudolf Martin hələ müharibədən xeyli əvvəl, *1907-ci ildə* nəşr etdirdiyi "Berlin-Bağdad" adlı kitabında almanların hakimiyyəti altında Bakı və bütün Qafqazı əhatə edəcək "Tiflis canişinliyi" yaradılmasını Almaniya və Rusiya arasındakı gələcək müharibənin məqsədlərindən biri adlandırırdı [185, s. 13]. *Almaniya* öz məqsədinə çatmaq üçün Osmanlı imperiyasının iştirakı ilə Qafqazı və Ön Asiyanı nüfuz dairəsinə almaq, *türk ordusunun köməyi* ilə Hindistana və Əfqanıstana yol açmaqla Rusiyanın və İngiltərənin mövqelərinə zərbə vurmaq niyyətində idi. Almaniyanın Qafqaza dair işğalçılıq planına görə, Rusiyanın müharibədə məğlubiyyətindən sonra Qafqazda Rusiya ilə Osmanlı imperiyası arasında xristian bufer dövləti, habelə Osmanlı imperiyasının sərhədi yaxınlığında *bitərəf Qafqaz müsəlman*

dövləti – Turan imperiyası yaradılmalı idi. Özünün mənafeyi ilə bağlı planları olan Osmanlı Türkiyəsi müharibəyə qoşularaq onu cihad elan etdi və bütün dünya müsəlmanlarını köməyə çağırdı. Qafqaz, Orta Asiya, Krım və Volqaboyunun istilası Turan imperiyasının yaradılmasının əsasını təşkil edirdi [5, s. 178]. Osmanlı Qafqazda və Rusiyada yaşayan müsəlmanları çarizmin əsarətindən xilas etmək, İranda İngiltərənin nüfuzuna zərbə vurmaq istəyirdi. *Rusiyanın* bu müharibədə əsas məqsədi *boğazlara sahib olmaq* və *Osmanlı imperiyasını bölüşdürmək* idi. Ona görə də Rusiyaya qarşı müharibədə Osmanlı imperiyasının Almaniya ilə yaxınlaşması təbii idi.

1914-cü il oktyabrın 29-da türk və alman gəmiləri Sevastopol, Odessa, Novorossiysk və Feodosiyanı atəşə tutdu. Elə həmin gün alman "Breslau" kreyseri Kerç boğazından çıxış yolunu minaladı. Buna cavab olaraq, ***oktyabrın 31-də*** Rusiya Osmanlıya müharibə elan etdi [5, s. 179]. Batumdan Cənubi Azərbaycanda Urmiya gölünə qədər uzanan 100 km-dən artıq *Qafqaz cəbhəsi* yarandı. ***Ənvər paşanın*** və qərargahının hazırladığı hərbi plana görə, Qafqaz cəbhəsində rus qoşunlarına əsas zərbə ***Sarıqamış əməliyyatında*** endirilməli idi. Əməliyyata Ənvər paşanın özü rəhbərlik edirdi. ***Sarıqamış əməliyyatı*** *1914-cü il dekabrın 4-dən 1915-ci il yanvarın 18-nə* kimi davam etdi [12, s. 53]. Osmanlı qoşunları hücuma keçib Batum vilayətinə, həmçinin Cənubi Azərbaycana soxuldular, müvəffəqiyyət də qazandılar. Lakin *canlı qüvvənin və hərbi texnikanın çoxluğu, habelə almanların hazırladığı əməliyyat planındakı nöqsanlar* rus ordusuna qələbə qazandırdı. Osmanlı əsgərlərinin xeyli hissəsi soyuqdan və aclıqdan öldü, 3500 nəfəri isə əsir götürüldü. Ümumiyyətlə, Sarıqamış əməliyyatında Osmanlı döyüşlərdə iştirak etmiş qüvvələrinin 86%-dən çoxunu itirmişdir [5, s. 180]. *1915-ci ilin yazında* erməni silahlı dəstələrinin kömək göstərdiyi rus qoşunları Şərqi Türkiyənin ermənilər yaşadığı ərazisinə soxuldular. Eyni zamanda daşnaklar yerli ermənilərin türklərə qarşı üsyan qaldırmaları-

na nail oldular. Buna cavab olaraq Osmanlı hökuməti ermənilərin kütləvi surətdə köçürülməsini əmr etdi. Bu deportasiyanın gedişində xeyli miqdarda dinc əhali zərər çəkdi və sonralar bu fakt erməni tarixçiləri tərəfindən "genosid" kimi təqdim olunmağa başlandı. Eyni zamanda general Lyaxovun rus dəstələri Batuma girərək Osmanlılara kömək göstərdiyinə görə *acar əhalisinin 90%-ni* qırdı [156, s. 46]. Qafqaz cəbhəsindəki döyüşlərlə bir vaxtda Osmanlı qoşunları rusların diqqətini Qafqaz cəbhəsindən yayındırmaq məqsədi ilə Cənubi Azərbaycan ərazisinə daxil oldular. Osmanlı ekspedisiya korpusu Xəlil bəyin komandanlığı altında *1915-ci il yanvarın 1-də* Təbrizi, apreldə isə Urmiyanı ələ keçirdi [5, s. 181]. *1915-ci il yanvarın sonunda* rus qoşunları hücuma keçib Təbrizə girdilər. Dilman döyüşündə Xəlil bəyin korpusu məğlub oldu və tezliklə Cənubi Azərbaycandan sıxışdırılıb çıxarıldı. Lakin Rusiyanın bu bölgədə mövqelərinin gücləndirilməsindən çəkinən və Osmanlının tamamilə darmadağın edilməsini istəməyən İngiltərə və Fransa hökumətlərinin təzyiqi altında rus qoşunlarının hücumu dayandırıldı. Osmanlının ermənilər yaşayan vilayətlərindəki hərbi əməliyyatlar nəticəsində yüz minlərlə erməni rusların himayəsi altında İrəvan, Yelizavetpol və Bakı quberniyaları ərazilərinə axışdı.

Rusiyada yaşayan müsəlman türkləri orduya çağırılmırdılar. Bundan başqa, çar hökuməti *Azərbaycan turklərinin* cəbhədə Osmanlı ordusuna qarşı vuruşmayacaqlarından, silahı müstəmləkəçilərin özünə qarşı çevirəcəklərindən ehtiyat edərək I Dünya müharibəsi dövründə onları orduya çağırmamışdır. Rus ordusunda xidmətə yalnız *ali müsəlman silkinə* məxsus olanlar qəbul edilirdi. Rus ordusunda *200 nəfərdən* çox azərbaycanlı zabit– ***Teymur Novruzov, Fərrux ağa Qayıbov, Tərlan Əliyarbəyov, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseynxan Naxçıvanski, İbrahim ağa Vəkilov*** qulluq edirdi. I Dünya müharibəsi dövründə azərbaycanlılardan təşkil olunmuş əlahiddə *"tatar süvari alayı"* çar generalları tərəfindən *"vəhşi diviziya"* adlandırılırdı [5,

s. 184]. Sonralar bu alay ***Azərbaycan milli ordusunun*** təşkilində böyük rol oynadı. General Səməd bəy Mehmandarov, *"Artilleriyanın allahı"* adlandırılmış general-leytenant Əliağa Şıxlinski döyüşlərdə xüsusilə fərqlənirdilər. Bir çox azərbaycanlı zabitlər – polkovnik Talib Vəkilov, rotmistr Teymur Novruzov, kapitan Tərlan Əliyarbəyov və başqaları döyüşlərdə göstərdikləri igidliyə görə *"Georgi xaçı"* ilə təltif edilmişdilər. İlk azərbaycanlı hərbi təyyarəçi poruçik Fərrux Qayıbovun təyyarəsi rus aviasiya qrupunun Vilnodakı alman hərbi obyektlərinə hava hücumlarında iştirak etmiş, 4 düşmən təyyarəsindən 3-nü vurub salmış, lakin özü sonda qəhrəmancasına həlak olmuşdur [5, s. 185].

I Dünya müharibəsi çar Rusiyasının bütün xalq təsərrüfatını yenidən qurmağı, təsərrüfatın bütün ağırlıq mərkəzini *müdafiə sənayesinə* keçirməyi tələb edirdi: Azərbaycanda bu sahədə *neft sənayesi* mühüm rol oynayırdı. Müharibə illərində çıxarılan *neftin* hamısını-*80%-ni* hökumət alırdı. Texniki vasitələrin çatışmaması, xaricdən neft avadanlığı alınmasındakı çətinliklər, mədən-zavod təsərrüfatında əsaslı təmir işlərinin aparılmaması qazma işlərinin də azalmasına, emal olunan məhsulların kəskin surətdə aşağı düşməsinə səbəb olurdu. Neft sənayesinin texniki geriliyə məruz qalması çıxarılan neftin yalnız yarıdan bir qədər çoxunu emal etməyə imkan verirdi. Neft məhsulları emalının ümumi miqdarı *1917-ci ildə 1913-cü ildəki* 320 mln puddan 225,3 mln. puda düşmüşdür. Müharibə illərində Bakı emal zavodlarında yüksək keyfiyyətli neft məhsulları buraxılışı 38,2 faizdən 23 faizə enmişdir. Ümumi təsərrüfat düşgünlüyü xalq təsərrüfatının digər sahələrinə: dağ-mədən, ipəkçilik və s. təsir etmişdir. Gədəbəydə mis çıxarılması *1913 ildə* 1,8 mln. puddan *1915 ildə* 105 min puda, mis emalı 49,2 min puddan 2,5 min puda endi [5, s. 196]. Gədəbəydəki misəritmə zavodu hərbi sifarişlər yerinə yetirməyə cəlb olunduğuna görə müharibə vaxtı orada çalışan qeyri-müsəlman fəhlələrə möhlət verilmişdir və onlar orduya çağırılmırdılar. Ölkədə istehsal olunan strateji məhsullardan biri

pambıq idi. Cəbhə üçün 1915-ci ildə işləyən pambıq-parça fabriklərini xammalla təchiz etmək üçün dövlət komitəsi yaradılmışdır. Müharibə yeyinti, tikinti və b. sənaye sahələrinə də təsir etmişdir.

Müharibə ərəfəsində Bakıda *1897-ci ildə* fəhlələrin sayı 100 mindən çox, bütün Azərbaycanda isə 242 minə çatırdı. Kənd təsərrüfatı fəhlələri də nəzərə alınsa, onların ümumi sayı yarım milyona çatırdı. Çar hökuməti müsəlman və türk xalqları nümayəndələrini orduya çağırmasada, müharibə zamanı *1915-ci il iyunun 25-də* ***"Özgə xalqlardan" olan 18 yaşından 43 yaşına kimi şəxslərin*** (50 mindən çox) ***müharibə ilə əlaqədar işlərə səfərbərliyə alınması haqqında*** Fərman verdi [12, s. 56]. Bu tədbir Qafqazın müsəlman əhalisinin güclü müqavimətinə rast gəldi. Ümumi narazılıqdan ehtiyat edən Qafqaz hökumət orqanları *II Nikolaydan* ***"25 iyun"*** *Fərmanının* ləğv edilməsini xahiş etməyə məcbur oldular. Çar arxa cəbhə işlərinə *"məcburi"* səfərbərliyi *"könüllü"* səfərbərliklə əvəz etməyə razılıq verdi. "Könüllü" səfərbərlik "məcburi"dən heç də fərqlənmirdi. "Könüllü" səfərbərlik nəticəsində Azərbaycanın əmək qabiliyyətli kənd əhalisinin kişilərinin xeyli hissəsi təsərrüfatdan ayrılaraq cəbhə arxasında, xüsusən cəbhə və cəbhəyə yaxın yerlərdə istehkam tikmək, yol düzəltmək, körpülər salmaq və s. işlərdə işlədilirdi. İmperialist müharibəsi Azərbaycan kəndini təsərrüfat pozğunluğu və iqtisadi fəlakət həddinə çatdırmışdır. Fəhlələrin iş, məişət şəraiti daha da pisləşmişdir. Bu isə fəhlə çıxışlarına, tətillərə səbəb olurdu. Bu tətillər *1916-cı ilin payızında* geniş inqilabi vüsət alaraq *1917-ci ilin yanvarında* daha da genişləndi. "Proqressiv blok" bütün gücünü mütləqiyyətin müdafiəsinə yönəltmişdisə, liberal burjua nümayəndələri çarizmdən güzəştlər gözləyir, ölkənin siyasi həyatında öz mövqelərini möhkəmlətməyə çalışırdılar. Onlar yenə ana dilində məktəblər açmaq və s. kimi əvvəllər irəli sürdükləri tələbləri təkrar edirdilər.

3. 1917-1918-ci ilin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı

1916-cı ilin sonu -1917-ci ilin əvvəllərində Rusiyada inqilabi şərait artıq yetişmişdir. Burjuaziyanın çar II Nikolayla uzun-uzadı danışıqları bir nəticə verməd. Bolşeviklər zəhmətkeşləri çarizmə qarşı silahlı üsyana çağırırdılar. *1917-ci il 23 fevralda* Petroqrad fəhlələrinin üsyanı ilə başlanan inqilab *fevralın 27-də* qələbə çaldı, çar hökuməti devrildi. Çarizmin devrilməsi xəbəri Bakıya *martın 2-də* çatdı, şəhərdə, mədən rayonlarında çoxminli mitinqlər keçirildi. *Martın 7-də* 52 nəfərdən ibarət *Bakı Soveti* yaradıldı, çoxluğu menşeviklər və eserlər təşkil edirdilər. *Martın 17-də* Müvəqqəti hökumətin orqanı olan *İctimai Təşkilatların İcraiyyə Komitəsi* təşkil edildi. Tərkibi burjuaziyadan ibarət idi. Bu orqan *1917-ci ilin martın 3-də* Müvəqqəti hökumətin yaratdığı *Xüsusi Cənubi Qafqaz Komitəsinə* tabe edildi. Beləliklə, Bakıda ***2 hakimiyyət orqanı*** yaradıldı: bir tərəfdən ***fəhlə deputatları Soveti***, digər tərəfdən isə ***Ictimai Təşkilatların Icraiyyə Komitəsi***. Azərbaycanın qəza və şəhərlərinin bir çoxunda ikihakimiyyətlilik meydana çıxsa da, bəzilərində fəhlə və əsgər deputatları Sovetləri yaradıldı. *1917-ci il martın 9-da* RSDFP-nin 5 nəfərdən ibarət *Xüsusi Cənubi Qafqaz Komitəsi* (2 bolşevik və 3 menşevik) və ***"Hümmət"in*** müvəqqəti Komitəsi seçildi. *Martın 27-də* müsəlman ictimai təşkilatlarının yığıncağında Bakı müsəlman ictimai təşkilatları Sovetinin müvəqqəti Komitəsi təşkil edildi (neft sənayeçisi Ş.Əsədullayev, müsavatçıların rəhbərlərindən M.Ə.Rəsulzadə və b.). Cənubi Qafqazdakı milli şuralar içərisində ən nüfuzlusu *Bakı Müsəlman Milli Şurası* idi.

Fevral inqilabından sonra Azərbaycanda başlanan ***milli-azadlıq hərəkatının*** əsas cəhətləri:

1) milli hərəkatın daha ***kütləvi*** və ***siyasi*** səciyyə alması,
2) hərakata ***milli ziyalıların rəhbərlik*** etməsi;
3) əhalinin bütün təbəqələrinin ***milli dövlətçilik ideyası*** ətrafında birləşməsi idi [5, s. 311].

1917-ci il aprelin 15-20-də Bakıda keçirilən ***Qafqaz müsəlmanlarının Qurultayı*** Rusiya müsəlmanlarının birləşdirilməsi şüarı altında keçdi. Bu qurultayda yaranmış zəmin əsasında *1917-ci ilin iyunun 20-də (3 iyul)* federalistlər (Türk Ədəmi Mərkəziyyət Partiyası) Müsavatla birləşdi və *Türk Federalist Müsavat Partiyası* adlandı. *1917-ci il may ayının 1-dən 11-nə qədər* keçirilən *Ümumrusiya müsəlmanlarının Qurultayı* Şəmsi Əsədullayevin Moskvada tikdirdiyi və müsəlmanların sərəncamına verdiyi binada açıldı. Qurultayın gündəliyində Rusiyanın gələcək idarə forması; mədəni və məhəlli muxtariyyət, müharibəyə münasibət, Məclisi-Müəssisan; Qadınlar, fəhlə, torpaq məsələləri (hər biri ayrılıqda); Qafqaziya, Türküstan, Qazaxıstan məsələləri (müstəmləkə siyasəti və s.); əsgəri təşkilat, siyasi təşkilat məsələləri; bütün Rusiya müsəlmanlarının böyük milli şurasını seçmək və s. məsələlər dururdu [324]. *1917-ci ilin mart ayında* Bakıda bolşeviklərin ***"Ədalət"*** təşkilatı yaradıldı. Bu təşkilat Azərbaycanın cənubundan şimala kəsbkarlığa gəlmiş fəhlələr arasında inqilabi iş görmək və İranın inqilabi-demokratik qüvvələri ilə əlaqə yaratmaq məramına xidmət edirdi. *1917-ci ilin avqustunda* ***"Birlik"*** təşkilatı yaradıldı. ***1917-ci il oktyabrın 25-dən 31-dək*** davam etmiş ***Müsavat Partiyasının I Qurultayı*** partiyanın sonrakı siyasi mübarizəsinin və Azərbaycana milli ərazi muxtariyyəti verilməsinin taktika və strategiyasını müəyyən etdi [168, s. 76-77]. "Müsavat" öz partiya proqramında bütün fəhlə və qulluqçular üçün *8 saatlıq iş günü, onlara həftədə 24 saat fasiləsiz istirahət verilməsini, əlavə işlərə qadağan qoyulmasını, 16-18 yaşlı yeniyetmələr üçün 6 saatlıq iş günü müəyyən edilməsini, eyni zamanda məktəbyaşlı uşaqların muzdlu əməkdə istifadə olunmamasını, qadınların işlədiyi fabrik və zavodlarda südəmər uşaqlar üçün körpələr evi açılmasını, fəhlələrə həftəlik maaş verilməsini* nəzərdə tuturdu [5, s. 310]. *1917-ci ildə* Azərbaycanda ***milli-azadlıq uğrunda mübarizə 3 istiqamətdə*** aparılırdı:

1) müvəqqəti hökumətin əsarətdə olan xalqlara qarşı yeritdiyi ***müstəmləkəçilik*** siyasətinə qarşı;

2) inqilabçı demokratların rəhbərlik etdiyi ***Sovetlərə*** *qarşı;*

3) ermənilərin azərbaycanlılara qarşı törətdikləri ***soyqırımın*** qarşısının alınması.

1917-ci il oktyabrın 25-də Petroqradda bolşevik çevrilişi nəticəsində *Müvəqqəti hökumət* devrildi. *Oktyabrın 25-26-da* V.İ.Lenin başda olmaqla *sovet diktaturasının* əsası qoyuldu [5, s. 312]. Bundan sonra Azərbaycanda başlayan istiqlaliyyət uğrunda mübarizə *1918-ci ilin may ayında* milli dövlətçiliyin bərpası ilə nəticələndi.

1918-ci il mart soyqırımı. Müsavatın sosial bazasını məhv etmək, Azərbaycan milli hərəkatına divan tutmaq üçün bolşeviklər milli qırğından istifadə etdilər. Bakı Sovetinin *1918-ci il martın 15-də* keçirilən iclasında S.Şaumyan ***azərbaycanlıların soyqırımına*** göstəriş verdi. H.Z.Tağıyevin Lənkəranda xidmət edən və təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olan oğlu *Məhəmməd Tağıyevin* dəfn mərasimindən sonra ***"Evelina"*** gəmisinin müsəlman alayının zabitləri gəmi ilə Lənkərana qayıtmalı oldular. Əlverişli məqamın yetişdiyini görən ermənilər Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv etsinlər [401]. *Martın 30-da* yaradılan Bakı şəhəri mədən-zavod rayonlarının İnqilabi Müdafiə Komitəsinin təşəbbüsü ilə "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildi. Şəxsi heyəti müsəlmanlardan ibarət olan ***"Evelina"*** gəmisinin tərk-silah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Müsəlman əhalisi məscidlərə toplanaraq silahların qaytarılmasını tələb etdi. Daşnaksütyun Partiyası və erməni milli şurası bolşeviklərin tərəfinə keçdi. Müsəlmanlara ilk atəş ***1918-ci il martın 30-da saat 16:00-da*** erməni kilsəsinin

yanında açıldı. Müsəlmanların guya İçərişəhərdə rusları qırması barədə ermənilərin fitvasına inanan rus matrosları azərbaycanlıları atəşə tutdular. ***Martın 31-də "Kərpicxana", "Məmmədli"*** və s. azərbaycanlı məhəllələrinə bolşevik-erməni hərbi dəstələrinin hücumları başladı. Bakıda azərbaycanlılara məxsus bütün ictimai binalar, milli rəmzlər, mədəniyyət abidələri, mədəniyyət ocaqları dağıdıldı. Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi ***"İsmailliyə"*** (indiki AMEA-nın Rəyasət Heyətinin binası) binası Mikoyanın başçılıq etdiyi Qırmızı Qvardiya tərəfindən yandırıldı [12, s. 64]. Qeyri-bərabər döyüşdə soyqırıma məruz qalan müsəlmanlar ***martın 31-də*** müqaviməti dayandırdılar. Şəhərin dinc, silahsız müsəlman əhalisinə qanlı divan tutuldu. Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, körpə uşaqları süngülərin ucuna keçirirdilər. Dinc əhalini qorxudan dəhşətə gətirib istədiklərinə nail olmaq üçün hər cür vəhşiliyə əl atan bolşevik-erməni cəlladları müsəlman qadınlarını daha ağır formada qətlə yetirdilər: şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdır. Çoxlu gənc qadını diri-diri divara mismarlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini gülləbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar qoyulmuşdur [402]. ***Aprelin 2-də*** gecə keçənədək minlərlə azərbaycanlı öldürüldü, hətta tüstüsü ərşə qalxan *"İsmailiyyə"dəki* yanğını söndürməyə gələn müsəlman əhalisi yenidən atəşə tutuldu. ***Mart soyqırımında*** təkcə ***Bakıda 12 mindən*** çox azərbaycanlı qətlə yetirildi [21, s. 173]. Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkəran qəzalarında azərbaycanlı əhaliyə qanlı divan tutuldu. ***Şamaxıda 72 kənd*** dağıdıldı, ***8 mindən*** çox azərbaycanlı qətlə yetirildi [285], onların 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi [389]. ***Quba qəzasında 122 kənd*** yandırılmışdır [389]. *1918-ci ilin sentyabrınadək* ***Bakı quberniyasında 20 mindən çox azərbaycanlı*** öldürülmüşdür.

Ümumiyyətlə, bu ***soyqırım*** zamanı Azərbaycanda ***50 minə qədər azərbaycanlı*** qətlə yetirilmişdir.

Mart soyqırımı Baki Sovetinin antiazərbaycan siyasətinin təzahürü idi. Mart faciəsindən sonra bolşeviklər Bakıda siyasi hakimiyyətlərini möhkəmləndirmək üçün:

1) azərbaycanlılara məxsus bütün qəzet və jurnalları bağladılar;

2) şəhər təsərrüfatını Bakı Sovetinin-bolşeviklərin ixtiyarına keçirdilər;

3) aprelin 20-də Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Bakı şəhər Dumasını buraxdılar;

4) erməni milli şurasından başqa, bütün milli şuraların fəaliyyətini qadağan etdilər.

1918-ci il aprelin 25-də Bakı Xalq Komissarları Soveti deyilən qurum yaradıldı. Əslində "Erməni sovet hökuməti" olan bu qurumun tərkibində cəmi 3 azərbaycanlı var idi. XKS-ə S.Şaumyan sədrlik edirdi. Bakı XKS-nin rəhbərliyi Azərbaycanı Sovet Rusiyasının ayrılmaz tərkib hissəsi hesab edir, muxtariyyət ideyasının qəti əleyhinə çıxaraq bunu Azərbaycan millətçilərinin xam xəyalı sayırdı. May ayında bütün köhnə hakimiyyət orqanları ləğv edildi. Fəhlə-kəndli milisi, şəhər, qəza, mahal xalq məhkəmələri yaradıldı, hərbi tribunal təsis olundu, fövqəladə komissiya yaradıldı. Bakı XKS-i sosialist tədbirləri adı altında neft sənayesini və Xəzər Ticarət Donanmasını milliləşdirdi. Bolşeviklərin milliləşdirmə siyasəti nəticəsində *1918-ci ilin avqust ayınadək "qardaşlıq yardımı"* adı ilə əvəzi ödənilmədən Azərbaycandan Sovet Rusiyasına *1 mln. 300 min ton neft* və *neft məhsulları* göndərildi [137, s. 112-113]. Bakını hərbi cəhətdən möhkəmləndirmək məqsədilə V.İ.Leninin göstərişi ilə şəhərə 4 zirehli avtomobil, 13 təyyarə və bir çox hərbi dəstələr göndərildi. *1918-ci ildə* Bakı XKS əsgərlərinin sayı *18 min nəfərə* çatdırıldı ki, bunların da *13 min nəfəri erməni* idi.

4. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti. Maarif və elm

XX əsrin əvvəllərində *Azərbaycan mədəniyyəti* inkişaf etməyə başladı. Azərbaycanın demokratik ictimaiyyəti *"rus-tatar"* məktəbləri şəbəkəsini genişləndirmək uğrunda mübarizə aparır, çarizmin məktəbləri ruslaşdırma siyasətinə qarşı çıxırdılar. Azərbaycan qadınlarının dini xurafatın hakim olduğu bir şəraitdə savadlandırılması çox mühüm idi. ***1901-ci ildə*** Bakıda ***H.Z.Tağıyev*** öz hesabına ***"Bakı rus-müsəlman qadın məktəbini"*** açdı. Birsinifli olan bu məktəb *1913-cü ildə* ***ikisinifli****, 1916-cı ildə* isə ***ibtidai-ali məktəb*** oldu. *1916-cı il yanvarın 1-də* bu məktəbdə *104 qız təhsil* alırdı ki, onların *95-i azərbaycanlı* idi. *1902-ci ildə* Gəncədə, bir qədər sonra Ağdaşda, Qazax qəzasının Salahlı kəndində, Göyçay qəzasının Zəyəlu kəndində, Şuşada, Şamaxıda, Karyagin qəzasında və b. yerlərdə ilk qadın məktəbləri açıldı. Qız məktəblərində işləmiş müəllimlərdən *Hənifə xanım Məlikovanın, Xədicə xanım Ağayevanın, Rəhilə xanım Hacıbəyovanın, Sara xanım Vəzirovanın, Şəfiqə xanım Əfəndiyevanın, Ayna Sultanovanın* adlarını qeyd etmək olar. Azərbaycan müəlliflərinin qarşısında duran ən mühüm vəzifələrdən biri tədris-metodiki vəsait hazırlayıb nəşr etmək idi. Bu yolda *Rəşid bəy Əfəndiyevin, S.S.Axundovun, F.Ağazadənin, Abdulla Şaiqin, M.Mahmudbəyovun, A.Səhhətin, A.Əfəndiyevin, Q.N.Nərimanbəyovun, M.Qəmərlinskinin, Ü.Hacıbəyovun, Q.R.Mirzəzadənin, F.Köçərlinin* rolu xüsusi qeyd olunmalıdır. Azərbaycanda orta məktəblər, professional-texniki məktəblər də açılmağa başlanmışdır, bazar günləri fəaliyyət göstərdiyi üçün *Bazar məktəbləri* adlanan məktəblərdə yaşlılar təhsil alırdılar. Azərbaycanda xeyli mədəni-maarif idarələri: kitabxana, xalq evləri, klublar və s. fəaliyyət göstərirdi. Bakıda 4 kitabxana var idi. Kitabxana-qiraətxanalar Şuşa, Nuxa, Gəncə, Quba və başqa yerlərdə də açılmışdır. *1902-ci ildə* Qara şəhərdə və *1906-cı ildə* Bayılda açılmış *xalq evlə-*

rində-mədəni-maarif ocaqlarında görkəmli mədəniyyət xadimləri mühazirələr oxuyurdular. Bakıda yaranmış "Nicat" cəmiyyətinin ətrafında inqilabi-demokratik ziyalılar toplaşmışdır. *1906-cı ildə* fəaliyyətə başlayan "Nəşri-maarif" cəmiyyətinin başlıca vəzifəsi azərbaycanlı əhalinin arasında savadsızlığı ləğv etmək idi. H.Z.Tağıyev və M.Muxtarov bu cəmiyyətin fəxri üzvləri idilər. I Dünya müharibəsi illərində Quba, Ağdam, Şuşa və Gəncədə cəmiyyətin filialları açıldı. *1907-ci ildə* Bakıda ruhanilərin yaratdıqları müsəlman mədəni-maarif cəmiyyəti-*"Səadət"* qarşısına xalqı maarifləndirmə vəzifəsini qoymuşdur. *1910-cu ildə* yaranmış müsəlman mədəni-maarif cəmiyyəti-*"Səfa"*nın vəzifəsi kişi və qadın peşə məktəblərini açmaq idi. I Rus inqilabı illərində Bakıda *13 gizli partiya mətbəəsi* fəaliyyət göstərirdi. Belə mətbəələr Gəncə və Şuşada da var idi. Bu dövrdə azərbaycanca "Hümmət", "Təkamül", "Yoldaş" (1907), "Qudok" (1907-1908), "Naşa jizn" (1914), "Bakı həyatı" (1912) qəzetləri, "Volna" (1909), "Sovremennaya jizn" (1911) və s. jurnalları nəşr olunurdu. Bunlarla yanaşı ***1906-cı il aprelin 1-dən*** Tiflisdə inqilabi-demokratik mətbuat orqanı olan ***"Molla Nəsrəddin"*** jurnalı da çap olunurdu. ***Cəlil Məmmədquluzadənin*** redaktoru olduğu bu jurnalın ətrafında M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, Ə.Nəzmi və b. toplaşmışdır. Bu jurnalın ardınca "Bəhlul" (1907), "Zənbur" (1909-1910), Bakıda uşaqlar üçün "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1917) jurnalları nəşr olunurdu. Bakıda burjuaziyanın "İrşad" (1905-1908), "Tərəqqi" (1908-1909), "Füyuzat" və "Yeni füyuzat" jurnalları, "Həyat" və "Təzə həyat" qəzetləri, "Raboçiy listok", "Trud", "Raboçiy qolos" və s. qəzet və jurnalları çıxırdı. XX əsrin əvvəllərində coğrafiya, təbiət elmləri, ədəbiyyat sahəsində də müəyyən uğurlar qazanılmışdır. Azərbaycanda tənqidi realizmin nümunəsi olan inqilabi-demokratik ideyaların carçısı *"Molla Nəsrəddin"* (1906-1931) jurnalının naşiri və redaktoru C.Məmmədquluzadə, onun əməkdaşları M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar,

Ə.Nəzmi, M.Ə.Möcüz və Y.V.Çəmənzəminli kimi görkəmli nümayəndələri var idi. İnqilabi-demokratik publisistikanın fəal nümayəndələrindən biri ***Ü.Hacıbəyov*** idi. Mədəni-maarif cəmiyyətlərinin, o cümlədən "Nicat"ın yaradılması Azərbaycanın milli teatr sənətinin inkişafına təkan verdi: ***1904-cü ildə "Müsəlman artistləri cəmiyyəti"*** yaradılmışdır. H.Ərəblinskinin, C.Zeynalovun, Hüseynqulu Sarabskinin, M.A.Əliyevin, Sidqi Ruhullanın incəsənətə gəlmələri bu dövrə aiddir. *1909-cu ildə* S.Ruhulla, C.Zeynalov və H.Ərəblinskinin köməyi ilə *Təbrizdə teatr* təşkil olunmuş, teatr binası isə *1916-cı ildə* tikilmişdir. *1916-cı ildə* yaradılmış ***H.Ərəblinski*** və ***H.Sarabskinin*** başçılıq etdiyi *"Müsəlman dram cəmiyyəti"*, Azərbaycan *opera teatrı* da teatr sənətinin inkişafına yeni təkan verdi. XX əsrin əvvəllərində Ü.Hacıbəyov, M.Maqomayev, Z.Hacıbəyov, C.Qaryağdıoğlu, H.Sarabski, Q.Pirimov və b. Azərbaycan musiqisinin inkişafında, *xalqın müsiqi irsinin* təbliğində, xalq mahnı və muğamlarının yaradılmasında xüsusilə böyük xidmət göstərmişlər. *1908-ci il yanvarın 12-də* H.Z.Tağıyev teatrının binasında *"Leyli və Məcnun"* operasının ilk tamaşası qoyuldu. *1908-1915-ci illərdə* ***Ü.Hacıbəyov*** *"Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid Banu", "Harun və Leyla"* kimi bir sıra operalar yaratdı. İlk dəfə *1913-cü il oktyabrın 25-də* milli musiqili teatr səhnəsində göstərilən *"Arşın mal alan"* musiqili komediyası böyük müvəffəqiyyət qazandı. *1916-cı ildə* ***M.Maqomayev*** Azərbaycan opera sənətinin qızıl fonduna daxil olmuş *"Şah İsmayıl"* operasını yaratdı. Azərbaycanda ilk film XIX əsrin sonunda çəkilmişdir. *1916-cı ildə* isə *"Neft və milyonlar səltənətində"* adlı Azərbaycan filmi çəkildi, həmin ildə *"Ölülər"* pyesi, *M.Maqomayevin "Şah İsmayıl"* operası, *Z.Hacıbəyovun "Aşıq Qərib"* operası tamaşaya qoyuldu. *Əzim Əzimzadə, Bəhruz Kəngərli* ilk azərbaycanlı rəssamlar idilər. Azərbaycan memarlıq incəsənəti də inkişaf etmişdir. O zaman salınmış ictimai binalar içərisində *İsmailiyyə (1910)* (indiki Azərbaycan Elmlər

Akademiyasının binası), *Mayılov qardaşları teatrı (1911)* (indiki M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası) xüsusilə seçilirdi.

5. XX əsrin əvvəllərində Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatları.

1905-1911-ci illər Məşrutə inqilabı. XX əsrin başlanğıcında kəndlərdə feodal istismarının şiddətlənməsi, o cümlədən vergilərin çoxalması, ölkənin Rusiya və İngiltərənin yarımmüstəmləkəsinə çevrilməsi ilə əlaqədar sosial tarazlığın pozulması, möhtəkirliyin baş alıb getməsi, maliyyə sisteminin böhranı və s. İranda, o cümlədən Cənubi Azərbaycanda hakim dairələrin daxili və xarici siyasətindən narazı qüvvələrin sayını xeyli artırmışdır. Ticarət-sənaye sahələrində fəaliyyət göstərən burjuaziya ölkədə qayda-qanun yaradılmasını, xüsusi mülkiyyətin toxunulmazlığının təmin olunmasını tələb edirdi. Burjuaziya eyni zamanda yerli sənayenin inkişafına mane olan xarici kapitala, xaricdən sənaye mallarının axınına qarşı mübarizə aparırdı. Təbrizdə yaranan bir sıra gizli təşkilatlar əhalini *şah üsuli-idarəsinə qarşı* mübarizəyə çağırırdı. ***1905-1911-ci illər Məşrutə inqilabı*** gedişində Cənubi Azərbaycanda sosial ziddiyyətlər, siyasi vəziyyət daha da gərgin idi. Xalq ədalətli quruluş yaradılmasını tələb edirdi. Artmaqda olan hərəkatın təzyiqi altında *1906-cı il avqustun 5-də Konstitusiya* verilməsi haqqında Şah Fərmanı elan olundu [37, s. 127].

1906-cı ilin sonunda Təbrizin gizli siyasi qrup və cəmiyyətləri tərəfindən əsası hələ *1904-cü ildən* qoyulmuş *"**İctimaiyyune-amiyyun**"*, yəni sosial-demokrat partiyası yarandı [37, s. 132]. Öz mərkəzini ***"Mərkəz-e qeybi"*** *("Gizli mərkəz")* adlandıran Təbriz sosial-demokratik təşkilatının başında ***Əli Müsyö*** dururdu. ***1906-cı il sentyabrın 9-da*** Məclisə seçkilər keçirilməsi haqqında ***Əsasnamə*** imzalandı. *Sentyabrın 20-də* Təbriz üsyan-

çıları öz tələblərinə saraydan müsbət cavab aldılar. Bu uğur xalqı daha da ruhlandırdı. Hərəkat başçıları içərisindən 20 nəfər ilk rəsmi siyasi *əncümənin (şura)* əsasını qoydu və həmin əncümən rəsmən ***"Azərbaycan əyalət əncüməni"*** adlandırıldı. *1906-cı ilin noyabr-dekabr* aylarında əyalət əncüməninin rəhbərliyi ilə Azərbaycanın başqa şəhərlərində vilayət əncümənləri yaradılmağa başlandı. *1907-ci ilin fevral ayının 8-də* Azərbaycan nümayəndələri Tehrana gəldilər və əyalət əncüməninin saraya verdiyi tələblərin məclisdə müzakirəsi zamanı möhkəm dəlillərlə onların həyata keçirilməsi haqqında razılıq əldə etməyə nail oldular. Bu qələbə şahı qorxuya saldı. Feodalların silahlı dəstələri ölkənin hər tərəfindən əhaliyə qarşı basqınlar etməyə başladılar. Bunun qarşısını almağa çalışan demokratik qüvvələr məclis tərəfindən xalq üçün əhəmiyyətli maddələrin olduğu ***"Konstitusiyaya əlavələr"****in* qəbul edilməsini tələb etdilər.

Artıq ***1907-ci ilin iyun*** ayında Urmiya şəhərində yüzlərlə silahlı mücahid əncümənin göstərişlərini həyata keçirməyə hazır idi, bu təcrübə Tehranda da tətbiq olunmağa başladı. *1907-ci ilin oktyabrında* ***Konstitusiyaya "Əlavələr"*** qəbul edildi. *1907-ci ilin noyabrında* demokratik hərəkata qarşı hücum hazırlamaq məqsədilə Tehranda "Fetovvat" və "Səadət", eyni zamanda Təbrizdə "İslamiyyə" adlı irticaçı əncümənlər təşkil edildi. Şah və onun tərəfdaşları tərəfindən hələ ***1908-ci ilin aprel-may*** aylarından hazırlanmaqda olan ***hökumət çevrilişi*** həmin il ***iyun ayının 23-də*** həyata keçirildi [37, s. 148]. Əksinqilab bütün İranda hücuma keçdi. Lakin Təbrizdə inqilabi hərəkat daha ciddi şəkil aldı, inqilabi mübarizənin mərkəzi Tehrandan Təbrizə keçdi.

İrticaçılar Əmiraxiz məhəlləsi istisna olmaqla Təbrizin şimal-şərqi hissəsini tutdular. *Əmiraxiz məhəlləsini* Təbriz üsyanının görkəmli rəhbəri ***Səttar xanın*** dəstəsi, şəhərin cənub-şərqində yerləşən *Xiyaban məhəlləsini* isə ***Bağır xanın*** başçılıq etdiyi hissələr müdafiə edirdilər. Buna görə də *1908-ci ilin avqustunda* buraya 40 min nəfərdən artıq silahlı qüvvə göndərildi. *Sentyab-*

rın 25-dən Təbriz üzərinə 2 günə qədər davam edən hücum başlandı, lakin irtica qüvvələri heç bir uğur qazana bilməyərək, *oktyabrın 12-də* şəhəri tərk edib qaçmağa məcbur oldular. Xalq *Səttar xanı "Sərdare-milli", Bağır xanı "Salare-milli"* adlandırdı, sonra isə Azərbaycan əyalət əncüməni bu adları rəsmiləşdirmək üçün qərar qəbul etdi. *1909-cu ilin fevralına qədər* Cənubi Azərbaycanın bütün qərb vilayətləri Maku istisna olmaqla inqilabçıların əlinə keçdi. *1908-ci ilin dekabrında* əksinqilab yenidən 40 min silahlı adam toplamışdır [37, s. 161]. *1909-cu il yanvarın* axırlarında ***Təbriz*** şəhəri yenidən mühasirəyə alındı. *Fevral-mart aylarında* Təbriz üzərinə əksinqilabın hücumu başlandı, lakin bu hücumlar da inqilabçıların qələbəsilə nəticələndi. *Aprelin 14-də* uzun müddət Marağa şəhərinin qubernatoru olmuş *Səməd xanın* qoşunları Təbrizə hücum etdilər və məğlub oldular. Bu halda ingilis və çar Rusiyası açıq müdaxiləyə əl atdılar. Çar Rusiyası xarici konsulluqları və təbəələri müdafiə etmək, Təbrizə ərzaq daşınmasını təmin etmək bəhanəsilə *1909-cu il aprelin 29-da* öz qoşunlarını Təbrizə yeritdi və Təbriz üsyanı yatırıldı. ***Təbriz üsyanı*** Rəşt və İsfahanda üsyanların uğurla başa çatmasına, üsyançıların Tehrana yürüş etməsinə, eyni zamanda Məhəmmədəli şahın hakimiyyətdən devrilməsinə *(16 iyul 1909-cu il)* və *Konstitusiyanın* bərpa olunmasına səbəb oldu.

Fədailəri tərki-silah etmək məqsədilə Tehranın rəsmi dairələri tərəfindən ***Səttar xan*** və ***Bağır xan*** *1910-cu il martın 11-də* paytaxta dəvət olundular. Tərki-silah haqqında əldə edilmiş razılığa baxmayaraq, Səttar xan və onun ətrafındakılara Tehranda xaincəsinə basqın edildi. Vuruşma nəticəsində 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttar xan yaralandı [37, s. 178]. Səttar xana və Bağır xana Təbrizə qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqını hiddətləndirdi, çar hökuməti Təbrizə yeni hərbi qüvvələr göndərməklə, *dekabrın 28-dək* Təbriz fədailərinin müqavimətini qırdı [37, s. 183]. Ələ keçən fədailər və Təbriz əncümən rəhbərlərinə divan tutuldu. Bütün Azərbaycan-

da terror və irtica hökm sürməyə başladı. İnqilab mərkəzləri və vilayət şüarları dağıdıldı.

Beləliklə, *1905-1911-ci illər* İran İngilabı xarici müdaxiləçilərin ordusu tərəfindən yatırıldı. Bu inqilabın Azərbaycan xalqının ictimai-siyasi və milli şüurunun inkişafına böyük təsiri oldu.

Cənubi Azərbaycanda Ş.M.Xiyabaninin başçılığı ilə demokratik və milli-azadlıq hərəkatı (1917-1920-ci illər). İran Məşrutə inqilabı məğlub edildikdən sonra, *1912-ci ilin əvvəllərində* imperialistlər ***1907-ci il ingilis-rus sazişinin*** İran hökuməti tərəfindən rəsmən qəbul edilməsinə nail oldular. Sazişə əsasən İranın ***Qəsri-Şirin-İsfahan-Yəzd-Zülfüqar*** xəttindən şimaldakı *790 min kv. km* sahəsi ***Rusiyanın nüfuz dairəsi, İranın Bəndər Abbas-Kirman-Bircəd-Qazik*** xəttindən cənub-şərqindəki *355 min kv. km* hissəsi ***İngiltərənin, İranın*** bu xətlər arasındakı ərazisi isə ***"bitərəf"*** zona elan edildi. I Dünya müharibəsi başlayanda İranın bitərəfliyini rəsmi surətdə kobudcasına pozaraq ərazisində hərbi əməliyyatlara başladılar. Cənubi Azərbaycan *1914-cü il dekabrın* axırlarında *Osmanlı ordusu*, *1915-ci il yanvarın 15-də Rusiya* qoşunları tərəfindən işğal edilərək hərb və zorakılıq meydanına çevrildi, yerli əhalinin 15%-i həlak oldu [372, s. 63]. Bu zaman ***İran Demokrat Partiyasının*** Təbriz təşkilatı xalq kütlələrinin mübarizəsinə başçılıq edirdi. *1917-ci ildə* Rusiyada baş verən fevral burjua-demokratik inqilabının təsiri ilə ***İran Demokrat Partiyası (İDP)*** və onun Azərbaycan əyalət komitəsinin fəaliyyəti xeyli canlandı. Azərbaycan demokratları ölkədə bir sıra dəyişikliklərin yerinə yetirilməsini, o cümlədən məclisə seçkilər keçirilməsini, Azərbaycan əyalətinin irticaçı valisi Sərdar Rəşidin işdən götürülməsini, xarici qoşunların İrandan çıxarılmasını tələb edirdilər, Azərbaycana muxtariyyət almaq uğrunda mübarizəyə çağırırdılar. Təbrizdə ***"Azərbaycan himni"*** yaradıldı. Müharibənin Cənubi Azərbaycanda yaratdığı qarışıqlıqdan istifadə edən *erməni* silahlı dəstələri *aysorlarla* birlikdə ***Xoy, Salmas, Urmiya, Soucbulaq*** və s. şəhərlərdə *azər-*

baycanlı əhaliyə qarşı görünməmiş vəhşiliklər etdilər. Yalnız Osmanlı ordusunun bölgəyə daxil olması Azərbaycanlı əhalinin kütləvi şəkildə qətlə yetirilməsinin qarşısını aldı. Lakin Osmanlı qoşunları bölgəni tərk etdikdən sonra erməni, aysor və kurd hərbi dəstələri azərbaycanlıları yenidən qırmağa başladılar. Bu qırğınlar rus hərbi hissələrinin *1918-ci ilin əvvəllərində* İrandan çıxarıldığı vaxt daha faciəli şəkil aldı. *1917-ci ilin mayından* başlayaraq Cənubi Azərbaycan Əyalət Komitəsi müstəqil hərəkət etməyi və bir partiya (İran Demokratik Partiyası) halında birləşməyi qərara aldı, bunda "Təcəddüd" qəzetinin mühüm rolu oldu. *1917-ci il avqust ayının 24-də* Əyalət Komitəsinin geniş konfransı oldu, ***Azərbaycan Demokratik Firqəsi (ADF)*** müstəqil elan edildi və ***Şeyx Məhəmməd Xiyabani*** başda olmaqla ***ADF-nin MK-si*** seçildi, qətnamələr qəbul edildi. Rusiyada baş vermiş oktyabr hadisələri İran dövlətinin müstəqilliyinə və suverenliyinə ciddi dərəcədə ziyan vurdu. ***1917-ci il dekabrın 15-də Brest-də*** Rusiya hökuməti, Kayzer Almaniyası və onun müttəfiqləri arasında İrandan xarici qoşunların çıxarılması barədə *sülh müqaviləsi* imzalanması haqqında danışıqlar başlandı. *1918-ci il yanvarın 5-də* rus qoşunlarının İrandan çıxarılması barədə proqram elan edildi. Bununla belə, *1918-ci ilin yayında* ingilis hərbi hissələri Cənubi Azərbaycanın *Zəncan, Miyane, Urmiya* və *Xoy* şəhərlərinə daxil oldu. Bu vaxt Cənubi Azərbaycanın şimal-qərbində erməni, aysor və kürd quldur dəstələri azərbaycanlılara qarşı əsl soyqırım törətdilər. Cənubi Azərbaycanın çox hissəsi Osmanlı Türkiyəsinin qoşunları tərəfindən işğal edildi. ADF belə vəziyyətdə ingilis və türk qoşunlarına, yerli irtica hökumətinə qarşı mübarizə aparırdı. ADF-nin rəhbərləri, o cümlədən Ş.M.Xiyabani dinc yolla mübarizə taktikasının lazımi nəticə verməyəcəyini yəqin edərək, silahlı üsyana başladılar. Şimaldakı hadisələr cənubda da öz əks-sədasını tapdı. Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı çıxışlar baş verdi. Çıxışlara ***Şeyx Məhəmməd Xiyabaninin*** rəhbərliyi ilə

İran Demokratik Partiyasının (İDP) Azərbaycan Əyalət Komitəsi istiqamət verirdi. *1917-ci ilin payızında* Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə keçirilən mitinqlərdə əhali hökumətin istefa verməsini, İranda demokratik hökumət təşkil olunmasını tələb edirdi. *1917-ci ilin sonunda Vüsuqüddövlə hökuməti* istefa verməyə məcbur oldu, lakin o, tezliklə ingilislərin köməyi ilə hakimiyyətə gətirildi. ***1919-cu il avqustun 9-da*** ingilislərin İran hökuməti ilə imzaladıqları *saziş* İranı siyasi və iqtisadi cəhətdən Böyük Britaniyadan asılı vəziyyətə salırdı. Bu, Cənubi Azər-baycanda genişlənən milli-azadlıq hərəkatına yeni təkan verdi [12, s. 109]. İran hökuməti demokratik qüvvələrə qarşı şiddətli tədbirlərə əl atdı. ADF gizli fəaliyyətə keçdi, çıxışlar isə *1920-ci ilin əvvəllərinədək* davam edirdi. Təbrizdəki ingilis komandanlığı nümayişçilərin tələbi ilə hərbi hissələri şəhərdən çıxarmalı oldu. *1920-ci ilin aprel ayının* ilk günlərində ADF-nin üzvlərindən bir neçəsinin həbs edilməsi dinc çıxışların üsyana çevrilməsinə təkan verdi. ***1920-ci il aprelin 7-də*** Təbrizdə üsyanın başlanması ilə Cənubi Azərbaycan *milli-azadlıq hərəkatı* silahlı üsyan xarakteri aldı. Üsyana rəhbərlik etmək üçün *Ş.M.Xiyabaninin* başçılığı ilə ***İctimai İdarə Heyəti (İİH)*** təşkil olundu. 2 gün müddətində üsyançılar bütün dövlət idarələrini ələ keçirdilər, polis dəstələri şəhəri tərk etməyə məcbur oldular. Üsyan dinc yolla qələbə çaldı. ***Aprelin 7-də*** Ş.M.Xiyabani Təbriz əhalisi qarşısında söylədiyi nitqində bildirdi ki, ***"Azərbaycanın adını Azadıstana dəyişərək, bu gündən bu adı rəsmi ad kimi elan edirik"*** [12, s. 110]. O, bu adın rəsmən tanınmasını İran dövlətindən tələb etdi. Azərbaycan əyalətinə vali göndərilən və Təbrizə gəlməyə cəsarət etməyən Eynüddövlə, İİH-nin 8 maddədən ibarət tələblərini qəbul etdikdən sonra, ona Təbrizə daxil olmağa icazə verildi. O, demokratlara qarşı qiyam təşkil etməyə çalışırdı. Lakin həmin planı həyata keçirməyə çalışan şəxslər demokratlar tərəfindən həbs edildilər. Xoy mahalında, Ərdəbildə, Astarada, Marağada, Əhərdə, Zəncanda da üsyanlar baş verdi.

1920-ci ilin iyunun 23-də ADF İİH əsasında ***Milli Hökumət (MH)*** yaratdı. MH-in tələbi ilə vali Eynuddövlə və onun aparatı Təbrizi tərk etdi. Hərəkat rəhbərləri İranda şahlığın ləğvini və respublika yaradılmasını tələb edirdilər. Milli hökumət sənaye, kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələrdə islahatlar həyata keçirməyə başladı. MH-in bir sıra sahələr üzrə idarə və nazirlikləri yaradıldı. Təbrizdə pulsuz qız məktəbi açıldı. Milli müdafiə qüvvələrinin təşkili üçün də layihə hazırlandı. Bu layihəyə əsasən şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən ümumi sayı *12 minə* çatdırılacaq *milli qvardiyanın* təşkilinə başlanıldı, eyni zamanda şəhər əhalisindən yeni *jandarm* və *polis dəstələri* təşkil edildi. Təlim üçün *xüsusi polis məktəbləri* açıldı. İranın yeni Baş naziri Müşirüddövlə ingilislərin köməyi ilə üsyançılara hücum etmək üçün hazırlığa başladı. Hidayət Müxbirüssəltənə sentyabrın ilk günlərində vali sifətilə Təbrizə gəldi və Baş nazirin məktubunu Ş.M.Xiyabaniyə çatdırıb onunla *"danışığa"* başladı. O, Təbrizin kənarında düşərgə salaraq, tərk-silah edilməmiş İran kazak briqadası qarnizonunun komanda heyətini öz tərəfinə çəkdi, Təbrizə süvari dəstələr çağırıldı. Jandarm dəstəsinin rəhbəri Mir Hüseyn Haşimi ələ alındı. O ətrafdakı quldur dəstələri ilə mübarizə aparmaq bəhanəsilə MH razılığını almadan silahlı qüvvələri şəhərdən çıxardı. ***Sentyabrın 12-də*** əksinqilabi qüvvələr üsyançılar üzərinə hücuma keçdilər. Üsyançılar ***sentyabrın 14-dək*** son damla qanlarına qədər vuruşdular, ***Ş.M.Xiyabani*** öldürüldü, üsyançılara divan tutuldu. Beləliklə, bütün Cənubi Azərbaycandakı azadlıq hərəkatı ingilis qüvvələrinin köməyi ilə İran irticası tərəfindən yatırıldı. Təbriz üsyanının nəticəsi olaraq *1920-ci il iyunun 25-də* Vüsuquddövlə istefaya çıxdı, *1919-cu ildə* imzalanan *İngiltərə-İran sazişi 1921-ci ildə ləğv edildi* [12, s. 115-116].

6. Urmiya faciəsı (1917-1918) - Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımıdır

1918-ci ildə Böyük dövlətlərin təşkil etdiyi xristian ordusunun Cənubi Azərbaycanın qərb bölgəsində - ***Urmiya, Salmas, Xoy və digər ətraf ərazilərdə*** Azərbaycan türklərinə qarşı törətdiyi cinayət XX əsrin ən dəhşətli soyqırımlarından biridir. Soyqırım türk-müsəlman əhalinin məskunlaşdığı və Osmanlı İmperiyasına yaxın ərazilərdə ermənilər üçün dövlət yaratmaq məqsədilə həyata keçirilmişdir.

I Dünya Müharibəsi dövründə Cənubi Azərbaycan ərazisi Rusiya və Osmanlı silahlı qüvvələrinin hərb meydanına çevrildi. 1916-cı ildə Cənubi Azərbaycanın demək olar ki, bütün ərazisi rus qoşunları tərəfindən işğal edildi. Həmin il Osmanlı dövlətinin Hakkari bölgəsində yaşayan xristian assuriyalılar (aysorlar) Rusiyanın dəstəyi ilə öz dövlətlərinə qarşı üsyan etdilər. Lakin Osmanlı qoşunlarına uzun müddət müqavimət göstərə bilməyən on minlərlə aysor (yerli əhali onları "cilov" adlandırırdı) ailəsi Rusiyanın köməyi ilə Cənubi Azərbaycanın Urmiya və Salmas bölgələrinə köçürüldü [51, s. 7-8]. *1918-ci il martın 3-də* bağlanmış *Brest-Litovsk müqaviləsinin* şərtlərinə görə Çar Rusiyasının qoşunlarının Şimali İrandan (Cənubi Azərbaycandan) çıxarılması ilə eyni zamanda müttəfiq dövlətlər İngiltərə, Fransa və ABŞ-ın *erməni, aysor* və Cənubi Azərbaycanda qalan *rus silahlı birləşmələrindən* təşkil etdikləri xristian ordusu azərbaycanlılara qarşı *səlib yürüşü* həyata keçirdi. Rus qoşunlarının İrandan təxliyə edilməsindən sonra ingilislər Osmanlı dövlətinin yolunu kəsmək üçün Urmiya bölgəsində erməni və aysorlarla birləşməyi, digər tərəfdən isə Tehran-Qəzvin yolu üzərindəki Rəşt bölgəsini tutmağı, Xəzər dənizinin sahilindəki Ənzəli limanına, oradan da dəniz yolu ilə Bakıya daxil olub şəhəri ələ keçirən ermənilərlə birləşərək işğal etməyi planlaşdırırdılar. *Bakı neftinin* digər müttəfiqlərin əlinə keçməsinə imkan verməyən İngiltərə dərhal öz

hərbi hissələrini rus qoşunlarının çıxdığı ərazilərdə yerləşdirdi [51, s. 8]. Eyni zamanda, Britaniya hökuməti Osmanlı ordusunun bu bölgələri ələ keçirməməsi üçün ABŞ və Fransa konsulluqlarının köməyi ilə erməni və aysorları dəstəklədi [461]. Persi Sayksın fikrincə, ingilislərin İranın cənub sərhədləri boyunca yerləşən hərbi birləşmələrindən başqa ölkənin şimalına göndərmək üçün kifayət qədər hərbi qüvvəsi yox idi və ən yaxşı ingilis birləşmələrinin yerləşdiyi Bağdad Cənubi Azərbaycandan uzaqda idi. Buna görə də, ingilislər Osmanlı ordusunun hücumlarının qarşısını almaq üçün bölgədə mövcud olan erməni və aysorlarla əlaqə yaratdılar. Rus ordusundan qaçan zabit və əsgərləri də təşkil edib təlim keçdilər [107, s. 60]. İngilis hərbi birləşmələri *Zəncan və Miyanəni* işğal etdilər, *Xoy və Urmiyada* ingilis zabitlərinin komandanlığı altında polis və qoşunlar yerləşdirdilər. Müttəfiqlər rusların əvəzinə erməni və aysorları azərbaycanlılara və osmanlılara qarşı silahlandıraraq rus, ingilis, fransız [51, s. 37] zabitlərinin komandanlığı altında *6 batalyon (4 aysor və 2 erməni batalyonu), 4 batareya, 300 nəfərlik süvari dəstə və bir pulemyot rotası* təşkil etdilər [40, s. 5]. Anadolu bölgəsindən geri çəkilən rus qoşunlarının tərkibində olan ermənilər də Urmiya bölgəsinə gələrək burada yerləşən erməni və aysorlarla birləşdilər. Onlar rus ordusuna məxsus silahları ələ keçirərək Güney Azərbaycanın *Urmiya, Salmas, Xoy* və digər ərazilərindəki yerli əhaliyə hücum etdilər. *1918-ci ilin fevral-mart* aylarında xristian ordusu əsasən *Urmiya və Dilman* ərazilərində toplaşdılar. Urmiya bölgəsində erməni və aysorların getdikcə şiddətlənən qanlı qırğınlarının qarşısını almaq üçün görüləcək tədbirlər Osmanlı dövləti tərəfindən VI Ordu komandanı *Xəlil Paşaya* həvalə edildi [51, s. 41]. 1918-ci ilin əvvəlindən erməni və aysor silahlı birləşmələrinin Güney Azərbaycanında türk-müsəlman əhaliyə qarşı görünməmiş qəddarlıqla həyata keçirdikləri qətliamlar *fevralın 22-si cümə günü Urmiya sakinlərinin 3 günlük fasiləsiz qırğını* ilə başladı [51, s. 44]. Qırğının ilk günü Urmiya şəhərinin Əs-

gərxan məhəlləsi tamamilə dağıdıldı. T.Dilmagani dövrünün mənbələrinə əsaslanaraq bu hadisəni belə təsvir edir: "Belə bir sürətli və vəhşicəsinə hücumu gözləməyən müsəlmanlar gözlənilmədən yaxalandılar. Onlar hücum etdikdikləri evlərin sahiblərini öldürür, əşyalarını qarət edir, sonra yandırırdılar" ... *Urmiyanın Novgeçər, Yurtşah və şəhərin cənub hissəsindəki* məhəllələrdə yaşayan müsəlmanların böyük hissəsi məhv edildi. Top atəşləri ilə yandırılan şəhər tamamilə dəyişdi, insanların nalə səslərindən qulaq tutulurdu....[40, s.117-118]. Qırğının ikinci günü də gecə yarısı *Çalbaş və Dikəli məhəllələrində* top səsləri eşidildi, ... günahsız insanların çığırtıları qulaq batırırdı. Qatillər şəhərin mərkəzindəki Hacı Müstəşarin karvansarasına toplaşaraq yoldan keçən hər kəsi qətlə yetirirdilər. Xristian ordusu gecə saatlarında Urmiya qalası yaxınlığındakı evlərə hücum edərək kişi və qadınları öldürür, əmlakları qarət edir, gənc qadınlara təavüz edirdilər. *Fevralın 25-də* atəş dayandırıldı və 48 saat ərzində bütün müsəlmanlardan silahlar yığıldı. Əhali yaxınlarının meyitlərini basdırmağa başladı. Ölənlərin sayı o qədər çox idi ki, onları bükməyə kəfən çatışmırdı. Cəsədlərin basdırılması bir neçə gün çəkdi. Gündə *200-ə qədər cənazəni* dəfn etmək olurdu. *Martın əvvəllərində Urmiya* şəhəri tamamilə xristian ordusu tərəfindən tutuldu [40, s.119-133.]. *Üşnü bölgəsində* də qətliamlar törədildi. Osmanlı dövləti Urmiya gölü ətrafında erməni vəhşiliyinin qarşısını almaq məqsədi ilə VI və III orduların Cənubi Azərbaycanın müsəlman əhalisindən topladığı qüvvələrlə birlikdə *Qars-İrəvan* istiqamətində yürüş etməyi planlaşdırırdı. Digər tərəfdən isə İran vəliəhdinin başçılığı altında Təbrizdən hərəkət edən hərbi dəstə ilə Xoyda [51, s. 47] baş verən döyüşdə ermənilər məğlub olaraq qaçdılar. Verilən məlumata görə, ingilis və fransız zabitlərinin komandanlığı altında 4 top və çoxlu odlu silaha malik 3-4 min erməni və Urmiyadan 20-30 km cənubda yerləşən *Rəşahan, Xəzmlər, Maşan və Salvatıda* ermənilərdən ibarət xüsusi partizan dəstələri vardı [460]. Erməni-aysor qoşunlarının dinc

azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri misli görünməmiş soyqırımları Urmiyanın kəndlərində də davam edirdi. *Çəhirgə və Nazlıçay* kənd sakinlərinin möhkəm hasarlarla əhatə olunmuş ucqar *Qəhrəmanlı kəndinə* qaçdıqlarından xəbər tutan ermənisaysor quldur dəstələri martın ortalarında kəndə hücum etdilər və aprelin əvvəllərində *Əlipəncəsi dağının* ətəyindəki mövqedən 2 topdan kəndi atəşə tutdular. *334 kənd sakini* qətlə yetirildi. Kənddə bir nəfər də olsun sağ insan qalmamışdır. İki-üç il bu kəndin şəhidlərinin sümükləri küçələrdə, həyətlərdə, evlərdə qalmışdır [40, s.173-174.]. *3 aprel 1918-ci ildə* xristian ordusu *Salmasın mərkəzi Dilmanı* ələ keçirdi. Başqa kəndlərdən olan müsəlmanlar xristianların zülmündən qaçaraq Əsgərabad kəndinə sığındılar. Kənd hər tərəfdən mühasirə olunmuşdur. *24 may 1918-ci il* şənbə günü xristianlar *Xoya* hücum etdilər. *Urmiya, Salmas, Sulduz* və başqa yerlərdən insanlar köməyə gəldilər. Cümə günü, *30 may 1918-ci ildə* xristianların silahlı dəstələri *Əsgərabada* hücum edərək top atəşləri ilə kəndi darmadağın etdilər. Şücaət və mərdliklə vuruşan müdafiəçilər şəhid oldular. Qala divarları dağıdıldı və əhaliyə divan tutuldu. Kənd məscidində gizlənənlərə belə aman verilmədi. Onları tikə-tikə doğrayaraq öldürdülər. Məsciddən çölə çoxlu qan axırdı. Küçələrdə, yollarda, bağlarda gizlənən müsəlmanların hamısını güllələdilər. Əsgərabad qəbiristanlığa çevrildi. Ölənləri basdırmağa insan belə tapılmırdı [51, s. 50-51]. Baş komandanlıq *Vəkalət-i Cəliləsinin* əmri ilə III Ordu Van istiqamətinə göndərildi və Əli Ehsan Paşanın başçılıq etdiyi IV Nizami ordu Vanı ələ keçirərək ermənilər Saray və Basqalaya doğru təqib etdi. Bundan başqa, Urmiyə istiqamətində hərəkət etmək üçün yaradılmış VI Ordunun xüsusi partizan dəstəsindən ibarət bir taburu *5 aprel 1918-ci ildə Rayatdan Üşnü* istiqamətində sərhədi keçdi, digər üç taburu isə *Ərbildən Rəvandizə* doğru irəlilədi. Vəziyyətin ciddiləşdiyini görən ermənilər İngiltərə ordusuyla birləşmək üçün İran hökumətinə müraciət etdilər. Hökumət ermənilərə yalnız silahlarını təhvil verdik-

ləri təqdirdə buna icazə verəcəyini bildirdi. Bu zaman Urmiya bölgəsindəki ermənilər Mosulda ingilis qüvvələri ilə vuruşan Osmanlı ordusuna hücuma hazırlaşırdı. *1918-ci il mayın 10-da* Osmanlının Hərbi naziri Ənvər paşanın göstərişi ilə IV Nizami ordu *Üşnüdən Urmiyaya* yürüş etdi [105, s. 548]. Osmanlı qoşunlarının köməyi ilə *Dilman və Salmas* ermənilərdən azad edildi. Qafqaz cəbhəsindən Andronikin başçılıq etdiyi erməni qüvvələri Culfadan Araz çayını keçərək Xoydan cənuba doğru irəliləməyə başladılar. Ermənilərin məqsədi Təbrizə doğru irəliləyən ingilis qoşunları ilə birləşmək, Osmanlı ordusunu məğlub etmək və sonra Qafqaz cəbhəsinə geri qayıtmaq idi. Lakin Osmanlı ordusu ermənilərin ingilislərlə birləşməsinə imkan vermədi və onları məğlub edərək Araz çayının şimalına doğru geri çəkilməyə məcbur etdi. Bir müddət sonra ingilislər *Rəşt-Urmiyə* xəttinə və Təbrizdən 10 km məsafədə yerləşən *Bazmiç* kəndinə yaxınlaşdılar [51, s. 53-54]. Osmanlı ordusunun hərbi hissələrinin Təbrizə doğru hərəkəti ingilis və fransız konsullarını şəhəri tərk etməyə məcbur etdi, hətta Təbrizdə olan ermənilər də qaçmağa başladılar. Osmanlı qoşunları qısa müddətdə ingilislərdən əvvəl *Təbrizi* ələ keçirdilər, sonra *Miyanə, Dəymətaş, Qaraçam və Türkmənçay* mövqelərində ingilislərə güclü zərbələr endirərək onları cənub-şərq istiqamətində geri çəkilməyə məcbur etdilər [459]. *1918-ci ilin iyun ayında* Osmanlı qoşunları *Xoy* şəhərinə çatdılar və oradan *Salmasa* hərəkət etdilər. Bir neçə gün davam edən döyüşlərdən sonra erməni ordusu məğlubiyyətə uğrayaraq qaçmağa başladı, lakin geri çəkilərkən də kəndləri yandırır, insanları öldürür, məğlubiyyət acısını dinc əhalidən çıxırdı. Bu zaman qaniçən daşnak *Andronik Xoy* şəhərini tutmaq və erməni-aysor ordusu ilə birləşmək üçün 8 min nəfərlik hərbi dəstə ilə Culfadan hərəkət etdi. Ermənilər Xoy şəhərini tutub əhalini məhv etdikdən sonra özləri ilə gətirdikləri 10 min erməni ailəsini burada yerləşdirmək və *Azərbaycanın bu hissəsini Ermənistana birləşdirmək* niyyətində idilər. *1918-ci il iyunun 24-də Andronikin or-*

dusu Xoy şəhərini mühasirəyə aldı. Ermənilər Urmiyada törətdikləri vəhşilikləri burada da davam etdirdilər. Lakin şəhər əhalisi silahlı müdafiə ordusu yaradaraq düşmənə ciddi müqavimət göstərdi. Şəhərin müdafiəsində hətta qadınlar da iştirak edirdilər. Ermənilər şəhəri top atəşinə tutdular. Lakin Osmanlı ordusunun Salmasdan yaxınlaşdığını görən ermənilər məğlub olacaqlarını anlayaraq geri çəkildilər. Ermənilər zəif müdafiə olunan şəhər və kəndlərə basqınlarını davam etdirir, yeni faciələr törədirdilər. Onlar Urmiya gölündəki Rusiya hərbi gəmisindən də istifadə etmək niyyətində idilər. 180 nəfər yaxşı təlim keçmiş erməni-aysor hərbçisi bu gəmi ilə *Şərəfxana limanına* irəliləyib oradakı gəmiləri də ələ keçirmək istəyirdilər. Lakin onlar sahilə çıxanda Osmanlı türkləri və azərbaycanlılarla döyüşdə məhv edildilər. Beləliklə, onların bu planı da iflasa uğradı [51, s. 55-56]. 1917-1918-ci illərdə Cənubi Azərbaycanın qərb bölgəsində, əsasən *Urmiya, Salmas, Xoy* və digər ətraf ərazilərdə böyük dövlətlərin təşkil etdiyi, əsasən ermənilərdən ibarət olan xristian ordusunun Azərbaycan türklərinə qarşı həyata keçirdiyi soyqırımı nəticəsində ***100 minlərlə dinc əhali qətlə*** yetirildi. Birləşmiş xristian ordusu Cənubi Azərbaycanın qərb bölgəsində onlarla şəhər və kəndi talan edərək yerlə-yeksan etdi, kişi, qadın, uşaq və qocanı fərq qoymadan dünyada misli görünməmiş soyqırıma məruz qoydu. Soyqırım baş verdiyi dövrdə yaşamış Seyid Əhməd Kəsrəvi yazır ki, ***Urmiya şəhərində 130 mindən çox insan*** ermənilər və aysorlar tərəfindən öldürülmüşdür [102, s. 919]. Soyqırım nəticələri barədə daha dəqiq məlumatı İranın mərkəzi hökumətinin Urmiyadakı kargüzarı Rəhmətullah xan Mötəmidəlvuzərə vermişdir. Bölgələrdə aparılan bu hesabatlara görə: "Şəhərin bəzi məhəllələrinə, eləcə də bəzi kəndlərə dəyən xəsarət və can itkisinin hələ də hesablanmasının davam etməsinə baxmayaraq, I Dünya Müharibəsi başlayandan indiyədək sadəcə qeydə alınan və hesablama vərəqələrində göstərilən can itkisi ***160 min nəfər, xəsarət isə təxminən 160 krur tümən*** idi, ... xəsarət və insan tə-

ləfatı qeydə alınmayan məntəqələr də hesablanarsa, dəyən maddi xəsarət ***200 krur tümən, insan itkisi isə 200 min nəfər*** olur" [51, s. 58]. Beləliklə, Güney Azərbaycanında, əsasən Urmiya bölgəsində azərbaycanlılara qarşı törədilən qırğınlar əslində ermənilərin Cənubi Qafqaz, Şərqi Anadolu və İranda türk-müsəlman əhalisini soyqırıma məruz qoyaraq gələcəkdə türksüz "Böyük Ermənistan" yaratmaq planının tərkib hissəsi idi.

XRONOLOJİ CƏDVƏL

XIX əsrin ikinci yarısı – Azərbaycanda ilk tənbəki fabrikinin Nuxada fəaliyyətə başlaması.
1879-1882 – "Üçlər ittifaqı": İtaliya, Almaniya, Avstriya.
1882 – Kəndli torpaq bankının təşkili.
1899-1900 – Bakıda olan 208 şirkətdən 90-nın iflası.
1900 – Nuxa-Zaqatalada 46 fabrikin fəaliyyət göstərməsi.
1900-1903 – Dünya iqtisadi böhranı.
1900-1903 – Şamaxı qəzasının Navahi kəndində, Bakı qəzasının Buzovna, Zığ, Əhmədli və Maştağa kəndlərində, Naxçıvan və Yelizavetpol qəzalarında kəndli çıxışlarının baş verməsi.
1900, 1 may – Çar II Nikolayın "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etməsi. İcma torpaqlarından nəsli istifadə hüququ.
1901 – RSDFP-nin Bakı Komitəsinin yaradılması.
1901, mart – Bakıda Sabunçu "Təmir" mexaniki və b. emalatxanaların fəhlələrinin tətili.
1901 – Sentyabr - noyabr aylarında Xatisovun zavodunda, avqustda Gəncədə dəmir yol deposunda, dekabrda Tovuzda dəmir yol stansiyasında fəhlə tətilləri.
1901 – Bakıda H.Z.Tağıyevin birsinifli "Bakı rus-müsəlman qadın məktəbini"n açılması. 1913-cü ildə ikisinifli, 1916-cı ildə isə ibtidai-ali məktəb olması.

1902 – Gəncədə, Ağdaşda, Qazax qəzasının Salahlı kəndində, Göyçay qəzasının Zəyəli kəndində, Şuşada, Şamaxıda, Karyagin qəzasında və b. yerlərdə ilk qadın məktəblərinin açılması.
1902, 1 may – Bakıda ilk açıq nümayiş.
1902 – Şəkidə çiyid yağı zavodunun tikilməsi.
1902 – M.Ə.Rəsulzadənin rəhbərliyi ilə "Müsəlman gənclik təşkilatı".
XX əsrin əvvəlləri – 100-dən çox pambıqtəmizləmə zavodunun fəaliyyəti.
XX əsrin əvvəlləri – Azərbaycanın 7 qəzasında balıqçılığın inkişafı.
XX əsrin əvvəlləri – Sənaye tütünçülüyünün ən çox Zaqatala dairəsində, Nuxa, Cavanşir, Şuşa, Quba və Şamaxı qəzalarında intişar tapması.
XX əsrin əvvəlləri – Gəncə və Şuşada "Hümmət", "Təkamül", "Yoldaş" (1907), "Qudok" (1907-1908), "Naşa jizn" (1914), "Bakı həyatı" (1912) qəzetləri, "Volna" (1909), "Sovremennaya jizn" (1911), Bakıda burjuaziyanın "İrşad" (1905-1908), "Tərəqqi" (1908-1909), "Füyuzat" və "Yeni füyuzat" və s. jurnalların nəşr olunması.
1903-cü ilədək – İngilis kompaniyalarının Bakının neft müəssisələrinə 60 mln. manat kapital qoyması.
1903, 2 mart – Bakıda açıq küçə nümayişi.
1903, 21 aprel – "Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında" Əsasnamə.
1903, 27 aprel – Bakıda 1 May şərəfinə böyük siyasi nümayiş.
1903, 1-22 iyul – Bakıda iyulun 1-də (14-də) Xatisovun zavodunun, iyulun 4-də Qara və Ağ şəhərləri, Bibiheybət, iyulun 5-də Balaxanı-Sabunçu neft sənayesinin fəhlələrinin ilk ümumi siyasi tətili.
1903, yay – Lənkəran qəzası Cangəmirən kənd sakinlərinin çıxışı.
1904, oktyabr – 1905, fevral – "Hümmət" adlı sosial-demokrat təşkilatının "Hümmət" adlı qəzetinin nəşri.

1904, 12 dekabr –"Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı"nın və digər fəhlələrin ümumi tətili.
1904, 21-31 dekabr – Bakı fəhlələrinin ümumi tətili. "Mazut Konstitusiyası" (27-30 dekabr) müştərək müqavilənin imzalanması.
1904 – "Müsəlman artistləri cəmiyyəti"nin yaradılması.
1905, 3-9 yanvar – Peterburq tətili. Qış Sarayına gedən tətilçilərin güllələbaran edilməsi.
1905, 6-10 fevral – Bakıda erməni-azərbaycanlı qarşıdurması.
1905, 15 fevral – Bakıda general-qubernator vəzifəsinin təsis edilməsi. 18 fevral - Bakı quberniyasında hərbi vəziyyətin elan edilməsi. 26 fevral - Qafqazın baş rəisi vəzifəsinin ləğv edilməsi. Qafqaz canişinliyinin bərpa olunması. Qraf Vorontsov-Daşkov.
1905, yaz-yay ayları – Əlimərdan bəy Topçubaşovun çar hökumətinə təqdim etdiyi ilk program sənədi.
1905, 15 avqust – Nijni-Novqorodda keçirilən Ümumrusiya Müsəlmanlarının I qurultayının "İttifaqi-müslimin" ("Müsəlman ittifaqı") adlı təşkilat yaratmaq Qərarı.
1905, 17 oktyabr – II Nikolayın Rusiya xalqlarına mülki və siyasi azadlıqlar vermək niyyəti ilə manifest verməsi. Dövlət Dumasının vəd olunması.
1905, 25 noyabr – Bakı Sovetinin fəaliyyətə başlaması.
1905 – Muğanda rusların məskunlaşması.
1905, payız – "Müsəlman cəmiyyəti xeyriyyəsi", "Müdafiə və müsəlman kadrları və ziyalılarının ittifaqı cəmiyyəti".
1905-1911 – Məşrutə inqilabı.
1906 – "Nəşri maarif" və "Nicat" cəmiyyətləri (H.Z.Tağıyevin və M.Muxtarovun xeyriyyəçiliyi ilə).
1906, 15-25 yanvar – Peterburqda keçirilən Ümumrusiya müsəlmanlarının II Qurultayında Nizamnamə və proqramın qəbul edilməsi.
1906, 1 aprel – 1931 – Tiflisdə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə "Molla Nəsrəddin" jurnalının çapı.
1906, 31 may - 7 iyul – I Dumanın fəaliyyəti.

1906, avqust – Azərbaycan müəllimlərinin I Qurultayı.
1906, 16-23 avqust – Nijni-Novqorodda keçirilən Ümumrusiya müsəlmanlarının III Qurultayında "Müsəlman ittifaqı"na rəhbərlik etmək üçün Bakıda Mərkəzi Komitə yaratmaq Qərarı.
1906 – "Qafqaz yağ zavodu" səhmdar cəmiyyətinin təsis edilməsi.
1906, 5 avqust – Konstitusiya verilməsi haqqında şah Fərmanı.
1906, avqust-sentyabr – Əhməd bəy Ağayevin rəhbərliyi ilə "Difai" ("Müdafiə") Partiyası.
1906 – R.Məlikov, R.Şərifzadə və M.Cuvarlinskinin rəhbərliyi ilə "İttifaq" təşkilatı.
1906, 9 sentyabr – Məclisə seçkilər keçirilməsi haqqında Əsasnamənin imzalanması.
1906-cı ilin sonu – Təbrizin əsası hələ 1904-cü ildən qoyulmuş "İctimaiyyune-amiyyun", yəni sosial-demokrat partiyasının yaranması.
1907, 14 yanvar - 3 iyun – II Dumanın fəaliyyəti.
1907, 8 fevral – Azərbaycan nümayəndələrinin əyalət əncüməninin saraya verdiyi tələblərin həyata keçirilməsinə nail olması.
1907, 14 okyabr – 1912, 9 iyun – III Dumanın fəaliyyəti.
1907 – İsmayıl xan Ziyadxanlının rəhbərliyi ilə "Müdafiə" təşkilatı.
1907 –"Antanta" bloku: İngiltərə, Rusiya.
1907 – Bakıda ruhanilərin yaratdıqları müsəlman mədəni-maarif cəmiyyəti - "Səadət".
1907, oktyabr – Konstitusiyaya "Əlavələr"n qəbul edilməsi.
1907, noyabr – Tehranda "Fetovvat" və "Səadət", Təbrizdə "İslamiyyə" adlı irticaçı əncümənlərin təşkili.
1908, 12 yanvar – H.Z.Tağıyev teatrının binasında "Leyli və Məcnun" operasının ilk tamaşasının qoyulması.
1908, avqust – 12 oktyabr – Təbriz üzərinə irtica qüvvələrinin hücumu və məğlubiyyəti.
1908-1910 – Bakı neft istehsalı rayonunda 60 azərbaycanlı sahibkarın fəaliyyət göstərməsi.
1908-1910 – Azərbaycana 3 mindən artıq rus kəndli ailəsinin köçürülməsi.

1908-1915 – Ü.Hacıbəyovun "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid Banu", "Harun və Leyla" operaları.
1909 – Qatır Məmmədin başçılığı ilə Goranboy-Əhmədli kəndlilərinin çıxışı. Qatır Məmmədin həbsi və İrkutsk quberniyasına sürgün (1914) edilməsi.
1909 – Azərbaycanda borc-kredit şirkətlərinin təşkili.
1909 – S.Ruhulla, C.Zeynalov və H.Ərəblinskinin köməyi ilə Təbriz teatrının təşkili.
1909, yanvarın - mart – Təbrizin irtica tərəfindən mühasirəyə alınması. İnqilabçıların qələbəsi.
1909, fevrala qədər – Cənubi Azərbaycanın bütün qərb vilayətlərinin Maku istisna olmaqla inqilabçıların əlinə keçməsi.
1909, 29 aprel – Təbriz üsyanı.
1909, 16 iyul – Məhəmmədəli şahın hakimiyyətdən devrilməsi və Konstitusiyanın bərpası.
1910, 11 mart – Səttar xan və Bağır xanın paytaxta dəvət olunması.
1910 – Yelizavetpol quberniyasında Kərbəlayi Əsgərin başçılığı ilə kəndli çıxışları. Məşədi Yolçu.
1910-1911 – Bakıda fəhlə çıxışları.
1910, 28 dekabr – Çar hökuməti tərəfindən Təbriz fədailərinin müqavimətinin qırılması.
1910 – Müsəlman mədəni-maarif cəmiyyəti-"Səfa".
1910 – İsmailiyyə binası (indiki Azərbaycan Elmlər Akademiyasının binası).
1911 – Mayılov qardaşları teatrı (indiki M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası).
1911 – Müsəlman Demokratik "Müsavat" ("Bərabərlik") Partiyası.
1912 – "Oyl" inhisarı.
1912 – Bakı quberniyasında 60, Gəncə quberniyasında 29 rus kəndinin salınması.

1912, əvvəlləri – İngilis-rus sazişinin (1907) İran hökuməti tərəfindən rəsmən qəbul edilməsi.
1912, 4 aprel – Sibirdə Lena qızıl mədənlərində fəhlələrin güllələrən edilməsi.
1912, 7-15 may – Azərbaycanda tətil hərəkatı. Sahibkarlarla fəhlələr arasında müştərək müqavilənin bağlanması.
1912, 20 oktyabr - 1917, 26 fevral – IV Dumanın fəaliyyəti.
1912, 20 dekabr –"Cənubi Qafqaz quberniyasında torpaqların məcburi surətdə satın alınması haqqında" Qanun. "Qaydalar"ın təsdiqi.
1913-1914 – Azərbaycanda tətil və nümayişlər.
1913-1917 – "Müsavat" ("Bərabərlik") Partiyasının fəaliyyəti.
1913 – "Tovuz" portland sementi və digər tikinti materialları istehsalı səhmdar cəmiyyətinin təsis edilməsi.
1913 – Azərbaycanda 129-dan artıq kredit şirkəti və borc-əmanət kassalarının fəaliyyət göstərməsi.
1913, 1 yanvar – "Qaydalara" görə, Azərbaycandakı sahibkar kəndlilərinin mükəlləfiyyət daşımaqdan azad olunması.
1913, 7 iyul – Çarın sərəncamı ilə "Dağıstan və Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılıq münasibətlərinin ləğv edilməsi haqqında" Qanunun qəbul edilməsi.
1913, 25 iyul - 1914, 1 iyun – Bakıda ümumi tətil.
1913, 25 oktyabr – "Arşın mal alan" musiqili komediyası.
1914 – "Simens qardaşları və K`" şirkətinin Almaniyanın "Ştuden Gezelşaft" inhisarı ilə 30 il müddətinə müqavilə bağlaması.
1914 – Bakı Tacir bankının yaradılması.
1914, 19 iyun (1 avqust) - 1918, 11 noyabr – I Dünya müharibəsi.
1914, 29-31 oktyabr – Rusiyanın Osmanlı dövlətinə müharibə elan etməsi.
1914, 4 dekabr - 1915, 18 yanvar – Ənvər paşanın rəhbərliyi lə Sarıqamış əməliyyatı.

1914, dekabrın axırları – Cənubi Azərbaycanın Osmanlı ordusu tərəfindən işğalı.
1915, 1 yanvar – Xəlil bəyin komandanlığı ilə Osmanlı ekspedisiya korpusu Təbrizi, apreldə Urmiyanı ələ keçirməsi.
1915, 15 yanvar-1918, əvvəlləri – Cənubi Azərbaycanın Rusiya qoşunları tərəfindən işğalı.
1915, yanvarın sonu – Rus qoşunlarının Təbrizi ələ keçirməsi.
1915, yaz – Erməni - rus qoşunlarının Şərqi Türkiyənin ermənilər yaşadığı ərazisinə soxulması.
1915, 25 iyun – Çarın "Özgə xalqlardan" olan 18 yaşından 43 yaşına kimi şəxslərin (50 mindən çox) müharibə ilə əlaqədar işlərə səfərbərliyə alınması haqqında Fərman verməsi.
1916 – H.Ərəblinski və H.Sarabskinin başçılıq etdiyi "Müsəlman dram cəmiyyəti". Azərbaycan opera teatrı.
1916 – M.Maqomayevin "Şah İsmayıl" operası.
1916 – "Neft və milyonlar səltənətində" adlı Azərbaycan filminin çəkilməsi, "Ölülər" pyesinin, Z.Hacıbəyovun "Aşıq Qərib" operasının tamaşaya qoyulması.
1916, sonu -1917, əvvəlləri – Rusiyada inqilabi şərait.
1917, 23 – 27 fevral – Petroqrad fəhlələrinin üsyanı. Çarizmin devrilməsi.
1917, 2-7 mart – Bakıda kütləvi mitinqlər.
1917, 3 mart – Müvəqqəti hökumətin yaratdığı Xüsusi Cənubi Qafqaz Komitəsi.
1917, 9 mart – RSDFP-nin Xüsusi Cənubi Qafqaz Komitəsi (2 bolşevik və 3 menşevik) və "Hümmət"in müvəqqəti Komitəsinin seçilməsi.
1917, 17 mart – Müvəqqəti hökumətin orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsinin təşkili.
1917, 27 mart – Müsəlman İctimai Təşkilatlarının yığıncağında Bakı müsəlman ictimai təşkilatları Sovetinin müvəqqəti Komitəsinin təşkili.

1917, mart – Bakıda bolşeviklərin "Ədalət" təşkilatının yaradılması.
1917, 15-20 aprel – Bakıda keçirilən Qafqaz müsəlmanlarının Qurultayı.
1917, may – Cənubi Azərbaycan Əyalət Komitəsinin İran Demokratik Partiyası adı altında birləşməsi.
1917, 1-11 may – Ümumrusiya müsəlmanlarının Qurultayı.
1917, 20 (3 iyul) iyun – Federalistlərin (Türk Ədəmi Mərkəziyyət Partiyası) Müsavatla birləşməsi və Türk Federalist Müsavat Partiyası adlanması.
1917, avqust – "Birlik" təşkilatı.
1917, 24 avqust – Əyalət Komitəsinin Konfransı. Azərbaycan Demokratik Firqəsi (ADF) və Şeyx Məhəmməd Xiyabani başda olmaqla ADF-nin MK-nin seçilməsi.
1917, 25-31 oktyabr – Müsavat Partiyasının I Qurultayı.
1917, 25 oktyabr – Petroqradda Müvəqqəti hökumətin devrilməsi. Oktyabrın 25-26-da V.İ.Lenin başda olmaqla sovet diktaturasının əsasının qoyulması.
1917, payız – 1920, əvvəlləri – Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə mitinqlərin keçirilməsi.
1917, 15 dekabr – Brestdə Rusiya, Kayzer Almaniyası və onun müttəfiqləri arasında İrandan xarici qoşunların çıxarılması barədə sülh müqaviləsi imzalanması haqqında danışıqların başlanması.
1917-ci ilin sonu – Vüsuqüddövlə hökumətinin istefa verməsi.
1918, 5 yanvar – Rus qoşunlarının İrandan çıxarılması barədə proqramın elan edilməsi.
1918, 22-25 fevral – Urmiya sakinlərinin ermənilər tərəfindən qırğını
1918, 15 mart – Bakı Sovetinin iclasında S.Şaumyanın azərbaycanlıların soyqırımına göstəriş verməsi.

1918, 30 mart – Şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin tərk-silah edilməsi.
1918, 30 mart, saat 16:00 – 2 aprel – Bolşevik-erməni hərbi dəstələrinin azərbaycanlılara qarşı soyqırım törətməsi. 50 minə qədər azərbaycanlının qətli.
1918, 3 aprel – xristian ordusunun Salmasın mərkəzi Dilmanı işğal etməsi
1918, 5 aprel – Osmanlının VI Ordusunun bir taburunun Rayatdan Üşnüyə, digər üç taburunun isə Ərbildən Rəvandizə doğru irəliləməsi
1918, 25 aprel – Bakı Xalq Komissarları Sovetinin yaradılması.
1918, 10 may – Osmanlının IV Nizami ordusunun Üşnüdən Urmiyaya yürüş etməsi
1918, 24 may – ermənilərin Xoya hücumu
1918, 30 may – ermənilərin Əsgərabadı top atəşi ilə darmadağın etmələri
1918, iyun – Osmanlı qoşunlarının Xoya çatması, oradan da Salmasa hərəkət etməsi
1918, 24 iyun – Andronikin ordusunun Xoy şəhərini mühasirəyə alması
1917-1918-ci illər – Cənubi Azərbaycanın qərb bölgəsində, əsasən Urmiya, Salmas, Xoy və digər ətraf ərazilərdə xristian ordusu tərəfindən 100 minlərlə Azərbaycan türklərinin soyqırımı
1917-1918-ci illər – Urmiya şəhərində 130 mindən çox dinc əhalinin soyqırımı
1914-1918-ci illər – Urmiya və ətraf bölələrdə maddi xəsarət 200 krur tümən, insan itkisi isə 200 min nəfərdir
1918, avqust – "Qardaşlıq yardımı" adı ilə Azərbaycan neftinin daşınması.
1918, yay – İngilis qöşunlarının Cənubi Azərbaycanın Zəncan, Miyane, Urmiya və Xoy şəhərlərinə daxil olması.

1919, 9 avqust – Böyük Britaniyanın İran hökuməti ilə saziş imzalaması.
1920, aprel – ADF-nin üzvlərindən bir neçəsinin həbs edilməsi.
1920, 7 aprel – Təbriz üsyanı. Cənubi Azərbaycan milli-azadlıq hərəkatı.
1920, 23 iyun – ADF İİH əsasında Milli Hökumətin (MH) yaranması.
1920, 25 iyun – Vüsuquddövlənin istefaya çıxması.
1920, 12-14 sentyabr – Üsyançıların məğlub olması. Ş.M.Xiyabaninin öldürülməsi.
1921 – İngiltərə-İran sazişinin (1919) ləğvi.

X FƏSİL
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-Cİ İLLƏR)

Plan:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun hakimiyyətinin bütün Şimali Azərbaycan ərazisinə bərqərar edilməsi.
2. Milli dövlət quruculuğu. Azərbaycan parlamenti.
3. Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti.
4. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri.

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun hakimiyyətinin bütün Şimali Azərbaycan ərazisinə bərqərar edilməsi

1917-ci il oktyabrın 25-də Müvəqqəti hökumətin devrilməsi nəticəsində Cənubi Qafqazda ictimai-siyasi vəziyyət mürəkkəbləşmişdir. Fevral inqilabının qələbəsindən sonra *martın 3-də* yaradılmış Xüsusi Cənubi Qafqaz Komitəsi ləğv olundu və Cənubi Qafqaz Komissarlığı yaradıldı. ***1918-ci il yanvarın 5-də*** Ümumrusiya Müəssislər Məclisi bolşeviklər tərəfindən qovulandan sonra, onun Cənubi Qafqazdan olan üzvləri ***1918-ci il fevralın 22-də Cənubi Qafqaz Seymini*** yaratmaq qərarına gəldilər. Seym Cənubi Qafqazın ali hakimiyyət orqanı idi. Cənubi Qafqaz Seymi ***1918-ci il fevralın 23-də*** öz fəaliyyətinə Osmanlı Türkiyəsi ilə sülh danışıqlarının müzakirəsi ilə başladı. ***Mart ayının 3-də*** Sovet Rusiyası Almaniya ilə ***Brest-Litovsk sülh müqaviləsini*** imzaladı. Müqavilənin şərtlərinə görə: 1) 1877-1878-ci illər rus-türk müharibəsinə qədərki sərhəd xətti bərpa edilməli idi;

2) Qars, Ərdəhan və Batum vilayətləri Osmanlı Türkiyəsinə verilməli idi; 3) rus əsgərləri türk ərazilərində və sərhəddə yerləşən erməni silahlı birləşmələrini tərk-silah etməli idilər. ***1918-ci il martın 14-də*** fəaliyyətə başlayan və bir ay davam edən Trabzon konfransında Cənubi Qafqaz nümayəndə heyəti ***Brest-Litovsk müqaviləsinin*** Qafqaza dair maddələrinə etiraz etdi. Osmanlı imperiyası isə bu etiraza münasibətini bildirərək qeyd etdi ki, əgər Cənubi Qafqaz hökuməti müstəqil dövlət kimi tanınmaq istəyirsə, ilk növbədə ***Rusiyadan ayrıldığını rəsmən*** bildirməli və öz istiqlaliyyətini elan etməlidir. ***Aprelin 6-da*** Osmanlı imperiyası Cənubi Qafqaz nümayəndə heyətinə Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul edib-etməmək barəsində 48 saat ərzində cavab verilməsini tələb edən ultimatum təqdim etdi [5, s. 323]. ***Aprelin 13-də*** Azərbaycan fraksiyasının etirazına baxmayaraq erməni və gürcü fraksiyasının tələbi ilə ***Seym Osmanlı imperiyası ilə müharibə haqqında Qərar*** qəbul etdi. Ölkədə hərbi vəziyyət elan edildi və Y.Gegeçkori, N.Ramişvili və X.Karçikyandan ibarət Ali Müdafiə Şurası yaradıldı [135, s. 34-35]. Osmanlılar hücuma keçərək *1918-ci il aprelin 14-də* Batumu tutdular.

Bu dövrdə Cənubi Qafqazda erməni şovinist millətçi qüvvələr öz məkrli siyasətlərini davam etdirirdilər. Azərbaycanda milli hərəkatın genişlənməsi, "Müsavat"ın nüfuzunun artması "böyük Ermənistan" xülyası ilə yaşayan daşnaklar *31 mart* qırğınını törətdilər. Müsəlman fraksiyası Cənubi Qafqaz Seymindən Bakıya müsəlman əhalisini müdafiə etmək üçün qoşun göndərməyi tələb etdi. *1918-ci il aprelin 3-də* Cənubi Qafqaz Seyminin Bakı hadisələrinə həsr olunmuş iclasında Fətəli Xan Xoyski bildirdi ki, "...müsəlman əhalini müdafiə etmək üçün tədbirlər görülməsə, müsəlman nazirlər hökumətin tərkibindən çıxacaqlar" [385]. ***1918-ci il aprelin 22-də*** müsəlman fraksiyasının təzyiqi altında Cənubi Qafqaz Seyminin geniş iclası keçirildi və müstəqil, demokratik, federativ Cənubi Qafqaz Respublikasının elan olunması haqqında Qətnamə qəbul edildi [5, s. 335].

Mart hadisələri ilə əlaqədar, Azərbaycanın bir sıra şəhərlərində bolşeviklərə qarşı etiraz dalğası qalxdı, kütləvi mitinq və yığıncaqlar başlandı. "Bakı məsələsi"ni Cənubi Qafqaz Seyminin gücü ilə həll etmək cəhdlərinin əbəs olduğunu görən Azərbaycan fraksiyası yeganə çıxış yolunu Osmanlı qoşunlarının çağırılmasında gördü [91, s. 39]. Cənubi Qafqazda müstəqil respublika yarandığının elan olunması və Osmanlı qoşunlarının sürətlə cəbhə boyu irəliləməsi ilə əlaqədar olaraq, A.İ.Çxenkelinin başçılıq etdiyi Cənubi Qafqaz Respublikası hökuməti Trabzon sülh danışıqlarına yenidən başlamaq üçün Osmanlı imperiyasına müraciət etdi [198]. ***1918-ci il mayın 11-də*** Batumda keçirilən konfransda Zaqafqaziya Seyminin nümayəndə heyəti Osmanlı Türkiyəsinin Qars, Ərdəhan və Batum əyalətləri haqqında tələblərini tamamilə tanıdı və bununla da Brest-Litovsk müqaviləsinin müddəalarını təsdiq etdi. Bundan əlavə, Osmanlı dövləti Axalsıx, Axalkələk, Aleksandropol (Gümrü), Sürməli və Naxçıvan qəzalarının daxil olduğu ərazini də tələb edirdi [104, s. 39]. Yarandığı andan Seymin tərkibinə daxil olan ***Azərbaycan, gürcü və erməni*** *fraksiyaları* arasında mövcud olan ciddi fikir ixtilaflarını ***1918-ci il aprelin 22-də Cənubi Qafqazın müstəqil federativ respublika*** elan edilməsi də yumşalda bilmədi. Seymin fəaliyyəti iflic vəziyyətinə düşdü. Batum konfransında Almaniya nümayəndələri ilə separat danışıqların gedişində və general Fon Kressin təzyiqi nəticəsində Seymin gürcü fraksiyası Gürcüstanın Cənubi Qafqaz Respublikası tərkibindən çıxmaq və öz müstəqilliyini elan etmək haqqında qərar qəbul etdi. ***1918-ci il mayın 26-da Cənubi Qafqaz Seymi*** buraxıldığını elan etdi və elə həmin gün də *Gürcüstanın müstəqilliyi* bəyan edildi. Gürcü fraksiyası Cənubi Qafqaz Respublikasının dağılmasının bütün günahını müsəlman fraksiyasının üstünə atdı. Onların fikrincə, müsəlman fraksiyası türkpərəst mövqe tutduğu üçün elə vəziyyət yaranmışdır ki, gürcülər onlarla artıq əməkdaşlıq edə bilməz [200]. Ertəsi gün, ***mayın 27-də*** yaranmış vəziyyətlə əlaqədar olaraq keçmiş Seymin Azərbaycan fraksiyasının fövqəladə

iclası keçirildi və ***Azərbaycan Milli Şurasının*** yaradılması haqqında Qərar qəbul edildu. Milli Şura Azərbaycanın idarə olunmasının tam məsuliyyətini öz üzərinə götürdüyünü bildirdi. ***M.Ə.Rəsulzadə*** Milli Şuranın sədri, ***H.Ağayev*** və ***M.Seyidov*** onun müavinləri seçildilər. Daha sonra ***Milli Şuranın icra orqanı-****9 nəfərdən ibarət* ***İdarə Heyətinin*** təşkil olunmasına başlandı. ***F.X.Xoyskinin*** yekdilliklə ***sədr*** seçildiyi icra orqanına aşağıdakı partiyaların nümayəndələri daxil oldular: *"Müsavat"* partiyasından *M.H.Hacınski, N.Usubbəyov, X.Xasməmmədov, M.Y.Cəfərov; "Müsəlman sosialist bloku"ndan X.Məlikaslanov, C.Hacınski; "Hümmət"dən Ə.Şeyxülislamov; "İttihad" partiyasından X.Sultanov.* ***Mayın 28-də*** Azərbaycan ***Milli Şurasının ilk iclası*** oldu. X.Xasməmmədovun Azərbaycanın müstəqilliyinin elan edilməsi təklifinə tərəfdar çıxanlar olsa da, F.X.Xoyski yerlərdə vəziyyət aydınlaşmayana kimi Azərbaycanın istiqlaliyyətinin elan olunması məsələsində tələsməməyi və hələlik, yalnız tamhüquqlu Azərbaycan hökumətinin yaradılması ilə kifayətlənməyi təklif etdi. Mübahisələrdən sonra ***Milli Şura 24 səslə*** (2 nəfər - S.M.Qəniyev və C.Axundov bitərəf qaldılar) ***Azərbaycanın dövlət müstəqilliyinin elan olunması haqqında Qərar*** qəbul etdi və ***"İstiqlal bəyannaməsi"****nin* mətnini təsdiqlədi [20, s. 27]. Daha sonra Milli Şura *Azərbaycan Demokratik Respublikasının ilk hökumətini* təşkil etməyi F.X.Xoyskiyə tapşırdı. Müstəqil Azərbaycanın ***I hökumətinin*** tərkibi: Nazirlər Şurasının sədri və daxili işlər naziri-F.X.Xoyski; Hərbi nazir-X.Sultanov; Maliyyə və xalq maarifi naziri-N.Usubbəyov; Xarici işlər naziri-M.H.Hacınski; Yollar, poçt və teleqraf naziri - X.Məlikaslanov; Ədliyyə naziri-X.Xasməmmədov; Əkinçilik və əmək naziri-Ə.Şeyxülislamov; Ticarət və sənaye naziri-M.Y.Cəfərov; Dövlət nəzarəti naziri-C.Hacınski.

Cənubi Qafqaz Seymi dağıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyənləşdirmək zərurəti yaranmışdı. Erməni numayəndəliyi Azərbaycan şəhəri olan İrəvanın Ermə-

nistanın paytaxtına çevrilməsinə razılıq verilməsi üçün Azərbaycan hökumətinə müraciət etdi. ***1918-ci il may ayının 29-da*** Milli Şura uzun müzakirələrdən sonra Batumda tərəflər arasında olan razılığa görə, ***İrəvan şəhəri*** ermənilərə o şərtlə güzəştə gedildi ki, onlar Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəksinlər [363]. Bu güzəşt böyük bir səhv idi.

1918-ci il mayın 30-da böyük dünya dövlətlərinin Xarici işlər nazirlərinə ***Azərbaycan istiqlaliyyətinin elan olunması*** haqqında ***F.X.Xoyskinin*** imzası ilə teleqraf göndərildi. ***1918-ci il iyunun 4-də Azərbaycan Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında Batumda Sülh və Dostluq müqaviləsi*** imzalandı. Müqavilənin *I maddəsi* Osmanlı imperiyası və Azərbaycan Xalq Cümhuriyyəti arasında daimi sülh və möhkəm dostluğun yaradılacağını təsdiq edirdi. *II maddə* Osmanlı imperiyası və Azərbaycan, Gürcüstan, Ermənistan arasında dövlət sərhəd xəttinin müəyyənləşdirilməsinə aid idi; burada həmçinin Azərbaycan və Osmanlı arasında geniş dövlət sərhədi zolağı olması nəzərdə tutulurdu. Müqavilənin *III maddəsinə* əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan dərhal öz aralarında sərhədləri müəyyənləşdirən və həmin müqavilənin bir hissəsini təşkil edən protokollar imzalamalı və bu barədə Osmanlı hökumətinə məlumat verməli idilər. Müqavilənin ***IV bəndinə*** görə ***Osmanlı hökuməti*** *əgər zəruri olarsa, sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə* ***Azərbaycan Cümhuriyyətinə hərbi yardım*** *göstərməyi öz öhdəsinə götürürdü.* Müqavilənin *V maddəsinə* əsasən, Azərbaycan hökuməti Azərbaycan Xalq Cümhuriyyətinin sərhədboyu ərazilərindəki mövcud quldur dəstələrinin tərk-silah edilib zərərsizləşdirilməsini öz öhdəsinə götürürdü [5, s. 353]. Beləliklə, Batum müqaviləsinə əsasən, Nuru paşanın komandanlığı ilə Osmanlı ordusunun hərbi kontingenti olan 5 və 15-ci diviziya ərazi bütövlüyünü tam bərpa etməsi üçün Azərbaycan Xalq Cümhuriyyətinə köməyə göndərildi [5, s. 354].

1918-ci il iyunun 16-da Tiflisdəki 18 günlük fəaliyyətdən sonra Gəncəyə köçən ***Azərbaycan hökuməti*** ciddi daxili və xarici problemlərlə üzləşdi [20, s. 27]. Bu vaxt artıq ***Nuru paşanın*** hərbi diviziyası Gəncədə idi. Gəncədə Milli Şura güclü müxalifətlə rastlaşdı. ***"İlhaq"****çılar*-Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsini istəyən bu dairələr Nuru paşanı öz tərəflərinə çəkərək onun nüfuzundan Milli Şuraya qarşı mübarizədə istifadə etməyə çalışırdılar. Məhz onlar tərəfindən birtərəfli məlumatlandırılmış Nuru paşa Milli Şura üzvlərini qəbul etmədi. Onlar yalnız Nuru Paşanın müşaviri Əhməd bəy Ağayevlə görüşə bildilər. Həmin görüşdə Ə.Ağayev Milli Şuranın buraxılmasında və Nuru Paşa tərəfindən yeni hökumət kabinetinin təşkil olunmasında israr edib, əks təqdirdə türklərin hökuməti dəstəkləməyəcəklərini bildirdi [76, s. 99]. Həmin günlərdə Azərbaycanın istiqlaliyyətinin müqəddəratı həll olunurdu, çünki "İlhaq"çılar ictimaiyyət arasında nüfuza malik idilər. Yalnız M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Şuranın qətiyyətli mövqeyi kompromis əldə etməyə imkan verdi. ***1918-ci il iyunun 17-də*** toplanmış Milli Şura ***2 Qətnamə*** qəbul etdi: 1."Müvəqqəti hökumətin hüquq və vəzifələri haqqında"; 2."Milli Şuranın buraxılması haqqında" [9, s. 247; 19, s.2 9]. *1918-ci il iyunun 17-də* Milli Şura Osmanlı qoşunları komandanlığının təzyiqi nəticəsində yeni hökuməti təşkil etmək və bütün vəzifələri ona vermək məcburiyyətində qaldı. M.Ə.Rəsulzadə Şuranın buraxılmasını demokratiyanın geri çəkilməsi və irticanın müvəffəqiyyəti kimi qiymətləndirdi. İyun hadisələri Azərbaycanın siyasi həyatında sağa dönüşün başlanğıcı demək idi. Bu hadisələrdən sonra sol partiyalar, eləcə də "Müsavat" partiyası öz fəaliyyətlərini faktiki olaraq dayandırmalı oldular. M.Ə.Rəsulzadə, X.Xasməmmədov, A.Səfikürdski və b. siyasi fəaliyyətdən uzaqlaşdırılaraq danışıqlar bəhanəsi ilə İstanbula göndərildilər. Lakin irtica Milli Şuranın buraxılmasına nail olsa da, demokratik qüvvələr Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlaya bildilər. *1918-ci il iyunun 10-da* S.Q.Şaumyanın

əmri ilə Bakı Sovetinin hərbi qüvvələri ***Gəncə*** üzərinə hücuma başladılar [12, s. 86]. Yalnız ***1918-ci il 4 iyun*** tarixli ***Azərbaycan-Osmanlı müqaviləsinin 4-cü bəndinə*** əsasən birləşmiş Qafqaz İslam Ordusu ***Göyçay*** *ətrafında* ***iyunun 27-dən iyulun 1-dək*** davam edən 4 günlük döyüşdə Bakı Sovetinin qoşunlarını ağır məğlubiyyətə uğradaraq, onların ***Gəncə üzərinə*** yürüşünün qarşısını aldı. Strateji təşəbbüsü ələ alan Qafqaz İslam Ordusu *iyulun 10-da* Kürdəmiri, *iyulun 14-də* isə Karrar stansiyasını, *iyulun 7-dən* başlayaraq Ağsu, Meysarı, Mədrəsə və Mərəzə kəndləri uğrunda döyüşən Qafqaz İslam Ordu hissələri *iyulun 20-də* Şamaxını, *iyulun 18-də* Bankə balıq vətəgələrini azad etdi [5, s. 358-359].

AXC hökuməti Zəngəzur, Qarabağın bir hissəsi və Naxçıvanda nəzarəti ələ almaq üçün bir sıra tədbirlər gördü. *1918-ci ilin yayında* Andranik 8 min nəfərlik hərbi qüvvə ilə Zəngəzura soxuldu. Daşnaklar Azərbaycanın digər bölgələrindən ayrı salınmış ***Zəngəzurda 115*** [52, s. 151], *Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, İrəvan quberniyasında 60-dan* çox Azərbaycan kəndini dağıtdılar. Andranikin dəstələrinin Zəngəzur və Qarabağda quldurluq hərəkətinin qarşısını almaq üçün ***1919-cu ilin yanvarın 15-də*** mərkəzi Şuşa şəhəri olmaqla tərkibinə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları daxil edilən ***Qarabağ general-qubernatorluğu*** yaradıldı. *Xosrovpaşa bəy Sultanov* Qarabağ general-qubernatoru təyin edildi [404; 12, s. 87]. Şuşanı tutmağa çalışan Andranikin quldur dəstələri darmadağın edildi. X.Sultanov erməni milli şurası üzvlərinin Azərbaycanı tərk etməsinə nail oldu. X.Sultanovun səyi sayəsində ermənilərin, o cümlədən quldur Andronikin paytaxtı Şuşa olmaqla "Kiçik Ermənistan" dövləti yaratmaq niyyətləri puç oldu. *1919-cu ilin yayında* Cümhuriyyətin Qarabağda suverenlik hüquqları bərpa olundu [12, s. 87-88]. *Avqust ayında* Qarabağ ermənilər Azərbaycanın suverenliyini qəbul etməyə razılıq verdilər. *1918-ci il may-avqust* aylarında Andranik 8 min nəfərlik silahlı dəstə ilə

Naxçıvana soxulub, "etnik təmizləmə" adı ilə yerli əhalini vəhşicəsinə qətlə yetirdi. ***K.Qarabəkir*** paşanın başçılığı ilə türk ordusunun Naxçıvana daxil olması Andranikin vəhşiliklərinin qarşısını aldı.

Lakin Bakını azad etmək üçün ordunun yaradılmasında hərbi sərişẗəli adamların və zabitlərin çox az olması çətinlik törətsə də, hökumət müəyyən tədbirlər gördü: ***iyunun 26-da*** keçmiş müsəlman korpusu ***"Əlahiddə Azərbaycan korpus"***una çevrildi, *avqustun 11-də ümumi hərbi səfərbərlik* elan olundu və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. ***Sentyabrın 1-də Hərbi Nazirliyin*** yaradılması haqqında Qərar qəbul olundu. Baş Nazir F.X.Xoyski, həm də Müdafiə Naziri, general S.Mehmandarov isə onun müavini təyin olundu. *İyulun 31-də* Bakı XKS-nin istefasından sonra *avqustun 1-də* şəhərdə *"Sentrokaspi diktaturası"* və *"Fəhlə, Əsgər Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti"* adlanan hökumət təşkil edildi. Qafqaz İslam Ordusu ***sentyabrın 15-də Bakını*** azad etdi. ***Sentyabrın 17-də*** Milli hökumət Gəncədən Bakıya köçdü.

Osmanlı imperiyası I Dünya müharibəsində məğlub olduğuna görə noyabrın 1-də Osmanlı qoşunları Naxçıvanı tərk etdilər. *1918-ci il noyabr* ayında Naxçıvan bölgəsində ***Araz-Türk Respublikası*** yaradıldı. Ölkəni ermənilərdən müdafiə etmək üçün silahlı qüvvələr təşkil edildi. *1918-ci il noyabr ayından 1919-cu ilin mart ayınadək* fəaliyyət göstərmiş ***Araz-Türk Respublikası*** bu bölgənin ermənilərin əlinə keçməsinə imkan vermədi, ***Azərbaycanın ərazi bütövlüyünü*** təmin etdi. Azərbaycan hökuməti Naxçıvanın müdafiəsini təmin etmək üçün *1919-cu ilin fevralın 28-də* ***Naxçıvan general-qubernatorluğunu*** yaratdı [384]. ***Bəhram xan Naxçıvanski*** general-qubernator təyin edildi. *1919-cu ilin may-iyul* aylarında Naxçıvan bölgəsində ingilislərin iştirakı ilə yaradılan "erməni idarəçiliyi" yerli əhalinin ciddi müqaviməti nəticəsində iflasa uğradı, *iyulun 19-20-də* aparı-

lan uğurlu döyüşlər nəticəsində erməni qoşunları Naxçıvandan çıxmağa məcbur oldular. ***1919-cu il noyabrın 23-də*** Tiflisdə ABŞ nümayəndələrinin vasitəçiliyi ilə təşkil olunmuş görüşdə *Azərbaycanla Ermənistan arasında* silahlı toqquşmanı dayandırmaq, bütün mübahisəli məsələləri, o cümlədən sərhəd məsələlərini dinc yolla həll etmək haqqında ***saziş*** imzalandı [387]. Lakin sazişin şərtlərini pozan ermənilər yenidən hücuma keçərək 50-dən çox Azərbaycan kəndini dağıtdılar. ***1920-ci ilin fevralında Zəngəzurda*** qısamuddətli saziş əldə edildi.

1919-cu ildə Cənub bölgəsində də separatçı qüvvələrin müqaviməti qırıldı. Hələ, *1918-ci ilin aprelindən* etibarən burada rus zabitləri və bolşevik-daşnak qüvvələri ağalıq edirdilər. Hətta, *1919-cu ilin mayında* bölgədə mərkəzi Lənkəran şəhəri olmaqla ***"Muğan Sovet Respublikası"*** yaradılmışdır. *1919-cu ilin avqustunda* ***general H.Səlimovun*** başçılığı ilə keçirilən hərbi əməliyyatlar nəticəsində *bu qondarma respublika* da ləğv olundu və nəzarət AXC-nin əlinə keçdi.

Şimal bölgəsində də mübahisəli ərazi məsələləri həll olundu. Gürcüstan Respublikası ilə razılıq nəticəsində *(1919-cu il 16 iyun müqaviləsi)* ***91,9 % müsəlmanlardan*** ibarət olan ***Zaqatala-Balakən*** ərazisi Xalq Cümhuriyyətinin tərkibinə daxil edildi. *Zaqatala, Qax* və *Balakən* ərazisini əhatə edən ***Zaqatala quberniyası*** təsis olundu. ***Məmmədağa Şahmalıyev*** qubernator təyin edildi. *Quba-Xaçmaz* bölgəsində separatçılıq meyllərinə son qoyuldu. Bununla da Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini bütün respublika ərazisində bərqərar etdi. Demək olar ki, Azərbaycan ərazisinin azad olunmasında ***Qafqaz İslam Ordusunun*** 2 min əsgəri və zabiti şəhid olmuşdur.

2. Milli dövlət quruculuğu. Azərbaycan parlamenti

Azərbaycan Cümhuriyyətinin dövlət quruluşu ***parlamentli respublika*** idi. "İstiqlal Bəyannaməsi"nə görə, Azərbaycanda ***ali hakimiyyət xalqa*** məxsus idi. ***Qanunverici hakimiyyət-parlamentə, icraedici hakimiyyət isə parlament qarşısında məsuliyyət daşıyan hökumətə*** məxsus idi.

Hərbi quruculuqdan başqa, *1918-ci il 17 iyun* tarixli intibahnaməsinə görə *dövlət idarələri, məhkəmə* və *məktəb sisteminin milliliəşdirilməsi* əsas vəzifələrdən biri idi. *İyunun 26-da* ***Azərbaycan Milli ordusunun*** yaradılması haqqında Fərman verildi. *İyunun 27-də* ***Azərbaycan dili dövlət dili*** elan edildi. *1918-ci il 24 iyun* tarixli Qərarı ilə ***üzərində ağ rəngli aypara*** və ***səkkizguşəli ulduz olan qırmızı bayraq*** dövlət bayrağı kimi qəbul edildi. ***Noyabrın 9-da*** isə həmin bayraq ***üçrəngli-yaşıl, qırmızı*** və ***mavi zolaqlardan ibarət olan bayraqla*** əvəz olundu. M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi Azərbaycanın dövlət bayrağındakı bu 3 rəng ***"türk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvoludur"*** [9, s. 248].

I Dünya müharibəsində məğlub olmuş Osmanlı dövləti ilə Böyük Britaniya arasında ***1918-ci il oktyabrın 30-da*** bağlanmış ***Mudros*** barışığına görə Osmanlı imperiyası Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan hərbi hissələrini çıxarmalı idi, Cənubi Qafqaz Böyük Britaniyanın *nüfuz dairəsi* elan olunur və Bakıya ingilis qoşunları yeridilirdi. M.Ə.Rəsulzadənin təsvirinə görə *1500 əsgərlik Azərbaycan ordusu* ölkənin müxtəlif yerlərinə səpələndiyinə və Bakıda *500 nəfər* milis (polis) qaldığına görə məsələ yalnız diplomatik yolla həll olunmalıydı. N.Usubbəyov, Ə.Ağayev və M.Rəfiyevdən ibarət Azərbaycan nümayəndə heyətinin İrandakı ingilis qoşunlarının komandanı general Tomsonla Ənzəlidə apardığı danışıqlar səmərəsiz oldu. General Tomson Ənzəlidən Bakıya yola düşməzdən əvvəl ***Bəyənnamə*** ilə çıxış etdi:

"I. Noyabrın 17-də səhər saat 10-dək Bakı həm türk, həm də Azərbaycan qoşunlarından təmizlənməlidir;

II. Bakı şəhəri neft mədənləri ilə birlikdə ingilislərin nəzarətinə keçəcək, ölkənin qalan hissəsi isə Azərbaycan hökuməti və qoşunlarının nəzarəti altında qalacaqdır;

III. Azərbaycan Respublikası rəsmi olaraq tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri Azərbaycan hökuməti ilə de-fakto (faktik surətdə, işdə, həqiqətdə) əlaqələr yaradacaqlar;

IV. Aşağıdakı dəyişikliklər istisna olmaqla bütün müəssisə və təşkilatlar öz adi fəaliyyətlərini davam etdirəcəklər:

A) general Tomson Bakının general-qubernatoru təyin olunacaq;

B) şəhər polisinə ingilis komandanlığının nümayəndəsi başçılıq edəcək;

V) şəhər Dumasına yenidən əvvəlki fəaliyyət sərbəstliyi veriləcək;

Q) Paris sülh konfransında millətlərin öz müqəddəratını təyinetmə prinsipi ətrafında gedən diskussiyalardan Azərbaycan kənarlaşdırılmayacaq;

D) silahlı ermənilər Bakıya buraxılmayacaqlar" [403].

1918-ci il noyabrın 16-da F.X.Xoyski V.M.Tomsona məktubla müraciət edərək, ingilis qoşunlarının Bakıya girməsinin Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyünə xələl gətirməyəcəyinə ümidvar olduğunu bildirdi [198]. *1918-ci il noyabrın 17-də* ingilis qoşunları ***Biçeraxovun*** dəstələri (əksəriyyəti ermənilər idi) ilə birlikdə Bakıya daxil oldular. ***Noyabrın 16-da Azərbaycan Milli Şurası*** 5 aylıq fasilədən sonra Bakıda yenidən fəaliyyətə başladı. ***Noyabrın 20-də*** Milli Şura ikinci iclasında ***"Azərbaycan Cümhuriyyətinin Parlamentinin yaradılması haqqında Qanun"*** qəbul etdi [115, s. 13-16]. Yaranmış fövqəladə şəraitdə Ümumazərbaycan Müəssislər Məclisini çağırmaq mümkün olmadığı üçün Milli Şuranı Ali qanunvericilik orqanına-Azərbaycan Parlamentinə çevirmək qərara alındı [115, s. 13-

16]. *Qanuna* əsasən Azərbaycanda yaşayan bütün millətlər parlamentdə təmsil olunmalı idilər. *120* nəfərdən ibarət olan Azərbaycan *parlamentində* Azərbaycan türklərinə-*80,* ermənilərə-*21,* ruslara-*10,* alman, yəhudi, gürcü və polyakların hərəsinə *1 yer* ayrılmışdır. Qalan *5 yerdən 3-ü* Bakı həmkarlar təşkilatı, *2-si* isə Bakı neft sənayeçiləri şurası və Ticarət-sənaye ittifaqı üçün nəzərdə tutulmuşdur [5, s. 377]. Azərbaycan Milli Şurası Rus Milli Şurasının nümayəndələrini parlamentin işinə cəlb etmək məqsədi ilə kompromis variant irəli sürdü. ***1918-ci il noyabrın 24-də*** Azərbaycan Milli Şurası bildirdi ki, 28 may tarixli "İstiqlal bəyənnaməsinin" mövcudluğuna baxmayaraq, o, Azərbaycanın müstəqilliyinin Rus Milli Şurası tərəfindən dərhal tanınmasını tələb etmir. Lakin, Azərbaycanı Rusiyanın mülkiyyəti hesab edən və buna görə də Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququnu inkar edən ***Rus Milli Şurası*** parlamentə nümayəndələrini göndərməkdən imtina etdi. Rus Milli Şurası Azərbaycan hökumətindən tələb etdi ki, ağqvardiyaçıların təşkil etdikləri *Ufa direktoriyasının* ali hakimiyyətini tanısın. Hətta general Tomson belə bu tələbin əsassız olduğunu bildirdi. Bu hadisələr ingilis komandanlığı ilə Azərbaycan hökuməti arasında yaxınlaşma prosesinə təkan vermiş oldu. Azərbaycanın dövlət müstəqilliyinin müdafiəsində "Müsavat" partiyası və digər sol təşkilatların göstərdikləri qətiyyət Rus Milli Şurası daxilində ziddiyyətlərin yaranmasına və son nəticədə bu təşkilatın parçalanmasına gətirib çıxardı. Rus Milli Şurası üzvlərinin bir hissəsi onun tərkibindən çıxaraq ***"Rus-Slavyan cəmiyyəti"*** adlı təşkilat yaratdılar. Bu təşkilat Azərbaycan parlamenti və hökumətinin işində iştirak etməyə hazır olduğunu bildirdi. Bunun ardınca Azərbaycanın *erməni icması* və *"Daşnaksütyun"* partiyası da öz nümayəndələrini parlamentə göndərməyə razılıq verdilər.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təsis iclası oldu. ***Əli Mərdan bəy Topçubaşov*** parlamentin *sədri,* ***Həsən bəy Ağayev*** onun *birinci müavini* seçildilər. Daha sonra ***baş***

nazir F.X.Xoyski söz alaraq hökumətin öz səlahiyyətlərini yerə qoyduğunu və bütün hakimiyyəti parlamentə təhvil verdiyini elan etdi. Fikir rəngarəngliyinə baxmayaraq bütün fraksiyalar bir məsələdə yekdil idilər: Parlamentin fəaliyyətinin əsas məqsədi – *Azərbaycanın müstəqilliyinin, onun milli-siyasi hüquqlarının müdafiə olunmasından, Azərbaycanla digər Qafqaz xalqları arasında həmrəylik münasibətlərinin yaradılmasından, ölkə daxilində demokratik quruluşun bərqərar edilməsindən* ibarət olmalıdır və həmin məqsədlər ətrafında bütün parlament fraksiyaları sıx birləşməlidirlər. Azərbaycan parlamentinin *97 üzvü* var idi və bunlar *10 fraksiyada* birləşmişdilər. "Müsavat" partiyasının nümayəndələri bitərəf demokratlar qrupu ilə birləşərək ən böyük parlament fraksiyasını təşkil edirdilər. 38 parlament üzvündən ibarət olan bu fraksiyanın lideri ***M.Ə.Rəsulzadə*** idi. Parlamentdə "İttihad" partiyasının-13, "Əhrar"ın-7, "Hümmət" və müsəlman sosialist blokunun üzvlərindən ibarət olan sosialistlər fraksiyasının-13, Rus-Slavyan cəmiyyəti"nin-4, "Daşnaksütyun"-7, erməni icması və milli azlıqlar fraksiyalarının hər birinin-4 nümayəndəsi vardı. Bundan əlavə parlamentdə "bitərəflər" və "müstəqillər" (Ə.M.Topçubaşov, S.Mehmandarov, X.Məlikaslanov) fraksiyaları fəaliyyət göstərirdilər. A.Əfəndiyev heç bir fraksiyaya daxil deyildi. Yeni hökumət kabinetinin təşkili F.X.Xoyskiyə həvalə olundu. *1918-ci il dekabrın 26-da* Azərbaycan Respublikasının yeni, *3-cü hökumətin tərkibi* parlamentə təqdim olundu [9, s. 253].

1919-cu il iyulun 21-də parlament "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"ni təsdiq etdi. *1919-cu il avqustun 11-də* ***"Azərbaycan vətəndaşlığı haqqında Qanun"***, *1919-cu il sentyabrın 30-da* ***"Mətbuat haqqında Nizamnamə"*** qəbul olundu. Ümumiyyətlə, ***Azərbaycan parlamenti*** fəaliyyət göstərdiyi ***17 ay*** ərzində ***134 iclas*** keçirmişdir. Parlamentə *270-dən* çox qanun layihəsi təqdim olunmuşdur. Onlardan *230-a* yaxını müzakirə edilib təsdiq edilmişdir.

Müzakirə olunan qanun layihələrinin üçdə ikisi maliyyə, ədliyyə, daxili və hərbi, 30-dan çoxu xalq maarifi, səhiyyə və əmək, 12-si əkinçilik məsələlərinə həsr olunmuşdur.

1919-cu il dekabrın 2-dən 11-dək Bakıda ***"Müsavat"*** partiyasının *II Qurultayı* keçirildi. Qurultay partiyanın Mərkəzi Komitəsinin yeni tərkibini seçdi: M.Ə.Rəsulzadə, N.Usubbəyov, M.H.Hacınski, H.Ağayev, Ş.Rüstəmbəyov, M.Vəkilov və C.Hacınski.

3. Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti

I Dünya müharibəsinin iştirakçı ölkələrinin Qafqaz, xüsusilə Azərbaycan uğrunda hərbi əməliyyatların genişləndiyi dövrdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması milli siyasətçilərimizdən və dövlət xadimlərimizdən çevik siyasi manevretmə bacarığı tələb edirdi. Azərbaycan diplomatiyasının aparıcı istiqaməti qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq idi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü *(1918-ci il may-oktyabr)*; Qərb oriyentasiyası dövrü *(1918-ci il noyabr-1920-ci il yanvar)*; geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü - *(1920-ci il yanvar-aprel)*. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Osmanlı Türkiyəsi münasibətləri yeni mərhələyə – dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu. *4 iyunda* imzalanmış Batum müqaviləsi və *iyunun ortalarında* imzalanan çoxtərəfli sazişlər bu mərhələdə Azərbaycan - Osmanlı münasibətlərinin hüquqi əsasını təşkil edən ilk dövlətlərarası sənədlər idi. I Dünya müharibəsinin sonunda Azərbaycan Osmanlı Türkiyəsi, Almaniya, İngiltərə, Sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdir. Almanlar Bakı ilə bağlı planlarını həyata keçirmək üçün Sovet Rusiyası ilə gizli

danışıqlara başladılar. Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları nəticəsində *avqustun 27-də* imzalanan sazişin 12-ci maddəsində göstərilirdi: "...Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin dörddə birini Almaniyaya verəcək" [53, s. 119]. İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Osmanlı Türkiyəsi Xarici İşlər Nazirliyinə, Avstriya - Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. *1918-ci il sentyabrın əvvəllərində* Azərbaycan nümayəndələrini qəbul edən və qısa müddətdən sonra Berlinə gedən Sədr-Əzəm Tələt Paşa təcili şəkildə *27 avqust sazişinin* ləğv edilməsini Almaniyadan tələb etdi [5, s. 465-466]. *Sentyabrın ortalarında* Azərbaycan - Osmanlı hərbi qüvvələri Bakıya daxil oldu. Bakının azad edilməsi Azərbaycan diplomatiyasının ilk uğurlarından biri idi. *1918-ci ilin payızında* Almaniya, Osmanlı, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. *Oktyabr ayının 30-da* imzalanan Mudros müqaviləsinin 11-ci maddəsinə görə, Osmanlı ordusu tezliklə Azərbaycanı tərk etməli, 15-ci maddəsinə görə isə Osmanlı dövləti Cənubi Qafqaz Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi [148, s. 188]. *1918-ci il noyabrın 10-da* Osmanlı qoşunları Bakıdan, az sonra isə bütün Azərbaycandan çıxdı.

I Dünya müharibəsində iştirak edən ölkələr Bakı neftini ələ keçirmək uğrunda mübarizə aparırdılar, ona görə də *1918-ci ilin mayından* başlayaraq İngiltərə qoşunları Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Osmanlı qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi *1918-ci ilin avqustuna qədər* mümkün olmadı. Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra sentrokaspiçilər Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etdilər. *Avqustun 4-dən* ingilis qoşunları Bakıya daxil oldu.

Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda döyüşlərə başladı. *1918-ci il sentyabrın ortalarında* Britaniya qoşunu Bakını tərk etməyə məcbur oldu. Lakin onlar Osmanlı imperiyası və onun müttəfiqlərinin I Dünya müharibəsində məğlub olmasından sonra *1918-ci il noyabrın 17-də* Bakıya qayıtdılar.

Yeni Azərbaycan hökumətinin təşkilindən dərhal sonra *dekabrın 28-də* general ***Tomson*** bu hökuməti yeganə qanuni hakimiyyət kimi tanıdığı haqqında Bəyanat verdi [199]. Bu bəyanat "vahid və bölünməz Rusiya" bayrağı altında çıxış edən qüvvələrə ayıldıcı təsir göstərsə də, Azərbaycanda hakimiyyəti ələ keçirmək məqsədi ilə onlar *1919-cu il yanvarın əvvəllərində* ***"Qafqaz-Kaspi hökuməti"*** deyilən oyuncaq bir qurum yaratdılar. Lakin ingilis komandanlığı bunu qəbul etmədi, əksinə, ***1919-cu il yanvarın 22-də*** Bakıya gəlmiş Cənubi Qafqazdakı müttəfiq qoşunlarının baş komandanı general ***Corc Miln*** Nazirlər Şurasının sədri F.X.Xoyski ilə görüşü zamanı bir daha bildirdi ki, Böyük Britaniya ***Azərbaycan hökuməti-Cümhuriyyəsini*** Azərbaycanın bütün ərazisində ***yeganə leqal hakimiyyət*** kimi qəbul edir və ona müttəfiqlər komandanlığı tərəfindən hərtərəfli yardım göstəriləcəkdir, eyni zamanda, müttəfiqlər komandanlığı yenicə yaradılmış Cənubi Qafqaz dövlətlərinin daxili işlərinə qarışmayacaqdır. ***1919-cu il fevralın 28-də*** Azərbaycan hökumətinin müttəfiqlər komandanlığına təqdim etdiyi ***notada*** tələb olunurdu ki, Bakıda asayişin bərqərar edilməsinə mane olan ***L.Biçeraxovun*** qoşunları şəhərdən çıxarılsın və erməni silahlı birləşmələri tərki-silah edilsin. İngilislər bu tələbi müdafiə etdilər və 24 saat ərzində Biçeraxovun qoşunları Bakıdan çıxarıldı, erməni dəstələri isə tərki-silah olundu. Azərbaycan hökumətinin polis, maliyyə idarələri, mətbuat və Bakı dəniz limanının fəaliyyəti üzərində tam nəzarəti bərpa edildi. ***General Tomsonun*** tutduğu Bakı general-qubernatoru vəzifəsi ləğv olundu. General Tomsonun noyabr bəyənnaməsinə əsasən Azərbaycan hökumətinə Bakıda ordu saxlamaq qadağasına görə ***1918-ci ilin noyabrından 1919-cu ilin apreli-***

nədək Azərbaycan Respublikasının hərbi nazirliyinin Gəncədəki fəaliyyəti ləğv edildi və ordu Bakıya daxil oldu. M.Ə.Rəsulzadə göstərirdi ki, "burada siyasi və iqtisadi mənfəətlər vardır. Bakı neftinin müstəqil Qafqasiyalı bir hökumət əlində olması və ümumiyyətlə, Qafqasiyanın Rusiyadan ayrılması ingilislərə sərfəli idi. Azərbaycan da bu keyfiyyətdən istifadə etməliydi" [91, s. 50].

1919-cu ilin martında F.X.Xoyski hökuməti istefa verdi və ***aprelin 14-də*** N.Usubbəyovun başçılığı ilə yeni ***4-cü hökumət*** kabinetinin tərkibi parlament tərəfindən təsdiq edildi. ***1919-cü il aprelin 25-də*** Tiflisdə siyasi, iqtisadi, maliyyə və ərazi mübahisələrini həll etmək üçün ***Cənubi Qafqaz dövlətlərinin konfransı*** açıldı. Konfransda Ermənistan ilk növbədə ərazi mübahisələrinin həll edilməsini tələb edirdi. ***Denikin ordusunun*** Dağıstan və Gürcüstan üzərinə hücumunun başlanması ilə əlaqədar olaraq konfransın işi yarımçıq qaldı. Yaranmış vəziyyətlə bağlı ***mayın 26-sı*** və ***iyunun 5-də*** parlamentin fövqəladə iclasları keçirildi. Fövqəladə səlahiyyətlərə malik olan xüsusi orqan – ***Dövlət Müdafiə Komitəsi (DMK)*** yaradıldı. DMK ***1919-cu il iyunun 11-də*** Azərbaycanın bütün ərazisində ***hərbi vəziyyət*** elan etdi. *1919-cu il iyunun 11-də* ingilis qoşunlarının komandanı vəzifəsində Tomsonu əvəz etmiş general Kori N.Usubbəyova məlumat verdi ki, Azərbaycanla Denikin qüvvələri arasında ***Petrovskın*** beş mil cənubundan keçən ***ikinci demarkasiya xətti*** (sərhəd çəkilməsi, təyin edilməsi) müəyyən edilmiş və Denikinə bu xətti keçmək qadağan olunmuşdur. İkinci demarkasiya xəttinə Denikinin məhəl qoymaması Azərbaycan-Gürcüstan ölkələri arasında ***hərbi müqavilə*** bağlanması ilə nəticələndi. ***1919-cu il iyunun 16-da*** (27 iyunda hər iki dövlətin parlamentləri tərəfindən təcdiq edildi) 3 il müddətinə Azərbaycan-Gürcüstan ***hərbi-müdafiə*** paktının imzalanmasına cavab olaraq Denikin hər iki respublikaya qarşı iqtisadi blokada elan etdi. Daşnak hökuməti açıq olaraq bildirdi ki, Azərbaycana qarşı mübarizədə Ermənistan və onun ordusu Denikin qoşunlarının avanqardı rolunu oynayır.

Müstəqilliyin ilk günlərindən Gürcüstan Respublikası ilə qurulan diplomatik əlaqələr çox çətin və ziddiyyətli olsa da, *1920-ci ilin əvvəllərində* normal məcraya düşdü. Azərbaycan-İran komissiyasının gərgin işi nəticəsində *1920-ci il mart ayının 20-də* iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı [5, s. 471]. Rusiya və Ermənistanla münasibətlər bütün dövr ərzində qeyri-stabil olaraq qaldı. Azərbaycan Xalq Cümhuriyyəti erməni quldur dəstələrinin zorakılığının qarşısını almaq və Ermənistan dövləti ilə normal qonşuluq münasibətləri yaratmaq üçün dəfələrlə müraciət etsə də, Ermənistan Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsini işğal etmək, dinc əhaliyə qarşı kütləvi qırğınlar törətmək yolunu seçdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya və Ermənistanla münasibətlərindəki çətinliklərə baxmayaraq, Azərbaycan xalqının milli mənafeyinə uyğun xarici siyasət yeritmək, mürəkkəb beynəlxalq vəziyyətdə Azərbaycanla qonşu dövlətlər arasında mehriban münasibətlər yaratmaq, onu dünya birliyinin bərabərhüquqlu üzvünə çevirmək Azərbaycan diplomatiyasının başlıca məqsədi idi. "İstiqlal bəyənnaməsi"nin qəti olaraq həyata keçirilməsi xeyli dərəcədə Azərbaycan Respublikasının dünya dövlətləri tərəfindən hüquqi cəhətdən tanınmasından asılı idi. Paris sülh konfransında Azərbaycanın taleyi həll olunmalı idi. ***1919-cu il yanvarın 8-də*** Bakıdan yola düşən və İstanbulda 3 ay ləngidikdən sonra ***mayın ortalarında*** Parisə gəlib çıxan Ə.M.Topçubaşovun başçılığı ilə M.H.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Mehdiyev, M.Məhərrəmovdan ibarət Azərbaycan nümayəndə heyətinin məqsədi ***Paris sülh konfransı*** tərəfindən Azərbaycanın istiqlaliyyətinin tamamilə və qeyd-şərtsiz tanınmasına nail olmaq idi.

İstiqlal günü, *1919-cu il mayın 28-də* Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətini *ABŞ prezidenti* ***V.Vilson*** qəbul etmişdi. ABŞ prezidenti azərbaycanlılara Cənubi Qaf-

qaz xalqlarının konfederasiyası ideyasını müzakirə etməyi məsləhət görmüş və qeyd etmişdi ki, konfederasiya Millətlər Cəmiyyətinin himayəsinə veriləcək ölkə kimi böyük dövlətlərdən birinin himayəçiliyinə ümid edə bilər [376, s. 44].

Parisdə Azərbaycan nümayəndə heyəti İranla münasibətləri qaydasına salmaq üçün xeyli iş gördü. Azərbaycan Respublikasının bütün ərazisinə (Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvan [12, s. 102] qarşı iddia irəli sürmüş İranın Paris konfransındakı mövqeyi gözlənilməz oldu. Londonda *1919-cu il 19 avqust* tarixli İngiltərə-İran sazişinin imzalanmasından sonra İran Azərbaycanla bağlı ərazi iddialarından əl çəkdi. *1919-cu il noyabrın 1-də* Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilə bağlandı və iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasına razılıq əldə edildi [54, s. 89-90].

Ərazi məsələlərinin qalib dövlətlərin köməyi ilə həll ediləcəyinə ümid bəsləyən erməni rəhbərliyinin Paris sülh konfransında Osmanlı Türkiyəsinin 7 Şərq vilayətinə (Van, Bitlis, Diyarbəkr, Xarrut, Sivas, Ərzurum və Trabzon); Kilikiyanın 4 sancaqlığına (Mars, Xozan, Cebel, Berket və Aleksandretto şəhəri ilə birlikdə Adananı); bütün İrəvan quberniyasına, Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarının cənub hissələrinə, Qars və Ərdahana, Azərbaycanın Zəngəzur və Naxçıvan bölgələrinə, Qarabağın dağlıq hissəsinə ərazi iddiaları, 19 milyard frank təzminat tələbi [12, s. 101] Azərbaycan nümayəndəliyi tərəfindən qətiyyətlə rədd edildi və ermənilərin planları iflasa uğradı.

Qafqazda bolşevik təhlükəsinin güclənməsi Antanta ölkələrini ciddi şəkildə narahat edirdi və onları qəti addımlar atmağa məcbur etdi. *1919-cu il avqustun 4-də* ingilis komandanlığı Azərbaycan və Gürcüstan sərhədləri boyunca üçüncü demarkasiya xəttini müəyyən etdi. Nəticədə Dağıstan tamamilə Könüllülər Ordusunun nəzarəti altında qaldı [120, s. 247]. İngilis komandanlığı Azərbaycanı tərk edib getməmişdən əvvəl hərbi ləvazi-

matı Könüllülər Ordusuna, tabeliyində olan Xəzər Hərbi Donanmasını isə Denikinə verməsi haqqında *1919-cu il avqustun 6-da* Sərəncam imzaladı [311]. General Kori Azərbaycan tərəfinə bunu belə izah etdi ki, gəmilərin, nəqliyyat vasitələri və avadanlıqların, xüsusi tankerlərin Könüllülər Ordusuna verilməsi Cənubi Qafqaz Respublikalarının toxunulmazlığını təmin etmək şərti ilə həyata keçirilmişdir [110, s. 653]. Denikin ordusuna göstərilən köməyi ingilislər Versal konfransında bolşevizmə qarşı müharibə aparılmasının məqsədyönlü sayılması ilə əsaslandırdılar və bu işə qoşulan bütün qüvvələrə yardım etmək arzusunda olduqlarını bildirdilər [110, s. 653]. *1919-cu il avqustun 2-ci yarısında (23 avqust)* ingilis qoşunları Azərbaycan ərazisini tamamilə tərk etdilər və Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərməyə başladı.

Bakını tərk edərkən ingilislər şəhər limanının idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə verdilər. İngilislərin verdiyi gəmilər əsasında ***Azərbaycanın Xəzər Donanması*** yaradıldı. ***Türkmənçay müqaviləsinin 8-ci bəndini (yalnız Rusiyanın Xəzər dənizində hərbi donanma saxlamaq hüququ var)*** bəhanə edən Denikin Azərbaycan Xəzər Donanmasının milli dövlət bayrağı altında Xəzər dənizində üzməsinin qarşısını almağa cəhd etdi. Azərbaycan xarici işlər naziri *M.Y.Cəfərov* Denikinə göndərdiyi notada bunu rədd etdi: ***"1828-ci il Türkmənçay müqaviləsi Rusiya ilə İran arasında*** bağlanmışdır və Azərbaycan üçün heç bir qüvvəyə malik deyildir. Nəzərinizə çatdırmağı lazım bilirəm ki, ***Azərbaycan donanması*** indiyə qədər olduğu kimi bundan sonra da ***öz milli bayrağı altında üzəcəkdir"*** [391]. "Azərbaycan hökuməti öz milli donanmasının özgə bayrağı altında üzməsinə razı ola bilməz" [388].

1920-ci il yanvarın 11-də Müttəfiq və birləşmiş dövlətlərin Ali Şurası Azərbaycanın istiqlaliyyətinin ***de-fakto*** tanınması haqqında yekdilliklə qərar qəbul etdi. RSFSR xarici işlər naziri ***Q.V.Çiçerin*** *1920-ci il yanvarın 2-də* Azərbaycan hökumətinə

göndərdiyi *notada* Sovet Resiyasının xalqların öz müqəddəratını təyinetmə hüququna hörmət etməsindən dəm vurur və Azərbaycana Denikin əleyhinə hərbi ittifaq bağlamağı təklif edirdi. Azərbaycan hökuməti başa düşürdü ki, bu təklifdə əsas *məqsəd* Azərbaycanı Denikinlə ***qeyri-bərabər hərbi münaqişəyə*** *cəlb edib zəiflətmək*, sonra isə onun ***istiqlaliyyətinə son*** qoymaqdır. *Yanvarın 14-də* Azərbaycanın Xarici İşlər Naziri ***F.X.Xoyski*** cavab notasında göstərirdi ki, Denikinlə Sovet hökuməti arasında mübarizə rus xalqının daxili işidir və Azərbaycan suveren dövlət kimi suveren Rusiya dövlətinin daxili işlərinə qarışmaq niyyətində deyil [12, s. 99]. ***Q.V.Çiçerin 1920-ci il 23 yanvar*** tarixli *II notasında* Azərbaycan hökumətini Denikinə qarşı mübarizə aparmaqdan imtina etməkdə günahlandırdı [5, s. 556-557]. F.X.Xoyski bir daha təsdiq etdi ki, Azərbaycan ilə Sovet Rusiyası arasında hər hansı danışıqlar yalnız Azərbaycanın istiqlaliyyətinin Sovet hökuməti tərəfindən qeyd-şərtsiz tanınmasından sonra başlaya bilər. ***1920-ci il martın 7-də*** Azərbaycan hökumətinə göndərdiyi *notada* ***Q.V.Çiçerin*** bildirirdi ki, "Azərbaycanın istiqlaliyyəti yalnız Sovet Rusiyası ilə Azərbaycan arasında münasibətlər kompleksinə daxil olan müxtəlif məsələlər barəsində mürəkkəb danışıqların nəticəsi olaraq tanına bilər" [9, s. 261]. Azərbaycanın Xarici İşlər Naziri ***F.X.Xoyski*** cavab notasında daha qətiyyətli şəkildə bildirdi ki, danışıqlar yalnız rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaradılması əsasında aparıla bilər və bu münasibətlər yalnız hər iki dövlətin suverenliyi əsasında həyata keçirilə bilər [5, s. 558]. ***Q.V.Çiçerin*** Azərbaycan hökumətinin təkliflərinə konkret cavab verməyərək, bilərəkdən ***F.X.Xoyski*** ilə yazışmanı uzadırdı. Rusiyanın bu diplomatik manevrləri Azərbaycana qarşı hazırlanan hərbi müdaxiləni pərdələmək və Azərbaycan hökumətinin sayıqlığını azaldaraq Bakı neftinə sahib olmaq məqsədi güdürdü. ***V.İ.Leninin 1920-ci il martın 17-də*** İ.T.Smilqa və Q.K.Orconikidzeyə göndərdiyi teleqram bir daha bunu təsdiq edirdi: ***"Bakı-***

nı tutmaq olduqca və olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin" [73, s. 16].

Siyasi dairələr başa düşürdülər ki, ağır böhran keçirən Azərbaycan iqtisadiyyatı, xüsusən neft sənayesi Rusiya ilə iqtisadi əlaqələr yaradılmasını və əmtəə mübadiləsinin başlanmasını qaçılmaz zərurətə çevirmişdir. Hətta Antanta hökumətləri müttəfiqlərin sovet hakimiyyəti və bolşeviklərə münasibətdə siyasətində dəyişiklik etməyərək *1920-ci il yanvarın 16-da* Rusiyaya qarşı iqtisadi blokadanı dayandırmaq və onunla ticarətə icazə vermək haqqında Qərar qəbul etdilər [5, s. 559]. *1920-ci ilin yazında* XI Qızıl Ordunun Qafqaza çıxmasının Yaxın və Orta Şərqdə İngiltərənin mənafeyinə ciddi təhlükə törətməsinə baxmayaraq, Lloyd Corc hökuməti Sovet Rusiyası ilə ticarət-iqtisadi əlaqələri qaydaya salmaq xətti götürdü [157, s. 23].

Öz müstəqilliyi uğrunda Qərb dövlətləri ilə mübarizə aparan və sovet Rusiyasının hərbi və diplomatik yardımına ehtiyacı olan Türkiyə isə şimal qonşusu ilə sıx əlaqələr yaratmağa çalışırdı. Ankara hökumətinin RSFSR hökumətinə ilk rəsmi müraciətində - Mustafa Kamal Atatürkün V.İ.Leninə *1920-ci il 26 aprel* tarixli məktubunda qeyd edilirdi ki, "… Türkiyə imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Cümhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə alır" [188, s. 107]. Bunun müqabilində Türkiyə sovet Rusiyasından ilk yardım kimi pul, hərbi-texniki vasitələr, tibbi materiallar və ərzaq xahiş edirdi. Tərkibində keçmiş Türkiyə hərbi əsirlərindən təşkil olunmuş hərbi hissələr olan XI Qızıl Ordunun Bakıdan yan keçməklə, Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Ermənistandan keçərək Anadoluya gəlməsi nəzərdə tutulurdu [154, c. 163-164]. Sovet Rusiyası isə Bakı neftini ələ keçirmək, Yaxın və Orta Şərqdə möhkəmlənməyə çalışırdı [5, s. 564].

4. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri

Bolşeviklər 2 dəfə – ***1918-ci ilin dekabrında*** və ***1919-cu ilin mayında*** Bakıda ***siyasi tətillər*** təşkil etməyə cəhd göstərdilər, lakin azərbaycanlı fəhlələrin həmin tətilləri boykot etməsi nəticəsində onlar tam iflasa uğradılar. Bakı bolşevikləri gözdən pərdə asmaq məqsədilə ***"müstəqil" Azərbaycan Kommunist Partiyasının*** yaradılması ideyasını irəli sürdülər. Bu RK(b)P-nin yerli təşkilatı olaraq onun bütün qərarlarını yerinə yetirməli idi. Uzun sürən mübahisələrdən sonra RK(b)P Siyasi bürosu ***1920-ci il yanvarın 3-də*** "müstəqil" Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının yaradılmasına icazə verdi və ***fevralın 11-12-də*** AK(b)P-nin Bakıda keçirilən I təsis Qurultayında Azərbaycan Kommunist Partiyası yaradıldı. ***M.D.Hüseynov*** AK(b)P Rəyasət Heyətinin sədri seçilsə də, "partiya"nın faktiki rəhbəri ***A.İ.Mikoyan*** idi. AK(b)P Sovet Rusiyasının Azərbaycandakı "beşinci kolonnası" idi. Azərbaycan tarixinin belə məsuliyyətli dövründə hökumət daxilində birliyi qoruyub saxlamaq mümkün olmadı. Sovet Rusiyasına münasibət məsələsində F.X.Xoyski ilə M.H.Hacınski arasında qızğın mübarizə başladı. F.X.Xoyski Rusiyaya münasibətdə sərt xətt tərəfdarı idi. F.X.Xoyski və tərəfdarları M.H.Hacınskinin *1920-ci il fevralın 18-də* Daxili işlər naziri vəzifəsindən istefasına nail olsalar da, o, Ticarət, sənaye və ərzaq naziri kimi hökumətin tərkibində qala bildi və cavab zərbəsi üçün əlverişli imkan gözləməyə başladı. Qarabağdakı daşnak qiyamından istifadə edən Rusiya təmayüllü qüvvələr ***N.Usubbəyov hökumətini*** ölkədə qayda-qanun yaratmaq iqtidarında olmamaqda günahlandıraraq, onu istefa verməyə məcbur etdilər. Yeni hökumət kabinetinin təşkili M.H.Hacınskiyə tapşırıldı. Dərhal ***M.H.Hacınski*** öz şəxsi təhlükəsizliyini təmin etmək üçün bolşeviklərə öz hökumətində nazir vəzifələri təklif etdi və hətta, bolşeviklər partiyasına daxil olmağa hazır olduğunu

bildirdi. Bolşeviklər M.H.Hacınskinin təşkil etdiyi hökumətə daxil olmaqdan imtina etsələr də, ona bildirdilər ki, əgər Azərbaycandakı kommunist təşkilatlarına loyal münasibət bəsləsəniz, yaxın müddətdə sizin kabinetə qarşı çıxış etməyəcəyik. Mövcud hakimiyyətə qarşı daim müxalifətdə olan və nəyin bahasına olursa-olsun ***"Müsavat"***ın başçılıq etdiyi hökuməti devirməyə çalışan ***"İttihad"*** Rusiya ilə hərbi ittifaqa girməyi tələb edirdi. Moskvanın təhriki ilə *daşnaklar 1920-ci il martın sonunda Qarabağ* və *Gəncəbasarda qiyam* qaldırdılar. Bu qiyam 2 məqsədə xidmət edirdi: I, Azərbaycan hökuməti özünün bütün qüvvələrini qiyamçılara qarşı göndərməli oldu ki, bununla da XI Qızıl Ordunun hücumu ərəfəsində Azərbaycanın *şimal sərhədləri* demək olar ki, *müdafiəsiz* qaldı. Digər tərəfdən isə, bolşeviklər daşnak qiyamından istifadə edərək ölkənin daxilində Azərbaycan hökumətinə qarşı düşmənçilik təbliğatını daha da gücləndirir və ***hökuməti Qarabağda milli münaqişəni həll etməkdə acizlikdə*** günahlandırırdılar. Bolşeviklər guya ölkədə qayda-qanun yaratmaq məqsədi ilə XI Qızıl Ordunu Azərbaycana dəvət etməyə xalqı çağırırdılar. ***1920-ci ilin aprelində*** Denikin qoşunlarının tör-töküntülərini darmadağın edən XI Qızıl Ordu hissələri bilavasitə Azərbaycan sərhədlərinə çıxdılar. A.İ.Mikoyan başçılıq etdiyi Bakı bolşevikləri Azərbaycan xalqı adından XI Qızıl Ordunu Azərbaycana dəvət etmişdir. XI Qızıl Ordu plana görə Bakıda bolşevik qiyamından 1-2 gün sonra Azərbaycana soxulmalı idi və beləliklə, guya Azərbaycan hökuməti xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olmuşdur, lakin Bakıda qiyam başlamamışdır. *Aprelin 27-də* səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri: dəmir yol vağzalını, poçtu, teleqrafı, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və ticarət limanını və s. yerləri ələ keçirməyə başladılar. Təxribatçı qruplar Bakı, şimal sərhədi və Gəncə arasında telefon və teleqraf əlaqəsini kəsdilər, bu da hökumətə əya-

lətlərdə yerləşən özünə sadiq hərbi hissələri vaxtında köməyə çağırmağa imkan vermədi. Bakı qarnizonu isə əslində Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdi. Eyni zamanda, Hərbi nazir *S.Mehmandarov* zabitlərə yeni hökumətə tabe olmağı əmr etdi [5, s. 565]. ***Aprelin 27-də*** XI Qızıl Ordu hissələri Azərbaycana daxil olub Bakıya doğru irəliləməyə başladılar.

XI Qızıl Ordunun hücumu ilə eyni vaxtda, ***aprelin 27-si gündüz saat 11-də*** Azərbaycan parlamentinə AK(b)P MK və RK(b)P-nin Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransının adından hakimiyyəti təhvil vermək haqqında ***ultimatum*** verildi. Qan tökülməsinə yol verməmək üçün Azərbaycan Parlamenti həmin gün ***axşam saat 11-də*** hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə aşağıdakı şərtlərlə təhvil verilməsi barədə Qərar qəbul etdi:

1) rus ordusu Bakıya daxil olmadan dəmiryolu ilə birbaşa Anadolunun köməyinə gedəcək;

2) Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;

3) Azərbaycan ordusu olduğu kimi saxlanılacaq;

4) Azərbaycan siyasi partiyaları üçün fəaliyyət sərbəstliyi təmin olunacaq;

5) keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanılacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;

6) azad şəraitdə toplanacaq Azərbaycan şuraları hakimiyyətin idarə şəklini təyin edəcək [9, s. 265].

1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə Azərbaycan Parlamenti hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verdi [5, s. 567]. Yalnız ***aprelin 29-da*** Azərbaycan İnqilab Komitəsi ***hərbi yardım*** göstərmək xahişi ilə Sovet hökumətinə rəsmi surətdə müraciət etdi. Bu xahişə ehtiyac yox idi, çünki artıq 2 gün idi ki, rus ordusu Azərbaycanın hüdudları daxilində idi. Bu sübut edirdi ki, Azərbaycan Demokratik Respublikasının

qanuni hökuməti Rusiyanın hərbi təcavüzü nəticəsində devrilmişdir. Digər tərəfdən, beynəlxalq hüquq normalarına əsasən xaricdən hərbi kömək göstərilməsi xahişi ilə yalnız ölkənin qanuni hökuməti çıxış edə bilərdi. Nə Azərbaycan parlamenti, nə də Azərbaycan hökuməti belə bir xahişlə müraciət etməmişdir.

Beləliklə, ***aprel çevrilişi*** xarici qüvvənin hərbi təcavüzü nəticəsində, daxildə isə hökumət böhranı, Qarabağ münaqişəsi, Azərbaycan kommunistlərinin fəal iştirakı, Türkiyə hərbi qulluqçularının köməyi ilə baş vermişdir.

Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətindən sonra öz müstəqilliyini itirsə də o, Şərqdə milliyətindən, dinindən, cinsindən, sosial mövqeyindən asılı olmayaraq bütün vətəndaşlarını bərabər hüquqla təmin edən ilk demokratik respublika idi.

XRONOLOJİ CƏDVƏL

1918, 5 yanvar – Ümumrusiya Müəssislər Məclisinin bolşeviklər tərəfindən qovulması.
1918, 22 fevral – Cənubi Qafqaz Seymini yaradılması.
1918, 23 fevral – Cənubi Qafqaz Seyminin Osmanlı Türkiyəsi ilə sülh danışıqlarının müzakirəsinə başlaması.
1918, 3 mart – Sovet Rusiyasının Almaniya ilə Brest-Litovsk sülh müqaviləsini imzalaması.
1918, 14 mart – Cənubi Qafqaz Seymi və Osmanlı Türkiyəsi arasında Trabzon konfransı.
1918, 13 aprel – Cənubi Qafqaz Seyminin Osmanlı imperiyasına müharibə elan etməsi.
1918, 14 aprel – Osmanlıların Batumu tutması.
1918, 22 aprel – Cənubi Qafqaz Seymi tərəfindən Cənubi Qafqaz Respublikasının elan olunması.
1918, 11 may – Batum sülh konfransı.
1918, 26 may – Cənubi Qafqaz Seyminin buraxılması. Gürcüstanın müstəqilliyinin elan edilməsi.

1918, 27 may – Azərbaycan Milli Şurasının yaradılması.
1918, 28 may – Azərbaycan Milli Şurasının ilk iclası. Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması və "İstiqlal bəyannaməsi"nin mətninin təsdiqlənməsi.
1918, 29 may – İrəvan şəhərinin ermənilərə güzəşt edilməsi.
1918, 30 may – Dünya dövlətlərinin Xarici İşlər nazirlərinə Azərbaycan istiqlaliyyətinin elan olunması haqqında F.X.Xoyskinin imzası ilə teleqraf göndərilməsi.
1918, may-oktyabr – Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyə oriyentasiyası dövrü.
1918, 4 iyun – Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında Batumda Sülh və Dostluq müqaviləsinin imzalanması.
1918, 10 iyun – S.Q.Şaumyanın əmri ilə Bakı Sovetinin hərbi qüvvələrinin Gəncə üzərinə hücuma başlaması.
1918, 16 iyun – Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçməsi.
1918, 17 iyun – Milli Şuranın buraxılması.
1918, 17 iyun – Dövlət idarələri, məhkəmə və məktəb sisteminin millliləşdirilməsi.
1918, 24 iyun – Üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz olan qırmızı bayrağın dövlət bayrağı kimi qəbul edilməsi.
1918, 26 iyun – Müsəlman korpusunun "Əlahiddə Azərbaycan korpus"una çevrilməsi. Azəbaycan Milli Ordusunun yaradılması.
1918, 27 iyun – Azərbaycan dilinin dövlət dili elan edilməsi.
1918, 27 iyun - 1 iyul – Qafqaz İslam Ordusunun Göyçay ətrafında döyüşdə Bakı Soveti qoşunları üzərində qələbəsi.
1918, iyul – Qafqaz İslam Ordusunun Kürdəmir (10 iyul), Karrar stansiyası (14 iyul), Ağsu (7 iyul), Şamaxı (20 iyul) və Bankə balıq vətəgələrini (18 iyul) azad etməsi.
1918, yayı – Andranikin dəstəsinin Zəngəzura soxulması.
1918, 31 iyul – Bakı XKS-nin istefası.

1918, 1 avqust – "Sentrokaspi diktaturası" və "Fəhlə, Əsgər Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti" adlanan hökumətin təşkil edilməsi.
1918, 4 avqust - sentyabrın ortaları; 1918, 17 noyabr - 1919, 23 avqust – İngilis qoşunlarının Bakıda olduğu dövr.
1918, 11 avqust – Azərbaycan Cümhuriyyətinin ümumi hərbi səfərbərlik elan etməsi.
1918, 1 sentyabr – Hərbi Nazirliyin yaradılması.
1918, sentyabrın əvvəlləri – Azərbaycan nümayəndə heyətini Sədr-Əzəm Tələt Paşanın qəbul etməsi.
1918, 15 sentyabr – Qafqaz İslam Ordusunun Bakını azad etməsi. **1918, 17 sentyabr** – Milli hökumətin Gəncədən Bakıya köçürülməsi.
1918, 30 oktyabr – Osmanlı dövləti ilə Böyük Britaniya arasında bağlanmış Mudros müqaviləsi.
1918, noyabr - 1919, mart – Naxçıvan bölgəsində Araz-Türk Respublikasının yaradılması.
1918, 9 noyabr – Dövlət bayrağının üçrəngli-yaşıl, qırmızı və mavi zolaqlardan ibarət olan bayraqla əvəz olunması.
1918, 10 noyabr – Osmanlı qoşunlarının Bakıdan, az sonra bütün Azərbaycandan çıxması.
1918, 16 noyabr – Azərbaycan Milli Şurasının yenidən fəaliyyətə başlaması.
1918, 16 noyabr – F.X.Xoyskinin V.M.Tomsona məktubla müraciət etməsi.
1918, 17 noyabr – İngilis qoşunları və Biçeraxovun dəstələrinin (əksəriyyəti ermənilər idi) Bakıya daxil olması.
1918, 20 noyabr – "Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin yaradılması haqqında Qanun"un qəbul edilməsi.
1918, noyabr – 1919, aprel – Azərbaycan Respublikasının Hərbi Nazirliyinin Gəncədəki fəaliyyəti. Milli Ordunun Bakıya daxil olması.

1918, noyabr-1920, yanvar – Azərbaycan Xalq Cümhuriyyətinin Qərb oriyentasiyası dövrü.
1918, 7 dekabr – Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin təsis iclası.
1918, 26 dekabr – F.X.Xoyskinin başçılığı ilə Azərbaycan Respublikasının III hökumət kabinetinin təşkili.
1918, 28 dekabr – General-qubernator Tomsonun Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tanınması haqqında Bəyanatı.
1918, dekabr - 1919, may – Bolşeviklərin Bakıda siyasi tətillər təşkil etməsi.
1919, yanvarın əvvəlləri – "Qafqaz-Kaspi hökuməti"nin yaradılması.
1919, 8 yanvar – Bakıdan Azərbaycan nümayəndə heyətinin Parisə yola düşməsi.
1919, 15 yanvar – Qarabağ general-qubernatorluğunun yaradılması. Xosrovpaşa bəy Sultanovun general-qubernator təyin edilməsi.
1919, 22 yanvar – Cənubi Qafqazdakı müttəfiq qoşunlarının baş komandanı general Corc Milnın Böyük Britaniyanın Azərbaycan hökuməti-Cümhuriyyəsini Azərbaycanın bütün ərazisində yeganə leqal hakimiyyət kimi tanıması haqqında Bəyanatı.
1919, 28 fevral – Naxçıvan general-qubernatorluğunun yaradılması. Bəhram xan Naxçıvanskinin general-qubernator təyin edilməsi.
1919, 28 fevral – Azərbaycan hökumətinin müttəfiqlər komandanlığına L.Biçeraxovun qoşunlarının şəhərdən çıxarılmasını və erməni silahlı birləşmələrinin tərki-silah edilməsini tələb edən notası.
1919, mart – F.Xoyski hökumətinin istefa verməsi.
1919, 14 aprel – Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin N.Usubbəyovun başçılığı ilə IV hökumət kabinetini təsdiq etməsi. **1919, 25 aprel** – Tiflisdə siyasi, iqtisadi, maliyyə və əra-

zi mübahisələrini həll etmək üçün Cənubi Qafqaz dövlətlərinin konfransının açılışı.

1919, mayın ortaları - 19-20 iyul –"Erməni idarəçiliyi"nin iflası, erməni qoşunlarının Naxçıvandan çıxarılması.

1919, may - 1919, avqust – Mərkəzi Lənkəran şəhəri olmaqla "Muğan Sovet Respublikası"nın yaradılması.

1919, 26 may - 5 iyun – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fövqəladə iclaslarının keçirilməsi. Dövlət Müdafiə Komitəsinin (DMK) yaradılması.

1919, 11 iyun – DMK Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan etməsi.

1919, 11 iyun – General Korinin N.Usubbəyova ikinci demarkasiya xəttinin müəyyən edilməsi və bu xətti keçməyin Denikinə qadağan olunması haqqında məlumatı.

1919, 16 iyun – Denikinə qarşı Azərbaycan - Gürcüstan Respublikası arasında Hərbi Müdafiə Aktının imzalanması. Zaqatala-Balakən ərazisinin Xalq Cümhuriyyətinin tərkibinə daxil edilməsi. Zaqatala quberniyasının təsis olunması.

1919, 21 iyul – Parlamentin "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"ni təsdiq etməsi.

1919, 4 avqust – İngilis komandanlığının Azərbaycan və Gürcüstan sərhədləri boyunca 3-cü demarkasiya xəttini müəyyən etməsi.

1919, 6 avqust – İngilis komandanlığının hərbi ləvazimatı Könüllülər Ordusuna, sərəncamında olan Xəzər Hərbi Donanmasını isə Denikinə verməsi.

1919, 11 avqust – "Azərbaycan vətəndaşlığı haqqında Qanun"un qəbul edilməsi.

1919, 19 avqust – Londonda İngiltərə-İran sazişinin imzalanması.

1919, 30 sentyabr – "Mətbuat haqqında Nizamnamə"nin qəbul olunması.

1919, 1 noyabr – Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilənin bağlanması.

1919, 23 noyabr – Tiflisdə Azərbaycanla Ermənistan arasında silahlı toqquşmanı dayandırmaq, mübahisəli sərhəd məsələsini dinc yolla həll etmək haqqında sazişin imzalanması.
1919, 2-11 dekabr – Bakıda "Müsavat" partiyasının II Qurultayı.
1920, yanvar-aprel – Azərbaycan Xalq Cümhuriyyətinin geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü.
1920, 11 yanvar – Müttəfiq və birləşmiş dövlətlərin Ali Şurasının Paris Sülh Konfransında Azərbaycanın istiqlaliyyətinin defakto tanınması haqqında yekdilliklə Qərar qəbul etməsi.
1920, 2, 23 yanvar, 7 mart – RSFSR Xarici İşlər Naziri Q.V.Çiçerinin Azərbaycan hökumətinə göndərdiyi notalarda Azərbaycanla Denikin əleyhinə hərbi ittifaq bağlamaq təklifi.
1920, 14 yanvar – Azərbaycanın Xarici İşlər Naziri F.X.Xoyskinin Denikinlə Sovet hökuməti arasında mübarizənin rus xalqının daxili işi olması haqqında Q.V.Çiçerinə cavab notası.
1920, 16 yanvar – Antanta hökumətləri müttəfiqləri tərəfindən Rusiyaya qarşı iqtisadi blokadanı dayandırmaq və onunla ticarətə icazə vermək haqqında Qərarı.
1920, fevral – Zəngəzurda qısamuddətli sazişin əldə edilməsi.
1920, 11-12 fevral – AK(b)P-nin Bakıda keçirilən I təsis qurultayında Azərbaycan Kommunist Partiyasının yaradılması.
1920, 18 fevral – M.H.Hacınskinin Daxili İşlər Naziri vəzifəsindən istefa verməsi və Ticarət, Sənaye və Ərzaq Naziri seçilməsi.
1920, 17 mart – V.İ.Leninin İ.T.Smilqa və Q.K.Orconikidzeyə Bakını ələ keçirilmək haqqında teleqramı.
1920, 20 mart – Azərbaycan-İran dövlətləri arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və sazişin imzalanması.
1920, yaz – Böyük Britaniya hökumətinin Sovet Rusiyası ilə ticarət-iqtisadi əlaqələri.
1920, martın sonu – Qarabağ və Gəncəbasarda daşnak qiyamı.

1920, 27 aprel – XI Qızıl Ordu hissələrinin Denikin qoşunlarını darmadağın edərək Bakıya doğru irəliləməsi.
1920, 27 aprel, gündüz saat 11.00 – Azərbaycan Parlamentinə AK(b)P MK və RK(b)P-nin Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransının adından hakimiyyəti təhvil vermək haqqında ultimatumun verilməsi və həmin gün axşam saat 11.00 hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə təhvil verilməsi barədə Qərar qəbul etməsi.
1920, aprelin 27-dən 28-nə keçən gecə – Azərbaycan Parlamentinin hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verməsi.
1920, 29 aprel – Azərbaycan İnqilab Komitəsinin hərbi yardım göstərmək xahişi ilə Sovet hökumətinə rəsmi surətdə müraciət etməsi.

XI FƏSİL
AZƏRBAYCAN XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ

Plan:

1. Azərbaycanda sovet rejiminin bərqərar olması və ona qarşı üsyanlar.
2. Azərbaycanda sovet milli siyasəti. DQMV-nin və Naxçıvan MSSR-nin təşkili.
3. Azərbaycanda sosialist yenidənqurmaları və onların nəticələri. Kütləvi siyasi repressiyalar.
4. Azərbaycanda mədəni quruculuq.

1. Azərbaycanda sovet rejiminin bərqərar olması və ona qarşı üsyanlar

1920-ci il aprel ayının 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan olundu. Parlament *aprel ayının 27-dən 28-ə keçən gecə* hakimiyyəti ***Müvəqqəti İnqilab Komitəsinə*** təhvil verdi və *N.Nərimanovun* sədrliyi ilə ***Azərbaycan SSR Xalq Komissarları Soveti*** yaradıldı. N.Nərimanov həm də xalq xarici işlər komissarı vəzifəsinə təyin edildi. XKS-nin üzvləri aşağıdakılar idi: H.Sultanov – Xalq daxili işlər komissarı, Ə.Qarayev – Xalq əmək və ədliyyə komissarı, Q.Musabəyov – Xalq əkinçilik, ticarət, sənaye və ərzaq komissarı, M.Hüseynov – Xalq maliyyə komissarı, Ç.İldırım – Xalq hərbi-dəniz işləri komissarı, D.Bünyadzadə – Xalq maarif və dövlət nəzarəti komissarı, Ç.Vəzirov – Xalq poçt, teleqraf və yollar komissarı, A.Əlimov - Xalq səhiyyə və himayə komissarı. XI Qızıl Ordu hissələri *aprel ayının 28-30-da* Lənkəran, Salyan, Şuşa, Ağdam və s., *mayın əvvəllərində* Gəncə, Şamaxı, Goyçay, Şəki,

Zaqatala və Balakəndə, *ayın ortalarında* isə Qarabağ bölgəsini tutdu və hakimiyyət İnqilab Komitəsinin əlinə keçdi. Rusiyanın hərbi donanması Lənkəran və Astaraya desant çıxardı. İnqilab Komitəsinin ***1920-ci il 3 may*** tarixli Dekreti ilə yerlərdə qəza, mahal və kənd inqilab komitələri yaradıldı, polis ləğv edildi, fəhlə-kəndli milisi təşkil olundu. Torpağın əməkçi "kəndlilərə" verilməsi haqqında ***1920-ci il 5 may*** tarixli Dekreti ilə bütün xan, bəy torpaqları, habelə bütün monastır, kilsə, vəqf və məscid torpaqları bütün iş heyvanları və avadanlığı ilə birlikdə müsadirə edildi və ödənişsiz kəndlilərin istifadəsinə verildi [6, s. 18]. ***1920-ci il mayın 7-də*** Azərb. SSR Qızıl Ordu və Qızıl Donanmasının yaradılması barədə Dekret verildi. ***1920-ci il 12 may*** tarixli Dekretlə isə Azərbaycan ərazisindəki meşələr, sular və yeraltı sərvətlər milliləşdirilərək, dövlət mülkiyyəti elan olundu. ***1920-ci il 12 may*** tarixli Dekreti ilə silki və mülki rütbələr (zadəgan, kəndli, bəy, xan, knyaz və s.) ləğv edildi. Xalq məhkəməsi haqqında Dekretdə (***1920-ci il 12 may***) bildirilirdi: Azərbaycan SSR-də "məhkəmədə işlərə bütün yerli dillərdə baxılmasına yol verilir" [169, s. 5]. Azərbaycan İnqilab Komitəsinin Xalq Daxili İşlər Komissarlığı haqqında ***1920-ci il 9 iyun*** tarixli Dekretinə əsasən o, dövlətin ali inzibati orqanı olaraq fəaliyyət göstərə bilər və Azərbaycan İnqilab Komitəsi onun vasitəsilə ölkənin inzibati idarəçiliyini həyata keçirə bilərdi. ***İyunun 9-da*** dövlət təşkilatlarının və ictimai təşkilatların fəaliyyətinə nəzarət etmək üçün Fəhlə-Kəndli Müfəttişliyi (F.K.M) yaradıldı [12, s.120; 6, s. 21]. Xalq Maarif Komissarlığının ***15 may*** tarixli Qərarı ilə vicdan azadlığı elan olundu, hər cür dini ayinlərin icra olunması qadağan edildi, din dövlətdən və məktəbdən ayrıldı. Fövqəladə Komissiya (ÇK) təşkil olundu və Ali İnqilabi Tribunal yaradıldı [12, s. 120]. ***1920-ci il 23 sentyabr*** tarixli Fərman ilə kəndlərdə yaradılan yoxsul komitələri [6, s. 153] ***1921-ci ilin yayından e***tibarən kənd sovetləri ilə əvəz olundu [6, s. 159]. ***1920-ci il 24 may*** tarixli Dekret ilə neft sənayesi milliləşdirildi

[12, s. 120], onu idarə etmək üçün V.İ.Lenin tərəfindən göndərilmiş A.P.Serebrovskinin başçılığı ilə ***Azərbaycan Neft Komitəsi*** (sonralar *"Azneft"*) təşkil olundu və neft faktiki olaraq Sovet Rusiyasının ixtiyarına keçdi.

1920-ci il iyun ayının 6-də Xəzər Ticarət Donanması, ***iyunun 15-də*** isə zavod, fabrik və digər sənaye müəssisələri, balıq sənayesi və ***iyunun 9-da*** banklar milliləşdirildi [12, s. 120]. Azərbaycan Xalq Bankı təsis edildi. ***1920-ci ilin sonuna*** kimi Azərbaycandan Rusiyaya 3 mln. ton neft daşınmışdır, bu isə Bakıda istehsal olunan neftin 90 faizindən çoxunu təşkil edirdi. ***1921-ci il may ayının 6-19- da*** Bakıda keçirilən Azərbaycan SSR-in I Sovetlər Qurultayında ***Azərbaycan SSR-in ilk Konstitusiyası (19 may)*** qəbul edildi [6, s. 164]. Azərbaycan İnqilab Komitəsi ləğv edildi və qurultaylararası dövrlərdə dövlətdə ali qanunverici orqan olan Azərbaycan ***Mərkəzi İcraiyyə Komitəsi (Az. MİK)*** təşkil edildi. Az. MİK-in sədri ***Muxtar Hacıyev***, sədrin müavini ***Səmədağa Ağamalıoğlu*** seçildilər. Az. MİK qarşısında məsuliyyət daşıyan ali icraedici orqan – ***N.Nərimanovun*** sədrliyi ilə ***Azərbaycan SSR Xalq Komissarları Soveti*** yenidən təşkil edildi [6, s. 165].

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər Azərbaycan Demokratik Respublikası liderlərini, ziyalıları, digər partiyaların, siyasi qrupların və cərəyanların rəhbərlərini, din xadimlərini, Azərbaycan ordusunun yüksək rütbəli hərbiçilərini həbs etdilər və onların çoxunu *Nargin adasında* güllələdilər, Rusiyanın müxtəlif həbs düşərgələrinə sürgün etdilər. *1920-1921-ci illərdə* daşnaklar Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinetinin keçmiş sədrləri ***F.X.Xoyski*** və parlamentin sədr müavini ***H.Ağayevi Tiflisdə***, hökumət üzvləri ***X.Rəfibəyli, İ.Ziyadxanlı, F.Köçərli, professor Zimin, general Süleyman Sulkeviç*** və başqalarını vəhşicəsinə öldürdülər. Deyilənə görə N.Usubbəyov Azərbaycandan Gürcüstana keçərkən sərhəddə qarətçi quldurlar tərəfindən öldürülmüşdür. ***1920-ci il aprelin 28-***

dən-1921-ci ilin avqustunadək millətçi rus şovinistlərinin və erməni daşnaklarının başçılıq etdikləri XI Qızıl Ordunun Xüsusi Şöbəsi tərəfindən Azərbaycanda ***48 min adam*** öldürüldü. M.Ə.Rəsulzadə Şamaxı qəzasında həbs edilərək Bakıya gətirildi, lakin *1920-ci ilin noyabr ayının əvvələrində* Oktyabr inqilabının ildönümü ilə əlaqədər Bakıda olan İ.V.Stalinin göstərişi nəticəsində həbsdən azad edilərək onunla bir qatarda Moskvaya aparıldı [6, s. 13]. M.Ə.Rəsulzadə *1922-ci ildə* Finlandiyaya, oradan da Türkiyə dövlətinə mühacirət etdi.

1920-ci il mayın 27-də N.Nərimanovun imzası ilə *"Kifayət qədər əsas olmadan tutulub saxlananların hamısını"* həbsdən azad etmək üçün Xüsusi Komissiya yaradılması haqqında Dekret verildi. ***1920-ci il iyul ayının 12-də*** isə N.Nərimanov *Sovet hakimiyyətinə qarşı sui-qəsdlərdən başqa həbs olunan fəhlə, kəndli və əsgərlərə geniş şəkildə amnistiya verilməsi haqqında* Dekret verdi. ***Avqust ayının 12-də*** N.Nərimanovun imzası ilə verilən Əmr *idarə müdiriyyətinin icazəsi olmadan qulluqçuların xidməti hərəkətlərinə görə FK orqanları tərəfindən həbs olunmasını qadağan edirdi* [131, s. 128-129, 198]**.** Oktyabr inqilabının 3-cü ildönümü münasibətilə Azərbaycan İnqilab Komitəsi ***1920-ci il noyabrın 6-da*** *"özlərinin şüursuzluğu və siyasi yetkinliyinin çatışmazlığı ucbatından istər ümumi, istərsə də siyasi xarakterli cinayətlər törətmiş bütün şəxslər" barəsində amnistiya tətbiq olunması haqqında* Dekret vermişdir [131, s. 373].

1921-ci ildə "Müsavat", "İttihad", "Əhrar" partiyalarının qanundankənar olması və fəaliyyətlərinin qadağan olunması barədə rəsmi qərar verildi. Xalqın Sovet rejimindən narazılığı getdikcə artırdı. Sovet hakimiyyətinə qarşı *ilk güclü silahlı çıxış 1920-ci il mayın 25-26-da* ***Gəncə*** şəhərində Azərbaycan Milli Ordusunun bölmələrinin zabit və əsgərləri tərəfindən baş verdi. Azərbaycan Milli Ordusunun yenidən təşkil olunması, milli zabitlərin xidmətdən çıxarılması silahlı toqquşmalara səbəb oldu. Gəncə qarnizonun komandir və zabit heyətinin XI Qızıl Ordu

nümayəndələri ilə əvəz olunması 1800 nəfərlik Gəncə qarnizonunun *may ayının 28-dən 29-na keçən gecə* üsyan qaldıraraq şəhərin müsəlmanlar yaşayan hissəsini ələ keçirməsi ilə nəticələndi. Üsyana *general – mayor* ***Cavad bəy Şıxlinski,*** *general – mayor* ***Məmməd Mirzə Qacar,*** *polkovnik* ***Cahangir bəy Kazımbəyov*** və b. ibarət Hərbi Şura rəhbərlik edirdi [6, s. 45]. *May ayının 26-da* üsyançılar dəmiryol stansiyasını ələ keçirdilər. Bolşevik hökuməti Gəncə üzərinə güclü hərbi qüvvə göndərdi, erməni əhalisi isə arxadan zərbə vuraraq, XI Qızıl Orduya köməklik göstərirdi. *Mayın 31-də* şəhər XI Qızıl Ordu hissələrinin nəzarətinə keçdi. Üsyançılardan *13 min nəfər* həlak oldu, *76 nəfər zabit* və *əsgər* həbs edilərək *Nargin adasında* güllələndi [12, s. 123]. Bunların sırasında general-mayor Məmməd Mirzə Qacar, polkovnik Cahangir bəy Kazımbəyov, polkovnik Rüstəm bəy Şıxlinski (Cavad bəy Şıxlinskinin qardaşı, general-leytenant Əliağa Şıxlinskinin qardaşı oğlu) var idi. Gəncə üsyanı amansızcasına yatırıldıqdan sonra ağır yaralanan Cavad bəy Şıxlinski gizlicə Tiflisə qaçırılır, oradan da İrana keçərək mühacir həyatına başlayır, sonralar isə Türkiyəyə köçərək ömrünün sonunadək orada yaşayır və 1959-cu ildə 84 yaşında Türkiyədə dünyasını dəyişir. N.N.Nərimanov generallar Ə. Şıxlinski və S. Mehmandarovun həbsdən azad olunmasına nail olur və V.İ.Leninə məktubla müraciət edərək hərbi xidmətdə istifadə olunmaları üçün onları Moskvaya göndərir.

Türk generalı ***Nuru paşanın*** başçılığı ilə ***1920-ci il iyun ayının 5-də*** başlayan, Şuşa, Ağdam və Bərdəni əhatə edən ***Qarabağ üsyanının*** başlıca hərəkətverici qüvvəsini ***Azərbaycan Milli Ordusunun*** Qarabağın müxtəlif yerlərində yerləşən hissələri, Şəki, Cavanşir, Ağdam süvari qoşun hissələri, Bakı piyada alayları, 2 topçu diviziyası, yerli bəylərin silahlı dəstələri təşkil edirdi. İlk hərbi toqquşma ***Ehsan xan Naxçıvanskinin*** komandanlıq etdiyi Şəki alayı ilə XI Qızıl Ordu hissələri arasında olmuşdur. Bu döyüşdə E.Naxçıvanski və onu müşaiyət edən bir

qrup hərbiçi ələ keçirilib XI Qızıl Ordunun qərargahında güllələndilər. Qarabağ üsyanı *1920-ci il iyun ayının 15-də* amansızlıqla yatırıldı.

1920-ci il iyunun 6-da Zaqatalada da Sovet hakimiyyətinə qarşı güclü üsyan baş verdi. Bu üsyanın əsas qüvvəsini dinc əhali (1000 nəfərdən çox) təşkil edirdi. Əhalinin tərksilah edilməsi nəticəsində başlanan üsyana keçmiş Xalq Cümhuriyyətinin peşəkar hərbiçisi ***Əhmədiyev*** və ***Molla Hafiz Əfəndi*** başçılıq edirdilər [12, s. 124]. Üsyançılar ***iyun ayının 9-da*** Zaqatala qalasını, teleqrafı ələ keçirdilər və inqilab komitəsinin bütün üzvlərini, sovet işçilərinin hamısını həbs etdilər. ***İyunun 18-də*** Amansızlıqla yatırılan üsyanın sağ qalan hissələri Gürcüstanda sığınacaq tapmalı oldular [6, s. 46]. *1920-ci ilin yayında* Şəmkir qəzasının *Müşkürlü kəndi* ətrafında, *avqustda* Quba qəzasının ***Dəvəçi və Qusar*** dairələrində kəndlilərin silahlı dəstəsi ilə XI Qızıl Ordu hissələri arasında toqquşmalar baş verdi. *1920-1924-cü illərdə* Qaryagin (Cəbrayıl) və Cavad qəzaları, Muğan düzünün bir hissəsi, Lənkəran, Cavanşir, Ordubad və Şərur qəzalarında, Qəbələ, Xaçmazda, Naxçıvanda və Qaradonluda da sovet rejimi əleyhinə *kütləvi üsyanlar* baş vermişdir. "İttihad" partiyasının Sovet hakimiyyətini devirmək üçün hazırladıqları üsyan planı da baş tutmadı. Beləki, partiyanın sədri ***Qarabəy Qarabəyov*** başda olmaqla 155 nəfər üzvü xüsusi şöbə tərəfindən həbs olunmuşdur. XI Qızıl Ordu hissələri ermənilərin köməyi ilə sovet rejiminə qarşı çıxış edən Azərbaycan silahlı dəstələrini tərk-silah edib əhalinin müqavimətini qıraraq üsyanları amansızcasına yatırdı.

2. Azərbaycanda sovet milli siyasəti. DQMV-nin və Naxçıvan MSSR-in təşkili

Sovet hakimiyyətinin ilk dövründə təkcə Bakının deyil, Azərbaycanın bütün bölgələrinin partiya rəhbərliyində ermənigürcü-rus nümayəndələri hakim mövqe tuturdular və antiazərbaycan siyasəti yeridirdilər. Azəraycanda sovet milli siyasətinin bir istiqaməti *milli adət-ənənələri* yasaq etmək, *İslam dininə, İslam mədəniyyətinə* qadağa qoymaq, *məscidləri* dağıtmaq, *rus dilini* dövlət dili səviyyəsinə çatdırmaq, *milli kadr qıtlığı bəhanəsilə qeyri millətlərin* nümayəndələrini Azərbaycana gətirmək, "beynəlmiləl" şəhər elan edilən Bakıda əhalinin *milli tərkibini* köklü surətdə dəyişdirmək, rəhbərlikdə olan *milli kadrlar* arasında süni olaraq *qarşıdurma* yaratmaq, Azərbaycanın *milli sərvətlərini* hərraca qoymaq, onun *əzəli torpaqlarını* zaman-zaman qonşulara *bəxşiş* etmək idi.

Azərbaycan dövləti üçün ərazi mübahisələri aşağıdakı mərhələlərdə olmuşdur: *1918-1920-ci illərdə* AXC-nin dövründə; *1920-ci ilin aprel-noyabr* aylarında - Azərbaycan SSR-in elan olunduğu gündən Ermənistanda sovet hakimiyyəti qurulanadək; *1920-ci ilin noyabr* ayından *1921-ci ilin fevral* ayınadək, yəni Gürcüstanda sovet hakimiyyəti qurulanadək və nəhayət, CQSFSR-in təşkilinə və onun SSR İttifaqına daxil olmasına qədər "müstəqil" Cənubi Qafqaz Sovet respublikalarının fəaliyyət göstərdikləri dövr.

1920-ci il aprel çevrilişindən sonra da Ermənistan Naxçıvan, Zəngəzur, Qarabağ və Şərur-Dərələyəz torpaqlarını ələ keçirmək niyyətində idi. Erməni hərbi hissələri ***1920-ci ilin yayında Zərgəzuru*** dağıdıb ***Naxçıvana*** hücum etdi. Əhalinin tələbi ilə Naxçıvanı müdafiə etmək üçün ***Veysəl bəyin*** başçılığı ilə köməyə gələn ***türk qoşun hissələri*** Naxçıvan bölgəsini nəzarət altına aldılar. *1920-ci ilin iyul ayının 28-də* XI Qızıl Ordu hissələri də

Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan olundu və respublikanın ali hakimiyyət orqanı - Naxçıvan İnqilab Komitəsi (M.Bəktaşov, A.Kazımov, F.Mahmudbəyov, Q.Babayev və b.) yaradıldı. ***1920-ci ilin avqustun 10-da*** Sovet Rusiyası ilə Ermənistan arasında bağlanmış müvəqqəti sazişə görə, ***Şərur-Dərələyəz*** qeyd-şərtsiz Ermənistana verildi, rus qoşunlarının zəbt etdiyi ***Qarabağ, Zərgəzur*** və ***Naxçıvan mübahisəli ərazilər*** elan olundu [6, s. 50]. ***1920-ci il oktyabrın*** əvvəllərində təcili olaraq Naxçıvanda Fövqəladə Komissarlığın yaradılması faktiki olaraq Naxçıvanı Ermənistan idarəçiliyinə vermək məqsədi güdürdü. Ermənistan sovetləşdikdən *(29 noyabr 1920)* sonra AK(b)P MK Siyasi və Təşkilat bürolarının *1920-ci il noyabr ayının 30-da* aldıqları qərara müvafiq olaraq *dekabrın 1-də* N.Nərimanovun "…Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir…" bəyanatı erməniləri Azərbaycandan yeni ərazilər qoparmaq iddialarını daha da artırdı [12, s. 133]. Lakin nə qərarda, nə N.N.Nərimanovun çıxışında, nə bəyannamədə Naxçıvana dair hər hansı bir məsələ qaldırılmamışdır. Lakin N.N.Nərimanovun təkidi və prinsipiallığı sayəsində, Naxçıvanın Ermənistana birləşdirilməsi baş tutmadı. *1920-ci il dekabr ayının 2-də* ***Aleksandropolda*** (Gümrüdə) Ermənistan SSR ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən sonradan Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə yolu ilə *Xüsusi Idarəçilik* yaradılmalı idi və Ermənistan hökuməti onun işinə qarışmamalı idi [124, s. 438]. Həmin müqaviləyə əsasən, türk generalı Veysəl bəy özünü müvəqqəti Fövqəladə komissar elan etdi, öz hərbi dəstələri ilə Noraşen də daxil olmaqla Ermənistan dövləti ilə sərhəd məntəqələrini tutdu. Lakin yaranmış siyasi vəziyyətlə əlaqədar olaraq, Azərbaycan öz torpaqlarını bütünlüklə qoruyub saxlaya bilmədi və Zəngəzur qəzasının qərb hissəsi Ermənistan ərazisinə birləşdirildi.

1921-ci il fevral-mart aylarında keçirilən ***Moskva*** danışıqlarının əsas obyektlərindən biri Atatürkün ***"Türk qapısı"*** adlan-

dırdığı ***Naxçıvanın*** statusu məsələsi idi. Türkiyə nümayəndəsi bildirdi ki, Azərbaycanın Naxçıvan üzərində himayəsi o zaman təmin olunar ki, o bu himayəni 3-cü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürsün. Rusiya isə Azərbaycanın himayəsi altında Naxçıvana muxtariyyət verilməsini və onun sərhədlərinin müəyyənləşdirilməsini ön plana çəkirdi. ***1921-ci il martın 16-da Moskvada*** RSFSR ilə Türkiyə arasında ***dostluq müqaviləsi*** imzalandı. Müqavilənin ***üçüncü bəndində*** göstərilirdi ki, tərəflər müqaviləyə əlavədə nəzərdə tutulan ***sərhədləri*** ilə Azərbaycanın himayəçiliyi (protektoratı) altında ***Naxçıvanın muxtar ərazi*** olmasına razılıq verirlər və Azərbaycan bu himayəçiliyi ***üçüncü dövlətə güzəştə getməyəcəkdir*** [132, s. 598-599]. ***1921-ci il oktyabrın 13-də Qarsda*** imzalanmış müqavilədə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha təsdiqləndi, onun sərhədləri və gələcək statusu – "Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi" statusu qəti olaraq müəyyənləşdirildi [77, s. 35]. ***1929-1931-ci illərdə*** *Ordubad* və *Zəngilan rayonlarının bir sıra kəndləri* Ermənistana verildi və bu ərazi ***Mehri rayonu*** adlandırıldı. Nəticədə Naxçıvanla Azərbaycanın digər torpaqları arasında olan sərhəd bağlandı. ***1922-ci il may ayının 22-də*** təsdiq olunmuş AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarı haqqında *Əsasnamədə* ***Naxçıvan Sovet Sosialist Respublikası (NSSR)*** adı ilə Azərbaycan SSR-in qəyyumluğunda ***muxtar respublika*** elan olundu. *1922-ci il 12 dekabrda* Cənubi Qafqaz sovetlərinin I Qurultayının qərarında göstərilirdi: "Naxçıvan Respublikası Azərbaycanın muxtar vahid hüququnda ayrılmaz və tərkib hissəsi hesab edilsin" [396]. ***1923-cü ilin fevralın 27-dən dekabrına kimi o, Azərbaycan SSR tərkibinə muxtar diyar*** kimi, ***dekabrın 31-də*** qəbul olunmuş qərara görə Naxçıvan diyarı ***Naxçıvan MSSR***, ***1924-cü il fevralın 9-da*** Naxçıvan Az.MİK-in Rəyasət Heyətinin qərarı ilə ***Naxçıvan SSR*** kimi daxil oldu [6, s. 197-198; 69, s. 135]. ***1924-cü ilin aprel*** ayında Azərbaycan SSR MİK SSRİ-nin Konstitusiyasına əsasən

hazırlanmış Naxçıvan MSSR haqqında yeni Əsasnaməni təsdiq etdi. Mərkəzin "parçala və hökm sür" siyasətinə uyğun olan "Qarabağ məsələsi"ni erməni daşnakları Qarabağ iqtisadi rayon ərazilərinin bir hissəsini, keçmiş "Dağllq Qarabağı" Azərbaycandan qopararaq, Ermənistana birləşdirmək yolu ilə həll etməyə çalışırdılar. *1920-ci il aprel ayının 30-da* Azərbaycan hökuməti Ermənistan daşnak dövlətinə nota göndərərək tələb etdi: "1. Qarabağ və Zəngəzur ərazilərindən qoşunlarınızı çıxarın. 2. Öz sərhədlərinizə çəkilin. 3. Millətlərarası ədavətə son qoyun. Əks halda Azərbaycan Sovet Sosialist Respublikasının İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində hesab edəcək" [313].

XI Qızıl Ordu hissələrinin yerləşdiyi Qarabağ, Zəngəzur ərazilərində erməni hərbi dəstələrinin təcavüzkar hərbi əməliyyatları davam edirdi. "Yaşasın Ermənistanın ayrılmaz hissəsi olan Sovet Zəngəzuru!" şüarı ilə erməni qoşunları Zəngəzurun içərilərinə soxularaq bir çox kəndi ələ keçirdilər və Zəngəzur, Naxçıvan, Böyük Vedi, Qazax rayonlarında qanlı qırğın törətdilər. ***1921-ci ilin yayında*** XI Qızıl Ordusu hissələri Zəngəzura hücum etdi və ***Yuxarı Zəngəzur*** Ermənistana birləşdirildi. ***1921-ci il iyunun 19-da*** Ermənistan SSR XKS sədri A.Myasnikov və XKS-nin digər üzvləri tərəfindən imzalanan bəyannamədə ***Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağ"*** Ermənistanın ayrılmaz tərkib hissəsi elan edildi [124, s. 570]. Ermənistan SSR tərəfindən fövqəladə nümayəndə təyin edilən A.Mravyan N.Nərimanovun təkidi ilə *iyun ayının 27-də* Qarabağdan geri çağırıldı. AK(b)P MK-nın Siyasi və Təşkilat bürosu tərəfindən *27 iyunda* Ermənistanın nümayəndəsi Bekzadyanın "erməni və türk əhalisinin yaşadıqları yerləri inzibati və iqtisadi məqsədəuyğunluq baxımından müvafiq surətdə Ermənistana və Azərbaycana birləşdirmək" təklifi rədd olundu. ***1920-ci ilin dekabrında*** Türkiyə ilə Ermənistan arasında imzalanmış ***Gümrü (Aleksandro-***

pol) sülh müqaviləsinə görə, İrəvan bölgəsi və Göyçə gölü istisna olmaqla, bütün ***Ermənistan ərazisi*** təxminən ***10 min kv. km*** hüdudlarında müəyyənləşdirilmişdir. Lakin Rusiya bir müddətdən sonra Gümrü sülh müqaviləsini tanımaqdan imtina etdi.

RK(b)P-nin Qafqaz bürosu ***1921-ci il iyulun 4-də*** toplanmış plenumunda Qarabağ məsələsi müzakirə olunarkən ***iki fikir*** irəli sürüldü: ***Birincisi,*** Qarabağın dağlıq hissəsi Azərbaycanın tərkibində saxlanılsın, erməni və azərbaycanlı əhalisinin iştirakı ilə rəy sorğusu keçirilsin; ***İkincisi,*** Qarabağın dağlıq hissəsi Ermənistan SSR-i tərkibinə qatılsın və rəy sorğusu yalnız ermənilər arasında keçirilsin. İclasın iştirakçılarından Orconikidze, Myasnikov, Fiqatner, Nazaretyan, Kirov ikinci təklifin lehinə səs verdilər [70, s. 171]. Beləliklə, plenum qərara aldı: "Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağ" bölgəsinin Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız "Dağlıq Qarabağ"da keçirilsin" [492]. Lakin N.Nərimanovun qəti etirazını, prinsipial mövqeyini və "Qarabağ haqqında məsələnin ciddi fikir ayrılığı doğurduğunu nəzərə alaraq, RK(b)P MK Qafqaz Bürosu onun qəti həllini RK(b)P MK-ya çıxarmağı zəruri hesab etdi" [493]. Məsələ ***iyulun 5-də Qafqaz bürosunun plenumunda*** yenidən müzakirə olundu [69, s. 125-126]. Plenum "müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla daimi əlaqəsini əsas tutaraq" [493], Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağ"ın Azərbaycan SSR-in tərkibində saxlanılması qərarını qəbul etdi, qərara paytaxtı ***Şuşa şəhəri*** olmaqla ***geniş vilayət muxtariyyəti*** verilməsi bəndi salındı [70, s. 176]. Bu məsələdə Stalinin, Çiçerinin, Orconikidzenin və Kirovun həlledici rolu olmuşdu. Lakin bu qərar nə Azərbaycan rəhbərliyini, nə də ictimaiyyətin nümayəndələrini qane etmirdi. Buna baxmayaraq, ***1923-cü il iyunun***

27-də RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin plenumu bu qərarı təsdiq etdi [399].

İyun ayınadək keçmiş "DQMV"-nin yaradılması məsələsi dəfələrlə müzakirə olundu və müxtəlif təkliflər irəli sürüldü. Bunlardan biri - *1923-cü ilin may ayında* Qarabağ komitəsinin üzvləri tərəfindən irəli sürülən aşağıdakı layihə təklifləri idi: 4 qəza ləğv edildi və 2 inzibati vahid: Şuşa şəhəri mərkəz olmaqla Kürdüstanla birlikdə "Dağlıq Qarabağ" və Ağdam şəhəri mərkəz olmaqla isə Düzən Qarabağ qəzaları yaradılsın; ümumi məsələlərin həlli və bütün Qarabağa ümumi rəhbərlik etmək üçün quberniya icraiyyə komitələri hüququnda vilayət partiya və sovet orqanları təşkil edilsin [400; 380]. Q.K.Orconikidzenin təkidi nəticəsində Azərbaycan MİK-in ***1923-cü il 7 iyul tarixli Dekreti ilə*** Azərbaycan SSR-in tərkibində mərkəzi *Xankəndi* olmaqla *"**Dağlıq Qarabağ Muxtar Vilayətinin** (DQMV)* yaradıldığı" elan edildi [6, s. 213]. *1923-cü il iyul ayının 16-da* AK(b)P MK-nın Rəyasət Heyəti "kürdlərin yaşadıqları ərazidən "Kürdüstan qəzası" yaratmağı qərara aldı" [397]. *1923-cü il oktyabr ayının 8-də* AK(b)P MK-nın Rəyasət Heyəti Kürdüstanın qəza orqanlarını Şuşa şəhərinə keçirməyi qərara aldı. *1924-cü il noyabr ayının 26-da* dərc olunmuş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə"də qeyd edilirdi ki, "DQMV" Azərbaycan SSR-in tərkib hissəsidir, bütün kargüzarlıq, məhkəmə işləri və məktəblərdə tədris ana dilində aparılmalıdır. "Əsasnamə"yə əsasən, Şuşa qəzasından Şuşa şəhəri və Xankəndi, 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi kəndi DQMV-yə verildi [6, s. 219]. Beləliklə, mərkəzin "parçala – hökm et" məkrli siyasətinə uyğun yaradılmış "Müstəqil Sovet Azərbaycanı" tərkibində "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil olundu.

Cənubi Qafqaz respublikaları vahid iqtisadi məkan idi və təsərrüfat birliyi, mədəni əlaqələr olmadan onların inkişafı mövcud siyasi vəziyyətdə çox çətin idi. Cənubi Qafqaz respublikala-

rı ilə RSFSR arasında təsərrüfat sahəsində qarşılıqlı münasibətlər yaradılması əsas vəzifə kimi irəli sürülürdü. Bu məsələlərdən biri – bütün Cənubi Qafqaz respublikaları üçün vahid dəmir yolu və xarici ticarət orqanlarının təsis edilməsi idi. *1921-ci il aprel ayının 21-də* Gürcüstan ilə Azərbaycan dövləti arasında poçt konvensiyası üzrə müqavilə imzalandı [330]. *1921-ci ilin iyununda* Azərbaycan Xalq Komissarları Soveti qonşu sovet respublikaları ilə sərhəddə gömrükxanaların ləğv olunması haqqında Dekret verdi [379]. *1921-ci il iyun ayının 7-də* Cənubi Qafqaz respublikalarının xarici ticarət komissarlıqlarının birləşdirilməsi qərara alındı, bir neçə gündən sonra isə bu dövlətlərin "Gürcüstan, Azərbaycan və Ermənistanın xarici ticarət üçün İttifaqı" adı altında birləşdirilməsi barədə onlar arasında saziş imzalandı. *1921-ci il avqust ayının 7-də* Tiflisdə keçirilən müşavirədə ümumi maliyyə siyasətini və Cənubi Qafqazın bütün respublikaları məkanında vahid pul nişanı müəyyən etməyin vacib məsələ olduğunu bildirildi. Pul islahatının keçirilməsi zəruri hesab olundu. Respublikaların Xalq Komissarlıqlarının fəaliyyətini ümumiləşdirmək üçün vahid mərkəzi orqan - İqtisadi büro təsis edildi [309]. İqtisadi büronun təsis edilməsi, dəmir yollarının, xarici ticarətin, həmkarlar ittifaqları və komsomol təşkilatlarının birləşdirilməsi Cənubi Qafqaz respublikalarının federasiyasının yaradılması yolunda ilk addımlar idi [6, s. 174].

"RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında" *1920 il sentyabrın 30-da* bağlanmış müqavilə, Cənubi Qafqaz respublikalarını Federativ Respublika kimi birləşdirmək siyasəti, *1921-ci ilin noyabr ayının 3-də* RP(b)P MK Qafqaz Bürosunun "respublikalar arasında ilk növbədə hərbi, təsərrüfat, maliyyə işi və xarici ticarət sahəsində federativ İttifaq" bağlanması haqqında Qərar qəbul etməsi [268] və *1921-ci ilin noyabr ayının 21-də* RK(b)P MK-nın Siyasi Bürosu tərəfindən ***Cənubi Qafqaz Respublikalarının Federasiyasının*** yaradılması barədə qəbul etdiyi Qətnamə Azərbaycan dövlətinin formal müstəqilli-

yinin ləğv edilməsi demək idi. Beləliklə, ***1922-ci ilin mart ayının 12-də*** Azərbaycan, Gürcüstan və Ermənistan Mərkəzi İcraiyyə Komitələri nümayəndələrinin iştirak etdikləri Səlahiyyətli konfrans İttifaq müqaviləsini təsdiq etdi və Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federativ İttifaqını – ***CQSSRFİ (mart-dekabr 1922-ci il)*** yaratdı. Cənubi Qafqaz diyarını tamamilə Mərkəzə tabe etdirmək üçün sovet respublikalarının ittifaqını yaratmaq məqsəd ilə Mərkəz CQSSRFİ-ni vahid federativ respublikaya çevirmək və Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin CQSFSR bayrağı altında SSRİ-yə daxil olması uğrunda mübarizə aparırdı.

Cənubi Qafqaz Respublikalarının ***1922-ci il dekabr ayının 10-da*** toplanmış I Sovetlər qurultayında CQSFSR Konstitusiyası qəbul edildi, 150 nəfər üzvdən və namizəddən ibarət Ali orqan – ***Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsi*** (CQ MİK) seçildi. Cənubi Qafqaz MİK 13 nəfərdən, o cümlədən hər üç respublikadan bir nəfər olmaqla sədrləri - S.A.Ağamalıoğlu, M.Q.Sxakaya və S.S.Ambarsumyanı seçdi. Onlar növbə ilə sədrlik etməli idilər. B.M.Talıblı Cənubi Qafqaz MİK Rəyasət Heyətinin katibi seçildi. Cənubi Qafqaz MİK ***1923-cü il yanvar*** ayında keçirilən ilk sessiyasında CQSFSR Xalq Komissarları Sovetini təşkil etdi. M.D.Oraxelaşvili CQSFSR XKS-nin sədri, M.D.Hüseynov və A.F.Myasnikov onun müavinləri təyin olundular. Sessiyada Ali İqtisadi Şura (AİŞ) da təsis edildi. Bununla Azərbaycanın bütün yeraltı və yerüstü sərvətləri, xüsusən nefti digər Cənubi Qafqaz respublikalarının ixtiyarına verildi. ***1922-ci il fevralın 18-22-də*** Sovet respublikalarının RSFSR ilə bağladıqları sazişə görə bütün respublikalar, o cümlədən Azərbaycan beynəlxalq münasibətlərdə öz mənafeyini təmsil və müdafiə etməyi RSFSR-ə tapşırırdılar. ***1922-ci il dekabrın 30-da*** I Ümumittifaq Sovetlər Qurultayı çoxmillətli "sovet dövləti"ni – SSRİ-ni təsis etdi. ***SSRİ****nin* tərkibinə ilk vaxtlar *4 respublika*-***RSFSR, Ukrayna SSR (USSR), Belorusiya SSR (BSSR)*** və ***CQSFSR*** daxil idi. Qurul-

tayda 371 üzv və 138 namizəddən ibarət, sədrlərdən biri N.Nərimanov olan SSRİ-nin ali orqanı – Mərkəzi İcraiyyə Komitəsi yaradıldı. MİK-nin tərkibinə Azərbaycan SSR-dən S.A.Ağamalıoğlu, R.Ə.Axundov, S.M.Kirov, Q.M.Musabəyov, N.N.Nərimanov və b. seçildilər. SSR İttifaqı ali icra orqanına 4 nəfərdən ibarət – M.İ.Kalinin, Q.İ.Petrovski, N.N.Nərimanov və A.Q.Çervyakov sədr və A.S.Yenukidze isə katib seçildilər [6, s. 187]. ***1923-cü il iyulun 6-da*** SSRİ MİK-nin II sessiyasında SSRİ-nin ilk Konstitusiyasının hazırlanması başa çatdı. ***1924-cü ilin yanvar ayının 31-də*** isə SSRİ-nin II Sovetlər qurultayında ***SSRİ-nin ilk Konstitusiyası*** təsdiq edildi. *1925-ci ilin mart* ayında Azərbaycan SSR-in IV Sovetlər qurultayı Azərbaycan SSR və CQSFSR Konstitusiyalarına dəyişikliklər və əlavələri müzakirə etdi. ***1925-ci il 10 apreldə*** açılan II Cənubi Qafqaz Sovetlər Qurultayında ***CQSFSR-in Yeni Konstitusiyası*** təsdiq olundu [6, s. 189-190].

Sonrakı zamanlarda "sağlar" və "sollar", "qocalar və cavanlar" arasında aparılan qarşıdurmalar, N.Nərimanovun və onun silahdaşlarının "erməni kommunistlərinə" qarşı mübarizəsi, onun V.İ.Leninə müracətlərində "daşnak kommunistlərin Azərbaycanda murdar hərəkətlərinə son qoymağı" [85, s. 62-63] dəfələrlə xahiş etməsi, ona real ictimai-siyasi vəziyyəti açıqlaması siyasi düşmənləri tərəfindən "milli təmayülçülükdə" günahlandırılaraq N.Nərimanovun Azərbaycan rəhbərliyindən uzaqlaşdırılmasına səbəb oldu. Onlar N.Nərimanovun *1922-ci ilin axırı – 1923-cü ilin əvvəllərində* SSRİ MİK sədrlərindən biri seçilməsinə və beləliklə, Azərbaycanda uzaqlaşdırılaraq, ömrünün sonuna kimi bu vəzifədə Moskvada fəaliyyət göstərməsinə nail oldular.

Sovet milli siyasətində Azərbaycanın müsəlman Şərqinə, Türk dünyasına nüfuzedici amil olması mühüm yer tuturdu. Belə ki, İranda Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə milli azadlıq hərəkatının təzyiqi altında *1920-ci ilin iyun* ayında İranın in-

gilispərəst hökuməti istefa verdi. *1920-ci il iyun ayının 24-də* Təbrizdə Ş.M.Xiyabaninin rəhbərliyi altında milli-demokratik hökumət təsis edildi. Cənubi Azərbaycandakı, Gilan və Mazandarandakı üsyanların təsiri nəticəsində Tehran, Rəşt, İsfahan, Xorasan və İranın digər vilayətlərində ingilis imperialistlərinə qarşı milli azadlıq hərəkatı gücləndi.

1920-ci ildə Türkiyə xalqının da müstəqillik uğrunda, imperialist qəsbkarlarına qarşı mübarizə aparmasında Azərbaycan SSR-nin yaranmasının müəyyən təsiri olmuşdur. Belə ki, Mustafa Kamal başda olmaqla Türkiyə dövlətinin inqilabi hökuməti Sovet Rusiyası ilə dostluq əlaqələri yaradırdı. *1920-ci il sentyabr ayının10-da* Bakıda Türkiyə kommunistləri tərəfindən keçirilən I Qurultayı Qətnamə qəbul edərək Türkiyə xalqının imperializmə qarşı milli azadlıq mübarizəsini gücləndirməyə çağırırdı [6, s. 72].

V.İ.Lenin ölkənin beynəlxalq və daxili vəziyyətinin möhkəmlənməsində, Şərq ölkələrində sosialist ideyalarının yayılmasında Azərbaycan SSR-nin rolunu dəfələrlə vurğulayırdı. Belə ki, Azərbaycanda sovet quruluşunun yaranmasından dərhal sonra Əfqanıstan, İran, Türkiyə və digər Sərq ölkələrinin nümayəndələri Bakıya gəlməyə başladılar. Təsadüfi deyildir ki, bu dövrdə Şərq xalqlarının və türkoloqların nüfuzlu yığıncaqları məhz Azərbaycanda – ilk müsəlman sovet respublikasının paytaxtı olan Bakıda keçirilmişdir – *1920-ci il sentyabr ayının 1-7-də Şərq xalqlarının Bakıda keçirilən I Qurultayına* 1891 nümayəndə - Qafqaz, Orta Asiya, Əfqanıstan, Misir, Hindistan, Çin, Koreya, Suriya, Türkiyə, Yaponiya və digər ölkələrdən 37 millətin nümayəndəsi gəlmişdir [495]. Qurultaya Avropa və Amerika ölkələrinin kommunist partiyalarının nümayəndələri - Bela Kun, Tomas Kvelç, Con Rid və b. da gəlmişdilər. İştirakçıların 55 nəfəri qadın idi [6, s. 73]. Qurultayda Şərq qadınlarından daha üç qadın, o cümlədən Azərbaycandan X.Ş.Şabanova da 18 nəfərdən ibarət Rəyasət Heyəti üzvləri sırasına seçildi. İngiltərə, Fransa,

ABŞ, Avstriya, Macarıstan, Bolqarıstan və b. dövlətlərin nümayəndələri də Rəyasət Heyətinin üzvləri idilər. Qurultay 2 müraciətnamə qəbul etdi: "Şərq xalqlarını müstəmləkəçilərə qarşı mübarizəyə çağırış" və "Şərq xalqlarının azadlıq hərəkatını dəstəkləmək" barədə Avropa, Amerika və Yaponiya zəhmətkeşlərinə müraciət. Qurultayda ilk dəfə olaraq, "Bütün ölkələrin proletarları və bütün dünyanın məzlum xalqları, birləşin!" şüarı səsləndirildi. Şərq qadınlarının nümayəndələri də qurultayda aşağıdakı tələbləri irəli sürdülər: qadın hərəkatını bütün dünyanın məruz qaldığı inqilabi hərəkatın mühüm və zəruri nəticəsi kimi qiymətləndirmək lazımdır. Şərq xalqlarının Qurultayı 48 nəfərdən təşkil olunmuş (35 kommunist və 13 bitərəf) Şərq xalqlarının "Təbliğat və Fəaliyyət Şurasını" seçdi. Şuranın əsas vəzifəsi Şərq xalqları arasında inqilabi təbliğat aparmaq, onların milli azadlıq hərəkatını dəstəkləmək və birləşdirmək idi. Şərq xalqlarının Bakı şəhərində keçirilən I Qurultayı Antanta imperialistlərini narahat edirdi. Belə ki, onlar Şərq ölkələrindən qurultaya gələn nümayəndələrə hər vasitə ilə mane olmağa çalışırdılar. Bütün bunlara baxmayaraq, Rusiyanın ənənəvi imperiya siyasətinin davamı kimi qurultay Şərq ölkələrində baş verən milli azadlıq hərəkatlarını beynəlxalq imperializmə qarşı proletar inqilabı ilə birləşdirməyə çalışırdı.

3. Azərbaycanda sosialist yenidənqurmaları və onların nəticələri. Kütləvi siyasi repressiyalar

1920-ci ilin yayında Azərbaycanda "hərbi kommunizm" siyasəti tətbiq olundu. Azərbaycan İnqilab Komitəsinin ***1920-ci il 26 avqust*** tarixli Fərmanı ilə taxıl ticarəti inhisara alındı, ***sentyabrda*** ərzaq sapalağı tətbiq olundu, bunun üçün fövqəladə səlahiyyətlərə malik olan sovet təsərrüfat orqanlarının nümayəndələri kəndlərə göndərilirdi, ***"İşləməyən dişləməz"*** prinsipi həyata keçirilməyə başlandı, ***kartoçka*** sistemi yaradıldı. Sovet ordu his-

sələrinin ərzaqla təmin edilməsi kəndlilərin vəziyyətini ağırlaşdırdığına görə hökumət Quba və Cavad qəzaları müstəsna olmaqla, Azərbaycanın bütün bölgələrində taxıl tədarükünü dayandırdı. ***1921-ci ilin mart*** ayında RK(b)P X qurultayı *ərzaq sapalağını* ləğv edərək, natural ərzaq vergisinə keçmək barəsində qərar qəbul etdi. Kəndli ərzaq vergisini ödədikdən sonra yerdə qalan məhsulu sata bilərdi. "Bütün növ ərzaq inhisarının ləğv edilməsi haqqında" ***1921-ci il 17 may tarixli Dekreti ilə ərzaq sapalağı*** ləğv edildi. *1921-ci ilin may ayında* I Sovetlər Qurultayı Azərbaycan Respublikasında ərzaq vergisi əvəzinə könüllü məhsul rüsumu – *"**çanaq" (20 girvənkə)** vergisi* tətbiq etmək Qərarını qəbul etdi. Lakin, *1922-ci ilin əvvəllərindən* etibarən ərzaq vergisi yenidən tətbiq olunmağa başlandı [6, s. 101]. *Aprel ayının 13-də* Azərbaycan SSR Xalq Komissarları Soveti "1922-ci ildə kənd təsərrüfatı məhsulları üzərinə ərzaq vergisi qoyulması haqqında" Dekret verdi [262]. Ərzaq vergisinin "çanaq"dan fərqi hər kəndli təsərrüfatının məhsuldarlığından və həcmindən asılı olan mütərəqqi vergi prinsipi idi [269].

YİS - ə uyğun olaraq bütün dövlət sənayesinin işini yenidən qurmaq, təsərrüfat hesabına keçmək, maya dəyərini aşağı salmaq və s. tələb olunurdu. Sənayenin təsərrüfat hesabına keçməklə trestləşdirilməsi onun daha yaxşı təchiz olunmuş müəssisələrdə cəmləşdirilməsi deməkdir. YİS şəraitində neft sənayesinin idarə olunmasının yenidən qurulması üçün *1921-ci ilin sentyabr* ayında köhnə "Azərneftkom" müstəqil ***"Azərneft"*** trestinə çevrilərək təsərrüfat hesabına keçirildi. Azərneftin Azərbaycan XTŞ-nin tərkibindən çıxarılaraq, RSFSR ÜXTŞ-yə verilməsi Mərkəzin Azərbaycan xalqının təbii sərvəti olan "qara qızılı" istismar etməsi üçün həyata keçirildi.

Yeni iqtisadi siyasət dövründə neft sənayesini öz əlində cəmləşdirən mərkəz onun inkişafı üçün təşkilatlara xarici şirkətlər ilə əlaqə yaratmaq sərbəstliyi verdi. Bu, neft və ağ neftin xaricdə avadanlıqla mübadilə edilməsi sayəsində neft sənayesinin

yeni texnika ilə təmin olunmasına kömək edərdi. ABŞ-ın ***"Standart-Oyl"*** şirkəti ilə bağlanmış müqaviləyə görə ***"Azərneft"*** texniki avadanlıq və s., ***"Gikkers Limited"*** ingilis firması ilə bağlanmış müqaviləyə görə Azərbaycan ilk krekinq qurğusununun texniki avadanlığını istehsal etmək üçün lisenziya aldı. "Azərneft" London, Paris, Berlin, Nyu-York və s. şəhərlərdə öz nümayəndəliklərini açdı. *1924-cü ildə* Suraxanıda turbobur vasitəsilə ilk quyu qazıldı. Balaxanı-Sabunçu, Bayıl buxtasında neft mədənləri aşkar edildi və işə salındı. *1925-ci ildə* neft hasilatı *1921-ci ilə* nisbətən 2 dəfə artdı. Neftmaşınqayırma sənayesi inkişaf etməyə başladı (leytenant Şmidt-sonra Səttarxan zavodu). YİS ilk dövründə neft hasilatında artım o qədər də yüksək olmasa belə, istehsalın tənəzzülü dayandırıldı və neft sənayesi inkişaf etməyə başladı.

Neft sənayesi və digər sahələr təsərrüfat hesabına keçdilər**,** **e**yni vaxtda ayrı-ayrı sahələr üzrə olan müəssisələrin trestləşdirilməsi başlandı: "Azəripək", "Azərtoxucu", "Azərtütün", "Azərduz", "Azəruntrest" və b. xalq təsərrüfatı və sənaye müəssisələrinin maliyyələşdirilməsini yaxşılaşdırmaq məqsədilə *1921-ci il oktyabr ayının 16-da* Azərbaycan Dövlət Bankı yaradıldı [6, s. 119]. *1925-ci ildə* Bakıda və Tovuzda *sement,* Gədəbəydə *misəritmə* zavodları, Gəncədə *mahud* fabriki işə salındı, Şərur və Yevlaxda yeni *pambıqtəmizləmə* zavodları tikildi, Şəkidə, Ordubadda və Qarabağda *baramaaçan* fabrikləri fəaliyyətə başladı. Kəndlilərin əksəriyyətinin torpaq sahəsi ilə, kənd təsərrüfatı alətləri və iş heyvanı ilə təmin olunması, suvarma sisteminin bərpa edilməsi kənd təsərrüfatının inkişaf etməsinə müsbət təsir göstərdi. Kənd təsərrüfatında əkin sahələri artdı, sosial təbəqələşmə gücləndi, *1925-ci ildə* ortabablar əhalinin 54%-ni təşkil edirdi. Kənd təsərrüfatının inkişafı üçün *1923-cü ildən* etibarən Azərbaycan SSR-in torpaq kodeksi tətbiq olundu [170, s. 399]. Kodeksdə deyilirdi: "Azərbaycan SSR hüdudlarında olan bütün torpaqlar, kimin ixtiyarında olmasından asılı olmayaraq,

Fəhlə-Kəndli Dövlətinin mülkiyyəti hesab olunur" [136, s. 3]. *1925-ci ildə* Azərbaycanın iqtisadiyyatında canlanma başlandı, lakin *1926-cı ildən* etibarən ***YİS*** prinsiplərindən imtina etməyə başlanıldı və iqtisadiyyatda *inzibati amirlik metodlarının* tətbiq edilməsinə keçildi.

XX əsrin 20-ci illərinin ikinci yarısından etibarən Azərbaycanda da xalq təsərrüfatının bütün sahələrinin sosialistcəsinə yenidən qurulmasına başlanıldı. Onun əsas istiqamətlərini: sosialist sənayeləşdirilməsi, kənd təsərrüfatlarının kollektivləşdirilməsi, bolşevik ideologiyasına xidmət edən mədəni quruculuq, kommunist partiyasının bölünməz və şəriksiz ağalığının təmin olunması, planlaşmada və idarəçilikdə sərt mərkəzləşmə təşkil edirdi. *1925-ci ilin dekabrında* ölkənin sosialist sənayeləşdirilməsi xətti irəli sürüldü. Azərbaycanda əsas üstünlük neft sənayesinin inkişafına və elektrik istehsalına yönəldilmişdi. Yüngül sənaye müəssisələrinin və ilkin xammal emalı (pambıqtəmizləmə, ipəkçilik və s.) obyektlərinin yaradılması da Azərbaycanda sənayeləşdirmənin tərkib hissələrindən idi. Sənayeləşdirmə xalqın, xüsusən kəndlilərin istismarı, ağır vergilər qoymaq, müsadirələr etmək, "sənayeləşdirmə istiqrazları" yolu ilə toplanan kapital hesabına aparılırdı. Sənayeləşdirmə illərində Bakıda neftayırma və neftmaşınqayırma zavodları (İ.Şmidt, Suraxanı mexaniki zavodu), ilk krekinq qurğusu, sürtkü yağları, ağ neft, benzin, gəmi təmiri, karbid zavodları, Gəncədə əyirici-toxuculuq kombinatı, Gəncə, Ucar və Yevlaxda pambıqtəmizləmə zavodları, Lənkəranda və Ordubadda konserv zavodları, Şəkidə, Xankəndində, Zaqatalada, Salyanda və Füzulidə istilik və su-elektrik stansiyaları tikilib işə salındı. *1937-ci ildə* SSRİ-də hasil edilən neftin 76%-ni Azərbaycan verirdi və dünyada 2-ci yerə çıxmışdı. Bu illərdə 822 km. Bakı-Batum neft kəmərinin, Ələt-Culfa dəmiryol xəttinin çəkilməsi başa çatdırıldı. İlk dəfə Azərbaycanda *elektrik dəmir yolu xətti* istifadəyə verildi. Sənayeləşdirmə öz çətinlikləri və mənfi nəticələri ilə bərabər Azərbaycanın ümumi inkişafına

xeyli təkan verdi. Onun həyata keçirilməsi sayəsində Azərbaycan aqrar-sənaye ölkəsinə çevrildi.

Kənd təsərrüfatının kollektivləşdirilməsi siyasəti *1929-cu ilin ikinci yarısından* etibarən Azərbaycanda həyata keçirilməyə başlandı. Bu məqsədlə inzibati – hakimiyyətçilik və zorakılıq yolu ilə kəndli təsərrüfatları kolxozlarda birləşdirildi, qolçomaqlara qarşı qeyri-qanuni cəza tədbirləri tətbiq edildi, bu da kənddə həm iqtisadi, həm də ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi, əhalinin narazılığını artırdı [6, s. 322]. *1928-ci ildən* etibarən ***qolçomaqları*** məhdudlaşdırmaq və sıxışdırmaq siyasəti yürüdülürdü: onlara yüksək vergilər qoyulur, artıq qalan taxıl məhsulları zorla müsadirə edilir, muzdur saxlamaq, torpağı və texnikanı icarəyə vermək məhdudlaşdırılır, bir sinif kimi ləğv edilirdi. Orta Asiya, Sibir və Qazaxıstanın şaxtalı ərazilərinə on minlərlə Azərbaycanlı ailəsi sürgün edildi. *1930-cu ildə* kütləvi olaraq kəndlilər kolxozlardan çıxmağa başladılar, lakin *1930-cu ilin sonu-1931-ci ilin əvvələrindən* etibarən kolletivləşmə dalğası yüksəlməyə başladı. 1937-ci ildə Azərbaycanda 3654 kolxoz 304 min 982 kəndli həyətini birləşdirmişdir ki, bu da bütün kəndli həyətlərinin 84,5 faizini təşkil edirdi. 1938-ci il yanvarın 1-i üçün isə kolxozların əkin sahələri ümumi əkin sahələrinin 93,2 faizini təşkil edirdi [145, s. 117]. ***1930-cu ilin birinci yarısında*** Şəki-Zaqatala mahalında, Naxçıvan MSSR-in Keçili kəndində, Gəncənin Nərimanov dairəsində, Şirvanın Ucar dairəsində, Xızı dairəsinin Ağdərə kəndində, Şəmkirin (Şamxorun) Bitdili kəndində, Cəbrayıl qəzasının Sirik kəndində və s. yerlərdə kəndli üsyanları baş verdi. Təkcə *1931-ci ildə* kollektivləşdirməyə qarşı çıxan ***132 qaçaq dəstəsi*** fəaliyyət göstərmişdir. Bu siyasətin zorakılıqla yerinə yetirilməsi nəticəsində kollektivləşdirmənin 4 ilində ona qarşı *400-dən* çox silahlı qaçaq dəstəsi mübarizə aparmışdır. Bu siyasət çarizmin ənənəvi təhkimçilik qaydaqanunlarının bərpası demək idi. Belə ki, 30-cu illərdə kənddə həyata keçirilən iqtisadi siyasətə xalq etirazlarının qarşısı aman-

sızlıqla alınırdı. 1934-cü ildə Ağdaş rayonunda 540 kommunistdən 266-sı partiyadan çıxarılmış, 340 kolxozçu isə "qolçomaq-antisovet" ünsürü adı ilə güllələnmişdir [398]. ***1950-ci illərin sonuna*** kimi pasportu olmayan kolxozçu icazəsiz mənsub olduğu kolxozun hüdudlarından kənara gedə bilməzdi və ya istədiyi təsərrüfata keçmək hüququ da yox idi, kolxozlar sanki islah – əmək düşərgələrini xatırladırdı.

Totalitar sosializm cəmiyyətinin qurulması. Kütləvi repressiyalar. Sovet rejimi *proletar diktaturası* adlandırılırdı. Ölkədə qanunlar deyil, partiya qərarları işləyirdi. AK(b)P yaranandan 30-cu illərin ortalarına kimi Azərbaycanda partiya rəhbərliyi çox tez-tez dəyişirdi. Ona əvvəllər V.Noneyşvili, Y.Stasova, V.Dumbadze, Q.Kaminski, S.M.Kirov başçılıq etmişdir. Sonra rəhbərliyə Mirzoyan-Qarayev-Ağaverdiyev birliyi, N.Giqalo, V.Polonski, Ruben və nəhayət, ***1934-cü ildə M.C.Bağırov*** gətirilmişdir və ***1953-cü ilədək*** hakimiyyətdə olmuşdur. 20-ci illərin ortalarından başlanan sosialist yenidənqurmalarının nəticəsində Azərbaycanda da Stalin modelli totalitar sosializm cəmiyyəti quruldu. Bütün istehsal vasitələri ictimai mülkiyyət adı ilə dövlətin əlində cəmləşdi. Respublika əhalisinin sosial tərkibini fəhlələr, kolxozçu kəndlilər və ziyalılar təşkil edirdilər. Əhalinin 86%-i dövlət sosializm təsərrüfatında çalışırdı. Sosializm quruculuğunda Azərbaycan əhalisinə münasibətdə milli ədalətsizlikdə, suveren hüquqların tapdalanmasında, dil və mədəniyyətin təhrif olunmasında, kadrların hazırlanmasında və yerləşdirilməsində beynəlmiləl prinsip və normaların pozulmasına daha çox yol verilirdi. ***1936-cı il dekabr ayının 5-də*** qəbul olunmuş yeni ***Konstitusiyaya*** görə Cənubi Qafqaz Respublikaları Federasiyası ləğv olundu və Azərbaycan birbaşa SSRİ-nin tərkibinə daxil edildi. ***1937-ci il mart ayının 10-da Azərbaycan SSR-nin yeni Konstitusiyası*** qəbul olundu [67, s. 60].

Kommunist partiyasının avtoritar idarəçiliyinə, inzibati-amirlik sisteminə, qanunsuzluqlara qarşı fikir söyləyən milli ictimai-si-

yasi xadimlərin, alimlərin, ziyalıların günahsız olaraq güllələnməsi ilə nəticələnən ***kütləvi repressiyalar*** dövrü başlandı. ***1937-ci ildə*** xalqa *"xəyanətdə", "əksinqilabi"* və *"casusluq"* damğaları ilə partiya rəhbərləri – R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, Q.Vəzirov, D.Bünyadzadə, M.D.Hüseynov, Ç.İldırım, M.İsrafilbəyov (Qədirli), M.Nərimanov, H.Rəhmanov güllələndilər. Təkcə ***1937-ci ildə*** Azərbaycanda ***29 min "xalq düşməni"*** güllələndi və ya *Sibirə sürgün* edildi. 1937-ci il dekabr ayının sonuna kmi təkcə Xəzər Gəmiçiliyi İdarəsindən 200 rəhbər işçi, 19 gəmi kapitanı repressiya edilmiş, İsmayıllı rayonu Kürdmaşı kəndinin bütün kolxozçuları kütləvi şəkildə həbs edilərək, 63 nəfəri güllələnmişdir. 300 nəfərdən çox partiya rəhbərləri, o cümlədən 32 rayonun partiya komitələri katibləri, 28 rayon İcraiyyə Komitəsi sədrləri, 18 xalq komissarı və onların müavinləri, 66 mühəndis, Qızıl Ordu və Hərbi Dəniz Donanmasının 88 komandiri və siyasi işçisi, 8 professor və bir çoxları həbs olunaraq ya uzun müddətə azadlıqdan, ya da həyatdan həmişəlik məhrum olmuşdular [6, s. 419]. ***1937-1938-ci illərdə*** Azərbaycanın məşhur ziyalılarından ***H.Cavid, M.Müşfiq, Ə.Nəzmi, Ə.Cavad, T.Şahbazi, S.Mümtaz, S.Hüseyn, B.Talıblı, V.Xuluflu, Yusif Vəzir (Çəmənzəminli), M.Cuvarlinski, B.Çobanzadə, B.Həsənbəyov*** və b. repressiya qurbanları oldular. Kütləvi repressiyaların təşkilində türklərin genetik düşmənləri olan ermənilər, xüsusən Daxili İşlər orqanlarında rəhbər vəzifə tutan Sumbatov-Topuridze, Qriqoryan, Markaryan, Yemelyanov, Qriqoryan, Borşov, Atakişiyev və b. mühüm rol oynamışdılar [69, s. 83]. Azərbaycanın 51 rayonundan 31-nin Xalq Daxili İşlər Komissarlığının rayon şöbələrinin rəisləri erməni idi [6, s. 419]. 1938-40-cı illərdə vaxtilə Azərbaycanın cənub hissəsindən gəlmiş azərbaycanlılar zorla deportasiya olundular.

Siyasi mühacirət. XX əsrin 20-30-cu illərində minlərlə adam siyasi motivlər üzündən xaricə getməyə məcbur olmuşdur. Onların əksəriyyəti *1920-ci il aprel* işğalından sonra, məcburi

kollektivləşmə illəri və *1937-1940-cı illərdəki* kütləvi repressiyalar zamanı xaricə mühacirət etmişlər. Fətəli Xan Xoyski, Mustafa Vəkilov, Şəfı Rüstəmbəyli, Nağı Şeyxzamanlı, Azərbaycan nümayəndə heyətinin rəhbəri, ADR Parlamentinin sədr müavini Həsən bəy Ağayev və b. aprel ayının ortalarından Cənubi Qafqaz Respublikalarının Konfransına getmiş, lakin vətənə qayıda bilməyərək, Gürcüstana mühacirət etmişlər. *1919-cu ildə* başda Ə.M.Topçubaşov olmaqla Paris sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin üzvləri-Mir Yaqub Mehdiyev, Ceyhun Hacıbəyli, Məmməd Məhərrəmov, Əkbərağa Şeyxülislamov, Abbas bəy Atamalıyev Avropada qalmışdılar. Azərbaycanın mühacirətdə olan görkəmli nümayəndələri xaricdə qalıb xalqa xidmətlərini davam etdirmək qərarına gəldilər və Azərbaycan Xalq Cümhuriyyətinin sovet Rusiyası tərəfindən işğalını beynəlxalq aləmə çatdırmaq üçün çoxlu işlər gördülər, hətta bu amansız işğal barəsində *1920-ci il sentyabr ayının 8-də* Millətlər Cəmiyyətinə müraciət etdilər. Parisdə olan siyasi mühacirlərimiz, xüsusilə Əlimərdan bəy Topçubaşov Azərbaycanda baş verən həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün *1920-ci ilin noyabr* ayında Cenevrədə Millətlər Cəmiyyətində, *1922-ci ildə* London və Genuya, *1923-cü ildə* Lozanna konfranslarında çıxış edərək, Azərbaycanın milli hüquqlarının pozulması və dövlət müstəqilliyinə olan təcavüzü bəyan etməyə nail olmuşdur. Ə.Topçubaşov Parisdə və digər yerlərdə məskunlaşan bütün mühacirləri bir Mərkəzdə birləşdirmək ideyasını, Qafqaz Konfederasiyası mövqeyini dəstəkləyirdi. Təqribi hesablamalara görə İkinci Dünya müharibəsinə kimi müəyyən vaxtlarda Azərbaycandan 50 mindən çox siyasi mühacir olmuşdur [77, s. 44]. Əksəriyyəti əsasən, Türkiyədə məskunlaşmışdır, bir çoxu isə Qərbi Avropa və Asiyanın digər ölkələrində qərarlaşıb fəaliyyət göstərmək məcburiyyətində qalmışdır. Azərbaycan mühacirlərinin ilk Assosiasiyası Fransada yaranmışdır. Onun əsas üzvləri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan diplo-

matları: Əkbər Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Miryaqub Mehdiyev, Məmməd bəy Məhərrəmov və b. idilər. Azərbaycan mühacir qrupu *1919-cu ilin may* ayından *1920-ci ilin aprel* ayına kimi "Azərbaycan" bülleteninin 11 nömrəsini, 3 kitab, Azərbaycanın ilk rəngli xəritəsini və onlarca məqalələr çap etdirmişdir [314].

M.Ə.Rəsulzadənin təşəbbüsü ilə İstanbulda *1923-cü ildə* "Müsavat" partiyasının Xarici Bürosu yaradılmışdır. Onun işində X.Xasməmmədov və M.S.Axundzadə fəal iştirak etmişdilər. *1924-cü ildə* bütün müsəlmanları birləşdirmək məqsədilə M.Ə.Rəsulzadənin başçılığı ilə İstanbulda gizli fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzi yaradılmışdır. *1923-cü ildə* İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", *1927-ci ildə* Mirzə Bala Məmmədzadənin "Azərbaycan misaqi millisi", "28 mayis İstiqlal Bəyannaməsinin təhlili", *1938-ci ildə* isə Berlində "Milli Azərbaycan hərəkatı", "Milli Az. "Müsavat" Halq Firqəsi Tarixi" kitabları çapdan çıxmışdır [6, s. 83]. Xaricdə yaşayan Azərbaycan mühacir nümayəndələrinin apardıqları əzmkar publisist və təbliğat fəaliyyəti, onların rəhbərlərinin siyasi çıxışları "Sovetlər ölkəsinin" rəhbərliyini çox narahat edirdi. M.Ə.Rəsulzadənin *1923-cü ildə* çapdan çıxan "Azərbaycan Cümhuriyyəti" kitabı barədə Stalin *1923-cü il sentyabr ayının 16-da* "R.Zadənin mürtəce kitabçası barədə" başlığı altında "Yol. Musabəyova, Mirzəyana, Axundova, Kirova və Orixelaşviliyə mənim məsləhətim" qeydi ilə məktub göndərmişdir. Sovet Rusiyasının başçısı İ.Stalin M.Ə.Rəsulzadəni "reneqatçılıqda (o, əvvəl bolşevik olub)", "Türkiyə xalqının mənafeyinə xəyanətkarlıqda" (o və onun partiyası Türkiyə xalqına köməyə gedən Qızıl Ordunun Azərbaycana gəlməsinə müqavimət göstərirdilər...) "Azərbaycan xalqının mənafeyinə..." və başqa sahələrdə cəmi altı tezisinə uyğun "Rəsulzadəyə hücuma keçməyə, onu "ittiham" etməyə" çağırırdı [6, s. 84].

Azərbaycan mühacirləri Avropada fəaliyyət göstərmək məqsədilə *1924-cü ildə* "Azərbaycan İstiqlal Komitəsi" təşkilatı-

nı təsis etmişdilər. *1936-cı ilin avqust* ayında Varşavada təşkil olunan "Müsavat" partiyasının qurultay səlahiyyətli konfransı M.Ə.Rəsulzadə müsavatın keçdiyi tarixi yolu xarakterizə edən nitqiylə açdı. Azərbaycanın vətənpərvər mühacirlərinin başlıca amalı Azərbaycanın müstəqilliyini bərpa etmək, vahid müstəqil Azərbaycan dövlətini yaratmaq idi.

4. Azərbaycanda mədəni quruculuq

1923-cü ildə savadsızlıqla mübarizə üçün Xüsusi Komitə yaradılmışdır. 30-cu illərin sonlarında Azərbaycanda 4500-ə qədər ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 695 min şagird təhsil alırdı. *1919-cu ildən* Bakı Universiteti (tərkibində 2 fakultə-tibb və tarix-filologiya), *1921-ci ildən* Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Politexnik İnstitutu, Şərq dünyasında ilk Konservatoriya, Ali Rəssamlıq Məktəbi, *1929-cu ildən* Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu fəaliyyət göstərirdi. *1930-cu ildə* Azərbaycan Tibb İnstitutu, Sənaye Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu açıldı. Politexnik İnstitutu Neft İnstitutuna çevrildi. *1934-cü* ildə Sənaye İnstitutu və Xalq Təsərrüfatı İnstitutu yaradıldı. 1938-ci ildə Gəncədə və Şəkidə müəllimlər institutları işə başladı.

1923-cü ildə "Azərbaycanı Öyrənən Cəmiyyət" yaradıldı, *1929-cu ildə* bu, Dövlət Elmi Tədqiqat İnstitutuna çevrildi. *1932-ci ildə* bunun əsasında SSRİ Elmlər Akademiyası Cənubi Qafqaz Filialının Azərbaycan şöbəsi təşkil edildi. *1935-ci ildə* bu şöbə SSRİ EA Azərbaycan filialına çevrildi. *1945-ci ilin yanvarında* isə Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. *1922-ci ildə* Azərbaycan Arxeologiya cəmiyyəti yaradıldı, *1923-cü ildə* bu cəmiyyət Arxeologiya Komitəsinə, *1927-ci ildə* isə Tarix, İncəsənət və Təbiət Abidələrinin Mühafizəsi Komitəsinə çevrildi.

1924-cü ildə Bakıda ilk dəfə *radio qurğusu* quraşdırıldı. *1926-cı ildən radiostansiya* fəaliyyətə başladı. Elə həmin ildə *kinostudiya* yaradıldı.

1926-cı ildə Bakıda I Ümumiittifaq Türkoloji Qurultayı keçirildi. *20-30-cu illərdə* Respublikada "Kommunist", "Bakinskiy raboçi" qəzetləri, "Molla Nəsrəddin", "Şərq qadını" və s. jurnallar nəşr edilirdi. *1926-cı ildə* "Qızıl qələmlər" ittifaqı, *1932-ci ildə* Azərbaycan Yazıçılar İttifaqı, Azərbaycan Rəssamlıq İttifaqı, *1934-cü ildə* Azərbaycan Bəstəkarlar İttifaqı yaradıldı. Məşhur xanəndələr S.Qaryağdıoğlu, S.Şuşinski, X.Şuşinski, Z.Adıgözəlov və b. milli musiqimizin inkişafında mühüm rol oynamışdılar [6, s. 387]. .

1922-ci ildə Azərbaycan Dövlət Dram Teatrı, *1925-ci ildə* Azərbaycan Opera və Balet Teatrı açıldı. *1920-ci ildə* yaradılmış Rus Azad tənqid və təbliğ teatrı *1923-cü ildə* Bakı işçi teatrına, *1937-ci ildə* isə Azərbaycan Dövlət Rus Dram Teatrına çevrildi. *1930-ci ildə* Azərbaycan Kukla Teatrı, *1933-cı ildə* Gəncə Dövlət Teatrı, *1936-cı ildə* Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Filarmoniyası, *1938-ci ildə* Musiqili Komediya Teatrı yaradıldı, Naxçıvanda, Gəncədə, Xankəndində, Şəkidə dövlət teatrları fəaliyyətə başladı [6, s. 388; 12, s. 147]. *1937-ci ildə* Ü.Hacıbəyovun "Koroğlu" operası tamaşaya qoyuldu. *1940-cı ildə* Əfrasiyab Bədəlbəyli ilk Azərbaycan baletini-"Qız qalası"nı yazdı.

Azərbaycan MİK və Azərbaycan SSR XKS ***1928-ci il iyulun 21-də*** "Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması" haqqında Qərar qəbul etdi [365]. Bu qərar Azərbaycan MİK-in IV sessiyasında 1929-cu il oktyabrın 11-də təsdiq edildi [6, s. 345]. ***1929-cu il yanvarın 1-dən latın qrafikalı***, ***1940-cı ilin yanvarın 1-dən*** isə ***kirill*** qrafikalı əlifbaya keçildi (Azərbaycan SSR Ali Sovetində *1939-cu ilin iyulunda* qəbul edilən qanun əsasında) [6, s. 347].

XRONOLOJİ CƏDVƏL

1919, may - 1920, aprel – Azərbaycan mühacir qrupu tərəfindən "Azərbaycan" bülleteninin 11 nömrəsi, 3 kitab, Azərbaycanın ilk rəngli xəritəsinin və onlarca məqalələrin çap etdirilməsi.
1919 – Bakı Universiteti (tərkibində 2 fakultə-tibb və tarix-filologiya).
1920, 28 aprel – Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması.
1920, 28 aprel – 1921, avqust – XI Qızıl Ordunun Xüsusi Şöbəsi tərəfindən Azərbaycanda 48 min adamın öldürülməsi.
1920, 30 aprel – Azərbaycan hökumətinin Ermənistan dövlətindən Qarabağ və Zəngəzur ərazilərindən qoşunlarının çıxarılmasını tələb edən notası.
1920, 3 may – İnqilab Komitəsinin Dekreti ilə yerlərdə qəza, mahal və kənd inqilab komitələrinin yaradılması, polisin ləğv edilməsi, fəhlə-kəndli milisinin təşkili.
1920, 5 may – Torpağın əməkçi "kəndlilərə" verilməsi haqqında Dekret ilə bütün xan, bəy torpaqlarının, habelə bütün monastır, kilsə, vəqf və məscid torpaqlarının bütün iş heyvanları və avadanlığı ilə birlikdə müsadirə edilməsi və ödənişsiz kəndlilərin istifadəsinə verilməsi.
1920, 7 may – Azərb. SSR Qızıl Ordu və Qızıl Donanmasının yaradılması barədə Dekret.
1920, 12 may – Azərbaycan ərazisindəki meşələr, sular və yeraltı sərvətlərin milliləşdirilməsi haqqında Dekret.
1920, 12 may – Bütün silki və mülki rütbələrin (zadəgan, kəndli, bəy, xan, knyaz və s.) ləğv edilməsi haqqında Dekret. Azərbaycan Respublikasının vətəndaşlığının müəyyən olunması.
1920, 12 may – İnqilab Komitəsinin Xalq məhkəməsi haqqında Dekreti.

1920, 15 may – Xalq Maarif Komissarlığının vicdan azadlığı, hər cür dini ayinlərin icra olunmasına qadağa qoyulması, dinin dövlətdən və məktəbdən ayrılması haqqında Qərarı.
1920, may – Fövqəladə Komissiyanın (ÇK) təşkil olunması və Ali İnqilabi Tribunalın yaradılması.
1920, 24 may – Neft sənayesinin milliləşdirilməsi haqqında Dekret. A.P.Serebrovskinin başçılığı ilə Azərbaycan Neft Komitəsinin ("Azneft") təşkili.
1920, 25-31 may – Gəncədə sovet hakimiyyətinə qarşı Azərbaycan Milli Ordusunun bölmələrinin zabit və əsgərləri tərəfindən ilk silahlı çıxış.
1920, 27 may – N.Nərimanovun imzası ilə "Kifayət qədər əsas olmadan tutulub saxlananların hamısını" həbsdən azad etmək üçün Xüsusi Komissiyanın yaradılması haqqında Dekret.
1920, 5-15 iyun – Nuru paşanın başçılığı ilə sovet hakimiyyətinə qarşı Qarabağ üsyanı.
1920, 6 iyun – Azərbaycan İnqilab Komitəsinin Xəzər Ticarət Donanmasının milliləşdirilməsi haqqında Dekreti.
1920, 6-18 iyun – Zaqatalada sovet hakimiyyətinə qarşı hərbiçisi Əhmədiyev və Molla Hafiz Əfəndinin başçılığı ilə dinc əhalinin üsyanı.
1920, 9 iyun – Azərbaycan İnqilab Komitəsinin Xalq Daxili İşlər Komissarlığının dövlətin ali inzibati orqanı olması haqqında Dekreti.
1920, 9 iyun – Dövlət təşkilatlarının və ictimai təşkilatların fəaliyyətinə nəzarət etmək üçün Fəhlə-Kəndli Müfəttişliyinin (F.K.M) yaradılması.
1920, 15 iyun – Azərbaycan İnqilab Komitəsinin zavod, fabrik və digər sənaye müəssisələrinin, balıq sənayesinin milliləşdirilməsi haqqında Dekreti.
1920, 15 iyun – Azərbaycan İnqilab Komitəsinin bankların milliləşdirilməsi haqqında Dekreti. Azərbaycan Xalq Bankının təsis edilməsi.

1920, iyun – İranda Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə milli azadlıq hərəkatı. İran hökumətinin istefa verməsi.
1920, 24 iyun – Təbrizdə Xiyabaninin rəhbərliyi altında milli-demokratik hökumətin təsis edilməsi.
1920, 12 iyul – N.Nərimanovun Sovet hakimiyyətinə qarşı sui-qəsdlərdən başqa həbs olunan fəhlə, kəndli və əsgərlərə geniş şəkildə amnistiya tətbiq olunması haqqında verdiyi Dekret.
1920, 28 iyul – XI Qızıl Ordunun Naxçıvana daxil olması. Naxçıvan Sovet Sosialist Respublikasının elan olunması.
1920, 10 avqust – Sovet Rusiyası ilə Ermənistan arasında bağlanmış müvəqqəti sazişə görə, Şərur-Dərələyəzin qeyd-şərtsiz Ermənistana verilməsi, Qarabağ, Zərgəzur və Naxçıvanın mübahisəli ərazilər elan olunması.
1920, 12 avqust – N.Nərimanovun imzası ilə idarə müdiriyyətinin icazəsi olmadan qulluqçuların xidməti hərəkətlərinə görə FK orqanları tərəfindən həbs olunmasını qadağan edən Əmr.
1920, 26 avqust – Azərbaycan İnqilab Komitəsinin Fərmanı ilə taxıl ticarətinin inhisara alınması, sentyabrda ərzaq sapalağının tətbiq olunması.
1920, yay – Şəmkir qəzasının Müşkürlü kəndi ətrafında, avqustda Quba qəzasının Dəvəçi və Qusar dairələrində sovet hakimiyyətinə qarşı kəndlilərin üsyanı.
1920, yay – Erməni hərbi hissələri Zərgəzuru dağıdıb Naxçıvana hücum etməsi.
1920, yay – Azərbaycanda "hərbi kommunizm" siyasəti.
1920, 1-7 sentyabr – Bakıda keçirilən Şərq xalqlarının I Qurultayı.
1920, 8 sentyabr – Azərbaycan mühacirlərinin Azərbaycan Xalq Cümhuriyyətinin sovet Rusiyası tərəfindən işğalı barəsində Millətlər Cəmiyyətinə müraciəti.
1920, 10 sentyabr – Bakıda Türkiyə kommunistləri tərəfindən keçirilən I Qurultayın qəbul etdiyi Qətnamə.
1920, 23 sentyabr – Kəndlərdə yoxsul komitələrinin yaradılması haqqında Fərman.

1920, 30 sentyabr – "RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında" müqavilənin bağlanması.
1920, oktyabrın əvvəlləri – Naxçıvanda Fövqəladə Komissarlığın yaradılması.
1920, 6 noyabr – Azərbaycan İnqilab Komitəsinin "özlərinin şüursuzluğu və siyasi yetkinliyinin çatışmazlığı ucbatından istər ümumi, istərsə də siyasi xarakterli cinayətlər törətmiş bütün şəxslər" barəsində amnistiya tətbiq olunması haqqında verdiyi Dekret.
1920, noyabrın əvvələri – M.Ə.Rəsulzadənin Şamaxı qəzasında həbs edilərək Bakıya gətirilməsi. İ.V.Stalinin göstərişi ilə həbsdən azad edilərək Moskvaya aparılması.
1920, 29 noyabr – Ermənistanda Sovet hakimiyyətinin qurulması.
1920, noyabr – Parisdə olan siyasi mühacirlərimizin Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün Cenevrədə Millətlər Cəmiyyətində konfransda çıxışları.
1920, 2 dekabr – Türkiyə ilə Ermənistan arasında imzalanmış Gümrü (Aleksandropol) sülh müqaviləsi. Zəngəzur qəzasının qərb hissəsinin Ermənistana birləşdirilməsi.
1920 – Türkiyə xalqının müstəqillik uğrunda, imperialist qəsbkarlarına qarşı mübarizəsi.
1920 – Rus Azad tənqid və təbliğ teatrı.
1920-1924 – Qaryagin (Cəbrayıl) və Cavad qəzaları, Muğan düzünün bir hissəsi, Lənkəran, Cavanşir, Ordubad və Şərur qəzalarında, Qəbələ və Xaçmazda sovet rejimi əleyhinə kütləvi üsyanlar.
1921, mart – RK(b)P X Qurultayının ərzaq sapalağını ləğv etməsi, natural ərzaq vergisinə keçmək barəsində Qərar qəbul etməsi.
1921, 16 mart – RSFSR ilə Türkiyə arasında Moskvada Dostluq müqaviləsinin imzalanması. Naxçıvanın Azərbaycanın himayəçiliyi (protektoratı) altında muxtar ərazi statusu.

1921, 21 aprel – Gürcüstan ilə Azərbaycan dövləti arasında poçt konvensiyası üzrə müqavilənin imzalanması.
1921, 6-19 may – Azərbaycan SSR-in I Sovetlər Qurultayı.
1921, 17 may – "Bütün növ ərzaq inhisarının ləğv edilməsi haqqında" Dekreti ilə ərzaq sapalağının ləğvi.
1921, 19 may – Azərbaycan SSR-in ilk Konstitusiyasının qəbul edilməsi. Azərbaycan İnqilab Komitəsinin ləğv edilməsi. Ali qanunverici orqan olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (Az. MİK). Ali icraedici orqan - Azərbaycan SSR Xalq Komissarları Soveti.
1921, may – I Sovetlər Qurultayının Azərbaycan Respublikasında ərzaq vergisi əvəzinə könüllü məhsul rüsumu – "çanaq" (20 girvənkə) vergisi tətbiq etmək Qərarı.
1921, yay – Kəndlərdə yoxsul komitələrinin kənd sovetləri ilə əvəz olunması.
1921, yay – XI Qızıl Ordu hissələrinin Zəngəzura hücum etməsi və Yuxarı Zəngəzurun Ermənistana birləşdirilməsi.
1921, iyun – Azərbaycan Xalq Komissarları Sovetinin qonşu sovet respublikaları ilə sərhəddə gömrükxanaların ləğv olunması haqqında Dekret verməsi.
1921, 7 iyun – Cənubi Qafqaz respublikalarının xarici ticarət komissarlıqlarının birləşdirilməsi Qərarı. "Gürcüstan, Azərbaycan və Ermənistanın xarici ticarət üçün İttifaqı".
1921, 19 iyun – Ermənistan SSR-in Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən qondarma "Dağlıq Qarabağ" qurumunun Ermənistanın ayrılmaz tərkib hissəsi elan etdiyi Bəyannaməsi.
1921, 4-5 iyul – RK(b)P-nin Qafqaz bürosunun plenumunda Qarabağ məsələsinin müzakirəsi.
1921, 7 avqust – Tiflisdə keçirilən müşavirədə ümumi maliyyə siyasətinin və Cənubi Qafqazın bütün respublikaları məkanında vahid pul nişanının müəyyən edilməsi.

1921, sentyabr – "Azərneftkom"un müstəqil "Azərneft" trestinə çevrilərək təsərrüfat hesabına keçirilməsi.
1921, 13 oktyabr – Qarsda RSFSR-in iştirakı ilə Azərbaycan, Ermənistan və Gürcüstan dövlətləri ilə Türkiyə arasında bağlanan müqavilə. Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasının bir daha təsdiqlənməsi. "Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi" statusunun qəti olaraq müəyyənləşdirilməsi.
1921, 16 oktyabr – Azərbaycan Dövlət Bankının yaradılması.
1921, 3 noyabr – RP(b)P MK Qafqaz Bürosunun "Respublikalar arasında ilk növbədə hərbi, təsərrüfat, maliyyə işi və xarici ticarət sahəsində federativ İttifaq" bağlanması haqqında Qərarı.
1921, 21 noyabr – RK(b)P MK-nın Siyasi Bürosu tərəfindən Cənubi Qafqaz Respublikalarının Federasiyasının yaradılması barədə qəbul etdiyi Qətnamə.
1921 – "Müsavat", "İttihad", "Əhrar" partiyalarının qanundankənar elan olunması və fəaliyyətlərinin qadağan olunması barədə rəsmi Qərar.
1921 – Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Politexnik İnstitutu, Şərq dünyasında ilk Konservatoriya, Ali Rəssamlıq Məktəbi.
1922 – M.Ə.Rəsulzadənin Finlandiyaya, oradan da Türkiyəyə mühacirət etməsi.
1922, 12 mart – Azərbaycan, Gürcüstan və Ermənistan Mərkəzi İcraiyyə Komitələri nümayəndələrinin iştirak etdikləri Səlahiyyətli konfransın keçirilməsi. Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federativ İttifaqının – CQSSRFİ (mart-dekabr 1922-ci il) yaradılması.
1922, 13 aprel – Azərbaycan SSR Xalq Komissarları Sovetinin "1922-ci ildə kənd təsərrüfatı məhsulları üzərinə ərzaq vergisi qoyulması haqqında" Dekreti.
1922, 22 may – AK(b)P MK-nın Rəyasət Heyətinin Naxçıvan diyarı haqqında Əsasnamə. Naxçıvan Sovet Sosialist Respubli-

kası (NSSR) adı ilə Azərbaycan SSR-in tərkibində muxtar respublika elan olunması.

1922, 10 dekabr – Cənubi Qafqaz Respublikalarının I Sovetlər Qurultayında CQSFSR Konstitusiyasının qəbul edilməsi.

1922, 12 dekabr – Cənubi Qafqaz Sovetlərinin I Qurultayının Qərarı: "Naxçıvan Respublikası Azərbaycanın muxtar vahid hüququnda ayrılmaz və tərkib hissəsi hesab edilsin".

1922, axırı – 1923, əvvəlləri – N.Nərimanov SSRİ MİK sədrlərindən biri kimi fəaliyyət göstərməsi.

1922 – Ərzaq vergisinin yenidən tətbiqi.

1922 – Siyasi mühacirlərimizin Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün London, Genuya konfranslarında çıxışları.

1922 – Azərbaycan Arxeologiya cəmiyyətinin yaradılması.

1923 – Azərbaycan Arxeologiya cəmiyyətinin Arxeologiya Komitəsinə çevrilməsi.

1923 – Siyasi mühacirlərimizin Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün Lozanna konfransında çıxışları.

1923 – M.Ə.Rəsulzadənin təşəbbüsü ilə İstanbulda "Müsavat" partiyasının Xarici Bürosunun yaradılması.

1923, yanvar – Cənubi Qafqaz MİK ilk sessiyasında CQSFSR Xalq Komissarları Sovetinin təşkili.

1923, 27 fevral – dekabr – Bütün Naxçıvan diyarının Azərbaycan SSR tərkibinə muxtar diyar hüququnda daxil edilməsi.

1923, 27 iyun - RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin plenumunun bu qərarı təsdiq etməsi.

1923, 6 iyul – SSRİ MİK 2-ci sessiyasında SSRİ-nin ilk Konstitusiyasının qəbulu.

1923, 7 iyul – Azərbaycan MİK-in Dekreti ilə Azərbaycan SSR-in tərkibində keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığı"nın elan edilməsi.

1923, 16 iyul – AK(b)P MK-nın Rəyasət Heyətinin kürdlərin yaşadıqları ərazidən "Kürdüstan qəzası"nı yaratmaq Qərarı.

1923, 8 oktyabr – AK(b)P MK-nın Rəyasət Heyətinin Kürdüstanın qəza orqanlarını Şuşa şəhərinə keçirmək Qərarı.
1923, 31 dekabr – Naxçıvan diyarının Azərbaycan SSR tərkibinə Naxçıvan MSSR kimi daxil edilməsi.
1923 – Azərbaycan SSR-in torpaq kodeksinin tətbiqi.
1923 – İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" kitabı.
1923 – Savadsızlıqla mübarizə üçün Xüsusi Komitənin yaradılması.
1923 – "Azərbaycanı Öyrənən Cəmiyyət".
1923 – Rus Azad tənqid və təbliğ teatrının Bakı işçi teatrına çevrilməsi.
1924, 31 yanvar – SSRİ-nin II Sovetlər Qurultayında SSRİ-nin ilk Konstitusiyasının təsdiq edilməsi.
1924, 9 fevral – Naxçıvan diyarının Az.MİK-in Rəyasət Heyətinin Qərarı ilə Azərbaycan SSR tərkibinə Naxçıvan SSR kimi daxil olması.
1924, aprel – Azərbaycan SSR-in Naxçıvan MSSR haqqında yeni Əsasnaməni təsdiq etməsi.
1924, 26 noyabr – "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə". DQMV Azərbaycan SSR-in tərkib hissəsidir.
1924 – Suraxanıda turbobur vasitəsilə ilk neft quyusunun qazılması.
1924 – M.Ə.Rəsulzadənin başçılığı ilə İstanbulda gizli fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzin yaradılması.
1924 – "Azərbaycan İstiqlal Komitəsi" təşkilatının təsisi.
1924 – Bakıda ilk dəfə radio qurğusunun quraşdırılması.
1925, mart – Azərbaycan SSR-in IV Sovetlər Qurultayının Azərbaycan SSR və CQSFSR Konstitusiyalarına dəyişikliklər və əlavələri müzakirə etməsi.
1925, 10 aprel – II Cənubi Qafqaz Sovetlər Qurultayında CQSFSR-in Yeni Konstitusiyasının təsdiqi.

1925 – Bakıda və Tovuzda sement, Gədəbəydə misəritmə zavodları, Gəncədə mahud fabrikinin işə salınması. Şərur və Yevlaxda yeni pambıqtəmizləmə zavodlarının tikilməsi. Şəkidə, Ordubadda və Qarabağda baramaaçan fabriklərinin fəaliyyətə başlaması.
1925, dekabr – Ölkənin sosialist sənayeləşdirilməsi xəttinin irəli sürülməsi.
XX əsrin 20-30-cu illəri – Respublikada "Kommunist", "Bakinskiy raboçi" qəzetləri, "Molla Nəsrəddin", "Şərq qadını" və s. jurnallarının nəşri.
1925 – Azərbaycan Opera və Balet Teatrı.
1926 – YİS prinsiplərindən imtina. İqtisadiyyatda inzibati amirlik metodlarının tətbiqi.
1926 – Bakıda I Ümumittifaq Türkoloji Qurultayının keçirilməsi.
1926 – Radiostansiyanın fəaliyyətə başlaması.
1926 – "Qızıl qələmlər" ittifaqının yaradılması.
1926 – Kinostudiyanın yaradılması.
1927 – Arxeologiya Komitəsinin Tarix, İncəsənət və Təbiət Abidələrinin Mühafizəsi Komitəsinə çevrilməsi.
1927 – Mirzə Bala Məmmədzadənin "Azərbaycan misaqi millisi", "28 mayis İstiqlal Bəyannaməsinin təhlili" kitabları.
1928 – Qolçomaqlara qarşı mübarizə.
1928, 21 iyul – Azərbaycan MİK və Azərbaycan SSR XKS-nin "Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması" haqqında Qərarı.
1929, 1 yanvar – Latın qrafikalı əlifbaya keçid.
1929-1931 – Ordubad və Zəngilan rayonlarının bir sıra kəndlərinin Ermənistana verilməsi və Mehri rayonu adlandırılması.
1929, ikinci yarısı – Azərbaycanda kənd təsərrüfatının kollektivləşdirilməsi siyasəti.
1929 – Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu.
1929 – "Azərbaycanı Öyrənən Cəmiyyət"nin Dövlət Elmi Tədqiqat İnstitutuna çevrilməsi.

1930 – Azərbaycan Dövlət Tibb İnstitutu, Sənaye Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu.
1930 – Politexnik İnstitutunun Neft İnstitutuna çevrilməsi.
1930 – Kəndlilərin kütləvi surətdə kolxozlardan çıxması.
1930, birinci yarısı – Kəndli üsyanları.
1930, sonu-1931, əvvələri – Kolletivləşmə dalğasının yüksəlişi.
1930 – Azərbaycan Kukla Teatrı.
1931– Kollektivləşdirməyə qarşı 132 qaçaq dəstəsinin fəaliyyət göstərməsi.
1932 – Azərbaycan Rəssamlıq İttifaqının yaradılması.
1932 – Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu əsasında SSRİ Elmlər Akademiyası Cənubi Qafqaz Filialının Azərbaycan şöbəsinin təşkili.
1932 – Azərbaycan Yazıçılar İttifaqının yaradılması.
1933 – Gəncə Dövlət Teatrı.
1934-1953 – M.C.Bağırovun hakimiyyət dövrü.
1934 – Xalq Təsərrüfatı İnstitutu.
1934 – Azərbaycan Bəstəkarlar İttifaqının yaradılması.
1935 – SSRİ Elmlər Akademiyasının Cənubi Qafqaz Filialının Azərbaycan şöbəsinin SSRİ EA Azərbaycan filialına çevrilməsi.
1936 – Gənc Tamaşaçılar Teatrı.
1936 – Azərbaycan Dövlət Filarmoniyası.
1936, avqust – Varşavada təşkil olunan "Müsavat" partiyasının qurultay səlahiyyətli konfransı. M. Ə. Rəsulzadənin nitqi.
1936, 5 dekabr – Yeni Konstitusiyaya görə Azərbaycanın daxil olduğu Cənubi Qafqaz Respublikaları Federasiyasının ləğvi. Azərbaycanın birbaşa SSRİ tərkibinə daxil edilməsi.
1937 – Ü.Hacıbəyovun "Koroğlu" operasının tamaşaya qoyulması.
1937, 10 mart – Azərbaycan SSR-nin yeni Konstitusiyasının qəbul olunması.

1937 – Kütləvi repressiyalar dövrünun başlanması. Azərbaycanda 29 min "xalq düşməni"nin güllələnməsi və ya Sibirə sürgün edilməsi.
1937 – Bakı işçi teatrının Azərbaycan Dövlət Rus Dram Teatrına çevrilməsi.
1938 – Berlində nəşr olunan "Milli Azərbaycan hərəkatı", "Milli Az. "Müsavat" Halq Firqəsi Tarixi" kitabları.
1938 – Gəncədə və Şəkidə müəllimlər institutları.
1938 – Musiqili Komediya Teatrı.
1939, iyul – Azərbaycan SSR Ali Sovetinin latın qrafikalı əlifbanın kirillə əvəz edilməsi haqqında Qanunu.
1940, 1 yanvar – Kirill qrafikalı əlifbaya keçid.
1940 – Naxçıvanda, Gəncədə, Xankəndində, Şəkidə dövlət teatrlarının fəaliyyətə başlaması.
1940 – Əfrasiyab Bədəlbəylinin ilk Azərbaycan baletini - "Qız qalası"nı yazması.
1945, yanvar – Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması.
1950, sonuna kimi – Pasportu olmayan kolxozçunun icazəsiz mənsub olduğu kolxozdan kənara getmək və ya istədiyi təsərrüfata keçmək hüququnun olmaması.

XII FƏSİL
AZƏRBAYCAN II DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ (1939-1945-Cİ İLLƏR)

Plan:

1. II Dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycana dair planları.
2. Azərbaycan döyüşçüləri ön cəbhədə, antifaşist müqavimət və partizan hərəkatlarında.
3. Faşist Almaniyası üzərində qələbədə Azərbaycan neftinin həlledici rolu.
4. Cənubi Azərbaycan II Dünya müharibəsi illərində.

1. II Dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycana dair planları

1939-cu il sentyabrın 1-də Almaniya Polşa üzərinə hücum etdi. *Bir gün sonra* İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. II Dünya müharibəsi başlandı. ***1940-cı il 18 dekabrda*** təsdiq olunmuş SSRİ-yə hücum – *"**Barbarossa** planı"*na əsasən ***1941-ci il iyunun 22-də*** faşist Almaniyası SSRİ-yə hücum etdi. Almaniyanın Azərbaycana dair planında SSRİ-də yaşayan bütün türkdilli xalqları – "müsəlman monqoloidləri, dağıdıcı qüvvə" hesab edən Hitlerin "Mənim mübarizəm" kitabında yazdığı kimi, "onları ali irqin qullarına çevrilməlidirlər" [89, s. 13] fikri xüsusi yer tuturdu. ***Rozenberqin "Qafqazın idarə olunması planı"na*** görə ilk vaxtlar Azərbaycanda "komissarlıq" adlanan idarə forması yaradılmalı və iqamətgahı Tiflisdə yerləşəcək Qafqaz Reyxskomissarlığına tabe edilməli [89, s. 12], digər pla-

na görə türk xalqları yaşayan ərazilərdə Almaniyadan asılı olan "Böyük Türküstan" dövləti yaradılmalı idi. Bu qondarma dövlətin tərkibinə Şimali və Cənubi Azərbaycanla bərabər, Orta Asiya, Qazaxıstan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstanın daxil olması nəzərdə tutulurdu [373, s. 33].

Hitler hələ *1941-ci ilin martın 27-də* Bakı zəbt edildikdən sonra neftin hasil edilməsi, emalı və daşınmasını Almaniyanın "Kontinental Neft Cəmiyyəti"nə tapşırmaq göstərişini vermişdir. Hitlerin ***"Edelveys"*** planına görə Bakı ***1941-ci il sentyabrın 25-də*** tutulmalı idi. Hitler Bakını faşist Almaniyasını neftlə təmin edəcək hərbi mərkəzə çevirmək fikrində idi.

İyunun 30-da isə İ.V.Stalinin başçılığı ilə Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı [141, s. 734]. DMK-i bütün iqtisadiyyatın müharibənin tələblərinə uyğun yenidən qurulması, geniş hərbi səfərbərlik keçirilməsi, cəbhəyə yaxın ərazilərdən mühüm sənaye müəssisələrinin və əhalinin ölkənin ucqarlarına köçürülməsi ilə fəaliyyətə başladı.

ABŞ və Böyük Britaniya da Qafqaza, xüsusilə də Azərbaycana sahib olmaq istəyirdilər. ***"Vilvet"*** planında Sovet ordusunun Qafqazdan çıxarılıb Stalinqrada aparılması, burada ABŞ və Böyük Britaniya hərbi qüvvələrinin yerləşdirilməsi nəzərdə tutulurdu. Onlar bu üsulla Qafqazı, xüsusilə Azərbaycanı SSRİ-dən ayırmaq istəyirdilər. SSRİ rəhbərliyinin planına görə isə Azərbaycan əhalisi Mərkəzi Asiya və Qazaxıstana köçürülməli idi. Lakin M.C.Bağırov gətirdiyi tutarlı dəlillərlə Stalini bu fikirdən daşındıra bildi.

ABŞ və Böyük Britaniyanın müharibə ilə bağlı maraqlarına baxmayaraq, onlar faşizmi məhv etmək və işğalçı almanları tərksilah etmək barəsində bəyanatı – "Atlantik xartiyası"nı imzaladılar. Sentyabr ayında SSRİ də bu xartiyaya qoşuldu [158, s. 142]. ***1942-ci il yanvar ayının 1-də*** "Atlantik xartiyası"nın əsasları qəbul edildi və 27 dövlətin nümayəndələri Vaşinqtonda fa-

şizmə qarşı koalisiya yaratdılar. ***1945-ci ilin aprel ayında*** isə bu ittifaqa dünyanın artıq 50 dövləti daxil olmuşdur [125, s. 373].

2. Azərbaycan döyüşçüləri ön cəbhədə, antifaşist müqavimət və partizan hərəkatlarında

Müharibənin ilk günlərində ***40 mindən*** çox oğlan və ***1000*** nəfərə qədər qız cəbhəyə könüllü getmək üçün respublika Hərbi Komissarlığına müraciət etdi [413]. Ümumiyyətlə, ***1941-1945-ci illərdə*** Azərbaycan SSR-dən cəbhəyə *700 minə qədər adam* səfərbər olunmuşdur. Onlardan 11 mindən çoxu qadın idi [428]. *1941-ci il iyunun 22-dən avqustun 14-dək* Bakının 18 rayonunda Xalq qoşunu dəstələrinə 61780 nəfər könüllü yazılmış və 20 rota təşkil olunmuşdur [427]. Dövlət Müdafiə Komitəsinin qərarı ilə *1941-ci ilin iyul ayından* etibarən bütün ölkə üzrə 16 yaşdan 50 yaşadək olan kişilərə ümumi icbari hərbi təlim keçilməyə başlanmışdır [408]. Azərbaycan Respublikasında *1941-1945-ci illərdə* ümumi icbari hərbi təlim xətti ilə 51254 (onlardan 37180-ni atıcı, 1407 nəfəri başqa hərbi ixtisaslar üzrə) döyüşçü hazırlanmışdır [82, s. 22]. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də *1941-1945-ci illərdə* 6500-dən çox tibb bacısı hazırlamış, 20 mindən çox Azərbaycan vətəndaşı döyüşçülər üçün könüllü qan vermişdir [97, s. 614]. Rus dilini bilməmək müharibənin ilk dövründə azərbaycanlı döyüşçülər üçün ciddi çətinliklər törətməsi (bəzi şovinist zabitlər onları təhqir edir, kobud rəftar edir, hətta güllələyirdilər) ilə bağlı Azərbaycanlı döyüşçülərinin respublika rəhbərliyinə müraciətlərindən sonra Azərbaycan K(b)P MK Hərbi Şöbəsinin *23 oktyabr 1941-ci il* tarixli məktubla Cənubi Qafqaz cəbhəsinin Siyasi İdarəsinə bu barədə müraciət etmişdir [416].

Azərbaycanda *1941-ci ilin avqustunda* ***402-ci***, *oktyabrında* ***223-cü***, *1942-ci ilin mart-sentyabr aylarında* ***416-cı***, *avqust-sentyabrda* ***271-ci*** milli atıcı diviziyalar yaradıldı. Krımın müda-

fiəsində şəxsi heyətinin çoxunu itirmiş ***77-ci*** diviziya *1942-ci ilin may* ayında respublikada yenidən yığıldı [405].

Müharibənin ilk günlərindən Azərbaycanlı döyüşçülər faşist qəsbkarlarına qarşı qəhrəmancasına vuruşmuşlar. Əfsanəvi Brest qalası ətrafında baş verən döyüşlərdə Azərbaycandan hərbi həkim M.Qədirov, siyasi işçi A.Kastryulin, əsgərlər İ.Səfərov, İ.Dadaşov, A.İmanov, M.Məmmədov, A.Qafarov, A.Mənsurov, V.Xanikin, X.Məmmədov, Ə.Əliyev, D.Abdullayev böyük qəhrəmanlıq göstərmişlər. Həkim M.Qədirov cərrahiyyə əməliyyatları aparmaqla yanaşı, şəhərin müdafiəsinin son gününədək, kiçik bir dəstə ilə faşistlərin hücumlarının qarşısını alaraq, əlbəyaxa döyüşdə bir neçə düşmən məhv etmişdir. Leninqrad səmasında *1941-ci il iyulun 17-də* leytenant ***Hüseynbala Əliyev*** döyüş tapşırığını uğurla yerinə yetirərək (6 faşist təyyarəsini məhv etmiş) geri qayıdarkən buludlar arasında görsənən düşmən təyyarəsi üzərinə tarana gedəndə Hüseynbala Əliyevin kabinəsində top gülləsi partlamışdır. Leytenant Hüseynbala Əliyev 80, o cümlədən 3 ölümcül güllə ilə yaralanmasına baxmayaraq, təyyarəsini yerə endirə bildi, özü isə qəhrəmancasına həlak oldu. Qəhrəman ölümündən sonra Lenin ordeni medalı ilə təltif edilmişdir [29, s. 32]. *İyun ayının 25-də* Qara dəniz Donanmasının 63-cü aviasiya briqadasının ***təyyarəçisi Məzahir Abasov*** almanların bazası Konstansanı bombalayarkən göstərdiyi igidliyə görə Qırmızı Bayraq ordeni ilə təltif edilmişdir. *1941-ci ilin payızında* alman faşistləri Baltikyanı ölkələri, Ukrayna və Belorusiyanı işğal edib, Leninqradı mühasirəyə aldılar, böyük qüvvələrlə *sentyabrın 30-da* Moskvaya doğru hücuma keçdilər. Moskva uğrunda gedən döyüşlərdə tank hissəsinin komandiri, kapitan ***Həzi Aslanov*** qəhrəmanlığına görə *Qırmızı Ulduz ordeni* ilə təltif olunmuşdur [31, s. 198]. *1941-ci ilin noyabr ayında* Müseyib Allahverdiyevin komandanlığı altında sovet əsgərləri, Leytenant M.Paşayevin zenitçiləri Moskva ətrafında döyüşlərdə mərdliklə vuruşmuşlar. Hər ikisi "Qırmızı Bayraq" ordeni ilə təltif edil-

mişdir [31, s. 38]. Pulemyotçu İdris Vəliyev Borodino çölündə gedən döyüşlərdə ağır yaralanmasına baxmayaraq, 75-dən çox alman – faşistlərini məhv etmişdir. *1941-1942-ci illərin qış hücumu* zamanı isə o, 160-dan artıq faşist öldürmüşdür. ***İ.Vəliyev*** *"Qırmızı Bayraq" ordeni* ilə təltif edilmişdir [31, s. 23]. Moskva uğrunda gedən döyüşlərdə Azərbaycan qızları Z.Seyidməmmədova, S.Quliyeva, N.Korneyeva, O.Şahbazova və b. mərdlik göstərmişdilər. Cərrah Aliyə Rüstəmbəyova onlarca yaralının həyatını xilas etmişdir [497]. ***İsrafil Məmmədov*** *1941-ci il dekabr ayının əvvəllərində* Novqorod vilayətinin Pustınka kəndi uğrunda 10 saat davam edən döyüşdə özü təkbaşına 700 faşist əsgəri öldürmüşdür. *1941-ci il dekabrın 11-də* SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə ***İ.Məmmədov*** azərbaycanlılar arasında ***ilk olaraq Sovet İttifaqı Qəhrəmanı*** fəxri ada layiq görülmüşdür. Stalinqrad uğrunda döyüşlərdə ilk azərbaycanlı qadın, *hərbi təyyarəçi-kapitan* ***Züleyxa Seyidməmmədova*** 40-dan çox səma döyüşündə iştirak etmişdir və Vətən müharibəsi ordeninə və medallara layiq görülmüşdür [293]. Stalinqrad yaxınlığında gedən döyüşlərdə pulemyotçu Ə.Rəcəbov, qvardiya leytenantı A.Axundov, snayper B.Abbasov, 55-ci xüsusi tank alayının komandiri podpolkovnik Həzi Aslanov və bir çox azərbaycanlılarımız qəhrəmanlıqla vuruşaraq, müxtəlin orden və medallara layiq görülmüşlər. H.Aslanovun tankçıları *1942-ci il dekabr ayının 16-da* Verxne-Kumsk kəndi yaxınlığındakı döyüşdə düşmənin 45 tankını, 9 minomyot batareyasını, 14 tank əleyhinə və 12 səhra silahını, 50 avtomobilini və 700-dən çox canlı qüvvəsini sıradan çıxardılar, 700 alman əsgərini əsir götürdülər. *1942-ci il dekabrın 31-də* SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə ***Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı*** adı verildi. H.Aslanovun 55-ci tank alayının 100-dən artıq döyüşçüsü SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olundu, alay isə qvardiya alayına çevrildi [498]. *1942-ci ilin son aylarında* SSRİ Ali Soveti Rəyasət Heyətinin təsis etdiyi "Stalinqradın müdafiəsi uğ-

runda" medalı ilə 1600 nəfərdən çox azərbaycanlı təltif olunmuşdur [30, s. 142-143].

Almaniyanın hazırladığı *"Edelveys"* planına əsasən faşist qoşunları 3 istiqamətdə hücum edərək: 1) Qərb istiqamətində Qara dəniz sahilinə çıxmalı və oradan Cənubi Qafqaza hücum etməli; 2) Şərq istiqamətində Qroznı, Mahaçqala və Bakını işğal etməli; 3) Mərkəz istiqamətində isə Böyük Qafqaz aşırımını keçərək Tbilisi və Kutaisini ələ keçirməli idilər. Qafqaz uğrunda döyüşlər *1942-ci ilin iyul ayında* başlandı. *1942-ci il sentyabr ayının 9-da* Cənubi Qafqaz respublikalarında hərbi vəziyyət elan olundu. *Sentyabr ayının 16-da* DMK tərəfindən Mahaçqala, Dərbənd və Bakı ətrafında möhkəmləndirilmiş müdafiə sədlərinin yaradılması haqqında xüsusi Qərar qəbul edildi [140, s. 98, 99.]. ***77-ci*** Azərbaycan atıcı diviziyası *1942-ci ilin may ayından avqust ayına kimi* 47-ci ordunun tərkibində Novorossiysk uğrunda döyüşlərdə alman – faşistlərin 5 piyada alayını, 8 mindən çox canlı qüvvəsini, 18 tankını, 40 minə qədər top və minomyotunu, hərbi texnikasını məhv etmişdir. Diviziyanın 320 döyüşçü və komandir heyəti göstərdikləri igidliklərə görə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olundular [317]. *1942-ci ilin oktyabrında* Tuapsenin şimal-qərbində dəniz piyadaları 323-cü batalyonunun rotasının əsgəri Qafur Məmmodov 13 faşisti öldürdü, döyüş zamanı öz həyatı bahasına rota komandiri Z.Santskini xilas etdi. *1943-cü il mart ayının 31-də* SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə ***Q.Məmmədova*** ölümündən sonra *Sovet İttifaqı Qəhrəmanı* adı verildi [414]. Mozdok uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə leytenant ***İdris Süleymanov*** SSRİ Ali Soveti Rəyasət Heyətinin *1942-ci il tarixli 13 dekabr* Fərmanı ilə *Sovet İttifaqı Qəhrəmanı* adına layiq görüldü [415]. ***402-ci*** Azərbaycan atıcı diviziyasının 833 saylı alayının komandiri Akim Abbasov da *"Qırmızı Bayraq"* ordeni ilə təltif olunmuş, ona podpolkovnik rütbəsi verilmişdir [499]. Qafqazın müdafiəsində iştirak edən 18 milli və 15 qarışıq diviziyalardan *77,*

223, 402 və *416*-cı diviziyalar milli Azərbaycan diviziyaları, *227, 271-ci* diviziyaları isə 30 faizdən 70 faizə qədər heyət üzvü azərbaycanlı olan qarışıq diviziyalar idi [83, s. 127]. Qafqazın müdafiəsi uğrunda gedən döyüşlərdə leytenant ***Ziya Bünyadovun*** bölməsi igidliklə vuruşmuşdur. *Mozdok* rayonunda döyüşlərdə Z.Bünyadov 4 əsgərlə birlikdə faşistlərin benzin anbarını partlatmış və iki tankını yandırmışdır. Z.Bünyadov bu əməliyyata görə *"Qırmızı Ulduz"* ordeni ilə təltif olunmuşdur [502]. *1942-ci il noyabrın 30-da* ***416-cı*** diviziyasının döyüşçüsü M.Cabbarov, kiçik leytenant K.Hacıyev, İ.Məmmədov, leytenant V.Mirzəyev, döyüşçü A.Salayev qəhrəmanlıqlarına görə fərqlənirdilər. Qafqaz uğrunda gedən döyüşlərdə Azərbaycanın mərd və cəsur qızları S.Bayramova, Z.Səlimova, L.Abdullayeva, R.Babayeva, T.Fəttahova, R.Əhmədova, M.Dəmirova, S.Polişeva, S.Xəlilova, P.Manafova da şücaət göstərmişlər [29, s. 13]. *1943-cü ilin yanvar* və *fevral aylarında* ***416-cı*** diviziyanın 300 döyüşçüsü yüksək dövlət təltiflərinə layiq görüldü [29, s. 18]. *1943-cü ilin yanvarında* Mozdok, Proxladnı, Georgiyevsk şəhərlərinin azad olunmasında ***223-cü*** Azərbaycan atıcı diviziyası fəal iştirak etmişdir. *1943-cü ilin sentyabr-dekabr* aylarında diviziyanın 380 əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdur. Sanitar təlimatçısı, gəncəli Müseyib Dilbazov, tibb təlimatçısı Qüdrət İsmayılov və b. yaralı əsgərləri döyüş meydanından çıxarıb tibb məntəqəsinə gətirirdilər. *1943-cü ildə* Leninqrad uğrunda döyüşlərdə snayper Məmmədəli Abbasov, vzvod komandirləri Pirəli Səlimov, Əmir Əfəndiyev, təyyarəçilər Əli Səmədov, Asəf Səmədov, Hüseyn Bağırov, Adil Quliyev və bir çoxları şücaətlə vuruşmuşlar. ***A.Quliyev*** Vətən müharibəsi dövründə düşmənin 18 təyyarəsini məhv etdiyinə görə *Sovet İttifaqı Qəhrəmanı* adına layiq görülmüşdür [419]. *1943-cü ilin əvvəlində* ***Həzi Aslanov*** Mius cəbhəsində göstərdiyi igidliyə görə Aleksandr Nevski ordeni almışdır. *1943-cü il avqustun 27-də* ***416-cı*** diviziya bir gündə Boqaçyovka, Mokn, Va-

silyevka, Petropavlovka, Çerniqovskoye yaşayış məntəqələrini azad etmişdir. Taqanroqun azad olunmasında göstərdiyi qəhrəmanlığa görə Ali Baş Komandanın əmri ilə 416-cı diviziyaya fəxri ***"Taqanroq"*** adı verilmişdir [29, s. 63]. *1943-cü ilin oktyabr ayında* Melitopolu azad etdiyinə görə diviziya *"Qırmızı Bayraq"* ordeni ilə təltif olunmuşdur. Ukrayna döyüşlərində 223-cü Azərbaycan atıcı diviziyasının döyüşçüləri də igidlik göstərmişdilər. Taman yarımadasının azad edilməsində ***227-ci*** atıcı diviziya fəxri ***"Temyurq"*** diviziyası adını, *1943-cü ilin sentyabr ayında* "Donetsk" əməliyyatında göstərdiyi rəşadətə görə ***271-ci*** diviziya isə fəxri ***"Qorlovka"*** adını almışdır. *1944-cü il iyulda* Belorusiyanın və Pribaltikanın azad olunmasında ***Həzi Aslanovun*** briqadası 8 dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görülmüşdür. H.Aslanov *2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı* adı ilə təltif olunsa da, bu ad ona ölümündən 47 il sonra *– 1991-ci il iyunun 21-də* verildi. *1945-ci il yanvarın 24-də* tank qoşunları qvardiya general-mayoru Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov müəmmalı şəkildə yaralandı və şəhid oldu [181, s. 317; 316]. ***223-cü*** diviziya Rumıniyanın, Bolqarıstanın, Yuqoslaviyanın, Avstriyanın, Çexoslovakiyanın azad olunmasında fəal iştirak etmişdir. Ümumiyyətlə, müharibə dövründə diviziya 10 min kv. km ərazini, 400 yaşayış məntəqəsini, 19 şəhəri almanfaşistlərdən təmizləmişdir [116, s. 24]. *1945-ci ilin yanvar ayında* sovet ordusunun Polşaya hücumu zamanı Ziya Bünyadovun başçılığı ilə bütün döyüşçülər Plitsa çayı üstündəki körpü uğrunda gedən döyüşdə igidliyə görə təltif edildilər. ***Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanı*** fəxri ada layiq görüldü [83, s. 374].

1945-ci il aprelin 20-də ***416-cı*** diviziya Klossordorfu, 21-də Ştrausberqi tutaraq Berlinə yaxınlaşdı, *mayın 1-də* gündüz saat 3-də *Kayzer* sarayını tutdu və üzərinə Qırmızı bayraq sancdı. *Mayın 2-də* səhər *416-cı* diviziyanın bir qrup döyüşçüsü leytenant ***A.Məcidovun*** başçılığı altında *Brandenburq qapıları* üzərində qələbə bayrağı qaldırdı [116, s. 43; 137, s. 248]. *Aprel ayı-*

nın 26-da Berlin uğrunda gedən döyüşdə ağır yaralanmış komandir ***Yusif Sadıxov*** son nəfəsinədək döyüş meydanını tərk etmədi və Berlin uğrunda döyüşlərdə xüsusilə fərqləndiyinə görə *Sovet İttifaqı Qəhrəmanı* fəxri ada layiq görüldü [31, s. 68-69]. *1945-ci il aprelin 30-da* sovet qoşunları *Reyxstaqın* üzərinə Qələbə bayrağı sancdı, *mayın 8-də* Almaniya Berlində qeyd-şərtsiz təslim aktına qol çəkdi, *mayın 9-u* sovet xalqının Qələbə bayramı kimi tarixə yazıldı. Böyük Vətən müharibəsində Sovet İttifaqı xalqları *27 milyon nəfərdən* çox şəhid verdi. Sovet Azərbaycanının cəbhəyə göndərdiyi 700 min nəfərə qədər döyüşçüdən *300 min nəfəri* həlak olmuşdur [43, s. 421]. Azərbaycandan *120 nəfərdən* çox döyüşçü ***Sovet İttifaqı Qəhrəmanı*** fəxri ada layiq görülmüşdü. *30 nəfər* azərbaycanlı döyüşçü *"Şöhrət"* ordeninin hər 3 dərəcəsi ilə, *170 mindən* artıq əsgər və zabit müxtəlif *orden və medallarla* təltif olunmuşdur [17, s. 287].

Partizan və antifaşist müqavimət hərəkatı. Böyük Vətən müharibəsi dövründə alman-faşistlərə əsir düşən sovet döyüşçüləri əsir düşərgələrindən qaçaraq partizan dəstələrinə qoşulurdular. Alman-faşistlərə qarşı çevrilmiş partizan hərəkatı daha çox Belorusiya SSR-nin ərazisində baş verirdi. Brest vilayətində düşmənlərə qarşı olan partizan hərəkatında Q.A.Abbasov, M.Y.Abdullayev, M.A.Əliyev, İ.M.İsmayılov və başqaları fəal iştirak etmişdilər [479]. *1943-cü ilin iyun ayında* Belorusiya faşistlər tərəfindən işğal olunmuş ərazilərində, düşmənin dəmir yol relslərini eyni vaxtda sıradan çıxarmaq – "Rels müharibəsi" planının həyata keçirilməsində Azərbaycan partizanları: Q.A.Abbasov, R.P.Babayev, İ.N.Qocayev, M.M.İsayev, E.Q.İsmayılov, M.B.Hənifəyev, Q.Q.Məmmədov, S.B.Mamin, N.M.Monaxov və b. da igidlik göstərərək SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişdilər. *1942-ci ilin oktyabrında* Minsk vilayətində Suvorov adına dəstənin qərargah rəisi mayor ***Ələkbər Əliyevin***, Xarkov vilayəti ərazisində Azərbaycan K(b)P MK-nın üzvü, respublika Ali Sovetinin deputatı ***V.H.Axundo-***

vun, Dnepropetrovsk vilayətində ***X.S.Babanlının*** rəhbərliyi ilə fəaliyyət göstərən azərbaycanlılardan ibarət partizan qruplarının igidliyi nəticəsində düşmən çoxlu itki vermişdir. Müxtəlif vaxtlarda İ.İ.Şitovun, A.K.Nikolayçukun və B.Q.Şanginin komandası altında fəaliyyət göstərən "*Ternopol"* partizan birləşməsində 40 nəfərdən çox, M.Naumovun partizan birləşməsində 80 nəfər, N.N.Popudrenkonun rəhbərliyi altında fəaliyyət göstərən *"Çerniqov"* partizan birləşməsində isə 70 nəfərədək azərbaycanlı döyüşçü alman işğalçılarına qarşı cəsarətlə vuruşmuşdur [366, s. 66]. Azərbaycanlı döyüşçülərindən ibarət ən böyük partizan dəstəsi *"Şors"* Ukraynada fəaliyyət göstərirdi. Polşa ərazisində fəaliyyət göstərən müxtəlif partizan dəstələrində Vahab Əmirov, Surxay Hacızadə, Əli Əliyev, Həsən Rəsulov, Xəlil Məlikov, Ənvər Səfərəliyev, Şamil Muxtarov, Məmməd Həsənzadə və polyak döyüşçüləri ilə birlikdə alman-faşist qəsbkarlarına qarşı igidliklə mübarizə aparmışdılar [503]. Çexoslovakiyada fəaliyyət göstərən *"Fakel", "Qrom", "Yan Qus"* və başqa partizan dəstələrində 500 nəfərə qədər Azərbaycanlı döyüşçü faşistlərə qarşı mübarizə aparırdı. Almaniyanın *"Ştrans"* düşərgəsində əsirlikdə ikən ***Mehdi Hüseynzadə***, Rza Ağazadə, Cavad Həkimli, Mirdamət Seyidov, Mikayıl Qulubəyov, Firudin Hüseynov, Cəmil İsmayılov və başqalarının rəhbərliyi altında antifaşist təşkilatı yaradılmışdır [366, s. 70]. *1944-cü ilin əvvəlində* ***Yuqoslaviya Xalq Azadlıq Ordusunun*** 9-cu korpusu qərargahında ***Mehdi Hüseynzadənin*** başçılığı ilə slovak partizanları ilə yanaşı, azərbaycanlı partizanları Mirdamət Seyidov, Tağı Əliyev, Ənvər Məmmədov daxil olan xüsusi kəşfiyyatçılar qrupu yaradıldı. Bu kəşfiyyat qrupunun komandiri olan ***M.Hüseynzadə - "Mixaylo"*** gah alman zabiti hərbi formasında, gah da kəndli, rəssam və mətbəə işçisi paltarında fəaliyyət göstərərək minlərcə düşmən məhv etmişdir. *1944-cü il noyabr ayının 2-də Qoritsa şəhəri* yaxınlığında döyüşdən qayıdan zaman qəhrəmanlıqla həlak olmuşdur. SSRİ Ali Soveti Reyasət Heyətinin *1957-ci il 11 aprel* ta-

rixli Fərmanı ilə Böyük Vətən müharibəsi illərində müqavimət hərəkatında alman faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi rəşadətə görə *M.Hüseynzadəyə* ölümündən sonra ***Sovet İttifaqı Qəhrəmanı*** adı verilmişdir [31, s. 24]. Əvəz Mirzəyev, Şahbaba Məcidov, Məhərrəm Nəcəfov, İsa Məmmədov, Məmməd Xəlilov, Həmzə Əsgərov, Mikayıl Abdullayev, Süleyman Vəliyev, Şərif Şərifov, Həsən Quliyev, Hilal Cavadov, Vilayət Hüseynov, Cəlil Rəfiyev və bir çox Azərbaycanlı döyüşçülər İtaliya müqavimət hərəkatında iştirak edirdilər. Ümumiyyətlə, Şimali İtaliyada 300-dən çox azərbaycanlı döyüşçünün müqavimət hərəkatında vuruşduğu müəyyən edilmişdir [366, s. 74; 83, s. 366].

1944-cü ilin əvvəllərində Fransada *25 mindən artıq* döyüşçünü birləşdirən *30-dan çox partizan dəstəsi "Çapayev", "Azadlıq", "Vətən", "Donbas", "Kotovski"* və başqa partizan dəstələrinin şöhrəti hələ də bütün Fransa əhalisi tərəfindən hörmətlə xatırlanır. Ümumiyyətlə, *1943-1945-ci illərdə* Fransa antifaşist müqavimət hərəkatında 2000-ə qədər Azərbaycan döyüşçüsü iştirak etmişdir və onlar – Ə.Cəbrayılov, X.Hacıyev, D.Abdullayev, N.Abdullayev, R.Rzayev, Ə.Möhsümov, M.Məhərrəmov və digərləri *Fransanın* ali hərbi orden və medalları ilə təltif olunmuşdular. ***Əhmədiyyə Cəbrayılov "Armed Mişel"*** adı ilə bu ölkənin azadlıq hərəkatında fəal iştirak etmiş, şəxsi igidliyə görə paradda əsgərə generaldan irəlidə getmək kimi şərəfli hüquq verən yüksək mükafatla – *Hərbi medalla* təltif olunmuşdur [23, s. 399].

Gizli antifaşist təşkilatının işində yaxından iştirak edən Cümşüd Məmmədov, Bəxtiyar Paşayev, Səttar Kərimov, Seyidəli Seyidov və digərləri düşmənə qarşı təxribatlar törədirdilər. Azərbaycan döyüşçülərindən M.Seyidov, Ə.Əlimərdanov, Ə.S.Ağayev faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen ölüm düşərgələrində digərləri ilə birgə fəal iş aparırdılar [274].

Azərbaycan siyasi mühacirəti. Sovet rejimi yarandıqdan sonra xarici ölkələrə mühacirətə getmiş azərbaycanlılardan çoxu Almaniyanın Sovet ittifaqına qalib gəldiyi təqdirdə ***Azərbaycanın***

milli istiqlal qazanacağına ümid bəsləyirdi. Azərbaycanlı siyasi mühacirlərin əsas məqsədi həm də, hərbi əsirlər arasından azərbaycanlıları tapıb ölümdən xilas etmək (faşistlər bəzən onları yəhudi hesab edib öldürürdülər) idi. Mayor ***Əbdürrəhman Fətəlibəyli-Düdənginski*** Baltikyanı ərazilərdə almanlara əsir düşmüş, *1941-ci ildə* Hitlerə azərbaycanlılardan ibarət hərbi hissə yaratmaq haqqında müraciət etmişdir. Vətənlərindən uzaqda, mühacirətdə yaşamağa məhkum olan Azərbaycanın nüfuzlu şəxsləri, o cümlədən Məmməd Əmin Rəsulzadə *1941-ci ildə* Berlinə dəvət olunmuşdur. Hitler ***1941-ci il dekabrın 22-də*** Qafqaz müsəlman əsirlərindən ibarət xüsusi milli hərbi hissələr yaradılması haqqında Əmr verdi [106, s. 54]. ***1943-cü ildə Azad türk diviziyası*** yaradıldı. Azərbaycanlılardan təşkil olunmuş ***legion*** da onun tərkibinə daxil olundu. *1943-cü ilin yazında* ***Berlində Milli Azərbaycan Komitəsi*** təşkil olundu. Lakin Hitler Almaniyası bu Komitəni tanımadı.

Faşistlərin planına görə ***Guzey*** və ***Güney*** Azərbaycan Almaniyanın gələcəkdə yaratmaq istədiyi ***"Böyük Türküstan"*** dövlətinin əyaləti olmalı idi. ***M.Ə.Rəsulzadə*** Hitlerin Azərbaycan haqqında niyyətlərini başa düşdükdən sonra onu öz çıxışlarında ifşa etdi. Antifaşist çıxışlarına görə M.Ə.Rəsulzadə Almaniyanı tərk etməyə məcbur oldu, lakin bəzi mühacirlərimiz hələ də Almaniyaya inanırdı. Bunlar alman hərbi qərargahları arasında "Əlaqə heyəti"nə daxil edilən Fətəlibəyli – Düdənginski (sovet ordusunun mayoru olub), Fuad Əmircan, Abbas bəy Atamalibəyov idilər [367; 60, s. 185]. ***1943-cü il noyabrın 6-da*** Berlində azərbaycanlıların milli qurultayı keçirildi. *1943-cü ilin payızında* Berlində başçısı Ə.Fətəlibəyli-Düdənginski olan mühacir Azərbaycan Parlamenti və hökuməti yaradıldı. Alman hökuməti ***"Mühacir Azərbaycan hökuməti"****ni* tanıdı. Bu "hökumət" ***1944-cü ilin qışınadək*** fəaliyyət göstərmişdir.

Pis silahlandırılan, kifayət qədər hərbi təlim keçirilməyən Azərbaycanlılardan təşkil olunmuş bu hissələrin döyüşçülərini al-

man hərbçiləri təhqiramiz şəkildə *"ikinci növ"* əsgər adlandırırdılar [196, s. 157]. *Qafqaz müsəlmanlarının hərbi hissəsində* azərbaycanlılardan ibarət ***"Boz qurd", "Aslan", "Vətən", "Dönməz"*** və s. bölmələr də vuruşurdu [60, s. 178; 93, s. 73].

Azərbaycan milli legionu Fransanın cənubunda almanlarla birlikdə müttəfiqlərin qoşunlarına qarşı vuruşurdu, lakin məğlubiyyətdən sonra İtaliyanın şimalına çəkildi. Milli legion üzvləri müharibə qurtarandan sonra bitərəf ölkələrin ərazilərində, çox hissəsi Türkiyədə məskunlaşdı, vətənə qayıdanlar isə təqib və sürgünə məruz qaldılar.

3. Faşist Almaniyası üzərində qələbədə Azərbaycan neftinin həlledici rolu

1942-ci il sentyabrın 9-da Cənubi Qafqaz respublikalarında, o cümlədən, Azərbaycanda ***hərbi vəziyyət*** elan olundu. *1941-ci il iyunun 28-dən* etibarən Azərbaycanda bütün işlər müharibənin tələblərinə – sovet ordusunu yüksək keyfiyyətli yanacaqla, hərbi ləvazimatla və ərzaqla təmin etmək kimi tələblərə uyğun quruldu. İş günü uzadılaraq *11 saat* oldu, özbaşına işdən getmək *5-8 il həbs cəzası* ilə müəyyən edildi, məzuniyyətlər ləğv edildi. Ərzaq və sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edildi. Respublikada minlərlə qadın və yeniyetmə, 20 minə yaxın əmək veteranı və əlil istehsalatda çalışırdı [501]. *1941-ci ilin yayında* təkcə Bakının neft sənayesi mədən və zavodlarında 3500-dən çox qadın işə başlamışdır. *1942-ci ilin əvvəllərində* 16 min cəbhəçi arvadı Azərbaycan respublikasının sənaye müəssisələrində, neft sənayesində isə 11 min nəfəri işləməyə başladı [504]. Cəbhə sifarişlərini yerinə yetirmək üçün L.Şmidt adına maşınqayırma zavodunun fəhlələri hər gün *18-20 saat* işləyirdilər və *40 gün* üçün nəzərdə tutulmuş planı *16 gün müddətində* yerinə yetirmişdilər [500]. Cəbhəni yanacaqla təmin etmək üçün Azərbaycan neftçiləri bu vəzifənin öhdəsindən böyük əzmkarlıq-

la gəlirdilər. Bakı neft və neft məhsulları ilə sovet ordusunu təmin edirdi. Azərbaycan *1941-1945-ci illərdə* ölkəyə 75 mln. ton neft, 22 mln. ton benzin, ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni vermişdir [412]. Azərbaycanın neftçiləri *1941-ci ildə* neft emalı planını 102,4 faiz, yeni növ benzin istehsalını 118 faiz yerinə yetirmişdilər. Cəbhəyə 1339 min ton benzin, o cümlədən, 218169 ton B-78, 203996 ton B-74, 325148 ton B-70 markalı benzin verilmişdir [410]. *1942-ci ildə* Bakı neft emalçıları aviabenzin planını 114,4 faiz odəmişdilər, belə ki, onlar cəbhəyə 340,1 min ton aviabenzin gondərmişdilər [410]. *1943-cü ildə* hasil olunmuş 11839 min ton neftdən 5 milyon ton neft məhsulları, o cümlədən, 795 min ton benzin, 3332 min ton liqroin, ağ neft, dizel yanacağı, 640 min ton donanma mazutu və solyar yağı, 420 min ton aviayağ və avtol alınmışdır. *1944-cü ildə* plandan əlavə 450 ton neft məhsulları istehsal olunmuşdur [117, s. 102]. *1941-1945-ci illərdə* Bakının neft emalı zavodları bir milyon ton və ya 20540-dan çox sistern B-78 aviabenzini cəbhəyə göndərmişdir [420]. Demək olar ki, müharibədə ordunun döyüş texnikasının 75-80%-i Azərbaycan neftçilərinin qəhrəman əməyi nəticəsində hərəkətə gətirilmişdir [117, s. 13]. *1942-ci il 6 fevralda* SSRİ Ali Soveti Rəyasət Heyətinin verdiyi xüsusi fərmanla 500 nəfər neftçi SSRİ-nin müxtəlif orden və medalları ilə, o cümlədən, 41 nəfər Lenin ordeni ilə mükafatlandırıldı. "Leninneft Tresti"nin 11 - ci mədəni və "Bibiheybətneft Tresti"nin 4 - cü mədəni Lenin, "Lökbatanneft Tresti"nin 4 - cü mədəni Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir [271]. Azərbaycan SSR Dövlət Müdafiə Komitəsinin qərarı ilə on minlərlə gənc hərbi səfərbərliyə çağırışdan azad edilərək, neft sənayesində işləməyə göndərildi. DMK yüksək ixtisaslı neft mütəxəssislərinin cəbhədən vaxtından əvvəl azad olunması haqqında Qərar qəbul etdi.

Bakıda *"Katyuşa"* raketi, *"Şnakin"* pulemyotu, *"YAK-3"* qırıcı təyyarəsi, *130-dan çox silah növü* və hərbi sursat hazırlanırdı [423]. Bakı Avtomobil təmiri zavodunun əməkçiləri tərə-

findən "M-13" minomyotunun hissələri, "PPŞ" avtomatları, tank hissələri istehsal olunurdu. Gəncədə 12 sənaye müəssisəsi cəbhənin tələbləri əsasında yenidən quruldu və 26 cür hərbi məhsul istehsal edilirdi [50, s. 124-125]. Müharibə illərində Azərbaycanın yalnız neft sənayesi deyil, yüngül, yeyinti və yerli sənayesi də öz işlərini hərbi tələblər əsasında qurmuşdur. Azərbaycan Respublikasında sovet ordusuna hərbi geyimlər, keçə ayaqqabı, paltar, kimyəvi silahlar əleyhinə geyim, döyüş ləvazimatı, hərbi hospitallarda istifadə üçün mebel, yanğın əleyhinə alətlər və sair ləvazimatlar istehsal edilirdi. Konserv zavodlarında cəbhə üçün 70 növdə konserv istehsal olunurdu. Müharibə illərində bir çox sənaye müəssisələri DMK-nın bayrağına, ÜİHİMŞ və SSRİ Yüngül Sənaye Nazirliyinin bayrağına və bir sıra mükafatlara layiq görülmüşdülər. *1943-cü ildə* Azərbaycanın kənd təsərrüfatı əməkçiləri dövlətə plandan əlavə 1 milyon pud taxıl, 500 min ton pambıq, 21,5 min pud ət, 48 min pud tərəvəz, 2,2 min pud yun və digər təsərrüfat məhsulları vermişdilər. *1943-cü ildə* Azərbaycan kənd təsərrüfatı zəhmətkeşlərindən 485 nəfər SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olundu [24, s. 115].

1941-ci ildə böyük hərbi və təsərrüfat əhəmiyyətli Osmanlı – Astara, Culfa – Mincivan, Salyan – Neftçala, Papanino – Ağcaqabul, Yevlax – Stepanakert, Bakı və Biləcəri stansiyalarında dairəvi və s. dəmiryol xətləri istifadəyə verildi. *1941-1945-ci illərdə Cənubi Qafqaz dəmir yolunun Bakı şöbəsi* dəmiryolçuları cəbhəyə 1 mln. 600 min vaqon [138, s. 97], o cümlədən 480 min vaqon quru yük və 500 min sistern neft məhsulları göndərmişdilər [421]. *Xəzər Gəmiçiliyi İdarəsi (Kaspflot)* və neftdaşıyan *Xəzər Neft Gəmiçiliyi İdarəsini (Kasptanker)* təmsil edən *Xəzər dəniz nəqliyyatı* dənizçiləri əsl qəhrəmanlıq göstərərək, neftdaşıyan gəmilərlə Mahaçqaladan Həştərxana və Krasnovodsk şəhərinə 329 min ton neft məhsulları, o cümlədən 135 min ton benzin daşımışdılar [408]. Müharibə dövründə dünya təcrübəsində ilk dəfə olaraq Xəzər dənizçiləri Bakı nefti ilə dol-

durulmuş sisternləri gəmilərin yedəyinə alıb aparmaq üsulundan istifadə edərək, Bakıdan Krasnovodska 35 neftdaşıyan dəmir yol sisterni, Mahaçqaladan Krasnovodska hər birinin 5 ton ağırlığı olan neft çənləri daşımışdılar [18, s. 71]. *1941-1945-ci illərdə "Kasptanker"* cəbhə üçün 2 mln. 400 min ton benzin, *"Kaspflot"*un gəmiləri isə İran limanlarından, Krasnovodsk və Mahaçqaladan Bakıya müxtəlif adda 2783 min ton mal daşımışdır [417]. Xəzər gəmiçiliyinin 1534 işçisi də göstərdikləri fədakarlıqlara görə Sovet İttifaqının müxtəlif orden və medalları ilə təltif olunmuşdur. *1942-ci ildə* Bakıda 2 saylı avtomobil təmiri zavodu və avtomobil ehtiyatı hissələri hazırlayan *"Avtodetal"* zavodu yaradıldı.

Azərbaycan xalqı *1941-43-cü illərdə* müdafiə fonduna 15,5 kq qızıl, 952,5 kq gümüş, 295 milyon manat pul, 15 milyon manatlıq istiqraz vermişdir, 1,5 milyon manatlıq istiqrazlara yazılmış, pul-şey lotereyaları almışdılar [409], cəbhəyə 1,6 mln. ədəd müxtəlif əşya, 146 vaqon ərzaq, 125 vaqon (1601 min) isti paltar – sırıqlı, gödəkçə, keçə çəkmə, corab, əlcək, qulaqlı papaq və s. göndərmişdir. *1943-cü ilin payızında* yaradılan Respublika Yardım Komitəsi *1943-1944-cü illərdə* işğaldan azad olmuş rayonlarda təsərrüfatın bərpasına kömək etməli idi. Şimali Qafqaz neftçilərinə, Leninqrad, Stalinqrad, Stavropol, Qaraçay, Ukrayna təsərrüfatlarına çoxlu pul, ərzaq, tikinti materialı, mal-qara, istehsal avadanlığı və s. göndərildi. Gəncə əhalisi Pyatiqorsk, Şəki əhalisi Georgiyevsk, Qasım İsmayılov kolxozçuları Mozdok şəhərlərini himayəyə götürmüşdülər [140, s. 141-142]. DMK-nın yaralı döyüşçü və komandirlərə *tibbi xidmətin* yaxşılaşdırılması və köçürülməsinin qaydaya salınması üçün *1941-ci il 22 sentyabr* və ÜİK(b)P MK-nın *8 oktyabr* tarixli qərarlarına əsasən respublikada 76 hərbi hospital, *1942-ci ilin yanvarında* isə tibb elmləri doktoru, ***professor Əziz Əliyevin*** sədrliyi ilə Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi yaradıldı [7, səh. 38]. Azərbaycan Xalq Tibb Komissarlığının Hərbi Hospitallar İdarə-

sinin baş cərrahı, tibb elmləri doktoru, ***professor M.A.Topçubaşov***, ***professor M.Mirqasımov, F.Əfəndiyev, M.Məlikov, Z.Məmmədov***, həkimlər M.Abbasov, S.Axundov və başqalarının xidmətləri xüsusilə qeyd olunmalıdır. Beləliklə, Azərbaycan xalqı ön cəbhədə döyüşərək, arxa cəbhədə isə fəal istirak edərək, cəbhənin yanacaq, silah-sursat, ərzaq, geyim, tibb ləvazimatı və s. strateji mallarla təmin edərək, faşizm üzərində qələbənin əldə edilməsinə yaxından kömək etmiş, cəbhəni neftlə təmin edən Bakının isə sovet ordusunun alman faşizmi üzərində qələbə çalmasında müstəsna və həlledici rolu olmuşdur.

Azərbaycan *ziyalıları, mədəniyyət* və *incəsənət xadimləri* bütün qüvvələrini faşizim üzərində qələbə naminə xalqın mənəvi cəhətdən səfərbər edilməsinə yönəltmişdir. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, respublikanın elmi-tədqiqat müəssisələri, yaradıcı cəmiyyətlər, ali məktəblərin kafedraları öz işlərini müharibənin tələblərinə uyğun qurmağa başladılar. Alimlər hərbi sifarişləri yerinə yetirmək üçün gecə-gündüz çalışırdılar. *1941-ci ilin yayında* ***akademik Y.H.Məmmədəliyevin*** rəhbərliyi ilə bir qrup alim 28 gün laboratoriyada çalışaraq, neft-kimya elmində böyük hadisə olan ***yüksək oktanlı aviasiya yanacağı*** əldə etdi. ***Akademik Ə.M.Quliyev partlayıcı maddə*** kəşf etmiş, ***akademik İ.A.Orucovanın*** rəhbərliyi ilə kimyaçı alimlər təyyarə, tank və müxtəlif hərbi maşınlar üçün ***sürtkü yağları*** istehsalı texnologiyasını hazırlamış, Neft maşınqayırma zavodunda ***K.Əliverdizadə*** soyuq ştamplama üsulu kəşf etmiş, geoloq alimlər ***Mirəli Qaşqay*** və ***Şamil Əzizbəyovun*** başçılığı altında strateji xammal - ***odadavamlı gil, fosforit*** və s. yataqlar aşkar edilmiş, *"Azneft"* geoloqları tərəfindən aparılan kəşfiyyat işləri nəticəsində 850 yüksək debitli neft mənbəyi, 6 neft yatağı müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının fizika alimləri neft koksundan elektrik avadanlığı üçün material və fosforlu rənglər almışlar. Biologiya elmi üzrə mütəxəsis alimlər Azərbaycanda bitən dərman bitkilərini, vitaminlə zəngin təbii çöl meyvələrini aşkar etmişdilər və onların

başçılığı ilə Göyçay Yağ zavodunda ardıc ağacından efir yağı istehsal olunurdu. İctimai və humanitar elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixini, hərb ənənələrini şərh edən əsərlər yaradırdılar. ***1945-ci il martın 23-də Azərbaycan SSR Elmlər Akademiyası*** yaradıldı. Akademiyanın ilk prezidenti ***akademik M.Mirqasımov*** idi. Respublikada elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərən akademiyada 16 institut və bölmə, Şərq əlyazmaları və nadir kitablar fondu var idi [140, s. 146-147]. Azərbaycan ədəbiyyatı xalqın coşğun qəzəb və həyəcanını düşmənin məhv edilməsinə yönəldirdi. Yazıçı və şairlər – *S.Vurğun, S.Rüstəm, M.S.Ordubadi, R.Rza, M.İbrahimov, S.Rəhimov, O.Sarıvəlli, M.Rahim, Zeynal Xəlil, Ə.Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Cəfər Xəndan, Tələt Əyyubov* və b. həm əsərlərində, həm də cəbhədə ordu sıralarında, müxtəlif tədbirlərdə, mərasimlərdə fəal iştirak edərək, insanları vətənpərvərliyə, düşmənə nifrət etməyə səsləyir, faşist işğalçıları üzərində qələbəyə inam yaradır və ruhlandırırdılar. Azərbaycan bəstəkarları müharibə dövründə *400 yeni əsər – marş, simfoniya, mahnı, opera* və s. yaratmışdılar. Görkəmli bəstəkar ***Üzeyir Hacıbəyovun*** "Şəfqət bacısı", "Qələbə himni", *Səid Rüstəmovun* "Cəbhəyə", *Süleyman Ələsgərovun* "Gözlə məni" mahnıları dillər əzbəri olmuşdur. Cəbhəyə xidmət üçün konsert briqadaları yaradılıb göndərilirdi. 22 briqada döyüşən ordu hissələrində, 70 briqada sərhəd və ehtiyat hissələrində [424] *1941-1943-cü illərdə* ***19261 konsertlə*** çıxış etmişdilər [15, s. 112]. Müharibə dөründə Azərbaycan artistləri hərbi hissələrdə 35 min konsert vermiş, Bakı teatrları və konsert təşkilatları təşviqat məntəqələrində, hospitallarda və kənd rayonlarında 15 min dəfədən artıq çıxış etmişdilər [425]. Ön cəbhəyə döyüş məntəqələrində sovet ordusunun əhval-ruhiyyəsini qaldırmaq üçün hərbi xronika və vətənpərvərlik mövzusunda çəkilən filmlərin seyr edilməsi üçün *67 səyyar kino qurğusu, 42 kino dəzgahı* göndərilmişdir. Rəssam briqadalar yaradılmışdır. Təsviri incəsənət xadimlərinin – Ə.Əzimzadə, İ.Axundov, S.Salamza-

də, S.Şərifzadə, M.Rəhmanzadə, T.Babazadə, M.Abdullayev, T.Tağıyev, B.Mirzəzadə, K.Kazımov və başqalarının yaratdıqları əsərlər xalqın vətənpərvərlik tərbiyəsində mühüm rol oynayırdı.

Azərbaycan SSR-nin ruhaniləri də xalqın alman-faşistlərə qarşı mübarizəyə səfərbər olunmasında fəal iştirak edirdilər. SSRİ Ali Soveti Rəyasət Heyətinin ***14 aprel 1944-cü il tarixli Qərarı ilə Cənubi Qafqaz müsəlmanlarının Ruhani İdarəsi*** yaradıldı. ***Cənubi Qafqaz müsəlmanlarının*** *I Qurultayında* Ruhani İdarəsinin sədri - şeyxülislam, sədr müavini - müfti və idarə üzvləri seçildi. İdarənin ilk sədri şeyxülislam Ağa Əlizadə Təzəpir məscidindəki birinci moizəsində dindarları hökumətin qanunlarına itaət etməyə, bu yolla "dini hifz etməyə", xalqı düşmənə qarşı qələbəyə ruhlandırmağa, əsgərlərlə görüşlər keçirməyə çağırırdı [47, s. 76; 15, s. 112].

4. Cənubi Azərbaycan 1941-1946-cı illərdə

Müharibə illərində Cənubi Azərbaycanda baş vermiş ***milli oyanış*** və aşkar ***mədəni dirçəliş 1946-cı ildə*** Milli hökumətin qısamüddətli fəaliyyəti dövründə milli mədəniyyətin tərəqqisinə möhkəm zəmin yaratmışdır.

Müharibənin əvvəllərində İran hökuməti öz bitərəfliyini elan etsə də, *Rza şah* və onun dairələri açıq nasistpərəst mövqe tutaraq, ölkəni Almaniyanın kəşfiyyat meydanına çevirmişdilər. Belə ki, Almaniya İranın sənaye müəssisələrində və hərbi idarələrində mühəndis, texnik, məsləhətçi kimi öz hərbi və xüsusi idarə nümayəndələrini yerləşdirir, Təbriz, Miyanə, Maku, Mərənd, Xoydakı firmalarında xüsusi xidmət orqanları işçilərini sayca artırırdı. İrandan Almaniyaya qeyri-qanuni yollarla benzin aparılırdı. Almanpərəst İran dövlət məmurları SSRİ müharibədə məğlub olduqda "Cənubi Qafqaz və Orta Asiyanın 16 şəhərinin" İrana birləşdirilməsi haqqında planlar qururdular [55, s. 36-37.]. Dövlət Müdafiə Komitəsinin (DMK) qərarı ilə ***1921-ci il 26 fev-***

ral tarixli Sovet – İran müqaviləsinin *6-cı maddəsinə* görə ***1941-ci il avqust ayının 25-də*** gecə saat 2-də [331] SSRİ, az sonra Böyük Britaniya, ***1942-ci ilin dekabrında*** ABŞ İrana qoşun yeritdilər. Sovet ordusu *avqust ayının 26-da* Təbriz və Ərdəbilə, *30-da* Zəncana, *31-də* Qəzvinə daxil oldular. *Sentyabr ayının 17-də* sovet, *18-də* isə Böyük Britaniya qoşunları Tehrana daxil oldular [100, s. 25-26.]. Sovet ordu hissələri Uşnu-Miyandab-Zəncan-Qəzvin-Babol-Zirab-Semnan-Şahrudda, şərqdə isə Əliabadda yerləşdilər. İngilis qoşunları Xanəkin-Kermanşah-Xürrəmabad-Məscede-Süleyman-Rame -Hörmüz-Bəndər-Deyləm xəttindən cənub və qərb istiqamətində olan ərazini tutdular [169, s. 42; 332]. Sovet ideologiyasını Cənubi Azərbaycanda yaymaq məqsədilə *1941-ci il sentyabr ayının 21-də* Azərbaycan SSR-nin sovet, partiya, hüquqmühafizə, təsərrüfat və mədəniyyət işçilərindən - Süleyman Rəhimov, Mirzə İbrahimov, Mustafa Quliyev və b. təşkil olunmuş qrup AK(b)P MK-nın 3-cü katibi, Təbrizdəki 47-ci ordunun Hərbi Şurasının üzvü Ə.M.Əliyevin rəhbərliyi ilə fəaliyyətə başladı [411]. *1941-ci ilin sentyabr-oktyabr* aylarından Cənubi Azərbaycanda xalq kütlələrinin mitinq və nümayişləri genişləndi.

1942-ci il 29 yanvar tarixində Tehran şəhərində SSRİ – Böyük Britaniya – İran dövlətləri arasında ittifaq bağlandı. *1942-ci ilin mart ayında* Azərbaycan SSR-dən İrana göndərilmiş siyasi işçilərin çoxu geri çağırıldı. ***1943-cü il noyabr ayının 28-dən dekabrın 1-dək*** ABŞ, SSRİ və Böyük Britaniya dövlət başçılarının ***Tehran konfransında*** qəbul etdikləri "İran haqqında Bəyannamə"də tərəflər İranın ərazi bütövlüyünün qorunub saxlanmasına tərəfdar olduqlarını bildirdilər [34, s. 71]. İran, habelə Cənubi Azərbaycan, müttəfiqlərin Sovet İttifaqını hərbi sursat və texnika, ərzaqla təmin edən ən mühüm nəqliyyat arteriyasına çevrildi.

1944-cü ilin yaz və *yayında* Azərbaycan SSR-dən Cənubi Azərbaycana 620 nəfərdən artıq müxtəlif iş nümayəndələri gön-

dərilmiş və 375 nəfərə qədər də səfərbər edilmişdir [406]. Cənubi Azərbaycana göndərilən işçilərin əsas vəzifələri Arazın o tayındakı azərbaycanlıların milli özünüdərk hissini artırmaq, onları sərhədin şimal tərəfində dəstəkləyən qardaşlarının yaşadığını təbliğ etmək idi [55, s. 98]. *1944-cü ilin yaz-yay aylarında* ərəb və kiril əlifbası ilə işləyən "Təbriz" mətbəəsi yaradıldı. SSRİ XKS *1944-cü il iyun ayının 24-də* Təbriz şəhərində Azərbaycan dilində orta məktəbin açılması haqqında Qərar qəbul etdi [407]. *1944-cü il sentyabr ayının 3-də* Təbrizdə baş həkimi S.Səmədov olan sovet xəstəxanası açıldı [182, s. 116-118]. *1943-cü il oktyabr ayının 31-də* "İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyyəti" fəaliyyətə başladı [333]. Bu kimi bir sıra tədbirlərlə SSRİ Cənubi Azərbaycandakı azadlıq ideallarını və milli prosesi öz təsiri altında saxlamaqla, Rza şahın hərbi-polis rejiminin iflasa uğramasında əhəmiyyətli rol oynadı.

Demokratik hərəkatın ***1941-1945-ci illəri*** əhatə edən ***I mərhələsində*** dərketmənin, milli şüurun misilsiz inkişafı baş verdi. Yuxarıda göstərildiyi kimi xalq kütlələri ana dilində danışmağa, yazıb-oxumağa, yaratmağa başladılar.

1945-ci ilin yayından başlayan ***II mərhələdə*** İranın hakim təbəqələri demokratik hərəkatın qarşısını almaq üçün vəziyyəti hər vasitə ilə gərginləşdirməyə, etnik toqquşmaları qızışdırmağa, vətəndaş müharibəsi salmağa çalışırdılar. Mərkəzin mürtəce dairələri ABŞ və Böyük Britaniyanın hərbi-siyasi yardımına arxalanaraq, kəndlilərə, həmkarlar ittifaqları fəallarına və demokratik təşkilatların üzvlərinə qarşı kütləvi təqib və terrora başladılar. ***1945-ci il 3 sentyabr*** tarixində ***S.C.Pişəvərinin*** *(1892-1947)* başçılığı ilə milli azadlıq və demokratik hərəkata rəhbərlik edən ***Azərbaycan Demokratik Partiyası (ADP)*** yaradıldı [38, s. 49]. *Sentyabrın 13-də* ADF təsisçilərinin ilk konfransı keçirildi. Konfrans 11 nəfərdən ibarət ***Müvəqqəti Komitə*** seçdi. ***1945-ci il oktyabr ayının 2 - 4-də*** *ADF I Qurultayı* keçirildi. Qurultay *3 sentyabr* tarixli bəyanatın əsas müddəalarını partiyanın proqram

və nizamnaməsi kimi qəbul etdi və başda *S.C.Pişəvəri* olmaqla, partiyanın *Mərkəzi Komitəsini* seçdi [70, s. 92-93]. İran məclisi və hökuməti ərzağın çox hissəsini Cənubi Azərbaycandan daşıtdırmaqla orada süni qıtlıq və ticarətdə çətinliklər yaratdı. Hökumət *1945-ci il sentyabr ayının 10-da* Marağada və *oktyabr ayının 20-də* Ərdəbildə hərbi vəziyyət elan etdi, ADPnin komitə üzvlərinə qarşı terror və həbs tədbirləri keçirildi. ÜİK(b)P MK və SSRİ XKS *1945-ci il oktyabr ayının 8-də* Cənubi Azərbaycanda möhkəmlənmək üçün buraya çoxlu silah göndərilməsi barədə qərar qəbul etdi [55, s. 233]. ***Noyabrın 20-21-də*** Təbrizdə ***Azərbaycan Xalq Konqresi*** *(AXK)* çağırıldı. Bu ərəfədə İran qoşununun bir dəstəsi *noyabr ayının 17-də*, digər dəstəsi isə *18-də* Tehrandan Qəzvin istiqamətində hərəkət etdi. Fədailər mürtəce hökumətin silahlı qüvvələrinə *1945-ci il noyabr ayının 16-dan 17-nə keçən gecə* Marağa, Miyanə, Mərənd, Sərab və Ərdəbil mahallarında eyni bir vaxtda zərbə endirdilər. Təbriz, Əhər, Ərdəbil, Astara, Marağa, Urmiyə, Miyandab, Xoy və Maku şəhərlərindəki dövlət qüvvələri nəticə etibarilə bir-birindən ayrı düşdüər. *1945-ci il noyabr ayının 18-dən 26-dək* Azərbaycanın Nəmin, Germi, Zəncan, Astara, Biləsuvarda, *dekabr ayının 1-dən 19-dək* Xoy, Səlmas, Maku, Meşkinşəhr, Marağa, Təbriz, Əhər, Ərdəbil, Xalxal, Kələybər, Urmiya və Miyandabda hökumət xalqın əlinə keçdi. Azərbaycan Xalq Konqresi özünü Müəssislər Məclisi elan etdi və Milli Heyət seçildi. Bu heyət Azərbaycan Milli Məclisinə qədər Müəssislər Məclisinin qərarlarının icrasını və seçkilərin keçirilməsini təmin etməli idi. Müəssislər Məclisinin qəbul etdiyi Bəyannamədə deyilirdi ki, Azərbaycanın İran dövlətçiliyi daxilində milli-mədəni muxtariyyəti təmin ediməlidir. *1945-ci il noyabrın 27-dən dekabrın 1-dək* Milli Məclisə ümumi seçkilər keçirildi. ***12 dekabr*** – Milli Məclisin açıldığı gün ***S.C.Pişəvərinin*** başçılığı ilə Azərbaycan muxtariyyətinin yarandığı elan olundu [100, s. 72]. Hökumət 10 nazirlik, ali məhkəmə və baş prokurorluqdan ibarət təşkil olundu. Bu, ***21***

Azər hərəkatı adlanırdı. *1946-cı ilin yanvar-fevral aylarında* əncümənlərə seçkilər keçirildi və müvafiq strukturların yaradılmasına başlandı.

Milli hökumət ***1946-cı ilin fevralında aqrar Qanun*** qəbul etdi. Qanuna görə mülkədarların və digər sahibkarların torpaqları kəndlilər arasında bölüşdürüldü. ***Mayın 12-də "Əmək haqqında Qanun"a*** əsasən 8 saatlıq iş günü, əməkçilərin bir çox sosial-iqtisadi ehtiyaclarının təmin edilməsi nəzərdə tutulurdu [38, s. 117]. ***1946-cı il yanvarın 6-da*** Milli Məclisin qəbul etdiyi ***"Dil haqqında"*** Qanun ilə Azərbaycan dili Cənubi Azərbaycanda rəsmi dövlət dili elan olundu [334]. *1946-cı ilin iyunun 12-də* tibb, pedaqoji, kənd təsərrüfatı fakültələrindən ibarət olan *Təbriz Universiteti* təsis olundu [38, s. 44; 12, s. 197]. *1946-cı il yanvar ayının 19-da* Təbrizdə *Ali İncəsənət və Rəssamlıq Məktəbi, mart ayının 28-də Azərbaycan Dövlət Teatrı, aprel ayının 7-də Azərbaycan radiosu, iyul ayının 5-də İncəsənət Muzeyi, sentyabr ayının 3-də Azərbaycan Milli orkestri* [38, s. 121] və onun əsasında təşkil olunmuş *Dövlət Filarmoniyası* [378] fəaliyyətə başladı. Azərbaycan dilində 20-dən çox qəzet və jurnal nəşr edilməyə başlandı.

Cənubi Azərbaycanda milli-demokratik hərəkatın uğurları Tehranın hakim dairələri arasnda təşviş yaratdı. Yanvar ayından hökumətə başçılıq edən Əhməd Qəvam ən əvvəl xalqı aldatmaq məqsədilə Milli Hökumətlə danışıqlara başladı. Sovet İttifaqı, Böyük Britaniya və İran arasında bağlanmış *1942-ci il 29 yanvar* tarixli ittifaq müqaviləsinə əsasən sovet qoşunlarının İranda qalmaq müddəti *1946-cı il martın 2-də* sona çatdı. Sovet qoşunlarının İrandan çıxarılmasına başlanıldı, lakin bu məsələ Cənubi Azərbaycanda baş verən hadisələrlə əlaqədar dayandırıldı. Əhməd Qəvam ABŞ, İngiltərə və SSRİ arasındakı ziddiyyətlərdən istifadə edərək *1946-cı il martın 26-da* "İran məsələsi"nin BMT-də baxılmasına nail oldu, ABŞ və İngiltərənin İrana siyasi-hərbi yardım göstərmələri razılıqlarını aldı. Sovet hökumətinin "bitə-

rəfliyini" əldə etmək üçün Əhməd Qəvam Moskvaya gedərək Stalinlə görüşdü. *1946-cı il aprelin 4-də* SSRİ ilə İran dövləti arasında qalan qoşunların çıxarılması haqqında razılıq əldə edildi. Bunun ardınca Sovet dövləti BMT TŞ-nın tələbi ilə hərbi hissələrinin İrandan çıxarılmasını sürətləndirərək *mayın 26-də* başa çatdırdı.

1946-cı ilin 13 iyununda Təbrizdə onların arasında Milli Hökumətin həyata keçirdiyi bir sıra islahatların qanuniliyini təsdiq edən müqavilə imzalandı [12, s. 199]. İran hökuməti parlamentə seçkilərə nəzarət bəhanəsi ilə Azərbaycana qoşun hissələri yeritdi. ***Dekabrın 1-dən*** hökumət qoşunları ilə fədailər arasında qanlı döyüşlər başlandı. Milli Hökumət vətəndaş müharibəsi baş verməməsi üçün döyüşləri dayandırmaq göstərişi verdi. İran qoşunları *dekabrın 12-də* Təbrizə daxil oldular. ADF və Milli Hökumətin rəhbərləri güllələndilər və dar ağacından asıldılar, 10 minlərlə vətəndaş mühacirət etməyə məcbur oldu [12, s. 200-201]. *1946-cı il sentyabr ayının 1-də* ABŞ və İngiltərədən silah və hərbi sursat alan İran hökuməti Azərbaycan Xalq hakimiyyəti üzərinə ümumi silahlı hücuma başlayaraq *1946-cı il dekabrın 20-də* onun fəaliyyətinə son qoydu [38, s. 142-144].

1946-cı il dekabrın 11-də səhər xalqa ***"Öldü var, döndü yox"*** deyə müraciət edən ***S.C.Pişəvəri*** axşamüstü yaxın silahdaşları ilə birlikdə zor gücünə Sovet İttifaqına gətirildilər. İrana qayıtmaqda israrlı olan S.C.Pişəvəri ***1947-ci il iyunun 12-də*** Azərbaycanda Gəncə-Bakı yolunda ***"avtomobil qəzasında"*** həlak oldu [12, s. 200].

XRONOLOJİ CƏDVƏL

1939 – Almaniyanın 1 sentyabrda Polşa üzərinə hücumu. 2 sentyabrda İngiltərənin və 3 sentyabrda isə Fransanın Almaniyaya müharibə elan etməsi. II Dünya müharibəsinin başlanması.
1940, 18 dekabr – "Barbarossa planı".
1941, 22 iyun – Faşist Almaniyasının SSRİ-yə hücumu.
1941, 22 iyun - 14 avqust – Bakının 18 rayonunda Xalq qoşunu dəstələrinə 61780 nəfər könüllünün yazılması və 20 rotanın təşkili.
1941, 25 iyun – Qara dəniz Donanmasının 63-cü aviasiya briqadasının təyyarəçisi Məzahir Abasovun göstərdiyi igidliyə görə "Qırmızı Bayraq" ordeni ilə təltif edilməsi.
1941, 30 iyun – İ.V.Stalinin başçılığı ilə Dövlət Müdafiə Komitəsinin (DMK) yaradılması.
1941, yay – Akademik Y.H.Məmmədəliyevin rəhbərliyi ilə bir qrup alimin yüksək oktanlı aviasiya yanacağını əldə etməsi.
1941, iyul – Dövlət Müdafiə Komitəsinin Qərarı ilə bütün ölkə üzrə 16 yaşdan 50 yaşadək olan kişilərə ümumi icbari hərbi təlimin keçirilməsi.
1941 – Azərbaycanda avqustda 402-ci, oktyabrda 223-cü milli atıcı diviziyaların yaradılması.
1941, 17 iyul – Leninqrad səmasında leytenant Hüseynbala Əliyevin həlak olması.
1941, 25 avqust – SSRİ, az sonra Böyük Britaniyanın İrana qoşun yeritməsi.
1941, sentyabr-oktyabr – Cənubi Azərbaycanda xalq kütlələrinin mitinq və nümayişlərinin genişlənməsi.
1941, 21 sentyabr-1942, mart – Azərbaycan SSR-nin sovet, partiya, hüquqmühafizə, təsərrüfat və mədəniyyət işçilərindən təşkil olunmuş qrupun AK(b)P MK-nın 3-cü katibi, Təbrizdəki 47-ci ordunun Hərbi Şurasının üzvü Ə.M.Əliyevin rəhbərliyi ilə Cənubi Azərbaycanda fəaliyyətə başlaması.

1941, 22 sentyabr-8 oktyabr – ÜİK(b)P MK-nın qərarlarına əsasən respublikada 76 hərbi hospitalın yaradılması.
1941, payızı – Alman faşistlərinin Baltikyanı ölkələri, Ukrayna və Belorusiyanı işğal edib, Leninqradı mühasirəyə alması, sentyabrın 30-da Moskvaya doğru hücumu.
1941, noyabr – Müseyib Allahverdiyevin komandanlığı altında sovet əsgərlərinin, leytenant M.Paşayevin zenitçilərinin Moskva ətrafındakı döyüşlərdə iştirakı.
1941, 11 dekabr – SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə İsrafil Məmmədovun azərbaycanlılar arasında ilk olaraq Sovet İttifaqı Qəhrəmanı fəxri ada layiq görülməsi.
1941 – Mayor Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin Hitlerə azərbaycanlılardan ibarət hərbi hissə yaratmaq haqqında müraciəti.
1941, 22 dekabr – Hitlerin Qafqaz müsəlman əsirlərindən ibarət xüsusi milli hərbi hissələrin yaradılması haqqında Əmri.
1941 – Məmməd Əmin Rəsulzadənin Berlinə dəvət olunması.
1941 – Osmanlı – Astara, Culfa – Mincivan, Salyan – Neftçala, Papanino – Ağcaqabul, Yevlax – Stepanakert, Bakı və Biləcəri stansiyalarında dairəvi və s. dəmiryol xətlərinin istifadəyə verilməsi.
1941 – Sovet ordusunun avqustun 26-da Təbriz və Ərdəbilə, 30-da Zəncana, 31-də Qəzvinə daxil olması.
1941 – sentyabr ayının 17-də sovet, 18-də isə Böyük Britaniya qoşunlarının Tehrana daxil olması.
1941-1942, qış – Pulemyotçu İdris Vəliyevin Borodino çölündə gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə "Qırmızı Bayraq" ordeni ilə təltif edilməsi.
1941-1943 – Azərbaycan incəsənət xadimlərinin cəbhədə 19261 konsertlə çıxış etməsi.
1941-1945 – Azərbaycan Respublikasında ümumi icbari hərbi təlim xətti ilə 51254 döyüşçünün hazırlanması.
1941-1945 – Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 6500-dən çox tibb bacısı hazırlaması, 20 mindən çox Azərbaycan vətəndaşının döyüşçülər üçün könüllü qan verməsi.

1941-1945 – Azərbaycan SSR-dən cəbhəyə 700 minə (11 mindən çoxu qadın idi) qədər adamın səfərbər olunması.
1941-1945 – İran Demokratik hərəkatın I mərhələsi – dərketmənin, milli şüurun inkişafı.
1941-1945 – Azərbaycanın ölkəyə 75 mln. ton neft (70-75%-ni), 22 mln. ton benzin (85-90%-ni) verməsi. Bakıda "Katyuşa" raketi, "Şnakin" pulemyotu, "YAK-3" qırıcı təyyarəsi, 130-dan çox silah növü və hərbi sursatın hazırlanması.
1941-1945 – Cənubi Qafqaz dəmir yolunun Bakı şöbəsi dəmiryolçularının, Xəzər Gəmiçiliyi İdarəsi (Kaspflot) və neftdaşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsini (Kasptanker) təmsil edən Xəzər dəniz nəqliyyatı dənizçilərinin qəhrəmanlıqları.
1942, yanvar – Professor Əziz Əliyevin sədrliyi ilə Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsinin yaradılması.
1942, 1 yanvar – "Atlantik xartiyası"nın əsaslarının qəbul edilməsi. 27 dövlətin nümayəndələrinin Vaşinqtonda faşizmə qarşı koalisiya yaratması.
1942, 29 yanvar – Sovet İttifaqı, Böyük Britaniya və İran arasında bağlanmış müqavilə.
1942, may – Respublikada 77-ci diviziyanın yenidən təşkili.
1942, may - avqust – 77-ci diviziya Novorossiysk uğrunda döyüşlərdə.
1942 – Bakıda 2 saylı avtomobil təmiri zavodu və avtomobil ehtiyatı hissələri hazırlayan "Avtodetal" zavodunun yaradılması.
1942, iyul – Qafqaz uğrunda döyüşlər.
1942, 31 dekabr – SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adının verilməsi.
1942 – Azərbaycanda mart-sentyabrda 416-cı, avqust-sentyabrda 271-ci milli atıcı diviziyaların yaradılması.
1942-ci ilin son ayları – SSRİ Ali Soveti Rəyasət Heyətinin təsis etdiyi "Stalinqradın müdafiəsi uğrunda" medalı ilə 1600 nəfərdən çox azərbaycanlının təltif olunması.

1942, 9 sentyabr – Cənubi Qafqaz respublikalarında, o cümlədən Azərbaycanda hərbi vəziyyətin elan edilməsi.
1942, 16 sentyabr – DMK-nin Mahaçqala, Dərbənd və Bakı ətrafında möhkəmləndirilmiş müdafiə sədlərinin yaradılması haqqında xüsusi Qərarı.
1942, oktyabr – Minsk vilayətində mayor Ələkbər Əliyevin, Xarkov vilayəti ərazisində Azərbaycan K(b)P MK-nın üzvü, Respublika Ali Sovetinin deputatı V.H.Axundovun, Dnepropetrovsk vilayətində X.S.Babanlının rəhbərliyi ilə fəaliyyət göstərən azərbaycanlılardan ibarət partizan qruplarının döyüşləri.
1942, 30 noyabr; 1943, yanvar - fevral – 416-cı diviziyasının döyüşçülərinin yüksək dövlət təltiflərinə layiq görülməsi.
1942, 13 dekabr – Mozdok uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə leytenant İdris Süleymanovun Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi.
1942, dekabr – ABŞ-ın İrana qoşun yeritməsi.
1943, əvvəli – Həzi Aslanovun Mius cəbhəsində göstərdiyi igidliyə görə Aleksandr Nevski ordeni ilə olunması.
1943, 31 mart – Qafur Məmmədova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adının verilməsi.
1943, yaz – Berlində Milli Azərbaycan Komitəsinin təşkili.
1943, 27 avqust – 416-cı diviziyaya Taqanroqun azad olunmasında göstərdiyi qəhrəmanlığa görə Ali Baş Komandanın əmri ilə fəxri "Taqanroq" adının verilməsi.
1943, sentyabr-dekabr – 223-cü Azərbaycan atıcı diviziyanın 380 əsgər və zabitinin SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunması.
1943, sentyabr – "Donetsk" əməliyyatında göstərdiyi rəşadətə görə 271-ci diviziyanın fəxri "Qorlovka" adını alması.
1943, oktyabr – Melitopolu azad etdiyinə görə 416-cı diviziyanın "Qırmızı Bayraq" ordeni ilə təltif olunması.
1943, 31 oktyabr – "İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyyəti"nin fəaliyyətə başlaması.

1943, payız-1944, qış – Berlində Ə.Fətəlibəyli-Düdənginskinin başçılığı ilə mühacir Azərbaycan Parlamenti və hökumətinin yaradılması.
1943, payız – Respublika Yardım Komitəsinin yaradılması.
1943 – Azad türk diviziyasının yaradılması.
1943, 6 noyabr – Berlində azərbaycanlıların milli qurultayının keçirilməsi.
1943, 28 noyabr - 1 dekabr – ABŞ, SSRİ və Böyük Britaniya dövlət başçılarının Tehran konfransında qəbul etdikləri "İran haqqında Bəyannamə".
1943-1945 – Fransa antifaşist müqavimət hərəkatında 2000-ə qədər Azərbaycan döyüşçüsünün iştirak etməsi. Əhmədiyyə Cəbrayılovun - "Armed Mişel"in igidliyə görə Hərbi medalla təltif olunması.
1944, əvvəlləri – Fransada 30-dan çox partizan dəstələrinin Fransa uğrunda döyüşləri.
1944, əvvəlləri – Yuqoslaviya Xalq Azadlıq Ordusunun 9-cu korpusu qərargahında Mehdi Hüseynzadənin -"Mixaylo"nun başçılığı ilə xüsusi kəşfiyyatçılar qrupunun yaradılması.
1944, 14 aprel – SSRİ Ali Soveti Rəyasət Heyətinin Qərarı ilə Cənubi Qafqaz müsəlmanlarının Ruhani İdarəsinin yaradılması.
1944, yaz-yay – Ərəb və kiril əlifbası ilə işləyən "Təbriz" mətbəəsinin yaradılması.
1944, 24 iyun – SSRİ XKS-nin Təbrizdə Azərbaycan dilində orta məktəbin açılması haqqında qərar qəbul etməsi.
1944, iyul – Belorusiya və Pribaltikanın azad olunmasında Həzi Aslanovun 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunması və bu adın ona ölümündən 47 il sonra – 1991-ci il iyunun 21-də verilməsi.
1944, 3 sentyabr – Təbrizdə baş həkimi S.Səmədov olan sovet xəstəxanasının açılması.
1944, 2 noyabr – Mehdi Hüseynzadənin Qoritsa şəhəri yaxınlığında qəhrəmanlıqla həlak olması.

1945, 24 yanvar – Tank qoşunları qvardiya general-mayoru Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun müəmmalı şəkildə yaralanıb şəhid olması.
1945, yanvar – Ziya Bünyadovun Sovet İttifaqı Qəhrəmanı fəxri ada layiq görülməsi.
1945, 23 mart – Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması.
1945, aprel – "Atlantik xartiyası"na 50 dövlətin daxil olması.
1945 – 416-cı diviziyanın aprelin 20-də Klossordorfu, 21-də Ştrausberqi tutaraq Berlinə yaxınlaşması, mayın 1-də Kayzer sarayının, mayın 2-də isə leytenant A.Məcidovun başçılığı altında Brandenburq qapıları üzərində qələbə bayrağını - Qırmızı bayrağı qaldırması.
1945, 26 aprel – Berlin uğrunda gedən döyüşdə komandir Yusif Sadıxovun Sovet İttifaqı Qəhrəmanı fəxri ada layiq görülməsi.
1945 – Sovet qoşunlarının aprelin 30-da Reyxstaqın üzərinə Qələbə bayrağını sancması, mayın 8-də Almaniyanın qeyd-şərtsiz təslim aktına qol çəkməsi, mayın 9-u Sovet İttifaqının Almaniya üzərində Qələbə bayramı kimi tarixə düşməsi.
1945, yay - 1946, 20 dekabr – İranda demokratik hərəkatın II mərhələsi. Azərbaycan Xalq hakimiyyətinin fəaliyyətinə son qoyulması.
1945, 3 sentyabr – S.C.Pişəvərinin başçılığı ilə milli azadlıq və demokratik hərəkata rəhbərlik edən Azərbaycan Demokratik Partiyasının (ADP) yaradılması.
1945, 13 sentyabr – ADF təsisçilərinin ilk konfransının keçirilməsi. Müvəqqəti Komitənin seçilməsi.
1945 – Hökumətin sentyabrın 10-da Marağada və oktyabrın 20-də Ərdəbildə hərbi vəziyyət elan etməsi.
1945, 2-4 oktyabr – ADF I Qurultayının keçirilməsi. Partiyanın proqram və nizamnaməsinin qəbul edilməsi. S.C.Pişəvərinin başçılığı ilə partiyanın Mərkəzi Komitəsinin seçilməsi.
1945, 8 oktyabr – ÜİK(b)P MK və SSRİ XKS-nin Cənubi Azərbaycana silah göndərilməsi barədə Qərarı.

1945, 16-17 noyabr – Fədailərin hökumətin silahlı qüvvələrinə Marağa, Miyanə, Mərənd, Sərab və Ərdəbil mahallarında eyni vaxtda zərbə endirməsi.
1945, 17-18 noyabr – İran qoşununun Tehrandan Qəzvin istiqamətində hərəkət etməsi.
1945, 20-21 noyabr – Təbrizdə Azərbaycan Xalq Konqresinin (AXK) çağırılması.
1945 – İranda xalqın noyabrın 18-26-da Nəmin, Germi, Zəncan, Astara, Biləsuvarda, dekabrın 1-19-da Xoy, Səlmas, Maku, Meşkinşəhr, Marağa, Təbriz, Əhər, Ərdəbil, Xalxal, Kələybər, Urmiya və Miyandabda hökuməti ələ keçirməsi.
1945, 27 noyabr-1 dekabr – Milli Məclisə ümumi seçkilərin keçirilməsi.
1945, 12 dekabr - Milli Məclisin açılışı. S.C.Pişəvərinin bşçılığı ilə Azərbaycan muxtariyyətinin yarandığının elan olunması. 21 Azər hərəkatı.
1946 – Cənubi Azərbaycanda milli oyanış və mədəni dirçəliş.
1946, 6 yanvar – Milli Məclisin qəbul etdiyi "Dil haqqında" Qanun ilə Azərbaycan dilinin Cənubi Azərbaycanda rəsmi dövlət dili elan olunması.
1946 – Təbrizdə yanvarın 19-da Ali İncəsənət və Rəssamlıq Məktəbi, martın 28-də Azərbaycan Dövlət Teatrı, aprelin 7-də Azərbaycan radiosu, iyulun 5-də İncəsənət Muzeyi, sentyabrın 3-də Azərbaycan Milli orkestri və onun əsasında təşkil olunmuş Dövlət Filarmoniyasının fəaliyyətə başlaması.
1946, yanvar-fevral – Əncümənlərə seçkilərin keçirilməsi.
1946, fevral – İranda Milli Hökumətin aqrar qanununu qəbul etməsi.
1946, 2 mart- 26 may – Sovet qoşunlarının İrandan çıxarılması.
1946, 26 mart – "İran məsələsi"nin BMT-də baxılması.
1946, 12 may – İranda Milli Hökumətin "Əmək haqqında Qanun"u.
1946, 12 iyun – Tibb, pedaqoji, kənd təsərrüfatı fakültələrindən ibarət olan Təbriz Universitetinin təsis olunması.

1946, 13 iyun – Təbrizdə Əhməd Qəvam hökuməti ilə Milli Hökumət arasında Milli Hökumət tərəfindən həyata keçirilən islahatların qanuniliyini təsdiq edən müqavilənin imzalanması.
1946, 1 sentyabr – İran hökuməti hərbi hissələrinin Azərbaycan Xalq hakimiyyətinə silahlı hücuma keçməsi.
1946, 1 dekabr – İran hökumət qoşunları ilə fədailər arasında qanlı döyüşlər.
1946, 11 dekabr – Pişəvərinin silahdaşları ilə birlikdə zor gücünə Sovet İttifaqına gətirilməsi.
1946, 12 dekabr – İran qoşunlarının Təbrizə daxil olması. ADF və Milli hökumətin rəhbərlərinin güllələnməsi, dar ağacından asılması, 10 minlərlə vətəndaşın mühacirət etməsi.
1947, 12 iyun – S.C.Pişəvərinin Azərbaycanda "avtomobil qəzasında" həlak olması.
1957, 11 aprel – SSRİ Ali Soveti Reyasət Heyətinin Fərmanı ilə M.Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adının verilməsi.

XIII FƏSİL
MÜHARİBƏDƏN SONRA AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ İNKİŞAFI (1945-1991-Cİ İLLƏR)

Plan:

1.XX əsrin 40-60-cı illərində Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət.
2.Azərbaycanlıların Ermənistandan-tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası.
3.Azərbaycan SSR XX əsrin 70-80-ci illərində. "Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi.
4.Güney Azərbaycanı İran İslam inqilabı və ondan sonrakı dövrdə.

1. XX əsrin 40-60-cı illərində Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət

Müharibədən sonrakı dövrdə ***Sovet rejimi*** dünyaya öz nüfuz dairəsini daha da artırdı. *1946-cı ilin martında* ***İ.V.Stalin*** SSRİ Nazirlər Sovetinin sədri təsdiq olundu. Siyasi hakimiyyət ÜİK(b)P MK Siyasi Bürosunun, KP-nın rəhbəri olan ***İ.V.Stalinin***, respublikalarda isə Kommunist Partiyası Mərkəzi Komitələri Birinci katiblərinin əlində idi. Mövcud totalitar rejimin güclənməsinə təsir göstərən amillər – Stalinin şəxsiyyətinə pərəstiş, Beriyanın dövlətin və partiyanın prinsiplərinə zidd fəaliyyəti və s. idi. Azərbaycanda totalitar rejim ***M.C.Bağırovun*** *(1933-1953)* şəxsi nəzarəti altında fəaliyyət göstərən Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirliyi vasitəsi ilə həyata keçirilirdi. Bu dövrdə fikirlərə nəzarət, gizlin izləmə, çuğulluq (donos) xeyli genişləndi

[142, s. 118]. Günahsız insanlar repressiyalara məruz qalırdılar. Onlar əsasən əsirlikdən xilas olmuş müharibə iştirakçıları idilər. ÜİK(b)P MK *1947-1951-ci illərdə* dilçilik, fəlsəfə, fiziologiya, biologiya, siyasi iqtisad və bu kimi bir sıra elm sahələrinin "hakim idealogiyaya" tabe etdirmək siyasəti yürüdürdü, bu isə elmin inkişafına mənfi təsir göstərirdi. Məsələn, genetika bir elm kimi qadağan edilmişdir. Azərbaycan xalqının tarixinin saxtalaşdırılması, xalqın soykökünün öyrənilməsində qəsdən dolaşıqlıq yaradılması, Rusiya tərəfindən Şimali Azərbaycanın istilası, bundan başqa Azərbaycan Xalq Cümhuriyyəti tarixinin və digər tarixi proseslərin ciddi surətdə təhrif olunması ən yüksək mərhələyə çatmışdır. Mir Cəfər Bağırovun əlaltıları Markaryan, Qriqoryan, Yemelyanov-Borşov və Sumbatov-Topuridze, Atakişiyev tərəfindən Azərbaycan xalqının alimlərindən Ələşrəf Əlizadə, Əli Muradbəyli Cəmil, Baxışbəy Sultanov, Yusif Səfərov [431], filosoflardan Heydər Hüseynov, Əli Əlizadə, yazıçılardan Əbülhəsən Ələkbərzadə, şairlərdən Səməd Vurğun, bəstəkarlardan Üzeyir Hacıbəyov və başqaları təqiblərə məruz qalırdılar. *1949-cu ildə* "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" əsərində Şeyx Şamil hərəkatını Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirdiyinə görə görkəmli filosof, akademik ***Heydər Hüseynov*** ona verilən "Stalin" mükafatının geri alınmasına və haqsız təqiblərə məruz qalmasına dözməyərək intihar etmişdir. Azərbaycan xalq dastanları guya feodal münasibətlərini təbliğ edir və xalqa məxsus deyildilər. Orta əsrin möhtəşəm incisi olan xalq dastanımız "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanaraq qadağan edilmiş, tədqiqatçıları isə əsassız təzyiqlərə məruz qalmışdılar. A.A.Bakıxanov idealizmdə, fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu", akademik M.A.Dadaşzadə isə "Türkiyə casusu" olmaları ilə, akademik, yazıçı M.İbrahimov, professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü A.O.Makovelski elmi-siyasi sayıqlığı itirmələri ilə günah-

landırılırdılar. M.Rəfili "kosmopolit" damğası ilə işdən uzaqlaşdırılmış, Süleyman Vəliyev sürgün olunmuşdur [7, s. 132]. *İnzibati amirlik* idarə üsulu mövcud quruluşa qarşı gizli siyasi mübarizəyə gətirib çıxarmışdır. Ali məktəb tələbələrindən bir qrup gəncin – *Gülhüseyn Hüseynoğlu, İsmixan Rəhimov, Hacı Zeynalovun* rəhbərliyi ilə "İldırım" adlı təşkilat yaradılmışdır. *1947-ci ilin əvvəllərində* "İldırım" təşkilatı öz fəaliyyətini dayandırdı. *1948-1949-cu illərdə* onun 8 fəal üzvü həbs edilib sürgün olundu [93, s. 158].

Xaricdə yaşayan mühacirlər də Azərbaycanda mövcud olan hakim sovet rejimi əleyhinə ideoloji mübarizə aparırdılar. ***M.Ə.Rəsulzadə*** ideoloji mübarizəni maarifçilik vasitəsilə davam etdirirərək *1949-cu ildə* Ankarada istiqlal ideyalarını təbliğ edən ***"Azərbaycan Kültür dərnəyi"****ni* yaratmışdır. Dərnəyin əsas məqsədi xalqı maarifləndirmək idi.

1945-1954-cü illərdə Almaniyanın Münhen şəhərində fəaliyyət göstərən ABŞ-ın yaratdığı ***"Azadlıq"*** radiosunda Azərbaycan şöbəsinin redaktoru ***Əbdürəhman Fətəlibəyli-Düdənginski*** də antisovet təbliğatı ilə çıxışlar edərək ideoloji mübarizəni davam etmişdi. O, *1954-cü ildə* Sovet casusu tərəfindən öldürülmüşdür.

Əhalinin sosial tərkibi. II Dünya müharibəsindən sonrakı dövrdə əhalinin sosial tərkibində mühüm dəyişikliklər olmadı. Belə ki, *1950-ci ildə* respublikada 2859 min nəfər yaşayırdı, bu da *1940-cı ildəkindən* 415 min nəfər az idi [159, s. 7]. *50-ci illərin sonlarında* respublikada əhalinin sayı müharibədən əvvəlki səviyyəyə, *1960-cı ildə* 3816 min, *1970-ci ildə* isə artıq 5117 min nəfərə çatmışdır [159, s. 7]. Əhalinin milli tərkibində də müəyyən dəyişikliklər baş vermişdir. *1959 - 1970-ci illərdə* azərbaycanlıların sayı 2494,4 mindən 3776,8 minə, rusların sayı 501,3 mindən 510,1 minə, ermənilərin sayı 442,1 mindən 483,5 minə, ləzgilərin sayı 98,2 mindən 137,3 minə, avarların sayı 17,3 mindən 30,7 minə, yəhudilərin sayı 40,2 mindən 41,2 minə çatmışdır [159, s. 12].

Respublikada sosial-iqtisadi vəziyyət. Müharibə Azərbaycana, onun təsərrüfatına ciddi ziyan vurmuşdur. Müharibədən sonra dövlətin əsas vəzifəsi təsərrüfatı bərpa və inkişaf etdirməkdən ibarət idi. *1945-ci il mayın 26-da* SSRİ Dövlət Müdafiə Komitəsi "Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayeni yenidən qurmaq sahəsində tədbirlər haqqında" Qərar qəbul etdi [121, s. 143-144]. Son 10 ildə 108 yeni sənaye müəssisəsi tikildi. *1948-ci ildə* dünyada ilk dəfə açıq dənizdə neft-mədən estakadaları quruldu. Neft daşlarında *1949-cu il noyabrın 7-də* ilk dəniz neft quyusu fontan vurdu [368]. *1950-ci ildə* SSRİ Nazirlər Sovetinin qərarı ilə yeni neft Birliyi – "Azdənizneft" yaradıldı [166, s. 629]. *1953-ci ilin sonunda* neftçıxarma sənayesinə rəhbərlik edən üç birlik – "Azdənizneft", "Azneftkəşfiyyat", "Azneft" birlikləri "Azneft" Birliyində birləşdirildi [140, s. 275]. *1954-cü il avqustun 1-dən* Azərbaycan SSR Neft Sənayesi Nazirliyi yaradıldı [390]. *1953-cü il aprelin 1-dən* Yeni Bakı Neftayırma, *1961-ci ildə* Qaz emalı zavodları işə salındı. 1960-cı ildə 17,8, 1970-ci ildə isə 20,2 milyon ton neft çıxarılmışdır. Qaz hasilatı ildə təxminən 5,5 milyard kub.m həcmindən yuxarı qalxmırdı [159, s. 73]. Sumqayıtda kimya, boru prokatı, sintetik kauçuk zavodları istifadəyə verildi. *1945-1950-ci illərdə* ölkədə *7 istilik* və *su-elektrik* stansiyaları inşa olundu. 1954-cü ildə *Abşeron DRES* (Dövlət rayon elektrik stansiyası) və *Mingəçevir su-elektrik* stansiyası, 1959-cu ildə Əli Bayramlıda istilik-elektrik stansiyası, Daşkəsəndə dəmir filizi üçün saflaşdırma kombinatı istifadəyə verildi. *1951-ci ildə* Qaradağ sement zavodu işə düşdü. *1958-1966-cı illərdə* Mingəçevirdə kabel, Bakıda poladəritmə, soyuducu və şin, Sumqayıtda super fosfat və kimya kombinatı, Gəncədə alüminium zavodları işə düşdü. *1964-cü ildə* Naxçıvanda Bakı radio zavodunun filialı açıldı. *50-60-cı illərdə* Azərbaycanda onlarla yeni yüngül sənaye müəssisələri yaradıldı. *1962-ci ildə* Bakı-Krasnovodsk gəmi-bərə yolu, *1948-ci il iyulun 27-də* uzunluğu 36 km olan Alabaşlı-Quşçu körpüsü dəmir

yolu [149, s. 123], *1948-ci ildə* Suraxanı-Qala, *1949-cu ildə* Qala-Buzovna sahələri [133, s. 152], *1955-ci ilin noyabrında* müstəqil Azərbaycan Dəmiryol İdarəsi yaradıldı. Azərbaycanın dəmir yollarının uzunluğu *1960-cı ildə* 1750 km, *1968-ci ildə* 1800 km, *1970-ci ildə* isə 1811 km idi [112, s. 110]. Elektrik dəmir yolunun uzunluğu 794 km olmuşdur. *1967-ci ildə* Yevlax-Bərdə-Ağdam dəmir yolu istifadəyə verildi. *1949-cu ildən* əhaliyə taksilər xidmət etməyə başladı [133, s. 160]. *1949-cu ildə* Bakıda ilk dəfə olaraq əl sistemli abonent teleqraf stansiyası quruldu [127, s. 51, 53]. *1970-ci ildə* Azərbaycanda 1555 poçt, teleqraf və telefon müəssisəsi var idi [159, s. 152].

50-60-cı illərdə respublika əhalisinin məişət şəraitində müəyyən dəyişiklik baş verdi. Mənzil tikintisi xeyli genişləndirildi. *1945-1955-ci illərdə* respublikada 1779 min kvadrat metr [133, s. 244], *1956-1960-cı illərdə* 7425 min, *1961-1970-ci illərdə* isə 16010 min kvadrat metr mənzil sahəsi istifadəyə verilmişdir [160, s. 184]. Mənzil tikintisinin genişləndirilməsində olan əhəmiyyətli inkişaf Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin *1957-ci il 31 iyul* tarixli "SSRİ-də mənzil tikintisinin inkişafı haqqında" Qərarı əsasında həyata keçirdi [134, s. 754-775]. Bakıda Dzerjinski adına (indiki Şəhriyar adına) klub, Hökumət evi, Respublika stadionu, Akademiya şəhərciyi, Bakı hava limanı, Dövlət sirki və s. tikildi. *1956-cı il fevralın 14-də* Azərbaycan televiziyası fəaliyyətə başladı. *1966-cı ildə* Bakı-Şuşa, *1969-cu ildə* Şuşa-Naxçıvan radiorele xətti istifadəyə verildi. *1970-ci ildə* radiorele xətti ilə Bakı televiziya stansiyası ilk dəfə Moskvadan rəngli televiziya proqramını göstərmək imkanı əldə etdi [7, s. 122]. *1967-ci ildə* Bakı metropoliteninin 6 stansiyası istifadəyə verildi.

Bu dövrdə Yuxarı Qarabağ, Samur-Abşeron kanalları işə salındı. Respublika kənd təsərrüfatının bərpa və inkişafı üçün bir sıra tədbirlər gördü. ÜİK(b)P MK-nın *1947-ci il fevral* Plenumu "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək təd-

birləri haqqında" Qərar qəbul etdi [151, s. 98-145]. Bir sıra tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın kənd təsərrüfatında xeyli irəliləyişlər oldu. İrriqasiya tikintisinin genişləndirilməsi sayəsində əkinəyararlı torpaqların sahəsi artdı. "Kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsinin pozuntularını ləğv etmək tədbirləri haqqında" SSRİ XKS və ÜİK(b)P MK-nın *1946-cı il sentyabrın 19-da* qəbul olunmuş Qərarına [134, s. 91-97] əsasən kolxozların ictimai mülkiyyətini möhkəmləndirmək, torpaqların istifadəsini nizama salmaq, kolxozçuların əməyini səmərəli təşkil etmək, artelin Nizamnaməsinin prinsiplərinə uyğun çalışmaq üçün mühüm işlər görüldü. SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın *1954-cü il iyulun 31-də* "1955-1960-cı illərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" [312], *1957-ci ilin iyulunda* "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında" [273] Qərarları qəbul edilmişdir. *50-60-cı illərdə* Azərbaycan SSR-nin iqtisadiyyatında müəyyən irəliləyiş baş versə də, xalq təsərrüfatında mövcud olan mənfi proseslər getdikcə dərinləşirdi, dövlətin keçirdiyi iqtisadi islahatlar səmərə vermirdi. *1944-cü ildə* dövlət kommersiya ticarəti tətbiq edilməyə başlandı. *1947-ci il dekabrın 14-də* ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv edildi. *1961-ci ildə* növbəti *pul islahatı* keçirildi. *1947-1952-ci illərdə* istehlak mallarının satış qiyməti aşağı endirilsə də, əhalinin alıcılıq qabiliyyəti aşağı idi. Kəndlilərin maddi vəziyyəti daha pis, kənd təsərrüfatı məhsullarının qiyməti ucuz, kənddə satılan malların qiyməti isə baha idi.

Fəhlə və qulluqçuların əmək şəraitinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər görülmüşdür. SSRİ Ali Sovetinin *1956-cı il 26 mart* tarixli Fərmanı ilə ana qadın əlavə 112 günlük (56 gün doğumdan qabaq və 56 gün doğumdan sonra) pulu ödənilən məzuniyyət alırdı [272]. SSRİ Ali Soveti Rəyasət Heyətinin *1955-ci il 15 avqust* tarixli Fərmanı ilə 14-16 yaşlı şagirdlər

üçün istehsalatda 4 saatlıq, *1956-cı ildən* 16 yaşından 18 yaşına qədər işçilər üçün 6 saatlıq, istirahət günləri qabağı və bayram-qabağı günlər əmək haqqı tam saxlanılmaqla 4 saata qədər azaldılan iş günü müəyyən olunmuşdur. Zərərli istehsalat müəssisələrində çalışan fəhlələr üçün əlavə məzuniyyət və qısaldılmış iş günü tətbiq edilirdi [7, s. 127].

1945-ci ildə ümumtəhsil məktəblərində *buraxılış imtahanları* müəyyən olundu. Ən yaxşı şagirdlərə qızıl və gümüş medalları təsis edildi. *1949-cu ildən* ümumi *yeddiillik təhsilə* keçid başlandı. 1959-cu ildən icbari səkkizillik təhsil müəyyən edildi. *1966-cı ildə məcburi onillik təhsilə* keçildi. Ümumtəhsil məktəblərinin yeni forması olan "İnternat məktəb"i də yarandı. Texniki peşə məktəblərinin şəbəkəsi genişləndirildi. Əgər *1966-cı ildə* respublikada 46 (1951-ci ildə 30 idi) texniki-peşə məktəbi vardısa, *1970-ci ildə* onların sayı 78-ə çatmışdır [259].

Teatr, Xarici dillər, Politexnik və Rus Dili və Ədəbiyyatı institutları bu dövrdə açılmışdır. *1945-46-cı* tədris ilində respublikada 17, *1950-51-ci* dərs ilində isə 20 ali təhsil müəssisəsi vardı. Respublikanın ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı *1945-1946-cı* dərs ilindəki 19,6 min nəfərdən *1950-1951-ci* dərs ilində 28,6 min nəfərə çatmışdır [150, s. 66-67]. *1970-1971-ci* dərs ilində ali məktəblərdə 53 min tələbə təhsil alırdı. Professor-müəllimlərin sayı *1950-ci ildə* 2000 nəfər, *1970-ci ildə* 5000 nəfər idi. *1970-ci ildə* 500-dən çox akademik, professor, 1140-dan çox dosent vardı [432]. *1959-cu ildə* yaşı 10-dan yuxarı olan hər 1000 nəfərdən 400-nün, *1970-ci ildə* isə 471-nin ali və orta təhsili vardı [160, s. 7]. Xalq təsərrüfatında ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 274 minə çatmışdır [160, s. 151].

Azərbaycan SSR-in güclü elmi patensialı vardı. Akademiyada onun ilk prezidenti M.Mirqasımov, M.Topçubaşov, Y.Məmmədəliyev kimi görkəmli alimlər çalışırdı. Ü.Hacıbəyovun, H.Hüseynovun, Ə.Dəmirçizadənin, F.Qasımzadənin, H.Araslının, Z.Bünya-

dovun tariximizə dair qiymətli tədqiqatları xalqın mənəvi sərvətinə çevrildi. Qobustan qayaüstü təsvirlərinin, Azıx mağarasında qədim insan izlərinin aşkar və tətdiq edilməsi tarix elminə ən dəyərli töhfə idi. Müharibədən sonrakı illərdə Respublikada 100-dən çox qəzet və jurnal nəşr edilirdi. Bu illərdə Azərbaycan musiqisi də xeyli inkişaf etmişdir. Ü.Hacıbəyovun, Q.Qarayevin, A.Məlikovun, C.Cahangirovun, Niyazinin musiqimizin inkişafında mühüm rolları olmuşdur. Xan Şuşinskinin, Bülbülün, Rəşid Behbudovun, Sara Qədimovanın, Şövkət Ələkbərovanın ifaçılıq sənətinin yüksəlməsində böyük rolları olmuşdur. Teatr sənəti, Azərbaycan kinosu, rəssamlıq, heykəltəraşlıq və s. yüksəliş dövrünü keçirirdi. Görkəmli aktyorlardan Ələsgər Ələkbərov, Mərziyə Davudova, Leyla Bədirbəyli, Möhsün Sənani, Nəsibə Zeynalova və b. Azərbaycan səhnəsində yadda qalan obrazlar yaratmışdılar. *1945-ci ildə* çəkilmiş "Arşın mal alan", *1956-cı ildə* "O olmasın, bu olsun", *1958-ci ildə* "Uzaq sahillərdə" filmləri kino sənətimizin uğurlu əsərləri idi. Məşhur rəssamlardan Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov, xalçaçı rəssam Lətif Kərimov və b., heykəltəraşlardan Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı oğlu, Ömər Eldarov və Tokay Məmmədov möhtəşəm əsərlər yaratmışdılar.

2. Azərbaycanlıların Ermənistandan-tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası

Sovet hakimiyyətinin müharibədən sonrakı dövrdə xalqlar arasında qarşıdurma və konfliktlər yaratmaq, milli münaqişə ocaqlarını zaman–zaman alovlandırmaq siyasəti çar Rusiyasının əsrlər boyu yeritdiyi müstəmləkəçilik siyasətinin davamı idi. Münaqişə ocaqlarından ən ziddiyyətlisi Azərbaycanın ***Qarabağ*** bölgəsinin bir hissəsində idi.

Hələ *40-cı illərin ortalarında* Moskvanın, xüsusilə erməni lobbisinin başçısı A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda gizli

"Qarabağ komitəsi" yaradılmışdır. *1945-ci ilin payızında* Ermənistan rəhbərliyi tərəfindən növbəti dəfə keçmiş "Dağlıq Qarabağ" bölgəsinin Ermənistan SSR-yə verilməsi haqqında Sovet hökuməti qarşısında məsələ qaldırıldı. Ermənistan K(b)P MK və XKS-i mərkəzi hakimiyyətə müraciət edərək Qarabağ iqtisadi rayonunun ərazilərinin bu hissəsi olan keçmiş "Dağlıq Qarabağ" bölgəsində guya iqtisadi cəhətdən Azərbaycanla deyil, daha çox Ermənistanla bağlı olduğunu sübut etməyə çalışırdı. ÜİK(b)P MK katibi G.M.Malenkov məsələyə dərhal reaksiya verərək *1945-ci ildə noyabrın 28-də* Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova bu məsələ ilə bağlı məktub yazıb onun rəyini soruşdu [417; 144, s. 294]. ***M.C.Bağırov*** *1945-ci il dekabrın 10-da* cavab məktubunda Ermənistanın Qarabağ iqtisadi rayonunun bir hissəsi olan keçmiş "Dağlıq Qarabağ" bölgəsi ilə bağlı irəli sürdüyü bütün iddiaların əsassız olduğunu və bu bölgənin tarixən Azərbaycan ərazisi olduğunu tutarlı tarixi faktlarla sübut etdi.

M.C.Bağırov əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonundan başqa, Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsinə bu şərtlə razılığını bildirdi ki, müxtəlif dövrlərdə Ermənistana və digər qonşu respublikalara verilmiş tarixi Azərbaycan torpaqları Azərbaycana qaytarılsın. Buna heç kəs razı olmadı, çünki Türkiyə ilə Azərbaycanın arasında yaradılmış ***"erməni ərazisi"*** bununla ləğv edilərdi. Bu problem bütün ölkə üçün fəlakət gətirə bilərdi. Ona görə də ermənilərin ərazi iddiaları rədd edildi [7, s. 135].

Moskva əks tədbirlər görməyə başladı və ***1946-cı ilin oktyabrın 19-da*** xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi haqqında Qərar qəbul etdi [22, s. 42]. Belə ki, *1943-cü il noyabr ayının 28-dən dekabrın 1-dək* SSRİ, ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransı ərəfəsində, ermənilər SSRİ Xarici İşlər Naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov bu barədə İ.Stalinə müraciət etdikdən sonra ermənilərin Ermə-

nistan SSR ərazisinə köçürülməsinə razılıq almışdı [93, s. 158]. Bu köçürmə azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması hesabına həyata keçirilməli idi. Buna görə də SSRİ Nazirlər Soveti ***1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında"*** *4083 saylı Qərar* qəbul etdi [7, s. 135]. ***1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında"*** digər bir Qərarla bu köçürməni həyata keçirmək üçün tədbirlər planı müəyyən edildi. Bu qərarla *1948-1950-ci illərdə* 100 min – *1948-ci ildə* 10 min, *1949-cu ildə* 40 min, *1950-ci ildə* isə 50 min nəfər azərbaycanlı "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi [335]. Qərarın II maddəsində xüsusi olaraq qeyd edilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, orada yaşayan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdə, yaşayış evlərində xaricdən gələn ermənilərin yerləşdirilməsi həyata keçirilsin [383]. ***1948-1953-cü illərdə*** Ermənistan SSR-də yaşayan ***144 mindən çox azərbaycanlı*** zorla Azərbaycanın Kür-Araz ovalığına köçürüldü [12, s. 190]. Təkcə *1949-cu ildə* Saatlı, İmişli, Mirbəşir (indiki Tərtər), Əli Bayramlı, Göyçay, Kürdəmir, Ucar, Xaldan, Zərdab, Yevlax, Jdanov (indiki Beyləqan), Sabirabad, Salyan, Gədəbəy və Bərdə kimi aran rayonlarına 15276 adam köçürülmüşdür [382]. Minlərlə adam kəskin iqlim dəyişikliyinə dözməyərək həlak oldu. Deportasiya prosesi *1956-cı ilə* qədər davam etdirildi. *1954-1956-cı illərdə* 1316 təsərrüfat və 5876 nəfər Ermənistandan deportasiya olunmuşdur [86, s. 188-189, 191].

Ermənistan və Gürcüstandakı tarixi Azərbaycan torpaqlarında toponimlərin dəyişdirilməsi, azərbaycanlılara məxsus abidələrin məhv edilməsi Sovet hökumətin yeritdiyi antiazərbaycan siyasətinin təzahürü idi.

Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından azərbaycanlıların *1948-1956-cı illərdə* deportasiyası hüquqi cəhətdən *1948-ci ildə* BMT - nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə əsasən soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir.

Stalin-Beriya-Mikoyan üçlüyünün siyasəti nəticəsində Ermənistanda azəbaycanlıların sayı azaldı, Azərbaycanda isə ermənilərin sayı artırıldı. Yeni yaradılan sənaye mərkəzlərinə-*Sumqayıt, Əli Bayramlı, Mingəçevir, Daşkəsən* və b. şəhərlərə minlərlə erməni köçürüldü. Yuxarı Qarabağda, Gəncədə, Bakıda erməni lobbisi gücləndi. 40 il sonra *1980-ci illərin sonunda* azərbaycanlılar Ermənistandan zorla çıxarıldı. Demək olar ki, *azərbaycanlıların* Ermənistandan, öz tarixi ərazilərindən məqsədyönlü, kütləvi şəkildə *deportasiyası* prosesi *1980-ci illərin sonunda* başa çatdırıldı. Bütün bunlara real siyasi qiymət ilk dəfə Azərbaycan Respublikası Prezidenti ***Heydər Əliyev*** tərəfindən ***1997-ci il dekabrın 18-də imzaladığı "1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart*** tarixli Fərmanlarında son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyonlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırım siyasəti dünya ictimaiyyətinə çatdırılaraq ifşa olunmuşdur.

1953-cü il martın 5-də İ.V.Stalin vəfat etdi və *1953-cü ilin sentyabrında* N.S.Xruşşov Sov. İKP MK-nın Birinci katibi seçildi. Xruşşov Stalinin yaxın adamlarını, o cümlədən L.P.Beriyanı, ***1953-cü ilin 12-13 iyulunda M.C.Bağırovu*** ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilib vəzifədən kənarlaşdırdı [426; 25, s. 694-695; 144, s. 330-332]. *M.C.Bağırov* ***1956-cı ilin 12-26 aprelində*** xalq düşməni kimi ölüm cəzasına – *güllələnməyə* məhkum edildi. Azərbaycan KP-nin ***1954-cü il fevralın 14-16-da*** keçirilən XX Qurultayında

Azərbaycan KP MK-nın Birinci katibi akademik ***İmam Daşdəmir oğlu Mustafayev*** seçildi. O, respublikanın iqtisadi müstəqilliyinin təmin olunmasına çalışdı. Sənayenin sürətli inkişafı, yeni iş yerlərinin açılması nəticəsində Bakıda azərbaycanlıların sayı xeyli artdı. Beynəlmiləl Bakı şəhəri azərbaycanlılaşmağa başladı. Xruşşovun Bakını Azərbaycanın tərkibindən çıxarıb birbaşa Moskvaya tabe etmək planı pozuldu.

İ.Mustafayev Azərbaycan dilinin rəsmi dövlət dili statusu almasına çalışırdı və kargüzarlıq işlərinin ana dilində aparılması üçün tədbirlər gördü. ***1956-cı ildə*** Konstitusiyaya ***dövlət dilinin Azərbaycan dili olması*** haqqında yeni maddə əlavə edildi [482]. Elmi işçilərin, doktorantların sayı xeyli çoxaldı. *1956-cı ilin mayından* məhkəmə quruculuğu, mülki cinayət və məhkəmə məcəllələrinin qəbulu, idarəçilik mərkəzdən Respublikanın ixtiyarına verildi. Siyasi məhbus saxlanılan düşərgələrə rəhbərlik edən ***İslak Əmək Düşərgələri Baş İdarəsi (QULAQ –*** *Главное управление исправительно-трудовых лагерей*-rus dilində***)*** ləğv edildi. *1956-cı ilin aprel ayında* Azərbaycanda güc orqanlarına rəhbərlik etmiş Y.D.Sumbatov – Topuridze, X.Qriqoryan, T.Borşov, S.Yemelyanov, A.Atakişiyev, K.Markaryan öz qanlı əməllərinə görə güllələnməyə məhkum edildilər. Repressiyaya məruz qalmış yüzlərlə azərbaycanlıya – S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, R.Axundov, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminliyə və başqa dövlət, ədəbiyyat və incəsənət xadimlərinə bəraət verildi. Onların üzərindən *"xalq düşməni"* damğası götürüldü. "Kitabi Dədə Qorqud" və digər "həbs olunmuş" yazılı abidələr, əsərlər "azad" edildi, bəraət almış şair və yazıçıların əsərləri yenidən çap olunmağa başlandı. Lakin xaricə mühacirət etməyə məcbur olmuş azərbaycanlılara bəraət verilmədi [7, s. 142].

50-ci illərin ortalarında imperiyada yaranan nisbətən siyasi mülayimləşmə Azərbaycanda *milli dirçəliş* meyllərini oyatdı. Bundan təşvişə düşən mərkəz Azərbaycanın rəhbərliyinə qarşı

təqiblərə başladı, respublikanı qorxu altında saxlamaq üçün A.Mikoyan və Mixail Suslovun təşəbbüsü ilə növbəti dəfə ***Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsinin (keçmiş "Dağlıq Qarabağ" bölgəsi)*** Ermənistana verilməsi məsələsini qaldırdı. Ermənistanda antitürk təbliğatı yenidən qızışdırıldı. İrəvandakı Azərbaycan Pedaqoji Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürüldü. Ermənistan Pedaqoji İnstitutundakı Azərbaycan şöbəsi bağlandı. Ermənistanda Azərbaycan dilində çıxan qəzetlər, C.Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrı bağlandı.

1958-ci ildə bütün ermənilərin katalikosu *II Vazgen* Bakıya səfər edərək Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsinin (keçmiş "Dağlıq Qarabağ" bölgəsi) Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, Bakıdakı erməni kilsəsindən hər səhər zəng vurulmasını təklif etdi. Lakin onun irəli sürdüyü təklifləri respublika rəhbərliyi tərəfindən rədd edildi. *1959-cu ilin iyulunda* Sov. İKP MK tərəfindən ***İmam Mustafayev*** millətçilikdə təqsirləndirilərək vəzifədən azad edildi, onun yerinə ***Vəli Yusif oğlu Axundov*** təyin edildi [12, s. 203].

Sov.İKP MK-nın *1964-cü il 14 Oktyabr* plenumunda N.S.Xruşşov vəzifəsindən kənar edildi və L.İ.Brejnev Sov. İKP MK-nın Birinci (1966-cı ildən Baş katib) katibi vəzifəsinə seçildi.

60-cı illərdə Azərbaycan Dövlət Universitetinin bir qrup tələbəsi ***Əbülfəz Əliyevin (Elçibəy)*** rəhbərliyi ilə gənclər arasında siyasi-təbliğat işi aparmaqla onlarda milli şüurun oyanmasına xidmət göstərmişdir.

1962-ci ildə gizli yığıncaqda ***"Milli Azərbaycan Qərargahı" (MAQ)*** yaradıldı. *Oqtay Rəfili* onun sədri, *Xudu Məmmədov* isə sədr müavini seçildi. Onlar bir neçə mühüm vəzifəyə milli kadrların təyin edilməsinə, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll olunmasına nail oldular. Əsas məqsəd xalqın milli oyanışa xidmət etmək idi [7, s. 146].

1964-cü ilin yazında Azərbaycanın Rusiyanın tərkibinə "daxil olması"nın 150 illiyinin "bayram" keçirilməsinə qarşı *1969-cu ilin martında* Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin Elmi Şurasında çıxış edən tarixçi alimlər Z.M.Bünyadov, M.Ə.İsmayılov və Süleyman Əliyarov qeyd etdilər ki Azərbaycan XIX əsrin əvvəllərində Rusiyaya birləşməmişdir, onu çar Rusiyası zəbt etmişdir. Bu çıxışa görə onlar təqibə məruz qalmışdılar [7, s. 147].

1965-ci ildə uydurma *"erməni soyqırımı"nın 50 illiyi, Andronikin isə 100 illiyi* Ermənistanda dövlət səviyyəsində qeyd edildi. ***"Qarabağ Komitəsi"*** açıq fəaliyyətə başladı. ***1967-ci ildə*** *Stepanakertdə (Xankəndində)* bir neçə azərbaycanlı qətlə yetirildi. Respublika rəhbərliyi isə bu hadisələrə seyrçi mövqe tuturdu.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti *1969-cü il mayın 7 - də* sərhəd rayonlarında *2 min ha* çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ ***1938-ci il mayın 5-də*** verilmiş qərarı təsdiq etdi. Lakin ***1969-cu ilin iyulunda*** hakimiyyətə gələn ***Heydər Əliyev*** bu qərarın icrasına imkan vermədi [74, s. 256].

3. Azərbaycan SSR XX əsrin 70-80-ci illərində. "Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi

Azərbaycan SSR-də idarəçilik sisteminin gücləndirilməsi. İqtisadi və sosial həyat. ***1969-cu il iyulun 14-də Heydər Əlirza oğlu Əliyev*** Azərbaycan SSR KP MK-nın Birinci katibi seçildi. Heydər Əliyev *1965-cü ildə* Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, *1967-ci ildə* isə sədri təyin olunmuşdur [7, s. 174]. Heydər Əliyevin *1969-1982-ci illərdə* respublikaya rəhbərliyinin ilk dövrlərində Azərbaycan SSR-in məhkəmə quruluşu, səhiyyə, dövlət notariatı, xalq təhsili, tarix və mədəniyyət abidələrinin qorunması və onlardan isti-

fadə edilməsi, Nazirlər Soveti, xalq deputatları sovetləri haqqında qanunlar, torpaq, əmək haqqında qanun məcəllələri, inzibati hüquq pozuntuları haqqında, ailə və nikah haqqında məcəllələr qəbul edildi [74, s. 257]. 14 ildə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 (əvvəlki 50 ildəki qədər), xalq istehlakı malları istehsalı 3 dəfə, kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmış, 250-dən çox zavod, fabrik, istehsal sexləri istifadəyə verildi, 630 min nəfərlik yeni iş yerləri açıldı [281]. Heydər Əliyev bir sıra tədbirlər həyata keçirdi: milli mənəvi sərvətlərin tədqiq və təbliğ edilməsi, tarixi araşdırmalar aparılması, bir çox elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileylərinin, Azərbaycan teatrının yüzilliyinin qeyd olunması, Nizami irsinin yenidən tədqiq edilməsi haqqında *1977-ci il* Qərarının qəbul olunması, respublikanın milli kadr potensialının möhkəmləndirilməsi, minlərlə azərbaycanlı gənclətin SSRİ-nin müxtəlif təhsil və elm ocaqlarına göndərilməsi və s. Heydər Əliyev Bakı neftinin İkinci Dünya müharibəsində faşizm üzərində qələbədə oynadığı ümumdünya tarixi əhəmiyyətli rolunun SSRİ rəhbərləri tərəfindən etiraf edilməsinə nail oldu və buna görə *1978-ci ildə* Bakı Lenin ordeni ilə təltif edildi [113, s. 77]. *1971-ci ildə* respublikada orta hərbi internat məktəbi yaradıldı. Heydər Əliyev Naxçıvan MSSR və DQMV-nin iqtisadi və mədəni inkişafı üçün bir sıra tədbirlər gördü. Şuşada tarixi abidələr bərpa olundu, yeni binalar tikildi. *1980 – 1981-ci illərdə* Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərə ucaldıldı [114, s. 49]. Ulu önderin sayəsində Üzeyir Hacıbəyovun, Bülbülün ev - muzeyləri təşkil olundu, Natəvanın heykəli qoyuldu [114, s. 69]. *1973-cü ildə* Stepanakertdə (Xankəndində) Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında müstəqil pedaqoji institut açıldı. *1979-cu ildə* Ağdamdan bura dəmiryolu çəkildi [113, s. 123, 133]. Əsgəran rayonu təşkil olundu. *1977-ci ildə* Qarabağ məsələsini yenidən qaldırmaq cəhdinin qarşısı alındı [279]. *70-ci illərdə* mərkəz, ermənilərin təhriki ilə Kəlbəcər rayonunun pers-

pektivsizliyi bəhanəsi ilə buradan əhalinin köçürülməsi və rayon ərazisinin yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırdı. Lakin H.Əliyev *1977-ci ildən* bu bölgənin iqtisadiyyatını qısa müddətdə canlandırmaqla mərkəzin və erməni millətçilərinin niyyətlərini puça çıxardı. Kəlbəcərə "Muğan yolu" çəkildi.

1978-ci ilin aprelində Azərbaycan SSR-in, mayında isə ***Naxçıvan MSSR-in*** yeni ***Konstitusiyası*** qəbul edildi. Azərbaycan SSR Konstitusiyasında ***Azərbaycan dilinin dövlət dili*** olması öz əksini tapdı.

70-ci illərdə Respublikada idarəçiliyin güclənməsi, tələbkarlığın artırılması nəticəsində xalq təsərrüfatında mühüm irəliləyişlər əldə olundu. *1971-1985-ci illərdə* hər il orta hesabla 2133 milyon rubl vəsait istifadə olunurdu ki, bu da əvvəlki 50 ilin orta illik göstəricilərindən 7 dəfə (288 milyon) çox idi [7, s. 181]. Neft sənayesində tənəzzülü aradan qaldırmaq üçün kəşfiyyat işləri genişləndirildi. *1970-ci ildə* neft hasilatı 17,3 mln. ton, *1972-ci ilin əvvələrinədək* isə bir milyard ton neft çıxarılmışdı. 90 adda müxtəlif neft məhsullarının istehsalına imkan yarandı. *70-ci illərdə* Cənubi Qafqazda ən iri poladtökmə zavodu tikildi və istifadəyə verildi. *1985-ci ildə* Dərin Dəniz özülləri zavodu ilk məhsulunu istehsal etdi. *90-cı illərin əvvəllərində* SSRİ-də istehsal olunan neftçıxarma texnikasının 2/3-ni Azərbaycan verirdi [12, s. 211]. Neftmaşınqayırma sahəsində Azərbaycan ABŞ-dan sonra II yeri tuturdu. *1983-cü ildə* Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan SSRİ-nin vahid neft kəmərinə qoşuldu. Bakıda "Ulduz" elektrik cihazqayırma, "Ozon", Sumqayıtda məişət kompressorları zavodları istifadəyə verildi.

Bakıda 2 evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu, Ələt ağac emalı kombinatı və s. işə düşdü. *1971-ci ildə* Naxçıvan MSSR-də Araz, *70-ci illərin ortalarında* Tərtər, *1981-1984-cü illərdə* Şəmkir su-elektrik stansiyaları işə salındı. H.Əliyev *1975-ci il*

25 dekabrda Bakıda Məişət Kondisionerləri zavodunun tikilməsinə nail oldu.

Respublikada kənd təsərrüfatının, pambıqçılığın, tərəvəzçiliyin, tütünçülüyün, *70-ci illərin sonlarından* isə həm də üzümçülüyün inkişafına diqqət artırılmışdır, lakin *1985-ci ildə* Sovet imperiyasında alkoqolizmə qarşı mübarizə kompaniyası başlanandan sonra 100 min hektardan çox üzümlük məhv edilmişdir. Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun həcmi *1981 - 1985-ci illərdə* orta hesabla *1966-1970-ci illərin* orta səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı [161, s. 82].

70-ci illərdə Bakıda Dəniz vağzalı, "Moskva" mehmanxanası, *1972-ci ilin 11 dekabrında* indiki H.Əliyev adına Respublika sarayı, *80-ci illərdə* Gülüstan sarayı, örtülü idman kompleksi, *1985-ci ilin sentyabrın 3-də* yeni zoopark tikilmişdir. *1990-cı ildə* əhaliyə 18 metro stansiyası xidmət göstərirdi [12, s. 211]. *1971-ci ilin sentyabrında* Kür su kəməri işə salınmış, Kür suyu Bakıya gətirilmişdir. *1982-ci ildə* Sabirabadda iri su təchizatı kompleksi istifadəyə verildi. *1990-cı ildə* Respublikada 150-ə qədər telestansiya, 846 xəstəxana fəaliyyət göstərirdi.

90-cı illərin əvvəllərində Azərbaycanda 17 ali, 78 orta ixtisas məktəbi var idi. *1970-1982-ci illərdə* SSRİ-nin ən mühüm ali məktəblərində 17 mindən çox azərbaycanlı mütəxəssis hazırlanmışdır. *1990-cı ildə* 4356-dan artıq ümumtəhsil məktəbi [75, s. 138, 141; 434], 176 texniki-peşə məktəbi var idi. *1971-ci ildə* C.Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbi açıldı.

80-ci illərin axırlarında respublikanın ali məktəblərində 8,5 min nəfər, o cümlədən, 612 professor, akademik, 3021 dosent dərs deyirdi [337; 75, s. 159]. *1987-ci ildə* Bakıda Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyi fəaliyyətə başladı. Lakin elmlərin, xüsusən ictimai elmlərin inkişafına kommunist ideologiyasının güclü təzyiqi ləngidici təsir göstərirdi. *1990-cı ildə* respub-

likada 23 mindən çox elmi işçi çalışırdı. *1990-cı ildə* 168 qəzet, 91 jurnal çap olunurdu.

"Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi. *80-ci illərin ortalarında* sovet cəmiyyətinin iqtisadi, siyasi və mənəvi həyatında böhran qabağı vəziyyət yaranmışdır. *1985-ci ildən* sovet imperiyasına rəhbərlik edən Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçov, KP Mərkəzi Komitənin *1985-ci il Aprel* plenumunda ölkəni iflasdan qurtarmaq məqsədilə "sürətləndirmə konsepsiyası"nı irəli sürdü [318]. "Yenidənqurma" xətti müəyyən edildi. Sov.İKP MK-nın *1987-ci il Yanvar* plenumunda yeni siyasi xətt – "aşkarlıq və demokratiya xətti" qəbul edildi [319]. *1989-cu ildə* ilk dəfə olaraq çoxmandatlı sistem əsasında xalq deputatları seçkiləri keçirildi.

"Yenidənqurma" iqtisadiyyata, Kommunist Partiyasının nüfuzuna ciddi zərbə vurdu və imperiya siyasi böhran keçirirdi. Moskva respublikalar arasında konfliktlər, münaqişələr yaratmaq kimi müxtəlif məkrli tədbirlərə əl atdı. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi uğurlu fəaliyyəti, nüfuzunun artması, Sov.İKP MK-nın Baş katibi Çernenkodan sonra ikinci şəxs olaraq, Sov.İKP MK Baş katibi vəzifəsinə namizədliyi şovinist rus millətçiliyi tərəfindən qəbul edilməz idi. Ona görə də *1987-ci ilin oktyabrında* idarəçilikdən uzaqlaşdırıldı, hətta böhtanlarla xalqın gözündə hörmətdən salmağa çalışdılar. "Yenidənqurma" və "aşkarlıq" Azərbaycanda da demokratik hərəkatın inkişafına təkan verdi [319]. Bundan ehtiyat edən Sovet rəhbərliyi ənənəvi "parçala, hökm et" siyasətini həyata keçirərək, milli münaqişələri qızışdırdı, xalqlar arasında milli nifaq salmağa başladı və Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərində - keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə milli münaqişə ocağını alovlandırdı. Daxildən və xaricdən dəstək alan ermənilər açıq ərazi iddiaları ilə çıxış etməyə başladılar. *1984-cü ilin oktyabr ayında* Azərbaycan SSR Ali Sovetinin Qərarı ilə Qazax və Gə-

dəbəy rayonlarının min hektarlarla torpaq sahəsi Ermənistana verildi. Azərbaycan SSR Ali Soveti hələ *1938-ci il mayın 5-də* qəbul edilmiş bu qərarı *1969-cu il mayın 7-də* təsdiq etmişdi. Bu vaxt yerli əhalinin narazılığı hərbi qüvvə tətbiq etməklə yatırıldı. Lakin elə həmin il hakimiyyətə gəlmiş Ulu öndər Heydər Əliyev bu qərarın həyata keçməsinə yol vermədi [228].

Ermənistanda dövlət səviyyəsində gizli silahlı dəstələr yaradılır və azərbaycanlıları zorla qovub çıxarmaq istiqamətində iş aparılırdı. ***1988-ci il yanvarın 25-də Qafan*** və ***Mehri*** rayonlarından *ilk qaçqınlar* Azərbaycana gəldilər. *Fevralın 12-də İrəvanda* "Ermənistanı türklərdən təmizləməli!" və başqa millətçi şüarlarla mitinqlər keçirildi. Bundan ruhlanan Qarabağ erməniləri ***Stepanakertdə (Xankəndi)*** mitinq və nümayişlərə başladılar. ***Fevralın 21-də Əsgəran rayonunda*** emənilər *2 nəfər azərbaycanlı* gənci qətlə yetirdilər və 19 nəfəri yaraladılar [430; 314]. ***1988-ci il fevralın 28-də Sumqayıtda*** ilk cinayət hərəkətini özünü azərbaycanlı kimi qələmə verən "paşa" ləqəbli erməni ***Edik Qriqoryan*** törətdi. Şəxsən özü 9 nəfər ermənini qətlə yetirdi, ümumiyyətlə, 32 nəfər (6 azərbaycanlı, 26 erməni) öldürüldü [429; 191, s. 4], 200 mənzil qarət edildi, bir sıra ictimai bina, avtobus, şəxsi maşınlar yandırıldı. Sumqayıt hadisələrindən sonra qanlı antitürk hərəkatı daha da genişləndi. *1988-ci il mart ayında* İrəvan şəhəri yaxınlığındakı Mehmandar (4 nəfər), Ararat rayonunun Vedi, Şirazlı, Xalisə, Şidli kəndlərində onlarla azərbaycanlı sakin vəhşicəsinə oldürüldü [191, 192]. *1988-ci il noyabrın sonu – dekabrın əvvəllərində* ermənilər Ermənistanın Quqark rayonunda *70 nəfər azərbaycanlı,* o cümlədən Gözəldərə (21 nəfər, o cümlədən 6 qadın, 3 körpə), Vartana (17 nəfər) kəndlərində onlarla azərbaycanlı sakin qətlə yetirildi [201, 202]. Leninakan uşaq evində yaşayan *70 nəfər azərbaycanlı uşağı* Spitakda *diri-diri borunun içinə doldurub ağzını qaynaqladılar.* ***1988-ci ilin dekabrın 11-də*** Azərbaycandan Ermənistana zəlzələ zonasına köməyə gedən ***78 nəfərlik İL-76*** təyyarəsi ermənilər tərəfin-

dən Leninakan yaxınlığında vuruldu, 77 *nəfər* həlak oldu [277]. *1988-ci ildə* Ermənistandakı ***185 azərbaycanlı kəndindən 230 min nəfər azərbaycanlı*** qovuldu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, qız-gəlinlərin namusu təhqir olundu [443; 275; 201]. *1990-cı il martın 24-də gecə* 3 erməni hərbi hissəsi rus əsgərlərinin köməyi ilə Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum etdi, kəndin *7 sakini*, o cümlədən, *2 qadın* və *ikiaylıq körpə işgəncə* ilə öldürülüb *yandırıldı,* 11 ev talan edildi və külü göyə sovruldu [278]. *1991-ci il avqustun 8-də* Ermənistan SSR-də sonuncu azərbaycanlı kəndi olan ***Nüvədi (Mehri rayonu)*** kəndi sovet əsgərlərinin köməyi ilə boşaldıldı.

1988-ci ilin iyunun 15-də Ermənistan SSR Ali Soveti qeyri-qanuni olaraq, "DQMV"-ni Emənistanın tərkibinə qəbul etməyə razılıq verdi [321; 162, s. 84]. *Sentyabrın 18-də* ermənilər ***Xocalıda*** qanlı cinayət törətdilər. *Sentyabrın 21-i və oktyabrın 18-də* Xankəndində azərbaycanlıların və buna cavab olaraq *Şuşada* ermənilərin evləri, avtomobilləri yandırıldı [183, s. 34]. *Noyabrın 24-də* Ermənistan ərazisindən silahlı erməni dəstələri Qubadlı rayonunun Eyvazlı, Davudlu və Qədirli kəndlərinə soxulub azərbaycanlılara qarşı qırğın törətdilər. Eyvazlı kəndi tamamilə yandırıldı [296]. *1989-cu il yanvarın 12-də* SSRİ Ali Sovetinin Rəyasət Heyəti ***"Azərbaycan SSR-in "DQMV"-də xüsusi idarəçilik formasının tətbiqi haqqında"*** Qərar verdi. A.Volskinin rəhbərliyi ilə Moskvaya tabe olan ***Xüsusi İdarə Komitəsi (XİK)*** yaradıldı [12, s. 237]. "DQMV" faktiki olaraq Azərbaycanın tabeçiliyindən çıxarıldı.

Azərbaycanın demokratik qüvvələrinin tələbi ilə SSRİ Ali Soveti *1989-cu il noyabrın 28-də* XİK-ni ləğv etdi. Ermənistan SSR Ali Soveti *dekabrın 1-də* ***"Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında"*** qeyri - qanuni Qərar qəbul etdi [12, s. 237].

Ermənistanda yaşayan azərbaycanlının kütləvi şəkildə deportasiyası və Qarabağda separatçılıq meyillərinə mərkəzin xeyir-dua verməsi Azərbaycanda xalq hərəkatının başlanmasına səbəb oldu. İlk etiraz mitinqi ***1988-ci il fevralın 19-da Bakıda*** keçirildi. Xalq Moskvadan asılı olan Əbdürrəhman Vəzirovdan Ermənistanda və Qarabağda baş verən hadisələrə qarşı qəti mövqe tutmağı tələb edirdi, lakin Ə.Vəzirov xalqın diqqətini yayındırmaq siyasəti yürüdürdü.

Qarabağın Topxana meşəsində sənaye obyekti tikintisinə başlanması xəbəri xalqı hərəkətə gətirdi. ***Noyabrın 15-16-da*** Bakıda mitinqlər keçirildi. ***Noyabrın 17-də "Azadlıq" meydanında*** mitinqdə yarım milyondan çox adam "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" şüarları ilə iştirak etdi. Bu gün ***Milli Dirçəliş günü*** idi. Hökumət hərəkatın gedişindən qorxub ***noyabrın 24-də*** Bakı, Naxçıvan və Gəncə şəhərlərində ***xüsusi vəziyyət*** və ***komendant saatı*** tətbiq etdi, küçələrə tanklar yeritdi. ***Dekabrın 4-də*** gecə hərbiçilər meydandan onları qovdular və burada gecələyən mitinqçiləri həbs etdilər.

Belə bir şəraitdə *AXC-nin təsis konfransı 1989-cü ilin iyulun 16-da Bakıda* keçirildi. Cəbhənin Proqram və Nizamnaməsi qəbul edildi. ***Əbülfəz Elçibəy*** onun sədri seçildi. Xalq ***sentyabrın 6-da*** Əbdürrəhman Vəzirovun istefasını tələb etdi. Xalqın təzyiqi altında ***1989-cu il sentyabrın 23-də*** *Ali Sovetin növbədənkənar sessiyası* ***"Azərbaycan SSR-in suverenliyi haqqında"*** *Konstitusiya Qanununu* qəbul etdi [446].

Respublikada hakimiyyət böhranı mövcud idi. ***1989-cu il dekabrın 31-də saat 12-də*** *Naxçıvan MSSR-də* Araz çayı boyu 137 km, ***1990-cı il yanvarın 18-də*** *Biləsuvar* və *Cəlilabad rayonlarında* da Sovet-İran sərhəd qurğuları dağıdıldı. ***1990-cı il yanvarın 12-də*** 500 nəfərlik silahlı erməni quldur dəstələri Xanlar rayonunun ***Quşçu kəndinə*** hücum etdi. Belə vəziyyətdə AXC Milli Müdafiə Şurası (MMŞ) yaratdı.

1990-cı il yanvarın 15-də SSR Ali Soveti Rəyasət Heyəti

rəhbərliyinin müraciəti əsasında SSRİ Ali Soveti Rəyasət Heyəti ***"DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında"*** *Fərman* verdi [190, s. 37, 40]. Bakı və ətraf rayonlara əlavə hərbi qüvvələr gətirildi.

Sovet ordusunun dəstəyi ilə erməni hərbi hissələri əvvəl Naxçıvana hücuma keçdilər. Xalqın tələbi ilə ***1990-cı il yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında Qərar*** qəbul etdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasəti Heyəti ***yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında"*** *Fərman* verdi [190, s. 82], lakin bu Fərman xalqdan gizli saxlanıldı. Əhaliyə məlumat verilməsin deyə, ***yanvarın 19-da axşam saat 19.27-də Dövlət Televiziyasının enerji bloku*** partladıldı [505]. ***Yanvarın 19-da saat 21-dən*** *Sovet ordusu Bakıya hücum edib, qanlı qırğın* törətdi. Bakıda və digər rayonlarda 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu, 4 nəfər itkin düşdü [93, s. 303; 364]. Fövqəladə vəziyyət haqqında fərman artıq iş işdən keçəndən sonra, ***1990-cı il yanvarın 20-də saat 7-də*** elan olundu [72, s. 24-25]. ***"Qanlı yanvar"a*** etiraz olaraq ***40 günlük ümummilli tətil*** başlandı.

Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək imperiyanın Azərbaycana qoşun yeritdiyini, günahsız əhaliyə divan tutulduğunu bütün dünyaya bəyan etdi. Respublikada üç gün matəm elan olundu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində milyona qədər insan iştirak edirdi [66, s. 87; 183, s. 36].

Gizlincə respublikadan qaçmış ***Əbdürrəhman Vəzirovun*** yerinə Moskva *yanvarın 24-də* Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə ***Ayaz Mütəllibovu*** təyin etdi [7, s. 260]. Tarixin bu məsuliyyətli dövründə AXC artıq xalqa rəhbərlik edə bilmədi. Azərbaycan SSR Ali Sovetinin sessiyası *mayın 19-da* ***prezident vəzifəsi*** təsis etdi və A.Mütəllibovu bu vəzifəyə seçdi.

AXC-nin qeyri-ardıcıl mövqeyini görən xalq bu təşkilatdan uzaqlaşmağa başladı.

Heydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Bakıya qayıtdı. İqtidar onun Bakıda qalmasına imkan vermədi və o, *iyulun 22-də* Naxçıvana getdi. *Sentyabrın 30-da* keçirilən seçkilərə H.Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi. ***1990-cı il noyabrın 17-də*** keçirilən sessiyada Muxtar Respublika adından ***"Sovet sosialist"*** sözü götürüldü. Muxtar Respublika Ali Soveti ***Ali Məclis*** adlandırıldı. *Noyabrın 21-də* Ali Məclis *20 yanvar* hadisələrinə düzgün siyasi qiymət verdi, günahkarlar ifşa edildi [71, s. 86-88]. ***1991-ci il fevralın 5-də*** Azərbaycan SSR Ali Sovetinin sessiyasının qərarı ilə ***ölkə "Azərbaycan Respublikası"*** adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin ***üçrəngli bayrağı*** Dövlət Bayrağı kimi təsdiq olundu [67, s. 139].

SSRİ-nin saxlanılması referenduma çıxarıldığı zaman H.Əliyev onun əleyhinə çıxdı. ***1991-ci il martın 17-də SSRİ-nin saxlanılması*** ilə əlaqədar ***referendum*** keçirildi. Səsvermə saxtalaşdırıldı. Naxçıvan MR əhalisi referendumda iştirak etmədi. *Sentyabrın 8-də* Respublikada keçiriləcək *prezident seçkilərində* Heydər Əliyevin qələbə çalacağından ehtiyatlanan A.Mütəllibov konstitusiyaya *prezidentliyə namizəd üçün maksimum yaş senzi* və son beş ildə Azərbaycanda yaşamaq haqqında tələbi daxil etdi [447] və bu səbəbdən seçkilərdə öz qələbəsini təmin etdi.

4. Güney Azərbaycanı İran İslam inqilabı və ondan sonrakı dövrdə

1977-ci ilin payızından etibarən Cənubi Azərbaycanda bir sıra çıxışlar başladı. Ən iri tələbə çıxışı Təbriz ali məktəb tələbələrinin Cənubi Azərbaycanda Milli hökumətin yaranmasının ***"21 Azər"*** hərəkatının *(1945-ci il 12 dekabr)* ildönümü günü münasibətilə olmuşdur. ***1978-ci ilin yanvarında Qum*** şəhərində

Konstitusiya prinsiplərinə, qaydalarına riayət olunması, şahlığın ləğv edilməsi tələbi ilə nümayiş keçirilmişdir. Qumdakı hadisələrin 40-cı günü, ***fevralın 18-də Təbriz*** şəhərinin din başçılarının əhaliyə müraciəti təbrizliləri ayağa qaldırdı. 100 min nəfərin iştirak etdiyi çıxış baş verdi. Hökumət nümayişçilərin üzərinə nizami ordu hissələri göndərdi. Dinc etiraz nümayişi mövcud quruluşa qarşı üsyana çevrildi. Bu üsyan ***29 bəhmən üsyanı*** adlandırıldı. Şah *fevralın 19-da Təbrizə* başqa şəhərlərdən əlavə nizami hərbi dəstələr göndərdi, lakin qüvvələr bərabər olmadığından üsyan qəddarlıqla yatırıldı [38, s. 58-59].

Antişah və antiimperialist hərəkat olan ***1978-1979-cu illər İran inqilabının*** sosial-siyasi mahiyyətini əslində elə *18 fevral Təbriz üsyanı* müəyyən etmişdir. Təbriz üsyanı *Pəhləvi monarxiyasına* zərbə vuran ilk xalq çıxışı idi.

Təbriz üsyanından sonra *mart ayının 29-30-da Tehran, İsfahan, Məşhəd, Əraq, Qum, Təbriz, Zəncan* və b. şəhərlərdə, *may ayında isə İranın 20-dən çox şəhərində* çıxışlar baş verdi. Həmin ilin *sentyabrından inqilabın II mərhələsi* başladı. İlk çıxışlar *sentyabrın 7-də* ölkənin 12 şəhərində, o cümlədən Təbrizdə *kütləvi xarakter* aldı. ***Sentyabrın 8-də***, cümə günü hakimiyyətin nümayiş iştirakçılarını gülləbaran etməsi onları öz yolundan döndərə bilmədi. ***"Qanlı cümə günü"*** adını almış həmin gün əhalinin şaha qarşı qəzəb və nifrətini daha da artırdı [12, s. 219].

Neftçilərin *noyabr ayında həftəlik*, daha sonra isə *1978-ci ilin dekabrından 1979-cu il fevralın əvvəllərinədək* davam etmiş aramsız *ümumi tətili* şah hakimiyyətinə ağır zərbə vurdu və inqilabın taleyini həll etdi. Şah *1979-cu il yanvarın 16-da* İrandan qaçdı. *Fevralın 16*-da şahpərəstlərin son törtöküntüləri Təbrizdə və Cənubi Azərbaycanın başqa şəhərlərində də tamamilə zərərsizləşdirildi, nəzarət xalqın əlinə keçdi.

Beləliklə, *1979-cu il fevralın 11-də Tehranda* qələbə çalan inqilab *fevralın 16-da bütün Cənubi Azərbaycanda* başa çatdırıl-

dı. ***1978-1979-cu illərin İran inqilabı*** dövründə azərbaycanlılar *25 min nəfərə* yaxın qurban verdilər [12, s. 220].

Antişah və antiimperialist inqilab ***1979-cu il fevralın 11-də qələbə*** ilə başa çatdıqdan sonra azərbycanlılar milli muxtariyyət alacaqlarını gözləyirdilər, lakin qələbənin ilk günündən hakimiyyət sükanını ələ alan ***Ayətullah Xomeyninin*** tərəfdarları ümumxalq rəy sorğusu ilə *1979-cu il aprelin 1-də İran İslam Respublikasının (İİR)* yaranmasına nail oldular. Yeni hökumət torpaq, işsizlik məsələlərini həll edə bilmədi. İran İslam Məclisi *torpaq islahatı haqqında Qanunu* (*sentyabr 1981*) qəbul etsə də, dövlət bu qanunu həyata keçirməkdə aciz oldu, çünki islahata şamil olunan torpaq sahələrinin çoxu varlı ruhanilərin, Məclis vəkillərinin, yüksək vəzifə sahiblərinin mülkiyyətində idi. Elə bu səbəbdən İİR rəhbərliyi işsizlik problemini də həll edə bilmədi. Ölkə yavaş-yavaş bu vəziyyətdən çıxdı və İran-İraq müharibəsinin *(1980-1988)* vurduğu iqtisadi yaraları sağaltmağa başladı. Azərbaycan türkləri üçün ən ağrılı məsələ ***milli dilin statusunu*** müəyyən edən ***Əsas Qanunun 15-ci maddəsi*** idi. Yerli və etnik dillərin fars dili ilə yanaşı mətbuatda, kütləvi informasiya vasitələrində və məktəblərdə milli ədəbiyyatın tədrisində işlənməsi azad elan edilsə də, Azərbaycan məktəblərində bu öz həllini tapmadı. Az bir zamanda azərbaycanlılar nisbi milli dirçəlişə nail oldular. Cənubi Azərbaycanda, xüsusən Təbrizdə və Tehranda Azərbaycan türkcəsində qəzet və jurnallar nəşr edilməyə başlandı. Cənubi Azərbaycanda və Tehranda yaranmış bir sıra mədəniyyət ocaqları *vahid Azərbaycan mədəniyyəti* ideyası istiqamətində fəaliyyət göstərirdilər. Bu cəmiyyətlərdə təmsil olunan ziyalılar aşağıdakı tələbləri irəli sürürdülər:

1) Azərbaycan dilinin bu xalqın rəsmi dili kimi tanınması;
2) Azərbaycanda tədrisin ana dilində aparılması;
3) Tehranda ikidilli məktəblərin yaradılması və s.

Müxtəlif mədəniyyət ocaqlarının nəşr etdirdikləri qəzet və jurnallar İranda azərbaycanlıların milli şüurunun inkişafına tə-

kan verdi. Lakin mətbuat azadlığı olsa da, mədəniyyətin ruhanilər tərəfindən *"şeytan əməli"* adlandırılan *aşıq müsiqisi* və *teatr sənəti* kimi sahələri inqilabın ilk dövrlərindən daim müxtəlif növ təqiblərə məruz qalırdı. Şimali Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi Cənubda da xalqın milli təfəkküründə yeni bir canlanma yaratdı.

XRONOLOJİ CƏDVƏL

1933-1953 – M.C.Bağırovun Azərbaycana rəhbərlik etdiyi dövr.
40-cı illərin ortaları – Moskvanın, xüsusilə erməni lobbisinin başçısı A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda gizli "Qarabağ komitəsi"nin yaradılması.
1943, 28 noyabr - 1 dekabr – SSRİ, ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransı ərəfəsində ermənilərin SSRİ Xarici İşlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəməsi.
1944 – Dövlət kommersiya ticarətinin tətbiq edilməsi.
1945-1954 – Almaniyanın Münhen şəhərində fəaliyyət göstərən ABŞ-ın "Azadlıq" radiosunda Azərbaycan şöbəsinin redaktoru Əbdürəhman Fətəlibəyli-Düdənginskinin antisovet çıxışları.
1945, 26 may – SSRİ Dövlət Müdafiə Komitəsinin "Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayeni yenidən qurmaq sahəsində tədbirlər haqqında" Qərarı.
1945-1950 – Ölkədə 7 istilik və su-elektrik stansiyalarının inşa edilməsi.
1945 – Ümumtəhsil məktəblərində buraxılış imtahanlarının müəyyən olunması. Ən yaxşı şagirdlərə qızıl və gümüş medalların təsis edilməsi.
1945-1946 – Respublikada 17 ali təhsil müəssisəsinin olması.
1945 –"Arşın mal alan" filminin çəkilməsi.
1945, payız – Ermənistan rəhbərliyi tərəfindən Azərbaycanın Qarabağ iqtisadi rayon ərazilərinin (keçmiş "Dağlıq Qarabağ"

ərazisi) Ermənistan SSR-yə verilməsi haqqında Sovet hökuməti qarşısında məsələ qaldırılması.
1945, 28 noyabr – ÜİK(b)P MK katibi G.M.Malenkovun Azərbaycan K(b)P MK-nın Birinci katibi M.C.Bağırova məktubu.
1945, 10 dekabr – M.C.Bağırov cavab məktubunda Ermənistanın Qarabağ bölgəsi ilə bağlı irəli sürdüyü bütün iddiaların əsassız olduğunu və Qarabağın tarixən Azərbaycan ərazisi olduğunu tutarlı tarixi faktlarla sübut etməsi.
1945, 12 dekabr – "21 Azər" hərəkatı.
1946, mart – İ.V.Stalinin SSRİ Nazirlər Sovetinin sədri təsdiq olunması.
1946, 19 sentyabr – "Kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsinin pozuntularını ləğv etmək tədbirləri haqqında" SSRİ XKS və ÜİK(b)P MK-nın Qərarı.
1946, 19 oktyabr – Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi haqqında Qərar.
1947-1951 – ÜİK(b)P MK elm sahələrini "hakim idealogiyaya" tabe etdirməsi.
1947, əvvəlləri – "İldırım" təşkilatının fəaliyyətinin dayandırılması.
1947, fevral – ÜİK(b)P MK-nın Plenumunun "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında" Qərarı.
1947, 14 dekabr – Ərzaq və sənaye mallarına kartoçka sisteminin ləğv edilməsi.
1947, 23 dekabr – SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı Qərarı.
1948, 10 mart – "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" Qərar.
1948-1953 – Ermənistan SSR-də yaşayan 144 mindən çox azərbaycanlının zorla Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi.

1948 – Dünyada ilk dəfə açıq dənizdə neft-mədən estakadalarının qurulması.
1948, 27 iyul – Uzunluğu 36 km olan Alabaşlı-Quşçu körpüsü dəmir yolunun salınması.
1948 – Suraxanı-Qala sahələrinin istismara verilməsi.
1948 – Ermənistan SSR-dən azərbaycanlıların 1948-1956-cı illərdə deportasiyası hüquqi cəhətdən BMT - nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə əsasən soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməsi.
1949 – Qala-Buzovna sahələrində elektrik dəmir yollarının istifadəsi.
1949 – Görkəmli filosof, akademik Heydər Hüseynovun intihar etməsi.
1949 – M.Ə.Rəsulzadənin Ankarada "Azərbaycan Kültür dərnəyi"ni yaratması.
1949, 7 noyabr – Neft daşlarında ilk dəniz neft quyusunun fontan vurması.
1949 – Taksi xidməti.
1949 – Bakıda ilk dəfə olaraq əl sistemli abonent teleqraf stansiyasının qurulması.
1949 – Ümumi yeddiillik təhsilə keçidin başlanması.
1949 – Saatlı, İmişli, Mirbəşir (indiki Tərtər), Əli Bayramlı, Göyçay, Kürdəmir, Ucar, Xaldan, Zərdab, Yevlax, Jdanov (indiki Beyləqan), Sabirabad, Salyan, Gədəbəy və Bərdə kimi aran rayonlarına 15276 adamın köçürülməsi.
1950 – SSRİ Nazirlər Sovetinin qərarı ilə yeni neft Birliyinin – "Azdənizneft"in yaradılması.
1950-51 – 20 ali təhsil müəssisəsinin olması.
1951 – Qaradağ sement zavodunun işə düşməsi.
1953, 5 mart – İ.V.Stalinin vəfat etməsi.
1953, 1 aprel –Yeni Bakı Neftayırma zavodunun işə salınması.
1953, 12-13 iyul – M.C.Bağırovun vəzifəsindən kənarlaşdırılması.

1953, sentyabr – N.S.Xruşşovun Sov. İKP MK-nın Birinci katibi seçilməsi.
1953, sonu – "Azdənizneft", "Azneftkəşfiyyat", "Azneft" birliklərinin "Azneft" Birliyində birləşdirilməsi.
1954, 14-16 fevral – Azərbaycan KP-nin keçirilən XX Qurultayında Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə akademik İmam Daşdəmir oğlu Mustafayevin seçilməsi.
1954, 31 iyul – SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın "1955-1960–cı illərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" Qərarı.
1954, 1 avqust – Azərbaycan SSR Neft Sənayesi Nazirliyinin yaradılması.
1954 – Abşeron DRES (Dövlət rayon elektrik stansiyası) və Mingəçevir su-elektrik stansiyasının istifadəyə verilməsi.
1954-1956 – 1316 təsərrüfat və 5876 nəfərin Ermənistandan deportasiya olunması.
1955, 15 avqust – SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə 14-16 yaşlı şagirdlər üçün istehsalatda 4 saatlıq iş gününün müəyyən olunması.
1955, noyabr – Müstəqil Azərbaycan Dəmiryol İdarəsinin yaradılması.
1956 –- SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə 16 yaşından 18 yaşına qədər işçilər üçün 6 saatlıq, istirahət günləri qabağı və bayramqabağı günlər əmək haqqı tam saxlanılmaqla 4 saata qədər azaldılan iş gününün müəyyən olunması.
1956, 14 fevral – Azərbaycan televiziyasının fəaliyyətə başlaması.
1956, 26 mart – SSRİ Ali Sovetinin Fərmanı ilə ana qadının əlavə 112 günlük pulu ödənilən məzuniyyət alması.
1956 – "O olmasın, bu olsun" filminin çəkilməsi.
1956, aprel – Azərbaycanda güc orqanlarına rəhbərlik etmiş Y.D.Sumbatov – Topuridze, X.Qriqoryan, T.Borşov, S.Yemel-

yanov, A.Atakişiyev, K.Markaryanın güllələnməyə məhkum edilməsi.

1956, 12-26 aprel – M.C.Bağırovun xalq düşməni kimi ölüm cəzasına – güllələnməyə məhkum edilməsi.

1956 – Konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması haqqında yeni maddənin əlavə edilməsi.

1956, may – Məhkəmə quruculuğu, mülki cinayət və məhkəmə məcəllələrinin qəbulu, idarəçiliyin mərkəzdən Respublikanın ixtiyarına verilməsi. İslak Əmək Düşərgələri Baş İdarəsinin (QULAQ) ləğv edilməsi.

1957, 31 iyul – Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "SSRİ-də mənzil tikintisinin inkişafı haqqında" Qərarı.

1957, iyul – "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında" Qərarı.

1958 – "Uzaq sahillərdə" filminin çəkilməsi.

1958-1966 – Mingəçevirdə kabel, Bakıda poladəritmə, soyuducu və şin, Sumqayıtda super fosfat və kimya kombinatı, Gəncədə alüminium zavodlarının işə düşməsi.

1958 – Ermənilərin katalikosu II Vazgenin Bakıya səfəri.

1959, iyul – Sov. İKP MK tərəfindən İ.Mustafayevin millətçilikdə təqsirləndirilərək vəzifədən azad edilməsi. Vəli Yusif oğlu Axundovun Azərbaycan KP MK-nin Birinci katibi təyin edilməsi.

1959 – Əli Bayramlıda istilik-elektrik stansiyası, Daşkəsəndə dəmir filizi üçün saflaşdırma kombinatının istifadəyə verilməsi.

1959 – İcbari səkkizillik təhsilin müəyyən edilməsi.

1961 – Qaz emalı zavodunun işə salınması.

1961 – Pul islahatı.

1962 – "Milli Azərbaycan Qərargahı"nın (MAQ) yaradılması.

1962 – Bakı-Krasnovodsk gəmi-bərə yolunun yaradılması.

1964 – Naxçıvanda Bakı radio zavodunun filialının açılması.

1964, yaz – Azərbaycanın Rusiyanın tərkibinə "daxil olması"nın 150 illiyinin "bayram" edilməsi.

1964, 14 oktyabr – Sov.İKP MK-nın plenumunda N.S.Xruşşovun vəzifəsindən kənar edilməsi və L.İ.Brejnevin Sov. İKP MK-nın Birinci (1966-cı ildən Baş katib) katibi vəzifəsinə seçilməsi.
1965 – Uydurma "erməni soyqırımı"nın 50 illiyi, Andronikin isə 100 illiyinin Ermənistanda dövlət səviyyəsində qeyd edilməsi.
1965 – Heydər Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi Sədrinin müavini təyin olunması.
1966 – Bakı-Şuşa radiorele xəttinin istifadəyə verilməsi.
1966 – Məcburi onillik təhsilə keçilməsi. "İnternat məktəb"inin yaranması. Texniki peşə məktəbləri şəbəkəsinin genişləndirilməsi.
1967 – Yevlax-Bərdə-Ağdam dəmir yolunun istifadəyə verilməsi.
1967 – Bakı metropoliteninin 6 stansiyasının istifadəyə verilməsi.
1967 – Stepanakertdə (Xankəndində) bir neçə azərbaycanlının qətlə yetirilməsi.
1967 – Heydər Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin Sədri təyin olunması.
1969, mart – Azərbaycan Dövlət Universitetinin tarixçi alimləri Z.M.Bünyadov, M.Ə.İsmayılov və S.Əliyarovun Azərbaycanın XIX əsrin əvvəllərində çar Rusiyasının zəbt etməsi ilə bağlı çıxışları.
1969, 7 may – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sərhəd rayonlarında 2 min ha-dan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də verilmiş Qərarı təsdiq etməsi. İyulda hakimiyyətə gələn Heydər Əliyev tərəfindən bu qərarın icrasının qarşısının alınması.
1969, 14 iyul – Heydər Əlirza oğlu Əliyevin Azərbaycan SSR KP MK-nın Birinci katibi seçilməsi.
1969 – Şuşa-Naxçıvan radiorele xəttinin istifadəyə verilməsi.
1969-1982 – Heydər Əliyevin respublikaya rəhbərliyinin ilk dövrü.
1970 – Radiorele xətti ilə Bakı televiziya stansiyasının ilk dəfə Moskvadan rəngli televiziya proqramını göstərmək imkanını əldə etməsi.

1971 – Naxçıvan MSSR-də Araz su-elektrik stansiyasının işə salınması.
1971 – Respublikada orta hərbi internat məktəbinin yaradılması.
1971, mart - Bakıda Dəniz vağzalının açılması.
1971 – C.Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbinin açılışı.
1972, 11 dekabr - İndiki H.Əliyev adına Respublika sarayının tikilməsi.
1973 – Stepanakertdə (Xankəndində) Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında müstəqil pedaqoji institutun açılışı.
1975, 25 dekabr – Bakıda Məişət Kondisionerləri zavodunun tikilməsi.
1977 – Heydər Əliyevin Nizami irsinin yenidən tədqiq edilməsi haqqında Qərarı.
1977 – Kəlbəcərə "Muğan yolu"nun çəkilşi.
1977, payız – Cənubi Azərbaycanda tələbə və şagirdlərin çıxışları.
1978, yanvar – Qum şəhərində Konstitusiya prinsiplərinə, qaydalarına riayət olunması, şahlığın ləğv edilməsi tələbləri ilə nümayişin keçirilməsi.
1978, 18 fevral (1356, 29 bəhmən) – Təbriz şəhərinin din başçılarının əhaliyə müraciəti. 29 bəhmən üsyanı.
1978, 19 fevral –Təbriz üsyanının qəddarlıqla yatırılması.
1978, 29-30 mart – Tehran, İsfahan, Məşhəd, Əraq, Qum, Təbriz, Zəncan və b. şəhərlərində üsyanların baş verməsi.
1978, aprel – Azərbaycan SSR Konstitusiyasının qəbul olunması. Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili qəbul olunması.
1978, may – Naxçıvan MSSR-in Konstitusiyasının qəbul olunması.
1978, may – İranın 20-dən çox şəhərində çıxışların baş verməsi.
1978, 7 sentyabr – İran inqilabının II mərhələsinin başlanması.
1978, 8 sentyabr – "Qanlı cümə günü".

1978 – Bakının Lenin ordeni ilə təltif edilməsi.
1978, dekabr – 1979, fevralın əvvəlləri – Neftçilərin ümumi tətili.
1979, 11-16 fevral – Cənubi Azərbaycanda İran inqilabının başa çatması.
1979, 1 aprel – Ayətullah Xomeyni. İran İslam Respublikasını (İİR) yaradılması.
1979 – Ağdam - Xankəndi dəmiryolunun çəkilişi. Əsgəran rayonunun təşkil olunması.
70-ci illər – Cənubi Qafqazda ən iri poladtökmə zavodunun tikilməsi.
70-ci illər – Mərkəzin ermənilərin təhriki ilə Kəlbəcər rayonunun perspektivsizliyi bəhanəsi ilə buradan əhalinin köçürülməsi və rayon ərazisinin yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələni qaldırması.
70-ci illərin ortaları – Tərtər su-elektrik stansiyasının işə salınması.
80-ci illər – Gülüstan sarayı, örtülü idman kompleksinin tikilməsi.
1980, sonu – Azərbaycanlıların Ermənistandan zorla çıxarılması.
1980 - 1981 – Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərənin ucaldılması.
1980-1988 – İran-İraq müharibəsi.
1981, sentyabr – İran İslam Məclisinin torpaq islahatı haqqında Qanunu.
1981-1984 – Şəmkir su-elektrik stansiyasının işə salınması.
1982 – Sabirabadda iri su təchizatı kompleksinin istifadəyə verilməsi.
1983 – Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi.
1984, oktyabr – Azərbaycan SSR Ali Sovetinin Qərarı ilə Qazax və Gədəbəy rayonlarında min hektarlarla torpaq sahəsinin Ermənistana verilməsi.
1985 – Dərin Dəniz özülləri zavodunun istifadəyə verilməsi.

1985 – Sovet imperiyasında alkoqolizmə qarşı mübarizə kompaniyası.
1985, 3 sentyabr– Bakıda yeni zooparkın açılışı.
1985, aprel – Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçovun KP Mərkəzi Komitənin plenumunda "sürətləndirmə konsepsiyası"nı irəli sürməsi. "Yenidənqurma" xətti.
1987, yanvar – Sov.İKP MK-nın plenumunda "aşkarlıq və demokratiya xətti"nin qəbul edilməsi.
1987 – Bakıda Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyinin fəaliyyətə başlaması.
1988, 25 yanvar – Qafan və Mehri rayonlarından ilk qaçqınların Azərbaycana gəlməsi.
1988, 12 fevral – İrəvanda "Ermənistanı türklərdən təmizləməli!" və başqa millətçi şüarlarla mitinqlərin keçirilməsi.
1988, 19 fevral – Bakıda ilk etiraz mitinqinin keçirilməsi.
1988, 21 fevral – Əsgəran rayonunda emənilərin 2 nəfər azərbaycanlı gənci qətlə yetirməsi və 19 nəfəri yaralaması.
1988, 28 fevral – Sumqayıtda "paşa" ləqəbli Edik Qriqoryanın cinayətləri.
1988, mart – İrəvan şəhəri yaxınlığındakı Mehmandar (4 nəfər), Ararat rayonunun Vedi, Şirazlı, Xalisə, Şidli kəndlərində onlarla azərbaycanlı sakinin qətlə yetirilməsi.
1988, 15 iyun – Ermənistan SSR Ali Sovetinin qeyri-qanuni olaraq, DQMV-ni Emənistanın tərkibinə qəbul etməyə razılıq verməsi.
1988, 18 sentyabr – Ermənilərin Xocalıda qanlı cinayətləri.
1988, 21 sentyabr - 18 oktyabr – Xankəndində azərbaycanlıların və buna cavab olaraq Şuşada ermənilərin evlərinin, avtomobillərinin yandırılması.
1988, 17 noyabr – Azərbaycan xalq hərəkatının başlanması.
1988, 24 noyabr – Bakı, Naxçıvan və Gəncə şəhərində xüsusi vəziyyət və komendant saatının tətbiq edilməsi.

1988, 24 noyabr – Ermənistanın silahlı dəstələrinin Qubadlı rayonunun Eyvazlı, Davudlu və Qədirli kəndlərində azərbaycanlılara qarşı qırğın törətməsi.
1988, noyabrın sonu - dekabrın əvvəlləri – Quqark rayonunda 70 nəfər azərbaycanlının qətlə yetirilməsi. Rayonun Gözəldərə (21 nəfər, o cümlədən 6 qadın, 3 körpə), Vartana (17 nəfər) kəndlərində onlarla azərbaycanlı sakinin oldürülməsi. Leninakan uşaq evində yaşayan 70 nəfər azərbaycanlı uşağın Spitakda diridiri borunun içinə doldurub ağzını qaynaqlanması.
1988, 4 dekabr – Hərbiçilər tərəfindən meydandan mitinqçilərin qovulması və həbs edilməsi.
1988, 11 dekabr – Azərbaycandan Ermənistana zəlzələ zonasına köməyə gedən 78 nəfərlik İL-76 təyyarəsinin ermənilər tərəfindən Leninakan yaxınlığında vurulması.
1988 – Ermənistandakı 185 azərbaycanlı kəndindən 230 min nəfər azərbaycanlının qovulması.
1989, 12 yanvar – SSRİ Ali Soveti Rəyasət Heyətinin "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" Qərarı. A.Volskinin rəhbərliyi ilə Moskvaya tabe olan Xüsusi İdarə Komitəsinin (XİK) yaradılması.
1989, 16 iyul – Bakıda AXC-nin təsis konfransının keçirilməsi. Cəbhənin Proqram və Nizamnaməsinin qəbul edilməsi. Əbülfəz Elçibəy.
1989, 23 sentyabr – Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya Qanununun qəbul edilməsi.
1989, 28 noyabr – SSRİ Ali Sovetinin DQMV-də Xüsusi İdarə Komitəsini (XİK) ləğv etməsi.
1989, 1 dekabr – Ermənistan SSR Ali Sovetinin "Ermənistan SSR-ə Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağ"ı birləşdirmək haqqında" qeyri - qanuni Qərarı.

1989, 31 dekabr – Naxçıvan MSSR-də Araz çayı boyunca Sovet-İran sərhədində sərhəd qurğularının sökülməsi.
1989 – İlk dəfə çoxmandatlı sistem əsasında xalq deputatları seçkilərinin keçirilməsi.
1990 – Metropolitenin 18 stansiyasının fəaliyyət göstərməsi.
1990 – Respublikada 150-ə qədər telestansiya, 846 xəstəxananın fəaliyyət göstərməsi.
1990 – Azərbaycanda 4356-dan artıq ümumtəhsil məktəbinin, 176 texniki-peşə məktəbinin olması.
1990, 12 yanvar – Erməni quldur dəstələrinin Xanlar rayonunun Quşçu kəndinə hücum etməsi.
1990, 15 yanvar – SSRİ Ali Soveti Rəyasət Heyətinin "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" Fərmanı.
1990, 18 yanvar – Biləsuvar və Cəlilabad rayonlarında Sovet-İran sərhəd qurğularının dağıdılması.
1990, 19 yanvar – Naxçıvan MSSR Ali Sovetinin Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında Qərarı.
1990, 19 yanvar – SSRİ Ali Sovetinin Rəyasəti Heyətinin yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" Fərmanı.
1990, 19 yanvar – Dövlət Televiziyasının enerji blokunun axşam saat 19.27-də partladılması.
1990, 19 yanvar – Sovet ordusunun saat 21-dən Bakıya hücum edib, qanlı qırğın törətməsi.
90-cı illərin əvvəlləri – Azərbaycanda 17 ali, 78 orta ixtisas məktəbinin fəaliyyət göstərməsi.
1990, 20 yanvar – Fövqəladə vəziyyət haqqında Fərmanın saat 7-də elan olunması. "Qanlı yanvar"a etiraz olaraq 40 günlük ümummilli tətilin başlanması.
1990, 21 yanvar – Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində çıxışı.

1990, 24 yanvar – A.N.Mütəllibovun Azərbaycan KP MK-nın Birinci katibi seçilməsi.
1990, 24 mart – 3 erməni hərbi hissəsinin rusların köməyi ilə Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum etməsi, talanlar və qırğınlar törətməsi.
1990, 20 iyul – Heydər Əliyevin təyyarə ilə Moskvadan Bakıya qayıtması.
1990, 22 iyul – Heydər Əliyevin Naxçıvana getməsi.
1990, 30 sentyabr – Heydər Əliyevin Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçilməsi.
1990, 17 noyabr – Naxçıvan MSSR parlamentinin sessiyasının Muxtar Respublika adından "Sovet sosialist" sözünün götürülməsi haqqında Qərarı. Muxtar Respublika Ali Sovetinin Ali Məclis adlandırılması.
1990, 21 noyabr – Naxçıvan MR Ali Məclisində 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi.
1991, 5 fevral – Azərbaycan SSR Ali Sovetinin sessiyasının Qərarı ilə "Azərbaycan Respublikası" adının və üçrəngli bayrağının Dövlət Bayrağı kimi təsdiq olunması.
1991, 17 mart – SSRİ-nin saxlanılması ilə əlaqədar referendumun keçirilməsi.
1991, 8 avqust – Ermənistan SSR-də Nüvədi (Mehri rayonu) kəndinin sovet əsgərlərinin köməyi ilə boşaldılması.
1997, 18 dekabr – Prezident H.Əliyevin imzaladığı "1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı.
1998, 26 mart – Prezident H.Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı.

XIV FƏSİL
MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI

I BƏND:
Dövlət müstəqilliyinin bərpa olunması və onun möhkəmləndirilməsi uğrunda mübarizə (1991-1995-ci illər)

Plan:

1. Qondarma "Dağlıq Qarabağ" məsələsi və onun Azərbaycanın ictimai-siyasi durumuna təsiri.
2. Dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycan müstəqilliyin ilk illərində.
3.Milli qurtuluş. Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gətirilməsi.
4. Azərbaycan Respublikasının yeni neft strategiyası. "Əsrin müqaviləsinin" imzalanması.

1. Qondarma "Dağlıq Qarabağ" məsələsi və onun Azərbaycanın ictimai-siyasi durumuna təsiri

Qarabağ məsələsi iki əsrdir ki, zaman-zaman gündəmə gəlir. *1923-cü ilin iyulun 7-də* Azərbaycanın iradəsinə zidd olaraq, Moskvanın bolşevik havadarlarının dəstəyi ilə ona vilayət statusu verilmişdir. ***Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağ" bölgəsi*** Kiçik Qafqazın cənub-şərqində yerləşir, ərazisi təqribən ***4,4 min kv. km***-dir. Tərkibinə ***5 rayon – Əsgəran, Hadrut, Mardakert (Ağdərə), Martuni (Xocavənd)*** və ***Şuşa*** daxildir. *1828-ci il* Türkmənçay müqaviləsindən sonra İrandan və Osmanlının şərqindən bura kütləvi şəkildə ermənilərin köçürülməsi nəticə-

sində əhalinin milli tərkibindəki nisbət ermənilərin xeyrinə dəyişmişdir. *1989-cu ildə* vilayətdəki əhalinin ***73,4%-i ermənilər, 25,3%-i azərbaycanlılar, 1,3%-i isə qeyri millətlər*** təşkil etmişdir [12, s. 234]. Sovet İttifaqının "yenidənqurma", "aşkarlıq" siyasətindən istifadə edən ermənilər yenidən Azərbaycana ərazi iddialarını qaldırdılar. Milli qızışdırmada erməni ziyalılarının, xüsusən P.Qazaryan, Zori Balayan, Silva Kaputikyan və başqalarının azərbaycanlılara iftira və təhqirlə dolu, tarixi saxtalaşdırıcı "əsərlər"inin də mühüm rolu olmuşdur. *1987-ci ilin avqustunda* Ermənistan Elmlər Akademiyası Moskvaya Qarabağın bir hissəsinin və hətta Naxçıvanın Ermənistana verilməsi barədə yüz minlərlə ermənin imzası olan xahiş ərizəsi göndərmişdir. *1987-ci ildə* Ulu öndər H.Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılmasından istifadə edən "Qarabağ Komitəsi" oktyabrda *İrəvan şəhərində ilk açıq miting* keçirdi. Bu komitə Azərbaycanda, xüsusən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında uzun müddət fəaliyyət göstərən yerli *"Krunk"* təşkilatı açıq fəaliyyətə başladılar. *"Miatsum"* hərəkatı genişləndi. Ona rəhbərlik etmək məqsədi ilə *1988-ci il mayın 2-də "55-lər Komitəsi"* yaradıldı. Erməni millətçiləri Qarabağın bir hissəsinin Ermənistana verilməsini tələb edərkən Azərbaycanın guya vilayətin sosial-iqtisadi və mədəni inkişafına diqqət yetirmədiyini əsas kimi götürdülər. Halbuki, Sovet hakimiyyəti illərində keçmiş "Dağlıq Qarabağ vilayəti" Azərbaycanın digər bölgələrinə nisbətən daha yüksək templə inkişaf etmişdir. *1988-ci ilin əvvəllərində* Ermənistanın dəstəyi və Mərkəzin müşahidəsi və qızışdırıcı siyasəti ilə Qarabağ iqtisadi rayonunda ermənilərin separatçı hərəkatları daha da artdı. ***1988-ci il fevralın 20-də*** keçmiş "DQMV" Sovetinin sessiyası "DQMV-nin Ermənistanın tərkibinə daxil edilməsini" təklif edən Qərar qəbul etdi. Ermənistan SSR Ali Soveti ***1988-ci il iyunun 15-də*** Azərbaycan SSR Ali Sovetindən "DQMV"-nin Ermənistanın tərkibinə daxil edilməsinə razılıq verməsini təklif etdi. ***İyunun 21-də*** Vilayət Xalq Deputatları So-

vetinin fövqəladə sessiyası SSRİ Ali Sovetinə müraciətlə "DQMV"-nin Ermənistan SSR-ə verilməsini xahiş etdi. ***İyulun 12-də*** Vilayət Sovetinin sessiyası qeyri-qanuni olaraq "DQMV"-nin Azərbaycanın tərkibindən çıxdığı və Ermənistana birləşdirildiyi barədə qeyri-qanuni qərarı elan etdi. ***Sentyabrın 18-də*** ermənilər Xocalıya hücum etdilər. ***Sentyabrın 21*** və ***oktyabrın 18-də*** Xankəndində azərbaycanlıların və buna cavab olaraq, Şuşada ermənilərin evləri, avtomobilləri yandırıldı [106, s. 34]. ***1989-cu il yanvarın 12-də*** SSRİ Ali Soveti Rəyasət Heyyəti *"Azərbaycan SSR-nin "DQMV"-də xüsusi idarəçilik formasının tətbiqi haqqında"* Qərar qəbul etdi və birbaşa Moskvaya tabe olan *Xüsusi İdarə Komitəsi* yaradıldı. Bundan istifadə edən ermənilər ***1989-cu ilin iyununda Qarabağdakı*** Azərbaycan kəndlərini mühasirəyə aldılar, sovet ordu hissələrinin köməyi ilə ***Xankəndindən*** bütün azərbaycanlıları (14 min) çıxardılar [12, s. 236-237]. Azərbaycan demokratik qüvvələrinin tələbi ilə *1989-cu il noyabrın 28-də Xüsusi İdarə Komitəsi* ləğv olundu. Vilayətin idarəçiliyi ***V.Polyaniçkonun*** başçılığı ilə *Azərbaycan SSR Təşkilat Komitəsinə* tapşırıldı. *1989-cu il dekabrın 1-də* Ermənistan SSR Ali Soveti ***"DQMV-ni Ermənistana birləşdirmək haqqında"*** qeyri-qanuni Qərar qəbul etdi [66, s. 23; 270]. Xankəndində Ermənistan SSR-nin bayrağı qaldırıldı. Azərbaycan SSR Ali Soveti *1990-cı il iyunun 11-də* Ermənistanla sərhəd boyu *(976 km) fövqəladə vəziyyət* elan etdi. *1991-ci ilin mayında* bir sıra erməni kəndlərində pasport rejimi tətbiq edildi, erməni silahlı dəstələri tərksilah edildilər. Lakin, yenə də ermənilərin Azərbaycan kəndlərinə hücumları davam etməkdə idi. Bütün bunlar Azərbaycanın ictimai-siyasi durumuna kəskin mənfi təsir göstərirdi. Azərbaycanda ***ərazi bütövlüyü*** və ***suverenlik*** uğrunda xalq hərəkatı başladı. *1988-ci ilin əvvəllərində (fevralın 19) ilk etiraz çıxışları* başlandı. Xankəndində bir azərbaycanlının öldürülməsi xəbərini eşidən ağdamlılar fevralın 24-də Xankəndinə yürüş etdilər. Yürüş zamanı Əsgəranda 2 nəfər öldürüldü və 19 nəfər yaralandı.

"Topxana" meşəsində sənaye obyektinin tikilməsi xəbəri ***1988-ci il noyabrın 17-də "Azadlıq"*** meydanında xalqın izdihamlı mitinqinə təkan verdi. ***Noyabrın 17-də*** ilk dəfə "Azadlıq" meydanında ***AXC-nin üçrəngli bayrağı*** qaldırıldı. Bu tariximizə ***"Milli Dirçəliş"*** hadisəsi kimi daxil oldu. Mitinq *1988-ci il dekabrın 4-də* dağıdıldı. *1989-cu ilin martında* hərəkata rəhbərlik etmək üçün Xalq Cəbhəsinin Müvəqqəti Təşəbbüs Mərkəzi təşkil edildi. ***Əbülfəz Əliyev (Elçibəy)*** AXC-nin sədri seçildi. Sonrakı mitinqlər artıq AXC-nin rəhbərliyi ilə idarə olunurdu. Azərbaycan SSR Ali Sovetinin *1989-cu il sentyabrın 23-də* çağırılmış növbədənkənar sessiyası ***"Azərbaycan SSR-in suverenliyi haqqında"*** Konstitusiya Qanununu qəbul etdi. ***1989-cu il dekabrın 31-də Naxçıvanda*** Araz boyu 137 km Sovet-İran sərhəd qurğuları dağıdıldı. ***Yanvarın 18-də Biləsuvar*** və ***Cəlilabad*** rayonlarında sərhəd qurğuları ləğv edildi. Azərbaycanın SSRİ-nin tərkibindən çıxmaq təhlükəsini görən Mərkəz *1990-cı ilin əvvəllərində* Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirdi. SSRİ müdafiə naziri ***D.Yazov*** Gəncəyə gəldi. O, ***"Tayfun"*** əməliyyat planına görə AXC-ni dağıtmaq, *"demokratik hərəkatı"* boğmaq üçün tədbirlər görməyə başladı. *Yanvarın 13-də* Bakıda 1 ermənin 2 azərbaycanlını öldürməsi təşkil edildi [325]. Bakıda erməni talanları başlandı. Mərkəzin tapşırığı ilə milis və digər inzibati orqanlar seyrçi mövqe tutdular. Talanlar zamanı 56 nəfər erməni öldürüldü, 112 nəfər xəsarət aldı [72, s. 24]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən ***1990-cı il yanvarın 15-də*** SSRİ Ali Soveti Rəyasət Heyəti ***"DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması barədə"*** Fərman verdi [190, s. 37, 40]. Respublika hökuməti iflic vəziyyətində idi. Mərkəz Bakı ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı. Əhali Bakı ətrafında barrikadalar qurmağa başladılar. Hadisələri nəzarət etmək üçün Moskvadan Bakıya SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri ***Y.Primakov*** və Sov.İKP MK katibi ***A.Girenko*** göndərilmişdir. ***1990-cı il yanva-***

rın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti ***yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında"*** Fərman verdi [190, s. 82], lakin bu fərman gizli saxlanıldı. ***Yanvarın 19-da saat 19:27-də*** Azərbaycan Televiziyasının *enerli bloku* partladıldı [505]. ***1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə*** sovet qoşunları Bakıda *qanlı qırğın* törətdilər. Əməliyyata SSRİ-nin hərbi naziri ***D.Yazov*** başçılıq edirdi. Əməliyyat nəticəsində 132 nəfər (116-sı azərbaycanlı) günahsız adam qətlə yetirildi, 744 nəfər yaralandı, 4 nəfər itkin düşdü, 400 nəfər həbs edildi. Bu, tariximizə ***"Qanlı yanvar"*** hadisəsi kimi daxil oldu. Bakıda 3 günlük matəm elan edildi. Bakıda *fövqəladə vəziyyət, kamendant saatı* tətbiq edildi. AXC dağıdıldı. Bundan sonra *suverenlik* və *azadlıq* uğrunda *mübarizənin yeni mərhələsi* başlandı [12, s. 239-241].

"QANLI YANVAR" (20.01.1990.) HADİSƏSİNDƏ AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİNİN ŞƏHİDLİK ZİRVƏSİNƏ YÜKSƏLƏN MƏZUNLARI:

1.Babayev Ramin Vaqif oğlu (1970-1990);
2.Orucuv Canpolad Mahiyyədin oğlu (1965-1988);
3.Novruzbəyli Ağabəy Oktay oğlu (1971-1990).

2. Dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycan müstəqilliyin ilk illərində

Mərkəzin yuxarı eşelonlarında mühafizəkar qüvvələrin başçıları *1991-ci il 18-19 avqustda* dövlət çevrilişinə cəhd edib, Forosda (Krımda) istirahət edən *Mixail Qorbaçovu* "neytrallaşdırıb", Dövlət Fövqəladə Vəziyyət Komitəsi (QKÇP) təşkil etdilər və "demokratikləşdirmə"nin, "yenidənqurma"nın yaratdığı iflasdan imperiyanı qurtarmaq üçün bütün hakimiyyəti öz əllərinə aldılar [261].

Lakin demokratik qüvvələr SSRİ-də dövlət çevrilişinin qarşısını aldılar. Moskvada *1991-ci il avqust* hadisələrindən sonra Azərbaycanda siyasi vəziyyət daha da gərginləşdi. *Avqustun 22-də* Azərbaycan xalqı respublikanın rəhbərliyinə qarşı narazılıq çıxışlarını gücləndirdi. *Avqustun 23-də* AXC qərargahı qarşısındakı mitinqdə dinc əhaliyə qarşı güc tətbiq edildi, adamlar xəsarət aldılar [506]. *Avqustun 25-27-də* Bakının Azadlıq meydanında bir milyona yaxın adamın iştirak etdiyi ümumşəhər mitinqləri keçirildi. Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkilərinin keçirilməsi, Kommunist Partiyasının ağalığının, fövqəladə vəziyyətin ləğv edilməsi, "DQMV"-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlərin görülməsi tələb edilirdi [287]. Azərbaycan Respublikası Ali Sovetinin xalqın təkidi ilə çağırılmış növbədənkənar sessiyası ***1991-ci il avqustun 30-da saat 13.30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyanatı – "Azadlıq Bəyannamə"sini*** qəbul etdi. "Azadlıq Bəyannaməsi"ndə qeyd olunurdu: "Azərbaycan Respublikasının Ali Soveti xalqın ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək; *1918-ci ildən 1920-ci ilədək* Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək; Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında Konstitusiya Qanunlarına əsaslanaraq... Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir" [288].

1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisi ***Heydər Əliyevi*** Ali Məclisin Sədri seçdi. Ertəsi gün – *sentyabrın 4-də* Ali Məclisin qərarı ilə Naxçıvan MR ərazisində prezident seçkiləri dayandırıldı. *8 sentyabr* tarixində keçirilən prezident seçkilərində ***A.Mütəllibov*** yenidən prezident "seçildi".

Erməni silahlı qüvvələrinin qarşısını almaq məqsədilə Azərbaycan Respublikası Ali Soveti ***1991-ci il oktyabrın 9-da***

"Azərbaycan milli özünümüdafiə qüvvələri haqqında" Qanun qəbul etdi. Lakin düşmən hücumunun qarşısını almaq üçün dövlət səviyyəsində lazımi tədbirlər görülmürdü. 10 minlərlə dinc əhali qaçqına çevrilmişdir. Sovet Ordu hissələrinin köməyi ilə ermənilər Goranboy rayonunun bir neçə kəndini ələ keçirib dağıtmışdılar.

Xalqın təkidi ilə Ali Sovetin ***1991-ci il oktyabrın 18-də*** toplanmış sessiyası ***"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı*** qəbul etdi. Bununla Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Yerlərdə möhkəmlənmək üçün prezident ***oktyabrın 18-də*** rayonlarda, şəhərlərdə və şəhər rayonlarında *icra hakimiyyəti başçısı vəzifəsi* təsis etdi və özünə sadiq adamları həmin vəzifələrə təyin etdi. *Prezident idarəsi* yaradıldı. *Dövlət katibi* və *dövlət müşavirləri* vəzifələri təsis olundu. İlk dövlət katibi akademik Tofiq İsmayılov təyin edildi [507].

Yuxarı Qarabağda ***Xocavəndin*** erməni işğalçıları tərəfindən hücumlara məruz qalması ilə əlaqədar vəziyyəti yerində öyrənmək üçün respublikanın yüksək dövlət və hökumət nümayəndələrini, o cümlədən Dövlət katibini, Daxili İşlər nazirini, Baş prokuroru, habelə SSRİ Müdafiə Nazirliyi nümayəndələrini, Rusiya və Qazaxıstan müşahidəçilərini Ağdama aparan vertalyotun ***1991-ci il noyabrın 20-də Qarakənd*** erməni yaşayış məntəqəsi yaxınlığında vurulub salınması xəbəri Azərbaycan xalqını sarsıtdı [292].

Noyabrın 26-da Ali Sovet bərabər əsasda 25 nəfər Demokratik blok nümayəndəsindən və 25 nəfər iqtidaryonlü deputatdan ibarət ***Milli Şura*** yaratdı. ***1991-ci il dekabrın 8-də*** Brest şəhəri yaxınlığındakı *"Viskuli"* mehmanxanasında ***Belorus, RF*** və ***Ukrayna*** respublikaları rəhbərləri ***Müstəqil Dövlətlər Birliyi (MDB)*** yaradılması haqqında müqavilə bağladılar və SSRİ-nin beynəlxalq subyekt kimi varlığına son qoyuldüğünü elan etdilər. ***Dekabrın 25-də*** M.Qarbaçov SSRİ Prezidenti vəzifəsindən istefa verdi. Beləliklə, hüquqi cəhətdən ***SSRİ-nin varlığına son qo-***

yuldu.

Azərbaycan Respublikasında ***dekabrın 29-da referendum*** keçirildi. ***1992-ci ilin mayın 27-də*** Milli Məclis Azərbaycan Respublikasının ***Dövlət himnini*** *(musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadındır),* ***1993-cü il fevralın 23-də*** isə üçrəngli dairəvi qalxan üzərində, içində alov olan səkkizguşəli ulduz təsvirli ***Dövlət gerbini*** təsdiq etdi [48; 68, s. 149]. *1993-cü ilin əvvəllərində* Azərbaycanın dövlət müstəqilliyi 116 dövlət tərəfindən tanınmış, 70 xarici dövlət ilə diplomatik əlaqələr qurulmuşdur [436]. Azərbaycan Respublikası ***14 beynəlxalq təşkilata*** üzv qəbul edilmişdir. Azərbaycan *1991-ci il dekabrın 8-də* ***İslam Konfransı Təşkilatına,*** *1992-ci ilin fevralında* İran, Türkiyə və Pakistan dövlətlərinin daxil olduğu ***İqtisadi Əməkdaşlıq Təşkilatına,*** *1992-ci yanvarın 20-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə* ***(ATƏM, 1994-cü ildən ATƏT),*** *martın 2-də isə Birləşmiş Millətlər Təşkilatına (****BMT****-yə)* üzv qəbul olunmuş, *1992-ci il iynun 8-də* ***Helsinki müşavirəsinin 1976-cı il Yekun aktına****, iyulun 10-da isə* ***Helsinki Yekun sənədinə*** tərəfdar çıxmış [508; 29, s. 289], *1992-cı il iyunun 25-də* Qara dəniz hövzəsində ***İqtisadi Əməkdaşlıq haqqında Bəyannamə*** imzalayan 11 dövlətdən biri olmuşdur [70, s. 320-330].

Müstəqilliyini elan etmiş Azərbaycan Respublikası ilk günlərdən digər dövlətlərlə münasibətlərini *dövlət sərhədlərinin toxunulmazlığı, ərazi bütövluyu, mübahisəli məsələlərin dinc yolla nizama salınması, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri* əsasında qurdu. Azərbaycan Helsinki Müşavirəsinin Yekun Aktında irəli sürülən hüquqi öhdəlikləri yerinə yetirməyə çalışırdı. Bununla belə, iqtidar dünyanın böyük dövlətlərinin Azərbaycanla bağlı maraqlarını təmin edə biləcək tarazlı siyasət yeridə bilmədiyindən Qarabağ probleminin vaxtında həlli üçün ona lazımi dəstək verilmədi. ***1991-ci ilin sonunda*** Rusiya ilə Ermənistan arasında ***"Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə"*** bağlanması Rusiyaya Qarabağ ermənilərini Azərbaycana qarşı açıq-aşkar silahlandır-

maq imkanı verdi.

Ali Sovet ***1991-ci il avqustun 30-da "Azərbaycanın milli özünümüdafiə qüvvələri yaratmaq haqqında", 1991-ci il oktyabrın 9-da Ali Sovet "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında"*** Qanunlar qəbul etdi. ***1991-ci ilin noyabrın 19-da*** 22 sərhədyanı bölgədə yerli əhalidən könüllü ərazi özünümüdafiə batalyonları yaradılması haqqında Əmr verildi. Buna baxmayaraq, döyüş qabiliyyətinə malik olmayan, lazımi silah və sursatla təmin olunmayan və müdafiə taktikası seçməyə məcbur olan özünümüdafiə batalyonları rus və erməni silahlı qüvvələrinin hücumlarının qarşısını ala bilmirdilər. Belə bir şəraitdə ermənilər rusların köməyi ilə ***1992-ci il yanvarın 19-da Kərkicahan, yanvarın 21-də Qeybalı, fevralın 12-də Malıbəyli, Quşçülar*** *kəndlərini* ələ keçirib Xocalı və Şuşanı mühasirəyə almağa başladılar. Şuşanı mühasirədən çıxarmaq üçün *1992-ci il yanvarın 25-dən 26-na keçən gecə* aparılan ***"Daşaltı"*** əməliyyatı uğursuz oldu. Satqın bələdçilər bir çox əsgəri və zirehli maşınları minalanmış əraziyə saldılar, ordu böyük tələfat verdi – 33 nəfər həlak oldu, 34 nəfər itkin düşdü, 36 nəfər yaralandı. Döyüşlərdə düşmən də 150 nəfərədək itki verdi [290; 327]. Qeyri-bərabər döyüşdə düşmən hərbi hissələri fevralın ortalarında ***Qarabağlı kəndini*** ələ keçirib 92 müdafiəçini və 54 kənd sakinini vəhşicəsinə qətlə yetirərək, meyitləri silos quyularına atdılar [294]. ***1992-ci il fevralın 25-də axşam saat 9-da*** erməni silahlı qüvvələri, Xankəndindəki Rusiyaya məxsus ***366-cı*** və ***81-ci*** mexanikləşdirilmiş atıcı alayları və muzdlu quldurlar ***Xocalıya*** hücum etdilər. Cəmi 150 nəfər müdafiəçisi olan Xocalı düşmənlə üz-üzə qaldı. Düşmən ilk zərbəni hava limanına vurdu. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru ***Əlif Hacıyevin*** rəhbərlik etdiyi 22 nəfərlik dəstə düşmənin hücumlarını üç dəfə qəhrəmanlıqla dəf edə bildi. Komandir ***Əlif Hacıyev*** dispetçer məntəqəsini partladaraq düşmən əlinə keçməsinə imkan vermədi və sonrakı döyüşlərdə o, qəhrəmancasına həlak oldu. Komandir ***Tofiq Hüseynov*** onlarla adamın mühasirədən çıxmasına şərait

yaratdı, son gülləni isə özünə vurdu. Ölümündən sonra hər ikisinə Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Xocalı soyqırımında ***613 nəfər,*** o cümlədən ***106 qadın, 83 azsaylı uşaq, 70 qoca*** öldürüldü, ***1000 nəfərdən*** çox dinc sakin yaralandı, ***1275 nəfər*** əsir götürüldü, ***8 ailə*** bütünlüklə məhv edildi, ***56 nəfər*** xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi [225; 305; 349], şəhər bütünlüklə yandırıldı. ***Xocalı faciəsindən*** sonra *1992-ci il martın 5-də* fövqəladə sessiyada Ali Sovetin sədri Elmira Qafarova istefa verdi. Onun yerinə deputat Yaqub Məmmədov seçildi [448], martın 6-da isə A.Mütəllibov istefa verməyə məcbur oldu. *1992-ci ilin martın 17-də* Rusiyanın əlaltısı ***Rəhim Qazıyev*** Müdafiə naziri vəzifəsini ələ keçirdi [7, s. 301].

Şuşa artıq mühasirədə idi. 1500 nəfər döyüşçüsü olan Şuşa batalyonunda 500 döyüşçü qalmışdır [326]. Şuşanm müdafiəsində cəmi 24 tank dururdu. 200 könüllü əsgər silahı ilə şəhəri tərk etmişdir. Hərbi texnika, "Qrad" qurğuları şəhərdən çıxarılmışdır. Xüsusi milis taburunun döyüşçüləri *mayın 4-də* Şuşanı tərk edib, Böyük Kirsdə mövqe tutmuşdular [265]. Hücum ərəfəsində döyüşçülərin məzuniyyətə buraxılması Rəhim Qazıyevin niyyətindən xəbər verirdi. ***1992-ci il mayın 7-dən 8-nə keçən gecə*** şəhər güclü artilleriya atəşinə tutuldu və 6000 düşmən əsgəri 80 T – 72 tankla şəhərə hücum etdi [291; 326]. MDB-nin 366-cı alayı (180 hərbi mütəxəssis və 90 ağır hərbi texnika) öz xidmətlərini göstərdi. Axşam köməyə gəlmiş vertolyot isə səhvən şəhərin müdafiəçilərinin mövqeyini atəşə tutdu. Axşam üstü qalan 30-40 müdafiəçi də şəhəri tərk etdi [326]. Döyüş zamanı ***155 nəfər şəhid oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü*** [203]. ***Mayın 9-da Şuşa süqut etdi.***

Moskvanın dəstəyi ilə *A.Mütəllibovun* tərəfdarları ***1992-ci il 14 mayda*** keçirilən Ali Sovetin sessiyasında onu yenidən hakimiyyətə gətirdilər. AXC öz tərəfdarlarının və cəbhədən geri çağırdığı hərbi qüvvələrin köməyi ilə Parlament binasını, Prezi-

dent sarayını və digər dövlət əhəmiyyətli məntəqələri ələ keçirdi. *Mayın 18-də* çağırılan sessiyada Ali Sovetin sədri ***Yaqub Məmmədov*** istefa verdi və ***İsa Qəmbərov*** bu vəzifəyə seçildi. Milli Şura ***"Milli Məclis"*** adlandırıldı və parlamentin səlahiyyətləri ona verildi. Silahlı qüvvələrin Laçından çıxarılmasından istifadə edən düşmən ***mayın 18-də Laçını*** işğal etdi. Azərbaycanın Qarabağ iqtisadi rayonunun bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağ" ilə Ermənistan arasında dəhliz yarandı.

1992-ci il iyunun 7-də keçirilən *prezident seçkilərində* AXC-nin sədri ***Əbülfəz Elçibəy prezident*** seçildi. Azərbaycanda ***AXC-Müsavat cütlüyü*** hakimiyyətə gəldi.

Xalq Cəbhəsi-Müsavat cütlüyü dövründə Respublikada siyasi və iqtisadi böhran dərinləşdi. Yeni idarəçilik mexanizmi işləmirdi. İqtisadiyyatda soyğunçuluq baş alıb gedirdi. İşsizlik sürətlə artırdı.

1992-ci il mayın 15-də SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında ***Daşkəsən müqaviləsinə*** əsasən Azərbaycana verilən silah və hərbi sursat əsasında ordunun təchizatı nisbətən yaxşılaşdı. Aviasiya polku yaradıldı. Xəzər donanmasının qüvvə və vəsaitinin 25%-i, o cümlədən Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Respublikasına verildi. Lakin Azərbaycana verilən obyektlər, texnika qənaətbəxş vəziyyətdə deyildi. Texnika qəsdən sıradan çıxarılır, işlək cihazlar sökülüb aparılırdı.

Respublikanın silahlı qüvvələrini vahid mərkəzdən idarə etmək məqsədilə Müdafiə Nazirliyində ***vahid komandanlıq yaradılması haqqında 1992-ci ilin iyunun 27-də*** qəbul olunan ***Dekret*** müəyyən rol oynadı. Azərbaycan milli ordusu xüsusi təyinatlı polis dəstələrinin köməyi ilə işğal olunmuş ərazilərin bir hissəsini quldurlardan təmizlədi.

1992-ci il iyunun 4-də *Əsgəran rayonunun Aranzəmin, Pircamal, Naxçivanik, Sırxavənd, Orta və Baş Güneypəyə, Kiçan, Bəşirlər, Maniklu* və *Qaraşlar kəndləri,* ***iyunun 12-dən*** podpolkovnik N.Sadıqovun rəhbərliyi altında Azərbaycan ordu-

sunun ***Ağdərə əməliyyatı*** nəticəsində ***Goranboy bölgəsinin*** işğal edilmiş 30-a qədər kəndi, o cümlədən, *Yuxarı Canbuz, Aşağı Canbuz, Buzluq, Gülüstan, Talış, Zeyvə, Qaraçinar, Erməni Borisi,* habelə *Ortakənd* qəsəbəsi düşməndən azad edildi. Azərbaycan silahlı qüvvələri Xankəndinin 10-15 km-nə qədər olan əraziləri, Kəlbəcər-Tərtər yolu üstündəki kəndləri, *avqustun 5-də* Başkəndi tutdular. Bu döyüşlərdə Vəzir Orucov, Rəmzi Novruzov, Şaiq Mustafayev, Yunis Əliyev, Sərhəd Zöhrabbəyov, Yavər Cəbrayılov kimi yüzlərlə igid əsgərimiz rəşadətləri ilə fərqlənmişdilər. Gültəkin Əsgərova, Nurcahan Hüseynova, Könül Qəhrəmanova, Rəhilə Orucova, Məleykə Əhmədova kimi bir çox qadın döyüşçülərimiz mərdliklə vuruşmuşdular [289]. ***1992-ci ilin sentyabrın 23-də Xocavənd*** istiqamətində gedən döyüşlərdə də düşmən ciddi tələfat verdi. Oktyabrın əvvəllərində Azərbaycan ordusunun hissələri cənub istiqamətində hücum edib Laçın dəhlizini daraltdılar. İki briqada arasında cəmi 6 km məsafə qalmışdır [7, s. 315]. *Ə.Hümbətov* oktyabrın 5-də tank briqadasını geri çəkdi və tutulmuş mövqelər yenidən düşmən əlinə keçdi [213].

Hökumətin Türkiyəyə meylini açıq nümayiş etdirməsi nəinki regionda maraqları olan Rusiya və İranı, hətta Qərb dövlətlərini də narahat edirdi. ABŞ Konqresi ***1992-ci ilin oktyabrın 24-də*** Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandırıb, ***"Azadlığı Müdafiə Aklı"na*** Azərbaycana dövlət səviyyəsində hər cür yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan ***907-ci*** düzəlişi qəbul etdi [509]. Rusiyanın hakim dairələri isə Ermənistana hərbi yardımı gücləndirdi. Azərbaycan ordusunda vəziyyət bərbad idi. Azərbaycan silahlı qüvvələri məğlub olur, ağır itkilər verir və geri çəkilirdilər.

1992-ci ilin sonu-1993-cü ilin əvvəllərində dövlət çevrilişi yolu ilə hakimiyyəti ələ keçirmək istəyən Rusiya meyilli qüvvələr hərbi qüvvələri strateji əhəmiyyətli Kəlbəcərdən, sonra isə Ağdərə bölgəsindən çıxardılar. Belə ki, Müdafiə naziri ***R.Qazıyevin*** göstərişi ilə Azərbaycan Silahlı Qüvvələri *1993-cü il yan-*

varın 26-da Fərrux yüksəkliyi ətrafındakı döyüşlərə cəlb olundu və məğlub olub geri çəkildilər [286], korpus komandiri ***Surət Hüseynov*** isə *1992-ci ilin dekabrında* ordunu *Kəlbəcərin strateji yüksəkliklərindən* geri çəkdi, *1993-cü il yanvarın 28-də* isə *Ağdərə bölgəsindən* hərbi texnikanı çıxarıb *Gəncəyə* gətirdi [212]. *1993-cü ilin fevralın 5-nə keçən gecə* hücuma keçən Ermənistan ordusu Rusiyanın 7-ci ordusunun 128-ci motoatıcı alayının və muzdlu əsgərlərinin (kazaklar) iştirakı ilə ***fevralın 15-dən 16-na keçən gecə Ağdərəni*** ələ keçirdilər [204]. ***Ağdərə-Kəlbəcər yolu*** düşmən tərəfindən tutuldu. Martın 31-dən güclü atəşə tutulan ***Kəlbəcər 1993-cü il aprelin 3-də*** düşmən əlinə keçdi. 15 minədək əsir götürüldü, qız-gəlin özünü sıldırım qayalardan atıb öldürdü, 144 yaşayış məntəqəsi işğal edildi, 500-dən çox müəssisə, 13 min ev, 100 min baş qaramal, 500 min baş davar, 5000 baş at, 1 mln. ev quşu, 50 min arı ailəsi, 195 min xalça və s. qarət edildi [227]. Kəlbəcərin itirilməsi AXC-Müsavat iqtidarının süqutunu yaxınlaşdırdı.

BMT Təhlükəsizlik Şurası ***1993-cü il aprelin 30-da Kəlbəcərin*** ermənilər tərəfindən işğalını pisləyən ***822 saylı Qətnamə*** qəbul etdi.

3. Milli qurtuluş. Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gətirilməsi

AXC-Müsavat iqtidarı Heydər Əliyevin nüfuzundan ehtiyatlanaraq, *1991-ci ilin dekabr* ayından Naxçıvan MR-ə qaz, *1992-ci ilin iyul* ayından enerji verilməsini, Bakı-Naxçıvan qatarının hərəkətini dayandırdı. Naxçıvan MR blokadaya alındı. Lakin, *1992-ci il martın 22-25-də* Heydər Əliyev Türkiyəyə səfər edərək apardığı danışıqlar nəticəsində Türkiyə Respublikası Naxçıvana 100 min dollar kredit verdi və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi [71, s. 607]. İqdır-Naxçıvan elektrik xətti çəkildi, Muxtar Respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Sədərək-Türkiyə yolu salındı və *1992-ci il*

mayın 28-də ***Sədərək-Dilucu*** 228 m-lik ***"Ümid" körpüsü*** açıldı. *1992-ci il avqustun 22-26-da* Heydər Əliyevin İran İslam Respublikasının dəvəti ilə Tehrana səfəri zamanı İranla da münasibət qaydaya salındı. *Dekabrın 3-də* Şaxtaxtı-Poldəşarası üzən körpü istifadəyə verildi [361], İran Muxtar Respublikaya elektrik enerjisi verməyə başladı [71, s. 306]. Naxçıvan qonşu ölkələrdən enerji almaqla tələbatın qismən də olsa ödənilməsinə nail oldu.

Ölkədə qurtuluş hərəkatı başladı. Hakimiyyət dairələri xoflanaraq Naxçıvanda çevriliş etməyə və Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd etdilər. Xalq Cəbhəsinin silahlı dəstələri *1992-ci il oktyabrın 24-də* Naxçıvan Muxtar Respublika Daxili İşlər Nazirliyinin binasını, Televiziya və Radio Verilişlər Komitəsini, Rabitə İdarəsi, şəhər elektrik şəbəkəsi binalarını, habelə telestudiyasını ələ keçirsələr də, H.Əliyevin çağırışı ilə ayağa qalxan əhali (50 mindən çox adam) onları geri oturtdu. Iqtidar hətta Naxçıvanın mövcud statusunu ləğv etməyə və ya Muxtar Respublika Ali Məclisinin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Lakin bu, *Moskva* (*1921-ci il 16 mart)* və *Qars (1921-ci il 13 oktyabr)* müqavilələrinə, o cümlədən, *1969-cu il* Vyana konvensiyası tələblərinə zidd idi [7, s. 310].

1992-ci il noyabrın 21-də Naxçıvanda H.Əliyevin sədrliyi ilə ***Yeni Azərbaycan Partiyası (YAP)*** yarandı, Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi.

1992-ci ildən AXC-Müsavat cütlüyü daxildən parçalanmağa başladı, ölkədə siyasi vəziyyət daha da gərginləşdi. *Hökumət aprelin 3-dən* fövqəladə vəziyyət, *aprelin 8-dən* isə Bakıda qadağan saatı tətbiq etdi [7, s. 312]. Daxili İşlər nazirinin 10 min nəfərlik "Boz qurd" adlı silahlı dəstəsi ilə "omonçu"lar arasında münaqişə daha da dərinləşdi. Orduda quldurluq, qarətçilik mövcud idi və nəzarət olunmurdu. Əlikram Hümbətov isə tabeliyində olan silahlı qüvvələrə söykənərək cənub bölgəsində qondarma ***"Talış-Muğan Respublika"sını*** yaratmağa çalışırdı. Eyni za-

manda separatçı qüvvələr ***"Bakı quberniya"sını***, ölkənin şimal-şərq bölgəsində ***"Ləzgistan dövləti"*** yaratmaq istəyirdilər. Bütün bunlar Moskvadan idarə olunurdu. *1993-cü ilin iyununda Gəncədə* hərbi qiyam baş verdi. *1992-ci il avqustun 8-dən* korpus komandiri, *oktyabrın 8-dən* isə Azərbaycanın Milli Qəhrəmanı, prezidentin Qarabağ və cəbhə bölgəsində səlahiyyətli nümayəndəsi olan ***Surət Hüseynovun*** təsiri ilə ***709 saylı*** hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. Dövlət Müdafiə Komitəsi və Müdafiə Nazirliyinin 709 saylı hərbi hissənin ləğv olunması, tərksilah edilməsi haqqında ***25 may*** Qərarı və Müdafiə nazirinin ***31 may*** tarixli Əmri yerinə yetirilmədi [7, s. 319]. *İyunun 4-də* səhər saat 11-də hökumət hərbi qiyamı yatırmaq üçün Gəncəyə 3 minədək canlı qüvvə və hərbi texnika yeritdi. Ölkədə vətəndaş müharibəsi başlandı. 709 saylı hərbi hissənin kazarmaları, hava limanı dağıdıldı. 68 nəfər həlak oldu, 150 nəfər yaralandı. Lakin qiyamçılar əks-hücuma keçərək 1200 döyüşçü və respublika prokurorunu girov götürdülər [7, s. 319]. Onlar Bakıya hökumətin və Prezidentin istefa verməsi tələbi ilə ultimatum göndərdilər və cavab almadıqda Bakıya döğru hərəkət etdilər. *İyunun 14-də* artıq qiyamçılar və hökumət qüvvələri arasında qarşıdurma yarandı, iqtidar danışıqlar aparmağa məcbur oldu, parlamentin sədri, Baş nazir, üç güc nazirliyi rəhbərləri istefa verdilər [445]. Dövlət rəhbərləri son anda kömək üçün H.Əliyevə müraciət etdilər. ***H.Əliyev*** *1993-cü il iyunun 9-da* hökumətin onun ardınca göndərdiyi təyyarə ilə *Bakıya* gəldi. Vətəndaş müharibəsini aradan qaldırmaq üçün H.Əliyev ***iyunun 13-14***-də Gəncəyə gəldi və Azərbaycanı qardaş qırğınından qurtarmaq üçün düşünülmüş siyasi manevr edərək S.Hüseynov başda olmaqla, hərbi müxalifəti zərərsizləşdirdi. ***1993-cü il iyunun 15-də H.Əliyev Ali Sovetin Sədri*** seçildi. Bu gün tarixə ***"Milli Qurtuluş Günü"*** kimi düşdü. Prezident ***Ə.Elçibəy iyunun 17-dən 18-ə*** keçən gecə xəbər vermədən gizlicə paytaxtı tərk edib anadan olduğu Ordubad rayonunun ***Kələki kəndinə*** getdi. ***İyunun 24-də*** Milli Məclis ***prezident sə-***

lahiyyətlərini də Ali Sovetin sədri ***Heydər Əliyevə*** həvalə etdi [65, s. 251]. H.Əliyev S.Hüseynovu Baş nazir vəzivəsinə təyin etdi və onu öz nəzarəti altında saxladı.

Hakimiyyətdə yüksək vəzifədə olmasına baxmayaraq, öz məqsədinə nail olmaq üçün S.Hüseynov Gəncədə Səhra Cəbhə İdarəsi yaratdı. *İyunun 25-dən 26-na keçən gecə* milli silahlı qüvvələr Ağdam cəbhəsindən çıxarıldı və S.Hüseynovun komandanlığı ilə 709 saylı hərbi hissə şəhərə daxil oldu. ***İyulun 23-də*** səhər ***Ağdam*** şəhəri özünümüdafiə taburlarının koməyi ilə 43 gün düşmənlə qəhrəmancasına döyüşlər aparmasına baxmayaraq işğal olundu. Əlikram Hümbətov ***1993-cü ilin avqustun 7-də*** batalyonları Fizuli bölgəsindən geri çəkməklə respublikanın 7 cənub rayonunda ***"Talış-Muğan Respublikasının"*** (TMR) yarandığını elan etdi, "hökumət" qurdu. Heydər Əliyev avqustun 13-də həmin bölgənin deputatları, ağsaqqalları və ziyalıları ilə görüşdü, televiziya vasitəsilə əhaliyə müraciət etdi. ***1993-cü il avqustun 23-də*** xalq mitinq edərək ***"TMR"-ı*** ləğv etdi, Ə.Hümbətov isə qaçdı. Beləliklə, Azərbaycanın parçalanması təhlükəsi aradan qalxdı. Lakin ***1993-cü il iyulun 23-də Ağdam, avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də Qubadlı, oktyabrın 29-30-da Zəngilan*** rayonları erməni hərbi hissələri tərəfindən işğal olundu [207].

Milli Məclisin qərarı ilə ***1993-cü il avqustun 29-da*** Prezident Ə.Elçibəyə etimad haqqında ***referendum*** keçirildi və referendumda iştirak edənlərin 97,5%-i prezidentə etimadsızlıq göstərdi [64, s. 494; 65, s. 251]. ***1993-cü il oktyabrın 3-də*** Azərbaycan xalqı ***Heydər Əliyevi*** alternativ əsasla səs çoxluğu ilə Azərbaycan ***Respublikasının Prezidenti*** seçdi [71, s. 778].

Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində *anadan olmuş, Naxçıvanda orta təhsil almış, Pedaqoji Texnikumu bitirmiş, 1939-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) memarlıq fakültəsində oxumuş, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirmişdir. Heydər Əliyev 1941-ci ildən Naxçıvan MSSR*

Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarlığı Sovetində şöbə müdiri, 1944-cü ildən Dövlət Təhlükəsizlik orqanlarında işləmiş, 1956-1965-ci illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi Əks-Kəşfiyyat İdarəsinin rəisi, 1965-ci ildən bu Komitə sədrinin müavini işləmişdir. 1967-1969-cu illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olmuş, 1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın Birinci katibi seçilərək, 1982-ci ilə kimi bu vəzifədə çalışmışdır. O, 1976-cı ildə Sov. İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-1987-ci illərdə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin Birinci Müavini olmuşdur. 1990-cı il iyulun 20-də doğma Bakıya qayıtmışdır. Lakin, o zamankı iqtidar tərəfindən Bakıda məskunlaşmasına icazə verilmədiyindən o, iyulun 22-də anadan olduğu Naxçıvana getmişdir. 1991-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. 1992-ci ilin noyabrın 21-də təsis olunmuş Yeni Azərbaycan Partiyasının sədri seçilmiş, vəfat edənə qədər bu vəzifəni daşımışdır. 1993-cü ilin iyununda o, yenidən Azərbaycan rəhbərliyinə gətirilmişdir. 1993-2003-cü illərdə Müstəqil Azərbaycan Respublikasının Prezidenti olmuşdur. İki dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüş, SSRİ-nin və xarici dövlətlərin yüksək orden və medalları ilə təltif olunmuşdur. ***2003-cü il dekabrın 12-də*** *dünyasını dəyişmişdir* [7, s. 174-180; 12, s. 255].

Heydər Əliyev öz vəzisifəsinə dövlət intizamının, qanunçuluğun, hüquq-mühafizə orqanlarının, ordunun möhkəmləndirilməsi ilə başladı. ***1993-cü il sentyabrın 24-də Azərbaycan MDB***-yə daxil oldu.

Qarabağ məsələsi zəminində başlamış Ermənistan-Azərbaycan müharibəsi nəticəsində ***respublika ərazisinin 20 %-nə*** *qədəri işğal edildi,* ***20 minə*** *yaxın adam* ***öldürüldü, 100 minə*** *yaxın insan* ***yaralandı*** *və* ***5 min*** *nəfər* ***əlil*** *oldu,* ***4861 nəfər*** *insan, o cümlədən* ***314 qadın, 58 uşaq, 255 qoca*** *əsir alındı və ya girov*

götürüldü, ***bir milyondan çox insan*** *qaçqına çevrildi* [209; 210; 211]. *Erməni işğalı nəticəsində Azərbaycanın* ***900-dən*** *çox* ***kəndi, 10 şəhəri****,* ***11 şəhər tipli qəsəbəsi****,* ***88 min yaşayış binası****,* ***1000-dən*** *çox* ***iqtisadi obyekti****,* ***250 məktəbi*** *və digər* ***təhsil müəssisəsi****,* ***250 tibb müəssisəsi*** *qarət edildi və dağıdılıb yandırıldı. İşğal olunmuş Azərbaycan ərazilərindən işğalçı ordunun dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874 və 11 noyabr 884 saylı qətnamələrində öz əksini tapsa da, Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina edirdi* [437; 72, s. 463; 209].

1993-cü il sentyabrın ortalarında S.Hüseynov R.Qazıyev və Ə.Hümbətovla birgə hakimiyyət çevrilişi etmək planı həyata keçirməyə cəhd etdilər. Prezidentin Fərmanı ilə ***1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası*** yaradıldı. Ordu quruculuğu, müdafiə məsələləri, səfərbərliyin təşkili və bir sıra tədbirlərə aid müvafiq qərarlar qəbul edildi. H.Əliyev ***1993-cü il noyabrın 2-də*** televiziya və radio vasitəsilə xalqa müraciət etdi və birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı. ***1993-cü il noyabrın 23-də*** Milli Şura ***"Müdafiə haqqında" Qanun*** qəbul etdi. *Noyabr-dekabr aylarında* könüllülərdən ibarət 16,7 min döyüşçüsü olan 40 ehtiyat taburu yaradılıb cəbhəyə göndərildi [205; 45, s. 513-516]. *1994-cü ilin sonunda* Milli Ordu sıralarında 54 min əsgər və zabit var idi [197, s. 38].

Beyləqan istiqamətində hücuma keçən düşmən itki verib geri çəkilməyə məcbur oldu. ***1994-cü ilin əvvəllərində*** Milli Ordunun hücum əməliyyatı nəticəsində Füzuli rayonun Horadiz qəsəbəsi və 22 kəndi, Cəbrayıl və Kəlbəcər rayonlarının bir sıra yaşayış məntəqəsi azad edildi, Çiçəkli dağı və digər strateji yüksəkliklər nəzarət altına alındı, Kəlbəcər-Ağdərə yolu istiqamətlərində müvəffəqiyyətlər qazanıldı. *1993-cü il dekabr-1994-cü il yanvar aylarında* gedən döyüşlərdə 4 min düşmən əsgər və zabiti, 50 zirehli texnika, 15 artilleriya qurğusu məhv edildi [208].

Rusiya ***1992-ci ilin martında*** yaradılmış ***Minsk qrupunun*** üzvlərindən biri olmasına baxmayaraq, münaqişəni yatırmaq əvəzinə Ermənistanın xeyrinə saziş layihəsi təklif etdi. Azərbaycan sazişi imzalamaqdan imtina etdi. Azərbaycan Ordusu Goranboy rayonunun Talış və Gülüstan kəndləri, Tərtər rayonunun İlxıçılar və Göyarx kəndləri üğrunda döyüşlərdə ermənilərı məğlub etdilər, lakin buna baxmayaraq, Ermənistan Ağdam (18 kənd) və Ağdərə rayonlarının bir neçə yaşayış məntəqəsini işğal etdi. Milli Ordu əlavə qüvvə gətirərək əks-hücuma keçdi və düşmən hücumlarının qarşısını aldı. Azərbaycan Respublikası ***1994-cü il mayın 8-də*** münaqişədə iştirakçı olan tərəflərin, o cümlədən Qarabağın azərbaycanlı və erməni icmalarının, habelə Rusiya Federasiyasının bu niyyətini təsdiq edən ***Bişkek protokolunu*** imzaladı [199]. ***1994-cü il mayın 12-də atəşkəs*** əldə edildi **[**45, s. 478].

Cəmiyyətdə vahimə yaratmaq üçün mənfur qüvvələr Milli Təhlükəsizlik Nazirliyi istintaq təcridxanasından *1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə* dövlətə qarşı cinayətdə ittiham olunan 4 dustağı qaçırdılar. ***Sentyabrın 29-da*** Ali Sovetin sədr müavini ***Afiyəddin Cəlilov*** və Prezident yanında Xüsusi İdarənin rəisi ***Şəmsi Rəhimov*** qətlə yetirildi. ***Oktyabrın 2-də*** Xüsusi Təyinatlı Polis Dəstəsinin 30-a yaxın döyüşçüsü ***Mahir Cavadovun*** başçılığı ilə Respublika Prokurorluğunun binasını zəbt etdi. ***Oktyabrın 4-də*** Gəncədə ***S.Hüseynovun*** tərəfdarları (300 nəfərə yaxın adam) İcra Hakimiyyəti binasını tutdular. ***Oktyabrın 4-dən 5-nə*** keçən gecə Prezident ***Heydər Əliyev*** radio və televiziya vasitəsilə xalqa müraciət etdi. Gecə yarısı on minlərlə adam Prezident sarayı qarşısına toplaşdı və bunu görən qiyamçılar geri çəkilməli oldular. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları Prezident ***Heydər Əliyevi*** müdafiə etdiklərini bildirdilər. S.Hüseynov hakimiyyətdən kənarlaşdırıldı, Azərbaycandan Rusiyaya qaçdı. *1996-cı ildə* isə Rusiyada həbs olunub respublikaya gətirildi və məhkum edildi [32, s. 130-131]. ***1995-ci ilin martında*** yenidən dövlət çevrilişi cəhdi baş verdi. ***Martın 12-***

dən 13-nə keçən gecə Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşları (omonçular) Ağstafa və Qazax rayonlarında dövlət idarələrini ələ keçirdilər. Bakıda isə Daxili İşlər Nazirinin müavini, ***XTPD***-nin (***OMON***) başçısı ***Rövşən Cavadov*** Prezidentin və Ali Sovet sədrinin istefası tələbi ilə çıxış etdi. Prezident ***martın 16-da*** XTPD-nin ləğv edilməsi barədə Fərman verdi. *"**8-ci kilometr**"* qəsəbəsində məskən salmış qiyamçılar *martın 16-dan 17-nə keçən gecə* şəhər istiqamətində hücuma cəhd etsələr də onların qarşısı alındı.

4. Azərbaycan Respublikasının yeni neft strategiyası "Əsrin müqaviləsinin" imzalanması və enerji layihələri (neft, qaz, yaşıl enerji)

SSRİ-də, o cümlədən Azərbaycan Respublikasında baş verən siyasi proseslər ölkədə iqtisadi böhran yaratdı. Respublikada neft sənayesinin vəziyyəti daha da ağır idi, belə ki, 4000-dən çox neft quyusunda hasilat dayanmışdır, qazma dəzgahlarının 80 %-i işləmirdi. 1992-ci ildə 11 milyon ton, 1996-cı ildə isə cəmi 9 milyon ton neft çıxarılmışdır [438]. Dəniz neft yataqlarının istismarı üçün xeyli investisiya tələb olunurdu ki, buna da mövcud siyasi vəziyyət mane olurdu. Lakin bu sahənin inkişafı üçün "Bakmil" (Azərbaycan-İtaliya), "Pet-Azəri" (Azərbaycan-Türkiyə), Neftçalada neft hasilatı üzrə Azərbaycan-Türkiyə birgə müəssisələri yaradıldı, ABŞ və Böyük Britaniyanın neft şirkətləri ilə müqavilələr bağlanmağa başlandı. *1993-cü ilin yazında* xarici şirkətlərlə ölkənin milli mənafelərinə zidd şərtlər əsasında imzalanmaq ərəfəsində olan neft müqaviləsi Heydər Əliyevin rəhbərliyə qayıdışından sonra dayandırıldı [231].

Prezident Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan yeni neft strategiyası müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı. Neft istehsalını inkişaf etdirmək üçün Azərbaycan dövlətinin həyata keçirdiyi *"açıq qapı"* siyasətinə uyğun olaraq xarici inves-

torlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunların qəbul edilməsi xarici investisiyanın daha geniş cəlb olunmasına imkan verdi. ***Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı*** ilə əlaqədar yaradıldı. Təkcə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycana *1 milyard 300 milyon dollardan* çox kredit verdi [456]. Nəticədə *1995-ci ildə* inflyasiya 85 %-ə endi. *1996-cı ildə* inflyasiya cəmi 6,7% oldu. Onun səviyyəsi *2000-ci ildə* cəmi 2 %, *2001-ci ildə* isə 1,5 % idi [344; 240].

H.Əliyevin ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Polşa, Norveç, Rumıniya və s. ölkələrə rəsmi və işgüzar səfərləri nəticəsində həmin dövlətlərlə Azərbaycan arasında iqtisadi əməkdaşlıq münasibətləri yaradıldı. Bu ölkələrlə imzalanmış 90-a yaxın mühüm sənəd Azərbaycanın Avropa iqtisadi münasibətlər sisteminə inteqrasiyası prosesini sürətləndirdi. ***1994-cü il sentyabrın 20-də*** Bakının "Gülüstan" sarayında ADNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri daxil olan konsersum (sonralar bu konsersuma Yaponiya şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında ***30 il müddətinə*** imzalanmış ***"Əsrin müqaviləsi"***nə əsasən ***30 neft şirkəti*** ilə 57 milyard sərmayə qoyuluşu nəzərdə tutulan ***20 neft müqaviləsi*** imzalandı. Respublika Prezidenti Heydər Əliyevin Fərmanı ilə ***20 sentyabr 2001 - ci ildən*** başlayaraq ***"Neftçi günü"*** kimi qeyd edilir. "Əsrin müqavilə"sinin şərtlərinə əsasən investisiyanın 80 %-i konsersumun payına düşür, Azərbaycanın ümumi gəliri isə hasil olunacaq neftin qiymətinin 80 %-i miqdarında müəyyən olunurdu [65, s. 374-375; 231, 232]. *1995-ci il noyabrın 10-da* Xəzərin "Qarabağ" strukturu üzrə Rusiya, İtaliya, ABŞ şirkətləri ilə imzalanan müqaviləyə əsasən əldə olunan daxili gəlirin 65-80

%-i Azərbaycana çatmalı idi [214]. *1996-cı il 4 iyunda* Xəzərin "Şahdəniz" yatağında birgə işlərin aparılması haqqında ADNŞ ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İranın neft şirkətləri konsersumu müqavilə imzaladılar. Bu sazişə görə də ümumi gəlirin 80 %-i Azərbaycan Respublikasına çatmalı idi [266].

1996-cı il dekabr ayının 14-də Xəzərdə "Dan ulduzu" və "Əşrəfi" dəniz yataqlarının birgə işlədilməsi barədə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya, *1997-ci il yanvar ayının 13-də* "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının birgə istismarı üzrə Fransa neft şirkətləri ilə ADNŞ arasında müqavilələr imzalandı [222]. *1997-ci il 1 avqustda* Vaşinqtonda – "Ağ Ev"də ABŞ-ın qabaqcıl neft şirkətləri ilə ADNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yataqlarının birgə işlədilməsi haqqında 3 müqavilə imzalandı. *1998-ci ilin iyununda* İtaliya, Yaponiya, Türkiyə, ABŞ, Britaniya-Kanada neft şirkətləri konsersumu ilə, həmin ilin *iyul ayında* isə Böyük Britaniya, ABŞ və Rusiya neft şirkətləri ilə ADNŞ arasında yeni neft müqavilələri imzalandı. Bir sıra neft sazişləri isə *1999-2000-ci illərdə* imzalandı [439]. *2001-ci ilin yanvarında* Rusiyanın LUKOYL şirkəti ilə Zığ və Hövsan yataqları barədə müqavilə imzalandı [363].

Ümumiyyətlə, *1994-2001-ci illərdə* ADNŞ 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzaladı. *2001-ci ildə* bu şirkətlərə servis xidməti göstərən 400-ə qədər xarici şirkət fəaliyyətdə idi [237]. Bu müqavilələrə görə Respublikaya 60 milyard dollar həcmində investisiya qoyuluşu nəzərdə tutulurdu. Bu müddət ərzində neft yataqlarının istismarına 6 milyard dollar həcmində investisiya qoyulmuşdur [344].

1994-1995-ci illərdə neftayırma zavodlarında 2 yeni ***ALOW-2*** qurğusu işləməyə başladı. "Xəzərdənizneft" yenidən təchiz olunub ***"Dədə Qorqud"*** adı ilə, ŞELF-5 qazma qurğusu da yenidən qurularaq *1998-ci ildən* "İstiqlal" adı ilə istifadəyə

verildi. *2000-ci ilin avqust ayında* 7620 metrədək dərinlikdə qazma işləri aparmağa imkan verən ***"Qurtuluş"*** müasir özüqalxan qazma qurğusu işə salındı. *2002-ci ilin yayında* ***"Azəri", "Çıraq"*** və ***"Günəşli"*** yatağında ilk dəfə qazma qurğularının altı üçün sualtı qazma dayaq tavası quraşdırıldı [243]. ***"Çıraq - 1"*** platformasından 120 m dərinlikdə 176 km neft, Neft daşlarına 48 km qaz kəmərləri çəkildi. Səngəçal terminalı tikildi [26, s. 85; 264].

"Əsrin müqaviləsi"nə uyğun olaraq çıxarılan neftin Avropa bazarlarına satılması üçün 2-***Bakı-Novorossiysk "Şimal"*** *(1996-cı il 25 oktyabr, 14000 km)* və ***Bakı-Supsa (Gürcüstan) "Qərb"*** *(1999-cu il 17 aprel, 920 km)* neft kəmərləri çəkildi. ***1997-ci il noyabrın 12-də "Əsrin müqaviləsi"*** üzrə neftin hasilatına başlanıldı [301]. ABŞ-ın şahidliyi ilə Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan Respublikaları arasında bağlanan müqavilələrin reallaşmağa başlaması əsrin sonuna kimi Azərbaycan Neft Fonduna 230 mln. ABŞ dolları həcmində vəsait gətirdi. ***1998-ci il sentyabrın 7-8-də*** *Bakıda* ***"Böyük İpək Yolu"****nun* bərpası üzrə beynəlxalq konfrans keçirildi. ***"Avropa-Qafqaz-Asiya"*** dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və ***Bakı bəyannaməsi*** imzalandı [93, s. 394]. Bu konfransda yaradılan beynəlxalq təşkilatın mənzil qərargahı Bakıda yerləşdirildi.

Azərbaycanın TACİS və TRACECA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə əməkdaşlığı nəticəsində respublikamızın nəqliyyat kommunikasiyalarından istifadə edilməklə Avropa-Asiya istiqamətində tranzit yüklərinin daşınma-sının həcmini 10 dəfələrlə artırdı. ***1999-cu il noyabrın 18-də*** İstanbulda ***"Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair"*** saziş imzalandı [240]. 3 milyard dollarlıq dəyəri olan "BTC" neft kəmərinin sahibləri Azərbaycan Dövlət Neft Şirkəti (25 faiz), Böyük Britani-

yanın BiPi (30,1 faiz), ABŞ-ın Yunokal (8,9 faiz), Konoko-Filips (2,5 faiz), Norveçin Statoyl (8,72 faiz), Türkiyənin Türkiyə Petrolları (6,53 faiz), Yaponiyanın İtoçi (3,4 faiz) və İnpeks (2,5 faiz), Səudiyyə Ərəbistanının Delta Hess (2,36 faiz), İtaliyanın Epi (5 faiz) və Fransanın Total Elna Elf (5 faiz) şirkətləri idi [256]. *2002-ci ilin sonunda* Qazaxıstan neftinin ***Bakı-Tbilisi-Ceyhan kəməri*** ilə ixrac edilməsi barədə razılıq əldə olundu. ***2002-ci il sentyabrın 18-də Səngəçal*** sahil terminalında, *2003-cü il mayın 23-də* Gürcüstan ərazisində Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin başçılarının iştirakı ilə təməli qoyulan ***Bakı-Tbilisi-Ceyhan*** əsas ixrac boru kəmərinin tikintisi *2006-cı il iyulun 13-də* başa çatmışdır və Azərbaycanın "qara qızılı"nın dünya bazarına çıxarılması təmin olunmuşdur. *2003-cü ilin əvvəllərində* ***"Azərbaycan Dövlət Neft Fondu"nda*** (*1999-cu il dekabr*) 730 milyon ABŞ dolları həcmində vəsait var idi [256]. ***2003-cü il iyulun 24-də "Lider"*** yarımdalma dəniz qazma qurğusu istifadəyə verildi. *2005-ci ilin fevral ayında* ***"Azəri-Çıraq-Günəşli"*** yataqlarının Mərkəzi Azəri hissəsindən ilkin neft çıxarılmasına başlanmışdır. 2003-2006-cı illərdə istehsal edilmiş ümumi sənaye məhsulunun 61%-dən çoxu mədən-çıxarma sənaye sahəsinin payına düşürdü. 2006-cı ildə Azərbaycanda 32 milyon ton neft, 2007-ci ildə 47 milyon ton neft, 2009-cu ilin sonu üçün 50 milyon ton neft hasil olunmuşdur. *2012-ci ildə* Bloomberg agentliyinin verdiyi məlumata görə, "Azəri-Çıraq-Günəşli"dən hasil olan resurslar ölkə istehsalının 78 faizini təşkil edirdi [536]. ***2017-ci il sentyabrın 14-də "Azəri-Çıraq-Günəşli"*** yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəlişlər və əlavələr edilmiş Sazişin imzalanması mərasimi olub. Eyni zamanda, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənməsi müddəti *2050-ci ilə* qədər uzadılıb. Ümumilikdə 2025-ci ilə qədər AÇG yataqlar blokundan hasil edilən 600 milyon ton neft Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri və Qərb İxrac Boru Kəməri (QİBK) vasitəsilə

Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Səngəçal terminalından birbaşa dünya bazarlarına nəql edilib [535].

2001-ci il martın 12-də Türkiyə Cümhuriyyəti, ***sentyabrın 29-da*** isə Gürcüstan Respublikası ilə ***"Bakı-Tbilisi-Ərzurum"*** qaz kəməri vasitəsilə Azərbaycan qazının tranziti, nəqli və satışı haqqında sazişlər imzalanmışdır. ***2003-cü il fevralın 27***-də inşasına başlanmış və ***2006-cı ildə*** başa çatdırılmış ***Bakı-Tbilisi-Ərzurum*** qaz kəməri vasitəsilə *2007-ci il fevral ayından* etibarən Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil olunan təbii qaz Gürcüstana, *2007-ci il iyulun 3-də* ***Cənubi Qafqaz boru kəməri*** (2006-cı ilin sonlarında istismara verilib) ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olmuşdur. 2010-ci il aprel ayının 1-dək bu yataqdan 18,8 milyard kubmetr qaz hasil edilmişdir. Cənubi Qafqaz qaz boru kəmərinin ötürücülük qabiliyyəti ildə 20 milyard kubmetr həcmindədir. Azərbaycan ərazisində kəmərin uzunluğu 442 km, Gürcüstan ərazisində isə 248 km-dir, diametri 42 düymdür. Kəmərin son çatdırılma nöqtəsi Gürcüstan-Türkiyə sərhəddində yerləşir. Türkiyə ərazisində isə qaz kəmərinin uzunluğu 280 km təşkil edir. Kəmərin Gürcüstan-Türkiyə sərhəddindən Ərzuruma qədər olan hissəsi BOTAŞ şirkətinin qaz kəmər sisteminin bir hissəsi hesab edilir. ***Bakı-Tbilisi-Ərzurum*** qaz kəməri Azərbaycanın, Gürcüstanın və Türkiyənin qaza olan tələbatını ödəməklə yanaşı, Azərbaycan qazının Türkiyə vasitəsilə Yunanıstana və digər Avropa ölkələrinə ötürülməsində mühüm pol oynayır [534]. BTƏ qaz kəməri təkcə Azərbaycanın deyil, Qazaxıstan və Türkmənistanın da maraq dairəsindədir. Belə ki, bu ölkələr də gələcəkdə Cənubi Qafqaz boru kəməri ilə öz qazını nəql etməyi planlaşdırırlar. Bundan əlavə, Yunanıstan ilə Türkiyə arasında imzalanmış sazişə əsasən, Ankaradan Komotiniyə qədər qaz boru kəmərinin çəkilməsinə dair saziş imzalanmışdır. Bu isə ***"Şahdəniz"*** qazının Türkiyədən əlavə, Yunanıstan, İtaliya, Balkan yarımadası dövlətləri və digər Avropa ölkələrinə nəql olunmasına zəmin yaradırdı.

2012-ci il iyunun 26-da İstanbulda Prezident İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə ***Trans-Anadolu qaz boru kəməri (TANAP)*** layihəsi üzrə sənədlərin imzalanması mərasimi keçirilmişdir [691]. Azərbaycan qazının Avropaya çıxarılmasını nəzərdə tutan ***Trans-Anadolu Qaz Kəməri (TANAP)*** və ***Trans-Adriatik Qaz Kəməri (TAP)*** layihələri Avropanın enerji təchizatında xüsusi rol oynayırdılar. ***Trans-Adriatik Qaz Kəməri (TAP)*** ilə ilkin mərhələdə ildə *10 miyard*, sonra isə *20 milyard kub metr qazın* nəql edilməsi proqnozlaşdırılırdı. *3 trilyon kub metr qaz* ehtiyatına malik olan Azərbaycanın iştirakçı olduğu bu layihəyə 45 milyard dollar məbləğində sərmayə qoyulması və kəmərin keçdiyi ölkələrdə 30 mindən çox iş yerlərinin açılması nəzərdə tutulurdu. ***Dövlət Neft Fondunun (1999-cu il dekabr) 2013-cü ildə*** maliyyə aktivləri 36 milyardı ötmüşdür [14, s. 364].

"Cənub Qaz Dəhlizi" layihəsi enerji təhlükəsizliyi layihəsidir və onun təməli ***2014-cü il sentyabrın 20-də*** qoyulub. 40 milyard dollar sərmayə ilə həyata keçirilən, uzunluğu 3500 kilometr olan və 4 seqmentdən (***Şahdəniz-2, Cənubi Qafqaz Qaz Kəməri, TANAP, TAP***) ibarət olan bu layihənin reallaşdırılması prosesi artıq həlledici mərhələyə qədəm qoyub. Cənub Qaz Dəhlizi layihəsində iştirak edən 13 ölkədən (Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, İtaliya, Macarıstan, Rumıniya, Serbiya, Şimali Makedoniya, Slovakiya, Sloveniya və Xorvatiya, Bolqarıstan) 10-u Avropa ölkəsidir, 8-i Avropa İttifaqının üzvüdür.

"Şahdəniz-2" üzrə yekun investisiya sazişi ***2013-cü ilin dekabrında*** Bakıda keçirilən mərasimdə başa çatdırılıb. 2025-ci ildə "Şahdəniz" yatağından təbii qaz hasilatının 27 milyard m3-ə çatacağı proqnozlaşdırılır.

Bundan sonra *2015-ci il martın 17-də* Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə *Qarsda* ***TANAP***-ın təməlqoyma mərasimi keçirilib. ***2015-ci ildə Qarsda TANAP***-ın tikintisinə başlanılıb. Dörd mərhələdə həyata keçiriləcək layihə-

nin birinci mərhələsi 2018-ci ildə başa çatdırılıb. 2020-ci ildən kəmərin ötürmə qabiliyyəti 16 milyard kubmetr, 2023-cü ildə 23 milyard kubmetr, 2026-cı ildə 31 milyard kubmetr təşkil edəcək. İlk mərhələdə TANAP kəməri ilə 16 mlrd. kubmetr nəql olunacaq Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri Türkiyəyə satılması proqnozlaşdırılırdı. Avropaya nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində çatdırılacaqdı. TANAP layihəsində "Cənub Qaz Dəhlizi" QSC 51%, STEAS 7%, BP 12% və Türkiyənin BOTAŞ şirkəti 30% paya malikdir. 2019-cu il noyabrın 18-nə TANAP vasitəsilə Türkiyəyə qaz nəqlinin həcmi 3,23 milyard kubmetrə çatdı. Qarşıdakı illərdə TANAP-ın nəqletmə qabiliyyətini əvvəlcə 24 milyard kubmetrə, sonra isə 31 milyard kubmetrə çatdırmaq planlaşdırılır [632].

TANAP və Cənub Qaz Dəhlizi, eyni zamanda, enerji təhlükəsizliyi layihələridir. İstehsalçı ölkə olan Azərbaycan, tranzit ölkələr və istehlakçı ölkələr birlikdə çalışır, bununla da əməkdaşlıq formatı yaradılıb. TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutunu Avropa ilə - TAP xətti ilə birləşdirir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də bundan faydalanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin *30 noyabr 2019-cu il* tarixində Türkiyənin Ədirnə vilayətinin İpsala şəhərində TANAP-ın Avropaya birləşən qaz kəməri hissəsinin açılış mərasimində qeyd etdiyi kimi: **"**Təbii ki, bütün bu addımları atarkən vurğulamaq lazımdır ki, bu, regional layihə, həm də bir sülh layihəsidir. Qlobal gündəmin ticarət müharibələri, terrorizm, etirazlar və qeyri-sabitliklə zəbt etdiyi bir zamanda bu gün biz Avropa ilə Asiyanı TANAP vasitəsilə birləşdiririk. Buradan biz təkcə regionumuza deyil, bütün dünyaya əməkdaşlıq və tərəfdaşlıq mesajları veririk. Biz Türkiyəni üç qitənin enerji və ticarət mərkəzinə çevirmək yolunda yeni bir addım atırıq" [632]. Azərbaycan qazının Türki-

yə və Avropaya çatdırıldığı TANAP Türkiyə və Gürcüstan sərhədində Cənubi Qafqaz boru kəmərinə, Türkiyə və Yunanıstan sərhədində isə TAP qaz kəmərinə birləşir. TANAP layihəsinin Eskişehirədək hissəsinin işə salınması "Şahdəniz II" layihəsi çərçivəsində qaz hasilatının başlanması ilə əlaqələndirilib və *2018-ci ildə* baş tutub və ilk kommersiya qazı *30 iyun 2018-ci ildə* Türkiyəyə çatdırılıbdır. *2019-cu ilin aprel* ayında "Cənub Qaz Dəhlizi" layihəsinin bir hissəsi olan Trans-Anadolu qaz kəmərinin (TANAP) 1-ci mərhələsi çərçivəsində sınaq qaz təchizatına başlanıldı. *30 noyabr 2019-cu il* tarixində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilibdir. Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) istismara verildiyi gündən *2024-cü il dekabrın 31-dək* Türkiyə və Avropaya 73,54 milyard kubmetr Azərbaycan qazı nəql edib. Bu həcmin 30,8 milyard kubmetri Türkiyəyə, 42,74 milyard kubmetri isə Avropaya göndərilib [705].

Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan ***Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP)*** tikintisinə dair razılıq əldə olundu. ***2013-cü ilin fevralında*** Albaniya, İtaliya və Yunanıstan arasında Xəzər regionundan qazın Avropaya nəqli üçün TAP layihəsinə dair Hökumətlərarası Saziş imzalandı. TAP-ın təməlqoyma mərasimi *2016-cı il mayın 17-də* baş tutdu. ***2020-ci il noyabrın 15-də*** Trans-Adriatik Boru Kəməri (TAP) istismara verilərək kommersiya fəaliyyətinə başlamağa hazır oldu. ***31 dekabr 2020-ci il*** tarixindən Azərbaycan kommersiya qazının TAP vasitəsilə Avropaya nəqlinə başlanıldı. TAP vasitəsilə qazın satışı üzrə Sazişlərə əsasən, *2021-ci ildə* Avropa alıcılarına 8,15 milyard kubmetr təbii qaz nəql edilib. *2022-ci ilin mart* ayında Avropa Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan ümumilikdə 10 milyard kubmetr təbii qaz alıb. 2024-cü ilə qədər olan dövrdə TAP vasitəsilə Avropaya 42,8 milyard kubmetr təbii qaz çatdırılıb.

2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında ***İğdır-Naxçıvan qaz boru kəmərinin*** tikintisinə dair Anlaşma Memorandumu imzalandı. Prezident İlham Əliyevin *10 fevral 2022-ci il* tarixli sərəncamına əsasən, *İğdır-Naxçıvan qaz boru kəmərinin* tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılmışdır. *İğdırdan Sədərək* rayonuna qaz kəmərinin uzunluğu *97,5 km,* Azərbaycan hissəsi *17,5 km*, Türkiyə hissəsi *80 km*-dir. Qaz kəməri *bir gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz* nəql etmək gücünə malikdir. Bu baxımdan qazın *Bakı-Tbilisi-Ərzurum və Cənubi Qafqaz* boru kəmərləri ilə Türkiyəyə, eləcə də qardaş ölkə vasitəsilə Naxçıvana nəqli müstəsna əhəmiyyət kəsb edir. Hesablamalara görə, yaxın gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı min meqavat yaşıl enerji ixrac etmək mümkün olacaqdır [637].

2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsi nəticəsində Rusiya qazının Avropaya nəqlinin dayandırıldığı dövrdə ***2022-ci il iyulun 18-də*** Azərbaycan ilə Avropa İttifaqı arasında ***enerji memorandumu*** imzalandı. Tərəflər gələn il qaz nəqlinin həcmini 12 milyard kubmetrə, sonrakı illərdə isə 20 milyard kubmetrə çatdırmağı qarşıya məqsəd qoydular. 2021-ci ildə Avropaya nəql olunan qazın illik həcmi 8 milyard kubmetr idi, 2024-cü ildə isə 12,9 milyard kubmetr oldu. Memorandumu Bakıda ***Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Ursula fon der Leyen*** imzalayıblar. Ursula fon der Leyen hesab edir ki, Azərbaycan Avropanın "təchizat təhlükəsizliyi və iqlim neytrallığının təmin edilməsi yolunda mühüm tərəfdaş" olacaq [710]. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetr civarındadır [621].

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin davamı olaraq ***Bakı-Tbilisi-Qars dəmir yolunun*** çəkilməsi haqqında saziş ***2005-ci ilin yanvar ayında*** Azərbaycan, Türkiyə və Gürcüstan dövlətləri arasında imzalandı. 2007-ci il

noyabr 21-də Gürcüstanın Marabda kəndində Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisinin təməli qoyuldu, 28 oktyabr 2017-ci ildə rəsmi açılış mərasimi keçirildi [596], 30 oktyabrda isə istismara verildi [676]. Bu dəmiryolu xətti Şərqlə Qərbi, Asiya ilə Avropanı birləşdirən strateji və böyük iqtisadi əhəmiyyətə malikdir.

Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan Azərbaycanın iştirakı ilə reallaşan ***Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars*** və inşası bu gün də davam edən ***"Şərq-Qərb", "Şimal-Cənub"*** nəqliyyat dəhlizləri kimi milyardlarla investisiya yatırılan bu layihələr Azərbaycanın nəyə qadir olduğunu sübuta yetirir.

Memarı ulu Öndər Heydər Əliyev olan yeni neft strategiyasının təməl daşı – "Əsrin müqaviləsi" həm iqtisadi, həm də siyasi, geostrateji və beynəlxalq əhəmiyyətli idi. Neft strategiyasının reallaşdırılması sayəsində sosial-iqtisadi və mədəniyyət problemləri uğurla həll olundu, Azərbaycan nəinki Cənubi Qafqazda, hətta ümumdünya miqyasda tanındı, geosiyasi məkanda söz sahibinə çevrildi, iqtisadi, siyasi və hərbi təhlükəsizliyinə nail oldu. Neft amili Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edirdi. Ölkəmizin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin və qazının dünya bazarlarına nəql edilməsindən ibarət idi.

Yaşıl enerji. Azərbaycan Respublikası Prezidentinin *2 fevral 2021-ci il* tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş *"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* ekoloji tarazlığın qorunması və bərpaolunan enerji istehsalı üzrə ölkə siyasətinin strateji əsasını təşkil edir. Həmin 5 Milli Prioritetdən biri olan *təmiz ətraf mühitə* və *"yaşıl artım"*a malik ölkəyə çevrilmə istiqamətində qarşıya mühüm vəzifələr qoyulub. Son tədqiqatlara görə, Azərbaycanda *bərpaolunan enerji potensialı 27 000 MVt*, o cümlədən *külək enerjisi üzrə 3000 MVt, Günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı*

380 MVt və *dağ çaylarının patensialı 520 MVt* həcmində qiymətləndirilir. Ölkədə bərpaolunan enerji sektorunun inkişafı və bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə *"Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında"* Azərbaycan Respublikasının *2021-ci il 31 may* tarixli *339-VIQ nömrəli Qanunu* qəbul edildi. Azərbaycan qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə töhfə olaraq *2030-cu ilədək istixana qazlarının emissiyalarını* baza ili (1990-cı il) ilə müqayisədə *35 faiz azaltmağı* qarşısına məqsəd qoyub. 2021-ci ilin noyabr ayında COP26 Konfransında ölkəmiz könüllü öhdəlik kimi *2050-ci ilə qədər emissiyaları 40 faiz azaltmaq* və işğaldan azad edilmiş ərazilərdə *"xalis sıfır emissiya" zonası* yaratmaq barədə yeni öhdəlik götürüb. Bu əsasda *Naxçıvan Muxtar Respublikası*, işğaldan azad edilmiş *Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası* elan edildi. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma prosesində ətraf mühitin mühafizəsi və ekosistemin bərpası əsas məqsədlərdən biri kimi müəyyən edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin *"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında"* ***3 may 2021-ci il*** tarixli Sərəncamına əsasən Yaponiyanın *"TEPSCO"* şirkəti ilə əməkdaşlıq çərçivəsində Konsepsiya hazırlanıb və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir. Hazırda Azərbaycanın *ümumi elektrik enerjisi üzrə istehsal gücü 8320.8 MVt*, iri su elektrik stansiyaları daxil olmaqla *bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1687.8 MVt* olmaqla ümumi gücün 20,3 faizini təşkil edir. Əsas məqsəd 2030-cu ilə qədər bu göstəricini ən azı 30 faizə çatdırmaqdır.

2020-ci ildən etibarən "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy", "A-Z Czech Engineering" və "Baltech" şirkətləri ilə müvafiq əməkdaşlıq sə-

nədləri imzalanıb. 2022-ci il yanvarın 13-də *240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının* tikintisinin *təməlqoyma* mərasimi keçirilib. *26 oktyabr 2023-cü il* tarixində Qafqaz və Xəzəryanı regionların ən böyük bərpaolunan enerji stansiyası olan *230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının açılış* mərasimi keçirilib. *17 dekabr 2022-ci il* tarixində Buxarestdə *"Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində Strateji Tərəfdaşlıq haqqında Saziş"* imzalanıb. Sazişə əsasən, Xəzər dənizində hasil ediləcək yaşıl enerji *"Xəzər-Qara dəniz-Avropa"* Yaşıl Enerji Dəhlizi ilə Avropaya ixrac ediləcək. ***2023-cü il dekabrın 11-də*** BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - ***COP29-un 2024-cü il noyabrın 11-dən 23-dək Azərbaycanda*** keçirilməsi barədə qərar qəbul edildi. COP29-da əsas müzakirə mövzusu *iqlim maliyyəsi* oldu. Bu, beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmət və etimadının bariz nümunəsidir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin ***25 dekabr 2023-cü il*** tarixli Sərəncamı ilə ***2024-cü il*** Azərbaycan Respublikasında ***"Yaşıl dünya naminə həmrəylik ili"*** elan edilmişdir [621].

2 iyun 2025-ci il tarixində ***"Bakı Enerji Həftəsi"*** çərçivəsində Bakı Ekspo Mərkəzində 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ("Caspian Oil & Gas"), 13-cü Xəzər Beynəlxalq Enerji və Yaşıl Enerji Sərgisi ("Caspian Power") və 30-cu Yubiley Bakı Enerji Forumu təşkil edilmişdir. Tədbirlərdə 39 ölkədən 267 şirkətin nümayəndələrinin iştirakı *"Bakı Enerji Həftəsi"*nin təkcə milli deyil, həm də regional və qlobal enerji gündəliyində mühüm platformaya çevrildiyini göstərir. İştirakçı şirkətlərin təxminən 70 faizinin xarici şirkətlər olması Azərbaycanın enerji sektoruna beynəlxalq marağın yüksək səviyyədə qaldığını nümayiş etdirir. *2026-cı il iyunun 1-dən 3-dək* keçirilən *"Bakı Enerji Həftəsi"* də üç böyük beynəlxalq

tədbiri - 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisini ("Caspian Oil & Gas"), 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisini ("Caspian Power") və 31-ci "Bakı Enerji Forumu"nu bir araya gətirmişdir. Tədbirlərdə dünyanın 46 ölkəsindən 276 şirkət iştirak etmişdir. İştirakçıların təxminən 60 faizi xarici şirkətlər, 40 faizi isə yerli müəssisələr idi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə əsası qoyulmuş *"Caspian Oil and Gas"* sərgisinin davamı olan *"Bakı Enerji Həftəsi"* Azərbaycanın enerji siyasətinin beynəlxalq səviyyədə təqdim edilməsi, xarici investisiyaların cəlb olunması, yeni layihələrin təşviqi və enerji sahəsində beynəlxalq tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından mühüm institusional platformaya çevrilmişdir. Bununla yanaşı, tədbirin gündəliyində bərpaolunan enerji və yaşıl texnologiyalara artan diqqət Azərbaycanın enerji siyasətində struktur transformasiyasının baş verdiyini göstərir. Xüsusilə, *"Caspian Power"* sərgisində günəş və külək enerjisi, geotermal enerji, enerji səmərəliliyi, elektrik nəqliyyatı və müasir enerji texnologiyalarının təqdim olunması bərpaolunan enerjinin və enerji keçidinin ənənəvi neft və qaz istiqaməti ilə yanaşı, Azərbaycanın enerji strategiyasında prioritet mövqeyə yüksəldiyini nümayiş etdirir. *2026-cı ildə* keçirilən tədbirdə isə əlavə olaraq süni intellekt, dekarbonizasiya, qazma texnologiyaları, neft və qaz məhsullarının istehsalı və saxlanması sahələrində yeni texnologiyalar və layihələr təqdim olunmuşdur. Bu, enerji sektorunda rəqəmsallaşmanın və texnoloji innovasiyaların artan rolunu göstərir. Bu baxımdan, *"Bakı Enerji Həftəsi"* Azərbaycanın yalnız ənənəvi enerji resurslarının ixracatçısı kimi deyil, həm də yaşıl enerji və enerji texnologiyaları üzrə regional mərkəz kimi təqdim etmək strategiyasını əks etdirir.

Beləliklə, *"Bakı Enerji Həftəsi"* Azərbaycanın enerji diplomatiyasının dörd əsas istiqamətini — ənənəvi enerji sektorunda beynəlxalq tərəfdaşlığın davam etdirilməsi, xarici

investisiyaların cəlb edilməsi, enerji marşrutlarının şaxələndirilməsi və təhlükəsizliyi və yaşıl enerjiyə keçidin sürətləndirilməsini — vahid platformada birləşdirir. Bu dörd istiqamət birlikdə Azərbaycanın enerji siyasətində *"ənənəvi enerji + enerji təhlükəsizliyi + yaşıl transformasiya + enerji diplomatiyası" modelinin* formalaşdığını göstərir. Bu model Azərbaycanın təkcə enerji ixracatçısı kimi deyil, həm də regional enerji layihələrinin təşəbbüskarı, yaşıl enerji istehsalçısı və Avrasiya enerji əlaqələrində mühüm iştirakçı kimi artan mövqeyini nümayiş etdirir. Eyni zamanda, Azərbaycanın Avrasiya məkanında enerji və beynəlxalq nəqliyyat marşrutlarının kəsişməsində yerləşən logistika mərkəzi kimi mövqeyi də vurğulanır [639, 687].

II BƏND:

Azərbaycan Respublikası XX əsrin 90-cı illərinin ikinci yarısı-XXI əsrin ilk onilliklərində

Plan:

1. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi.
2. Azərbaycanda sosial-iqtisadi və mədəni dirçəliş.
3. Azərbaycan intibahının yeni mərhələsi.
4. Azərbaycan dünya birliyində.

1. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi

1995-ci ilin ortalarında Azərbaycanda artıq ictimai-siyasi sabitlik yaradılmışdır. Respublikada demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesləri sürətlə davam etdirilirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası tərəfindən ***"Azərbaycan Respublikasının Konstitusiyası"*** layihəsi hazırlandı, *1995-ci il oktyabrın 15-də* ümumxalq müzakirəsi üçün dərc edildikdən sonra isə vətəndaş və təşkilatlardan 2450 təklif, düzəliş və əlavə daxil oldu [449]. Layihə ümumxalq müzakirəsindən keçdikdən sonra ***1995-ci il noyabrın 12-də*** ümumxalq səsverməsi (***referendum***) yolu ilə qəbul edildi. Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən (əvvəl 199 idi) ibarətdir. Konstitusiyanın 158 maddəsindən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir [26, s. 96]. Konstitusiyada dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsi və vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək və s. kimi niyyətlər təsbit olunmuşdur. Konstitusiyaya görə Azərbaycanda hakimiyyətin yeganə mənbəyi xalqdır. Azərbaycan xalqını yalnız onun demokratik surətdə seçdiyi səlahiyyətli nümayəndələri təmsil edə bilər. Əsas qanunda dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunmuşdur. Konstitusiyada ən mühüm cəhətlərdən biri də hakimiyyət bölgüsünün müəyyən edilməsidir. Konstitusiyaya görə dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünür. Qanunvericilik hakimiyyətini Milli Məclis, icra hakimiyyətini Azərbaycan Respublikasının Prezidenti və məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər. Prezident Ali icra hakimiyyətinin vəzifəsini yerinə yetirməklə bərabər, həm də Azərbaycan dövlətinin başçısı, bütün xalqın təmsilçisi və onun vahidliyinin rəmzidir. Bu, Azərbaycan Respublika-

sının quruluş etibarı ilə Prezident respublikası olduğunun göstəricisidir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan tarixində ilk dəfə olaraq, özündə məhkəmələrin müstəqilliyini təmin edən prinsipləri təsbit edir. Konstitusiyaya görə hakimlər müstəqildirlər, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişməzdirlər [26, s. 96.]. Azərbaycan demokratik cəmiyyət quruculuğunun mühüm istiqamətlərindən biri də, yerli özünüidarə orqanlarının təsis edilməsidir. Dövlət orqanları bütövlükdə ümumdövlət, ümummilli mənafelərin həyata keçirilməsi ilə məşğul olurlarsa, yerli özünüidarə orqanları birinci növbədə yerli inkişaf mənafelərini təmin edirlər. Onlara yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətləri aid edilmişdir. Konstitusiyaya görə yerli özünüidarəni seçkilər əsasında yaradılan ***bələdiyyələr*** həyata keçirir. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" Qanunlar qəbul edilmişdir. *1999-cu il dekabrın 12-də* Respublikada ilk dəfə olaraq *bələdiyyələrə seçkilər* keçirildi [338]. Beləliklə, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə ölkədə azad bazar iqtisadiyyatına əsaslanan dünyəvi, hüquqi, demokratik vətəndaş cəmiyyəti qurmağın hüquqi əsası yarandı. Heydər Əliyev Şərq və müsəlman ölkələri tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasında ***1998-ci il fevralda ölüm cəzasının ləğvinə*** nail oldu [302]. ***1993-2000-ci illərdə*** amnistiya yolu ilə 40 min nəfər məhkumlardan azad edildi. Milli Məclisin qəbul etdiyi 6 amnistiya aktlarının 63477 məhbusa tətbiq edilməsi [307; 258], ölüm cəzasına məhkum olunmuş insanların bağışlanması sivil, humanist cəmiyyət quruculuğunda əhəmiyyətli addımlar idi.

Azərbaycan Respublikası Konstitusiyası ***Naxçıvan MR***-ə Azərbaycanın tərkibində ***Muxtar Dövlət*** statusu verdi. Naxçıvan MR-da dövlət idarəetməsi parlament hakimiyyəti üsuludur. Ali Məclisin - parlamentin sədri Muxtar Respublikanın ali vəzifəyə seçilən şəxsdir. Ali Məclis, onun qarşısında məsuliyyət daşıyan

orqanı – İcra Hakimiyyətini formalaşdırır. Muxtar Respublikanın Ali Məclisi, məhkəmələri qanunla və Azərbaycan Respublikasının Prezidentinin fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələləri müstəqil həll edirlər. Azərbaycan Respublikası Konstitusiyası əsasında hazırlanmış ***Naxçıvan MR-in yeni Konstitusiyası*** Muxtar Respublikanın Ali Məclisində ***1998-ci il aprel ayının 28-də*** qəbul edildi və ***dekabrın 29-da*** isə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olundu [230].

1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi nəticəsində Müstəqil Azərbaycanın ilk demokratik ***parlamenti*** yaradıldı – 125 deputat seçildi. Beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təsisatlarının tələblərinə uyğun qanunlar hazırlamaq məqsədilə *1996-cı ilin fevralında* Azərbaycan Respublikası Prezidenti yanında xüsusi *"Hüquqi İslahatlar Komissiyası"* yaradıldı. Azərbaycan Avropa Şurasının *"Qanun vasitəsilə demokratiyaya doğru"* Venesiya Komissiyasına assosiativ üzv qəbul olundu [217]. Dövlət idarəetmə sistemində islahatlar üçün proqram hazırlandı. Bununla əlaqədar ***1998-ci ilin dekabrında*** Prezidentin fərmanı verildi, *Xüsusi Komissiya* yaradıldı. Azərbaycan Prezidenti *1998-ci ilin fevralında* ***"İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında"*** *Fərman* imzaladı [304]. İnsan huquqlarının təmin olunma mexanizmi üçün bir sıra qanunlar – ***"Kütləvi informasiya vasitələri haqqında"*** *(1999-cu il),* ***"Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında"*** *(2001-ci il dekabr),* ***"Dini etiqad azadlığı haqqında"*** *(1992-ci il 30 avqust)*, ***"Ölkədən getmək və ölkəyə gəlmək haqqında"***, ***"Sərbəst toplaşmaq azadlığı haqqında"*** və digər Qanunlar qəbul edildi. *1998-ci ilin oktyabrında* ***"Vətəndaşlıq haqqında"*** yeni Qanun qəbul olundu [511, 512]. ***"Dini etiqad azadlığı haqqında"*** Qanun *1996 və 1997-ci illərdə* daha da təkmilləşdirilərək milliyyətindən asılı ol-

mayaraq, Azərbaycanda yaşayan insanların dini dəyərlərini qoruyub inkişaf etdirilməsinə imkan yaratdı. Dini konfessiyalara tolerantlıqla yanaşma ənənəsini yenidən dirçəldən və bu istiqamətdə xüsusi fəaliyyət göstərən Heydər Əliyevin təşəbbüsü ilə ***1999-cu ildən*** etibarən Azərbaycanda ***tolerantlıq günü (16 noyabr)*** qeyd edilir.

Prezidentin ***1998-ci il 6 avqust*** tarixli ***"Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında"*** Prezident Fərmanı ilə ***senzura ləğv*** edildi. *2001-ci ildə* Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. *2002-ci il oktyabrın 5-də* Azərbaycan Prezidentinin Fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı [356].

Azərbaycan Respublikası insan hüquqları ilə bağlı 29 beynəlxalq konvensiyaya qoşuldu. Avropa Şurasına üzv qəbul olunduqdan sonra, Azərbaycan *1998-ci il avqustun 18-də "**İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına*** qoşuldu. ***2001-il dekabrın 28-də*** Milli Məclis tərəfindən ***"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında"*** Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edildi [343]. *2002-ci ildə* respublikada Ombudsman İnstitutu yaradıldı. Milli Məclisin qərarı ilə ***iyulun 2-də*** Elmira Süleymanova bu vəzifəyə seçildi. *2002-ci ilin avqust ayının 24-də* referendum vasitəsilə Azərbaycan Konstitusiyasına dəyişikliklər edildi – fövqəladə və ya hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi ilə bağlı insana qarşı silah işlədilməsinə yol verilmirdi [7, s. 353].

1997-ci ilin oktyabr ayında ***"Konstitusiya Məhkəməsi haqqında"*** Azərbaycan Respublikasının Qanunu qəbul edildi. ***1998-ci ildə Konstitusiya məhkəməsi*** yaradıldı [365]. *2002-ci il avqust ayının 24-də* Prezident Heydər Əliyevin təşəbbüsü ilə referendum vasitəsilə Konstitusiyaya 39 mühüm dəyişiklik edildi. *2002-ci ilin aprel ayından* hakimlərin, *2002-ci ildən* isə prokurorluq orqanları işçilərinin xüsusi test imtahanından keçməsi təc-

rübəsi tətbiq olunmağa başlandı [440]. *2002-ci ilin sentyabrından* başlayaraq, Respublikada üçpilləli məhkəmə sistemi formalaşdı. Apellyasiya məhkəməsi yarandı [245]. *1994-cü il 9 avqust* tarixli Azərbaycan Prezidentinin Fərmanının müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində *1995-2001-ci illərdə* 6904 cinayətkar qrup zərərsizləşdirildi, 14.899 odlu silah isə yığıldı [239]. Prezident Heydər Əliyev *1996-cı ilin avqust ayında* "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Fərman verdi. Narkomanlıq və narkobizneslə mübarizə üzrə komissiya yaradıldı [219]. *2001-ci il iyun ayının 29-da* Azərbaycan Prezidenti tərəfindən "Narkoloji xidmət və nəzarət haqqında" Qanun təsdiq edildi [346].

1998-ci il oktyabr ayının 11-də xalq alternativ Demokratik dəyərlərə söykənən vətəndaş cəmiyyəti qurmaq yolu ilə insanların azad siyasi və ictimai fəaliyyəti üçün imkanlar yaradan demokratik təsisatların, o cümlədən, çoxpartiyalı sistemin və ictimai birliklər şəbəkəsinin bərqərar olmasından keçir. Müstəqillik dövründə respublikamızda çoxsaylı siyasi partiyaların, ictimai təşkilatların, birliklərin təşəkkülü və inkişafı prosesi getmişdir. Onlar Azərbaycan Respublikasının Konstitusiyası, "Siyasi partiyalar haqqında", "İctimai birliklər haqqında", "Həmkarlar ittifaqları haqqında" və digər qanunlar əsasında yaradılıb fəaliyyət göstərirdilər. *1990-cı ildə* "Azərbaycan Sosial-Demokrat", "Ana Vətən" partiyaları, *1991-ci ildə* "Azərbaycan İslam Partiyası", "Vahid Azərbaycan Uğrunda Mübarizə İttifaqı" kimi siyasi təşkilatlar və "Azərbaycanın Qarabağa Nicat Cəmiyyəti" yaradıldı, *1992-ci ilin yayında* "Azərbaycan Milli İstiqlal Partiyası", "Türk Dünyası Birliyi Partiyası", "Çağdaş Turan Partiyası", 'Müsavat Partiyası", "Yeni Azərbaycan Partiyası", "Azərbaycan Demokratik Partiyası", *1993-cü ildə* "Azərbaycan Yeniləşmiş Kommunist Partiyası", "Azərbaycan Vahid Kommunist Partiyası', "Azərbaycan Liberal Partiyası" və s., *1994-cü ildə* "Azərbaycan Əmək Partiyası", "Milli Dövlətçilik Partiyası", *1995-ci ildə*

AXC siyasi təşkilatı zəminində "Azərbaycan Xalq Cəbhəsi Partiyası", "Sahibkarların Demokratik Partiyası" və s. partiyalar və siyasi birliklər yaradılmışdır. Bundan başqa Azərbaycanda "Vətən Cəmiyyəti", "Heydər Əliyev Fondu", "Azərbaycan Mədəniyyət Fondu", "İnkişaf Assosiasiyası", H.Z.Tağıyev adına "Xeyriyyə Fondu", "Bakı İncəsənət Mərkəzi", respublikada yaşayan azsaylı etnik qrupların mərkəzləri, birlikləri və icmaları yaradılaraq, fəaliyyət göstərməkdədirlər. *1992-ci ildə* "Azad Müəllimlər Birliyi", *1993-cü ildə* 30-dan yuxarı sahə Həmkarlar İttifaqlarını özündə birləşdirən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası təşkil olunmuşdur. *1995-ci ildə* Azərbaycanda 50-dən çox siyasi partiya və ictimai təşkilat mövcud idi. Siyasi partiyaların sıralarında 410 min nəfərdən çox adam birləşmişdir [46, s. 64]. Artıq *2000-ci ildə* Respublikada rəsmi qeydə alınmış 34 siyasi partiya, 1000-dən çox ictimai birlik və təşkilat, o cümlədən 30-a qədər hüquq-müdafiə təşkilatı və 500-dən çox kütləvi-informasiya vasitəsi fəaliyyət göstərirdi. *2002-ci ildə* isə rəsmi qeydə alınmış 350 min üzvü olan 39 siyasi partiya, 1350 ictimai birlik, qeyri-hökumət təşkilatı fəaliyyət göstərirdi [244]. *2000-ci il noyabrın 5-də* tərkibinin əksəriyyətini YAP-çılar təşkil edən 4 siyasi partiyanın nümayəndələrindən ibarət yeni parlament seçildi və iqtidar partiyasına çevrildi. Yeni Azərbaycan Partiyasının sıralarında *2001-ci il noyabr ayının 21-də* 230 min nəfər birləşmişdir [12, s. 279; 348; 309].

1998-ci ilin yanvarında yaradılan Qadın Problemləri üzrə Dövlət Komitəsi sonradan *"Ailə və Qadınlar Problemləri Dövlət Komitəsi"*nə çevrilmişdir. *2000-ci ilin martın 6-da* ***"Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında"*** Prezident Fərman vermişdir. *1998-ci il mayın 19-da* "Uşaq hüquqları haqqında" Qanun, "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı qəbul edilmişdir [362, s. 8; 297; 26, s. 270]. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə *1994-cü il iyulun 26*

Gənclər və İdman Nazirliyi yaradıldı və *1997-ci ildən fevralın 2-si* Azərbaycanda ***"Gənclər Günü"*** kimi qeyd olunmağa başlandı [223].Prezident Heydər Əliyevin imzası ilə *1999-cu il iyulun 29-da* "Dövlət gənclər siyasəti haqqında" Fərman verilmişdir [26, s. 241; 12, s. 280-282].

Bütün yuxarıda göstərilən əsaslar respublikamızda dünyəvi, hüquqi, demokratik vətəndaş cəmiyyəti quruculuğunun uğurla həyata keçirilməsindən xəbər verir.

Azərbaycan Prezidenti H.Əliyevin Fərmanına əsasən ***2002-ci il avqustun 24-də*** Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi: ölkədə prezidentdən sonra ikinci şəxs baş nazir müəyyən edildi və proporsional seçki sistemi ləğv olundu, ümumi "mojaritar" seçki sistemi müəyyən edildi. Həmin dövrə qədər ölkənin ikinci şəxsi parlamentin başçısı hesab edilirdi. Yəni, prezident səlahiyyətlərini icra edə bilmirdisə onu parlament başçısı əvəz etməli idi. ***18 mart 2009-cu ildə*** referendum yolu ilə Konstitusiyaya edilən dəyişiklik prezidentin ömürlük seçilməsinə imkan yaratdı. Buna qədər Azərbaycanda da prezident bir çox ölkələrdə olduğu kimi yalnız iki dəfə seçilə bilərdi.

2016-cı il sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında keçirilən referendumdan sonra prezident ümumi, bərabər, birbaşa seçki hüququ əsasında, sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçildi və prezidentlik üçün yaş limiti ləğv olundu. Vitse-prezident postları yaradıldı, torpaq hüququnun məhdudlaşdırılması təklif edildi. Azərbaycan Respublikasının ***Birinci Vitse-Prezidenti*** vəzifəsinə *2017-ci il fevralın 21-də* ***Mehriban Arif qızı Əliyeva*** təyin edildi. Layihəyə görə, prezident birinci vitse-prezident və vitse-prezidentləri vəzifəyə təyin və vəzifədən azad etmək səlahiyyətinə malikdir. Prezident vəzifədən getdikdə ölkə başçısının səlahiyyətlərinin birinci vitse-prezidentə, o olmadıqda

vitse-prezidentə, daha sonra ardıcıllıqla baş nazirə, Milli Məclisin sədrinə keçməsi təklif edildi [590].

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il sentyabrın 19-da verdiyi məlumata əsasən, Azərbaycanda seçki dairələrinin yenidən təşkili həyata keçirilib. ***2023-cü il dekabrın 7-də*** dövlət başçısı İlham Əliyev "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzaladı və növbədənkənar seçkilər ***2024-cü il fevralın 7-nə*** təyin edildi [671]. Mərkəzi Seçki Komissiyasının yekunlarına görə, ***İlham Əliyev*** seçicilərin *92,12 %-nin səsini* qazanaraq *5-ci dəfə 7 il müddətinə* ***Azərbaycan Respublikasının Prezidenti*** seçildi [672].

Azərbaycan Respublikasının Zəfər tarixinin *19-20 sentyabr 2023-cü il* tarixlərində həyata keçirilən *lokal antiterror tədbirləri* nəticəsində üçrəngli bayrağımızın Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda dalğalanması və ərazi bütövlüyümüzün tam bərpası ilə yekunlaşmasından sonra Mərkəzi Seçki Komissiyasının *27 iyun 2024-cü il* tarixli iclasında "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" ***2023-cü il 5 dekabr tarixli Qanunla*** əlaqədar 96 saylı Goranboy, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhəri, 119 saylı Ağdam kəndi və 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairələrinin hüdudlarının və adlarının qismən dəyişdirilməsi barədə Qərar qəbul edilmişdir. Qərara əsasən, adıçəkilən seçki dairələri 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 118 saylı Ağdam-Xocalı, 119 saylı Ağdam və 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi adlandırılmışdır [543]. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə və Seçki Məcəlləsinin 8, 19.4, 19.14, 28.2, 28.4, 210, 211 və 213-cü maddələrinə uyğun olaraq, Azərbaycan Respublikasında növbəti ***bələdiyyə seçkilərinin 2025-ci il yanvarın 29-na*** təyin edilməsi

barədə ***27 noyabr 2024-cü il*** tarixli ***49/238 nömrəli Qərar*** qəbul etmişdir [544].

2. Azərbaycanda sosial-iqtisadi və mədəni dirçəliş

İqtisadi dirçəliş. SSRİ-də 80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər Azərbaycanın da iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. Milli gəlirin 1/3-i müharibəyə xərclənirdi. Ərazimizin 1/4-i hərbi əməliyyat meydanına çevrilmişdir. 1 mln. ha kənd təsərrüfatı sahəsi, 65 min baş qaramal, 240 min baş davar, 173 sənaye obyekti, 200-dən çox faydalı qazıntı yataqları, o cümlədən 4 qızıl, 3 civə, 2 qranit, 2 mərmər, 10 mineral su mədəni, 250 min ha meşə sahəsi, o cümlədən Zəngilanda dünyada II, Avropada isə I olan 107 ha çinar meşəsi düşmən əlinə keçmişdir [26, s. 198].

H.Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitlik yaratdı və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Beynəlxalq, milli əmanət bankları, özəl banklar, dövlət torpaq, əmlak komitələri yaradıldı. ***1994-cü ilin əvvəllərində milli valyuta-manat*** yeganə ödəniş vasitəsi oldu. Azərbaycan hökuməti Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq yaratdı [453]. Büdcə kəsirinə ciddi nəzarət edildi, onun artmasına yol verilmədi. Görülən tədbirlər nəticəsində 1995-ci ildə inflyasiya kəskin surətdə azalaraq 85 faizə endi. 1996-cı ildə 6,7 %, 2000-ci ildə cəmi 2 %, 2001-ci ildə isə 1,5 % oldu [344; 240]. Manatın məzənnəsi dollara nisbətən artdı. Prezidentin vergi sistemini təkmilləşdirməsi nəticəsində 1996-cı ilin sentyabrından əlavə vergi 50 % azaldıldı, 1997-ci ilin əvvəllərindən isə tamamilə ləğv edildi, gömrük rüsumları 30-40 %-dən 15 %-ə endirildi [454]. *2001-ci il yanvarın 1-dən* ölkədə ***vahid vergi qanunvericiliyinin*** tətbiq olunması nəticəsində isə yerli və xarici iş

adamları eyni imtiyazlara, güzəştlərə malik oldular. Gömrük vergisi azaldıldı. ***1994-cü ilin aprelində*** xarici ticarətin sərbəstləşdirilməsi haqqında Fərman verildi. Xarici investorları maraqlandırmaq üçün 1994-cü ilin payızında Bakıda, 1995-ci ilin qışında Londonda və Parisdə, 1996-cı ilin baharı və payızında, 1997-ci ilin baharında Bakıda və İstanbulda keçirilən beynəlxalq biznes konfranslarında Prezident Heydər Əliyevin iştirakı və xarici investorları respublikaya kapital qoymağa şəxsən dəvət etməsi çox səmərəli oldu [7, s. 373]. Azərbaycan dövlətində 2000-ci ildə 1300-dən çox xarici şirkət və firmanın nümayəndəliyi fəaliyyət göstərirdi [455]. Prezident tərəfindən *1995-ci il sentyabr ayının 29-da* Qanunla təsdiqlənmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı", "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Auditor xidməti haqqında" qanunlar, "Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında Əsasnamə" və digər dövlət əhəmiyyətli hüquqi aktlar qəbul edilmişdir. Sahibkarlığın inkişafı üçün Milli Fond yaradılmışdır. 1993-cü ildə 300, 1997-ci ildə isə 60 min dövlət müəssisəsi özəlləşdirildi [452]. *"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)"* və *2002-ci ilin avqust ayının 17-də "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)"* qəbul olundu [354]. ***2002-ci il avqust ayının 27-də*** Prezidentin Sərəncamı ilə Prezident yanında ***Sahibkarlar Şurası*** yaradıldı. Prezidentin Fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə" təsdiq olundu [351, 352, 355]. Azərbaycan dövlətində sahibkarlığın inkişafına beynəlxalq iqtisadi təşkilatlar – BMT-nin İnkişaf Proqramı, Avropa Birliyi İqtisadi Komissiyası TASİS Texniki Yardım Proqramı (KOSİA-SMEDA təşkilatı, "Türk Sənaye İş Adamları Birliyi", "Türk İş Birliyi İnkişaf Agentliyi"), Almaniya Texniki Əməkdaşlıq Təşkilatı, İngiltərə-

nin "Kayzer" firması, İtaliyanın "Porçeti SPA" firması, ABŞ-ın "Hayləndˮ, "Red-Tulˮ, "Raynold Tobakkoˮ, Türkiyənin "Starˮ və digər firmalar köməklik göstərirdilər. Ümumiyyətlə, 1996-2002-ci illərdə iqtisadiyyata 12 milyard dollar investisiya cəlb olunmuşdur [234; 253]. Bakıda 1996-cı ildə qoz-fındıq emalı, yağ, "Koka-Kolaˮ, 1999-cu ildə "Pepsi-Kolaˮ sərinləşdirici içki zavodları açıldı. Avropada ən böyük, 150 tonluq marten sobası yenidən işə salındı [299]. Bakı kimya-əczaçılıq zavodu 119 adda, "Loğmanˮ Səhmdar Cəmiyyəti 58 növ dərman preparatı istehsal edirdi [328]. *1998-2002-ci illərdə Şəmkir-Yenikənd Su-Elektrik* Stansiyasının 3 bloku, *Abşeronda "Şimal" Dövlət Rayon Elektrik* Stansiyasının enerji bloku, *1 saylı Bakı İstilik-Elektrik Mərkəzində* (İEM) yeni qaz-turbin elektrik qurğusu, *Mingəçevir SES-i, "Azərneftyağ"* İstehsalat Birliyində bitum qurğusu və s., *2001-ci ildə "Kaspian-Fiş"* balıq məhsulları istehsalı müəssisəsi, Bakı elektroqaynaq səhmdar cəmiyyətinin Bakı poladtökmə və s. zavod və müəssisələri istifadəyə verildi [234, 236]. *2001-ci ildə* Yaponiyanın İqtisadi Əməkdaşlıq Bankından alınan kreditlər hesabına Sumqayıtda Etilenpropilen zavodunun yenidən qurulması, Dünya Bankının krediti hesabına Neftçalada yeni Balıqyetişdirmə zavodunun işə salınması, Xaçmazda "Şimalˮ konserv zavodunun istifadəyə verilməsi sayəsində bölgələrdə əhalinin məşğulluğu təmin edildi, yerli və xarici sahibkarlar tərəfindən iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoyuldu və bütün bunlar Azərbaycan dövlətinin səmərəli siyasət yeritdiyinin sübutu idi.

Kənd təsərrüfatının inkişafı üçün Prezident tərəfindən bir sıra torpaq islahatları həyata keçirildi. *1995-ci ilin fevral ayında* ***"Aqrar islahatlarının əsasları"*** və ***"Kolxoz və sovxozların islahatı haqqında"*** Qanunlar qəbul edildi [442]. *1995-ci ilin martında* ***"Dövlət aqrar islahatı"*** Komissiyası yaradıldı [451]. ***"Torpaq islahatı haqqında"*** Qanun *1996-cı il iyulun 16-da* qəbul edildi. Bu qanuna görə torpaq kənddə yaşayan vətəndaşların

xüsusi mülkiyyətinə pulsuz verildi. Respublikanın *vahid torpaq fondu* əsasında *3-dövlət, bələdiyyə* və *xüsusi torpaq mülkiyyəti* forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22%-i-1 miln. 911 min ha xüsusi, 45%-i dövlət, 33%-i bələdiyyə mülkiyyətinə verildi [218]. ***"Dövlət torpaqları haqqında", "Torpaq vergisi haqqında"*** Qanunlar, bunlara uyğun normativ aktlar qəbul olundu. *1996-cı ilin iyulunda Aqrar kredit kassaları* yaradıldı. Prezident Heydər Əliyev *1999-cu il 22 mart* tarixli "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarını 5 il müddətinə torpaq vergisindən, bütün 8 növ vergidən azad etdi və bütün vergi borcları ləğv olundu. Prezident *1999-cu il 9 noyabr* tarixli xüsusi Fərmanla "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı"nı təsdiq etdi [233]. Respublikada 2001-ci ilin əvvəllərində 1 mln. 329 min 285 ha torpaq özəlləşdirilmişdir, 3 mln. 238 min vətəndaşa torpaq payı ayrılmışdır [7, s. 387; 28, s. 79-83]. Əsrin sonlarında kənd təsərrüfatında sahibkarlığa əsaslanan 35 minədək kəndli (fermer) təsərrüfatı, 224 istehsal kooperativi, 491 kiçik müəssisə, 1676 birgə təsərrüfat fəaliyyət göstərirdi [341, 342]. *1996-cı ilin oktyabrında* ***"Sudan pullu istifadə haqqında Əsasnamə"*** qəbul olunması meliorasiya xidmətinin yaxşılaşdırılmasına imkan yaratdı. Kənd təsərrüfatında aparılan islahatlar nəticəsində bu sahədə istehsal 1997-2002-ci illərdə 51 % artmışdır [257]. Azərbaycan 123 xarici ölkə ilə ticarət əlaqələri saxlayırdı. Xarici ticarət dövriyyəsində ilk dəfə 2000-ci ildə ixrac (63,3 %) idxaldan (36,7 %) çox olmuş, müsbət saldo yaranmışdır [342; 350; 358].

Respublikanın dövlət büdcəsinin gəlirləri 1996-2002-ci illərdə 2,2 dəfə artmışdır. Respublikada 1994-1998-ci illərdə orta aylıq əmək haqqı 12 dəfə artaraq, 184,4 min manata, 2002-ci ildə isə 315 min manata çatmışdır [358], əhalinin alıcılıq qabiliy-

yəti 2,5 dəfə artmışdı. *1994-cü il iyulun 24-də* "Əhalinin sosial müdafiəsi haqqında" Qanun qəbul edildi [295], *noyabr ayının 21-də* "Əhalinin Sosial Müdafiəsi Fondu" yaradıldı. Azərbaycan hökuməti *1995-ci ilin yanvar ayında* pedaqoji işçilərin ailələrini elektrik enerjisindən, qazdan istifadə və kommunal xidmət xərclərindən tamamilə azad etdi, *1995-ci ilin sentyabr ayında* isə "Vətəndaşların pensiya təminatı haqqında" Qanun qəbul etdi. Prezident *1996-cı ilin may ayında* aztəminatlı ailələrə verilən müavinətləri, aspirant, tələbə və şagird təqaüdlərini artırmaq haqqında yeni sərəncam verdi [216]. Müharibə və 20 Yanvar əlillərinə *1998-ci ildən* dövlət hesabına "Oka" markalı minik maşınları, növbə ilə evlər paylandı.

Qaçqın və məcburi köçkunlərin problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiəsini gücləndirmək məqsədi ilə ***1998-ci il sentyabrın 17-də xüsusi Dövlət Proqramı*** qəbul edilmişdir. Dövlət Proqramına müvafiq olaraq, 1998-2001-ci ilərdə bir sıra rayonlarda yaşayış məntəqələrinin salınması, infrastrukturun yenidən qurulması, kommunikasiya xətlərinin, məktəblərin, tibb məntəqələrinin bərpası, təsərrüfatla məşğul olmaq üçün əkin sahələrinin ayrılması, yeni iş yerlərinin yaradılması istiqamətində çoxlu işlər görülmüşdür. Qaçqın və məcburi köçkünlərin mənzil-kommunal şəraitini yaxşılaşdırmaq və məşğulluğunu yüksəltmək məqsədi ilə Azərbaycan Respublikasında Dünya Bankının, digər beynəlxalq, qeyri-hökumət və kredit təşkilatlarının maliyyə dəstəyi əsasında *1999-cu ilin dekabrında* ***Sosial İnkişaf Fondu*** yaradıldı. Bir qrup ədəbiyyat, incəsənət və elm xadiminə, gənc istedadlara fərdi təqaüdlər müəyyən edildi. *2002-ci ilin iyunundan* etibarən xalq qarşısında mühüm xidmətləri olan şəxslərə yüksək ***Prezident təqaüdü*** verilməyə başlandı. *"**Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə dövlət Proqramı"*** hazırlandı. Beynəlxalq təşkilatlar – BMT İnkişaf Proqramı, Beynəlxalq Əmək Təşkilatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə birlikdə yoxsulluqla mübarizədə fəal işti-

rak edirdi. Ölkədə yeni iş yerləri, özəl müəssisələr açıldı, abadlıq işləri, tikinti, xidmət sahələri sürətlə inkişaf etməyə başladı. *1996-cı ildə* respublikanın "İşğal olunmuş və Ziyan çəkmiş Ərazilərinin Bərpası və Yenidən qurulması üzrə Dövlət Komissiyası" yaradıldı. Beynəlxalq Şura, Bərpa Agentliyi təsis olundu [298]. Respublika Prezidenti *2001-ci il 22 avqust* tarixli Fərmanla Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli ilə bağlı bir sıra mühüm tədbirlər müəyyən olundu [235]. Belə ki, Prezidentin verdiyi *2001-ci il 7 sentyabr* tarixli Fərmanla məcburi köçkünlərin məskunlaşdırılması üçün Ağdam rayonunda 500, Füzuli rayonunda 800 ailəlik evlər tikilmiş qəsəbələr salındı [346], Dövlət Neft Fondundu isə *2002-ci il 13 may* tarixli Fərmanına əsasən Füzuli və Biləsuvar rayonlarında 19 yeni qəsəbə salınması üçün 192 milyard manat vəsait ayırdı [241; 247].

Respublika Prezidenti tərəfindən *səhiyyə sahəsinin* inkişafı üçün də yeni qərarlar qəbul edildi. *1996-cı ilin sentyabrında* ***"İnsanın immunçatışmazlıq virusunun törətdiyi xəstəliyin (AİDS) yayılması qarşısının alınması haqqında"*** [229], *1997-ci il mart ayında isə* ***"Əhalinin sağlamlığının qorunması haqqında"*** Qanunlar qəbul edildi. *"****Səhiyyə təşkilatlarının özünü maliyyələşdirmə sisteminə keçməsi haqqında"*** xüsusi proqram hazırlanıb həyata keçirilməyə başlandı. Respublikada görülən tədbirlər nəticəsində *2003-cü ildə* 414 tibb müəssisəsisi (Respublika Diaqnostika Mərkəzi, Nüvə-Maqnit Rezonans Mərkəzi, Respublika təsərrüfathesablı Uroloji Xəstəxanası, Bakı Şəhər Diabetoloji Mərkəzi) pullu xidmətə keçmişdir. ***"Özəl tibb fəaliyyəti haqqında"*** Qanun qəbul edildikdən sonra "Əfsanə" müalicə-diaqnostika mərkəzi, "Nord Star" doğum evi, "Ekzimer-Lazer Mərkəzi", "Medikalseptr" Türk-Amerika tibb müəssisəsi, "Medservis", "Mediklub" özəl tibb ocaqları yarandı. Prezident Heydər Əliyevin *1999-cu ildə* "Tibbi sığorta haqqında" qəbul etdiyi və

digər qanunlarla əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması yolunda səhiyyə islahatları davam edirdi.

Prezident Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra Respublikanın *idman həyatında* da irəliləyiş oldu. *1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi* təşkil olundu. Bu komitə *1993-cü ilin sentyabrında Beynəlxalq Olimpiya Komitəsi* tərəfindən tanındı. ***1997-ci il iyulun 31-də İlham Əliyev İdman Komitəsinə prezident*** seçildikdən sonra *2001-ci ilin oktyabrında Bakıda* ***"Olimpiya İdman Kompleksi"*** istifadəyə verildi. İdmançılarımız 1996-cı ildə XXVI və 2000-ci ildə XXVII Yay Olimpiya oyunlarında uğurla iştirak etdilər. *1998-ci ildə* 15 yaşlı Teymur Rəcəbli yeniyetmə şahmatçıların dünya çempionatında birinci yeri tutdu [267]. O, 2002-ci ilin sentyabrında Moskvada "Əsrin görüşü"ndə dəfələrlə dünya çempionu olmuş Anatoli Karpova qalib gəldi [248]. 1997-2002-ci illərdə Azərbaycan idmançıları müxtəlif yarışlardan Vətənə 800-dən çox, o cümlədən 300-dən çox qızıl medalla qayıtmışdılar [7, s. 409]. Olimpiya oyunlarında qalib gələn çempionlar üçün *2002-ci il oktyabr ayının 10-da* Respublika Prezidentinin xüsusi ***Olimpiya təqaüdü*** təsis edilmişdir [251].

Respublikada *turizm* də inkişaf edirdi. Azərbaycan *2001-ci ildə* Dünya Turizm Təşkilatının tamhüquqlu üzvü oldu. "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı üzrə Dövlət Proqramı" qəbul edildi. Azərbaycan respublikası *2002-ci ilin noyabrında* ilk dəfə ənənəvi Ümumdünya Turizm Yarmarkasının (Londonda) iştirakçısı oldu.

Respublikada *əhalinin sayı* 2001-ci ilin əvvəllərində 8 milyon 81 min nəfərə, 2002-ci ildə 8202,5 min nəfərə çatmışdır [75].

Azərbaycanın bir dövlət kimi qarşıya qoyduğu məqsədlərdən biri də *ordunun* Vətənə, Azərbaycan xalqına və dövlətinə sadiq, yüksək hərbi hazırlığa malik milli hərbi kadrların yetişdirilməsində müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi idi. Prezident Heydər Əliyevin

1996-cı ildə verdiyi Fərmanı ilə Bakı Dənizçilik Məktəbi əsasında ***Dəniz Akademiyası, 1999-cu il 20 fevral*** tarixli Fərmanı ilə ***Hərbi Akademiya, Mülki Təyyarəçilik Akademiyası*** yaradıldı. ***20 avqust 2001-ci il*** tarixli Fərmanı ilə Bakı Ali Hərbi Dənizçilik Məktəbinin adı ***Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi***, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin adı ***Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Təyyarəçilik Məktəbi*** adlandırılmışdır [12, s. 290; 7, s. 414-415]. Azərbaycan Respublikası Prezidenti ***İlham Əliyevin 24 may 2010-cu il*** tarixli Fərmanı ilə Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrinə – Silahlı Qüvvələrin Hərbi Akademiyasına, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinə, C.Naxçıvanski adına Hərbi Liseyə və Heydər Əliyev adına Hərbi Liseyə xüsusi status verilmişdir, *24 dekabr 2015-ci il* tarixli Sərəncamı ilə isə Azərbaycan *Ali Hərbi Təyyarəçilik Məktəbi* və Azərbaycan *Ali Hərbi Dənizçilik Məktəbi* quru qoşunları, hərbi hava qüvvələri, hava hücumundan müdafiə və hərbi dəniz qüvvələri fakültələri yaradılmaqla, Heydər Əliyev adına ***Azərbaycan Ali Hərbi Məktəbinə*** qoşulmuşdur [559]. Prezident *Heydər Əliyevin 24 noyabr 1997-ci il* tarixli Sərəncamı ilə 2 saylı 8 illik internat məktəbinin adı dəyişdirilərək ***Cəmşid Naxçıvanski adına Hərbi Lisey*** adlandırılmışdır, *13 mart 1998-ci il* tarixli Sərəncamı və Müdafiə nazirinin 09 aprel 1998-ci il tarixli əmri ilə *1998-ci ildə* Naxçıvan Muxtar Respublikasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ***Naxçıvan filialı*** açılmışdır. Azərbaycan Respublikası Prezidenti *İlham Əliyevin 27 fevral 2004-cü il* tarixli Sərəncamı ilə C.Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialı ləğv edilmiş və onun əsasında ***Heydər Əliyev adına Hərbi Lisey*** yaradılmışdır. Prezident *Heydər Əliyevin 25 may 2000-ci il* tarixli "Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün ehtiyat zabit kadrlarının hazırlanması işinin təkmilləşdiril-

məsi haqqında" Sərəncamına əsasən isə Azərbaycan Tibb Universitetinin nəzdində ***Hərbi tibb fakültəsi*** yaradılmışdır. Azərbaycan Respublikasının Müdafiə nazirinin *20 fevral 2001-ci il* tarixli Əmrinə əsasən, NATO təlim sisteminin Azərbaycan Silahlı Qüvvələrində tətbiqi ilə əlaqədar 26 mart 2001-ci ildən Zabit Təkmilləşdirmə və Gizir Hazırlığı kursları və Ehtiyat Zabit Hazırlığı Kursları bazasında ***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi (TTM)*** fəaliyyətə başlamışdır. *1997-2001-ci illərdə* isə Silahlı Qüvvələrin Hərbi Akademiyasının, Zabit Heyətini Təkmilləşdirmə kurslarının, Gizir Hazırlığı Məktəbinin, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filalının, Ehtiyat Zabitlərinin Hazırlığı kursunun, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin yaradılması Silahlı Qüvvələrin peşəkar, bilikli, Vətənə sadiq hərbiçilərlə təmin edilməsində böyük əhəmiyyət kəsb etmişdir [559]. Azərbaycanın 3,3 milyard dolları keçən illik hərbi büdcəsi Milli ordumuzun ən yeni hərbi texnika, silah-sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə sərf olunurdu. Hərbi Dəniz Qüvvələri gəmilərinin, Hərbi Hava Qüvvələrinin Rusiya, Ukrayna və Belorusiyadan alınan döyüş təyyarəsi və helikopterlərin, İsraildən alınan yeni nəsil döyüş texnikası hesab edilən pilotsuz təyyarələrin sayına və hərbi-texnika imkanlarına görə Azərbaycan regionda ən güclü hava qüvvələri və donanmaya malik dövlətə çevrilmişdir.

Mədəni dirçəliş. Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının mədəni, mənəvi həyatında mühüm dəyişikliklər baş vermişdir. *1993-cü ildən* başlayaraq Respublikada mədəni-maarifin inkişafı üçün bir sıra tədbirlər həyata keçirildi. Belə ki, Müstəqil Azərbaycan Respublikası təhsilin yeni prinsiplər əsasında idarə edilməsi, beynəlxalq standartlara uyğunlaşdırılaraq dünya təhsil sisteminə inteqrasiyası və təkmilləşdirilməsi üçün milli təhsil konsepsiyasını həyata keçirməyə başladı. Prezident Heydər Əliyevin sərəncamı ilə *1998-ci*

il mart ayının 30-da Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu, Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və *1999-cu il iyunun 15-də* Prezident tərəfindən təsdiq edildi [362].

Prezident Heydər Əliyevin ***"Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında"*** *13 iyun 2000-ci il* tarixli Fərmanı ölkədə ali təhsilin təşkili və inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Təhsil Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil Problemləri İnstitutu, təsərrüfathesablı Təhsil Texnologiyaları Mərkəzi təşkil olundu [339]. Sovet təhsil sisteminin müsbət ənənələri üzərində müasir Avropa texnologiyasına əsaslanan məktəb sistemi qurulmağa başlandı. 40-dan çox xarici ölkənin təhsil sistemi, təlim texnologiyaları, idarəetmə modelləri öyrənildi və Respublika təhsil sistemi dünya təcrübəsinə uyğun təkmilləşdirilməyə başlandı [341]. Azərbaycan dövləti ali təhsil sənədlərinin və elmi dərəcələrin dünya dövlətləri tərəfindən tanınması üçün ***YUNESKO***-nun *1979-cu il* Paris Konvensiyasına, *1983-cü il* Banqkok Regional Konvensiyasına, respublika ali təhsil ixtisaslarının Avropa məkanında tanınması barədə *1997-ci il* Lissabon Konvensiyasına qoşuldu. Azərbaycan təhsil sistemi *YUNESKO, YUNİSEF, YNEVOK, İSESKO,* Avropa Təhsil Fondu, Avropa Şurası, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların təhsil proqramları ilə məşğul olan qurumlarla Açıq Cəmiyyət İnstitutu (SOROS Fondu) və digər qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirdi [7, s. 411-412]. Respublika ali məktəbləri Avropa İttifaqının maliyyələşdirdiyi *TEMPUS/TASİS* proqramına cəlb olunmuşdur. Respublikanın ali məktəblərinə bu proqram çərçivəsində *2003-cü ilədək* 3370000 avro maliyyə-texniki yardım göstərilmişdir [260].

Dərslik və dərs vəsaitlərinin müasir Avropa standartlarına uyğun tərtib olunub nəşr edilməsi əhəmiyyət kəsb edirdi. Respublika milli tariximizin yenidən, obyektiv yazılması və tədrisi-

nə xüsusi diqqət yetirirdi: ümumtəhsil məktəbləri üçün yeni "Azərbaycan tarixi", "Ədəbiyyat", "Azərbaycan dili", "Coğrafiya" və digər bir çox dərslik çap olundu. Ali məktəb tələbələrir üçün ilk dəfə olaraq ***"Azərbaycan tarixi"*** dərslikləri tərtib olundu. Yeni tədris proqramlarının və dərsliklərin hazırlanması, *1992-ci ildən* ali və orta ixtisas məktəblərində buraxılış və qəbul imtahanlarının ***test üsulu*** ilə aparılması, tələbə qəbulu üzrə dövlət komissiyasının işinin təkmilləşdirilməsi və s. tədbirlər təhsil islahatı proqramının tərkib hissələri idi. Ümumtəhsil məktəbləri sistemində lisey və gimnaziyalar: "Atatürk" liseyi, "Bakı Türk liseyi", T.Ozal adına Bakı və Sumqayıt Türk liseyləri və filialları yaradılmışdı. Azərbaycanda ilk Bakı özəl ümumtəhsil kompleksi *2001-ci ilin sentyabr ayında* fəaliyyətə başladı [308]. Respublikada 38 internat məktəbi, o cümlədən *1998-ci ildə* C.Naxçıvanski adına Respublika Orta Hərbi İnternat Məktəbinin Naxçıvan filialı təsis edildi. *1993-cü ildən* ali məktəblərdə (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) iki – ***bakalavr*** və ***magistr*** pilləli təhsilə keçildi. Magistraturalara ilk qəbul imtahanları *1997-ci ildə* keçirilməyə başlandı [433]. Azərbaycan Respublikası Prezidentinin *23 may 1992-ci il* tarixli 782 saylı Fərmanı və Nazirlər Kabinetinin *9 iyun 1992-ci il* tarixli 321 saylı Qərarına əsasən Bakı Xüsusi Orta Milis Məktəbi zəminində ***Polis Akademiyası*** yaradıldı [715]. *1999-cu ildə* Sosial İdarəetmə və Politologiya İnstitutu bazasında Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, *1998-ci ildə* isə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası təsis edildi [434]. Mülki Təyyarəçilik Akademiyası və bir sıra ali təhsil məktəbləri fəaliyyət göstərirdi. *2001-ci ilin sentyabrında* Prezident Heydər Əliyev ali məktəbi əlaçı bitirən tələbələrə *Prezident təqaüdü* təsis etdi. Özəl təhsil müəssisələri – "Qərb", "Biznes", "Asiya", "Xəzər", "Təfəkkür", "Azərbaycan", "Qafqaz", "Odlar Yurdu", "Beynəlxalq Münasibətlər" və s. meydana gəldi. Ümumilikdə, respublikanın şəhərlərində, hətta qəsəbələrində 121 özəl

ali məktəb təşkil olundu. Onlardan ancaq 18-nin dövlət lisenziyası var idi [328; 362, s. 7]. *1993-1994-cü* dərs ilindən dövlət ali təhsil müəssisələrində *ödənişli təhsil* forması tətbiq olunmağa başlandı. Azərbaycanda *2000-2001-ci* dərs ilində *qaçqın* və *məcburi köçkünlərin* təhsil alması üçün regionlarda 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 12 texniki peşə məktəbi, 5 orta ixtisas məktəbi və 3 orta ixtisas məktəbinin filialı, 1 ali məktəb, 234 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərirdi [362, s. 8].

2000-ci ildə respublikanın şəhər, qəsəbə və kəndlərində 3354 klub müəssisəsi, fondlarında 39 milyon nüsxədən çox kitab və jurnal olan 4374 kütləvi kitabxana, 607-yə qədər kino qurğusu, 26 peşəkar kinoteatr, 155 muzey və 27 professional teatr vardı [75, s. 174-175].

1996-cı ilin payızında ***YUNESKO*** ilə əməkdaşlıq haqqında *memorandum* imzalandı. *1997-ci ilin yazında* isə Azərbaycan ***Avropa Mədəniyyət Konvensiyasına*** qoşuldu. *2002-ci ilin yayında Azərbaycan muğamının* YUNESKO tərəfindən tərtib olunmuş dünya sənəti inciləri sırasına daxil edilməsi üçün layihə hazırlandı və bu barədə təşkilatın qeyri-maddi mədəni irsin öyrənilməsi şöbəsi ilə razılıq əldə olundu [245]. *1997-ci ilin noyabrın 18-də* qəbul olunmuş ***"Mədəniyyət haqqında"*** Qanun xalqın mənəvi aləmini zənginləşdirmək sahəsində fəaliyyət istiqamətlərini müəyyənləşdirdi. Beynəlxalq Muzeylər Şurasının (İKOM), Beynəlxalq Kitabxanalar Şurasının (İFLA) Azərbaycan Milli komitələri yaradıldı. Dövlət "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi. M.F.Axundzadə adına Respublika kitabxanası *1998-ci ilin aprelindən* ***Milli Kitabxana*** statusu aldı.

Bakıda və regionlarda görkəmli insanların *ev-muzeyləri* yaradıldı. 1994-cü ildə Bakıda *Cəlil Məmmədquluzadənin, Niyazinin, N.Nərimanovun,* 1996-cı ilin payızında Naxçıvanda *H.Cavidin,*

C.Məmmədquluzadənin və bir çox görkəmli şəxslərin ev muzeyləri açıldı.

90-cı illərin ortalarında *Mətbuat və İnformasiya Nazirliyində* 600-ə qədər informasiya vasitəsi qeydə alınmışdır. *2001-ci ilin əvvəllərində* Azərbaycanda 8 dildə 300-dən çox qəzet – "Azərbaycan" (Azərbaycan Respublikası Milli Məclisinin orqanı, rəsmi dövlət qəzeti), Prezidentin İşlər İdarəsinin "Respublika" və "Xalq qəzeti", "Yeni Azərbaycan", "Səs" və s., 72 jurnal – "Xəzər", "Trend", "Yurd" və s. nəşr olunurdu. *90-cı illərin ortalarında* YUNESKO-nun köməyi ilə *"Azərinkom"* adlı informasiya şəbəkəsi yaradıldı və Respublikada Beynəlxalq ***İNTERNET*** informasiya şəbəkəsinin istifadəsi başlanıldı. Dövlət Radio verilişləri 13 dildə, *1992-ci ildən* isə *ingilis dilində* bütün dünyaya yayıldı. *1996-cı ildə* Bakıda əsası hələ *1982-ci ildə* qoyulmuş, hündürlüyü 310 m olan ***Teleqüllə*** istifadəyə verildi [417]. Azərbaycan jurnalistikasının yeni nəsli formalaşdı: Çingiz Mustafayev, Alı Mustafayev, Salatın Əsgərova ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər. Onlar xalqımızın istedadlı və cəsarətli jurnalistləri kimi cəbhədə baş verən hadisələr haqqında insanlara həqiqətləri çatdırmaq üçün qəhrəmanlıq göstərmişlər.

Heydər Əliyev respublikaya rəhbərliyə qayıdandan sonra *elm sahəsinin* inkişafı üçün bir sıra tədbirlər görüldü. "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı [26, s. 214]. Prezidentin *2001-ci il 15 may* tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına ***"Azərbaycan Milli Elmlər Akademiyası"*** statusu verildi [7, s. 423]. Respublika Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" *7 avqust 2002-ci il* tarixli Sərəncamına əsasən 500-dən çox əməkdaşı birləşdirən AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" Prezidentin *2003-cü il 4 yanvar* tarixli Fərmanı ilə

təsbit edildi ki, "Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında .... ali dövlət elmi təşkilatdır" [255].

1992-ci il aprel ayının 23-də ***Azərbaycan Ali Attestasiya Komissiyası*** (1994-cü ildən Azərbaycan Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası) təsis edildi [206]. Amerika mesenatı Corc Sorosun yaratdığı ***"Soros"*** Fondunun İnformasiya Mərkəzi *1996-cı ildə* Bakıda fəaliyyətə başladı. Bu fond Respublika Elmlər Akademiyasının İNTERNET ilə əlaqə yaratmasına kömək etdi, elmin inkişafı üçün 93 qrant ayırdı [300]. Azərbaycan alimləri mühüm əhəmiyyətli 100-dən çox kəşflər etmişdilər. Azərbaycan Milli Aerokosmik Agentliyi Xüsusi Kosmik Cihazqayırma Konstruktor Bürosunda Rusiya Kosmik Tədqiqatlar İnstitutunun sifarişi ilə yerin maqnit sahəsinə günəş küləkləri təsirini öyrənən nadir aerokosmik cihaz yaradılmışdır [224]. Azərbaycanlı astronomlar mindən çox kəşflər etmişdilər. AMEA-nın müxbir üzvü olan Əyyub Quliyev Günəş sistemində hələ kəşf olunmamış azı üç planetin olduğunu bildirmişdir [244]. Azərbaycan arxeoloqları ilk dəfə "Azərbaycan arxeoloji abidələr Bankı"nı yaratmışdılar. Qobustan qayaüstü təsvirləri isə YUNESKO xətti ilə Ümumdünya Qayaüstü İncəsənət Arxivinə daxil edilmişdir [26, s. 215]. Yüksək məhsuldarlığı və müxtəlif xəstəliklərə qarşı davamlı olması ilə fərqlənən yeni bərk buğda sortlarının genetikası və seleksiyası sahəsində ciddi elmi nəticələr əldə edilmişdir.

1991-2002-ci illərdə ***AMEA****-sı* müəssisələrində 1644 mühüm nəticə alınmış, 504 iş istehsalata tətbiq olunmuş, 20 minə qədər məqalə nəşr edilmiş, 200-ə qədər doktorluq, 950-yə qədər namizədlik dissertasiyası müdafiə olunmuşdur. *2002-ci ilin əvvəllərində* Azərbaycan MEA-da 60 akademik, 175 müxbir üzvü, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı [12, s. 300].

2002-ci ildə "Naxçıvan Ensiklopediyası" çap edildi. Tarix İnstitutunda "Azərbaycanın tarixi coğrafiyası", "Müstəqil Azər-

baycan Respublikasının tarixi", "Dağlıq Qarabağın tarixi", "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" və digər şöbələr təşkil olundu. *1997-ci ildə* Azərbaycan EA Rəyasət Heyəti nəzdində yaradılmış "Azərbaycan tarixi" Baş Redaksiya Şurasının rəhbərliyi altında 7 cildlik "Azərbaycan tarixi" hazırlanıb nəşr olundu. [7, s. 428]. Prezident Heydər Əliyev *1999-cu ilin iyun ayında* "Milli arxiv fondu haqqında" Qanun, *2002-ci il dekabrın 2-də* "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Baş Arxiv İdarəsinin bazasının tərkibində Azərbaycan Respublikası Milli Arxiv İdarəsi təsis edildi.

Azərbaycan *ədəbiyyatının* və *filologiyanın* inkişafına diqqəti artırmaq üçün Prezident *1997-ci ilin noyabrında* "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında", *1998-ci il may ayının 22-də* "Azərbaycan Respublikasında fəxri adlar haqqında" [357], *2002-ci il iyun ayının 11-də* "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında" Fərmanlar verdi [242].

2000-ci ildə Respublikada 26 dövlət teatrı fəaliyyət göstərirdi. Dövlət teatrları Azərbaycan xalqının qəhrəmanlıq epopeyasını, müasir real həyatını əks etdirən onlarla əsəri səhnələşdirdilər. Azərbaycan Respublikasının *"Bakılı oğlanlar"* klubu *2000-ci ilin noyabrında* Moskvada *"Şən və Hazırcavablar"* klublarının beynəlxalq yarışında XX əsrin ən yaxşı komandası adına və "XX əsr Çempionları Kuboku"na layiq görülmüşdür [284]. *1992-ci ildə* Azərbaycan Dövlət Uşaq Filarmoniyası yaradıldı. Respublika Prezidenti *1996-cı il iyun ayının 22-də* "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", *1997-ci il sentyabr ayının 13-də* "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" və bir sıra Fərmanlar verdi [254]. Dövlət teatrları ilə yanaşı ictimai, özəl teatrlar, müstəqil kinostudiyalar təşkil olunmuşdur. Azərbaycan kinosu, xüsusilə, sənədli kino müstəqillik uğrunda xalqın mübarizəsi, Qarabağ müharibəsi, ölkədə siyasi sabitliyin yaradılması, iqtisadi inkşaf, baş verən de-

mokratik proseslər, dövlətin xarici aləmdə nüfuzunun yüksəlməsi əks olunan yüzlərlə ibrətamiz kino-videolent çəkmişdir. Azərbaycan rəssamlarının yaratdıqları gözəl sənət əsərləri dünyanın sərgi salonlarında böyük uğurla nümayiş olunurdu.

90-cı illərin əvvəllərində respublikanın şəhər və qəsəbələrində meydanlar, parklar "monumental kommunist təbliğatı"na xidmət edən heykəl və abidələrdən təmizləndi. Dağüstü parkda ***"Şəhidlər Xiyabanı"*** salındı. *1998-ci ilin oktyabrında* Şəhidlər Xiyabanında şəhidlərin xatirəsinə 21 metr hündürlüyündə *abidənin və əbədi məşəlin* (müəllifləri - Ö.Eldarov, E.Qasımzadə, A.Abdullayev və N.Vəliyev) açılışı oldu.

Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərqərar olması, iqtisadi-siyasi sabitliyin və beynəlxalq əlaqələrin genişlənməsi, hökumət tərəfindən ardıcıl olaraq xalqın rifahı üçün həyata keçirilən bir sıra dövlət əhəmiyyətli tədbirlər ***azərbaycançılıq məfkurəsinin*** inkişafı üçün zəmin yaratmışdır. Xalqımızın səciyyəvi milli-mənəvi dəyərlərini inkişaf etdirmək, gənc nəsli vətənpərvərlik, öz xalqı, dili, dini, zəngin mədəni irsi, müstəqillik uğrunda keçdiyi mübariz tarixi yol üçün milli qürur və humanizm kimi dəyərlər ruhunda tərbiyə etmək ideoloji fəaliyyətin əsas istiqamətlərindən biri idi. Ümummilli Lider Heydər Əliyev *2001-ci il iyun ayının 18-də* "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Dövlət başçısı yanında "Dövlət Dil Komissiyası" yaradıldı [335]. *2002-ci il sentyabr ayının 30-da* "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qəbul edildi. *1991-ci ilin dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının* bərpa olunması haqqında Qanun qəbul edildi. *2001-ci il 18 iyun* tarixli Fərmanla ***avqustun 1-dən etibarən Azərbaycanda latın əlifbasına keçilməs***i, mətbuatın, təhsilin, rəsmi yazışmaların və çıxışların ana dilində olması barədə tədbirlər həyata keçirilməyə başlanmışdır. Prezident ***2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında"*** Fərman imzaladı. Həmin

Fərmanla ***avqustun 1-i*** Azərbaycan Respublikasında ***Azərbaycan əlifbası və Azərbaycan dili günü*** kimi qeyd olunur.

1992-ci il iyul ayının 21-də ***"Dini etiqad azadlığı haqqında"*** Qanun qəbul edildi [444]. Azərbaycanda *1991-2001-ci illərdə* məscidlərin sayı 19-dan 1236-ya çatmışdır. "Mir Möhsün ağa" və "Əliayağı" pirləri üzərində məscidlər quruldu, "Bibiheybət məscidi" yenidən inşa olundu, *1999-cu ilin noyabrında* Naxçıvanda "Həzrəti Zəhra (s.) məscidi" tikildi [457; 337]. Hər il Həcc mərasimi günlərində yüzlərlə insanın müqəddəs Kəbəni, İslamın digər müqəddəs ocaqlarını ziyarət etməsi üçün dövlət tərəfindən lazımi tədbirlər görülürdü. Müqəddəs kitab "Quran-Kərim"in yeni tərcümə-təfsirləri hazırlandı (biri Ziya Bünyadov və Vasim Məmmədəliyev, digəri isə N.Qasımoğlu tərəfindən) və çap olundu.

Azərbaycan Respublikası Milli Məclisinin *1992-ci il oktyabr ayının 27-də* qəbul etdiyi *"Azərbaycan Respublikasının bayramları haqqında"* Qanuna əsasən *"Novruz", "Mövlud", "Qurban"* və *"Ramazan"* (Orucluq) bayramları hər il rəsmi olaraq qeyd edilir [450]. Prezident Heydər Əliyev müqəddəs Kəbəni ziyarətə getmiş, milli-əxlaqi mentalitetdə islam əxlaqı normalarının əhəmiyyətini, islam dinini Azərbaycan xalqının birləşdirici amili kimi yüksək qiymətləndirmiş, eyni zamanda fundamentalizmə və fanatizmə yol verilməməsinə çağırmışdır [360]. Respublikada digər dinlərin – pravoslav, yəhudi dini konfessiyalarının azad inkişafı üçün şərait yaradılmış və qeyri millətlərə mənsub insanlar dini dözümlülük, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycan çoxkonfessiyalı bir ölkə kimi dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmlənməsi naminə bir çox dövlət əhəmiyyətli işlər görmüşdür. *1998-ci ildə* Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda geniş tərkibli beynəlxalq simpozium, *2002-ci ilin oktyabrında* "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının

araşdırılması" mövzusunda ATƏT-in Bakı konfransı bu baxımdan mühüm hadisələr idi [347]. Bununla belə, hökumət tərəfindən qeyri-islam dini icmaların zorakı, təhqiredici əməllərinin qarşısını almaq üçün bir sıra qəti tədbirlər də görülmüşdür. Prezident Heydər Əliyevin *1997-ci il 8 yanvarda* imzaladığı xüsusi Sərəncamla Azərbaycan Respublikasında xarici dini missionerlərin pozuculuq fəaliyyəti qadağan edildi [303]. Bu məqsədlə Qafqaz Müsəlmanları Ruhani İdarəsində tanınmış din və elm xadimlərinin "Elmi-Dini Məsləhət Şurası", *2001-ci il iyun ayının 21-də* isə "Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi" yaradıldı.

Milli ideologiyanın mühüm istiqamətlərindən biri tarixi hadisələrin, siyasət, elm və mədəniyyət xadimlərinin yubileylərinin geniş qeyd edilməsidir. *1996-cı ilin payızında* keçirilən Məhəmməd Füzulinin 500 illik yubileyinə dünyanın hər yerindən qonaqlar – ədəbiyyatşünas alimlər, yazıçılar gəlmişdir. *1998-ci ildə* Azərbaycan teatrının, *2000-ci ildə* Azərbaycan mətbuatının 125 illiyi, *2001-ci ildə* Nəsirəddin Tusinin yubileyi və bir çox görkəmli dövlət xadimlərinin, alim və yazıçıların, musiqiçilərin və aktyorların yubileyləri geniş qeyd olunmuşdur.

Prezident Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi *1994-cü il martın 29-da* ***1990-cı il 20 Yanvar hadisəsinə*** obyektiv hüquqi-siyasi qiymət verdi, onun səbəbləri, mahiyyəti təhlil olundu və xalqa çatdırıldı [7, s. 443]. Qanlı ***20 Yanvar*** Matəm Günü Bakı və digər şəhərlərin Şəhidlər xiyabanlarını yüz minlərlə insan ziyarətə gəlirdi. ***1997-ci ildən Xocalıda*** azərbaycanlıların soyqırımı qurbanları xatirəsinə ehtiram əlaməti olaraq ***fevralın 26-da saat 17-də Sükut dəqiqəsi*** elan olunmuşdur [226].

Prezident Heydər Əliyevin ***"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 17 dekabr, "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli*** Fərmanlarında son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məq-

sədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasəti ifşa olunmuş və ilk dəfə hüquqi-siyasi qiymət verilmişdir [7, s. 443]. *"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında"* Azərbaycan Respublikasının Prezidentinin *2001-ci il 20 mart* tarixli Fərmanı verildi.

Milli ideologiyanın formalaşması dünyada yaşayan azərbaycanlıların (50 milyondan çox) mənəvi, mədəni birliyinin daha da inkişaf etməsinə zəmin yaratdı. ***Dünya azərbaycanlılarının*** *1990* və *1997-ci illərdə* İstanbulda, *1997-ci ildə* Los-Ancelesdə və *1998-ci ildə* Vaşinqtonda konqresləri keçirilmişdir [306]. Onların koordinasiya mərkəzi Azərbaycan Prezidenti İcra Aparatı İctimai-Siyasi Şöbəsinin ***"Xaricdə Yaşayan Azərbaycanlılarla İş"*** strukturu idi [340]. Prezident Heydər Əliyevin *2001-ci il mayın 23-də* Dünya azərbaycanlılarının təşkilatlanması yolunda imzaladığı Sərəncama müvafiq olaraq ***2001-ci il noyabrın 9-10-da*** Bakı şəhərində ***Dünya Azərbaycanlılarının*** (37 ölkənin 560-dan çox nümayəndəsi) ***I Qurultayı*** keçirildi. Qurultayda "Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası" və onun idarə heyəti (sədri AMEA-nın prezidenti, akademik Mahmud Kərimov) seçildi [238]. Milli Məclis *"Xaricdə yaşayan azərbaycanlılara münasibətdə Azərbaycan Respublikasının dövlət siyasəti haqqında"* Qanun qəbul etdi. *2002-ci il noyabrın 5-də "Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi"* yaradıldı. Hər ilin ***31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik günü*** elan olundu.

1992-ci ilin ortalarında "Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Konseyni", *1993-cü ilin əvvəllərində* isə onun icra qurumu olan ***TÜRKSOY*** (Türk Kültür və Sanatları Ortak Yönətimi) fəaliyyətə başladı [283]. *1996-cı ildə* YUNESKO TÜRKSOY-u tanıdı və dəstəkləməyə başladı [221]. *1996-cı ilin oktyabr ayında* "Türkiyə-Azərbaycan Dostluq Vəqfi" təsis edildi [220]. *2001-ci ilin mart ayında* Prezident Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Atatürk Mərkəzi" yaradıldı [513]. *2000-ci*

ilin aprel ayında Bakıda Azərbaycan xalqı yolunda şəhid olmuş *türk əsgərlərinin şərəfinə* ucaldılmış abidənin açılışı oldu [98, s. 111]. *1996-cı ilin noyabr ayında* Bakıda Türk dünyası yazıçılarının III Qurultayı keçirildi [231]. Türkdilli xalqlar birlikdə "Manas dastanı"nın 1000 illiyini, böyük qazax şairi və filosofu Abayın 150 illiyini, Özbəkistanın böyük dövlət xadimi Əmir Teymurun 660 illiyini, Füzulinin 500 illiyini, Şeyx Şamilin 200 illiyini geniş qeyd etdilər. *1997-ci ilin aprel ayında* Prezident Heydər Əliyev Azərbaycan xalqının möhtəşəm ədəbi-tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin geniş qeyd edilməsi haqqında Fərman verdi [336].

Prezident Heydər Əliyev *1992-ci il sentyabr ayının 16-da* "Azərbaycan Respublikasında yaşayan ***milli azlıq***, ***azsaylı və etnik qrupların*** hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərman verdi. Milli Azlıqlarla İş üzrə Şura təşkil olundu. Azərbaycan Mədəniyyət Fondu yanında azsaylı xalqların mədəniyyətinin qorunması və inkişafı üzrə Elmi Şura yaradıldı. Azsaylı xalqların mədəniyyət mərkəzləri, cəmiyyətlərinin geniş fəaliyyəti üçün hər cür şərait yaradıldı. Respublikanın ümumtəhsil məktəblərində aşağı siniflərdə bu xalqların dili tədris olunmağa başlandı. *1993-cü ildə* Qusarda Dövlət Ləzgi Teatrı təşkil olundu. "Azərnəşr"də azsaylı xalqlar redaksiyası yaradıldı. "Udin dili", "Ləzgi dili" və başqa dərsliklər, əlifbalar çap olundu. "Talışı-sado" (Talışın səsi), "Samur", "Vestnik" və başqa qəzetlər çap olunmağa başlandı [458].

3. Azərbaycan intibahının yeni mərhələsi

İctimai-siyasi sabitliyin yaradılması, demokratik prinsiplərin bərqərar olması sahəsində ardıcıl addımların atılması Azərbaycan cəmiyyətinin və ictimai-siyasi qüvvələrin anarxiyadan demokratiyaya və qanunçuluğa keçidi yolunda ciddi dönüş yaratdı.

2003-cü il avqustun 4-də 42 yaşlı ***İlham Əliyev*** *Respublikanın* ***Baş naziri*** vəzifəsinə təyin edildi. ***Oktyabrın 15-də*** keçirilmiş prezident seçkilərində Baş nazir ***İlham Əliyev*** ölkə ***Prezidenti*** seçildi. ***2003-cü il dekabrın 12-də ümummilli Lider Heydər Əliyev dünyasını dəyişdi.*** Ümummilli Liderin xatirəsini əbədiləşdirmək üçün Respublikanın Milli Məclisi ***2005-ci ilin aprelində "Heydər Əliyev" ordeninin*** təsis edilməsi haqqında Qanun qəbul etdi. Bu ordenlə ilk dəfə ***Prezident İlham Əliyev*** və türk dünyasının görkəmli şəxsiyyəti ***İhsan Doğramaçı*** təltif olundular.

İqtisadiyyatın diversifikasiyası ilə əlaqədar müəyyən edilmiş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün Prezident ***İlham Əliyevin*** müvafiq fərman və sərəncamlarına əsaslanaraq, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı *2004-2013 illər* ərzində 3 beşillik proqramlar həyata keçirilmişdir:

1. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (*2004-2008*)".

2. "Azərbaycan Respublikasında yay və qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmasının qarşısının alınmasına dair Dövlət Proqramı".

3. "Azərbaycan Respublikasında *2002-2005-ci illərdə* turizmin inkişafına dair Dövlət Proqramı".

4. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı".

5. "Azərbaycan Respublikası regionlarının *2009-2013-cü illərdə* sosial-iqtisadi inkişafı Dövlət Proqramı".

6. "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair *2008-2015-ci illər*".

7. *"2008-2015-ci illərdə* Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı Dövlət Proqramı" [625].

Azərbaycan Prezidenti ***İlham Əliyevin*** *11 fevral 2004-cü il* tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan

Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında *(2004 – 2008-ci illər)*" Azərbaycan Respublikasının regionlarında yüngül sənayenin inkişafı üzrə mühüm tədbirlər nəzərdə tutulmuş və həyata keçirilmişdir. Proqramın icrası Azərbaycanda toxuculuq və tikiş sənayesinin inkişafına müsbət təsir göstərmiş, regionlarda bir sıra sənaye müəssisələri (20-dən çox) işə salınmış, bəzi sənaye müəssisələrinin fəaliyyəti yenidən qurulmuş, 135 mindən artıq iş yeri açılmış, respublikanın valyuta ehtiyatı 1 mlrd. 800 min dollara çatmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin *2009-cu il 14 aprel* tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının *2009-2013-cü illərdə* sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda regionlarda yüngül sənayenin inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər müəyyən edilmişdir.

Ümumiyyətlə, 2003-2013-cü illərdə Respublikada ümumi daxili məhsul (ÜDM) 3,4 dəfə, qeyri-neft sektoru isə 2,7 dəfə artmışdır, valyuta ehtiyatları 30 dəfə artaraq 50 milyard dollara çatmışdır. Hökumət tərəfindən reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində əhalinin həyat tərzi əhəmiyyətli dərəcədə yaxşılaşmış, gəlirləri 6,1 dəfə artmış, 1,2 milyon iş yeri açılmış, yoxsulluğun səviyyəsi 6 %-ə, işsizliyin səviyyəsi isə 5,2 %-ə qədər azalmışdır. Bu illər ərzində Azərbaycan iqtisadiyyatına 132 milyard dollar investisiya qoyulmuş, xarici ticarət dövriyyəsi 6,4 dəfə, qeyri-neft ixracı 4,5 dəfə artmışdır. Hazırda ÜDM-da özəl bölmənin payı 83, məşğulluqda isə 73,9 %-dir. 2003-2013-cü illərdə 19,4 min sahibkarlıq subyektinə 1,2 milyard manat məbləğində güzəştli dövlət kreditlərinin verilməsi nəticəsində 113 min yeni iş yeri açılmışdır. 2003-2013-cü illərdə dövlət büdcəsinin gəlirləri 14,2 dəfə, vergi daxilolmaları 7,3 dəfə, dövlət büdcəsinin xərcləri 13,9 dəfə, əhalinin əmanətləri 24 dəfə, bank aktivləri isə 18 dəfə artmışdır [536].

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən nüfuzlu "Doing Business-2009" hesabatında Azərbaycan dünyada ən islahatçı ölkə elan edilmişdir, "Standard and Poor's" Beynəlxalq Reytinq Agentliyi tərəfindən isə ölkə iqtisadiyyatının vəziyyəti "Stabil"dən "Pozitiv"ə yüksəldilmişdir.

Bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünyada 38-ci yerdədir (MDB ölkələri sırasında 1-ci yerdə).

2014-cü ilin yanvar-sentyabr aylarında ÜDM-in real artım tempi 2,5% təşkil etmiş və cari qiymətlərlə 44,1 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-in həcmi 4696,3 manat (5887,9 ABŞ dolları) təşkil etmişdir [545]. Eyni zamanda, qeyd etmək lazımdır ki, əldə edilən uğurlarla yanaşı, qlobal iqtisadi böhran prosesləri Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərdi, gəlirlər azaldı və Azərbaycanda *21 fevral 2015-ci ildə* baş verən devalvasiya (33,8%) nəticəsində manatın 1 dollara görə dəyəri 1,05 azn oldu [536]. Mərkəzi Bankın rəsmi məlumatına görə: Bu qərar milli iqtisadiyyatın şaxələndirilməsini inkişaf etdirmək, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək, bununla da tədiyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək məqsədilə qəbul edilmişdir. Manatın məzənnəsinin korreksiyası həmçinin xarici ticarət tərəfdaşlarımız olan ölkələrin əksəriyyətinin milli valyutalarının son dövrlərdə həddindən çox ucuzlaşmasının milli iqtisadiyyatın rəqabət üstünlüyünə mənfi təsirlərini neytrallaşdırmağa yönəlibdir [653]. *21 dekabr 2015-ci ildə* isə 2-ci devalvasiya oldu və 1 ABŞ dollarının rəsmi məzənnəsini 1,55 manat səviyyəsində qərarlaşdı. *2016-cı il* ərzində milli valyuta 10,1 faiz ucuzlaşdı. Daha dayanıqlı inkişafa nail olmaq üçün "Strateji Yol Xəritəsi" təsdiqləndi, struktur, institusional, pul-kredit, maliyyə və digər istiqamətlərdə bir sıra islahatlar aparıldı,

vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirildi, bütün sahələrdə şəffaflıq təmin edildi [675].

Hazırda Azərbaycanda 2016-cı ildə ÜDM-in təxminən 45 faizini təşkil edən enerji daşıyıcılarından əldə olunmuş gəlirlərin aşağı düşməsi nəticəsində büdcə daxilolmaları, Azərbaycan manatının məzənnəsi, xarici valyuta ehtiyatları və ödəniş balansı zərbəyə məruz qalıbdır. 2015-ci ildə 1,1 faiz artan ÜDM 2016-cı il 3,8 faizədək ixtisar oldu. 2017-ci ilin ilk iki ayında müşahidə olunan 0,4 faiz artım iqtisadiyyatın canlanması ilə bağlı ümidləri müəyyən dərəcədə dirçəltdi. İqtisadi reytinqlər üzrə Moody`s agentliyinin dəyərləndirməsinə görə cari ildə Azərbaycanda 1 faiz geriləmə gözlənilirdi, artım isə 2018-ci ildə mümkün idi. Neftin 1 barelinin qiyməti 50 dollardan çox olduğu halda Azərbaycan hökuməti sərt iqtisadi rejimdən imtina edə və dövlət investisiya qoyuluşunu artıra bilərdi (Pyotr Paklin, Moody's) [537]. ÜDM-in əvvəlki ilin eyni dövrünə nisbətən artım sürəti (faiz) 2016-cı ildə 96,9%, 2017-ci ildə 100,2%, 2018-ci ildə isə 101,4%-dir [538].

"Standard and Poor's" Beynəlxalq Reytinq Agentliyinin mütəxəssislərinin proqnozuna əsasən, 2018-ci il ÜDM 2% (nominal həcm 44 mlrd. dollar), 2019-cu ildə 3,5% (47 mlrd. dollar), 2020-ci ildə 3,5% (48 mlrd. dollar) artacaq: "Proqnozların bu səviyyədə olması "Şahdəniz-2" qaz yatağından nəqlin başlanmasına əsaslanırdı. Bununla yanaşı, qeyri-neft sektoruna investisiyaların yatırılması iqtisadiyyata inamın artması və inflyasiyanın səngiməsi fonunda istehsalın artmasına səbəb olacaq".

Belə ki, mütəxəssislər 2018-ci ildə illik inflyasiyanın 7%, 2019-2020-ci illərdə isə 5% təşkil edəcəyini proqnozlaşdırırdılar, S&P hesab edirdi ki, 2017-ci ildə Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmi 5,5%, 2018-ci ildə 3,5%, 2019-cu ildə 2,5%, 2020-ci ildə isə 2,5% artacaqdır. Bundan başqa, 2017-ci il dövlət büdcəsinin icrasında yaranan defisit ÜDM-in 3,2%-ni təşkil etdiyi halda, 2018-ci il dövlət büdcəsinin

profisitlə icra olunacağı gözlənilir və profisit ÜDM-in 1%-nə bərabər olacaqdır [719]. Lakin, 2018-ci ildə UDM əvvəlki illə müqayisədə 1,4 % artaraq 79797,3 milyon manata çatmışdır. Əhalinin hər nəfərinə düşən UDM 8126,2 manat, yaxud 4780,1 ABŞ dolları təşkil etmişdir [721]. 2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycanın ümumi daxili məhsulunun (ÜDM) həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1% artaraq 72 852,2 mln. manat təşkil edib. 2020-ci ildə Covid-19 koronovirus pandemiyasının Azərbaycana yayılması səbəbindən ölkədə adambaşına ÜDM 5% azalaraq 7 263 manata enmişdir. 2021-ci ildə ölkədə 92857,7 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz, neft-qaz sektorunda isə 1,8 faiz artmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM 9269,3 manata bərabər olmuşdur [722]. 2022-ci ilin yanvar ayında ölkədə 9257,6 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 8,8 faiz artmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM 922,2 manata bərabər olmuşdur [723]. 2024-ci il üçün Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir [600]. 2024-cü ildə ölkədə ÜDM istehsalı 126,3 milyard manat olub ki, bu da əvvəlki illə müqayisədə 4,1 faiz çoxdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3 %, qeyri neft-qaz sektorunda isə 6,2 % artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 12382,5 manata bərabər olmuşdur [724].

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ***2012-ci il 13 iyulda*** imzaladığı 685 saylı Fərmana əsasən ***"ASAN xidmət"*** mərkəzlərinin də strukturuna daxil olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı. ***ASAN*** sözü-

nün açılışı ingiliscə ***"Azerbaijan Service and Assesment Network"dir*** *(azərb. Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi)*. İlk ***"ASAN xidmət"*** mərkəzi ***2013-cü ildə*** fəaliyyətə başlayıb. 2024-cü ilin statistikasına əsasən 30 mərkəz fəaliyyət göstərir. Onlardan 7-si Bakıda, 23-ü isə Azərbaycanın bölgələrindədir [562]. "ASAN xidmət" mərkəzlərində on dövlət orqanının vətəndaşlara göstərdiyi xidmətlərdən başqa funksional yardımçı xidmətlər də təklif olunur. Həmçinin mərkəzlərdə sosial layihələr də keçirilir. Mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün həmçinin səyyar avtobuslardan da istifadə olunur [648].

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki ***Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 229 nömrəli ***9 avqust 2018-ci il tarixli Fərmanı*** ilə yaradılıb. Agentliyin Nizamnaməsi və Strukturu Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı ilə təsdiq edilib. ***9 may 2019-cu il*** tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ilk ***"DOST"*** mərkəzinin açılışı olub. ***DOST Agentliyinin missiyası*** müasir, operativ və elektron xidmətlərdən istifadə etməklə Xidmət Mərkəzləri şəbəkəsi vasitəsilə Azərbaycan Respublikası əhalisinin dövlət tərəfindən təklif olunan əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə rahat çıxışını təmin etməkdir. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub.

2003-cü il iyulun 7-də Avropa Komissiyasının maliyyə köməyi ilə inşa olunmuş Bakı metropoliteninin H.Aslanov adına 20-ci stansiyası işə salındı. *2015-ci il dekabrın 28-də* Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Elm-

lər Akademiyası" stansiyasının ikinci çıxışının açılışı oldu. *2016-cı il aprel ayının 19-da* isə Bakı metropoliteninin perspektiv inkişaf planının birinci prioritet istiqamətinə daxil olan Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları sərnişinlərin istifadəsinə verildi və bununla da metropoliten xətlərinin uzunluğu 36,6 kilometrə, xətlərinin sayı 3-ə, stansiyalarının sayı 25-ə çatdı.

Hazırda Bakı metropolitenində, konseptual inkişaf proqramına uyğun olaraq, tikinti işləri davam etdirilir. Dövlət Proqramına görə *2030-cu ildə* paytaxtımızın yeraltı yollarının ümumi uzunluğu 119,1 km, stansiyalarının sayı isə 76-ya çatacaqdır [595]. ***1967-ci il noyabrın 6-da*** istismara verilmiş ***Bakı Metropoliteni*** daşınan sərnişinlərin sayına görə dünyada 41-ci yerdədir [545].

Elm, təhsil, səhiyyə, idman, turizm, ətraf mühitin mühafizəsi problemləri dövlətin diqqət mərkəzində idi. Dövlət büdcəsindən təhsil sahəsinə ayrılan vəsaitlər *2005-ci ildən* 3 dəfədən çox artmışdır. Dövlət büdcəsi və Heydər Əliyev Fondunun maliyyə mənbələri hesabına son illərdə respublikada 2200-dən çox məktəb binası inşa edilmişdir. Azərbaycanda 4,5 mindən çox ümumtəhsil məktəbi, onlarla litsey və gimnaziya yaradılmışdır. Hal-hazırda Respublikada ali məktəblərdə 120 mindən çox tələbə, o cümlədən, 30-dan çox xarici ölkənin 2-3 mindən çox vətəndaşı təhsil alır. Xaricdə də ali təhsil almağa şərait yaradılmışdır. ***2007-ci ilin aprelin 16-da*** qəbul edilmiş ***Dövlət Proqramına*** uyğun olaraq yüzlərlə gəncin xaricdə dövlət hesabına təhsil almasına Dövlət Neft Fondu tərəfindən hər il 10-15 milyon manat pul ayrılmışdır. Bu proqram çərçivəsində indiyədək minlərlə Azərbaycan gənci ABŞ-a, Avropa və Asiyanın ən inkişaf etmiş ölkələrinə ali təhsil almaq üçün göndərilmişdir [14, s. 368].

Prezidentin *"Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında"* Fərmanına uyğun olaraq 2003-2007-ci illər üçün həmin məsələyə dair məqsədli Proqramın həyata keçirilməsi başlanıldı. *2001-ci il sentyabrın 1-də*

dünya standartlarına cavab verə biləcək özəl orta ümumtəhsil məktəbi olan, *2004-cü ilin sentyabrından* ümummilli lider H.Əliyevin adını daşıyan Müasir Təhsil Kompleksi fəaliyyətə başladı. ***21 avqust 2004-cü il*** Prezident ***İlham Əliyev*** *"Bilik gününün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında"* və *"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiyası və kommunikasiya texnologiyaları ilə təminatlı proqramı"na (2005-2007)* dair Fərmanlar imzalamışdır. İ.Əliyevin *"Azərbaycan Respublikasının milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"* ***2004-cü il 12 yanvar tarixli*** sərəncamlarına əsasən çoxlu bədii əsərlər nəşr olmuşdur.

2009-cu ilin iyun ayında Milli Məclis tərəfindən ***"Təhsil haqqında"*** Qanun qəbul olundu. Avropada vahid ali təhsil sisteminə inteqrasiya məqsədini qarşıya qoyan Azərbaycan Respublikası *1999-cu ildə* başlayan ***Boloniya*** prosesinə *2005-ci ildə* qoşuldu.

Təhsil Nazirliyi tərəfindən *2014-cü ildən* ali təhsil sahəsində həyata keçiriləcək islahatların əsas prioritetləri sırasında ***SABAH*** (savadlı, bacarıqlı, hazırlıqlı) qruplarının təşkili, ali təhsil müəssisələrinin fəaliyyətinin effektivliyinin təmin olunması, tələbə qəbulunun təkmilləşdirilməsi, dövlət sifarişində iştirak edəcək universitetlərin seçim meyarlarının hazırlanması, ölkə iqtisadiyyatının inkişaf səviyyəsinə cavab verən müasir kadr hazırlığının təmin edilməsi, habelə ali təhsil proqramlarının (standartlarının) Avropa məkanında tətbiq olunan müvafiq sənədlərə uyğunlaşdırılması məqsədilə tədris proqramlarına (standartlarına) yenidən baxılması, Bolonya prosesinin tətbiqi üzrə univesitetlərarası komitənin yaradılması, abituriyentlərin peşəyönümlü ixtisas seçimi mexanizminin formalaşdırılması, orta məktəblərin, ilk peşə və orta ixtisas təhsili müəssisələrinin müvafiq ali təhsil müəssisələrinə təhkim edilməsi, aztəminatlı gənclərin ali təhsil al-

maq imkanlarının artırılması üçün pilot qaydasında təhsil kreditlərinin tətbiqinə başlanılması, ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ bazanın təkmilləşdirilməsi və korporativ idarəetmə prinsiplərinin tətbiqi, dövlət ali təhsil müəssisələrində maliyyə hesabatlılığı sisteminin tətbiqinin genişləndirilməsi, ali təhsil müəssisələrinin akkreditasiya sisteminin yaradılması kimi məsələlər əsas yer tutur.

2014-2015-ci tədris ilindən ümumi təhsil məktəblərinin VIII siniflərində ***"Qarabağın tarixi"*** adlı fakültativ kurs tədris olunur.

Təhsil Nazirliyinin qəbul etdiyi "Məktəb qəhrəmanları ilə tanınır" adlı yeni layihəsinin əsas məqsədi müasir təhsili milli-mənəvi dəyərlərimiz fonunda inkişaf etdirmək, şagirdlərə vətənpərvərlik ruhu aşılamaq, qəhrəmanlıq ənənələrini formalaşdırmaq və Milli Qəhrəmanlarımızı yaddaşlarda yaşatmaqdan ibarət idi.

Ümumi təhsil sahəsində həyata keçiriləcək islahatların əsas prioritetlərinə uyğun olaraq, sağlam və səmərəli təhsil mühitinin yaradılması, təhsilin keyfiyyətinin yüksəldilməsi və məktəblərin idarəedilməsinin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətlərində fəaliyyət uğurla davam etdirilir.

2014-2015-ci tədris ilindən həyata keçirilən "Sağlam təhsil-sağlam millət" layihəsinin məqsədi təhsil alanların təlim nailiyyətlərini yüksəltməklə yanaşı, tədris şəraitindən irəli gələn hərəkət məhdudiyyətini və digər amilləri aradan qaldırmaq, onların sağlamlığını qorumaqdan ibarətdir. Bütün bunlar nəticədə sağlam Azərbaycan vətəndaşının yetişdirilməsinə xidmət edir [561]. Respublikada 4481 ümumtəhsil məktəbi, 107 peşə ixtisas təhsili müəssisələri, 61 orta ixtisas məktəbi və 53 ali məktəbi fəaliyyət göstərir [711]. Azərbaycanda 15 və yuxarı yaş arasında olan əhalinin savadlılıq dərəcəsi 99,8 %-dir. Respublikanın ən məşhur universitetləri Xəzər Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Dövlət Universiteti və ADA Universitetidir [647]. BMT-nin hazırladığı "İnsan inkişafı hesabatı

2014”- də Azərbaycan Respublikası insan inkişafı indeksinə görə 187 ölkə arasında 76-cı yerdə idi [546].

Prezident İlham Əliyev ***2023-cü il noyabrın 28-də “Qarabağ Universitetinin yaradılması haqqında”*** Sərəncam imzaladı. Sərəncama əsasən, rayonun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksək ixtisaslı kadrlara tələbatının ödənilməsi və tarixən formalaşmış təhsil ənənələrinin qorunub saxlanılması məqsədilə ***Xankəndi şəhərində*** yerləşən ali təhsil müəssisəsi əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində ***“Qarabağ Universiteti”*** yaradıldı. Qarabağ Universitetində Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq, vətənpərvər ruhlu, müasir dünyagörüşünə malik, milli-mənəvi dəyərlərimizə sadiq, Azərbaycanın inkişafına öz layiqli töhfələrini verməyə qadir gənclər yetişdirilir. Prezident İlham Əliyev Qarabağ Universitetinin professor-müəllim heyəti və tələbələri ilə görüşündə qeyd etdi: “Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər yerdə Azərbaycan həmişə zirvələrdə olsun!” [638].

2009-cu ildə Azərbaycanda elmin inkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram qəbul edildikdən sonra Azərbaycan elminin geologiya, neft və neft-kimya, biologiya, kimya, fizika, riyaziyyat sahələrində yeni kəşflər edilmişdir. Neftçıxarma sahəsində radiotexnologiya üsulları tətbiq olunmuş, reaktiv mühərriklər üçün yeni yanacaq kəşf edilmiş və mülki aviasiyada uçuşların təhlükəsizliyinin elmi əsasları yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin ***28 fevral 2022-ci il*** tarixli Sərəncamı ilə təsdiq edilmiş ***“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”*** (bundan sonra – Dövlət Proqramı) “Azərbaycan gənclərinin nüfuzlu xarici ali

təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə hazırlanmışdır. Dövlət Proqramının əsas məqsədi gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaq, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir.

Azərbaycan intibahının yeni mərhələsinin ən mühüm istiqamətlərindən biri ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü ***Azərbaycançılıq ideologiyasının*** Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilməsidir. ***Dünya Azərbaycanlılarının II Qurultayı*** "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin *8 fevral 2006-cı il* tarixli, 1291 nömrəli Sərəncamına əsasən *2006-cı il mart ayının 16-da* Bakı şəhərində keçirilmişdir [39]. *2008-ci il dekabr ayının 18-də* Bakıda keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının iclası tərəfindən "Dünya Azərbaycanlılarının Həmrəylik xartiyası" qəbul olundu [12, s. 317]. ***Dünya Azərbaycanlılarının III Qurultayı*** isə "Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin *21 yanvar 2011-ci il* tarixli, 1293 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tədbirlər Planı"na əsasən *2011-ci il iyul ayının 5-6-da* Bakıda keçirilmişdir. Qəbul edilən qərarlar - arasında qurultayın Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dünya azərbaycanlılarına, xarici ölkə parlamentlərinə müraciətləri də vardı [27]. *2016-cı il 3-4 iyunda* Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən ***Dünya Azərbaycanlılarının IV Qurulta-***

yında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir. Qurultay iştirakçıları qurultayın qətnaməsini, qurultay nümayəndələri adından Prezident İlham Əliyevə, dünya azərbaycanlılarına ünvanlanan müraciətləri, qurultay nümayəndələri adından Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət başçılarına və parlamentlərinə müraciətləri, qurultayın Ermənistanda yerləşən "Metsamor" Atom Elektrik Stansiyasının fəaliyyəti ilə bağlı BMT-nin Beynəlxalq Atom Enerjisi Agentliyinə, Avropa İttifaqına və dünya ictimaiyyətinə müraciətini qəbul etmişdilər. Qurultay iştirakçıları növbəti dəfə prezident İlham Əliyevi yekdilliklə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasına sədr seçmişdilər [597]. ***Dünya azərbaycanlılarının V Qurultayı*** *22 aprel 2022-ci ildə* Şuşa şəhərində keçirilmişdir. *Aprelin 23-dək* davam edəcək ***Zəfər qurultayında*** 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edib. Qurultay iştirakçıları yekdilliklə Prezident İlham Əliyevi növbəti dəfə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçiblər.

Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın erməni işğalından azad olunmasından sonra ilk böyük görüşüdür.

İntibah dövründə *səhiyyə sahəsində* də müəyyən irəliləyişlər olmuşdur. Səhiyyəyə ayrılan dövlət xərcləri 7 dəfə artırılaraq, 55,3 milyon manatdan 387,7 milyon manata çatdırılmış, xəstəxana müəssisələrinin sayı 2018-ci ildə 566, ambulatoriya-poliklinikaların sayı 1732-yə çatdırılaraq əhalinin istifadəsinə verilmişdir [538]. 2008-2015-ci illərdə Azərbaycanda reproduktiv sağlamlığa dair milli strategiya həyata keçirilirdi. 2007-ci ildən dövlət tibb müəssisələrində tibbi xidmət pulsuzdur. *2012-ci ilin dekabr ayında* Səhiyyə Nazirliyi tərəfindən "Sağlam həyat uğrunda" devizi altında xəstəliklərin profilaktikası üçün "Sağlam-

lıq ayı" həyata keçirilirdi. Bu aksiyada iştirak etmək üçün Elmi-tədqiqat institutlarının, aparıcı tibb müəssisələrinin mütəxəssislərindən ibarət briqadalar yaradıldı. Profilaktik müayinələri aparan tibb müəssisələri lazımi avadanlıq və reaktivlərlə təmin olunurdular. "Sağlamlıq ayı" ərzində respublikada 3 milyona yaxın müayinə aparıldı və aşkar olunan xəstəliklər müalicə olundu. Belə aksiyaların gələcəkdə də keçirilməsi nəzərdə tutulurdu. Hazırda respublika üzrə 500-dən artıq özəl tibb müəssisəsi və kabineti, eləcə də 2 minə yaxın əczaçılıq müəssisəsi fəaliyyət göstərir. Müasir informasiya texnologiyalarının səhiyyə sisteminə tətbiq edilməsi sahəsində də əhəmiyyətli işlər görülmüşdür. "Elektron Azərbaycan" Dövlət Proqramı çərçivəsində "Vətəndaşların elektron sağlamlıq kartı" sistemi fəaliyyətə başlamışdır. Azərbaycan Prezidenti İlham Əliyevin *2012-ci il 29 dekabr* tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələrə xüsusi diqqət ayrılmışdır [559]. Konsepsiyada Səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibb avadanlıqları ilə təchiz edilməsi, səhiyyə islahatlarının planlı şəkildə davam etdirilməsi, dövlət tərəfindən sosial xəstəliklərlə (diabet, hemofiliya, talassemiya, onkoloji xəstəliklər, immunoprofilaktika, hemodializ, vərəm, QİÇS və s.) mübarizə, sanitariya maarifi işi, narkomaniya və alkoqolizmlə mübarizə üzrə müxtəlif dövlət proqramları vasitəsilə həyata keçirilməsi nəzərdə tutuldu [692]. Azərbaycanda Səhiyyə sahəsində fəaliyyət göstərən Birləşmiş Millətlər Təşkilatı Uşaq və Əhali Fondunun, ***UNİCEF***, ***Dünya Bankı, USAİD, ÜST*** və digər beynəlxalq qurumların yardımını xüsusilə qeyd etmək lazımdır. Azərbaycan Xarici İşlər Nazirliyinin vasitəsi ilə Türkiyə, Rusiya, Misir, İran, Ukrayna, Böyük Britaniya, ABŞ və bir sıra digər ölkələrin səhiyyə təşkilatları ilə əlaqələr gücləndirilmişdir [693].

Azərbaycan Respublikası *milli-mənəvi dəyərlərimizin* qorunub saxlanılması istiqamətində də bir çox əhəmiyyətli işlər görmüşdür. Beynəlxalq İnkişaf Asossiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış ***"Mədəni irsin qorunmasına yardım haqqında"*** sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvan Muxtar Respublikasında Möminə Xatın və Qarabağlar türbələrində, Şəki xanlarının sarayında bərpa və yenidənqurma işlərinə başlanmışdır. *2002-ci ildə* Respublika Abidələrin Bərpası Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq YUNESKO-nun ***"Dünya mədəniyyəti irsi"*** siyahısına - ümumdünya irsi obyektlərinin siyahısına Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçəri şəhər Dövlət tarixi-memarlıq kompleksi, Qobustan petroqlifləri, qeyri-maddi mədəni irsi siyahısına isə muğam, aşıq sənəti, Novruz bayramı, xalça toxuculuğu ənənəvi sənəti, tar ifaçılıq sənəti, Qarabağ atı ilə oynanılan Çovqan oyunu, kəlağayı, Lahıc misgərlik sənəti, lavaş bişirmə ənənəsi daxil edilmişdir [660]. Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə YUNESKO-nun baş qərargahında *2019-cu il iyun ayının 30-dan iyulun 10-dək* Bakıda təşkil edilmiş Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasında *Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan Sarayı* Dünya İrs Siyahısına daxil edilərək, *İçərişəhər* və *Qobustandan* sonra Azərbaycanın Ümumdünya İrs Siyahısına salınan üçüncü mədəni irs məkanı oldu [694]. YUNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü Sessiyasında YUNESKO-nun "Görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri Proqramı" çərçivəsində *2019-cu ildə* Bakı Dövlət Universitetinin təsis olunmasının 100, görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinin YUNESKO səviyyəsində qeyd olunmasına dair müzakirələr aparıldı [708]. *31 oktyabr 2019-cu il* Dünya Şəhərlər Günü münasibətilə

UNESCO 48 ölkədən 66 şəhəri "yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edib.

Mədəniyyət və Turizm, Xarici İşlər nazirliklərinin və Azərbaycan Respublikasının YUNESKO yanında Daimi Nümayəndəliyinin səyləri nəticəsində Bakı şəhəri şəbəkənin "dizayn" tematikası üzrə siyahıya daxil edilib.

İslam mədəniyyətinə xidmət edən yeni-yeni məscidlərin inşa edilməsi və ya yenidən qurulması, musiqinin müxtəlif janrları və mədəniyyətin digər janrları üzrə vaxtaşırı müsabiqələrin keçirilməsi, Bakıda təməli *2005-ci il avqustun 24-də* qoyulan ***"Muğam evi"****nin* tikilib istifadəyə verilməsi milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişafı sahəsində görülən işlərin bariz nümunələridir. *2005-2013-cü illər* arasında 4 Muğam Televiziya Müsabiqəsi keçirilmişdir. *2011-ci ildə* Eldar Qasımov və Nigar Camal duetinin ifa etdiyi "Running Scared" adlı mahnı ilə Azərbaycan "Avroviziya" (Eurovision) mahnı müsabiqəsində qalib gələrək 39 iştirakçı dövlət içərisində I yeri tutmuşdur [14, s. 369].

Ölkəmiz bir çox beynəlxalq tədbirlərə, musiqi festivallarına, mədəni tədbirlərə ev sahibliyi edir. Bunlardan biri də ölkəmizin qədim mədəniyyət ocağı olan, *Azərbaycanın, İslam dünyasının və Türk dünyasının mədəniyyət paytaxtı elan edilmiş Şuşada keçirilən* ***"Xarıbülbül" festivalıdır***.

"Xarıbülbül" festivalı ilk dəfə *1989-cu ilin mayında Şuşa şəhərində* keçirilmişdir. Festival *"Qarabağ şikəstəsi"* muğamını ifa edən 12-15 yaşlı gənc xanəndələrin çıxışı ilə açılmışdır. Tədbir görkəmli müğənni Seyid Şuşinskinin anadan olmasının 100 illiyinə həsr olunmuşdur. Konsertlər Çıdır düzündə keçirilmişdir.

1990-cı ildə ***"Xarıbülbül"*** *festivalı* ***beynəlxalq status*** qazanmış, Hollandiya, Almaniya, İsrail və Türkiyədən folklor kollektivləri festivala dəvət olunmuşdur. ***II "Xarıbülbül"*** *festivalı* Ağdam, Bərdə, Ağcabədi şəhərlərində keçirilmişdir.

1991-ci ildə keçirilən ***III "Xarıbülbül"*** *festivalına* 25 ölkədən 300 nəfər nümayəndə qatılmışdır. Tamaşaçıların sayı çox

olduğundan festivalın əsas konsertləri Mingəçevir, hətta Ağdam şəhər stadionunda da təşkil olunmuşdur.

30-dan çox ölkədən 500 nümayəndənin qatılacağı ***IV "Xarıbülbül"*** *festivalının 1992-ci ilin mayın 15-də* keçirilməsi nəzərdə tutulmuşdur. Lakin Qarabağ müharibəsinin başlaması və mayın 8-də Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar *festival ləğv edilmişdir.*

Prezident İlham Əliyev *7 may 2021-ci il tarixli sərəncamı* ilə ***Şuşa şəhərini "Azərbaycanın Mədəniyyət Paytaxtı"*** elan etmişdir. *2021-ci il mayın 12-13-də Şuşa şəhəri* Ermənistanın işğalından azad edildikdən sonra ilk dəfə olaraq *"Xarıbülbül" festivalı* keçirildi. *2021-ci il mayın 12-də Şuşada Qarabağ şikəstəsi* səsləndirildi. Cənab İlham Əliyevin festivalın açılışındakı çıxışında dediyi kimi, "Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək". Prezident İlham Əliyev ***2021-ci il mayın 12-13-də Şuşanın Cıdır düzündə*** Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən ***IV "Xarıbülbül"*** festivalının Azərbaycanda yaşayan bütün xalqları əhatə etdiyini qeyd edərək: "Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır", - deyə vurğulamışdır [521].

2022-ci il mayın 12-dən 14-dək Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı keçirilmişdir.

2023-cü il 9-11 may tarixlərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) *Şuşa şəhərini "Türk dünyasının mədəniyyət paytaxtı"* elan etmişdir. ***VI "Xarıbülbül"***

Beynəlxalq Musiqi Festivalında TÜRKSOY-a üzv ölkələrin, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak etmişlər.

11 may 2024-cü il tarixində ***Şuşa şəhərinin Cıdır düzündə VII "Xarıbülbül"*** Beynəlxalq Musiqi Festivalının və *"Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024"* ilinin açılış mərasimi keçirilmişdir. Şuşa şəhəri İslam dünyasının mədəniyyət paytaxtı elan edilmişdir [698].

Müstəqillik qazanandan sonra da, Azərbaycanın ən görkəmli yerlərində gözəl memarlıq ansamblları yaradılmış, şəhərin simasını müəyyən edən Heydər Əliyev Mərkəzi (*29 dekabr 2006-cı il* tarixli, 1886 nömrəli Sərəncamı əsasında yaradılıb, *10 may 2012-ci ildə* mərkəzin açılışı olub), Bakı Kristal Zalı (*10 yanvar 2012-ci il*) kimi müasir binalar, Alov qüllələri (*2007-ci il oktyabr - 2013-cü il*), SOCAR Tower (*2010-cu ilin oktyabr – 2013-cü il*) kimi göydələnlər tikilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev *2014-cü il mayın 15-də* Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərman vermişdir. Fərmanda qeyd edilir ki, Azərbaycan sivilizasiyaların qovşağında yerləşir və zəngin mədəni-mənəvi irsə, tolerantlıq ənənələrinə malikdir və uğurla həyata keçirilən dövlət siyasəti "cəmiyyətdə bu istiqamətdə qazanılmış nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir" [515]. ***2016-cı ildə*** Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ***"Multikulturalizm ili"*** elan edilməsi haqqında Sərəncam imzalamışdır [716].

Çoxmədəniyyətli və etnik cəhətdən müxtəlif olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri: tolerantlıq, qarşılıqlı hörmət, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub saxlamışdır. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın tamhüquqlu, dəyərli vətəndaşlarıdır, dövlətin və dövlətçiliyin əsl vətənpərvər insanlarıdır.

2015-ci ilin statistik məlumatına görə, Azərbaycanda yaşayan əhalinin 93,4%-i müsəlman, 3,1 %-i xristiandır, 3 %-i isə hər hansı bir dinə bağlı deyildir. Yerdə qalan 0,5 %-ə isə digər dinə mənsub olanlar aiddir [689]. Azərbaycanda 28-i qeyri-İslam olmaqla 784 dini icma fəaliyyət göstərir [84]. Müsəlman əhalisinin 65 faizi şiə, 35 faizi isə sünnilərdir. Xristianların böyük əksəriyyəti rus pravoslavlarıdır. Xristianlar Bakı və bir sıra digər şəhərlərdə cəm halında yaşayırlar. Ölkənin 20000 nəfərlik yəhudi icmasının böyük hissəsi Bakıda yaşayır. Qubada və başqa ərazilərdə də kiçik icmalar mövcuddur [690].

Azərbaycan dövlətinin həyata keçirdiyi milli siyasətin dünyaya çatdırılması məqsədilə ***2011, 2012, 2013, 2014, 2016*** və ***2018-ci illərdə*** dünyanın *siyasi, elmi* və *mədəni elitasının görkəmli nümayəndələrinin iştirakı ilə* ***Bakıda Beynəlxalq humanitar Forumlar*** keçirilmişdir [598]. ***BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu (25-27.04.2016), IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (04-06.05.2017), V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (02.05.2019), "Sülh və Qlobal Təhlükəsizlik naminə" dialoq*** *mövzusunda* ***VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (01-03.05.2024)*** kimi mötəbər tədbirlərin Bakıda keçirilməsi multikulturalizm dəyərlərinin təşviqi sahəsində Azərbaycan dövlətinin fəaliyyətinin yüksək qiymətləndirilməsindən xəbər verir. Multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu çərçivədə keçirilən tədbirlər isə ölkəmizdə multikultural təhlükəsizliyin intellektual göstəricilərinin artıq formalaşdığını təsdiqləyir [677]. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə *2013-cü ilin 7–8 may* tarixində qadın məsələləri, dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi və bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət müzakirə edilən I Cənubi Qafqaz Forumu, *2014-cü ilin 28–30 aprel* tarixlərində 2015-ci il və on-

dan sonrakı mərhələdə dünyanın davamlı inkişafına həsr olunmuş II Qlobal Açıq Cəmiyyətlər Forumu, *2015-ci ilin 28–29 aprel* tarixlərində "Yeni dünya düzənində etimadın bərpa olunması" mövzusuna həsr olunan III Qlobal Bakı Forumu, "Çoxqütblü dünyaya doğru" mövzusuna həsr olunmuş *2016-cı ilin 10–11 mart* tarixlərində keçirilən IV Qlobal Bakı Forumu, *2017-ci il,16–17 mart* tarixlərində "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusu ilə V Qlobal Bakı Forumu, *2018-ci il 15–17 mart* tarixlərində "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumu, "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən VII Qlobal Bakı Forumu *2019-cu il 14-16 mart* tarixlərində fəaliyyət göstərib. "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumu *4-6 noyabr 2021-ci ildə*, *2022-ci il iyunun 16-da* isə "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumu, *2023-cü il martın 9-11 tarixlərində* "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu, *2024-cü il martın 14-16 tarixlərində* Bakıda "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" ("Fixing The Fractured World") mövzusunda XI Qlobal Bakı Forumu keçirilib. XI Qlobal Bakı Forumunda COP28-in yekunları və COP29-a hazırlıqla bağlı qlobal müzakirələr aparıldı, yeni dünya nizamına təhdid yaradan amillər, o cümlədən təhlükəsizlik məsələləri və sülhün təmin edilməsi perspektivləri, parçalanmış dünyada dayanıqlılığın qurulması və onun qlobal sülhə təsiri, eləcə də qarşıda duran çağırışların həlli yolları müzakirə edildi, dünyanı sarsıdan münaqişələrə və meqatəhdidlərə, iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunuldu. Eyni zamanda, qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətlər, gənclər siyasəti, qlobal çağırışlara

davamlılığın artırılması yolları, qeyri-bərabərlik, təbii resursların qıtlığı və miqrasiya məsələlərinə toxunuldu, eləcə də süni intellekt, dronlar və kiber silahlar dövründə yeni təhlükəsizlik modelləri barədə müzakirələr aparıldı [591]. ***2025-ci il martın 13-15*** tarixlərində Bakıda keçirilən *"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"* mövzusunda ***XII Qlobal Bakı Forumundakı*** çıxışında Cənab Prezident bir sıra məqamlara, o cümlədən COP29, ətraf mühit və enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, sülh və təhlükəsizlik səylərinin artırılması və s. kimi məsələlərə diqqət çəkmişdir. Forumda yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzində idi. Forumda ən maraqlı panellərdən biri isə gənclərin fikirlərinə həsr edilən "Gənclər danışsın, biz dinləyək" mövzusu idi [602].

12 mart 2026-cı ildə keçirilən ***XIII Qlobal Bakı Forumu*** çərçivəsində *"Keçid dövründəki dünyada fikir ayrılıqlarının aradan qaldırılması"* mövzusunda təşkil olunmuş sessiyalarda müasir beynəlxalq sistemdə artan parçalanma meylləri və onların hərbi güc, iqtisadi təzyiq, enerji asılılığı, texnoloji imkanlar, informasiya nəzarəti və strateji təchizat marşrutları kimi müxtəlif sahələrdə təzahür formaları müzakirə edilmişdir.

Müzakirələr zamanı həmçinin qlobal geosiyasi və geoiqtisadi münasibətlərdə getdikcə daha çox əhəmiyyət kəsb edən vacib minerallar, təmiz enerji infrastrukturu, rəqəmsal bağlantı və qabaqcıl texnologiyalar kimi yeni strateji sahələrin dövlətlərarası asimmetriyaları və zəifliklər necə dərinləşdirdiyi araşdırılmışdır. Bu proseslərin dövlətlərin xarici və daxili siyasət qərarlarına təsiri, yeni təhlükəsizlik çağırışlarının formalaşması və beynəlxalq əməkdaşlıq mexanizmlərinin dəyişən şərtlərə uyğunlaşdırılması da Forumda əsas müzakirə sahələri arasında olmuşdur.

XIII Qlobal Bakı Forumunun əhəmiyyəti ondan ibarətdir ki, belə bir beynəlxalq platforma vasitəsilə Azərbaycan qlobal parçalanma, enerji və texnoloji təhlükəsizlik, rəqəmsal transformasiya və yeni geosiyasi çağırışlar üzrə beynəlxalq dialoq üçün aparıcı məkanlardan birinə çevrilir. Bu baxımdan, Forum Azərbaycanın çoxtərəfli diplomatiya, qlobal dialoq və beynəlxalq əməkdaşlığın təşviqi istiqamətində fəal siyasətinin mühüm göstəricilərindən biri kimi böyük əhəmiyyət kəsb edir [652].

Bakı, Gəncə, Şəki, Quba, Bərdə və Naxçıvan şəhərlərində *Olimpiya kompleksləri* tikilib istifadəyə verilmişdir. Azərbaycan idmançıları müxtəlif beynəlxalq miqyaslı idman yarışmalarında və Yay Olimpiya oyunlarında fəal iştirak edərək böyük uğurlar qazanmışdılar, belə ki, təkcə *2012-ci ildə* Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları medalların sayını 10-a (2 qızıl, 2 gümüş, 6 bürünc) çatdırdılar.

Azərbaycan, həmçinin mötəbər idman tədbirlərinə ev sahibliyi edən dünyanın tanınmış ölkələrindən biridir. Ölkəmizdə *2015-ci ildə* ilk Avropa Oyunları və Bakıda *2016-cı ildə* dünyada 500 milyon insanın izlədiyi Formula-1 Qran-Pri yarışları, 42-ci Şahmat Olimpiadası, *2017-ci ildə* İslam Həmrəyliyi Oyunları və *2017, 2018, 2019, 2021-ci illərdə* (2020-ci ildə COVID-19 pandemiyası səbəbindən Azərbaycan Qran-Prisi baş tutmadı) Formula-1 Qran-Pri yarışları keçirildi. *10-12 iyul 2022-ci il* tarixlərində Formula 1 və Formula 2 üzrə 6-cı Azərbaycan Qran-Prisinə start verildi.

Azərbaycandan UEFA Çempionlar Liqasında və UEFA Avropa Liqasında "Qarabağ", Avropa Liqasının qrup mərhələsində "Qəbələ" və "Neftçi" futbol komandaları dəfələrlə iştirak ediblər [615]. *2019-cu ildə* Avropa Liqasının finalı Bakı Olimpiya Stadionunda keçiriləcək. *2020-ci ildə* Bakı UEFA Avro *2020-nın* qrup mərhələsi və 1/4 finalına ev sahibliyi edibdir [599]. Azərbaycanda WTA Tour-un (Women's Tennis Associa-

tion) rəhbərliyi ilə (*2011-ci il iyul)* Baku Cup, Futbol üzrə 17 yaşadək Avropa Çempionatı (*2016)*, FİFA U-17 Qadınlararası Dünya Çempionatı (*2012),* Güləş üzrə Avropa Çempionatı, Bədii gimnastika üzrə 25-ci Avropa çempionatı (*2010)*, Cüdo üzrə Dünya Çempionatı *(2018),* futbol üzrə Azərbaycan Cup *(2018/2019)* kimi beynəlxalq idman yarışları keçirilibdir [551]. Ölkədə Tour d'Azerbaidjan velosiped yarışları və Formula-1 çempionatının Azərbaycan Qran Prisi keçirildi [601]. *2019-cu il 21-27 iyul* tarixlərində Bakıda Avropa Gənclər Olimpiya Festivalı (EYOF) keçirildi. *24 iyul-1 avqust* tarixlərində keçirilən yarışda 10 idman növü üzrə mübarizə aparıldı. Azərbaycandan sonra bu yarış Slovakiyanın Banska Bıstritsa şəhərində təşkil ediləcəkdir [590].

2024-cü il iyulun 26-dan avqustun 11-dək Parisdə (Fransa) keçirilən *XXXIII Yay Olimpiya Oyunlarında* Azərbaycanın Milli Olimpiya Komandası 15 idman növü üzrə 48 idmançı ilə təmsil olundu. Nəticədə Azərbaycan Milli Olimpiya Komandası Paris Olimpiadasını *7 medalla (2 qızıl, 2 gümüş və 3 bürünc)* başa vurdu. Paris Olimpiadasında 7 medal qazanan Azərbaycanın Milli Olimpiya Komandası medalların əyarına görə 30-cu, medalların sayına görə isə 33-cü pillədə qərarlaşdı [624].

İdman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə böyük töhfə verəcək bu tədbirlər həm də Azərbaycana gələn turistlərin sayını xeyli dərəcə artırır, bununla da ölkəmizdə *turizm* sektorunun inkişaf etdirilməsi işinə xidmət göstərir. Prezident İlham Əliyevin *1 sentyabr 2016-cı il* tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı və *6 dekabrda* Fərmanla təsdiq etdiyi "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" turizmə dair mühüm əhəmiyyətli sənədlərdir. Prezident İlham Əliyevin *1 sentyabr 2016-cı il* tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən *Turizm Şurası* yaradıldı [717]. Sərəncama uyğun olaraq hər il *sentyabrın 27-si* Azərbaycanda *"Turizm işçi-*

ləri günü" peşə bayramı kimi qeyd edilir. Ölkəmizin turizm sənayesində *2016-cı ildə* həyata keçirilən yeniliklərdən biri də *"Tax free"* sisteminin tətbiq olunması idi. Bu sistemin tətbiqi ilə xarici turistlərin ölkəmizdə daha çox alış-veriş etmələrinə müsbət təsir göstərəcəkdir. Dövlət başçısı *2016-cı il 1 iyun* tarixində "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və *"ASAN Viza"* sisteminin yaradılması haqqında" Fərman verdi. *"ASAN Viza"* portalının yaradılmasında məqsəd ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativlik və şəffaflığın təmin edilməsidir [717].

4. Azərbaycan Respublikası dünya birliyində

Xarici siyasət. Qarabağ probleminin sülh yolu ilə həll edilməsi Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpa edilməsi, ölkənin dünya birliyində layiqli yer tutması Prezident H.Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasətin ana xəttini təşkil edirdi. Təkcə *1993-1998-ci illərdə* bu məqsədlə Prezident 33 ölkəyə 79 səfər etmiş, xarici ölkələrlə Azərbaycan arasında 431 beynəlxalq sənəd imzalanmışdır.

1993-cü ilin yayından Türkiyə ilə hərtərəfli əməkdaşlıq suveren Azərbaycanın xarici siyasətində əsas yer tutmuşdur. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Qarabağ məsələsi ədalətlə həll olunmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdir. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasında böyük əhəmiyyət kəsb edirdi. *2001-ci il iyul ayının 23-də* Xəzər dənizinin mübahisəli sularında İran təyyarələri Azərbaycan gəmilərinə hücum etdikdə, Türkiyə buna qarşı qəti etira-

zını bildirdi və bütün dünyaya bəyan etdi ki, "Azərbaycana əl qaldıran qarşısında Türkiyəni görəcək!" [109].

Xəzər dənizinin dibinin milli sektorlar əsasında bölüşdürülməsinə dair *2001-ci ilin yanvarında* Azərbaycan Respublikası ilə RF arasında, noyabrında isə Qazaxıstan arasında sazişlər bağlanmışdır. *2002-ci ilin aprelin 23-də* Aşxabadda Xəzəryanı ölkələrin dövlət başçılarının Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsinə dair keçirilmiş zirvə toplantısında müəyyən irəliləyişlər olsa da, İranın və Türkmənistanın bu məsələdə qeyri-konstruktiv mövqe tutması səbəbindən konkret nəticə əldə edilməmişdir. *2002-ci il sentyabrın 23-də* Azərbaycan və Rusiya prezidentləri "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzər dənizi dibinin həmhüdud sahələrinin bölgüsü haqqında saziş" imzaladılar.

Heydər Əliyevin İran İslam Respublikasına, Səudiyyə Ərəbistanına, Misirə, Pakistana, Çin Xalq Respublikasına, Yaponiyaya rəsmi və işgüzar səfərləri, Azərbaycanın Asiya və Sakit okean regionunun digər dövlətləri, eləcə də, Afrika və Latın Amerikası ölkələri ilə, o cümlədən ABŞ, Almaniya, Böyük Britaniya, İtaliya, Fransa kimi iri dövlətlərlə əməkdaşlığı çox böyük əhəmiyyət kəsb edirdi. *20 may 2002-ci ildə* Ulu öndər Heydər Əliyevin İran Respublikasına səfəri zamanı "Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə imzalanmışdır [347]. Hazırda Azərbaycan dünyanın 128 ölkəsi ilə ticarət münasibətləri qurmuşdur. Ticarət əlaqələrinin 80%-dən çoxu İtaliya, Rusiya, İngiltərə, Türkiyə, ABŞ, Türkmənistan, Almaniya, Yunanıstan, Qazaxıstan, İsrail, Fransa, Yaponiya, Malaziya və İran dövlətlərinin payına düşür.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər *4 aprel 1992-ci il* tarixində Bakıda imzalanmış müvafiq Protokol əsasında qurulmuşdur. İki ölkə arasında iqtisadi əməkdaşlıq münasibətləri "Azərbaycan Res-

publikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiya", "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2020-ci ilədək iqtisadi əməkdaşlıq haqqında Proqram", "Azərbaycan Respublikası və RF arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq və kənd təsərrüfatı məhsullarının təchizatı üzrə İşçi Qrup", "Azərbaycan Respublikası Energetika Nazirliyi və RF Energetika Nazirliyi arasında İşçi Qrup" formatlarında davam etdirilir. İqtisadi sahədə Azərbaycan və Rusiya arasında 45-dən çox sənəd imzalanmışdır. "2000-2002-ci illər üzrə mədəniyyət, elm və təhsil sahələrində uzunmüddətli əməkdaşlıq Proqramı", "2004-2006-cı illər üzrə humanitar sahədə əməkdaşlıq Proqramı" və "2007-2009-cu illər üzrə humanitar sahədə əməkdaşlıq Proqramı" uğurla icra olunmuşdur. RF Prezidenti Vladimir Putinin Bakıya səfəri çərçivəsində *13 avqust 2013-cü il* tarixində "2015-ci ilədək humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı" imzalanmışdır [631]. Hazırda iki ölkə arasında müqavilə-hüquqi bazaya 110-a qədər dövlətlərarası, hökumətlərarası və regionlararası sazişlər daxildir.

Respublika Prezidenti Heydər Əliyev *1994-cü ilin sentyabrında* BMT-nin 49-cu, *1995-ci ilin oktyabrında* və *2000-ci ilin sentyabrında* yubiley sessiyalarının tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmışdır. Təəssüf ki, işğalçı Ermənistana qarşı beynəlxalq birliyin bitərəf mövqe tutması, BMT və ATƏT kimi qurumların öz təklif və qətnamələrini ***(822, 853, 874, 884)*** həyata keçirmək üçün təsirli tədbirlər görməməsi səbəbindən əməli nəticə yoxdur [41, s. 560]. H.Əliyev dəfələrlə bildirmişdir ki, münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır, lakin sülh imkanlarının tükənməsi Azərbaycanı öz torpaqlarını silah gücünə azad etmək hüququndan istifadə etmək məcburiyyəti qarşısında qoya bilər. Güclü orduya malik olan Azərbaycan dövləti buna qadirdir.

Azərbaycanın xarici siyasətində ***Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatındakı (1994-cü ildən ATƏT)*** fəaliyyəti mühüm rol oynayır. O, hələ ***1992-ci il yanvarın 20-də*** bu təşkilata daxil olmuş, iyunun 10-da isə onun Yekun Aktını imzalamışdır. Prezident H.Əliyevin səyi nəticəsində ***1994-cü il mayın 8-də*** ATƏT-in Minsk qrupu və Bişkekdə Rusiyanın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında ***atəşkəs sazişi*** imzalanmışdır, ***mayın 12-də*** isə cəbhələrdə atəşkəs haqqında Bişkek protokolu qüvvəyə minmişdir. ***1994-cü ilin 5-6 dekabrında*** Macarıstanın paytaxtı Budapeştdə keçirilən sammitdə ATƏT-in himayəsi altında *Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair çağırılan Minsk konfransında* ***Minsk qrupu həmsədrlik institutu*** təsis edilmişdir. Minsk qrupunun tərkibinə 11 ölkə: ABŞ, Almaniya, Azərbaycan, Belorus, Çexiya, Ermənistan, İtaliya, İsveç, Rusiya, daha sonra isə Danimarka, Finlyandiya və Polşa da daxil oldu. *1994-cü ilin dekabr ayından* Minsk qrupunun həmsədrləri vəzifələrini Rusiya və Finlandiya, *1995-1996-cı illər* ərzində İsveç və Rusiya, *1997-ci ildən* isə Rusiya, ABŞ və Fransa yerinə yetirir [12, s. 328]. ATƏT-in ***1996-cı ilin 2-3 dekabrında*** keçirilən *Lissabon sammitinin* nəticələri Azərbaycan diplomatiyasının mühüm nailiyyəti olmuşdur. Sammitdə Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi sayəsində ATƏT-in üzvü olan 54 ölkənin 53-ü *Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi* ilə bağlı qəbul edilmiş Bəyanatda *Azərbaycanın ərazi bütövlüyünü* dəstəkləmişdir [93, s. 368, 377; 56, s. 46-70]. Sammit iştirakçıları Azərbaycan üçün məqbul olmayan – Azərbaycan Respublikasının tərkibində Azərbaycanın Qarabağ iqtisadi rayonlarının ərazilərini əhatə edən keçmiş "Dağlıq Qarabağa" ən yüksək özünüidarə statusu – muxtariyyət statusu verilməsi və Qarabağ əhalisinin bütün vətəndaşlarının təhlükəsizliyinin təmin olunması prinsiplərinə də səs vermişdilər. Minsk qrupunun həmsədrləri tərəfindən *1997-ci il iyun ayının 11-də* münaqişənin "paket" həlli-

ni təklif edən "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlı layihədə: 1) silahlı münaqişənin dayandırılması; 2) keçmiş "Dağlıq Qarabağ"ın statusunun müəyyənləşdirilməsi nəzərdə tutulurdu. Lakin bu təklif Ermənistan tərəfindən qəbul edilmədi. Həmsədrlərin *1997-ci il sentyabrın 19-da* təklif etdikləri "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı ikinci layihə münaqişənin "mərhələli" həllini irəli sürürdü. Bu sənəddə Qarabağın azərbaycanlı əhalisi, "Laçın dəhlizi" və bir sıra başqa Azərbaycanı qane etməyən çoxlu maddə olmasına baxmayaraq, Azərbaycan *1997-ci il oktyabr ayının 1-də* danışıqlar üçün razılığını bildirmişdir. Qondarma "DQR" adlı separatçı rejimin "prezidenti" Qukasyan "mərhələli həll" təklifini qəbul etmədi. Qukasyan Laçın, Şuşa istisna olmaqla, digər işğal olunmuş ərazilərimiz hesabına Qarabağın bir hissəsinin Azərbaycan dövlətindən şaquli asılılığı olmayan statusunu irəli sürdü. ATƏT-in Minsk qrupu həmsədrləri "DQR"-in münaqişə tərəfi kimi tanınmasını təklif edən maddə əlavə olunmuş variant təqdim etdilər, Azərbaycan isə bu variantı qəbul etmədi [7, s. 346]. *1998-ci il noyabrın 9-da* həmsədrlərin (xüsusilə rusiyalı həmsədrin fəal iştirakı ilə) beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycanın suveren hüquqlarının pozulması ilə nəticələnən 3-cü təklifi dünya praktikasında mövcud olmayan "Ümumi dövlət" ideyasına əsaslanırdı. Bu təklifdə "Dağlıq Qarabağ" adlı separatçı qurum dövlət atributları olan respublikaya çevrilir və "ümumi dövlət" çərçivəsində ona Azərbaycanla bərabər-subyektlilik verilirdi. Azərbaycan Respublikasının mənafeyinə zidd olan "Ümumi dövlət" təklifi Ulu öndər Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edildi [7, s. 346]. Heydər Əliyevin Robert Köçaryan ilə 28 aprel 1998-ci il – Moskva (Rusiya), 1999-cu ildə 1 aprel – Moskva, 26 aprel – Vaşinqton (ABŞ), 16 iyul – Cenevrə (İsveçrə), 22 avqust – Cenevrə, 10 sentyabr – Yalta (Ukrayna), 11 oktyabr – Sədərək (Azərbaycan), 17 noyabr – İstanbul (Türkiyə) görüşlərində müəyyən

razılaşmalar əldə edilsə də, oktyabrın 27-də Ermənistan parlamentində baş verən terror aktından sonra prezident R.Koçaryan fikrini dəyişdi. Azərbaycan və Ermənistan prezidentlərinin 24 yanvar 2000-ci il – Moskvada, 28 yanvar 2000-ci il – Davosda (İsveçrə), 20 iyun 2000-ci il – Moskvada, 18 avqust 2000-ci il – Krımda (Ukrayna), 7 sentyabr 2000-ci il – Nyu-Yorkda (ABŞ), 1 dekabr 2000-ci il – Minskdə (Belarus), 26 yanvar 2001-ci il – Parisdə (Fransa), 5 mart 2001-ci il – Parisdə, 3-7 aprel 2001-ci il – Ki-Uestdə (ABŞ) görüşlər keçirmələrinə baxmayaraq münaqişənin həlli istiqamətində heç bir addım atılmadı, həmsədrlər isə tərəflərə münasibətə yenə də ikili standartlardan yanaşaraq, Azərbaycanı "yazıq", "kasıb", "iqtisadiyyatı ağır vəziyyətdə olan" Ermənistana güzəştə getməyə təhrik edirdilər [7, s. 347]. Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin *2001-ci ilin 4-6 mart* Paris (Fransa), *3 aprel* Ki-Uest (ABŞ) görüşləri zamanı Azərbaycan, ona göstərilən təzyiqlərə baxmayaraq, mövqeyinin dəyişməz olduğunu bir daha bəyan etdi. Ulu Öndər Heydər Əliyev ikili siyasət yeridən beynəlxalq təşkilatların "reallıqla razılaşmaq lazımdır" tövsiyəsini qəti rədd etdi [7, s. 348]. ABŞ Ki-Uest şəhərindəki danışıqlarda H.Əliyev təcrübəli diplomat kimi Azərbaycanın milli mənafelərini ləyaqətlə təmsil və müdafiə etdi. Məhz onun qətiyyətli mövqeyi sayəsində Ki-Üest danışıqları zamanı ABŞ Dövlət Departamenti gec də olsa, Ermənistanı təcavüzkar dövlət kimi tanımışdır. H.Əliyevin Ki-Uest bəyanatı mühüm tarixi sənəddir. Ulu öndər Heydər Əliyevin Robert Köçaryan ilə 31 may 2001-ci il – Minsk, 1 avqust 2001-ci il – Soçi (Rusiya), 30 noyabr 2001-ci il – Moskva, 14 avqust 2002-ci il – Sədərək, 6 oktyabr 2002-ci il – Kişinyov (Moldova), 21 noyabr 2002-ci il – Praqa (Çexiya) görüşləri zamanı aparılan danışıqlar həmişəki kimi nəticəsiz oldu [528]. *2002-ci il noyabr ayının 22-də* AATŞ-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilmiş zirvə toplantısında ümummilli Lider Heydər Əliyev demişdir: "Nə qə-

dər ki, gec deyil, dünya birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir" [252]. Lakin bu günə kimi ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir nəticə verməmişdir.

Azərbaycan Respublikası ***dünya birliyinin*** müstəqil, bərabərhüquqlu dövləti kimi beynəlxalq və regional təşkilat və qurumlarda təmsil olunmaq, öz hüquqi yerini təmin etmək sahəsində də ardıcıl və məqsədyönlü fəaliyyət göstərirdi. O, *1991-ci ilin dekabrında* ***İslam Konfransı Təşkilatına****, 1992-ci ilin yanvarında* ***ATƏM-ə*** *(1994-cü ildən ATƏT), fevralında İran, Türkiyə və Pakistanın daxil olduğu* ***İqtisadi Əməkdaşlıq Təşkilatına****, mart-ında* ***BMT-yə****, 1992-ci ildə* ***NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına*** *(1997-ci ildən Avropa-Atlantika Tərəfdaşlıq Şurası-AATŞ), noyabrında* ***Avropa Olimpiya Komitəsinə****, 1993-cü ilin sentyabrın 24-də* ***MDB-yə*** *(Müstəqil Dövlətlər Birliyi), 1995-ci ilin iyununda* ***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına****, 1997-ci ilin noyabrın 25-də* özünün təşəbbüsü ilə təsis olunmuş ***QUAM-a*** *(Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova)* qəbul olunmuşdur*. 1999-cu il aprelin 4-də* Özbəkistan Respublikası da bu təşkilata qəbul edildi və GUAM təşkilatı ***GUÖAM*** adlandırıldı [7, s. 334]. *2001-ci il iyun ayının 6-7-də* Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə "Yalta Xartiyası" qəbul olundu.

Azərbaycan dövləti ***MDB-nin*** 30 əməkdaşlıq orqanlarında, 11 digər orqanlarında iştirak edir. Respublika MDB iştirakçı-dövlətləri ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin saxlanılmasına önəm verir. Belə ki, MDB-nin fəaliyyətinin əsas məqsədi iqtisadi, hərbi-siyasi və humanitar sahələrdə çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir [663].

1995-ci ildə Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan Parlamentlərarası

Assambleya haqqında Konvensiya imzaladılar. MDB PA, BMT və ATƏT-lə birlikdə regional münaqişələrin sülh yolu ilə həlli prosesində iştirak edir: Dağlıq Qarabaq münaqişəsi, Dnestryanı münaqişə, Abxaziya və s. Demək olar ki, MDB PA sayəsində *1994-cü ildə* Azərbaycanla Ermənistan arasında atəşkəs elan olunması barədə Bişkek protokolu imzalanmışdır. Baxmayaraq ki, *1993-cü ilin sentyabrın 24-dən* Azərbaycan Respublikası MDB-nin tamhüquqlu üzvü seçilmişdir və "Kollektiv Təhlükəsizlik haqqında" müqaviləyə qoşulmuşdur, Ermənistan Azərbaycan ərazisinin işğalını davam etdirmişdir [532]. İşğal olunmuş Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonları və Qazax rayonunun bir hissəsi daxil olan siyahıya *1993-cü ilin oktyabr-noyabr aylarında* Ermənistan dövlətinin silahlı qüvvələri tərəfindən zəbt edilmiş Zəngilan rayonu da əlavə edildi. Beləliklə, Ermənistan Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinə çıxaraq MDB-nin cənub hüdudlarında təhlükəli vəziyyət yaratmış və münaqişənin beynəlmiləl xarakter almasına səbəb olmuşdur [532]. Ümummilli Lider Heydər Əliyev *1993-cü il dekabrın 24-də* MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edərkən deyib: "...Ermənistan Respublikası təkcə Azərbaycan Respublikasına qarşı təcavüz etmir, həm də indi bizim birliyimizi birləşdirən prinsiplərə tam saymazlıq nümayiş etdirir. MDB-nin üzvü və "Kollektiv Təhlükəsizlik haqqında" müqavilənin iştirakçısı olan *Ermənistan Respublikasının* başqa dövlətə, ***birliyin*** onun kimi ***tam hüquqlu üzvü olan dövlətə - Azərbaycan Respublikasına*** qarşı təcavüz etməsi yolverilməzdir" [532]. Ulu Öndər Heydər Əliyev "Kollektiv Təhlükəsizlik haqqında" müqaviləni imzalamış MDB ölkələrinin dövlət başçılarına müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünə ciddi yanaşaraq siyasi qiymət verməyə çağırmışdır. Respublika Prezidenti MDB Dövlət Başçıları Şurasının *1994-cü il 15 apreldə* keçirilən iclasında Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan ərazisinə hücumları ilə əlaqədar Bəya-

nat vermiş, *1997-ci il mart* iclasında isə Rusiya Federasiyası tərəfindən bir milyard ABŞ dolları məbləğində silah-sursatın təmənnasız olaraq Ermənistana verilməsini üzv dövlətlərin başçılarının diqqətinə çatdırmışdır. Ulu Öndər *1999-cu il 2 aprel* tarixli Moskva iclasında da Bəyanatla çıxış edərək Rusiyanın Ermənistana silah və hərbi texnika göndərməsini, bu ölkə ərazisində hərbi bazaların yerləşdirməsini MDB üzv dövlətlərinin imzaladıqları "Kollektiv Təhlükəsizlik haqqında" müqavilənin kobudcasına pozulmasına səbəb olduğunu yüksək səslə bildirmişdir [532]. Üzv dövlətlərə Rusiyanın ikili münasibəti bu birliyin səmərəsini xeyli azaldır, narazılığa və MDB daxilində dövlətlərin ayrılıqda birliklər yaratmasına səbəb olurdu [7, s. 334].

1999-cu ildə MDB-nin üzv dövləti olan Ermənistanın digər üzv dövləti olan Azərbaycana qarşı təcavüzünə bir təşkilat olaraq siyasi qiymət vermədiyini əsas gətirən Azərbaycan Respublikası "Kollektiv Təhlükəsizlik haqqında" müqavilədən çıxdı. Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi *2004-cü il 16 sentyabr* tarixli MDB Dövlət Başçıları tərəfindən 38-ci Zirvə toplantısında üzv dövlətlərin dövlət başçılarının Beynəlxalq Terrorizmlə Mübarizə haqqında Bəyanatı, MDB, ATƏT və BMT çərçivəsində qəbul olunmuş sənədlər əsasında müasir mərhələdə beynəlxalq terrorizmə, habelə təhlükəsizlik və sabitliyə olan digər təhdidlərə qarşı dayanmaqda üzv dövlətlərinin əməkdaşlığının daha da inkişaf etdirilməsi, Müstəqil Dövlətlər Birliyinin təkmilləşdirilməsi və islahatların aparılmasına dair sənədlər imzalanmışdır. MDB Dövlət Başçıları Şurasının Kişinyovda keçirilən *2009-cu il 9 oktyabr* tarixli iclasında Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşündən sonra İlham Əliyev məlumat verərkən bildirmişdir: "...Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Erməni silahlı qüvvələri bizim işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır. Bizim məcburi köçkün soydaşlarımız öz doğma torpaqlarına qayıtmalı-

dırlar. Bizim mövqeyimiz, eyni zamanda, bütün beynəlxalq hüquq normalarına əsaslanır" [532]. Azərbaycan Prezidenti Ermənistanın qeyri-konstruktiv mövqeyinin münaqişənin nizamlanmasına mane olmasını bildirmişdir. Beləliklə, təşkilat daxilində zaman-zaman meydana çıxan dövlətlər arası problemlər (Ermənistan-Azərbaycan, Rusiya-Gürcüstan, Rusiya-Moldova, Rusiya-Ukrayna) MDB üzvü olan ölkələrin hərtərəfli inkişafına və inteqrasiyasına böyük maneçiliklər törədir [532].

1996-cı ilin aprel ayında ***Azərbaycan ilə Avropa Şurası*** (AŞ) və üzv dövlətləri arasında ***"Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" saziş*** imzalandı [215]. Mühüm əhəmiyyətli bir hadisə-Avropa Şurasının Nazirlər Komitəsinin ***2001-ci ilin yanvar ayının 25-də*** keçirilmiş iclasında ***Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv*** olması haqqında Qərar qəbul edilməsi idi. *Yanvarın 25-də* isə Fransanın Strasburq şəhərində yerləşən Avropa Şurasının iqamətgahı qarşısında ölkəmizin dövlət bayrağı qaldırıldı. Azərbaycanın Avropa Şurasındakı parlament nümayəndə heyəti *2001-ci ilin mayında* AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünike qəbul etdi [504], ***AŞ Parlament Assambleyasının (AŞPA)*** sessiyalarında, müxtəlif səviyyəli məclislərində böyük siyasi və diplomatik fəaliyyət göstərir. AŞ PA-nın *2001-ci il sentyabrın 24-də* keçirilmiş payız sessiyasında Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən daha bir mühüm sənəd qəbul edildi. Bu sənədin əhəmiyyəti həm də ondan ibarətdir ki, o Azərbaycanın işğaldan azad olunmaq üçün hər bir vasitəyə əl atmasına haqq verən beynəlxalq hüquqi sənəd idi. Demək olar ki, bu günə kimi ***AŞPA-da*** qəbul olunan ***12 sənəddə*** (bunlara üst-üstə AŞPA-nın 300 deputatı imza atmışdır) ***Ermənistan terrorçu dövlət*** adlandırılmışdır. *2002-ci il sentyabr ayının 26-da* AŞPA-nın sessiyasında Ermənistanın Azərbaycana qarşı təcavüz etməsi, Azərbaycan torpaqlarının işğal olunması, bu işğal

nəticəsində Azərbaycanın bir milyondan artıq qaçqın və köçkününün olması ilk dəfə bu təşkilatın çox vacib sənədində açıq-aydın bildirilirdi [249]. Beləliklə, Prezident İlham Əliyev Ermənistanın işğalçı olması faktının Avropa Şurasının sənədlərində ilk dəfə əks etdirilməsinə nail olmuşdur. *2004-cü il aprelin 29-da* AŞ PA-nın yaz sessiyasında Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında çıxışı Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratdı. *2005-ci il qış və yaz sessiyalarında* İlham Əliyev Avropa Şurasına üzv ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlərin görülməsinin vacibliyini vurğuladı, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olması və bu sahədə əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini bildirərək qeyd etdi ki, "bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı".

2002-ci ildə *Azərbaycan Respublikasının Avropa İttifaqı* ilə ***"Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"***nin (***1992-ci ildə bağlanıb***) yerinə yetirilməsinə dair milli Proqram hazırlanmışdır [7, s. 339]. Azərbaycanın Avropa İttifaqı ilə ***"Şərq Tərəfdaşlığı"*** çərçivəsində əməkdaşlığı ***2004-cü ildə*** qəbul edilmiş ***"Avropa Qonşuluq Siyasəti"*** və ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edən *1996-cı ildə* imzalanmış ***"Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"***nə əsaslanır. ***"Avropa Qonşuluq Siyasəti"*** (AQS) demokratiyanı, qanunun aliliyini, insan hüquqlarına hörməti və sosial inkişafı təşviq etmək üçün Avropa İttifaqının cənub və şərq qonşuluğuna daxil olan ölkələrlə ümumi maraqlara əsaslanan əməkdaşlığı nəzərdə tutur. Azərbaycan "Avropa Qonşuluq Siyasəti" proqramı çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanmış və bu məqsədlə Aİ-nin maliyyə-texniki dəstəyini almışdır. "Avropa Qonşuluq Siyasəti" proqramı çərçivəsində Azərbaycan bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatları həyata keçirmək imkanı əldə etmiş və bunun üçün Aİ-dən maliyyə və texniki dəstək

almışdır. Avropa İttifaqı ilə əlaqələr indiyədək iqtisadi və siyasi islahatlar, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı və s. çərçivələrdə inkişaf etdirilmişdir. Müstəqilliyin ilk illərində Aİ ilə münasibətlər *"MDB ölkələrinə texniki yardım" (TACİS)*, *"Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi" (TRACECA)*, *"Neft və qazın Avropaya nəqli üzrə Dövlətlərarası Proqram" (INOGATE)*, *"Humanitar Yardım" (ECHO)* və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair *"Anlaşma Memorandumu" 2006-cı il noyabrın 7-də* Brüsseldə imzalanmışdır. Tərəflər xüsusilə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi üçün təhdid və risklərin aradan qaldırılması baxımından region ölkələrinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsinin vacibliyini vurğulayırlar. Aİ *2014-2020-ci illərdə* qonşu ölkələrdə müxtəlif sahələrdə islahatları dəstəkləmək üçün layihələrə 15 milyard avro ayırıb. Bu islahatlar çərçivəsində dövlət idarəçiliyi, demokratiya, qanunun aliliyi, insan hüquqları sahəsində islahatlar; sabitləşmə üçün iqtisadi inkişaf; təhlükəsizlik; miqrasiya və mobillik üzrə dörd əsas sahəni əhatə edir**. *"Şərq Tərəfdaşlığı" proqramı*** isə Aİ-nin ***2009-cu ildə*** keçirilən sammitində qəbul edilib. Bu proqram Avropanın Şərqində bilavasitə qonşuları olan Belarus, Moldova, Ukrayna, eləcə də Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Gürcüstan və Ermənistan da daxil olmaqla altı ölkənin Avropa İttifaqı ilə daha yaxın əməkdaşlığını nəzərdə tutur.

Azərbaycan parlamentarilərinin Avropa Şurasında əldə olunmuş ən böyük nailiyyətlərdən biri də, ***2003-cü ilin 27 yanvar*** sessiyasında Respublika Prezidenti ***İlham Əliyevin*** yekdilliklə ***AŞPA-nın vitse-prezidenti və qurumun Büro üzvü*** seçilməsi oldu. İ.Əliyev Azərbaycan dövlətçilik tarixində belə bir mötəbər təşkilatın rəhbər orqanlarına seçilən ilk siyasətçidir.

Prezident İlham Əliyev AŞ PA-nın sessiyalarında dəfələrlə Ermənistanın işğalçı və terrorçu dövlət olduğunu faktlarla əsaslandıraraq bəyan etmiş, onun işğal etdiyi keçmiş "Dağlıq Qarabağ", eləcə də, digər Azərbaycan ərazilərində narkotik maddələrin qanunsuz istifadəsini ifşa etmişdir. *2005-ci il yanvarın 25-də* qəbul edilən 1416 saylı Qətnamə isə Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində atılan mühüm addımlardan olmuşdur. *2006-cı il yanvarın 9-da* AŞPA-nın "Dağlıq Qarabağ" problemi üzrə alt komitəsinin Strasburqda keçirilən növbəti iclasında hazırlanmış hesabatda Azərbaycan ərazilərinin işğalı, keçmiş "Dağlıq Qarabağ"dakı rejimin separatçı olması, bir milyon azərbaycanlının ata-baba yurdundan didərgin düşməsi və s. faktlar öz əksini tapmışdır. Avropa Şurası Parlament Assambleyasının 1416 saylı Qətnaməsinə əsasən yaradılmış Qarabağ münaqişəsi üzrə Alt Komitə Ermənistan nümayəndə heyətinin qeyri-konstruktiv mövqeyinə görə öz fəaliyyətini dayandırmışdır. AŞPA-nın *2008-ci ilin iyununda* keçirilmiş yay sessiyası çərçivəsində *iyunun 25-də* Azərbaycanla bağlı qəbul edilmiş 1614 nömrəli Qətnamədə Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı hissələrin ölkəmizin maraqlarına uyğun olması idi. AŞPA Bürosunun *2011-ci il yanvarın 28-də* keçirilən iclasında AŞPA-nın "Dağlıq Qarabağ üzrə Xüsusi Komitə"sinin fəaliyyətinin bərpasına dair qərar qəbul olunmuşdur. Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin Komitənin fəaliyyətinin davam etdirilməsinin əleyhinə olan cəhdlərinə baxmayaraq, qurumun yaradılması barədə qərar AŞPA Bürosu tərəfindən yekdilliklə (Ermənistan nümayəndə heyəti istisna olmaqla) qəbul edilmişdir. Avropa Şurası Nazirlər Komitəsinin *2014-cü il mayın 6-da* Vyanada keçirilən 124-cü sessiyasında Avropa Şurası Nazirlər Komitəsinə Sədrlik Avstriyadan Azərbaycana keçmişdir. AŞPA-nın *2016-cı il yanvar* sessiyasında Bosniya və Herseqovina Sosialist Qrupunun üzvü Milica Markoviçin *2015-ci il noyabrın 23-də* təklif etdiyi "Azərbayca-

nın sərhədyanı rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı Qətnamə mətni qəbul edilmişdir. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalını təsdiq edən digər sənəd AŞPA-nın *24 yanvar 2017-ci il* tarixdə qəbul etdiyi "Avropada jurnalistlərə və media azadlığına qarşı hücumlar" adlı 2141 (2017) saylı Qətnamə idi. *23 noyabr 2020-ci il* tarixində Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç Azərbaycanın Xarici İşlər Naziri Ceyhun Bayramovun məktubuna cavabında qeyd edib ki, o, *10 noyabr 2020-ci il* tarixli atəşkəs razılaşmasını alqışlayır və sazişin icrası ilə bağlı vəziyyətə nəzarəti davam etdirəcəyini vurğulayır. *2022-ci il aprelin 4-də* Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən vurğulayıb ki, Azərbaycan ilə Avropa Şurası arasında *2022-2025-ci illər* üçün Fəaliyyət Proqramı qəbul olunacaq. Hazırda Azərbaycan Respublikası Avropa Şurası çərçivəsində qəbul edilmiş 60-dan çox beynəlxalq konvensiyanın iştirakçısıdır. Ümumilikdə, Azərbaycan Respublikası Milli Məclisinin AŞPA-dakı nümayəndə heyəti 6-sı həqiqi üzv və 6-sı deputat olmaqla, 12 üzvdən ibarətdir. Sessiyanın gündəliyinə əsasən, nümayəndə heyəti Azərbaycanın mənafeyinə və maraqlarına xidmət edən təşəbbüslər irəli sürür, müvafiq sənədlərin müzakirələrində fəal iştirak edir [516].

Azərbaycan diplomatiyasının səyləri nəticəsində Azərbaycan sürətlə Avroatlantika məkanına inteqrasiya olunur. *2004-cü ildə* Azərbaycanın daha 20 ölkədə diplomatik nümayəndəlikləri, o cümlədən Təbrizdə konsulluğu açılmışdır. Qonşu İran, Rusiya və Türkiyə ilə münasibətlər daha da yaxşılaşmışdır. ABŞ Azərbaycanın strateji tərəfdaşına çevrilmişdir. Azərbaycan ABŞ Prezidenti Corc Buşun "Azadlığı müdafiə Aktı"na 907-ci düzəlişi dayandırmasına müvəffəq olmuşdur. Bu, ölkəmizə maliyyə yardımı ilə yanaşı, həm də mühüm əhəmiyyətli siyasi dəstək de-

məkdir. *2002-ci ilin martın 30-da* ABŞ-ın Azərbaycana silah satışı üzərinə qoyduğu qadağa da ləğv olunmuşdur.

1994-cü ilin mayın 4-də Azərbaycan Respublikası ***NATO***-nun ***"Sülh naminə tərəfdaşlıq"*** proqramına qoşulmuşdur. *1997-ci ilin iyul ayında* keçirilən Madrid zirvə toplantısında ümummilli Lider Heydər Əliyevin NATO-nun baş katibi ilə görüşü zamanı əməkdaşlığın genişlənməsi barədə danışıqlar aparılmışdır. Azərbaycanın NATO ilə fərdi tərəfdaşlığı barədə razılıq əldə olunması və Zirvə toplantısında tərəfdaşlıq proqramının genişlənməsi nəticəsində ***2002-ci ilin noyabrın 18-də*** keçirilmiş ***İstanbul*** sammitində ölkəmiz ***NATO Parlament Assambleyasının Assosiativ Üzvlüyünə*** qəbul olunmuşdur. AATŞ-ın *2002-ci il noyabrın 22-də* Praqada keçirilmiş Zirvə görüşündə ümummilli Lider Heydər Əliyev Azərbaycanın NATO-da iştirakının əhəmiyyətindən danışmışdır, *2003-cü ilin 15-16 may* tarixlərində NATO-nun Baş Katibi C.Robertsonun respublikaya səfəri zamanı Azərbaycan NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planına (FTƏP) qoşulmaq istəyini bildirmişdir. Azərbaycan *2005-2007-ci illəri* əhatə edən I dövr və *2008-2010-cu illəri* əhatə edən II dövr FTƏP-i başa çatdırmış, hazırda *2012-2013-cü illəri* əhatə edən III dövr sənədini yerinə yetirir. *2004-cü il oktyabrın 26-29-da* NATO Əməliyyatlar Departamentinin Planlaşdırma bölməsinin başçısı Dieqo Ruiz Palmerin başçılığı ilə nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Milli Böhranların idarəedilməsi sahəsində Azərbaycanda mövcud olan proseduralar müzakirə edilmiş və tövsiyələr verilmişdir. *2005-ci il fevralın 2-3-də* Bakıda NATO Baş Katibi müavininin müavini Patrik Hardouinin sədrliyi ilə Avro-Atlantika tərəfdaşlıq Şurası çərçivəsində "İqtisadiyyat, Təhlükəsizlik və Müdafiə – makroiqtisadi sabitləşmənin təhlükəsizlik aspektləri və müdafiə üçün mövcud olan resursların idarə olunması daxil olmaqla struktur islahatları" adlı seminar keçirilmişdir. *2005-ci il aprelin 4-9* "Saloğlu" layihəsini müzakirə etmək məqsədi ilə **NATO** Beynəlxalq heyət

və **NATO** Maddi Texniki Təchizat və Təminat Agentliyindən (**NAMSA**) nümayəndə heyəti Azərbaycana "feasibility study"-yə (ehtiyacın dəyərləndirilməsinə) səfər etmiş, məsələ ilə məşğul olan Azərbaycan dövləti Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyində (**ANAMA**) görüşlər keçirmiş və bu Agentliyin təşkili ilə bağlı Ağstafa rayonunun Saloğlu kəndinə səfər etmişdir [525]. *2005-ci ilin dekabrından* başlayaraq layihə çərçivəsində 5,7 kv.km. ərazi partlamamış hərbi sursatlardan (PHS) təmizlənmiş və 620 mindən çox PHS zərərsizləşdirilmişdir. *2006-2008-ci illərdə* Azərbaycan NATO maliyyəsi və ekspertizası ilə Mingəçevir və Ələt ərazisində keçmiş sovet ordusundan qalma vaxtı keçmiş, yüksək zəhərli raket yanacağının zərərsizləşdirilməsi üzrə Melanj layihəsini həyata keçirmişdir. Azərbaycanın NATO ilə əməkdaşlığında Mülki Fövqəladə Planlama (MFP) xüsusi yer tutur və son illər bu sahədə əməkdaşlıq genişlənməkdədir. MFP üzrə AATŞ daxilində çoxtərəfli əməkdaşlıq və FTƏP çərçivəsində ikitərəfli fəaliyyət bir-birini qarşılıqlı gücləndirən vasitələrdir. Azərbaycan Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planının (PAP-T) məqsədlərinin yerinə yetirilməsinə dair NATO ilə əməkdaşlıq edir [525]. *2012-ci ildə* Planlaşdırma və Analiz Prosesi sənədi çərçivəsində Azərbaycan kiber təhlükəsizliyi ilə bağlı iki "tərəfdaşlıq məqsədi"ni bəyan etmişdir. Azərbaycan enerji infrastrukturlarının mühafizəsi və terror cəhdlərinə qarşı mübarizədə AATŞ-in fəaliyyətində aktiv iştirak edir. Azərbaycan NATO-nun yardımı ilə Xəzər dənizinin çirklənməsinin qarşısının alınması və aradan qaldırılması üzrə bir sıra tədbirlər həyata keçirir, "Cənubi Qafqaz-Şərqi Türkiyə" enerji dəhlizinin seysmik təhlükə və riskinin hesablanması üzrə layihə çərçivəsində iştirak edir [526**].** Azərbaycan ***Sülh naminə Tərəfdaşlığın*** prinsiplərinə əsaslanaraq NATO ilə müxtəlif səviyyələrdə dialoq aparır, tərəfdaşlıq, regional təhlükəsizlik, Ermənistan-Azərbaycan münaqişəsi, əməliyyatlarda iştirak, Əfqanıstana töhfə, meydana gələn təhlükəsizlik təhdidləri və s. aktual

məsələləri müzakirə edir. Ümumiyyətlə, *2008-ci il aprelin 2-4-də* Buxarest Zirvə toplantısının Yekun Bəyannaməsinin 43-cü maddəsində, *3-4 aprel* bəyannaməsinin 58-ci bəndində, 2010-cu ilin 19-20 noyabr tarixlərində Lissabonda keçirilmiş Zirvə görüşünün Yekun Bəyannaməsinin 35-ci bəndində, 2012-ci il Çikaqo sammitinin Yekun Bəyannaməsinin 47-ci maddəsində, 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş Zirvə görüşünün Yekun Bəyannaməsində də münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli öz əksini tapmışdır. *2019-cu il mayın 30-da* Azərbaycan nümayəndə heyətinin üzvləri NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Slovakiyanın paytaxtı Bratislavaya səfər edərək tədbirlərdə müzakirəyə çıxarılacaq məsələlərə münasibət bildirmişlər [527]. Azərbaycan NATO-nun etibarlı tərəfdaşı kimi öz səylərini davam etdirməyə və bu tərəfdaşlığı gücləndirməyə hazırdır [525].

2002-ci il oktyabr ayının 2-də Azərbaycan Respublikası *BMT-nin "İqtisadi və Sosial Şurasına"* üzv seçildi [250]. *2003-cü ilin sentyabrında* o vaxt Azərbaycan Respublikasının Baş Naziri olan cənab İlham Əliyev BMT BA-nın 58-ci sessiyasında üzvlər arasındakı qarşılıqlı anlaşılmazlıqların aradan qaldırılmasında BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək islahatlar keçirməyin vacib olduğunu bildirmişdir [523]. *2004-cü il sentyabrında* keçirilən 59-cu sessiyasında Prezident İlham Əliyev Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin (822, 853, 874, 884) hələ də yerinə yetirilmədiyini vurğulayıb və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüş, elə həmin il *23 noyabrda* sessiyanın gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 163 nömrəli bənd daxil edilmişdir [593]. Daha sonra BMT Baş Məclisinin *2006-cı il sentyabrın 7-də* keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazi-

lərində vəziyyət" adlı Qətnamə qəbul edilmişdir. *2008-ci il martın 14-də* BMT Baş Məclisinin geniş iclasında – 62-ci sessiyanın gündəliyində 20-ci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" Qətnamə dövlətimizin ərazi bütövlüyünə dəstək verib, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb edibdir [522]. Prezident İlham Əliyev *2010-cu ilin sentyabrında* BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərək təşkilatın üzvlərinin diqqətini bir daha Qarabağ bölgəsində Ermənistan - Azərbaycan münaqişəsinə yönəldib, münaqişə zamanı ağır beynəlxalq cinayətlər törədildiyini, etnik təmizləmə siyasəti həyata keçirildiyini bəyan edibdir [522].

Müstəqillik bərpa etdildikdən sonra *2011-ci il oktyabrın 25-də* Azərbaycan Respublikası ***BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü*** seçildi və ***2012-ci ilin yanvarından*** Respublikamız iki il müddətinə BMT-nin Təhlükəsizlik Şurasının ona verilmiş səlahiyyətləri layiqincə yerinə yetirmişdir. Azərbaycan Respublikası *1995-1997* və *1998-2000-ci illər* üçün UNİCEF-in İcraiyyə Şurasına, *2000-2002-ci illər* üçün Qadınların Statusu üzrə Komissiyaya, 2002-*2004-cü illər* üçün Dayanıqlı İnkişaf üzrə Komitəyə, *2006-2009-cu illər* üçün BMT İnsan Hüquqları Şurasına və *2003-2005* və *2017-2019-cu illər* üçün BMT-nın İqtisadi və Sosial Şurasına, *2017-2020-ci illər* üçün BƏT-in İnzibati Şurasına üzv seçilibdir [539]. *2016-cı ildə* BMT və Azərbaycan hökuməti *2016-2020-ci illər* üçün ölkənin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası adlı sənədində təsbit olunmuş inkişaf meyillərini rəhbər tutan yeni əməkdaşlıq sazişi olan Birləşmiş Millətlər Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədini (UNAPF) imzalayıblar. Çərçivə Sənədinin əsas məqsədlərindən biri bərabərliyə nail olmaq və əhalinin bütün həssas qrupları, məcburi köçkünlər, qaçqınlar, qadınlar, uşaqlar, gənclər və yaşlılar üçün inkişaf imkanlarını genişləndirməkdən ibarətdir [592]. *25 sentyabr 2015-ci ildə* Azərbaycan

BMT-nin digər üzvlərinə qoşuldu və "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyini" qəbul etdi. Azərbaycan Prezidenti İlham Əliyev *2016-cı il oktyabrın 6-da* Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Fərman imzaladı. BMT Baş Assambleyasının *2017-ci il sentyabrın 20-də* Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında Prezident İlham Əliyev xarici siyasət sahəsində dövlətimizin prinsipial mövqeyini və prioritetlərini növbəti dəfə dünyaya nümayiş etdiribdir [522]. Prezident İlham Əliyev *2021-ci il sentyabrın 24-də* BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışı zamanı vurğulamışdır ki, "Azərbaycan *2020-ci il sentyabrın 27-də* BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başlamışdır. 44 gün davam edən müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin azad etmişdir. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin edib". *2021-ci ildə* BMT-nin ölkə üzrə idarə heyəti və Azərbaycan hökuməti arasında *2021-2025-ci illər* üçün BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə (UNSDCF) Sənədi imzalanıb. Azərbaycan BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində və qorunmasında, davamlı inkişaf və demokratikləşmə prosesində mühüm rol oynadığını qəbul edir. Azərbaycan BMT-nin XXI əsrdə olacaq təhdid və problemlərlə mübarizə apara bilməsi üçün BMT çərçivəsində islahatların aparılması ideyasını həmişə dəstəkləyir.

Azərbaycan heç bir hərbi bloka qoşulmadan balanslı siyasət və bütün dövlətlərlə əməkdaşlıq əlaqələrinin inkişafına yönəlmiş xarici siyasət kursu həyata keçirir. Bu səbəbdən ölkəmiz ***2011-ci ildə*** müşahidəçi statusuna malik ***Qoşulmama Hərəkatına*** tamhüquqlu üzv olmaq qərarına gəldi. Həmin il Balidə keçirilən XVI Nazirlər Konfransında Hərəkata qoşuldu. Ölkəmizin ərazi bütövlüyü təşkilat çərçivəsində üzv-dövlətlər tərəfindən qeyd-şərtsiz tanınır, beynəlxalq məsələlərdə haqlı mövqeyimiz

daim dəstəklənir. Hərəkata üzv olduğumuz qısa müddət ərzində beynəlxalq ictimaiyyətin geniş dairələrində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məlumatlılıq daha da artmış, təşkilatın daxili prosedurları və sənədlərində Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli daim dəstəklənmişdir. Qoşulmama Hərəkatının ölkəmizə etimadının və dövlətimizin artan nüfuzunun göstəricisidir ki, qısa müddət ərzində üzv olmasına baxmayaraq, üzv ölkələr Azərbaycanın bu təşkilata sədrliyini yekdillikl ə dəstəkləyiblər [655]. ***Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına Sədrliyi (2019-2023):***

25 oktyabr 2019-cu il tarixində ölkəmiz 60-a yaxın Qoşulmama Hərəkatı iştirakçılarının: dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin ***XVIII Zirvə Görüşünə*** ev sahibliyi etmişdir. Ümumilikdə Zirvə Görüşündə 160-a yaxın ölkə və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdir. Azərbaycanın ***2019-2022-ci illərdə Hərəkata sədrliyi*** dövlətimizin qlobal proseslərdəki rolunu və nüfuzunu daha da artırmış, beynəlxalq müstəvidə mövqeyimizi möhkəmləndirmiş, ölkəmizin iqtisadi inkişafına öz töhfəsini vermiş, qeyri-neft sektoru və ixrac potensialımızın yüksəlişinə geniş imkanlar açmışdır. Bakıda keçirilən Zirvə toplantısında Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının yekdilliklə Azərbaycanın üç il müddətinə təşkilata sədr seçilməsinə dəstək verməsi, şübhəsiz ki, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin növbəti uğurudur və dünyada ona olan etimadın göstəricisidir. Hərəkatın növbəti sədri olacaq Uqandanın 1 ildən sonra sədrliyi təhvil ala biləcəyini açıqlamasından sonra QH-na üzv dövlətlər Hərəkata uğurlu sədrlik etdiyini nəzərə alaraq Azərbaycanın daha 1 il müddətinə Hərəkata sədrlik etməsi üçün ölkəmizə müraciət etmiş, Azərbaycan tərəfi də Hərəkatın fundamental prinsip və dəyərlərinə sadiqliyini və mürəkkəb dövrdə Hərəkata səmərəli sədrlik edərkən əldə etdiyi dəyərli təcrübəni nəzərə alaraq bu müraciətə müsbət cavab vermişdir. Beləliklə, ***Azərbaycanın***

QH-yə sədrliyi 2023-cü ilə qədər uzadıldı. Azərbaycan son 4 ildə *Qoşulmama Hərəkatına (QH)* uğurla sədrlik etdi və ***19-20 yanvar 2024-cü il*** tarixlərində *Uqandanın paytaxtı Kampala* şəhərində keçirilən *Qoşulmama Hərəkatına Dövlət və Hökumət Başçılarının 19-cu Zirvə Toplantısında Hərəkata* sədrliyi Uqandaya təhvil verdi. Azərbaycanın təşəbbüsü və səyi nəticəsində Afrika qitəsində Hərəkata üzv olmayan yeganə ölkə olan Cənubi Sudan Hərəkatın sıralarına qoşuldu. 2024-cü il ərzində Azərbaycan Sədrlik Troykasının (Uqanda və Özbəkistanla birlikdə) üzvü kimi Hərəkat çərçivəsində fəaliyyətini davam etdiribdir [548].

Prezident İlham Əliyev dünya siyasətinin və gündəminin müəyyən edilməsində mühüm rol oynayan beynəlxalq platformalardan istifadə edərək, Azərbaycan həqiqətlərini dünyaya çatdırır, ölkəmizin haqlı mövqeyini müdafiə edən dövlətlərin sıralarının genişlənməsinə, Azərbaycanın qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq əməkdaşlıq məkanına çevrilməsinə nail olur və dövlətimizi addım-addım strateji hədəflərə yaxınlaşdırır.

Soyuq müharibə illərində iki hərbi-siyasi qütb arasında qarşıdurmaya cəlb edilməmək üçün bir sıra dövlətlər tərəfindən yaradılan Qoşulmama Hərəkatı (QH) hazırda beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən birinə çevrilib. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında bütün dünyada sülhün, təhlükəsizliyin və inkişafın təşviq edilməsi olan QH konkret tarixi kontekstdə yaradılsa da, müasir dünyada öz aktuallığını itirmir. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir etməkdə mühüm rol oynayır. QH-nın yaradılması və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq forumu kimi çıxış etməkdir. Hazırda *Qoşulmama Hərəkatının 120 üzvü, 17 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilatı* var. Təşkilata üzvlük prinsipləri hələ Təşkilat yaranmazdan əvvəl - *1955-ci ildə* İndoneziyanın Ban-

dunq şəhərində keçirilən Konfrans zamanı qəbul edilmişdir. ***"Bandunq prinsipləri"*** aşağıdakılardır:

1. BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, habelə əsas insan hüquq və azadlıqlarına hörmət etmək;

2. Dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək;

3. Sayından asılı olmayaraq bütün irqlərin və xalqların bərabərliyini tanımaq;

4. Digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək;

5. BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin fərdi və ya kollektiv şəkildə özünümüdafiə hüququna hörmət etmək;

6. Böyük dövlətlərin hər hansı xüsusi maraqları naminə kollektiv müdafiə tədbirlərindən istifadə etməkdən çəkinmək;

7. Digər dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı fəaliyyətdən, o cümlədən güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina etmək;

8. BMT Nizamnaməsinə uyğun olaraq bütün beynəlxalq mübahisələri dinc, sülh yolla həll etmək;

9. Qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək;

10. Ədalətə və beynəlxalq öhdəliklərə hörmət etmək.

Qoşulmama Hərəkatına üzv olmaq istəyən dövlət Hərəkatın təsis prinsiplərinə sadiqliyini bəyan etməli və QH-nın sədrinə yazılı müraciət etməlidir. Üzvlüklə bağlı qərar konsensusla qəbul edilir [656].

Qarabağ bölgəsində Ermənistan - Azərbaycan münaqişəsinin dinc yolla həll etmək məqsədi ilə Prezident İlham Əliyev Ermənistan prezidentləri ilə bir sıra görüşlər keçirmişdir: Robert Köçaryanla 11 dekabr 2003-cü il – Cenevrədə, 28 aprel 2004-cü il – Varşavada (Polşa), 15 sentyabr 2004-cü il – Astanada (Qazaxıstan), 15 may 2005-ci il – Varşavada, 27 avqust 2005-ci il – Kazanda (Rusiya), 10-11 fevral 2006-cı il – Rambuyedə (Fransa), 5 iyun 2006-cı il – Buxarestdə (Rumıniya), 28 noyabr 2006-cı il – Minskdə, 9 iyun 2007-ci il – Sankt-Peterburqda (Rusiya), Serj Sakisyan ilə isə 5 iyun 2008-ci il – Sankt-Peterburqda, 2

noyabr 2008-ci il – Moskvada, 28 yanvar 2009-cu il – Sürixdə (İsveçrə), 7 may 2009-cu il – Praqada, 4 iyun 2009-cu il – Sankt-Peterburqda, 17-18 iyul 2009-cu il – Moskvada, 8-9 oktyabr 2009-cu il – Kişinyovda, 22 noyabr 2009-cu il – Münhendə (Almaniya), 25 yanvar 2010-cu il – Soçidə, 17 iyun 2010-cu il – Sankt-Peterburqda, 27 oktyabr 2010-cu il – Həştərxanda (Rusiya), 5 mart 2011-ci il – Soçidə, 24 iyun 2011-ci il – Kazanda, 25 yanvar 2012-cu il – Soçidə, 19 noyabr 2013-cü il – Vyanada (Avstriya), 10 avqust 2014-cü il – Soçidə, 4 sentyabr 2014-cü il – Nyu-Portda (Uels), 27 oktyabr 2014-cü il – Parisdə, 19 dekabr 2015-ci il – Berndə (İsveçrə), 25 yanvar 2010-cu il – Soçidə, 2011-ci il – Praqada, 19 noyabr 2013-cü il – Vyanada, 11 avqust 2014-cü il – Soçidə, 27 oktyabr 2014-cü il – Parisdə, 2016-ci il 1 - 5 aprel hadisələrindən sonra ABŞ-ın təşəbbüsü ilə Vyanada və Rusiyanın təşəbbüsü ilə Sankt-Peterburqda, 2016-cı ilin iyun ayında Sankt-Peterburqda, 16 oktyabr 2017-ci ildə Cenevrədə [528]. Yuxarıda keçirilən bütün görüşlərdə Prezident İlham Əliyev Qarabağ münaqişəsinin beynəlxalq norma və prinsiplərə uyğun olaraq dövlətin ərazi bütövlüyü çərçivəsində ədalətli həll olunmasını tələb etmiş və bununla da Azərbaycan dövlətinin xarici siyasətinin əsas xəttini dünya dövlətlərinə qəti olaraq bəyan etmişdir.

1988-ci ildə başlayan *Qarabağ münaqişəsində* Ermənistan dövləti Azərbaycanın tərkib hissəsi olan Qarabağ iqtisadi rayonunun əraziləri (keçmiş "Dağlıq Qarabağ") və Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam rayonlarını, eləcə də Qazax rayonunun 7, Naxçıvan Muxtar Respublikasının 1 kəndini işğal etdi və 1994-cü ildə atəşkəs elan olunduğu vaxtdan bəri, yuxarıda göstərildiyi kimi, Azərbaycan və Ermənistan prezidentləri vaxtaşırı görüşüb Qarabağ münaqişəsinin dinc yolla nizamlanması məsələsinə baxırdılar, lakin aparılan sülh danışıqları heç bir nəticə vermirdi [528].

Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin *2002-ci il aprelin 30-da* keçirilmiş Trabzon Zirvə görüşündə *"Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər cinayətlərə qarşı mütəşəkkil mübarizə haqqında"* Azərbaycan, Gürcüstan və Türkiyə arasında saziş imzalanmışdır. Türkiyə - Azərbaycan dövlətləri arasında qarşılıqlı əlaqələrin artırılması və möhkəmləndirilməsi məqsədilə *2010-cu ildə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mexanizmi* təsis edilmişdir. Türkiyə-Azərbaycan-Gürcüstan, Türkiyə-Azərbaycan-İran və Türkiyə-Azərbaycan-Türkmənistan üçlü görüşləri keçirilmiş, regional sabitlik, sülh və rifahı təmin edəcək əhəmiyyətli mexanizmlər işlənilmişdir [552]. Azərbaycan dövləti Türkiyə, Gürcüstan, Özbəkistan, Qazaxıstan və Ukrayna ilə fəal siyasi, iqtisadi əlaqələr saxlayır, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasında, bir çox beynəlxalq və regional problemlərin həllində strateji tərəfdaş kimi çıxış edir. ***Türkiyə və Azərbaycan*** arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlibdir. *1993-cü ilin aprelində* Ermənistan qoşunları Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən və BMT-nin işğal olunmuş əraziləri tərk etməsi barədə Qətnaməsini icra etmədikdən sonra Türkiyə Ermənistanla sərhədlərini bağladı və problem həllini tapmayana qədər sərhədləri açmamaqda qərarlıdır. Türkiyə ardıcıl olaraq bütün beynəlxalq təşkilatlarda Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasını, bu məsələ ilə bağlı BMT-nin müvafiq qətnamələrinin həyata keçirilməsini tələb edirdi [552]. Türkiyə ATƏT-in Minsk Qrupunun bir üzvü kimi Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, sülh yolu ilə həll olunmasına səy göstərirdi.

Təəssüf ki, Beynəlxalq qərarlar yerinə yetirilmirdi, Minsk üçlüyü ciddi və qərarlı addımlar atmırdı, bununla da danışıqların müddəti uzadılırdı. Heç nəyə baxmayaraq, Türkiyənin Azərbaycana dəstəyi ilə Qarabağ probleminin Azərbaycanın ərazi bütöv-

lüyü hüdudunda sülh yolu və danışıqlar vasitəsi ilə həll edilməsi davam edirdi [552]. ***Mustafa Kamal Atatürkün*** *"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir"* və Ulu öndər ***Heydər Əliyevin*** *"Biz bir millət, iki dövlətik"* fikirləri iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə əks etdirən ən mükəmməl formul kimi həm Türkiyədə, həm də Azərbaycanda qəbul edilməkdədir [553].

Türkiyə – Azərbaycan dostluğunun təzahürü olan və bütün sahələri əhatə edən qarşılıqlı əməkdaşlıq qlobal iqtisadi layihələr: *Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Cənub Qaz Dəhlizinin* əsas hissəsi olan *TANAP*, yəni Trans Anadolu Təbii Qaz Boru Xətti Layihəsi, *"Qərb-Şərq"* proqramının həyata keçirilməsində mühüm rol oynayan və ***30 oktyabr 2017-ci ildə*** Bakı şəhərində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikası Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutmuş "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən ***Bakı-Tbilisi-Qars*** dəmir yolunun çəkilişi və bu kimi layihələrlə daha da inkişaf etdirilmişdir. Bu layihələr iki ölkənin regional qüvvəsini artırır və qlobal mövqelərini möhkəmləndirir. Bir tərəfi CQBK-ya, digər tərəfi ***TAP***-a bağlanan ***TANAP*** Cənub Qaz Dəhlizinin ən böyük hissəsidir. TANAP Azərbaycanın və Türkiyənin, bu iki ölkənin dövlət başçılarının birgə səyləri ilə həyata keçirilən layihədir. Odur ki, kəmərin istifadəyə verilməsi Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin növbəti bariz nümunəsini əks etdirir. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında bunu bir daha vurğulamışdır: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir.

2023-cü il sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimindən sonra *Azərbaycan-Türkiyə əməkdaşlığına* mühüm təsir göstərən bir sıra sənədlər - *Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu*, qardaş ölkənin

Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası, həmçinin mədəniyyət mərkəzinin tikintisinə dair Əməkdaşlıq Sazişi və bərpa olunan enerji mənbələrindən istehsal olunan *elektrik enerjisinin* hər iki respublikaya ötürülməsinə dair *Anlaşma Memorandumu* imzalandı [658]. ***2020-ci il dekabrın 15-də*** *Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin* tikintisinə dair Anlaşma Memorandumunun imzalanması qaz təchizatının şaxələndirilməsi imkanlarını təmin etməklə muxtar respublikanın vahid mənbədən asılılığının aradan qaldırılmasına yönəldilmişdir [637]. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir. Bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə 2025-ci il 5 martda açılış mərasimi keçirilmiş *İğdır-Naxçıvan qaz kəmərinin* daha bir özəlliyi ondan ibarətdir ki, bu kəmərin maksimum ötürmə gücü *750 mln kubmetrdirsə,* gələcəkdə layihənin genişləndirilməsi imkanları da var [587].

Azərbaycan-Türkiyə əməkdaşlığının yeni bir səviyyəyə çatdırılmasının bariz nümunəsi iki ölkə arasında ticarət dövriyyəsinin rekord həddə - *7,5 milyard ABŞ dolları* səviyyəsinə (hədəf 15 milyard ABŞ dolları) çatmasıdır. TANAP-ın imkanlarının genişləndirilməsi, Xəzərin təbii qazının Türkiyə və Avropaya çatdırılması, enerji və nəqliyyat təhlükəsizliyi sahəsində görülən birgə fəaliyyət qlobal əhəmiyyət kəsb edən məsələlərdir. 2023-cü ildə Azərbaycandan Türkiyəyə 9 milyard kubmetr təbii qaz ixrac edilib [557]. Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) istismara verildiyi gündən 2024-cü il dekabrın 31-dək Türkiyəyə 30,8 milyard kubmetr Azərbaycan qazı nəql edib [705]. Təbii qazın Türkiyə üzərindən Avropaya nəqli qitənin bir çox ölkəsi üçün mühüm enerji təhlükəsizliyi məsələsidir. Bakı-

Tbilisi-Qars dəmir yolu xəttinin də əhəmiyyəti çox böyükdür. Genişləndirmədən sonra BTQ dəmir yolunun illik yükdaşıma gücü 2024-cü il mayın 20-sindən etibarən 1 milyon tondan 5 milyon tona çatıb. İki ölkə arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri də hərbi sahədə qarşılıqlı fəaliyyətdir. Belə ki, hər iki ölkənin ordusu bir yumruq kimidir, həm Türkiyə, həm də Azərbaycanda ildə ən azı 10 hərbi təlim keçirilir. Türkiyənin Ordu modeli artıq Azərbaycanda tam oturuşub. 19 fevral 2024-cü il tarixində təhsil sahəsində də mühüm saziş imzalandı. "Bu gün Türkiyə-Azərbaycan Universitetinin yaradılması, sadəcə olaraq təhsil məsələsi deyil. Bu, birliyimizin növbəti rəmzidir" – deyən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə-Azərbaycan birliyinin təkcə region üçün deyil, Avrasiya üçün də mühüm amilə çevrildiyini diqqətə çatdırdı [557].

Azərbaycanla Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olması bütün dünyaya məlumdur. Bu, ***2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək*** davam edən 44 günlük ***Vətən Müharibəsi*** zamanı bir daha təsdiqləndi. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi və mənəvi dəstək verdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar verərək Azərbaycanın bu müharibədə tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bəyan etdi. Eyni zamanda, əbədi Türkiyə-Azərbaycan qardaşlığının daha bir təzahürü olan Bakının "Azadlıq Meydanı"nda baş tutan möhtəşəm ***Zəfər Paradı*** həm də ermənipərəst dövlətlər üçün ciddi siyasi mesaj oldu. Bütün dünya Azərbaycan-Türkiyə müttəfiqliyini, birlik və qardaşlığını, onların bir-birinə verdiyi böyük dəstəyi təkcə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin həyata keçirilməsi, o cümlədən, Vətən Müharibəsi dövründə şahidi olmayıb. İki qardaş ölkə mənəvi, siyasi və digər kontekstlərdə həmişə bir-birini dəstəkləmiş, hər iki dövlətin birliyi və müttəfiqli-

yi tarix boyu bütün məsələlərdə öz əksini tapmışdır. Eyni zamanda, bütün sahələrdə: nəqliyyat, enerji, mədəniyyət, humanitar sahədə birgə həyata keçirilən layihələr, birgə atılan addımlar hər iki qardaş dövləti daha da yaxınlaşdırır. Türkiyə-Azərbaycan münasibətləri regional əməkdaşlığın əsas şərtidir. Qarabağda ***Türkiyə-Rusiya Birgə Mərkəzinin*** fəaliyyəti də bölgədə sülhün bərqərar olması üçün səmərəli mexanizm kimi əhəmiyyət kəsb edir.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış ***"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"*** isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun və qardaşlığın növbəti təzahürü oldu. Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eyni zamanda region ölkələri arasında münasibətlərin normallaşdırılması və davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyə dövlətlərinin birgə təşəbbüsləri bu münasibətlərin daha da möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini göstərən ən gözəl nümunəsidir. Ölkə başçısı İlham Əliyevin dediyi kimi: "... Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. ***Şuşa Bəyannaməsi*** İlham Əliyevin sözlərinə istinada əsasən həm siyasi, həm də tarixi əhəmiyyət daşıyır. Bəyannamənin ən mühüm müddəalarından biri hərbi əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Bəyannamədə qeyd edilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs hə-

yata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır" [695]. Bu müddəa Cənubi Qafqazda əsrlər boyu erməni məsələsi adı altında öz siyasi maraqlarını reallaşdıran aktorlara və dövlətlərə ciddi bir mesaj idi. Bununla Müttəfiqlik Bəyannaməsi bütün qonşu dövlətlər və dünya ictimaiyyətinə bildirir ki, Azərbaycanın dövlət suverenliyinə və ərazi bütövlüyünə təhlükə törətmək niyyətində olanlar yeni regional hərbi-siyasi blokla üzləşəcəklər. İki dövlət arasında regional və beynəlxalq təhlükəsizliyin təminatı üçün tədbirlərin həyata keçirilməsi məsələlərinin müzakirəsi Azərbaycan və Türkiyə dövlətlərinin birgə fəaliyyətinin təmin edilməsini nəzərdə tutan Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyətini vurğulayır.

Türkiyə ilə Azərbaycan arasında dəmir yolu və avtomobil yolu ilə həyata keçiriləcək ***Zəngəzur dəhlizinə*** dair Şuşa Bəyannaməsi həm danışıqları, həm də əməli işləri əks etdirir, regionda iqtisadi və nəqliyyat potensialının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir və İkinci Qarabağ müharibəsindən sonra yeni geosiyasi vəziyyətin nəticəsidir. Müttəfiqlik Bəyannaməsində Azərbaycan və Türkiyəni birləşdirən *Zəngəzur dəhlizinin* açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər mühüm yer tutur [554]. Eyni zamanda, informasiya siyasəti və lobbiçilik məsələləri - Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ardıcıl həmrəylik göstərilməsi müddəaları da öz əksini tapmışdır.

Müttəfiqlik haqqında *Şuşa Bəyannaməsində* qeyd olunurdu ki, beynəlxalq münasibətlərin inkişafı, yerli, regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər

göstəriləcək, xarici siyasət sahəsində koordinasiya və ikitərəfli siyasi məsləhətləşmələr aparılacaq. Bu istiqamətdə *Türkiyə ilə Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası* çərçivəsində fəaliyyətin əhəmiyyəti qeyd olunur [695].

2021-ci il 15 iyunda Türkiyə və Azərbaycan arasında Müttəfiqlik haqqında imzalanmış *Şuşa Bəyannaməsi* regional və beynəlxalq təhlükəsizliyin təminatı nöqteyi-nəzərdən böyük əhəmiyyətə malik olan mühüm sənəddir və bölgədə yeni gerçəkliyin əsasını qoydu. İyunun 15-də Şuşa Bəyannaməsinin imzalandıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata çıxışında dedi: "Bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk" [554]. "Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün imzalanmasının bölgəmiz və dünyada sülh, əmin-amanlıq və sabitlik üçün yeni bir ümid mənbəyi olacağı şübhəsizdir" – deyən cənab Rəcəb Tayyib Ərdoğan bu prosesdə Türkiyənin Azərbaycan ilə birlikdə çiyin-çiyinə hərəkət etdiyini bildirdi [557].

Azərbaycan-Türkiyə münasibətlərində dostluq və qardaşlıq prinsipləri yalnız siyasi bəyanatlarla deyil, həm də böhranlar və fövqəladə vəziyyətlər zamanı göstərilən qarşılıqlı dəstək vasitəsilə də özünü təsdiqləyir. Bu baxımdan, *2023-cü ilin fevral* ayında *Türkiyənin cənub-şərqində baş vermiş dağıdıcı zəlzələlərdən* dərhal sonra Azərbaycan dövləti və xalqı tərəfindən qardaş ölkəyə göstərilən hərtərəfli yardım iki ölkə arasında strateji tərəfdaşlığın humanitar və sosial meyarının mühüm göstəricisi kimi qiymətləndirilə bilər. Prezident İlham Əliyevin tapşırığı ilə fəlakətin ilk günlərindən etibarən Azərbaycan dövlət qurumlarının və ictimai təşkilatlarının imkanları axtarış-xilasetmə əməliy-

yatlarında iştirak etmək, zərərçəkənlərə humanitar yardım göstərmək və digər təxirəsalınmaz ehtiyacların ödənilməsi üçün səfərbər edilmişdir.

Azərbaycanın dəstəyi yalnız fövqəladə yardım və xilasetmə tədbirləri ilə məhdudlaşmamış, həm də uzunmüddətli bərpa və yenidənqurma prosesini də əhatə etmişdir. Bu kontekstdə *Prezident İlham Əliyev* təşəbbüsü ilə Kahramanmaraş şəhərində *"Azərbaycan" məhəlləsinin* inşasına başlanılmışdır.

27,6 hektar ərazini əhatə edən "Azərbaycan" məhəlləsində 68 yaşayış binasında 1194 mənzilin, Heydər Əliyev adına ibtidai məktəbin, uşaq bağçasının, mədəniyyət mərkəzinin, ticarət və digər sosial obyektlərin inşası nəzərdə tutulmuşdur.

"Azərbaycan" məhəlləsinin artıq tamamlanmış məhəllələrində 26 dördmərtəbəli yaşayış binası, 456 mənzil və 328 qeyri-yaşayış obyekti tikilmişdir. Bu göstəricilər göstərir ki, zəlzələdən zərər çəkmiş bölgələrin yenidən qurulmasına Azərbaycanın dəstəyi təkcə humanitar yardım deyil, həm də uzunmüddətli sosial-iqtisadi və şəhərsalma layihəsinə çevrilib.

Bu nümunə Azərbaycan-Türkiyə münasibətlərində *"bir millət, iki dövlət"* prinsipinin böhran şəraitində necə praktik həmrəylik və qarşılıqlı dəstək mexanizminə çevrildiyini nümayiş etdirir. Eyni zamanda, *Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsi* Azərbaycanın regional humanitar diplomatiyasının və Türkiyə ilə strateji tərəfdaşlığının mühüm simvolik nümunələrindən biri kimi qiymətləndirilə bilər [707].

İkinci Qarabağ müharibəsində qələbədən sonra region üçün yeni reallıqlar - yeni əməkdaşlıq imkanları yarandı. Belə ki, Azərbaycanın təşəbbüsü və Türkiyənin tam dəstəklədiyi ***3+3 formatı*** Cənubi Qafqazda yeni regional əməkdaşlıq mexanizmlərinə həsr olunmuşdur.

Cənubi Qafqazın üç ölkəsi: ***Azərbaycan, Gürcüstan, Ermənistan + Türkiyə, Rusiya və İrandan ibarət "Altılıq" və ya "3+3"*** əməkdaşlıq platforması həm siyasi, həm təhlükəsizlik,

həm də iqtisadi potensiala malikdir. *3+3 platforması* çərçivəsində atılacaq addımlar bu bölgəni ziddiyyətlər zonasından ticarət-iqtisadi əməkdaşlıq məkanına, Avrasiyanın nəqliyyat qovşağına çevirməklə bu vəzifənin öhdəsindən gəlməyə imkan verir. Bu mənada Ermənistan ərazisindən keçən *"Zəngəzur dəhlizi"*nin açılması, Azərbaycan ərazisindən həyata keçiriləcək *"Şimal-Cənub"* layihəsinin Cənubi Qafqazın qlobal nəqliyyat və logistika sferasında beynəlxalq əhəmiyyətini möhkəmləndirəcəyi və regionun hər üç ölkəsinə dividendlər gətirəcəyi şübhəsizdir. 3+3 formatı ölkələrinin kəsişmə coğrafiyası: *özəyi – Cənubi Qafqaz, kənar halqası - Rusiya, Türkiyə və İrandır*: "Azərbaycan Cənubi Qafqazın siyasi, iqtisadi və hərbi cəhətdən lideri olmaqla bu formatın həm özəyində, həm də kənar halqasında həlledici mövqe tutur". Azərbaycan Qarabağ müharibəsini uğurla həll etməklə Cənubi Qafqazda sülhə, təhlükəsizliyə və inkişafa zəmin hazırladı və 3+3 formatına əsas yaratdı. 3+3 formatı regional ticarətin sürətlənməsinə və müvafiq olaraq iqtisadi artıma səbəb ola bilər. Bu format ***Zəngəzur dəhlizi*** daxil olmaqla nəqliyyat arxitekturasını dəyişdirə bilər: "Xüsusən də Azərbaycanın su, hava, avtomobil və dəmir yolu nəqliyyat infrastrukturu altı ölkənin inteqrasiyasında mərkəzi mövqeyə malik ola bilər. Çünki Azərbaycanın regionun cənub və şərq hissəsində yerləşməsi nəqliyyat infrastrukturunun şaxələndirilməsini təmin edir. Məsələn, Rusiya Azərbaycandan keçən Şimal-Cənub marşrutu ilə İranla, İran isə Azərbaycandan keçən Cənub-Qərb marşrutu ilə Gürcüstanla bağlana bilər. Bu dəhliz vasitəsilə Türkiyə Azərbaycan, Rusiya və İranla əlaqələrini daha da genişləndirə bilər. 3+3 formatı regionun enerji təhlükəsizliyi üçün də yeni imkanlar açа bilər. 3+3 formatı qloballaşma ilə müqayisədə regional siyasətin gücləndiyi bir mühitdə bütün iştirakçıların maraqlarına uyğundur [725].

Rusiyanın siyasi dairələri Azərbaycanın geostrateji rolunu dəyərləndirir və artıq başa düşürlər ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı əməkdaşlıq münasibətlərinin

uğurla inkişaf etdirilməsi Qafqaz-Xəzər regionunda sabitlik və təhlükəsizliyin mühüm amilidir. Azərbaycan-Rusiya münasibəttlərinin inkişaf etdirilməsində Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması əsas yer tuturdu. Qarabağ probleminin həllinə yönələn son görüşlər əsasən Moskvanın vasitəçiliyi ilə həyata keçirilirdi [540]. Regional və beynəlxalq təhlükəsizliyin və sabitliyin təmin edilməsi və möhkəmləndirilməsi sahəsində əldə edilmiş ikitərəfli münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırılmasında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında *"Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 3 iyul 1997-ci il tarixli Saziş*, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında *"Dostluq və strateji tərəfdaşlıq haqqında" 3 iyul 2008-ci il tarixli Bəyannamə* və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin və Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin *1 sentyabr 2018-ci il tarixli Birgə Bəyanatı* böyük əhəmiyyət kəsb edir. İki ölkə arasında siyasi, iqtisadi, müdafiə, mədəni-humanitar, təhsil, sosial sahələrdə, o cümlədən səhiyyə, gənclər arasında əməkdaşlıq və idman sahələrində yaxınlaşmanın vacibliyini nəzərə alaraq, həm Rusiya, həm də Azərbaycanın qarşılıqlı fəaliyyəti inkişaf edir. 2020-ci ilin noyabrında İkinci Qarabağ Müharibəsində atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasında Rusiya Federasiyasının vasitəçiliyi böyük rol oynadı. Rusiya və Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması üçün əsas olan Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyası Prezidentinin *10 noyabr 2020-ci il tarixli*, regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında *11 yanvar 2021-ci il tarixli* və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyasına, kommunikasiyaların bərpasına dair

26 noyabr 2021-ci il tarixli bəyanatlrın müddəalarından irəli gələn məsələlərin həllində qarşılıqlı fəaliyyət göstərir, regional və beynəlxalq səviyyədə uzunmüddətli sülh yaratmaq üçün bölgə dövlətləri ilə sıx əməkdaşlıq edirlər.

Rusiya-Azərbaycan əməkdaşlığının digər sahəsi və tarixi əhəmiyyətə malik olan ***Baykal-Amur Magistralı (BAM)***, Avrasiya və qlobal Cənub ölkələrinin sürətli iqtisadi və sosial inkişafı üçün yeni logistik marşrutların formalaşdırılmasında ***"Şimal-Cənub" nəqliyyat dəhlizi*** də ən geniş beynəlxalq əməkdaşlığın nümunəsinə çevrilməlidir. *2024-cü il aprelin 22-də* Moskvada *Rusiya Federasiyasının Prezidenti Vladimir Putin* ***Baykal-Amur Magistralının 50 illik yubileyində Heydər Əliyevin*** BAM-ın tarixində müstəsna və böyük rolundan, onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində *Baykal-Amur magistral xəttinin* tikintisinə rəhbərlik etməsindən və bu çətin layihəni həyata keçirmək üçün yorulmaz fəaliyyətindən danışdı. Azərbaycan ərazisində Azərbaycan-Rusiya sərhədini Azərbaycan-İran sərhədi ilə birləşdirən dəmir yolu ilə yük daşımalarının artırılması və Şimaldan Hind okeanına unikal nəqliyyat marşrutunun təmin ediiməsi üçün *BAM-ın* miqyasına və tarixi əhəmiyyətinə uyğun *"Şimal-Cənub" nəqliyyat dəhlizinin* yeni hissələrinin tikintisinin zəruriliyi vurğulandı [583].

25 dekabr 2024-cü il tarixində Bakıdan Qroznıya uçan AZAL-a məxsus ***"Embraer 190" sərnişin təyyarəsi*** Rusiya Federasiyasının hava məkanında – *Qroznı şəhəri yaxınlığında* kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və idarəolunmaz vəziyyətə salınmışdır. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı və fədakarlığı sayəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Təyyarədə olan *67 nəfərdən 38-i ölüb, 29-u sağ qalıb*. *Dekabrın 29-da* Qroznıda təyyarənin yerdən vurulmasından sonra *"kavyor əməliyyatı"* - hava məkanının bağlanması əməliyyatı elan edilib. Azərbaycan hökuməti buna operativ reaksiya verib. Respublika Prezidenti İlham Əliyev hər

bir Azərbaycan vətəndaşının həyatının çox qiymətli olduğunu bəyan edərək, bu qəzada Azərbaycan vətəndaşlarının həlak olmalarına səbəb olan təqsirkarların cəzalandırılmasını tələb edib. Prezident İlham Əliyev Azərbaycan dövlətinin pilotların və bütün ekipaj üzvlərinin fəaliyyətini yüksək qiymətləndirdiyini, üç ekipaj üzvünün - iki pilot və bir bələdçinin: *Kşnyakin İqor İvanoviç* (ölümündən sonra), *Kalyaninov Aleksandr Georgiyeviç* (ölümündən sonra) və *Əliyeva Hökumə Cəlil qızının* (ölümündən sonra) *"Azərbaycanın Milli Qəhrəmanı"* adı ilə, iki bələdçinin: *Əsədov Zülfiqar Sərdar oğlunun və Rəhimli Aydan Vaqif qızının isə 1-ci dərəcəli "Rəşadət" ordeni* ilə təltif edilməsi haqqında Sərəncam imzaladığını bildirib [681]. Vladimir Putin dekabrın 25-də Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiya hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması ilə bağlı baş vermiş faciəyə görə üzrxahlığını ifadə edib və qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib. Dövlət başçıları bu faciənin bütün təfərrüatlarının ciddi və hərtərəfli araşdırılması və günahkarların məsuliyyətə cəlb edilməsi məsələsini müzakirə ediblər. Azərbaycan tərəfinin təklifi ilə bu qəzanın səbəblərinin hərtərəfli araşdırılması üçün beynəlxalq ekspertlərdən ibarət heyət təşkil edilib [682]. Lakin belə hadisələr çoxəsrlik tarixi münasibətlərə kölgə salmamalıdır. Münasibətlər qarşılıqlı hörmət və səmimiyyət əsasında qurulmalı və davam etdirilməlidir.

Azərbaycanın *1971-ci ildən* ənənəvi olaraq İsveçrənin Davos şəhərində keçirilən ***Davos İqtisadi Forumunda*** iştirakı ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövrü əhatə edir. *27-31 yanvar 1995-ci ildə* ümummilli Lider ***Heydər Əliyev*** ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmiş, Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsinin ölkəmizin iqtisadi qüdrətinin artması

üçün geniş imkanlar açdığını qeyd edən ümummilli Lider Heydər Əliyev ən mühüm problemimiz olan Qarabağ bölgəsindəki Ermənistan-Azərbaycan münaqişəsi haqqında forumun iştirakçılarına geniş məlumat vermişdir [611]. Ulu öndər Heydər Əliyevin *11 sentyabr 2002-ci ildə* ABŞ-da baş verən terror aktına etiraz əlaməti olaraq Nyu-Yorkda keçirilən forumda iştirak edərək separatizmin beynəlxalq terrorizmin qaynaqlarından biri olduğunu və bunu tədbirin iştirakçılarına Qarabağın separatçı qurumunun timsalında izah etməsi təbii ki, problemin əsil mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında böyük əhəmiyyət kəsb etmişdir [611].

Azərbaycan Prezidenti İlham Əliyev ilk dəfə *2007-ci ilin yanvarında* "Güclərin qlobal balansının yerdəyişməsi" devizi altında "Neft geosiyasətinin artan əhəmiyyəti" mövzusunda keçirilən Forumda iştirak etmişdir. "Dünyanın vəziyyətini yaxşılaşdır: yenidən düşün, yenidən planlaşdır və yenidən qur" devizi altında keçirilən Forumda beynəlxalq miqyasda həyata keçirilən qlobal enerji layihələrinin reallaşmasında, Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyində böyük rolu olan, tranzit ölkə kimi mühüm yer tutan Azərbaycanın mövqeyi yüksək qiymətləndirilmişdir [611]. Dünya İqtisadi Forumu öz tarixi ərzində yalnız iki dəfə Davosdan kənarda: ABŞ-da və *2013-cü ildə* Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq" mövzusunda keçirilmişdir. Ölkəmizə göstərilən bu yüksək etimad beynəlxalq qurumun Respublikamızın iqtisadi inkişafında qazanılmış nailiyyətlərinə verdiyi yüksək tarixi qiymətdir [610].

2019-cü il yanvarın 27-də Prezident İlham Əliyev "Qloballaşma: Dördüncü sənaye inqilabı dövründə qlobal strukturu formalaşdırmaq" mövzusuna həsr olunmuş ***Davos Dünya İqtisadi Forumunda*** bir daha dövlətimizin layiqli təmsilçisi kimi iştirak etmişdir. *"Davos-2019"* - da forumun əsas mövzusu qloballaşma və dördüncü sənaye inqilabı dönəmində dövlətlər və bu inqilabi proseslərin iştirakçıları arasında qarşılıqlı əlaqənin və

təsirin optimallaşdırılması problemlərinin araşdırılmasından ibarətdir [610]. Davos Dünya İqtisadi Forumu ***iqtisadi cəhətdən***, yəni Azərbaycanın iqtisadi potensialını təbliğ etmək və yeni investisiyalar cəlb etmək baxımından əvəzolunmaz dünya əhəmiyyətli tədbirdir. Bundan başqa biz öz problemlərimizi qlobal formada təqdim edərək, Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində Azərbaycan Respublikasına qarşı göstərilən ədalətsiz münasibətlə bağlı öz fikirlərimizi bildirərək dünyaya bir daha bu münaqişə barəsində düzgün məlumat çatdırmaq və Azərbaycanın haqq səsini ucaltmaq üçün bir platforma kimi Dünya İqtisadi Forumun ***siyasi əhəmiyyətini*** də qeyd etmək lazımdır. Beləliklə, Davos İqtisadi Forumu Azərbaycan üçün həm siyasi, həm də iqtisadi baxımdan mühüm tədbirdir [612]. *2020-ci il 21-24 yanvar* tarixlərini əhatə edən və 3000-nə qədər qonağın iştirak etdiyi, *2021 və 2022-ci ilin əvvəllərində* koronavirus məhdudiyyətləri səbəbindən onlayn formatda keçirilən, *22-26 may 2022-ci* ildə ilk dəfə adi rejimdə keçirilən, *16-20 yanvar 2023-cü ildə, 5-19 yanvar 2024-cü ildə, 20-24 yanvar 2025-ci il tarixlərində* İsveçrənin Davos şəhərində keçirilən *Davos İqtisadi Forumlarında* Respublika Prezidenti ***İlham Əliyev*** Azərbaycanın maraqlarını müdafiə etmiş, Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə çatdırmış, ölkəmizin Avropa ilə Asiya arasında strateji nəqliyyat mərkəzi kimi mövqe tutması və regionda həlledici mövqeyə malik aparıcı dövlət kimi tanınmasında əhəmiyyətli rol oynayan məqamlar, Avropanın enerji, xüsusilə, "mavi yanacaq"la təminatında fəal iştirak etməsi, Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına nail olması, *"yaşıl enerji"*yə keçidlə bağlı görülən işlər, karbonsuzlaşma, neft və qeyri-neft sektorlarının inkişafı üçün yaradılan investisiya mühiti", süni intellekt, iqlim dəyişikliyi, insan kapitalı və texnoloji innovasiya, Azərbaycanın Xəzər dənizində 53 gəmi ilə ən böyük ticarət donanmasına malik olması kimi məsələlərə toxunmuşdur. Prezident İlham Əliyev II Qarabağ

müharibəsindən sonra keçirilən Dünya İqtisadi Forumlarında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi işğaldan azad edilmiş Azərbaycan ərazilərində cinayətkar erməni qruplaşmalarının fəaliyyət göstərməsi, ermənilərin Laçın yolundan mina daşımaq üçün istifadə etməsi, təbii sərvətlərimizin Ermənistan tərəfindən qeyri-qanuni istismar olunması və azərbaycanlı ekofəallarının buna dinc aksiyalarla etiraz etməsi, *19-20 sentyabr 2023-cü ildə lokal xarakterli antiterror əməliyyatları* nəticəsində Azərbaycanın suveren hüquqlarının və ərazi bütövlüyünün tam bərpa edilməsindən sonra bu ərazilərdə həyata keçirilən infrastruktur layihələrin, investisiyaların cəlb edilməsinin, bu ərazilərin *"yaşıl zona"* elan edildiyini, həmin ərazilərdə *"ağıllı şəhər", "ağıllı kənd"* konsepsiyasından istifadə olunacağını, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini bəyan etdi və bu sahədə Dünya İqtisadi Forumu ilə əməkdaşlığın perspektivlərinə toxundu.

Ərazi bütövlüyümüz bərpa olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti Cənubi Qafqazda mövcud gərginliyin aradan qaldırılması, sülhün və əminamanlığın reallaşdırılması, Ermənistanla Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün Azərbaycan dövətinin xarici siyasətini uğurla həyata keçirərək ***Brüsseldə 2021-ci il dekabrın 14-də*** Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə ikitərəfli görüşdə, ***2022-ci il fevral ayında*** Fransa Prezidenti Makronun iştirakı ilə videokonfransda və ***2022-ci il aprel ayının 6-da, may ayının 22-də, avqust ayının 31-də*** Brüsseldə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla və Şarl Mişellə üçtərəfli görüşdə son vaxtlarda baş verən hadisələri və üçtərəfli *10 Noyabr Bəyanatının müddəalarının* reallaşdırılmasının zərurətini müzakirə etmişdir. Ölkələrin ərazi bütövlüyünün tanınması, hər hansı ərazi iddialarından qarşılıqlı imtina, güc tətbiq etməmək və ya güclə hədələmə-

mək, Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiyası və kommunikasiyaların açılması Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbədən sonra məğlub Ermənistana təklif etdiyi sülh müqaviləsinin əsasını təşkil edən 5 baza prinsipdir. Regionda ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması, sülhün və təhlükəsizliyin, xalqların birgəyaşayışının təmin edilməsi istiqamətində ciddi səylər göstərən Azərbaycan Ermənistanla qonşuluq münasibətləri qurmaq istəyi ilə bölgədə sabitliyin bərqərar olmasına çalışır. ***2022-ci il sentyabrın 16-da*** Səmərqənddə ***Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində*** Prezident İlham Əliyev çıxış edərək bildirdi ki, "Azərbaycan öz fəaliyyətini beynəlxalq hüquqa, ədalətə və qlobal təhlükəsizliyə əsaslanaraq həyata keçirməkdə davam edəcək". ***Oktyabrın 6-da Praqada*** *Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Macron, Ermənistanın Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişell* arasında keçirilmiş görüşdən sonra verilən bəyanatda deyilir ki, Azərbaycan və Ermənistan BMT-nin nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyan 1991-ci il Almatı Bəyannaməsinə sadiqliklərini təsdiq edirlər. Görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, "ilin sonuna kimi Ermənistanla sülh sazişi imzalana bilər ... belə bir sənədlə iki ölkə arasında müharibə, düşmənçilik səhifəsi qapanacaq".

2022-ci il noyabrın 7-də Vaşinqtonda Azərbaycanın xarici işlər naziri *Ceyhun Bayramov* Ermənistanın xarici işlər naziri *Ararat Mirzoyanla*, daha sonra isə ABŞ-ın dövlət katibi *Antoni Blinken* ilə birgə görüşlər keçirmişdir. ***Oktyabrın 6-da Praqada və oktyabrın 31-də Soçidə*** keçirilən görüşlərdə hər iki tərəf Azərbaycan və Ermənistan liderlərinin üzərlərinə götürdükləri öhdəlikləri bir daha təsdiqlədilər [670].

2023-cü il mayın 25-də Moskvada Azərbaycan Respublikasının Prezidenti *İlham Əliyevin* Rusiya Federasiyasının Prezidenti *Vladimir Putin* və Ermənistan Respublikasının Baş naziri

Nikol Paşinyan ilə *üçtərəfli Zirvə görüşü* [668], ***iyulun 15-də Brüsseldə*** isə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə üçtərəfli görüşü keçirildi. *Vaşinqtondakı görüşün* davamı kimi dəyərləndirilən Brüssel görüşündə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sülh prosesi ilə bağlı danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qeyri-qanuni hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi keçirildi [606]. Ümumiyyətlə, *Brüsseldə Şarl Mişelin* vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında altı görüş baş tutub. Birinci görüş ***14 dekabr 2021-ci il***, ikinci görüş ***6 aprel 2022-ci il***, üçüncü görüş ***23 may 2022-ci il***, dördüncü görüş ***31 avqust 2022-ci il***, beşinci görüş ***14 may 2023-cü il***, sonuncu görüş ***15 iyul*** tarixində keçirilmişdir.

"Qafqazinfo"nun məlumatına görə, ***2023-cü il oktyabrın 5-də*** İspaniyanın *Qranada* şəhərində *Fransa Prezidenti Emmanuel Makron, Almaniya kansleri Olaf Şolts, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyanın* iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev olmadan keçirilən qeyri-rəsmi görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması məsələsi müzakirə edildi. Qeyd edək ki, Azərbaycan bu görüşdən imtina etmişdir [591]. Belə ki, Azərbaycan Türkiyənin görüşdə iştirakını təklif etsə də, buna icazə verilməmişdir. Bundan başqa, Fransa rəsmilərinin (müdafiə naziri, xarici işlər naziri və s.) ermənipərəst bəyanatları, xarici işlər nazirinin Ermənistana səfəri və hərbi əməkdaşlıq, silah və sursat tədarükü ilə bağlı bəyanatları və Aİ Şurasının Prezidenti Şarl Mişelin bir gün öncəki bəyanatında Azərbaycanı ittiham etməsi ölkəmizi bu formatda keçiriləcək görüşdən imtina etməyə sövq etdi və Prezident İlham Əliyev Qranadaya getmədi.

Bakı hesab edir ki, regionun problemləri regiondan uzaq ölkələrlə deyil, regional çərçivədə müzakirə və həll olunmalıdır.

Lakin əvvəlki *üçtərəfli Aİ-Azərbaycan-Ermənistan* formatı gündəmə gələrsə, Azərbaycan görüşdə iştirak edəcək. Fransanın iştirak etdiyi istənilən format Azərbaycan üçün qəbuledilməzdir, Bakı belə platformada iştirak etməyəcək [685]. Rəsmi Bakı Azərbaycanın adının onun iştirakı olmadan *Qranada Bəyannaməsinə* daxil edilməsini "düzgün yanaşma" hesab etmir.

2024-cü il fevralın 17-də *Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya kansleri Olaf Şoltsun* təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında həm ikitərəfli, həm də üçtərəfli formatda, eləcə də ***oktyabrın 24-də*** *Kazanda* keçirilən *BRİKS-in XVI Sammiti* çərçivəsində ikitərəfli görüşlər keçirilib. *Xarici İşlər Nazirlikləri* səviyyəsində də dövlətlərarası münasibətlərin əsasını təşkil edəcək ikitərəfli sazişin razılaşdırılması məsələləri üzrə təmaslar davam etdirilib. Ümumilikdə, 2024-cü il ərzində Azərbaycan və Ermənistan *xarici işlər nazirlərinin beş görüşü* keçirilib: *28-29 fevralda* Berlində, *10-11 may* tarixində Almatıda, *10 iyulda* Vaşinqtonda NATO-nun 75 illiyinə həsr olunmuş Zirvə görüşü çərçivəsində, *sentyabrın 26-da* Nyu-Yorkda BMT-nin Assambleyasının 79-cu İllik Sessiyası çərçivəsində və *18 oktyabrda* İstanbuda "3+3" formatında [548]. Bu görüşlərdə Azərbaycan və Ermənistan arasında sülh sazişi üzrə müzakirələr aparılıb. Ermənistan və Azərbaycan arasında vasitəçilərə ehtiyac olmadan birbaşa danışıqlar sayəsində sülh istiqamətində mühüm nəzərəçarpacaq nəticələr əldə edilib [654]. Belə ki, Prezident İlham Əliyev *yanvarın 10-da yerli telekanallara müsahibəsində* və f*evralın 14-də andiçmə mərasimindəki* çıxışında Azərbaycanla Ermənistan arasında vasitəçiyə ehtiyac olmadığını vurğulamışdır: "*Bizə bu məsələdə vasitəçi lazım deyil. Bu, iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsidir"* [529].

Artıq sərhədlərin delimitasiyası və demarkasiyası prosesi başlayıb. Razılaşmaya əsasən, ***Qazaxın*** işğal altında olan ***4 kəndi - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı***

azad edilir. Bütün bu faktlar regionda dayanıqlı sülhə nail olmaq üçün Azərbaycan tərəfinin davamlı təşəbbüs və səylərinin müsbət təsirinin bariz nümunəsidir.

Qeyd edək ki, Prezident İlham Əliyev hələ *2020-ci ildə* ***qeyri-anklav kəndlərin*** qeyd-şərtsiz qaytarılması məsələsini qaldırmışdır və bu mövzu ötən dövrdə də daim gündəmdə olmuşdur. Əldə olunan razılaşma delimitasiya istiqamətində atılan ilk addımdır və Azərbaycanın təkidli tələbi ilə delimitasiya prosesi ***1991-ci il Alma-Ata Bəyannaməsinə*** əsaslanacaq. ***26 aprel 2024-cü il*** tarixinədək Azərbaycan və Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi çərçivəsində aparılan geodeziya ölçmələri üzrə nəzərdə tutulmuş işlərin təxminən 35 faizi yerinə yetirilib, *35 sərhəd dirəyi* quraşdırılıb [654]. Azərbaycan Ermənistana beynəlxalq hüququn norma və qanunlarına uyğun olaraq ***5 əsas prinsip*** çərçivəsində təkmilləşdirilmiş sülh modelini təklif edib:

- dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyinin qarşılıqlı tanınması;
- dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədləri uyğun olmayan digər hallardan çəkinmək;
- dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması" [530].

Azərbaycan Ermənistanla *sülh müqaviləsi* bağlamaq üçün müxtəlif addımlar atmaqla və təkliflər irəli sürməklə Cənubi

Qafqazda vəziyyətin sabitləşməsi istiqamətində səylərini davam etdirir. *Zəngəzur dəhlizi* məsələsi də diqqət mərkəzində qalır. Bu istiqamətdə atılan addımlar növbəti görüşlərə ümid yaradır. Əsas müzakirə olunan mövzular arasında beynəlxalq təzyiqlər, Azərbaycanın daxili işlərinə müdaxilə kimi məsələlər də olub. Bununla belə, rəsmi Bakı öz mövqeyini hər zaman açıq şəkildə bəyan edib. *2024-cü ilin siyasi nəticələrini* qiymətləndirərkən bir sıra hadisələri xüsusilə qeyd etmək lazımdır. Bunlardan birincisi *Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi* üzrə danışıqların davam etdirilməsi və *17 maddədən ibarət sənədin 15 maddəsi* üzrə razılaşmanın əldə olunmasıdır. İkinci məsələ Azərbaycan və Ermənistan arasında *demilitasiya-demarkasiya* komissiyasının əsasnaməsinin qəbul edilməsi və bu istiqamətdə addımların atılması, o cümlədən *12,7 km ərazinin demarkasiya-demilitasiya* edilməsidir [531].

Prezident İlham Əliyev *7 yanvar 2025-ci ildə* yerli telekanallara müsahibəsində qətiyyətlə bildirib: *"Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi – bunlarsız sülh müqaviləsi mümkün deyil.* Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. *Zəngəzur dəhlizi açılmalıdır* və açılacaqdır. Biz Azərbaycanın ayrılmaz hissəsi olan *Naxçıvana* niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim *birbaşa əlaqəmiz olmalıdır* və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar *10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər...* Burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın" [519].

Azərbaycanın qlobal çağırışlara çevik və səmərəli reaksiyası, beynəlxalq yardım fəaliyyəti, beynəlxalq iqtisadi əməkdaşlıq və qlobal əhəmiyyətli tədbirlərin uğurla həyata keçirməsi ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə xidmət etmişdir. Bu istiqamətdə, ***2024-cü il noyabrın 11-dən 23-dək*** Bakıda uğurla təşkil olunmuş ***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı (COP29)*** Azərbaycanın beynəlxalq səviyyədə liderliyinin nümayişi baxımından böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, *COP-un ilk toplantısı 1995-ci ildə Berlində* keçirilmişdir.

9 dekabr 2023-cü ildə Şərqi Avropa Regional Qrupu ***Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi*** edəcək ölkə kimi müəyyənləşdirdi. COP29 çərçivəsində *12-13 noyabr 2024-cü il* tarixlərində baş tutan Dünya Liderlərinin İqlim Fəaliyyəti Zirvəsi zamanı COP29 sədrliyi *tərəfindən 34 yüksək səviyyəli tədbir, 14-21 noyabr* tarixlərində Azərbaycanın müvafiq dövlət qurumları və 250-dən çox xarici tərəfdaşın birgə təşkilatçılığı ilə *100-dən çox tədbir* keçirildi. Tədbirlərdə qeydiyyatdan keçmiş *76 min iştirakçı*, o cümlədən *80 dövlət və hökumət başçısı* daxil olmaqla, *197 dövlət, 200-dən çox beynəlxalq təşkilat və 2000-ə qədər QHT nümayəndəsi* iştirak etmişdir [548; 519].

İlkin olaraq, Azərbaycanın sədrliyi ilə *COP29-un iki əsas məqsədi* var idi: *İqlim Maliyyəsi üzrə kollektiv hədəfin (NCQG) yaradılması və karbon bazarları üzrə Paris Sazişinin 6-cı maddəsinin tam həyata keçirilməsi.* Tərəflər Konfransı (COP), Paris Sazişi və Konvensiyası üzrə irəliləyiş əldə etmək üçün *qlobal istiləşməni 1,5°C-ə qədər məhdudlaşdırmaq* əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşuldu. Ölkəmiz 1990-cı il səviyyəsi ilə müqayisədə *2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı*

qarşısına məqsəd qoydu. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş ərazilərini *"Yaşıl enerji" zonası* elan etdi. Bu ərazilərin 2050-ci ilə qədər *"xalis sıfır emissiya"* zonalarına çevrilməsi nəzərdə tutulur [524].

Tərəflərin Bakı Konfransının (COP29) yekununda hər iki məqsədin uğurla həyata keçirilməsi ilə yanaşı ***İtki və Zərər Fondunun (Loss and Damage Fund)*** fəaliyyəti üçün zəruri mexanizmlərin təsdiqi, *Bakı Adaptasiya Yol Xəritəsinin qəbulu, Adaptasiya üzrə yüksək səviyyəli Bakı Dialoqunun, Texnologiya İmplementasiya Proqramının fəaliyyətə başlaması, Genişləndirilmiş İqlim Şəffaflığı 6 Hesabatının icrası xüsusunda Bakı Qlobal İqlim Şəffaflığı Platformasının (BTP) əhəmiyyəti, Yerli İcmalar və Köklü Xalqlar Platformasının Bakı İş Planının* təsdiqi kimi mühüm qərarlar qəbul edilmişdir. İqlim danışıqları tarixində ilk dəfə COP29-da qəbul edilmiş *NCQG (New Collective Quantified Goal on Climate Finance/ İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi)* qərarı bütün iştirakçıları 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən illik iqlim maliyyəsini *1,3 trilyon ABŞ dollarına* çatdırmağa çağırdı. İnnovativ resurslar, xüsusən də aviasiya, karbohidrogen mədən işləridir və buna görə də *çirkləndirici tərəflər "daha çox ödəməlidir" prinsipinə* uyğun olaraq ödəniş etməlidirlər. G20 bu istiqamətdə lider olmalıdır. 2009-cu ildə Tərəflərin Kopenhagen Konfransında (COP) təklif edilən 100 milyard ABŞ dolları hədəfi üç dəfə artırılaraq ən azı *300 milyard ABŞ dollarına* çatdırılmışdır. Eyni zamanda, bu qərar inkişaf etməkdə olan *kiçik ada dövlətlərini (SIDS) və ən az inkişaf etmiş ölkələri (LDC)* iqlim maliyyəsilə təmin etməklə yanaşı, həm də vəsaitlərin bölüşdürülməsi ilə bağlı şəffaflıq və hesabatlılıq məsələlərini də razılaşdırır. *Noyabrın 13-də* Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan *kiçik ada dövlətlərinin (SIDS) Sammitində* dövlət başçısı ***İlham Əliyev*** çıxış edərək dedi: "Azərbaycan COP29-a ev sahibi olduqdan

sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir".

Azərbaycan fəlakətlər qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərib, su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrini dəstəkləyibdir. Onlarla kiçik ada dövlətləri Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramından yararlanıblar. Respublika Prezidentinin Qoşulmama Hərəkatına sədrlik etdiyi dörd il ərzində 80-dən çox ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərilmişdir. Bu ilin sentyabrında *İtki və Zərərə Cavab Fondunun* fəaliyyətə başlaması ilə ehtiyacı olan ölkələrin, xüsusilə də kiçik ada dövlətlərinin maliyyə təminatında Bakıda ciddi irəliləyiş əldə edilib.

27 avqust 2024-cü ildə Azərbaycan *Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə* imzalayıb. Azərbaycan kiçik ada dövlətlərində Millətlər Birliyinin birgə layihələrini dəstəkləmək üçün *10 milyon ABŞ dolları* məbləğində vəsait ayırıb. Azərbaycan Kosmos Agentliyinin - "Azərkosmos" ASC-nin peyk məlumatlarının ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün istifadəsi üzrə *Millətlər Birliyi ilə Anlaşma Memorandumu* imzalanıb [608].

COP29 zamanı qəbul edilən mühüm qərarlar BMT tərəfindən *Baku Climate Unity Pact (İqlim Birliyi üzrə Bakı Paktı /BACU Pact)* çətir adı altında rəsmiləşdirilibdir. Konfrans çərçivəsində COP29 Sədrinin Fəaliyyət Gündəliyi üzrə 14 qlobal təşəbbüs elan edilib:

1. İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu (CFAF);
2. İqlim maliyyəsi, investisiya və ticarət üzrə Bakı Təşəbbüsü (BICFIT);
3. Yaşıl enerji üzrə zona və dəhlizlər;
4. Enerji saxlanılması və şəbəkələri;

5. Hidrogen fəaliyyəti;

6. COP Atəşkəs çağırışı;

7. Yaşıl rəqəmsal fəaliyyət;

8. İqlim davamlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsü;

9. Fermerlər üçün Bakı Ahəngdar İqlim Təşəbbüsü;

10. Üzvi tullantılarda metanın azaldılması;

11. Davamlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət Yolları (MAP);

12. Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti;

13. İqlim Fəaliyyəti naminə Su;

14. Bakı Qlobal İqlim Şəffaflığı Platforması (BTP) [524].

Qlobal səviyyədə dəstəklənən bu təşəbbüslər iqlim fəaliyyətini gücləndirmək, sektorlar üzrə koordinasiyanı təmin etmək və insan ölçüsünü davamlı inkişafa inteqrasiya etmək məqsədi daşıyır. COP29-un sədrliyi tərəfindən irəli sürülən təşəbbüslər *iqlimlə bağlı fəaliyyəti inkişaf etdirmək, tərəf olmayan maraqlı tərəflərin fəal iştirakını təşviq etmək, iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaq və fəaliyyətlərini sürətləndirmək* məqsədi daşıyır. Gərgin geosiyasi mühit, bir çox ölkələrdə iqlim dəyişmələrinə skeptik yanaşan siyasi qüvvələrin təsirinin gücləndiyi, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında kəskin ziddiyyətlərin mövcud olduğu şəraitdə keçən *COP29 konfransı* Azərbaycanın sədrliyi ilə böyük uğurla başa çatdı. *COP29*, əldə edilən konkret nəticələr və qəbul edilən qərarların əhəmiyyəti baxımından ən uğurlu konfranslardan biri kimi dəyərləndirilib. Azərbaycanın sədrliyi *2025-ci ilin noyabrında* Braziliyanın Belem şəhərində keçiriləcək *COP30*-a qədər davam etməklə yanaşı iqlim diplomatiyası fəal şəkildə davam etdiriləcəkdir [548].

Azərbaycan Respublikasının Prezidenti ***İlham Əliyev*** *2022-ci il sentyabrın 16-da* Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda dəvəti ilə Səmərqənddə, *3-4 iyul 2024-cü il* tarixlə-

rində isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda dəvəti ilə Astanada ***"ŞƏT Plus"*** formatında keçirilən görüşdə iştirak etmişdir. Ərazisinə və əhalisinə görə dünyanın ən böyük ölkələrini özündə birləşdirən ***Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə*** Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda yaradılıb. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var.

Hazırda Azərbaycan ***ŞƏT***-də dialoq tərəfdaş statusuna sahibdir. *2016-cı ildə* Azərbaycan ilə ŞƏT arasında *əməkdaşlıq sahələrini əks etdirən memorandum* imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətlərinə təşkilatın fəaliyyətinin ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizmlə mübarizə, o cümlədən regional təhlükəsizlik və sabitliyin təmin edilməsi daxildir. Dövlətimizin beynəlxalq səviyyədə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdir [585].

Azərbaycan ***Türk Dövlətləri Təşkilatı (TDT)*** çərçivəsində strateji əməkdaşlığa həmişə xüsusi önəm verib. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının dövlət başçılarının ***6 iyul 2024-cü il tarixində Şuşada*** keçirilən qeyri-rəsmi ***Zirvə Görüşündə*** çıxışında "Türk ölkələri ilə əlaqələrin genişləndirilməsinin, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqaməti" olduğunu, "Türk Dövlətləri Təşkilatının dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməsini" vurğulayıb. Zəngin təbii sərvətlər, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat

dəhlizləri, zəngin və qədim tarixi irs, mədəniyyət, xalqlarımızın ənənəvi dəyərlərinə sadiqliyi və eyni etnik köklərə malik olması Türk dünyasını birləşdirən amillərdir [697]. *İyulun 6-da Şuşada* keçirilən *"Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması"* mövzusunda ***TDT-nin Qeyri-rəsmi Zirvə Görüşü*** çərçivəsində ***Qarabağ Bəyannaməsi*** qəbul edildi və azərbaycanlı məcburi köçkünlərin öz yurdlarına qaytarılması üçün minatəmizləmə və humanitar yardım səylərinin dəstəklədiyini bildirildi. Bu ilin iyul ayında *Lənkəran şəhərinin 2024-cü ildə Türk Dünyasının Gənclər Paytaxtı* elan edilməsi ilə bağlı təntənəli açılış mərasimi keçirildi. İl ərzində *TDT-nin üzvü olan ölkələr arasında rəqəmsal iqtisadi əməkdaşlığa, Türk Yaşıl Baxışı və Türk Yaşıl Maliyyə Şurasının yaradılmasına dair Anlaşma Memorandumları imzalandı* və təşkilatın *12-ci Zirvə Görüşünün 2025-ci ildə Azərbaycanda keçirilməsi barədə qərar* qəbul edildi [548].

21 may 2025-ci ildə Macarıstanın paytaxtı Budapeştdə keçirilən ***Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının Qeyri-rəsmi Zirvə Görüşündə*** imzalanmış 71 bəndlik *Budapeşt Bəyannaməsi* TDT-un mədəni-humanitar əməkdaşlıq platformasından siyasi, iqtisadi, təhlükəsizlik və diplomatik koordinasiya imkanlarına malik çoxfunksiyalı regional təşkilata çevrilməsində yeni bir mərhələni nümayiş etdirir. Sənəddə *ortaq türk kimliyinin* gücləndirilməsi ilə yanaşı, müdafiə sənayesi, enerji təhlükəsizliyi, yaşıl inkişaf, investisiya, beynəlxalq diplomatik koordinasiya və regional böhranların idarə olunması kimi sahələr də vurğulanır ki, bu da Türk dünyasının institusional və geosiyasi konsolidasiyasının dərinləşməsini göstərir. Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti *Rəcəb Tayyib Ərdoğan* Cənubi Qafqazda sabitliyin təmin olunmasında Azərbaycanın rolunu vurğuladı. O, qeyd etdi ki, Azərbaycan-Ermənistan münasibətlərində sülhə nail olmaq yalnız iki ölkə arasında münasibətlərin normallaşdırılması ilə məhdudlaş-

mayacaq, həm də regionda daha geniş geosiyasi, iqtisadi və nəqliyyat imkanlarının formalaşması üçün şərait yaradacaq. Ərdoğanın sözlərinə görə, davamlı sülhün təmin edilməsi Türk dünyası üçün yeni əməkdaşlıq imkanları yaradacaq və Azərbaycanın regional sülh prosesindəki rolunu Türk dünyasının strateji maraqları ilə daha sıx əlaqələndirəcək. ***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan*** bu kontekstdə Prezident ***İlham Əliyevin*** rolunu yüksək qiymətləndirərək vurğuladı: "Bu baxımdan ***Müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm***" [603; 706].

7 oktyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ev sahibliyi ilə ***Qəbələ şəhərində "Regional sülh və təhlükəsizlik"*** mövzusunda keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının ***12-ci Zirvə Görüşü*** türk dövlətləri arasında siyasət, iqtisadiyyat, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də regional və beynəlxalq gündəmdəki aktual məsələlərin müzakirəsi üçün mühüm platforma olmuşdur.

Qəbələ Bəyannaməsi türk dövlətləri arasında siyasi həmrəyliyin və strateji koordinasiyanın gücləndirilməsi baxımından mühüm sənəddir. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə gündəmə gətirilən *Zəngəzur dəhlizi, yaşıl enerji dəhlizləri və "TDT Plus" formatı* kimi istiqamətlər Türk dünyası daxilində nəqliyyat, enerji və iqtisadi əlaqələrin genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Beləliklə, Qəbələ Zirvə Görüşü *türk dövlətləri arasında strateji əməkdaşlığın institusional dərinləşdirilməsində, regional sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində, Türk dünyasının qlobal iqtisadi və siyasi proseslərdə rolunun artırılmasında mühüm mərhələ* hesab edilə bilər. Azərbaycanın bu prosesdə fəal iştirakı onun Türk dünyasında əməkdaşlıq və inteqrasiya təşəbbüslərinin təşviqində artan rolunu nümayiş etdirir [640].

15 may 2026-cı ildə Qazaxıstanın Türküstan şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qeyri-rəsmi Zirvə Görüşü türk dövlətləri arasında yeni texnoloji və innovativ istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm platforma olmuşdur. Görüşdə əsas müzakirə sahələrindən biri süni intellekt, rəqəmsal innovasiya və qabaqcıl texnologiyaların dövlət idarəçiliyinin təkmilləşdirilməsi, dövlət xidmətlərinin səmərəliliyinin artırılması, davamlı iqtisadi inkişafın təmin edilməsi və regional əlaqələrin gücləndirilməsi məqsədilə tətbiqi olmuşdur.

Zirvə Görüşünün sonunda Türk Dövlətləri Təşkilatının dövlət başçıları *Türküstan Bəyannaməsini* və TDT Baş katibinin müavininin təyin edilməsi barədə qərarı imzaladılar. Bu sənədlər Təşkilat daxilində institusional əməkdaşlığın gücləndirilməsi və üzv dövlətlər arasında strateji koordinasiyanın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Beləliklə, Türküstanda keçirilən Qeyri-rəsmi Zirvə Görüşü Türk dünyasının *rəqəmsal transformasiyası, süni intellekt sahəsində əməkdaşlığın genişləndirilməsi və texnoloji imkanlardan davamlı inkişaf məqsədləri üçün birgə istifadəsi* istiqamətində yeni mərhələnin formalaşmasını nümayiş etdirir [641].

Azərbaycan ***2024-cü ildə də İslam Əməkdaşlıq Təşkilatı (İƏT)*** çərçivəsində üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdə davam edib. *Mayın 4-5-də* Qambiya Respublikasının paytaxtı *Bancul şəhərində* keçirilən ***İƏT*** ölkələrinin Dövlət və Hökumət başçılarının ***15-ci İslam Sammitində*** ilk dəfə olaraq keçmiş münaqişə zamanı indiki Ermənistan ərazilərindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətlə qayıtmaları dəstəklənmiş və ***2026-cı ildə İƏT-in 16-cı İslam Sammitinin*** Azərbaycanda keçirilməsi təsdiq edilmişdir. *29-30 avqust* tarixlərində Kamerun Respublikasının paytaxtı *Yaunde şəhərində* keçirilən ***İƏT Xarici İşlər Nazirləri Şurasının 50-ci sessiyasında*** *"Ermənistan Respublikasının Azərbaycan Respub-*

likasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması", "Xocalı qətliamının qurbanları ilə həmrəylik", "Azərbaycan Respublikasına iqtisadi yardım" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi olaraq Azərbaycan Respublikasının ərazilərində İslam dininə aid tarixi və mədəni abidələrin dağıdılması və təhqir olunması" adlı qətnamələr qəbul edilmişdir [548].

Dekabrın 3-ü 2024-cü ildə İranın *Məşhəd şəhərində* keçirilən ***İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT)*** Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasında ***Məşhəd Bəyannaməsi*** qəbul edilib və *2025-ci ildə İƏT-in 17-ci Sammitinin Azərbaycanda* keçirilməsi ilə bağlı qərara görə ölkəmizə minnətdarlıq ifadə olunub. *Noyabrın 15-də* Bakıda *İqtisadi Əməkdaşlıq Təşkilatı* və *BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO)* ilə birgə yaradılmış ***"Təmiz Enerji Mərkəzi"nin (CECECO)*** təntənəli açılışı olub. *2024-cü ildə* Azərbaycanda *İqtisadi Əməkdaşlıq Təşkilatına* üzv ölkələrin *1-ci Tur Operatorlarının Forumu (2-3 may) və Beyin Mərkəzlərinin III Forumu (4 oktyabr)* keçirilib.

2024-cü ilin martında Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Nazirlər Şurası 2024-2026-cı illər üçün sədrliyin Azərbaycan Respublikasına keçməsini təsdiqlədi və bu vəzifə *dekabrın 17-də* Azərbaycan tərəfindən rəsmi olaraq təhvil alındı. Azərbaycan Respublikasının sədrliyi *"Daha güclü AQEM, Asiyada əlaqəlilik, rəqəmsallaşma və dayanıqlı inkişaf"* mövzusu altında keçiriləcək və *2026-cı ildə isə AQEM üzv dövlətlərinin Zirvə toplantısı* ölkəmizdə təşkil olunacaq [548].

2024-cü il dekabrın 19-da Misirin paytaxtı *Qahirədə* keçirilən ***İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8)*** 11-ci Sammitində *Azərbaycan Respublikası* yekdilliklə *D-8 təşkilatına üzv* qəbul edilib. Azərbaycanın növbəti diplomatik qələbəsi olan D-8-ə üzv olması 1996-cı ildə yaradılan təşkilatın tarixində ilk genişlənmə-

dir və ölkəmizin artan nüfuzunun və geosiyasi mövqeyinin bariz nümunəsidir.

Azərbaycan ***2024-cü ildə Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın (GUAM)*** sədri statusunda milli və regional səviyyədə nəqliyyat, ticarət, gömrük, energetika, turizm, mina təhlükəsi, post-münaqişə dövründə bərpa və yenidənqurma, reinteqrasiya, eləcə də digər mühüm istiqamətlər üzrə tədbirlərdə iştirak edib.

2024-cü ildə Azərbaycan Respublikası ***Müstəqil Dövlətlər Birliyi (MDB)*** çərçivəsində üzv dövlətlərlə müxtəlif istiqamətlərdə, xüsusilə mədəniyyət, humanitar, elmi və digər sahələrdə əməkdaşlığı davam etdirmişdir. ***Prezident İlham Əliyev*** *oktyabrın 8-də Moskvada MDB Dövlət Başçıları Şurasının* iclasında iştirak etmişdir. İclasda *Laçın şəhəri 2025-ci ildə MDB-nin Mədəniyyət Paytaxtı* elan edilib. *Aprelin 11-12-də* Minskdə keçirilən iclasda *Gəncənin 2025-ci ildə MDB-nin İdman Paytaxtı* elan edilməsi barədə qərar qəbul edilib [548].

2024-cü il oktyabrın 24-də Kazanda keçirilən ***XVI BRICS Sammitinin "Outreach/BRICS+"*** formatının birinci plenar iclasında qeyd olunub ki, geostrateji coğrafi mövqeyə və müasir infrastruktura malik olan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilibdir. Azərbaycan ərazisindən *"Şərq-Qərb"* və *"Şimal-Cənub"* nəqliyyat dəhlizləri keçir. Hazırda 10 üzvü olan *BRICS 2006-cı ildə* təsis edilib. *2009-cu ildən BRICS* hər il rəsmi sammitlərdə toplanan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka, eləcə də dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddə birindən çoxunu təşkil edən böyük iqtisadi güc mərkəzinə çevrilib [651].

Azərbaycanın nüvə texnologiyalarından sülh məqsədi ilə istifadəsi sahəsində beynəlxalq əməkdaşlığa verdiyi önəm nəzərə alınaraq, ***2024-ci il sentyabrın 24-də Atom Enerjisi üzrə Beynəlxalq Agentlik*** *ilə 2024-2029-cu illər*i əhatə edən ***"Ölkə***

Çərçivə Proqramı" adlı sənəd imzalanıb. Bu sənəd nüvə enerjisindən istifadənin prioritet istiqamətlərində ölkələrimiz praktiki əməkdaşlığın inkişafına əhəmiyyətli töhfəsidir. Kimyəvi silahların qadağan edilməsi Təşkilatının kimya sənayesinin sülh məqsədlərilə istifadənin təşviqi kontekstində Azərbaycan bu təşkilatın nəzdində yaradılmış *Kimya Texnologiyaları Mərkəzinə* maliyyə yardımı edib. *Azərbaycan 2025-2027-ci illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına (ECOSOC) və 2025-2028-ci illər üçün BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinə (CESCR) üzv, iki il müddətinə BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransının (COP16) Mərkəzi və Şərqi Avropa regional qrupuna sədr və COP16 Bürosuna üzv, həmçinin 2025-2026-cı illər üzrə Qara Dəniz Ticarət və İnkişaf Bankına (QDTİB) vitse-prezident* vəzifəsinə seçilib [548].

2024-cü ildə mövcud çağırışların qarşısının alınması, o cümlədən, təhlükəsizlik, sabitlik və iqtisadi əməkdaşlığın gücləndirilməsi məqsədilə ikitərəfli və digər əməkdaşlıq formatları çərçivəsində görüşlərin keçirilməsi ölkəmizin regional əməkdaşlığa xüsusi önəm verdiyinin göstəricisidir. İl ərzində Azərbaycan *40 ölkə ilə ikitərəfli və çoxtərəfli* əsasda *204 sənəd* imzalayıb. 25 ölkənin Xarici İşlər Nazirlikləri ilə siyasi məsləhətləşmələr aparılıb, bir sıra ölkələr və Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılmasına dair *Anlaşma Memorandumu* imzalanıb. 2024-cü ildə Azərbaycan Respublikasının Tailand Krallığında (Banqkok) və Oman Sultanlığında (Maskat) diplomatik missiyaları fəaliyyətə başlayıb, iyulun 15-də isə İran İslam Respublikasındakı səfirlik fəaliyyətini bərpa edib. Bununla da Azərbaycan Respublikasının *xaricdəki diplomatik missiyalarının ümumi sayı 92-yə* çatıb (*69 səfirlik, 6 daimi nümayəndəlik, 9 baş konsulluq, 7 səfirlik və 1 təmsilçilik ofisi*). Vanuatu Respublikası Bakıda Baş Konsulluq

açmaq, Kuk Adaları isə diplomatik münasibətlər qurmaq üçün müraciət edib [548].

10-12 aprel 2025-ci il tarixlərində Türkiyə Respublikasının Prezidenti *Rəcəb Tayyib Ərdoğanın* dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti *İlham Əliyev* və birinci xanım *Mehriban Əliyeva* ***IV Antalya Diplomatik Forumunda*** iştirak etmək üçün Türkiyəyə işgüzar səfər etmişlər. Forumda qlobal çağırışlar və təhdidlər, eləcə də Yaxın Şərqdən Asiya və Sakit Okeana, Afrikadan Latın Amerikasına qədər geniş bir coğrafiyada iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma və süni intellekt kimi dünya gündəmində vacib olan məsələlər müzakirə edilmişdir [588].

4 iyul 2025-ci ildə Xankəndidə keçirilmiş ***İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə Görüşü*** xüsusi siyasi və geosiyasi əhəmiyyət daşıyırdı. Zirvə Görüşünün Xankəndidə keçirilməsi Qarabağın Azərbaycanın sosial-iqtisadi və diplomatik məkanına reinteqrasiyasını nümayiş etdirməklə yanaşı, regionun beynəlxalq və regional əməkdaşlıq proseslərinə fəal şəkildə cəlb olunması baxımından da mühüm hadisədir. *Zirvə Görüşü çərçivəsində Ağdamda Gənclər, Şuşada Biznes və Laçında Qadın Forumlarının* keçirilməsi tədbirin yalnız siyasi müzakirələrlə məhdudlaşmadığını, həm də iqtisadi, sosial və humanitar əməkdaşlığın müxtəlif aspektlərini əhatə etdiyini göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşünün açılış mərasimində qeyd etdiyi kimi: "Azərbaycan ECO Zirvə Görüşünə üçüncü dəfə ev sahibliyi edir. Əvvəlki ***Zirvə Görüşləri 2006 və 2012-ci illərdə Bakıda, 2025-ci ildə isə Xankəndidə*** keçirilmişdir". Xankəndidə keçirilən Görüşün əsas mövzusunun dayanıqlı iqtisadi inkişaf və iqlimə uyğun regional əməkdaşlıq olması azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma siyasəti ilə birbaşa uyğundur. Müasir nəqliyyat və kommunal infrastrukturun yaradılması, **"*ağıllı şəhər*" və "*ağıllı kənd*"** konsepsiyalarının tətbiqi, bərpaolunan enerji potensialın-

dan səmərəli istifadə və yaşıl enerji zonalarının formalaşdırılması Azərbaycanın Qarabağın gələcək inkişafını müasir, innovativ və dayanıqlı modellər əsasında qurmaq strategiyasını əks etdirir.

Bundan əlavə, *Zirvə Görüşü* Qarabağda nəqliyyat infrastrukturunun bərpası, regionun Azərbaycan iqtisadi məkanına inteqrasiyası və Cənubi Qafqazı daha geniş regional və beynəlxalq nəqliyyat şəbəkələrinə birləşdirən *Zəngəzur* istiqamətində kommunikasiya əlaqələrinin inkişafı perspektivləri baxımından vacibdir. Bu proses təkcə ticarət və tranzit imkanlarının genişləndirilməsi üçün deyil, həm də region dövlətləri arasında iqtisadi qarşılıqlı asılılığın və əməkdaşlığın gücləndirilməsi üçün şərait yarada bilər.

Şuşanın Qarabağı beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsində xüsusi rolu da diqqətəlayiqdir. ***Şuşanın 2026-cı ildə "ECO-nun Turizm paytaxtı"*** elan edilməsi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin təkcə bərpa və yenidənqurma məkanı kimi deyil, həm də beynəlxalq turizm, mədəniyyət və humanitar əməkdaşlıq məkanı kimi tanıdılması baxımından böyük əhəmiyyət kəsb edir. Bu qərar Şuşanın zəngin tarixi və mədəni irsinin beynəlxalq səviyyədə təşviqi, Qarabağın turizm potensialının təqdim edilməsi və ECO məkanında mədəni - turizm əlaqələrinin inkişafında regionun rolunun artırılması üçün əlavə imkanlar yaradır.

Beləliklə, ***Xankəndidə keçirilən 17-ci ECO Zirvə Görüşü*** Azərbaycanın *Qarabağa dair yeni siyasətinin üç əsas istiqamətini* açıq şəkildə nümayiş etdirir: *ərazilərin bərpası və yenidən qurulması, regional iqtisadi və nəqliyyat inteqrasiyasının gücləndirilməsi və Qarabağın beynəlxalq əməkdaşlıq və mədəni-humanitar əlaqələr məkanına çevrilməsi.* Bu baxımdan, Xankəndidə keçirilən *ECO Zirvə Görüşü* təkcə təşkilat daxilində növbəti yüksək səviyyəli görüş kimi deyil, həm də Azərbaycanın azad edilmiş ərazilərinin beynəlxalq və regional əməkdaşlıq məkanına inteqrasiyası siyasəti üçün mühüm siyasi və diplomatik plat-

formadır. Görüşün Xankəndidə keçirilməsi Qarabağın yeni inkişaf reallıqlarını beynəlxalq səviyyədə təqdim etmək, regional iqtisadi əlaqələri genişləndirmək və Azərbaycanın sülh, əməkdaşlıq və davamlı inkişaf gündəliyini təşviq etmək üçün əlavə imkanlar yaratmışdır [630].

19 iyul 2025-ci ildə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda keçirilən ***III Şuşa Qlobal Media Forumunun Xankəndidə*** keçirilməsi də xüsusi siyasi və simvolik əhəmiyyət daşıyır. İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq media və kommunikasiya tədbirlərinin təşkili Qarabağın yeni reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması ilə yanaşı, regionun informasiya, texnologiya və beynəlxalq dialoq məkanına çevrilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, ***III Şuşa Qlobal Media Forumu*** Azərbaycanın rəqəmsal diplomatiya və informasiya siyasətinin beynəlxalq səviyyədə təqdim edilməsi, eləcə də süni intellekt dövründə media dayanıqlılığı üzrə qlobal müzakirələrə töhfə verməsi baxımından mühüm platforma kimi qiymətləndirilə bilər. *Prezident İlham Əliyev* ***III Şuşa Qlobal Media Forumunda*** iştirak etmiş, Forumun iştirakçıları ilə görüşərək onların suallarını cavablandırmışdır. Forumda 52 ölkədən 140 nümayəndə, o cümlədən 30-a yaxın informasiya agentliyi və 80 media qurumunun təmsilçiləri iştirak etmişdir. Forumun əsas gündəliyini rəqəmsal transformasiya, süni intellektin informasiya və media mühitinə təsiri, media dayanıqlılığı, müstəqil jurnalistikanın inkişafı və informasiya təhlükəsizliyi kimi məsələlər təşkil etmişdir. Müzakirələrdə yeni texnologiyaların yaratdığı imkanlarla yanaşı, dezinformasiya, informasiya manipulyasiyası və rəqəmsal mühitdə etibarlı informasiya təminatı kimi çağırışların aktuallığı ön plana çıxarılmışdır.

13-14 iyul 2026-cı il tarixlərində Şuşada ***"Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yeni-***

dən qurulması” mövzusunda ***IV Şuşa Qlobal Media Forumu*** keçirilmişdir. Forumda 53 ölkədən 160 nümayəndə, o cümlədən 30 xəbər agentliyinin, 60-dan çox media qurumunun və 10 beynəlxalq təşkilat və təsisatın nümayəndələri iştirak etmişdir. Forum Azərbaycanın beynəlxalq media dialoqunun inkişafı və qlobal informasiya gündəliyinin müzakirəsi baxımından mühüm platformaya çevrilmişdir. Son dörd ildə keçirilən forumlarda ümumilikdə 81 ölkədən 600-ə yaxın media nümayəndəsinin iştirakı onun genişlənən beynəlxalq əhatə dairəsini nümayiş etdirir.

Əvvəlki illərdə müzakirə edilən və hazırda IV Forumda aktual olan məsələlərin sülhün və etimadın bərpası kontekstində davam etdirilməsi müasir informasiya mühitində medianın dəyişən rolunu nümayiş etdirir.

IV Şuşa Qlobal Media Forumunun işğaldan azad edilmiş Şuşa şəhərində keçirilməsi və beynəlxalq media nümayəndələrini bir araya gətirməsi şəhərin təkcə tarixi və mədəni bir məkan kimi deyil, həm də sülh, dialoq, beynəlxalq kommunikasiya və mədəni diplomatiya platforması kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Bu baxımdan, Forum postmünaqişə dövründə Azərbaycanın informasiya və ictimai diplomatiya siyasətinin mühüm alətlərindən biri hesab edilə bilər [688].

Xankəndidə ECO Zirvə Görüşü — iqtisadi və regional əməkdaşlıq, ***Şuşa Qlobal Media Forumları*** — informasiya və rəqəmsal əməkdaşlıq, Şuşa və digər şəhərlərdə beynəlxalq tədbirlər isə mədəni-humanitar diplomatiya istiqamətini formalaşdırır. Bu üç istiqamətin birləşməsi işğaldan azad edilmiş ərazilərin Azərbaycanın regional və beynəlxalq diplomatiyasının yeni platformalarına çevrilməsi prosesini göstərir [699].

8 avqust 2025-ci il tarixində ***Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan*** arasında keçirilmiş görüş zamanı tərəflər Cənubi Qafqazda sülhün və sabitliyin təmin edil-

məsi, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və regional əməkdaşlıq perspektivləri ilə bağlı məsələləri müzakirə etmişlər. Görüşün nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan ***Birgə Bəyannamə*** imzalamışlar.

Vaşinqton Görüşü çərçivəsində Azərbaycan ilə ABŞ arasında strateji münasibətlərin inkişafında da mühüm addım atılmışdır. *Prezident İlham Əliyev və Prezident Donald Tramp* Azərbaycan Respublikası ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu imzalamışdırlar. Bu sənəd iki ölkə arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığı daha sistemli və uzunmüddətli çərçivəyə salmaq baxımından əhəmiyyətlidir.

Görüşün digər mühüm nəticəsi Azərbaycan-Ermənistan sülh prosesində əldə edilən irəliləyişlə bağlı idi. Belə ki, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan ***"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş"*** layihəsini paraflamışlar. Bundan əlavə, iki ölkənin xarici işlər nazirləri ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalamışlar. Müraciətdə ATƏT-in Minsk Prosesinin bağlanması, Minsk Konfransında müzakirə olunan münaqişə üzrə şəxsi nümayəndəsi institutunun və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması məsələsi öz əksini tapmışdır.

Yekun olaraq, ***Vaşinqton Görüşünün nəticələrini*** üç əsas istiqamətdə ümumiləşdirmək olar:

1. Azərbaycan-Ermənistan sülh prosesinin irəliləməsi və sülh müqaviləsi layihəsinin paraflanması;

2. Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində yeni institusional çərçivəyə keçirilməsi;

3. Cənubi Qafqazda yeni regional təhlükəsizlik və əməkdaşlıq arxitekturasının formalaşdırılması.

Beləliklə, *Vaşinqton Görüşü* regional sülhün təşviqi, ABŞ ilə strateji əməkdaşlığın genişləndirilməsi və Cənubi Qafqazda yeni geosiyasi reallıqların möhkəmləndirilməsi baxımından Azərbaycanın xarici siyasətində mühüm hadisə hesab olunur [589].

Prezident İlham Əliyev 20 yanvar 2026-cı ildə Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel müzakirəsindəki çıxışında Azərbaycan-Ermənistan arasındakı sülh prosesinə toxunaraq bildirib ki, iki ölkə arasında sülh müqaviləsinin paraflanması otuz ildən çoxdur davam edən münaqişə və qarşıdurmaya son qoymaq baxımından tarixi əhəmiyyət kəsb edir. Onun fikrincə, əldə edilən razılaşma təkcə iki dövlət arasında münasibətlərin normallaşdırılması baxımından deyil, həm də Cənubi Qafqazda davamlı sülh və regional əməkdaşlıq üçün yeni imkanlar yaratmaq baxımından mühüm mərhələdir. Respublika Prezidenti çıxışında son hərbi münaqişədən iki ildən az müddət sonra sülh müqaviləsinin paraflanmasını tərəflərin siyasi iradəsinin və sülhə sadiqliyinin mühüm nəticəsi kimi qiymətləndirirdi. İlham Əliyevin yanaşmasına görə, əldə edilən razılaşmanın əhəmiyyəti təkcə onun siyasi və hüquqi sənədində deyil, həm də Azərbaycan-Ermənistan münasibətlərində əməkdaşlıq elementlərinin formalaşmasında özünü göstərən praktik nəticələrindədir. Azərbaycan Prezidenti İlham Əliyev sülhün iqtisadi və sosial dividendlərinə xüsusi diqqət yetirərək, Azərbaycanın Ermənistana neft məhsullarının göndərilməsini münasibətlərdə yeni mərhələnin praktik nümunəsi kimi göstərdi. İki-üç il əvvəl belə addımların təsəvvür edilməsinin çətin olduğunu vurğulayan Prezident bildirdi ki, hazırkı proses Azərbaycan və Ermənistan arasında qarşılıqlı faydalı əməkdaşlığın mümkünlüyünü nümayiş etdirir.

Bu yanaşma Azərbaycan-Ermənistan münasibətlərində ***"qarşıdurmadan əməkdaşlığa keçid" modelinin*** formalaşdığını göstərir. Burada sülh təkcə hərbi əməliyyatların dayandırılması kimi deyil, həm də iqtisadi əlaqələrin bərpası, qarşılıqlı etimadın formalaşması və cəmiyyətlərin sülh prosesinə cəlb olunması yolu ilə davamlı xarakter qazanan bir proses kimi nəzərdən keçirilir.

Prezident İlham Əliyevin mövqeyindəki digər mühüm məqam cəmiyyətlər tərəfindən sülhün qəbul edilməsi zərurətidir: "Fikrimcə, əlavə görəcəyimiz işlər ondan ibarətdir ki, hər iki tərəf sülhdə yaşamağın nəticələrini göstərməlidir ki, biz də bu proses çərçivəsində cəmiyyətlərimizin tam dəstəyinin şahidi ola bilək". Bu baxımdan, iqtisadi əməkdaşlığın və qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi sülhün möhkəmləndirilməsinin vacib mexanizmlərindən biri kimi çıxış edir.

Beləliklə, İlham Əliyevin ***Davos İqtisadi Forumundakı*** çıxışında Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələnin üç əsas komponenti diqqət çəkir:

• *siyasi-hüquqi komponent - sülh müqaviləsinin paraflanması və dövlətlərarası münasibətlərin normallaşdırılması;*

• *iqtisadi komponent - qarşılıqlı ticarət və iqtisadi əməkdaşlığın başlanması;*

• *sosial komponent - cəmiyyətlər tərəfindən sülhün qəbul edilməsi və davamlı qarşılıqlı etimadın formalaşdırılması.*

Bu baxımdan, sülh prosesinin nəticəsi yalnız Azərbaycan və Ermənistan arasında dəyişən münasibətlərlə məhdudlaşmır; o, həm də Cənubi Qafqazda yeni regional əməkdaşlıq modelinin formalaşması üçün imkan yaradan amil kimi ön plana çıxır [686].

Azərbaycan-Ermənistan münasibətlərində münaqişədən sülhə və əməkdaşlığa keçid prosesinin beynəlxalq səviyyədə tanınmasının mühüm göstəricilərindən biri ***4 fevral 2026-cı ildə Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənis-***

tanın Baş naziri Nikol Paşinyanın "Zayed İnsan Qardaşlığı Mükafatı"na birgə layiq görülməsi olmuşdur. Mükafatın əsasını təşkil edən sülh, həmrəylik, mərhəmət, qarşılıqlı hörmət və ortaq insani dəyərlər prinsipləri Azərbaycan-Ermənistan sülh prosesinin mahiyyəti ilə uzlaşır. Bu baxımdan, mükafatın iki ölkənin liderlərinə təqdim edilməsi sülh prosesinin təkcə siyasi və hüquqi aspektlərini deyil, həm də onun humanitar və mənəvi əhəmiyyətini də vurğulayır.

"Zayed İnsan Qardaşlığı Mükafatı", həmçinin Azərbaycanın xarici siyasəti baxımından da xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin sülh prosesindəki rolunun beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi Azərbaycanın Cənubi Qafqazda sülhün, sabitliyin və əməkdaşlığın təmin edilməsinə yönəlmiş siyasətinin diplomatik müstəvidə tanınmasının göstəricilərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev *"Zayed İnsan Qardaşlığı Mükafatı"nın* təqdimat mərasimindəki çıxışında Azərbaycan-Ermənistan sülh prosesinin digər münaqişələr üçün də nümunəvi əhəmiyyət kəsb etdiyini vurğulamışdır. Prezident qeyd etmişdir ki, "uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, ... hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür". Onun fikrincə, Azərbaycan-Ermənistan təcrübəsi hələ də münaqişə vəziyyətində olan tərəflər üçün öyrənilə bilən və müəyyən mənada ***"yol xəritəsi"*** funksiyası daşıyan ***model*** kimi nəzərdən keçirilə bilər [622].

Azərbaycan Respublikası dünyada sülhün, təhlükəsizliyin və davamlı inkişafın təmin edilməsinə və bu kontekstdə beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığa öz töhfəsini verməyi davam edir.

Müasir qloballaşma şəraitində Prezident İlham Əliyevin fəaliyyətinin əsasını ölkəmizə qarşı siyasi və iqtisadi təzyiqə yol

verilməməsinə, ikili standartların fəsadlarının azaldılmasına, regional təlükəsizliyin, sülhün və əminamanlığın reallaşdırılmasına, qarşılıqlı əməkdaşlığın inkişafına yönəlmiş ardıcıl, cəsarətli və dərin düşünülmüş mübarizə təşkil edir [610]. Müstəqil Azərbaycan Respublikasının xarici siyasəti nəticəsində dünya birliyində öz mövqeyini daha da möhkəmləndirmiş, yeni müttəfiq ölkələr qazanmış, beynəlxalq və regional təşkilatlarda iştirakını, onlarla əməkdaşlığını daha da intensivləşdirmiş, iqtisadi potensialına görə Cənubi Qafqaz regionunda lider dövlətə çevrilmişdir. O, dünya birliyinin sayılan dövlətlərindən biri olmuşdur.

III BƏND:

Ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə. II Qarabağ (Vətən) müharibəsi və onun nəticələri

Plan:

1.II Qarabağ müharibəsi – Azərbaycanın hərb tarixinin şərəfli Zəfər salnaməsidir.
2. 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri.
3.Ermənistanın Azərbaycanda törətdiyi humanitar fəlakət.
4. II Qarabağ müharibəsi və beynəlxalq reaksiya.
5. Prezident İlham Əliyevin Azərbaycan dövlətinin milli maraqlarına əsaslanan müstəqil siyasəti.
6. Şəhid ailələri və qazilərə dövlət və ümumxalq qayğısı.
7.Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri və "Böyük Qayıdış" proqramı. WUF13.

1. II Qarabağ müharibəsi – Azərbaycanın hərb tarixinin şərəfli Zəfər salnaməsidir

30 illik bir müddət idi ki, Azərbaycan ərazisinin 20%-nə nəzarətin itirilməsi ilə üzləşmişdir, çünki Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əraziləri (keçmiş "Dağlıq Qarabağ" ərazisi və 7 qonşu rayonu) Rusiyanın dəstəyi ilə Ermənistan və Qarabağın silahlı erməni dəstələri tərəfindən işğal edilmişdir. Azərbaycan rəhbərliyi beynəlxalq normalara və dövlətdaxili qanunvericiliyə uyğun yetərli səbəbləri olmasına baxmayaraq, Qarabağ problemini hərbi yolla həll etməyə tələsmirdi. Lakin, bu münaqişənin həlli məsələsinə beynəlxalq birliyin laqeyd və ikili standartlardan yanaşması Azərbaycanı ***2020-ci il 27 sentyabr-10 noyabr*** tarixlərində ***İkinci Qarabağ müharibəsində*** döyüş meydanında hərb yolu ilə, siyasi müstəvidə danışıqlar yolu ilə öz ərazi bütövlüyünün bərpasına məcbur etdi.

İkinci Qarabağ müharibəsindən əvvəl, bu tarixi qələbəmizə gedən yolun keçdiyi ***2016-cı ilin Aprel döyüşlərində*** Azərbaycan Ordusunun düşmənin növbəti təxribatına layiqli cavab verməsi nəticəsində bir sıra mühüm strateji əhəmiyyətli mövqelərin, o cümlədən, Cəbrayıl rayonunun Ermənistanın işğalından azad edilmiş *Cocuq Mərcanlı* kəndi yaxınlığındakı *"Lələtəpə" yüksəkliyinin* Azərbaycanın nəzarətinə keçməsi Respublika Prezidenti İlham Əliyevin qeyd elədiyi kimi, bir daha sübut etdi ki, "... biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik ... *Aprel döyüşləri* də növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa edəciyik və bərpa etməliyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz işğal altında olan bütün torpaqlarımıza qayıdacayıq. Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir və tarixə düşdü. Əgər erməni silahlı qüv-

vələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasa, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaq ... biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!" [59, s. 38-39]. Ali Baş Komandan Prezident İlham Əliyev ön xəttdə əsgərlər qarşısında çıxış edərək dediyi bu sözlərlə Ermənistan dövlətinə ciddi və qəti xəbərdarlıq etdi və 44 günlük ***İkinci Qarabağ savaşında*** xalqa verdiyi vədi rəhbərliyi altında həyata keçirilən düzgün siyasi və hərbi taktika və Müzəffər Azərbaycan Ordusu ilə xalqın birliyi sayəsində yerinə yetirdi.

Azərbaycanın xarici siyasəti bu münaqişəni dinc siyasi-diplomatik yolla həll etməyə yönəlmişdir. Lakin, münaqişənin həlli üçün real beynəlxalq siyasi mexanizm olmadığı təqdirdə, ümummilli Lider Heydər Əliyevin və Respublika Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan dövləti ərazi bütövlüyünü bərpa etmək, milli maraqları reallaşdırılmaq kimi məqsədlərə çatmaq üçün dövlətin gücünün (o cümlədən, hərbi) bütün imkanlarından istifadə etməyə hazırdır [170, s. 374-375].

2020-ci il 12-23 iyul tarixlərində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq yenə Azərbaycanın dövlət sərhədinin Tavuş mərzi, Tovuz rayonu (Dondar Quşçu, Ağdam, Vahidli, Yuxarı Öysüzlü, Aşağı Öysüzlü, Əlibəyli, Hacallı, Muncuqlu, Koxanəbi, Əsrik Cırdaxan, Ağbulaq kəndləri) və Gədəbəy rayonu (Göyəli, Zamanlı kəndləri) əraziləri boyunca yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində, general-mayor ***Polad Həşimov İsrayıl oğlu*** kimi şəhidlik zirvəsinə yüksələn 7 qəhrəman döyüşçülərimizin şücaəti və mərdliyi sayəsində Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısı alındı.

2020-ci il avqust ayında Ermənistan dövləti Azəbaycana *diversiya qrupu* göndərməklə növbəti hərbi təxribata əl atdı. Azərbaycana terror aktları törətmək üçün göndərilmiş bu təxri-

batçı diversiya qrupunun rəhbəri Azərbaycan hərbçiləri tərəfindən saxlanıldı [517].

Ermənistan dövləti tərəfindən törədilən təxribatlar, eyni zamanda, Ermənistan rəhbərliyinin verdiyi bəyanatlarda da öz əksini tapırdı. Belə ki, Ermənistanın baş naziri *Nikol Paşinyanın 2019-cu ildə* işğal edilmiş Xankəndidə *"Qarabağ Ermənistandır və nöqtə"* deməyi, *2020-ci il sentyabr ayının 19-da* "Novosti-Armeniya" qəzetinin verdiyi məlumata görə qondarma *"Dağlıq Qarabağ respublikası" parlamentinin* qədim Azərbaycan şəhəri - *Şuşaya* köçürülməsi haqqında qərar qəbul etməsi, hərbi-siyasi rəhbərliyinin Azərbaycana qarşı yeni ərazilər uğrunda işğalçılıq siyasəti aparması bir daha sübut edirdi ki, Ermənistan danışıqlar prosesinin hər vasitə ilə pozulmasına çalışır və buna da nail olurdu [87, s. 36-37].

Cari ilin ***sentyabr ayının 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*** xalqa müraciətində buna münasibətini qəti olaraq bildirdi: ***"Qarabağ Azərbaycandır və nida işarəsi.*** Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır ... Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq ... Ermənistanın əsas məqsədi danışqıları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, ***status-kvo qəbul edilməzdir*** və bu, o deməkdir ki, işğala son qoyulmalıdır" [517].

27 sentyabr 2020-ci il tarixində saat ***06:00*** radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Mülki əha-

li arasında, ordu sıralarında həlak olanlar və yaralananlar var idi, xalqımıza həm maddi, həm də mənəvi zərər vurulurdu. Azərbaycan Milli Ordusunun uğurlu əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikası məhv edildi, ***2020-ci il sentyabr-oktyabr*** aylarında Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Yuxarı Güzlək, Gorazıllı, Qaradağlı, Xatunbulaq, Qarakollu, Arış, Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dəbəli kəndləri***, Füzuli şəhəri (17 oktyabr)***, ***Xudafərin körpüsü*** (***18 oktyabr***), Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar, Mehdili, Çaxırlı, Aşağı Maralyan, Yuxarı Maralyan, Cəfərabad, Mahmudlu, Şəybəy, Quycaq, Horovlu, Çərəkənd, Şükürbəyli, Karxulu, Decal, Şıxəli Ağalı, Sarıcalı, Mərzə, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı, Daşkəsən, Doşulu, Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri, ***Cəbrayıl şəhəri (19 oktyabr)*** və müxtəlif istiqamətlərdəki bir neçə strateji yüksəkliklər, Murov dağ silsiləsinin Murov zirvəsi, Tərtərin Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliklər, Talış, Çaylı kəndləri, Ağdərə istiqamətində ***Suqovuşan (Madagiz)*** ətrafındakı yüksəkliklər, Xocavənd rayonunun Sur, Bulutan, Məlikcanlı, Kəmərtürk, Təkə, Tağaser, Edişə, Düdükçü, Edilli, Çiraquz, Xırmancıq, Ağbulaq kəndləri, Hadrut qəsəbəsi işğaldan azad edildi. *2020-ci il oktyabrın 4-də* Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan rəhbərliyinə: "Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan ... Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram ... Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracam ... Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə və bu cədvəli

vasitəçi ölkələr olan Minsk qrupunun həmsədrləri təsdiq etməlidirlər. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik"- deyə həm Azərbaycan dövlətinin, həm də xalqının şərtlərini bildirdi [673].

Azərbaycan Respublikasının Konstitusiyasının III maddəsində qeyd edilir: "Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir..." [146, maddə III]. Həmçinin, Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan etmək (lazım olduqda) səlahiyyətinə malikdir (maddə 109, bölmə 30) [539, maddə 109].

Ermənistan Respublikasının növbəti-***2020-ci il 27 sentyabr*** təxribatı nəticəsində erməni silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən pozaraq müxtəlif növ silah-sursatdan, o cümlədən, ağır artilleriyadan Azərbaycanın müxtəlif yaşayış məntəqələrinə və hərbi mövqelərinə atəş açdığını, mülki şəxslər və hərbiçilər arasında ölən və yaralananlar olduğunu, bu hücumların qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını nəzərə alaraq, Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qərar qəbul etdi:

"Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərini (keçmiş "Dağlıq Qarabağ" bölgəsi və ətraf 7 rayon) işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqə-

dar ***2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilsin"*** [626].

Beləliklə, Prezident İlham Əliyevin *28 sentyabr 2020-ci il tarixdə imzaladığı Sərəncama əsasən Azərbaycan Respublikasında* ***hərbi vəziyyət, komendant saatı, müharibə vəziyyəti və qismən səfərbərlik*** *elan edildi.*

04.11.2020-ci il tarixində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etdi [643, s. 1343]. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edirdi. Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov *noyabrın 4-də* Hərbi İnformasiya Mərkəzində keçirdiyi brifinqdə verdiyi məlumata əsasən Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrimizin qəti cavab tədbirləri nəticəsində şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edildi. Aparılan əməliyyatlar nəticəsində düşmənin 10-cu dağatıcı və 37-ci atıcı diviziyaları, 2-ci motoatıcı, 5-ci dağatıcı və 543-cü alayları ordumuzun ağır zərbələrindən sonra ciddi itkilərə məruz qalmışdır. Gün ərzində düşmənin alay komandiri, tabor komandiri, snayper qrupu və tank heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 tankı, 3 topu, 1 pilotsuz uçuş aparatı, 3 hərbi yük maşını, "Zastava M-55" tipli zenit qurğusu və şəxsi heyətlə dolu UAZ markalı avtomobili məhv edilmişdir [643, s. 1337]. Noyabrın 6-sı gün ərzində və 7-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutmuşdur. ***07.11.2020-ci il*** tarixində Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilmişdir ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəb-

hənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edirdi. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilmişdir. Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən 178-ci ələhidə kəşfiyyat taboru da döyüşlərdə ölü və yaralı olaraq şəxsi heyətinin yarısını itirmişdir [643, s. 1241-1242]. ***07.11.2020-ci il*** tarixində verilən məlumata əsasən Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir [643, s. 1231]. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ağdam istiqamətindəki döyüşlərdə Ermənistanın 37-ci atıcı diviziyanın 4-cü motoatıcı alayının müdafiə sahəsindəki minaatan batareyasına endirilən artilleriya zərbələri nəticəsində düşmən itki verərək mövqelərini tərk etmişdir. Alayın gücləndirilməsi məqsədilə buraya gətirilən və içərisində könüllülər olan avtobus qəzaya uğramışdır. Nəticədə 30 nəfərədək ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin xəsarət aldığı məlum olmuşdur. 62-ci artilleriya briqadasının 4-cü reaktiv divizionunun atəşə tutulması nəticəsində bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılmış, şəxsi heyət arasında ölən və yaralanan vardı [643, s. 1220].

08.11.2020-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, Azərbaycan Ordusu Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan ***Şuşanı*** işğaldan azad edib. Demək olar ki, İkinci Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı [643, s. 1158]. Şuşa şəhərinin erməni işğalından azad edilməsi elə Qarabağın azad edilməsi demək idi. Əsas strateji hədəf kimi Şuşanın azad edilməsi üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz cənub istiqamətində işğal olunmuş torpaqları

azad edərək müxtəlif istiqamətlərdə əks-hücuma keçməli idi [635]. Beləliklə, Ağdam, Tərtər və Kəlbəcər istiqamətində aparılan döyüşlərin əsas məqsədi Şuşa şəhərinin azad edilməsi üçün lazımi şəraitin yaradılması idi.

İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki Məmmədbəyli, Şərifan, Muğanlı, Tiri və Mincivan sərhəd zastavaları üzərində artıq Azərbaycan Respublikasının dövlət bayrağı dalğalanır. AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verirdi ki, bu münasibətlə keçirilən tədbirdə Azərbaycanın dövlət himni səsləndirilmiş, şəhidlərin xatirəsi yad olunmuşdur. Bildirilmişdir ki, Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi Azərbaycan Respublikasının dövlət sərhədlərinin təhlükəsizliyinin təminatı üçün son dərəcə vacib hadisə idi və hər bir Azərbaycan sərhədçisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Qeyd olunmuşdur ki, *sentyabrın 27-dən bu günədək 218 kənd və qəsəbənin*, Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli şəhərlərinin, bu gün isə Şuşa şəhərinin düşmən tapdağından azad edilməsi Müzəffər Ali Baş Komandanı olan Azərbaycan Silahlı Qüvvələrinin, qüdrətli Prezidenti olan Azərbaycan dövlətinin, müdrik və qətiyyətli lideri olan Azərbaycan xalqının böyük qələbəsidir [643, s. 1149]. Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir [643, s. 1105]. Müdafiə nazirinin ***10 oktyabr 2020-ci il*** tarixli döyüş sərəncamı ilə Qarabağ bölgəsində aparılan əks-hücum əməliyyatlarında iştirak etmələri üçün göndərilmiş ***Xüsusi Təyinatlı Qüvvələrin*** tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında yerləşən ***Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin*** tərkibindən 300 nəfər və sonrakı mərhə-

lədə 160 nəfər döyüşçünün Şuşa şəhərinin erməni işğalından azad olunmasında və böyük Zəfərin əldə olunmasında misilsiz xidmətləri olmuşdur. Şuşa zəfərinin əldə olunmasında Hadrut qəsəbəsinin işğaldan azad olunması xüsusi əhəmiyyət kəsb edirdi. *Oktyabrın 12-dən etibarən* Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Qüvvələri *Hadrut qəsəbəsi* istiqamətində gedən döyüş əməliyyatlarına qoşuldular. Xüsusi Təyinatlı Qüvvələr iki qrupa bölündülər: Birinci dəstə *Füzuli-Xocavənd* istiqamətində, ikinci dəstə isə *Hadrut-Şuşa* istiqamətində döyüşə qatıldı. ***Oktyabrın 17-də Füzuli şəhərinin*** işğaldan azad edilməsi cəbhənin cənub hissəsindəki qoşunlarımızın şimala - *Şuşa-Laçın* istiqamətində hərəkətə keçməsinə imkan verdi. Azərbaycan Silahlı Qüvvələrinin bir hissəsi *Cəbrayıl-Zəngilan-Qubadlı* istiqamətində, ikinci hissəsi *Hadrut-Qırmızı Bazar* istiqamətində, üçüncü hissəsi isə Hadrutdan qərbdə yerləşən meşəlik və dağlıq ərazidən hücuma keçib *Şuşa-Laçın* istiqamətində irəliləməyə başladı. Azərbaycan Silahlı Qüvvələrinin *Cəbrayıl-Zəngilan-Qubadlı* istiqamətində irəliləyərək Laçına çıxması və *Laçın-Şuşa yolunu* nəzarət altına alması Şuşanın azad edilməsi planının tərkib hissəsi idi. Ermənistan silahlı qüvvələri Azərbaycan hərbi qüvvələrinin *Hadrut-Qırmızı Bazar yolu* ilə (bu yol Şuşaya aparan yeganə yol idi) Şuşaya doğru irəliləyəcəyini gözləyirdilər və yol boyu nəzarət etdikləri bütün strateji yüksəkliklərdə müdafiə sistemləri qurmuşdular. Ermənistan hərbi rəhbərliyi Azərbaycan Silahlı Qüvvələrinin *Füzuli-Cəbrayıl* istiqamətində, ərazinin düzənlik hissəsində hərəkət edərək *Hadrut-Qırmızı Bazar yolu* ilə irəliləyəcəyini güman edirdi. ***Oktyabrın 20-də Zəngilanı*** işğaldan azad edən Azərbaycan Silahlı Qüvvələri Araz çayı boyunca Ermənistan sərhədi ilə şimala - *Laçın* istiqamətində irəlilədilər. ***Oktyabrın 21-də*** xüsusi təyinatlıların bir hissəsi *Hadrut-Qırmızı Bazar* yolunun şərqində yerləşən *Yuxarı Yağlıvənd-Divanalılar* kəndləri arasındakı *strateji yüksəklikləri* azad etdi. 160 nəfərlik xüsusi tə-

yinatlı dəstəyə 52 nəfər də qoşuldu. *Oktyabrın 23-24-də* xüsusi təyinatlılar *3 kənd və 13 strateji yüksəkliyi*, ***oktyabrın 25-də isə Qubadlı*** şəhərini erməni qəsbkarlarından azad etdilər. Oktyabrın axırlarında Milli Ordumuzun hissələrinin bir hissəsi çətin relyefli əraziləri aşaraq Şuşa ətrafında mövqe tutdu. ***Noyabrın 2-də*** Qubadlı rayonunun Laçın yolunun 12 km-də yerləşən bir neçə kəndinin azad edilməsi ilə ***Laçın-Şuşa yolunun*** ordumuzun nəzarəti altına alınması imkanı yarandı. Ermənistan hərbi rəhbərliyi Azərbaycan Milli Ordusunun bölmələrinin hücumunun əsas istiqaməti kimi məhz bu yolu seçmək fikri ilə çıxış edirdi. Çünki Şuşaya gedən digər yol - *Hadrut-Qırmızı Bazar yolu* Ermənistan silahlı qüvvələrinin ciddi nəzarəti altında idi. Azərbaycan hərbi komandanlığı *Laçın* istiqamətində gərginliyi saxlayaraq *Hadrut-Qırmızı Bazar* istiqamətində erməni silahlı birləşmələri ilə döyüşə girərək yolsuz, meşəlik və dağlıq ərazilərdən Şuşaya doğru irəliləmək qərarını verdi. Azərbaycan Milli Ordusunun xüsusi təyinatlıları və digər qüvvələri düşmənin qəfil yaxalanması üçün yalnız süngü-bıçaqla və yüngül silahlardan istifadə etməklə belə çətin relyefdən keçərək hücumun sürətini qoruyub qısa müddətdə Şuşa şəhərinə çatmalı idi. Hadrutdan Şuşaya gedən yolda, çətin relyefə malik olan bu ərazilərdə Müdafiə Nazirliyinin Mühəndis-İstehkam Qoşunlarının qüvvələri döyüşçülərimizin irəliləməsi üçün qısa zaman ərzində yolları təmizləyərək böyük fədakarlıqlar göstərdilər. Ermənistan hərbi rəhbərliyi isə ordumuzun Şuşaya tamam başqa istiqamətdən irəliləməsini gözləyirdi. Hələ *noyabrın 1-də Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri* 31 texnika ilə Sınıx kəndi istiqamətində irəliləyərkən maşınların səsini eşidən Ermənistan silahlı qüvvələri onları atəşə tutdular. Böyük Tağlar, Taqaverd və Çanaxçı istiqamətlərində ermənilər tərəfindən qurulmuş pusqular, Meştaqlar adlı ərazidə *"Cəhənnəm dərəsi"* adlanan yerdə və *Çanaxçı kəndi* yaxınlığında təşkil olunan mühasirələr Azərbaycan Milli Ordusunun xüsusi təynatlı və digər qüvvələrinin qəhrəmanlıqla Şuşaya doğru irəliləməsinin

qarşısını ala bilmədi. Üç qrupa bölünən *xüsusi təyinatlılar* meşəlik və dağlıq ərazilərdən irəliləyərək *Daşaltı kəhdini* azad etməli, orada yerləşən erməni silahlı birləşmələrini məhv etməli və *Laçın-Şuşa yolunu* nəzarətə götürməli idilər. Bununla da, Ermənistan və Ermənistan silahlı qüvvələri arasında əsas əlaqə yolu kəsilmiş olur və Şuşaya əlavə qüvvələrin yeridilməsinin qarşısı alınırdı. Belə ki, *Daşaltı kəndini* azad etmədən Şuşaya qalxmaq mümkün deyildi. Bunun üçün kəndə gedən yol boyu *1431 və 1553 saylı hakim yüksəklikləri* tutmaq lazım idi. Ermənistan silahlı qüvvələri tərəfindən mühasirəyə alınan *xüsusi təyinatlı taborlar* 4 saat ərzində *1553 saylı yüksəkliyin* zirvəsinə sürünərək *noyabrın 2-də səhər saatlarında* bu yüksəkliyi ələ keçirdilər. Ermənilərin əks-hücumunun qarşısı bu yüksəklikdə dayanan kəşfiyyat bölüyünün döyüşçüləri tərəfindən alındı. Bolüyün şəxsi heyətinin 60%-dən çoxu ***şəhid*** oldu. *Noyabrın 4-də Daşaltı kəndi ətrafındakı bütün yüksəkliklər* ordumuz tərəfindən ələ keçirildi, ***noyabrın 5-də isə Daşaltı kəndi*** düşməndən azad edildi. Həmin gün *Laçın-Şuşa yolu* ilə xüsusi təyinatlılar Şuşa şəhərinə bir az da yaxınlaşdılar. ***Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsində*** aparılan döyüşlərin zirvəsi sayıla bilərdi, çünki, Şuşanın işğaldan azad edilməsi zamanı əsgərlərimizin üzləşdiyi çətinlik təkcə coğrafi və relyef baxımından deyildi, həm də respublika Prezidenti İlham Əliyevin göstərişinə əsasən Şuşa şəhərinin memarlıq incilərini, tarixi abidələrini top atəşi ilə məhv etməmək üçün, artilleriya atəşi, raket və hava zərbələrinin vurulmasına icazə verilmirdi [101, s. 215-216.]. *Noyabrın 5-də* Şuşa şəhərinə hücum günü çoxlu sayda erməni silahlı qüvvələrinin Şuşa ətrafına gətirilməsinin qarşısını almaq üçün *Tərtər, Ağdərə və Ağdam istiqamətlərində* gərgin döyüşlər aparıldı. *Noyabrın 6-da Şuşa yaxınlığında* şiddətli döyüşlər gedirdi. Şəhərin bütün girişləri güclü müdafiə sistemi ilə qorunur, Azərbaycan Silahlı Qüvvələrinin şəhərə doğru bütün istiqamətlərdə hərəkət etdiyi şəhərlərdə çoxlu sayda erməni silahlı qüvvələri və texnikası yerləşdi-

rilirdi. Buna görə də Azərbaycan hərbi rəhbərliyi ən mühüm zərbə istiqaməti kimi ***Şuşa şəhərinin*** ətrafındakı *sıldırım qayaları* seçdi. Böyük risk və təhlükəyə baxmayaraq, xüsusi təyinatlılar bu sıldırım qayalara qalxıb Şuşa şəhərini müdafiə edən düşmən qüvvələrin arxasına keçib hücum etməli idilər. Xüsusi hazırlıq və məharət nümayiş etdirən ***Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri*** Şuşa ətrafındakı meşələrdə gizlənən düşmən qüvvələrinə, o cümlədən beş saat ərzində şəhər daxilində, xüsusilə şəhər qəbiristanlığı ətrafında müdafiə olunan erməni silahlı birləşmələrinə zərbə endirərək onların müqavimətini qırdılar və *noyabrın 6-da Laçın-Şuşa yolunu və Xankəndi-Şuşa yolunu* nəzarət altına aldılar. Şuşa şəhərinə əlavə Ermənistan silahlı qüvvələrinin və zirehli texnikasının gətirilməsinin qarşısı alındı. ***Noyabrın 7-də*** Gündüz Səfərlinin komandanlığı ilə xüsusi təyinatlı dəstənin şəxsi heyəti Ermənistan silahlı qüvvələrinə ağır zərbələr endirərək ***Şuşa şəhəri icra hakimiyyətinin binası*** üzərindən Ermənistan bayrağını yerə ataraq, ***şəhidlərin adları yazılmış Azərbaycan bayrağını*** dalğalandırdılar, sonra *Azərbaycanın dövlət himni səsləndirildi və azan səsi* eşidildi [101, s. 219-220]. Erməni qüvvələri *7-9 noyabr* tarixlərində boyük qüvvələrlə şəhərə hücumlar etdilər**,** lakin qəhrəman Azərbaycan Ordusu və Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Qüvvələri şəhidlər versələr də, ölüm mələyi kimi 3-4 nəfərlik qruplar halında qəfil hücuma keçərək, erməni qəsbkarları ilə tapança və bıçaqla əlbəyaxa döyüşüb ***8 noyabr 2020-ci il*** tarixində ***Şuşa şəhərini*** azad edərək müasir hərb tarixinə yeni səhifə yazdılar.

09.11.2020-ci il tarixində Müzəffər Azərbaycan Ordusu ***48 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi*** – Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini,

Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şüküraz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etdi [643, s. 1103, 1105].

30 ilə yaxın müddətdə səbr göstərən xalqımız nəhayət ***Qələbə*** çaldı. ***Noyabrın 10-u*** ölkəmiz üçün tarixi bir gün oldu. Rəşadətli Azərbaycan Ordusunun döyüşlərdə əldə etdiyi ***Zəfər*** Ermənistanı masa arxasında oturmağa məcbur etdi. Nəhayət Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyənat imzaladılar. Bu sənəd Ermənistanın məğlubiyyətinin açıq etirafı olaraq yaddaşlara həkk olundu. İmzalanmış bəyanat bizim şanlı qələbəmizdir.

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları əyan etdilər: 1. ***10 noyabr 2020-ci il*** tarixində Moskva vaxtı ilə *saat 00.00-dan etibarən* Qarabağın münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar. 2. ***20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu*** Azərbaycan Respublikasına qaytarılır. 3. Keçmiş "Dağlıq Qarabağ"da təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. 4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müd-

dəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır. 5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır. 6. Ermənistan Respublikası ***15 noyabr (lakin 25 noyabrda təhvil verildi) 2020-ci il*** tarixinədək Azərbaycan Respublikasına ***Kəlbəcər rayonunu***, ***1 dekabr 2020-ci il*** tarixinədək isə ***Laçın rayonunu*** qaytarır. Azərbaycanın Qarabağ iqtisadi rayonunun əraziləri ilə (keçmiş "Dağlıq Qarabağ"la) Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq. *Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.* Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Azərbaycanın Qarabağ iqtisadi rayonunun əraziləri ilə, yəni keçmiş "Dağlıq Qarabağ"la Ermənistan arasında əlaqəni təmin edən *Laçın dəhlizi* üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. 7. Daxili məcburi köçkünlər və qaçqınlar keçmiş "Dağlıq Qarabağ"ın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. 8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir. 9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan

Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir [643, s. 1083].

Bəyanatda ən önəmli məqam ondan ibarətdir ki, burada keçmiş "***Dağlıq Qarabağ"a hər hansı statusun verilməsindən söhbət getmirdu*** və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunurdu. Bu, Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur. Artıq qoşunların təmas xətti anlayışı yoxdur. Atəşkəs hazırda Ermənistan və Azərbaycan silahlı qüvvələrinin yerləşmə məntəqələri ilə müəyyən olunur. *Rusiya və Türkiyə silahlı qüvvələri sülhməramlı statusda* məhdud kontingentlə ərazi yə yerləşdirilir. *Türkiyə və Rusiya arasında Qarabağda atəşkəsə nəzarət üzrə ortaq mərkəzin yaradılması haqqında razılaşma haqqında* videokonfrans formatında *memorandum* imzalandı: atəşkəsə birgə nəzarət mərkəzi tərəflərin atəşkəsə əməl etməsi və əldə olunmuş razılaşmaları pozan digər hərəkətlər barədə məlumat toplayacaq və yoxlayacaq; Mərkəz, həmçinin vizual müşahidə, pilotsuz uçuş aparatları vasitəsilə pozuntuları qeydə almalıdır və digər mənbələrdən alınan məlumatları qiymətləndirməlidir; Mərkəz əldə edilmiş razılaşmaların pozulması ilə bağlı şikayət, sual və ya problemlə məşğul olan orqana çevriləcək; bu Mərkəzdə sülhün qarantı kimi Türkiyə və Rusiya hərbçiləri birgə fəaliyyət göstərəcəklər.

Xalq-Ali Baş Komandan, xalq-ordu birliyi üzərində qurulan ***Zəfər yürüşü*** ilə Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasının bir qismini də uğurla icra etdi. Ümumilikdə, hərbi kampaniya dövründə ***5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər*** işğaldan azad olundu.

Noyabrın 8-də 28 illik həsrətdən sonra ***Şuşa şəhərinin*** işğaldan azad edilməsi Azərbaycan xalqı üçün həm siyasi, həm də mənəvi əhəmiyyət kəsb edir. Belə ki, hərbi ekspertlərin, elə ermənilərin özlərinin də dediyi kimi, ***"kim Şuşaya nəzarət edirsə, Qarabağa da o nəzarət edir"*** [643, s. 1081]. ***10 noyabr*** parlaq

və qürurlu gün kimi Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə daxil oldu. Neçə illərdir xalqımız bu tarixi ədalətin təntənəsini gözləyirdi. 44 günlük Vətən müharibəsi və tarixi qələbəmiz Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə təxminən 28 il kağız üzərində qalmışdır. Nəhayət, Azərbaycan bu tarixi ədaləti öz gücü ilə bərpa etdi! Azərbaycan öz torpaqlarını erməni işğalından azad etmək üçün qeyri-adi müharibə apardı. Əvvəla, beşinci nəsil müharibəsi kimi səciyyələnən İkinci Qarabağ müharibəsi ildırım sürəti ilə getdi. Döyüşlər zamanı Azərbaycan Ordusu daim hücumda oldu və heç vaxt geri çəkilmədi. Yeni strategiya və taktikalar tətbiq edən, yeni silah növlərindən istifadə edən Azərbaycan Ermənistan silahlı qüvvələrinə çaxnaşma saldı və onları kütləvi şəkildə qaçmağa məcbur etdi. Milli Ordumuz ***PUA***-ların zərbələrindən istifadə etməklə düşmənin ənənəvi müdafiə və hücum vasitələrini, artilleriya və reaktiv yaylım atəş sistemlərini, bütün növ zirehli texnikasını yerindəcə məhv edərək, onların hücuma keçməsinin qarşısını aldı. Azərbaycan erməni birləşmələrinin ön cəbhə ilə arxa cəbhəsi arasında əlaqəni kəsərək, arxa mövqelərdən silah, sursat, canlı qüvvə, ərzaq və digər yardımların gətirilməsinin qarşısını aldı. Düşməni gözləmədiyi yerdən, düşünmədiyi silahlarla vuraraq bütün müdafiə sistemlərini və vasitələrini zərərsizləşdirdi, Ermənistan silahlı qüvvələrini psixoloji cəhətdən iflic etdi, rəzil və qorxaq vəziyyətə saldı. Ən mühüm məqam ondan ibarət idi ki, xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun uğurlarını izləyir, ona hər gün dəstək olurdu. Vətəndaşlar ***"Salam, əsgər!"*** sözləri ilə başlayan məktublarda əsgərlərin işğal olunmuş bütün torpaqları xilas edəcəyinə inandıqlarını, evlərinə qalib və sağ-salamat qayıtmalarını xahiş edirdilər. Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın məğrurluğundan, igidliyindən, qorxmazlığından bəhs edərək bildirmişdir: "Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın in-

sanını itirib, yenə də deyir ki, ***Vətən sağ olsun. Ancaq irəli, irəli!*** Mənə yazılan məktublarda deyilir, ***Ali Baş Komandan, irəli!"*** Azərbaycan Ordusunun cəbhədəki uğurlarını, Azərbaycan Prezidentinin dünyanın aparıcı televiziya kanallarına verdiyi müsahibələri və müraciətlərini diqqətlə izləyən xarici ölkələrdə yaşayan soydaşlarımız Respublika Prezidentinə, Ali Baş Komandan İlham Əliyevə göndərdikləri məktublarda: "Dövlətimizə, xalqımıza bu haqq işində, şərəfli mübarizədə zəfər arzulayır və daim bütün gücümüzlə başda Siz olmaqla Azərbaycan dövlətinin, ordusunun yanındayıq ... ***Dünya azəbaycanlıları yekdilliklə Sizin arxanızdadır*"** yazırdılar. Qarabağın azadlığı naminə günü-gündən güclənən və heç bir zaman bugünkü tarixi yekdilliyə çatmayan ***milli həmrəylik*** Azərbaycanı ***Böyük Qələbəyə*** apardı. Bu uğur, bu qələbə uğrunda Vətən övladlarımız son nəfəsə qədər vuruşdular, şəhid oldular. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində Azərbaycan Müdafiə Nazirliyinin *2021-ci il iyunun 2-dək* açıqladığı siyahıya əsasən *2900 nəfər şəhid* olmuş və *14 nəfər itkin* düşmüş hesab edilir [536]. Vətən müharibəsindən sonra Respublika Prezidenti İlham Əliyev tərəfindən *Zəfər təltifləri* adını almış orden və medalların təsis olunması və on minlərlə hərbi qulluqçunun mükafatlarla: *"Zəfər" və "Qarabağ" ordenləri, "Vətən Müharibəsi Qəhrəmanı" adları, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə"* medallarla təltif edilməsi Vətən müharibəsi iştirakçılarına – şəhidlərə, qazilərə, hərbi qulluqçulara və könüllülərə dövlətin, xalqın yüksək etimadının nümunəsidir. Ali Baş Komandan, Respublika

Prezidenti İlham Əliyevin: "Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. *Eşq olsun bizim əsgərlərimizə!*" – sözləri ordumuza göstərilən yüksək etimadın bariz nümunəsidir.

Öz tarixi torpaqlarının bütövlüyü uğrunda canlarından keçməyə daim hazır olan Azərbaycan əsgəri öz şərəf və ləyaqəti ilə qələbəyə çatdı. ***10 dekabr 2020-ci ildə*** keçirilən ***Zəfər paradı*** Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə ehtiva edərək böyük mənəvi əhəmiyyətə malikdir. Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitləri də iştirak etmişdir, eyni zamanda, 150-dək müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Vətən müharibəsində qənimət kimi ələ keçirilmiş Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın bir qismi, onların nömrələri yerləşdirilmiş "KamAz" markalı maşın nümayiş etdirilmiş və Şuşa şəhərində qəhrəman Azərbaycan əsgərləri tərəfindən qaldırılan ***Zəfər bayrağı*** da parada gətirilmişdir. *Zəfər paradını Azərbaycan Silahlı Qüvvələrinin* ***Ali Baş Komandanı, Prezident İlham Əliyev*** və fəxri qonaq *Türkiyə Respublikasının Prezidenti* ***Rəcəb Tayyib Ərdoğan*** qəbul etmişdir. Bu bir daha xalqımıza, Türk dünyasına, beynəlxalq ictimaiyyətə, eləcə də düşmənə və onun havadarlarına ***"bir millət, iki dövlət"*** ifadəsinin reallığını, Azərbaycan-Türkiyə qardaşlığını, hərbi tərəfdaşlığını göstərən xüsusi bir mesaj idi. *Zəfər paradı* ***"Ən böyük əsgər, bizim əsgər!", "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ Azərbaycandır!"*** şüarları ilə əllərində Azərbaycan bayrağı tutaraq paradda iştirak edən ordumuzu, əsgərlərimizi alqışlayan bugünkü və vətənpərvər ruhunda böyüyən gələcək nəsillər üçün qürur və qəhrəmanlıq mənbəyidir. ***Zəfər paradı*** Azərbaycan

dövlətinin, xalqının və ordusunun birliyinin, həmrəyliynin bariz nümünəsi oldu.

VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİNİN ŞƏHİDLİK ZİRVƏSİNƏ YÜKSƏLƏN MƏZUNLARI:

1. Qasımov Orxan Rizvan oğlu (21.01.1996-27.09.2020)
2. Paşayev Samir Adışirin oğlu (07.10.1999-29.09.2020)
3. Məmmədov Elmir Arzu oğlu (03.06.1999-27.09.2020)
4. Qurbanov Davud Tariyel oğlu (15.02.1996-03.10.2020)
5. Ələsgərov Mətləb Vüqar oğlu (18.07.1999-09.10.2020)
6. Məmmədov Əlihüseyn Elşad oğlu (24.01.1998-09.10.2020)
7. Gözəlov Murad Zabil oğlu (12.05.1995-05.11.2020)
8. Cabbarov Şahgündüz Habil oğlu (13.01.1995-26.10.2020)
9. Cəfərov İbrahim Şamil oğlu (13.01.1998-07.11.2020)
10. Vəlizadə Kamran Əkbər oğlu (14.09.1996-11.11.2020)
11. Solntsev Dmitri Aleksandroviç (15.04.1995-24.10.2020)
12. Rəfiyev Ülvi Rəfail oğlu (16.08.1996-25.10.2020)
13. Məmmədov Rövşən Müşfiq oğlu (29.10.1995-24.10.2020)
14. Həsənli Alı Nofəl oğlu (22.06.1995-21.10.2020)
15. Rəhimli Orxan Rəşid oğlu (28.04.1994-16.11.2020)
16. İbrahimli Məhəmmədəli Mütəllim oğlu (22.11.1996-15.12.2020)
17. Həsənov Cavid Mikayıl oğlu (06.03.1993-24.10.2020)
18. Əliyev Camal Xaliq oğlu (11.08.1993-02.11.2020)
19. Fərhadlı Fərhad Vüqar oğlu (08.12.1993-21.10.2020)
20. Kərimov Asif Məmməd oğlu (12.02.1989-03.11.2020)
21. Nəsibov Asəf Səfəralı oğlu (25.02.1994-29.10.2020)
22. Rəsulov Teymur Yavuz oğlu (23.03.1988-18.10.2020)
23. Ağabəyov Oktay Baxşəli oğlu (22.11.1987-01.11.2020)

2. 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri

44 günlük Vətən Müharibəsi Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan ***İlham Əliyevin*** rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatsa da, Azərbaycan və Ermənistan sərhədlərində vaxtaşırı silahlı toqquşmalar baş verirdi. İlk silahlı toqquşmalar ***2021-ci ilin noyabrında*** baş verdi. ***2022-ci ilin sentyabrında*** sərhəddə baş verən silahlı münaqişə hər iki tərəfdən 300-dən çox insanın ölümünə səbəb oldu. ***2023-cü ildə*** müşahidə olunan silahlı toqquşmalar əvvəlcə mart ayında *Şuşa* istiqamətində, daha sonra ***aprel-may*** aylarında sərhəddə baş vermişdir. *10 noyabr 2020-ci il* tarixində imzalanan üçtərəfli bəyanata zidd olaraq Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı birləşmələri üçün Ermənistandan canlı qüvvə, silah-sursat, mina və digər hərbi sursat və texnikanın daşınmasının qarşısının alınması məqsədilə, ***2023-cü il aprelin 22-də*** isə Azərbaycanla sərhəddə Laçın-Xankəndi yolunun girişində Ermənistan tərəfindən birtərəfli nəzarət buraxılış məntəqəsinin yaradılmasına cavab olaraq ***2023-cü il aprelin 23-də saat 12:00-da*** Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında ***"Laçın" nəzarət buraxılış məntəqəsi*** yaradıldı [614].

Ermənistan silahlı qüvvələrinin növbəti dəfə Azərbaycan hava məkanından uçan sərnişin təyyarələrinin, məsələn, *sentyabrın 18-də Tbilisi-Bakı marşrutu* üzrə uçan "Azərbaycan Hava Yolları"na məxsus E-190 sərnişin təyyarəsinin GPS naviqasiya sistemlərinə qarşı *radiomaneələr* istifadə etmə səbəbindən saat 20:28-dən 20:34-dək GPS naviqasiya sistemlərində fasilə yaranmışdır [568].

Azərbaycan Müdafiə Nazirliyindən bildirilmişdir ki, ***sentyabrın 18-də saat 23:50 radələrində*** Rusiya sülhməramlı kon-

tingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvləri Azərbaycan Ordusunun *Ağdam rayonu* istiqamətində yerləşən mövqelərini atəşə tutmuşdular [566].

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, *sentyabrın 19-da saat 01:00 radələrində Füzuli rayonu* ərazisində baş vermiş ağır yol-nəqliyyat hadisəsi zamanı avtomobilin aşması nəticəsində *DİN-in 3 polis əməkdaşı* hadisə yerində həyatını itirib, *6 polis əməkdaşı* isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır [564]. *Sentyabrın 19-da saat 02:40-da* Ermənistan silahlı qüvvələrinin bölmələri Krasnoselo bölgəsinin *Cil qəsəbəsi* istiqamətində yerləşən mövqelərindən Gədəbəy rayonunun Novoivanovo qəsəbəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini bir neçə dəfə atəşə tutmuşdular [567].

Növbəti rəsmi məlumata görə, *sentyabrın 19-da saat 04:00 radələrində Xocavənd rayonunda* minik avtomobilinin aşması nəticəsində sürücü və sərnişin hadisə yerində həyatını itirmişdir [565]. *Sentyabrın 19-da* içərisində Daxili İşlər Nazirliyinin polis əməkdaşlarının olduğu "KamAZ" markalı avtomobil *Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonu ərazisində*, 58-ci km-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) əməkdaşlarının ölümü ilə nəticələnən terror hadisəsi baş verdiyi yerə doğru hərəkət edən zaman səhər *saat 04:30* radələrində *Xocavənd rayonunun Taqaverd kəndi* yaxınlığında yeni tikilmiş tunel istiqamətində sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı birləşmələrinin diversiya qrupunun yerləşdirdiyi minaya düşmüşdür [566].

Sentyabrın 19-da saat 11:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Ağdam rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri mi-

naatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində ordumuzun iki əsgəri yaralanmışdır [569].

Azərbaycan Müdafiə Nazirliyi ***sentyabrın 19-da saat 13:00-da*** Azərbaycanın Konstitusiya quruluşunu bərpa etmək məqsədi ilə ***Qarabağda antiterror tədbirlərinə*** *başlandığı* barədə rəsmi bəyanat yaydı. Bəyanatda qeyd olunur ki, "Azərbaycan Müdafiə Nazirliyi tərəfindən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyannamənin müddəalarına zidd olaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirməsi regional sülhə ciddi təhlükədir" [568]. Eyni zamanda bildirilmişdir ki, *Ağdam rayonu* istiqamətində yerləşən mövqelərimiz artilleriya qurğularından atəşə tutulmuşdur.

Gərgin döyüşlərin davam etdiyi saatlarda Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayaraq mülki əhalinin hədəf alınmadığını və dəqiq silahlardan istifadə etməklə yalnız leğitim hərbi hədəflərin məhv edildiyini qeyd edib [568]. Həmin gün keçirilən brifinqdə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri *Anar Eyvazov* bildirib ki, Azərbaycan Ordusunun hərbi əməliyyatlardan əvvəlki mövqelərinin son bir neçə ayda atəşə tutulması ilə bağlı Rusiya Sülhməramlı Kontingentinin Komandanlığı və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi məlumatlandırılmışdır [570]. Brifinqdə döyüş əməliyyatlarının ilk günündə *Ermənistan silahlı qüvvələrinin 60-dan çox döyüş mövqeyinin* nəzarətə götürüldüyü, *90-dan çox döyüş maşını, artilleriya qurğusu, minaatan və digər hərbi texnikanın* zərərsizləşdirilməsi də bildirilmişdir [571].

Sentyabrın 20-də növbəti dəfə səhər saatlarında Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri *Anar Eyvazov* keçirdiyi brifinqdə çıxış edərək, Azərbaycan Ordusunun bölmələri tərəfindən *Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus 7 hərbi nəqliyyat vasitəsi, 4 minaatan, 2 piyada döyüş maşını (PDM) və xeyli sayda silah-sursatın* qənimət kimi götürüldüyü haqda məlumat verdi [573]. Azərbaycan bir daha Ermənistan

silahlı qüvvələrinin bölmələrini silahı yerə qoymağa və təslim olmağa çağırdı. Hərbi əməliyyatların aparıldığı bölgədə Azərbaycan tərəfindən erməni dilində məlumat vərəqələri paylanmış, səsgücləndiricilər vasitəsilə həm silahlılara, həm də mülki əhaliyə müraciətlər edilmişdir [572]. *Anar Eyvazov* onu da bildirdi ki, Azərbaycan Ordusu *Ermənistan silahlı qüvvələrinin yerləşdiyi 90-dan çox döyüş mövqeyinə*, eləcə də bir neçə strateji əhəmiyyətli ərazilərə nəzarət edir [573].

Sentyabrın 20-də saat 13:00-da Azərbaycan Müdafiə Nazirliyi *hərbi əməliyyatların dayandırılması* ilə bağlı məlumat yaydı. Məlumatda bildirilirdi ki, Qarabağın erməni əhalisinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq, ***2023-cü il sentyabrın 20-də saat 13:00-da*** müəyyən edilmiş şərtlər əsasında ***antiterror əməliyyatlarının dayandırılması*** barədə razılıq əldə olunub. Şərtlərə görə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində yerləşən bölmələri, qeyri-qanuni erməni silahlı birləşmələri silahı yerə qoymalı, döyüş mövqelərini və hərbi postları tərk etməli, Ermənistan silahlı qüvvələrinin bölmələri isə Azərbaycanın ərazisini tərk etməli, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı, paralel olaraq bütün silah-sursat və ağır texnika təhvil verilməli və bütün bu proseslərin Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilərək aparılması təmin edilməlidir [573].

Sentyabrın 20-də Rusiya Federasiyası Müdafiə Nazirliyi Ağdərə rayonunun *Canyataq kəndi* istiqamətində Rusiya sülhməramlı kontingentinə məxsus "UAZ Patriot" markalı avtomobilin atəşə tutulması nəticəsində sülhməramlı qüvvələrin həlak olması barədə məlumat yaymışdır. Azərbaycan Müdafiə Nazirliyi, o cümlədən Respublika Prezidenti İlham Əliyev Rusiya sülhməramlı kontingentinin 5 hərbçisinin Qarabağda həlak olması ilə əlaqədar üzrxahlıq ifadə etmiş və dərin hüznlə başsağlığı vermişdir. Hadisəni törədən şəxslər barəsində hərtərəfli araşdırma aparılacağı və günahkarların müvafiq cəzalar alacaqları vurğu-

lanmışdır. Azərbaycan Prezidenti həm də həlak olanların ailələrinə maddi yardım göstərməyə hazır olduğunu bəyan etmişdir [574].

Antiterror tədbirləri zamanı *Müdafiə Nazirliyinin 180 hərbçisi* həlak olmuşdur [575]. Həmçinin hərbi əməliyyatlar zamanı *Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12 hərbi qulluqçusu* şəhid olmuşdur [576]. Bildirilmişdir ki, *11 nəfərin şəxsiyyəti* müayinələrdən sonra müəyyənləşəcək. Səhiyyə Nazirliyi antiterror əməliyyatları zamanı ümumilikdə *511 hərbçinin yaralandığını* bildirib [657]. Allah Şəhidlərimizə rəhmət eləsin!

2023-cü il 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən həyata keçirilən uğurlu *lokal antiterror tədbirləri* nəticəsində ***Azərbaycan Respublikasının suverenliyi tam bərpa olundu.***

Yevlax görüşü (21 sentyabr). Azərbaycan Prezidentinin Administrasiyası sentyabrın 21-də Yevlaxda Qarabağın erməni əhalisinin nümayəndələri ilə görüşün keçiriləcəyini bildirmişdir. *Sentyabrın 21-də saat 9:00 radələrində* Qarabağın erməni əhalisinin nümayəndələri görüş üçün Yevlax şəhərinə gəldilər. Görüşdə Azərbaycan tərəfini Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisi ilə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov və Azərbaycan Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilər (Şuşa rayonu istisna olmaqla) üzrə xüsusi nümayəndəsinin müavini *Bəşir Hacıyev* və xüsusi nümayəndəliyin üzvü *İlkin Sultanov* təmsil edirdilər. Qarabağın erməni əhalisinin nümayəndələrini isə *Sergey Martirosyan və David Melkumyan* təmsil edirdilər. Görüşdə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri, kontr-admiral Oleq Semyonov da iştirak edirdi. Saat 11:30-dan 13:30 radələrinədək davam edən görüşdə Azərbaycan Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası və digər məsələlər müzakirə olundu. Reinteqrasiya üzrə planlar *Ramin Məmmədov* tərəfindən təqdim edildi [577]. Lakin danışıqlar zamanı heç bir nəticə əldə edilmədi.

Xocalı görüşü (25 sentyabr). Tərəflərin növbəti görüşü sentyabrın 25-də Xocalı şəhərində baş tutdu. Görüşdə Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisi ilə təmaslar üzrə məsul şəxs *Ramin Məmmədov* və Qarabağ bölgəsinin erməni əhalisinin nümayəndələri iştirak etdilər. Prezident Administrasiyasından verilən məlumata görə, sentyabrın 21-də Yevlax şəhərində keçirilən müşavirədə məsələlərin həlli, xüsusilə, humanitar yardımın göstərilməsi, yanacaq və enerji təchizatının qısa müddətdə bərpası istiqamətində addımların atılması razılaşdırıldı. Ramin Məmmədov növbəti mərhələdə həyata keçiriləcək tədbirlər barədə məlumat verdi. Bildirildi ki, bəzi yaşayış məntəqələrində tənha qalan erməni əsilli qocalara tibbi yardım göstərilib və onlar tibb işçilərinin nəzarəti altındadırlar. Həmin şəxslərin Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri tərəfindən qarşılanacağı və onların ailə üzvlərinə və ya müvafiq tibb müəssisələrinə təhvil veriləcəyi müzakirə olundu. Sosial, humanitar və iqtisadi məsələlərin həlli məqsədilə Azərbaycan Respublikası Baş Nazirinin müavini *Şahin Mustafayevin* rəhbərliyi ilə işçi qrupunun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək üçün ərazidə, o cümlədən *Xankəndi şəhərində* səhiyyə və digər fəaliyyətlərlə məşğul olan aidiyyəti nümayəndələrlə görüşünün keçirilməsinə və birgə işçi qrupunun yaradılmasına dair razılıq əldə edildi. Görüş zamanı *Xankəndi* şəhəri yaxınlığında və ya *Xocalı* istiqamətində tikintisi planlaşdırılan səhra xəstəxanasında Azərbaycan və Ermənistan tibb personalı tərəfindən birgə tibbi xidmətin göstərilməsi, həmçinin Azərbaycan və Ermənistan hərbçiləri tərəfindən mobil ərzaq təminatı xidmətinin yaradılmasına dair danışıqlar aparıldı. Görüşdə Azərbaycan tərəfi ağır xəstəliyi olan və ya xüsusi cərrahi əməliyyata ehtiyacı olan şəxslərə lazımi tibbi yardım göstərməyə hazır olduğunu bildirdi. Eyni zamanda, ucqar yaşayış məntəqələrində tənha və tibbi yardıma ehtiyacı olan insanlara xidmət göstərən Azərbaycan və Ermənistan tibb işçilərindən ibarət səyyar birgə tibb briqadalarının formalaşdırılması-

nın vacibliyi vurğulandı. Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli vətəndaş cəmiyyəti nümayəndələrinin və ictimai fəalların Bakıya və ya Azərbaycanın digər şəhərlərinə səfərlərinin nəzərdə tutulduğu vurğulandı və bu cür təşəbbüslərin vətəndaş cəmiyyəti dialoq platforması yaradılması, eləcə də etimad tədbirlərinin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi bildirildi [667].

Yevlax görüşü (29 sentyabr). Sentyabrın 29-da Yevlaxda Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalinin nümayəndələri ilə keçirilən növbəti görüşdə humanitar məsələlər, Qarabağın erməni əhalisinin reinteqrasiyası və Azərbaycanın təqdim etdiyi reinteqrasiya planı ətraflı müzakirə olundu. Erməni əhalisinin nümayəndələri humanitar yardımın göndərilməsinə, yanacaq və ərzaq ehtiyaclarının ödənilməsinə görə Azərbaycan tərəfinə təşəkkür etdilər. Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalinin nümayəndələri Xankəndi şəhəri yaxınlığında baş vermiş yanğın zamanı Azərbaycanın aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlərə, xüsusilə yanğının söndürülməsi və zərərçəkənlərə tibbi yardımın göstərilməsi üçün zəruri tibbi ləvazimatların, dərman vasitələrinin və təcili tibbi yardım nəqliyyat vasitələrinin hadisə yerinə yola salınmasına görə xüsusi minnətdarlıqlarını bildirdilər. Azərbaycanın aidiyyəti dövlət qurumlarına mobil rabitə və teleradio yayımı xidmətlərinin bərpası ilə bağlı tədbirlər görülməsi tapşırıldı. Qarabağın erməni əhalisi ilə təmaslar üzrə müəyyən edilmiş şəxs *Ramin Məmmədov* reinteqrasiya prosesi ilə bağlı prosedurlar və sosial xidmətlər haqqında məlumat verdi. Bildirildi ki, Qarabağ bölgəsində sosial, humanitar və iqtisadi məsələlər üzrə yaradılmış işçi qrupunun üzvləri kommunal, təsərrüfat və digər məsələlərin yerindəcə həlli məqsədilə *oktyabrın 2-də Xankəndi* şəhərinə səfər etməyi planlaşdırır [578].

Sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az - ***23 saat 43 dəqiqə*** çəkdi. Peşəkarlıq və

qəhrəmanlıq nümayiş etdirən Azərbaycan Ordusu qısa müddətdə bütün strateji məntəqələrdən keçərək bu əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. O, nəinki təslim oldu, hətta 30 il əvvəl torpağımızda yaratdıqları qondarma rejim də devrildi. ***2023-cü il noyabr ayının 8-də*** Respublika Prezidenti İlham Əliyev Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr edilmiş hərbi paradda çıxışı zamanı demişdir: "Beləliklə, biz tarixi ədaləti bərpa etdik. ***20 sentyabr 2023-cü il*** bizim tariximizdə qalacaq, necə ki, ***8 Noyabr***. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik. ***Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını*** qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır" [684].

"Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir" – deyən ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*** Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ***2023-cü il sentyabrın 20-də*** Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq, *19 sentyabr 2024-cü ildə* ***"Hər il sentyabrın 20-nin Azər-***

baycan Respublikasının Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsi haqqında Sərəncam imzaladı [549].

21 dekabr 2023-cü il tarixində *Azərbaycan kubokunun 1/8 final mərhələsi* zirvəsində işğaldan azad edilmiş *Xankəndi* rayonunun stadionunda ***Ağdamın "Qarabağ" və Bakının "MOİK"*** futbol komandaları ilk dəfə qarşılaşdılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyunu izləmək üçün stadiona gəldilər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Stadionda oyundan əvvəl Prezident İlham Əliyev çıxış edərək dedi: "İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. ***Xankəndi qədim Azərbaycan diyarıdır...*** Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar... Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, ***bizim tarixi, əzəli torpağımızdır.*** Bu torpaqların ***sahibləri bizik, Azərbaycan xalqıdır.*** Biz buraya qayıtmalı idik və qayıtmışıq. Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. ***Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir!*** Bugünkü oyunda ***"Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ – Ordu – Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.***

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, ***Qarabağ Azərbaycandır!*** Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq!" [703].

"Artıq ölkəmizdə separatizm və etnik qarşıdurma təhlükəsi sıfırlanıb. Ərazilərimiz işğaldan tam azad edilib, sərhədlərimiz bütövləşib. Azərbaycan suveren ərazilərində qanunun aliliyinin təmin edilməsində üçüncü qüvvələrin yardımına ehtiyac duymur. Artıq müstəqil Azərbaycan dövlətinin suveren ərazilərində yad ölkələrin heç bir hərbi birləşməsi olmayacaq"-deyərək ***Prezident İlham Əliyev*** öz qətiyyətli mövqeyini bildirdi. ***2024-cü il aprelin 17-də*** Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bəyan etdi ki, "2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş *Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması* barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib" [659]. Rusiya sülhməramlılarının Azərbaycanın Qarabağ bölgəsindən çıxarılması regionda mövcud reallıqlara uyğundur. ***2024-cü il aprelin 18-dən*** başlayaraq *Rusiya sülhməramlılarının* Qarabağı vaxtından əvvəl tərk etməsindən sonra ***aprelin 26-da*** Ağdamda fəaliyyət göstərən *Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi* də fəaliyyətini dayandırdı.

3. Ermənistanın Azərbaycanda törətdiyi humanitar fəlakət

Azərbaycanın tarix boyu müəyyən zamanlarda torpaq itkilərinə, humanitar fəlakətlərə və böyük dağıntılara məruz qalması böyük dövlətlərin Qafqaz uğrunda apardıqları mübarizənin bilavasitə və dolayı nəticəsidir. Rusiyanın himayəsi və bilavasitə iştirakı ilə Ermənistanın işğal etdiyi ərazilər: Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əraziləri, yəni keçmiş "Dağlıq Qarabağ" bölgəsi və onun ətrafındakı 7 rayon -

Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, rəsmi sənədlərdə 20 %-ə qədər ərazi kimi göstərilsə də, işğal zonasına yaxın yaşayış məntəqələrində normal həyat şəraitinin və təsərrüfat fəaliyyəti ilə məşğul olmaq imkanlarının olmadığını nəzərə alsaq, Azərbaycan ərazisinin 25 %-ə qədəri Ermənistanın təcavüzünün nəticələrini hiss etməkdə idi. Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlər Azərbaycan üçün ilk növbədə böyük insan itkiləri və iztirablarla müşayiət olunan humanitar fəlakət səviyyəsində ciddi problemlər yaratmışdır. Azərbaycan üçün ən böyük itki onun vətəndaşları oldu: *20 mindən çox şəhid və 50 min yaralı* (bir çoxu ömürlük əlil olaraq qaldı), *5 minə yaxın əsir və itkin düşmüş insan* [87, s. 162]. Əsrlər boyu azərbaycanlıların yaşadıqları Ermənistan ərazisindən və işğal olunmuş torpaqlardan 1 milyondan çox azərbaycanlı qovulmuş, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilmişdir.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın tarixi-mədəni sərvətlərinə də böyük ziyan dəymişdir. işğal olunmuş ərazilərdə yerləşən 907-dən çox yaşayış məntəqəsi, 100 min yaşayış binası, 1000-dən çox sənaye və kənd təsərrüfatı obyektləri, 600-dən çox məktəb və təhsil müəssisələri, 250 tibb məktəbi, memarlıq abidələrinin çoxu talan edildi və ya məhv edildi [95, s. 246]. Ermənistanın işğalı altında olan bölgələrdə 500 tarixi-memarlıq və 100-dən çox memarlıq abidəsi, 9 tarixi saray, eksponatları ilə birlikdə 22 muzey, fondlarında 40 mindən çox qiymətli əşya saxlanılan 4 incəsənət qalereyası var idi [87, s. 157-158.]. Bundan əlavə, işğalçılar 280 min hektar meşələri, 1 milyon hektara yaxın münbit torpaqları, 1200 km suvarma sistemini ələ keçirmişdilər. İşğalçılar 220 min baş mal-qaranı aparmışdılar. Qarabağ müharibəsinə qədər Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədəri işğal olunmuş zonalara yaxın, normal iqtisadi fəaliyyətin mümkünsüz olduğu ərazilərdə istehsal olunurdu.

Ermənistanın işğalı altında olan Qarabağın torpağından və təbii ehtiyatlarından istifadə edilməməsi səbəbindən müharibə zamanı və ondan sonrakı dövrdə Azərbaycan Respublikasının zərəri 60 milyard ABŞ dolları təşkil etmişdir. Bu, respublikanın hazırkı dövlət büdcəsindən 12 dəfə çoxdur [87, s. 162].

Ermənistan dövlətinin Azərbaycanda törətdiyi humanitar fəlakət İkinci Qarabağ müharibəsi dövründə də davam etdi. Azərbaycan Ordusunun qüvvələrindən fərqli olaraq Ermənistan terrorçu silahlı qüvvələri mülki əhalinin sıx yaşadığı şəhər və kəndləri ***"Toçka-U", "Smerç", "Skad"*** və digər raketlərlə atəşə tutması nəticəsində mülki şəxslər arasında çoxlu sayda ölən və yaralananlar olmuşdur. Azərbaycan Moskvada əldə olunmuş ***2020-ci il oktyabrın 10-u saat 12.00-dan etibarən humanitar atəşkəs*** rejiminə əməl etsə də, Ermənistan mülki əhaliyə qarşı vandalizm aktı törətməkdə davam edirdi. Təmas xəttindən uzaqda yerləşən ***Gəncə şəhəri*** *oktyabrın 11-də gecə saat 2 radələrində* Ermənistan dövlətinin Vardenis rayonundan ortamənzilli ballistik *"SKAD"* raketi ilə [616] atəşə tutulması nəticəsində 10 dinc sakin həlak olmuşdur, 34 nəfər yaralanmışdır.

Beynəlxalq təşkilatlar hərbi cinayətlər törədən və mülki əhalini atəşə tutan Ermənistan dövlətinə siyasi təzyiq göstərməli idilər. ATƏT-in Minsk Qrupunun həmsədrləri – ABŞ, Rusiya və Fransa tərəfindən dəfələrlə Ermənistan dövlətinə BMT-nin TŞnın qəbul etdiyi 4 qətnamənin şərtlərini yerinə yetirməyə çağırmışlar, lakin, Ermənistan bu qətnamələrə məhəl qoymamağa davam edirdi və ona qarşı ciddi tədbir görülmürdü.

Cinayətkar Ermənistan dövlətindən fərqli olaraq Azərbaycan dövləti həmişə beynəlxalq humanitar hüquq normalarına riayət edib və mülki əhaliyə atəş açmayıbdır. Ermənistan silahlı qüvvələrinin *sentyabrın 27-dən oktyabrın 30-dək* Azərbaycanın *mülki əhalisinin* yaşadığı məntəqələrini, mülki şəxsləri ağır artilleriyadan və ballistik raketlərlə atəşə tutması nəticəsində 7 ailə tamamilə məhv edilmişdir, 4 uşaq valideynlərin hər ikisini itir-

mişdir. Ümumilikdə, *oktyabrın 30-dək* 91 nəfər mülki şəxs: 1 körpə, 10 uşaq, 27 qadın, 53 kişi, 15 yaşlı insan həlak olmuşdur.

Belə ki, Ermənistan silahlı qüvvələrinin ***oktyabr ayının 4-ü, 5-i, 8-i, 11-i və 17-sində Gəncə şəhərinin mülki əhalisini*** ağır artilleriya və raket atəşlərinə tutması nəticəsində 26 nəfər (10 qadın, 6 uşaq) həlak olmuş, 142 nəfər (onlardan 57-si qadın, 32-si uşaqdır) yaralanmışdır. Bərdə rayonunda isə 27 nəfər mülki şəxs (8 qadın, 1 uşaq) həlak olmuş, 26-sı qadın və 14-ü uşaq olmaqla 101 nəfər dinc sakin xəsarət almışdır. Tərtər rayonunun 17 (1 uşaq, 1 qadın), Goranboy rayonunun 8 (2 qadın, 5 uşaq), Ağdam rayonunun 7 (1 qadın), Füzuli rayonunun 3 nəfər dinc sakini, Beyləqan rayonunda 2 nəfər qadın və Ağcabədi şəhərində isə 1 nəfər uşaq erməni vandalizminin qurbanı olmuşdur [605]. Bundan başqa, mülki infrastruktur obyektləri, tarixi-mədəni irsimizin abidələri, nəqliyyat vasitələri məhv edilmişdir.

Təəccüb doğuran odur ki, aşağıda sadalanan müqavilələr beynəlxalq səviyyədə qəbul olunmuşdur, lakin, Ermənistan dövləti heç vaxt bu konversiyalara məhəl qoymamışdır və beynəlxalq ictimaiyyət tərəfindən bu konvensiyaları yerinə yetirməyə məcbur edilmir:

1) Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (1948-ci il);

2) İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (1966-cı il);

3) Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (1981-ci il);

4) İşgəncə əleyhinə BMT Konvensiyası (1984-cü il);

5) Uşaq hüquqları Konvensiyası (1989-cu il);

6) Bütün miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında BMT Konvensiyası (1990-cı il)

7) Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statusu (BCM) (2002-ci il) [87, s. 221].

Ermənistanın Azərbaycana qarşı törətdiyi terror aktarı və işğalçılıq siyasəti nəticəsində 30 il müddətində və İkinci Qarabağ müharibəsi dövründə yüz minlərlə uşaq beynəlxalq sənədlərdə, habelə, *Uşaq Hüquqları Konvensiyasında* BMT-nin Nizamnaməsinin prinsiplərini əks etdirən hüquqlardan məhrum edilmişdir. Ermənistan dövləti öz mahiyyətinə uyğun olaraq *1949-cu il Mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə Konvensiyasına və I Əlavə Protokoluna* əsasən uşaqların müdafiəsi, onların yaşamaq hüququnun qorunması, onlara qarşı təqib, fiziki cəza, işgəncə, alçaldıcı, insanlıqdan kənar davranış və zorakılıq formalarının, kollektiv cəzaların qadağan olunması, bundan başqa bu sənədlərdə təsbit edilmiş müharibə qaydalarını, xüsusilə, mülki əhali ilə döyüşçülər arasında fərq qoyulmasının zəruriliyi və mülki insanlara, əsasən, uşaqlara və qadınlara qarşı hücumların, mənzillərin dağıdılmasının, yaşadıqları yerlərdən zorla qovulmasının, repressiya, qəddarlıq metodlarının qadağan olunması və bu kimi qaydaları daim pozubdur [627].

Ermənistan dövlətinin Azərbaycana qarşı törətdiyi terror aktlarına və qadağan olunmuş silahlardan mülki əhaliyə atəş açması ilə reallaşan müharibə cinayətlərinə dünya birliyi, ATƏT-in Minsk qrupunun vasitəçiləri həmişə səssiz qalır, bu cinayətkar dövlətə qarşı heç bir təzyiq göstərmirlər.

İkinci Qarabağ savaşında Ermənistan tərəfindən Azərbaycanın mühüm strateji obyektləri olan *Mingəçevir Su və İstilik Elektrik Stansiyaları, Bakı-Tbilisi-Ceyhan və Bakı-Novorossiysk neft kəmərləri, Cənubi Qafqaz Boru kəmərləri, Qərb İxrac Boru Kəməri, Oğuz-Qəbələ-Bakı su kəməri* hədəfə alınaraq *raket atəşlərinə* tutulmuşdur.

Gəncə, Mingəçevir, Tərtər, Ağcabədi, Goranboy, Bərdə, Füzuli, Ağdam, Xızı və Abşeron ərazilərində yaşayan dinc əhalini atəşə tutan Ermənistan silahlı qüvvələrinin niyyəti terror törətməklə daha çox mülki əhali qətlə yetirmək, bununla da, regionda mövcud olan stabilliyi və danışıqlar prosesini pozmaq idi.

Müharibə ərazisindən 100 kilometrlərlə kənarda Azərbaycan ərazilərini müxtəlif növ artilleriya və raket *(2 ədəd 122 mm-lik D-4 ağ fosfor (P-4) tərkibli top mərmisi, 1 ədəd 300 mm-lik raket (9M528), 1 ədəd hərbi məqsədlər üçün istifadə edilən meteoroloji radiopelenqator və 25 ədəd partlamış mərmi qalıqları)* atəşlərinə tutmaqla Ermənistan bir dövlət kimi terrorçu mahiyyətini, işğalçı mövqeyini yenə bütün dünyaya bəyan etdi.

Azərbaycan Respublikası Baş Prokurorluğun mətbuat xidmətinin sentyabrın *27.09.2020-07.12.2020* tarixlərində dinc əhaliyə qarşı törədilən cinayətlərin statistikasına əsasən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin raket və ağır artilleriya qurğularından atəşə tutulması nəticəsində mülki insanlardan 100 nəfər həlak olmuş, 416 nəfər isə ağır yaralanmış, 4186 ev, 135 çoxmənzilli yaşayış binası və 548 mülki infrastruktur obyektinə zərər dəymişdir [618].

Müzəffər Azərbaycan Ordusu uzunmüddətli işğaldan sonra cəmi 44 gündə Ermənistan Ordusunu darmadağın edərək torpaqlarımızı işğaldan azad etdi. Lakin işğaldan azad etdiyimiz əraziləri erməni vandalları beynəlxalq konvensiyalara zidd olaraq xarabalıqlara və ekoloji fəlakətə məruz qoymuşdular, torpaqlarımızı qanunsuz istismar etmişdilər.

Uzun illər idi ki, Ermənistan Respublikası Füzuli rayonunun Seyidmahmudlu və Qaraxanbəyli kəndləri arasındakı ərazidə yaradılan xüsusi laboratoriyadakı infeksion mənşəli qalıqları Köndələnçaya, bütün çirkab sularını isə borularla daşıyaraq Sədərəklə həmsərhəd olan Surenavan kəndində Araz çayına axıdırdı, Gorus və Sisyanda yerləşən sənaye müəssisələrindəki zərərli tullantılar Həkəri çayı ilə, Qacaran və Qafan ərazilərində fəaliyyət göstərən mismolibden emalı kombinatlarındakı zəhərli tullantılar Oxçu çayı ilə Araz çayına, Allahverdi-Şamlıq mədənlərindəki tullantılar isə Debet çayı ilə Kür çayına axıdırdı və bununla da beynəlxalq konvensiyaların maddələrini pozaraq Azərbaycan Respublikasına qarşı ekoloji fəlakətlə nəticələnən ekoloji terror

həyata keçirirdi. Lakin, beynəlxalq təşkilatlar, dünya birliyi bunun qarşısını almaq üçün heç bir tədbir görmədi [620]. Halbuki, beynəlxalq standartlar transsərhəd çayların sularının bir dövlət tərəfindən digər dövlətə ziyan vurmaqla istifadəsini qadağan edir. Ümumi həcmi 631 mln. kub. m olan 10 su anbarı, o cümlədən, Tərtər çayı üzərində inşa edilən, su tutumu 560 mln. kub. m olan və 100 min hektardan çox əkin sahəsinin suvarılmasını nəzərdə tutan Sərsəng su anbarı texniki xidmətdən uzun illərdir məhrum olduğundan ətraf ərazilərdə məskunlaşan əhali üçün potensial təhlükə mənbəyinə çevrilmiş, bu su anbarından aşağıda – dağətəyi və aran torpaqlardakı yaşayış məntəqələrində 400 min insan təhlükəyə məruz qalmışdır. Bütün bu faktları nəzərə alaraq, Avropa Şurası Parlament Assambleyası tərəfindən *"Azərbaycanın Ermənistanla sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi" ilə bağlı 2016-cı ildə 2085 saylı Qətnamə* qəbul edilmişdir [644].

30 illik bir dövrdə Azərbaycan işğal altında qalan ərazilərinə nəzarətin mümkünsüzlüyündən dövlət səviyyəsində beynəlxalq konvensiyalarda qəbul edilmiş öhdəlikləri yerinə yetirə bilmirdi. Beləliklə, Ermənistan Respublikasının BMT-nin "Transsərhəd su axınlarının və beynəlxalq göllərin qorunması və istifadəsinə dair" Konvensiyasında göstərilən öhdəliklərə əməl etməməsi sərhədyanı su axınlarının mövcud problemlərinin beynəlxalq hüquqi norma və prinsiplər çərçivəsində həllini qeyri-mümkün etmişdir.

Ermənistanın Azərbaycana qarşı törətdiyi ekoloji terrorun bir sahəsi də ölkəmizin 6-7 rayonunda (Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlarda) torpaqların suvarılması işlərini təmin edən *Sərsəng su anbarından* suyun yolunun yayda kəsilməsi, qışda isə açılması ilə bütün torpaqları su basması idi. Ordumuz Suqovuşan qəsəbəsini azad etdikdən sonra artıq suyun verilməsinə və 100 min hektar torpağın su ilə təmin olunmasına başlanmışdır [678].

Erməni terroru Azərbaycanın təbii sərvəti olan meşələrimizdə də həyata keçirilib. Belə ki, onlar meşələri qırır, talayir, torpaqlarımızı tərk etməyə məcbur edildikdə isə yandırırdılar. Laçın rayonunun 22 min ha, Kəlbəcər rayonunun 24 min ha, Zəngilan və Qubadlı rayonlarının 12 min ha, o cümlədən, Hadrut və Xocavənd rayonlarının çox hissəsini böyük meşə massivləri təşkil edirdi [518]. Hələ 1974-cü ildə yaradılan və 100 ha-dan çox sahəni əhatə edən, təxminən 200-300 il yaşı olan nadir çinar ağaclarının bitdiyi Bəsitçay qoruğu erməni vandalizminə məruz qalıb. Bəsitçay Dövlət Təbiət Qoruğu – 107 hektar, Qaragöl Dövlət Təbiət Qoruğu – 240 hektar, Qubadlı Dövlət Təbiət Yasaqlığı – 20000 hektar, Daşaltı Dövlət Təbiət Yasaqlığı – 450 hektar, Arazboyu Dövlət Təbiət Yasaqlığı – 2200 hektar və Laçın Dövlət Təbiət Yasaqlığı – 20000 hektar – ümumi sahəsi 43 min hektar olan qoruqlarımızda "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 70-dən çox flora növləri dövlət tərəfindən qorunurdu, lakin, bunların çox hissəsi erməni vandalları tərəfindən vəhşicəsinə məhv edilmişdir. Yuxarıda göstərilən ərazilərdə 70-i Yer kürəsinin heç bir bölgəsində təbii halda bitməyən endemik bitkilər olan 460-dan çox növdə yabanı ağac və kol bitkiləri bitirdi. Yüzlərlə növdə ağac və kol bitkiləri (ayı fındığı, Araz palıdı, yalanqoz, Şərq çinarı, Hirkan şümşadı, Eldar şamı, söyüdyarpaq armudu, Qafqaz xədicəgülü, Qarabağ dağ laləsi, Şmidt dağ laləsi və s.) Ermənistan dövlətinin işğalı altında məhv edilərək dünya florasından silinmək təhlükəsi qarşısındadır. Təkcə Qarabağ bölgəsində 2000-dən çox adda bitki növü bitirdi ki, bu da ölkə florasının 42 %-ni təşkil edirdi. Bu regionda mövcud olan 127 fauna növü və 72 flora növü nadir və nəsli kəsilmək təhlükəsi altında olmaqla, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na və "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na salınmışdır. Təbiət abidəsi statusuna aid 152 sayda ağac (Şərq çinarı, palıd, azat, armud və s.), 8 xüsusi qiymətli meşə sahəsi (Şərq çinarı, püstə, ayı fındığı, ar-

dıc, azat, Araz palıdı, çaytikanı, pirkal), 6 ədəd geolojipalentoloji obyekt ("Azıx", "Tağlar", "Xan", "Qaxal", "Divlər sarayı" mağarası, "Bazaltın sütunvari aralanması"), yaşı 120 ildən 2000 ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət sərvətləri uzun illərdən bəri amansızlıqla talan edilmişdir. Kəlbəcər rayonunun 968 hektar ərazində bitən və "Qırmızı Kitab"a daxil edilən ayı fındığı ağacları da kütləvi olaraq kəsilib məhv edilmişdir [650]. Erməni vandalları Ağdam rayonundakı 400 illik yaşı olan çinar ağacını partladaraq doğrayıb Ermənistana aparmışlar. Ağdam şəhərində olan 140-150 yaşlı 14 Şərq çinarı və Boyəhmədli kəndi yaxınlığındakı 400 ilə qədər yaşı olan 71 çinar qorunan təbiət abidələri kimi qeydə alınmışdır. Cəbrayıl, Zəngilan, Qubadlı və işğaldan azad olunan digər rayonların meşələrindəki yaşı 2000 ildən çox olan təbiət abidələri - çinarlar erməni vandalları tərəfindən qırılmışdır. Şuşanın Topxana meşəsi beynəlxalq konvensiyalarla istifadəsi qadağan olunan ağ fosforla külə döndərilmişdir [713].

Kəlbəcər rayonunun ərazisindəki meşələrdə endemik növlərə aid edilən qırmızı palıd ağacları qırılıb məhv edilmişdir. Erməni iş adamları Kəlbəcər meşələrində kütləvi səkildə kəsilən qırmızı palıd ağacından düzəldilən mebelləri Avropaya milyonlarla dollara satırdılar.

Azərbaycan respublikasının işğaldan azad olunmuş torpaqlarında ekoloji cəhətdən böyük əhəmiyyətə malik olan *7 relikt göl (Kəlbəcər və Laçın rayonlarındakı yaylaqlarda Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayonunda Tərtər çayının qolu olan Torağaçayda Qaragöl*) və *10 su anbarı* işğalçı Ermənistan dövləti tərəfindən ciddi antropogen təsirə məruz qalmışdır [645, s. 12].

Beynəlxalq standartların transsərhəd çayların sularına qoyduğu norma və qaydalar dövlət ərazisinin digər sahələrinə, məsələn, hava məkanına da tətbiq edilir. Texnologiyanın inkişafı ilə insanın hava mühitinin təbii vəziyyətinə təsir etmək qabiliy-

yəti getdikcə artır. Məsələn, bir dövlətdə leysan əleyhinə vasitələrin (mərmi) həddindən artıq istifadəsi qonşu dövlətlərdə güclü yağış və doluya səbəb ola bilər. Həm də, bir ölkənin çirklənmiş ekologiyası qonşu ölkələrə də öz təsirini göstərir. Hava və iqlim şəraitini öz xeyrinə dəyişdirmək cəhdi başqa dövlətlərin hava məkanının çirklənməsi ilə nəticələnə bilər. Hər iki halda ekoloji problem beynəlxalq xarakter alır.

Qonşu ölkələr arasında dövlət sərhəd rejiminə aid imzalanmış müqavilələrdə göstərilir ki, dövlətlərin sərhəd xəttinə yaxın ərazilərdə apardıqları meşə təsərrüfatı qarşı tərəfin meşə təsərrüfatına zərər verməmək şərti ilə həyata keçirilməlidir. Dağ-mədən işləri qonşu dövlətlərin sərhədlərinə yaxın bir ərazidə aparıldığı zaman qarşı tərəfin ərazisinə zərər verməməlidir. Beynəlxalq standartlara görə, bu işlərin sərhədin hər iki tərəfindən 20 m məsafəyə qədər aparılması qadağandır. Mədən və yeraltı qazıntılar bu dövlətin ərazisinin yeraltı hüdudlarından kənara çıxmamalı və qonşu dövlətin ərazisinə daxil olmamalıdır, əks halda qonşu dövlətin ərazi bütövlüyü pozulmuş olur. Eyni yanaşma quyuqazma məsələsinə də aiddir. İstisna hal - bir dövlətin təbii sərvətlərinin iki qonşu ölkə arasında olan razılaşmaya əsasən birgə istifadəsidir. Bütün beynəlxalq normaları kobudcasına pozan qonşu Ermənistan Respublikası Qarabağın ən zəngin təbii sərvətlərini, o cümlədən, mineral maddələri, xüsusilə də Kəlbəcər rayonunun qızıl yataqlarını vəhşicəsinə istismar etmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata görə, işqal altında olmuş ərazilərdə 155 növ müxtəlifliyinə malik faydalı qazıntı yataqları: "5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qumçınqıl, 5 tikinti qumu, 9 gips, gəc, 14 əlvan və bəzək daşları olan əqiq, yəşəm, oniks, cad, 11 şirin yeraltı su və 10 mineral su yataqları" [96, s. 74] erməni vandalları tərəfindən vəhşicəsinə istismara məruz qalaraq xarici ölkələrə ixrac edilmişdir.

Hal-hazırkı dövrdə ekoloji problemlərdən biri - atom enerjisinin istehsalı sahəsində təhlükəsizliyə riayət olunması ilə bağlıdır. Bu nöqteyi-nəzərdən Ermənistanın ərazisində yerləşən və istismar müddəti bitmiş *Metsamor Atom Elektrik Stansiyası (AES)* bütün regionda ətraf mühiti və əhalinin sağlamlığını ciddi təhlükə qarşısında qoyur. Ermənistan dövləti nüvə və radioaktiv materiallar, hətta nüvə yanacağı tullantılarının qaçaqmalçılığı ilə məşğul olur. O, 30 il ərzində Azərbaycan respublikasının işğal altında olan ərazilərində radioaktiv tullantıları basdırmaqla bölgədə ciddi təhdid mənbəyidir. Bütün bunlara baxmayaraq, Metsamor Atom Elektrik Stansiyası hələ də fəaliyyət göstərərək hər an baş verəcək qəza təhdidi kimi regionun radioaktiv çirklənməsinə səbəb ola bilər. Bu stansiya "Türkiyə sərhədindən 16 km, İran sərhədindən 60 km, Azərbaycan sərhədindən 120 km, Gürcüstan sərhədindən 110 km, İqdır şəhərindən 28 km, İrəvan şəhərindən isə 25 km" məsafədə yerləşir. 1976-cı ildən istismar edilən və 2 blokdan ibarət olan Atom Elektrik Stansiyasının hər blokunda bir ədəd VVER-440 tipli köhnə nəsil və qoruyucu örtüyü olmayan reaktordan istifadə edilir. Hələ 1982-ci ildə Metsamor AES-in maşın zalında güclü yanğın bas vermişdir, 1983-cü ildə başlanan 3-cü və 4-cü blokların inşası isə 1986-cı ildə Çernobılda baş verən qəzadan sonra tamamən dayandırılmışdır. SSRİ rəhbərliyi 1988-ci ildə Spitakda baş vermiş zəlzələdən sonra həm Çernobıl qəzasının, həm də Spitak zəlzələsinin fəsadlarından ehtiyatlanaraq 1989-cu il yanvar ayında Metsamor Atom Elektrik Stansiyasının fəaliyyətinin dayandırılması ilə bağlı qərar qəbul etmişdir. Belə ki, AES-in 1-ci bloku tam sıradan çıxmışdır, 2-ci bloku isə konservasiya olunaraq dayandırılmışdır [714]. İstismar müddətinin çoxdan başa çatmasına baxmayaraq, Ermənistan müxtəlif bəhanələrlə Metsamor Atom Elektrik Stansiyasının fəaliyyətini uzadır. Bu məsələ ilə Azərbaycan, Rusiya, Gürcüstan və İranın ekologiya orqanları ciddi məşğul olur. Bütün bunlara baxmayaraq, Ermənistanın Metsa-

mor Atom Elektrik Stansiyası (AES) regionun ekoloji təhlükəsizliyini təhlükə altına almaqda davam edir.

Ermənistan Respublikasının bilavasitə təşkilatçılığı ilə ekoloji təhlükəsizliyə təhdid olan, ekoloji və humanitar fəlakətlə nəticələnən qeyri-qanuni fəaliyyətlər bir sıra beynəlxalq konvensiyaların, o cümlədən Ermənistan dövlətinin üzv olduğu BMT-nin Bioloji müxtəliflik haqqında, səhralaşmaya qarşı mübarizə haqqında və başqa beynəlxalq müqavilələrdə qeyd olunan öhdəliklərin kobudcasına pozulmasıdır.

Hal-hazırda Azərbaycan dövlətinin əsas vəzifələrindən biri bütün dəyən ziyanı, o cümlədən torpaqlarımızda utilizasiya edilən zərərli tullantıların həcmini müəyyənləşdirib beynəlxalq səviyyədə təsdiq olunmasına müvəffəq olmaqdır. Azərbaycan yuxarıda qeyd olunan bütün faktların qiymətləndirilib təsdiqlənməsi üçün beynəlxalq müşahidə və qiymətləndirmə qruplarını ölkəyə dəvət edərək, Beynəlxalq məhkəmə vasitəsilə dəymiş zərərin ödənilməsinə nail olmaq üçün Ermənistan dövlətindən təzminat tələb edə bilər, həmçinin, ərazilərimizdə basdırılan təhlükəli tullantıların çıxardılaraq Ermənistana geri göndərilməsini təmin edə bilər. *Ekologiya və Təbii Sərvətlər Nazirliyi* erməni vandallarının törətdikləri ekoloji terror faktlarının qiymətləndirilməsi üçün bütün cəhdləri davam etdirməklə yanaşı, düşmən işğalından azad edilən ərazilərimizdə ekoloji tarazlığı bərpa etmək istiqamətində aparılan işləri həyata keçirməyə başlayıbdır. Azərbaycan dövləti tərəfindən erməni işğalından azad olunmuş ərazilərimizdə *2021-ci il noyabr ayının 11-dən etibarən* müxtəlif növdə ağac tingləri əkilməyə, meşə örtüyü və yaşıllıqların bərpası üçün bütün tədbirlər görülməyə başlanmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilir ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan Respublikasındakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisi, BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycan üzrə ölkə nümayəndəsi ofisi və BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə Regional

Nümayəndəliyinin ofisi ilə aparılan görüşlərdə Qarabağ bölgəsinin təbii sərvətlərinə, ətraf mühitinə və biomüxtəlifliyinə dəyən ziyan, qiymətli ağac və kol növləri ilə zəngin meşələrin erməni vandalları tərəfindən məqsədyönlü şəkildə məhv edilməsi barədə xarici nümayəndələr bir daha məlumatlandırılıbdır [619]. Eyni zamanda, ETSN ekologiya və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən ümumilikdə 31 beynəlxalq təşkilata erməni işğalçıları tərəfindən törədilmiş ekoloji soyqırımına son qoyulması çağırışı ilə müraciət edilibdir.

İşğal edilmiş Azərbaycan ərazilərindəki yaşayış binalarının və mülki infrastrukturun, tarixi, dini və mədəni irsimizə aid olan abidələrin yerlə yeksan edilməsinə, yandırılmasına və dağıdılmasına, məsçidlərimizin mal-heyvan tövləsinə çevrilməsinə, mülki əhaliyə qarşı soyqırım törədilməsinə əlavə olaraq, işğalçı erməni quldurları tərəfindən minlərlə hektar meşələrin kütləvi surətdə qırılması, yandırılması, Azərbaycan Respublikasının *"Qırmızı Kitabı"*na düşən ağacların məhv edilməsi, çaylarımızın məcrasının dəyişdirilməsi, yerüstü və yeraltı təbii sərvətlərimizin talan edilməsi ilə Ermənistan tərəfindən həyata keçirilən *"Yandırılmış torpaq" siyasəti 1992-ci ildən etibarən* bu günə kimi - Ermənistanın təslim olmasından və kapitulyasiya aktına imza atmasından sonra da azad olunmuş Azərbaycan ərazilərininin boşaldılması prosesində davam edirdi. *"Külə döndərmək"* strategiyası adlanan üç *"Hər şey"* məfhumu *"hər şeyi öldür", "hər şeyi yandır" və "hər şeyi qarət et"* prinsipinə əsaslanır. ***"Yandırılmış torpaq" taktikası 1977-ci il Cenevrə Konvensiyasının 1 saylı Protokolunun 54-cü maddəsi ilə, təbii mühitə zərər verilməsi isə 55-ci maddəsi ilə qadağan edilir*** [563]. 27 sentyabrdan 10 noyabradək davam edən İkinci Qarabağ savaşında müharibə bölgəsi olmayan rayonlarda dinc əhaliyə qarşı ballistik raket atəşlərindən istifadə edilməsi, əsirlərə qarşı qeyri-insani cəza tədbirlərinin həyata keçirilməsi, işgəncə verilməsi, onların yandırılması və digər faktlar Ermənistanın bir terror dövləti olduğu-

nu bir daha sübut edir. Mülki şəxslərə və ya mülki obyektlərə, həmçinin meşələrə və ya bitki örtüyünün başqa növlərinə *ağ fosforlu mərmilərlə hücumlar BMT-nin 1980-ci ildə "Bəzi silah növlərinin qadağan olunması haqqında" Konvensiyasının "Yandırıcı silahın tətbiqinin qadağan olunması və ya məhdudiyyəti haqqında" III Protokolu ilə qadağan olunub"* [628].

Bu cinayətlər uzun illərdən bəri Emənistanın Azərbaycana qarşı yürütdüyü vandalizm siyasətinin təzahürüdür. Prezident İlham Əliyevin "Haber Global" telekanalına müsahibəsində dediyi kimi "… xarici səfirliklərin nümayəndələri … bir daha görürlər ki, kim bu münaqişənin səbəbkarıdır, kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir. İnsanlığa qarşı törədilmiş cinayət bunu bir daha göstərir" [520]. Beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan Ermənistan dövlətinin dünya birliyi tərəfindən təzyiq göstərilməsi nəticəsində törətdiyi cinayətlərə görə cəzalandırılması mümkündür.

4. İkinci Qarabağ müharibəsi və beynəlxalq reaksiya

Dünya birliyi və ATƏT-in Minsk Qrupunun vasitəçiləri Ermənistan dövlətinin Azərbaycana qarşı hər gün törətdiyi terror aktlarına, dinc əhalini qadağan olunmuş silahlardan atəşə tutaraq reallaşdırdığı hərbi cinayətlərə həmişə susmuş və bu cinayətkar dövlətə heç bir təzyiq göstərilməmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "Əgər beynəlxalq birlik Ermənistanı törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, heç kim onları Xocalı soyqırımına görə məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq" [558]. Ali

Baş Komandan İlham Əliyev və Müzəffər Azərbaycan Ordusu xalqın birliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistanı həm hərbi, həm də siyasi cəhətdən məğlub etdi və ərazi bütövlüyümüz bərpa olundu. Respublika Prezidentinin böyük qürur hissi ilə bəyan etdiyi kimi: "Biz … qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. … Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Biz işğala son qoyduq" [633]. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. … Heç vaxt Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına yol verilməyəcəkdir [558].

Uzun illər Azərbaycan beynəlxalq ictimaiyyəti ədalətə, BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinin yerinə yetirilməsinə çağırsa da, 30 ilə yaxındır ki, ölkəmizin haqq səsi eşidilmirdi. Əksinə, həmsədrlər "münaqişənin hərbi yolla həlli yoxdur", "münaqişə yalnız sülh yolu ilə həll oluna bilər" kimi bəyanatlar verir, ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyəti və regiona səfərləri isə daha çox qeydiyyat xarakteri daşıyırdı. Fransanın Qarabağda yeni müstəmləkə dövləti yaratmaq cəhdləri nəticəsiz qaldı və Azərbaycan Fransanın sülhməramlı kimi Qarabağa gəlməsinə imkan vermədi. Ukrayna və Gürcüstana tətbiq edilən ssenarilərin Azərbaycanda da həyata keçirmək cəhdləri olmuşdur. Azərbaycan Prezidenti diplomatik səriştəsi, liderlik keyfiyyətləri sayəsində bu planların qarşısını ala bildi. Fransadan və digər ölkələrdən Ermənistana çoxsaylı silah-sursat daşınması halları olub, lakin müxtəlif kanallarla edilən bütün siyasi təzyiqlərə və Ermənistana olan hərbi yardıma baxmayaraq, münaqişə ölkəmizin diktə etdiyi şərtlərlə həll olundu.

Bütün bunlar aydın şəkildə göstərir ki, Azərbaycan Prezidenti prinsiplərə sadiqlik və qətiyyət nümayiş etdirərək güc mərkəzlərinin təzyiqlərinə və mürəkkəb maneələrə qətiyyətlə müqa-

vimət göstərdi. Lakin Prezident İlham Əliyevin xəbərdarlığına baxmayaraq, dünya birliyi yenə də işğalçı Ermənistan dövlətinə qarşı heç bir tədbir görmədi. Ermənistanın Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə əməl etməməsi BMT-ni bir təşkilat kimi nüfuzdan salır. Ona görə də Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizmlərini müəyyən etmək lazımdır [633]. Beləliklə, Ermənistanın, onun üçün yaradılan arxayınçılıq və cəzasızlıq mühitindən istifadə edərək 2020-ci il sentyabrın 27-dən Azərbaycan ərazilərini ağır artilleriyadan atəşə tutması Azərbaycanın işğal olunmuş ərazilərini hərbi yolla azad etmək hüququnu önə çəkdi.

Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı hərbi əməliyyatları dayandırmağa, hər iki tərəfi gərginliyi azaltmağa və danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır. Əfqanıstan, Ukrayna, Pakistan, Türkiyə və Şimali Kipr Türk Respublikası isə Azərbaycana dəstək olduqlarını bildirmişdilər. 2020-ci il sentyabrın 29-da və oktyabrın 19-da BMT Təhlükəsizlik Şurasında Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müzakirələr keçirildi. ***Oktyabrın 19-da*** BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən ***bəyanatın layihəsi*** hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı. Lakin, bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad öz əksini tapmamışdır [558]. "Biz buna qəti şəkildə etiraz etdik. Bu, ədalətsizliyin növbəti təzahürüdür, ikili standartların növbəti təzahürüdür" - deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünü və erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını əks etdirən 4 qətnamənin üstündən xətt çəkərək baş verən hadisələrin guya yeni tələblər baxımından dəyərləndirən bu bəyanat ölkəmizə qərəzli yanaşmanı, işğalçının dəstəklənməsini bir daha sübut etdi. Daha dəqiq desək, BMT-

nin bu hərəkəti Azərbaycan Respublikasına qarşı növbəti təxribatdır və başqa cür dəyərləndirilə bilməz. Avropa İttifaqı, ümumiyyətlə, Avropa qurumları münaqişənin həllinə ikili standartlardan yanaşmış, Azərbaycanın beynəlxalq hüquqa əsasən təsbit olunmuş ərazi bütövlüyünü bərpa etmək hüququnu dəstəkləməmişdir. ***Qoşulmama Hərəkatına*** üzv dövlətlər prinsipial mövqe tutaraq *Təhlükəsizlik Şurasının qətnamələrinə istinad edilməsinə, BMT-nin Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmətə, suveren dövlətlərin daxili işlərinə qarışmamağa və onların qarşılıqlı maraqlarının müdafiəsinə və dövlətlərarası əməkdaşlığı təşviq edən Bandunq prinsiplərinə, Qoşulmama Hərəkatının sənədlərinə riayət etməkdə təkid edərək,* ***bəyanat layihəsinin həyata keçirilməsinə imkan vermədilər*** [558]. Respublika Prezidentinin qeyd etdiyi kimi - "Bu siyasi addım iflasa uğradı, heç bir sənəd qəbul edilmədi və hesab edirəm ki, bu, bizim növbəti siyasi qələbəmizdir. Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq" [605]. Ali Baş Komandanımızın böyük sərkərdəlik məharəti, möhkəm iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, *Türkiyə* kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən haqlı addımı müdafiə etməsi, dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, qonşu dövlətlər olaraq, *Rusiya, İran və Gürcüstanın* işğalçının hüquqazidd addımlarını buxovlayan davranış nümayiş etdirməsi və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi Vətən müharibəsində Azərbaycanın tam qələbəsini təmin edən həlledici amillər idi [669].

Vətən müharibəsi zamanı ***Böyük Britaniya*** Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyrək ədalətli və haqlı mövqeyini müdafiə etmişdir. BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurası sədrinin adın-

dan hazırlanmış Azərbaycana qarşı bəyanat layihəsi BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Böyük Britaniya tərəfindən qəbul edilməmişdir. ***ABŞ*** və ***Almaniya*** hərbi əməliyyatların dayandırılmasını və hər iki dövləti danışıqlar nəticəsində regionda mövcud olan gərginliyi aradan qaldırmağa cağırırdı. Rusiya prezidenti Vladimir Putin qeyd etdiyi kimi: "Ermənistan KTMT çərçivəsində müttəfiqdir, amma "Dağlıq Qarabağ" (Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsi) Ermənistana aid deyil, odur ki, Qarabağ ərazisindəki hərbi əməliyyatlarla bağlı Rusiya vasitəçilikdən savayı hər hansı öhdəlik daşımır". ***İtaliya*** Azərbaycanın ədalətli mövqeyini müdafiə etmiş, ərazi bütövlüyünü dəstəkləmişdir. 2020-ci il noyabrın 25-də ***Fransa Respublikasının*** Senatı qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınması haqqında Qətnamə layihəsini qəbul etməklə terrorçu və işğalçı Ermənistanı dəstəklədiyini bir daha sübut etdi. ***Gürcüstan*** Ermənistanın hərbi yüklərinin öz ərazisindən və hava məkanından daşınmasına qadağa qoymaqla 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycana haqlı tərəf kimi öz münasibətini bildirmişdir. ***Serbiyanın*** 44 günlük müharibədən əvvəl və müharibə zamanı Ermənistan dövlətinə silah satmasını sübut edən faktlar var idi. ***Yunanıstan*** terrorçu Ermənistanı müharibə ərəfəsində dəstəkləmişdir. ***İran*** ərazisindən Ermənistana silah-sursat daşınması haqqında yayılan məlumatları təkzib etmiş, Təbriz, Ərdəbil və digər şəhərlərin əhalisi isə İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbə sevincini öz sevinci kimi qarşılamışdır. Qardaş ***Pakistan*** dövlətinin Baş naziri *İmran Xan* Ermənistanı hərbi əməliyyatları dayandırmağa çağırmışdır və "Azərbaycanın qondarma "Dağlıq Qarabağ"la (Azərbaycanın Qarabağ iqtisadi rayonun ərazilərinin bir hissəsi) bağlı mövqeyini dəstəkləyirik və bu, yekdilliklə qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının qərarlarına uyğundur"-deyərək Azərbaycan dövlətini dəstəklədiyini cəsarətlə bildirmişdir. ***Macarıstanın*** Xarici İşlər və Ticarət Nazirliyinin, eləcə də ***Əfqanıstanın*** Xarici İşlər

Nazirliyinin yaydıqları bəyanatlarda qondarma "Dağlıq Qarabağ" bölgəsinin (Azərbaycanın Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsi) beynəlxalq səviyyədə Azərbaycanın tərkib hissəsi kimi tanınması vurğulanırdı və Qarabağdakı işğala son qoyulması" tələb edilirdi. ***Qazaxıstan*** hərbi əməliyyatlara son qoyulmasını və münaqişənin sülh yolu ilə həll olunmasına köməyini təklif etmiş, ***Bosniya və Herseqovina*** işğalçı Ermənistanı qınadıqlarını, Azərbaycanı isə dəstəklədiklərini bildirmişdilər. ***İsrail*** "Azərbaycanın ərazi bütövlüyü tarixi, beynəlxalq, milli mənafe baxımdan İsrailin rəsmi mövqeyidir", - deyərək vurğulamışdır [604]. Qarabağ müharibəsində ***Ukrayna*** da Azərbaycanın mövqeyini dəstəkləyən azsaylı ölkələrdən biri idi və bu gün 24 fevral 2022-ci il tarixində Rusiyanın Ukraynanı işğala başlamasından sonra Azərbaycan öz dostluq borcunu əlində olan bütün imkanları ilə qaytarır - çoxsaylı dövlət səviyyəsində humanitar yardımlar göndərilir, xalqın dəstək mesajları verilir və s.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevin ***" Qarabağ Azərbaycandır və nida"***, deyərək fikrini açıq şəkildə ifadə etdiyini bəyan etdi və Türkiyə qardaş ölkə kimi bu ifadənin altına imza qoyaraq bir daha bunu təsdiqlədi. Cənab Ərdoğan ***"Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir"*** sözləri ilə bir daha bildirdi ki, Azərbaycanı bu haqlı mübarizəsində bundan sonra da dəstəkləyəcək [556]. Türkiyənin dünyada Azərbaycana ən böyük dəstək verən dövlət olduğunu deyən Prezident İlham Əliyev bir daha buna görə minnətdarlığını bildirdi. Dövlət başçısı çıxışında bölgədə və dünyada heç bir məsələnin Türkiyənin iştirakı olmadan öz həllini tapa bilməyəcəyini vurğulayaraq, yaxın tarixin bunu göstərdiyini bildirdi [556].

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ***2021-ci il iyunun 15-də*** Azərbaycanın mədəniyyət mərkəzi və Qarabağın tacı olan, erməni işğalından azad edilmiş Şuşaya səfəri və tarixi və siyasi əhəmiyyətə malik olan ***Şuşa Bəyannaməsi*** iki dost və

qardaş dövlət arasında yüksək inkişaf etmiş müttəfiqlik münasibətlərini bir daha sübut edir: Azərbaycan xalqının ümummilli Lideri ***Heydər Əliyevin*** *"Bir millət, iki dövlət"* və Türkiyə Cümhuriyyətinin banisi ***Mustafa Kamal Atatürkün*** *"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"* kəlamları ilə səciyyələnən Azərbaycan-Türkiyə münasibətləri öz zirvəsinə yüksəlmiş və keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymuşdur [674]. 44 günlük Vətən müharibəsindən sonra *2021-ci il iyunun 15-də* Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında regional təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən Müttəfiqlik münasibətləri haqqında *Şuşa Bəyannaməsinin* imzalanması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin təcəssümüdür. Azərbaycan xalqının *Milli Qurtuluş günü* və Qarabağla Zəngəzur üçün çox mühüm olan *Qars müqaviləsinin 100-cü ildönümü günü Şuşa Bəyannaməsinin imzalanması* xüsusi rəmzi məna daşıyır. Həm o vaxt, həm də indi ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və İran açıq şəkildə Cənubi Qafqazda hegemonluq uğrunda mübarizə aparırlar. Amma bu dəfə fərq ondan ibarətdir ki, hadisələr Azərbaycanın maraqlarına uyğun cərəyan edir. Əgər o zaman hadisələr Ermənistanın və onun havadarlarının xeyrinə başa çatıbsa, bu gün Cənubi Qafqazda yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qələbəsi deməkdir. Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eyni zamanda region ölkələri arasında münasibətlərin normallaşdırılması və davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyə dövlətlərinin birgə təşəbbüsləri bu münasibətlərin daha da möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini göstərən ən gözəl nümunədir [696].

Qarabağ məsələsinin hər zaman Türkiyə üçün də eyni dərəcədə ağrılı problem olduğunu bildirən Rəcəb Tayyib Ərdoğan "Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir,

Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik" sözləri ilə ölkəmizin ədalətli mübarizəsini qətiyyətlə müdafiə etdiyini və daim onun yanında olacağını vurğulamışdır [555]. Respublika Prezidenti İlham Əliyev qeyd edərək bildirmişdir ki, dost və qardaş olan Türkiyə və Azərbaycan dövlətləri hər zaman bir-birini dəstəkləyiblər: "Biz uzun illər sürən işğala son qoyduq. Türkiyə kimi qardaşımızın yanımızda olması bizi daha da ruhlandırırdı, bizə əlavə güc verirdi. Biz bu gücdən istifadə edərək öz tarixi torpaqlarımızı işğalçılardan azad etdik" [555].

Bütün dünyaya nümunə olan ***Azərbaycan-Türkiyə həmrəyliyi*** və strateji tərəfdaşlığı ən yüksək zirvəyə çatmışdır və daimidir.

5. Prezident İlham Əliyevin Azərbaycan dövlətinin milli maraqlarına əsaslanan müstəqil siyasəti

Azərbaycan müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyaəti ilə bu gün Cənubi Qafqazın ən çox inkişaf etmiş bir dövləti kimi regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Azərbaycan dövlətinin reallaşdırdığı enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqaz regionunda sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik fəaliyyəti nəticəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə baş verən hadisələrə də təsir göstərə bilir. 2003-cü ildən 2020-ci il İkinci Qarabağ müharibəsinin zəfərlə yekunlaşmasına kimi dövlət başçısı İlham Əliyev həmişə bildirib ki, Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi həll olunmayınca, işğalçı Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmayınca Azərbaycan öz

milli maraqları uğrunda sona qədər mübarizə aparacaq və nə danışıqlar prosesində, nə də regionda baş verən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcəkdir.

Respublika Prezidenti İlham Əliyev son 17 ildə münaqişənin həlli ilə bağlı BMT Təhlükəszlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdill Dövlətlərin Əməkdaşlıq Şurası və digər beynəlxalq təşkilatların sənədlərində Ermənistanın təcavüzkar və terrorçu dövlət olmasının və Azərbaycanın ərazi bütövlüyünün təsdiqlənməsinə nail olmuşdur. Azərbaycan diplomatiyasının səyləri nətcəsində son illər beynəlxalq təşkilatlar tərəfindən dövlətimizin ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul edilmişdir. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 qətnamə (822, 853, 874, 884) qəbul etdi, lakin 27 il yerinə yetilməyən bu qətnamələri Azərbaycan *2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində* Ermənistanı məğlub edib erməni silahlı birləşmələrini işğal etdikləri Azərbaycan torpaqlarından qovaraq həyata keçirdi. 2004-cü il 29 aprel tarixində AŞ PA-nın yaz sessiyasında Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı Avropa icimaiyyətində Ermənistan-Azərbaycan münaqişəsi haqqında geniş təsəvvür yaratdı. Prezident İlham Əliyev Avropa Şurasının üzvdövlətlərin başçılarının 2005-ci il mayın 16-17-də Varşavada keçirilən Üçüncü Zirvə toplantısındakı çıxışında Ermənistanın hərbi təcavüzünün ağır nəticələrini dünya ictimaiyyətinə çatdıraraq Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişaf etməsi üçün üzv dövlətlərin bütün səyləri birləşdirmək zəruriliyini bildirdi. NATO-nun 2008-ci il aprelin 2-4-də Buxarestdə keçirilən Zirvə toplantısının Yekun Bəyannaməsinin 43-cü maddəsində, 2009-cu il aprelin 3-4-də Kehl və Strasburqda keçirilmiş Zirvə toplantısında qəbul edilmiş bəyannamənin 58-ci bəndində, 2018-ci il 19-20 noyabr tarixlərində Lissabonda keçirilmiş Zirvə toplantısının Yekun Bəyannaməsi-

nin 35-ci bəndində, 2012-ci il Çikaqo sammitinin Yekun Bəyannaməsinin 47-ci maddəsində, 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş Zirvə toplantısının Yekun Bəyannaməsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş və münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli öz əksini tapmışdır.

2010-cu il mayın 20-də Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair qətnaməsində Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması məsələləri, qətnamənin "Dağlıq Qarabağ münaqişəsi" bölməsində isə birmənalı şəkildə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması və bu münaqişənin "beynəlxalq prinsiplər və dövlətlərin ərazi bütövlüyü" çərçivəsində həllinin vacibliyi vurğulanmışdır. *Avropa İttifaqı ilə Azərbaycan arasında 2018-ci il iyul* ayında Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına dəstək və hörmət göstərilməsi ilə bağlı *"Tərəfdaşlıq prioritetləri"* adlı sənəd qəbul olunmuşdur.

İslam Konfransı Təşkilatı (2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) adlanır) 1993-cü ildən "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında" adlı qətnamənin adını dəyişərək "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" Qətnamə adlandırdı. İƏT-in 2013-cü il fevral ayının 6-7-də Qahirədə keçirilən 12-ci Zirvə toplantısının Yekun Bəyannaməsinin 61-ci maddəsində Ermənistanın Azərbaycan torpaqlarını işğal faktı öz təsdiqini tapmışdır və İƏT üzvü olan dövlətlər keçirilən bütün toplantılarda Ermənistanın Azərbaycana təcavüzünü pisləyən və işğalçılıq siyasətinə son qoyulmasını tələb edən sənədlər qəbul etmişdilər. Demək olar ki, İKT Zirvə toplantısının Yekun Bəyannamələrində, İKT xarici işlər nazirlərinin Zirvə konfransında, İslam Əməkdaşlığı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının sessiyasında qəbul edilən sənədlərdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzkarlığı qətiyyətlə pislənirdi. İKT yeganə

beynəlxalq təşkilatdır ki, Ermənistan dövlətini təcavüzkar adlandırırdı. Qoşulmama Hərəkatının qəbul etdiyi bütün sənədlərdə də Ermənistan təcavüzkar dövlət kimi pislənilir, işğalçılıq siyasətinə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə əsasında son qoyulması tələb edilirdi. Göründüyü kimi, Respublika Prezidenti İlham Əliyevin Azərbaycanın mill maraqlarına əsaslanan xarici siyasəti nəticəsində beynəlxalq təşkilatlar tərəfindən son illər qəbul olunan bütün sənədlərdə dövlətimizin haqqlı mövqeyi dəstəklənirdi.

BMT Baş Məclisinin 2004-cü il sentyabr ayında keçirilən 59-cu sessiyasında çıxış edən Respublika Prezidenti İlham Əliyev BMT TŞ-nın Ermənstan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpalarından çıxmasını tələb edən 4 qətnaməsinin yerinə yetirilmədiyini bəyan etdi və onların reallaşdırılması üçün işlək mexanizmin yaradılması təklifini irəli sürdü. 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır, eyni adlı qətnamələr isə 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyasının 86-cı plenar iclaslarında qəbul edilmişdir. Prezident İlham Əliyev daim çıxışlarında BMT TŞ-nın məlum 4 qətnaməsinin 20 ildən artıq bir müddət keçməsinə baxmayaraq hələ də yerinə yetirilməməsini laqeydlik və ikili standartlardan yanaşmanın nəticəsi olduğunu vurğulamışdır. Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 ölkədən 155-i dövlətimizi dəstəkləmişdir. Bu uğur Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyət idi. Ölkəmizin BMT TŞ-na qeyri-daimi üzvlüyü 2012-ci il il yanvarın 1-dən 2013-cü il dekabrın 31-nə qədər olan dövrə təsadüf edir. Belə ki, Azərbaycan ötən 20 il ərzində stabil inkişaf edərək yük-

sək iqtisadi göstəricilərə nail olmuşdur və dünya ictimaiyyətinin rəğbətini qazanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev *2019-cu il oktyabrın 3-də* Rusiyanın Soçi şəhərində *"Valday"* Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və *oktyabrın 11-də* Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, ***oktyabrın 25-26-da Qoşulmama Hərəkatının*** Bakıda keçirilən ***XVIII Zirvə görüşündə, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı*** çərçivəsində, ***iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin*** videokonfrans formatında keçirilən ***Sammitində*** Ermənistan dövlətinin Azərbaycan dövlətinə qarşı işğalçılıq və terrorizm, etnik təmizləmə siyasətini ifşa edən çıxışları ilə Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq norma və prinsiplər, Azərbaycanın ərazi bütövlüyü, BMT-nin dünya dövlətləri tərəfindən qəbul edilmiş Nizamnaməsi, Təhlükəsizlik Şurasının qətmanələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmasının vacibliyini bildirirdi. Prezident İlham Əliyev ***"Qarabağ Azərbaycandır və nida işarəsi"*** deyərək Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğunu, həm Aran, həm də Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanındığını qətiyyətli və prinsipial mövqeyi ilə bütün dünyaya bəyan etdi. Ölkə prezidentinin dövlətimizin milli maraqlarını daim müdafiə edərək yürütdüyü müstəqil siyasətinin nəticəsi idi ki, Azərbaycan Ordusu xalqın birliyi və Ali Baş Komandan İlham Əliyevin kimandanlığı ***ilə 27 sentyabr-10 noyabr 2020-ci il*** tarixlərində baş vermiş İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrini məğlub edərək qələbə çaldı. Bu qalibiyyət Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən 17 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı.

Ordu quruculuğu. Respublika Prezidenti İlham Əliyev beynəlxalq təşkilatlarda yüksək tribunalardan Azərbaycanın haqq

səsini dünya birliyinə çadırmaqla bərabər ölkənin iqtisadi inkişafı ilə yanaşı, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ordu qurculuğu: müasir hərbi texnika ilə təchiz edilməsi, orduda möhkəm nizam-intizam yaradılması, düşmənə sarsıdıcı zərbə vuran, qarşıya qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan yüksək döyüş ruhu ilə seçilən Milli Ordumuzun inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi tədbirlərlə ölkənin hərbi baxımdan güclənməsi və regionda ən güclü silahlı qüvvələrə malik olması kimi qarşıya qoyduğu vəzifəni uğurla yerinə yetirir.

Ötən 19 ildə Azərbaycanın müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin tərkibində olan bütün qoşunlarda həyata keçirilən islahatlar İlham Əliyevin Müstəqil Azərbaycanın milli siyasətini uğurla yerinə yetirdiyini təsdiq edir. Bu illərdə İlham Əliyevin xüsusi nəzarəti, tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlardan ilk növbədə ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli və məqsədyönlü iş aparılıb. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan ən əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətinin artırılması idi.

Prezident İlham Əliyev lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır. 2020-ci il 27 sentyabr - 10 noyabr tarixlərində baş verən İkinci Qarabağ müharibəsində Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev: ***"Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!"*** – deyərək, öz vədinə sadiqliyini sübut etdi. Noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə ***noyabr ayının 10-da*** prezidentlər *İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşiyanın* imzaladığı ***üçtərəfli bəyanat*** regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı ***Ermənistan dövlətinin kapitulyasiyası aktı*** oldu. ***Noyabr ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın rayonu*** bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad olundu. Ordumuzun əldə etdiyi tarixi zəfər heç bir halda təsadüfi olmayıb və Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

"Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə haqlısan məntiqi hökm sürür" - deyən Prezident İlham Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyən etmiş və bu istiqamətdə möhtəşəm addımların atılmasını təmin etmişdir. Olkəmizin büdcə zərfində müdafiə xərcləri hər zaman üstün

mövqeyə malik olmuşdur. 2003-cü ildən 2018-ci ilədək Azərbaycanın müdafiə büdcəsi 15 dəfə artmışdır. Əgər 2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 160 milyon dollara bərabər idisə, 10 il sonra 3,7 milyard dollara yüksəlmişdir. Belə ki, 2006-cı ildə 750 milyon ABŞ dolları, 2007-ci ildə təxminən 1 milyard dollar, 2010-cu ildə 2 milyard 150 milyon dollar, 2020-ci ildə ölkəmizin müdafiə büdcəsi 3 milyard 853 milyon 600 min manat təşkil edirdi [655]. Bu, 2019-cu ilin hərbi büdcəsi ilə müqayisədə 20,9% yaxud 666 milyon manat çoxdur. 2021-ci ildə isə müdafiə xərcləri büdcənin 15,3%-ni təşkil edirdi. Bu göstərici 3 milyard 954 milyon manata (2 milyard 326 milyon dollar) bərabər idi. Stokholm Beynəlxalq Sülh Problemlərinin Tədqiqi İnstitutunun 2019-cu il hesabatına görə, Azərbaycan ÜDM-də hərbi xərcləri 4 % və ondan çox olan 10 dövlət sırasında yer almışdır. Təsadüfi deyildir ki, 2019-cu ildə Azərbaycanın hərbi büdcəsi 1,85 milyard dollar olmaqla Ermənistanın anoloji büdcəsini təxminən 3 dəfə (650 milyon dollar) üstələmişdir. 2019-cu ilin göstəricilərinə əsasən, dünyanın ən güclü orduları sırasında Azərbaycan 52-ci, Ermənistan isə 96-cı mövqedə olmuşdur. Hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yeri tutmuşdur. Dəniz gücü üzrə isə Azərbaycan 67-ci yerdə, Ermənistan isə dəniz ölkəsi olmadığından bu sahədə imkanları sıfıra bərabər hesab olunmuşdur. Tank gücü üzrə isə Azərbaycan 32-ci, Ermənistan isə 2 dəfədən də aşağı göstəriciyə (78) malik olmuşdur. 2022-ci il üçün icmal büdcənin proqnozuna əsasən, müdafiə və təhlükəsizlik xərcləri 4 milyard 499 milyon 238,9 min manat olacaq [541]. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin 19 illik hakimiyyət dövründə Azərbaycanın hərbi xərcləri 24 dəfədən çox artmışdır.

Ölkəmizdə qısa zaman ərzində 20-dən artıq hərbi zavodun işə salınması və müasir hərbi-sənaye kompleksinin formalaşması tarixi nailiyyət hesab olunmalıdır. 5-ci nəsil silahların dünyanın aparıcı silah ixracatçılarından alınması və bu sahədə də

uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividentlər gətirmişdir. *"Bayraktar TB2", "HAROP", "İtiqovan", "Zərbə", "Orbiter" PUA*-ları düşmənin texnikası və canlı qüvvəsini darmadağın edən ən yüksək texnologiyaya malik müasir silahlardır. Ordumuzda döyüş ruhu və hərbi-vətənpərvərlik hissinin ən yüksək səviyyəsi təmin edilmişdir. Ordumuz Vətən qarşısında xilaskarlıq missiyasını həyata keçirdiyindən intəhasız motivasiyaya malik olduğu halda, düşmən ordusu öz işğalçı mahiyyəti səbəbindən bütün bunlardan məhrumdur.

Azərbaycan xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla beynəlxalq hərbi əlaqələrini qarşılıqlı maraqlar çərçivəsində yaradır. Beynəlxalq hərbi əməkdaşlıq fəaliyyəti Xarici İşlər Nazirliyi və digər aidiyyəti dövlət orqanları, idarə, təşkilat və müəssisələrlə əlaqəli şəkildə, Müdafiə Nazirliyi tərəfindən Hərbi Doktrina və *"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq konsepsiyası"* əsasında reallaşdırılır. Beynəlxalq hərbi əməkdaşlıq Azərbaycanın milli maraqlarına uyğun həyata keçirilir. Azərbaycan Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, Belarus, ABŞ, Böyük Britaniya, Pakistan, İsrail və s. ölkələrlə hərbi, hərbi-texniki və hərbi-siyasi əməkdaşlıq əlaqələri yaradır. Bu ölkələr arasında Azərbaycan ən mühüm tərəfdaşı Türkiyə Respublikasıdır. Azərbaycan-Türkiyə əməkdaşlığı yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsindən ibarət deyil, həm də regionda sülh və təhlükəsizliyin təmini istiqamətində hərbi əməkdaşlıq əlaqələridir. ***2010-cu il sentyabrın 15-də*** bağlanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"yə əsasən Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası yaradıldı. Müqavilənin 2-ci maddəsinə görə, tərəflərdn biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, tərəflər BMT Nizamnaməsinin 51-ci mad-

dəsi ilə tanınan fərdi və ya kollektiv özünümüdafiə hüququnun həyata keçirilməsi üçün, hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcək [101, s. 134].

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında imzalanmış "İkitərəfli Hərbi Əməkdaşlıq Planı" hər iki ölkə arasında, o cümlədən, İsrail dövləti ilə hərbi sahədə əməkdaşlıq dinamik inkişaf edir.

Beləliklə, Respublika Prezidenti İlham Əliyevin güclü ordu quruculuğu siyasəti, ordumuzun gündən-günə gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, aparılan məqsədyönlü islahatlar, beynəlxalq hərbi əməkdaşlıq sahəsində uğurla həyata keçirilən tədbirlər nəticəsində 44 günlük İkinci Qarabağ müharibəsində Müzəffər Azərbaycan Ordusu işğalçı Ermənistan üzərində qələbə çaldı. Dünya dövlətlərinin hərbi qurumları və beynəlxalq təşkilatlarla tərəfdaşlıq münasibətlərinin qurulması nəticəsində hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə ikitərəfli və çoxtərəfli sazişlər bağlandı. Hərbi fəaliyyətin müxtəlif sahələri üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi imkanlarının genişləndirilməsi, ordumuzun döyüş qabiliyyətinin və peşəkarlığının artırılması, digər dövlətlərin silahlı qüvvələri ilə qarşılıqlı koordinasiyanın təşkil edilməsi, beynəlxalq və regional təhlükəsizliyə təhdid yaradan böhranların, silahlı münaqişələrin qarşısının alınması və nizamlanması, sülhməramlı əməliyyatlarda iştirakın təmin edilməsi baxımından faydalı əməkdaşlıq mühiti yaradıldı. Beynəlxalq hərbi əməkdaşlıq sahəsində ən önəmli strateji tərəfdaş Türkiyə Respublikası və onun Silahlı Qüvvələridir.

Azərbaycan torpaqlarının işğaldan azad olunması və ərazi bütövlüyünün təmin olunmasında əsas amillərdən biri də Respublika Prezidenti İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu diplomatiyasıdır. Həmin illər boyu Prezident İlham Əliyev dünyanın aparıcı KİV-nə verdiyi 30-dan çox müsahibəsində

Azərbaycan dövlətinin milli maraqlarını, onun haqq işini, bu müharibədə ədalətli tərəf olduğunu, erməni vandalizminin ürək ağrıdan nəticələrini beynəlxalq ictimaiyyətə çatdırırdı. Cənab İlham Əliyev nəinki döyüş meydanında, eləcə də informasiya cəbhəsində də böyük Qələbə qazandı. Dövlət başçısı müsahibələrində bölgədə son vəziyyətlə bağlı ətraflı məlumatı, Azərbaycnın beynəlxalq norma və prinsiplərə əsaslanan mövqeyini, Ermənistan dövlətinin isə terrorçu, təcavüzkar siyasətini və onun nəticələrini və s. beynəlxalq ictimaiyyətə çatdırmaqla yanaşı, bəzi media agentliklərinin qərəzli suallarını konkret arqumentlərə, beynəlxalq təşkilatların qərarlarına, tarixi faktlara dəqiq istinadlar edərək, hətta qarşı tərəfin iddialarını onun təmsil etdiyi ölkənin timsalında tutarlı şəkildə, təmkinlə cavablandırırdı və Azərbaycanın haqlı olduğunu bütün dünyaya sübut edirdi. "Hər hansı dövlət ermənilərə öz müqəddəratını təyinetmə hüququ vermək istəyirsə, bunu öz ərazilərində yaşayan ermənilərə şamil edə bilər", - deyən İlham Əliyev Azərbaycana qarşı olan ittihamların dayandırılmasını tələb etdi [636]. Qeyd olunduğu kimi, Respublika Prezidenti bütün müsahibələrində Azərbaycanın milli maraqlarını cəsarətlə müdafiə edib.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixə yazdırdı. Azərbaycan xalqının qalibiyyət salnaməsinin müəllifi olan İlham Əliyev Vətən müharibəsinin qəhrəmanına çevrildi.

Rusiyanın tanınmış ictimai xadimi, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksandr Duqinin fikirlərinə istinad etmək yerinə düşər: "Düşünürəm, hal-hazırda İlham Əliyev dünyada bir nömrəli siyasətçidir. Son illər ərzində heç bir siyasi liderə İlham Əliyev qədər öz xalqı və dövlətinin milli maraqlarını müdafiəsi işinin öhdəsindən belə parlaq səviyyədə gəlmək nəsib olmamışdır".

Müzəffər Ali Baş Komandan, ölkəmizin rəhbəri *İlham Əliyev 2020-ci il noyabrın 6-da* "BBC News"a müsahibəsində

demişdir: "... Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir" [609].

6. Şəhid ailələri və qazilərə dövlət və ümumxalq qayğısı

2020-ci il 27 sentyabr tarixində Ermənistanın Azərbaycanın mülki əhalisini və infrastruktur obyektlərini müxtəlif silahlardan atəşə tutaraq etdiyi növbəti təxribatına cavab olaraq səhər ***saat 06.00 radələrində*** Ali Baş Komandan, Respublika Prezidenti İlham Əliyevin Azərbaycan Milli Ordu qoşunlarının bütün cəbhə boyu əks hücum əməliyyatına başlaması barədə verdiyi əmrlə ***"Dəmir yumruq"*** əməliyyatının icrası, beləliklə, ***İkinci Qarabağ müharibəsi*** başladı. 44 gün davam edən ***Vətən müharibəsi*** Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Milli Ordusunun qalibiyyəti, düşmən qüvvələrinin isə məğlubiyyəti ilə başa çatdı. 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqları azad olundu, ərazi bütövlüyümüz bərpa olundu. Bu tarixi missiyanı yerinə yetirən Azərbaycan övladları əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərərək, ən ali məqsədlər naminə düşmənin üzərinə yürüyərək sağlamlıqlarından oldular, şəhadət şərbətini içdiər. ***Birinci və İkinci Qarabağ müharibələrində, 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci ilin iyulunda baş verən Tovuz hadisələrində, 2022-ci ilin sentyabrında*** Ermənistanın törətdiyi ***təxribatlar*** nəticəsində şəhid olmuş əsgərlərimizin ailələri, əlil olan qazilərimiz daim dövlətin və xalqın diqqət və qayğısı ilə əhatə olunur. *Prezident İlham Əliyevin və Birinci vitse-prezident*

Mehriban Əliyevanın müvafiq tapşırıqlarına, dövlət başçısının imzaladığı fərman və sərəncamlara uyğun olaraq, dövlət qurumlarında belə insanların problemlərinə xüsusi diqqət yetirilir, onların həlli istiqamətində zəruri tədbirlər görülür. Vətən uğrunda şəhid olmuş hərbiçilərin ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, o cümlədən onların övladlarının təhsil haqqından azad edilməsi, bu insanların mənzil və avtomobillə təmin olunması təqdirəlayiqdir. Dövlətin bu istiqamətdə həyata keçirdiyi tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlara əsasən, əlillərə verilən pensiya və müavinətlərin məbləği davamlı olaraq artırılır, şəhid ailələrinin və qazilərin məşğulluq problemi aradan qaldırılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial dəstək paketi çərçivəsində 6000-dən çox şəhid ailəsi üzvünün və qazinin məşğulluq problemini həll edib. Əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq, *Nazirlər Kabineti Əlillərin sosial müdafiəsi üzrə Dövlət Proqramının* maliyyələşdirilməsini təmin edib.

Demək olar ki, Vətən müharibəsində yaralanaraq aşağı ətrafları amputasiya olunmuş 114 qazi "Genium" sistemi üzrə hazırlanmış 118 yüksək texnologiyalı protezlə təmin olunub və bu istiqamətdə işlər davam etdirilir. Bu proqram çərçivəsində 9100 nəfərdən ibarət şəhid ailələrinə və müharibə əlillərinə 18,4 min sosial ödəniş edilib. 7 mindən çox insana 10 min sosial-psixoloji və reabilitasiya xidməti göstərilib. 1200-ə yaxın müharibə əlili 8800-dən çox reabilitasiya vasitəsi ilə təmin olunub. Bu kateqoriyadan 7100 nəfər özünüməşğulluq və digər aktiv məşğulluq fəaliyyətlərinə cəlb olunub. *25 iyun 2021-ci il "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi* altında başladılan *"Məşğulluq Marafonu"*nda iştirak edən və 2044 vakant iş yeri təqdim edən 455 işəgötürəndən 234-ü dövlət, 221-i isə özəl müəssisədir. Bu vakant iş yerləri 566 nəfəri: 460 qazini, 106 şəhid

ailəsini işlə təmin etmişdir [101, s. 342]. 2021-ci ilin noyabr ayı üçün 589 işəgötürən (47,4% dövlət, 52,6% özəl) qoşularaq 3641 vakant iş yeri təqdim edib. Bu kateqoriyalardan 1178 nəfər (186 şəhid ailəsi üzvü və 992 qazi) marafona təqdim olunmuş vakant yerlər əsasında artıq işlə təmin olunub [664]. 2022-ci il iyul ayı üçün verilən məlumata əsasən "Məşğulluq marafonu"na ötən dövrdə 654 işəgötürən qoşulub. Vətən müharibəsində şəhid olmuş hərbiçilərin ailə üzvlərinin və xəsarət almış qazilərin məşğulluğuna dəstək məqsədilə keçirilən marafona 4585 vakant iş yeri təqdim olunub. Artıq bu vakant yerlərə 2500-ə yaxın şəhid ailəsi üzvü və qazi işə götürülüb. Onlardan 2044 nəfəri qazi, qalanları isə şəhid ailələrinin üzvləridir [665]. Hal-hazırda vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir. Azərbaycan Respublikası Prezidentinin *25 iyun 2021-ci il tarixli "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərmanına* əsasən şəhid ailələri və qazilərin əmək, məşğulluq, sosial müdafiəsi, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və digər sahələrdə ümumilikdə 7 qurum üzrə 26 xidmət "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipləri əsasında göstərilir. Sərəncama uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7400 minik avtomobili, 2021-ci ildə 3000, sonra isə 3500 mənzil verilib. Ümumilikdə, 12 min 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunub. Bu kateqoriyadan olan insanların mənzillə təmin olunması prosesi davam edir və hökumət bunu 2025-ci ilə qədər başa çatdırmaq üçün mühüm addımlar atır [700]. Respublika Prezidentinin sərəncamı ilə ölkəmizdə fəaliyyət göstərən banklara 830 Vətən müharibəsi şəhidinə məxsus 1503 kredit üzrə əsas borcun və faizlərin silinməsi təmin edilib.

"Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifahının yaxşılaşdırılmasının və onlara göstərilən dövlətin dəstək və davamlı qayğının bariz nümunəsidir.

Azərbaycan xalqı, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər qurumlar şəhid ailələrinin, qazilərimizin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması üçün həmrəylik nümayiş etdirirlər.

Qazi və şəhid ailələrinin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin həyata keçirilməsi və bunun üçün müvafiq platformanın yaradılması məqsədilə *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin **2020-ci il dekabrın 8-də** imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərman ilə **"YAŞAT"** Fondu* təsis edildi. YAŞAT Fondu yarandığı gündən Fondun hesabatında bildirilir ki, 2021-ci il dekabrın 2-dək Fonda 65 milyona yaxın vəsait daxil olub. Fond 69 qrup təşkil edib. Bu qruplardan biri operativ olaraq təcili müraciətlər olan yerə göndərilib, qalan 68 qrup isə bölgələrdə fəaliyyət göstərirdi. Onlar şəhid ailələrinin problemlərini öz dillərindən eşidib öz gözləri ilə görmək üçün regionları evbəev gəzdilər. Bu görüşlər zamanı 2916 şəhidin ailə üzvləri, habelə 4946 yaralı olmaqla 16 348 nəfərlə görüşülmüş, ehtiyacları qeydə alınmış və 10 781 şəxsin 15 644 müraciəti icra olunmuşdur. Şəhid ailələrinin və yaralıların ehtiyaclarına 4954136.86 manat pul xərclənib. 15719626.91 manat hələlik istifadə olunmamış qalıb. Xərclənən vəsaitdən 32173789.50 manat məişət şəraitinin yaxşılaşdırılma-

sına, 445228.51 manat təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafına, 5395854.57 manat istehlak kreditlərinin və başqa borc öhdəliklərinin qarşılanmasına, 1139264.28 manat isə müalicə və psixoloji dəstək xərclərinin ödənilməsinə sərf olunub. Şəhid ailə üzvlərinin 137, yaralıların isə 20 müraciəti olmaqla təhsilə, peşə hazırlığına və yaradıcılıq potensialının inkişafına yönəldilmiş xərclər üçün ümumilikdə 157 müraciət təmin edilib. Fondun təşəbbüsü ilə təhsil müəssisələrinə 222 min manat vəsait daxil olub. Təhsil haqqı qarşılanan 63 şəxsin ödənişi Fond tərəfindən, 60 şəxsin isə ödənişi Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb [701].

"YAŞAT" Fondu layihəsi çərçivəsində yeni doğulmuş 102 şəhid övladından 93 şəhid övladına 1000 AZN məbləğində maddi yardım edilmiş, 76 şəhid övladının adına 5000 AZN məbləğində depozit hesabı açılmışdır.

Ölkəmizdə müalicəsi mümkün olmayan ən ağır yaralılarımız müalicə olunmaq və sağalmaq üçün ölkə hüdudlarından kənarda - Türkiyə dövlətinə göndərilir. Layihə çərçivəsində Türkiyəyə göndərilən 131 ağır yaralıdan 82-si sağalaraq ölkəyə qayıdıb, 49 nəfərin müalicəsi davam etdirilir. Bundan əlavə, Vətən müharibəsində ağır xəsarət almış 150-dən çox yaralı və komada olan xəstə Türkiyə Respublikasından ölkəmizə dəvət olunmuş yüksək ixtisaslı həkimlər - ortoped, neyrocərrah, ümumi cərrah və digər həkimlər tərəfindən müayinə olunmuşdur. 2021-ci il fevralın 28-dən martın 7-dək olan müddətdə Vətən müharibəsi yaralılarının müalicəsi üçün İsraildən 8 mütəxəssis gətirilərək ağır göz problemləri olan 148 nəfər müayinə olunub, 30 nəfər əməliyyat olunub, gözün buynuz qişa transplantasiyası nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa edilib, 55 nəfərə protez göz qoyulub, 82 nəfər müayinə olunub.

29 aprel-25 may 2021-ci* il** tarixlərində "Qələbəni bizə yaşadanları birlikdə yaşadaq" şuarı altında dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız *"Dəmir yumruq"* ətrafında ***Zəfər

tariximizi öz canları, qanları ilə yazan qazilərə və şəhidlərimizin ailələrinə dəstək üçün *"YAŞAT" xeyriyyə marafonu* təşkil etdilər. Marafon müddətində 1000000 manatdan çox vəsait toplandı. Ən çox ianə edənlər Türkiyə, Ukrayna, Rusiya, Böyük Britaniya, İsrail dövlətlərində yaşayan diaspor nümayəndələri idi. 6 ölkədən: ABŞ, Türkiyə, İsrail, İtaliya, Banqladeş və Pakistandan, hətta Baham adalarından, Trinidad və Tobaqo, Kolumbiya, Braziliya, Ekvadordan da xaricilər marafona qoşulmaqla bağlı çağırışlar etdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "YAŞAT" Fondunun yaradılması haqqında Sərəncamı cənab prezidentin bəyan etdiyi kimi "Həyata keçirdiyimz siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır" şüarının yüksək səviyyədə həyata keçirildiyinin əyani sübutudur.

7. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri və "Böyük Qayıdış" proqramı. WUF13

44 günlük Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və xalqımızın həmrəyliyi ilə Azərbaycan Milli Ordusunun qəhrəmanlığı sayəsində Zəfərlə bitdi. 30 ilə yaxın bir müddətdə Ermənistan dövlətinin işğalı altında qalan Azərbaycan torpaqları tamamilə və vəhşicəsinə dağıdılmışdır. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərin infrastrukturunun bərpası və insanların öz doğma yurdlarına qaytarılması, onların rifahının yaxşılaşdırılması, məşğulluğun təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi üçün sistemli tədqiqatların aparılması və müvafiq tədbirlərin həyata keçirilməsi tələb olunur. Aparılan bərpa işləri iqtisadi və sosial baxımdan sərfəli olduğundan Prezident İlham Əliyev bu ərazilərə səfərlər edir. Ölkə başçısı səfərləri zamanı çıxışlarında bəzi iqtisadi layihələrin başlandığını və başa çatdığını bildirərək qeyd edirdi ki, bu layihələr: avtomobil və dəmir yollarının çəkilməsi, su elekt-

rik stansiyalarının, hava limanlarının tikilməsi və digər mühüm iqtisadi layihələr tam şəkildə Azərbaycan dövlətinin hesabına maliyyələşdirilir. İşğaldan azad olunmuş torpaqlarda icra edilən ilk layihələrdən biri 16 noyabr 2020-ci ildə Füzuli-Şuşa avtomobil yolunun, 14 yanvar 2021-ci ildə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci km-də Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının, 14 fevral tarixində Füzulidə Horadiz-Ağbənd dəmir yolu xəttinin, Zəngilanın Ağalı kəndində "Ağıllı kənd"in, martın 15-də Füzuli-Hadrut avtomobil yolunun, Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun, aprelin 26-da Zəngilanda Beynəlxalq Hava Limanının, Horadiz-Zəngilan avtomagistral yolunun, Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində - Murovdağda inşa olunacaq tunelin, avqustun 16-da Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək tunelin, Laçın hava limanının və s. layihələrin təməli qoyulmuş, daxili əhəmiyyətə malik olan 700 km uzunluğunda yolların çəkilişi həyata keçirilməyə başlanmışdır. Bundan başqa, *2021-ci il fevralın 14-də Laçın rayonunun Güləbird kəndində* ilk infrastruktur layihəsi kimi *su elektrik stansiyasının* açılışı olub və digər mühüm iqtisadi proqramların icrası müəyyən edilib [101, s. 419].

Azərbaycan Prezidenti İlham Əliyevin postmüharibə dövründə Qarabağın sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də məcburi köçkünlərin erməni işğalından azad edilmiş torpaqlarımıza qayıtması - ***"Böyük Qayıdış"***ın həyata keçirilməsidir. ***"Ağıllı şəhər"*** və ***"Ağıllı kənd"*** modelləri erməni işğalından azad olunmuş ərazilərimizin yenidən qurulması modelləridir. Yeni modelin həyata keçirilməsi üçün seçilmiş ilk kənd *Zəngilanın Ağalı kəndi* müəyyən edilmişdir.

28 may 2021-ci il tarixində Ağdamın Baş Planı – işğaldan azad edilmiş torpaqlarda ilk baş plan təsdiq olundu. 2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı demişdir: "Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məc-

buri köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda *Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd* rayonlrında da *pilot kəndlər* seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq" [680].

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni iqtisadi rayonlaşdırma tədbirləri həyata keçirilir. Prezidentin Sərəncamı ilə *14 iqtisadi rayon* yaradılıb. Səfərləri zamanı Prezident İlham Əliyev həm də onu qeyd elədi ki, "onlardan ikisinin – ***Qarabağ*** və ***Şərqi Zəngəzur*** iqtisadi rayonlarının yaradılması tarixə əsaslanır. Belə ki, hər iki bölgə bizim əzəli torpaqlarımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur Ermənistanın nəzarəti altındadır və Zəngəzur dəhlizinin açılışı nəticəsində vətəndaşlarımız öz əzəli torpaqlarımıza qaytarılacaq. Çünki bizim vətəndaşlarımız ... təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da ... zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar" [680].

Qarabağ müharibələri Azərbaycan dövləti və cəmiyyəti üçün həm sosial-iqtisadi, həm də sosial-psioloji, ekoloji, siyasi və s. problemlər yaradıb. Postmüharibə dövrdə münaqişələrin təkrarlanma riskini minimuma endirmək, sosial, siyasi və iqtisadi institutlara inamı bərpa etmək üçün dövlətin iqtisadi təhlükəsizliyini nəzərə almaqla əhalinin təhlükəsizliyini təmin etmək imkanlarını artırmaq mühüm məsələlərdən biridir.

UNDP (BMTİP) (United Nations Development Programme/Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) tərəfindən aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, postmüharibə dövründə sülhün bərpası üçün hərbi əməliyyatların və zorakılığın dayandırılması, sülh müqavilələrinin imzalanması,

demobilizasiya, tərk-silah və reinteqrasiya, qaçqınların və məcburi köçkünlərin geri qaytarılması, ərazidə dövlətin iş mexanizminin əsasını yaratmaq, ərazidə barışıq və sosial inteqrasiyaya başlamaq, iqtisadi dirçəliş üçün zəmin yaratmaq lazımdır [709, s. 17]. Bu siyahıya aşağıdakıların əlavə edilməsi vacib hesab olunur:

- təhlükəsizlik (sərhəd nəzarəti, polis və digər aidiyyəti orqanlar);
- idarəetmə (regional və yerli hakimiyyət orqanlarının infrastrukturu, yeni kadrların işə qəbulu və lazımi təlimlərin keçirilməsi, vergi və ödəniş sistemlərinin bərpası);
- nəqliyyat (avtomobil, hava və dəmir yolu nəqliyyatı);
- təchizat (əhalinin ərzaq və digər istehlak malları ilə, müəssisələrin isə xammal və avadanlıqlarla, ilk növbədə tikinti materialları ilə təmin edilməsi);
- kommunikasiyalar (telefon rabitəsi, radio və televiziya verilişləri, poçt xidməti);
- banklar və maliyyə (sənaye, kənd təsərrüfatı və mülki inşaat kreditləri, istehlak kreditləri);
- təhsil (ümumi və orta ixtisas məktəbləri, məktəbəqədər təhsil müəssisələri, peşə hazırlığı mərkəzləri);
- səhiyyə (xəstəxanalar, poliklinikalar, dispanserlər) [88; 629, s.17-18].

Azərbaycanda qeyd olunan məsələlərin bəziləri öz həllini tapsa da, bəzilərinin həyata keçirilməsi üçün dağıntıların səviyyəsindən, münaqişənin davametmə müddətindən, formalaşmış sosial-psixoloji vəziyyətdən asılı olaraq zaman tələb olunur.

Respublika Prezidenti İlham Əliyevin ***2 fevral 2021-ci il*** tarixli Sərəncamı ilə təsdiq edilmiş ***"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"*** sənədi əsasında ***5 milli prioritet*** müəyənləşdirilmişdir. Onlardan biri də işğaldan azad edilmiş ərazilərə ***"Böyük Qayıdış"dır***. Bu prioritetin həyata keçirilməsi üçün *2 məqsəd* qarşıya qoyulmuşdur: *davamlı köçürmə*

və iqtisadi fəaliyyətə reinteqrasiyaya nail olmaq. Respublika Prezidenti ***2021-ci il noyabrın 24-də*** işğalçılar tərəfindən dağıdılmış ərazilərdə bərpa işlərinin aparılması prosesinin sistemli və mərhələli şəkildə, vahid strategiya əsasında həyata keçirilməsi məqsədilə işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün ***Əlaqələndirmə Qərargahının*** yaradılması haqqında Fərman imzalayıb. Əlaqələndirmə Qərargahının nəzdində yaradılmış ***İdarələrarası Mərkəzdə*** müxtəlif dövlət strukturlarının nümayəndələrini təmsil edən ***İşçi qrupları*** fəaliyyət göstərir. Əlaqələndirmə Qərargahı müvafiq dövlət orqanlarının rəyləri əsasında hər bir məsələyə kompleks yanaşmanı təmin edir. Əlaqələndirmə Qərargahının qarşıya qoyduğu hər bir məqsəd üzrə tədbirləri, icra müddətlərini və məsul qurumları əks etdirən bir sıra sənədlər qəbul edilib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkşafı üzrə Dövlət Proqramı"nın layihəsi işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, onların ölkə iqtisadiyyatına reinteqrasiyası, dayanıqlı inkişafının təmin edilməsi, yüksək sosial rifaha nail olunması məqsədilə hazırlanmışdır. Bu layihə işğaldan azad edilmiş ərazilərimizdə hərbi-siyasi, sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin səmərəli həlli üçün hazırlanan Əlaqələndirmə Qərargahının Strateji Fəaliyyət Planında tapşırıq kimi qeyd edilmişdir. *"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bağlı Konsepsiyası"* əsasında "Dövlət Proqramı"nın layihəsi hazırlanmış, mütərəqqi beynəlxalq təcrübə və işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı nəzərdən keçirilmişdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı aparılan mütərəqqi islahatlardan biri də işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin yaradılmasıdır. Xüsusi nümayəndəliklərin yaradılması işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə nəzarətin güc-

ləndirilməsinə, hesabatlılığın artırılmasına, layihələrin vahid dövlət siyasətinə uyğun həyata keçirilməsinə xidmət edir. İlkin mərhələdə *Prezident İlham Əliyevin Şuşa və Ağdam rayonlarının işğaldan azad edilmiş hissəsinə* ***xüsusi nümayəndələri*** təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin ***2021-ci il 4 fevral*** tarixli Fərmanı ilə təsdiq edilmiş ***"Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"***yə əsasən müvafiq ərazinin müəyən edilmiş hədəflərə uyğun olaraq inkişafını təmin etmək, perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının) müvafiq ərazinin müəyyən edilmiş məqsədlərə uyğun inkişafını, perspektiv inkişafı ilə bağlı məqsədlərə nail olunmasını təmin etmək, onların yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək, müvafiq ərazidə mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsini təşkil etmək xüsusi nümyəndəliyin əsas fəaliyyət istiqamətləridir. Azərbaycanda işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək məqsədi ilə həyata keçiriləcək tədbirlər 4 mərhələdə icra olunacaq: 1) idarəetmə və təhlükəsizlik; 2) infrastruktur məsələlərinin həlli; 3) sosial xidmətlərin fəaliyyətinin təmin edilməsi; 4) iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələlərinin həlli. İşğaldan azad edilmiş ərazilərinin bərpası üçün əsas prinsiplər aşağıdakılardır:

1. Məcburi köçkünlərin öz doğma ərazilərinə "Böyük Qayıdış"ının və məskunlaşmasının təmin edilməsi;
2. İnfrastruktur təminatının bu regionun 4 davamlı logistik imkanlarına uyğunlaşdırılması;
3. Əhalinin geri qayıdışı zamanı sosial ədalət və mülkiyyət hüquqlarının bərpası prinsipinə əməl olunması;
4. İqtisadi ikisafın dayanıqlılığının təmin olunması;

5. Tələb olunan investisiyaların həcminin optimallaşdırılması;
6. Dövlət xərclərinin azaldılması məqsədilə bərpa prosesinə özəl, həmçinin yerli və xarici investisiyaların cəlb edilməsi, xüsusilə dövlət və özəl sektor tərəfdaşlığından geniş istifadə olunması;
7. Bərpa və yenidənqurma prosesində müasir texnologiyaların və elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi və bu həllərin ölkənin digər regionlarında da həyata keçirilməsi üçün pilot səciyyəsi daşıması;
8. Ərazilərin bərpası prosesinin yerli istehsala daha çox tələb yaratması və beləliklə, ölkə iqtisadiyyatının artımının stimullaşdırılması [101, s.432-433].

Qarabağın bərpası və orada iqtisadi inkişafın təmin edilməsində əsas məqsədlərdən biri də məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasıdır. Azərbaycan Prezidenti ***İlham Əliyevin*** sözlərinə görə, minalardan təmizləndikdən və infrastrukturun bərpasından sonra azərbaycanlıların işğaldan azad edilmiş ərazilərə qayıtması ***2022-ci ildən*** planlaşdırılır [580]. ***Şuşanın*** tarixi xüsusiyyətlərinə uyğun olaraq hazırlanmış yeni planına əsasən ilkin mərhələdə simvolik olaraq *2020 nəfər şuşalı* geri dönəcəkdir [581].

2023-cü il martın 16-da 20 məcburi köçkün ailəsi Talış kəndinə qayıtdı [704]. *18 avqust 2023-cü ildə Füzuli* şəhərinə ilk köç (*90 nəfərdən ibarət 25 ailə*) baş verdi [623].

Şərqi Zəngəzur iqtisadinun Birinci, İkinci və Üçüncü *Ağalı* kəndlərinin *Qarabağda və Şərqi Zəngəzurda* məskunlaşılan ilk kəndlərə çevrilməsi planlaşdırılır. Ağalı kənd məskunlarının ilk qrupu *2022-ci il iyulun 19-da Zəngilana* köçürüldü [582]. *Laçın şəhərinə ilk köç 27 may 2023-cü ildə olmuş, 20 laçınlı ailə (97 nəfər) geri qayıtmışdır* [661]. *2023-cü il avqustun 25-də La-*

çının Zabux kəndinə I Qarabağ müharibəsi şəhidinin ailəsi də daxil olmaqla *20 ailə (88 nəfər)* geri qayıdıb [662].

"Böyük Qayıdış" Birinci Dövlət Proqramı çərçivəsində ilkin mərhələdə bərpa olunacaq *100 yaşayış məntəqəsindən* ümumilikdə *43-nün - 7 şəhər və 36 qəsəbə-kəndinin* ərazi planlaşdırma sənədlərinin hazırlanması işləri yekunlaşmaq üzrədir.

Dövlət Proqramına əsasən, *2022–2026-cı illərdə* əhalinin davamlı qayıdışını və ərazilərə inteqrasiyasını təmin etmək üçün *34500 evin tikintisi, 140 minə yaxın insanın köçürülməsi* nəzərdə tutulur. Bu illər ərzində Ağdam rayonunda *9690 ev və mənzilin* tikilib istifadəyə verilməsi, həmçinin *42361 vətəndaşın* bu evlərə köçürülməsi planaşdırılır [586].

İşğaldan azad edilmiş ərazilərin potensialı və müqayisəli üstünlükləri nəzərə alınmaqla ***4 regional mərkəzin*** yaradılması nəzərdə tutulur: ***Ağdamda sənaye, Cəbrayılda logistika və ticarət, Şuşada mədəniyyət və turizm, Kəlbəcərdə mədənçilik və turizm mərkəzləri.*** Postmüharibə dövründə iqtisadi siyasət milli və sektoral çərçivələr əsasında həyata keçirilir. Bu ərazilərdə hasilat sənayesi, alternativ enerji, mineral suların və kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, turizm və nəqliyyat, tikinti məhsullarının istehsalı, təhsil, informasiya və kompyutor texnologiyaları, yerli xammal əsasında tikinti məhsullarının istehsalı üzrə ixtisaslaşan regional profillərin müəyyən edilməsi nəzərdə tutulur.

Beləliklə, postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə görülmüş və görülməkdə olan işlər aşağıdakılardır:

Ağdam

- Ağdam Sənaye Parkının təməli qoyulub;
- Açıq səma altında İşğal və Zəfər muzey-komplekslərinin və Mərkəzi meydanın təməli qoyulub;

- 1-ci yaşayış binasının və 1 nömrəli məktəbin təməli qoyulub;
- 44 km-lik Bərdə-Ağdam avtomobil yolunun tikintisi davam edir;
- "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi davam edir;
- Ağdam Xüsusi Nümayəndəliyinin müvəqqəti düşərgəsinin tikintisi davam edir;
- Ağdam-Xındırıstan enerji xəttinin çəkilməsi davam edir;
- Bərdə-Ağdam dəmir yolunun yenidənqurulması davam edir;
- "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamda inkişaf impulsları" mövzusunda Beynəlxalq elmi-praktik kofrans keçirilib;
- "Yolumuz Ağdama" adlı müntəzəm səfərlər təşkil edilir [101, s. 436-439];
- Ağdam şəhərinin baş planı təsdiqlənərək təməli qoyulub.
- Qırğızıstan Prezidenti Sadır Japarovun təşəbbüsü ilə Ağdamın Xıdırlı kəndində tam orta məktəb binasının təməli qoyulub [584].

Xocavənd

- Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yollarının təməli qoyulub;
- "Hadrut" yarımstansiyasının təməli qoyulub. Füzuli rayonundakı 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına qədər uzunluğu 27 km olan 35 kV-luq ikidövrəli hava xətti çəkilib;
- Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq "Daşaltı" yarımstansi-

yası inşa edilib. Yarımstansiyanı qidalandırmaq üçün "Hadrut" yarımstansiyasından 53,3 km uzunluğunda elektrik veriliş xətti çəkilib. "Hadrut" – "Daşaltı" elektrik veriliş xətti vasitəsilə ilkin mərhələdə Şuşa şəhərinin, Xocavənd rayonunun bəzi kəndlərinin və ətraf ərazilərdəki mühüm strateji obyektlərin, eyni zamanda bu istiqamətdə aparılan yol infrastrukturu və digər tikinti işlərinin elektrik təchizatı təmin edilib;

- Hadrutda məscidin tikintisinə başlanılıb.

Cəbrayıl

- "Araz Vadisi İqtisadi Zonası"nın təməli qoyulub;
- "Cəbrayıl" yarımstansiyası istifadəyə verilib;
- Lacın və Kəlbəcər rayonlarında hazırda su-elektrik stansiyalarının bərpası işləri davam edir;
- Tərtər rayonunda Suqovuşan su-elektrik stansiyasının fəaliyyəti təmin edilib;
- Zəfər və İşğal muzeylərinin təməli qoyulub;
- Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub;
- 960 şagirdlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin və Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulub;
- Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışı olub;
- 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının açılışı olub;
- Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Cəbrayıl rayonuna uzunluğu 31 km olan 110 kV-luq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib;

- Cəbrayılda "KamAz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməli qoyulub;
- Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşı qoyulub [101, s. 436-439];
- Qumlaq dəmiryol stansiyasının təməli qoyulub
- "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməli qoyuub [646].

Tərtər

- Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışı olub;
- Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməli qoyulub;
- "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının yenidənqurma işləri tamamlanıb;
- Vətən müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulub.

Füzuli

- Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda işlər davam edir və Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməli qoyulub;
- Füzuli Beynəlxalq Hava Limanının tikintisi davam edir;
- Uzunluğu 100 km olan Horadiz-Ağbənd dəmir yolunun təməli qoyulub;
- 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası istifadəyə verilib [101, s. 436-439];
- Çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub;
- Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməli qoyulub;

- Füzuli şəhərinin baş planı təsdiqlənərək təməli qoyulub;
- Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin təşəbbüsü olan Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub;
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev təşəbbüsü ilə Füzuli şəhərində Uluqbəy adına 1 nömrəli məktəbin açılışı olub [679].

Şuşa

- 110/35/10 kV-luq "Şuşa" yarımstansiyası istifadəyə verilib;
- Şuşada 960 şagirdlik 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub;
- Şuşada yeni məscidin təməli qoyulub;
- Şuşa şəhərində "Qarabağ" hotelinin açılışı olub;
- Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı olub;
- Şuşa şəhərində dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub;
- Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı olub;
- Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub;
- Şuşada "Hotel və Konfrans Mərkəzi"nin təməli qoyulub [101, s. 436-439];
- "Xarıbülbül" hotelinin açılışı olub.

Kəlbəcər

- Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11,6 km tunelin təməli qoyulub;
- 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyası istifadəyə verilib;

Laçın

- Laçın rayonunda 8 meqavatt gücündə olan "Giləbird" su-elektrik stansiyası istifadəyə verilib;
- Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 km uzunluğundakı tunelin təməli qoyulub;
- Laçın Beynəlxalq Hava Limanının təməli qoyulub (16 avqust 2021-ci il); (28 may 2025-ci ildə açılış mərasimi keçirilib).
- Uzunluğu 51 km olan İstisu-Minkənd yolunun yenidən çəkilməsi işlərinə başlanılıb.

Zəngilan

- Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub;
- Zəngilanda Beynəlxalq Hava Limanının 2021-ci ilin aprel ayında təməli qoyulub, 2022-ci il 20 oktyabrda açılış mərasimi keçirilib;
- Ümumi uzunluğu 124 km olan Zəngilan-Horadiz avtomobil yolunun təməli qoyulub [101, s. 436-439];
- Rəqəmsal Yarımstansiyanın təməli qoyulub;
- "Dost Aqropark"ın təməli qoyulub;
- Zəngilan məscidinin açılışı olub;
- Zəngilan Şaiqli Su Elektrik Stansiyasının açılışı olub [646].

Xankəndi

Xankəndi şəhərində genişmiqiyaslı tikinti quruculuq işləri aparılır. Prezident İlham Əliyevin ***"Qarabağ Universitetinin yaradılması haqqında" 2023-cü il 28 noyabr*** tarixli Sərəncamına uyğun olaraq, Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində ***"Qarabağ Universiteti"*** yaradıldı [638].

Bütün bunlar Qarabağın müasir həyatının reallıqlarıdır. Göründüyü kimi, Vətən müharibəsində Qələbədən sonra Qarabağa və ətraf rayonlara qayıdış böyük ictimai-siyasi və iqtisadi əhəmiyyət kəsb edən prosesə çevrilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin elan etdiyi ***"Böyük Qayıdış"*** 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra Azərbaycan xəritəsinin tam mənzərəsinin yaradılmasına, regionda və onun ətrafında yeni nəqliyyat – logistka qovşaqlarının formalaşdırılmasına və iqtisadi-mədəni inkişafın təmin edilməsinə geniş üfüqlər açan hərəkat səviyyəsində mövcud olan dövlət əhəmiyyətli bir proqramdır. Buna görə də ***"Böyük Qayıdış"*** Azərbaycan üçün mahiyyət etibarı ilə həm regional, həm də beynəlxalq miqyaslı hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən 15 iyun 2021-ci il Milli Qurtuluş Günündə işğaldan azad edilmiş Şuşa şəhərində imzalanmış ***Şuşa Bəyannaməsi "Böyük Qayıdış"*** epopeyası ideyalarının gerçəkləşdiriləcəyinin möhkəm təminatıdır. Azərbaycan-Türkiyə birliyi uzaqgörən dövlət xadimi Heydər Əliyevin ***"Bir millət - iki dövlət"*** ideyasının beynəlxalq və dövlətlərarası münasibətlərdə çətin sınaqlar nəticəsində bariz şəkildə təzahür edən sarsılmaz həmrəyliyin əyani təcəssümüdür.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsində verdiyi bəyanatlar qardaş ölkənin Azərbaycan Respublika-

sının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına hərtərəfli dəstəyinin canlı və ibrətamiz nümunəsidir.

Azərbaycan-Türkiyə-Pakistan müttəfiqliyi və həmrəyliyi ***"Böyük Qayıdış"*** epopeyasının alternativsiz dəstəyinin bariz ifadəsidir.

Şəhərsalma fəaliyyəti Azərbaycan Respublikasının sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin *22 dekabr 2025-ci il* tarixli Sərəncamı ilə ***2026-cı ilin "Şəhərsalma və Memarlıq İli"*** elan edilməsi bir daha bu sahənin dövlət siyasətində prioritet istiqamətlərdən biri olduğunu nümayiş etdirir. Bu siyasətin beynəlxalq səviyyədə mühüm nəticələrindən biri isə ***17-22 may 2026-cı il*** **tarixlərində Bakıda** ***BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13)*** **keçirilməsi olmuşdur.** ***"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri"*** mövzusuna həsr olunmuş Forum Azərbaycanın şəhərsalma və dayanıqlı inkişaf sahəsində beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirmişdir.

WUF13 COP29-dan sonra Azərbaycanın ev sahibliyi etdiyi ən böyük beynəlxalq tədbirlərdən biri olmuş və təxminən 60 min iştirakçını bir araya gətirmişdir. Forum çərçivəsində *ilk dəfə Azərbaycanın təşəbbüsü ilə keçirilən* ***Liderlər Seqmenti*** qlobal siyasi gündəlikdə şəhərsalma məsələlərinin daha yüksək səviyyədə müzakirəsinə imkan yaratmışdır. Forumun yekununda ***Sədrin Xülasəsi və "Bakı Fəaliyyətə Çağırış"*** sənədlərinin qəbul edilməsi *WUF13-ün* əsas nəticələri olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ***BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13)*** yekunları ilə bağlı sosial şəbəkə hesablarında paylaşımında qeyd etdiyi kimi: "Urbisid, kultursid və ekosid qurbanı olmuş ölkə kimi Azərbaycan hazırda Qarabağ və Şərqi Zəngəzurda 9 şəhəri və yüzlərlə kəndi sıfırdan yenidən qurur".

WUF13 Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi postmünaqişə bərpa və şəhərsalma siyasətini beynəlxalq auditoriyaya təqdim etmək baxımından da xüsusi əhəmiyyət kəsb edirdi. İşğal dövründə dağıdılmış yaşayış məntəqələrinin yenidən qurulması, yeni şəhər və kəndlərin salınması, müasir nəqliyyat və kommunal infrastrukturun yaradılması, yaşıl enerji və "ağıllı şəhər" texnologiyalarının tətbiqi göstərir ki, Azərbaycan postmünaqişə ərazilər üçün ***kompleks və dayanıqlı inkişaf modeli*** formalaşdırır.

Bu baxımdan, *WUF13* təkcə şəhərsalma məsələlərinin müzakirəsi edildiyi beynəlxalq forum deyil, həm də Azərbaycanın *postmünaqişə yenidənqurma təcrübəsini, dayanıqlı şəhər inkişafı yanaşmasını və multikultural əməkdaşlıq modelini* beynəlxalq səviyyədə təqdim etmək üçün bir platformadır. Forumun Bakıda keçirilməsi Azərbaycanın qlobal şəhərsalma gündəliyinin formalaşmasında iştirakını gücləndirməklə yanaşı, ölkənin beynəlxalq nüfuzunun və çoxtərəfli əməkdaşlıq imkanlarının daha da genişlənməsinə xidmət etmişdir [607, 642].

XRONOLOJİ CƏDVƏL

1923, 10 may – Heydər Əliyevin Naxçıvan şəhərində anadan olması.

1923, 7 iyul – Qarabağ iqtisadi rayonunun ərazilərinin bir hissəsini əhatə edən keçmiş "Dağlıq Qarabağa" muxtar vilayət statusunun verilməsi.

1939-1941 – Heydər Əliyevin Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) memarlıq fakültəsində oxuması.

1941-1944 – Heydər Əliyevin Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarlığı Sovetində şöbə müdiri vəzifəsində işləməsi.

1944-1956 – Heydər Əliyevin Dövlət Təhlükəsizlik orqanlarında fəaliyyəti.
1956-1965 – Heydər Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi Əks-Kəşfiyyat İdarəsinin rəisi vəzifəsində çalışması.
1957 – Heydər Əliyevin Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirməsi.
1965-1967 – Heydər Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini vəzifəsində işləməsi.
1967-1969 – Heydər Əliyevin Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin olunması.
1967, 6 noyabr – Bakı Metropoliteninin istismara verilməsi.
1969, iyul-1982 – Heydər Əliyevin Azərbaycan KP MK-nın Birinci katibi seçilməsi.
1971 – Azərbaycanın Davos İqtisadi Forumunda iştirakı.
1976 – Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçilməsi.
1979 – Azərbaycan dövləti ali təhsil sənədlərinin və elmi dərəcələrin dünya dövlətləri tərəfindən tanınması üçün YUNESKO-nun Paris Konvensiyasına, 1983-cü il Banqkok Regional Konvensiyasına qoşulması.
1982-1987 – Heydər Əliyevin Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin Birinci Müavini olması.
1987, oktyabr – "Qarabağ Komitəsi"nin İrəvanda ilk açıq mitinqinin keçirməsi."Krunk" təşkilatı. "Miatsum" hərəkatı.
1988, 20 fevral – DQMV Sovetinin sessiyasının "DQMV-nin Ermənistanın tərkibinə daxil edilməsini" təklif edən Qərarı.
1988, 2 may –"55-lər Komitəsi"nin yaradılması.
1988, 15 iyun – Ermənistan SSR Ali Sovetinin Azərbaycan SSR Ali Sovetindən DQMV-nin Ermənistanın tərkibinə daxil edilməsi haqqında razılıq verməsi təklifi.

1988, 21 iyun – Vilayət Xalq Deputatları Sovetinin fövqəladə sessiyasının SSRİ Ali Sovetinə müraciətlə DQMV-nin Ermənistan SSR-ə verilməsini xahiş etməsi.
1988, 12 iyul – Vilayət Sovetinin sessiyasının qeyri-qanuni olaraq DQMV-nin Azərbaycanın tərkibindən çıxdığı və Ermənistana birləşdirildiyi barədə qeyri-qanuni Qərarı.
1988, 18 sentyabr – Ermənilərin Xocalıya hücumu.
1988, 21 sentyabr - 18 oktyabr – Xankəndində azərbaycanlıların və buna cavab olaraq, Şuşada ermənilərin evlərinin, avtomobillərinin yandırılması.
1988, 19 fevral – Azərbaycanda ilk etiraz çıxışlarının başlanması. **1988, 24 fevral** – Xankəndində 1 azərbaycanlının öldürülməsi. Ağdamlıların Xankəndinə yürüşü. Əsgəranda 2 azərbaycanlının öldürülməsi və 19 nəfərin yaralanması.
1988, 17 noyabr – "Topxana" meşəsində sənaye obyektinin tikilməsi xəbəri "Azadlıq" meydanında xalqın mitinq keşirməsinə təkan verdi. **1988, 19 noyabr - 4 dekabr** – "Azadlıq" meydanında ilk dəfə AXC-nin üçrəngli bayrağının qaldırılması."Milli Dirçəliş" günü.
1988 – Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsində Ermənistan dövlətinin Qarabağın bir hissəsini və Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam rayonlarını, eləcə də Qazax rayonunun 7, Naxçıvan Muxtar Respublikasının 1 kəndini işğal etməsi.
1989, 12 yanvar – SSRİ Ali Soveti Rəyasət Heyyətinin "Azərbaycan SSR-nin "DQMV"-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" Qərarı. Xüsusi İdarə Komitəsinin yaradılması.
1989, 18 yanvar – Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğularının dağıdılması.
1989, mart – Xalq Cəbhəsinin Müvəqqəti Təşəbbüs Mərkəzinin təşkil edilməsi. Əbülfəz Əliyevin (Elçibəy) AXC-nin sədri seçilməsi.

1989, may – I "Xarıbülbül" festivalının Şuşa şəhərində keçirilməsi.
1989, iyun – Erməni-sovet ordu hissələrinin Xankəndindən azərbaycanlıları (14 min) çıxarması.
1989, 23 sentyabr – Azərbaycan SSR Ali Sovetinin "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya Qanunu.
1989, 28 noyabr – Xüsusi İdarə Komitəsinin ləğv olunması.
1989, 1 dekabr – Ermənistan SSR Ali Sovetinin "DQMV-ni Ermənistana birləşdirmək haqqında" qeyri-qanuni qərarı. Xankəndində Ermənistan SSR-nin bayrağının qaldırılması.
1989, 31 dekabr – Naxçıvanda Sovet-İran sərhəd qurğularının dağıdılması.
1990, əvvəlləri – Mərkəzin Azərbaycanda müxtəlif qoşun hissələri və cəza dəstələrini yerləşdirməsi. "Tayfun" əməliyyatı.
1990, 13 yanvar – Bakıda 1 ermənin 2 azərbaycanlını öldürməsi.
1990, 15 yanvar – SSRİ Ali Soveti Rəyasət Heyətinin "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması barədə" Fərmanı.
1990, 19 yanvar – SSRİ Ali Soveti Rəyasət Heyətinin yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" Fərmanı.
1990, 19 yanvar – Azərbaycan Televiziyasının enerli blokunun saat 19:27-də partladılması.
1990, yanvarın 19-dan 20-nə keçən gecə – Sovet qoşunlarının Bakıda qanlı qırğın törətməsi.
1990, may – "Xarıbülbül" festivalının beynəlxalq status qazanması, II "Xarıbülbül" festivalının Ağdam, Bərdə, Ağcabədi şəhərlərində keçirilməsi.
90-cı illərin ortaları – YUNESKO-nun köməyi ilə "Azərinkom" adlı informasiya şəbəkəsinin yaradılması. Respublikada Beynəlxalq İNTERNET informasiya şəbəkəsinin istifadəsinə başlanması.

1990, 11 iyun – Azərbaycan SSR Ali Sovetinin Ermənistanla sərhəd boyu (976 km) fövqəladə vəziyyət elan etməsi.
1990, 20 iyul – Heydər Əliyevin Moskvadan Bakıya qayıtması, lakin, 22 iyulda Naxçıvana getmək məcburiyyətində qalması.
1990, 1997 – İstanbulda Dünya Azərbaycanlılarının konqresinin keçirilməsi.
1990 – "Azərbaycan Sosial-Demokrat", "Ana Vətən" partiyalarının yaradılması.
1991 – "Azərbaycan İslam Partiyası", 'Müsavat Partiyası", "Azərbaycanın Qarabağa Nicat Cəmiyyəti" və s. yaradılması.
1991, may – III "Xarıbülbül" festivalının Mingəvir və Ağdamda keçirilməsi.
1991, may – Erməni kəndlərində pasport rejiminin tətbiq edilməsi, erməni silahlı dəstələrinin tərksilah edilməsi.
1991, 18-19 avqust – Mərkəzin mühafizəkar qüvvə başçılarının dövlət çevrilişinə cəhd etməsi, Forosda (Krımda) istirahət edən Mixail Qorbaçovu "neytrallaşdırıb", Dövlət Fövqəladə Vəziyyət Komitəsi (QKÇP) təşkil etməsi və bütün hakimiyyəti öz əllərinə alması.
1991, 25 - 27 avqust – Azərbaycan xalqının Azadlıq meydanında mitinqləri.
1991, 30 avqust – Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyanat – "Azadlıq Bəyannamə"sinin qəbul edilməsi.
1991, 30 avqust – Ali Sovetin "Azərbaycanın milli özünümüdafiə qüvvələri yaratmaq haqqında" Qərarı.
1991, 3 sentyabr – Naxçıvan MR Ali Məclisinin Heydər Əliyevi Ali Məclisin Sədri seçməsi.
1991, 4 sentyabr – Naxçıvan MR Ali Məclisin qərarı ilə Naxçıvan MR ərazisində prezident seçkilərinin dayandırılması.
1991, 8 sentyabr – A.Mütəllibov yenidən prezident "seçilməsi".

1991, 9 oktyabr – Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan milli özünümüdafiə qüvvələri haqqında" Qanunu.
1991, 9 oktyabr – Ali Sovetin "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Qanunu.
1991, 18 oktyabr – Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi. İcra hakimiyyəti başçısı, dövlət katibi və dövlət müşavirləri vəzifələrinin təsis edilməsi. Prezident idarəsinin yaradılması.
1991, 19 noyabr – 22 sərhədyanı bölgədə yerli əhalidən könüllü ərazi özünümüdafiə taburu yaradılması haqqında Əmrin verilməsi.
1991, 20 noyabr – Azərbaycan Respublikasının bir sıra hökumət nümayəndələrinin, SSRİ Müdafiə Nazirliyinin, Rusiya və Qazaxıstan
müşahidəçilərinin mindiyi vertolyotun Martuni rayonunda Qarakənd səmasında erməni quldurları tərəfindən vurulması.
1991, 26 noyabr – Ali Sovetdə bərabər əsasda 25 nəfər "demblok" nümayəndəsindən və 25 nəfər iqtidaryonlü deputatdan ibarət Milli Şuranın yaradılması.
1991, 8 dekabr – 68 il, 11 ay, 7 gün, 21 saat, 19 dəqiqə yaşamış SSRİ-nin süqut etməsi.
1991, 8 dekabr – Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması.
1991, 8 dekabr – Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatına qəbul olunması.
1991, 24 dekabr – Latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında Qanunu.
1991, 25 dekabr – M.Qarbaçovun SSRİ Prezidenti vəzifəsindən istefa etməsi.
1991, 29 dekabr – Azərbaycan Respublikasının dövlət müstəqilliyi
haqqında ümumxalq referendumunun keçirilməsi.

1991-ci ilin sonu – Rusiya ilə Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə"nin bağlanması.
1991, dekabr - 1992, iyul – Naxçıvan MR blokadaya alınması.
1991-1993 – Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini seçilməsi.
1992 – Yanvarın 19-da Kərkicahan, yanvarın 21-də Qeybalı, fevralın 12-də Malıbəyli, Quşçular kəndlərinin erməni və rus dəstələri tərəfindən işğalı.
1992, 20 yanvar – Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM, 1994-cü ildən ATƏT) üzv qəbul olunması.
1992, 25-26 yanvar – "Daşaltı" əməliyyatı.
1992, fevral – İran, Türkiyə və Pakistanın daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına qəbul olunması.
1992, 25 -26 fevral – Xocalı faciəsi.
1992, 2 mart – Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olunması.
1992, 5 mart – Ali Sovetin sədri Elmira Qafarovanın istefası. Onun yerinə deputat Yaqub Məmmədovun seçilməsi.
1992, 6 mart – A.Mütəllibovun istefası.
1992, 17 mart – Rəhim Qazıyevin Müdafiə naziri vəzifəsinə seçilməsi.
1992, 22-25 mart – Heydər Əliyevin Türkiyəyə səfəri. Türkiyə Respublikasının Naxçıvana 100 min dollar kredit verməsi. İqdır-Naxçıvan elektrik xəttinin çəkilməsi. Sədərək-Türkiyə yolunun tikilməsi.
1992, 4 aprel – Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin Bakıda imzalanmış müvafiq Protokolu.

1992, 23 aprel – Azərbaycan Ali Attestasiya Komissiyasının (1994-cü ildən Azərbaycan Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası) təsis edilməsi.
1992, 7-9 may – Şuşanın işğalı.
1992, 15 may – IV "Xarıbülbül" festivalının keçirilməsi nəzərdə tutulurdu. Lakin Qarabağ müharibəsinin başlaması və mayın 8-də Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar festival ləğv edilmişdir.
1992, 14 may – A.Mütəllibovun yenidən öz vəzifəsinə qaytarılması və AXC silahlı qüvvələri tərəfindən həmin vəzifədən uzaqlaşdırılması.
1992, 15 may – SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında Daşkəsən müqaviləsi.
1992, 18 may – Ali Sovetin sədri Yaqub Məmmədovun istefası və İsa Qəmbərovun bu vəzifəyə seçilməsi. Milli Şuranın "Milli Məclis" adlandırılması.
1992, 18 may – Laçının işğalı.
1992, 23 may – Respublikası Prezidentinin 782 saylı Fərmanı və Nazirlər Kabinetinin 9 iyun 1992-ci il tarixli 321 saylı Qərarına əsasən Bakı Xüsusi Orta Milis Məktəbi zəminində Polis Akademiyasının yaradılması.
1992, 27 may – Milli Məclisin Azərbaycan Respublikasının Dövlət himnini (musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadındır) təsdiq etməsi.
1992, 28 may – Sədərək-Dilucu "Ümid" körpüsünün açılması.
1992, 4 iyun – Əsgəran rayonunun Aranzəmin, Pircamal, Naxçivanik, Sırxavənd, Orta və Baş Güneypəyə, Kiçan, Bəşirlər, Maniklu və Qaraşlar kəndlərinin düşməndən azad edilməsi.
1992, 7 iyun – AXC-nin sədri Əbülfəz Elçibəyin prezident seçilməsi.
1992, 8 iyun – Azərbaycan Respublikasının Ümumavropa Təhlükəsizlik və Əməkdaşlıq proseslərini tənzimləyən Helsinki müşavirəsinin 1976-cı il Yekun Aktına tərəfdar çıxması.

1992, 12 iyun – Podpolkovnik N.Sadıqovun rəhbərliyi altında Azərbaycan ordusunun Ağdərə əməliyyatı.
1992, 25 iyun – Azərbaycan Respublikasının Qara dəniz hövzəsində İqtisadi Əməkdaşlıq haqqında Bəyannaməni imzalaması.
1992, 27 iyun – Müdafiə Nazirliyində vahid komandanlıq yaradılması haqqında Dekret.
1992, 10 iyul – Azərbaycan Respublikasının Helsinki Yekun sənədinə tərəfdar çıxması.
1992, 21 iyul – "Dini etiqad azadlığı haqqında" Qanunun qəbul edilməsi.
1992-ci ilin ortaları – "Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Konseyni"nin fəaliyyətə başlaması.
1992, 22-26 avqust – Heydər Əliyevin İran İslam Respublikasının dəvəti ilə Tehrana səfəri. Dekabrın 3-də Şaxtaxtı-Poldəşarası üzən körpünün istifadəyə verilməsi. İranın Naxçıvana elektrik enerjisi verməsi.
1992, 16 sentyabr – Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərmanı. Milli Azlıqlarla İş üzrə Şuranın təşkil olunması.
1992, 24 oktyabr – ABŞ Konqresinin Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandıraraq Azərbaycana dövlət səviyyəsində hər cür yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 907-ci düzəlişi "Azadlığı Müdafiə Aklı"na qəbul etməsi.
1992, 24 oktyabr – AXC-nin silahlı dəstələrinin Naxçıvan MR-də hakimiyyət çevrilişi etməyə uğursuz cəhdləri.
1992, 27 oktyabr – Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "Azərbaycan Respublikasının bayramları haqqında" Qanunu. "Novruz", "Mövlud", "Qurban" və "Ramazan" (Orucluq) bayramlarının hər il rəsmi olaraq qeyd edilməsi.

1992, 21 noyabr – Naxçıvanda H.Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının (YAP) yaradılması.
1992, 21 noyabr - 2003, 12 dekabr – Heydər Əliyev Yeni Azərbaycan Partiyasının sədri vəzifəsində.
1992 – Hökumət tərəfindən aprelin 3-dən fövqəladə vəziyyət elan olunması, aprelin 8-dən isə Bakıda qadağan saatını tətbiq etməsi.
1992 – NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən Avropa-Atlantika Tərəfdaşlıq Şurası-AATŞ) qəbul olunması.
1992, noyabr – Azərbaycan Avropa Olimpiya Komitəsinə qəbul olunması.
1992, dekabr – Korpus komandiri Surət Hüseynovun ordunu Kəlbəcərin strateji yüksəkliklərindən geri çəkməsi.
1992, 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü.
1992 – Azərbaycan Milli Olimpiya Komitəsinin təşkil olunması.
1992 – Ali və orta ixtisas məktəblərində buraxılış və qəbul imtahanlarının test üsulu ilə aparılması.
1992 – Azərbaycan Dövlət Uşaq Filarmoniyasının yaradılması.
1993, əvvəlləri – TÜRKSOY-un (Türk Kültür və Sanatları Ortak Yönətimi) fəaliyyətə başlaması.
1993, 26 yanvar – Müdafiə naziri R.Qazıyevin göstərişi ilə Azərbaycan Silahlı Qüvvələrinin Fərrux yüksəkliyi ətrafındakı döyüşlərə cəlb olunması və məğlub olması.
1993, 28 yanvar – Surət Hüseynovun Ağdərə bölgəsindən hərbi texnikanı çıxarıb Gəncəyə gətirməsi.
1993, 5, 15-16 fevral – Ağdərənin işğalı.
1993, 23 fevral – Milli Məclisin Azərbaycan Respublikasının üçrəngli dairəvi qalxan üzərində, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət gerbini təsdiq etməsi.
1993, 3 aprel – Kəlbəcərin işğalı.

1993, 30 aprel – BMT Təhlükəsizlik Şurasının Kəlbəcərin ermənilər tərəfindən işğalını pisləyən 822 saylı qətnaməni qəbul etməsi.
1993, 4-14 iyun – Gəncə qiyamı.
1993 – H.Əliyevin iyunun 9-da Bakıya, iyunun 13-14-də Gəncəyə gəlməsi və S.Hüseynov başda olmaqla hərbi müxalifəti zərərsizləşdirməsi.
1993, iyun – Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gətirilməsi.
1993, 15 iyun – Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi. "Milli Qurtuluş Günü".
1993, 17-18 iyun – Prezident Ə.Elçibəyin Bakını gizli tərk edərək Ordubad rayonunun Kələki kəndinə getməsi.
1993, 24 iyun - Azərbaycan Respublikası Ali Sovetin Milli Məclisinin prezidentin bütün səlahiyyətlərini H.Əliyevə verməsi.
1993, 23 iyul – Ağdamın işğalı.
1993, 7-23 avqust – Əlikram Hümbətovun Respublikanın cənub bölgəsində "Talış-Muğan Respublikasını" (TMR) yaratması.
1993 – Cəbrayıl (18 avqust), Füzuli (23 avqust), Qubadlı (31 avqust) və Zəngilanın (29-30 oktyabr) süqutu.
1993, 29 avqust – Milli Məclisin Qərarı ilə Prezident Ə.Elçibəyə etimad haqqında referendumun keçirilməsi.
1993, sentyabrın ortaları – S.Hüseynov, R.Qazıyev və Ə.Hümbətovun birgə hakimiyyət çevrilişi etmək cəhdləri.
1993, sentyabr – Azərbaycan Milli Olimpiya Komitəsinin Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınması.
1993, 24 sentyabr – Azərbaycanın MDB-yə daxil olması.
1993, 3 oktyabr – Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi.
1993, oktyabr-noyabr – Ermənistan dövlətinin silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun zəbt edilməsi.
1993-2003 – Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının Prezidenti vəzifəsində.

1993 – BMT Təhlükəsizlik Şurasının 822 (30 aprel), 853 (29 iyul), 874 (14 oktyabr) və 884 (11 noyabr) saylı qətnamələrinin qəbul olunması.
1993, 1 noyabr – Prezidentin Fərmanı ilə Dövlət Müdafiə Şurasının yaradılması.
1993, 2 noyabr – H.Əliyevin televiziya və radio vasitəsilə xalqa müraciəti.
1993, 23 noyabr – Milli Şuranın "Müdafiə haqqında" Qanun qəbul etməsi. Noyabr-dekabr aylarında könüllülərdən ibarət 40 ehtiyat taburunun yaradılması.
1993 – Ali məktəblərdə (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) iki – bakalavr və magistr pilləli təhsilə keçilməsi.
1993, 1994 – Dövlət ali təhsil müəssisələrində ödənişli təhsil formasının tətbiq olunması.
1993 – Qusarda Dövlət Ləzgi Teatrının təşkili. "Azərnəşr"də azsaylı xalqların redaksiyasının yaradılması.
1993-1998 – Xarici ölkələrlə Azərbaycan arasında 431 beynəlxalq sənədin imzalanması.
1994, əvvəlləri – Milli Ordunun Füzuli rayonun Horadiz qəsəbəsi və 22 kəndini, Cəbrayıl və Kəlbəcər rayonlarının bir sıra yaşayış məntəqəsini azad etməsi, Çiçəkli dağı və digər strateji yüksəklikləri nəzarət altına alması, Kəlbəcər-Ağdərə yolu istiqamətlərində müvəffəqiyyətlər qazanması.
1994, əvvəlləri – Milli valyuta-manatın yeganə ödəniş vasitəsi olması.
1994 – Bakıda C.Məmmədquluzadənin, Niyazinin, N.Nərimanovun ev muzeylərinin açılışı.
1994, 29 mart – Prezident Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisinin 1990-cı il 20 Yanvar hadisəsinə obyektiv hüquqi-siyasi qiymət verməsi.
1994, 15 aprel – Respublika Prezidentinin MDB Dövlət Başçıları Şurasının keçirilən iclasında Ermənistan Respublikası silahlı

qüvvələrinin Azərbaycan ərazisinə hücumları ilə əlaqədar Bəyanatı.
1994, aprel – Xarici ticarətin sərbəstləşdirilməsi haqqında Fərmanı.
1994-1997 – Bakıda, Londonda, Parisdə, İstanbulda Heydər Əliyevin iştirakı ilə beynəlxalq biznes konfranslarının keçirilməsi.
1994, 4 may – Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulması.
1994, 8 may – MDB PA sayəsində Azərbaycanla Ermənistan arasında atəşkəs elan olunması barədə Bişkek protokolunun (mayın 12-də qüvvəyə mindi) imzalanması.
1994, 12 may – Qarabağ münaqişəsi ilə bağlı atəşkəs əldə edilməsi.
1994, 24 iyul – "Əhalinin sosial müdafiəsi haqqında" Qanun qəbul edilməsi. Noyabrın 21-də "Əhalinin Sosial Müdafiəsi Fondu"nun yaradılması.
1994, 26 iyul – Prezident Heydər Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması.
1994, sentyabr – Respublika Prezidentinin BMT-nin 49-cu sessiyasının tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırması.
1994, 20 sentyabr – Bakının "Gülüstan" sarayında "Əsrin müqaviləsi"nin imzalanması.
1994, 29 sentyabr – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimovun qətlə yetirilməsi.
1994, 2 oktyabr – Xüsusi Təyinatlı Polis Dəstəsinin Mahir Cavadovun başçılığı ilə Respublika Prokurorluğunun binasını zəbt etməsi.
1994, 4 oktyabr – Gəncədə S.Hüseynovun tərəfdarlarının İcra Hakimiyyəti binasını tutması.

1994, 4-5 oktyabr – Prezident Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumaq üçün radio və televiziya vasitəsilə xalqa müraciət etməsi.
1994, 5-6 dekabr – Macarıstanın paytaxtı Budapeştdə keçirilən Sammitdə Minsk qrupu həmsədrlik institutunun təsis edilməsi.
1994, dekabr – Minsk qrupunun həmsədrləri vəzifələrini Rusiya və Finlandiya, 1995-1996-cı illər ərzində İsveç və Rusiya, 1997-ci ildən isə Rusiya, ABŞ və Fransanın yerinə yetirməsi.
1994-2001 – ADNŞ-nin 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzalaması.
1995, yanvar – Pedaqoji işçilərin ailələrinin elektrik enerjisindən, qazdan istifadə və kommunal xidmət xərclərindən dövlət tərəfindən azad edilməsi.
1995, 27-31 yanvar – Heydər Əliyevin ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumda iştirakı.
1995, fevral – "Aqrar islahatların əsasları", "Kolxoz və sovxozların islahatı haqqında" Qanunların qəbul edilməsi.
1995, mart – "Dövlət aqrar islahatı" Komissiyasının yaradılması.
1995, 12-13 mart - Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşlarının (omonçular) Ağstafa və Qazaxda qiyam qaldırmaları.
1995, 16 mart - Prezidentin Fərmanı ilə Xüsusi Təyinatlı Polis Dəstəsinin ləğv edilməsi.
1995, 16-17 mart - Bakıda dövlət çevrilişi cəhdinin qarşısının alınması.
1995, iyun – Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına qəbul olunması.
1995, sentyabr – "Vətəndaşların pensiya təminatı haqqında" Qanun.
1995, 29 sentyabr – Prezident tərəfindən Qanunla təsdiqlənmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı", "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Auditor xidməti haqqında" Qanunlar, "Dövlət

müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında Əsasnamə" və digər dövlət əhəmiyyətli hüquqi aktların qəbul edilməsi. Milli Fondun yaradılması.

1995, oktyabr; 2000, sentyabr – Heydər Əliyevin BMT-nin yubiley sessiyalarının tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırması.

1995, 10 noyabr – Azərbaycanın Xəzərin "Qarabağ" strukturu üzrə Rusiya, İtaliya, ABŞ şirkətləri ilə müqavilə imzalaması.

1995, 12 noyabr – "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsinin referendum yolu ilə qəbul edilməsi.

1995, 12 noyabr – Müstəqil Azərbaycanın 125 deputatdan ibarət ilk demokratik parlamentinin yaradılması.

1995 – Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan Parlamentlərarası Assambleya haqqında Konvensiyanın imzalanması.

1995-1997; 1998-2000 – Azərbaycan Respublikasının UNİCEF-in İcraiyyə Şurasına üzv seçilməsi.

1996, fevral – Azərbaycan Respublikası Prezidenti yanında xüsusi "Hüquqi İslahatlar Komissiyası"nın yaradılması.

1996 – S.Hüseynovun Rusiyada həbs olunub respublikaya gətirilməsi və məhkum edilməsi.

1996, aprel – Azərbaycan ilə Avropa Şurası (AŞ) və üzv dövlətləri arasında "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" sazişin imzalanması.

1996, 4 iyun – Xəzərin "Şahdəniz" yatağında birgə işlərin aparılması haqqında ADNŞ-nin Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İranın neft şirkətləri konsersumu ilə müqavilə imzalaması.

1996, 22 iyun – Respublika Prezidentinin "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Fərmanı.

1996-1997 – "Dini etiqad azadlığı haqqında" Qanunun təkmilləşdirilməsi.

1996, 16 iyul –"Torpaq islahatı haqqında" Qanun.

1996, iyul – Aqrar kredit kassalarının yaradılması.
1996, avqust – Prezident Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Fərmanı. Narkomanlıq və narkobizneslə mübarizə üzrə komissiyanın yaradılması.
1996 – Bakıda qoz-fındıq emalı, yağ, "Koka-Kola" sərinləşdirici içki zavodlarının açılması.
1996, sentyabr – "İnsanın immunçatışmazlıq virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında" Qanun.
1996, oktyabr – "Sudan pullu istifadə haqqında Əsasnamə"nin qəbul olunması.
1996 – YUNESKO-nun TÜRKSOY-u tanıması və dəstəkləməyə başlaması.
1996, oktyabr – "Türkiyə-Azərbaycan Dostluq Vəqfi"nin təsis edilməsi.
1996, noyabr – Bakıda Türk dünyası yazıçılarının III Qurultayının keçirilməsi. "Manas dastanı"nın 1000 illiyinin, böyük qazax şairi və filosofu Abayın 150 illiyinin, Əmir Teymurun 660 illiyinin, Füzulinin 500 illiyinin, Şeyx Şamilin 200 illiyinin qeyd edilməsi.
1996, payız – YUNESKO ilə əməkdaşlıq haqqında memorandumun imzalanması.
1996 – payız – Naxçıvanda H.Cavidin, C.Məmmədquluzadənin və bir çox görkəmli şəxslərin ev muzeylərinin açılışı.
1996 – Prezident Heydər Əliyevin verdiyi Fərmanla Bakı Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyasının yaradılması.
1996 – Bakıda əsası hələ 1982-ci ildə qoyulmuş, hündürlüyü 310 m olan Teleqüllənin istifadəyə verilməsi.
1996 – Amerika mesenatı Corc Sorosun yaratdığı "Soros" Fondunun İnformasiya Mərkəzinin Bakıda fəaliyyətə başlaması.

1996, 2-3 dekabr – ATƏT-in Lissabon Sammiti. ATƏT-in üzvü olan 54 ölkədən 53-nün Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş Bəyanatda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi.
1997, 8 yanvar – Prezident Heydər Əliyevin imzaladığı xüsusi Sərəncamla Azərbaycan Respublikasında xarici dini missionerlərin pozuculuq fəaliyyətinin qadağan edilməsi. "Elmi-Dini Məsləhət Şurası"nın yaradılması.
1997, 2 fevral – Azərbaycan Prezidentinin Fərmanı ilə "Gənclər Günü" kimi qeyd olunması.
1997, yaz – Azərbaycanın Avropa Mədəniyyət Konvensiyasına qoşulması.
1997, mart – "Əhalinin sağlamlığının qorunması haqqında" Qanun. "Səhiyyə təşkilatlarının özünü maliyyələşdirmə sisteminə keçməsi haqqında" xüsusi Proqramın hazırlanıb həyata keçirilməsi.
1997, mart – Rusiya Federasiyası tərəfindən bir milyard ABŞ dolları məbləğində silah-sursatın Ermənistana verilməsi.
1997, aprel – Prezident Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd edilməsi haqqında Fərmanı.
1997, 11 iyun – Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin "paket" həllini təklif edən "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlı layihənin Ermənistan tərəfindən qəbul edilməməsi.
1997, 31 iyul – İlham Əliyevin İdman Komitəsinə prezident seçilməsi.
1997, iyul – Madrid zirvə toplantısında Heydər Əliyevin NATO-nun baş katibi ilə görüşü zamanı əməkdaşlığın genişlənməsi barədə danışıqlar aparılması.
1997, 13 sentyabr – Respublika Prezidentinin "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Fərmanı.
1997, 19 sentyabr – Həmsədrlərin təklif etdikləri "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı

ikinci layihədə münaqişənin "mərhələli" həllinin irəli sürürülməsi.
1997, oktyabr – "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi.
1997, 12 noyabr – "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanılması.
1997, 18 noyabr – "Mədəniyyət haqqında" Qanun.
1997, 24 noyabr – Prezident Heydər Əliyevin Sərəncamı ilə 2 saylı 8 illik internat məktəbinin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılması.
1997, 25 noyabr – QUAM-ın (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova) təsis olunması.
1997, noyabr – Prezidentin "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında" Fərmanı.
1997, 17 dekabr – Prezident Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı.
1997 – Azərbaycan dövlətinin respublika ali təhsil ixtisaslarının Avropa məkanında tanınması barədə Lissabon Konvensiyasına qoşulması.
1997 – Magistraturalara ilk qəbul imtahanlarının keçirilməsi.
1997-2002 – Azərbaycan idmançılarının müxtəlif yarışlardan Vətənə 800-dən çox, o cümlədən 300-dən çox qızıl medalla qayıtması.
1997 – Azərbaycan EA Rəyasət Heyəti nəzdində yaradılmış "Azərbaycan tarixi" Baş Redaksiya Şurasının rəhbərliyi ilə 7 cildlik "Azərbaycan tarixi"nin hazırlanıb nəşr olunması.
1997 – Xocalıda azərbaycanlıların soyqırım qurbanları xatirəsinə fevralın 26-da saat 17-də Sükut dəqiqəsi elan olunması.
1997 – Los-Ancelesdə Dünya azərbaycanlılarının konqresinin keçirilməsi.

1998, yanvar – Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və bu komitənin sonradan "Ailə və Qadınlar Problemləri Dövlət Komitəsi"nə çevrilməsi.
1998, fevral – Heydər Əliyevin Azərbaycan Respublikasında ölüm hökmünü ləğv etməsi.
1998, fevral – Azərbaycan Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı.
1998 – İnsan huquqlarının təmin olunma mexanizmi üçün bir sıra qanunlar – "Kütləvi informasiya vasitələri haqqında" (1999-cu il), "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" (2001-ci il dekabr), "Dini etiqad azadlığı haqqında"(1992-ci il 30 avqust), "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və s. qəbul edilməsi.
1998-2002 – Şəmkir-Yenikənd Su-Elektrik Stansiyasının 3 bloku, Abşeronda "Şimal" Dövlət Rayon Elektrik Stansiyasının enerji bloku, 1 saylı Bakı İstilik-Elektrik Mərkəzində (İEM) yeni qaz-turbin elektrik qurğusu, Mingəçevir SES-i, "Azərneftyağ" İstehsalat Birliyində bitum qurğusu və s. zavod və müəssisələrin istifadəyə verilməsi.
1998, 13 mart – Prezident Heydər Əliyevin Sərəncamı və Müdafiə nazirinin 09 aprel 1998-ci il tarixli əmri ilə 1998-ci ildə Naxçıvan Muxtar Respublikasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması.
1998, 26 mart – Prezidentin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı.
1998, 30 mart – Prezident Heydər Əliyevin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının təşkil olunması, Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlanması və 1999-cu il iyunun 15-də Prezident tərəfindən təsdiq edilməsi.

1998, aprel – M.F.Axundzadə adına Respublika kitabxanasına Milli Kitabxana statusunun verilməsi.
1998, 28 aprel – Naxçıvan MR-in Ali Məclisində yeni Konstitusiyanın qəbul edilməsi və dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunması.
1998, 28 aprel – Heydər Əliyevin Robert Köçaryan ilə Moskva (Rusiya) görüşü.
1998, 19 may – "Uşaq hüquqları haqqında" Qanun. "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı.
1998, 22 may – Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında fəxri adlar haqqında" Fərmanı.
1998, 6 avqust – "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident Fərmanı ilə senzuranın ləğv edilməsi.
1998, 18 avqust – Azərbaycanın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulması.
1998 – Konstitusiya məhkəməsinin yaradılması.
1998, 7-8 sentyabr – Bakıda "Böyük İpək Yolu"nun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi. "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli sazişin və Bakı bəyannaməsinin imzalanması.
1998 – Müharibə və 20 Yanvar əlillərinə dövlət hesabına "Oka" markalı minik maşınlarının, evlərin verilməsi.
1998, 17 sentyabr – Qaçqın və məcburi köçkunlərin problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiəsini gücləndirmək məqsədi ilə xüsusi Dövlət Proqramı.
1998, oktyabr – "Vətəndaşlıq haqqında" Qanun.
1998, oktyabr – Şəhidlər Xiyabanında 21 metr hündürlüyündə abidənin və əbədi məşəlin (müəllifləri - Ö.Eldarov, E.Qasımzadə, A.Abdullayev və N.Vəliyev) açılışı.

1998, 9 noyabr – Həmsədrlərin beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycanın suveren hüquqlarının pozulması ilə nəticələnən 3-cü təklifi – "Ümumi dövlət" ideyası.
1998 – 15 yaşlı Teymur Rəcəblinin yeniyetmə şahmatçıların dünya çempionatında birinci yeri tutması, 2002-ci ilin sentyabrında Moskvada "Əsrin görüşü"ndə dəfələrlə dünya çempionu olmuş Anatoli Karpova qalib gəlməsi.
1998 – Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının təsis edilməsi.
1998 – Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpozium.
1998 – Vaşinqtonda Dünya azərbaycanlılarının konqresinin keçirilməsi.
1999, 20 fevral – Prezident Heydər Əliyevin Fərmanı ilə Hərbi Akademiyanın, Mülki Təyyarəçilik Akademiyasının yaradılması.
1999, 22 mart – Prezident Heydər Əliyevin "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Fərmanı.
1999, 1 aprel – Moskva, 26 aprel – Vaşinqton (ABŞ), 16 iyul – Cenevrə (İsveçrə), 22 avqust – Cenevrə, 10 sentyabr – Yalta (Ukrayna), 11 oktyabr – Sədərək (Azərbaycan), 17 noyabr – İstanbul (Türkiyə) görüşləri.
1999, 2 aprel – Prezident Heydər Əliyevin Rusiyanın Ermənistana silah və hərbi texnika göndərməsini, bu ölkə ərazisində hərbi bazaların yerləşdirməsini MDB üzv dövlətlərinin imzaladıqları "Kollektiv Təhlükəsizlik haqqında" müqavilənin kobudcasına pozulmasını bəyan edən çıxışı.
1999 – Azərbaycan Respublikasının "Kollektiv Təhlükəsizlik haqqında" müqavilədən çıxması.
1999, 4 aprel – Özbəkistan Respublikasının QUAM-a qəbul edilməsi və GUAM təşkilatı GUÖAM adlandırılması.
1999, iyun – Prezident Heydər Əliyevin "Milli arxiv fondu haqqında" Qanunu.

1999, 29 iyul – Prezident Heydər Əliyevin "Dövlət gənclər siyasəti haqqında" Fərmanı.
1999, 9 noyabr – Prezident Heydər Əliyevin xüsusi Fərmanla "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı"nı təsdiq etməsi.
1999, 16 noyabr – Prezident Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda tolerantlıq günü kimu qeyd edilməsi.
1999, 18 noyabr – İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair" sazişin imzalanması.
1999, noyabr – Naxçıvanda "Həzrəti Zəhra (s.) məscidi"nin tikilməsi.
1999, 12 dekabr – Respublikada ilk dəfə olaraq bələdiyyələrə seçkilərin keçirilməsi.
1999, dekabr – Sosial İnkişaf Fondunun yaradılması.
1999 – "Pepsi-Kola" sərinləşdirici içki zavodlarının açılması.
1999 – Prezident Heydər Əliyevin "Tibbi sığorta haqqında" Qanunu.
1999 – Sosial İdarəetmə və Politologiya İnstitutu bazasında Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təsis edilməsi.
2000, 24 yanvar – Azərbaycan və Ermənistan prezidentlərinin – Moskvada, 28 yanvar 2000-ci il – Davosda (İsveçrə), 20 iyun 2000-ci il – Moskvada, 18 avqust 2000-ci il – Krımda (Ukrayna), 7 sentyabr 2000-ci il – Nyu-Yorkda (ABŞ), 1 dekabr 2000-ci il – Minskdə (Belarus), 26 yanvar 2001-ci il – Parisdə (Fransa), 5 mart 2001-ci il – Parisdə, 3-7 aprel 2001-ci il – Ki-Uestdə (ABŞ) görüşləri.
2000, 6 mart – "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Prezident Fərmanı.

2000, aprel – Bakıda Azərbaycan xalqı yolunda şəhid olmuş türk əsgərlərinin şərəfinə ucaldılmış abidənin açılışı.
2000, 25 may – Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün ehtiyat zabit kadrlarının hazırlanması işinin təkmilləşdirilməsi haqqında" Sərəncamına əsasən Azərbaycan Tibb Universitetinin nəzdində Hərbi tibb fakültəsinin yaradılması.
2000, 13 iyun – Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı.
2000, avqust – "Qurtuluş" müasir özüqalxan qazma qurğusunun işə salınması.
2000, noyabr – Azərbaycan Respublikasının "Bakılı oğlanlar" klubunun Moskvada "Şən və Hazırcavablar" klublarının beynəlxalq yarışında XX əsrin ən yaxşı komandası adına və "XX əsr Çempionları Kuboku"na layiq görülməsi.
2000 – Azərbaycan mətbuatının 125 illiyi.
2000-2002 – Azərbaycan Respublikasının Qadınların Statusu üzrə Komissiyaya üzv seçilməsi.
2001, 1 yanvar – Ölkədə vahid vergi qanunvericiliyinin tətbiq olunması. Gömrük vergisinin azaldılması.
2001, yanvar – Xəzər dənizinin dibinin milli sektorlar əsasında bölüşdürülməsinə dair Azərbaycan Respublikası ilə RF arasında, noyabrında isə Qazaxıstan arasında sazişlərin bağlanması.
2001, 25 yanvar – Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması haqqında Qərarı. Fransanın Strasburq şəhərində yerləşən Avropa Şurasının iqamətgahı qarşısında ölkəmizin dövlət bayrağının qaldırılması.
2001, 4-6 mart – Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin Paris (Fransa), 3 aprel Ki-Uest (ABŞ) görüşləri.

2001 – Martın 12-də Türkiyə Cümhuriyyəti, sentyabrın 29-da Gürcüstan Respublikası ilə "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri vasitəsilə Azərbaycan qazının tranziti, nəqli və satışı haqqında sazişlərin imzalanması.
2001, 20 mart – Prezidentin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" Fərmanı.
2001, 26 mart – Zabit Təkmilləşdirmə və Gizir Hazırlığı kursları və Ehtiyat Zabit Hazırlığı Kursları bazasında Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin (TTM) fəaliyyətə başlaması.
2001, mart – Prezident Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Atatürk Mərkəzi"nin yaradılması.
2001, 15 may – Prezident Heydər Əliyevin Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusunun verilməsi.
2001, 23 may – Prezident Heydər Əliyevin Dünya azərbaycanlılarının təşkilatlanması yolunda imzaladığı Sərəncam.
2001, 31 may – Heydər Əliyevin Robert Köçaryan ilə – Minsk, 1 avqust 2001-ci il – Soçi (Rusiya), 30 noyabr 2001-ci il – Moskva, 14 avqust 2002-ci il – Sədərək, 6 oktyabr 2002-ci il – Kişinyov (Moldova), 21 noyabr 2002-ci il – Praqa (Çexiya) görüşləri.
2001, may – Azərbaycanın Avropa Şurasındakı parlament nümayəndə heyətinin AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünikeni qəbul etməsi.
2001, 6-7 iyun – Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə "Yalta Xartiyası"nın qəbul olunması.
2001, 18 iyun – Heydər Əliyevin "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" Fərmanı. Dövlət başçısı yanında "Dövlət Dil Komissiyası"nın yaradılması. Avqustun 1-dən etibarən Azərbaycanda latın əlifbasına keçilməsi.

2001, 21 iyun – "Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi"nin yaradılması.
2001, 29 iyun – Azərbaycan Prezidenti tərəfindən "Narkoloji xidmət və nəzarət haqqında" Qanunun təsdiq edilməsi.
2001, 23 iyul – Xəzər dənizinin mübahisəli sularında İran təyyarələrinin Azərbaycan gəmilərinə hücum etməsi.
2001, 9 avqustun – Prezident Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanı. Avqustun 1-nin Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunması.
2001, 20 avqust – Prezident Heydər Əliyevin Fərmanı ilə Bakı Ali Hərbi Dənizçilik Məktəbinin adının Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin adının Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılması.
2001, 22 avqust – Prezident Heydər Əliyevin Fərmanı ilə Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli ilə bağlı tədbirlərin müəyyən olunması.
2001, sentyabr – Prezident Heydər Əliyevin ali məktəbi əlaçı bitirən tələbələrə Prezident təqaüdünü təsis etməsi.
2001, 1 sentyabr – İlk Bakı özəl orta ümumtəhsil məktəbi olan, 2004-cü ilin sentyabrından ümummilli Lider H.Əliyevin adını daşıyan Müasir Təhsil Kompleksinin fəaliyyətə başlaması.
2001, 7 sentyabr – Prezident Heydər Əliyevin verdiyi Fərmanla məcburi köçkünlərin məskunlaşdırılması üçün Ağdam rayonunda 500, Füzuli rayonunda 800 ailəlik evlər tikilmiş qəsəbələrin salınması.
2001, 20 sentyabr – Prezident Heydər Əliyevin Fərmanı ilə "Neftçi günü" kimi qeyd edilməsi.
2001, 24 sentyabr – AŞ PA-nın keçirilmiş payız sessiyasında Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən sənədin qəbul edilməsi.

2001, oktyabr – Bakıda "Olimpiya İdman Kompleksi"nin istifadəyə verilməsi.
2001, 9-10 noyabr – Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi.
2001 – Mətbuat və İnformasiya Nazirliyinin ləğv edilməsi.
2001, 28 dekabr – Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbul edilməsi.
2001 – "Kaspian-Fiş" balıq məhsulları istehsalı müəssisəsi, Bakı elektroqaynaq səhmdar cəmiyyətinin Bakı poladtökmə və s. zavod və müəssisələrinin istifadəyə verilməsi.
2001 – Azərbaycanın Dünya Turizm Təşkilatının tamhüquqlu üzvü olması. "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi.
2001 – Nəsirəddin Tusinin yubileyinin geniş qeyd olunması.
2002, 30 mart – ABŞ-ın Azərbaycana silah satışı üzərinə qoyduğu qadağanın ləğv olunması.
2002, 23 aprel – Aşxabadda Xəzəryanı ölkələrin dövlət başçılarının Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsinə dair keçirilmiş Zirvə toplantısı.
2002, 30 aprel – Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin keçirilmiş Trabzon Zirvə görüşündə "Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər cinayətlərə qarşı mütəşəkkil mübarizə haqqında" Azərbaycan, Gürcüstan və Türkiyə arasında sazişin imzalanması.
2002, 20 may – Prezident Heydər Əliyevin İran Respublikasına səfəri zamanı "Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilənin imzalanması.
2002, 11 iyun – Prezident Heydər Əliyevin "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında" Fərmanı.

2002, yay – "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında ilk dəfə qazma qurğularının altı üçün sualtı qazma dayaq tavasının quraşdırılması.
2002 – Respublikada Ombudsman İnstitutunun yaradılması. Milli Məclisin Qərarı ilə iyulun 2-də Elmira Süleymanovanın bu vəzifəyə seçilməsi.
2002, yay – Azərbaycan muğamının YUNESKO tərəfindən tərtib olunmuş dünya sənəti inciləri sırasına daxil edilməsi.
2002, 7 avqust – Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Sərəncamına əsasən AMEA-nın Naxçıvan Bölməsinin yaradılması.
2002, 24 avqust – Referendum vasitəsilə Azərbaycan Konstitusiyasına dəyişikliklər edilməsi – fövqəladə və ya hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi ilə bağlı insana qarşı silah işlədilməsinə yol verilmir.
2002, 24 avqust – Prezident Heydər Əliyevin təşəbbüsü ilə referendum vasitəsilə Konstitusiyaya 39 mühüm dəyişikliyin edilməsi.
2002, 27 avqust – Prezident Heydər Əliyevin Sərəncamı ilə Prezident yanında Sahibkarlar Şurasının yaradılması. "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə"nin təsdiq olunması.
2002 – Prokurorluq orqanları işçilərinin, aprel ayından isə hakimlərin xüsusi test imtahanından keçməsi.
2002, sentyabr – Respublikada üçpilləli məhkəmə sisteminin formalaşması. Apellyasiya məhkəməsinin yaranması.
2002, 11 sentyabr – Prezident Heydər Əliyevin ABŞ-da baş verən terror aktına etiraz əlaməti olaraq Nyu-Yorkda keçirilən Forumda iştirak edərək separatizmin beynəlxalq terrorizmin qaynaqlarından biri olduğunu və bunu tədbirin iştirakçılarına qondarma "Dağlıq Qarabağ" separat strukturu timsalında izah etməsi.

2002, 18 sentyabr - 2006, 13 iyul – Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi.
2002, 23 sentyabr – Azərbaycan və Rusiya prezidentlərinin "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzər dənizi dibinin həmhüdud sahələrinin bölgüsü haqqında saziş"i imzalamaları.
2002, 30 sentyabr – "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun.
2002, 2 oktyabr – Azərbaycan Respublikasının BMT-nin "İqtisadi və Sosial Şurasına" üzv seçilməsi.
2002, 5 oktyabr – Prezident Heydər Əliyevin Fərmanı ilə "Milli Televiziya və Radio Şurası"nın yaradılması.
2002, 10 oktyabr – Olimpiya oyunlarında qalib gələn çempionlar üçün Respublika Prezidentinin xüsusi Olimpiya təqaüdü təsis etməsi.
2002, oktyabr – "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda ATƏT-in Bakı konfransı.
2002, 5 noyabr –"Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi"nin yaradılması.
2002, noyabr – Azərbaycan respublikasının ilk dəfə ənənəvi Ümumdünya Turizm Yarmarkasının (Londonda) iştirakı.
2002, 18 noyabr – İstanbul Sammitində Azərbaycanın NATO Parlament Assambleyasının Assosiativ Üzvlüyünə qəbul olunması.
2002, 22 noyabr – AATŞ-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilmiş Zirvə toplantısı. Prezident Heydər Əliyevin nitqi.
2002-ci ilin sonu – Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac edilməsi barədə razılığın əldə olunması.
2002 – "Naxçıvan Ensiklopediyası"nın çap edilməsi.
2002, 2 dekabr – Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərmanı.

2002 – Azərbaycan Respublikanın Abidələrin Bərpası Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunması.
2002 – Azərbaycan Respublikasının Avropa İttifaqı ilə "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin (1992-ci ildə bağlanıb) yerinə yetirilməsinə dair milli proqramın hazırlanması.
2002-2004 – Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Komitəyə üzv seçilməsi.
2003, 4 yanvar – Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" Fərmanı.
2003, 27 yanvar – İlham Əliyevin yekdilliklə AŞPA-nın Vitse-prezidenti və qurumun Büro üzvü seçilməsi.
2003, 27 fevral - 2006 – Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası.
2003, 15-16 may – NATO-nun Baş Katibi C.Robertsonun respublikamıza səfəri. Azərbaycanın NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planına (FTƏP) qoşulmaq istəyini bildirməsi.
2003, 7 iyul – Bakı metropoliteninin H.Aslanov adına 20-ci stansiyasının işə salınması.
2003, 24 iyul – "Lider" yarımdalma dəniz qazma qurğusunun istifadəyə verilməsi.
2003, 4 avqust – İlham Əliyevin Respublikanın Baş naziri vəzifəsinə təyin edilməsi.
2003, sentyabr – Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin BMT BA-nın 58-ci sessiyasında üzvlər arasındakı qarşılıqlı anlaşılmazlıqların aradan qaldırılmasında islahatlar keçirməyin vacib olduğunu bildirməsi.
2003, 15 oktyabr – Baş nazir İlham Əliyevin ölkə Prezidenti seçilməsi.
2003, 11 dekabr – 2007, 9 iyun – Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan prezidenti Robert Köçaryanla – Cenevrədə, Varşavada (Polşa), Astanada (Qazaxıstan), Varşavada, Kazanda (Rusiya), Rambuyedə (Fransa), Buxarestdə (Rumıniya), Minskdə, -ci il – Sankt-Peterburqda (Rusiya) keçirilən görüşləri.

2003, 12 dekabr – Ulu öndər Heydər Əliyevin dünyasını dəyişməsi.
2003-2005; 2017-2019 – Azərbaycan Respublikasının BMT-nın İqtisadi və Sosial Şurasına üzv seçilməsi.
2003-2007 – Prezident İlham Əliyevin "Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Fərmanına uyğun olaraq məqsədli Proqramın həyata keçirilməsi.
2004, 12 yanvar – Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamları.
2004, 11 fevral – Prezident İlham Əliyevin 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004 – 2008-ci illər)".
2004, 27 fevral – Prezident İlham Əliyevin Sərəncamı ilə C.Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının ləğv edilməsi və onun əsasında Heydər Əliyev adına Hərbi Liseyin yaradılması.
2004, 21 avqust – Prezident İlham Əliyevin "Bilik gününün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında" və "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiyası və kommunikasiya texnologiyaları ilə təminatlı proqramı"na (2005-2007) dair Fərmanları.
2004, 16 sentyabr – Prezident İlham Əliyevin iştirak etdiyi MDB Dövlət Başçılarının 38-ci Zirvə toplantısında üzv dövlətlərin dövlət başçılarının Beynəlxalq Terrorizmlə Mübarizə haqqında Bəyanatı.
2004, sentyabr – BMT BA-nın 59-cu sessiyasında Prezident İlham Əliyevin Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin (822, 853, 874, 884) yerinə yetirilməməsi barədə çıxışı.

2004, 26-29 oktyabr – NATO Əməliyyatlar Departamentinin Planlaşdırma bölməsinin başçısı Dieqo Ruiz Palmerin başçılığı ilə nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Milli Böhranların idarəedilməsi sahəsində Azərbaycanda mövcud olan proseduraların müzakirəsi və tövsiyələri.
2004, 23 noyabr – BMT BA-nın 59-cu sessiyasının gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 163 nömrəli bəndin daxil edilməsi.
2004 – Azərbaycanın 20 ölkədə diplomatik nümayəndəliklərinin, o cümlədən Təbrizdə konsulluğunun açılması.
2005, yanvar – Azərbaycan, Türkiyə və Gürcüstan dövlətləri arasında Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi haqqında sazişin imzalanması.
2005, 2-3 fevral – Bakıda NATO Baş Katibi müavininin müavini Patrik Hardouinin sədrliyi ilə Avro-Atlantika tərəfdaşlıq Şurası çərçivəsində "İqtisadiyyat, Təhlükəsizlik və Müdafiə – makroiqtisadi sabitləşmənin təhlükəsizlik aspektləri və müdafiə üçün mövcud olan resursların idarə olunması daxil olmaqla struktur islahatları" adlı seminarın keçirilməsi.
2005, fevral – "Azəri-Çıraq-Günəşli" yataqlarının Mərkəzi Azəri hissəsindən ilk neftin çıxarılması.
2005, aprel – Respublikanın Milli Məclisinin "Heydər Əliyev" ordeninin təsis edilməsi haqqında Qanunu qəbul etməsi.
2005, 4-9 aprel – "Saloğlu" layihəsini müzakirəsi üçün NATO Beynəlxalq heyət və NATO Maddi Texniki Təchizat və Təminat Agentliyindən (NAMSA) nümayəndə heyətinin Azərbaycana "feasibility study"-yə (ehtiyacın dəyərləndirilməsinə) səfəri.
2005 – Azərbaycan Respublikasının 1999-cu ildə başlayan Boloniya prosesinə qoşulması.
2005, 24 avqust – Bakıda "Muğam evi"nin təməlinin qoyulması.
2005-2007 – I dövrdə Azərbaycan NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını (FTƏP) başa çatdırması.

2005-2013 – 4 Muğam Televiziya Müsabiqəsinin keçirilməsi.
2006, 16 mart – Bakıda keçirilən Dünya Azərbaycanlılarının II Qurultayı.
2006, 7 sentyabr – BMT Baş Məclisinin keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı Qətnamənin qəbul edilməsi.
2006, 29 dekabr – Heydər Əliyev Mərkəzinin Prezident İlham Əliyevin 1886 nömrəli Sərəncamı əsasında yaradılması.
2006-2008 – Azərbaycanın NATO maliyyəsi və ekspertizası ilə Mingəçevir və Ələt ərazisində keçmiş sovet ordusundan qalma vaxtı keçmiş, yüksək zəhərli raket yanacağının zərərsizləşdirilməsi üzrə Melanj layihəsini həyata keçirməsi.
2006-2009 – Azərbaycan Respublikasının BMT İnsan Hüquqları Şurasına üzv seçilməsi.
2007, yanvar – Prezident İlham Əliyevin ilk dəfə "Güclərin qlobal balansının yerdəyişməsi" devizi altında "Neft geosiyasətinin artan əhəmiyyəti" mövzusunda keçirilən Forumda iştirakı.
2007, fevral – "Şahdəniz" yatağından hasil olunan təbii qazın Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsi ilə Gürcüstana nəql olunması.
2007, 16 aprel – Yüzlərlə gəncin xaricdə dövlət hesabına təhsil alması haqqında Dövlət Proqramı.
2007, 3 iyul – "Şahdəniz" yatağından hasil edilən təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olması.
2007, oktyabr - 2013 – Alov qüllələrinin əsasının qoyulması.
2007, 21 noyabr-2017, 30 oktyabr – Gürcüstanın Marabda kəndində Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin təməlinin qoyulması və istismara verilməsi.
2007 – Dövlət tibb müəssisələrində tibbi xidmətin pulsuz olması.

2008, 14 mart – BMT Baş Məclisinin iclasında – 62-ci sessiyanın gündəliyində 20-ci bənd olan "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" Qətnamə.
2008, 5 iyun - 2017, 16 oktyabr – Prezident İlham Əliyevin Ermənistan prezidenti Serj Sakisyan ilə Sankt-Peterburqda, Moskvada, Sürixdə (İsveçrə), Praqada, Sankt-Peterburqda, Moskvada, Kişinyovda, Münhendə (Almaniya), Soçidə... Sankt-Peterburqda, Cenevrədə keçirilən görüşləri.
2008, 18 dekabr – Bakıda keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının iclası tərəfindən "Dünya Azərbaycanlılarının Həmrəylik xartiyası"nın qəbul olunması.
2008-2010 – II dövrdə Azərbaycan NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını (FTƏP) başa çatdırması.
2008-2015 – Azərbaycanda reproduktiv sağlamlığa dair milli strategiyanın həyata keçirilməsi.
2009, 18 mart – Referendum yolu ilə Konstitusiyaya edilən dəyişiklik nəticəsində prezidentin ömürlük seçilməsi.
2009, 14 aprel – Prezident İlham Əliyevin 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı".
2009, iyun – Milli Məclis tərəfindən "Təhsil haqqında" Qanunun qəbul olunması.
2009, 9 oktyabr – MDB Dövlət Başçıları Şurasının Kişinyovda keçirilən iclasında Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü.
2010, 24 may – Prezident İlham Əliyevin Fərmanı ilə Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrinə – Silahlı Qüvvələrin Hərbi Akademiyasına, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinə, C.Naxçıvanski adına Hərbi Liseyə və Heydər Əliyev adına Hərbi Liseyə xüsusi statusun verməsi.

2010, sentyabr – Prezident İlham Əliyev BMT Baş Məclisinin 65-ci sessiyasında çıxışı.
2010, 15 sentyabr – "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"nin imzalanması.
2010 – Türkiyə - Azərbaycan dövlətləri arasında qarşılıqlı əlaqələrin artırılması və möhkəmləndirilməsi məqsədilə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mexanizminin təsis edilməsi.
2010, oktyabr – 2013 – SOCAR Tower göydələninin tikilməsi.
2010 – Bakıda Güləş üzrə Avropa Çempionatı, Bədii gimnastika üzrə 25-ci Avropa Çempionatının keçirilməsi.
2011, 5-6 iyul – Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Dünya Azərbaycanlılarının III Qurultayı.
2011, iyul – Azərbaycanda Baku Cup kimi Beynəlxalq idman yarışlarının keçirilməsi.
2011, oktyabr - 2012, yanvar – Azərbaycan Respublikasının BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi.
2011 – Eldar Qasımov və Nigar Camal duetinin ifa etdiyi "Running Scared" adlı mahnı ilə Azərbaycanın "Avroviziya" (Eurovision) mahnı müsabiqəsində qalib gələrək 39 iştirakçı dövlət içərisində I yeri tutması.
2011, 2012, 2013, 2014, 2016, 2018 – Beynəlxalq Humanitar Forumların Bakıda keçirilməsi.
2012, 10 yanvar – Bakı Kristal Zalın əsasının qoyulması.
2012, 10 may – Heydər Əliyev Mərkəzinin açılışı.
2012, 26 iyun – İstanbulda Prezident İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üzrə sənədlərin imzalanması mərasiminin keçirilməsi.
2012, 13 iyul – Prezident İlham Əliyevin imzaladığı 685 saylı Fərmana əsasən "ASAN xidmət" mərkəzlərinin strukturuna daxil olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Və-

təndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması.

2012, dekabr – Səhiyyə Nazirliyi tərəfindən "Sağlam həyat uğrunda" devizi altında xəstəliklərin profilaktikası üçün "Sağlamlıq ayı"nın həyata keçirilməsi.

2012, 29 dekabr – Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası.

2012 – Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycan idmançılarının 10 - 2 qızıl, 2 gümüş, 6 bürünc medallarla təltif olunması.

2012 – Bakıda FİFA U-17 Qadınlararası Dünya Çempionatı kimi Beynəlxalq idman yarışlarının keçirilməsi.

2012 – Planlaşdırma və Analiz Prosesi sənədi çərçivəsində Azərbaycan kiber təhlükəsizliyi ilə bağlı iki "tərəfdaşlıq məqsədi"ni bəyan etməsi.

2012-2013 – III dövrə Azərbaycanın NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını (FTƏP) yerinə yetirməsi.

2013 – İlk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlaması.

2013 – "2015-ci ilədək humanitar sahədə AR və RF arasında əməkdaşlıq Proqramı"nın imzalanması.

2013 – Dünya İqtisadi Forumunun Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq" mövzusunda keçirilməsi.

2014 – Təhsil Nazirliyi tərəfindən SABAH (savadlı, bacarıqlı, hazırlıqlı) qruplarının təşkili.

2014, 15 may – Prezident İlham Əliyevin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərmanı.

2015, 21 fevral – Azərbaycanda baş verən devalvasiya (33.8%) nəticəsində manatın 1 dollara görə dəyərinin 1.05 azn olması. 21 dekabr 2015-ci ildə isə 2-ci devalvasiyanın olması və 1 ABŞ dollarının rəsmi məzənnəsini 1,55 manat səviyyəsində qərarlaşması.

2015, 24 dekabr – Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi quru qoşunları, hərbi hava qüvvələri, hava hücumundan müdafiə və hərbi dəniz qüvvələri fakültələri yaradılmaqla, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qoşulması.
2015, 28 dekabr – "Elmlər Akademiyası" stansiyasının ikinci çıxışının açılışı.
2015 – Ölkəmizdə ilk Avropa Oyunlarının keçirilməsi.
2016 – Milli valyutanın 10,1 faiz ucuzlaşması.
2016 – Bakıda Formula-1 Qran-Pri yarışlarının keçirilməsi.
2016 – Bakıda Futbol üzrə 17 yaşadək Avropa Çempionatı kimi Beynəlxalq idman yarışlarının keçirilməsi.
2016 – Aprel döyüşləri.
2016, 19 aprel – Bakı metropoliteninin perspektiv inkişaf planının birinci prioritet istiqamətinə daxil olan Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının sərnişinlərin istifadəsinə verilməsi.
2016, 25-27 aprel – BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi.
2016 – Azərbaycanda "Tax free" sisteminin tətbiq olunması.
2016, 1 iyun – Dövlət başçısının "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Fərmanı.
2016, 3-4 iyun – Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı.
2016, 1 sentyabr – Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı. Turizm Şurasının yaradılması. Hər il sentyabrın 27-nin Azərbaycanda "Turizm işçiləri günü" peşə bayramı kimi qeyd edilməsi.
2016, 26 sentyabr – Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında referendum keçirilməsi.

Prezidentin ümumi, bərabər, birbaşa seçki hüququ əsasında, sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilməsi. Prezidentlik üçün yaş limitinin ləğv olunması. Vitse-prezident postlarının yaradılması.

2016, 6 dekabr – Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" Fərmanı.

2016 – Prezident İlham Əliyevin "Multikulturalizm ili" elan edilməsi haqqında Sərəncamı.

2016 – Bakıda 42-ci Şahmat Olimpiadasının keçirilməsi.

2016 – BMT və Azərbaycan hökumətinin 2016-2020-ci illər üçün ölkənin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası adlı sənədində təsbit olunmuş inkişaf meyllərini rəhbər tutan Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədini (UNAPF) imzalamaları.

2017, 21 fevral – Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban Arif qızı Əliyeva.

2017, 4-6 may – IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Bakıda keçirilməsi.

2017, 20 sentyabr – BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında Prezident İlham Əliyev tərəfindən Ermənistanın işğalçı dövlət olması faktının BMT Təhlukəsizlik Şurasının və Avropa Şurasının sənədlərində ilk dəfə əks etdirilməsi.

2017, 28 oktyabr – Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin rəsmi açılışı.

2017 – Ölkəmizdə İslam Həmrəyliyi Oyunları və Formula-2 Qran-Pri yarışlarının keçirilməsi.

2017-2020 – Azərbaycan Respublikasının BƏT-in İnzibati Şurasına üzv seçilməsi.

2018 – Bakıda Cüdo üzrə Dünya Çempionatı kimi Beynəlxalq idman yarışının keçirilməsi.

2018/2019 – Bakıda futbol üzrə Azərbaycan Cup kimi Beynəlxalq idman yarışının keçirilməsi.

2019, 27 yanvar – Prezident İlham Əliyevin "Qloballaşma: Dördüncü sənaye inqilabı dövründə qlobal strukturu formalaşdırmaq" mövzusuna həsr olunmuş Davos Dünya İqtisadi Forumunda iştirakı.
2019, 2 may – V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Bakıda keçirilməsi.
2019, 30 may – Azərbaycan nümayəndə heyətinin NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Slovakiyanın paytaxtı Bratislavaya səfəri.
2019, 30 iyun - 10 iyul – Bakıda təşkil edilmiş Ümumdünya İrs Komitəsinin 43-cü Sessiyasında Şəki şəhərinin tarixi hissəsinin və Şəki Xan Sarayının Dünya İrs Siyahısına daxil edilərək, İçərişəhər və Qobustandan sonra Azərbaycanın Ümumdünya İrs Siyahısına salınan üçüncü mədəni irs məkanı olması.
2019, 30 iyun - 10 iyul – YUNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü Sessiyasında YUNESKO-nun "Görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri Proqramı" çərçivəsində Bakı Dövlət Universitetinin təsis olunmasının 100, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinin YUNESKO səviyyəsində qeyd olunmasına dair müzakirəsi.
2019, 21-27 iyul, 24 iyul-1 avqust – Bakıda Avropa Gənclər Yay Olimpiya Festivalının (EYOF) keçirilməsi.
2019 – Avropa Liqasının finalının Bakı Olimpiya Stadionunda keçirilməsi.
2019, 9 may – ilk "DOST" mərkəzinin açılışı.
2019, 2021 – (2020-ci ildə COVID-19 pandemiyası səbəbindən Azərbaycan Qran-Prisi baş tutmadı) Formula-1 Qran-Pri yarışlarının keçirilməsi.
2019-2023 – Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına Sədrliyi.
2019, 25 oktyabr – XVIII Zirvə Görüşü.

2020 – Bakı UEFA Avro 2020-nın qrup mərhələsi və 1/4 finalına ev sahibliyi edəcəkdir.
2020, 21-24 yanvar – Davos İqtisadi Forumu.
2020, 15 fevral – Münhen Təhlükəsizlik Konfransı.
2020, 12-23 iyul – Tovuz döyüşləri.
2020, avqust – Ermənistan dövlətinin Azəbaycana diversiya qrupu göndərməsi.
2020, 27 sentyabr (saat 06.00-da) - 10 noyabr – İkinci Qarabağ müharibəsi.
2020, 28 sentyabr saat 00:00-dan – Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən Azərbaycan Respublikasında hərbi vəziyyət, komendant saatı, müharibə vəziyyəti və qismən səfərbərlik elan edildi.
2020, 4 oktyabr – Cəbrayıl şəhərinin işğaldan azad edilməsi.
2020, 10 oktyabr saat 12.00-dan etibarən – Humanitar atəşkəsin elan edilməsi.
2020, 4, 5, 8, 11 və 17 oktyabr – Gəncə şəhərinin ağır artilleriya və raket atəşlərinə tutulması.
2020, 17 oktyabr – Füzuli şəhərinin işğaldan azad edilməsi.
2020, 18 oktyabr – Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının qaldırılması.
2020, 19 oktyabr – BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasında qəbul etdiyi və məlum 4 qətnaməyə istinad olunmayan bəyanat Qöşulmama Hərakatının təkidi ilə qəbul olunmadı.
2020, 20 oktyabr – Zəngilan şəhərinin işğaldan azad olunması.
2020, 25 oktyabr – Qubadlı şəhərinin işğaldan azad olunması.
2020, 8 noyabr – Şuşa şəhərinin işğaldan azad olunması.
2020, 20 noyabr – Ağdam rayonunun noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən Azərbaycana təhvil verilməsi.
2020, 25 noyabr – Kəlbəcər rayonunun üçtərəfli bəyanata əsasən Azərbaycana təhvil verilməsi.

2020, 1 dekabr – Laçın rayonunun üçtərəfli bəyanata əsasən Azərbaycana təhvil verilməsi.
2020, 15 dekabr – Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair Anlaşma Memorandumunun imzalanması
2021 və 2022-ci ilin əvvəlləri – koronavirus məhdudiyyətləri səbəbindən onlayn formatda keçirilən Davos İqtisadi Forumu.
2021, 11 yanvar – Regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyası Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar.
2021, 7 may – Prezident İlham Əliyevin Sərəncamı ilə Şuşa şəhərinin "Azərbaycanın Mədəniyyət Paytaxtı" elan edilməsi
2021, 12-13 may – Şuşa şəhərində IV "Xarıbülbül" festivalının keçirilməsi.
2021, 26 noyabr – Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyasına, kommunikasiyaların bərpasına dair bəyanat.
2021, 4-6 noyabr – "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumu.
2021, 15 iyun - "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin Şuşada imzalanması.
2021, 14 dekabr – Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə ikitərəfli görüş.
2022, fevral – Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Makronun iştirakı ilə videokonfrans.
2022, 6 aprel, 22 may, 31 avqust – Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla və Şarl Mişellə üçtərəfli görüş.
2022, 22-23 aprel – Dünya azərbaycanlılarının V Qurultayının Şuşa şəhərində keçirilməsi.

2022, 12-14 may – Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi.
2022, 22-26 may – Davos İqtisadi Forumu.
2022, 16 iyun – "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumu.
2022, 10-12 iyul – Formula 1 və Formula 2 üzrə 6-cı Azərbaycan Qran-Pri yarışlarının keçirilməsi.
2022, 16 sentyabr – Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammiti.
2022, 6 oktyabr – Praqada Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Macron, Ermənistanın Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişell arasında keçirilmiş görüş.
2022, 7 noyabr – Vaşinqtonda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan, ABŞ-ın dövlət katibi Antoni Blinken ilə keçirilmiş birgə görüş.
2023, 9-11 may – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) Şuşa şəhərini "Türk dünyasının mədəniyyət paytaxtı" elan etmişdir. VI "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının keçirilməsi.
2023, 25 may – Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə üçtərəfli Zirvə Görüşü.
2023, 15 iyul – Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə üçtərəfli görüşü.
11.2021, 09.2022, 03.2023 (Şuşa istiqamətində), 04-05-2023 – Azərbaycan və Ermənistan sərhədlərində silahlı toqquşmalar.
2023, 23 aprel saat 12:00-da – Azərbaycanın suveren ərazilərində "Laçın" nəzarət buraxılış məntəqəsinin yaradılması.

2023, 19-20 sentyabr tarixlərində – Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyinin tam bərpa olunması.
2023, 21, 29 sentyabr tarixlərində – Yevlax görüşləri
2023, 25 sentyabr – Xocalı görüşü.
2023, 15 oktyabr – Ağdərə, Əsgəran, Xocavənd, Xocalı və Xankəndidə Azərbaycan Bayrağının qaldırılması.
2023, 21 dekabr – Azərbaycan kubokunun 1/8 final mərhələsi çərçivəsində işğaldan azad edilmiş Xankəndi rayonunun stadionunda Ağdamın "Qarabağ" və Bakının "MOİK" futbol komandalarının oyunu.
2023, 25 sentyabr – İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimi.
2023, 28 noyabr – Prezident İlham Əliyevin "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalaması.
2023, 7 dekabr – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzalaması .
2023, 9 dekabr – Şərqi Avropa Regional Qrupu Azərbaycanı 2024-cü ildə COP29-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirməsi.
2023, 11 dekabr – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü il 11-23 noyabr tarixlərində Azərbaycanda keçirilməsi barədə Qərar qəbul edilməsi.
2023, 25 dekabr – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi barədə Sərəncam imzalaması.
2024, 7 fevral – İlham Əliyevin 92,12 faiz səs toplayaraq 5-ci dəfə 7 il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilməsi.

2024, 17 fevral – Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya kansleri Olaf Şoltsun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında ikitərəfli görüş.
2024, 28-29 fevral – Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Berlin görüşü .
2024, mart ayı – Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Nazirlər Şurasının 2024-2026-cı illər üçün sədrliyin Azərbaycan Respublikasına keçməsini təsdiqləməsi.
2024, 17 aprel – Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının Qarabağdan vaxtından əvvəl çıxarılması barədə Azərbaycan-Rusiya ali rəhbərliyi tərəfindən qəbul edilən qərar.
2024, 18 aprel – Rusiya sülhməramlılarının Qarabağı vaxtından əvvəl tərk etməyə başlaması.
2024, 26 aprel – Ağdamda fəaliyyət göstərən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətini dayandırması.
2024, 01-03.05. – "Sülh və Qlobal Təhlükəsizlik naminə" dialoq mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu.
2024, 10-11 may – Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatı Görüşü.
2024, 11 may – Şuşa şəhərinin Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasiminin keçirilməsi.
2024, 3-4 iyul – Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində "ŞƏT Plus" (Şanxay Əməkdaşlıq Təşkilatı) görüşü.
2024, 6 iyul – Şuşada keçirilən "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda Türk Dövlətləri Təşkilatının (TDT) Qeyri-rəsmi Zirvə Görüşü çərçivəsində Qarabağ Bəyannaməsinin qəbul edilməsi.

2024, 10 iyul – Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda NATO-nun 75 illiyinə həsr olunmuş Zirvə Görüşü .
2024, 26.07-11.08 – Parisdə (Fransa) keçirilən XXXIII Yay Olimpiya Oyunlarında Azərbaycan Milli Olimpiya Komandasının iştirakı (7 medal: 2 qızıl, 2 gümüş və 3 bürünc)
2024, 27 avqust – Azərbaycanın Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzalaması.
2024, 19 sentyabr – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Hər il sentyabrın 20-nin Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsi haqqında Sərəncam imzalaması.
2024, 24 sentyabr – Atom Enerjisi üzrə Beynəlxalq Agentlik ilə 2024-2029-cu illəri əhatə edən "Ölkə Çərçivə Proqramı" adlı sənəd imzalanıb.
2024, 26 sentyabr – Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-Yorkda BMT-nin Assambleyasının 79-cu İllik Sessiyası çərçivəsində görüşü.
2024, 18 oktyabr – Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin İstanbuda "3+3" formatında görüşü.
2024, 24 oktyabr – Kazanda keçirilən BRİKS-in XVI Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında ikitərəfli görüş.
2024, 11-23 noyabr – Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı (COP29).
2024, 27 noyabr – Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin 2025-ci il yanvarın 29-na təyin edilməsi barədə 49/238 nömrəli Qərarın qəbul edilməsi.
2024, 3 dekabr – İranın Məşhəd şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasında Məşhəd Bəyannaməsi qəbul edilməsi.

2024, 19 dekabr – Misirin paytaxtı Qahirədə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Sammitində Azərbaycan Respublikasının yekdilliklə D-8 təşkilatına üzv qəbul edilməsi.
2024, 25 dekabr – Bakıdan Qroznıya uçan AZAL-a məxsus "Embraer 190" sərnişin təyyarəsinin Rusiya Federasiyasının hava məkanında – Qroznı şəhəri yaxınlığında kənar müdaxilə nəticəsində qəzaya uğraması.
2025, 5 mart – İğdır-Naxçıvan qaz kəmərinin açılış mərasimi.
2025, 13-15 mart – "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu.
2025, 10-12 aprel – IV Antalya Diplomatik Forumu.
2025, 21 may – Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının Qeyri-rəsmi Zirvə Görüşü, Budapeşt Bəyannaməsi.
2025, 2 iyun – "Bakı Enerji Həftəsi" çərçivəsində 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" sərgilərinin və 30-cu "Baku Energy Forumu"nun rəsmi açılış mərasiminin keçirilməsi.
2025, 19 iyun (2023, 6 fevral – Türkiyənin cənub-şərqində zəlzələ**)** – Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasiminin keçirilməsi.
2025, 4 iyul (2006, 2012 - Bakıda**) –** Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü.
2025, 19 iyul – Xankəndi şəhəri, III Şuşa Qlobal Media Forumu.
2025, 8 avqust – Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Birgə Bəyannaməni imzalamaları.
2025, 7 oktyabr – Qəbələ şəhərində "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının XII Zirvə Görüşü. Qəbələ Bəyannaməsinin qəbul edilməsi.

2025, 22 dekabr – 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
2026, 20 yanvar – Prezident İlham Əliyevin Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında iştirak etməsi.
2026, 4 fevral – Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində Prezident İlham Əliyevə mükafat təqdim olunması.
2026, 12 mart – "Keçid dövründəki dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda keçirilən XIII Qlobal Bakı Forumu.
2026, 15 may – Qazaxıstanın Türküstan şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qeyri-rəsmi Zirvə Görüşü. Türküstan Bəyannaməsinin qəbul edilməsi.
2026, 17-22 may – BMT-nin Ümumdünya Şəhərsalma Forumu (WUF13).
2026, 1-3 iyun – "Bakı Enerji Həftəsi" çərçivəsində 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ("Caspian Oil and Gas"), 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi ("Caspian Power") və 31-ci "Baku Energy Forum"unun keçirilməsi.
2026, 13-14 iyul – Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumu.

NƏTİCƏ

Bəşər tarixinin zəngin mədəni irsə malik olan Azərbaycan torpaqlarında ən qədim zamanlarından XXI əsrin ilk onilliklərinə qədər olan bir dövrdə baş verən tarixi və siyasi proseslər, sosial-iqtisadi və mədəni inkişaf təqdim olunan dərslikdə öz əksini tapmışdır. Texniki ali məktəblər üçün tərtib edilmiş dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyinin tədrisin bakalavr və magistr pillələrinin dərsliklər üçün nəzərdə tutulmuş tələblərinə, mövcud tədris qaydalarına, Təhsil Nazirliyinin tövsiyəsi ilə 2010-cu ildə çap olunmuş Azərbaycan tarixi proqramına uyğun olaraq yazılmışdır və elmi-pedaqoji əhəmiyyətə malikdir.

Müəllif "Azərbaycan tarixi" adlı dərsliyi tərtib edərkən Azərbaycanın tarixi ərazisinin sakinləri olan xalqımızın minilliklər ərzində yaratdığı milli-mədəni irsini, milli dövlətçilik ənənələrini, milli-mənəvi dəyərlərini, xalqımızın bu ərazilərdə məskunlaşma tarixinin qədimliyini, etnik-dil mənzərəsini, mənşəyini, etnogenezini, Azərbaycan xalqının və dilinin formalaşması prosesini, siyasi tarixini və bir sıra tarixi əhəmiyyətli problemləri xüsusi olaraq vurğulamışdır. Əsrlər boyu xalqın qəsbkar dövlətlərə qarşı apardığı milli-azadlıq mübarizəsi, Azərbaycanın ictimai-iqtisadi, siyasi, hərbi və mədəni tarixi, sənaye və kənd təsərrüfatında kapitalizmin inkişafı, neft sənayesinin tarixi, Azərbaycan xalqının təşəkkülü, milli şüurun, dil və mədəniyyətin inkişafı təqdim olunan dərslikdə faktlar əsasında şərh edilmişdir.

Dərslikdə 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin elan olunması ilə Azərbaycan tarixində başlanan yeni dövrdə baş verən siyasi proseslər, xüsusilə də Qarabağ həqiqətləri, ölkədə yaranmış siyasi böhran, dövlət müstəqilliyinin itirilməsi təhlükəsinin ümummilli Lider Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı ilə aradan qaldırılması, Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinin tarixi həqiqətlə-

rinin bütün dünyaya obyektiv olaraq çatdırılmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri, onun davamçısı olan Prezident İlham Əliyevin fəaliyyəti sayəsində Azərbaycanın dünya birliyinin bərabərhüquqlu üzvü kimi Cənubi Qafqazda söz sahibi olması öz əksini tapmışdır. Kitabda 2020-ci il 27 sentyabrdan başlayan və Rusiya prezidenti Vladimir Putin, Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı 10 noyabr üçtərəfli bəyanatla Qarabağ bölgəsində Ermənistan-Azərbaycan münaqişəsinə son qoyan 44 günlük İkinci Qarabağ (Vətən) müharibəsi, noyabrın 8-də qədim mədəniyyət mərkəzimiz olan Şuşanın işğaldan azad olunması, birlik və bütövlük rəmzi kimi Dəmir yumruqda birləşmiş Müzəffər Ali Baş Komandan, xalq və rəşadətli Azərbaycan Ordusunun yazdığı tariximizin Zəfər salnaməsi və qələbə ləyaqətimizi qoruyaraq ərazi bütövlüyümüzün bərpası, bu haqq savaşının tarixi ədalətin qələbəsi ilə yekunlaşması, 2023-cü il 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyinin tam bərpa olunması, 21 dekabr 2023-cü il tarixində Azərbaycan kubokunun 1/8 final mərhələsi çərçivəsində işğaldan azad edilmiş Xankəndi rayonunun stadionunda Ağdamın "Qarabağ" və Bakının "MOİK" futbol komandaları ilk matçının keçirilməsi, Azərbaycan Prezidenti İlham Əliyevin postmüharibə dövründə Qarabağın bərpası və yenidənqurmanı nəzərdə tutan sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri olan məcburi köçkünlərin işğaldan azad edilmiş öz doğma yurdlarına qayıtması - "Böyük Qayıdış"ın həyata keçirilməsi üçün reallaşdırılan tədbirlər, Azərbaycanın BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurla sədrlik etməsi, 11-23 noyabr 2024-cü il tarixlərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına (COP29) və 17-22 may 2026-cı ildə

BMT-nin Ümumdünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi etməsi, ölkəmiz regional təhlükəsizlik, enerji keçidi və yaşıl artım, Qarabağda yaşıl və ekoloji cəhətdən təmiz zonaların yaradılması, ölkədə külək və günəş enerjisi layihələri, Avropa İttifaqına uzanan yaşıl enerji dəhlizlərinin gələcəyi və digər mövzularda öz baxışını təqdim etməklə qlobal siyasətə, o cümlədən, Azərbaycan ilə Ermənistan arasında Azərbaycan Respublikasının milli maraqlarına uyğun şəkildə gedən sülh prosesinin irəliləməsi, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Birgə Bəyannaməni imzalamaları və sülh müqaviləsi layihəsinin parafl anmasının regional təhlükəsizliyə töhfə verəcəyi şərh edilərək tələbələrə çatdırılmışdır.

BİBLİOQRAFİYA

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Azərbaycan tarixi. 7 cilddə, I c. (Ən qədimdən - b.e. III əsri). Bakı: "Elm", 2007, 520 s.+40 s. illüstrasiya.

2. Azərbaycan tarixi. 7 cilddə, II c. (III-XIII əsrin I rübü). Bakı: "Elm", 2007, 608 s.+24 s. illüstrasiya.

3. Azərbaycan tarixi. 7 cilddə, III c. (XIII-XVIII əsrlər). Bakı: "Elm", 2007, 592 s.+56 s. illüstrasiya.

4. Azərbaycan tarixi. 7 cilddə, İV c. (XIX əsr). Bakı: "Elm", 2007, 504 s.+48 s. illüstrasiya.

5. Azərbaycan tarixi. 7 cilddə, V c. (1900-1920-ci illər) . Bakı: "Elm", 2008, 696 s.+40 s. illüstrasiya.

6. Azərbaycan tarixi. 7 cilddə, VI c.(aprel 1920-iyun 1941). Bakı: "Elm", 2008, 568 s.+48 s. illüstrasiya.

7. Azərbaycan tarixi. 7 cilddə, VII c. (1941-2002-ci illər). Bakı: "Elm", 2008, 608 s.+80 s. illüstrasiya.

8. Azərbaycan tarixi: Dərslik / Z. Bünyadovun redaktorluğu ilə. Bakı: "Azərnəşr", 1994, 680 s.

9. Azərbaycan tarixi / İ. Əliyevin redaktorluğu ilə. Bakı: "Elm", 1993, 284 s.

10. Azərbaycan tarixi / S.Əliyarlının redaktorluğu ilə. Bakı: "Azərnəşr", 1996, 872 s.

11. Azərbaycan tarixi. Məmmədov İ. Bakı: "Adiloğlu", 2005, 486 s.

12. Azərbaycan tarixi. Məmmədov İ., Məmmədov Ç. Bakı: "Adiloğlu", 2010, 336 s.

13. Azərbaycan siyasi tarixi. Məmmədov Ç. Bakı, 2004, 357 s.

14. Azərbaycan tarixi: Dərslik. Bakı: "Bakı Universiteti", 2014, 380 s.

15. Azərbaycan tarixi. 1920-1991. Qaffarov T. Bakı: "Mütərcim", 1999, 280 s.

16. Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. Bakı: "Elm", 1990 179 s.
17. Azərbaycan Sovet Ensiklopediyası. II cild, Bakı: "Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası", 1977, 592 s.
18. Azərbaycan Sovet Ensiklopediyası. X cild, Bakı: "Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası", 1987, 662 s.
19. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. Təkmilləşdirilmiş 2-ci nəşr. 2-ci cild. Bakı, "Sərq-Qərb" Nəşriyyat Evi, 2014, 440 səh.
20. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. Təkmilləşdirilmiş 2-ci nəşr. 2-ci cild. Bakı, "Sərq-Qərb" Nəşriyyat Evi, 2014, 472 səh.
21. Azərbaycan Demokratik Respublikası. Tarix. İctimai-siyasi və ədəbi-mədəni həyat. Bakı: "Azərnəşr", 1992, 191 s.
22. Azərbaycanın mərd oğulları (məqalələr məcmuəsi). Bakı, 1959, 126 s.
23. Azərbaycan SSR-in 40 illiyi. Bakı: "Azərb. EA Tarix İnstitutu", 1960, 399 s.
24. Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985.
25. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı: "Azərnəşr", 1964, 818 s.
26. Azərbaycan Respublikası 1991-2001. Bakı: "XXI-Yeninəşrlər Evi", 2001, 358 s.
27. "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli Sərəncamı.
28. Azərbaycan rəqəmlərlə. 2006-cı il (statistik məcmuə). Bakı: "Səda", 2006, 252 s.
29. Azərbaycanın şanlı oğulları. II kitab, Bakı, 1944, 155 s.
30. Azərbaycanın şanlı oğulları. III kitab, Bakı, 1944, 167 s.
31. Azərbaycanın qızıl ulduzları. Bakı: İşıq, 1975, 315 s.
32. Azərbaycan, oktyabr – 94, mart – 95. Qəsd. Bakı: "Azərnəşr", 1995, 800 s.

33. Aydın Əlizadə. Xristianlıq: Tarix və fəlfəsə (ilk çağlar). Baki: "Əbilov, Zeynalov və oğulları", 2007, 172 s.
34. Beynəlxalq münasibətlər tarixi (qədim dövr və orta əsrlər). L.Z.Qarayeva, Ş.T.Nuruzadə, Z.E.Məlikova. Dəslik. Bakı: "Elm və təhsil", 2018, 488 s.
35. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951, 302 s.
36. Berxin İ.B. SSRİ tarixi (1938-1977-ci illər). Bakı: "Maarif", 1978, 486 s.
37. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı: "Elm", 1985, 316 s.
38. Çeşmazər M.M. Azərbaycan Demokratik Partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-1946-cı illər). Bakı: "Elm", 1986, 160 s.
39. "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2006-cı il tarixli, 1291 nömrəli Sərəncamı.
40. Dilməqani T. Güney Azərbaycan Birinci dünya müharibəsi il lərində. (Tərcümə edən və korrektor C.Mirzəyeva). AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı, 2011, s.4-5.
41. Əliyev H. Müstəqilliyimiz əbədidir. I cild. Bakı: "Azərnəşr", 1997, 612 s.
42. Əliyev H. Müstəqilliyimiz əbədidir. II cild. Bakı: "Azərnəşr", 1997, 604 s.
43. Əliyev H. Müstəqilliyimiz əbədidir. III cild. Bakı: "Azərnəşr", 1997, 488 s.
44. Əliyev H. Müstəqilliyimiz əbədidir. IV cild. Bakı: "Azərnəşr", 1997, 528 s.
45. Əliyev H. Müstəqillik yollarında. I cild. Bakı: "Azərbaycan", 1997, 558 s.
46. Əliyev H. Müstəqillik yollarında. IV cild. Bakı: "Azərbaycan", 1997, 534 s.
47. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: "Azərbaycan", 1991, 200 s.
48. Əliyev İ., Məhərrəmov E. Azərbaycan Respublikasının Dövlət rəmzləri. Yenidən işlənmiş nəşri. Bakı: "Nurlan", 2008, 56 s.

49. Əliyev F., Əliyev U. İrəvan xanlığı. Bakı, 2007.
50. Gəncə. Tarixi oçerk. Bakı : "Elm", 1994, 152 s.
51. Güntəkin Nəcəfli. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). (ATASE sənədləri əsasında). Bakı: 2017.-112 s.
52. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı: "Adiloğlu", 2012, 656 s.
53. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-19 20). Bakı: "Azərnəşr", 1993, 362 s.
54. Həsənov C. "Ağ ləkələrin qara kölgəsi". Bakı: "Gənclik", 1991, 200 s.
55. Həsənli C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı: "Diplomat", 1998, 324 s.
56. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı: "İşıq", 1997, 80 s.
57. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ. (1991-1996). Bakı: "Azərnəşr", 1998, 331 s.
58. Hacıyev H.Ə. İmanov R.C. Əmirxanov Ə.İ. Müharibədən sonra Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafı, onun başlıca istiqamətləri. 1945-1991. Bakı: "ADNA", 1999, 76 s.
59. İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı. Bakı, iyun 2017. 152 s.
60. İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1918 - 1991). Bakı: "Elm", 1996, 304 s.
61. XX əsr Azərbaycan tarixi / Y.B.Yusifov və T.T.Vəliyevin red. ilə. II c. Bakı:" Çaşıoğlu", 2004, 558 s.
62. İbişov F. Azərbaycan kəndində sosial-iqtisadi proseslər (1920-1930-cu illər). Bakı, 1996, 168 s.
63. İsmayılov İ,Z, Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı, 2000, 192 s.
64. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009.
65. İradə Hüseynova. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
66. İradə Hüseynova. Müstəqilliyimizin təminatçısı. (Məqalələr, çıxışlar, müsahibələr, rəylər.. .). Bakı, «Təhsil», 2003, 504 səh.

67. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, «Təhsil», 2004, 472 səh.
68. Irada Huseynova. Haydar Aliyev and peace process in the Caucasus. Baku, ‹‹Fuyuzat", 2023 528 p.
69. Köçərli X. Azərbaycan 1920-1940-cı illərdə. Bakı: "ADPU", 2003, 230 s.
70. Köçərli T. Qarabağ: yalan və həqiqətlər. Bakı, 1998, 242 s.
71. Qayıdış. 1990-1993. Sənədlər toplusu. Bakı, 1996, 792 s.
72. Qətiyyətin təntənəsi. Sənədli xronika. Bakı, 1995, 848 s.
73. Lenin V.İ. Əsərləri. 51-ci cild. Bakı, 1984, 648 s.
74. Müstəqil dövlətimiz və parlamentimiz. Bakı: Azərbaycan Respublikası Milli Məclisi, 2001, 554 s.
75. Müstəqil Azərbaycan 10 il. Statistika məcmuəsi. Bakı, 2001.
76. Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. Bakı, 1992, 246 s.
77. Məmmədov İ.M, Məmmədov Ç.İ. Tələtümlü illər. Azərbaycan XX əsrin 20-30-illərində: Dərs vəsaiti. Bakı:" Mars-Print", 2003, 96 s.
78. Mustafayev C.M. Azərbaycan xanlıqlar dövründə: Dərs vəsaiti. Bakı: "MSA", 2012, 256 s.
79. Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti. Bakı, 1972, 193 s.
80. Mirzə Camal Qarabaği. Qarabağ tarixi. 1959, 138 s.
81. Mirzə Adıgözəlbəy. Qarabağnamə./ Qarabağnamələr. I kitab. Bakı, "Şərq-Qərb", 2006, 216 s.
82. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində (1941-45-ci illər) Bakı: "Az.SSR EA", 1965, 503 s.
83. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, 1975.
84. "Mübariz Qurbanlı Yeddinci Günün Adventistləri Kilsəsinin nümayəndələri ilə görüşüb". Report İnformasiya Agentliyi (14 dekabr 2017).
85. Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: "Azərnəşr", 1992. 80 s.
86. Nəcəfov B. Deportasiya. Bakı: "Çaşıoğlu", 2006. 320 s.

87. Nuriyeva İ.T. Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma. Monoqrafiya. – Bakı:Mütərcim, 2021.- 352 səh.
88. Nazim Müzəffərli, Eldar İsmaılov. Azərbaycanın postkonflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, 2010
89. Orucov Q. Azərbaycan Qafqaz döyüşlərində. Bakı, 1984, 160 s.
90. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı, 1991, 112 s.
91. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, 112 s.
92. Rəşid Rzayev, Camal Mustafayev, Abbas Seyidov. Azərbaycan xanlıqları: dövlətçilik rəmzləri, hüquq sistemi, pul dövriyyəsi və sikkə zərbi. Bakı, Xəzər Universiteti Nəşriyyatı, 2021, 360 səh.
93. Siyasi tarix: mühazirə kursu. II hissə. Bakı: "Azərbaycan Ensiklopediyası NPB", 1998, 420 s.
94. Sultanov O.B. XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995, 232 s.
95. Sultanov Z. Qarabağ müharibəsi: faktlar…hadisələr…düşüncələr…Bakı: Maarif, 2003, 772 s.
96. Süleymanov E. və Süleymanov V.. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 2012,181 səh.
97. Sovet İttifaqı Kommunist Partiyasının tarixi. Bakı, 1964.
98. Süleymanov M. Azərbaycanda türk şəhidlikləri. Bakı: "Hərbi nəşriyyat", 2000, 172 s.
99. 1870-ci il "Əsasnaməsi"nin II bölməsinin ("Pay torpaqlarından imtina haqqında") 57-70-ci maddələri.
100. Vəkilov C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı: "Elm",1991,136 səh.
101. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr-10 noyabr 2020-ci il). Bakı, "Şərq-Qərb", 2021, 444 səh.
102. Zərdabi H. Seçilmiş əsərləri. Bakı, 1960, 474 s.
103. Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, Bakı: "Şərq-Qərb", 2007, 336 s.

Türk dilində

104. Azərbaycan dosyesi. Ankara, 1990.
105. Birinci Dünya Harbində Türk Harbi Irak-İran Caphesi 1914-1918, Genel Kurmay Tarih və Stratəjik Etüt Başkanlığı Yayınları, c.3, 2.Kısım, Ankara 2002, s. 548.
106. Mühlen Patrik fon Zip. Kamali xaç ilə Qızıl ulduz arasında. Ankara, 1984, s. 5
107. Percy Sykes. İran Tarihçesi. Harbi Umumide İran. Erkan-i Harbiye-i Umumiye İstihbarat Dairesi Neşriyatı. İstanbul 1341. s. 63.
108. Seyid Əhməd Kəsrəvi."Tarix-e 18 sale Azərbaycan" çap 5, nəşr-e Əmir Kəbir, Tehran 1350
109. "Yeni düşüncə" qəzeti (Ankara), 31 avqust 2001-ci il

Rus dilində

110. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. Баку: "Азербайджан", 1998. 992 с.
111. Антелава И.Г. Государственные крестяне Грузии в XIX веке. Тбилиси, 1969, 483 с.
112. Азербайджанская ССР 50-летию Великого Октября, Баку: "Статистика", 1967, 216 с.
113. Азербайджанская ССР от XXV к XXVI съезду КПСС. Летопись важнейших событий. Баку, 1981, 207 с.
114. Азербайджанская ССР от XXVI к XXVII съезду КПСС. Летопись важнейших событий. Баку, 1976.
115. Азербайджанская Демократическая Республика: 1918-1920: законодательные акты. Баку: "Азербайджан", 1998, 560 с.
116. Абасов М., Гритченко А., Зейналов Р. Азербайджан в годы Отечественной войны. Баку: "Элм", 1990. 88 с.
117. Абасов М. Баку в годы Великой Отечественной войны. Баку: "Азернешр", 1967, 264 с.
118. Алиев С.М. Международные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха. //Иран. История и культура в средние века и новое время. М., 1980.

119. Багирова И.С. Политические партии Азербайджана в начале XX века (1900-1917). Баку, 1997, 335 с.
120. Борьба за победу Советской власти в Азербайджане. 1918-1920. //Документы и факты. Баку: "АН Аз.ССР", 1967, 569 с.
121. Борьба КПСС за восстановление и развитие народного хозяйства в послевоенный период (1945-1953 гг.). М., 1961.
122. Бакинская стачка 1904 г.//Сборник документов. Баку: ОГИЗ, 1940. 127 с.
123. Всеподданнейший отчет о произведенной в 1905 г. по высочайшему повелению сенатором Кузьминским ревизии Баку и Бакинской губернии. СПб., 1906, 686 с.
124. Великая Октябрьская социалистическая революция и победа Советской власти в Армении, Ереван, 1957, 218 с.
125. Всемирная история. М., 2001.
126. Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России. Баку: Элм, 1990, 144 с.
127. Гусейнов Т. Развитие связи в Азербайджане. Баку, 1965.
128. Дубровин Н. Ф. Закавказье от 1803 по 1806 г. СПб. 1866, 542 с.
129. Дубровин Н. Ф. История войн и владычества русских на Кавказе. T.VI. СПб. 1888, 765 с.
130. Дадашев Г.А. О феодально-крепостных остатках в пореформенном Азербайджане // Труды Азерб. филиала НМЛ при ЦК КПСС, XX.
131. Декреты Азревкома (1920-1921гг.). Сб. документов. Баку: Азернешр", 1988, 519 с.
132. Документы внешней политики СССР. Т. III. 1 июля 1920 г. - 18 марта 1921 г. М.: Госполитздат,1959, 702 с.
133. Достижения Советского Азербайджана за 40 лет в цифрах. //Статистический сборник. Баку, 1960.
134. Директивы КПСС и Советского Правительства по хозяйственным вопросам, 1917-1957 годы Т. 4, М.: Госполитиздат, 1958, 864 с.
135. Закавказский Сейм //Стенографический отчет. Сессия первая, заседание 21, Тифлис, 10-го февраля 1918 года, 917 с.
136. Земельный кодекс Азербайджанской ССР. Баку, 1925.

137. Зейналов Р., Бородецкий Л. “416-я Таганрогская”. Баку: “Азернешр”, 1969 г., 256 с.
138. Зейналов З.А., Керимбеков Н.Б. Стальной магистрали Азербайджана – 100 лет. Баку: “Азернешр”, 1980, 164 с.
139. История Азербайджана. Т. III, ч. I. Баку: Академии Наук Азербайджанской ССР. 1963. 539 с.
140. История Азербайджана. Т. III, II часть, Баку: Академии Наук Азербайджанской ССР. 1963, 528 с.
141. История СССР. М., 1960.
142. История Отечества. 1939-1991. М.: “Просвещение”, 1992, 286 с.
143. Исмаилов М.А. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Баку: “Элм”, 1989, 92 с.
144. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953. Баку: “Адильоглы”, 2003, 344 с.
145. Итоги выполнения второго пятилетнего плана развития народного хозяйства Союза ССР. М.: “Госпланиздат”, 1939, 149 с.
146. Кадер С.А. Нефть и ее дериваты как товар и предмет обложения налогом. Обзор финансово-экономической политики в нефтяном деле: Очерк первый. Могилев, 1907. 330 с.
147. Кавказский сборник. Т. 25, 1958, 376 стр.
148. Ключников Ю.В., Сабанина А. Международная политика нового времени в договорах, нотах и декларациях. Часть II. М: “Литиздат НКИД”, 1926, 463 с.
149. Касимов Ю. Компартия Азербайджана в борьбе за развитие тяжелой промышленности в послевоенные годы, Баку, 1971, 266 с.
150. Культурное строительство Азербайджанской ССР. Стат. сб. Баку: “Азерб. Отделение Госстатиздата”, 1961, 100 с.
151. КПСС в резолюциях и решениях съездов, конференций и пленумов ЦК (1898-1986). Т. 8, М.: “Политиздат”, 1985, 542 с.
152. Конституция Азербайджанской Республики (1995).Баку, 1996, 50 с.
153. В.П.Литвинов-Фелинский. Шелковая промышленность России. СПб., 1902.

154.Ленин В.И. ПСС, т. 51, М.: “Политическая Литература”, 1970, 574 с.
155.И.А.Маевский. Условия орошения, хозяйства и колонизации на Мугани и на Кура-Араксинской равнине вообще. Тифлис, 1901.
156.Малевил Ж. Армянская трагедия 1915 года. Баку: “Элм”, 1990, 126 с.
157.Михайлов Я.П. Экспансия британского империализма в Азербайджане в 1918-1920 годах. АКД. Баку, 1985.
158.Новейшая история. XX век. М., 1997, 320 с.
159.Народное хозяйство Азербайджанской ССР к 50-летию СССР. Юбилейный стат. Сб., Баку, 1972.
160.Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября, Т. 5.
161.Нардное хозяйство Азербайджанской ССР в 1985 году. Стат. ежегодник. Баку, 1986.
162.Нагорный Карабах: Разум победит. Документы и материалы. Баку, 1989.
163.Отчет по Главному управлению наместника Кавказского за 1842-1862 г. Тифлис, 1873.
164.Отчет по Главному управлению наместника Кавказского за 1862-1872 гг., Тифлис, 1873.
165.Очерки истории коммунистических организаций Закавказья, ч. I, Тифлис, 1967, 141 с.
166.Очерки истории Коммунистической партии Азербайджана. Баку: “Азернешр”, 1963. 771с.
167.Первая Всеобщая перепись населения Российской империи 1897 года (Губернские итоги). Елизаветпольская губерния.Т.Т.1-89. СПб., 1903-1905; Первая Всеобщая перепись населения Российской империи 1897 г. / под ред. Н.А. Тройницкого. 61: Бакинская губерния. СПб., 1905. [4], XII, 167 с.
168.Програмные документы мусульманских политических партий 1917-1920 гг. Оксфорд, 1985, 130 с.

169. Парвизпур Б.Х. Советско-иранские отношения в годы Второй Мировой войны (1939-1945 гг.). Тбилиси: "Мецниереба", 1978. 106 с.
170. Раджабли А.А. Национальные интересы и международная безопасность: Монография, Баку: БСУ, "Китаб алями", 2004, 400 с.
171. Раевский А. Большевизм и меньшевизм в Баку 1904 - 1905 гг. Баку, 1930, 248 с.
172. Гулиев А. Н. Славная победа бакинского пролетариата. (К 50-летию декабрьской забастовки в Баку в 1904 г.) Издательство АН Азерб. ССР. Баку, 1955.
173. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., Баку: Изд-во Акад. наук Азерб. ССР, 1966, 501 с.
174. Сумбатзаде А.С. Социально-экономические предпосылки победы советской власти в Азербайджане, М.: "Наука", 1972, 254 с.
175. Садыхзаде Р.М. Проникновение английского капитала в нефтяную промышленность Азербайджана. Баку, 1967.
176. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Отд. III. Тифлис: "Закавказ. стат. ком.", 1899, 824 с.
177. Самедов В.Ю. Распространение марксизма-ленинизма в Азербайджане, Т. I. Баку: "Азернешр", 1962, 586 с.
178. Сборник узаконений Рабоче-крестьянского правительства Азерб. ССР, 1920, №1.
179. Собрание узаконений и распоряжений Рабоче-крестьянского Правительства Азербайджанской ССР за 1923 г. Баку, 1923, №10.
180. Собрание актов, относящихся к обозрению истории армянского народа: в 3 частях. М.: в тип. "Лазаревых" Института Восточных языков, 1833-1838. Ч. 1. 1833, 395 с.
181. Самсонов М. От Волги до Балтики. Очерк истории 3-го гвардейского механизированного корпуса: 1942-1945. 2 изд. М.: "Наука", 1973, 529 с.

182. Самедов С. Здравоохранение в Иранском Азербайджане накануне и в период национально-освободительного и Демократического движения 1945-1946 гг. Баку, 1960.
183. Трагедия длиною в два года, Баку: "Азернешр", 1990, 32 с.
184. Труды ИМЭЛ. Т. XVI, 1949.
185. Токаржевский Е.А. Бакинские большевики-организаторы борьбы против турецко-германских и английских интервентов в 1918 г. // Труды Азерб. Филиала ИМЭЛ при ЦК ВКП(б). Т. XV, Баку, 1919.
186. Утверждение Русского владычества на Кавказе. Тифлис: "Я.И. Либерман", Т. I, 1901, 354 с.
187. Утверждение Русского владычества на Кавказе. Тифлис: Типография Штаба Кавказского Военного Округа, Т. IV, ч. I, 1906, 343 с.
188. Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в 1918-1920 годах. М.: "Наука", 1964, 470 с.
189. Хаджи Мурад Ибрагимбейли. Россия и Азербайджан в первой трети XIX века. М., 1969, 288 с.
190. Черный январь. Баку - 1990: Документы и материалы. Баку: "Азернешр", 1990, 288 с.
191. Шарифов А. Прорыв информационной блокады. Баку: "Язычы", 1992, 200 с.
192. Шевалье Л.М. Нефтяной кризис. М.: "Прогресс", 1975, 245 с.
193. Шавров К.Н. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцам. СПб. 1911, Баку: "Элм", 1990, 156 с.
194. 1829 г. сентября 2/14. Адрианопольский мирный договор между Россией и Турцией. Под стягом России: Сборник архивных документов. М., Русская книга, 1992, 432 с. (16 л. ил. АВПР, ф. Трактаты, оп. 3, д. 1384, л. 2 (подлинник), л. 29—36 (перевод), s. 102-117, s. 107).
195. Шопен И. Исторический памятник состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852.

İngilis dilində

196. Altstadt A.L. The Azerbaijan Turks. Power and identity under Russian Rule. Stanford, 1992, p. 157
197. The millitary balance. London, 1996, s. 38

DÖVRİ MƏTBUAT

QƏZETLƏR

198."Азербайджан" qəzeti, 13, 18 ноября 1918 г.
199."Азербайджан" qəzeti, 29 декабря 1918 г.
200."Азербайджан" qəzeti, 28 июня 1919 г.
201."Azərbaycan" qəzeti, 5 yanvar 1990-cı il
202."Azərbaycan" qəzeti, 11 oktyabr 1991-ci il
203."Azərbaycan" qəzeti, 23 yanvar 1992-ci il
204."Azərbaycan" qəzeti, 20 fevral 1993-cü il
205."Azərbaycan" qəzeti, 9 dekabr 1993-cü il
206."Azərbaycan" qəzeti, 8 yanvar 1994-cü il
207."Azərbaycan" qəzeti, 15 yanvar 1994-cü il
208."Azərbaycan" qəzeti, 23 fevral 1994-cü il
209."Azərbaycan" qəzeti, 10 may 1994-cü il
210."Azərbaycan" qəzeti, 29 aprel 1995-ci il
211."Azərbaycan" qəzeti, 13 may 1995-ci il
212."Azərbaycan" qəzeti, 20 may 1995-ci il
213."Azərbaycan" qəzeti, 28 iyun 1995-ci il
214."Azərbaycan" qəzeti, 11 noyabr 1995-ci il
215."Azərbaycan" qəzeti, 11 may 1996-cı il
216."Azərbaycan" qəzeti, 30 iyul 1996-cı il
217."Azərbaycan" qəzeti, 20 sentyabr 1996-cı il
218."Azərbaycan" qəzeti, 25 sentyabr 1996-cı il
219."Azərbaycan" qəzeti, 5 oktyabr 1996-cı il
220."Azərbaycan" qəzeti, 22 oktyabr 1996-cı il

221.“Azərbaycan” qəzeti, 8 noyabr 1996-cı il
222.“Azərbaycan” qəzeti, 17 dekabr 1996; 15 yanvar 1997-ci il
223.“Azərbaycan” qəzeti, 2 fevral 1997-ci il
224.“Azərbaycan” qəzeti, 5 fevral 1997-ci il
225.“Azərbaycan” qəzeti, 22 fevral 1997-ci il
226.“Azərbaycan” qəzeti, 26 fevral 1997-ci il
227.“Azərbaycan” qəzeti, 29 mart 1997-ci il
228.“Azərbaycan” qəzeti, 17 yanvar 1998-ci il
229.“Azərbaycan” qəzeti, 17, 27 sentyabr 1998-ci il
230.“Azərbaycan” qəzeti, 30 dekabr 1998-ci il
231.“Azərbaycan” qəzeti, 21 sentyabr 1999-cu il
232.“Azərbaycan” qəzeti, 12 oktyabr 1999-cu il
233.“Azərbaycan” qəzeti, 10 noyabr 1999-cu iд
234.“Azərbaycan” qəzeti, 30 dekabr 2000-ci il
235.“Azərbaycan” qəzeti, 23 avqust 2001-ci il
236.“Azərbaycan” qəzeti, 2 sentyabr 2001-ci il
237.“Azərbaycan” qəzeti, 23 sentyabr 2001-ci il
238.“Azərbaycan” qəzeti, 11 noyabr 2001-ci il
239.“Azərbaycan” qəzeti, 6 mart 2002-ci il
240.“Azərbaycan” qəzeti, 7 mart 2002-ci il
241.“Azərbaycan” qəzeti, 14 may 2002-ci il
242.“Azərbaycan” qəzeti, 15 iyun 2002-ci il
243.“Azərbaycan” qəzeti, 21 iyun 2002-ci il
244.“Azərbaycan” qəzeti, 30 iyul 2002-ci il
245.“Azərbaycan” qəzeti, 31 iyul 2002-ci il
246.“Azərbaycan” qəzeti, 8 avqust 2002-ci il
247.“Azərbaycan” qəzeti, 20 avqust 2002-ci il
248.“Azərbaycan” qəzeti, 10 sentyabr 2002-ci il
249.“Azərbaycan” qəzeti, 24 sentyabr 2002-ci il
250.“Azərbaycan” qəzeti, 5 oktyabr 2002-ci il
251.“Azərbaycan” qəzeti, 11 oktyabr 2002-ci il
252.“Azərbaycan” qəzeti, 24 noyabr 2002-ci il
253.“Azərbaycan” qəzeti, 27 noyabr 2002-ci il

254.“Azərbaycan” qəzeti, 30 noyabr 2002-ci il
255.“Azərbaycan” qəzeti, 5 yanvar 2003-cü il
256.“Azərbaycan” qəzeti, 9 yanvar 2003-cü il
257.“Azərbaycan” qəzeti, 20 mart 2003-cü il
258.“Azərbaycan” qəzeti, 26 mart 2003-cü il
259.“Azərbaycan müəllimi” qəzeti, 23 avqust 1959-cu il
260.“Azərbaycan müəllimi” qəzeti, 20-26 dekabr 2002-ci il
261.“Azadlıq” qəzeti, 23 mart 1991-ci il
262.“Azadlıq” qəzeti, 15 may 1992-ci il
263.“Azadlıq” qəzeti, 15 yanvar 1994-cü il
264.“Azadlıq” qəzeti, 26 aprel 1994-cü il
265.“Azadlıq” qəzeti, 20 may 1994-cü il
266.“Azadlıq” qəzeti, 5, 8 iyun 1996-cı il
267.“Ayna” qəzeti, 15 noyabr 1998-ci il
268.“Бакинский рабочий” qəzeti, 5 ноября 1921 г., № 254
269.“Бакинский Рабочий” qəzeti, 30 марта 1922 г.
270.“Бакинский Рабочий” qəzeti, 13 апреля 1922 г.
271.“Бакинский рабочий” qəzeti, 8 fevral 1942-ci il
272.“Бакинский рабочий” qəzeti, 27 mart 1956-cı il
273.“Бакинский рабочий” qəzeti, 28 iyul 1957-ci il
274.“Бакинский рабочий” qəzeti, 17 sentyabr 1960-cı il
275.“Бакинский рабочий” qəzeti, 21 mart 1988-ci il
276.“Бакинский рабочий” qəzeti, 7 dekabr 1989-cu il
277.“Бакинский рабочий” qəzeti, 13 dekabr 1989-cu il
278.“Бакинский рабочий” qəzeti, 4 may 1990-cı il.
279.“Бакинский рабочий” qəzeti, 12 noyabr 1999-cu il
280.“Бакинские известия” qəzeti, 27 декабря 1904
281. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. /“Respublika” qəzeti, 30 dekabr 2000-ci il
282.“Əkinçi” qəzeti, 29 fevral 1876-cı il, № 4
283. “Ədəbiyyat” qəzeti, 16 16 avqust 1994-cü il
284. “Ежедневные новости” qəzeti, 17 noyabr 2000-ci il

285. Fövqəladə Təhqiqat Komissiyasının sədri Ələkbər bəy Xasməmmədovun ədliyyə nazirinə məruzəsi (22 noyabr 1918-ci il. Bakı şəh.). "Xalq qəzeti", 16 mart 2001-ci il
286. Hüseynov P. Cinayətimiz məğlubiyyətimizdir. "Müxalifət" qəzeti, 1993-cü il, № 94-97.
287. "Həyat" qəzeti, 28 avqust 1991
288. "Həyat" qəzeti, 3 sentyabr 1991
289. "Həyat" qəzeti, 27 yanvar 1993-cü il.
290. "Xalq ordusu" qəzeti, 11 fevral 1992-ci il
291. "Xalq ordusu" qəzeti, 22 may 1992-ci il
292. "Xalq qəzeti", 22 noyabr 1991-ci il
293. "Xalq qəzeti", 3 fevral 1993-cü il
294. "Xalq qəzeti", 17 fevral 1993-cü il
295. "Xalq qəzeti", 25 iyul 1994-cü i
296. "Xalq qəzeti", 14 sentyabr 1996-cı il
297. "Xalq qəzeti", 7 fevral 1997-ci il
298. "Xalq qəzeti", 25 mart 1997-ci il
299. "Xalq qəzeti", 24 may 1997-ci il
300. "Xalq qəzeti", 28 iyun 1997-ci il
301. "Xalq qəzeti", 15 noyabr 1997-ci il
302. "Xalq qəzeti", 4 fevral 1998-ci il
303. "Xalq qəzeti", 19 fevral 1998-ci il
304. "Xalq qəzeti", 24 fevral 1998-ci il
305. "Xalq qəzeti", 26 fevral 1998-ci il
306. "Xalq qəzeti", 13 noyabr 1998-ci il
307. "Xalq qəzeti", 4 iyun 2001-ci il
308. "Xalq qəzeti", 4 sentyabr 2001-ci il
309. "Xalq qəzeti", 22 noyabr 2001-ci il
310. "Искра", 1 августа 1903
311. "Искра", 3 августа 1919.
312. "Известия" qəzeti, 2 avqust 1954-cü il
313. "Kommunist" qəzeti, 1 may 1920-ci il
314. "Kommunist" qəzeti, 5, 21 mart 1921-ci il, № 6

315. “Kommunist” qəzeti, 30 avqust 1921-ci il, № 196
316. “Kommunist” qəzeti, 11 fevral 1945-ci il
317. “Kommunist” qəzeti, 24 oktyabr 1971-ci il
318. “Kommunist” qəzeti, 24 aprel 1985-ci il
319. “Kommunist” qəzeti, 18 yanvar 1987-ci il
320. “Kommunist” qəzeti, 21 mart 1988-ci il
321. “Kommunist” (Ermənistan KP MK orqanı), 16 iyun 1988-ci il
322. “Кавказ” qəzeti, 1963, № 11.
323. “Каспий” qəzeti, 30 ноября, 1905 г.
324. Quliyev C. XIX-XX əsr tarixindən... ”Respublika” qəzeti, 20 noyabr 1997-ci il
325. “Литературная газета” (Москва), 7 fevral 1990-cı il
326. “Müxalifət” qəzeti, 5 iyul 1992-ci il.
327. “Müxalifət” qəzeti, 4 may 1993-cü il
328. “Maarifçi” qəzeti, 17 fevral 1999-cu il
329. “Нефтяное дело”, январь, 1905 г.
330. “Правда Грузии” qəzeti, 22 апреля 1921 г., № 43
331. “Правда” qəzeti, 26 avqust 1941-ci il
332. “Правда” qəzeti, 31 avqust 1941-ci il.
333. “Правда” qəzeti, 4 noyabr 1943-cü il.
334. “Правда” qəzeti, 13 yanvar 1946-cı il
335. “Respublika” qəzeti, 14-15 yanvar 1990-cı il
336. “Respublika” qəzeti, 22 aprel 1997-ci il
337. “Respublika” qəzeti, 12 noyabr 1999-cu il
338. “Respublika” qəzeti, 13 dekabr 1999-cu il
339. “Respublika” qəzeti, 14 iyun 2000-ci il
340. “Respublika” qəzeti, 26 dekabr 2000-ci il
341. “Respublika” qəzeti, 30 dekabr 2000-ci il
342. “Respublika” qəzeti, 24 fevral 2001-ci il
343. “Respublika” qəzeti, 6 mart 2001-ci il
344. “Respublika” qəzeti, 27 may 2001-ci il
345. “Respublika” qəzeti, 19 iyun 2001-ci il

346. "Respublika" qəzeti, 8 sentyabr 2001-ci il
347. "Respublika" qəzeti, 11 oktyabr 2001-ci il
348. "Respublika" qəzeti, 4 dekabr 2001-ci il
349. "Respublika" qəzeti, 26 fevral 2002-ci il.
350. "Respublika" qəzeti, 7 mart 2002-ci il
351. "Respublika" qəzeti, 26 aprel 2002-ci il
352. "Respublika" qəzeti, 15 may 2002-ci il
353. "Respublika" qəzeti, 23 may 2002-ci il
354. "Respublika" qəzeti, 18 avqust 2002-ci il
355. "Respublika" qəzeti, 28 avqust 2002-ci il
356. "Respublika" qəzeti, 10 oktyabr 2002-ci il
357. "Respublika" qəzeti, 30 noyabr 2002-ci il
358. "Respublika" qəzeti, 20 mart 2003-cü il
359. Русские раскольники, поселенные в Бакинской губернии.// "Kavkaz" qəzeti, 1868, № 9, səh 2
360. "Səs" qəzeti, 24 noyabr 1998-ci il
361. "Şərq qapısı" qəzeti, 2 dekabr 1992-ci il.
362. "Təhsil" qəzeti, xüsusi buraxılış, 2000, № 1, səh. 2
363. "Вышка" qəzeti, 12-18 yanvar 2001-ci il
364. "Yeni fikir" qəzeti, 16 yanvar 1991-ci il
365. "Зеркало" qəzeti, 25 oktyabr 1999-cu il

JURNALLAR

366. Azərbaycan EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1975, № 2, səh. 66
367. "Azərbaycan" jurnalı (Ankara), 1954, № 9
368. "Азербайджанское нефтяное хозяйство" jurnalı, 1979, № 10
369. Ахмедов Э.М. Об одном неизвестном проекте учреждения училища, составленном А.Бакихановым // Ученые записки АГУ им. С.М.Кирова, 1957, № 4.

370. И.М.Гасанов. К вопросу об убийстве качага Наби.//Дол. АН Азерб. ССР, 1960, № 8, стр. 805-808
371. "Kaspi", № 16, 1881, 26 fevral
372. Гюрза. Экономическое положение персидского Азербайджана // журнал «Ближный Восток», №1, 1930.
373. Розанов А. Аллах чернорубашников // «Наука и религия», 1964, № 5.
374. Почтово-телеграфный журнал, СПб., 1899, № 8.
375. "Православный благовестник", 1906, № 3.
376. Светоховский Т, Русский Азербайджан. "Хазар", 1990, № 3, стр. 44
377. "Təhsil". Xüsusi buraxılış, 2000, № 1, səh. 8
378. Tüdə Ə. Təbriz Dövlət Filarmonyası. "Azərbaycan", 1946, № 10, səh. 33

ARXİV MATERİALLARI

379. ARDA, f. 8, s. 1, i. 160, v. 80
380. ARDA, f. 379, s. 3, i. 87, v. 10
381. ARDA, f. 379, s. 16, i. 70, v. 11, 225
382. ARDA, f. 411, s. 9, i. 73, f. 283-284
383. ARDA, f. 411, s. 38, i. 13, f. 187
384. ARDA, f. 894, s. 2, i. 102, v. 2.
385. ARDA, f. 894, s. 10, i 144, v. 14
386. Azərbaycan Milli Şurasının 3 saylı iclasının protokolu. 29.05.1918.//ARDA, f. 970, s. 1, i. 1, v. 51.
387. ARDA, f. 970. s. 1, i. 190, v. 9
388. ARDA, f. 970. s. 1, i. 196, v. 4-5
389. ARDA, f. 1016, s. 1, i. 95, v. 5-8.
390. Azərbaycan Respublikası Dövlət Arxivi – ARDA, f. 1637, s. 4, i. 314, v. 9
391. Azərbaycan MDYTA, f. 970, s. 1, i. 196, s. 6.
392. Azərb. MTDA, f. 62, s. 1, i. 59, v. 81-110 arxası.

393. Azərb. MDTA, f.92, s.1, i. 296, v. 42, 46
394. Azərb. MDTA, f. 130, s. 1, i. 27, v. 1
395. Azərb. MDTA, f. 509, s. 1, i. 25, v. 7
396. ARDSPİHA, f.1, s. 74, i. 123, v. 10
397. ARDSPİHA, f.1, s. 74, i. 133, v. 166
398. ARDSPİHA, f.1, s. 74, i. 300, v. 82-83
399. ARDSPİHA, f.1, s. 74, i. 329, v. 110.
400. ARDSPİHA, f.1, s. 85, i. 249, v. 423
401. ARDSPİHA, f. 276, s. 2, i 22, v. 74
402. ARDSPİHA, f. 276, s. 2, i 22, v. 75-77
403. ARDSPİHA, f.277, s. 2, i. 18, v.1.
404. ARDSPİHA, f. 277, i 40, v. 27.
405. ARSPİHA, Qaffarov T. Azerbaijan in The Second World War, London, 2001, s. 12.
406. ARSPİHA, f. 1, s. 89, i. 71, v. 2
407. ARSPİHA, f. 1, s. 89, i. 79, v. 7
408. ARSPİHA, f. 1, s. 100, i. 83, v. 11
409. ARSPİHA, f. 1, s. 129, i. 2, v. 6-9
410. ARSPİHA, f. 1, s. 153, i. 10, v. 1-4
411. ARSPİHA, f. 1, s. 153, i. 5, v. 42; i. 4, v. 1; s. 179, i. 7, v. 33-87
412. ARSPİHA, f. 1, s. 153, i. 10, v. 5.
413. ARSPİHA, f. 1, s. 153, i. 143, v. 174
414. ARSPİHA, f. 1, s. 153, i. 439, v. 9
415. ARSPİHA, f. 1, s. 153, i. 439, v. 25
416. ARSPİHA, f. 1, s. 163, i. 280, v. 118
417. ARSPİHA, f. 1, s. 169, i. 6, v. 49-50
418. ARSPİHA, f. 1, s. 169, i. 249, v.7
419. ARSPİHA, f. 1, s. 177, i. 1, v. 18
420. ARSPİHA, f. 1, s. 280, i. 5, v. 23
421. ARSPİHA, f. 1, s. 280, i. 4, v. 138
422. ARSPİHA, f. 1, s. 280, i. 14, v. 34
423. ARSPİHA, f. 2, s. 29, i. 1, v. 181.

424. ARSPİHA, f. 2, s. 47, i. 6, v. 101, 173
425. ARSPİHA, f. 2, s. 47, i. 6, v. 101, 178
426. ARSPİHA, f. 2, s. 121, i. 30, f. 52; f. 1, s. 277, i. 21, f. 10-17
427. ARSPİHA, f. 159, s. 5, i. 16, v. 79
428. ARSPİHA, Hesablama M.Abbasovundur
429. ARSPİHMDA, f. 1, s. 83 və 205, v 25.
430. ARSPİHMDA, f. 1, s. 83 və 205, v 11.
431. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi, f. 473, i. 9, səh. 167
432. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Arxivi – ARTNA. 1970-ci il hesabatı, v. 201.
433. ARTNA. Kollegiyanın 2000-ci il sənədləri, 1998-ci il üçün ümumi hesabat, v. 67-68
434. ARTNA. Kollegiyanın 2000-ci il sənədləri, 1998-ci il üçün ümumi hesabat, v. 83
435. ARTNA, Kollegiyanın 1990-cı il materialları, v. 43
436. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi (ARXİNA), 21 yanvar 1992-ci il tarixli 213/2 saylı hesabat. Azərbaycan Respublikası, səh. 69.
437. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Cari Arxivi, 13 noyabr 1993-cü il tarixli 209/11 saylı, 11 noyabr 1993-cü il tarixli 216/17 saylı Sənədlər
438. Azərbaycan Dövlət Neft Şirkətinin Arxivi – ADNŞA. Kollegiyanın materialları. 1994-cü il, v. 74
439. Azərbaycan Dövlət Neft Şirkətinin Arxivi – ADNŞA. Kollegiyanın materialları, 2000-ci il, v. 49-50, v. 51
440. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Arxivi. 2002-ci ilin hesabatı, v. 4
441. Azərbaycan Respublikası Rabitə Nazirliyinin Arxivi. ARRNA. Hesabat üçün sənədlər, 2001-ci il, v. 121
442. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi – ARMMA, f. 2941, s. 1, i. 312, v. 106
443. ARMMA, f. 2941, s. 1, i. 274, v. 54

444. ARMMA, f. 2941, s. 1, L 52, v. 160
445. ARMMA, f. 2941, s. 1, i. 152, v. 91
446. ARMMA, f. 2941, s. 1, i. 196, v. 32-33.
447. ARMMA, f. 2941, s. 1, i. 254, v. 10
448. ARMMA, f. 2941, s. 1, i. 285, v. 7
449. ARMMA, f. 2941, s. 1, i. 316, v. 92
450. ARMMA, f. 2941, s. 19, v. 118
451. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Arxivi – ARKTNA. Kollegiyanın materialları, 1995-ci il, v. 61
452. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Arxivi – ARİİNA. İqtisadi təhlillər. 2002-ci il, 15-ci qovluq, v. 16-17
453. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Arxivi – ARİİNA. İqtisadi təhlillər. 2002-ci il, 18-ci qovluq, v. 101.
454. ARİİNA. İqtisadi təhlillər. 2002-ci il, 18-ci qovluq, v. 21-22.
455. ARİİNA. İqtisadi təhlillər. 2002-ci il, 18-ci qovluq, v. 51.
456. ARİİNA. İqtisadi təhlillər. 2002-ci il, 18-ci qovluq, v. 102.
457. Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin Arxivi – ARDQİDKA. Komitənin 2001-ci il üçün hesabat materialları, v. 19-20
458. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Arxivi – ARMNA. Kollegiyanın materialları, 1995-ci il, v. 64-65
459. ATASE, K. 400, D.1575, F. 003-10.
460. ATASE, K. 3632, D.136, F. 028-04.
461. ATASE, K. 4-10481, D.306, F. 51-4.
462. Gürcüstan MDTA, f. 12, s. i. 303, v.60
463. Gürcüstan MDTA, f. 12, s. 2, i. 2294, v. 9
464. Gürcüstan MDTA, f. 14, i. 29, v.64.
465. Gürcüstan MDTA, f. 231, s.1, i. 8a, v. 15-16
466. Gürcüstan MDTA, f. 264, i. 819, v. 22
467. Gürcüstan MDTA, f. 368, s. 1, i. 29, v.107.
468. Gürcüstan MDTA, f. 416, s.3, i. 290, v.2.
469. Gürcüstan MDTA, f. 425, s. I, i. 178, v. 11 ob.12.
470. QAKA, II cild, II hissə, səh. 589-590.

471. QAKA, III cild, sənəd 531, 534
472. QAKA, IV cild, II hissə, səh. 125-126.
473. QAKA, V cild, sənəd 850.
474. QAKA, VI cild, II hissə, səh. 373-374.
475. QAKA, VII cild, sənəd 515.
476. QAKA, VII cild, sənəd 8
477. МИЭБГКЗЛ, ч. II, с.2 Т., 1886, стр. 295
478. МКНПР, ч. II, стр. 656
479. MLİ Belorusiya Filialının Partiya Arxivi, f. 3500, s. 19, i. 43, v. 2.
480. Rusiya. MDHTA, f. VUA, i. 894, v. 5.
481. Rusiya. MDHTA, f. VUA, i. 894, v. 15.
482. Rusiya. MDHTA, f. VUA, i. 4258, v. 300-316
483. Rusiya. MDHTA, f. VUA, i. 4292, v. 2-3.
484. Rusiya. MDHTA, f. VUA, i. 4292, v. 93.
485. Rusiya. MDHTA, f. 219, s. 4, i. 7066, v. 2-3.
486. Rusiya MDHTA, f. 801, i. 6, V hissə, v. 387
487. Rusiya. MDTA, f. 1289, s. 2, i. 127, v. 8; i. 392, v. 19; i. 726, v. 7; i. 1093, v. 1.
488. Rusiya. MDHTA, f. VUA, i. 4329, v. 280.
489. Rusiya MDTA, f. 1458, s. 1, i. 260, v. 27-28
490. Rusiya DTA, f. 37, s. 25, i. 12, v. 125
491. RFDA, f. 102, PDXŞ, 1907, i. 180, ç. 5, v. 30; f.102, i.119, s.9.
492. RFPA, f. 64, s. 1, i. 2, v. 73
493. RFPA, f. 64, s. 2, i. 1, v. 118
494. RFPA, f. 64, s. 2, i. 1, v. 118
495. RFPA, f. 461, s. 1, i. 30430, v. 1
496. SSRİ MNA, f. 14295, s. 484, 337, i. 1, v. 12.
497. SSRİ Müdafiə Nazirliyinin Arxivi – SSRİ MNA, f. 1222, s. 410068, i. 3, v. 3
498. SSRİ Müdafiə Nazirliyinin Arxivi – SSRİ MNA, f. 77, s. 410068, i. 8, v. 2
499. SSRİ MNA, f. 14295, s. 484, 337, i. 1, v. 12

500. TİEA, f. 1, s. 1, i. 3, v. 70
501. TİEA, f. 1, s. 1, i. 3, v. 119
502. TİEA, f. 1, s. 2, i. 66, v. 69
503. TİEA, f. 1, s. 8, i. 3876, v. 9
504. TİEA, f. 2, s. 16, i. 2, v. 13
505. TİEA, f. 1, s. 19, i. 8953, v. 77.
506. TİEA, f. 1, s. 19, i. 8953, v. 109.
507. TİEA, f. 1, s. 19, i. 8953, v. 117-118.
508. TİEA, f. 1, s. 19, i. 8953, v. 129.
509. TİEA, f. 1, s. 19, i. 8953, v. 157.
510. TİEA, f. 1, s. 19, i. 8961, v. 108.
511. TİEA, f. 1, s. 19, i. 8961, v. 105.
512. TİEA, f. 1, s. 19, i. 8961, v. 109.
513. TİEA, f. 1, s. 19, i. 8961, v. 130.
514. TİEA, inv.22, 67/31, 1621

İNTERNET RESURSLAR

515. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. www.prezident.az
516. AZƏRBAYCAN — AVROPA ŞURASI// https://azerbaijan.az/related-information/194
517. Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib. 2020-09-27// http://tovuz-ih.gov.az/news/726.html.
518. Azərbaycan Prezidenti İlham Əliyev Laçinin işğaldan azad olunmasi ilə bağli xalqa müraciət edib. 2020.01.12:// https://aggression.az/?p=1000
519. Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib.// https://fulltext.preslib.az/icixislar/3kZCrS1Oj8.html

520. Azərbaycan Prezidenti: "Ermənistan terror, faşist dövlətidir"//https://apa. az/az/dagliq_qarabag/Azrbaycan-Prezidenti-Ermnistan-terror-fasist-dovl tidir-609955

521. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər//https://fulltext.preslib.az/icixislar/Ps1DoU6VtZ.html

522. Azərbaycanın BMT-yə üzv qəbul edilməsindən 27 il keçir/ https://www.ekspress.az/news/541-azerbaycanin-bmt-ye-uzv-qebul-edilmesinden-27-il-kecir

523. Azərbaycanın BMT-yə üzv qəbul olunmasından 25 il ötür / https://azertag.az/xeber/Azerbaycanin_BMT_ye_uzv_qebul_olunmasindan_25_il_otur-1040139

524. Azərbaycanda BMT-nin COP29 konfransı başlayır//https://apa.az/cop29/azerbaycanda-bmt-nin-cop29-konfransi-baslayir-875125

525. Azərbaycan–NATO əlaqələri//https://az.wikipedia.org /wiki/ Azərbaycan–NATO_əlaqələri.

526. Azərbaycan və NATO əməkdaşlığı haqqında arayışwww.mfa.gov.az/content/560

527. Azərbaycan NATO PA-nın yaz sessiyasında təmsil olunacaq/ https://news.milli.az/ theworldnews.net/az-news/azrbaycan-nato-pa-nin-yaz-sessiyasinda-t-msil-olunacaq

528. Azərbaycan və Ermənistan prezidentlərinin 18 ildə keçirdiyi görüşlərin siyahısı/ http://transparency.az/cnews/az%C9% 99 azərbaycan-v%C9%99-erm%C9%99nistan prezidentl%C9% 99rinin-18-ild%C9%99-kecirdiyi-gorusl%C9%99rinsiyahisi/

529. Azərbaycan və Ermənistan liderlərinin danışığı - vasitəçisiz yeni görüşlərə təkan –

ŞƏRH//https://report.az/analitika/azerbaycan-ve-ermenistan-liderlerinin-tekbetek-danisigi-yeni-goruslere-tekan/

530. Azərbaycan Ermənistanla münasibətlərin yaradılması üçün təklif edilən baza prinsiplərini açıqlayıb https://www.anl.az/down/meqale/azerbaycan/2022/mart/787451.htm

531. Azərbaycan-Ermənistan münasibətləri 2024-cü ildə: İkitərəfli uğurlar, Qərbin müdaxilə cəhdləri// https://oxu.az/siyaset/azerbaycan-ermenistan-munasibetleri-2024-cu-ilde-ikiterefli-ugurlar-qerbin-mudaxile-cehdleri

532. Azərbaycan-Müstəqil Dövlətlər Birliyinə dair ümumi tarixi arayış/ https://lib.aliyevheritage.org/az/8089440.html

533. Azərbaycan: neft və qaz hasilatı azalıb.

534. Azərbaycanda neft sənayesinin inkişaf tarixinə dair qısa arayış.http://www.azerbaijan.az /portal/ StatePower/Committee/committeeConcern_01_a.html.

535. Azərbaycanın neft-qaz sektoru 2024: əsas faktlar və mühüm hadisələr-TƏHLİL//https://apa.az/iqtisadi/azerbaycanin-neft-qaz-sektoru-2024-esas-faktlar-ve-muhum-hadiseler-tehlil-882733

536. Azərbaycan İqtisadiyyatı Haqqında Ümumi Məlumat www.azerbaijan.az/portal/Economy/General/generalInfo_01_a.html

537. Azərbaycan iqtisadiyyatı: canlanma yoxsa tənəzzül?/ http://www.bbc.com/azeri/azerbaijan-40049872.

538. ASİS-Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi//https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do

539. Azərbaycan Respublikasının Konstitusiyası//https://static2.president. az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvNXdmMDZvdmx2Yl9Lb25zdGl0dXNpeWFfQVpFLnBkZiJdXQ?sha=d654e4f6cd152b25, maddə 25.

540. Azərbaycan – Rusiya münasibətləri/ https: //lib.aliyevheritage.org/ az/80868237.html

541. Azərbaycanın hərbi qüdrəti artır. 09 sentyabr 2021 23:58// https://ikisahil.az/post/246948-azerbaycanin-herbi-qudreti-artir

542. Azərbaycan İkinci Qarabağ Müharibəsində şəhid olmuş 2900 hərbi qulluqçusunun adını açıqlayıb. 8 Dekabr 2020. Yeniləndi 2 Iyun 2021// https://www.bbc.com/azeri/azerbaijan-55234647

543. "Azərbaycan Respublikası Mərkəzi Seçki Komsissiyası". 2024-06-28 tarixində arxivləşdirilib.//https://msk.gov.az/az/news/view/1302

544. Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin 2025-ci il yanvarın 29-na təyin edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı//https://e-qanun.az/framework/58334

545. "Azərbaycanda Nəqliyyat Sistemi". Bakushop fest. com.; Bakı metropoliteni. https:// az.wikipedia.org /wiki/Bak%C4%B1_metropoliteni

546. "Azərbaycan 24 yaşadək əhali arasında savadlılıq dərəcəsi 100 faiz olan çox az saylı ölkələrdən biridir". az.trend.az.

547. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.azstat.org/portal /tblInfo/ TblInfoList.do

548. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin 2024-cü ilin yekunlarına dair Mətbuat Buraxılışı

28.12.2024
//https://mfa.gov.az/files/upload/M%C9%99tbuat%20burax%C4%B1l%C4%B1%C5%9F%C4%B1.pdf

549. Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 19 sentyabr 2024, 10:30//https://president.az/az/articles/view/66855

550. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası// https://president.az/files/future_az.pdf.

551. "Azerbaijan and the sporting map: from F1 venue to Euro 2020 host". www.theguardian.com.

552. Azərbaycan-Türkiyə əlaqələri son 25 ildə/ https: //www.trt.net.tr/azerbaycan/proqram/2017/07/07/az-rbaycan-turkiy-laq-l-ri-son-25-ild-766489

553. Azərbaycan - Türkiyə münasibətləri/ http://lib.aliyev-heritage.org/az/4610295.html

554. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021.// https://president.az/az/articles/view/52116/print

555. Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı: Şuşa Bəyannaməsi, regional təhlükəsizlik və dünyaya nümunə. 20.08.2021. //https://azertag.az /xeber /Azerbaycan_Turkiye_hemreyliyi_ve_strateji_terefdasligi_Susa_Beyannamesi_regional_tehlukesizlik_ve_dunyaya_numune-1857657.

556. Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. 25 fevral 2020.// https://president.az/az/articles/view/35964

557. Azərbaycan-Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər Ankara şəhəri, 19 fevral 2024-cü il// https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

558. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti. 24 oktyabr 2020, Bakı, – AZƏRTAC //https://azertac.az/xeber /Azerbaycanin_ diplomatik_ herbi_ ugurlari_ve_boyuk_guclerin_ermeniperest_siya seti-1622977

559. Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Təhsil sistemi. Azərbaycan Müdafiə Nazirliyi. 2017//https://mod.gov.az/az/azerbaycan-silahli-quvvelerinin-herbi-tehsil-sistemi-326

560. Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Təhsil sistemi. Azərbaycan Müdafiə Nazirliyi. 2017//https://mod.gov.az/az/azerbaycan-silahli-quvvelerinin-herbi-tehsil-sistemi-326/

561. Azərbaycan Respublikası Təhsil Nazirliyi 30 декабря 2014 г/https://ru-ru.facebook.com/tehsil.gov.az/posts/375606709267893:0

562. "ASAN xidmət"in fəaliyyəti ilə bağlı Data Portal//"Arxivlənmiş surət". 2022-08-01 tarixində arxivləşdirilib//https://vxsida.gov.az/statistics/

563. Азербайджан в рядах ООН. [http://library.aliyev-heritage.org/ru/ 9646663.html.p.3

564. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Füzuli rayonunda ağır yol-nəqliyyat hadisəsi baş verib, 3 polis həyatını itirib". www.azertag.az (az.). 2023-09-20. 2023-09-20 tarixində arxivləşdirilib

565. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Xocavənddə avtomobil minaya düşüb, sürücü və sərnişin ölüb". www.azertag.az (az.). 2023-09-20.

566. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Ordumuzun Ağdam istiqamətində mövqeləri atəşə tutu-

lub, cavab tədbirləri görülüb". www.azertag.az (az.). 2023-09-20. 2023-09-20 tarixində arxivləşdirilib

567. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Müdafiə Nazirliyi: Gədəbəy istiqamətində mövqelərimiz atəşə tutulub - VİDEO". www.azertag.az (az.). 2023-09-20. 2023-09-20 tarixində arxivləşdirilib

568. Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi. "Müdafiə Nazirliyinin məlumatı". www.mod.gov.az (az.). 2023-09-20

569. Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi. "Ermənistan silahlı qüvvələrinin birləşmələrinin təxribatı nəticəsində 2 hərbi qulluqçumuz yaralanıb". www.mod.gov.az (az.). 2023-09-20

570. Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin uzunmüddətli atəş nöqtələri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır VİDEO. https://azertag.az/xeber/anar_eyvazov_ermenistan_silahli_quvvelerinin_uzunmuddetli_ates_noqteleri_yuksek_deqiqlikli_silahlarin_tetbiqi_ile_siradan_chixarilir_video-2753752. 19.09.2023

571. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Müdafiə Nazirliyi: Ermənistan silahlı qüvvələrinin 60-dan çox döyüş mövqeyi Ordumuzun nəzarətindədir". www.azertag.az (az.). 2023-09-20

572. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Məlumat vərəqələri antiterror tədbirlərinin aparıldığı ərazidə paylanılır". www.azertag.az (az.). 2023-09-20

573. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Anar Eyvazov: Antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub". www.azertag.az (az.). 2023-09-20

574. Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi. "İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub". www.president.az (az.). 2023-09-20

575. Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi. "Antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların siyahısı" (PDF). www.mod.gov.az (az.). 2023-09-20

576. Azərbaycanın Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsi. "2023-cü ilin 19 – 20 sentyabr tarixlərində Qarabağ ərazisində aparılan lokal antiterror tədbirləri zamanı şəhid olmuş daxili işlər orqanları işçiləri". www.mia.gov.az (az.). 2023-09-20.

577. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Azərbaycan Prezidentinin Administrasiyasının açıqlaması VİDEO". www.azertag.az (az.). 2023-09-20

578. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). "Azərbaycan Prezidentinin Administrasiyasının məlumatı". www.azertag.az (az.). 2023-09-22.

579. Aİ, Fransa, Almaniya və Ermənistan liderlərinin qeyri-formal görüşü keçirildi. https://qafqazinfo.az/news/detail/ai-fransa-almaniya-ve-ermenistan-liderlerinin-qeyri-formal-gorusu-kecirilib-414445.

580. "Azerbaijan to begin returning Nagorno-Karabakh refugees in 2022". alarabiya.net (ingilis). 2021-09-24. https://english.alarabiya.net/News/world/2021/04/14/Azerbaijan-to-begin-returning-Nagorno-Karabakh-refugees-in-2022#:~:text=minute,Azerbaijan%20to%20begin%20returning %20Nagorno%2DKarabakh%20refugees%20in%202022,last%20year%20from%20Armenian%20separatists.

581. ”Azerbaijan plans for resettlement in Shusha”. eurasianet.org (ingilis). 2022-09-02 tarixində arxivləşdirilib. https://eurasianet.org/azerbaijan-plans-for-resettlement-in-shusha.

582. ”Ağalı sakinləri bu tarixdə Zəngilana qayıdır – RƏSMİ”. modern.az (az.). 2022-07-22 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2022-07-15. https://modern.az/qarabag/358741/aali-sakinleri-torpaqlarina-qayidir-proses-basladi/

583. Azərbaycan və Rusiya prezidentlərinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü keçirilib Moskva şəhəri, 22 aprel 2024-cü il//https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

584. Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirak ediblər. 25 aprel 2024, 13:29//https://president.az/az/articles/view/65626

585. Astanada “ŞƏT plyus” formatında görüş keçirilib Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış edib Astana şəhəri, 4 iyul 2024-cü il//https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

586. Azad olunan ərazilərdə 2026-cı ilədək 34500 evin tikilməsi, 140 minə yaxın əhalinin köçürülməsi planlaşdırılır// https://www.azerbaijan-news.az/az/posts/detail/azad-olunan-erazilerde-2026-ci-iledek-34500-evin-tikilmesi-140-mine-yaxin-ehalinin-kocurulmesi-planlasdirilir-1678971429

587. Azərbaycan və Türkiyə prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində

iştirak ediblər. 05 mart 2025//
https://president.az/az/articles/view/68281

588. Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. 11 aprel 2025//
https://president.az/az/articles/view/68549

589. Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb Vaşinqton şəhəri, 8 avqust 2025-ci il// https://files.preslib.az/projects/xs/fes2/2025.pdf

590. Bakıda keçiriləcək möhtəşəm idman festivalı barədə - bilmədiklərimiz/https://oxu.az/sport/321854

591. Bakıda "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib Bakı şəhəri, 14 mart 2024-cü il//
https://files.preslib.az/projects/xs/fes2/2024.pd

592. BMT və Azərbaycan tərəfdaşlığı tarixi/http://unazerbaijan.org/az/biz-kimik/bmt-v%C9%99-az%C9%99rbaycan-t%C9%99r%C9%99fdasligi-tarixi

593. BMT və Azərbaycan/http://www.azerbaijan.az /portal /World Community/InterOrg/interOrg_01_a.html

594. Bakı metropoliteni. https://az.wikipedia.org/wiki/Bak%C4%B1_metropoliteni#sitat_qeyd-1.

595. "Bakı Metropoliteni" QSC haqqında//www.metro.gov.az/az/about/metropoliten

596. "Baku-Tbilisi-Kars Railway to unlock potential for 6.5M tons of freight transportation".

597. Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib. Azərbaycan Dövlət İnformasiya Agentliyihttps: //azertag.az/xeber/Bakida_ Dun-

ya_Azerbaycanlilarinin_IV_Qurultayinin_resmi_achilis_merasimi_olub__Azerbaycan_Prezidenti_Ilham_Aliyev_achilis_merasiminde_istirak_edib

598. Bakı Beynəlxalq Humanitar Forumu https:/ /az.wikipedia.org /wiki/Bakı_Beynəlxalq_Humanitar_Forum

599. "Baku reveals UEFA EURO 2020 host city logo". www.uefa.com. UEFA. 18 iyun 2017 tarixində arxivləşdirilib. İstifadə tarixi: 18 iyun 2017.

600. Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimində İlham Əliyevin nitqi. 12 noyabr 2024, 09:01// https://president.az/az/articles/view/67324

601. "Baku as tight as it looks – Ricciardo". en.f1i.com. en.f1i.com

602. Bakıda "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb.13 mart 2025.// https://president.az/az/articles/view/68323

603. Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib Budapeşt şəhəri, 21 may 2025-ci il. s.114// https://files.preslib.az/projects/xs/fes2/2025.pdf

604. Beynəlxalq reaksiyalar. Azərbaycan// https://azerbaijan.az/related-information/307

605. "Bu, bizim növbəti siyasi qələbəmizdir"-İlham Əliyev. 25 Oktyabr 2020. //https://yenisabah.az/bu-bizim-novbeti-siyasi-qelebemizdir-ilham-eliyev

606. Brüsseldə Azərbaycan, Aİ Şurası və Ermənistan liderləri arasında görüş başa çatıb.https://report.az/xarici-siyaset/brusselde-azerbaycan-ai-surasi-ve-ermenistan-liderleri-arasinda-gorus-baslayib/

607. Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimi keçirilib Prezident İlham Əliyev tədbirdə çıxış edib. Bakı şəhəri, 2026, 18 may// https://files.preslib.az/projects/xs/fes2/2026.pdf

608. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti keçirilib Prezident İlham Əliyev tədbirdə iştirak edib Bakı şəhəri, 13 noyabr 2024-cü il//https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

609. Dövlət başçısı: "Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək". 09 Noyabr 2020// https://ordu.az/ru/news/176947

610. Davos İqtisadi Forumu: uğurlar, vəzifələr və perspektivlər/ http://www.azerbaijan-news.az/view-161675/Davos-% C4% B0qtisadi-Forumu:-u%C4%9Furlar-v%C9%99zif%C9% 99l%C9%99r-v%C9%99-perspektivl%C9%99r

611. Davos İqtisadi Forumu və Azərbaycan/ http://sesqazeti.az /news/analytics/342144.html

612. Dünya İqtisadi Forumu: Azərbaycan ən etibarlı tərəfdaş kimi/ https://525.az/site/?name=xeber&news_id=114025

613. Dinlərin tarixi/http://www.azerbaijan.az/portal/ General /Religion/traditionReligion_01_a.html

614. Dövlət Sərhəd Xidməti. "Dövlət Sərhəd Xidmətinin Məlumatı". www.dsx.gov.az (az.). 2022-08-04. 2023-08-30 tarixində arxivləşdirilib.

615. Europa League return is a step on the road to recovery but a trip into the unknown for Rangers

616. Ermənistanın Gəncəyə atdığı "SKAD" raketi – Əsl məqsəd nə olub?//https://polise.az/erm%c9%99nistaning%c9%99nc%c9%99y%c9%99-atdigi-skad-raketi-%c9%99slm%c9%99qs%c9%99d-n%c9%99-olu

617. Ermənistan ordusunun mülki əhalini atəşə tutması nəticəsində 7 ailə məhv olub.30 Oktyabr,15:45 //http://www.aztv.az/az/news/10085/ermenis tan-ordusunun-mulki-ehalini-atese-tutmasi-neticesinde-7-aile-mehv-olub

618. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlər nəticəsində həlak olanların sayı 100-ə çatıb. 03 Yanvar 2021// http://www.azerbaijan-news.az/view-206350/ermenistan-silahli-quvvelerinin-azerbaycanin-mulki-ehalisine-qarsi-toretdiyi-cinayetler-neticesinde-helak-olanlarin-sayi-100-e

619. Ermənilər tərəfindən təbiətin vəhşicəsinə talan edilməsinə son qoyulması üçün Azərbaycanın haqlı tələbi beynəlxalq təşkilatların diqqətinə çatdırılıb. ETSN, 2020 (16 noyabr): //http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11639

620. Ekoloji terror. s. 2// https://files.preslib.az/projects/azere-co/az/eco_m2_8.pdf

621. Enerji layihələri "AZƏRBAYCAN" - Bakı - President.az//https://president.az/az/pages/view/azerbaijan/contract

622. Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilib Prezident İlham Əliyevə mükafat təqdim olunub. 4 fevral 2026-cı il// https://files.preslib.az/projects/xs/fes2/2026.pdf

623. "Füzuli şəhərinə yola salınmış ilk köç mənzil başına çatıb – YENİLƏNİB-1 – FOTO – VİDEO". apa.az. 18 avqust 2023. 2023-08-26 tarixində arxivləşdirilib. https://apa.az/az/social/fuzuli-seherine-ilk-koc-baslayib-781644

624. Gənclər və İdman Nazirliyi. "Paris - 2024, XXXIII Yay Olimpiya Oyunlarında Azərbaycan Milli Olimpiya

Komandasının Proqramı (26.07.2024 - 11.08.2024)". www.mys.gov.az (az.)

625. Heydər Əliyev aqrar islahatları sosial-iqtisadi inkişafımızın strateji istiqamətlərindəndir. http:/ /www.yap.org.az/az/view/ interview/10/heyder-eliyev aqrar-islahatlari-sosial-iqtisadi-inkishafimizin-strateji istiqametlerindendir

626. Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikasının Fərmanı. "Azərbaycan" qəzeti, 29 sentyabr 2020-ci il// http: //www.azerbaijan-news.az/uploads/1601325086.pdf

627. Hüquqi dövlət və beynəlxalq hüquq: Cenevrə konvensiyaları// http://www.anl.az/down/meqale/ses/2011/noyabr/213112.htm

628. Hikmət Hacıyev Ermənistanın BMT konvensiyasını pozduğunu açıqlayıb// http://www.azerbaijan-news.az/view-203340/hikmet-haciyev-ermenistanin-bmt-konvensiyasin

629. Hoeffler, Anke; Ijaz, Syeda Shahbano; von Billerbeck, Sarah. 2011. Post-Conflict Recovery and Peacebuilding. Washington, DC: World Bank./ / World Bank. https://openknowledge.wolrdbank.org/handle/10986/9184 License:CC BY 3.0 IGO

630. Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib. 04 iyul 2025.// https://president.az/az/articles/view/69314

631. İkitərəfli münasibətlər/ http://moscow.mfa.gov.az/az/content/3

632. İlham Əliyev Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimdə iştirak edib. 30 noyabr 2019, 16:50// https://president.az/az/articles/view/35054/print

633. İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib. 24 sentyabr 2020.// https: //president.az/articles/40937
634. İlham Əliyev xalqa müraciət edib. 01 dekabr 2020// https://president.az/ articles/48205
635. İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib 27.01.2021.//https://president.az/articles/50399
636. İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsi. 25 oktyabr 2020, 10:00. https://president.az/articles/44279
637. İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak ediblər. 25 sentyabr 2023, 16:25// https://president.az/az/articles/view/61245
638. İlham Əliyev Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib/ 20 sentyabr 2024, 09:25// https://president.az/az/articles/view/6688
639. İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edib. 02 iyun 2025// https://president.az/az/articles/view/69073/print
640. Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib.*07 o*ktyabr 2025//https://president.az/az/articles/view/70283
641. İlham Əliyev Türküstanda TDT-nin qeyri-rəsmi Zirvə görüşündə iştirak edib. 15 may 2026//https://president.az/az/articles/view/72386
642. 624e. İlham Əliyevin sosial şəbəkə hesablarında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü

Sessiyasının (WUF13) başa çatması ilə bağlı paylaşım edilib. 23 may 2026// https://president.az/az/articles/view/72401

643. İkinci Qarabağ Müharibəsi 44 Günlük Zəfərin Xrokası. 3359 səh. s. 1081//https://files.preslib.az/site/qarabag/xronika_az.pdf

644. İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan. http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf

645. İşğaldan azad olunmuş ərazilərə ekoloji baxış. 2021,mart://http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf

646. İşğaldan azad olunmuş ərazilərdə quruculuq işləri məmnunluq doğurur// https://www.azerbaijan-news.az/az/posts/detail/isgaldan-azad-olunmus-erazilerde-quruculuq-isleri-memnunluq-dogurur-1666731249

647. "In the newspaper "Azerbaijan Teacher" a page is devoted to QS University rankings". www.khazar.org.

648. Jafarov, Kamal. "Azerbaijan's one-stop public service shop is driving up efficiency". www.theguardian.com.

649. "Konstitusiyaya dəyişiklik edilir, prezidentlik üçün yaş limiti ləğv olunur". //www.azadliq.org.

650. Kəlbəcərin azad olunmasının böyük əhəmiyyəti. 2020. 25 noyabr:// https://publika.az/az/news/tehlil/336950

651. Kazanda XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclası keçirilib Prezident İlham Əliyev tədbirdə iştirak edib Kazan şəhəri, 24 oktyabr 2024-cü il//https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

652. "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb. Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış edib. Bakı şəhəri, 12 mart 2026-cı il// https://files.preslib.az/projects/xs/fes2/2026.pdf

653. Qara şənbə. https://az.wikipedia.org/wiki/ Qa-ra_%C5%9F% C9%99nb%C9%99.

654. Qafqazda davamlı sülhə doğru//https://www.azerbaijan-news.az/az/posts/detail/qafqazda-davamli-sulhe-dogru-1714604026

655. Qoşulmama Hərəkatı, Azərbaycanın milli maraqları və antimilli müxalifətin bəsit təfəkkürü. 26 Oktyabr, 13:04// https://aztv.az/az/news/2427/qosulmama-herekati-azer-baycanin-milli-maraqlari-ve-antimilli-muxalifetin-besit-tefekkuru

656. Qoşulmama Hərəkatı (QH)// https://www.mfa.gov.az/az/category/beynelxalq-teskilat-lar/qosulmama-herekati-qh

657. Qafqazinfo.az xəbər portalı. "Antiterror tədbirləri zamanı 192 hərbçimiz şəhid olub". www.qafqazinfo.az (az.). 2023-09-2

658. Qardaşlıq zirvəsində yeni əməkdaşlıq. 09:12 27.09.2023.// https://xalqqazeti.az/az/siyaset/141178-qardasliq-zirvesin-de-yeni-emekdasliq

659. Hədəfə doğru növbəti addım: Kremlin dəyişən baxışı – TƏHLİL// https://oxu.az/siyaset/hedefe-dogru-novbeti-addim-kremlin-deyisen-baxisi-tehlil-foto

660. "Lavash enters UNESCO Representative List of Intangib-le Cultural Heritage Zoom". en.apa.az.

661. "Laçına ilk köç başladı – VİDEO – FOTOLAR" (az.). fed.az. 27 may 2023. 2023-06-03 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2023-05-26.

662. "Laçının Zabux kəndinə ilk köç yola salınıb – YENİLƏNİB – FOTO". apa.az. 25 avqust 2023. 2023-08-26 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2023-08-07. https://apa.az/az/sosial/lacinin-zabux-kendine-ilk-koc-yola-salinib-yenilenib-foto-782517

663. Müstəqil Dövlətlər Birliyi (MDB)/ http://mfa.gov.az /content/947

664. "Məşğulluq marafonu" çərçivəsində 1178 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub. 26-11-2021 15:45:49. //https://www.sosial.gov.az/post_500643

665. "Məşğulluq marafonu" üzrə 2500-ə yaxın şəhid ailəsi üzvü və qazi işlə təmin olunub. 2022-07-15// https://dma.gov.az/media/xeberler/2500-e-yaxin-sehid-ailesi-uzvu-ve-qazi-isle-temin-olunub

666. Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin tarixi-siyasi əhəmiyyəti və regional təhlükəsizlik. 12.02.2022 //https://azertag.az/xeber/Muttefiqlik_munasibetleri_haqqinda_ Susa_Beyannamesinin_tarixi_siyasi_ehemiyyeti_ve_regional_tehlukesizlik-2011490

667. Modern.az İnformasiya Agentliyi. "Xocalı görüşündə nələrdən danışıldı... - Razılıq əldə olunub". www.modern.az (az.). 2023-09-22.

668. Moskvada Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Zirvə görüşü olub. 25 may 2023, 23:20. https://president.az/az/articles/view/59941

669. Nəsirov E. Müzəffər Prezident. 23 Dekabr 2020. //http:// www.yap.org.az /az/view/news/48419/muzeffer-prezident

670. No:508/22, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Vaşinqtonda keçirilmiş görüşə dair mətbuat məlumatı https://mfa.gov.az/az/news/no50822

671. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 07 dekabr 2023, 12:00// https://president.az/az/articles/view/62417//

672. "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti Seçkiləri (7 fevral 2024-cü il) Səsvermənin Nəticələri Haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu"//https://msk.gov.az/uploads/Prezident2024/MSK_protokol-2024.pdf

673. Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciət edib. 2020-10-05// http://www.goranboy-ih.gov.az/ news/1121.html

674. Ordumuz xalqımızın qürur, dövlətimizin güvənc mənbəyidir. 22 sentyabr 2020 18:13// https://ikisahil.az/post/ordumuz-xalqimizin-qurur-dovletimizin-guvenc-menbeyidir

675. Prezidenti İlham Əliyev. "Azərbaycanın 2017-ci il üçün iqtisadi prioritetləri". 13 yanvar 2017.

676. President.az amestown.org, "Will the Baku–Tbilisi–Kars Railway Become Uzbekistan's New Connection to Europe?", 16 October 2017

677. Prezident İlham Əliyev: Multikulturalizm Azərbaycanda həyat tərzidir//https://azertag.az/ xeber/ Prezident_Ilham_Aliyev_Multikulturalizm_Azerbaycanda_heyat_terzidir-918878

678. Prezident İlham Əliyev: "Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var"// https://apa.az/az/dag-

liq_qarabag/Prezident-Ilham-liyev-Ermnistan-terror-dovl-tidir-bu-terrorun-bir-cox-lamtlri-var-616757

679. Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib Bakı şəhəri, 6 iyun 2024-cü il//https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

680. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar. 17.08.2021 [11:02]. //https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Kelbecer_ve_Lachin_rayonlarinda_olublar___YENILANIB_2_VIDEO-1854117

681. Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşüb.// https://fulltext.preslib.az/icixislar/IVzjlROMvy.html

682. Putin İlham Əliyevdən üzr istədi. 28.12.2024 | 16:37 // https://qafqazinfo.az/news/detail/putin-uzr-istedi-457536

683. "Peşə məktəbləri və liseyləri üzrə əsas göstəricilər". edu.gov.az

684. Prezidentin Xankəndidəki çıxışının TAM MƏTNİ. Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib. https://musavat.com/mobile/news/prezidentin-xankendideki-cixisinin-tam-metni_1020240.html

685. Prezident İspaniyadakı danışıqlardan imtina etdi. Azərbaycan İspaniyanın Qranada şəhərində oktyabrın 5-nə planlaşdırılan beştərəfli görüşdən imtina edib.https://qafqazinfo.az/news/detail/prezident-ispaniyadaki-danisiqlardan-imtina-etdi-414288

686. Prezident İlham Əliyev Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda

panel iclasında iştirak edib.// https://fulltext.preslib.az/icixislar/xIEH0joLwR.html

687. Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində iştirak edib. 2026, 1 iyun//https://files.preslib.az/projects/xs/fes2/2026.pdf

688. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib. 2026, 13 iyul// https://files.preslib.az/projects/xs/fes2/2026.pdf

689. "Religion in Azerbaijan". berkleycenter. georgetown. edu.

690. "Religious demographics". www.state.gov. www.state.gov. 11 iyun 2017

691. Socor, Vladimir (2012-04-04). "Interest Growing All-Round in Trans-Anatolia Pipeline Project". Eurasia Daily Monitor (Jamestown Foundation) 9 (70).

692. Səhiyyə islahatları// azerbaijans.com/ content_1035_ az.html

693. Səhiyyənin inkişafı// azerbaijans.com/ content_855_ az.html

694. Şəki UNESCO-nun İrs Siyahısında. https://www.realtv.az /news/az/21614/sheki-unesco-nun-irs-siyahisinda

695. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL. 16 iyun 2021.//https://ona.az/az/turizm/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-29117

696. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan Respublikasının müstəqillik tarixində ən önəmli hadisələrdən biridir. 14 iyul 2021// https://mod.gov.az/az/pre/36788.html

697. Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib Şuşa şəhəri, 6 iyul 2024-cü il//https://files.preslib.az/projects/xs/fes2/2024.pdf

698. Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. 11 may 2024, 12:05//https://president.az/az/articles/view/65812

699. III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib. 19 iyul 2025// https://president.az/az/articles/view/69421

700. Şəhid ailələri və qazilər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub. 04.05.2022 [11:37]. // https://azertag.az/xeber/Sehid_aileleri_ve_qaziler_dovletin_herterefli_qaygisi_ile_ehate_olunub-2120213

701. Şəhid ailələri və qazilərə qayğı dövlət siyasətinin əsas prioritetidir TƏHLİL. 2022-ci il 26 Yanvar 13:24.// https://sia.az/az/news/politics/926093.html

702. Təhsil Nazirliyi tərəfindən 2014-cü il ərzində həyata keçirilmiş islahatlar, tədbirlər və yeniliklər. https://ru-ru.facebook.com/tehsil.gov.az/posts/375606709267893:0

703. Tarixi gün: Xankəndidə "Qarabağ"-MOİK oyunu. Prezident İlham Əliyev Xankəndi stadionunda çıxış edib. 21.12.2023 [16:22]// https://azertag.az/xeber/tarixi_gun_xankendide_qarabag_moik_oyunu__prezident_ilham_eliyev_xankendi_stadionunda_chixis_edib__yenilenib_5-2859202

704. "Talış kəndinə ilk köç (FOTO)" (az.). Trend. 16 mart 2023. 2023-05-28 tarixində arxivləşdirilib. https://az.trend.az/azerbaijan/gundem/3723897.html

705. TANAP ilə nəql edilən Azərbaycan qazının həcmi açıqlanıb. 6 Yanvar, 2025 11:43 //https://report.az/energetika/tanap-ile-neql-edilen-azerbaycan-qazinin-hecmi-aciqlanib/

706. Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb. 21 may 2025//https://president.az/az/articles/view/68872/print
707. Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib. 19 iyun 2025// https://files.preslib.az/projects/xs/fes2/2025.pdf
708. UNESCO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası 2019-cu ildə Bakıda təşkil olunacaq/ https://az.trend.az/azerbaijan /culture /2994257.html.
709. UNDP, 2008. Crisis Prevention And Recovery Report 2008. Post-Conflict Economic Recovery Enabling Local Ingenuity, New York, 2008
710. Ursula fon der Leyen Bakıda: Avropa Azərbaycanı "etibarlı tərəfdaş hesab edir". 18 Iyul 2022// https://www.bbc.com/azeri/azerbaijan-61979520
711. "Ümumtəhsil məktəbləri üzrə əsas göstəricilər". edu.gov.az.
712. Vüqar Bayramov: "Ölkədə kəskin devalvasiya getdi" http://simsar.az/news/a-66165.html
713. Vandallardan geri alınan yaralı təbiət. 2020.28 noyabr:// https://kaspi.az/az/vandallardan-geri-alinan-yarali-tebiet
714. Yetirmişli Q. "Metsamor" Atom Elektrik Stansiyası regionun ən böyük real təhlükə mənbəyidir. 2021.29.04.://https://science.gov.az/en/news/open/16795
715. 2010-2019 Polis Akademiyası rəsmi internet saytı https://www.pa.edu.az/?/az/menu/52/
716. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı". www.president.az.
717. "2016-cı il Azərbaycanın turizm sektorunda mühüm yeniliklər və islahatlarla yadda qalacaq". azertag.az.

718. "2016-cı il Azərbaycanın turizm sektorunda mühüm yeniliklər və islahatlarla yadda qalacaq". azertag.az.

719. 2018-ci ildə Azərbaycan iqtisadiyyatı artımı bərpa edəcək. http://fins.az/budce/926049/2018-ci-ilde-azerbaycan-iqtisadiyyati - artimi-berpa-edecek.html

720. 2018-ci ildə Azərbaycan iqtisadiyyatı artımı bərpa edəcək. http://fins.az/budce/926049/2018-ci-ilde-azerbaycan-iqtisadiyyati-artimi-berpa-edecek.html.

721. 2018-ci ildə Ümumi Daxili Məhsul istehsalı. 22.01.2019,12:31//https://www.stat.gov.az/news/index.php?id=4105

722. 2021-ci ildə Ümumi Daxili Məhsul istehsalı. 14.01.2022, 12:00// https://www.stat.gov.az/news/index.php?id=5100

723. 2022-ci ilin yanvar ayında Ümumi Daxili Məhsul istehsalı. 14.02.2022, 12:00// https://www.stat.gov.az/news/index.php?id=5133

724. 2024-cü ildə Ümumi Daxili Məhsul istehsalı// https://stat.gov.az/news/index.php?lang=az&id=6145

725. "3+3" formatı regional inkişaf üçün əlverişli zəmin yaradacaq. 22 İyun 2021 00:50. //https://xalqqazeti.com/az/news/78838

İradə Tofiq qızı Nuriyeva

AZƏRBAYCAN

TARİXİ

(ən qədim dövrlərdən zəmanəmizədək)

Texniki Ali məktəblər üçün dərslik

835

“Elm və təhsil” nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədli
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 07.09.2026
Şərti çap vərəqi 52,25. Sifariş № 102
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail:nurlan1959@gmail.com
Tel:497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4